**RAUF CƏFƏRZADƏ**

# MƏHƏMMƏD PEYĞƏMBƏRİN

(s.ə.s.)

# HƏYATI

(Mustafa Zəririn "Siyərün-Nəbi" əsəri əsasında)

# I CİLD

**"Elm və təhsil"**
**Bakı – 2024**

**Baş redaktor:** **fil.e.d., prof. Nadir Məmmədli**

**Elmi redaktor və**
**ərəb əlyazmasından mətni**
**latın qrafikasına çevirən:** **fil.ü.f.d.,dos. Vahidə Cəfərzadə**

**Rəyçilər:** **fil.ü.f.d.,dos. Reyhan Mədətova**
**fil.ü.f.d.,dos. Teyyub Quliyev**
**ilahiyyatçı Hacı Həsən Rüstəmov**

**Kompüter dizaynı:** **Azərin Toğrulqızı**

**Rauf Cəfərzadə. Məhəmməd Peyğəmbərin (s.ə.s.) həyatı** (Mustafa Zəririn Kitabi- Syərin-Nəbi əsəri əsasında), I cild.
Bakı, "Elm və təhsil", 2024, 568 səh.

Kitabi-Siyərün-Nəbi.Məhəmməd Peyğəmbərin (s.ə.s.) həyatı. Kitab Peyğəmbərimiz Məhəmməd Mustafanın (s.ə.s.) vəfatından sonra yazılmış ilk tarixi mənbələr əsasında işlənilmiş, sadələşdirilmiş, bədiiləşdirilmiş bir əsərdir. Əsərdə hadisələr Adəm peyğəmbərdən başalayaraq axırzaman peyğəmbəri, Ulu Tanrının Həbibi Hz. Məhəmmədin (s.ə.s.) vəfatına kimi dövrü əhatə edir. Bütpətəst ərəb qəbilələrinin ilk dövrdə Allahın Rəsuluna (s.ə.s.) və müsəlmanlara verdikləri əzab-əziyyət əks olunmuşdur. İslam dinini yaymaq yolunda Məhəmməd Peyğəmbərin(s.ə.s) və səhabələrinin apardıqları mübarizələr verilmişdir. I cilddə, Adəm peyğəmbərdən qüreyşlilərin Həbəş hökmdarı Necaşiyə müsəlman mühacirlərin geri qaytarılması üçün müraciətinə kimi dövr qələmə alınmışdır. II cild Necaşiyə müraciətdən Uhud savaşının sonuna kimi olan vaxtı və baş verən hadisələr haqqındadır. III cild Uhud döyüşünün sonundan Hz. Məhəmmədin (s.ə.s.) vəfatına kimi olan dövru əhatə edir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-581-42-3** **© Rauf Cəfərzadə, 2024**

## **PEYĞƏMBƏRİN** (s.ə.s.) **PAK HƏYATININ GÖZƏL ƏTRİ**

"Siyərün-Nəbi" (ərəbcəsi Sira ən-Nəbəviyyə) islam ədəbiyyatında Məhəmməd peyğəmbərin (s.ə.s.) tərcümeyi-halına verilən ənənəvi addır. Bu adı ilk dəfə ibn Sihab əz-Zuhr işlətmiş, Məhəmməd ibn İshaq yazmış və ibn Hişam tərəfindən dili sadələşdirilərək dünyada məşhur olmuşdur. Mustafa Zəririnin tərcümə etdiyi eyniadlı bu əsərin qiyməti ondadır ki, Məhəmməd peyğəmbər (s.ə.s.) haqqında sağlığından öncə və ali məqama yüksəlməsi, ömrünün sonunadək, ölümündən çox-çox sonralar hədis, hekayə və rəvayətlər əsasında yazılmış, tarixi məlumatlarla zəngin XIV əsr ***azərbaycandilli*** abidədir. Mədəniyyətimizin tarixi bir parçası olan əsər bioqrafik-əqli yaradıcılıq mətnlərindən ibarətdir. Mustafa Zəriri bu əsəri detallı və səhih rəvayətlərə əsaslanaraq, əvvəlki məlumatları zəka süzgəcindən keçirmiş, islamın siyarla güclənən ənənəsini sistemli şəkildə ədəbiyyata gətirmişdir. Danışıq və sükutu, sevinc və kədəri, ədəb-ərkanı, gözəl xüsusiyyətləri ilə səhabələrə nümunə olan Hz. Məhəmmədin (s.ə.s.) əxlaqı və davranışı barədə mənbələrdə minlərlə hədis vardır. Səhabələr onu təqlid edir, davranışlarını nümunə kimi bir-birinə ötürürdülər. Peyğəmbərin (s.ə.s.) əxlaqı elə Quran-Kərimdə yazılan müsəlman qanun-qaydaları idi, davranışlarını ətrafdakılara da aşılayırdı. Bu əsər Hz. Peyğəmbərin (s.ə.s.) həyatı haqqında yazılmış və tam olaraq günümüzə çatmış ən qədim kitablardan biridir.

Mustafa Zəririnin tərcüməsində Quran-Kərimdə toxunulmayan və Hz. Peyğəmbərlə (s.ə.s.) əlaqəsi olmayan mövzulara, nəzakətə zidd ifadələrə və etibarlı saymadığı hədis və rəvayətlərə yer verilməmişdir. Əsərinə daxil etdiyi bəzi şeirlərin dilini və vəznini düzəltmiş, bəzən isə yeni şeirlər əlavə etmişdir. Burada yer alan ayə, hədis və şeirlərdəki tanış olmayan sözləri açıqlayarkən ibn Hişam, əbu Übeydə Mamər ibn Müsənna, Yunus ibn Həbib, Əbu Mühriz Xələf

əl-Əhmər, Əbu Zeyd əl-Ənsari və Həsən əl-Bəsri kimi mötəbər islam alimlərindən məlumatlar vermişdir ki, bu da onun ərəb dili və ədəbiyyatına dərindən bələd olduğunu göstərir.

Oxuculara təqdim edilən bu əsər çox uzun illərin dəyərli yadigarı kimi bizə gəlib çatmış, təqribən 550 il əvvəl yazılmışdır. XIV əsrdə Ərzurumlu Mustafa Zərir tərəfindən qələmə alınmış altı cildlik "Siyərün-Nəbi" (Məhəmməd peyğəmbərin (s.ə.s.) həyatı) əlyazması Azərbaycan oxucusuna təqdim edilmiş ilk variantıdır. Mustafa Zəririn bu əsəri VIII-X əsrdə Məhəmməd peyğəmbərin (s.ə.s.) həyatından dünya alimləri tərəfindən yüksək qiymətləmdirilmiş tarix kitabları əsasında hazırlamışdır və bu barədə özü də əlyazmalarında qeydlər etmişdir.

Bugünki oxucu üçün XIV əsrdə ərəb əlifbası ilə yazılmış bu kitabın dilinin anlaşılması çox çətindir. Peyğəmbərimizin (s.ə.s.) həyatını faktlarla, rəvan, qısaldılmış, izahlı şəkildə yazılmasına çox böyük ehtiyac vardı. Siyərlərin sayı artdıqca etibarlılıq azala bilir. Bu mənada əsər Peyğəmbərin (s.ə.s) həyatını hədislərdən öyrənənlərə səhih mənbələrdən biri, bəlkə də ən qiymətlisidir. Professor Rauf Cəfərzadə dil tarixi mütəxəssislərinin, tanınmış alimlərlərimizin yaxından köməyi ilə müasir dilimizə uyğunlaşdırdığı bu üç cild kitabı oxuculara təqdim edir. O, faktları qısaltmaq və haşiyələrlə yaddaşları bir daha təzələyir, islamın əsas qayda-qanunlarını, fəzilətlərini, peyğəmbərin (s.ə.s.) əxlaqı ilə möhkəmləndirməyə çalışır. Əsərdəki fakt və məlumatlar insanlığın iftixarı, yaradılmışlar arasında tayı-bərabəri olmayan, Allahın Həbibi Məhəmməd peyğəmbərin (s.ə.s.) anadan olduğu dövrdən əvvəl, Adəm peyğəmbərdən başlamışdır. Kitabda Məhəmməd peyğəmbərin (s.ə.s) anadan olması, uşaqlıq dövrü, gənclik illərindən, Hz. Xədicə xatunla evlənməsindən, ilk peyğəmbərlk nişanələrinin görünməsindən, on ildən artıq müşriklər arasında yaşadığı zamanın əzab-əziyyətlərindən, islam dininin yayılması uğrunda dönmədən apardığı mübarizələrdən, din yolunda canını fəda etmiş şəhidlərin şərəfli həyatlarından bəhs edilmişdir. Allahın Rəsuluna (s.ə.s.) öz qəbiləsinin başçısı, babası Əbdülmüttəli-

bin, əmisi Əbu Talibin, süd qardaşı və əmisi Hz.Həmzənin, Hz. Əli ibn Əbu Talibin, dostu, sirdaşı Hz. Əbu Bəkrin, xanımı Hz. Xədicənin qayğısı yazılarda yer almışdır. Doğma əmisi Əbu Ləhəbin, gənc yaşlarından daim düşmənçilik etmiş Əbu Cəhlin, Məkkənin fəthi zamanı islamı qəbul etmiş Əbu Süfyan kimi insanların hər vaxt məkrli əməlləri, fitnə-fəsadlar törətdiyi, onlarla mübarizə apardığı, dinə dəvət etdiyi və vuruşduğu dövr haqqında məlumatları bir neçə başqa tarixi əsərlərdən də istifadə edərək müəllif sadələşdirmiş və qələmə almışdır. İnsan əlləri ilə yonulmuş taxta, daş və ya yerdən pöhrə verən ağacı  ilahi hesab edərək, onlara sitayiş edən insanların tək Allaha dönmələrini təbliğ edənləri, xüsusilə Hz. Məhəmmədə (s.ə.s.) qarşı etdikləri haqsızlıqları, illər boyu verilmiş əzab-əziyyəti bir kitaba sığışdırmaq təbii ki, mümkün deyil. Quran-Kərimin müqəddəs kəlamlarını, islam fəlsəfəsi və dünyagörüşünu anlamaq istəməyən müşriklər öz vəhşi adət-ənənələrini son nəfəslərinədək qoruyub saxlamağa çalışmışlar. Yeni doğulmuş qız körpələrinin diri-diri basdırılması, kölə və qulların Günəşin altında qızmar qumun üzərinə uzadıb, sinəsinə daş qoyub ölənəcən saxlanılması kimi qeyri-insani hərəkətlər verilən işgəncələrdən kiçik bir nümunədir.

"Siyərün-Nəbi"nin sadələşdirilmiş şəkildə oxuculara çatdırmaq üçün böyük zəhmət çəkmiş, qiymətli və etibarlı tarixi əsər üzərində uzun müddət çalışmış, əziyyətlərə qatlaşmış və haqqını halal etmiş professor Rauf Cəfərzadə bu 3 cildlik nəşrlə bir daha peyğəmbərimizin (s.ə.s.) pak həyatının gözəl ətrini bizlərə çatdırır!

**Nadir Məmmədli**,
*AMEA Nəsimi adına Dilçulik İnstitutunun direktoru,*
*filologiya elmləri doktoru, professor*

## MÜƏLLİFDƏN "SİYƏRÜN-NƏBİ"NİN YAZARLARI HAQQINDA

Əziz oxucum, bu məsuliyyətli işə başlamazdan öncə araşdırma apararkən şahidi olduq ki, hər dövrdə yazılan tarixlərdə hakim qüvvələrin təsiri aydın hiss olunurdu. Hər tarix yazan insanın subyektiv fikirləri də mətnlərin obyektivliyinə xələl gətirir. Kitabın əhatə etdiyi dövr İslam daxilində təriqətlərin olmadığı, amma Hz. Məhəmmədin (s.ə.s.) vəfatından sonra yaxınlarının hər birinin öz tərəfdarlarının olması, bəzi fikir ayrılıqlarının yaranması diqqəti cəlb edir. Sizin diqqətinizə çatdırdığım "Peyğəmbərin həyatı" kitabı ancaq Adəm peyqəmbərdən Hz. Məhəmmədin (s.ə.s.) yaşadığı dövrü əhatə edir, orada olan hadisələri təsvir edir. Bu ayrı-ayrı mənbələrdən toplanmış və sadələşdirilmiş bir yazıdır. Ərəb dilində peyğəmbərin həyatı haqqında VIII əsrdə ən müfəssəl kitab yazan iki ərəb alimi Məhəmməd ibn İshaq ibn Yasər bin Xəyyar (707-ci il Mədinədə anadan olmuş, h.t. 85, 768-ci il Bağdadda (il tam dəqiq deyil) vəfat etmişdir) və Əbül-Həsən Əhməd bin Abdullah bin Məhəmməd əl-Bəkri əl-Vaiz əl-Bəsri (doğum tarixi və vəfatı haqqında dəqiq məlumat yoxdur) olmuşdur. İbn İshaqın bu tarixi əsəri ən etibarlı mənbələrdən sayılır və Abbasilər sülaləsi dövründə xəlifə Mənsurun istəyi və tapşırığı ilə yazılmışdır. Kitab Adəm peyğəmbərdən başlayaraq ta axırzaman peyğəmbəri Məhəmmədin (s.ə.s.) yaşadığı dövru əhatə edir. Amma xəlifə kitabın həcminin çox böyük olduğunu söyləmiş və qısaltmağı təklif etmişdir. 50-60 il sonra dövrünün böyük dilçi alimi Əbu Məhəmməd Əbdülməlik bin Hişam Əyyub əl-Himyəri əl-Məafiri əl-Bəsri (vəfatı 834-ci il) isə bu kitab üzərində çalışaraq əsərin dilini xeyli sadələşdirmişdir. Sonralar bu nadir inci bir çox dillərdə İbn Hişamın əsəri kimi təqdim edilsə də, əsl müəllifi ibn İshaq olmuşdur. Bəli, onlar İslamın ilk dövr tarixçilərindən idilər. Hər ikisinin yazdığı kitablar İslam tarixi üçün çox dəyərli olmasına baxmayaraq, İbn İshaqın əsərinin dilində çətin anlaşılan kəlmələr üstünlük təşkil edir. İbn Hişamın üzərində çalışdığı bu əsərdə isə Quran ayələrinə, onların nazil olması səbəblərinin izahına çox yer verilmişdir. Din tarixi üçün çox qiymətli olsa da, dili kifayət qədər qəlizdir. Amma Əbül-Həsən Əhməd bin Abdullah bin Məhəmməd əl-Bəkri əl-Vaiz əl-Bəsrinin yazdığı "Siyərün-Nəbi"nin dili isə nisbətən daha sadə və anlaşılandır. Sonralar bu əsəri türkcəyə çevirən Mustafa ibn Yusif ibn Ömər əl-Zərir əl-Ərzənür-Rumi də dövrünün böyük din bilicisi Şeyx Əkmələddin əl-Bəbərti-lə məsləhətləşmiş, o da İbn Hişamın əsərinin çox samballı olduğunu söyləmiş, oxucular üçün daha sadə Əbül-Həsən Əhməd bin Abdullah bin Mə-

həmməd əl-Bəkri əl-Vaiz əl-Bəsrinin əsərini tərcümə etməyi məsləhət görmüşdür. Ərzurumlu Mustafa Zərir bu əsəri yazmamışdan əvvəl bir çox kitablar üzərində araşdırmalar aparmış, orada olan bilgiləri öz süzgəcindən keçirmişdir. Sonunda Əbül Həsən əl-Bəkrinin "Siyərün Nəbi" əsərini əsas götürsə də, bir çox başqa mənbələrdən istifadə edərək yazmış, mən səhv etmədim, yenidən yazmış, çoxsaylı şeirlərini əlavə edərək bədiiləşdirmişdir. Amma ibn İshaq və ibn Hişamın kitablarından xeyli istifadə etdiyini Mustafa Zərir əsərin birinci cildinin əvvəlində, ikinci cildin əlyazmasının 262-ci səhifəsində özü qeyd etmiş, bir çox təqiqatçılar da bunu təsdiqləmişlər. Əsəri 1388-ci ildə (m.t.) Misir hökmdarı Əbu Səid Bərkükə təqdim etmişdir. Hər iki kitabın mənbəyi peyğəmbərimiz Məhəmməd (s.ə.s.) dövründə yaşamış ata-babalardan, ululardan, səhabələr və onların övladlarından eşidilmiş rəvayətlər olmuşdur. Bəzən müqayisə üçün eyni məsələyə aid onlar haqqında söylənilmiş bir-iki rəvayət də verilmişdir. Amma rəvayətlər onlarcadır, bəlkə daha da çoxdur. Bəzi hadisələr ayrı-ayrı insanların özlərinin eşitdikləri, anladıqları kimi təsvir edilmişdir. Ən düzünü ancaq Allahımız **bilir.** Bu yazının əsası Mustafa Zəririn Süleymaniyə kitabxanasında saxlanan I-V cild əlyazması və Topqapı sarayındakı VI cild olmuşdur. Bunlardan əlavə, bəzi hadisələri dəqiqləşdirməkdə İbn İshaq və İbn Hişamın əsərlərindən, Əbu Cəfər Məhəmməd ibn Cərurüt Təbərinin "Tarixi Təbəri" kitabından da istifadə etmişəm.

Əziz oxucum! Əlbəttə ki, ayrı-ayrı mənbələrdə olan məlumatları seçməyə çalışmışam. Mustafa Zəririn yazdığı "Siyərün-Nəbi"də çoxsaylı şeirlər vardır. Bu, hadisələr və insanlar haqqında öncə yazılmışların çox zaman nəzmlə təkrar verilməsidir. Təkrarlamanın qarşısını almaq məqsədi ilə bu seirlər və onların açıqlaması yazıya əlavə edilməmişdir. Quran ayə və surələrinin də bu kitabda verilməsi minimuma endirilmişdir. Dövrün yazılarında Ərəbistanda qəbilə-tayfa formasında yaşayış, adət və ənənələr, qohum-əqrəbanın sıx əlaqələri, böyük-kiçiyə hörmət, qonağa göstərilən sayğı, izzət də öz yerini tutmuşdur. Heyvandarlıq və xüsusilə ticarət əsas gəlir mənbəyi olmuşdur. Kişilərin aylarla Yəmən, Şam, İran və İraqa karvanlarla hərəkət etməsi, bu uzun yollarda olan basqın və xəstəliklərdən həyatlarını itirməsi bunları təsdiqləyir. Uzun müddət susuz çöllərdə, qızmar günəşin şüaları altında rəngi dəyişərək qızarmış qumluq səhralarda karvanla hərəkət edənlərin həyatını indiki dövrdə anlamaq, əlbəttə, çox çətindir. Ayrı-ayrı dillərdə, o cümlədən Azərbaycan dilində də çap olunmuş yazılarda insan, tayfa, qəbilə və yer adlarının yazılışında fərqlər diqqəti cəlb edir. Əlbəttə ki, bütünlüklə yazdıqlarımıza qiymət vermək sizin ixtiyarınızdadır.

***Prof. Rauf Cəfərzadə***

**Qısaltmalar:**
Cəllə cəlalühü (Onun əzəməti böyükdür) – (c.c)
Həzrət - hz.
Kərrəmallahu vəchəhu (Allah onun üzünü ağ eləsin) – k.v.
Miladi təqvim (İsa peyğəmbərin doğulması ilə milad təqvimi başlayır - (m.t.)
Radiallahu anhu (Allah ondan razı olsun) - (r.a.)
Səlləllahu əleyhi vəssəlləm (Ona və nəslinə Allahın salamı olsun)- (s.ə.s.)

**Təşəkkürlər**
Bu əsərin yazılmasında mənə yardım etmiş, məsləhətlər vermiş ailə üzvlərimə, qardaşım Turana, alimlərə, ilahiyyatçılara və dostlarıma öz minnətdarlığımı bildirirəm. Xüsusilə, həyat yoldaşım Cəfərzadə Vahidənin əlyazmalarından oxuduğunu və böyük zəhmət çəkdiyini qeyd etmək istəyirəm.

## SİYƏRÜN-NƏBİ

## BİSMİLLƏHİR-RAHMƏNİR-RAHİM
**(Rəhman və Rəhim olan Allahın adı ilə)**

Sənin adınla başlayıram bu yazını. Ey asudə vaxtlarında mütaliə edən insan, ey göz yaşları ilə "Siyərün-Nəbi" əsərini oxuyanlar. Ey insanlardan biri oxuyub, xeylisi bir araya gəlib dinləyənlər. Yenə oxuyun, dinləyin.

Allahım, saysız həmd və minlərcə şükürlər olsun Sənə. Ağıl və duyğuları bizə hədiyyə edənə, hər şeyi bilən və anladana. Elmi və bilgini bəxş edən Ulu Tanrıya ki, insanı şan-şöhrətli, əzəmətli, görülüb-eşidilməyən, misli-bərabəri, bənzəri olmayan O yaratdı. Təriflədi, bəyənib şərəfləndirdi. Yer və zamanı, maddi və mənəvi varlıq dünyasını, incə usta sənətkarlığı ilə yaratdı. Yoxluğun gizlinliklərindən görünən aləmə gətirdi. Təkliyinə əlamət və nişan, Birligini təsdiq və sübut etmək üçün.

Hər zaman sonsuz şükürlər edirik və minnətdarıq O Ulu Tanrıya ki, insanı ən yaxşı, əsilli və səxavətli yaratmışdır. Ona elm, bilik, xoş kəramət verdi, onun üstünlüyü bu kəramət və əlamətlərdə oldu. Bəziləri peyğəmbərliklə möhtəşəm və hörmət edilən insanlar oldu. Kimi isə səltənəti ilə yüksəldi. Hz. Adəmə adları öyrətdiyi zaman Həbibinin (Məhəmməd Mustafa s.ə.s) nuru Hz. Adəmdə peyda oldu. Dünyaya elə ki Hz. Adəm gəldi, mələklər ona səcdə etməkdən qaçmadılar. Allahın birliyinə dünyada yaşayan bütün canlılar və Hz. Adəmdən başlayan insan nəsli şahidlik etdi.

Görüləcək iş budur ki, təvazökarlıq, əməlisalehlik və kiçikliyi anlayaraq müraciət edib beləcə yalvarıram: "Ey Tanrımız, Seyyidimiz, Mövlamız! Əgər bütün yaratdıqlarının ağlı Ənqa quşları kimi böyük və uca bir yerə toplansa və hər birində də ağıl eyni dərəcədə olsa, yenə də sənin böyüklüyünə və sənə yaxın olan dağın başına onların ağıllarının ənqası uça bilməz, ağılları çatmaz. Əgər bütün gizli, açıq elmlər bilinmiş olsa, heç bir insan sənin simanın səhifəsindən bir hərfi belə oxuya bilməz. Çünki arif və alim olanlar belə onu bilməkdə, anlamaqda acizdirlər. Qulluq edənlər də çaşqın və heyrandırlar. Bəli, ey kainatın Sahibi, sənin bağışlamağın və mərhəmətin hörmətinə, ey kərim və rahim! Sənin ucalığın və böyüklüyün şərəfinə inancı zəif qullarını iki cahanın da bəyənilmişi və istəklisi qəbul et. Bütün insan və cin tayfasının yalvardığı, yardım və salamatlıq yolunun Sərdarı, kainat yaradılışının Şahı, yəni "sən olmasaydın, ey Məhəmməd, göyü, səmanı yaratmazdım" sözünün ağası, kainatın əvvəli, peyğəmbərlərin son və mükəmməli, xeyirli işlər yoluna səsləyici, peyğəmbərlik əbədiliyinin başlanğıcı, ri-

salət kitabının sona endiricisi, o seçilmiş nəbini, Həbibin Hz. Məhəmməd Mustafanı isbat edilmiş və namaz qılan qəbul et. Sənin əmr etdiyin qulları onun şəfaətinə layiq et. Çünki biz bir ovuc torpaqdan yaradılmış qullarıq. Əgər həqiqətdə inanaraq saf ürəklə onun şəriətinin ətəyindən tutsaq, Onun tapşırdığı və göstərdiyi yolda dura bilərik.

Ey özündən xəbərsiz olan! Sözümü dinlə! Sənə nə bildirirlərsə, həmən bil. Sənə "deyilənləri bil" deməzlər, sənə "dinini bil" deyirlər. Bu yolda o yana, bu yana qaçacaqsan, çatacağın yer hara olacaq? Onu bil ki, bu yolda azmaq olmaz! Madam ki Rəsula yaxın oldun, ey qafil, səni yaradan Tanrıya da yaxın olduğunu bil! Rəsul ki sənə düzgün yolu anlatdı, o yolla get!

Yaradanın işini, hər zərrəsinin ən mükəmməl bir dərəcəyə çatmasını və bir zəif kimsənin halını bilməkdə bütün ağıllar çaşqın və heyrandır. O halda məliklər və düşüncə sahibləri də acizdirlər. O ulu Tanrı ki bu varlıqları yoxluqdan yaradıb. O kərim xaqan ki bir ovuc torpaqdan Hz. Adəmi yaradıb mələkləri ona səcdə etdirdi, bir insan ağlı bunu necə bilsin, anlasın? Fani olan əbədi olanı, yəni yox olacaq olan, yox olmayacaq olanı necə təsəvvür etsin?

## *MƏHƏMMƏD (s.ə.s)*

O, Allah-təalanın yaratdıqlarının ən gözəlidir. O, yaradılan insan və başqa məxluqların ən üstünu, şərəflisi və məşhurudur. Varlıqların ən fəzilətlisi, yoldan azmışları yola gətirən, yolunu görməyənlərin gözü, yaradılmışların sevgilisi, yardımçısı, əlindən tutub qaldıranıdır. Dilək istəyəni diləyinə çatdıran, qaranlıqda qalanın nuru, qırıq könüllərin sevinci və bütün yaradılmışların sevgilisi, sevəni və istənilənidir.

Bələdçin və yolunda sübut-dəlilin Məhəmməddir, Məhəmməddir, Məhəmməd. Həzrəti İbrahim Xəlilə, ey atəş, neyçün hörmət etdin? Xəlilin yoldaşı olmağı arzulayırdı. Məhəmməd onun fikrinə şərik olanların pənahgahı, bütün xəstə və əlillərin isə şəfaətçisidir. Zavallıların, yazıq olanların və ümidsizlərin, sağ olanların ümididir. Günahmı etmiş, ya ibadətmi etmiş, ona baxmaz, azlığın da, çoxluğun da əlindən tutar.

## *Hz. MƏHƏMMƏDİN İLK DOSTU VƏ SİRDAŞI*

## *ƏBU BƏKR SİDDİQ*

Həzrəti Məhəmmədin birinci dostu əziyyətli, dərdli və bəlalı günlərində yaxın yoldaşı, şəfqətli şeyx, dinsizləri öldürən, Hira dağında mağarada da yanında olan Abdullah Ətiq ibn Quhafə, yəni Əbu Bəkr Siddiqdir. (Allah ondan razı olsun).

O, Allahın sevimli bəndələrindən idi ki, ilk İslam dini toxumunun birini Rəsul onun torpağına sancdı. O, seçilmiş xəlifə Rəsulun sevgili quludur ki, Haqq-təala Rəsuluna gizlilikləri açdı, o da ona söylədi. Dünyaya gəlmədən nə etmişdi ki, süd və şərbəti Rəsul onunla birlikdə içdi. Rəsulumuz kafirlərin əlindən mağaraya girdiyi zaman isə əmisi oğlu Həzrəti Əlini yatağında öz yerinə qoydu və Əbu Bəkrlə yola çıxdı.

## *Hz. ÖMƏR*

O, vəfalı dostların ikincisi, ədalət, insaf və mərhəmət tarlasının əkinçisi, söz söyləmə fəslinin toplayıcısı, məscid və qurbangah qonşusu, Rəsul ümmətinin gözətçisi, müjdələr vericisi Ömər ibn Xəttabdır. (Allah ondan razı olsun.) Nə zaman ki batil olanla haqq olanı bildi, batil işi ataraq, haqq yolunu tutdu. Doğru-düzgün buyruğunu verdi. Onu heç nə qorxutmadı, nə də həqiqət kimi görünən hiylə aldatdı. Buna görə də şeytan Həzrəti- Ömərin ölkəsindən qaçdı. Daha bir çox şeylər istədi və haqq-ədalət tapdı. Haqqı bilmək Ömərdən öyrənilirdi. Dünyada ər olan insan haqqı haqq bildirəndir.

## *Hz. OSMAN*

Əbu Bəkr və Ömərə dost və Rəsulullaha (s.ə.s.) sirdaş olan ədəb mənbəyi, həya xəzinəsi, şəfqətli, güvənilən adam, nəbilik və Rəsulluq sirdaşı, Allahın rəhmət və mərhəmətinə nail, kədərli və məzlum, həya və iman sahibi, yaxın məlumat və vəfa qaynağı, Quranı toplayan Əffan oğlu Osman. (Allah ondan razı olsun).

Nə sirdir ki, hz. Osman həzrəti Süleymana bənzədi. Təntənə ilə sultanlıq dəbdəbəsi qurdu. Nə Hz. Əbu Bəkir, nə də Ömər bu düzgünlüyü, çeşidli dövlət işini qura bilmədi, ancaq o iki din ulusu dünyada görünməyən abadlıq, qayda-qanun yaratdılar. Osman üçüncü xəlifə oldu. Görüləcək işləri gördü ki, ondan sonra gələnlərin işi asanlaşsın, abadlıq olsun. O, gözəl və xoş işlər etdi.Əslində qərar verən insan Allahdan qorxmalıdır.

## *Hz. ƏLİ*

Dördüncü xəlifə dövründə yeni gediş, fərqli yanaşmalar meydana gəldi. Çünki onunla Haqqa yetişildi. Ondan həqiqi diləklərə çatıldı. O, şəriət xəzinələrini açdı, həqiqət rəmzlərinin bilicisi idi. Onun kim olduğunu kimsə bilmədi. Bilənlər də bildiyindən sonrasını istədilər, amma tapmadılar. O, Allahın siyrilmiş qılıncı, Rəsulun əmisi oğlu, möcüzələrə nail olan ordular qurucusu, Möminlər Əmiri Əbu Talib oğlu Əlidir. (Allah ondan razı olsun).

İgidlərdən bir igid varmı ki mərhəmət, mərdlik və igidlik birgə ola. Əlinin lütf və kəramətini anlayan insan mərdlik, qəhrəmanlıq və igidlik tapmış olur. Əlidən zərrə qədər bir sirr bilsə, həm risalət tapmış olur. Əli canını, evini və övladını buraxdı ki, hikmət tapsın. Əlinin şərəfini bilməyənlər, sanma ki cahanda şərəf tapa bilsin.

Həzrəti- Əlinin ürək acısı, mənəvi əzabı az deyildi. Onun iki oğlu, peyğəmbərimizin sevimli nəvələri Həsən və Hüseyn sonralar özlərinə qarşı çoxlu təzyiqlər gördülər və əzablarla qarşılaşdılar.

Ulu Tanrım, sən o iki məsum imam xatirinə bizim günahlarımızı bağışla!

Peyqəmbər nəslindən iki igid də Allahın və Nəbinin aslanı Abdülmüttəlib oğlu Həmzə, əvvəlki xəlifələr babası Əbu Fəzl Abbas idi. (Allah onlardan razı olsun.) Həmzə (r.a) Allah Rəsulunun dini və milləti uğrunda canını qurban etdi. Abbas (r.a) nəsli və övladları Peyğəmbər ümmətinə Abbasi xəlifələrini gətirdi.

**Dua:**

Ey qullarının bütün sirlərini bilən, iç üzlərini görən ulu Tanrı, yaratdığın qulların qüvvəsini, dözümünü və hörmətini artır! İslam əsgərini müzəffər, üstün və qalib et! İslam diyarlarını (ölkələrini) abad eylə. Hər zaman yaman işlər edən düşməni rəzil, rüsvay və yerlə-yeksan et! Düşmənlərini məğlub eylə, amin, ya Rəbbil-aləmin!

## *PEYĞƏMBƏRLİK NURU*

Göydən nazil olan bütün müqəddəs kitablarda ulu Tanrı Rəsulun yaradılışını, ruhu, nuru və ağlını necə yaratdığını bildirmişdir. Cənab Cəbrailin vasitəsilə Nəbilərə xəbərləri göndərmişdir. Peyğəmbər (s.ə.s) buyurur ki:

– Allah-təala ilk əvvəl nuru, ruhu, ağlı və qələmi yaratdı;

– Bütün nurlardan əvvəl Allah-təala mənim nurumu yaratdı;

– Bütün ruhlardan əvvəl Allah-təala mənim ruhumu yaratdı;

– Bütün ağıllardan əvvəl Allah-təala mənim ağlımı yaratdı;

– Bütün varlıqlardan əvvəl Allah-təala qələmi yaratdı.

Bu dörd kəlmə Rəsulun dilindən gəlmişdir. Allah-təala əvvəlcə Rəsulun ruhunu yaratdı, o ruha məqam verdi. O məqamın adı və ortağı yoxdur. Bundan sonra Ulu Tanrı Rəsulun ruhundan nurunu yaratdı. Ağıl yaradılanda Rəsulun ağlı xəlq olundu. Əşya yaradılanda ilk əvvəl qələmi xəlq etdi.

O vaxt ki Ulu Tanrı Peyğəmbərin nurunu verdi, nur ilə ruh arasında on iki pərdə qoydu.

Birincisi: Qüdrət pərdəsi;

İkincisi: Əzəmət pərdəsi;

Üçüncüsü: Minnət pərdəsi;

Dördüncüsü: Rəhmət pərdəsi;

Beşincisi: Səadət pərdəsi;

Altıncısı: Kəramət pərdəsi;

Yeddincisi: Dərəcə pərdəsi;

Səkkizincisi: Hidayət pərdəsi;

Doqquzuncusu: Nəbilik pərdəsi;

Onuncusu: Səfaət pərdəsi;

On birincisi: Rifat (ucalıq) pərdəsi;

On ikincisi: Ədalət və insaf pərdəsi.

Rəsulullah (s.ə.s) söylədi ki, Allah-təala ruhları yaratdığı vaxt ilk əvvəl mənim ruhumu yaratdı. Nuru yaratdığı zaman da ilk mənim nurumu yaratdı. Peyğəmbərin (s.ə.s.) ağlından əvvəl yaradılan qələmdir. Rəsulun ruhu nurundan, nuru ağlından, ağlı qalan yaratdıqlarından gizlidir.

Ulu Tanrı Rəsul nurunu xəlq etdiyi zaman əmr edib dedi:

– Ey nur, get qüdrət pərdəsinə gir!

Qabil Əxbər (r.a) deyirdi:

– Rəsulun canı on iki min il qüdrət pərdəsinin içərisində qulluq edib durdu. İbadət edərək, Allaha şükür edib paklığını, müqəddəsliyini söyləmiş:

– Sübhanəl əliyyül əla. (Çox uca Tanrıya şükür edirəm).

Ondan sonra Peyğəmbər nuruna bir nida gəldi, dedi ki, ya Nur, Əzəmət pərdəsinə gir!

Rəsulun nuru Əzəmət pərdəsinə girdi və on bir min il orada ibadət etdi. Yenə Allah-təalaya şükür edib paklığını, müqəddəsliyini söylədi:

– Sübhanə ələmüssirri vəlahfə! – dedi. (Sirr və gizli olan şeyləri bilən Allaha şükür edirəm.)

Ondan sonra Rəsulun nuruna yenə dedi:

– Ya nur, minnət pərdəsinə gir!

Nidası gəldi. Rəsulun nuru minnət pərdəsinə girdi. On min il orada iba-

dət və  şükür etdi.

– Sübhanəl məlikil-Mənnan! (Aləmə nemətlər paylayan Tanrıya şükür edirəm.)

Ondan sonra yenə Rəsulun nuruna nida gəldi:

– Ya nur, Rəhmət pərdəsinə gir!

İndi Rəsulun nuru Rəhmət pərdəsinə girmişdi. Orada doqquz min il ibadət və  sükür etdi.

– Sübhanəl rəhimül-vədud! (Yaratdıqlarının halına yanan, acıyan və rəhməti bol olan Ulu Tanrıya şükür edirəm.)

Ondan sonra izin verildi, nida gəldi:

– Səadət pərdəsinə gir, ey Nur!

Rəsulun nuru səkkiz min il orada ibadət və şükür etdi. Bu şükrü söylədi.

– Ya mən Huvə qəniyyun yəftəkir. (Heç kimə möhtac olmayan qəni Tanrım.)

Sonra da Haqq-təala Rəsul nurunu Kəramət pərdəsinə bürüdü. Nur yeddi min il orada ibadət və şükür etdi. Bu şükrü dedi:

– Sübhanəl-kərimül-əkrəm! (Kərim və əkrəm olan Allaha şükür edirəm.)

Nur ondan sonra Mənzilət (yüksəklik dərəcəsi) pərdəsinə göndərildi. Altı min il orada ibadət və şükür etdi. Bu zikri söylədi:

– Sübhanə Rəbbil ərşil əzim və bihəmdihi. (Uca ərşin Rəbbi olan Ulu Tanrıya şükür və həmd edirəm).

Nur oradan Hidayət pərdəsinə keçdi. Beş min il də orada ibadət etdi və sükür isə bu oldu:

– Sübhanəl-xaliqin-nur. (Nuru yaradan Tanrıya şükür və zikr edirəm.)

Oradan da Ulu Tanrının fərmanı gəldi:

– Ey nur, Nübuvvət pərdəsinə gir!

Nur Nübuvvət pərdəsində dörd min il ibadət edərək qaldı. Bu zikri dedi:

– Sübhanə Rəbbikə Rəbbil izzəti əmma yasifun və səlamun ələlmürsəlin vəlhəmdü lillahi Rəbbil-aləmin. (İzzət Rəbbi olan Tanrını tövsif edildiyi kimi sükür edirəm.)

Rəsul nuru buradan da Şəfaət pərdəsinə keçdi. Üç min il orada ibadət etdi. Bu zikri söylədi:

– Sübhanallah bihəmdihi, Sübhanəl-lahil-əzim və bihəmdihi.

Nur oradan Rifət (ucalıq) pərdəsinə keçdi. İki min il orada ibadət və şükür etdi. Bu zikri söylədi:

– Sübhanə Rəbbiəl əla və bihəmdihi.

Nur oradan da Ədalət və İnsaf pərdəsinə keçdi. Min il ibadət etdi və dedi:

– Sübhanə zil mülk və mələküt, Sübhanə zil izzəti vəlcəbərüt.

Allah Rəsulunun (s.ə.s.) nuru bu on iki pərdə içərisində yetmiş səkkiz min il ibadət etdi, zikrlər oxudu. Hər pərdənin qalınlığı beş yüz illik yol idi. Hər pərdənin biri-birindən uzaqlığı beş yüz illik yol idi. Rəsulun nuru pərdələrin içərisində zikr, təhlil, tərif və şükür edirdi. Bundan sonra Haqq-təaladan Rəsulun nuruna on iki növ paltar-kaftan, xələt gəldi.

Birincisi: Səadət xələtı, ikinci Nəbilik xələtı, üçüncü Minnət xələtı, dördüncü Rəhmət xələtı, beşinci İnayət (xeyirxah) xələtı, altıncı Kəramət xələtı, yeddinci Hidayət xələtı, səkkizinci Dərəcə xələtı, doqquzuncu Rifat (ucalıq) xələtı, onuncu Şəfaət xələtı, on birinci Heybət xələtı, on ikincisi Ədalət və İnsaf xələtı.

Nura bu hədiyyə və bəxşişlər nədir? Hər dəniz dünyanın yetmiş qədəri idi. Bunu biz bilə bilmərik. Allah hədiyyələri necə verdi, bunları da biz haradan bilə bilərik?

Bundan sonra Rəsil nuruna iyirmi dörd dəniz ərz edildi. Hər dənizə müxtəlif adlar verildi.

Birinci: Əzəmət dənizi; ikinci: Səadət dənizi; üçüncü: Rəhmət dənizi; dördüncü: İbadət dənizi; beşinci: Ağıl dənizi; altıncı: Mərifət dənizi; yeddinci: Elm dənizi, səkkizinci: Səbir (təmkin) dənizi; doqquzuncu: Mülayimlik dənizi; onuncu: Sədaqət dənizi; on birinci: Qorxu dənizi; on ikinci: Rica (xahiş) dənizi; on üçüncü: Həya dənizi; on dördüncü: Hava dənizi; on beşinci: Saflıq dənizi; on altıncı: Lütf dənizi; on yeddinci: Hikmət dənizi; on səkkizinci: Riza (razılıq) dənizi; on doqquzuncu: Məhəbbət dənizi; iyirminci: Şərəf dənizi; iyirmi birinci: Nəbilik dənizi; iyirmi ikinci: Risalət dənizi; iyirmi üçüncü: Riyazət dənizi; iyirmi dördüncü: Şəfaət (əff etmək) dənizi.

Rəsulullahın (s.ə.s.) ruh aləminə "Əsrar aləmi" deyilir. Nurlu aləminə "Nurlar aləmi" deyilir. Cismi aləmə "Ətvar aləmi" adı verilmişdir. Ağıl və təfəkkür sahibləri "Ətvar aləmi" dediyimiz cismi aləmin on səkkiz min dünya olduğunu söyləyirlər və bəlkə ondan da artıqdır, deyirlər. Bu aləmin içində çoxlu-çoxlu müxtəlif növ yarananlar, varlıqlar, əcaib və qəraib min bir rəng vardır. Ətvar aləmində görünənlərin həddi, sayı yoxdur.

Nurlar aləmi nədir, necə bir aləmdir? Əsrar aləminin sirri nədir, onu kim bilir?

### *RƏSULUN NURUNA GƏLƏN ƏMR*

O vaxt ki Rəsulun nuru iyirmi dörd dənizdən keçdi, Allah-təalanın əmri ilə o, iyirmi dörd sifətlə xatırlandı.

Bundan sonra Allah-təaladan bir səs gəldi:

– Ya nur, hərəkətə gəl! Özünü silkələ, topla, yaşa!

Nur elə də etdi. Sonra Allah-təala Rəsulun nurundan peyğəmbərlərin nurunu yaratdı. Hamısının ruhunu Rəsulun ruhundan xəlq etdi. Vaxtında bütün peyğəmbərlərin ruhu Rəsulun nurundan ayrıldı, çoxaldı. Allah-təaladan yenə Rəsulun nuruna bir nida gəldi, buyurdu:

– Ey Həbibimin nuru, mən kiməm? Kim olduğumu bilirsənmi?

Nur yalvararaq cavab verdi:

– Sən tək olan Tanrısan və Ucalıq sənə məxsusdur. Ölüm, ruhlar və mələklər aləmi sənindir. İzzət və böyüklük sənindir. Axirət və Əbədilik sənindir, – dedi.

Bundan sonra Allah-təalanın sorğu və cavabının heybətindən Rəsulun nuru tərlədi. Haqq-təala o tərdən cövhər yaratdı. Onu da iki parçaya böldü və bir qismindən qələm yaratdı. Cövhərin qalan qismini də iki yerə ayırdı. Bir hissəsinə heybətli nəzərlə baxdı. Heybətindən əridi su oldu. Qalan hissəsindən ərşi yaratdı. Ərşə buyurdu:

– Su üzərində qərarlaş!

## *PEYĞƏMBƏRİMİZİN SƏCƏRƏSİ*

Peyğəmbərimizin ən ulu babası, əlbəttə ki, Həzrəti Adəmdir. Ondan sonrası belə davam edir: Adəm oğlu Şit, onun oğlu Ənuş, onun oğlu Qaynan, onun oğlu Mehlayil, onun oğlu Bird, onun oğlu İdris, onun oğlu Uhnuğ, onun oğlu Mütəvəşlih, onun oğlu Ləmük, onun oğlu Aybər, onun oğlu Nuh, onun oğlu Sam, onun oğlu Fəhşüd, onun oğlu Qaydar, onun oğlu Şalih, onun oğlu Gəbir (yəni Hud), onun oğlu Kali (Qəli), onun oğlu Ərgu, onun oğlu Səruh, onun oğlu Tahur, onun oğlu Tarix (yəni Azər), onun oğlu İbrahim, onun oğlu İsmail, onun oğlu Sabit, onun oğlu Qaydar, onun oğlu Həml, onun oğlu Yarəp, onun oğlu Yəsa, onun oğlu Hümyəsa, onun oğlu Ədd, onun oğlu Əddad, onun oğlu Ədnan, onun oğlu Səhəp, onun oğlu Yarəp, onun oğlu Təbrih, onun oğlu Məd, onun oğlu Nizar, onun oğlu Müdar, onun oğlu İlyas, onun oğlu Müdrikə (Amir), onun oğlu Xuzeymə, onun oğlu Kinanə, onun oğlu Nəzir, onun oğlu Malik, onun oğlu Fihr (Qureyş), onun oğlu Qalib, onun oğlu Lüeyy, onun oğlu Kəb, onun oğlu Mürrə, onun oğlu Kilab, onun oğlu Qusay, onun oğlu Əbdümənaf (Muğirə), onun oğlu Haşim, onun oğlu Əbdülmüttəlib, onun oğlu Abdullah, onun oğlu Məhəmməd (s.ə.s.) peyğəmbərimiz.

## *PEYĞƏMBƏRİN (s.ə.s.) MÜBARƏK ADLARI*

Nəbi, Rəsul, Mürsəl, Məhəmməd, Mustafa, Əhməd, Mahmud, Həmid, Cahid, Qasım, Müqəssim, Bəşir, Sabir, Hadi, Xəlil, Həbib, Cəlil, Cəmil, Müctəba, Razi, Muxtədir, Zakir, Mənsur, Əmin, Şakir, Hafiz, Əmir, Cavad, Mülayim, Rauf, Fəttah, Zabit və s. 160-dan çox ad və bəzi səmavi kitablardakı adları – Buza, Tövratda - Miza, Zəburda - Nura, İncildə-Nura, Quranda – Əhməd, Məhəmməd, göy üzündə Mahmud, Ərzdə Bəşir, cinlər içində Nəzir (qorxudan), Cənnətdə Əbül-Qasim, Cəhənnəmdə Dai (davam edən).

## *MƏHƏMMƏD MUSTAFANIN (s.ə.s.) ULULUĞU*

Ulu Tanrı Adəmi, Nuhu, İbrahimi bütün dünya üzərində ixtiyar sahibi etdi. Bunların arasından Məhəmməd Mustafanı (s.ə.s.) daha uca və ulu eylədi. Yer əhlinin ən bəxtlisi, bütün yaratdıqlarında onu özünə yaxın, sirlər xəzinəsinə etimadlı və etibarlı saydı. Sonra da yuxarıda olan mələklərə "Məhəmmədə xidmət və qulluq etsinlər" fərmanını verdi.

Hz. Məhəmməd (s.ə.s.) deyirdi:

– Hər nurdan əvvəl Allah mənim nurumu yaratdı.

Bəli, Allah-təala ərşi yaradanda onun üzərinə Rəsulun adını yazdı və bütün ərş də onun adı ilə işıqlandı. Ulu Tanrıya yaxın olan mələklər ərşi təvaf edərkən bir nurun gəldiyini gördülər. Bu nur ərş üzərində cövlan edir və cürbəcür kəlmələr söyləyirdi. Açıq, aydın və düzgün cümlələrlə Allah-təalaya ibadət və şükürlər deyirdi.

Allah Rəsuluna özünün yaxınlıq dərəcəsini və məhəbbətini göstərmək istədi. Özünə yaxın mələklərin könüllərindəki arzunu soruşdu. Hamısı üzlərini böyük Allaha çevirib soruşdular:

– Ya Allah, sənə bizdən yaxın, xidmətində gərəkli, ibadətinə itaətli başqa qulların varmı?

Bu zaman suallarına bir nida gəldi:

– Əlbəttə, var! O nur sahibi, mənim sevimlim, peyğəmbərlərin sonuncusu Abdullah oğlu Məhəmməddir.

## *RƏSULUN NURUNUN ADƏM PEYĞƏMBƏRƏ KEÇMƏSİ*

Rəsulun nurunun ululuğuna mələklərin heyranlığı bəşərin atası olan Həzrəti Adəmin insan surətində dünyaya görünməsinə qədər davam etdi. Bir gün Rəsulun nuruna əmr gəldi:

– Adəm peyğəmbərin alnına en və orada qərar tut!

Hz. Adəm özü-özündən ibadət və şükürləri eşitməyə başladı. Dilindən qopan gözəl cümlələrlə ilahi sirlərinin gizliliyini dinlədi. Çaşıb qalmış Adəm peyğəmbər Ulu Tanrıdan soruşdu:

– Ey Ulu Tanrım, səndən soruşa bilərəmmi ki, bu sirrin əsli nədir, bilim.

Ulu Tanrı:

– O nur mənim Həbibimin nurudur və o nura sən Ata olacaqsan, − deyə Adəmə buyurdu.

Sonra Haqq-təaladan bir nida gəldi:

– Ya Adəm, o nur Məhəmməd Mustafanın nurudur. İki cahan onunla bəzənmiş və işıqlanmışdır. Peyğəmbərlər, vəlilər məqam ucaltmaqlarını onun şərəfindən tapacaqlar. Hər kim ki onu könüldən, candan sevsə, əziz və seçilmiş olacaqdır. Hər kim ondan uzaq durarsa, hörmətsiz və yazıq olacaqdır. Ey Adəm, o nur sənin yanında əmanətdir. Əhdim və peymanım sənin üzərində olsun ki, bu əmanətləri nəslinə vəsiyyət et, öyüd qıl. Övladın ilə sən də əhd et ki, o nuru əsl təmizlərə tapşırsınlar, əmanət etsinlər.

Adəm:

– Ya Rəbbim, əhdini və peymanını qəbul etdim. Mən də oğluma və nəslimə bu əmanəti pak nəsildən olan bir övladına vəsiyyət edəcəyini və axirətdə orada olacağımı deyəcəyəm.

Sonra Rəsulun nuru uzun bir zaman Hz. Adəmin üzündə parladı. Elə bil ki, sanki on dörd gecəlik ay idi.

Uca Ərşdən nida və səs gəldi:

– Ya Adəm, istəyin nədir, söylə?

Həzrəti Adəm cavab verdi:

– Ey mənin Allahım, sən ki əbədilərin əbədisisən, qüvvət-qüdrət sahibisən. Mənim nəslimin xülasəsi, özü və nəslimin seçicisi Məhəmməd Mustafanın nuru ilə məni sevindirdin, şərəfə, ucalığa, ululuğa layiq gördün. Hörmət böyüklüyünü, izzət artıqlığını vəd etdin, mənimlə əhd-peyman qıldın, sözləşdin. Mən də oğlum Şit ilə əhdləşdim, andlaşdım. Ulu Tanrı hüzurunda mələkləri şahid tuturam.

O zaman Allah-təaladan bir səs gəldi:

– Ya Adəm, izin verdim, oğlunla əhd və müqavilə bağla, ona vəsiyyət et.

Sonra Cəbrail əleyhissəlam yetmiş min mələklə göydən yerə endi. Ulu Tanrının qüdrətindən ilk öncə yaradılan qələm Adəm peyğəmbərə toxunulmadan şahidlik yazdı. Orada olan yetmiş min mələyin bir-bir adı ilə şahidlik yazdı. Bitdikdən sonra Cəbrail əleyhissalam yazını möhürlədi.

Bundan sonra Hz. Adəm ona Allahın verdiyi xanımı Hz. Həvvanın yanına döndü:

– Ya Həvva, – dedi, – sənə vəsiyyət edirəm. Nə vaxt ki yaxınlıq vaxtı olur, ondan öncə təmiz bir dəstəmaz al. Ən gözəl paltarlarını gey. Ta ki doğum vaxtına kimi bəzənmiş və ətirlənmiş olasan.

Daha sonra vaxt və saat çatdı, Ulu Tanrı Hz. Həvvanı Şit peyğəmbərə hamilə etdi. Adəm peyğəmbər bunu eşidəndə çox sevindi. Əmanətin sahibinə verildiyi gecə Rəsulun nuru da Hz. Adəmin alnından Hz. Həvvanın alnına keçdi.

## *ŞİT PEYĞƏMBƏRİN DOĞULMASI*

Həvva son dərəcədə gözəlləşmişdi və bütün yer, göy əhlinin gözünə gözəl və məhəbbətli görünürdü. Cənnət üçün yaradılmış hurilər, qılmanlar, cənnət qapıçısı rizvan və oğulları Həvvanın qapısına gəlirdilər, gözəllərdən gözəl üzünü seyr edirdilər, cənnət hədiyyələri gətirirdilər. O, sədəfində olan tək inci idi. Hz. Həvva Şit peyğəmbəri tək doğmuşdu. Ulu Yaradan onu yalnız yaratmışdı. Çünki Həvva iki oğlana da hamilə qalmışdı. Lakin Rəsul kəraməti üçün Ulu Tanrı Şit peyğəmbəri Hz. Həvvanın rəhmindən tək yaratdı. Bu kəramət ilə ki, Məhəmməd peyğəmbəri onun nəslindən yaratsın.

Şit dünyaya gələnə kimi Hz. Həvva gündən-günə çox gözəlləşdi, alnının nurundan dünya işıqlanırdı. Doğum vaxtı çatanda Şit peyğəmbərin vücuduna keçdi.

Şitin alnındakı Rəsul nuruna qarşı günəş və ay baxmağa utandı. Ay bir daha "bir Ay doğdu" sandı.

Həzrəti Adəm və Hz. Həvva Şitin üzündə Rəsul nurunu gördükdə çox sevindilər, şad oldular. Ulu Tanrı Şitin üzündəki nuru şeytanın görməməsini istədi. Elə o zaman mələklərə əmr etdi və Şitin üzünə nurdan pərdə çəkildi. O elə bir pərdə idi ki, Şeytan Şit peyğəmbəri görməkdə çarəsiz qaldi. Şit yeddi il nur pərdəsinin arxasında qaldı. Yeddi yaşı bitəndə Rəsul nuru altında Ərşə qədər yüksəldi.

## *ADƏMİN OĞLU ŞİTƏ VƏSİYYƏTİ*

Şit həddi-büluğa çatanda Hz. Adəm onun əlindən tutdu. İbadət yerinə gəldilər. İkisi birlikdə ibadət etdilər. Sonra Adəm peyğəmbər üzünu oğlu Şitə tutdu:

– Ey oğul, – dedi, – əcəl dünyadan ayrılmaq üçündür. Gəl ölum gəlməmişdən səninlə and içək. Bil ki, ulu Tanrı mənimlə əhd-peyman bağladı. Sənə də vəsiyyət edirəm.

Şit:

– Vəsiyyətin mənin başım üstə, ata, – dedi.

Hz. Adəm Hz. Şitin əlindən tutdu. İkisi Həzrəti Adəmin Allaha yalvarıb-yaxardığı yerə gəldilər. Allaha üz tutub əllərini qaldırdılar və sirlərini açıb söylədilər. Allah mələklərinə ibadətdə qalmalarını buyurdu. Yeddi qat göyün xalqı, mələklər səmadan ikisinin halına baxdılar. Cənnət xalqı da ucadan bunları seyr etdi. Bütün cənnət ağacları, daşları bunların hacətlərini ərz etmək üçün səssiz, hərəkətsiz bir hal aldılar. Uçan yaradılmışlar da səslərini, avazlarını kəsdilər. Küləklərə də susmaq əmr olundu. Uçan quşlar mələklərlə qanad-qanada bağlayıb durdular. Ondan sonra fərman ilə Cəbrail cənnət paltarlarından iki gözəl xələt gətirdi, Şit və Adəm peyğəmbərə geyindirdi. Hər paltar günəşdən nurlu, sudan təmiz idi. O vaxt ulu Tanrı Şit peyğəmbəri Mihvail Bəyzə ilə evləndirdi.

Ondan sonra Cəbrailə əmr olundu, orada xUtbə oxudu, mələklər şahid oldular. Səmadan zümrüd daşından açıq rəngli daşdan bir günbəz gətirdilər. Şit və Mihvailin üstünə tikdilər. Mihvail Şit peyğəmbərin bacısı idi, amma başqa qardaşla doğulmuşdu.

O zaman şəriət belə idi, başqa qarında doğulmuşları evləndirmək olardı. Mihvailin boyu Həvvanın boyu qədərdi. Hamilə qaldığı zaman Rəsulun nuru Şit peyğəmbərdən Mihvailin üzünə keçdi və parlamağa başladı. Hər tərəfdən səslər gəlirdi:

– Ey Mihvail, Rəsulun nuru sənə layiq olsun, Anuş doğulana qədər səninlə olsun.

Bu səslər göy üzündən gəlirdi. Mələklər Mihvaili pərdə içində saxlayırdılar ki, şeytan şərrindən, insan hiyləsindən uzaq qalsın. Anuş yer üzünə gəlməmişdən əvvəl şeytan da yer üzunə gəlməmişdi. Anuş doğulan zaman Rəsulun nuru da onun alnında birlikdə gəlmişdi. O, dünyaya gəldiyi zaman Şit peyğəmbər iki yüz beş yaşındaydı. Adəmin göydən yerə enməsi üç yüz otuz il olmuşdu. Şit peyğəmbər tam doqquz yüz on iki il ömür sürdü. Anuş da yüz yetmiş yaşına girdi Rəsulun nuru onun alnında parlamağa başladı.

Anuş evləndi. Ulu Tanrı ona bir oğul verdi. Adını Qaynan qoydu. Rəsu-

lun nuru Qaynanın üzündə parladı. Hər gün bir tərəfdən görünən günəş, gecə isə bürcün ulduzları kimi parlayır və göyü işıqlandırırdı.

Qaynan doğulan vaxt Adəm tarixindən Anuşun yaşı beş yüz il olmuşdu. Şit isə doqquz yüz on iki yaşa keçmişdi. Rəsulun nuru doxsan il Qaynanın alnında oldu. Sonra Qaynan evləndi və bir oğlu dünyaya gəldi.

Adını Mihyayıl qoydu. Rəsulun nuru onun alnına keçdi. Qaynanın ömrü altı yüz oldu. Mihyayıl Yezlə adında bir qadına evləndi. Yezlə hamilə olanda Rəsulun nuru onun alnına endi və övladı dünyaya gələndə nur onun üzündə parlamağa başladı. Adını Bürd qoydular.

## *İDRİS PEYĞƏMBƏRİN DÜNYAYA GƏLMƏSİ*

Bürd böyüyüb evləndi. Onun bir oğlu oldu, adını Uhnuh qoydular. Bu İdris peyğəmbər idi. Bürd iki yüz altmış yaş yaşadı. İdris peyğəmbərin alnında Rəsulun nuru yüz altmış beş il qərar tutdu. Brüvmavel adlı bir qadına evləndi və bir oğlu oldu. Adını Mütəvəşlih qoydular. O, böyük babası Adəmi görmədi, çünki o vaxt vəfat etmişdi. İdris peyğəmbər üç yüz əlli beş yaşında ulu Tanrının iradəsi ilə göyə uçdu. Rəsulun nuru Mütəvəşlihin alnında yüz doxsan yeddi il qaldı. Evləndi, bir oğlu oldu, adını Ləmik qoydu. Sonra Ləmik evləndi, onun da bir oğlu dünyaya gəldi və adını Nuh qoydular. Rəsulun nuru Nuh peyğəmbərin alnında parlayırdı. Ləmik peyğəmbər yeddi yüz yetmiş il yaşamışdı. Ləmik peyğəmbər doğulduğu zaman Adəm tarixinin min üç yüz doxsan altıncı ili idi.

Nuh peyğəmbər bir çox qadınla evləndi. Lakin nur öz alnından başqasına keçməmişdi. Nur Nuhun alnında beş yüz il qaldı. Nuh sonra Mahmudə adlı bir qadınla evləndi. O, hamilə qaldı və dünyaya bir körpə gətirdi. Nuh nuru körpənin alnında görcək adını Sam qoydu. Sam dünyaya gələndə Nuhun beş yüz yaşı vardı. Adəmin dünyaya enişindən min səkkiz yüz altı il keçirdi.

## *NUH PEYĞƏMBƏR*

Nuh oğlu Samın alnında Rəsulun nurunu gördükdə əhdnaməsini yazdı və vəsiyyət etdi:

– Ey oğul, bu əmanət təmizlik tələb edir. Təmiz bətnə onu qəbul et. O, bizə atalarımızdan miras qalmışdır. Biz də onu sənə ötürüb əmanət edirik.

## *ATADAN OĞULA KEÇƏN SANDIQ*

Atalardan oğullara keçmiş bir sandıq vardı, Nuh peyğəmbərə kimi gəlib çıxmışdı. O sandığı Nuh peyğəmbər oğlu Sama tapşırdı. Rəvayətə görə, sandıq ağ incidən düzəlmişdi. Qızılla işlənmiş qapağı var idi. Açarı isə Allah tərəfindən göndərilmiş peyğəmbərlərin əli olurdu ancaq. Sandığın iki başından tutmaq üçün qulpları vardı. Bu sandığı, ataların dediyinə görə, ulu Tanrı Cəbraillə Adəm peyğəmbərə göndərmişdi. Adəm əleyhissəlam da Cəbraildən soruşmuşdu:

– Ey qardaşım Cəbrail, bu sandıq nədir?

Cəbrail cavab vermişdi:

– Ey Adəm, bu sandığı sənə Allah-təala göndərdi ki, sandığın içinə baxasan, sənin belindən gələcək peyğəmbərləri görəsən. Kim kimdən əvvəl, kim kimdən sonra gələcək hamısının şəkil və surətlərini görə biləsən.

O sandığın içi sənə cahanı göstərən bir şüşə kimidir. Bütün peyğəmbərlərin adları alınlarında yazılmışdır. Hamısının mərtəbə və dərəcələrini sən o sandığın içindən anlayıb biləcəksən. Hər şey sənə yaxından məlum olacaqdır. Peyğəmbərlərin hər birinin əshabı, ümmətinin gələcək nəsli, doğru, yalançı, mömin və kafirləri yaxından, buradan gözlə görə biləcəksən.

Adəm Cəbraildən bu sözləri eşidincə:

– Ey Cəbrail, aç bu sandığı, indi görüm,– dedi.

Cəbrail əleyhissəlam:

– Ya Adəm, onun izni yalnız sənə verilib. Bu sandığı sənin açmağın lazımdır. Ta ki səndən sonra göndərilən peyğəmbərlərə nə vaxt ki sünnət oldu, onlar da sandığa əl vuraraq çox asan aça biləcəklər.

Bu sözlərdən sonra Adəm sandığı açdı, içinə baxdı. Bütün nəbilərin adları, mərtəbələri Həzrəti -Adəmə göründü. Adəm də gördü ki, Allah tərəfindən göndəriləcək və göndərilməyəcəklər kimlərdir. Dərəcələri nədir, göndərilən həqiqi peyğəmbərlərin ulusu kimdir, neçə nəfərdir. Hamısına sandıqdan tamaşa etdi. Vaxt keçdikcə sandıq atadan oğula keçərək Nuh Peyğəmbərə kimi gəldi. O da oğlu Sama verdi. Sonra Samı evləndirdi. Ona bir xaqan qızı aldı. Samın doğuşundan Tufana qədər beş yüz əlli il keçdi. Adəmin dünyaya enişindən iki min dörd yüz qırx altı il keçmişdi.

Tufandan sonra Samın bir oğlu dünyaya gəldi. Rəsulun nuru o uşağın alnında parladı. Sam adını Erfahşüd qoydu. Erfahşüdün doğulduğu zaman Adəmin tarixindən iki min beş yüz altı il keçdiyi məlum idi. Erfahşüd həddi-büluğ yaşına çatanda Sam onunla andlaşdı:

– Evlənəcəyin zaman təmiz bir nəsildən qız al, − dedi.

Rəsulun nuru Erfahşüdün alnında tam yüz otuz beş il qaldı. Evləndi, bir oğlu dünyaya gəldi. Adını Qaydar qoydu. Atası onun evlənməsindən əvvəl andlaşdı. Qaydar yüz otuz yaşında evləndi. Bir oğlu dünyaya gəldi. Adını Şalih qoydu. Rəsulun nuru Şalihin alnına keçmişdi. Hz. Adəm tarixindən iki min yeddi yüz yetmiş bir il keçmişdi. Atası Qaydar onu yüz otuz yaşında evləndirdi. Gözəl bir nəsildən Mərcanə adlı bir qız aldı. Mərcanə Şalihdən hamilə qalanda nur onun alnına keçdi. Müddəti bitəndə bir oğlu oldu, adını Gabir qoydular.

## *HUD PEYĞƏMBƏR*

Gabir Hud peyğəmbər idi. Hz. Adəm tarixindən iki min doqquz yüz il keçmişdi. Rəsulun nuru Hud peyğəmbərin alnında görünürdü. Uca bir parlayışla parladı. Çünki Hud Tanrı tərəfindən göndərilmiş bir peyğəmbər idi. Rəsulun nuru əgər Haqq Peyğəmbərlərdə görünürdüsə, uca görünür və bütün kainatı nurlandırırdı. Hudun da alnında Peyğəmbər nuru qərarlaşandan sonra bütün yaradılanlardan avaz eşidildi:

– Bu nur Rəsulun nurudur. Bu nur bütləri qıracaq, Allaha ortaq qoşanları öldürəcək, xaçlarını puç edəcəkdir. İman çırağını qiyamətə kimi yandıracaqdı.

Rəsul nuru Hud Peyğəmbərin alnında yüz otuz dörd il qərar tutdu. Hud bu əmanətə layiq bir qadınla evlənmişdi, adı Metşa idi. Metşa hamilə oldu. Rəsulun nuru onun alnında parladı. Doğum günü gözəl bir oğlu dünyaya gəldi. Hz. Adəm tarixindən üç min yüz iyirmi beş il keçmişdi. Ondan sonrakı tarixlər ta Həzrəti İbrahim peyğəmbərə kimi yazılmamışdır.

Hud peyğəmbər oğlunun adını Kaali qoydu. Hud dörd yüz on yaşına çatdı. Oğlu da həddi-büluğ yaşına yetişdi. Hud oğlunu qarşısına alıb onunla andlaşdı və Hz. Adəmun sandığını Kaaliyə əmanət etdi. Sonra Kaali evləndi, bir oğlu oldu, adını Ergu qoydu. Rəsulun nuru bu dəfə Ergunun alnında parladı. Kaali oğlu ilə andlaşdı və sandığı Erguya əmanət etdi, öyüd verdi. Ergu da evləndi və bir oğlu dünyaya gəldi. Adını Şarü qoydu. O həddi-büluğ yaşına çatanda, atası onunla andlaşdı, sandığı Şarüyə əmanət etdi.

Şarü də evləndi. Onun bir oğlu oldu, adını Tahir qoydu. Rəsulun nuru Tahirin üzündə görünmüşdü. Şarü də atadan övlada gələn sandığı Tahirə əmanət etdi.

## *İBRAHİMXƏLİL PEYĞƏMBƏR*

Tahir evlənəndən sonra bir oğlunun adını Tarix qoydu. Həzrəti- İbrahimin atası Tarix (yəni Azər), bu uşaq idi. Azər böyüdü, evləndi. Bir oğlu oldu, adını İbrahimxəlil qoydu. İbrahim doğulduğu zaman Allah Həbibinin nuru onun üzündə parlamağa başladı. Azər ətrafına baxdı və gördü ki, nur iki bayraq şəklindədir. Biri Şərqdə, o biri də Qərbdə. Elə bir nurdu ki, yerdən göyə kimi uzanıb dururdu. İbrahimxəlil yetkinlik yaşına çatdıqda atası Azər onunla and içdi, əhdi-peyman bağladı, vəsiyyət etdi və Hz. Adəmin sandığını ona əmanət etdi. İbrahimxəlilə rəsulluq, nübüvvət, ululuq məqamı və mərtəbəsi verilincə Cəbrail gəldi, Həzrəti- İbrahimə: "Ya İbrahim, Allah-təala sənə Adəm sandığını açmağı əmr edir. Ulu Tanrının qüdrət və izzətinə tamaşa et. Çünki onları Allah-təala sizin üçün göstərdi", – dedi.

İbrahim Allahın bu əmri ilə sandığı açdı, baxdı. İlk olaraq Adəm peyğəmbərin ruhunu gördü. Şəkil kimi dururdu, elə bil ki, doğrudan da, həyatdadır, yaşayır. Sonra Həvvanın gözəlliyinə çatdı, üzünə baxdı. Daha sonra nəbilərin hamısının ruhlarını canlı kimi gördü. Sonra özünu görüb tamaşa etdi. Daha sonra gələcək peyğəmbərləri seyr etdi. Sandığın içərisində bütün peyğəmbərlərin üzü, şəkli təsvir edilmişdi. Hər birinin dərəcə və mərtəbəsini bilib anladı. Bütün peyğəmbərlərin adları alınlarında yazılmışdı.

Hər bir peyğəmbərin ruhu ilə birlikdə ümmətlərinin ruhunu o ruhların yanında gördü. Hər birinin nə qədər ummət topladığını da görüb bildi. Bütün peyğəmbərlərin ardında sonu tükənməz bir izdihamla sonuncu peyğəmbəri gördü. Çaşdı, həyəcanlandı, ummətinə heyran qaldı. Ulu Tanrıdan:

– Bu nə izdihamdır, ya Rəbbim? – deyə soruşdu.

Bu zaman bir cavab gəldi:

– Pak, saf, təmiz kimsə sənin övladındır, ya İbrahim. Vəzifəni bil və eşit. O, mənim Həbibimdir. Bu, gecə, gündüz, ululuq, ucalıq onun üçün yaradılıb. Bu dünya və göyüzü onun gəzməsi üçündür. Bu göylər o Həbibimin üzərində kölgə salmaq üçün örtük kimi quruldu. Bu yer üzü ona yataq və səccadədir. İbrahim, Nuh, İsa və əvvəl gəlmişlərdən sonra gəlsə də o, hamısından öndədir. O, peyğəmbərlik libasını geydiyi zaman nə ağıl vardı, nə ərş, nə məqam, nə yer, nə göy, nə zamanın hərəkəti, nə cisim, nə can, nə əlif, nə xa, nə dal, nə mim vardı.

Uca Tanrı Həbibi-Həzrəti Məhəmmədin mərtəbə və dərəcəsini Cəbrailin dili ilə İbrahimxəlilə bildirdikdən sonra Cəbrail ona İshaq və İsmailın ruhlarını göstərdi və dedi:

– İshaq və İsmail bu iki Haqq peyğəmbəri sənin kökündən və qanından gələcəkdir. Səndən sonra gələcək İsrail nəbilərinin atası bu İshaq peyğəm-

bər olacaqdır. İsmail peyğəmbər yalnız Məhəmməd Mustafanın (s.ə.s.) babası olacaqdır.

İbrahin bunları anladıqdan sonra Sara xatunun yanına getdi. Sandıqda gördüyünü, Cəbrailin dilindən eşitdiklərini Sara xatuna bir-bir xəbər verdi və anlatdı. Sara xatun Xəlildən eşitdiyi sözlərdən ağlamağa başladı. Çünki onun oğlu-qızı yox idi. İbrahimxəlilə dedi:

– Ya Allahın Xəlili, mənim heç oğlum dünyaya gəlmədi və gələcəyi də gözlənilmir. Anlamaq olar ki, sən başqa bir xatuna evlənəcəksən və ondan oğul-uşaq sahibi olacaqsan.

Sara xatunun da bir cariyəsi vardı, adı Həcər idi. Sara dedi:

– Bu cariyəmi al, ya İbrahim, sənə bağışlayıram.

İbrahim Həcəri aldı, bir yastığa baş qoyduqdan az sonra o, hamilə qaldı. Rəsul nuru Hz. İbrahimdən Həcərin alnına keçib parladı. Sara xatun Rəsulun nurunu Həcərin alnında gördükdə bütün qəlbi ilə qısqanmağa başladı, könlü qırıldı, çox ağladı və dedi:

– Ya İbrahim, Allahın qarşısında mən nə günah işlətdim ki, məni oğuldan, qızdan məhrum etdi?

İbrahimxəlil Sara xatunu sevindirərək:

– Sənin də bir oğlun olacaq, adını İshaq qoyacağıq. Bunu mənə Cəbrail xəbər verdi.

## *İSMAİL PEYĞƏMBƏRİN DOĞULMASI*

Həcərin ürəyi, qəlbi sevinclə dolmuşdu. Vaxt çatanda İsmail əleyhissəlam dünyaya gəldi. Rəsulun nuru indi İsmailın alnında parlamağa başladı. Sara xatun da İshaq peyğəmbəri dünyaya gətirmişdi. İsmail və İshaq böyüyüb həddi-büluğa çatdılar. İbrahim peyğəmbər onların əllərindən tutub sandığın saxlanıldığı yerə gətirdi. Sandığı açıb ikisinə də peyğəmbərlərin üzünü və surətini göstərdi. Hər birinin Allah tərəfindən göndərilib-göndərilmədiyini, məqamını, dərəcəsini bildirdi. Bundan sonra Rəsulullahın məqamını və dörd yarının, xəlifəsinin mərtəbəsini, millətinin şərəfini və məskənini göstərdi və dedi:

– Ey oğlum İsmail, peyğəmbərlərin sonuncusu Məhəmməd Mustafa sənin nəslindən dünyaya gələcəkdir. Qalan nəbilər isə İshaqın nəslindən doğulacaqdır. Sonra sandığı bağlayıb İsmaila əmanət etdi.

O, fikrini davam etdirdi:

– Ya İsmail, sənin çox gözəl bəxtin var, uğurlu bir kimsəsən. Onunla andlaşdı, vəsiyyətini yazdı. İbrahimin iki yüz yetmiş iki yaşında dünyadan köçmək vaxtı çatdı və gözləri bağlandı.

İsmail ondan sonra Harisin qızı ilə evləndi. Bu nigahdan bir oğlu dünyaya gəldi. Adını Qaydar qoydu. Rəsulun nuru İsmailın alnından Qaydarın alnına keçmişdi. Qaydar yetkinlik yaşına çatanda İsmail Qaydara:

– Ey oğul, yaxşı, ləyaqətli nəsildən bir qızla evlən. Öz məsləhətinlə Rəsulun nurunu, etimadını qoru.

Atalardan qalan sandığı ona əmanət etdi. Az sonra İsmail peyğəmbər dünyadan köçdü. Qaydar böyüdü, o qədər gözəl bir oğlan oldu ki, həm ağıl-kamala, həm camala sahib idi. İki bölük saçı vardı, ərəblər ona ”İki saçlı - Sahibülzuəbtəyn” deyirdilər.

Qaydar ömrünü daima xoş keçirirdi. Ulu Tanrı ona yeddi cür hünər vermişdi. Allah bu hünərləri əvvəllər ondan başqasına verməmişdi.

## *QAYDARIN GÖRDÜYÜ YUXU*

Qaydar zamanında mal-mülkü, üzünün gözəlliyi ilə tay-bərabəri olmayan birisi idi. Əmisi İshaqın nəslindən yetmiş qadın almışdı. Çoxlu oğlu, qızı oldu, amma Rəsulun nuru Qaydarın alnında qaldı, kimsəyə keçmədi. İki yüz il ömür sürdü. Hələ də mübarək əmanət onda qalmışdı. Bir gün çöldə ov ovlayarkən düzdəki vəhşi heyvanlar və canavarlar, havalarda ucadan uçan quşlar qışqırışdılar. İnsan kimi dilə gəlib dedilər:

– Ey Qaydar, sənin ömrün sona çatır, amma sən həvəs ardınca qaçırsan. Hanı o əmanət ki sənə tapşırılmışdı. Sahibinə təslim etsənə və Rəsulun nuruna layiq təmiz bir nəsildən birisini istəsənə.

Qaydar sanki yuxudan oyanan kimi oldu. Özü-özünə and içdi: “Ey Qaydar, əgər bu fikrin varsa, qadınlarının yanına getmə, şərab içmə, kabab yemə. Həyatını bu cür yemək-içməklə keçirmə” .

Qaydar çöldən evinə döndü. Bir neçə gün düşündü. Çox sıxıntılar keçirdi. Bu işə nə çarə qılacaq və nə tədbir görəcəyini bilmirdi. Bir gün ağac altında oturmuşdı, çox qəmli idi.

Haqq-təalanın əmri ilə bir mələk Adəm oğlu şəklinə girib Qaydarın önünə gəldi. Salam verib ona dedi:

– Ey Qaydar, niyə belə kədərli və üzüntülüsən? Niyə burada oturmusan, nə haqda düşünürsən?

Qaydar qəlbindən keçənlərin hamısını ona anlatdı. Mələk ona:

– Ya Qaydar, əgər arzu-diləyinin yerinə yetməsini istəyirsənsə, çoxlu qurban kəs. O qədər ki Allah qurbanlarını qəbul etsin. Sənə nə etmək lazım olduğunu işarət etsin, çətinliyin aradan qalxsın.

Qaydar mələkdən eşitdiyinə əməl etmək üçün qurban hazırlığına başladı

və tez bir zamanda bitirdi. Hz. İbrahimin oğlu İsmailı qurban etdiyi yerə gəldi. Orada yeddi yüz qoç qurban etdi.ər qurbanı kəsərkən havadan bir alov dalğası gəlir, ağ bir zəncirlə yerə enir, qurban olan qoça dolanırdı. İki alov birlikdə gəlir və birlikdə qurbanı alıb havaya qalxırdı. O qədər yüksəkliyə qalxırdı ki, görünməz olurdular. Qaydar beləcə yeddi yüz qurbanı kəsdi. Qaydarın qulağına səmadan bir səs gəldi:

– Ey Qaydar, kəsdiyin qurbanlar qəbul edildi. İndi dur get, ağacın altında yat, nə etmək lazımdır öyrən.

Qaydar ağacın altına gəldi. O ağacın adına "Vaad ağacı-Şəcərətül-Vaad" deyirdilər. Sonralar bu ağacın altında Məhəmmədə (s.ə.s.) on dostu beyət etmişdi. Qaydar ağacın altına gəldi və orada yatdı. Yuxuda bir röya gördü. Qarşısında gözunə kimsə göründü və Qaydara dedi:

– Ey Qaydar, sənin alnındakı nur aləmlərin Həbibi Məhəmməd ibn Abdullahın nurudur. Ulu Tanrının istəyi budur ki, axırzaman peyğəmbəri, İshaq peyğəmbərin nəslindən olmayacaqdır. Sən ərəblərin nəslindən olan qadına evlənməlisən. O peyğəmbərə "Nəbiyyül Üzza" deyirlər. İlahi buyruq budur, ərəblər arasında bir qadın var, adı Qadirə, onunla evlən və nur ona keçəcəkdir. Qaydar yuxudakı bu xəbəri alınca oyandı və çox sevindi. Yuxuda gördüklərini öz qövmünün yaşlıları, dostları ilə paylaşdı. Dörd yana adamlarını göndərdi. Özü də atlanıb əsli-nəsli ərəb olan qadınların içərisində Qadirə adlı qadını axtarmağa başladı. Nəhayət, Cürhüm qəbiləsinin yurduna gəldi. Burada Qahtan oğlu, Yarəb oğlu, Əmir oğlu Zühülün qızı Qadirəni tapdı. Cürhümlü qadınlarının arasında ondan gözəl üzlü, əxlaqlı, gözəllik və yetkinlik sahibi olan bir qadın yox idi. Qaydar qızı istədi, aldı, evləndi və yurduna götürdü. Qadirə hamilə oldu. Rəsulun Nuru Qaydarın alnından Qadirə xatunun alnına keçdi və par-par işıqlandı. Qaydar bu halı görəndə Adəmin sandığını açıb tamaşa etməsini istədi. Çünki ömrü sona çatırdı və Rəsulun Nuru da onun alnından ayrılmışdı. Çalışdı, amma sandığı aça bilmədi. Çünki o Allah tərəfindən göndərilmiş bir peyğəmbər deyildi. Elə bu zaman göydən bir səda gəldi:

– Ya Qaydar, dur, sandığı bu tərəfə gətir, əminin oğlu Yaqub peyğəmbərə ver.

Bu zaman İshaq peyğəmbərin oğulları Qaydarla çox mübahisə etdilər. Çəkişdilər:

– Sandığı bizə ver. Axırzamanda bir peyğəmbərin nəslinizdən gələcəyi deyilir. Qaydar onlarla razılaşmadı və sandığı onlara vermədi. Bu anda səmadan bir səs eşitdi. Buna itaət edərək sandığı boynuna bağlayıb Məkkədən Şama yollandı. Sandığı əlindən buraxmadan oraya kimi apardı. Kənan elinə çatdı. Sandığın içərisindən bir avaz gəldi və səs Kənan elindən Yaqub pey-

ğəmbərin qulağına çatdı. Yaqub oğullarına xəbər verdi:

– Ey övladlarım, əminiz oğlu Qaydar gəlir, durun qarşılayın.

Yaqub Qaydarı görüncə ağladı:

– Ey Qaydar, – dedi, – güclü düşmənlə vuruşdun, ya qayğılandın, ya bir pis iş gördun və ya zərərə düşdün? Üzündə olan Nur səndən silinmiş, olan gücün bitmiş.

Həzrəti Yaqubun on iki oğlu Qaydarın qarşısına qaçdılar. Qucaqlaşıb öpüşdülər. Qaydar Yaquba dedi:

– Ya Allahın nəbisi, üzümdəki nurun yox olması səbəbi evdəki xanımımın hamilə olmasıdır. Nur məndən xanımıma köçdü.

Yaqub peyğəmbər:

– Ey Qaydar, bizim nəslimizdən, yoxsa başqa qəbilədən evləndin?

Qaydar ağac altında yatmasını, yeddi yüz qurban kəsməsini, ona işarət gəlməsini Yaqub peyğəmbərə incəlikləri ilə nəql etdi. Bir neçə gün Yaqub peyğəmbərin yanında qaldı və dincəldi.

Bir gün Yaqub peyqəmbər Qaydara:

– Ya Qaydar, – deyə müjdələdi. Sənə gözaydınlıq olsun ki, bu gecə oğlun doğuldu.

Qaydar bu şad xəbəri alınca:

– Ya Allahın nəbisi, bunu haradan bildin?

Yaqub peyğəmbər cavab verdi:

– Bu gecə yuxuda gördüm ki, göydən mələklər rəhmət və bərəkəti ilə yerə endilər. Yer ilə göy arasında bir dirək ucaltmışdılar. Anladım ki, Məhəmmədin atalarından biri dünyaya gəldi. Rəsul nurunun parıltısından dünya işıqlandı, nurlandı, təptəzə göründü. Bundan anladım ki, sənin oğlun dünyanı şərəfləndirmişdir.

Qaydarın səbri qalmamışdı. Yaqub peyğəmbər və övladları ilə görüşüb Kənan diyarından ayrıldı. Dönüb evinə gələndə gördü ki, doğrudan da, bir oğlu olub. Rəsulullah (s.ə.s.) nuru onun alnında parlayırdı. Çox sevindi. Adını Hamel qoydu. Hamel böyüdü, yetkinlik yaşına yetişdi. Qaydar onu qarşısına aldı, andlaşdı, vəsiyyətini yazdı.

– Ey oğul, gəl səni cəddin və babanın məqamına yetişdirim.

Həmən oğlunu götürüb Məkkeyi-mükərrəmə apardı. Orada İbrahim peyğəmbərin məqamını göstərdi. İsmail peyğəmbərin mübarək məzarını da göstərdi. Ölüm mələyi bu arada insan şəklində gəldi. Qaydarla yoldaş oldu, birlikdə Kəbeyi-şərifə gəldilər. Sonra Əzrail Qaydara dedi:

– Ey Qaydar, gəl qulağına bir öyüd verim.

Qaydar qulağını irəli, ona tərəf uzatdı. Ölüm mələyi Əzrail bu anda Qaydarın ruhunu aldı. Qaydar yıxıldı, can verdi.

Qaydar oğlu Həməl:

– Ey ölüm mələyi, atamı nə üçün öldürdün?

– Hələ bax gör, ölüdür, yoxsa dirimi?

Həməl irəliyə gəldi, baxdı, atası dünyadan köçmüşdü. Döndü arxasına baxdı. Ancaq Əzraili görmədi. Oturdu, atasının ölümünə xeyli ağladı. Bu vaxt Allahdan olacaq bir karvan gəlib çıxdı. Karvanda İshaq peyğəmbərin oğullarından bir böluk adam da var idi. Gəldilər, Qaydarı yuyub sonra da kəfənlədilər. Məkkənin Əbu Qubeys dağında dəfn etdilər.

Həməl evə döndü. Vaxt keçdi, o böyüdü, igidlikdə ad qazandı. Bütün xalqın içərisində əlaçıqlığı, comərdliyi ilə tanındı. Hərir adlı bir qadınla evləndi. Ondan bir oğlu dünyaya gəldi, adını Sabit qoydu. Sabit də böyüyüb boya-başa çatdı. O da bir xatun alaraq evləndi və ondan bir oğlu oldu. Adını Hümeysə qoydu. O da böyüdü, evləndi, bir oğlu oldu. Adını Yəsə qoydu. Rəsulun nuru bu dəfə uşağın alnında göründü. O böyüyəndən sonra evləndi, oğlu oldu. Adını Üdüd qoydular. O da böyüdü, evləndi, bir oğlu dünyaya gəldi. Ona Uddə adı verdi. Gur səsi və şan-söhrəti vardı. Onun səsi yeri-göyü titrədərdi. İsmail oğullarından ilk qələm tutan Udda olmuşdu. Yazı yazan da o idi. Hər şeydən xəbəri və bilgisi də vardı. Bilikli bir şəxs olmuşdu.

## *ADNANIN DOĞULMASI*

Udda evləndi, oğlu oldu, adını Adnan qoydu. Adnan dünyaya gələndə Rəsulun nuru onun alnında par-par parıldayırdı. Ona nə üçün Adnan demişdilər? Çünki bunu onun camal və cəlalından bildilər. Bildilər ki, Allahın Rəsulu (s.ə.s.) Adnanın nəslindən dünyaya gələcəkdir. Adnanı bu üzdən xalq çox xöşbəxt sayırdı. İns və cin onu öldürmək istədilər. Ulu Tanrı mələklərə tapşırdı, yəni özunə vəkil etdi: “Adnanı qoruyun. Heç kim ona ziyan və pislik etməsin”, – deyə buyurdu.

Bundan sonra Adnanın oğlu oldu, adını Məd qoydu. Rəsulun nuru onun alnına keçdi. Ona niyə Məd deyirdilər? Çünki o hərb və savaş adamı idi. Daima İsrail oğullarını qarət edərdi. Haraya getsə və savaşsa, həmişə Allahın köməyi ilə qalib geri dönərdı.

Məd evləndi. Onun bir oğlu oldu. Adını Nizar qoydu. Rəsulun nuru Nizarın alnına keçdi. Nizar evləndi, bir oğlu dünyaya gəldi. Adını Müdar qoydu. Rəsulun nuru onun alnına keçdi, parıldadı, bütün dünyanı nura boyadı. Müdarı görən hər bir insan ona aşiq olurdu. Çox zəhmli, əxlaqlı bir insan idi. Atası Nizar oğlu Müdarla andlaşdı və məktub yazdı. İsmail peyğəmbərdən sonra andlaşma məktub və müqavilələrini Kəbənin içinə qoyurdular.

Bu adət Fil ilində Həzrəti Məhəmmədin anadan olmasına kimi davam etdi. Sonralar müqavilə, andlaşma yazmağa heç bir ehtiyac qalmadığına görə bu adət də ortadan qalxdı.

## *İLYASIN DOĞUMU*

Müdar evləndi, öz qəbiləsindən Kərimə adlı bir qızı aldı. Bu qadına Ümmi Həkimə də deyilirdi. Müdarin Ümmi Həkimədən bir oğlu oldu, adını İlyas qoydular. Allahın lənətinə gəlmiş şeytan, o məlun iblis Rəsulun nurunun İlyasın alnında par-par işıq saçdığını görərkən ümidsizləşdi. Artıq o anladı ki, Məhəmməd (s.ə.s.) gerçəkdən bu dünyaya gələcəkdir və hiylələri ilə Rəsulun ata-babalarına ziyan verə biməyəcəkdir.

İlyas da böyüdü, ağıllı, yetkin oldu. Ərəbil-Ürba içərisində bir məhkəməyə və ya davaya baxılması lazım olarsa, o gəlməmiş baxılmazdı və izdiham sakitləşməzdi, dava da bitməzdi.

İlyas vaxt gəlib çatanda öz qəbiləsindən Naciyə adlı bir qadına evləndi. Ondan bir oğlu dünyaya gəldi. Adını Müdrik qoydular. Nə üçün ona bu adı verdilər? Çünki bütün Şərqdən Qərbə kimi yönləri qavrayıb anlayırdı.

Müdrik böyüdü, Fəra adlı bir qadınla evləndi. O qadından bir oğlu oldu, adını Xuzeymə qoydu. Xuzeymə böyüdü, lakin evlənmədi, qəbiləsinin yanında qaldı. Bir gecə yuxusunda babalarından Taleh oğlu Vəddənin qızı ilə evləndiyini gördü. Ertəsi gün yuxudan qalxandan sonra hazırlıq gördü. O qızı ailəsindən istədi, evləndi. Qadın hamilə qaldı və bir oğlu oldu. Adını Kinanə qoydu. Kinanə də evləndi. Bir oğlu dünyaya gəldi. Adını Nazr qoydu. Nazrın nəslindən dünyaya gələnlər Qureyş adını aldılar.

Nazr bir gecə yuxu gördü. Belində yaşıl zəncir uzanmışdı və bir ucu göyə kimi uzanırdı. Nurdan olan budaqlar dünyanı tuturdu. Ağ dərili insanlar o budaqlardan tutmuşdular. Nazr yuxusundan oyandı. Bir yuxu yozana yuxusunun yozulmasını istədi. O, yuxunu belə yozdı. Yuxuyozan:

– Sən izzət və kəramət sahibi olan nəvənlə şərəflənəcəksən.

Nazr Allahın evi olan Kəbəyə gəldi, orada sakitləşdi. O da evləndi, oğlu oldu. Adını Malik qoydu.

Malik də böyüdü, ululandı, evləndi. Bir oğlu oldu, adını Lüeyy qoydu. O da böyüyüb evləndi, bir oğlu dünyaya gəldi. Adını Qalib qoydu. Qalib də evləndi, bir oğlu oldu, adını Mürrə qoydu. Mürrə də evləndi, oğlu dünyaya gəldi, adını Qusay qoydu. Qusay da evləndi bir oğlu oldu, adını Muğirə qoydu. Muğirənin ləqəbi Əbdümənaf olmuşdur.

## ƏBDÜMƏNAFIN GÖZƏLLİYİ

Əbdümənaf gözəl üzlü, igidlik və şücaət sahibi idi. Gözəl adı kimi mərdliyi, gözəlliyi haqqında cahanda çox yaxşı sözlər deyilirdi. Dörd tərəfdən xaqanlar, məliklər ona hədiyyələr göndərirdilər. Hacılara su paylama onun vəzifəsi idi. Kəbənin açarları onun əlindəydi. Onun beş oğlu, yeddi qızı vardı. İlk doğulan oğlunun alnında Rəsulun nuru parıldayırdı. O, doğulan gecə Məkkə şəhəri, dağları, dərələri par-par parlayırdı. Əbdümənafın evinin üzərinə bir nur çəkilmişdi. Yerdən göyə kimi uzanırdı. Hilal qızı Ətiqə o uşağın süd anası idi. Əbdümənaf uşağın adını Ömər qoydu.

Hilal qızı Ətiqə ona çox yaxşı baxdı, gözəl böyütdü. Onun gözəlliyinə heyran olmuşdu. Ömər böyüdükcə üzündəki nur da artırdı. Xalq arasında söz-söhbət dolaşmağa başladı:

– Din kitablarında yazılan Rəsulun doğuşu yaxınlaşdımı?

## ÖMƏR ƏL-ÜLA

Kahinlər, keçmişdən xəbər verənlər, münəccimlər kiçik Ömərin alnındakı nuru görüncə qorxuya düşdülər. Bir-birinə deyilən bu xəbərlə Əbu Qubeys dağından, Hira mağaralarından Məkkəyə gələrək uşağın alnındakı parlaqlığa baxırdılar. Göydəki ay sanki bunun alnında parıldayırdı? Nə idi, nur belə? Nəhayət, bu qərarı verdilər: "Axırzaman peyğəmbərinin gəlməsi yaxınlaşır".

Əbdümənaf oğluna hər kəs tərəfindən böyük marağı duyduqca ona zərər verməsinlər deyə evdə saxladı. Üzünü örtdü. Evdən bayıra çıxanda yenə üzüörtülü olurdu.

Bu nur qarşısında şeytanın nəsli qaçacaq yer tapa bilmirdi. Bütlərin içinə girir və xalqın ruhuna belə təkliflər deyərdi:

– Bizi ortadan qaldıranların cahana gəlməsi yaxınlaşır. O bizi öldürəcək, həyatımıza qəsd edəcəkdir.

– Kimdi bu seytanın qorxduğu? Heç şübhəsiz ki, münəccimlərin də gələcək haqqında xəbər verdikləri axirüzzəman peyğəmbəri idi. İblis nəsli də ondan ürkürdü.

Əbdümənaf oğlu Ömər böyüyürdü. Getdiyi yerlərdə bir xeyli avazlar eşitməyə, başladı. Nədir bu avazlar? Dağlardan, daşlardan, bitkilərdən, hər şeydən ona bir xeyli səslər gəlirdi. Nədir bunlar belə?

Bunların hamısı Ömərin peyğəmbərlik nuruna bir salamı idi.

Əbdümənaf artıq son günlərini yaşadığını hiss edirdi. O, oğlu Ömərin

əlindən tutdu, and verdi, vəsiyyət etdi. Bir neçə gündən sonra gözünü bu fani dünyaya yumdu. Ömər atasının vəzifələrini öz üzərinə götürdü. Onun adı dörd bir cahanda yayıldı. Bütün məliklər ona hədiyyələr göndərirdilər. Evi hədiyyələrlə dolub daşırdı.

Əbdümənaf oğlu Ömərin az zamanda gözəl bir dəliqanlı olması qəbilə başçılarının, hökmdarların qulağına çatmışdı. Bir çoxları ona xəbər göndərirdilər:

– Ya Əbdümənaf oğlu Ömər, istəsən qızımızı sənə verərik.

Bəzi başçılardan belə xəbərlər də gəlirdi:

– Əbdümənaf oğlu Ömərə qızımızı verdiyimiz kimi evlərimizə, məmləkətimizə də məlik olması üçün razılıq verəcəyik.

Ömər heç birini istəmirdi. Nədən istəmirdi?

Ömərin ruhuna bir ilham gəlmişdi, alnında daşıdığı Rəsulun nurunun yaxşı bir anadan doğulmuş övladına keçməsini görmək istəyirdi.

## *ÖMƏR ƏL - ÜLANIN ÜZÜNTÜSÜ*

Daxilində dərin bir sıxıntı keçirirdi. Onun Rəsulun nurunu daşıyacaq oğluna ana kim olmalıydı? Vaxtaşırı Kəbəyə girir, Ulu Tanrıya yalvarırdı:

– İlahi, bir halal südəmmiş xanım nəsib eylə. Elə xanım ki, Rəsulun nuruna layiq bir övladı mənə yetişdirsin.

Camaat artıq ona Ömərül-Üla adını qoymuşdu. Ömərül-Ülanın çox gözəl vərdişləri var idı. Babası Qusayın qurduğu planla hərəkət edirdi. Ən birinci xüsusiyyəti comərd və əliaçıq idi. Əliaçıqlara Ulu Tanrı həmişə daha çox verir və daima əllərini dolu saxlayır. Qəriblərə çox yardım edərdi. Yaxınlarına kömək edər, onlar üçün süfrələr açardı, hətta havada uçan quşlara, vəhşi heyvanlara belə yemək verərdi.

Yaradılışı gözəldi, ruhu sevgi fəryadındaydı. Ədalətə böyük önəm verir, hökmdarlar səviyyəsində yüksək sayılırdı. Bilikləri geniş, ağıl və elmdə yeganə idi.

Məkkədə və ətrafındakı bütün ərəb ululları:

– Ömərül-Ülanın idarəçiliyindən gözəl bir idarəçilik yoxdur, – deyirdilər. Hərəm qazılığı, rəisliyi də özünə bəxş edilmişdi. Babalarının babası olan İsmail peyğəmbərdən bir müddət sonra dünyaya gələn Hz. Nizarın bayrağı, Hz. İbrahimxəlilin əsası, Şit peyğəmbərin xələtı da Ömərül-Ülaya verilmişdi.

## KƏBƏ VƏZİFƏLƏRİNİ ÖZ ÜZƏRİNƏ GÖTÜRÜR

Ömərül-Üla artıq Kəbəyə gələn hacılara su verməyə, Kəbə açarlarını daşımağa, ziyarətçiləri yedirdib-içirtməyə və Nədvə evində toplantı başçısı vəzifələrinin hamısını görməyə başladı. Dəliqanlı iyirmi yaşına çatanda öz həyatını Kəbə və xalqına xidmətə həsr etməyə başladı. Ziyarətçilərin və hacıların xidmətində durdu. İlin Zilhiccə ayı gəlincə: "Ey Qureyş xalqı, yanıma gəlin", – deyərək onları toplayır, bir yüksək yerə çıxaraq xalqa müraciətlərini edərdi:

– Ey Allahın sevdiyi xalq, Ulu Tanrıya şükürlər olsun ki, babalarımız Hz. İsmailın və Hz. İbrahimin qurduqları Allahın evinin xidmətləri bizə nəsib olmuşdur.Torpaqlarında rahat yaşayan o babalarımız ki ulu kişilər idi və xeyirli iş görərək dünya evindən köçməyin lazımlığını bilmişdilər. Ey Qureyş oğulları, siz Ulu Tanrının qüdrətli insanlarısız. Məkkəyə ziyarətə gələnlər Allah-təalanın əziz qonaqlarıdır. Sizin vəzifəniz onları görüb izzət, hörmət və xidmət etməkdir.

Qureyş camaatı babaları Qusayın ölümünü heç vaxt unutmurdular. Hər ilin son ayında Həcc vaxtı mallarından, mal-qarasından bir qismini ayırardılar, nəzir edərdilər və çıxarardılar. Bunlardan hacılara yemək bişirərdilər. Bunlarla bərabər, Ömərül-Üla öz mallarından daha çox çıxarar, qonaqları yedirərdi. Kimsənin nəzirini lazım olmadıqda almazdı.

Elə gün olurdu ki, ziyarətçi karvanları dağı, daşı tuturdu. O, dəvələri otla doydurur, sahiblərinə isə yemək verirdi. Dəriləri bir-birinə bağlayaraq üstü ilə suyu düzəltdiyi hovuza axıdırdı. Bütün hacıların mal-qarasına o hovuzundan su verirdi. Hər tərəfdə süfrələr, süfrə örtükləri hazırlanırdı. Nə gözəl mənzərə ...

İnsanların insanlara yardımı nə gözəl nemətdir. Gecə-gündüz çağrılmadan süfrələrə oturub-qalxırlar, ac qadınları da doydururdular. Cürbəcür nəfis, ləzzətli yeməklər ən gözəl xatirə olaraq qalırdı.

Bu günlərdə Mina bazarları da ayrı bir gözəllikdə olurdu. Burada da süfrələr döşənilir, yeməklər,sular hazır olurdu. Çörəklər doğranır, qızardılır, üstünə yağ tökülürdü. Ən üstdə isə kəsilmiş dəvə və ya mal ətindən düzəldilmiş küftələr qoyulurdu. Yəxni, yəni ət yeməkləri ərəblərin çox xoşuna gələrdi. Ət yağda qovrulardı. Yağda qovrulmuş xurma da çox dadlı olurdu.

Hacıları geri göndərmək vaxtı gələndə yenə bu cür qonaqpərvərlik göstərilirdi. Hər il işi bu idi və comərdliyi ilə şöhrət qazanmışdı. Çox deyirdilər: "Ömərül-Ülanın süfrəsinin yeməkləri harada var?" Bu söz bir məsəl kimi çəkilirdi. Bundan başqa, Əbdümənafın sevimli oğlunun adı comərdlikdə çıxmışdı.

## *BÖYÜK QITLIQ İLİ*

Öмərül-Ülanın bu şöhrəti diyar-diyar yayıldığı vaxtda Məkkəni böyük bir qıtlıq sarsıtmışdı. Kim kimin qarnını doyduracaqdı? Kim kimin yeyəcəyindən ayırıb Ömərə verəcəkdi? Kim kimi qonaqlamağa alacaqdı? Heç kim. Kimsə kimsəyə kömək edə bilmirdi. Yardım göstərmək imkanı yox idi.

Ömərül-Üla bunun çarəsini tapdı. Xeyli dəvə yükləyib Şam iqliminə göndərməyi düşündü. Çünki o zamanlarda Şamla Yəməndə ticarət inkişaf etmişdi. Ömər Şama gedən Qureyş tacirlərindən vergi alınmaması üçün Bizans imperatorunun razılığını almışdı. Yəmən də Həbəş imperatorunun əlində idi. Eyni razılaşmanı Nəcaşidən də almışdı. O günlərdə Bizans əyalət paytaxtı Ankara idi. Ərəb tacirləri Suriyadan Ankaraya kimi gedirdilər.

Dəvələrə mal yüklədən Ömərül-Üla adamlarını toplayaraq onlara dedi:

– Ey karvan əhli, yolunuz Şam iqlimidir. Bütün dəvələrə mərcan yükləyin. Bunları Şama götürün və qurudulmuş çörək parçaları gətirin.

Camaat eləcə də etdi. Karvan yola düşdü. Mərcanlar satıldı. Torba-torba quru çörək parçaları alıb dəvələrə yükləyib geri gətirdilər.

Yenə Zilhüccə ayı gəlmiş, hacılar Məkkəyə dolmuşdular. Ancaq heç kim bu qıtlıq ilində keçən illərdəki bolluq süfrələrinin açılmasına inanmırdı. Bir qisim xalq:

– Ey Ömərül-Üla, bu il Kəbə ziyarətçilərinə süfrələr açacağıqmı? Yemək verə biləcəyikmi? – deyə kədərlənirdilər.

Bir gün bütün Məkkə camaatı gözlərinə inanmadılar, heyrət içində qaldılar. Yenə keçmiş günlər kimi süfrələr açılmışdı. Ərəfat dağının süfrələrində çanaqların içərisində qurudulmuş çörək parçalanmış, öncəki illərdə olduğu kimi üzərinə yağ sürtülmüşdü.

## *BOLLUQ NECƏ YARANMIŞDI?*

Bu xalqı düşündürən Ömərül-Ülanın ağıllı fikri idi. Hamı bu gözəl yeməyi doyunca yedi. Ziyarətlərini başa çatdırıb hacı kimi vətənlərinə döndülər. Bundan sonra Ömərül-Ülanın adını "Haşim" qoydular. Haşim "çörəyi xırdalayan, parçalayan" mənasını verirdi. Ölkələrinə dönənlər ondan, onun kərəmindən bəhs edirdilər. Çox keçmədi ki, Şərqdən Qərbə kimi dillərdə "Haşim" adı və kərəmi ilə dolaşmağa başladı.Yalnız kərimliyi ilə dolaşırdı? Xeyr!

Onun Rəsul nuru da o zamanın məlik və hökmdarlarının qulağına çat-

mışdı. Gördüyü xeyirli işlər haqqında söhbətlər dunyanı dolaşırdı. Bir çox insanlar biri-birindən soruşurdu:

– Bu nur necə bir nurdur?

Bilənlər cavab verirdilər:

– Bu nur atadan oğula, alından alına keçən nurdur.

Tövratın müqəddəs səhifələrini oxuyanlar deyirdilər:

– Ərəb qövmü içərisindən bir peyğəmbər gələcəkdir.

Eyni şeyləri İncili oxuyanlar da söyləyirdilər. Keşişlər bunları deməkdə heç də geri qalmırdılar. Səma və ulduzları seyr edən münəccimlər də:

– Bu sifətdə və bu nişanla ərəblərin içindən bir məşhur peyğəmbər gələcəkdir. Bu sifət və məşhur nişan altında parlayan peyğəmbərlik nuru, işığı idi.

– Bizans imperatoru, Həbəş məliki Nəcaşi Haşimə elçilər yolladı:

– Buyurun, hökmdarımızın hədiyyələri, − deyərək çoxsaylı, qiymətli hədiyyələri təqdim etdilər. Rum elçiləri:

– Ey Haşim, Qeysərimiz sizinlə yaxınlaşmaq istəyir. Sizə öz qızını verməyi arzulayır.

Həbəş elçiləri:

– Ey alnında işıqlar parlayan ulu başçı, böyük Nəcaşimiz mübarək evinizdə qızlarımızdan birini görmək istəyir, sizə yaxın olmaq arzusundadır.

Haşim təklifləri dinlədi:

– Sizə təşəkkürlər edirəm, amma mən ata-babalarımızdan aldığım öyüdlərə görə hərəkət edəcəyəm. Xahiş edirəm, yazılmış cavablarımı hökmdarlarınıza çatdırın.

Haşim atalardan ona verilən öyüdü və etdiyi andlaşmanı bildirdi. Tezliklə məktublar yazdı və elçilərə verdi. Məktubları aldıqdan sonra Nəcaşi ilə Rum Qeysəri ona bir daha qız təklif etmədilər.

Haşım evlənməyəcəkmi? Evlənəcəkdi. Amma ona nə Həbəş, nə də Bizans qızı lazım idi. O, Məkkəli bir qızla evlənəcəkdi. Çox keçmədi ki, bir toy eyləyib öz məmləkətindən bir qıza evləndi. Vaxtı gələndə bir oğlu oldu. Adını Əsəd qoydu. Amma Əsədin alnında nur yox idi. O, günəş kimi parlamırdı, nə baş vermiş ki, uşaqda nur yoxdur. Haşimin ürəyində bir intizar vardı. Tanrıdan uşaq dilədi. Sonra daha dörd qızı dünyaya gəldi. Bunlara Ruqiyyə, Xalidə, Zəifə, Şəhiyə adlarını qoydu.

Haşim içində dərin həsrət hissi keçirirdi, oğlu olmayacaqmı, Rəsulun nuru alnında parlamayacaqmı?

## *KƏBƏDƏ QEYBDƏN GƏLƏN SƏSLƏR*

Haşim bir gecə Kəbəyə təvaf üçün getmişdi. Birdən qeybdən naməlum səslər duymağa başladı. Bu səs haradan gəlirdi? Yerdən gəlmirdi. Yüksəkdən, göydən ona bir nida gəldi:

– Ya Haşim, sənə Əmrın qızı Səlmaya evlənməyi tapşırırıq. O qızın qəlbi, könlu, özü və namusu tərtəmizdir. Onun vüsalını istə, çox mal sərf et. Nəslindən Məhəmməd gələcək, Tanrı səni mükafatlandıracaqdır.

Bu səsləri eşitdikdə Haşim həyəcanlanıb çaşmışdı. Bunların mənası nədir? Həmən qalxdı. Kəbənin qapısından həyəcanla çıxıb evə doğru getdi. Gecəni böyük səbir və sükunət içərisində keçirdi. Fəqət qulağında qeybdən gələn o səs cingildəyirdi.

– Ey Haşim, sənə Səlmanı sağ-salamat veririk.

Abdüմənaf oğlu Nofəl səyahətə çıxmış olduğundan yanında olan qardaşları Əbdüşşəms ilə Müttəlibə qulağına gələn səslər haqda danışdı. Onlara:

– Yəsrib bölgəsinin Mədinə şəhərində Əmr qızı Səlma adında bir qızı var. Onu tapmaq lazımdır, – dedi.

Qardaşı Müttəlib:

– Ya Haşim, mən o qızı yaxşı tanıyıram. Əslini də, nəslini də çox yaxşı tanıyıram.

Haşim soruşdu:

– Onda söylə hansı nəsildəndir?

Müttəlib:

– Səlma Nəccar oğullarından Zeyd oğlu Əmrın qızıdır. Əsilli bir ailənin xatunudur. Kişilərə görünməmiş, sayğılı bir qadındır. O, sənə layiqdir, sən də ona.

Haşim:

– Mənim düşündüyüm bir şey var.

Qardaşları:

– Nədir tədbirin, bizə de.

Haşim:

– Bu il Şam ticarətinə mən hazırlaşım. Dəvələri yükləyib yola çıxım. Mədinə də yolumuzun üstündədir. Həm də qızı öz gözlərimlə görüm. Əgər qismət olarsa, özüm qızı istəyib evlənərəm. Qismət olmazsa, Şama gedər, ticarətlə məşğul olaram.

Məkkəlilər və qardaşları Haşimin bu fikrini çox bəyəndilər:

– Ya Haşim, çox gözəl söylədin, dediklərini də bəyəndik. Tədbirin də yaxşıdır, amma səni tək buraxa bilmərik. Biz səninlə birlikdə gedirik, çünki

sənin indi neçə dostun, neçə düşmənin var! Həm də sən qız istəməyə gedirsən. Yaxşı olar ki, nəslinin, qəbilənin uluları sənin yanında getsin və gedəcəklər də.

Haşim bu sözləri eşidəndə:

– Siz yaxşı dediniz, – cavabını verdi.

Haşimin ürəyi artıq döyünürdü. Gecə olanda yenə Kəbəyə getdi. Yolda:

– Ey Tanrım, – deyirdi, qəlbimdəki niyyəti bilirsən. Mənə yeni bir nişan göstər bu gecə.

Kəbəni təvaf etdi, yatdı. Yenə səmadan bir səs eşitdi. Bu səs: “Ya Haşim, bu yolçuluqda arzun yerinə yetəcəkdir”, – dedi.

Haşim gözlərini açdığı zaman duyduğu bu sözü evə gəlib xəbər verdi, nəslinə bildirdi.

## *MƏDİNƏYƏ YOL HAZIRLIĞI*

Artıq hazırlığa başlanılmışdı. Kəboğullarından, Lüveyoğullarından və Qusayoğullarından qırx ulu karvana qatıldı. Dəvələrə ərzaq, ipək, yun və kətan parçalar yüklətdirdilər.

Bir səhər Məkkədən Şam yolu üstündə yerləşən Mədinəyə doğru karvan hərəkətə başladı.

Haşim də öz adamlarına dəvələrini hazırlatmışdı.

– Karvanı yoluna qoyun, nizamlayın!

İgidlər ərəb atlarına mindilər. Yedəklər də tamamlanmışdı. Öndə babaları Nizarın bayrağı dalğalanırdı.

Dəvələrdə nələr yox idi, nələr! Çadırlar, otaqlar, xəzinə və mətbəx əşyaları belə əskik deyildi.Yola çıxmadan öncə Kəbə ziyarət edildi. Ərəblər adət-ənənələrinə çox riayət edən bir qövm idi. Səfərdən sağ-salamat gedib-gəlmək üçün dualar edirdilər.

Səfərə çıxmış yolçular böyük bir dəstə halında mənzillərinə doğru irəliləyirdilər. Amma çox isti idi. Çeşidli vahələrdən(su və yaşıllıq olan sahə), qumluq, təpələr və vadilərdən keçdilər. Bir axşam vaxtı Mədinə şəhəri uzaqdan görünürdü. Yola çıxmış igidlər yenə böyük dəstələri ilə şəhərin qapısından içəri girdilər. Günəş batır, qaranlıq şəhərin üstünə çökür, sonsuz göy üzündə ulduzlar parlamağa başlayırdı. Mədinənin mərkəzinə gələndə gecə düşmüşdü. Fəqət ətraf qaranlıq vaxtı olmasına baxmayaraq, aydın idi. Amma hələ ay doğmamışdı. Bu işıq nədir? Bu nə ay, nə də ulduzların işığı idi? Bu bir nur idi. Ulu Tanrı Rəsul nurunu Haşimin üzündə cilvələşdirmişdi. Sanki ay doğmuş kimi hər tərəfə işıq saçırdı. Mədinə xalqı: “Bu necə bir

nurdur? – deyərək evlərindən bayıra çıxmışdılar, – haradan gəlir bu nur", – deyə mənbəyini araşdırırdılar. Gizli nurun gəldiyi tərəfə doğru irəliləyirdilər. Bu nuru gecə vaxtı şəhərə girən dəstənin içərisində olan bir insanın üzündə parladığını gördülər. Görənlər çaşıb qalmışdılar. Karvan yolçularının kim olduğunu bilmirdilər. Hər kəs bir-birindən soruşurdu:

– Kimdir bunlar?

Kimsə cavab verə bilmədi. Mədinəlilər onlara yaxınlaşdılar:

– Siz kimsiniz?

Haşimin qardaşı Müttəlib cavab verdi:

– Bunlar Kəbə ulularından, Hərəm seyyidlərindəndir. Qureyşoğulları böyükləri, qabaqda gedənləridir.

Mədinəlilər ondan soruşdular:

– Bəs bu nur sahibi kimdir?

Müttəlib:

– O nur sahibi nəslimizin hakimi, seyyidi, başçısıdır.

– Bu nur sahibinin adı nədir?

– Əbdümənaf oğlu Haşimdir.

Bu cavabı aldıqdan sonra mədinəlilər onlardan ayrıldılar, yalnız bir kişi orada qaldı. Bu mədinəli nə üçün qalmışdı? Soruşmaq, öyrənmək istədiyi bir şey vardımı? Onlardan başqa sualları öyrənmək hansı hiss idi? Bu Tanrı hikməti idi.

Mədinəli:

– Belə bir böyük karvan, çoxlu insan və igid dəstə halında haradan gəlib haraya gedirsiniz?

Müttəlib mədinəlinin üzünə baxdı. Üzü tərtəmiz idi. Səmimi sözləri onun daxilindən gəlirdi. Hiss etdi ki,bu sayğılı bir insandır.

– Ey mədinəli, nəslimizin hakimi, ulu insan Haşim Kəbədə göy üzündən gizli səslər eşitdi. Bu səslər ona "Yəsrib bölgəsinin Mədinə şəhərində Əmr qızı Səlma onun qisməti olacaqdır", – demişdir. O qızı tapmağa və atasından istəməyə gəlmişik.

Mədinəlinin üzü birdən-birə dəyişdi və həyəcanlandı:

– Əmr qızı Səlmanımı istəməyə gəldiniz?

Müttəlib cavab verdi:

– Bəli.

Bu kişi Səlmanın atası Əmr özü idi. Güldü:

– Ey ulu insanlar, siz mənin qonağımsınız.

Məkkəliləri yanına aldı. Şəhərdən kənarda çoxlu xurma ağaclarına bürünmüş gözəl bir yer vardı. Onları bura gətirdi, qonaq etdi. Haşimin çadırı açıldı.

Müttəlib onları qonaq edən kişiyə:

– Sən yüksək mərtəbəli, hörmətli bir insana bənzəyirsən, bizim ululara hörmət və qonaqpərvərlik göstərdin, təşəkkür edirik.

Zeyd oğlu Əmr:

– İstədiyiniz o qızın atası mənəm. Səlma mənim qızımdır.

Onu tanıyandan sonra şirin söhbətləri davam etdi.

Zeyd oğlu Əmr onlardan ayrılaraq evinə gəldi. Həmən süfrələr hazırlatdı, yeməklər bişirtdi. Şəhərdə olan dostlarına xəbər göndərdi. Mədinənin hörmətli şəxsləri onun evinə gəldilər. Məkkə ululları və hörmətliləri də gəldilər. Məkkədən xeyli hörmətli insanların gəlməsinin səbəbi qızı Səlmanı ululları Haşimə almaq istəmələri idi. Nəslindən olan yaxınlarının köməyi ilə səhərə kimi hər şeyi lazımınca hazırlayıb bitirdilər. Ertəsi günü Mədinə xalqına böyükdən kiçiyə kimi məkkəli qonaqların dayandığı xurmalığa dəvət edildi. Hər kəs ora tələsdi. Qonaqlara hörmət etdilər.

Bütün gözlər Haşimə baxır, alnındakı nura tamaşa edirdilər. Mədinə ululları bir-birinin ardınca gəlirdilər. Onlar məşhur qonaqların şəhərlərinə uğur gətirəcəyinə inanır və könüllərində razılıq edirdilər. Haşimi qucaqlayıb salamlaşırdılar. Sonra Qureyşdən gəlmiş hörmətli qonaqlarla görüşdülər. Az sonra süfrələr quruldu, yemək-içmək ortaya qoyuldu. Məclis başladı, o qədər maraqlı söhbətlər idi ki, vaxtın necə keçdiyi hiss olunmadı. Bütün mədinəlilərə bir əminlik gəldi ki, bu hörmətli və ulu insana heç kim əlindən gələn saygı, könlündən qopan sevgini əskik etməsin.

## MƏDİNƏLİ YƏHUDİLƏRİN NARAHATLIĞI

Haşimin alnındakı nur mədinəli yəhudilərin arasında yayıldı. O vaxt Mədinədə ayrı-ayrı camaat halında yaşayan yəhudilər öz məhəllələrində otururdular. “Bir ulu kişi gəlmişdir” xəbərini eşidən yəhudilərin hamısı böyükdən kiçiyə toplanaraq Mədinənin kənarına doğru axın halında getməyə başladılar. Haşimini görən yəhudilər ona çox diqqətlə baxdılar. Onların arasında Qaydun oğlu Ərmun adında bir məlun da var idi. Bütün yəhudilər onun sözündən kənara çıxmazdılar. Ərmun Haşimin alnındakı nuru gördükdə qəlbinə bir atəş doldu və ürəyinin yandığını duydu. Özü-özündən soruşurdu:“Bu nədir belə? Aydınlıq haradan gəlir? Bu nur sahibi Allahın sevdiyi qulldurmu?”

Ərmunun bu cür düşünməsi ilə gözlərindən yaş axması bir oldu. Bəli, Qaydun oğlu Ərmun Haşimin alnındakı Rəsul nurunu görüncə ağlamışdı. Yəhudilər: “Yanağındakı bu göz yaşları nədir?” – deyə soruşdular.

Qaydun oğlu Ərmun onlara cavab verdi:

– Necə ağlamayım, ey nəslim? Artıq dünyada bizlərə rahatlıq olmayacaq.

Sonra susdu. Yəhudilər:

– Nədən, ya Ərmun?

Ərmun içini çəkərək və gözlərinin yaşını silərək cavab verdi:

– Çünki İsrail oğullarının hörməti düşəcəkdir, Məkkə şəhərində bir peyğəmbərin doğulması vaxtı və saatı gəlib çatmaqdadır. O, peyğəmbər Abdullah oğlu Məhəmməddir.

Yəhudilər:

– Məhəmməddirmi?! – deyə qışqırışdılar.

Ərmun:

– Bəli, bu peyğəmbər bu günə qədər gəlmişlərə bənzəməyəcəkdir. O peyğəmbərlər insanları sözlə dinə dəvət edirdilər. Bu peyğəmbər insanları həm sözlə, həm də qılıncla dinə dəvət edəcək.

Yəhudilər heyrətlə:

– Sözlə və qılıncla? – deyə soruşdular.

Ərmun:

– Lazımdır ki, həm qantökən, həm də qılınc vuran olsun, – deyə qəmli-qəmli cavab verdi.

Yəhudilər həyəcanla soruşdular:

– Necə, qılınc vurulacaq?

Ərmun:

– Elə lazımdır, – deyə cavab verdi. Ümməti ona dayaq olacaqdır. Hökmdarlardan taclarını alacaqlar. Mən belə fikirləşirəm ki, bizim dinimizin hörməti qalmayacaq.

Mədinə yəhudiləri çox üzülürdülər. Ərmun qeybdən xəbər verir, nələr söyləyir? Görəsən, bu sözlər doğrudurmu?

Yenə Ərmuna dönərək:

– Sən indi niyə ağladın?

Ərmun:

– Ağlamağımın səbəbi budur ki, bu Haşimin alnında gördüyümüz nur, Abdullah oğlu Məhəmmədin nurudur. O, peyğəmbər Haşimin nəslindən zühur edəcəkdir.

Bu söz yəhudiləri ildırım vurmuşa döndərdi. Birdən-birə hamısının gözlərində sanki şimşək çaxdı. Nə düşünmüşdülər? Ağıllarından nə şeytanlıq keçmişdi?

Ərmunun bu gizli fikirlərini aşkarladılar:

– Belə isə birləşib bu adamı öldürüb alnındakı parıldayan nuru söndürmüş olarıq.

Yəhudilər bu qərarı verdikdən sonra Haşimin çadırı olan xurmalıqdan ayrılıb şəhərə döndülər.

Məkkəlilər də artıq mədinəlilərin hörmətinə dərəcəsiz qədər borclu qaldıqdan sonra Zeyd oğlu Əmrı Haşimin çadırına dəvət etdilər. Səlmanın atasına:

– Biz bura sənin qızını ulumuz Haşim üçün istəməyə gəldik.

Səlmanın atası Zeyd oğlu Əmr:

– Ey Hərəm böyükləri, sözünüzə "baş üstə" deyirəm. Amma sizdən bir istək və bir yardım xahiş edəcəyəm. Mədinə şəhərimizə yaxın bir bazar yeri var. Oraya "Qaynuqa oğulları bazarı" deyirlər.

Məkkəlilər:

– Eşitmişik, o bazarı, – dedilər, – yəhudilərin alış-veriş yeridir. Elə deyilmi?

Əmr:

– Bəli, − deyə cavab verdi, − yeddi gündür ora çox izdihamlı və sıxlıqdır. Çünki oraya dörd tərəfdən bir çox qəbilələr gəlir. Qızım Səlma da dostları ilə birlikdə oraya getdi. Orada alacağı bəzi geyim əşyaları var. Əgər istəyirsiniz, siz də o bazara gedin, hətta biz də gedəcəyik. Həm baxarsınız, həm də işlərinizi görərsiniz. Qızım haqda danışacaq ailəmiz orada olacaqdır. Səlma haqqında qərarı onlar verəcəkdir. İstəyirsiz, mən gedim, Səlmanı götürüb geri dönüm.

Haşim Əmrın bu sözlərini eşitdikdə:

– Yox, yox, – dedi, – elə bilirəm ki, ən yaxşısı bizim də o bazara getməyimiz, oralara baxıb görməyimizdir.

Haşim adamlarına dönüb dəvələri yükləməyi tapşırdı. Bir anda tacir malları dəvələrə yükləndi. Haşim və dostları atlara mindilər, "Qaynuqa oğulları bazarına" doğru hərəkətə başladılar.

Haşim Məkkədə Kəbənin günbəzindən gələn ilahi səsi düşündükcə Səlmanı görmək üçün ürəyində dərin həyəcan hiss edirdi. Allah tərəfindən ona təyin olunmuş bu qız kimdir? Necə qızdır? Gözəldirmi? Ona yar olacaqmı? Gələcəkdə həyat sürəcəyi xanım haqda hansı kişi özü-özünə düşünmür? Atlar düzlənib gəlirdi, arxada isə karvan.

## *RƏSUL NURUNUN PARLAMASI*

Haşimin alnındakı nur hər zamankı kimi görünürdü. Bazara gələn xalq bu nurun qarşısında birdən-birə özlərini çaşdırdılar. Hamı üzünü Haşim tərəfə çevirdi.

Bu nə işıqdı, İlahi? Axın-axın insanlar ona doğru qaçdılar. Gələnlər biri-birinin ardınca ona tamaşa edir, fikrə dalırdılar.

Bazar əhli aralarında bu xəbəri yayırdılar:

– Ay kimi gözəl, mələklər dərəcəsində olan bu insan bura gəlməklə bazarımızı şərəfləndirmişdir. Üzündə nur parlayır.

Bütün şəhər əhli nur haqqında eşidib yollara töküldülər. Haşimin üzünü görməyə tələsdilər. Bu zaman Zeyd oğlu Əmrın qızı Səlma da bunların arasında idi. Haşimin üzündəki nuru görüncə ürəyindən bir isti arzu keçdi. Bu nə gözəl gəncdi, nə aydın bir üzdü?! Bu cavana vurulmamaq mümkün deyildi!

Səlma özü-özünə düşündü:

– Bir qadına belə ayüzlü gəncin halalı olması nə qədər böyük xoşbəxtlikdir.

Bu vaxt Zeyd oğlu Əmr uzaqdan-uzağa qızını gördü. Haşim, doğrudan da, daha da gözəl görünurdü. Böyük izdihamlı bazar meydanı ona tamaşa edirdi. Deməli, qızının könlü də su kimi Haşimə doğru axacaq.

Birdən Səlma atasını gördü və ona tərəf qaçdı:

– Ata, bu gələnlər kimdir? Hansı nəsildəndir? Haradan gəlirlər?

Atası qızının bu cür maraqlanmasına çox sevindi və dedi:

–Ey qızım Səlma, bunlar Tanrı evinin əfəndiləridir. Bu üzü ay parçası kimi parlayan Əbdümənaf oğlu Haşimdir. Onun üzünün nuru atalarından oğullarına keçərək ona miras qalmışdır.

Səlma içində yaranmış şübhə ilə soruşdu:

– Bu necə mirasdır ata, bunun bir mənası varmı?

Əmr qızı Səlmaya bu cavabı verdi.

– Lazımdır ki, bu adamın nəslindən bir peyğəmbər dünyaya gəlsin. Bu nur o peyğəmbərin nurudur.

Səlma atasının bu cavabından könlündə böyük həyəcan duydu. Bu qəbilə camaatı nədən Məkkədən Mədinəyə, bu bazara qədər gəlmişdilər? Düşündüyünü atasına açıqlayaraq:

– Ata, bəs buralara qədər nə üçün gəlmişlər?

Əmr:

– Bura gəlməkdə məqsədləri səni məndən istəyib almaqdır.

Səlmanın qəlbi birdən-birə: “Onu kim üçün istəyəcəklər? Alnında nur

parlayan Haşimi üçünmü?” − deyə düşündü.

Atasından yenə həyəcanla soruşdu:

– Məni səndən kim üçün istəyəcəklər, ata?

– Əbdümənaf oğlu Haşim üçün, qızım. İndi sən də dostlarınla, böyüklərlə danış. Sonra söhbət edərik. Sözümüz bir olsun. Ona görə də onlara cavab verim.

Atası gənc qızın üzündə utanmaq hissini görəndə gülümsədi:

– Ya Səlma, utanma məndən. Qəlbindən nə keçir, mənə söylə.

Səlma gözlərini aşağı salaraq dilləndi:

– Ata, bilmirəm nə deyim. Bir gənc qız nə deyə bilər ki? İnsanın daxili, xarici kimi eyni ola bilərmi?

Səlma gözlərini atasının gözlərinə doğru qaldıraraq:

– Amma xarici kimi daxili də bir olmaz. Bir xalqın şərəfi böyüklərinin şərəfi ilə ucalır. Bunlar da necə qəbilədir, necə nəsildir? Bilmirik ki... Başqa ölkədən gəliblər, oranın camaatı yaxşıdır, ya pisdir necə bilək, − dedi.

Zeyd oğlu Əmr Səlmanın dəyişən düşüncələri qarşısında çaşıb qaldı. Necə də nazik əyirib sıx toxuyurdu. Qızına döndü:

– Ya Səlma, qızım, bu insanların pis adam olduqlarını sanmıram. Hələ Haşim dedikləri Əmirül-Üladır. Varlıq və kərəmi ilə hər yerdə şöhrət qazanmışdır. Daxili və xarici də çox yaxşıdır. Dünya xaqanları və tac-taxt sahibi sultanlar ona yaxın olmaq istəmişlər: “Sənə qız verim, – xəbər göndəriblər,– bizə qohum ol”, − deyiblər. Ancaq Haşim kiminsə verdiyi malı, nə də vediyi qızı qəbul etməmiş və evlənməmişdir.

Bu sözlərə Səlmanın əhvalı xeyli yaxşılaşdı. Demək, Haşim kimsəni istəməmiş, ancaq onu atasından istəməyə gəlmişdi.

– Yaxşı, məni istəməyinin səbəbi nədir?

– Qızım səbəbi budur: Haşimə bir gecə yuxusunda səmadan bir nida gəlib. Səs ona: “Ya Haşim, Yəsrib ölkəsində Nəccar oğulları qəbiləsində Zeyd oğlu Əmr qızı Səlma ilə sənin evlənməyin gərəkdir”, − deyib.

Artıq məsələ aydın idi. Səlmanın şübhələri bitmiş və üzündə olan bu gözəl igidlə evlənmə sevincini gizlədə bilmirdi. Bir az sonra ən yaxın ailə böyükləri də gəldilər, məsələ açıqlandı. Səlma üçün böyük qismətdir. Bu evlənənlər Tanrı yanında xöşbəxt olsunlar. Deyilmiş, sözləşmiş və bu qərara sevinmişdilər.

## *HAŞİM ÇADIR QURDURUR*

O biri tərəfdə Haşim qohum-əqrəbadan olan dəstə və karvanın da arxadan gəldiyini görüncə dedi:

– Burada çadırlar qurulsun!

Dəvələrdəki yüklər endirildi. Bəzənmiş çadırlar quruldu. Haşim qapı pərdəsi önündə gözəl üz, cüssəli bədən və parlaq alınla ətrafa baxmaq üçün durmuşdu. Camaat ona baxdıqca yenə ağılları başdan gedirdi. İş-gücü buraxıb bütün gözlər çaşqınlıqla ona dikilmişdi. Bazar xalqı nə qədər məşğul olsa da, toplananlar tərəfindən Haşimin dəvələrindən endirilən malların xeyli hissəsi elə ordaca satıldı. Gətirdiyi o gözəl və incə parçaların çoxunu toplananlar aldılar. O zaman çox məşhur olan Taif sahtiyanları (boyanmış və cilalanmış dərilər) bollu müştəri tapdı. Haşim çadırına girəndə bazardan insanlar artıq dağılmağa başlamış, bir-bir meydanı tərk edirdilər. Yerli dəliqanlılar evlərinə gedəndə qəlblərinə qısqanclıq hissləri dolmuşdu. Haşimi görməyənlərin də qulağına bu xəbər çatmışdı: "Hərəm camaatı Zeyd oğlu Əmrın qızı Səlmanı istəyir".

Mədinəlilərin içinə bir narahatlıq düşdü. Bəzilərinin isə bu xəbər heç xoşuna gəlmədi.

Nədən bu xəbər onların xoşuna gəlməmişdi? Çünki bir çoxları Səlmanın gözəlliyini bilirdi.

Səlma nədən qohum-qonşularının bu qədər sevimlisi olmuşdu? O, gözəl, yaxşı düşüncəli, ağıllı, tədbirli bir qız kimi Mədinədə ad çıxarmışdı. Səlma Mədinənin ən gözəl qızlarından biri idi. Gözəllik və yetkinlik sahibi idi. Daha nələrin sahibi idi? Böyük varıdatın sahibi idi. Saysız mallara malik hesab edilirdi. Əliaçıq, şəfqətli idi. Fəqirləri heç vaxt yaddan çıxarmazdı, onlara yardım edərdi. Nemətlərindən daima imkansızlara yedirdirdi. Bu, bir insanın fani həyatda və sonrakı əbədi həyatda onu ucaldan ləyaqəti deyilmi? Səlmada əsl ləyaqət mövcud idi. Bundan savayı onun xalqı Səlmanın öz aralarından getməsinə razı deyildi.

Əbdümənaf oğlu Haşim üçün Qureyş oğullarının ululları Səlmanın atasının yanına gəlmişlər. Evlənmələrini istəmişlər. Onların istək və sözləri Nəccaroğullarının böyüklərinin, gənclərinin ürəyinə xal salmışdı. Səlmanı qısqanırdılar.

## *SƏLMANIN DÜŞÜNCƏLƏRİ VƏ ŞEYTANIN MƏLUNLUĞU*

O gecə Səlma dərin bir daxili çırpıntı ilə çadırına çəkilmişdi: "Haşim doğrudan da çox gözəl igiddir. Hələ alnının ortsında parlayan nur, on dörd günlük aydan parlaqdır. Görəsən, bu bəyənilmiş gün yaxındadırmı? Onun halalı ola biləcəkmi?"

Səlma bu düşüncələrlə şirin bir xəyala dalmışkən birdən-birə çadırın

önündə yaşlı bir adam peyda oldu. Kimdi bu gələn? Səlmanın qapısına niyə belə zamansız gəlmişdi? Səlma bilmirdi, bilə də bilməzdi ki, Ulu Tanrının lənətlədiyi İblisdən başqa birisi olmayacaq.

Qapıdakı:

– Mən Haşim qəbiləsindən gəlirəm. Sənə bir xidmət edəcəyəm, bir xəbər verəcəyəm.

Bu səs Səlmanı daldığı xəyallardan ayırdı.

– Nə istəyirsiniz? – deyə səsləndi.

– İzin verin, xidmətinizdə olum.

İxtiyar Səlmanın izni ilə içəri keçdi. Gənc qız:

– Ey ixtiyar, nə xidmət üçün buraya zəhmət çəkib gəldiniz? Söyləyin, sizi dinləyirəm.

İblis ruhlu ixtiyar:

– Mən Haşimi tanıyanlardanam. Uşaqlıqdan tərbiyəsi ilə maraqlanırdım. Sənin də ağıllı, gözəl, əxlaqlı və tədbirli olduğunu eşitdim və nəsihət verməyə gəldim. Öyüdlərimi dinləsən, sənə xidmətim bu olacaq.

Səlma maraq içindəydi. Bu ixtiyar ona nə söyləyəcəkdi? Haşimdən nələr xəbər verəcəkdi. Bu düşüncə ilə:

– Xidmətin nə olacaqdır, ey ixtiyar? Arzularam ki, savabın qeyb olmasın. Buyurun, söyləyin, sizi dinləyirəm.

İxtiyar iblisanə sözlərlə belə başladı:

– Bu Əbdümənaf oğlu Haşim gözəl üzlü bir insandır. Böyük bir soyu, ikramı sevən atalarının kökünə sahibdir. Malı da, mal-qarası da boldur. Bütün xislətlərinə rəğmən bir neçə qüsuru vardır. Onları da sənə bildirməliyəm.

Adam bir az susdu. İxtiyarın bədəni dincəlirmiş kimi hal aldı. Sonra sözlərinə davam etdi:

– Pis vərdişlərini də bilməlisən ki, sonra inciklik olmasın. Əziyyət içində qalmayasan.

Səlmanı bir heyrət bürümüşdü:

– Davam et, ey ixtiyar, − dedi.

İxtiyar İblis bunu söylədi:

– Birincisi, Haşimin məşhur bir vərdişi var. Tamahkardır, xəsisdir. Malının çoxluğu da onun xəsisliyindəndir.

İkincisi, xanımından tez yorulur. Evləndiyi hər hansı qadınla on gün qalır, sonra buraxır. Onu tez boşayır, camaat bunu bilməz. O, qadınlar arasında sevgi və qayğısını itirir.

Səlma:

– Başqa hansı pis vərdişləri var?

İblisin özü olan adam yenə cavab verdi:

– Bir qüsuru daha vardır ki, o da qorxaqlığıdır. Düşmənin qarşısına çıxmaz. Düşmənə qarşı durmaz, qaçar.

Bütün ümidini bağladığı, bəyəndiyi, hətta könlünün bəyəndiyi bir sevgilinin bu dərəcədə pis olması qarşısında Səlmanın içini dərin bir kədər tutdu. Qolu-qanadı qırılmış kimi oldu. Çünki ərəblər arasında bu üç qüsur böyük eyib sayılırdı.

Səlma ixtiyar qiyafəsində həsədçi şeytana:

– Ey ixtiyar, mən bütün özümü itirmişdim. Məni dərin yuxudan oyatdın, qəflətdən qurtardın. Artıq mən Haşimin sevgilisi deyiləm.

Artıq seytan hiyləsinə müvəffəq olduğunu görüb sevinərək cildinə döndü və çadırdan aralanıb getdi.

Səlma könlünü əhatə edən ağrı buludları içərisində özü ilə başbaşa qaldı. Ümid və xəyallarının birdən-birə çökməsi onu tamamilə çaşdırmışdı və nə edəcəyini bilmirdi. Qara düşüncələr içərisində xeyli vaxt keçirdi.

Birdən dəvəçi libasını geymiş Şeytan yenidən Səlmanın çadırı önündə göründü. Səlmanın dayəsi çadırın bayırında idi. Ona:

– Mən Haşimin dəvəçisiyəm, – dedi, heç də Haşimin malına, mal-qarasına aldanmayın. Haşim bir çox qadınla evlənmiş və boşanmışdır. Bu onun adətidir, evlənir və tez də ayrılır.

Dəvəçi bunları söyləyib çadırın önündən uzaqlaşdı. Dayəsi Səlmanın yanına girib dəvəçidən eşitdiklərini ona olduğu kimi danışdı.

İkinci xəbərçinin sözləri Səlmanın qəlbinə ox kimi batdı, elə bil ki, yenidən vurulmuşdu.

– Doğrudan da, insanın xarici daxilinə bənzəmirmiş, – deyə düşündü. Fikri və könlü pərişan olmuşdu. Bəlkə, güclü küləklər qarşısında gözəl güllər də belə qopur, ləçəkləri ətrafa dağılır.

O biri tərəfdən Səlmanın atası, Nəccaroğullarının ən hörmətliləri ilə bir yerə toplanmışdı. Səlmanı Haşimə vermək haqda danışırdılar. Haşimi bəyənmişdilər. Bir qismi: "Bütün ərəblər içərisində Haşimdən əsilli, təcrübəli mal sahibi, saygı və sevgi sahibi yoxdur", – dedi.

Toplantı dağıldı. Zeyd oğlu Əmr Səlmanın cadırına keçdi. Vay, vay! Bu nədir belə? Səlma çox məyus halda oturmuşdu. Gözləri yaşlı idi bu qızın. Nə olmuşdu? Bir az əvvəl nə qədər şən idi. Bu vaxt ərzində nələr baş vermişdi ki, dərin bir kədər Səlmanın o gözəl üzünü tam dəyişmişdi. Zeyd oğlu Əmr:

– Qızım, ay qızım, – dedi.

Səlma gözlərini bir nöqtəyə dikib ağlayırdı.

Atası yenidən:

– Səlma, – deyə səsləndi.

Səlma atasının gəlməsini görmüşdü. Qalxdı. Çadırı hıçqırıq səsi bürümüşdü. Əmr qızına yaxınlaşdı. Saçlarını sığallayaraq:

– Nə baş vermiş? Nədən məyus və pərişansan? – dedi.

Səlma göz yaşlarını sildi. Atasının qolları arasında ixtiyarla dəvəçinin Haşim haqqında söylədiklərini ona danışdı. O danışdıqdan sonra Əmrı heyrət bürüdü. Səlma sözlərini bitirdikdə: "Qızım, qızım, – dedi, – Haşimin haqqında deyilən bu sözlər tamamilə yalandır. Üçü də böhtandir. Bunları Haşimin düşmənləri və istəməyənlər demişlər. Səni aldatmaq istəmişlər".

Səlmanın gözləri yenidən parladı. Atası ona doğrusunu söyləyirdi.

– Bu həqiqətdirmi, ata? – dedi.

– Əlbəttə, həqiqətdir. Yalan ola bilərmi? Sən dəli olmusan? Ağlın hara getdi? Haşim əlinin əliaçıqlığı, kərəmi şərqdən qərbə kimi insanlara bəllidir. Ömründə evlənməyib və boşanmayıb. Onun boşadığı bir qadın da yoxdur.

– Doğru deyirsən, ata?

– Əlbəttə, doğru.

– Bəs ərliyi?

– Ərliyi soruşursan? Onun ərliyi İbrahimxəliloğullarına Ulu Tanrı tərəfindən bəxş edilmişdi. Sənə söylənənlərin hamısı yalandır. Bu onun düşmənlərinin sözləridir. Bizim mədinəlilərin sözləridir. Bəlkə də sənin bizdən ayrılmağını istəmirlər. Haydı, ürəyindən bu şübhələri at, içindən bu sözləri çıxart. Min dəfə ayrı-ayrı şükürlər et ki, onun kimi səadət qapısı sənin üzünə açılmışdır. Bu səadət qapısından bütün varlığınla gir.

Əmr susdu. Yavaş-yavaş çadırın qapısına doğru getdi:

– Yaxşı düşün, qızım, – deyərək bayıra çıxdı. Öz çadırına getdi.

## *SƏLMA VƏ HAŞİMİN GÖRÜŞMƏSİ*

Səlma yalnız qalınca yenidən düşünməyə başladı. Atasının sözləri sönmək istəyən ümid və sevgi işığını qəlbində yandırmışdı. İndi nə edəcək? Nə qərar verəcəkdi? Qəlbindən bu hisslər keçirdi. Haşimin olduğu yerə gedəcəyəm, özünü bir daha gecə vaxtı görüm. Onun gözəlliyinə bir də baxım.

Kiminsə görməməsi üçün gecə paltarını geydi. Sonra çadırdan yavaş-yavaş çıxdı. Haşimin cadırı olduğu yerə doğru irəliləməyə başladı. Haşim də ürəyində Səlmanı çox görmək istəyirdi. O da:

"Gedim, Səlmanın cadırına tərəf, bəlkə, onun gözəlliyini çırağın işığında doya-doya seyr edim, görüm"- deyə düşündü. O da gecəyə uyğun qara

paltarını geydi. Səlmanın cadırına doğru çıxdı.

Atalar çox gözəl söyləmiş, qəlbdən qəlbə yol vardır. Könülləri bir, istəkləri bir idi. Onlar yarı yolda bir-birinə rastlaşdılar. İki könul döyünərək birləşdi. İki ruh, iki vücud qarşı-qarşıya gələrək ən dadlı bir vüsal anı yaşadılar. Səlma Haşimin üzünün nurunu görüncə utandı. Qızardı, rəngi dəyişdi.

– Ya Haşim!

Haşim bu səsi eşidincə həyəcanlandı. Anladı ki, bu gələn Zeyd oğlu Əmrın qızı Səlmadır. Haşim gecə paltarı geymiş Səlmaya doğru irəlilədi. Salam verdi, sonra da soruşdu:

– Ey Səlma, nədən çadırınızda bu gecə qalmadınız? Hansı səbəblə çadırıma doğru gəlirdiniz?

Səlma:

– Ey Seyyüdi Hərəm,  sizin tərəfinizdən bir ixtiyar adam çadırıma gəldi. Haqqınızda o qədər sizə layiq olmayan sözlər söylədi ki, ruhum peşman oldu. Ağlım, fikrim qarışdı. Son dərəcədə qəmləndim. Özüm-özümə dedim: "Gedib onun çadırına üzr diləyim. Onun üzünün gözəlliyini görüncə könlüm açılsın, daxilim bahara dönsün". Bu qərarı verib çadırımdan çıxdım və çadırınıza doğru gəldim.

Haşim bir quş civiltisinə bənzəyən bu sözlərin qarşısında Səlmaya:

– Xoş gəldiniz!  – dedi.  Uğur gətirdiniz. Mənə inanın, sizin yanınıza heç bir yaşlı kimsəni göndərmədim. Məndə üç böyük qüsur olduğunu söyləmişlər. Bizim nəslimizdə heç vaxt belə pis xislətlər olmayıb.

Səlma:

– Məni bağışlayın, ya Seyyid,  – dedi,  – anladım ki, mənə bu sözləri deyənlər həsəd aparanlardır. Düşmən fitnəsidir. İndi hər şeyi açıqca öyrəndim. Könlüm inandı. Amma, ey Seyyid, artıq məni atamdan, nəsil və qəbiləmizdən istədiniz. Sizdən nə qədər mal istəsələr, verin, əsirgəməyin. Sonra hamısını mən sizə geri verərəm. Hətta əl altından geri verərəm. Amma sizdən bir xahişim var!

Haşim soruşdu:

– Nədir sənin arzu və istəyin, ya Səlma?

Səlma:

– Birincisi, məni ata ocağımdan ayırmayacaqsan. İkincisi xahişim budur ki, mənim doğduğum oğlunu məndən alıb getməyəcəksən! Və...

Haçim həyəcanla dedi:

– Hamısı qəbul.

Səlma üçüncü sərtini də söylədi:

– Üçüncü şərtim də budur ki, başqa qadınlarla evləndiyin zaman bir yerə gəlməli olsaq, bu yerdə toplanmaq icazəsi məndə olacaqdır. Mən onlarla

istəsəm oturaram, istəsəm gedərəm.

Haşim:

– Hər şərtini qəbul etdim. Anlaşdıq, –dedi.

Səlma dərin bir nəfəs aldı. Bu sözlərdən sonra ayrıldılar.

Səlma çadırına döndüyü zaman özünü dünyanın ən bəxtiyar qadını sayırdı və gözlərinin qarşısında Haşimin mütənasib, gözəl vücudu, parlaq üzü canlanırdı. O, şərtləri bir-bir ağlından keçirərək təkrar edirdi:

– Ata ocağından ayrılmıram.

– Oğlum olarsa, yanımdan onu aparmayacaqlar.

– Başqa ortaqlar gələrsə, onlarla oturub-oturmamaq haqqı məndə olacaqdır, – deyirdi.

## *FİTNƏLƏR DAVAM EDİR*

O gecə daha bir fitnənin atəşi başqa ocaqda yandırılmaq üzrə idi. Kim bilir, bəlkə bu da İblisin fitnə-fəsadıdır.

Şam vilayətində bir hiyləgər kişi vardı. Tanrı ona uzun ömür bağışlamışdı. Yəhudi dilini bilirdi. Adını bilməyən yəhudi yox idi. İsrailoğulları ən uzaq yerlərdən qalxardılar, çöl, dağ, uzun yollar bilməzdilər, daima onun ziyarətinə gələrdilər.

Şeytan o gecə bu alim səklinə girmişdimi? Yoxsa doğrudanmı, bu ixtiyar alim Mədinəyə gəldi. Qaranlıq düşdüyü zaman Mədinə yəhudilərinin ulusu Qaytun oğlu Ərmunun qapısının önündə göründü. Dişi bir dəvəyə minmişdi. Üzərində çox bəzəkli, bahalı paltarları vardı. Qapıya çıxan xidmətçilərə adını dedi, Şamdan gəldiyini söylədi. Ərmun xəbəri alınca həmən evinin qapısına döndü. Böyük qonaqpərvərlik göstərərək ixtiyar alimi qarşıladı, içəri apardı.

Qaynuqa bazarı adamlarla dolduğu zaman bir çox yəhudi də ora gəlmişdi. Çünki yəhudilərin toplam olduqları Heybər qalaları da Qaynuqa yaxın idi. İxtiyar alim: “Bazarda və Heybərdə nə qədər yəhudi varsa, gəlsinlər yanıma”, – dedi.

Bu xəbər yəhudi qəbilələrinə bildirildi. Çox keçmədi ki, axın-axın yəhudilər ixtiyar İblisin hüzuruna gəldilər. Onun önündə diz çökərək dedilər:

– Ey din ulusu, sən heç zaman yolçuluğa çıxmamışdın. Bu yolçuluğun səbəbi nədir? Nədən yol zəhmətinə qatıldınız, yorucu yola çıxdınız? Bir istəyiniz varmı?

İxtiyar alim:

– Ey yəhudi qövmi, – dedi, – göydən enən kitablarda yazılır ki, ərəblərin içərisindən bir peyğəmbər çıxacaqdır. Dünya mələkləri üzərində hökmü

olacaqdır. Onun dini dünyada aşikar olduğu gündən artıq bizim dinimizin qiyməti qalmayacaqdır. Uluların etibarı qeyb olacaqdır. Bu gecə otağımda düşüncəyə dalmışdım. Kəlimullah Musa peyğəmbərin ruhundan mənə işarət gəldi. Deyildi ki, Hərəm sakinlərindən nur sahibi Haşim bin Əbdümənaf Qaynuqa bazarına gəlmişdir. Məqsədi Zeyd oğlu Əmrın qızı ilə evlənməkdir. Mənə verilən əmr budur: "Misirliİsrail oğulları ilə birləşək, bu toya mane olaq!"

Yəhudilər bu sözləri eşidəndə heyrət içində qaldılar. Qoca alim yenidən sözünə başladı:

– İndi hamınız birlikdə olun. Bu Haşimi öldürmək üçün çarə fikirləşin. Ta ki o qılınc vuran, qan tökən peyğəmbər dünyaya gəlməsin. Sizin də millətiniz və dininiz ortadan qalxmasın.

Yəhudilər təlaş içində idilər. O gecə:

– Ey din ulumuz, – deyə söz aldılar. Siz Şamdan bu yana qədər tək gəldinizmi?

Qoca İblis bu cavabı verdi:

– Xeyr, yalnız gəlmədim. Bir çox adamla yola çıxdım. Onlar arxadan gələcək. İblis sonra yəhudilərin qəlbində bir maraq oyatmaq üçün bir az sükut etdi. Sonra:

– Mənə yuxumun içində bildirildi ki, Haşim buraya gəlmişdir. Sən də özünü oraya çatdır, − dedi. Mən də bu sözü eşidən kimi buraya can atdım. Camaatdan əvvəl gəldim.

Yəhudilər çaşmışdılar. Bəli, Məkkə ulusu Haşim bura gəlmişdi. İxtiyar alimdən soruşdular:

– Nə çarə qılaq? Nə tədbirlər düşünək? Bizə bir öyüd verərsinizmi?

Şeytan:

– Məkkəlilər neçə nəfərdilər ? − deyə soruşdu.

Yəhudilər:

– Qırx kişidirlər, – deyə cavab verdilər, – ayrıca kölələri də var.

İxtiyar yəhudi cildində İblis:

– Siz dörd yüz kişi hazırlanın. Məkkəlilərin yığışdığı və Haşim üçün alacağı qızı istəyəcəkləri vaxt bizdən bir neçə kişi orada olsun. Onlarla birlikdə hazır olarıq. Dörd yüz kişimiz isə silahlansın. Xalqın arasında dursunlar. Qızı istəmək üçün sözə başladıqları an biz də irəli atılarıq. Zamanı gələndə bayırdakıları səsləyərik. Silahlı duran dörd yüz kişimiz qılınc çəkib gələrlər. Xalqın içərisində dolaşarlar. Qılınclar işə düşər. Haşimini o qırx seyyid ilə birlikdə parça-parça edərlər.

İblisin özü də bilirdi ki, yaxın zamanda dünyaya bir yeni peyğəmbər gələcəkdir. Onun gəlməsinə mane olmaq mümkün deyil. Fəqət onun arzusu

yəhudilərin ürəklərinə fitnə salmaqdır və düşmənlik toxumunu əkməkdır. Düşmənliyin atəşini ürəklərdə yandırmaqdır. İblis bu işlə, heç olmazsa, Ərəbistanda yaşayan iki millətin, yəhudilərlə ərəblər arasında olan dostluq əlaqələrinin birdəfəlik axırına çıxmaq istəyirdi.

Yəhudilər ululları İblisdən öyüd aldıqda sevindilər. Bir könül, bir ürək oldular. Elə həmin gecə dörd yüz kişini hazırladılar. Silahlarını paltarlarının altında saxladılar. Ertəsi gün səhər Mədinənin üfüqlərində günəş doğub yüksələndə Haşimin qırx ulu dostu ilə toplandığı göründü. Haşim bu gecə bir yuxu görmüsdü. Bu səbəbdən adamlarına:

– Ey Hərəm ulularι, mən bu gecə qorxulu bir yuxu gördüm. Röyamda bu gün düşmənlərdən bizə qarşı fitnə törədiləcəyini sizə bildirirəm. Bu səbəbdən hazırlıq görmək lazımdır.

Hamısı silahlandılar. Silah üstünə silah taxdılar. Sonra yola düşdülər. Nəccar oğulları qəbiləsindən qız istəməyə gedirdilər.

Bu vaxt Səlmanın atası Zeyd oğlu Əmr də nəslini və qəbiləsini bir yerə toplamışdı. İnsanların çoxluğundan və sıxlıqdan uzaq, boş bir yerdə cadır qurmuşdular. Süfrələr döşənmiş, gözlər yollara dikilmişdi. Haşim və dostlarının gəlməsini gözləyir, hey yollara baxırdılar. Gözləyirdilər.

Səlma Haşimlə görüşdüyü gecədən bəri həyəcan içindəydi. Bir az öncə onu istəməyə gələnləri dörd gözlə gözləyirdi. Bu düşüncələrdən ürəyi kiçik bir çöl quşu kimi çırpınarkən atasına döndü:

– Ata, Hərəm əhlindən məliklərə layiq toy hədiyyəsi istə. Bir qızın hörməti nəslinin içərisində ona yaraşan hədiyyə istəməklə ölçülür. Həsəd edəcək kimsələrin sözünə baxma. Elə deyənlərə uyma. Amma pis sözlü insanlara məclisdə söz vermə. Bu ulu kişini özündən soyutma. O bizə qulaq asarkən bizdən yorulmasın.

Əmr:

– Qızım, heç narahat olma. İstəyəcəyim hədiyyə qızım gözəl Səlmanın hörmətini artıracaq qədər olacaq, pis sözlü insanların sözunə baxılmayacaq və söz demək imkanı verilməyəcək.

Səlma ilə atası danışarkən yəhudilərin dəstəsi də çadırın yanına gəlmişdi. Az sonra Zeyd oğlu Əmrın adamları yoldan Haşimlə Məkkə ulularının onların çadırlarına doğru gəlməkdə olduqlarını gördülər.

Yəhudilərin görkəmli şəxsləri ilə ixtiyar cildində İblis Haşimə doğru irəliləyərək:

– Salam. Xoş gəldiniz!

Yəhudilərdən dörd yüz kişi də Mədinə camaatının içərisinə qarışaraq göstəriş gözləyirdilər.

Nəccaroğullarının ululları Haşimi görüncə qabağına qaçdılar:

– Salam. Xoş gəlmisiniz!

Gələnlər durdu. Məkkə uluları həmən Haşimin atının yanına qaçdılar. Başçılarını atdan endirdilər. Çardağın altında gətirib oturtdular. Məkkə ulularının qırxı da keçib onun qarşısında oturdular.

Mədinəli yəhudi böyüklərindən Qaytun oğlu Ərmun az sonra irəliyə doğru yeridi. Zeyd oğlu Əmr da Haşimin önünə irəlilədi. Ərəb ulularına:

– Sizə Şamda uzun illər ömür sürən, ulu yəhudi alimini tanıtmaqla şərəf duyacağam, – dedi.

Sonra İblis içəri alındı. Əlini öpərək ən hörmətli bir yerdə oturtdular. Yəhudilərin hörmətli şəxslərini də ən yaxşı yerlərdə oturtdular. Çünki o zamanlar yəhudilərə hörmət çox idi. Kitab əhli olaraq buralarda ən çox onlara sayğı göstərirdilər. Elm, mərifət, şəriət hökmlərini bilmək yəhudilərin iqtidarında idi. Bu səbəbdən ərəblərin içində onlar hörmətli sayılırdı.

Zeyd oğlu Əmr də bu səbəbdən öz nəslinin görkəmli şəxsləri ilə İblisin yaxınlığında oturmuşdu.

Bu gün bazar qurulmadı. Qaynuqa bazarı ilk dəfə idi ki, işləmirdi. Xalq o günü alış-veriş etmədi.

İndi mədinəlilər və yəhudilər məkkəlilərin söyləyəcəyi sözlər üçün həyəcanlı saniyələr keçirməyə başladılar. Hamısı nə deyiləcəyini maraqla gözləyirdi. Haşimin qardaşı Əbdümənaf oğlu Müttəlib söz açdı. Özu də çox maraqlı və açıq danışan bir kişi idi. Ayağa qalxaraq dedi:

– Ey Yəsrib xalqı, burada gördüyünuz qırx kişi məkkəlilərin ulularıdır, seyyidləridir. Biz Hərəmullahdan, Ulu Tanri evindən gəlmişik. O Tanrı evinin qonşularıyıq. Bu çadır altında gördüyünüz şəxs də qardaşımız, Məkkə başçısı Əbdümənaf oğlu Haşimdir. Hərəmin başçısı da odur. Bütün İsmail peyğəmbər nəslindən gəlmiş Ərəbül-Urbanın Seyyididir.

İndi bütün orada oturanların gözləri Haşimə çevrilmişdi. İyirmi yaşlarında olan bu başçının üzündə nə böyük gözəllik, alnında nə parlaq bir nur vardı. Müttəlib xalqın nura daldığını görüb yenidən sözünə başladı:

– Onun alnında bir nur parlayır. Onun alnındakı nur Adəm peyğəmbərdən bəri atadan oğula miras qalır. Bu nur daima bu sülalədə görünmüşdür. Nəslimiz illərdən bəri nurun sahibini daima ulu görmüş, möhtəşəm və əziz saymışdır. Çünki bu nur peyğəmbər nurudur. O peyğəmbər ki, bu yaxında zühur edəcəkdir. Ərəb xalqının içindən gələcəkdir.

Hər kəsi dərin bir həyəcan bürümüşdü. Müqəddəs kitabların da gələcəyini xəbər verdiyi axırzaman peyğəmbəri haqqında bu məkkəli nə deyir belə? Axırzaman peyğəmbərinin zühuru yəhudilərin heç də xoşuna gəlmirdi. Müttəlib sözünə xoş bir təbəssüm içində davam etdi:

– Adəm peyğəmbərin vaxtından ta bu dövrə kimi vəsiyyət edilmişdir ki,

bu pak nur tanınmış əsildən olan təmiz bətnə əmanət edilməlidir. Bu nur atadan oğula, bizim böyük cəddimiz Qussayın alnına qonmuşdu.

Ondan atamız Əbdümənaf dünyaya gəldi və nur onun alnında göründü. Əbdümənafı camaat çox əziz bildi. Vaxtı gələndə Qussay bu sevgili oğlu ilə andlaşdı. Hətta vəsiyyətnamə də yazdı. Dedi ki, oğlum, əsilli yerdən olan qızla evlən.

Atamız Əbdümənaf babamızın bu öyüdünü dinlədi. Evləndi. Oğlu, qızı çox oldu. Amma bu nur ancaq qardaşımız Haşimdə, Əmirül-Ülanın alnında parladı. Başqa alınlarda bu nur görünmədi. Xalqımız düşündü ki, o mübarək peyğəmbər yaxın zamanda bu əcdaddan gələcəkdir. Haşim də evləndi. Onun da oğlu, qızı oldu. Amma istəyi meydana gəlmədi. Onun alnındakı nur heç bir oğlunun alnına keçmədi. Bir gün Tanrı evindən xəfif bir səs gəldi. Bu səs:

– Ey Haşim, – dedi, – Nəccaroğulları xanədanından sənin bir istəyin olacaqdır.

Bu sözləri eşitdikcə Səlmanın ürəyi gup-gup döyünürdü. Vəkilin nə deyəcəyini həyəcanla gözləyirdi. Nəhayət, Müttəlib sözlərini beləcə bitirdi:

– Bu səbəbdən sizin qızınızı istəməyə gəldik. Nə deyir, nə buyurursuz? Sizin cavabınız nədir?

Səlmanın könlü rahatlaşmışdı. Atasının da qəlbi rahat idi. Qalxdı. Onu görən Mədinə uluları da ayağa qalxdılar. Haşimin əslini təriflədilər. Onu ucalardan-uca tutdular. Sayğı və sevgilərini bildirdilər.

Sonra:

– Dəvətinizi qəbul etdik. Diləklər yerinə yetiriləcəkdir. Siz də hədiyyələrinizi verin. Qızımızla nigah üçün nə verirsiniz? Hər şeyi açıq-aydın söyləyin. Nələr gətirmisiniz? Nələr verəcəksiniz? – dedilər və sonra yerlərinə oturdular.

Haşimin qardaşı Müttəlib ayağa qalxdı:

– Ey Nəccaroğullarının hörmətliləri, öncə yüz dəvə veririk, elə dəvələr ki, gözləri qapqaradır. Rəngləri qızılıdır. Hamınız bilirsiz ki, ərəb xalqı içində dəvələrə gözəl sözlər də deyilmişdir:

Dəvəm çöllər içində,<br>Qaçar, uçar qız kimi.<br>O qapqara gözləri,<br>Parıldar ulduz kimi.

Bundan başqa qırx ərəb at veririk. Ən gözəl, ən tez qaçan atlardır. Ayrıca otuz düzülmüş inci, on göbək ənbər (çeyranın göbəyindən çıxarılan xoş ətirli maddə), yeddi batman qoxu və zəfəran veririk.

Bunlar nə gözəl hədiyyələrdir. Nə qədər də boldur. Səlmanın xalqı ara-

sında hörməti və qiyməti ancaq bu qədər hədiyyə ilə dəyərləndirilə bilərdi. İblis ixtiyar alim cildində qaşını oynadıb Səlmanın atası Zeyd oğlu Əmrə bir işarə etdi: "Razı olma".

Zeyd oğlu Əmr də:

– Az deyilmi bunlar? Razı deyiləm buna!

O zaman Müttəlib:

– Yaxşı, min misqal qızıl da verərik.

İblis yenə Səlmanın atasına baxdı ki, razılaşmasın. Əmr:

– Yenə razı deyiləm, bir az da artırın, − dedi.

İblis yenidən qaşıyla işarət etdi:

– Yenə razı deyiləm.

Müttəlib:

– Yüz top ipək verərik, – dedi, – həm də Şam ipəyi, Misir ipəyi olsun.

İblis yenidən qaşla "razı olma", işarəsini verdi.

Zeyd oğlu Əmr bu işarədən sonra ixtiyar yəhudi "Ulu"suna:

– Ey ixtiyar, − dedi, − mən nə istəyim ki, artıq? Qalx, sən de.

Səlmanın atası yerinə oturunca İblis yerindən qalxaraq dedi:

– Ya Əbdümənaf oğlu, bu qədər mal və mal-qara hədiyyəsini söylədiniz. Bu asan şeydir. Amma bu qadının qiyməti bu qədər deyildir.

Müttəlib:

– Ey ulu kişi, söylə, daha nə verək? Nəyə razılıq verəcəksiniz? − deyə soruşdu.

İblis:

– Öncə, − dedi, − Bu gənc qıza ev gərəkdir. Evlənmənin mənası budur. Ona bir saray tikməlisiniz ki, bütün xidmətçiləri və uşaqları orada otursun.

Müttəlib:

– Saray deyirsən?

İblis:

– Bəli, bir saray, − deyə cavab verdi.

– Bu sarayı belə tikməlisiz ki, uzunluğu bir fərsəx(ərəb fərsəxı təqribən 5.76 km-dır) eni də bir fərsəx olsun. İçi ağ mərmərdən döşənsin. Başı buludlara dəysin. O dərəcədə yüksək olsun.

Bütün ərəb uluları bu ixtiyar yəhudinin dəli olub olmadığına baxırdılar. İblis ifrat istəkləriylə xalqı az sonra daha çox heyrətdə qoymuşdu və demişdi:

– Bu sarayın günbəzi buludlara dəyəcək qədər uca olsun. Damına çıxıb dörd çevrəsinə baxanda yeddi iqlim, dörd bucaq görünsün. İki aylıq yoldan dənizdə irəliləyən gəmilər bu günbəzdən görünsün.

Ağızlar açıq qalmışdı. Bu necə saray olacaq belə? Amma İblis istədiklərinə davam edirdi:

– Bu sarayın qarşısından bir çay axsın ki, eni yüz qulac (ayrı-ayrı ədəbiyyatlarda gah 150 sm., 142sm., və ya 177sm. kimi verilir.) olsun. Bu çayın ayağı dörd yerə bölünməli. Bir qolu Satt çayına tökülməlidir. Bir qolu Nil çayına qarışmalı, biri isə Yəmən diyarında Səna çayı ilə dənizə axmalıdır.

Müttəlib istehza ilə soruşdu:

– Daha başqa bir istəyiniz varmı?

İblis:

– Vardır. Bu çayın iki yanına xurma ağacları əkməlisiniz. Bütün ağaclar eyni boyda olmalıdır. Xurmaları eyni vaxtda yetişməli. Bir ağac tez, o biri gec olmamalı, mütləq bərabər olmalıdır.

– Daha başqa?

– Bu xurma ağaclarının hündürlüyü belə olmalıdır ki, hər kim o ağacların üstünə çıxıb ətrafa baxsa, Qaf dağına tamaşa edə bilsin.

İblis bu sözləri söyləyirdi ki, Əbdümənaf oğlu Müttəlibin artıq səbri bitdi. Dayana bilmədi:

– Bura bax, ay qoca, nə mənasız sözlər sayıqlayırsan? − deyə qışqırdı. Axmaq qoca, ağlı olan bir kimsə belə cəfəngiyyat deyərmi? Bu nə boş sözlərdir. Bu nə sayıqlamadır ki, ağzından tökülür?

Zeyd oğlu Əmr da yəhudinin bu sözlərinə xeyli əsəbiləşmişdi. Belə bir istək ola bilirmi? İblisin cavab verməsinə vaxt vermədən:

– Ey şamlı qonaq, mən səni bir bilikli, arif sayırdım. Nə sözlərində müdriklik, nə də ifadələrində ləzzət var, − dedi.

Məkkəli ulular da sözə qarışdılar:

– Nə yazıq, özləri deyə bilmədilər. Nə yazıq, Nəccar ulularına ki, bu axmaq qoca onların sözünü deyəndir.

Bu vaxt Səlma da Haşimin oturduğu çadırın arxasında durmuşdu. Söylənilənləri qulağı ilə eşidirdi. Atasına işarə etdi və çadırdan bayıra çağırtdırdı. Ona: "Ata, səndən bu ağıldan kəm qocanın danışmasını kim istədi? Kim Hərəm ulularına "əlavə hədiyyələr verin" deməyə məcbur etdi. Ata, tez çadıra gir, aranı sakitləşdir, bu işi bitir", − dedi.

Zeyd oğlu Əmr çadıra girdiyi zaman yəhudi böyüklərindən olan Qaytun oğlu Ərmunun ayağa qalxdığını gördü. Ərmun Mədinə yəhudilərinin hörmət etdiyi bir adam idi:

– Ey buraya toplananlar, nə üçün bizim böyüyümüz olan bu kişini incidirsiniz. Şərqdən qərbə kimi onun qədər bilikli, fəzilət sahibi bir kişi yoxdur. Siz onun dediklərinə hirslənirsiz, dedikləri sizə çətin gəlirsə, bu onun

üçün çox asandır.

O, bir an susdu. Allahın lənətinə gəlmiş şeytan, həmən Qaytun oğlu Ərmuna işarət verdi ki, qılınclar çəkilsin. Yəhudilərin dörd yüz silahlanmış adamı qılınc və xənçərlərini çəkdi, məkkəlilərin üzərinə hücum etdi.

Çadırın altında oturmuş Haşim:

– Vallahi, bu gördüyüm röyadır. Yuxuda gördüklərim, deməli, bu imiş.

Haşim bu sözləri deyib dostları ilə cəld ayağa qalxdı. Onlar da geyimlərinin altında olan qılınclarını çıxardılar. Vuruşma başladı. İndi hər qılınc zərbəsində bir yəhudi qana boyanırdı və can verirdi. Haşim möhkəmcə yaşlı simasında olan İblisin yaxasından tutmuşdu. Onu yerə vurmaq istəyirdi. Bu zaman İblis Haşimə dedi:

– Ya Haşim, sən məni öldürə bilməzsən. Sənin əlindəki gılınc mənə çatmaz. Çünki mən şeytanam, gəldim ki, bu yəhudiləri azdırım. İstəyim odur ki, sənin qılıncının altında hamısı can versin. Sənin igidliyin bütün ətrafa yayılsın, məşhur olasan və tanınasan.

Haşimin qarşısındakını parçalamaq üçün qaldırdığı qılınc aşağı endi. Qarşısındakı İblis olduğunu biləndə onu öldürməkdən vaz keçdi. Az bir vaxt keçdi ki, İblis qeyb oldu. Görünməz hala gəldi. Haşim yenidən qılıncını çəkərək dostları ilə birlikdə onlara hücum edən yəhudilərlə vuruşmağa başladı. Yetmiş iki yəhudinin başı bədənindən ayrılmışdı. Başqaları isə meydandan qaçmışdı. Camaata qarışaraq ortada görünməz olmuşdular.

Haşim dostlarına:

– Artıq kənara çəkilirik! – deyə əmr verdi.

Məkkəlilər toplandı. Haşimin adamları atları hazırladılar. Bazar bağlandı. Hərəm hörmətliləri qılınclarını yerinə qoydular, atlarına mindilər. Yəhudilər ölü və yaralıları toplayırdı. Nəccar ağsaqqalları Əmrə dönərək:

– Bu nə məsləhətsiz işdir ki, etdiniz? – deyə soruşdular.

Zeyd oğlu Əmr:

– Mənim yəhudilərlə heç bir ittifaqım və danışığım yoxdur. Heç bir şeydən xəbərli deyildim, – dedi.

Sonra yəhudilərin böyüyü Qaytun oğlı Ərmunu ortalarına alan mədinəlilər:

– Ey ləin, – dedilər, – bu nə işdir belə? Bir yandan Qureyş ilə düşmən oldunuz və bizi də onlarla düşmən etdiniz. Qureyşə kim qarşı çıxa bilər? Bunların heybətinə qarşı kim dura bilər?

Ərmun and içdi:

– Əmin edə bilərəm ki, bu işdə mənim qüsurum və xəbərim yoxdur. Haşim ilə danışan o ixtiyarın kimsə Şamdan gəldiyini söylədi. Bu fitnəni o yaratdı.

Ərmun o adamın söylədiklərini açıqladı: “Bizi yoldan çıxartdı və bəlaya saldı”, − deyərək sözünü bitirdi.

Ərəb uluları Zeyd oğlu Əmrlə Ərmunu Haşimin hüzuruna gətirərək üzr istədilər. Ərmunu Haşimin ayaqlarına düşməyə məcbur etdilər. Haşimə:

– Bizi bağışla, günah bunlarda deyilmiş. O qoca hərifdə imiş, − dedilər.

Haşim:

– Bağışlanacaq bir şey yoxdur. O qoca hərif bildiniz kimdir? − deyə soruşdu.

Ərmun:

– Şam diyarından gələn ixtiyardır və Hahamların ən ulu kişisidir.

Haşim:

– Xeyr! – dedi, − Şamdakı ulu kişi oradan heç yerə getməyib. Bura gələn İblisin özüdür. O, xəbərçi surətində gəldi. Araya bu qədər fitnə-fəsad saldı, bu qədər insanın ölümünə səbəb oldu.

Bu sözlərə qulaq asan mədinəlilər artıq hər şeyi anlamışdılar. Haşimin könlünü aldılar. Yenidən atlardan endilər. Dava-dalaş üzündən mala və hədiyyələrə baxmayaraq, qızı verəcəklərini söylədilər və toy hazırlıqlarına başlamağa qərar verdilər.

Haşim həmən çadırına qayıtdı. Sözləşdikləri malları qardaşı Müttəliblə yola saldı.

Səlmaya: “Bu hədiyyələri qəbul edirsinizmi?” – deyə soruşdular. Səlma: “Qəbul edirəm!” − dedi. Gecə o malın iki qatını Haşimə qaytardı. Çünki belə sövdələşmişdilər.

Haşim uç gün Qaynuqa bazarında qaldı, evləndi. Haşimlə Səlmaya bütün adətlərlə hazırlanmış möhtəşəm toy edildi. İki sevgili bir-birinə qovuşdu. Gecə gərdəyə girdilər. Sonra Mədinəyə döndü.

## *SƏLMA MÜBARƏK BİR VÜCUDU DAŞIYIR*

Haşim o gecə gəlin otağına girdiyi zaman ona bir oğlan uşağı nəsib olunacaqdı. Beləliklə, Səlma o gecədən hamilə qalmış, ertəsi gün Haşimin alnından nur Səlmanın alnına keçmişdi. Demək, Səlma artıq mübarək vücudu daşıyırdı.

Səhər Rəsulun nurunun Səlmanın alnında parladığını görən Haşim çox sevindi və könlü fərəhləndi.

– Ya Səlma, – dedi, – axırzaman peyğəmbərinin nuru sənə keçdi. Bu nur indi səndə oldu. Mübarək olsun sənə nur!

Bu xəbərlə üzü qızarmış Səlma susdu. Kipriklərini süzərək gənc ərinə

baxdı. Haşim ona öyüd verərək dedi ki, ey Səlma, sən çalış, bayırda gəzmə, küçəyə çıxma. İnsanların gözu sənə dəyməsin.

Haşimin işləri vardı. Şama gedəcəkdi. Karvan bütün yükü ilə hərəkət əmrini gözləyirdi. Səfər hazırlığı başlamışdı. Çünki Qəzzə səhərində bu vaxtlar böyük bazarların qurulması mövsümü idi. Oraya vaxtında çatmaq lazım idi.

Haşim Məkkənin görkəmli adamlarını yanına çağıraraq onlara dedi:

– Məkkədə öz yerimə sizə məsləhətçi olaraq qardaşım Müttəlibi tövsiyə edirəm. Bundan sonra bütün Kəbə vəzifələrini o yerinə yetirəcəkdir. Gedib gəlməmək də vardır, ayrıca sizə şərtim budur. Bir oğlum dünyaya gələrsə, nur sahibi olacaq, ona mərtəbə və dərəcəsini söyləməlisiniz. Bu nur səbəbindən oğlumu ulu hesab etməlisiniz. Həqiqət odur ki, bu nur mənə atam Əbdümənafdan keçmişdi.

Sonra xanımı Səlmanın yanına getdi:

– Ya Səlma, – dedi, – əgər bizə əcəl gələrsə və mən bu səfərdən geri dönməzsəm, mənim öyüdlərimi unutmayasan. Nəsihətimi mütləq yerinə yetir. Bir oğlum dünyaya gələrsə, onu əmilərindən ayırma. Çünki onun alnında parlayacaq nur səbəbindən Hərəm ululuğu və rəhbərliyi onun haqqıdır. Bu nur sahibinə deməlisən ki, "Ey oğul, evləndiyin zaman, axtar təmiz əsilli qız ilə ailə qur. Bətnindəki bu nur əmanətini həmişə qoru".

Haşim bunları söylədikdən sonra qardaşı Müttəlibi Məkkə şəhərinə yolladı, özü isə qalan ulular ilə birlikdə karvanını hazırladaraq Qəzzə şəhərinə doğru səfərə çıxdı. Uzun yollar qət etdilər. Vadi əl-Quradan keçdilər, yavaş-yavaş Suriyanın ılıq iqliminə çatdılar. Yenə yollarına davam etdilər. Artıq Qəzzə şəhəri uzaqdan görünürdü. Karvan şəhərin qapılarından içəri girdi. Alış-veriş etdilər. Əllərindəki malları satıldı, yerinə parçalar alındı. Dəvələrə yüklər bağlandı. Geriyə Mədinəyə və Məkkəyə dönəcəkdilər. Haşim gözlərinin önündə sevimli xanımı Səlmanı görürdü. Ancaq hərəkətə başladığı günün axşamı Haşim xəstələndi. Ertəsi gün vəziyyətinin ağırlaşdığını başa düşərək dostlarına:

– Belə düşünürəm ki, bu xəstəliklə məmləkətimizə dönmək mənə nəsib olmayacaq, ayrılıq yaxın zamanda olacaq.

Sonra özü-özünə: "Ağlım başımda ikən məktublarımı yazmalıyam!" – deyə düşündü. Sonra qələm, yazı ləvazımatı və mürəkkəb istədi. Məkkə ulularına bir məktub yazdı. Malının miras kimi necə bölünəcəyini açıqladı. Bir oğlu olursa, Mədinədə onu yetkinlik yaşına kimi daima nəzərləri altında saxlamağı, ondan sonra Məkkəyə dəvət etməyi və başçıları elan etmələrini tapşırdı. Bu surətdə oğlu anası Səlmanın yanında yetkinlik yaşına çatanadək qalacaqdı.

Sonra Səlmanın xəyalı ilə başbaşa qaldı. Ona bir məktub və seir yazdı.

Salam olsun sənə, ey gözəl Səlma,
Salamat qal, mən gedirəm cahandan.
Səfər etdim bir yaxşı iş görməyə,
Xəbərim olmadı o çox ziyandan.
Bu gün qəriblikdə sənsiz qalmışam,
Sənin həsrətindən mən usanmışam.
Sənə nur tapşırdım, sən onu qoru,
Bu gün mən gedirəm, o tutsun yolu.

Haşim Səlmaya ayrıca bu sətirləri yazdı: "Ya Səlma, əcəl biri-birimizdən bizi tez ayırdı. O, dünyaya gəlib gözünü açınca, o kiçicik oğlanı böyüyənədək əmilərindən heç vaxt ayırmamağı tapşırıram. Çünki ərəblərə başçı olmaq onun haqqıdır. Hərəm ululuğu onun haqqıdır. Qureyşoğullarının görkəmli şəxsləri içində Seyyid olmaq onun haqqıdır".

Haşim sevgili xanımına qarşı duyduğu həsrəti ən atəşli kəlmələri ilə ifadə edib məktubunu imzaladı. Xəstəliyi gündən günə ağırlaşırdı. Yeddinci gün səhər vaxtında üfüqdə günəşin ilk parıltısı göründüyü vaxt Haşim bu dünya ilə vidalaşırdı. O artıq haqq dünyasına köçürdü. Əsəd adlı oğlu Məkkədə idi. Kəb adlı oğlu isə yanındaydı. Onu yudular və qürbət eldə dəfn etdilər.

Karvan yenidən Mədinəyə yola düşdü. Səlma sevimli ərini çox səbirsizliklə gözləyirdi. Ancaq onun yerinə son məktubları gəldi. Ölüm xəbəri bir anda Mədinəyə yayıldı. Hər yer matəmə büründü. Səlmanın evindən gələn fəryad və hıçqırıqlar ətrafı bürüdü. Necə göz yaşı tökməsin, axı Haşim bir ər kişi idi. Kərim, gözəllik sahibi, ədalətli və insaflı idi. Xəbər Məkkəyə çatdıqda məkkəlilər yeddi gün matəm elan etdilər. Sonra Məkkənin hörmətli şəxsləri yığıldılar və Haşimin vəsiyyətinə sadiq olaraq Müttəlibi Məkkəyə başçı seçdilər. Müttəlibə dedilər:

– Ya Müttəlib, sözümüz və qərarımız budur, sən bu gündən etibarən Haşimin yerinə başçımızsan. Müqəddəs xidmətlər sənə tapşırılır. Yalnız o nur sahibi Mədinədən gələndən sonra heç bir narazılıq olmadan bu müqəddəs vəzifəni və rUtbələri ona təslim edəcəksən.

Müttəlib də:

– Bu xidmətlər onun haqqıdır. O, müqəddəs vəzifəyə gələnə qədər mən bu xidmətləri icra edəcəyəm.

## *ŞEYBƏTÜL-HƏMDİN DOĞULMASI*

Mədinə şəhərində Səlmanın ayı, günü çatmışdı. Ürəyi həyəcan içərisində idi. Öz alnındakı nur uşağa keçəcəkdimi? Başqa qadınlar kimi ağrı çəkmədi. İniltisi belə olmadı.

Doqquz ay on gündən sonra asanlıqla bir oğlan uşağı dünyaya gəldi. Bu vaxt səmadan bir səs eşitdi. Bu səs ona nələr söyləmişdi. Bu həlim səs ona nələr deyirdi? Bəli, deyirdi ki: "Ey Səlma, uşağına göz ol. Heyrətedici sirləri və anlaşılmayan əlamətləri bu məsum uşağın üzərində görəcəksən. Doğumu heç kimə xəbər vermə".

Səlma bu səslərlə xoşbəxt bir kiçik oğlana sahib olduğunu anlayaraq çox sevindi. Onu ipəklə bələyib əlinə aldı. Nələr görünürdü bu kiçik uşaqda? Rəsulun nuru indi oğlunun alnında parlayırdı. Bu böyük səadət üzündə, halında və davranışında bəlli olurdu. Səlma oğlunu dizinin üstünə qoyub səcdə etdi: "Ulu Tanrıya şükürlər olsun!" – dedi. Sonra gözləri oğlunun başına dikildi. Bu nədir belə? Uşağının başında ağ tüklər vardı. Bu səadətə dəlil idi.

Səlma ürəyində yenidən həmd hisslərinin qaynadığını duydu.

– Həmd olsun ki, Tanrı mənə ağrısız bir oğlan nəsib etdi. Atasının boş qalan yerini doldurdu.

Uşağa ancaq bir adı qoya bilərdi. Ona görə də adı axtarmadan dedi:

– Şeybətül - Həmd olsun bu balamın adı.

Səlma uşağı bir ay gizlədi, kimsəyə göstərmədi. Ancaq bir ay keçmişdi ki, Mədinəyə Səlmanın nur topu kimi bir uşaq doğduğu xəbəri yayıldı. Xalq axın-axın təbrik etməyə və ruzili, bərəkətli olsun deməyə gəlirdilər. Şeybə bir az böyümüşdü. Alnı nur içində parlayırdı. Bu atadan oğula Hz. Adəmdən bəri keçən və nəhayət, Şeybətül - həmddə zahir olmuş Rəsul nuru idi. Bu nurdan köhnə yaralarının təzələndiyini duyan da yəhudilər oldu. Bu köhnə yara yenidən qövr etdi, qanadı: "O axırzaman peyğəmbəri bu oğlanın soyundan gələcəkdir", – dedilər.

Bu xəbər bütün Mədinəyə yayıldı. Bir gün Səlma mədinəliləri bir yerə yığıb onlara dedi:

– Ey nəslimin adamları, mən artıq aranızda duran və qadınlar ocağında oturan deyiləm. Fikirləşirəm ki, mənim də ata minmək və silahlanmaq vaxtım gəlmişdir. Ər kişilər silahlanmalıdır. Bunları biz mənim oğlumu qorumaqdan ötrü etməliyik. Çünki onun düşməni çoxdur. Özü də bu oğlan yetimdir. O, nəslindən və qardaşlarından uzaq düşmüşdür. Düşmənlərdən onun başına fəlakət gələ bilər. Yəhudilər mütləq onu öldürmək istəyəcəklər.

Nəccaroğullarının böyükləri Səlmanın bu sözlərini eşitdikdə: "Haqlısan,

ya Səlma", − dedilər.

Nəccaroğullarının Əvs və Xəzrəc qəbilələrindən əsgərlər toplandı və uşağa hər gün göz-qulaq oldular. Şeybə gündən-günə böyüyür, uşaqların ən yaraşıqlısı olmuşdu. Ağıllı, həm də bilikli idi. Rəsul nuru da daima o geniş alnında parlayırdı.

On yaşına kimi göz altında böyüyən Şeybə güclü və qüvvətli olmuşdu. Bir gün şəhər kənarında oynayırdı. Yəhudilərin uşaqları ilə döyüşürdü. Vuruşur, güləşirdi. Bu zaman Əbdümənafoğullarından Haris adında bir igid dəvə üstündə Məkkədən Mədinəyə gəlmişdi. Şeybəni bu uşaqlarla oynayarkən görmüşdü. Bu necə uşaqdı? Üzü qəmər üzlüdür. Göy üzünün ən parlaq və böyük Müştəri ulduzu (Yupiter) parlaqlığındadı.

## *ŞEYBƏTÜL-HƏMDİN ƏMİSİ HARİSLƏ RASTLAŞMASI*

Haşimin oğlunu və onun nurunu görən əmisi Haris çaşıb qaldı, özünü itirdi. Bu üz nuruna gözlər qamaşmadan baxmaq mümkün deyildi. Haris dəvəsini saxladı. O parlaq nura baxıb xəyala daldı. Uşağa yaxınlaşdı:

– Ey günəş üzlü, şirinsözlü uşaq, − deyə soruşdu, − kimin oğlusan? Sonra bir şeir söylədi.

Seirdən sonra Haris Şeybəyə:

– Ey mehriban uşaq, sən nə nurlu, gözəl, üzügülərsən. Kaş ki sən Hərəm içində sultan olaydın. Ərəb mülkünə xaqan olaydın. Məkkə başçısı Haşim bu dünyadan köçəndən sonra sənin kimi bir kimsə görmədik, − dedi.

Bu zaman Şeybətül-Həmd:

– Ey yadelli, sən haradan gəlirsən? Hərəmdən gəlirsənmi?

Haris:

– Bəli, mən Hərəmdən gəlirəm. Özüm də Hərəm camaatındanam.

Şeybətül- Həmd:

– Nişanlarımdan məni tanımırsan? Haşimdən son yetim qalan mənəm. Səlmadan olan oğlu mənəm.

Haris dəvənin üstündən özünü yerə atdı. Şeybətül-Həmdi bağrına basdı. Qucaqladı, gözlərindən öpdü, salamlaşdı. Ona:

– Ya oğul, − dedi, − mən də sənin əminəm. Adım Harisdir.

Şeybə ona məzəmmətli baxışla baxaraq:

– Məni əmilərim niyə almırlar? − deyə soruşdu, qardaşlarım məni niyə istəmirlər? İllərlə məni axtarıb aramamışlar, bu rəvadırmı?

Haris çox çətin bir vəziyyətdə qalmışdı:

– Ya oğul, − dedi, − onun səbəbi budur. Səlma Haşimlə sözləşmişdi ki,

oğlu anadan olandan sonra onu əmiləri gəlib aparmasınlar. Səni Səlmadan ayırmasınlar. Böyüyənə qədər Mədinədə qalasan. Qərar belədir ki, sən özünü anlayınca, yaxşını pisdən ayırınca, artıq böyük olandan sonra gəlib aparsınlar. Səni o zaman atan Haşimin mərtəbəsinə və dərəcəsinə çatdırsınlar. Ərəb başçısı, qəbilə ululuğuna səni qoysunlar. Əmanət etsinlər.

Şeybətül-Həmd bu sözləri eşidərkən gözləri yenidən parladı. Harisi dinlədi, həqiqəti bildi. Demək, artıq yetkinlik yaşına çatmışdı, əmilərinin yanına Məkkəyə ata yurduna gedə bilərdi.

Uşağı böyük bir sevinc hissi bürümüşdü. Haris sözünə davam etdi:

– Elə ki mən gəldim, səni belə bir yaşa çatmış görüb sevindim, indi Məkkəyə gedirəm. Qəbiləmizin camaatına xəbər verəcəyəm. Qardaşların Əsəd və Kəbə üzündəki nurundan danışaram.

## *HARİS MƏKKƏYƏ DÖNÜR*

Haris qayıdacaqdı, ona görə Şeybəni yenə qucaqladı. Dəvəsinə minərək Məkkəyə üz tutdu. Kəbəyə gəldikdə Əbdümənafoğullarına xəbər çatdırdı. Onlar toplandılar, görüşdülər.

Haris onlara belə bir məzmunda şeirlə müraciət etdi: "Kəbə Hərəmində bir ay doğulmuş, bu ay ayrı elləri işıqlandırır. Bu rəvadırmı? Hərəm vilayəti illərcə həsrət qalsın, Yəsribdə (Mədinədə) Kəbədən Nur günəş kimi doğmus olurmu? Ən gözəl sədəflər içərisində saxlanılır. Nə səbəbdəndir ki, siz o incidən uzaqda qaldınız ".

Haris sözünə davam etdi:

– Ey Hərəm ululları, Kəbə seyyidləri, sizə xəbər verim ki, Mədinədə Haşimin bir oğlu dünyaya gəlmişdir. Nəccaroğulları qəbiləsindən Zeyd oğlu Əmrın qızı Səlmanın doğduğu bu oğlan, elə bil ki, bədrlənmiş aydır. Yəsrib ölkəsini işıqlandırmaqdadır. Mədinə camaatı ona çaşqınlıq içində tamaşa etməkdədir. Təmiz üzlü, təmiz soylu Şeybətül-Həmd həm şirindilli, ağıllı və zəkalı, həm də cəsarətli,qorxmaz, qoçaq, hər kəsin də köməyinə yetən bir gəncdir. Özü ilə danışdım. Sizdən son dərəcədə könlü qırılıb. Deyir ki, qardaşlarım bu yetimlik dövründə bir dəfə də məni axtarmadılar. Yadlarına salmadılar. Məni öz yurdlarına çağırmadılar. Əmilərim də elə fikirləşirəm ki, məni bu qürbət eldə buraxdılar. Mən bu sözləri o yetimdən eşidəndən sonra səbrim-qərarım tükəndi. Həyəcanlandım və sizə xəbər vermək üçün bura tələsdim.

Əbdümənafoğulları bu sözləri eşidincə çaşıb qalmışdılar. Haşimin ən böyük qardaşı Müttəlibi bu dinlədiyi sözlər heyrətləndirdi. Səbri qalma-

mışdı, sözə qarışdı:

– Qardaşlarım, – dedi, – Haşimin oğlu yetim doğuldu. Onun böyüyənə qədər anası Səlmanın yanında qalması haqqında tapşırığı da atası Haşim vermişdi. Madam ki onun bu qədər söz deməyə qüdrəti var, qardaş qədrini bilir və əsl vətənini tanıyır, indi görüləcək bir iş var, o da qardaşımın vəsiyyətini yerinə yetirməkdir. Bu vəzifəni mən etməliyəm. O yetimi atasının mərtəbəsinə və dərəcəsinə çıxarmalıyam.

Əbdümənafoğulları həyəcan içərisində hər yerdən ucadan səsləndilər:

– Burda kim varsa, ululardan kimin gücü çatırsa, atlansın, gedək.

Müttəlibin içərisində bir şübhə yarandı: "Mədinəyə gedəriksə, Səlmanın fikri nə ola bilər?" Sözə qarışaraq:

– Mənim oğlanın anası Səlmanın razı olacağına şübhəm var. Bəlkə, onu Məkkəyə gətirməyə izin verməyəcək. Mən indi Mədinəyə gedirəm. Onun gəlməsinə razılıq alım və gətirim, – dedi.

## *MÜTTƏLİBİN MƏDİNƏYƏ GETMƏSİ*

Əbdümənaf oğlu Müttəlib silaha qurşandı. İsmail peyğəmbərin yayını əlinə aldı. Sürətli bir dişi dəvəyə mindi, Məkkədən Mədinəyə gedən yola çıxdı. Dağdan, dərədən aşaraq ən qısa yol ilə bir gün Mədinə qapılarına çatdı. Şəhərə girməmişdi. Bir meydanda oğlanların oyun oynadıqlarını gördü. Bir neçəsi daşı qaldırmağa çalışdı. Amma ağır olduğundan nə qaldıra, nə də sürüyə bildilər. Müttəlib baxdı ki, divarın dibində ay üzlü, qara gözlü, səadət ulduzlu, heybətli, aslan kimi bir gənc ayaq üstündə durub. Yoldaşlarının daşı yerindən tərpədə bilmədiyini görüb onlara doğru irəli gəldi. Əli ilə geri çəkilmələrini işarət etdi. Daşa əl vurdu, yerindən oynatdı və səhraya doğru yuvarladı. Sonra məğruranə bir əda ilə:

– Mən Qureyşoğullarının seyyidi, Hərəm başçısı Əbdümənaf oğlu Haşimin oğlu Şeybətül-Həmdəm, – deyə özünü tanıtdı.

Müttəlib qardaşı oğlunun adını eşidəndə çox çaşdı. Gəncin qardaşı oğlu olduğunu anladı. Dəvəsindən aşağı endi, bir ağac altında oturdu.

Şeybətül - Həmd başqa gənclərlə oynamasına davam edirdi. Oyunları axşam qaranlıq düşənə kimi davam etdi. Artıq bir-bir evlərinə gedirdilər. Şeybə də evinə getmək istəyəndə Müttəlib oturduğu yerdən qalxdı. Onun qarşısına gədib soruşdu:

– Mənim balam, bu qəribliyinin səbəbi nədir? Bu qürbət diyarda nə edirsən? Ana vətənini niyə yada salmırsan? Sənin nəslin və qəbilən, orada əmilərin, bibin və onların ailələri üzünə həsrət çəkirlər. Səni görmək istəyir-

lər. Burada yalnız, qəriblikdə qalmısan.

Şeybətül-Həmd cavab verdi:

– Sən mənin əmilərimdən birinə bənzəyirsən. Elə deyilmi?

Müttəlib:

– Bəli, – dedi.

Şeybə həyəcanla yenidən soruşdu:

– Hansı əmimsən?

Müttəlib cavab verdi:

– Müttəlib əmin.

Bu sözü eşidən kimi gənc sevindi. Əmisinin qucağına atıldı. Öpüşdülər, qucaqlaşdılar.

Müttəlib:

– Əziz balam, sənin üzündə bir nur var. Hər kim ki bu nurun sahibidir, onun Hərəm başçısı, bütün ərəblərin ulusu olması lazımdır. İndi görüləcək iş budur. Ululuq yerində oturmaq.

Şeybə başqa bir şey soruşmadı. Sıçrayıb çökmüş dəvənin üstünə mindi və: "Əmi, gəl, gedirik".

Əmisi Müttəlibin də arzusu bu idi, könlü fərəhləndi. Deməli, Şeybə onunla gedəcək. O da dəvəyə mindi. Hər ikisi Məkkəyə doğru yola düşdülər.

Artıq hava tam qaralmışdı. Ulduzlar çölün səmasında par-par parlayırdı. Axır gəlib bir mənzilə çatdılar. Orada dayandılar, dəvələrinə ot verdilər və özləri də birlikdə axşam yeməyi yedilər.

Şeybə:

– Əmi, artıq yola düşmüşük. Bəlkə, arxamızdan gələn əsgərlər gəlib bizə çatarlar.

Əsgərlər... Müttəlib çaşmışdı.

– Nə əsgərlərdir bunlar? – deyə soruşdu.

Şeybə:

– Anam Əvs və Xəzrəcoğullarından özünə əsgərlər seçmişdir. Çünki yetiməm, yaxınım, qoruyucum yox,- deyərək mənə qəsd ola bilər, fikri ilə onlara göz-qulaq olmağı tapşırmışdır. Bax, hər yer qaranlıq, gecə evə dönmədiyim üçün anam nigaran qalmış. Mənsiz qalanda da onun səbri-qərarı qalmaz, ardımıza düşər. Ona görə arxamızca, yəqin ki, gəlirlər.

Tez zamanda yol hazırlığı görüb hər ikisi dəvəyə minərək yola düşdülər. Bir az irəliləmişdilər ki, arxadan at kişnərtisini eşitdilər. Bu nə kişnəmələr idi belə? Doğrudan da, Şeybəni axtaranlardımı? Şeybə həyəcanla:

– Anamdır, əsgərləri ilə gəlir, – dedi.

## YƏHUDİLƏRİN

## MÜTTƏLİBLƏ ŞEYBƏTÜL-HƏMDİ TƏQİBİ

Müttəlib dəvənin başını yoldan səhraya çevirdi. İndi yoldan çıxmışdılar. Şeybənin anası Səlma xatunun gələcəyindən yaranan həyəcan yersiz idi. Çünki at kişnəmələri gələn yerdə nə anası, nə də onun əsgərləri var idi. Bunlar Şeybənın arxasınca gələn mədinəli yəhudilərdi.

Nə üçün gəlirdilər bu yəhudilər? Səbəbi bu idi ki, Mədinədə Lətiyə adında bir yəhudi vardı. Onun oğlu Gureyrə Şeybə ilə oyun oynarkən Şeybə bilmədən onun başını yarmışdı. Bütün yəhudi uşaqlar Şeybəyə hücum etdilər. Bunun üstündən Haşimin oğlu dedi:

– Ey şeytan tayfası, mənim nəslimdən bir peyğəmbər gəlməsi yaxınlaşır. Sizin dininiz, kitabınız ortadan qalxacaqdır. Ulularınız öldürüləcəkdir. Camaatınızı kül edəcəkdir. Malınızı və mal-qaranızı əlinə keçirəcəkdir.

Yəhudi uşaqları bu sözdən sarsılmışdılar. Gureyrə evə dönüb atasına ağlaya-ağlaya Şeybədən şikayət etdi və onun söylədiklərini bircə-bircə anlatdı. Yəhudilərin içində axırzaman peyğəmbəri haqqında böyük narahatlıqları və kinləri, ədavətləri vardı. Bu sözləri eşidəndən sonra həyəcan və qəzəbləri daha da artdı. Lətiyənin hirsindən huşu başından getdi. Az zaman içində yəhudilərin içində Şeybənin dediklərini eşitməyən qalmamışdı. Onu öldürməyə qərar vermişdilər.

O gecə Şeybə ilə oynayan yəhudi uşaqlardan bəzisi onun Müttəliblə dəvəyə minib Məkkə yoluna getdiyini görmüş və atalarına: "Şeybətül-Həmd bir dəvəyə minib bir ərəblə Məkkə yoluna getdilər" xəbərini vermişdilər.

Lətiyə oğlundan bu sözləri eşidincə bütün yəhudiləri topladı.

– Ey yəhudilər, – dedi, – bir fürsət gözləyirdiniz. İndi fürsət əlinizə keçmişdir. Həmən atlarınıza minin. Bir-bir şəhərdən çıxın və bir yerdə toplanın.

Az sonra atlanmış yetmiş yəhudi kişi şəhər kənarında toplandı. Lətiyə önlərinə düşərək:

– Ey yəhudi qövmü, – dedi, – mənim fikrim budur ki, hansı yerdə vuruşsaq, heç kimə aman verməyəcəyik. Düşmənlərimizi öldürərik.

Yəhudilər niyyətlərini açıq-aydın elan etdikdən sonra hərəkətə keçdilər. Əlbəttə, Şeybənin eşitdiyi at kişnərtisi yəhudi atlarının kişnəməsi idi. Şeybə elə bilmişdi ki, anası mühafizə ilə özünü onlara çatdırmağa başlayıb. Yoldan azınca səhradan, çöldən, yan yol ilə hərəkət etməyə başladılar. Ancaq onun alnındakı Allahın Rəsulu nuru onun getdiyi yeri, ətrafı, hətta

bədənini də bəlli edirdi. Onlar yoldan çıxanda bunu görən yəhudilər də yoldan səhraya çıxdılar. Ardlarınca qaçmağa başladılar. Gecə vaxtı yaxınlaşanların və atlarının ayaq səsləri də eşidilirdi. Şeybə:

– Əmi, bunların danışıqlarından anlayıram ki, gələnlər yəhudi qövmündəndirlər. Yəhudi əsgərləridir. Məni öldürmək məqsədi ilə gəlirlər.

Müttəlib bu sözlərin cavabında:

– Ay oğul, işimiz çətinləşdi. Əgər gələn anan olsaydı, nə sənə, nə də mənə ziyan verməzdi. Səni məndən alıb Mədinəyə aparardı. Amma yəhudilər səni mütləq öldürərlər, − dedi.

Sonra onun cəsarətini artırmaq istəyərək davam etdi:

– Ey Şeybətül-Həmd, − dedi,- onsuz da sonda hamımız öləcəyik. Heç olmasa mən səndən əvvəl öləydim. Yolunda qurban olaydım. Sənin də işini Ulu Tanrı xeyirlə bitirsin. Çünki bu nur hər kimdə olursa, ona heç bir zaman ölüm və ziyan dəyməz.

Şeybə içini çəkdi:

– Ay əmi, − dedi, − sən duanla məşğul ol. Mən onlara tərəf dönürəm. Mən nur sahibinin köməyi ilə düşmənlərimə cavab verərəm.

Şeybə qəhrəmancasına sözləri söylər-söyləməz dəvəsindən enərək düşmənlərə doğru hərəkət etdi. Müttəlib də orada durdu. Bu uşaqda Rəsulluq nuru olduğundan özünə nə ölüm toxunacağına və bir ziyan dəyəcəyinə qətiyyən inanmaq yox idi. Şeybə əmisindən ayrıldıqdan az sonra irəlilədi. Üzünü göy üzünə çevirdi. Yalvardı, dua etdi. Ulu Tanrıdan yardım istədi.

## *BİR MÖCÜZƏ BAŞ VERDİ*

Şeybə ümidini bağladığı Haqqa bütün qəlbiylə yalvarışına davam edərkən yəhudilərin sırasında bir möcüzə baş verdi. Bütün atların ayaqları yerə batdı. Tutuldu, yeriyə bilmədilər.

– Atlara nə oldu? − deyərək heyrət içində qaldılar.

Atlar qarnına kimi batdı, hərəkət yox, cilovlar gərildi. Amma atlar yerlərindən tərpənə bilmədilər. Duqqa oğlu Lətiyə:

– Gördünüzmü?! − deyə qışqırdı, – Qureyşoğullarının içində sehr etmək, cadugərlik də varmış. Bizi tilsimlədilər. Atlarımızın ayaqları tutuldu.

Lətiyə Şeybəni hiylə ilə yaxalamaq istədi. Ona doğru irəlilədi:

– Ya Şeybə, nə üçün bizim icmamızdan üz döndərdin? – dedi. Bizdən üz çevirirsən? Nə üçün aradan çıxaraq ayrıldın getdin?

Şeybətül-Həmd:

– Ey Lətiyə, ey dostum Gureyrin atası, söylədiyin doğrudur. Tutaq ki,

mən aranızdan ayrıldım və indi başqa məmləkətə getməkdəyəm. Bəs siz mənim ardımca nə üçün gəlirsiz?

Lətiyə:

– Nə üçün? – deyə soruşdu. Çünki atan Haşimlə bizim aramızda bir tariximiz olmuşdu. Sənin bizdən xəbərsiz və anandan izin almadan getdiyini eşitdik. Qorxduq. Dedik ki, anan və Mədinə camaatı sənin Mədinədən ayrıldığını bilincə bunu biz yəhudilərdən hesab edib şübhələnməsin. Səni biz ortadan qaldırdığımızı sanmasınlar. Sonra Nəccaroğulları qəbiləsinin bundan xəbəri olunca aramızda fitnə düşə bilər, qılınclar qınından çıxar, döyüş ola bilər. Bunları düşünərək tez atlandıq. Dörd nala sənin dalınca düşdük. Gəl sən geriyə dön. Səni anana və qəbilənə verim. Onlara qovuşasan. Biz sənin dostunuq, düşmənin deyilik.

Bu sözləri eşidən Müttəlib Şeybəyə səsləndi:

– Ey oğul, yəhudilərin bu söylədiyi sözlər ağlabatandır. Bəlkə, bir fitnədən qorxaraq ardımızca gəlmişlər. Mən bu fikirləri yaxşı anladım. Səbir etmək gərəkdir. Səni anandan və qövmündən istəyərək alıb aparsam, daha yaxşı olar. İndi ən yaxşısı odur ki, bunlarla geri – anana dönəsən. Yetkin yaşa çatanda öz arzunla istəyini deyərsən.

Şeybətül - Həmd əmisinin sözlərini eşidincə:

– Xeyr, əmi, – dedi, – bu yəhudilərin düşmənçiliyi mənimlə deyil, yalnız alnımdakı nura düşmənçilik edirlər. Səbəbi də odur ki, axırzaman peyğəmbəri bizim nəsildən gələcəkdir. Nuru söndürmək istəyirlər. Amma mənim bu nurum sönməz. Yəhudilərin arzusu o Rəsulun dünyaya gəlməməsidir. Anama bu səbəbdən düşmən olmuşlar. Onu da öldürmək istədilər. Əmi, sən düşmənin şirin dilinə inanırsan?

Müttəlib Şeybənin sözlərinə çaşıb qalmışdı. Bu sözlərdə olan həqiqəti o da görürdü.

Qardaş oğlu ilə əmisi danışarkən yəhudilərin başçısı Lətiyə yəhudilərə:

– Atlarınızdan aşağı enin! – deyə göstəriş verdi. Madam ki atlar getmir, ayaqla gedəcəyik.

Hamısı atlarından enib ayaqla hərəkət etməyə başladılar. Gənc, əmisi Müttəlibin qolunda İsmail peyğəmbərin yayını gördü.

– Ay əmi, cəddim İsmail peyğəmbərin yayını əlimə uzat! Nəbül oxlarından da bir-bir ver ki, düşmənə hünər göstərim. Hamısını darmadağın edim.

Müttəlib:

– Oğlum, yay çox sərt bir yaydır. Sən isə kiçiksən. Qorxuram ki, dartmağı bacarmazsan. Düşmən də üstünə gələr.

Şeybə:

– Əmi, sən hələ yayı əlimə ver, mənim alnımda nurun möcüzələri olduğunu da unutma. O möcüzələri indi görəcəksən.

Müttəlib Məkkədən gətirdiyi İsmail peyğəmbərin yayını bir oxla birlikdə gənc Şeybəyə uzatdı. Yəhudilər də qarşıdan gəlirdilər. Yaxınlaşdılar. Şeybə oxu yaya qoydu, yayı dartdı. Kəskin bir vızıltı eşidildi, ox havanı deşərək yəhudilər tərəfə hərəkət etdi. Atdığı ox bir yəhudinin döşündən dəyib ürəyini deşdi. Ox dəyən düşmən birdən-birə yıxıldı. Başqa bir yəhudi ona hücum etmək istədi. İkinci oxla onu da yerə yuvarlatdı. Bir neçə kişi də Şeybəyə həmlə etmək istədi, amma onun atdığı oxlar, onları bircə-bircə yerə sərir və qanları səhranı qıpqırmızı etmişdi. O, yeddi yəhudini yerə sərmişdi. Onun belə qəhrəmanlığını görən Lətiyə:

– Ey Şeybətül-Həmd, − deyə qışqırdı, − yetər, əlini saxla. Bu nədir, biz sənə öyüd verən insanlarıq, sən isə bizimlə düşmən oldun. Bizdən yeddi kişi öldürdün.

Şeybə:

– Siz kimsiniz, mən kiməm? Siz mənim düşmənlərimsiz. Bura siz yalnız məni öldürmək məqsədi ilə gəldiniz. Əgər mənim xeyrimi istəsəydiniz, anama xəbər verib gələrdiniz. Yaxşı iş görməyə gəlmədiniz.

Bu sözləri eşidən Lətiyə yəhudilərə dönərək:

– Ey qövmümün kişiləri, hiyləmiz baş tutmadı. Əgər bir iş bacarmadan geri dönsək, camaat içində heç bir qədir-qiymətimiz qalmaz. Biz yetmiş kişi bir uşağın dalısınca gəldik, yeddi kişimiz də öldü. İndi isə əliboş şəhərə dönəkmi? Qövmümüz bizə nə deyər? − dedi.

Sağ qalan yəhudilər:

– Yaxşı, nə edək, ey Lətiyə? − deyə soruşdular.

– Elə hesab edirəm ki, əsas görüləcək iş ər kimi vuruşmaq, bu oğlanı öldürməkdir.

Bu sözləri eşidən yəhudilər yenidən ürəkləndilər, irəli yürüdülər. Şeybə əmisinin verdiyi hər oxla bir yəhudini yerə sərirdi. Yenə beş yəhudi öldürdü. Düşmənlər geri hərəkət etdilər. Artıq gecə sona çatırdı, üfüq al qırmızıya bürünmüşdü, dan yeri sökülürdü.

Lətiyə Müttəlibə səsləndi:

– Ey Əbdümənaf oğlu, nə üçün qardaşın oğluna nəsihət vermirsən?

## *SƏLMA XATUN OĞLUNA KÖMƏYƏ GƏLİR*

Müttəlib cavab verməyə hazırlaşmışdı ki, ağaran Mədinə yolundan Haşimin sevgili dul xanımı Səlma xatunun dörd yüz atlı-dəvəli kişi ilə gəldiyini gördülər. Yəhudilər gələnləri gördükdə çaşdılar.

– İndi vəziyyətimiz daha da pisləşdi. Səlma da gəldi, yetişdi. Nə çarə qılaq, – dedilər.

Lətiyə heç bir çarənin olmadığını gördükdə özü əliylə Şeybəni tutaraq, son fürsətlə öldurməyi qət etdi. Gəncə doğru irəlilədi, yaxasından tutmaq istədi. Ancaq Şeybə atdığı oxla onun ürəyindən vurdu. Anasının gözü önündə Lətiyəni cansız halda yerə sərdi. Başçılarının öldüyünü görən yəhudilər uça bilməyən kiçik quş balaları kimi hərəsi bir tərəfə səpələndi, sonra da qaçdılar.

Səlma xatun da yetişmişdi. Yerdə yəhudi ölülərini gördü. Kim öldürmüşdü bunları? Burada böyük dava olmuşdu.

Oğlunun əlində bir ox və yay var idi. Səlma dəvəsindən düşərək oğlunu qucaqladı, ona:

– Ya Şeybə, – deyə soruşdu, – səni buralara kim gətirdi? Kimdir bu insan?

Şeybə Müttəlibi göstərərək cavab verdi:

– Əmim gətirdi, soruş özündən.

Səlma xatun Müttəlibə döndü:

– Oğlumun əmilərindən sən hansısan? – deyə soruşdu.

– Mən Haşimin böyük qardaşı Müttəlibəm.

Səlma:

– Niyə oğlumu gəlib apardınız? Buralara gətirdiniz?

Müttəlib:

– Ya Səlma, onu götürməyə gəldim. Çünki atasının məqamına və taxtına oturdacağam. Bütün ərəblərin ulusu olmaq ona həvalə edilməlidir.

Səlma:

– Ya Qureyşoğullarının seyyidi, nə üçün bizə gəlmədiniz? Sizi hörmətlə, izzətlə qarşılayardıq, oturardıq, məsləhətləşərdik. Oğlum Seybəni şanına layiq bir şəkildə alaraq geri dönərdiniz.

Haqlı sözlərin qarşısında Müttəlib çaşıb qaldı. O, belə cavab verdi:

– Gizlicə gəlməyimin səbəbi budur, siz qardaşım Haşim ilə belə bir qərar vermişdiniz ki, sənin doğduğun oğlanı heç kim yanından ayırmasın. Mən də camaat içində onu səndən istəmədim. Bəlkə, verməzdin, mən də məyus olardım. Aramızda narazılıq yarana bilərdi, bu səbəbdən sizə gəlmədim.

Səlma Müttəlibin sözlərini haqlı saydı:

– Doğrudur, – deyə Səlma cavab verdi, indi madam ki onu atasının yerinə təyin etmək istəyirsiniz, o zaman aparın. Amma diqqətli olun, o hələ uşaqdır. Ürəyim ayrılığa dözməz. Mən nə edərəm, düşünə bilmirəm.

Müttəlib bu sözlərə sevinmişdi. Ancaq bir ananın ürəyinin ayrılıqdan

qan tökməsinə razı olmazdı:

– Ey Səlma xatun, madam ki belədir, istəyirsiz Şeybətül-Həmdi alıb geri qayıdın. Özü hər şeyi anladığı zaman, atasının məqamını və mərtəbəsini istəyəndə Məkkəyə gəlsin.

Səlma düşüncəyə daldı. Bir qərar verə bimirdi.

– Bir dəfə də özündən soruşum, – dedi. Görüm istəyi nədir. Getmək,ya qalmaq. Meyli hansınadır, bilim.

Səlma üzünü oğluna çevirərək ondan soruşdu:

– Oğlum, Şeybə, ey gözümün nuru, könlün nə istəyir? Əmin Müttəliblə qardaşlarının yanına gedirsən, yoxsa mənimlə Mədinəyə qayıdırsan?

Gənc nə cavab verəcəkdi? Məkkəyə gedirsə, atasının ölkəsinə gedirdi, amma anasından necə ayrılacaqdı. Qərar verə bilmədi. O:

– Ana, getməyimi və ya geri dönməyimi sən məndən yaxşı bilirsən. Getmək və ya geri dönmək sənin əmrin olacaqdır. Sən nə desən, elə hərəkət edəcəyəm. Mənə sənin qərarın qəbuldur. Dediyin kimi olacaqdır.

Səlma bir az da düşündü. Oğlunu, iki gözünün nurunu bağrına basdı. Göz yaşlarını gizlədərək:

– Oğul, oğul, – dedi, – madam ki vətənə doğru üz tutdun, yolun açıq olsun, get. Yaxşı olar ki, səni yolundan döndərməyim. Yola çıxmış bir kişini yolundan döndərmək yaxşı deyildir. İndi vəzifəmiz səni atanın mərtəbəsinə ucaltmaq, onun dövlətinə başçı etməkdir.

Səlma Müttəlibə döndü:

– Ey Əbdümənaf oğlu, ey Qureyş seyyidi, yolunuz açıq olsun. Bunu sizə diləyirəm.

Oğlumdan ayrılmamışdan əvvəl sizə bir neçə deyəcəyim var. Şeybəm böyüdüyü zaman onu bir əsilli qızla evləndirin. Atalarının və Əbdümənafın vəsiyyəti belədir. O vəsiyyəti yerinə yetirin.

Şeybə anasının bu sözlərini eşidəndə sevindi. O, anasının qolları arasına sarıldı. Ayrılıq səhnəsi həm şirin, həm də kədərli idi. Səlma xatun göz yaşları axıdaraq oğlunu bir də öpdü. Onlarla vidalaşıb adamları ilə Mədinəyə döndü. Müttəlib də Şeybəni yanına aldı. Ona irəlidəki mənzildə bir dəvə tapdı. Məkkəyə yola düşdülər. Ertəsi gün səhər artıq Məkkə sərhədinə çatırdılar. Müttəlib gəncə dedi:

– Ey Şeybə, mənim bir fikrim var. Sənə söyləyəcəyim tədbirə razı olmalısan.

Şeybə soruşdu:

– Nə düşündün, əmi, söylə mənə. Əlbəttə ki, yaxşı bir şey olar.

Müttəlib cavab verdi:

– Haradasa şəhərə girmək üzrəyik. Evimizə çatana kimi səni görəndə

camaat məndən soruşacaq ki, bu kimdir? Kimin uşağıdır? Mən "qulumdur, köləmdir" deyəcəyəm. Çünki səni xalq arasında görənlər möhtəşəm görməlidirlər.

Şeybə dedi ki:

– Necə istəyirsən, elə də olsun. İşləri bildiyiniz kimi edin.

Nəhayət, şəhərin qapısından içəri girdilər. Bir çox mədinəlilər Müttəlibi bir qızıl tüklü dişi dəvəyə minmiş gördülər. Başqa dəvə üstündə onun yanında ay üzlü bir oğlan var idi. Şəhər camaatı ondan soruşdu:

– Ya Müttəlib, ya Hərəm seyyidi, bu uşaq kimdir? Kimin nəslindəndir ki, yanında gətirirsən?

Müttəlib:

– Köləmdir, – deyə cavab verdi, – satın aldım, yanımda gətirirəm.

Müttəlib evinə gələnə qədər bu sualarla qarşılaşdı. Hər kəsə: "Bu uşaq köləmdir, qulumdur", − dedi. Bunu öyrənib – bilənlər bu xəbəri bir-birinə dedilər:

– Müttəlib bir qul, kölə gətirib ki, keçmiş seyyidimiz Haşimdən sonra onu qədər gözəl üzlü, parlaq alınlı bir kimsə görülməmişdir. O gündən sonra onun adı Əbdülmüttəlib (Müttəlibin qulu) mənasında olaraq qaldı.

O gecə və ertəsi gün bütün məkkəlilərin dilində Müttəlib ilə onun köləsi sayılan Şeybənin sözü dolaşırdı. Müttəlib evə gəlincə, öz nəslini, qardaşlarını yığdı. Amma bundan kimsənin xəbəri olmadı. Heç kəsə də bildirmədilər. Heç bir kimə: "Bu oğlan Haşimin oğludur", – demədilər. Çünki Müttəlibin arzusu, Şeybətül- Həmdə başçı paltarı geyindirmək idi. Onu peyğəmbər paltarları ilə bəzəcəyəkdi. Ondan sonra qövmünün hüzuruna çıxaracaq, camaata göstərəcəkdi. Buna görə Müttəlib Şeybənin Haşimin oğlu olduğunu gizlətmiş və qövmünə: "Qulumdur, köləmdir" demişdi. Artıq Şeybəni bundan sonra Məkkədə "Əbdülmüttəlib" deyə çağıracaqlar. Əbdülmüttəlib adıyla tarixə düşəcək və məşhur olacaqdır.

Müttəlib o gecə Haşim oğlu Əbdülmüttəlibin saçlarını daradı. Ona seyyidlik paltarlarını geydirdi. Gözəl sözlü bəyanat, xütbə öyrətdi ki, Qureyş ulularının yanına çıxanda bunu yaxşı söyləsin, könüllərini fəth etsin. Bundan sonra böyük əcdadları olan Qusayyın köynəyini də geydirdi. Çiyninə yenə babalarından olan Lüveyyin beldən yuxarı atılan örtüyü-ridanı atdı. Bir də belində iki hörgücü olan və çox sürətlə qaçan bir cins dəvə hazırlatdı.

Müttəlib:

– Sən bir saat gözlə, oğlum, − dedi, − mən gedim Məkkənin ulularını Bəthəyə dəvət edim. Sonra səni ora götürəcəyəm.

Müttəlib evindən çıxıb Hərəmə gəldi. Bütün Qureyşin görkəmli şəxslə-

ri, ağsaqqal və böyükləri, Haşimoğullarının böyükləri orada idilər. Müttəlibi gördükdə ayağa qalxdılar. Onu qarşıladılar, daha sonra Müttəlibin vəziyyətini və dünən gətirdiyi uşağı xəbər aldılar. Müttəlib:

– Ey Əbdüмənafoğulları, ey Qussayoğulları, ey Kilaboğulları, ey Qaliboğulları! Hamınızı burada görürəm. İndi Bəthəyə qədər getməyinizi xahiş edirəm. Sizə Haşimin oğlundan gətirdiyim bir xəbərim, bir müjdəm var. Onu sizə bildirəcəyəm, − dedi.

Bütün ulular hamısı birlikdə Hərəmdən çıxdılar. Bəthəyə girib özlərinə yer tutdular, oturdular. Müttəlibi gözləməyə başladılar. Hamının marağı artmışdı.

– Müttəlib nə kimi müjdə verəcəkdir?

– Haşimin oğlundan gətirdiyi xəbər nə idi?

– Müttəlib onlara nə söyləyəcəkdi?

Onlar belə maraqla gözlədiyi zaman birdən Müttəlib yanında bir oğlanla gəldiyini gördülər. Bu nə gözəl üzlü bir oğlandır! Seyyid paltarı geymiş, bəzənmişdir. Onu görən andan hamı bir-birinə:

– Bu oğlan kimdir? Görəsən, kimin nəslindəndir? – deyirdi.

Bilənlər bilməyənlərə:

– Hə, onu deyirsiz? O, Müttəlibin köləsidir. Əbdülmüttəlibdir, − deyə xəbər verirdilər.

Qureyş hörmətliləri, ağsaqqalları onlara yaxınlaşan Müttəlibə:

– Ey Müttəlib, − dedilər, − köləni nə qədər bəzəmisən. Bizim qarşımıza kölənlə iftixar etməyə gəldin?

Müttəlib cavab verməyə hazırlaşırdı ki, Şeybətül-Həmd onların dayandıqları yerə yaxınlaşdı. Dəvəsindən enmədən salam verdi. Sonra sözə başladı:

– Əbədi olan o Allaha şükür olsun ki, bizə şərəflər bəxş etmişdir. O Ulu Allaha həmd olsun ki, peyğəmbərlik nurunun işığında mənə böyüklük və parlaq üz nəsib etmişdir. Bu nur ki tərtəmiz nəsillərə əmanət verilmişdir. Bu nur ki Allaha tabe olanların, ona bağlı qalanların səcərəsini qorumuşdur. Bu elə şəcərədir ki, kökü ən yüksək mərtəbədədir. Bu kökdə, bu ağacda ən təmiz bir su, bir döl qaynağı dolaşmaqdadır. Biz bunu nəsildən nəslə miras aldıq. Nəhayət, Haşimdən Əbdülmüttəlibə verildi.

Bu gözəl və aydın sözlərdən sonra Əbdülmüttəlib özünü tanıtdı:

– Bəli, mən, Şeybətül- Həmdəm, Əbdülmüttəlibəm, Haşimül-ülanın oğluyam.

Əbdülmüttəlib o qədər gözəl, o qədər aydın danışırdı ki, xütbəsinə bütün Qureyş ululları heyran qalmışdı. Demək, bu üzündə nur saçılan oğlan qəbilələrinin ən şərəfli başçılarından Haşimin oğludur.

Əbdülmüttəlib yenidən sözə başlayaraq Qureyş ulularından atasının mərtəbəsini, vəzifələrini istədi:

– Ey qövmüm, − dedi, sözlərimi eşitdiniz. Məni atamın yerinə, sözümü eşidib ululuğa qəbul edirsinizmi?

Bu sözləri eşidən Qureyş böyükləri Əbdülmüttəlibin kimin əsil-nəslindən olduğunu bildilər. Həmən ayağa qalxdılar, irəli gəldilər. Gənc Əbdülmüttəlibin dəvəsini çökdürdülər, sonra aşağı endirdilər. Hamısı bir-bir onunla görüşüb, əl tutub: "Sənin mərtəbən atanın yeridir",– deyərək Əbdülmüttəlibi baş guşəyə keçirdilər. Ona saygı göstərdilər, onlar üçün dəyərli və əziz olduğunu bildirdilər. Haşimdən qalan Kəbə qapıçısı, hacılara su vermə və başqa vəzifələrin hamısını ona verdilər. Allah Rəsulunun nuru, xeyirduası, Əbdülmüttəlibin misilsiz üzü, gözəlliyi və böyüklüyü onu Qureyşə bir anda sevdirdi.

Əbdülmüttəlib atasının mərtəbəsinə qovuşanda bütün Məkkə camaatı bunu böyük razılıq hissilə qarşıladı.

Üzü və ayağı mübarək olsun, xalqına xöşbəxtlik gətirsin, − dedilər.

Günlər keçirdi. Məkkəlilərə bir ziyan dəyərsə, Əbdülmüttəlibin duası ilə hər çətinlik ortadan qalxardı. Nə zaman çətin bir iş meydana gəlirdisə, Əbdülmüttəlibin rəyi və tədbiri ilə çətinliklər yox olur və ya asanlaşırdı. Günlər günləri əvəz edirdi. Əbdülmüttəlibin yaxşı işləri aləmə yayıldı, adı dillərdə dolaşmağa başladı. Ədalətlə iş görürdü. Səxavəti, comərdliyi ağızlardan düşmürdü.

O, baba, ata və anasına layiq bir başçı olmuşdu.

## *RUM MƏLİKİNİN YUXUSU*

Əbdülmüttəlib gələnə qədər Rum ölkəsinin Ərəbistana yaxın sərhəddində hökm sürən bir məlik vardı. Mülk və məmləkət sahibi idi. Bir çox yerlərdə əmri əmr idi. Xeyli məliklər onun tabeliyi altında idi. Ona baş əymişdilər. Rum məliki bir gecə yatdığı dərin yuxuda qorxulu röya gördü. Yuxunun heybətindən birdən oyanaraq qorxudan ürəyinin döyündüyünü hiss etdi. Adamlarını çağıraraq:

– Tez mənə yuxu yozanların başçısını çağırın! Vəzirlərim və hakimlərim divan qursunlar! − deyə əmr verdi.

Çağırılanlar toplandıqda onlara dedi:

– Ey xalqım, mən bu gecə yuxuda olduğum zaman çox qorxulu bir yuxu gördüm. Vahimədən oyandım. Yuxumu kim yoza bilər?

Yuxu yozanlar:

– Ey zamanın məliki, o gördüyünüz yuxunu söyləyin, biz eşidək, bilək, − dedilər.

– Yuxumda bir qaranlıq yerdə oturduğumu gördüm. Elə bir qaranlıq içində idim ki, vahimələndim, qorxdum. Başımı, üzümü paltarlarımla örtdüm. Birdən haradansa bir səs gəldi. Bu səs mənə: "Aç gözünü" deyirdi.Yavaş-yavaş göz qapaqlarımı açdım. Bir də nə gördüm. Yerdən göyə kimi nurdan bir dirək ucalmışdı. Elə bir nur ki, hər tərəfi işıqlandırmışdı. Bu aydınlıqda boynu uzun qəribə məxluqlar dururdu. Canavar idimi? Dəvə cildində danışırdılar. Çünki gördüyüm yerdə hec dəvə olmazmış. Dəvə rəsmlərini rəssamlar divara cızırdılar. Bu məxluqların üstündə ay üzlü, başı ağ çalmalı kişilər minmişdilər. Bu əcaib canavarların birinin üstündə yaşıl günbəz tikilmişdi. Bu yaşıl günbəzi saxlayan canavarın başı qızıl və yaqutdan, boynu isə ağ incidən idi. Dörd ayağı gümüşdən, qulağı isə zümrüddən, quyryğu da mərcandan idi. Bu məxluqun üstündə bir igid oturmuşdu. Əlində siyrilmiş qılınc vardı. İgid xalqa xitab etməkdə, suallara cavab verməkdəydi. Günbəzin içərisində də bir kimsə vardı. Dörd bir yandan gələn işıq onun üzündəki nurdan gəlirdi. Günbəzin üzərində bir bayraq dalğalanırdı. Bayrağın başında bir aypara vardı. Bayrağın üzərində iki sətir yazı yazılmışdı. Mən bu qorxulu şeylərdən həyəcanlanaraq yuxudan oyandım. Bütün bədənim titrəyirdi.

Məlik bir az susdu. Sonra vəzirlərinə və yuxu yozanlarına:

– Bu qorxunc yuxunu mənim üçün yozun, açıqlayın. Bu müşkülümü açın! − deyə buyurdu.

Bütün alimlər, hikməti başa düşənlər, yuxuyozanlar bu yuxunu yozmaqda aciz qaldılar. Cavab verə bilmədilər.

Bu günbəz, bayraq, aypara nə məna verə bilərdi? Bu qəribə məxluqdan, canavardan məqsəd nə idi? O günbəz içindəki nur sahibi, işıq sahibi kim idi? Hamı susdu. Boyunlarını qabağa əydilər.

– Ey zamanın hökmdarı, − dedilər, − burada yaxın yerdə bir məbəd vardır. O məbədin içində yaşlı bir rahib yaşayır. Çox uzun bir ömür sürdü. Elmi, biliyi çoxdur. Bu yuxunu yoza bilsə, ancaq o yozar.

Məlik əmr etdi:

– Tez o rahibi yanıma gətirin!

Vəzirlər:

– Ey zamanın məliki, − dedilər, − o ulu din adamı məbədə girəndən bayıra çıxmayıb. Çünki Hz. İsa ilə and içib ki, ölüncə bu kilsədən bayıra çıxmayacaq.

Məlik o zaman dedi:

– Elə isə onun yanına biz gedərik, − dedi.

Vəzirlər, əsgərlər atlarına mindilər və kilsəyə gəldilər. Rahibə xəbər göndərdilər:

– Ey ulu din adamı, məlikimiz qorxunc bir yuxu gördü. Sənin məbədinə gəldi. Bu yuxunu yozmağını istəyir.

Rahib kilsədən qışqırdı:

– Məbəd kilidlidir.

Bu zaman hökmdar da əsgərləri ilə gəlib çatmışdı. Pəncərədən baxan rahib gözləri ilə aşağını süzdü. Məliklə salamlaşdı. Ulu din adamı hökmdara:

– Xoş gəlmisiniz, – dedi, – yuxunuzu mənə danışın.

Məlik qaranlıqda qaldığını, dəvəyə bənzər əcaib məxluqlarla necə qarşılaşdığını, bayrağı, bayrağın başındakı ay-ulduzu, bütün yuxusunu olduğu kimi danışdı.

Rahib bunları eşidəndə:

– Ey məlik, – dedi, – əsgərlərini buradan uzaqlaşdır. Sonra gəl, baş-başa qalaq. Mənə daha yaxın gəl.

Rum məliki rahibin dediklərini etdi. Əsgərlərini uzaqlaşdırdı. Rahiblə tək qaldılar.

Din adamı:

– Ey Məlik, gördüyün yuxunu yozaram. Ağlını topla və məni yaxşıca dinlə.

Məlik sevinc içində onun ağzından çıxacaq hər bir kəlməni gözləyirdi. Rahib sözünə başladı:

– Belə düşünürəm ki, yuxunun ortasındakı gördüyünüz qaranlıq küfr qaranlığıdır. Paltarınla üzünü örtmək isə bu batil dinə qarşı könlündəki ikrahı bizə deyir.Yerdən göyə kimi ucalan nurdan dirək isə İslam nurudur. O əcaib yaranmış, sənə canavar görünən məxluq isə Ulu Tanrının əsrarəngiz rəngləri ilə bəzənmişdir. Ondakı surətlər Büraqın sifətidir ki, Rəsulullah (səlləllahu əleyhi və səlləm), İsra, yəni Merac gecəsində o, Büraqın üstünə minəcəkdir. Onunla Məscidül-Əqsaya gələcəkdir.

Bu rahib nələr söyləyirdi, məlik böyük çaşqınlıq içərisində gözləri açıq qalmışdı. Bu necə xəbərlər deyir. Nələr baş verəcək.

Rahib sözinə davam etdi:

– O Büraqın üstündə bir ağ günbəz görmüşdun eləmi? O günbəzin içində günəş üzlü bir kişi də oturmuşdu, elə deyilmi?

Məlik:

– Bəli, ya rahib, elə gördüm, – deyə cavab verdi.

Rahib:

– O gördüyün üzü parlaq insan ərəblər içində yaxında Qureyşoğullarından Abdullah oğlu Məhəmməd peyğəmbərdir. Məkkə şəhərində doğulacaq-

dır. Bunu haradan bilirəm? Çünki Məsih dilindən Tanrı kitabı İncil bu müjdəni vermişdir. O, Məhəmmədin dunyaya gələcəyini xəbər verməkdədir.

Məlik bu sözlərə tamam çaşıb qaldı. Rahib sözlərinə davam etdi:

– Bayrağın üstündə iki sətir yazı gördüyünü demişdin. O yazını yadına salıb mənim üçün yaza bilərsənmi?

Məlik:

– Bəli, – deyə cavab verdi, – o yazı hələ də gözumun önündə, qəlbimin içində sanki yazılı kimidir. Rahib:

– O halda yazını bir parça kağıza yaz, mənə ver.

Məlik adamlarından kağız və qələm istədi. Bayrağın üstündə gördüyü yazını kağıza yazdı, rahibə verdi. Rahib gözlərini yazıya gəzdirdi. Burada "Lə ilahə İllallah Muhəmmədən Rəsulullah" yazısını gördü. Rahib yerindən qalxdı. Getdi, dördə qatlanmış kağızlar gətirdi. Yarpaq, yarpaq açdı. Burada bir şəkil vardı. Gözəl əl yazısı ilə üstündə Məhəmməd adı yazılmışdı. Həm də gözəl rəsmin yanında dörd rəsm vardı. "Dörd yar" adı rəsmlərin üzərində yazılmışdı. Bu adlar aşağıdakılardır: Əbu bəkr, Ömər, Osman, Əli. (Allah hamısından razı olsun). Üstündə də bu yazı oxunurdu: "Lə ilahə İllallah Muhəmmədən Rəsulullah".

Hökmdar bu surəti görüncə:

– Düşünürəm ki, yuxumda dəvələrə minmiş gördüyüm kimsələrin üzü bunlara bənzəyirdi. Bu yazını da bayrağın üzərində görüb oxumuşdum, – dedi.

Məlik sonra rahibə yalvarmağa başladı:

– Mənə bir öyüd ver, ey ulu adam! Elə ki mənim dinim və dünyam səndən bir fayda görmüş olsun.

Rahib:

– Ya Məlik, – dedi, – Haqq sənə aydın oldu. Bu qədər işarə, diqqət və bərəkət ki, sənə ruzi oldu. Gəl bu batil dini burax.

Məlik səmimiyətlə:

– Batil dinimi buraxım?

Rahib:

– Bəli, – deyə cavab verdi. Adını və vücudunu yuxunda görüb oxuduğun o peyğəmbərin mübarək vücudunun doğulmasına otuz il qaldı. O peyğəmbər qırx yaşına kimi susacaqdır. Heç bir şey söyləməyəcəkdir. Bu yaşdan sonra insanları haqq dinə dəvətə başlayacaq. Dünyada nə qədər din varsa, hamısı tədricən aradan qaldırılacaq. Onun kitabından qeyri kitabların hökmü gücdən düşəcəkdir.

Məlik o zaman öz dinindən şübhələnərək soruşdu:

– Bəs bu Nəsrani dini necə bir dindir?

Rahib:

– Hz. İsadan sonra nizamladılar, həqiqətən, böyük dindir. Doğrusu, hər cahana gələn peyğəmbər İslam dinindən xəbər vermişdi. Allahın birliyini bildirmişdi. Ancaq o peyğəmbər dünyadan köçdükdən sonra onun ümməti doğru yolu tərk etmiş, azmış, gələn kitabları isə oxumamışdı. Heç şübhə yoxdur ki, Ulu Tanrı yenə bir peyğəmbər göndərmişdir. O peyğəmbər yenə doğru yolun bələdçisi olmuşdur. Həm də doğru dinin yolunu göstərmişdir. O Rəsulun da dövrü keçdikdən sonra yenə onun ümməti əyri yolu tutmuşdur. Doğruluqdan uzaqlaşmışdılar. Yenə bir peyğəmbər gəlmiş, yenə şəriət yolunu ümmətinə anlatmış, xalqı doğru yola dəvət etmişdir. Biz də bu səbəbdən bilirik ki, dinimiz batildir. Buna görə də insanlara yeni bir rəsul gələcəkdir. Dinindən azmış ümməti, batil din tutmuş xalqları yenə doğru yola gətirəcək, onlara düzgün yolu göstərəcəkdir. Əgər bu dinimiz haqq dindirsə, yeni peyğəmbərin cahana gəlməsi lazım olardımı? Əslinə baxanda İsa əleyhissəlam xəbər vermişdi ki: ”Məndən sonra dünyaya bir rəsul gələcəkdir. Adı Əhməd olacaqdır”. Bəli, din alimlərinə bəlli olmuşdur ki, İsa peyğəmbərdən sonra Hz. İsanın ümməti də doğru yolu buraxıb batil din yolunu tutmuşdular. Bu səbəbdən o dəvət sahibi, yeni rəsul həyata gəlməklə xalqı yenə doğru yola çağıracaq, batil dindən qurtaracaq. Onun gəlməsinin məqsədi də budur.

İxtiyar rahib susdu. Rum hökmdarı onun sözlərini çox yaxşı başa düşməmişdi. Ondan soruşdu:

– Ya rahib, yaxşı və doğru bir dinin o Rəsulun dini olduğunu haradan bildin? Nədən onun xalqı saleh ümmətdir? Nədən o Rəsul, Seyyidülmursəlin, xatəmün-nəbiyyindir? Bəli, nədən peyğəmbərlərin ulusu və sonuncusudur? Bunları haradan bildin sən?

Rahib hökmdarın bu suallarına belə cavab verdi:

– Bir peyğəmbərdən sonra ümməti doğru yoldan azarsa, batil din tutarsa, əlbəttə, bir peyğəmbərin də gəlməsi lazım olur. Elə bu səbəbdən bildik ki, onun dini xalq dinidir və ümməti salehdir.

Məlikin çox böyük diqqətlə qulaq asdığını görən rahib:

– Ey Məlik, mən o peyğəmbərə iman gətirdim. Ya Rum məliki, sən də ona iman gətir, müsəlman ol, Axirət əzabından özünü qurtar.

Məlik artıq rahibin bu son sözləri ilə onun bütün dediklərini qəlbən qəbul etmişdi. Onları bəyəndi.

– Haqlısınız, – dedi.

Fəqət ibadət etdiyi Nəsrani dininin batil olduğu haqqındakı sözlər onu maraqlandırmışdı. Adamlarına əmr etdi:

– Tez məbədin qapısını açın. İçəri girin, rahibi mənə gətirin. Mən onun-

la yaxşı danışa bilim.

Rahib Bizanslı Rum hökmdarının bu sözünu eşidəndə mehrabın qarşısına getdi. Başını yerə qoyaraq səcdə etdi,duaya başladı: "İlahi, o Həbibin Məhəmməd hörmətinə, onun əhli-beyti hörmətinə, onun hörməti-haqqı xatirinə mənim ruhumu onun dinində qəbil eylə, al. Mənə dinsiz keşişlərin əlindən əzab çəkməyi rəva görmə, möhnət vermə",-dedi.

Rum məliki rahibin duasını dinlədi. Az sonra ixtiyar adamın ruhunu Ulu Tanrıya istədiyi din üzrə təslim etmiş olduğunu gördülər.

Məlik rahibin ruh təslimini görüb Ulu Tanrının qəzəbindən qorxdu. Həmən iman gətirdi və kilsədən ayrılaraq uzaqda dayanmış əsgərlərinə:

– Saraya gedin! – dedi. Əmr verib geri döndü.

Aradan bir neçə gün keçmiş Rum hökmdarı gözəl hədiyyələr hazırlatdı və Əbdülmüttəlibə göndərdi. Bu hədiyyələr arasında bir örtü dəsti vardı ki, ipəkdən toxunmuşdu. Kəbənin içinə görə ölçülmüşdü. Eni və uzunluğu Kəbənin boyunca idi. Naxışını çox bəzəkli işləmişdilər. Ağ incilərlə və qiymətli daşlarla bəzəmişdilər. Bu dəsti yerə salacaqdılar. Dörd küncündən halqalar taxılmışdı. Halqalar da cürbəcür cəvahirlə bəzənmiş və halqalara ipəkdən toxunmuş bağlar keçirilmişdi. Durub açacaqları zaman bu bağlardan tutmaq lazım idi. Dünyada nə qədər quşlar və heyvanlar varsa, hamısının rəsmi və şəkli bu örtüyə nəqş olunmuşdu. Bu nadir hədiyyə elə bir hədiyyə idi ki, Şərqdən Qərbə kimi deyiləcək şəkildə biçilmişdi. Bu hədiyyəni bəzi tarixçi alimlər Yəmən hökmdarı Seyfi Zülyəzən tərəfindən verildiyini deyirlər. Əbdülmüttəlib hədiyyəni təslim edildiyi zaman aldı və Kəbənin içərisinə döşətdi. Döşəməyə uyğun gəldi.

Məkkə camaatı o gün toplanaraq bu hədiyyəyə tamaşa etməkdən doymadı. Örtüyü ildə bir dəfə istifadə edilməsi məsləhət görüldü. "Bu örtüyün Kəbədə döşəndiyi gün ilin bayram günü olsun, xalqımız o gün ona istədikləri qədər baxsın",– dedilər.

Elə də etdilər. İldə bir gün onu Kəbəyə döşədilər. Məkkə uluları toplanır, Əbdülmüttəlib baş tərəfdə oturur, onun başçılığı ilə tələblərə,istəklərə baxılır, həll edilirdi. O gündən sonra Məkkə şəhərində bu üsul qəbul olunub davam etmişdi. Artıq Əbdülmüttəlibin şərəfi daha çox artmış, yaxın və uzaqlara – hər yerə yayılmışdı. Ədaləti haqqında hər yerdə danışılırdı. Əbdülmüttəlib evlənmə çağına çatanda, Əbdümənafoğullarından bir qızla Ümmi Harislə evləndi. Bu qızdan bir oğlu dünyaya gəldi. Adını Haris qoydu.

Harisin doğuşundan sonra illər keçdi. Uşaq böyüyüb onbeşyaşlı dəliqanlı olmuşdu.

## ZƏMZƏM QUYUSUNUN AÇILIŞI

Əbdülmüttəlib bir gecə yatanda yuxu gördü. Yuxusunda səmadan bir səs eşitdi. Bu səs ona deyirdi:

– Ey Şeybətül-həmd, ey Əbdülmüttəlib, təyyibəni qaz!

Bu səs nə deyirdi belə? Nə qədər şirin, nə qədər hökmlə söyləyirdi bu sözləri. Yuxudan oyandı, düşüncəyə daldı: “Bu təyyibə də nədir? Nə kimi şeydir”, – dedi.

Göydən gələn səsin kimin söylədiyini axtardı. Yox... Meydanda heç bir şey yoxdur. O zaman ona bu buyruq haradan gəlirdi?

O gün bütün düşüncəsini bu fikirlərlə yordu. Təyyibə nədir, bilmədi. Nə gündüz, nə parlaq günəş ona heç bir şey anlatmadı.

Ertəsi gün gecə yenə də yuxuya daldı. Yenə xəfif bir səs ruhunun tellərini titrətdi. Yenə dəhşətli, fəqət şirin bir avaz, hakim, fəqət qəlbə işləyən bir səs duyurdu:

– Ey Əbdülmüttəlib, bərrəni qaz!(bərrə - torpaq)

Gənc başçı, dəliqanlı Qureyş ulusu bu səsin gəldiyi tərəfə yönəldi. Yuxusunda ona səsləndi:

– Bərrə nədir? Nə kimi şeydir bu? Təyyibə nə deməkdir?

Səslərin gəldiyi yerdən heç bir cavab gəlmədi. Şeybətül-Həmd yuxudan oyandı, gözlərini yavaş-yavaş açdı. Qalxdı. Eşitdiyi səslərdən heç bir iz yox idi. Yenə dərin düşüncəyə daldı. Yenə göylərdən bir yardım istədi. Yox...Heç kimdən, heç nədən yardım yoxdu. Bu eşitdiklərim nə müəmma idı? Bunları necə çözəcəkdi? Kəbəyə doğru getdi. Heç kimə sirrini söyləmədi. Bütün günü düşünərək dolandı. Dolaşmaqdan vücudu, düşünməkdən ruhu və beyni yorulmuşdu. Evə döndü. Yorğunluğun şirin ağuşu onu tez yatağına apardı, yuxuya daldı. Vücudu yüngül, ruhu xəfif idi.

Görəsən, yüngülcə eyni səsi eşidəcəkdimi? Bu səs gecə ona nələr söyləyəcəkdi? Ürəyi həyəcan içərisində çırpınırdı. Gözlərini ulduzlara doğru çevirib qapadı. İndi yuxunun qolları onu özünə çəkdi. Bambaşqa bir dünyaya dalar kimi dərin yuxuya getdi. Qureyşin gənc başçısı gözəl üzünün, ola bilsin ki, mələklər tərəfindən sevilməsinin fərqində deyildi.

Bu üçüncü gecə də dərin yuxusunda eyni şirin səs, amma hökmlə, üçüncü dəfə əmr verdi:

– Ey Əbdülmüttəlib, məsunəni qaz!

Dəliqanlı yenə yuxusunda soruşdu:

– Ey naməlumların səsi, mənə bildir ki, məsunə nədir? O, necə şeydir?

Fəqət yenə cavab yoxdur. Səs susur. Əbdülmüttəlibi, gənc başçını çaşqınlıq bürüyürdü. Bu yuxuda, əlbəttə, bir hikmət var. Səsin gəldiyi tərəfə

doğru var gücü ilə qışqırdı:

– Məsunə nədir?

Qışqırığı göydə əks-səda verdi. Bir az sonra soruşduğuna yenə yüksək avazla cavab gəldi:

– Zəmzəmi qaz!

Bu cavab yuxuda olsa da, Əbdülmüttəlibi sanki bir sevinc çılğınına döndərmüşdi. Yenə var gücü ilə qışqırdı:

– Zəmzəm necə şeydir? Nədir?

Bu sorğu da səmada əks-səda buraxaraq dalğalandı. Az sonra eyni avaz ilə cavab gəldi:

– Bütün hacıların suyunu verəcək olan quyunu. Mərva ilə Səfa arasında. Qarışqa yuvasının yanında.

Bu cavabdan sonra səsdən əsər-əlamət qalmadı. Əbdülmüttəlib yuxusundan oyandı. Könlü fərəhlə dolu idi. Artıq naməlum səsin, naməlum kəlmələrinin cavabı tapılmışdı. Xanımı, Harisin anası yanına gəldi. Həyat yoldaşının üzündə bir rahatlıq ifadəsini görüb sevindi:

– Ya Şeybə, neçə gün idi ki, sənin üzündə kədər görürdüm və sənin üçün çox üzülürdüm. Bu gün sanki itirdiyini tapmısan, daha gözəlsən. Üzündə rahatlıq hissi var. Alnın daha parlaqdır.

Əbdülmüttəlib gənc xanımına təsəlli verdi:

– Müjdə, ya Ümmül - Haris, − dedi, − bir neçə gün idi ki, kədər və düşüncələr içində idim. Çünki mənə bir səs: "Ya Əbdülmüttəlib, təiyyibəni qaz, bərrəni qaz, masunəni qaz", − deyə səslənirdi (məsunə-toxunulmaz). Bu naməlum səslərin ayrı-ayrı dediyi sözləri anlaya bilmirdim. Bu gecə eyni səs mənə: "Zəmzəmi qaz!" − müjdəsini verdi. Xəbər məni çox sevindirdi. Bu olsa-olsa Zəmzəm quyusudur ki, ən böyük cəddim İsmail peyğəmbərdən sonra üstü örtülmüşdü, görünmürdü. O gündən bəri heç kim o quyunu yada salmamışdı. İndi sevincim ondan irəli gəlir ki, qeybdən gələn səs mənə: "Zəmzəm quyusunu qaz!" – deyir. Onu qazımağımı istəyir, arıtlamağımı tapşırır.

Ümmül- Haris:

– Xeyirli olsun, ya Şeybə, hacılarımıza bol-bol su vermək nəsib olsun sənə.

Əbdülmüttəlib oğlu Harisi çağırdı:

– Mənə bir külüng, bir kürək, bir də səbət al, gəl! − dedi.

Haris qaçdı, tez gətirdi. Anasıyla atasının danışdıqlarını eşidərək, Zəmzəm quyusunu tapacaqlarından dərin bir coşqunluq hiss edirdi, sevincdən özü-özünə sığmırdı.

– Ata, kölələrimizdən bir-ikisini də çağırımmı?

Əbdülmüttəlib:

– Xeyr, oğlum, − deyə cavab verdi, − bu iş əziz işdir, öz əlimizlə görməliyik. Çünki Zəmzəm (mübarək su, dur.getmə mənasındadır) quyusunu açmaq ancaq mənə əmr olundu.

Ata-oğul külüng, kürək və səbəti götürərək Kəbənin həyətinə tərəf getdilər. Qarışqa yuvasını tapdılar. Nişanları verilmiş torpağı qazmağa başladılar. Sübhdən yola çıxanlar mütləqa Kəbəyə gələr, arzularını dilərdilər. İlk yolçular Kəbənin çevrəsinə yığışdılar. Kəbəyə səhər toplananlar Əbdülmüttəlibi dövrəyə almışdılar. Məkkə ulusu oğlu ilə burada nə iş görürlər?

Xəbər qısa zamanda Məkkədə yayıldı. İndi bütün qureyşlilər onların yanına toplaşmışdı. Əbdülmüttəlibdən soruşdular:

− Nə iş görürsüz orada, ya Əbdülmüttəlib? Nə axtarırsız?

Əbdümüttəlib:

– Göydən mənə üç gecədir səslər gəlirdi. “Zəmzəm quyusunu aç” − dedilər. İndi babalarımızın quyusunu axtarıram.

Bunu eşidənlər həmən şəhərin ən uzaq məhəllələrinə qədər xəbəri yaydılar.

– Əbdülmüttəlibə qeybdən bir səs gəlmiş, Zəmzəm quyusunu özu qazsın və açsın. Yuxuda bu işarətlər verilmiş.

Qureyş ağsaqqalları və hörmətliləri bu xəbəri eşidincə, yığışıb Əbdülmüttəlibin yanına gəldilər.

– Ya Əbdülmüttəlib, nə işlə məşğulsan? – dedilər.

Şeybətül-Həmd:

– Axı Kəbəmizdə bir Zəmzəm quyusu vardı. İsmail peyğəmbərdən sonra üstü örtülmüşdü, görünmürdü. Mənə qeybdən “quyunu aç”, – deyə səs gəldi. İndi mən də Ulu Tanrının əmrini yerinə yetirməkdəyəm, - deyə cavab verdi.

Əbdülmüttəlibin babası Əbdümənafoğullarından Nofəl oğlu Ədiyy adında bir əmisi oğlu vardı. Malı və mülkü çox idi. Qureyş içərisində o da ululardan idi. Xalq onu sevər və sayardı. Amma Əbdülmüttəlibin bütün Qureyş arasında daha ulu, daha sevimli, etibarlı və başçı olmasına qısqanırdı. Onu Əbdülmüttəlibə düşmən etmişdi. Qureyş ulularının arasından ayrılaraq Əbdülmüttəlibə:

– Ya Şeybətül-Həmd, bu Zəmzəm quyusunun qazılmasına, arıdılmasına bizi də ortaq et. Biz də qazaq və arıdaq.

Əmisi oğlunun hiddətli və qısqanc münasibətini görən Əbdülmüttəlib: − Xeyr! – dedi. Bu vəzifə mənə tapşırıldı. Mən qazıb və arıdacağam.

Bu cavabı eşidən Qureyş hörmətliləri Ədiyy ilə birlikdə irəli atıldılar:

– Ya Əbdülmüttəlib, biz səni yalnız başına bu işi görməyə qoymarıq.

Bunun şərəfi hamımıza aiddir.

Əbdülmüttəlib:

– Xeyr, o xidməti etmək Tanrı tərəfindən yalnız mənə verilibdir.

Söz uzanırdı. Münaqişə böyüyür və camaat ətrafda çoxalırdı.

Şeybətül- Həmd:

– O halda işin ən yaxşısı bir alim və yetkin insanın hakim olmasıdır. O alim insan nə deyərsə, biz də onu edərik.

Qureyş ululrı:

– Çox gozəl! – deyə cavab verdilər.

İçərilərindən biri bu təklifi ortaya atdı:

– Şam elində Sadoğlu qəbiləsində bir qadın vardı. Bütün ərəblərin çətin işlərini o həll edərdi. Biz də onun yanına gedərik. Dərdimizi anladarıq. O qadın nə hökm edərsə, onu da edərik.

Əbdülmüttəlib deyilənlərlə razılaşdı.

– Bu hökmə mən də boyun əyərəm, – dedi.

Həmən yol hazırlığına başlandı. Bütün Qureyş ululari atlandılar, dəvələrə mindilər. Artıq yola çıxmışdılar, isti çöllərə doğru irəliləyirdilər. Məkkə arxada qalmışdı. Şamla Hicaz arasında xüsusi susuzluğu ilə tanınan bir yer vardı. Yolçular bu susuz yola gəldilər. Heyvanlar yol gedə-gedə pis hala düşmüşdülər. Susuzluqdan yeriyə bilmirdilər. İnsanların da dodaqlarının quruduğunu hiss edirdilər. Qureyş hörmətliləri:

– Ya Əbdülmüttəlib, susuzluq bağrımızı yandırdı. Heyvanlarımız daha yerimirlər. Siz nə düşünürsünüz, tədbiriniz nədir?

Şeybətül-Həmd:

– Hər biriniz bir-bir quyu qazın, bəlkə, qazdığınız yer su damarına düşər, su çıxar. Hamımıza rahatlıq olar. Bəlkə də gecəni əyləncə içində keçirərik. Gecənin sərinliyində də yolumuzu davam etdirərik, bir xeyrə çatarıq.

Bu gözəl bir fikir idi. Yolçular durdu. Hamı dəvələrindən endi. Axşama qədər olacaqları yerləri qazmağa başladılar. Fəqət bir damla da su yox idi. Heç birinin qazdığı quyudan su çıxmadı. Əbdülmüttəlib günortadan xeyli keçmiş:

"İndi də qalxın, gedək. Bəlkə, bir mübarək quyuya rast gəldik", – buyruğunu verdi.

Hamı dəvələrinə mindi. İrəliyə doğru hərəkətə başladılar. Bütün Qureyş ululari da iki hörgüclu dəvələrə minmişdilər. Əbdülmüttəliblə birlikdə getmək üçün onun dəvəsinin yanına gəldilər. O da dəvəsinə minmək üçün çökdürdü. Bir ayağını dəvənin üstünə qoydu, o biri ayağını da qaldırmaq istədi. Qüvvət almaq üçün topuğunu bərk torpağa basdı. Dəvəyə atılmaq üçün ayağını qaldırmışdı ki, bir möcüzə oldu, gözləri heyrətdə qaldı.

Ulu Tanrının qüdrəti ilə Şeybətül-Həmdin yerdəki ayağının altından göz yaşı kimi bir bulaq axmağa başladı. Yolçular dönüb qalmışdılar. Gözlər axan sulara baxırdı. Könüllərə böyük bir sevinc, şadlıq gəlmişdi. Təkrarən yükləri yerə endirdilər. Bütün karvandakı adamlar bu susuz vadinin ortasında doyunca su içdilər. Dəvələrə də doyana kimi su verdilər. Su qablarını doldurdular. Özlərini rahat hiss etdilər. O gecəni bu bulağın başında keçirdilər. Əyləndilər, şeirlər oxudular, hekayələr danışdılar. Dadlı və dərin yuxudan göyün parlaq ulduzları qeyb olan vaxt hamısı oyandı. Qureyş uluları yığışaraq Əbdülmüttəlibin yanına gəldilər və dedilər:

– Ya Əbdülmüttəlib, biz Məkkəyə dönmək istəyirik. O qadın kahinin yanına getmək istəmirik.

Əbdülmüttəlib yoldaşlarının fikirlərini dəyişməsinə sevinməklə bərabər:

– Nədən ötrü getmək istəmirsiz? – deyə soruşdu.

Onlar belə cavab verdilər:

– Çünki Ulu Tanrının yanında sənin dərəcən elə böyükdür ki, ayağının topuğu dibindən su fışqırdı. Belə qənaətə gəldik ki, Zəmzəm quyusunu qazmaq, arıtlamaq şərəfi yalnız sənə verilmişdir. Onu pak etmək icazəsi sənə məxsusdur. Nədən belə qərara gəldik? Çünki hamımız burada, boyumuz qədər quyu qazdıq bir damla belə su çıxmadı. Amma sənin ayağını basdığın yerdən göz yaşı kimi təmiz və şirin su axdı. Bulaq fışqırdı. Bəli, qərar verdik və hər şeydən üstün gördük ki, Zəmzəm quyusunu yalnız sən aç, arıt.

Əbdülmüttəlib:

– Camaatımın qərarına boyun əymək vəzifəmdir. Sağ olun!

Dəvələrə yüklər yükləndi və Hicaza doğru geri döndülər.

## *ZƏMZƏM QUYUSU AÇILIR*

Məkkəyə çatan zaman bütün şəhər Əbdülmüttəlibin susuz çöllərdə ayağının altından çıxan bulaq hekayəsi ilə çalxalanırdı. Axşam vaxtı şəhərə çatdılar. Ertəsi gün səhər tezdən Əbdülmüttəlib tək oğlu Haris ilə birlikdə külüng, kürək və böyük səbətlərlə qazdıqları yerə gəldilər, işə başladılar. Gum, gum, gum. Müqəddəs torpaqda qazma səsləri dayanmadan eşidilirdi. Qalan torpaqları kürəklə atılır, sonra kürəklə topalayırdılar. Əbdülmüttəlib 30-33 yaşında gənc ata, Haris on beş yaşına çatmamış bir gənc yeniyetmə. Ata qazır, kürəklə torpağı atır, Harıs isə səbətlərə doldurub daşıyırdı. Günəş getdikcə havanı qızdırırdı. Gum, gum, gum səsləri Kəbə divarlarında cingildəyirdi. Günəş elə qızmışdı ki, sanki ətrafı yandıracaqdı. Əbdülmüttəlibin alnından iri tər damcıları bir-birinin ardınca inci böyüklükdə damcılayırdı.

Ancaq yorulmurdular. Məkkə camaatı bu quyunu açmaq şərəfini, nəhayət, ona buraxmışdı.

Yemək yemədilər, çünki acmamışdılar. Su içmədilər, susamamışdılar. Günortaya doğru Ümmül-Haris əri və oğluna Taifin məşhur üzümlərinin qurusundan, süd və bal gətirmişdi.

Ata və oğul oturub bunları yeyib-içdilər. Ümmül-Haris:

– Kəbənin Tanrısı sizə kömək olsun, işiniz yüngül olsun, − deyərək evə döndü.

Əbdülmüttəlib oğlu ilə yenidən işə başladı. Bir damla su görünmədiyindən ətrafa yığılıb baxan adamların marağı azalır, yavaş-yavaş dağılışırdılar. Günəşin artan istiliyi hamını günorta yuxusuna çağırırdı. Bir az da keçmiş quyunun başında bir ata, bir də səbətlə torpaq daşıyan Haris qalmışdı. İş durmadan davam edirdi.

Günəş çox qızdırırdı, amma heç ziyan vermirdi. Ən böyük babalarının anası Həcər bu çölün ortasında: “Su. Bir qurtum su!” − deyərək çırpınırkən, kiçik İsmailın ayaqları ilə eşdiyi yerdən çıxan Zəmzəm suyuna, bəlkə də Zəmzəm quyusuna qovuşacaqdılar.

Artıq hacılar üçün bol su olacaqdı. Məkkə ziyarətinə gələnlərə doyunca su veriləcəkdi. Quyu qazılır, amma bir damla belə su görunmürdi. Ouyu dərinləşdikcə zəhmət artırdı. Hanı göydən mələklərin xəbər verdiyi Zəmzəm? Hanı hacılara veriləcək quyunun suyundan əsər-əlamət? Yenə qazmanı davam etdirdilər.

Əbdülmüttəlib oğlunu bir aralıq quyuya endirdi:

– Bax, – dedi, – torpaqda nəmlik varmı? Sudan bir iz görünürmü?

Haris çuxura endi və torpağı əli ilə eşələdi. Atasına:

– Su yoxdur, ata, su yoxdur. Amma bir şeylər var, – deyə səsləndi.

Quyudan bir cavab gəlmədi. Bu anda Haris əli ilə daş parçalarını yerindən tərpətdikcə çaşdı, qaldı. Göy üzünün işığı indi quyunun içərisində görünürdü. Deməli, su, bu su idi. O dəqiqə atasına:

– Ata, su, su! – deyə qışqırdı.

Əbdülmüttəlib:

– Ya Allahım, sənə həmd və şükürlər olsun, − deyərək əllərini göylərə qaldırdı. Üzündə bir sevinc var idi. Az sonra quyu arıtlandı, təmizləndi. Amma ata ilə oğul quyuda böyük bir xəzinə tapmışdılar. Bu xəzinə İsmailoğullarından sonra gürhümlülər Məkkəyə hakim olanda, Kəbə hücuma məruz qalarkən Hümeyrəoğulları tərəfindən Zəmzəm quyusuna atılmışdır. Bir çox gizli hədiyyələr də Kəbədə quyuya atılmış və sonra ağzına qədər torpaqla doldurulmuşdur. Xəzinənin yeri illərlə bilinmədən qalmışdır.

İndi Əbdülmüttəlib quyudakı xəzinəni bayıra çıxarırdı. Qalaylı sandıq-

lar, qılınclar, zirehlər, atanın əlindən oğluna verilir, sonda quyunun yanında toplanırdı.

Qureyşlilər günorta yuxusundan oyanıb Kəbəyə gəlməyə başlamışdılar. Onlar heyrət və təəccüblə çıxarılmış əşyalara baxırdılar. Az sonra Əbdülmüttəlibin qalaylı dolça ilə doyunca su içdiyini də gördülər.

Hamısı çaşıb qalmışdı. Zəmzəm tapıldımı? Şama gedən yolda Ulu Tanrı Əbdülmüttəlibi ayağının topuğundan çıxan su ilə şərəfləndirmişdi. Deməli, Zəmzəmi də tapmaq şərəfi ona nəsib imiş.

Xəbər bir anda Məkkəyə yayıldı. Şəhərlilər axın-axın Zəmzəm quyusunun ətrafına toplandılar. Onlar: "Məkkə yandırılıb dağıdılan zaman xilas edilən xəzinələr Zəmzəm suyu ilə tapıldı. Bunu Əbdülmüttəlib tapdı", − deyirdilər.

Əbdülmüttəlib xəzinəyə baxış keçirdi. Qızıldan iki ədəd maral tapdı. Qureyş hörmətliləri:

– Bu xəzinə ancaq Əbdülmüttəlibə aid deyildir. Bizim də bu qənimətdə haqqımız var. Kəbə həyətində tapılıb çıxarılan xəzinə Qureyşə aiddir, − dedilər.

Üməyyə oğlu Hərb:

– Xeyr, bu xəzinə yalnız Əbdümənafoğullarına aiddir. Çünki torpağı Əbdümənaf oğlu Haşim oğlu Əbdülmüttəlib və onun oğlu Haris qazdı. Allah bu şərəfi Əbdümənaf sülaləsinə nəsib etdi. Başqalarının bundan haqq istəməsi doğru deyildir.

Əbdülmüttəlib dərin bir düşüncədə idi. Susurdu. Nə düşünürdü Qureyş başçısı?

Üməyyə oğlu Hərb ona tərəf döndü:

– Nədən susursan, ey Əbdülmüttəlib, − dedi, − xəzinəni tapıb çıxaran sənsən. Bunun haqqında nə düşünürsən?

Əbdülmüttəlib, nəhayət, sözə başladı:

– Bu Ulu Tanrının mənə yaxşılığıdır, lütfüdür. Fəqət kahinə də bir kərə müraciət edərəm. Bu nemət və xəzinəni üç pay edim. Bir pay nemət mənim, bir pay Qureyşin, biri isə Kəbənin, – dedi.

Bütün Qureyş:

– Bu fikir çox yaxşıdır.

Şeybətül-Həmd bütün xəzinəni üç yerə böldü: 1.İki qızıl maral; 2.Qılınclar və qalaylı sandıqlar; 3.Zirehlər;

Kahin ox atacaqdı. Bu üç qismətdən biri kimə düşərsə, o, öz taleyindən razı olacaqdı. Üç oxa qismətlər yazıldı.

Əbdülmüttəlib:

– Üç bardaq hazırlansın, – dedi, – gümüş bardaq Kəbənin, qara mə-

nim, ağ isə Qureyşin olsun. Kahin gəldi. Gümüş bardaqdan bir ox çəkdi. Yazısını oxudular: iki qızıl maral. Kəbəyə iki qızıl maral düşmüşdü. Qara bardaqdan ox çəkdilər, yazısını oxudular. Qılınclar və qalaylı sandıqlar Əbdülmüttəlibin payına düşmüşdü. Üçüncü pay isə, yəni zirehlər Qureyşə qalmışdı.

Əbdülmüttəlib:

– Mənim payım da Kəbənin olsun, − dedi.

Sonra qızıl marallar Kəbənin qapısına asıldı. Kəbə digər tapılmışlarla Əbdülmüttəlib tərəfindən bəzəndi. Kəbənin damı əridilmiş qızıllarla ziynətləndirildi. Qapılarının halqaları isə qızıldan düzəldildi. Qapının qurşaqları da qızıldan töküldü. Beləcə, Kəbənin tarixində ilk zinətlənmə Əbdülmüttəlib tərəfindən olmuşdu. Zəmzəm suyu isə məkkəlilərə həyat suyu kimi yetişmişdi. Əbdülmüttəlib gələnə-gedənə bu sudan içirirdi. Kəbə ziyarətçiləri artıq susuz qalmırdılar. Məkkəlilər:

– Ey Əbdülmüttəlib, su kimi əziz ol! – deyirdilər, – qövmünə ən böyük yaxşılığı sən etdin. Bulaqların ən gözəlini Kəbə həyətində sən qaynatdın. Var ol!

Məkkə böyükləri və ərəb uluları Əbdülmüttəlibin bu səxavətini görərək onun yurdunu və xalqını yaxşı, ağılla, hörmətlə idarə etməsinin şahidi oldular. Şeybətül-Həmdə sayğı göstərirdilər: "Zəmzəm quyusu ilə Əbdülmüttəlibin şərəfi və hörməti bol olsun", − deyirdilər, ona dualar oxuyurdular. Həqiqətən, onun izzəti və qiyməti artmaqda davam edirdi.

Amma Qureyşin içərisində bəzi hörmətlilərə, seyyidlərə onun ulu və böyük hörmət sahibi olması xoş gəlmirdi. Çünki camaatın onlara qarşı hörməti azalırdı. Nofəl oğlu Ədiyy Haşimin ən böyük qardaşının oğlu idi. Əmisinin oğlu Əbdülmüttəlibə qarşı düşmənçilik edirdi. Onun barəsində acı sözlər deyilirdi: "Məkkədə ululuq mənim də haqqımdır", – deyə üsyan edirdi. Nəslin və qövmün düşmənçiliyi heç bir düşmənçiliyə bənzəmir. O, nəslin içində baş verir.

Bir sabah Kəbədə Zəmzəm quyusunun başında Nofəl oğlu Ədiyy Əbdülmüttəliblə rastlaşdı:

– Ya Əbdülmüttəlib, sən haradan bu ululuq mərtəbəsinə yetişdin, haradan? − deyə soruşdu. Əbdülmüttəlib susdu, öz ürəyində danışdı. Bu sükutu görən Ədiyy daha da çox qəzəbləndi. Yenidən ona təhqiredici sözlərlə müraciət etdi:

– Sən aramıza qərib olaraq gəldin, − dedi, − Mədinə şəhərində yetim qalmışdın. Yetimliklə gəldin, yetimliklə böyüdün. Sonra Qureyş uluları sənə mehribanlıq göstərdilər və tək buraxmadılar. Səni əzizlədilər və ən hörmətli yerdə oturtdular.

Əbdülmüttəlib bu acı sözlərin qarşısında hələ də səbir edirdi. Nələr söyləyirdi bu ailədən olan düşmən. Uşaqlıqda yetim olduğunu nədən üzünə vururdu. Baxım bu düşmən daha nələr deyəcək, nə təhqiredici sözlər deyəcək? Bu sükut Nöfəl oğlu Ədiyyi daha çox əsəbiləşdirirdi:

– Susursan, elə deyilmi, Əbdülmüttəlib, – dedi, – susursan, çünki sənin çox oğlun yoxdur ki, sənə arxa olsun. Hamımızın iftixarı çox övlad böyütməyimizdir. Nəslin çoxluğundan qövmümüz sevinc duyar. Öz halını bil. Sözlərini öz qədərincə söylə.

Bu qırmanc kimi sözləri Əbdülmüttəlibin üzünə söyləyən Ədiyy yan tərəfə baxdı, qara gözlərini süzərək əmisi oğlunun yanından ayrıldı.

Bu sözlər Əbdülmüttəlibə çox ağır gəlmişdi. Yerindən qalxdı. Kəbənin qabağına doğru ayaqlarları bükülə-bükülə, qüvvəsi kəsilə-kəsilə irəlilədi. Zəmzəm quyusunun açılmamasından dönməyən, Şam yolunda qum çöllərində ümidi kəsilməyən, xəzinə tapılanda Qureyş istəklərinə qarşı özünü çaşdırmayan Əbdülmüttəlib indi iki bükülmüşdü. Bu sözlərin ağırlığı onu məyus etmişdi. Kəbənin qızıl döyməsindən tutdu:

– İlahi, – deyə yalvarmağa başladı, – sən şahid ol. Sənin mələklərin şahid olsun. Əgər mənim on oğlum olursa, birini sənin yolunda qurban edərəm. O oğlum sənə fəda olsun.

Əbdülmüttəlib beləcə oğullarının çoxalması üçün dua etdi. İçindən birini də Allaha qurban dedi. Oradan evinə döndü. Xanımı Ümmi-Harisə olanı danışdı. Ümmi-Haris səsini çıxarmadı. Amma yatağına keçdikdə öz- özünə dedi:

– Artıq oğlum Harisin atasından mənə əbədi vəfa olmaz. Haqqı da var. Ona yardımçı, düşmənlərə qarşı arxa lazımdır. Könlü madam ki övlad sahibi olmaq istəyir, Qureyş qadınları ona fəda olsun.

Ancaq nə qədər belə desə də yatağına keçdiyi zaman Ümmi-Harisin gözlərindən inci damlaları boyda göz yaşları dənə-dənə tökülürdü.

Ertəsi gün Əbdülmüttəlib dörd yana xəbər yolladı. Evlənmək istədiyini, övlad sahibi olmaq arzusunu yaydı. Qureyş ulularının qızlarını istədi. Əbdülmüttəlib kimi gənc bir başçıya kim qız verməzdi.

Hacər ibn Əbdümənaf ibn Datirin Lübnə adlı qızıyla evləndi. Ondan Əbdül-Üzza adında bir oğlu oldu. Ləqəbi Əbu Ləhəb idi.

Əbdülmüttəlib daha sonralar da bir çox xanım aldı. Oğlu, qızı oldu. Rəvayət edilir ki, onun altı həyat yoldaşı vardı. Bunlardan on altı oğul və qızı olmuşdu. Övladlarından onu oğlan və altısı qız idi.

Xanımları: Ümmi-Haris, Səmra, Lübnə, Halə, Nubeylə, Fatimə.

Oğlanları: Haris, Əbdül-Üzza (Əbu Ləhəb), Dırar, Abbas, Həmzə, Müqəvvim, Həcələ, Əbu Talib (Əbdümənaf), Zübeyr, Abdullah.

Qızları: Səfiyyə, Ümmi-Həkim, Atiqə, Ümeymə, Ərvə, Bərrə.

Haris ilə birlikdə bu doqquz oğul istəyi Əbdülmüttəlibin duasında qəbul olunmuşdu.

## *HƏZRƏTİ ABDULLAHIN DOĞULMASI*

Bir gecə Əbdülmüttəlib yorğun-argın yatağına girmişdi. Yuxu görürdü. Belindən bir ağ zəncir çıxırdı. Zəncir dörd hissəyə ayrılırdı. Bir ucu göyə doğru gedirdi, bir ucu torpağa girirdi. Digər bir ucu qərbə, o biri ucu isə şərqə uzanırdı. Zəncir sonra bir ağac oldu və kökləri yerə batdı. Ağacın budaqları yarpaqlamışdı və saysız yeməli meyvələr verməyə başlamışdı. Kölgəsi cahanı tutmuşdu. Əbdülmüttəlib nur üzlü iki kişi də görmüşdü. Onlar da bu böyük gövdəli ağacın altında kölgədə durmuşdular. Şeybətül-Həmd onlardan soruşdu:

– Siz kimsiniz?

Nur üzlü iki kişi cavab verdi:

– Ey bizə sual verən insan, mən Nuh peyğəmbərəm, o biri gördüyün kişi isə İbrahimxəlil peyğəmbərdir. Bu ağacın kölgəsində dincəlməyə gəldik. Gəl sən də dincəl.

Əbdülmüttəlib bu sözləri eşitdikdə yuxudan oyandı. Bütün bədəni, ürəyi həyəcandan titrəyirdi. Bu yuxu nə ola bilərdi?

– Bu yuxunu ancaq yuxuyozan yoza bilər, − deyə düşündü. Həmən bir kahinin yanına getdi. Yuxusunu bütün incəlikləri ilə ona danışdı.

Əbdülmuttəlib onu danışarkən yuxuyozan kahinin gözlərində sevincli göz yaşları göründü. Məhəbbət dolu baxışlarla Əbdülmüttəlibə tərəfə dönüb xoş ifadələr söylədi:

– Ya Seyyid, sənin belindən bir oğul gələcəkdir, o cahanı qılıncı ilə tutacaqdır. Dövləti dünya məliklərinin əlindən alacaqdır. Bir çox xalqlara rəhm ediləcək və onlara əziyyət verilməyəcəkdir.

Bunlar nə qədər müjdəli sözlərdir. Onun üzü və gözləri gülürdü. Baxışlarında indi dalğa-dalğa sevinc işıqları keçirdi. Yuxuyozan gələcək Rəsul haqqında bir çox sözlər söylədi. Əbdülmüttəlib oradan ayrılanda xeyli yüngülləşmişdi. Sevinərək evinə döndü. Yuxusunu və yozmasını dostlarına söylədi. Bütün qardaşları da buna sevindilər.

Bir gün sonra sevinc içində olan Əbdülmüttəlib səhraya ova çıxdı. Gün qızdırırdı, susamışdı. Su tapmaq üçün dörd tərəfi gəzdi. İrəlidə, bir qayanın üstündən su axdığını gördu. Saf və şirin suya bənzəyirdi. Suya doğru irəlilədi. Əlini uzatdı, ovuc-ovuc sudan içdi. Su qardan soyuq, şəkərdən şirin idi. İçdi, içdi, başa düşmədi. Yenə içdi, başa düşmədi, bir daha içdi.

İndi Əbdülmüttəlibin könlü bir fərəh, sevinc, şadyanalıqla dolmuşdu. Sanki qanında bir başqa qan, həyəcanında başqa bir həyəcan var idi. Əbdülmüttəlib o gecə sevgili xanımı Fatimə ilə ən sevdalı bir gecə keçirdi. Könülləri bu gecə nə qədər biri-birinə yaxın idi. Bu gecə onun alnındakı Rəsul nuru Fatimənin alnına keçmişdi. Ertəsi gün Əbdülmüttəlib nuru Fatimənin alnında gördü. Deməli, Fatimənin doğduğu uşaq Rəsulun nurunu daşıyacaqdı. O, yenidən böyük sevinc hissləri keçirdi.

Günlər keçirdi, xanımı Fatimənin hamiləlikdən gözəlliyi qat-qat artmışdı. Gözlənilən gün yaxınlaşırdı. Müddət bitdikdə Abdullah dünyaya gəldi. Nə gözəl bir uşaqdır. Görənlər çaşıb qalırdı. Çünki Rəsul nuru indi Abdullahın alnında günəş kimi parlayırdı. Həm də heç ata və anasına bənzəmirdi. Çox parlaq idi. Uşağı hansı evə aparırdılarsa, o evdə çıraq yandırmaq lazım deyildi. Nur çıraq kimi parlayırdı. Hər kim Abdullahın üzünə baxırdısa, gözləri qamaşırdı. Məkkəlilər o uşağın nurundan bir-birinə danışardı. Bu nur indiyə kimi atalarında bu qədər parlaq olmamışdı. Hər kəs: "Bu nur kimi görünəni olmamışdı", − deyirdi.

Yaşlılar söyləyirdilər ki, nə Əbdümənafda, nə Haşimdə, nə də Əbdülmüttəlibdə bu qədər möhtəşəm parlamamışdı.

## *YƏHUDİLƏR TƏLAŞLANIR*

Münəccimlər, kahinlər bir yerə toplandılar və "Gözlənilən peyğəmbərin atası dünyaya gəldi", − dedilər.

Yerdə, göydə müxtəlif əlamətlər görünməyə başladı. O zaman yəhudi ulularının, alimlərinin saxladıqları Yəhya peyğəmbərə aid bir ağ, uzun ətəkli cübbə var idi. Həzrəti Yəhya boğazlanan zaman bu cübbə üstündə tapılmışdı. Qana bulaşmışdı. Yəhudilərin bəzi kitablarında yazılırdı ki, axırzaman peyğəmbərinin atası bu dünyaya gəldiyi zaman bu cübbədəki quru qan, yaş olacaqdır. Yaş olmuş qan əvvəlcə cübbədən aşağı axacaq, sonra yerə damacaqdır. Abdullah Fatimədən dünyaya gəldiyi gün ilk əlamət, bu cübbədə olan quru qan yaş hala gəlmiş, yerə axmağa başlamışdır. Yəhudilər bu əlaməti görəndə:

– Axırzaman peyğəmbərin atası doğulmuşdur. O peyğəmbərin də gəlməsinə az vaxt qalmışdır, − dedilər.

Onu yox etmək üçün nə etməlidirlər?

Yəhudi hörmətliləri bir yerə yığıldılar, danışdılar, nə edəcəklərinə dair belə qərar verdilər ki, bir dəstə fədai cəm etsinlər. Onlara aralarında topladıqları mallardan verəcəklər. Sonra fədailəri Məkkəyə göndərəcəklər, onlar

orada oturacaqlar. Abdullahı ələ keçirmək üçün çalışacaqlar. Böyüklüyündə, kiçikliyində gecə və gündüz fürsət axtaracaqlar ki, onu ələ keçirib öldürsünlər.

Dediklərini etdilər. Mallar toplandı. Fədailər Məkkəyə göndərildi. Abdullah yeddi yaşına girmişdi, amma onlar bir dəfə də olsun belə fürsət tapıb uşağa zərər verə bilməmişdilər.

## *ABDULLAHIN GÖZƏLLİYİ*

Yeddi yaşına gələn Əbdülmüttəlib oğlu Abdullahın gözəlliyini dillər anlada bilmirdi. On yaşına keçəndə isə bu gözəlliyə, bu surətə bütün qövm heyran olmuşdu. Hamının könlündə özünə yer tutmuşdu. Əbdülmüttəlibin ən son doğulan uşağı Həmzə idi. Həmzə Halə adlı xanımından dünyaya gəlmişdi. Artıq on oğulluq zəncirinin son halqası tamamlanmışdı.

Bir gecə Əbdülmüttəlib yatağında yatırdı. Yenə yuxu görürdü. Birdənbirə səmadan gələn bir səs ürəyinə çırpıntı verdi. Bu səs:

– Ya Əbdülmüttəlib, – deyirdi, – əhdinə vəfa et! Nəzirini yerinə yetir!

O, yuxudan diksinib oyandı. Bu nə səs idi? Amma dərhal anladı. Verdiyi sözü yerinə yetirməsi, əhdinə sadiq olması gərəkdir. Çünki Zəmzəm quyusunun açılışında: "On oğlum olarsa, birini Tanrıya qurban verəcəyəm", – demişdi.

On oğluna xəbər göndərdi, hamısı bir yerə yığıldı. Onlara dedi:

– Ey mənim oğullarım, ey canım, gözümün nuru və ciyərparələrim. Siz dünyaya gəlməmişdən mən Tanrı dərgahına üz tutmuş, and içmişdim ki, əgər Tanrı mənə on oğul verərsə, onu da həyatda qalarsa, birisini Allaha qurban edəcəyəm. Andım bu idi. Ey balalarım, onunuz da çoxdan dünyaya gəlmisiz, ən kiçiklər də böyüdü. Artıq şübhə qalmadı. İçinizdən birini Tanrı yolunda qurban verməliyəm. Siz nə deyirsiz, nə düşünürsüz?

Uşaqlar hamısı susurdu. Atalarına heç bir cavab vermədilər. Əbdülmüttəlib üçüncü dəfə:

– Oğullarım, ciyərparələrim bu haqda nə düşünürsünüz? – deyə soruşdu.

Həmzədən böyük, səkkiz qardaşdan kiçik Abdullah söz aldı:

– Ay ata, bunu bizə niyə deyirsən? Biz sənin əmrinə boyun əyən, hökmünə razı olan övladlarınıq. Sənin sözünə ayrı hərəkətimiz olubmu? Sənin hökmündən üz döndərmişikmi? Hamımız atamızın dediyinə "baş üstə" demişik. Elə deyilmi? Bu cavabı alan Əbdülmüttəlib oğlanlarının üzünə baxdı. Haris, Əbdül - Üzza, Əbu Talib və Abbas uşaqlarının ən böyüyü idi, on-

lar da bu cavabı verdilər.

– Ay ata, bizimlə bunu niyə danışırsan? Biz sənin qərarın qarşısında baş əyirik və yerinə yetirməliyik. Tanrının əmri nədirsə, onu da et. Allah qarşısında əhdini bitir.

Əbdülmüttəlib bu cavabı alınca:

– İndi hər biriniz analarınızın yanına dönün, hazırlanın. Yuyunun, saçlarınızı darayın. Təmiz paltarlar geyinin, ətir vurun, gözlərinizə sürmə çəkin. Nəslinizdən və qəbilənizdən halallıq istəyin. Çünki on oğlum arasında püşk çəkəcəyik. Hansınıza düşsə, onu Kəbəyə qurban edəcəyik. Bu qurban kimdir, onu indi bilmirəm.

Ondan sonra oğlanları getdilər, olanları analarına bildirdilər. Bir saat sonra analarının fəryadı Məkkəni bürüdü. Bütün qövm bir-birinə dəydi. Harisin anası Ümmi-Haris ağlayırdı. Əbdül-Üzzanın anası Lübnə hıçqırıqlar içindəydi. Abbasla qardaşı Dırarın anası Nübeylə iki oğlu üçün fəryad edirdi. Ən son doğan Həmzə ilə iki oğlun anası Halənin göz yaşları yanaqlarından dayanmadan axırdı. Yaxud Abdullahın, Əbu Talibin və Zübeyrin anaları... Xöşbəxt qadın Fatimənin üzünü isə sanki matəm buludları örtmüşdü. Necə ağlamasınlar, göz yaşı tökməsinlər...

Bu püşk sevgili oğullarından birinə düşərsə, bu uşaq Kəbənin qurban daşında qurban edilərsə...

Bütün qadınlar bu faciəli səhnəni görür, titrəyir və yenidən bağırmağa, hıçqırmağa başlayırdılar. Ölüm hansını xəyal kimi qovalamaqda idi? Kimin ciyərparəsi anasının qoynundan alınacaqdı. Məkkəyə yayılan xəbər Əbdülmüttəlibin xanımlarının ata-ana evlərində də eyni çaşqınlıq yaratdı. Hər tərəfdə "Sabah Əbdülmüttəlib oğlanlarından birini qurban verəcək" xəbəri dolaşırdı.

Hamı bir-birinə dəymişdi. Böyük babaları İsmail peyğəmbərdən sonra heç bir uşaq Tanrıya qurban edilməmişdi. İnsanların bir qismi Allah qarşısında verdiyi sözə əməl etdiyi üçün Əbdülmüttəlibi alqışlayır, bir qismi də bu növ ənənəni geri qaytardığı üçün başçılarını kiçik görürdü. Uşaqları üsyan etmədi. Bütün oğullarının ata sözündən çıxmayacaqları haqda verdikləri söz də bunu təsdiqləyirdi.

O gecə onun on oğlu da bəzənmişdi. Ətirlənib sürmələnmişdilər. Ertəsi gün ataları Şeybənin önündə sıraya düzülmüş hazır idilər. Ancaq səkkizi gəlmişdi. Ən kiçikləri Həmzəni gətirmək lazım idi. Bəs Abdullah?

Abdullahı anası alnı matəm zolaqları içində olan Fatimə yollamamışdı. Şeybə bir az düşündü. Fatimənin otağına gəldi. Abdullahı alacaqdı. Qapını açdı və gördü ki, ana və oğul bir-birinin bağrına sarınmışlar. Hər ikisi ağlayırdı.

Əbdülmüttəlib:

– Ya Fatimə, nə üçün ağlayırsan? Niyə görə oğlumuz Abdullahı qardaşları ilə birlikdə qurban daşında hazır olması üçün buraxmırsan?

Fatimə yaşlı gözləri ilə ərinə baxdı:

– Ey Əbdülmüttəlib, sevgili həyat yoldaşım, − dedi, − elə bir iş edirsən ki, dünyada bunu heç kim etməmişdir. Elə kişi mənə göstər ki, öz oğlunu, ürəyinin bir parçasını, gözünün nurunu, könlünün fərəhini öz əli ilə qurban etsin. Bu yaxşı iş deyil, bəlkə, səndən bütün dünyaya bu adət qalacaqdır. Mən buna razı deyiləm.

Şeybətül- Həmd:

– Ya Fatimə, mən Kəbənin eşikdəki halqasını əlimlə tutub nəzir edib demişdim: "İlahi, əgər mənə on oğul versən, birini sənin yolunda qurban edəcəyəm". Haqq öz kərəmindən mənə on oğul verdi. Mən də nəzirimi yerinə gətirəcəyəm, əhdimə vəfa göstərib on oğlumdan birini qurban edəcəyəm.

Fatimə soruşdu:

– Hansı oğlunu qurban edəcəksən?

Əbdülmüttəlib:

– Bilmirəm, hansı qurban olacaq. Onun üçün püşk çəkiləcək. Hansına düşsə, onu da qurban edəcəyəm, əlbət.

Fatimənin göz yaşları inci kimi yanaqlarına düzüldü. Yenidən soruşdu:

– Əgər püşk Abdullaha düşsə, onu da qurban edəcəkmisən?

Şeybətül-Həmd soyuqqanlılıqla cavab verdi:

– Əgər Abdullaha düşərsə, əlbəttə, onu da qurban verəcəyəm.

Ah, bu ana qəlbi! Bu sözləri eşidən Fatimə birdən elə bir fəryada başladı ki, onun səsindən daşlar da sanki dilə gəldi. O, Əbdülmüttəlibin ayaqlarına düşdü. Sonra yavaş-yavaş qalxaraq qollarından tutdu:

– Əbdülmüttəlib, Əbdülmüttəlib, − deyərək sarsıla-sarsıla yalvardı, − o, axırzaman Peyğəmbərinin nurunu söndürəcəksənmi? Bütün yəhudiləri, nəsraniləri, kahinləri sevindirəcəksənmi? Bunu Abdullah üçün sən edəcəksənmi?

Şeybətül-Həmd:

– Ya Fatimə, − deyə ona təsəlli verməyə başladı, − Ulu Tanrının qəzəbi və qəhri ilə oynamaq olmaz. Ona nəzir dediyim on oğlumdan birini qurban etmək mənim borcumdur. Bundan sonra dilək Ulu Tanrınındır. Hansı oğlumuzu qəbul etsə, buyruq onundur.

Bu sözləri duyan Fatimə yenidən Abdullahı qucaqladı. Üstünə getdi, qucaqladı, çağırdı, bağırdı. Səsi göy üzünü lərzəyə gətirdi. Kəbə divarlarında əks-səda verdi. Bu bir ana fəryadı idi. Bu fəryadı duyan məkkəlilər: "Nə

olub?" – deyərək Fatimənın evinə tərəf qaçdılar.

Abdullahın anası:

– Ey məkkəlilər, – deyə bağırırdı. Ey Məkkə xalqı, mənim oğluma yardım edin, bir çarə tapın.

Camaat Şeybəyə döndü:

– Ya Əbdülmüttəlib, – dedilər, – Abdullahı burax, ona qəsd etmə, o gələcək peyğəmbərin atasıdır.

Əbdülmüttəlib:

– Ey qövmüm, hansına bu püşk düşəcəyini bilmirəm, axı. Fəryad etməyin, bağırışmayın. Bunların mənası yoxdur.

Bura camaatla bərabər digər uşaqların anaları da gəlmişdilər. Onlar da ağlamağa, göz yaşı tökməyə, ana şəfqətinin, ana mərhəmətinin izlərini fəryadla bildirməyə başladılar. Sonradan uşaqların bütün nəsli və qəbiləsindən gəlib bu fəryada qoşuldular. Fəqət gələnlərin çoxu Abdullah üçün göz yaşı tökməkdəydi. Fatimənın uşağı üçün ürəkləri çox yanırdı. Ağlamaqdan özlərini ələ ala bilmirdilər. Əmr qızı Fatimə dörd tərəfə fırlanırdı. Uşağı bağrına sıxmışdı. Ər kimi oğlu ona tük kimi gəlirdi. Yaşlı gözləriylə Məkkə camaatına baxır, ululara yalvarırdı: "Ey Məkkənin uluları! Görün bu dərdə bir çarə varmı? Kim rəva görər ki, cahanda bunun kimi qan tökülsün? Hansı millətin dinində var ki, bu gülər üz torpağa qoyulsun. Heç dünyada oğlunu qurban vermək istəyən ata gördünüzmi? Ata-ana hər zaman Ulu Tanrıdan övladının çox yaşamasını, sağlam olmasını istəyər. Bu nə amansız ənənədir".

Fatimənin bu yanıq səsi, ağlaması və yalvarışı bütün ürəkləri parçalayırdı. Yenidən göz yaşları axmağa başladı. Oraya toplananlar Abdullahın yanına gəldilər. Qadın, kişi – hər kəs Abdullahın qayğısına qalmaq istəyirdi. Çünki Abdullah nur sahibi idi. Gözəllikdə Cənnətdən çıxmış bir huri idi. Neçə viran könüllər onun gözəlliyi və xəyalı ilə böyümüş olurdu. Hə kəs qorxurdu ki, püşk Abdullaha düşə bilər. Bu həsrət odu elə indidən ürəkləri yandırırdı. Böyük, kiçik – hamı Abdullahın anasının halına acıyırdı. Anadır bu! "Ağlarsa anam ağlar, başqası yalan ağlar ".

Bəli, ata övladını necə qurban edə bilər? Fatimənin ana qəlbində anlamadığı müəmma bu idi. Ağlı yenə qeyb olurdu. Qövminin qadınları dörd yandan Fatiməni ortaya aldılar. Bu zaman anasının fəryadına dayanmayan, atasını qırmayan Abdullah anasına bu öyüdü verdi:

– Ay ana, nə üçün ağlayıb göz yaşı tökürsən? Niyə özünə əzab verirsən? Adəm babamızın dövründən, ta ki bu zamana qədər Tanrı alnımdakı nuru mənim üçün qorudu. O qeyb olmadı. Hər kimin alnında bu nur oldusa, Haqq-təala onu bütün bəlalardan qorudu. İbrahim peyğəmbər Nəmrud

atəşindən bu nurla qurtuldu. İsmail Peyğəmbər nurla qurban olmaqqan qurtuldu. Bunlar sənin könlünə əminlik verməzmi?

Onun sözləri birdən-birə xalqın qəlbini yumşaltdı. Göz yaşları sakitləşdi. Abdullah nə qədər haqlı idi. Gözəl deyilmiş sözlər Fatimənin də könlünü sakitləşdirdi. Bundan sonra Şeybə on oğlunu bir araya gətirə bildi. Hamısını götürüb Kəbə hərəminə gəldi. Bütün Qureyş ululları da gəlmişdi.

Əbdülmüttəlib irəlilədi, Kəbənin örtüyünə əlini toxundurdu. Üzünü göyə döndərərək yalvarmağa başladı:

– Ey Kəbənin, Zəmzəmın, mübarək məqamın, böyük məhşər gününün, mələk və insanların Rəbbi olan Tanrım! Sən yaratdın. Sən onları yoxdan var etdin. Sən onları özünə qul etməklə əziz və möhtəşəm etdin. Bunları yaratmağa Sənin heç bir ehtiyacın yoxdur. Çünki ancaq zəif olan möhtac olur. Ulu Tanrım, sən qüvvətli və zabitəlisən. İstəyini istədiyin kimi edərsən. Səni tapan böyük qəlbə sahibdir, səni tanımayan bədbəxtdir. Ey Tanrım, səndən istədim. Hər şey verdiyin kimi mənə on oğul da verdin. İlahi, Həzrətinə and içmiş, nəzir etmişdim ki, on oğlum olduğu zaman birisini sənə qurban edəcəyəm. Allahım, Sən mənə hədiyyə etdin, mənə on oğul verdin. Mən də sözümün üstündə durdum. Oğullarımı hüzuruna gətirdim. Püşk çəkəcəyik. Hansı oğlumu qəbul etsən, püşk ona düşsün. Mən də o oğlumu həzrətinə qurban edim.

Qureyş arasında bir püşk çəkmə vardı. Məkkədə böyük şöhrət qazanmışdı. Kimin çətin işi olurdusa, püşk atıcısını gətirirdilər. Xeyli pul alırdı. Çəkilən püşkdən hər kəsin çətinliyi həll olunurdu.

Şeybətül-Həmd Qəddah deyilən püşk çəkicisinin gətirilməsini buyurdu. Getdilər, ixtiyarı gətirdilər. Pulunu verdilər. Əbdülmüttəlib:

– Al, Qəddah, – dedi, – indi on oğlumu sənə tapşırıram. Bunları götür, gedin, Kəbəyə girin! Püşkü çək, görək hansına düşəcək. Ulu Tanrı hansını istəyəcək? Sonra onlarla bura gəl.

Hər kəsi həyəcan bürüdü. Anaların ürəyi bərk çırpınırdı. On oğlan da həyəcan içində idi. Kim Allaha qurban ediləcəkdi!?

Yalnız Abdullahın üzündə qorxu görünmürdü. Həmzə kiçik olduğundan ölümü başa düşmürdü. Qəddah uşaqları yanına alaraq Kəbənin içərisinə girdi. Kəbə örtüyünü tutan Əbdülmüttəlib yenidən duaya başladı. Üzünü Haqq dərgahına tutmuşdu:

– İlahi,oğullarımın hansını qəbul etsən, razıyam. Ancaq Abdullahı mənə bağışla!

Əbdülmüttəlibin istəyi qəbul olacaqdımı?

İndi bütün ətrafdakılar yuxarıdan Kəbənin içini görmək üçün boyunlarını uzadıb gözlərini oraya dikmişdilər. Püşk hansı oğluna düşəcəkdi?

Az müddət keçdi, Qəddah Şeybənin oğulları ilə Kəbənin içərisindən çıxdı. Əbdülmüttəlib tez ona doğru irəlilədi.

– Ya Qəddah, püşk hansı oğluma düşdü?

Yaşlı adam onun və Fatimənin sevimli oğlunu göstərərək:

– Abdullaha düşdü, − deyə cavab verdi.

Püşk Abdullahamı düşdü?

Bu cavabı eşidən xalqdan bir "ah" sədası qopdu. Əbdülmütəlib isə bir anda vurulmuş kimi yerə sərildi. Huşunu itirdi. Fatimənin ən acı fəryadları eşidildi. O fəryadı eşidən camaat da da ona qoşuldu.

Məkkəlilər heç vaxt bir uşaq üçün bu qədər qışqıraraq ağlamamışdılar. Çünki Abdullahı çox sevirdilər. Sevgisi hamının ürəyində yer almışdı. Onlar eyni zamanda çaşqınlıq içərisində idilər. Alnındakı nurun bərəkəti hörmətinə Quranın ona gələcəyinə heç də umid etmirdilər.

Az sonra Əbdülmüttəlibin ağlı başına gəldi. Gözünu açdı və Kəbəyə doğru irəlilədi. Bu halda Allahdan bağışlanmağını istədi:

– Əgər Ulu Tanrı sevdiyini öldürmək istəməzsə, ona yol verməz, − deyə özünə təsəlli verdi.

Sakitləşdikdən sonra bir əliylə oğlu Abdullahın əlini tutdu, o biri əlinə bıçaq aldı. İrəli gedib Qurban daşına çatdı. Qadın, kişi yenidən fəryada başladılar, hamı birdən çığırışdı. Kəbə divarları əks-səda verirdi. Bağırtılar, ağlaşmalar. Hamı ağlayırdı.

Bu zaman Fatimənin böyük oğlu Əbu Talib qardaşlarından ayrılaraq irəlilədi. O, Abdullahın ata-anadan bir qardaşı idi. Abdullahı da canından çox sevirdi. Bir dəfə görsə doymaz, yenə görmək istərdi. Atasına dedi:

– Ay ata, məni Abdullahın yerinə qurban et. Çünki onu canımdan artıq sevirəm. Həm də qardaşımdır, onun ölümünü necə görüm. Onun ölümünü görüncə mən ölərəm. Yenidən dirilərəm. O bir dənədir, canımı onun yolunda qurban etməyə hazıram.

Camaat gənc Əbu Talibin bu sözlərini eşitdikdə daha da bərkdən ağlamağa başladı.

Bu zaman Əbdülmüttəllib:

– Ey igid oğlum Əbu Talib, qorxuram ki, səni qurban edərəmsə, Allah dərgahında qəbul olmaya. Çünki püşk Abdullaha düşdü. Tanrının istədiyi odur. Səndən sonra yenə qurban vermək olarsa, onda iki ayrılıq olacaq. Bu daha betərdir, − dedi.

Bu zaman Məkkə ululları irəli atıldılar:

– Ya Şeybətül-Həmd, işin ən yaxşısı Qəddahın bir dəfə daha püşk çəkməsidir. Baxarıq bu dəfə püşk kimə düşəcək, onu da görək. Bəlkə,bir başqasına düşəcək.

Xalq da bunu qəbul etdi. Püşk çəkənə dedilər:

– Oğulları al, yenə Kəbənin içinə gir. Bir dəfə də püşk çək.

Qəddah uşaqları alıb yenə Kəbəyə girdi. Yenə püşk çəkildi, ancaq tale dəyişməmişdi. Yenə Abdullah qurban kəsiləcəkdi. Ox onun adını göstərirdi. Püşkçü uşaqlarla birlikdə bayıra çıxdı. Kəbə pərdəsinin açıldığını görən kimi Qəddahdan soruşdular:

– Kim qurban ediləcək?

Qəddah:

– Yenə Abdullah, – cavabını verdi.

Əbdülmüttəlib:

– Artıq söz qalmamışdır. Tanrının əmrinə boyun əymək lazımdır. Abdullahı qurban edəcəyəm.

Dedi və sevgili övladının əlindən tutub "Qurban yeri"nə gətirdi.

## *ABDULLAH QURBAN EDİLİR*

Əbdülmüttəlibin qardaşları, onların xanımları, bütün Haşim ailəsi və uşaqları "Qurban yeri"nin yanında gözləyirdilər.

Abdullah atasına döndü, bu vəsiyyətə başladı:

– Ay ata, bir həmlədə mənim basımı kəsmə. Ürəyin həyəcanlanmasın, təmkinli ol.

Hıçqırıqlar hər tərəfi tutdu. Abdullah vəsiyyətinə davam etdi:

– Ey ataların ən yaxşısı, gəl mənim üçün göz yaşı tök, ağla. O qədər ağla ki, ürəyindəki həsrət hissi soyusun, sönsün.

Bu təsirli sözləri eşidənlər ağlayırdılar, hıçqırıqlarını saxlaya bilmirdilər.

Abdullah vəsiyyətinə davam etdi:

– Ata, bundan sonra mənim əlimi və ayağımı bağla. Tərpənərək qurban olmağa mane olmayım. Sonra Ulu Tanrının qurbanı qəbul olmaz.

İndi vəsiyyət ən təsirli yerinə çatmışdı. Hıçqırıqlar, hayqırıqlar, acı-acı tökülən göz yaşları orada olanları sarsıtmışdı. Abdullah son olaraq atasına dedi:

– Ay ata, bıçağı boğazıma dayayarkən gözlərini yum. Birdən gözlərini mənim alnımdakı nur qamaşdırar. Vücudun əsər, məni öldürə bilməzsən. Ey ataların ən şəfqətlisi və mərhəmətlisi, nəbadə havaya fışqıran qanımdan paltarına dəyə, qoyma. Çünki onu görəndə ürəyin qan olmasın.

Bu sözləri söylər-söyləməz Abdullah özünü atasına təslim etdi. Xalqın zəngini, fəqiri, gənci, qocası, qadını, kişisi – hamısı fəryad çəkib ağlayırdı.

Həsrət oduna yanırdılar.

Hər kəs kimi Əbdülmüttəlib də göz yaşlarını saxlaya bilmirdi. Bir az da ağladı. Abdullahın dediyi oldu. Qəlbinin atəşi söndü. Sonra qurbanlıq oğlunun əlini və ayağını bağladı. Bıçağı əlinə aldı. Yavaş-yavaş “Qurban yeri”nə götürdü. Abdullah başını qurban daşına uzadaraq gözləyirdi. Əbdülmüttəlib də qurbanı kəsməyə hazırlaşdı. Bu vaxt mələklər göydə səcdə etdilər. Üzlərini dünyaların Rəbbinə çevirərək soruşdular:

– İlahi, sən hər şeyin üstünüsən, padşahısan. Hər şeyi bilən Sənsən. Bizim bildiklərimiz sənin bildiklərinin yanında ”Sənin bildirdiklərindən başqa biz heç bir şey bilmərik” − dedilər. O nur ki Abdullahın alnında göründü. O, Həbibin Məhəmməd Mustafanın nurudur. Abdullahı atası qurban edir. O nurun halı necə olacaqdır?

Aləmlərin Rəbbi olan Ulu Tanrının nidası mələklərin ürəklərini doldurdu:

– Ey mələklərim! Ey göydə yaşayanlarıım! Susunuz. Mənim qəza və qədərimi rədd edəcək, bəlalarımdan qoruyacaq heç bir qüvvə yoxdur. Əbdülmüttəlibi oğlu ilə şad etdik. Dəstəklədik və işarə verdik.

Bu vaxt Əbdülmüttəlib diz çökmüşdü. Artıq bıçağını başını qurban yerinə uzadan Abdullahın boynuna dayayırdı. Bu an Ulu Tanrı tərəfindən Əbdülmüttəlibin qəlbinə bir fərəh gəldi. Bıçağı bir an oğlunun boynuna qoymaqda gecikdi. Gözlərini üfüqlərə doğru qaldırdı. O nə idi belə? Üfüqdə qaraltılar görünürdü. Toz səmaya qalxırdı. Bir bölük çöl bədəvisi, başları açıq, ayaqları yalın, hər birinin əlində siyrilmiş qılınc bu tərəfə doğru gəlirdilər. Gələnlər bəlli oldu. Məxzumoğulları qəbiləsinin cəsur və ər kişiləri idilər.

Meydana gələn kimi, həmən “Qurban yeri”ndəki Abdullaha doğru irəlilədilər. Əbdülmüttəlibin əlindən uşağı qapdılar. O çaşıb qalmışdı. İndi əlində bıçaq nə edəcəyini bilmirdi. Bu qəbilə ağsaqqalları, seyyidləri bunu nə üçün etdilər? Abdullahın anası Fatimə Məxzumoğulları qəbiləsinin qızı idi. Oğlunun qurban ediləcəyini biləndə nəslinə xəbərçi göndərmişdi:

“Oğlumu atası qurban edəcək, tez özünüzü yetirin. Oğlumu qurtarın”, − demişdi.

Gələnlər də bu qəbilənin ululları və Abdullahın dayıları, Fatimənin qardaşları idi. Abdullahı qurban edilməkdən qurtaran dayıları, həmən onun əl və ayağını açdılar. Əbdülmüttəlibə dönərək dedilər:

– Ya Seyyid, bu nə işdir ki, edirsən?

Əbdülmüttəlib:

– Söylədiyiniz bu sözdə haqsızsınız. Mən Ulu Tanrıya and içmişəm və nəzir etmişəm ki, oğlumun birini Ona qurban edim. O nəzir yerinə gəlməlidir. Gördüyüm iş andımı yerinə yetirməkdir.

Bu sözlərə cavab olaraq gələnlərin ən ulusu olan Əmr əl- Məxzumiyə oğlu İkrimə dedi:

– Bəli, ya Əbdülmüttəlib, gözəl deyirsən. Amma bu uşaqla gələn bir əmanət var. Bu Rəsul nurudur. Ta Adəm dövründən bu zamana kimi o Nu-ri-nəbəvi kimin alnında parlayırsa, o kimsə dünyadan köçməz. O zamana kimi ki, o nur onun oğluna keçsin, sonra bu dünyadan ayrıla bilər. Nurun sahibini od belə yandırmadı, suda boğulmadı, ox ona heç nə edə bilmədi. Nuru daşıyana zaval və sıxıntı gəlmədi. Bu hallar o nur ondan ayrılana qədər davam etdi.

Hər kəs qulağını dörd açıb dinləyirdi. Nələr söyləyirdi Məxzumoğullarının ən ulusu:

– Ay Əbdülmüttəlib, siz də bilirsiniz ki, Abdullaha o nur onun alnında olduğu vaxtda heç bir zaval və sıxıntı yoxdur.

Əbdülmüttəlib bu sözlərə belə cavab verdi:

– Ey seyyidlər, mən bu andı və nəziri Tanrıma etdim. Buna qarşı nə çarə tapım? Nə üzr edim? Çəkilən püşk iki dəfə Abdullahın üzərinə düşdü.

Məxzumoğulları:

– O halda alimlərdən soruşarıq və çarə qılarıq.

Şeybətül-Həmd dedi:

– Nə tədbir düşünürsüz, həmən görün.

Əmr oğlu İkrimə:

– Mənim bildiyim budur, – dedi, – Hicaz vilayətində bir qadın var. Adı Ümmi-Məlhandır. Elmli bir xatundur. Nə qədər müşkül iş olarsa, o çözər. Çox çətin işlərin onun sayəsində asanlaşdığı məlumdur. Yığışıb onun yanına gedək. Hər şeyi ona anladaq, görək nə məsləhət verəcəkdir. Nə rəy və tədbir tapacaq.

Bütün ərəb ululları bu sözü bəyənib qəbul etdilər. Hicaz vilayətinə getmək qərarından sonra bütün seyyidlər evlərinə dağıldı, yol hazırlığına başlandı.

Aradan bir neçə gün keçdi. Yola çıxdılar. Abdullah da onlarla gedirdi. Ulular, seyyidlər, Şeybətül-Həmdlə birlikdə o bilici qadının yanına gəldilər. Hədiyyələr verdilər və gəlmələrinin səbəbini bildirdilər.

Ümmi-Məlhan:

– Ey Qureyş seyyidləri, – dedi, – Bu gün gəldiniz, dincəlin. Sabah isə danışarıq.

Elə də etdilər. Ertəsi gün Ümmi-Məlhanın yanına gəldilər. Ümmi-Məlhan dedi:

– Ya Əbdülmüttəlib, geri dönün. Hərəmə qurban edilməyə layiq dəvələr tapıb hazırlayın. İndi diqqət edin. Əvvəlcə on dəvə bir tərəfə ayırın. Bu qur-

ban uşağın ilk qan bahasıdır. Bu dəvələr qurban ediləndə Abdullahın əl və ayağını bağlayıb dəvələrin yanına qoyursuz. Bundan sonra Qəddaha de ki, püşk çəksin, əgər Abdullaha düşərsə, yenə on dəvə qurban edərsən. Sonra yenə püşk çəkirsiz, əgər dəvələrə düşərsə, bu on dəvəni qurban edərsiniz. Əgər Abdullaha düşsə, yenə on dəvə artırırsınız. Dəvələrə düşsə, onları qurban edərsiz. Püşklər Abdullaha düşdükcə dəvələrin sayı yüzə qədər arta bilər. Yüz olana qədər. Bəlkə, püşk dəvələrə düşər, qurban qəbul olunar, Abdullah da qurtular. Əgər yenə püşk Abdullaha düşərsə, bu zaman dəvələri yüz-yüz artırın, ta ki dəvələrin sayı minə çatsın. Ümid edirəm ki, min dəvədə qurban qəbul olar.

Məlhan xanım sözlərini bitirdi. Əbdülmüttəlib bu işə çox sevindi. Abdullahı yanına alıb ulularla birlikdə Məkkəyə döndülər. Qohum-əqrəbaları onları qarşıladılar, görüşdülər, şad oldular. Əbdülmüttəlib qurban hazırlığına başladı. Dəvələr də hazırlandı. Üçüncü gün "Qurban yeri"nə gəldilər. Əbdülmüttəlib irəliyə keçdi, Abdullahın əl və ayaqlarını bağladı. Onu "Qurban yeri"nə qoydu. Sonra on dəvə gətirdilər və Abdullahın qarşısına qoydular. Püşkü çəkdilər, oxudular:

– Abdullah!

Püşk Abdullaha düşmüşdü. Daha on dəvə də əlavə olundu. Yenə püşk çəkdilər. Oxundu:

– Abdullah!

Dəvəni otuz etdilər. Bu ardıcılıqla dəvənin sayı on-on artıb doxsana çatırdı. Camaat da səbirsizləşib ağlayırdı. Əbdülmüttəlib:

– Səbir edin, – dedi. Növbəti dəfə püşk çəkildi, yenə Abdullah. − Son püşkə gedirik, ondan sonra hönkürmək, ağlamaq rəva olar.

Qəddah bu dəfə də püşkü çəkdi. Püşk dəvələrə düşdü. Bu zaman göydən bir səda gəldi:

– Ey Şeybətül-Həmd, Ulu Tanrı nəzir dediyin dəvələri oğlunun yerinə qəbul etdi. Rəsulun nuruna hörmət etdi. Abdullahı sənə bağışladı. Davam et, o dəvələri də qurban kəs.

Camaat püşkün dəvələrə düşdüyünü görüb çox sevindi. Kəbə meydanında olanlar biri-birini qucaqladılar.

Abdullah qurban edilməkdən yüz dəvə qurban edərək qurtuldu. Tanrı demək ki, bunu istəyirmiş. Bir ata oğlunu qurban olaraq nəzir edibsə, onu qurban etməmək üçün yüz dəvə kəsməlidir.

Qadınlar, analar, qızlar həmən irəli atıldılar. Abdullahı "Qurban daşı"ndan qapıb götürmüş və ətrafına yığılmışdılar.

Əbdülmüttəlib bu anda qabağa çıxdı. Adamlar durdular. Hər kəs:

– Ya Əbdülmüttəlib, ya ulu Seyyid, püşkə dəvələr düşüb, görüləcək iş

qalmadı, − dedilər.

Abdullahın yanında olanlar onu qurbangahdan uzaqlaşdırdılar. Üzlərində matəm hissləri qalmamışdı. Hamının gözləri gülür, könülləri şad idi.

Rəsulun nurunun Abdullahdan sahibinə keçməyənə qədər heç bir zaman sönməyəcəyinə ilahi bir işarətlə insanlara yenidən bildirildi.

Əbdülmüttəlib uşaqlarını Zəmzəm quyusunun yanında cəm etdi. Hamısına:

– Tanrı yüz dəvə qan bahamızı qəbul etdi , − dedi.

Uşaqlar atalarını təbrik etdilər.

Məkkəlilər:

– Ya Əbdülmüttəlib, ya Şeybətül-Həmd, dəvələri harada və necə qurban edəcəksən?

Əbdülmüttəlib:

− Ey məkkəlilər,– deyə cavab verdi, − Tanrı Abdullah üçün yüz dəvə qurban etməyimizi qəbul etdi. Bu dəvələr Səfa ilə Mərvə arasında kəsiləcəkdir. Dəvələrin əti də paylanacaqdır.

Əbdülmüttəlib sonra Haşimoğullarına müraciət etdi:

– Ey Haşimoğulları, bizim nəsildən bir kimsənin bu ətdən yeməyini qadağa edirəm. Bütün Qureyşoğulları, bizdən başqa, bu dəvələrin ətindən bol-bol yesinlər. Ət yeyən heyvanlara da yedirtsinlər. Əgər çox olarsa, qalacaq ətdən quşlar da yesin.

Qurban kəsilən saatda Səfa və Mərvə arası axan qurban qanları ilə al rəngə bürünmüşdü. Səfa və Mərvə bütün Qureyş camaatına Həzrəti İsmailın anası Həcərlə bağlı qürbət hekayələrini xatırladırdı. Həzrəti İbrahimin Sara adlı həyat yoldaşı İshaqı dunyaya gətirmiş və cariyə Həcərin doğduğu İsmailı da Hz.İbrahim İshaq qədər sevdiyi üçün içində böyük bir qısqanclıq hissi yaranmışdı. Sara bir gün İbrahimə:

– Mən cariyə oğlu ilə bərabər yaşamayacağam, − deyərək and içmişdi. Hz. İbrahim də Həcəri və oğlu İsmailı yanına alaraq o zaman yaşadıqları Fələstindən Məkkənin çöllərinə gətirmişdi. Həcərlə İsmail burada yerləşmiş və Hz. İbrahim də geri dönmüşdü. Bir gün Həcərin yanında olan yemək və su qurtarmışdı: “Bir qurtum su!” − deyə az qala dəli olacaqdı və suyu tapmaq üçün Səfa və Mərvə arasında qaçırdı, dağa çıxır, arada bir geriyə baxaraq uşağını gözu ilə qoruyurdu. Bu qaçış düz yeddi dəfə təkrar olmuşdu.

Su yoxdu... Fəqət geri döndüyü zaman İsmailın ayağı ilə təpiklədiyi yerdən su fışqırmışdı. Oğluna bu suyu içirən ana onu susuzluqdan, ölümdən qurtarmışdı.

İndi ən böyük babaları İsmail peyğəmbər hörmətinə Əbdülmüttəlib yüz dəvəni burada kəsmişdi. Haşimoğullarından başqa, bütün məkkəlilər,

Qureyş, Məxzumoğulları, yaxındakı qəbilə camaatı ətlərdən kabab bişirib doya-doya yedilər.

Süfrələr açıldı. Zəmzəm bulağından tuluqlarla su paylandı.

Beləcə, Əbdülmüttəlibin ən çox sevdiyi oğlu qurban kəsilməkdən qurtuldu. O zaman ki Abdullahın oğlu Məhəmməd Mustafa (s.ə.s.) dunyaya gəldi, beləcə bunları öyrəndiyi zaman ən böyük babası Hz. İsmail ilə atası Abdullahın qurban edildiyini eşitmi: "Ənə ibn üzzəbheyn! (Mən iki qurbanlıq oğluyam)" – demişdi.

## *YƏHUDİLƏRİN YENİ TƏLAŞI*

Mədinə yəhudiləri yenə təlaşdaydı. Abdullahı gələn fədailər öldürə bilməmişdilər. Amma atasının onu qurban edəcəyi xəbəri ilə boyük bir sevinc içərisində idilər. İndi bütün ümidləri puça çıxmışdı. Bir neçə gün sonra fürsətlərinin əldən getdiyini görən fədailər Məkkədə bir yerdə toplandılar.

– Gördünüzmü, − dedilər, − ümidimiz yenə boşa çıxdı, heç oldu. Abdullah ölümdən qurtardı.

Məkkədə ulu bir kahin vardı. Adı Təbbal idi. Mədinəli yəhudi fədailəri kahinin yanına getdilər:

– Ey ulu insan, biz Abdullahı öldürmək istəyirik. Bu arzumuzu həyata keçirə bilmirik. Bizə bir ağıl ver. Siz bu haqda nə düşünürsüz?

Kahin Təbbal:

– Böyük fürsət günü bu gündür.

Yəhudilər heyrətlə soruşdular:

– Nə kimi böyük fürsət var? Bizə bunu anlat. Biz də işimizi düzəldək.

Kahin:

− Bu gün Haşimilərin başı dardadır. Evlərində aş bişirmək, yemək hazırlamaq qayğısı yoxdur. İnsanların ziyarətlərindən buna vaxt da tapmazlar. İndi umurlar ki, qövmlərindən və qəbilələrdən yeməklər gəlsin. Görüləcək iş budur ki, çox gözəl bir yemək hazırlatdırın. İçinə zəhər qatın. Bunu bir qadınla onların evinə göndərin. Götürən: "Bu yeməyi sizə Əbdüмənafoğulları yolladı", − desin. Çünki bu böyük yığıncaqda kimin nə bişirməsi, nə də göndərməsi bilinməz. Onlar da gözəl yeməyi sevinclə alarlar, süfrələrə qoyarlar, yeyərlər. Tədbir yolu ilə gedərsə, Abdullah da ondan yeyər və ondan qurtularsınız.

Yəhudi fədailəri böyük sevinclə evlərinə getdilər. Kahinin yanından çıxandan həmin yeməyin hazırlatmaq sevdasında idilər. Dadlı yeməklər bişirildi və içinə çox şiddətli zəhər qatıldı. Bunu gözəl bir yəhudi qızına verərək Əbdülmüttəlibin evinə göndərdilər.

Qız:

– Bunu sizə Əbdümənafoğulları göndərdi, – deyərək yeməyi verdi. Oradan tezcə ayrıldı, geri döndü.

İndi yəhudilər Əbdülmüttəlibin evindən gələcək xəbəri gözləyirdilər. Bu xəbər Haşimilərə fəlakət, yəhudilər üçün isə sevinc gətirmiş olacaqdı.

Yemək zamanı gəlincə bütün evdəkilər süfrə başına keçdilər. Qonaqların arasında Məkkə uluları da vardı. Zəhərli aş Şeybətül-Həmdin qabağına qoyuldu. Sevimli oğlu Abdullah da yanında oturmuşdu. Barmaqlar ilk loğmaları götürmək üçün süfrəyə uzandı.

Birdən Abdullahın qulağına xəfif bir səs gəldi. Yüksək səmadan gələn səs:

– Ey Abdullah, ey Tanrının sevimli qulu, bu yeməkdən yemə, zəhərlidir, sənə qəsd edib öldürmək istəyirlər, – dedi. Abdullah birdən-birə silkələndi:

– Ey sevimli ulular, durun, yeməyə əl uzatmayın, çünki yemək zəhərlidir. Yeməyin!

Süfrədəkilər çaşmışdı. Bu yemək zəhərlidirmi? Kim gətirmiş bu yeməyi? Həmən Abdullahdan soruşdular:

– Bunu haradan bildin sən?

Abdullah cavab verdi:

– Sizin eşitmədiyiniz ilahi bir səs bunun zəhərli olduğunu mənə söylədi. Xəfif səs eşitdim.

Hər kəs əlini yeməkdən çəkdi:

– Bunu itə yedirtmək lazımdır.

Həmən bir köpəyin qabağına atılan yemək tez bir zamanda heyvanı öldürdü. Süfrədəkilər heyrət içində qalmışdılar: “Bu yeməyi gətirəni tapmaq lazımdır”, – dedilər.

Amma bu yeməyi gətirən qız Məkkə meydanlarında gözə görünmədi. Nə qədər axtardılarsa, tapa bilmədilər. Bu zaman “Bu gündən etibarən Abdullahı ona qarşı ediləcək bütün hiylələrdən gözümüz kimi qorumalıyıq”, – deyə qərar verdilər.

Gənci gələcək təhlükələrdən qorumağa başladılar. Beləliklə, o, düşmən şərrindən nicat tapmış oldu. Artıq Məkkə camaatı dost və düşmənini tanımışdı. Axırzaman peyğəmbəri dünyaya gələcəkdi. Bundan savayı, Əbdülmüttəlibin də Məkkəlilər içərisində nüfuzu artmış, mərtəbəsi yüksəlmişdi.

## QADINLAR VƏ QIZLAR ABDULLAHA AŞİQDİR

Abdullah artıq on beş yaşına çatmışdı. Yeniyetmə idi. Üzünün gözəlliyi artıq uşaqlıqdan dəliqanlılıq cazibəsinə keçmişdi. Daha bir neçə il keçdikdən sonra evlənmək yaşı çatmışdı. Bütün Məkkənin görkəmli şəxsləri qızlarını ona vermək sevdasına düşmüşdülər: "Abdullaha qız verərik. Qızımızla birlikdə malımızı, heyvanatımızı, mülk və gəlir gətirən mülklərimizi də verərik", – deyirdilər.

Abdullah atasının sözündən çıxmayan bir gənc idi. Şeybətül - Həmd qızlarını oğluna vermək istəyənlərə deyirdi:

– Xeyr, bizə ata-babalarımızdan öyüd var ki, bu nur kimə əmanət ediləcəkcə, o qız təsadüfi bir yerdən olmamalıdır. Hər qızı almamalı, ta ki o nura layiq bir qız tapılmayınca gözləmək lazımdır.

Bir çox atalar bu sözləri eşidərkən ümidlərini kəsdilər. Analar da qızlarını vermək arzusundan vaz keçdilər. Ancaq Məkkə qızları və qadınları Abdullaha aşiq olmuşdular. Yuxularında onu görürdülər. Gözlərinin önündə yalnız Abdullahın xəyalı yaşayırdı. Bu nə dərin sevgi idi.

Abdullah axşamlar evə gələndə bəzi evlərin pəncərəsindən onun qarşısına çiçəklər atırdılar. Gənc adam başını belə qaldırmırdı, amma qulaqlarına gənc qızların söylədiyi seirlər gəlirdi. Abdullah arxasına belə baxmırdı. Qisməti, əlbəttə ki, onun ayağına gələcəkdi. Bəlkə də o kimsənin ayağına gedəcəkdi. Hər gün bir qadın üzünü ona göstərirdi. Hər axşam yoluna çıxan qızlar:

– Vüsalınla bizi şad et, – deyə yalvarırdılar.

Vücudlarını bütün gözəllikləri ilə ona verməyə hazır idilər, amma Abdullah qəbul etmirdi. Ərəb qızları ayaqlarına salınmıs qızıl halqaları oynadaraq, dəflərini çalaraq mahnı oxuya-oxuya Abdullah üçün özlərindən keçməyə hazır olduqlarını deyirdilər. Mahnılar elə bir hal almışdı ki, bunları söyləməkdən nə gənc qızlar, nə də gənc qadınlar utanırdılar.

Abdullah heç birinə gülər üz göstərmirdi. Göstərməyəcəkdi də. Neçə qızlar eşq yarası ilə yaralandı və neçəsi yatağa düşdü. İndi Məkkəli qızları bir xəstəlik tutmuşdu. Bu Abdullaha qarşı duyulan "Qara sevda"...

## YƏHUDİ QIZI ABDULLAHA AŞİQ OLUB

Amma Məkkəli ərəb qızlarımı vurulmuşdu Abdullaha? Əsla yox. Çoxlu yəhudi qızları da ona vurulmuşdu. Onun gözəlliyi Məkkədən çöllərə, Mədinəyə və bir çox başqa yerlərə yayılmışdı. Bir gün yəhudi qızlarından biri onu görmədən aşiq oldu. Onu mal və mülklə aldadacağını sandı. Dəvələrə

ən qiymətli mallar yüklətdi. Böyük xəyallar içində Məkkəyə yola düşdü. Yəhudi qızının dəstəsi Hərəm sərhədlərində Məkkəyə girərkən: "Bu da Abdullahın vurğunlarından biri", – xəbəri camaat arasında dildən-dilə düşdü.

Qadın ən ulu adamları ilə:

– Abdullah məni alsın, – deyə xəbər göndərirdi.

Əbdülmüttəlibdən gələn cavab bu oldu:

– Olmaz.

Yəhudi qadın günlərcə Məkkədə qaldı. Bir çox məkkəli dəliqanlılar:

– Əgər Abdullah səni almırsa, bizimlə evlən, – deyirdilər.

Ancaq o:

– Mən yalnız onunla evlənmək istəyirəm, – deyirdi.

Nədən istəyirdi? Niyə evlənməyə bu qədər önəm verirdi?

Bu qadın Rəsul nuruna malik olmaq istəyirdi. Bunun sonunu sonra görəcəksiniz.

## *YƏMƏN GÖZƏLİNİN EŞQİ*

Abdullahın vurğunları Yəmən torpaqlarında da var idı. Bir gün Əbdülmüttəlib yük hazırlatdı. Yəmən ellərində qiymətli, az tapılan mallar, erkən yemişlər çox olurdu. Abdullahı yanına çağıraraq:

– Oğlum, hazırlan. Bəzi qardaşlarınla birlikdə Yəmənə ticarət üçün gedəcəksiniz, – dedi.

Bu, Abdullahın ilk ayrılığı idi. Ancaq bilmirdi ki, Yəməndə də ona könül verənlər çoxdur. Qadınlar orada da onu rahat buraxmayacaqlar.

Yəməndə Zerka adında bir qadın vardı. Həm kahin, həm də könüllər sevimlisi idi. Sehrbazlıqda xüsusi səriştəsi var idi. Abdullahın Yəmənə gəldiyi gün karvanın dəliqanlıları içərisində onu da gördü.

– Bu gözəlliyi dillərdə dastan olan Abdullahdır, – dedi. Gözucu karvanı addımbaddım təqib etdi.

Məkkəli tacir dəstəsi bazar yerinə gəlincə durdu. Yüklər endirildi. Əbdülmüttəlib kölələrinə:

– Atları, dəvələri götürün, bazar yerindən uzaqlaşdırın, səhraya çıxarın! – tapşırığını verdi. Sonra oğlu Abdullaha dönərək:

– Ya Abdullah, ey sevimli oğlum, sən indi yüklərimizin yanında qal. Bir az şəhəri və bazar yerlərini gəzim.

Abdullah atasının buyruğuna baş əydi. Mallarının yanında qaldı.

Zerka dəliqanlının yüklərin yanında tək gəzdiyini görüncə yavaş-yavaş yaxınlaşdı. Özünü sehrlə o qədər lətif, o qədər misilsiz bir dünya gözəli halına gətirmişdi ki, heç bir kişinin onun qarşısında dözmək imkanı yox idi.

Əlinə də min misqallıq bir qızıl kisəsi almışdı.

Abdullahın yanına gəlib ona tanışlıq verdi və mehribanlıq göstərərək yanında oturdu. Ona döndü:

– Ey dəliqanlı, hansı yerdən gəlirsən?

Abdullah cavab verdi:

– Allahın hərəmi olan şəhərdən gəlmişik. Əbdülmüttəlibin oğlu Abdullaham.

Cavabların bu sürətlə sıralanması qadını çaşdırdı. Özu də söz deyə bilməsi üçün həmən soruşdu:

– Buraya nə üçün gəldiniz?

– Atamla birlikdə ticarət etməyə gəldik.

– Çox qalacaqsınızmı?

– Xeyr, alış-veriş etdikdən sonra həmən geri dönəcəyik.

Zerka bütün nazını toplayaraq gözünu süzdü, dəliqanlıdan yenidən soruşdu:

– Bəs nə üçün belə tez dönürsüz? Niyə ölkəmizdə qalıb əylənmirsiz? Vətəninizə gedirsiniz?

Sonra əlini ovuclarının içinə alaraq, bədənini Abdullahın bədəninə toxundurdu:

– Gəl mənim yanımda bir müddət qal. Sənə indilik verəcəyim bu min misqal qızılı qəbul et.

Abdullah başını o biri tərəfə çevirdi.

Zevka yalvarmağa başladı:

– Ya Abdullah, məni qırma. Nə olar, mənim yanımda, evimdə yalnız bir saatını mənə bəxş et.

Abdullah cavab vermirdi. Zerka yalvarışına davam etdi:

– Ey dəliqanlı, nə olar, razı ol. Səndən bir saat içində murad alım. Atan gəlincə tezcə geri dönərsən.

Abdullah bütün işvəsinə, yalvarışına, qadınlıq qürurunu qırmasına rəğmən Zerkaya ən kiçik bir ümid belə vermədi. Ona döndü:

– Ey adını bilmədiyim qadın, bizə atalarımızdan qalan öyüd budur ki, alnımızda olan nur, bu alında parladıqca nigahsız qadınla biz yaxın olmarıq. Tanımadığımız qadınlarla əlaqə istəmirik və yaxınlaşmırıq.

Zerka bihuş gözlərilə heyrət içində soruşdu:

– Necə olur, ey gözəl dəliqanlı?

– Bəli, belə olur. Mənim andım və əhdim belədir. Harama heç bir zaman yanaşmaram.

Bunu deyib Abdullah əli ilə gənc qadının qızıl kisəsini geri itələdi. Qa-

dın bundan sonrakı sözləri belə eşitmədi. Nəhayət, ondan qurtulmaq üçün yumşaq bədəninə toxunan əllərilə onu uzaqlaşdırdı. İndi Abdullah yalqız qalmışdı. Az sonra atası, qardaşları gəldi. İşlərini bitirdilər, satıb qurtardılar. Yeni mallar aldılar, tam hazır olub uğurla Məkkəyə döndülər.

## *AXIRZAMAN PEYĞƏMBƏRİNİN DOĞULMASI YAXINLAŞDI*

Son Peyğəmbərin doğumu artıq yaxınlaşırdı. Abdullah Miladın 569-ci ilində 24 yaşına keçmişdi. Axırzaman peyğəmbərinin gələcəyi nədən bilinirdi? Çünki göy üzündə ulduzlarda böyük nişanlar görünürdü. Gəzən ulduzların dövr etməsindən və hesabından ulduzlara baxanlar cürbəcür mənalar çıxarırdılar. Münəccimlər hiss edirdilər ki, ikinci ili keçmişdi və axırzaman peğəmbərinin doğulması önümüzdəki il içərisində olacaqdır. Səma və yer üzünün əlamətləri bunu göstərirdi. O mübarək uşaq yaxında dünyaya gələcəkdir.

Şam vilayətində bir yəhudi alim vardı. Adı Səfəriyyə idi. Onun ömrü haqqında kimi yüz, kimi iki yüz, bəziləri isə daha çox-min iki yüz yaşadığını deyirdilər. Başqa yəhudi alimləri, uluları bir yerə toplanaraq bu ixtiyarın yanına gəldilər. Səfəriyyə qarşısında yəhudi hörmətlilərini görəndə:

– Mütləq bir iş üçün gəlmisiniz? − deyə soruşdu.

Yəhudilər:

– Bəli, − deyə cavab verdilər.

İxtiyar:

– Ey ulular, ayaq basıb buraya gəldiniz. Arzunuz nədir?

Yəhudilər:

– Ey din ulusu və millətə yol göstərən, istəyimiz müşküllərimizi həll etməkdir. Ürəyimizdə yaralar var. Unudulmasını istəyirik. Sən çox yaxşı bilirsən ki, bu yaxınlarda Məkkədə bir etibarlı peyğəmbər zühur edəcəkdir. İndi onun dunyaya gəlməsi vaxtı yaxınlaşır. Göy üzündə onun doğumuna aid əlamətlər görünür.

Səfəriyyə onlardan soruşdu:

– Ey qövmüm, o axırzaman peyğəmbərinin tərifini etməyin. Bu lazım deyil. O Rəsulun doğulacağını mən sizdən yaxşı bilirəm. Amma niyə siz yığışıb bura gəlmisiz? Nə düşünürsüz? İstəyiniz nədir? Bunu mənə bildirin.

Yəhudi uluları:

– Ey dinimizin dirəyi, o Rəsulun cahana gəldiyi zaman bizim dincliyimiz pozulacaq, birliyimiz dağılacaq, işimiz çətinləşəcək. Əziz insanlarımız,

ulularımız zəlil olacaqdır. Bizə bir ağıllı məsləhət ver. Biz nə edək ki, o axırzaman Peyğəmbəri dünyaya, yer üzünə gəlməsin. Bizi öyrət, atasını və ya anasını öldürək. Qorxduğumuz bu zillət, hörmətsizlik millətimizə nəsib olmasın. Hörmətimiz azalmasın, izzətimiz zəifləməsin.

İxtiyar adam bu sözləri eşitdikdə gülümsədi. Sonra ağladı. Göz yaşları tökdü. Daha sonra yəhudilərə dönərək:

– Ey millət, İsrail oğullarının düzgünlüyünün dağılmasına, cəmiyyətlərinin pərişan olmasına ilk dəlil sizin kimi ulu kişilərin ağıllarındakı nöqsan və düşüncələrinin azlığıdır, – dedi.

Yəhudilər həyəcanla din dirəyi ixtiyara baxıb soruşdular:

– Nə səbəbdən ağlımız və düşüncəmiz nöqsanlıdır?

İxtiyar Səfəriyyə:

– Ey İsrailoğulları, insanların babası Adəm əleyhissəlam yer üzünə endiyi və övlad qazandığı zaman Ulu Tanrı ona belə buyurmuşdu: "Ey Adəm, sənin dünyaya gəlməynə səbəb və arzumuz sənin nəslində Həbibim Məhəmmədin dünyaya gəlməsidir. Əgər nişan istəyirsən, o alnındakı Nurdur. Onun nurudur. Səndən sonra oğuldan oğula keçəcəkdir. Axırzamana kimi bu keçmə davam edəcəkdir". Beləcə, Allah-təala bunu xəbər verdi ki, o nur atalardan oğullara keçəcəkdir. Bu Nur peyğəmbərdən İbrahim peyğəmbərə kimi gəldi, sonra isə İsmail peyğəmbərə keçdi. İsmail peyğəmbərdən sonra ərəb nəslinin içərisində hərəkət etdi. İsrailoğullarının peyğəmbərlərinə isə keçmədi. Çünki Tanrı əmri belə idi. O, Məkkədə zahir olacaq. Buna bir dəlil də Allahın göndərdiyi peyğəmbərlərin kitablarıdır. Kitablarda Məhəmmədin keyfiyyətləri və sifəti yazılmışdır. Ayrıca münəccimlərin, ulduzlara baxanların, planetlərin seyrini izləyənlərin hamısı kitablarında, tarixlərində bu peyğəmbərin surətini, əxlaqını, ömrünü və əməlini, ağlını, əvvəlini və axırını əvvəlindən sonuna qədər anlatmışlar. Uzağa getməyə nə ehtiyac... Tövratın səhifələrində oxudunuz ki, Məkkə şəhərində bir Rəsul aşkar olacaqdır. Qılınc vurucu, bütlərə inananları qıracaqdır. Hökmdarların, qeysərlərin taxt və taclarını əlindən alacaqdır. Şərqdən Qərbə kimi hökm edəcəkdir. Peyğəmbərlərin sonuncusu olacaqdır. O peyğəmbərdən sonra vəhy sona çatacaqdır. Allah-təalanın əmri belədir. Sizin qüdrətiniz nədir ki, Ulu Tanrının əmrini pozasınız.

Bu sözlər yəhudiləri kədərləndirdi. İxtiyar alim ağlınımı çaşdırmış? Bu nə deyir? Amma Səfəriyyə doğru söylədiyinə inanırdı. Sonra yəhudilərə dönüb dedi:

– Bimirsiz ki, Firon nə qədər cəhd etmişdi. Saysız oğlan uşaqlarını öldürtmüşdi. Arzusu nə idi? Musa peyğəmbərin dünyaya gəlməməsi. Ancaq bütün səylərinə baxmayaraq, Musa peyğəmbərin dünyaya gəlməsinə mane

ola bilmədi. Siz də bu işi buraxın, getsin.

Yəhudilər ixtiyar din adamına heç bir cavab vermədilər. Hamı birlikdə gəldikləri kimi də çıxıb getdilər. İçərilərində hörmətlilərindən Helyusa bin Dəxlün adında birisi vardı. Bu adam çox düşündükdən sonra dedi:

– Bu ixtiyarın ərəb dininə meyli var. Öz ağlından bizə bir fikir ortaya atdı. Firon başdan-başa küfr və cəhalət içərisində batmışdı. Musanın dünyaya gəlməsini qadağan etmişdi. Biz Firon kimi cahil deyilik. Bir insanı aradan götürmək istəyirik. Qılınc vuran, qaniçənin birisini... Qılıncı din və məzhəbləri batil edəcəkdir. Buna nə deyirsiz?

Yəhudilər:

– Sənin sözünə qulaq asır və əmrinə baş əyirik. Nə tədbir fikirləşsən razıyıq.

Dəxlün:

– Mən bunu düşünməkdəyəm, – dedi, – Şam işləmələrindən, Misir parçalarından alaram. Tacir sifəti ilə Məkkəyə gedərəm, oturaram. Abdullahı ələ keçirincə qalaram, sonra onu öldürərəm.

Dəxlündən bu sözü eşidən yəhudilər: "Bu fikrinlə min yaşa", – deyərək onu alqışladılar. Düşündüyünü bəyəndilər. Bu sözlərə ittifaq bağladılar. Hər biri xeyli pul xərcləyərək mal tədarük etdilər.

Abdullahın ortadan qaldırılması üçün yəhudilər arasında bir belə "müqəddəs" ittifaq hazırlanarkən onun yaratdığı eşqin atəşi gözəlliyinə aşiq olan qadınların ürəklərində otururdu.

## *ALLAHA AŞİQ OLAN QADIN*

Məkkə bu günlərdə çox zəngin bir xanımın varlığı ilə çalxalanırdı. Çöldə Həsəmoğulları qəbiləsinin seyyidlərindən Mürrün qızı Fatimə Məkkəyə gəlmiş, iyirmi dörd yaşlı Abdullaha elə ilk baxışda vurulmuşdu.

Onun üzündə başqa bir nur parlayırdı. Gözəlliyi və gəncliyi başqa məna demək idi. Bütün qadınları alovlandıran bu cazibə Həsəmli Fatiməni də alovlandırmışdı.

Fatimə zəngin olmaqla bərabər, həm də ərəb qızları içərisində gözəllərdən birincisi idi. İndi yalnız məqsədi Abdullahın olmaq idi. Zənginliyi ilə Abdullahı ən xoşbəxt həyat içində yaşada bilərdi. Gözəl idi. Abdullahın könlünü gözəlliyi və eşqi ilə doldura bilərdi.

Fatimə Qureyş qadınlarına Məkkəyə gəldiyi gündən bəri qısqanclıq alovları daddırmaqdaydı. Geniş qəlbli, gözəl xasiyyətli bir insan olduğundan Qureyş gənclərini evinə dəvət edir, Taifin məşhur içkilərini onlara içir-

dirdi. Dəliqanlılar da ona çox vurğun idilər. Amma nədənsə kimsəni belə özünə çox yaxın buraxmazdı. Nədən kimsəni yaxın buraxmazdı? Nədən mütləqa Abdullahı istəyirdi. Yoxsa Həsəmoğullarının kahinləri ona bir cadu etmişdilər?

Fatimə evində çoxlu cariyələrlə otururdu. Həbəşli zənci qız kölələri də vardı. Hər dəfə saçını Yəməndən gətirlmiş bir güzgü qarşısında darayır, bir zənci qıza:

– Məryəm, – deyirdi, – həqiqətən, mənə gözəl demək olarmı?

– Əlbəttə, xanım.

Bir çöl bədəvi qızına:

– Nübeylə, zənginliyim qədər gözəlliyimdəki zənginlik də məni Abdullaha sevdirəcəkmi? – deyə soruşurdu.

Həsəmoğulları çöldə karvanları saxlayaraq onlardan xərac almaqla şöhrət qazanmışdılar. Bu səbəbdən atası Mürr bir çox karvandan bac alırdı. Yaydığı bu qorxunun gücü ilə aldığı pullarla bütün qəbiləsini varlı etmişdi. Şəhər camaatı və əsl tacir olan Qureyş karvançıları da bu qatı ürəkli qəbilədən qorxardılar.

Fatimə Abdullahı necə aldadacaqdı? Onun qarşısına bütün cazibədarlığı ilə çıxacaq, ya onu evinə dəvət edib gözəlliyiləmi təhrik edəcək?

Yəhudilər "Müqəddəs ittifaq"larını qurarkən Məkkədə belə zəngin və ən gözəl bir bədəvi qadın da bəd əməllər içində Abdullahı aldatmaq çarələrini düşünür və cariyələrinə: "Söyləyin, qızlar, söyləyin, Əbdülmüttəllib oğlu Abdullahla bir saat vüsala necə qovuşa bilərəm?" – deyirdi.

Fatimə xülyalar içində idi. Abdullah onun eşqini qəbul edərdimi? İçində müxtəlif fikirlər onu rahat qoymurdu. Yəməndə bir zəngin qadın ona çoxlu qızıl verərək vüsal təklif etmişdi. Amma Abdullah onu rədd etmişdi. Ən gözəl üzlə qarşısına çıxmışdı. Abdullahın gözləri heç bir şey görməmişdi. Nə istəyir bu Abdullah, kimi gözləyir? Sevdiyi bir qızmı var?

Fatimə Yəmən güzgüsündə bir daha gözəlliyinə baxdı. Budur boyu bir ceyran gözəlliyindəydi. Saçları Ərəbistan gecələri qədər qaradır. Gözləri Ərəbistan göylərində dolaşan on dörd günlük ay kimi parlaqdı. Bir kişini bəxtiyar etmək qədər özündə hər şey mövcuddur.

Cariyələrinə yenə səsləndi:

– Nübeylə, Məryəm!

– Buyurun, xanım.

Fatimə onlardan soruşdu:

– Heç duydunuzmu? Bildiyiniz, eşitdiyiniz varmı? Abdullah bu qədər təklifi rədd edirmiş... Bəlkə, bir sevdiyi varmış?

Xeyr, heç kimsə bilmirdi. Heç kim onun bir ərəb qızı ilə sevgisi haqda

ən kiçik dedi-qodu belə eşitməmiş, duymamışdı.

İkisi birdən:

– Xeyr, xanım, heç eşitdiyimiz, bildiyimiz yoxdur, – dedi.

Bilmədikləri bir şey vardır. O da Əbdülmüttəlib ailəsinin atalarının sözü idi. Abdullaha hər hansı, təsadüfi ailədən qız alınmayacaqdı. Ona yaxşı bir nəsildən olan ən pak qıza qismət edəcəkdi.

Rəsulun nurunu Ulu Tanrı ən sevdiyi bir qadın quluna nəsib edəcəkdi. Bəlkə, Fatimə də bu nura aşiqdir. Fatimə artıq mütləq, sürətlə Abdullahı ələ keçirmək, ona gözəlliyini göstərmək, hətta imkan olarsa, vücudunu Abdullaha bir saat da olsa, təslim etmək, ona nəsib olmaq istəyirdi. Yenidən cariyələrinə səsləndi:

– Ay qızlar, Məryəm, Nubeylə. Məni müşk qoxuları ilə ətirləyin. Saçlarımı yaxşıca darayın. Paltarımı müqavimətsiz, həmən açılıb düşə bilən hala gətirin. Mənə Abdullahın bu yoldan keçəcəyini xəbər verin. Ona bütün Məkkə qızlarının söylədiyi şeirlərin ən ürək yandıranını bərkdən deyin. Dəf çalın... Bu səsləri duyunca pəncərəyə baxsın. Sonra da ayaq bilərziklərini cingildədən rəqslər edin. Ta ki bu səsləri eşitsin və “Kimdir məni çağıran? Kimdir bu evdəki qadın?” – desin.

Həsəmli oğullarından Mürrün qızı Fatimə bu dərəcədə çılğına dönmüşdü. Abdullahın bəyənilmiş xanımı olacaq Hz. Əminənin yerini ala biləcəkmi? Kim bilir? Tale,qismət... Gözləri yolda qalan Fatimə “Qaçma uzaqlara, ey gənc, Fatimənin evinə gəl, ey gənc” nəqəratını ahəstə səslə zümzümə edərkən, o biri tərəfdə yəhudilər axırzaman peyğəmbərinin atası olmaqla şərəfləndirilən Abdullahı öldürmək üçün “Muqəddəs ittifaq”larına pul və mal toplayırdılar. Şamda “Müqəddəs ittifaq” quran yəhudilər həm mallarını, həm canlarını Abdullahı öldürmək üçün fəda etmək andı içdikdən sonra yola düşdülər. Məkkəyə yaxınlaşanda artıq ulduzlar səmada yavaş-yavaş yox olurdu, səhərin erkən çağı çölə başqa bir əsrarəngiz gözəllik verirdi. Dan yeri sökülməmişdi. Qaranlıq yavaş-yavaş açılırdı. Günəşin şəfəqi hələ tam ətrafı bürüməmişdi.

Çöl quşlarının oyandığı, ceyranların səhraya çıxacağı bu dəqiqədə birdən-birə göy üzündən gələn bir səs yəhudiləri sanki yerlərində durmağa məcbur etdi. Bu gizli avaz haradan gəlirdi? Yəhudilər qorxu içində ətraflarına baxdılar. İlahi bir səs onlara deyirdi:

– Ey İsrailoğullarının nəsli, ey doğru yoldan azmış insanlar! Ulu Tanrının yandırdığı çırağı söndürməkmi istəyirsiniz? Belə niyyət etməyin, öz canınıza bəla gətirməyin. Belə arzuyla davam etsəniz, canınız da, malınız da hamısı gedər. Ayaqlar altında əzilərsiniz.

Yəhudilər qeybdən gələn bu sədaya çaşıb qaldılar. Mıxlanmış kimi yer-

lərində hərəkətsiz durdular. Sonra içlərinə bir qorxu düşdü:

– Biz bu işdən, Abdullahı öldürmək fikrindən əl çəkdik, – deyə hərəkətə keçdilər. Amma başçıları olan məlun Helyusa həmən qarşılarına keçdi. Onların üstünə qışqırmağa başladı:

– Hara gedirsiz? Niyə çaşdınız? Bilmirsiz ki, bu Qureyş camaatının içərisində kahinlər vardır. Bunu alimlərin çoxu yaxşı bilirlər. Yenə bu Qureyşin elə insanları var ki, pəriləri, cinləri özlərinə bənzətmişlər. Bunlar çağırdığı zaman gəlirlər, o insanlara sözlər öyrədirlər. Yenə bu pərilərdir ki, yollara çıxarlar, gəlib keçənlərə göydən səslənir kimi səs çıxararlar. Yolçuların könlündən keçəni bilirlər. Gedib onları bağlayanlara xəbər verirlər.

Yəhudiləri bu sözlər yenə çaşdırdı. Onların qorxularının keçdiyini görən Helyusa daha bərkdən bağırmağa başladı:

– Ey İsrailoğulları, ərəblərin içərisindən Rəsul gəlmədi. Göydən mübarək kitab gəlmədi. Bunlar nə din, nə də elm əhlidirlər. Gedəyin, qulağınıza gələn avaza aldanmayın.

Amma onlar irəli getməyə cəsarət etmirdilər. İçlərində bir şübhə vardı. Buna görə də Helyusa etiraz etdilər:

– Tanrının bizə göndərdiyi kitabda oxuduq. Orada bir axırzaman peyğəmbərinin gələcəyi yazılıbdı. O olacadır. Bunu sən özün bizə xəbər vermişdin.

Məlun, hiyləgər Helyusa şirin sözlərə başlayıb yenidən onları inandırdı. Onları ürəkləndirdi, cəsarət verdi.

Günəş doğduğu zaman yəhudilər Məkkə şəhərinə daxil oldular. Tez-tez ticarət üçün gəldiklərindən Məkkədə tanınan insanlardan idilər. Bazar əhli onları görüncə, içlərindəki xainliyi bilmədiklərindən onlarla alış-veriş etdilər.

O gecə Abdullah Məkkəli qadınlardan eşitdyi eşq sözlərindən bezmiş halda yatağına girdi. Tez də yuxuya getdi. Yuxu gördü.

## *HƏZRƏTİ ABDULLAHIN YUXUSU*

Bu, qorxunc bir yuxu idi. Başlarında sarğı olan əcaib məxluqlar, hətta meymundan da çirkin bir dəstə əllərində yalın qılınc ona hücum edirdilər. Abdullah bu həmlədən geri çəkilmişdi. Qorxmuşdumu? Bəlkə də qorxmuşdu. Bir kənara çəkiləndə göydə bir atəşin parladığını gördü. Alov birdənbirə ona hücum edənlərin üstünə doğru düşdü. Hamısını yandırıb qovurdu. Abdullah tər içində yuxudan oyandı. Röyasını həmən atasına danışdı. Şeybətül-Həmd dedi:

– Ey oğul, sənin düşmənlərin çoxdur. Amma buna iman et ki, Ulu Tanrı alnındakı nur bərəkətinə səni düşmən şərrindən qoruyur. Buna üzülmə, narahat olma.

Səhər olunca atası Abdullahı yanına çağıraraq söylədi:

– Ey oğlum, Şamdan bir dəstə adam gəlmişdir. Bunlar bilikli insanlardır. Səni götürüb onların yanına gedərik. Yuxunu onlar bizim üçün yozsun.

Şeybətül-Həmd Abdullahla birlikdə yəhudilərin yanına getdi. Ancaq onların hiləgər niyyətlərini haradan bilsinlər?

Abdullah yəhudilərə yaxınlaşanda alnındakı Rəsul nuru daha çox parıldayıb, daha çox işıq saçırdı. Sonra bu nur yuxarı çıxdı, iki parçaya bölündü. Bir parçası Sərqə, bir parçası Qərbə doğru uzandı. Yəhudilər o nuru və parlaqlığı gördükdə çaşıb qaldılar. Heyran oldular bu nura.

Məkkə ulusu Şeybətül-Həmd onlara yaxınlaşanda ayağa qalxdılar. Əbdülmüttəlib baş tərəfə keçdi, Abdullah da yanında oturdu. Yəhudilər indi Abdullahı tədqiq edirdilər. Məkkə başçısı yanlarına nə üçün gəlmişdi? Ticarət vəziyyətindən danışandan sonra Əbdülmüttəlib:

– Ey bilicilər, – deyə sözə başladı, – içinizdə yuxuyozanlar var. Oğlum Abdullah dünən gecə yuxusunda ona pis ruhlu və eybəcər üzlü bir dəstə kimsələrin hücum etdiyini, amma göydən enən bir atəşin onları yandırdığını görüb. Bunu siz necə yozarsız?

Birdən-birə yəhudilər ürkdülər. Edəcəkləri pislik Abdullaha necə məlum olmuşdu. Deməli, bu işdə bir fəlakətə uğrayacaqlar. Yoldaşlarının qərarsızlığını görən bu məlun başçı Helyusa dilləndi:

– Ey Məkkə ulusu, burada həyəcan yaradan bir şey yoxdur. Bunun kimi günəş üzlü bir gəncə kim düşmənçilik edə bilər?!

Sonra uzun çək-çevirdən sonra sözu Şam, Yəmən və Mədinə ticarət işlərinə gətirdi. Xoş-beşdən sonra Əbdülmüttəlib ilə Abdullah Kəbəyə doğru yol aldılar.

Onlar getdikdən sonra Helyusa yəhudi yoldaşlarına döndü:

– Gördünüzmü düşməninizi yaxından? Dörd yanda haqqında danışılan adam budur. Alnındakı nur ona keçdikdən sonra dünya fitnə ilə doldu. Bu gənc ölməyincə, öldürülməyincə dünya müsibətdən qurtulmaz.

Yəhudilər də az sonra ayrılaraq ticarətxanalarına getdilər.

Aradan bir müddət keçdi. Abdullahın ətrafında gənc qadınların fırlandığını hamı görürdü. Ancaq heç birisinə, hətta Mürrün qızı Həsəmli Fatiməyə belə üz vermədi. Nə zənginliyi, nə gözəlliyi onu şirnikləndirmədi.

## *HƏZRƏTİ ABDULLAH OVA ÇIXIR*

Məkkəlilərin boş zamanlarda işlərindən biri də səhrada ov etmək idi. Ceyran ovu, quş ovu çox əyləncəli olurdu. Çöldə ov ovlamaq ən maraqlı, cəldlik və məharət tələb edən sənət kimi qiymətləndirilirdi. Haşimoğullarının bu məharəti məşhur idi. Bu vaxtlar Əbdülmüttəlib oğlu Həmzə igid bir dəliqanlı olmuşdu. Abdullah və Həmzənin ov bacarıqları dillərdə bir dastan idi. Atalar yadigarı yayla ox atma sərrastlığı, oxun hədəfə dəyməsi həyəcanlı, həm də maraqlı oyun və məşğələ dəqiqələri idi. İki qardaş bu əyləncəyə o qədər aludə olmuşdular ki, son zamanlar gecə-gündüz ov ovlamağa başlamışdılar.

Bir gün Abdullah təkbaşına ova çıxdı. Onu öldürməyə fürsət gözləyən yəhudilərin casusları hər an Abdullahı izləyirdilər və tək ova çıxdığını görəndə əllərinə düşən bu fürsətə sevindilər. Casus tez geri döndü. Helyusaya:

– Yaxşı xəbər, Abdullah bu gün ova tək çıxıb.

Dəxlün oğlu Helyusa bu xəbəri alan kimi başqa yəhudilərin yanına qaçdı:

– Ey İsrailoğulları, artıq arzunuza yetişdiniz. Həmən atlarınıza minin, Abdullah tək başına ova çıxmışdır. Bu xöşbəxt günə qovuşdunuz. Onun ardınca gedərik və öldürərik.

Yəhudilər:

– Biz Haşimoğullarından, Əbdümənafoğullarından qorxuruq. Bu məqsədlə getdiyimizi bilərlərsə, bizim ardımızca gələrlər. İşimiz yaxşı olmaz.

Helyusa var gücü ilə qışqırdı:

– Sizdə heç kişilik yoxdur. Qeyrətiniz harada qaldı? Bizə özünü dinə fəda edən insanlar lazımdır. Kim ki din yolunda and içmişdir, başını verməyə hazır olmalıdır. Ev-eşiyini, canını tərk etməyi bacarmalıdır.

Helyusa getdikcə coşurdu. Daha da həyəcanlanırdı və səsini yüksəldirdi:

– Ey qəhrəman kişilər, biz bu iş üçün Məkkəyə gəldik. Əgər bunu bacara bilsək, qiyamətə kimi adımız aləm içində deyiləcəkdir.

Yəhudilər onun nə etmək istəyini anladılar:

– Sən yaxşı bilirsən, ey Helyusa, nə buyurursan buyur, biz o işi görərik.

O qardaşı Süveydaya döndü:

– Bir neçə kişi sən götür, sağ tərəfdən get, mən də bir neçə kişi ilə sol tərəfdən gedərəm. Kölələr yükləri bağlasınlar. Zərərə baxmayın. Alınan-alınsın, satılan-satılsın. Dəvələrlə onlar yola düşsünlər.

Dəstənin önündə bir neçə gözətçi gedirdi. Özləri də onları təqib edirdilər. Əllərində qınından çıxmış qılınc və ya kiçik nizə vardı. Şəhərdən çıxdıqdan sonra iki yerə bölündülər. Bir bölük sağdan, o biri isə soldan irəlilə-

yirdi.

Məkkə artıq arxada qalmışdı. Ticarət dəstəsi də uzaqdan onların ardınca gəlirdi. İndi artıq səhraya çıxmışdılar.

Bu vaxt Abdullah çöldə ov edirdi. Atından enmişdi. Az sonra onun vurduğu ovla məşğul olduğunu gördülər. Heyvanı kəsmiş, içini təmizləyirdi.

Məlun Helyusa silahdaşlarına:

– Atdan enin! – əmrini verdi.

Yəhudilər atdan endilər.

Helyusa:

– Diqqət, onun üstünə çox cəld, qəfil hücum edəcəyik. Ona aman verməməliyik. Gözlənilməyən basqınla parça-parça edəcəyik.

Bu vaxt başını ovundan qaldıran Abdullah əlləri silahlı xeyli kişinin onu hədəf tutaraq hazırlandığını görüncə özü-özünə:

– Bunlar, deyəsən, mənə qəsd etmək istəyənlərdir. Yoxsa bu cür hərəkətlər xeyir əlaməti deyildir, – fikirləşdi.

Vaxt itirmədən yayını əlinə aldı. Oxu qoyub bir-birinin ardınca atalardan yadigar yaydan beş ox atdı. Beş yəhudini yerə sərdi. Yəhudilər həmlə etməyib durdular. Daha irəli atılmadılar.

Helyusa Abdullahın bu qəhrəmanlığını gördükdə:

– Ey sahibül-Hərəm, nə üçün bizi öldürürsən? Biz Şamın şərəfli tacirləriyik. Düşmən deyilik ki, bizə ox atırsan, – dedi.

Abdullah atalarının yayına bir ox daha yerləşdirib soruşdu:

– Düşmən deyilsiz? Onda nə üçün üstümə qılıncla gəlirsiz? Niyə bu tərəfə qaçırsınız?

Helyusa cavab verdi:

– Bizim kölələrimizdən biri malımızı oğurlayıb qaçdı. Biz də onun ardına düşdük. Səni uzaqdan gördükdə kölə hesab etdik. Onu tutmaq üçün sənə tərəf gəldik.

Abdullah:

– Yalan deyirsiz, – deyə qışqırdı, yalan söyləyirsiz. Sizin axtardığınız adam piyada idi, yoxsa atlı?

Helyusa:

– Piyada, – deyə cavab verdi.

Abdullah yenidən soruşdu:

– Üzü ağdır, yoxsa qara?

– Qara idi, – deyə bağırdılar.

Abdullah bu cavaba görə bir az da qızışdı:

– Ey məlunlar, – deyə qışqırdı, – mənim atım yanımda, cilovu əlimdə bağlı, alnımdakı nurun isə günəşin işığı kimi parladığı görünür. Məni necə

qara rəngli bir kimsəyə bənzədərsiniz?

Abdullah həmən atına atılaraq oradan uzaqlaşmaq istədi. Amma Helyusa ilə qardaşı Süveydə iki yandan atlarını sürərək Abdullahın yolunu kəsmək istədilər. Məlun Helyusa bir bölük adamla, Süveydə isə ikinci qisim silahlıları ilə təkbaşına mübarizə etmək məcburiyyətində qalan Abdullahı ortaya aldılar.

Abdullah bir an durdu. Atını sürmək istədi, amma at sürəcək yer deyildi. Qaçsa, qaçacaq yer də deyildi. Sağ tərəfi daş və qaya. Bir dağ hissəsi. Sol tərəfi yenə yüksək təpə. Onu dar bir keçiddə sıxışdırmışdılar.

Çarəsiz qalan dəliqanlı üzünü göyə tutaraq Ulu Tanrıya yalvarmağa başladı.

## *HƏZRƏTİ ABDULLAHA KÖMƏK GƏLİR*

Abdullahın bu duası həm dilində, həm də qəlbində idi. O, bir tərəfdən oxları yağdırırdı. Hər ox yəhudinin birini yerə sərirdi. Birdən uzaqlarda-qayalarda nal əks-sədasına bənzər gurultu gəldi. Yəhudilər başlarını səs gələn tərəfə çevirdilər. Çaşdılar. Abdullah da səs gələn yerə baxdı. Gələn qardaşları idi. Onları görüb çox sevindi. Yəhudilər köməyə gələnləri görəndə rəngləri saraldı.

Ən böyük qardaşı Haris öndə gəlirdi. Yanında Əbdül-Üzzə (yəni Əbu Ləhəb), Müqəvvim, Həcələ, arxalarında sonralar çox məşhur olacaq Abbas və bir ata-anadan olan qardaşı Əbu Talib vardı.

Bir daha baxdı, arxadan yenə qardaşlarından Zübeyr, Dırar gəlirdi. Daha kimlər yox idi bu gələnlər arasında. Əmilərinin oğullarından Kəboğulları, Əsədoğulları, Əbdüşşəmsoğulları vardı. Bunlar yəhudilərə doğru ildırım sürəti ilə yaxınlaşırdılar. Abdullah ən kiçik qardaşı Həmzənin də onun imdadına gəldiyini gördü.

Yəhudilər bu köməyə gələnləri görəndə sağ qalacaqlarına ümidləri yox oldu. Nə edəcəklərini bilmədilər, çaşıb qaldılar. Bütün bu hiylələri düşünən və həyata keçirən Helyusa adamlarına:

– Qaçın, özünüzü qurtarın, – deyə bağırdı.

Süveydə də adamlarına qaçmaq əmrini verdi. İndi iki bölük yəhudi bir dərəyə yaxınlaşırdı. Dağın yüksək bir yamacından bir qayanın qopduğunu gördülər. Daş özü ilə gətirdiyi torpaqla aşağı düşərək qaçmanın yeganə yolunu bağladı. Abdullaha köməyə gələnlər də onların arxasından hücum edərək qılınclayırdılar. Qaça bilməyənlərin az bir hissəsini qılıncdan keçirdilər, qalanlarını da əsir aldılar.

Əbdülmüttəlib Abdullahın yanına gələrək onu bağrına basdı və dedi:

– Ey qəhrəman oğlum, mən sənə neçə dəfə demişəm ki, heç vaxt ova tək çıxma. Sənin düşmənlərin çoxdur.

Abdullah:

– Ay ata, çox doğru söyləyirsən,ancaq mənim bu çətin vəziyyətimi sizə xəbər verən kimdir?

Əbdülmüttəlib:

– Bizə xəbəri gətirən Əbdümənaf oğlu Vahabdır, – dedi. Abdullahın düşmənləri əsir edilib Məkkəyə gətirildi. Məxzumoğulları qəbiləsindən Əbdümənaf oğlu Vahab o gün ova çıxmışdı. Özü bu qəbilənin ulularından, seyyidlərindən hesab edilirdi. Uzaqda bir dəliqanlının yəhudilərlə vuruşduğunu görüncə düşünmüşdü: "Bu dəliqanlı kimdir belə? Abdullahmı bu? Əbdülmüttəlibin ən sevimli oğlu. Əgər mən tək ona köməyə getsəm, qurtara bilmərəm. Məkkəyə tez özümü çatdırım, Haşimoğullarına Abdullahın çətin vəziyyətini xəbər verim".

Vahab bu qərarı verdikdən sonra sürətlə Məkkəyə gəlmiş, Əbdülmüttəlib oğullarını görərək:

– Tez olun, sevimli qardaşınız Abdullah təhlükə içindədir, yəhudilər filan yerdə onunla vuruşurlar, – demişdir.

Bu xəbər bütün Əbdülmüttəlib oğullarını lərzəyə gətirmişdi. Həmən atlanmışlar və Vahab bələdçi olaraq onları döyüş yerinə gətirmişdi.

Atası Abdullaha onun təhlükədə olduğunu Vahabın xəbər verdiyini söylədikdə o:

– Ey Əbdümənaf oğlu Vahab, mənim yəhudilərlə vuruşduğumu haradan gördün? – deyə soruşdu.

Vahab:

– Ey Misbahülhərəm (O zamanlar Abdullahı məkkəlilər Misbahülhərəm, yəni "Hərəm çırağı"-deyə çağırırdılar). Ova mən də çıxmışdım, yəhudilərin səninlə vuruşduğunu gördüm. Ona görə tez Məkkəyə gəlib qohumlarına xəbər verdim.

Abdullah:

– Allah günahkarların cəzasını versin, xeyir iş görənləri də mükafatlandırsın.

O zaman Əbdülmüttəlib sağına, soluna baxdı. Yəhudilərin yüklü dəvələr dəstəsi də arxadan gəlmişdi.

– Yəhudilərin paltarlarını, silahlarını, dəvələrini bir araya yığın! – deyə göstəriş verdi.

Bunlar bir araya toplandı. Əbdülmüttəlib bu əmri verdi:

– Bunlar Əbdümənafoğlu Vahabın olacaqdır.

Sonra Helyusa ilə qardaşı Süveydəni və iki gənc yəhudini işarə edərək:

– Bunlar da Vahaba bağışlansın, – dedi.

Sonra Vahaba dönərək:

– Ya Vahab, – dedi, – bu dörd yəhudi də sənin olsun. İstəyirsən işlət, istəyirsən sat. Dəyərini özün al. İstəyirsən öldür. Malları da, mal-qara və parçaları da sənin olsun.

Abdullahın xeyir iş görənlərin Ulu Tanrı tərəfindən mükafatlandırılacağı haqqındakı söylədiyi sözlər yerinə düşmüşdü. Vahab çox böyük miqdarda mükafat qazanmışdı. Başqa yəhudiləri də digərlərinə bağışladılar. Boyunlarına iplər salaraq bir-birinə bağlayıb Məkkəyə doğru hərəkət etdilər.

Nəticəni böyük həyəcanla gözləyən şəhər əhli yollara çıxmışdı. Məkkənin ən sevimli bir gəncinə qəsd etmək istəyən yəhudiləri əsir alıb gətirmələrinə hamı sevinirdi. Abdullahın eşqi ilə yanan gənc qızlar, qadınlar da yola çıxmışdılar. Onların içərisində bəlkə də Mürr qızı Fatimə də vardı. Abdullahın salamat qurtarmasına kim bilir nə qədər sevinir və tez bir zamanda vüsalına nəsib olacağını düşünürdü.

Fatimə bu arzusuna yetəcəkmi? Dünən, bu gün, sabah, indi mümkündürmü? Xeyr. Çünki tale birdən-birə hər şeyi dəyişmişdi. Fatimə heç bir zaman Abdullahın olmayacaqdı. Fəqət gənc və zəngin qadın hələ öz istəyində idi. O bir çoxları kimi yəhudi əsirlər keçərkən irəli atılmaq və can düşmənlərini öz əli ilə parça-parça etmək istəyirdi.

Əbdülmüttəlib kimsəyə bunlara divan tutmağa icazə vermədi. Ortaya çıxdı:

– Bunları öldürmək çox asandır, tələsik qərar qəbul etmək lazım deyil, – dedi.

Dörd yəhudidən başqa digərləri, az sonra zindandan boylanırdılar.

## *HƏZRƏTİ ƏMİNƏNİN ABDULLAHLA EVLƏNMƏSİ*

Məkkəlilər, qadınlı-kişili on gün ən sevincli günlərini yaşadılar. Hələ Abdullahın qurtulmasına səbəb olan Vahab üçün: "Yaşasın Əbdümənaf oğlu Vahab" sözləri onun göründüyü hər yerdə eşidilirdi. Hər yerdə alqışlanırdı.

Vahab axşama doğru ona verilən dəvələri, silahları, paltarları, əsir olaraq verilmiş iki yəhudi başçılarını və iki gənci götürdü, qəbiləsinə döndü. Hamı bu qənimətləri görəndə, çaşıb qalmışdı. Vahabın xanımı Osman oğlu Əbdül-Üzzanın qızı Bərra xatun idi. Gözəldi. Xasiyyəti, əxlaqı da gözəldi. Namusu və əxlaqı saf bir qadındı.

Bərranın son dərəcə gözəl bir qızı vardı. Təmiz əxlaq sahibi idi. Adı Əminə idi. Vahab da qəbilənin seyyidlərindən və sayılan insanlarındandı. O, atasını qarşıladı. Ana, qız:

– Nədir bunlar, – deyə soruşdular, – bu kölələr və bu nemətlər haradandır? Bu paltarlar, parçalar, silahlar, dəvələri haradan gətirdin? Bunlara necə sahib oldun?

Əminə:

– Ata bu əsirlər kimlərdir?

Vahab böyük könül açıqlığı ilə Abdullahın yəhudilərlə vuruşmasından, qəhrəmanlığından və kişiliyindən danışdı:

– Bu cəsarəti o gün Abdullahla mən etdim. Abdullahın vuruş yerini Haşimoğullarına mən göstərdim. Bunu nə ata oğula, nə də qardaş qardaşa etmişdi.

O zaman Bərra:

– Bu bir möcüzədir, – dedi, – bu qurtuluş adı dillərdə gəzən Abdullahın alnındakı nurun bərəkəti ilə olmuşdur. Vahab bu vaxt ürəyində saxladığı sirri xanımı Bərraya bildirdi:

– Qızım Əminəni Abdullaha vermək istəyərdim.

Bərra xatun ərindən qızı Əminəni Əbdülmüttəlib oğlu Abdullaha vermək istəyini eşidincə:

– Ya Vahab, sənin könlündın keçən ağıla gəlməyən bir sevdadır. Çatılması çox çətin olan bir fikirdir!

Vahab:

– Nə üçün çətindir? – deyə soruşdu.

– Bunun üçün ki, Abdullahla bir çox qızlar, qadınlar evlənmək istədilər. Bu qızların, qadınların xəzinələri inci, qızıl və evlər parçalarla dolu idi. Abdullah onların heç birinə evlənmək istəmədi. Sənin kimi bir kasıb kişinin qızını qəbul edəcəkmi? – deyə Bərra xatun ərinə cavab verdi.

Vahab:

– Haşimoğulları igid kişilərin qəhrəmanlığını alqışlayırlar. Bu igidilyi də çətin gündə mən etdim. Qızımın Abdullahla evlənmək istəyimi rədd etməzlər. Fikirləşirəm ki, qəbul edəcəklər.

Bərra:

– Bilmirəm, arzun, bəlkə, qəbul olundu. Mənim söylədiyim budur ki, yaxından və uzaqdan başçılar, qəbilə ululları, məmləkət hörmətliləri, mal və mülk sahibləri qızlarını mal, mülkləri ilə ona verirdilər. Bunu aləm bilir. Amma qəbul etmədilər. Əgər səadətin onlardan çoxsa, ancaq onu bilmirəm.

Vahab:

– Bax günəş bir az sonra batacaq. Bəlkə, gözəl bir saat yaxınlaşır. Arzu-

muz həyata keçər, muradımıza çatarıq. İndi ən yaxşı paltarını gey, Əbdülmüttəlibin evinə get. Xatunu Fatimə ilə danış. Fatimə Abdullahın bəxtli anasıdır. Səni Əbdülmüttəliblə görüşdürməsini xahiş et. Mənim salamlarımı Əbdülmüttəlibə çatdır. Qızın haqqında dediklərimi ona söylə. Baxaq sənə nə deyəcək?

Bunları deyərək Bərranı Əbdülmüttəlibin evinə getməyə məcbir etdi.

Bu sözlər bitəndə Əminənin anası yerindən qalxdı. Otaqdan çıxdı, ən təzə paltarını geydi. Əbdülmüttəlibin evinə yollandı.

Bərra Fatimənin otağına gələrək:

– “İzin olarsa, Şeybətül-Həmdlə danışmaq istəyirəm”, – dedi.

Fatimə bu ziyarətdən bir şey anlamadı. Bəlkə, ərinə verilmiş yəhudi mallarından başqa nə isə istəməyə gəlmişdir?

Bu düşüncələrlə Əbdülmüttəlibin yanına girən Fatimə:

– Əbdümənaf oğlu Vahabın xanımı bizə gəldi. Sizinlə danışmaq istəyir. Mən fikirləşirəm ki, yəhudilərin malından pay istəyəcəkdir və ya yanlarında olan kölə yəhudilərin azad edilməsi üçün şəfaət arzulayacaqdır. Kim bilir, bəlkə də bu zəngin yəhudilər ona mal və ya pul vermək istəyirlər, – söylədi.

Əbdülmüttəlib:

– Hər nə iş üçün gəlir,gəlsin. Vahabın xanımına qarşı rədd cavabım olmayacaq. Oğlun Abdullahın həyatını xilas etmiş bu ailəyə biz borcluyuq. Həmən onu mənim yanıma gətirin.

Fatimə onun yanından ayrıldı. Bərra xatuna “buyurun” – dedi. Bu vaxt Əbdülmüttəlibin səsi gəldi:

– Ey Abdullahın anası, Bərra xatunu qonaq otağımıza apar.

Bu sözlər Bərra xatuna xüsusi hörmət, izzət və diqqət göstərilməsinə işarə idi.

– Buyurun, xanım.

Özunə böyük diqqət və hörmət gəstərilən Əminənin anası az sonra Şeybətül-Həmdlə qarşı-qarşıya idi. Baş tərəfdə oturdular. Əbdülmüttəlib:

– Bu gün Vahabın böyük bir insan olduğunun şahidi olduq. Bizə oğlum Abdullahla yəhudi düşmənlərin vuruşması xəbərini çatdırmasaydı, onun imdadına bəlkə də, yetişə bilməyəcəkdik. Doğrusu, igid və dilavər bir kişidir.

Əbdülmüttəlibin Vahaba qarşı başqa bir sevgisi də vardı. Ən kiçik oğlu Həmzənin anası və Vahabın ən böyük qızı Halə onun xanımı idi. Beləcə, Vahab Əbdülmüttəlibin yaxın qohumu idi. Əbdülmüttəlib sözünə davam etdi:

– Bəli! Leviyy oğlu, Kəb oğlu, Mürrənin oğlu, Kilabın oğlu, Zöhrənin oğlu, Əbdümənaf oğlu Vahab da mərd və igid bir kişidir. Çünki bizim böyük anamız Qusay ilə onun böyük anası Zöhrə bacıdırlar və Kilaboğullarından-

dırlar. Bu dəfə Vahab biz Haşimoğullarına elə bir xidmət etdi ki, mən Məxzumoğullarının bu yaxşılığını heç zaman unutmayacağam. Dillə tərif etməyəcəm. Şübhəsiz, mən də öz qohumlarıma bir gün yaxşı xidmət edərəm, əlbət.

Bərra xatun bu tərifli sözlərdən bir az çaşmışdı.

– Ya Seyyidülhərəm, − dedi, − niyyətinizi mənə bildirdiniz. Sağ olun. Təriflərinizi qədər biz haqq qazanmışıqmı? Bu iş də geri qalmamaqdır. Alimlər, ağıllı insanlar ”təcili işlərdə xeyir vardır” demişlər.

Otaqda hazır olanlar Bərranın bu sözündən bir şey başa düşmədilər. Nə təcili ediləcəkdi? Hansı işdi bu təcili şey?

Əbdülmüttəlibə:

– Bərra xatun yenə ya mal, ya da kölə istəyir, − dedilər.

Əbdülmüttəlib ona dönərək dinləndi:

– Ya Bərra, arzun nədir? Muradın nə isə, qəbul ediləcəkdir. Sənin sözünə, ərin Vahabın sözünə heç bir rədd cavabım yoxdur. Hamısı qəbuldur.

Bərra sevinc içində:

– Ey sayğılı Seyyidi-Hərəm, bunu doğru söylədiniz. Biz eşitdik ki, Haşimoğulları qızlarını malla, mülklə və sandıq-sandıq zənginliklərlə oğlunuz Abdullaha vermək sevdası ilə çox müraciət ediblər. Amma siz qəbul etməmisiniz. Ərim Vahab sizə salam göndərdi. Mənə dedi ki, sizə söyləyim: “Arzum budur ki, Əbdülmüttəlib mənim yoxsulluğuma, fəqirliyimə baxmasın. Qızım Əminəni oğlu Abdullah üçün qəbul etsin”. Bizim qızımız Hələ nə zamandır ki, sizə layiqli xidmət edir. O, Həmzə kimi bir aslan oğul yetişdirmişdir. Arzu edərəm ki, qızım Əminə də sizin ocağınızda xoşbəxt olsun, sizin evinizə gəlin köçsün. Həyat yoldaşım Vahab bunları sizə söyləməyi mənə tapşırdı. Ya Seyyid, bizə bu yaxşılığı etmək istəsəniz, bundan böyük yaxşılıq olmaz. Məxzumoğullarından Vahabın qızı Halədən sonra bu ailəyə Vahab qızı Əminə də gəlin gələcəkmi?

Əbdülmüttəlibin üzündə xoş bir təbəssüm var idi,sanki bu xəbəri çoxdan gözləyirdi. Orada olan və bu sözləri eşidən oğullarının, baş xatunlarının, qardaşlarının hamısına bu söz xoş gəlmişdi. Ürəklərində bir sevinc oyanmışdı.

Əbdülmütəlib:

– Bərra xanım, söylədiyin sözlər yaxşı və doğru sözlərdir.

Bərranın bu sözlərə üzü güldü. Atası sonra Abdullaha baxdı:

– Ey oğul, ey gözümün işığı, eşitdinmi? İstəyirsənmi? Gördünmü Bərra xatun nə dedi? Bu sözləri qəbul edirsənmi?

Abdullah qızardı, heç bir söz demədi.

Şeybətül-Həmd o zaman:

– Sükut qəbul etməkdən irəli gəlir, səssiz durmaq razılıqdandır, − deyə-

rək Bərraya döndü:

– Ya Bərra, sən indi geri dön, Vahabın yanına get. Mən Abdullahı götürüb anası Fatimə ilə sizə gələrik. Qızınız Əminə xatunu da görərik.

Bərra həmən qalxdı. Böyük sevinc içində onlara:

– Sağlıqla qalın, – deyərək evinin yolunu tutdu.

Əri onu görüncə həyəcanla soruşdu:

– Nə xəbər gətirdin, ya Bərra?

Bərra da eyni həyəcanla cavab verdi:

– Ya Vahab, sözünü və arzunu qəbul etdilər. Şeybətül-Həmd, Fatimə xatun və oğlu Abdullah ilə bir az sonra evinə şərəf verəcəklər. Əminəni görmək istəyirlər.

Vahab hələ həyəcan içindəydi. Bərradan yenə soruşdu:

– Nələr söylədin, nə dedin onlara? Onun evində nə sözlər deyildi, nə danışıldı?

Bərra xatun necə qarşılandığını, qızı Əminəni Abdullaha vermək istəklərini, orada olanların hamısının məmnunluğunu, Əbdülmüttəlibin cavabını anlatdı.

Vahab bundan sonra xanımına:

– Tez ol, Bərra, indi qızımız Əminəni hazırla, yeni paltarlarını geysin.

Bərra Əminənin yanına qaçdı. Ona:

– Ya Əminə, mənim gözəl üzlü qızım. Tez geyin, bəzən, – dedi.

Əminə heyrətlə soruşdu:

– Ana, nə olub?

Bərra həmən müjdə verməkdən çəkinmədi:

– Əbdülmüttəlib, Fatimə xatun və oğulları səni Abdullah üçün görməyə gəlirlər.

Əminə bu sözləri eşidib qıpqırmızı qızardı. Anası:

Utanma qızım, Abdullahın anası Fatimə xatun bura gələndə səni görmək istəsə, ona gülər üz göstər. Şirin sözlərini ona de.

Anaların ən bəxtəvər günü qızlarını gəlin gördükləri gündur. Bərra da böyük bir könül sevinci ilə Əminəni geyindirdi, saçlarını daradı, düzəltdi, bəzədi. Sonra Əminənin otağından çıxdı. Elə bu vaxt qonaqlar qapıda göründülər. Hələ uşaqlar uzaqdan qonaqların gəlməsini Vahaba xəbər vermişdilər. Vahab onları qarşılamağa çıxdı:

– Xoş gəldiniz, buyurun, – deyərək Abdullahın iki gözündən öpdü. Sonra önlərinə düşdü. İçəri taxta aldı.

Əbdülmüttəlibin Vahaba verdiyi yəhudi əsir Helyusa və qardaşı Süveydə bir kənarda oturmuşdular. Abdullahın anası ilə birlikdə içəri girdiklərini gördükdə çaşdılar. Axşam qaranlığında dəliqanlının alnının nurundan hər

yerin gündüzə dönməsi isə onları heyrət içində buraxdı. İki yəhudi bir-birinə baxdılar və dedilər:

– Bütün malımız və canımız bu gəncin üzündən yox oldu.

Əbdülmüttəlib də içəri girincə Vahab hər üçünü qonaq otağına apardı. Salamlaşdıqdan sonra oturdular. Hal-əhval tutdular. Söhbət qızışdıqdan az keçmiş Abdullah anası Fatiməyə gözü ilə işarə etdi ki, "Dur,sən get, Əminəni gör ".

Fatimə xatun otaqdan bayıra çıxdı. Bərra da onunla qalxdı. İkisi də Əminənin otağına keçdilər.

Əminə nə qədər cazibədar bir qızdı. Pak, şirindilli, gözəl üzlü, gənc, göyçək surətli, yaxşı tərbiyəli övladdır. Allah-təala onu peyğəmbər anası olmağı layiq görmüşdü. Alın yazısını kimsə poza biməzdi. Bu qisməti kim ondan ala bilərdi? Bu səbəbdən Yaradan gəlinini Fatiməyə o qədər sirin göstərmişdi ki, Abdullahın anası elə indidən gəlininə qarşı içində bir yaxınlıq hiss etdi.

Bəli, əzəldən qismət olsa, iş düzələr. Sevgili nə edərsə, gözə xoş gələr. Yaradan yaraşdırdıqdan sonra nöqsan iş ola bilərmi? İki könlu birləşdirirsə, bütün çətinliklər asanlaşır. Əminənin gözəlliyi, xasiyyəti, əxlaqı, üzü, sözü, oturuşu, duruşu – bir yetkin insandakı hər şey onda təzahür edirdi.

Əminə gəldi, gələcək qaynanasının əlini öpdü. Əhvalını soruşub cavab verincə, sözləri Fatimənin könlünü və canını tutdu.

Bu nə şirin bir söylənişdi. Belə sözlər eşitmək cana qida verirdi. Mehriban, üzügülər, istiqanlı və xoşagələn bir qız idi. Huridimi bu Əminə? Şirin dilindən sanki şəkər tökülürdü. Əminə bənzədilməz idi. Çünki dünyanın axirət şahını da o doğacaqdı. Bu yalnız ona qismət edilmişdi.

Könlünün bir quş kimi pərvaz etdiyini hiss edən Fatimə orada dura bilmədi. Böyük sevinclə tez bayıra çıxdı. Qonaq otağındakı ərinin yanına gəldi. Vahab və adamları bu zaman hazırlıqlar gördüyü üçün bayırda idilər.

– Ya Əbdülmüttəlib, nəhayət, Abdullaha layiq bir gəlin tapdıq. Heç gecikmə. Bəlkə, həsrətli kimsələrin soyuq sözləri araya girər. Bizi bu evdən soyutmağa çalışarlar. Bu gecə bu işi tamamla. Sözünü və qərarını bildir.

Şeybətül-Həmd:

– Gözəliyi və əxlaqı necədir?

Fatimə yenə gülər üzü ilə cavab verdi:

– Ya Seyyid, onun camal və cəlalı, gözəlliyi və əxlaqı, xasiyyəti, üzündəki könül alıcılığı, üzündəki şənlik, sözündəki şirinlik məni valeh etdi. Əminə o qədər gözəldi ki elə bil göydən gəlmiş huri, cənnətdən bir mələkdir.

Əbdülmüttəlibi sevinc dalğası bürüdüyü bir vaxtda Vahab içəri daxil ol-

du. Bərra da qızının yanından ayrılaraq gəldi. Yenə birlikdə oturdular. Vahab:

– Ya Seyyidi- Hərəm, maraqlıdır qızımız, qulunuz könlünüzdə yer aldımı? Konlünüzə yatdımı?

Şeybətül-Həmd:

– Bəli, ya Vahab, – deyə cavab verdi, – qız övladınız Əminə xatunu oğlum Abdullah üçün qəbul edirəm.

Bu sözü eşidən Vahab ayağa qalxaraq:

– Ya Seyyid, mən qızımı Abdullaha verirəm. Mən və xanımım Bərra əhd etmişdik ki, bütün malımız, mal-qaramız, köləmiz, cariyəmiz, pulumuz, mülkümüz, Allahın bizə nə verdiyi varsa, hamısını Abdullaha veririk. İndi və sonra bütün haqqımı Abdullaha bağışlayıram.

Bu sözləri dedikdə qapı ağzında durmuş əsir yəhudilər Helyusa və qardaşı Süveydə də eşitdilər.

Helyusa:

– Gördünmü qardaş, demək gördüyümüz o nur sahibi dəliqanlını bunlar evləndirəcək. Olan bizə olur. O gözlənən peyğəmbər dünyaya gələcək artıq. Bundan sonra bizim dinimiz, kitabımız ortadan qalxacaq.

Başqa iki yəhudi də bunları eşitdi. Başbaşa verərək:

– İndi nə edəcəyik? Nə çarə tapacağıq? Bəli, olan bizə oldu.

Helyusa:

– Bir çarə var, – dedi, – vaxtı da elə indidir.

O biri yəhudi əsirlər:

– O hansı çarədir? – deyə soruşdular.

Məlun Helyusa:

– Biz dörd kişiyik burada, onlar isə üç kişidilər. Divardan daş qoparıb hər birimiz birisini daşla vurub öldürərik. Heç olmasa biz də bir iş görmüş olarıq.

Vahab da işçilərini təsadüfən başqa bir iş dalınca göndərmişdi. Yəhudilər əlləri ilə divardan böyük daşlar sökdülər. Qapıya gəldilər, içəri girib daşları onlara atdılar.

Seybətül-Həmd onlara doğru atılan daşları görüncə həmən yerindən çəkildi. Qapıya baxdı. Bir möcüzə gördü. Yaradanın qüdrətindən daşlar geriyə döndü. Onu atan iki yəhudinin başına dəyib onları yerə sərdi. O biri iki yəhudi daşlarını Abdullaha doğru atdılar. Amma bu daşlar yenə Ulu Tanrının qüdrəti ilə geri dönərək onu atanların başlarını parçaladı. Yəhudilər öz cəzalarnı tapmışdılar, beyinləri dağılmış, canlarını cəhənnəmə təslim etmişdilər. Bərra həmən çıraq gətirdi. Alovun işığında məlun kölələrin üzlərinin qan içərisində olduğunu və cansız olaraq yerə uzandıqlarını gördülər.

Bu Rəsulun möcüzəsi ilə olmuşdu. Bu möcüzə qarşısında Əbdülmüttəlib Vahabla yerə çöküb Ulu Tanrıya səcdə və şükür etdilər. Sonra Əbdülmüttəlib Vahabın əlini öpdü:

– Ey Vahab, sənin üzün bizə xoşbəxtlik gətirdi. Cürbəcür qəzalar bizdən uzaq oldu. Qızın Əminəni halallıqla qəbul edirəm. Oğlumun nigahlı xanımı olacaqdır. Sən verdinmi onu bizə?

Vahab:

– Verdim, ya Əbdülmüttəlib, − deyə cavab verdi.

Qapıdan çıxanda Vahaba:

– Sabah Hərəmi-şərifdə yığışacağıq. Nigahı kəsərik, − dedi.

Sonra Abdullahın əlindən tutdu, Fatimə ilə oradan aralandılar. Qaranlıqda üç kölgə evlərinə doğru xoşbəxt və şad hisslərlə irəliləyirdi.

Ertəsi gün yəhudilərin halı bütün Məkkəyə yayıldı. Adamlar axın-axın Vahabın evinə gəlib ölü yəhudiləri seyr və tamaşa edirdilər. Bu vaxt qadınlar Abdullahın evlənmə xəbərini çox sürətlə Məkkəyə yaydılar. Gənc qızların ümidü birdən puç oldu.

Ulular, Seyyidlər:

– Əbdülmüttəlib Əbdüмənaf oğlu Vahabın qızını oğlu Abdullaha üçün almışdır”, − deyirlər. Çoxları həsəd aparırdılar. Bir gecəlik vüsala can atan zəngin və dul qadınlar dəliyə dönmüşdülər. İstəklərindən məhrum oldular. Məkkənin ən gözəl dəliqanlısının bir saatlıq vüsalına nail olmamaq bəzilərini dəli etdi.

Mürrün qızı zəngin və əxlaqsız Fatimə isə “Bəlkə, toydan qabaq muradıma nail oldum”, düşüncəsi ilə Abdullahı şirnikləndirmək çarələrini düşünürdü.

Bir çoxları bir-birindən soruşurdular:

– Əbdülmüttəlib nədən bu qədər uluların, seyyidlərin sözünü rədd etdi. Nədən Vahabın qızı Əminəni qəbul etdi?

Kimsə buna cavab verə bilmədi. Amma bəziləri də: “Abdullahın alnındakı nur səbəbindən olacaqdır. Bu nur işarə etmişdi ki, Abdullah Vahabın qızını alsın”, − deyirdi.

## *ABDULLAHLA ƏMİNƏYƏ TOY EDİLİR*

Ertəsi gün səhər Şeybətül-Həmd Abdullaha seyyidlər geyimini geydirdi. Oğullarını yanına aldı. Qardaşlarını çağırtdırdı. Nəsli və camaatı ilə Hərəmə gəldi. Vahab da öz qəbiləsi ilə yığışıb Hərəmə gəlmişdilər. Nigah adətini yerinə yetirmək üçün ulular da dəvət olunmuşdular. İki tərəfin bir - birinə veriləcək hədiyyələri söylənildi, uyğun görüldü. Sonra Əbdülmüttəlib Ab-

dullahın ana bir qardaşı Əbu Talibə baxdı:

– Ey oğul, – dedi, – qalx nigah xütbəsini oxu.

Əbu Talib cəld ayağa qalxdı. Sözə başladı:

– Həmd olsun o Yaradana ki, bizi Allahın evinə qonşu etmişdir. Burada yaşayanlardan etmişdir. Bizə hədiyyə etdiyi və verdiyi nemətlərdən başqa üzərimizdə vacib olan şükrü deyirik. Ey Yaradan, bizə çox şeyləri halal etdin. İnsanları bir çox qəbilələrə ayırdın. Bunları bir-birinə yaxınlaşdırdın. Xalqın və nəsillərin artması üçün onlara evlənməyi əmr etdin. Həmd olsun sənə, həmd yalnız sənə məxsusdur, ey Ulu Yaradanım!

Bu sözlərdən sonra nigahı bitirdilər. Məkkə o gündən sonra yeddi gün bu böyük toya şahid oldu. Sonra Abdullahla Əminəni gərdəyə qoydular. O gecə məkkəli gözəllərin könül atəşlərinin yanması onlara bir hicran oldu. Neçə gözəllər, mal sahibləri, zəngin qadınlar və qızlar həsrət oduna yandılar.

– Nədən Abdullah bizi istəmədi? Bu gözəllik, mal, zənginlik, niyə könlünü bizə tərəf çevirmədi, – deyə yanıb-yaxılırdılar.

Olan bu idi, Hz. Əminəyə qismət Hz. Abdullahdı.

Bir zaman Əminə ilə Abdullah gözəl və şirin günlər keçirdilər.

Mürrün qızı bir gün Abdullahı gördü. Alnındakı nur hələ dururdu. Demək nəql edilməmişdi. Ümidə düşdü. Cariyələrinə əmr etdi, mütləq bu gün nə edirsizsə edin, Abdullahı mənə gətirin.

Mürrün qızı əxlaqsız Fatimənin ümidi vardı. Əminə hələ hamilə olmamışdı. Nur da ona nəql edilməmişdi.

## *CƏBRAİLƏ ULU TANRININ ƏMRİ*

Bütün Məkkə qadınları məyusluğa uğrayacaqdı. Çünki hamiləlik vaxtı gəlmişdi. Ulu Yaradan bir gün Cəbrailə bu buyruğu verdi:

– Ey Cəbrail, mələklərinə buyruq ver ki, namaz və niyazlara, zikr və dualarına ara verməsinlər. Onları çox-çox etsinlər. Cənnət qapıçısı rizvana de: “Cənnəti bəzəsin. Bütün hurilər sevinc içərisində olsunlar. O nur ki Adəm peyğəmbərin alnında göründü, ondan sonra nur atadan oğula keçdi. Artıq vaxt yetişdi, vədə gəldi. O nur bu gecə anaya keçəcəkdir. Bu gecə göy və yer üzünün xalqı şadlıq içində olsunlar. O nurun sahibi Həbibim Məhəmməddir. Bu gecə onun ana bətninə düşəcəyi gecədir. Bütün yaratdıqlarım bayram etsin bu gecəni”.

Bu nida Ulu Tanrıdan gəlincə Cəbrail göy üzündəkilərə həmən xəbəri müjdələdi:

– Bu gecə Ulu Yaradanın Həbibi Məhəmmədin hamil gecəsidir. Bütün yer və göy sakinləri şadlıq içərisində olsunlar, − dedi.

Cənnət bəzəndi. Mələklər dərin sevinc içində idilər. Göy üzündə dolaşan yüz minlərcə mələklər qanadlanaraq yer üzünə endilər. Dünyanın bu şad xəbərini yaratdıqlarına nida etdilər. Bütün varlıq və məxluqlara bildirdilər ki, bu gecə nəbilərin və rəsulların sonuncusu, bütün peyğəmbərlərin sərvəri, baş tacı ana bətninə düşəcəkdir.

Bu xəbəri Cəbrayil əleyhissəlam bütün yaradılanlara, göyün üst qatından alt qatına kimi quru, dəniz, səma və yer kürəsindəki heyvanlara, quşlara, canlılara çatdırdı. Hamılıqla eşidib sevindilər. Qədim dünya yeni bir həyat tapdı. Canına təzə bir can gəldi. Bütün kahinlər, ulduz baxıcıları Ulu Tanrının təqdirini geriyə çevirməyə güc tapmadılar. Könülləri qırıldı.

## *Hz. ABDULLAHA HİDA GƏLİR*

O gün Abdullah yenə ova çıxmışdı. Ərəfat dağına doğru yollanmışdı. Təpəyə qalxdı. Sonra aşağı dağın ətəyinə endi. Birdən gözü bir bulağa sataşdı. Bu bulaq haradan peyda oldu? Çaşdı. Çünki bu yoldan neçə dəfə keçmişdi, heç vaxt suya rast gəlməmişdi. Bulaq qayanın altından axırdı, göz yaşı kimi şəffaf suyu vardı. Bu büllur kimi sudan içəcəkdi. Atından endi. Elə bu anda qeybdən bir səs gəldi və bu sözləri eşitdi:

– Ey Abdullah, tez ol, bulağın suyundan iç. Sonra paltarını soyun, suda yuyun və qüsl ver.

Bu işarədən sonra Abdullah suya əyildi. Bulaq suyundan doyunca içdi. Bu necə sudur? Heç dünya sularına bənzəmir. Qardan soyuqdur, baldan, şəkərdən də şirindir. Abdullah paltarını soyundu, bulağın suyuna girdi, yaxşıca yuyundu və qüsl verdi. Sudan yavaş-yavaş çıxdı, paltarını geyindi. Amma Abdullah indi daha böyük çaşqınlıqda idi.

Bulaq, o soyuq, qar kimi su birdən-birə ortadan qeyb olmuşdu. Yenidən qeybdən Abdullahın qulağına səs gəldi. Bu səs ona deyirdi:

– Ey Abdullah, indi də tez evinə dön, xanımına yetiş. Sənə verilmiş əmanəti xanımın Əminə xatuna ötür. Bu gecə hamilə qalmaq gecəsidir.

Qeybdən gələn səs Abdullaha nə əmr edirdi, belə? O bu nida haqda düşünə-düşünə sürətli addımlarla Ərəfat dağının ətəklərindən ayrılıb evinə doğru gəldi. Sevgili xanımı onu böyük sevinclə qapıda qarşıladı. Niyə belə tez gəlmişdi? Ondan:

– Nə var, ya Abdullah, − deyə soruşdu.

Abdullah Əminəyə:

– Ya Əminə, tez yuyun, arın, ətirlən və bəzən. Bu gecə hamilə olmaq

gecəsidir. Məndəki əmanət sahibinə keçəcəkdir.

Onu çox sevən, onun dediyindən qırağa çıxmayan təzə gəlin Əminə bu sözləri eşidən kimi həmən qaçdı. Yuyundu, qüsl verdi, arandı, ətirləndi, geyinib bəzəndi.

İndi Abdullahın yanındaydı. Gecə nurlu bir gecə idi. Ulu Tanrının buyruğu ilə əmanət sahibinə yetişdi.

Ertəsi gün səhər Abdullah ilə Əminə xoşbəxt gecənin səhəri günü bir-birinə baxanda heyrətdə qaldılar. Əminə nələr görürdu belə? Abdullah nələr görürdu? Əminənin alnında bu səhər nur parlayırdı. Deməli, nur ondan Əminəyə nəql edilmişdi.

Sevindi. Əminənin alnından öpüb sevinə-sevinə atasının yanına qaçdı.

– Şad xəbər ata, – dedi, – mənə verilən əmanət sahibinə yetişdi.

Şeybətül-Həmd bu şad xəbərə çox sevindi. Bu vaxt Əminə xatun qeybdən səslər eşitməyə başladı. Daşdan, torpaqdan, yamacdan, ağacdan, qapı və divardan eşitdiyi səslər ona:

– Ya Əminə, - deyirdilər, – sənin üçün böyük səadətdir ki, axırzaman peyğəmbərinə ana olursan.

Əminə içində ən böyük analıq zövqünü duyurdu. Həyətə çıxdı. Uzaqdan qayınatası Əbdülmüttəlibin və sevimli ərinin gəldiyini gördü. Əbdülmüttəlib Əminəni görəndə dayandı. İndi atadan oğula keçən o nur Əminənin alnında parlayırdı. Demək ki, o nur sahibinin doğulması yaxınlaşırdı. Nurinəbi bu nurdur. Sahibindədir.

Şeybətül-Həmd Əminəyə yaxınlaşdı:

– Qızım, sevimli gəlinim, – dedi. Alnında parlayan bu nur mübarək olsun.

Amma gəlinində bir dalğınlıq vardı. Cavab verməyərək susurdu. Nədənsə özündə deyildi. Halında bir dəyişiklik vardı.

– Qızım, – deyə soruşdu, – neyçin belə çaşqınlıq içindəsən? Nə olub?

Əminə qayınatasına:

– Ya Seyyidi-Hərəm, mənə bütün yaradılmışlardan bir səs gəldi. Dünyada səs-küylər hiss edirəm. Səslərlə qulağım, ruhum dəyişir. Qarşımda əşyalar dilə gəlib danışır. Səslərdən anlayıram ki, bir-birilərnə: “Axırzaman peyğəmbəri bu gecə ana bətninə düşdü”, – xəbərini verirlər. Bundan başqa daşlardan, torpaqdan səslər eşidirəm. Cansız məxluqlar belə bu xəbəri verirlər. Bunlara görə özümdə deyiləm. Sanki bir boşluq içərisindəyəm. Bu səbəbdən özümdən xəbərsizəm. Məni bağışlayın.

Şeybətül-Həmd gəlininin sözlərini eşitdikdə onun halından xəbərdar oldu. Ona döndü:

– Ya Əminə, ya Seyyidə. Bu xəbəri və sözləri başqa heç kimə demə. Nə

kişiyə, nə qadına. Bunları hamıdan gizli saxla.

Alimlər axırzaman peyğəmbərinin gəlişini xəbər verir.

Günlər keçirdi, həftələr ötürdü. Hər ay göy üzündə yeni ay görünəndə Əminə yeni səslər eşidirdi. Səslər ona deyirdilər ki:

– Ey Əminə, bu qədər gün keçdi. Mübarək doğuşuna bu qədər ay və gün qalıb.

Səslər dünyanı dalğa-dalğa dolaşarkən şeytanın nəsli qaçışırdı. Mələklər bütlərin içinə girirdilər. Xalqa da bu xəbəri yetirirdilər:

– Bu sifətdə və bu nişanda ərəb nəslindən bir kişi doğulacaqdır. O axırzaman peyğəmbəridir.

Belə xəbər tez yayılırdı. Kahinlər, münəccimlər, təqvim hesablayanlar, miladi tarixinin 570 ilinin taleyinə baxanlar ulduzlardan, ayın, günəşin bir araya gəlib uzaqlaşmasından bir dəvət sahibinin, dövlət sahibinin doğulacağı xəbərini almışdılar. Bu xəbər bütün dünyaya yayıldı.

## *KAHİN SATİHİN QEYBDƏN XƏBƏRİ*

Alimlərdən ikisi o vaxt Yəməndə yaşayırdı. İkisinin də adı bütün Ərəbistanın dilindəydi. Yeddi iqlimdə adları bilinirdi. Amma bu iki alimin bədənləri nöqsanlı idi. Yaradan belə yaratmışdı. İkisi də ağıllı və hər şeyi bilən insandı. Xalqın könlündən keçəni belə bilirdilər. Yəmənə yaxın məlikin, sultanın müşkül işi olardısa, ona elçi göndərər, çətinlikləri anladar və ondan yardım istəyərdilər. Bu iki kahin nə soruşsaydı, birinin verdiyi cavab o birinin fikirləri ilə eyni olardı. Bunlardan birisinin adı Hamdan oğlu Rəbiə oğlu Satih idi. O birinin adı Yəmani oğlu Vicdan oğlu Şıkkdı.

Satihi Ulu Tanrı çox əcaib yaratmışdı. İki əli, iki ayağı da yoxdu. Başı ilə boynu, belinə kimi bədəni vardı, belindən aşağı qismi yox idi. Bədənində elə bil ki, sümükdən əsər yoxdur. Belə bir yuvarlaq haldaydı. Gözləri görür, qulaqları eşidirdi. Dili gözəl, qafiyəli sözlər deyər, seirlər oxuyardı. Yemək yeyərdi, amma yeməklər belə bədənə lazım olan qədərdi. Gündüzləri bir yastıq üzərinə qoyardılar, gecələri bir dağarcıq kimi yüksək yerdən asardılar.

Satihi dağarcıq kimi asdıqları yerin dörd tərəfi açıq idi. Buradan bütün göy üzünə baxar, araşdırardı, ulduzların hərəkətini görərdi. Ulduzlar elmində misilsiz idi. Satihdən daha çox bilən, o diyarda ona tay olan heç bir kimsə yox idi. Hər dəqiqə göy üzündə yeni-yeni əlamətlər görər, o əlamətlərdən dünyada nələr olacağını məliklərə xəbər verərdi. Son zamanlar Rəsulun halından və ümmətindən də xəbər verməyə başlamışdı.

Hz. Məhəmmədin ana bətninə düşdüyü gecə, Satih yenə böyük divarın

üst tərəfindən asılmışdı. Birdən-birə göy üzündə Məkkə tərəfdən bir aydınlıq selinin parladığını gördü. Bu işıq sanki şimşək çaxmasına bənzəyirdi. Bu aydınlıq ulduz kimi dünyaya dağılmış, sonra göy üzündən yer üzünə saçılmışdı. Sonra yerdən qapqara bir tüstü sütunu yüksəldi.

Bunları görən Satih ertəsi gün səhər belə dedi:

– Bu gecə gördüyüm bu əlamət və nişanlar, xəbər verir ki, bir dövlət sahibi, bir dəvət sahibi dünyaya gəlməkdədir. Cahanda yaxında yeni bir din, yeni şəriət aşkar olacaqdır.

Satih sonra yanındakılara bu əmri verdi:

– Məni məmləkətin ən yüksək dağının təpəsinə çıxarın.

Həmən dediyini etdilər. Satihi dağa çıxartdılar. Buradan göyün üzü, səma tam görünürdü. Hər tərəf ovuc içi kimi açıq idi. Satih burada yeddi gün, yeddi gecə qaldı. Göy üzünü müşahidə etdi. Kitablarda oxuduğu Nübüvvət (Nəbilik) ulduzunu aradı. Nübüvvət ulduzu göy üzərində par-par parlayırdı. Bir ulduz ki yer üzərinə göndərilən hər Haqq peyğəmbəri ana bətninə düşdükdə göy üzündə görünərdi.

Yəmən uluları bir həftə sonra Satihin yanına gəldilər:

– Nə xəbər var, nələr gördün? Artıq neçə gündür ki, yüksək dağın başında qalmısan. Bunun səbəbi nədir? Nə əlamətlər gördün, hansı nişanələrlə rastlaşdın? Sənə nə məlum oldu? Bunları bizə də bildir.

Satih cavab verdi:

– Ey nəslim, əgər sizə Tihamənin hekayəsini, Yəmamənin şikayətini xəbər versəm, aləmdə nə qopardı, görərdiniz.

Oradakılar:

– Söylə, eşidək, – dedilər.

Satih sözlərinə davam etdi:

– Tihamədən Yəmaməyə qədər düşən şeyin yaxın zamanda meydana çıxacağını sanıram.

Qövmü:

– Tihamə nədir? – deyə soruşdular.

Satih cavab verdi:

– Tihamə və Yəmamə ərəb xalqlarının yaşadığı yerlərdir. İraq, İraqeyn kimi, Şam və Fələstin kimi bölgələrdir. Yəsrib, Taif qədimdən bəri var olan şəhər adlarıdır. Kitablarda bu adlar yazılmışdır. O Rəsul ulduzu Tihamənin göyündə göründü, nişanlarını göstərdi, əlamətlərini gördüm.

Sonra Satih davam etdi:

– Ey nəslim,bilin ki, yaxında o Rəsul cahana gələndə siz əslinizi tərk etmək qarşısında qalacaqsınız. Burada artıq rahatlıq görməyəcəksiniz. Ən yaxşısı da Şam tərəfə köçməyiniz yaxşı olar.

Oradakılar heyrətlə bir-birinə baxdılar və Satihdən soruşdular:

– Bu necə olacaq?

Satih cavab vermədi. Vicdan oğlu Şıkka bir məktub yazdı. Gördükləri əlamətləri ona bildirdi.

Şıkk adlı bu alim də əcaib yaradılmışdı. Yuxarıdan aşağıya yarımadam idi. Başının yarısı vardı. Gözlərinin, burnunun bir dəliyi, boynunun, üzünün, ağzının, döşünün yarısı yox idi. İki ayaq yerinə bir ayağı vardı. Amma alim qeybdən xəbərverici, olanların bilicisiydi. Şərqdən Qərbə kimi onun kimi birisi yox idi.

Məktub Şıkka çatdı, onu oxudu. Orada yazılanlarla dünyaya yeni bir Rəsul gələcəyi xəbərini aldı. Satihə cavab yazdı. Gələnlərə: “Mən də gördüm. Mən də onun fikrindəyəm, onun narahatlığındayam” .

Satih ayrıca Yəmamə kahinəsi Zerkaya da bir məktub yazmışdı.

## *KAHİNƏ ZERKANIN HEKAYƏSİ*

Zerkanın hekayəsini daha əvvəl danışmışdıq. Abdullahın Yəmən səyahətində onu necə şirnikləndirməyə çalışdığını, min qızıl verərək dəliqanlıların ən ağıllısını, ən namuslusunu yoldan çıxarmaq istəyini və buna rədd cavabı aldığını söyləmişdik.

Zerka kimdir? O, Ərəbistanın Yəmamə ölkəsində yaşayan elə bir kahin qadın idi ki, sehr bilicisi kimi ona tay olan kahin yoxdur. Ən birinci bacarıqlarından biri üç günlük yoldan gələnləri və gedənləri oturduğu yerdən gizli bir qüvvə ilə görür, tanıyır, soruşanlara xəbər verirdi. Gələnlər və gedənlər kişidir, yoxsa qadındır? Bunu bilir, söyləyirdi. Şərqdən Qərbə kimi onda olan bu hünər heç kimdə yox idi. Gələnlərin boyu necədir? Uzundur, qısadır, ortadır bilirdi. İgiddir, gəncdir, yaşlımıdır? Qara üzlümü, ya sarışınmı? Hamısını görürdü. Gəlib çatanda Zerkanın xəbər verdiyi kimi olardı. Zerkaya aid olan bu hadisə də o zamanlar dillərdə dastan olmuşdu. Bir gün Yəmamə camaatı Qəssan qəbiləsindən bir adam öldürmüşdü. (Yəmamə Ərəbistan yarımadasının orta çöllərində yerləşir). Qəssanlılar adamlarından birinin öldürülməsinə görə dörd min kişi toplayıb Yəmaməni alt-üst etmək qərarını vermişdilər. Amma aralarında bir ağıllı kişi vardı. Önlərinə keçdi və dedi:

– Ey qəssanlılar, Yəmaməyə doğru hərəkət etdik. Çox yaxşı bir iş etdiyinizi hesab edirəm. Amma düşünün ki, Yəmamədə əsrarəngiz bir kahinə yaşayır, üç günlük yolda gələnləri görür. Sizi görüb qəbiləsinə xəbər verəcəkdir. Onlar da sizə qarşı hazır olacaqlar. O zaman sizin işiniz necə ola-

caqdır?

Qəssanlılar fikir dəryasına qərq oldılar:

– Yaxşı nə edək? Necə edək, nə tədbir qılaq?

Ağıllı adam:

– Mənim bir fikrim var, − dedi, − bəlkə, bu düşündüyüm yaxşı olar.

Qəssanlılar:

– Nədir o fikrin? Söylə eşidək, ona görə də hərəkət edək.

O adam dedi:

– Siz dörd min kişisiz. İçinizdən min kişi dağlara qalxsın. Hərəsi bir ağac kəsib gətirsin. Budaqları və yarpaqları üştündə olsun. Atlılar ata minməsinlər. Onları yedəklərə götürsünlər. Hər kəs ağacların gövdəsi altına girsin. Belə yol getsinlər. Zerka üç günlük məsafədə ağacların hərəkətini görüb qəbiləsinə deyəcək. Amma bu sözlərə yəqin ki, heç kim inanmayacaq. Zerkanı lağ etməyə başlayacaqlar. Onların hazırlığı gecikəcəkdir.

Dörd min qəssanlı bu fikri çox yaxşı qarşıladılar. İçərilərindən min kişi dağa ağac kəsməyə yollandı. Kəsilən ağacları yarpaqlı-yarpaqlı gətirdilər.

Az sonra dörd min kişi ağacların altında, atları da yedəkdə hərəkətə başladılar. O ağıllı kişi bir dəvə balasını əlinə aldı. Ona bir kiçicik nal mıxlayırdı, sonra təkrar nalı sökürdü.

Kahin Zerka Yəmamədə məbədin içində idi. Bir bucağa çəkilmişdi. Gözləri üfüqə uç günlük yola baxırdı. Birdən Şam şəhərinin sərhədlərinə tərəf baxdı. Bu nədir belə? Bu ağaclar nədir? Baxdı meşə ağacları addım-addım gəlirdi. Bir daha diqqətini artırdı. Hər ağacın altında yedəkdə atlar vardı. Bir atlı da əlində tutduğu dəvəsini nallayırdı.

Zerka bunları görüncə həmən qövmünü dəvət etdi:

– Ey yəmaməlilər, üç günlük məsafədən gələnləri görürəm. Meşə boyunca budaqlı, yarpaqlı ağaclarla irəliləyənlər var. Atlarına minməmişlər, yedəkdə aparırlar. Hələ bir atlı dəvəsini əlinə almış, ona nal vurur.

Camaat Zerkanın bu sözlərini eşitdikdə onun dəli olduğunu zənn etdi. Gülüşdülər, qəhqəhə çəkdilər. “Ola bilməz”, − dedilər. Gələnlər necə olur ki, bir meşə ağacının yarpaqlarının altında gəlirlər? Bu ağıla sığmayan bir görüntüdür? Ya bir kişi dəvənin dabanını necə nallayır. Yenə çıxarır, yenə nallayır. Əlbəttə, kahinə Zerka kədərləndi. Söylədiyini bilmədi.

Amma çox əvvəl işlədilmiş bu savaş hiyləsi doğru çıxdı. Qəssanlılar gizlicə kəsilmiş ağacların altında irəliləyərək üç gun içində Yəmamədə oldular. Bütün ölkəni talan edib adamlarını əsir etdilər. Zerka oturduğu məbəddə qaldı. Oradan bayıra çıxmadı. Camaata daha üz vermədi. Onlarla birlikdə oturmadı. Qəssanlı bir ağıllı kişi məmləkətinə bir zəfər qazandırmış oldu. Əslində elədir, artıq qürur hər zaman insanları fəlakətə gətirir.

Zerka qəbiləsindən küskün halda yaşayırdı. Olub keçənləri xəyalında canlandırırdı. Yəmən səyahətində də Abdullahın ona qarşı soyuqqanlılığı, daha sonra rədd etməsi onu iztiraba salmışdı. Zerka tək başına oturub dalğın və kədərli bir halda günlərini keçirirdi. O, alim Satihdən gələn məktubu aldı. Məktubu Sabih adlı birisi gətirmişdi. Kahinə yazılanları oxudu. O da cavab yazdı, dedi:

"Ya Satih, düşündüklərin və zənlərin düzdür, yerindədir. Bu yaxın günlərdə Məhəmməd Mustafa, istər Haşimi olsun, istər Tihami olsun, istər qureyşli olsun, artıq ana bətninə düşmüşdür. Bu cavabım sənə yetəndən sonra Məkkəyə gəl. Mən də ora gedəcəyəm. Orada görüşərik. Bəlkə, bərabər bir iş edərik. O uşağı anasının qarnında ikən anası ilə birlikdə öldürərik. Əgər əlimizdən gəlməsə, onda başımıza bir çarə axtararıq".

Sabih bu cavabı alan kimi Satihin yanına yollandı. Məktubu Satih oxuyan kimi səfərə hazırlaşdı. Qəbiləsinə isə buyurdu:

– Ey mənim qövmüm, mən Məkkə şəhərinə gedirəm. Əgər sizə ana bətninə düşdüyünü və yaxın vaxtda dünyaya gələcəyini xəbər verdiyim axırzaman peyğəmbəri zamana hakim olursa, mən Şam ölkəsinə gedəcəyəm. Bundan sonra kahinlərin, sehrçilərin və ulduza baxanların dövrü, zamanı qalmamışdır. Hamısının məhv olma vaxtının yaxınlaşdığını görürəm. Mən çox yaxşı bilirəm ki, o peyğəmbərin dini, şəriəti başqaları ilə eyni deyil. Dəvəti də başqa cür olacaqdır. Dini qılıncla Şərqdən Qərbə kimi hər yeri tutacaqdır.

Satih uzun bir yolçuluqdan sonra Məkkəyə çatdı. Bu günlərdə Əbdülmüttəlib bir karvan hazırlayıb ticarət üçün Şama getmişdi. Amma Haşimilərin bir çoxu Məkkədə idi. Qureyş ululları Satihin gəlməsinin xəbərini alınca onu böyük hörmətlə qarşılayıb şəhərə gətirdilər. Baş tərəfdə oturtdular.

– Ey Satih, nə baş verdi ki, Məkkəyə gəldiniz? Arzunuz, diləyiniz nədir? Bizə söyləyin, kömək edək, – deyə sorğu-sual etdilər.

Satih cavab verdi:

– Sizə ehtiyacım olan bir şeydən ötrü gəlməmişəm. Sizin görəcəyiniz arzum yoxdur. Amma mənə bir işarət gəldi və əlamət göstərildi. Bu il içində Məkkə şəhərində Haşimoğullarından bir oğlan uşağı dünyaya gələcəkdir. O, dünyaya hakim olacaqdır.

Qureyşlilər heyrətlə Satihin üzünə baxaraq soruşdular:

– Necə yəni dünyaya hakim olacaqdır?

Satih sözünə belə davam etdi:

– Qardaşlar, sizə atalarımızdan qalan bu adətlər batil olacaqdır. Bütlər, şanlı büt məbədləri odlarda yanacaqdır. Bu dağ-daş al qana boyanacaqdır. Çünki bu uşaq dünyaya gəldiyi zaman qılınc vuran və qan tökən olacaqdır.

Əzizlər onun yanında hörmətsiz və zəlil olacaqdır. Bütə ibadət edən qadınlarınız əsir həyatı yaşayacaqdır. Onun yeni şəriəti və məzhəbi olacaq, yeni adla bir millət meydana gələcəkdir. Ona göydən vəhylər gələcəkdir. Cəbraillə danışacaq, böyük möcüzələr göstərəcəkdir.

Bu sözləri eşidən Məkkə ulularından Üməyyəoğulları, Əbdümənafoğulları, Əbdüşşəmsoğullarından Rəbiyə oğlu Ütbə, Vali oğlu As, Əbu Cəhlin atası Hənzələ oğlu Hişam və onlarla birlikdə bir çox hörmətlilər birdən-birə ürkdülər. Eşitdikləri söhbətlər heç də onların xoşuna gəlmədi. Bu vaxt Əbu Talib və qardaşları otağa girdilər. ƏbuTalib salam verib Satihin qarşısında oturdu.

Satih ona diqqətlə baxdı:

– Nə xoşbəxt üzlü insansan. Nə şirin sözlüsən. Hansı qəbilədənsən? Kimin oğullarındansan? Söylə eşidim, −dedi.

Əbu Talib:

– Haşimoğullarındanam. Atam Əbdülmüttəlibdir, − deyə cavab verdi.

Əbdülmüttəlib indi haradadır?

Əbu Talib:

– Atam səfərdədir. Şama ticarət üçün getdi. Burada yoxdur.

– Sənin adın nədir?

– Adım Əbdümənafdır, Əbu Talib - deyə çağırırlar.

– Sənin Abdullah adlı qardaşın varmı?

– Bəli, var. İndi harada olsa gələcəkdir.

Bu danışıq bitirdi ki, Abdullah içəri daxil oldu. Satih Abdullahın da üzünə baxdı. Sonra:

– İkiniz də mənə yaxınlaşın, əlinizi üzümə qoyun, - dedi.

Əbu Taliblə Abdullah yaxınlaşdılar, əllərini birlikdə Satihin üzünə qoydular. Satih göy üzündən ilham almış kimi onlara belə dedi:

– Həqiqət bəlli oldu. Sizdən iki sultan dünyaya gələcəkdir. Birisi hakim olacaqdır, birisi isə onun hökmünü icra edəcəkdir. Birisi şəriət sabibi, dini bildirən olacaq, o biri isə dindən qaçanları öldürəcəkdir. Birindən nəbilik, o birindən mərdlik və həqiqi insana xas olan sifətlər doğacaqdır. Bir-birinin sözünə ömürlük sadiq olacaqlar. Bunlar bəxtli olacaqlar, bunları sevənlər də bəxtli olacaqdır. Sözümün əsası budur, sizdən cahana iki oğul gələcəkdir. Biri Nəbi, biri Vəli. Biri dünyaya hökm qılan, o birisi siyrilmiş qılıncı tutan olacaq. Birisi əmr verəcək, o biri əmri yerinə yetirməyənlərin boynunu vuracaqdır.

Satih bu sözlərlə Abdullahdan Həzrəti Məhəmmədin (s.ə.s), Əbu Talibdən Hz. Əlinin dünyaya gələcəyini xəbər verdi. Sözlərini isə belə bitirdi:

– Ey Haşimoğulları, dövlət tacı artıq sizin başınıza qoyulmaqdadır. Bu

cür tac cahanda heç kimsəyə qismət olmayacaqdır.

Bu zaman Əbu Talib Satihə:

– Ey Satih, o səadət sahibi uşağın əlamətlərindən bizə xəbər ver. Onun görəcəyindən, xidmətlərindən danış.

Satih özü bildiklərindən, Tövrat və İncildə gördüyü nişan və əlamətlərdən danışdı. Bundan sönra Əbu Talib göstəriş verdi:

– Satihi bizim evə götürün.

Az sonra Satih Əbdülmüttəliboğullarının evində idi. O gün və o gecə axırzaman peyğəmbəri haqqında Satihdən çox xəbər aldılar. Amma Qureyşin başqa ailələri o gecə heç də rahat yuxuya gedə bilmədilər.

Satih nələr deyirdi? Haşimoğulları cahanda kimsənin layiq olmadığı bir hörmətə yüksələcəklərmi?

O gecə Əbu Cəhlin atası Hişam narahatlıq içindəydi. Ürəyi fitnə qazanı kimi qaynayırdı. Ertəsi gün səhər tezdən qaça-qaça Hərəmə gəldi. Məkkə ulularına xəbər göndərib çağırtdırdı:

– Ey qövmüm, mən artıq bu şəhərdə qala bilmərəm. Bu mülklərim mənə zindandır. Səfər edəcəyəm, ailəmi, yaxınlarımı, oğlumu, qızımı götürüb buradan Əcəm ölkəsinə gedəcəyəm. Hərəm əhli ilə artıq oturan deyiləm, bura mənə haram oldu.

Hər kəs çaşıb qalmışdı. Hənzələ oğlu Hişam nələr deyirdi, niyə birdən belə bir qərar verdi?

– Ya Seyyid, niyə belə deyirsən? Səni doğulub böyüdüyün bu şəhərdən kim soyutdu ki, getmək istəyirsən? Öz millətinin və qəbilənin arasından çıxmaq istəyirsən?

Hişam narahatlığını belə izah etdi:

– Çünki Haşimoğullarından bir peyğəmbər gələcəkdir. O peyğəmbər ki bizim sevgili bütlərimiz Lat, Mənat və Üzzanı ortadan qaldıracaqdır. Atalarımızın dinini batil edəcəkdir. Görüləcək ən yaxşı hərəkət bu hörmətsizlikləri görmədən və zillətə düşmədən bu məmləkəti tərk etməkdir.

Məkkə ululari:

– Ey Hişam, sən Məxzumoğullarının ulususan. Sənin aramızdan çıxıb getməyin rəva deyildir. Səni buraxmarıq. Xatirin nə istəyirsə, bizə söylə, biz də onu edək.

Sonralar Əbu Cəhlin axırzaman Peyğəmbəri Məhəmməd Mustafaya qarşı düşmənçiliyinin ilk toxumlarının atası Hişam tərəfindən səpildiyini rəvayət edirdilər. Məkkədə ikitirəlik toxumunu da o əkmişdi.

Əbu Talib bunlardan xəbər tutan kimi gəldi. Bütün qardaşları və əmisi oğlanlarını silahlandırdı, zirehli paltarlarını geyinməyi tapşırdı. Böyük izdihamla Bətha vadisinə gəldilər. Onları görən camaat arxalarına düşdü. Onlar

iki yerə bölünmüşdü. Bir qismi Məxzumoğullarını, bir çox qismi də Haşimoğullarının tərəfini tutmuşdular.

Əbu Talib Əbu Cəhlin atasını görən kimi bağırdı:

– Ey Qureyş alçağı, dünyaya bir axırzaman peyğəmbərinin gələcəyi haqqında deyilən sözlər yenidirmi? İndimi söylənildi? Adəm dövründən ta bu günə kimi o Rəsulun nuru atadan oğula nəql edilərək miras qalmışdır. O nurun son sahibinin axırzaman peyğəmbəri olacağı bütün mübarək kitablarda yazılmış deyilmi? Yəhudilərin din uluları, İsa dininin uluları o Rəsulun surətini yazmamışdılarmı? Alim, bilici Satih belə onun gələcəyini Tövratda və İncildə yazılı olduğunu demədimi, indi xalqa xəbər vermədimi? Sən nə bəlaya çağırırsan? O yana, bu yana çapalayıb durursan? Ay alçaq! Sən böyük babamız Qusaydan, onun atası Leviyydən, onun atası Kilabdan, ta ən böyük ata-babalarımızdan ulumu oldun? Bu cür sözləri deməyə sən nə cəsarət etdin? Millətimiz və qəbiləmiz arasında nə fitnə salırsan?

Hişam çaşmışdı.Əbu Talibə:

– O halda bu kahinlər nə üçün indiyə kimi kasıblar və dövlətlilər arasında indi verdikləri xəbərləri vermirdilər?

Əbu Talib cavab verdi:

– Səbəbi budur ki, o nur sahibinə yetişdi. Nur sahibinin doğum günü yaxınlaşdı. Nur sahibi yaxın günlərin birində dünyanı şərəfləndirəcək. Bütün dünya bildi ki, o Nur Abdullahın alnından oğlu Məhəmmədin alnına keçəcəkdir. O nur sahibi Abdullah oğlu Məhəmməd olacaqdır. Yəhudi hahambaşıları (yəni rahibləri), ravvinləri, bilgili rahiblər, kahinlər, ulduza baxanlar, alimlər o dəvət sahibinin doğulacağını hər tərəfdə xəbər verməkdədirlər.

Əbu Talib yanındakılara:

– Gedin, Satihi gətirin. Camaatın arasında söylədiklərini bir daha təkrarlasın.

Satihi qureyşlilərin önünə gətirdilər. Əbu Talib ondan soruşdu:

– Ey hakim, dünyaya gələcək olan o böyük nəbinin və sevgili rəsulun anadan olacağı bu il baş verəcəkmi?

Satih cavab verdi:

– Bəli, o peyğəmbər bu il içərisində doğulacaqdır. Hər kim bu sözə inanmırsa, Əbdülmüttəliboğullarının xatunlarını görsəydim, bunlardan kimin o peyğəmbərə hamilə olduğunu sizə də xəbər verərdim.

Əbu Talib:

– Haşimoğullarının qadınları bura gəlsin, – tapşırığını verdi. Bütün qadınlar, gəlinlər bir-bir Satihin hüzuruna gətirildi. Alim hər birinin üzünə baxıb:

– Bu deyil, bu deyil, − dedi. O rəsulun anası bunların arasında deyildi. Həqiqətən də, Abdullahın sevimli xanımı ilk gələnlər arasında yox idi. Az sonra ən arxadan Əminə də gəldi.

Satih uzaqdan gənc qadını görər-görməz ürkdü, soruşdu:

– Bu qarşıdan gələn nə əsilli qadına bənzəyir. Kimin xatunudur bu? Hansı əsildəndir? Adı nədir?

– Adı Əminədir, − dedilər, − Vahabın qızıdır.

– Əminəyə söyləyin, mənə yaxınlaşsın. Əlini üzümə qoysun. Onda sizə hikmətlərdən xəbər verərəm.

Əminə xatundan xahiş etdilər ki, irəli keçsin, mübarək əlini hakim Satihin üzünə qoysun. Satih özündən getmişdi. Səssiz qalmış, sanki ağlını itirmişdi.

Ətrafdakılar həyəcanlandılar, əl-ayağa düşdülər. Amma sonra ixtiyar alim yavaş-yavaş özünə gəlməyə başladı. Gözlərini açdı. Dərindən bir ah çəkərək:

– Sizə xəbər verirəm, bu xatun axırzaman peyğəmbərinə hamilədir.

Satih sonra Əminə xatuna döndü:

– Qızım, üzünü aç, − dedi.

Abdullahın sevimli xanımı üzünü açdı. Mübarək qarnındakı uşağa keçəcək Rəsul nuru onun alnında cilvələnirdi. Orada olanların birdən-birə gözləri qamaşdı.

Satih onlara döndü:

– Ey insanlar, hansı hamilə qadının üzü belə nur içindədir? Bilməlisiz ki, o axırzaman peyğəmbəri Abdullah oğlu Məhəmmədin nurudur.

Bu söz bəzi qureyşlilərin beynində şimşək kimi çaxdı. Əbu Cəhlin atası Hişam yerində otura bilmədi. Yaxasını cıraraq fəryada başladı:

– Ey Məkkə xalqı, Satihi də, sonra Vahabı da, qızı Əminəni də öldürün. Bununla qabaqda başımıza gələn bütün bəlalardan qurtulmuş olarıq.

Bu fitnədən sonra Qureyşin Məxzumoğulları və Üməyyəoğullarından bir qismi hərəkətə keçdi. Əminə xatunu öldürmək, qarnını yarmaq, Satihi öldürmək istədilər.

Sonralar Əminə xatun bu hadisəni xatırlarkən belə deyirdi:

– Məni öldürmək istəyənlər ayağa qalxanda, qarnımdakı uşaq tərpəndi, elə bil ki, qımıldandı. Havadan bir nida gəldi. Sanki hamının gözünə bir heybət göründü. Bütün Qureyş üzüaşağı düşdü, hamının ağlı getmişdi.

Hz. Əminənin danışdığı kimi sui-qəsd yarıda qalmışdı. Haşimoğulları xilas olmuş, nə ağılları başından getmış, nə də yerə yıxılmışdılar.

Satih bu halı görüncə:

– Ya Əbu Talib, bu bir möcüzədir, Rəsulun bərəkətindəndir. Mən sizə

Rəsulun düşmənlərinin öz tayfasından olacağını söyləməmişdimmi? Düşmənləri Rəsula ana bətnində olduğu vaxtdan ona əziyyət verməyə başladılar.

Əbu Talib:

– Satihi təkrar evə götürün, – əmrini verdi.

Satihi evə göturdulər. Qureyşli düşmənlər isə hələ də yerdə uzanmışdılar. Çox vaxt keçdikdən sonra ağılları başlarına gələndə çaşqın halda bir-birinə baxırdılar.

– Nə oldu, bu nə haldır? Bizə nə olmuşdu? – deyə biri-birindən soruşurdular.

Cavab verə bilmirdilər, içərilərindən bunu anlayan bəziləri dedi:

– O nur sahibinə qəsd etmək istəsək, min bir bəlaya uğrayacağımıza göndərilən ilk xəbərdir. Biz Əminə xatuna qəsd edəcəydik, ona görə də bu hala düşdük.

Bu xəbər şəhərə yayıldı. Yerdə yatanların ailə üzvləri gəlib onları evlərinə götürdülər. Əbu Cəhlin atası Hişam, Haşimoğulları ilə görüşdu. Satihin yerinə göndərilməsini qərarlaşdırdılar. Satih:

– Mən vətənimə dönməyəcəm, Şam vilayətinə gedəcəyəm.

Satihi yola saldılar.

## *MÜRRÜN QIZI FATİMƏNİN NARAHATLIĞI*

Bütün bunlar Abdullaha aşiq olan Mürr qızı Fatimənin qulağına çatmışdı. Abdullahla çoxdan bəri maraqlanırdı. Dəliqanlıya aşiq olan yüzlərlə məkkəli qız kimi sevgi atəşi hələ də onun ürəyini yandırırdı. Bu atəş qüvvətlənib böyük yanğın halına gəlib çatmışdı.

Həbəşi Məryəm birdən-birə gənc xanımının yanına girdi:

– Gəlir, – dedi.

– Kim?

– Abdullah, həm də evimizin qabağından keçəcək.

Fatiməni təlaş, həyəcan bürüdü. Görəsən, Abdullah, nəhayət, onun bir saatlıq yaxını olacaqmı? Fikrini dəyişibmi?

Bu həyəcan içində pəncərə yanına keçdi. Qızlara:

– Ən gözəl bir dəf havası çalın. Ən qıvraq, ən gözəl, ən sevdalı, məhəbbət dolu mahnılarınızı oxuyun! – dedi.

Cariyə qızlarin şən mahnıları Fatimənin evinin pəncərəsindən küçəyə doldu.

Abdullah birdən başını qaldırdı. Bu səslər haradan gəlirdi? Fatimə ona

baxdı. Heyrətdə idi. Abdullah artıq məkkəli dəliqanlılardan fərqlənmirdi. Alnındakı o nura nə olmuşdu? Halbuki Mürrün qızı Fatimçə, öllərin bu atəşli qızı Abdullahı alnındakı o nurdan ona nəsib olması üçün istəyirdi. Birdən-birə içindəki sevgi atəşinin söndüyünü hiss etdi. Cariyələrə:

– Məryəm, qızlara söylə, mahnı və dəf səslərini kəssinlər! –deyə qışqırdı.

Fatimə ağlamağa başladı. Demək ki, Zöhrəoğullarından Vahabın qızı Əminənin o mübarək nura qovuşduğu doğru imiş. Fatimənin gözü artıq Abdullahı görmək istəmirdi. Onun nurlu halına vurulmuş bu qız vüsalı üçün sevgi ilə dolu çox həyəcanlı günlər keçirmişdi. Bəzi rəvayətlərə görə, Abdullaha vurulmuş iki yüzə yaxın qız canına qıymışdı.

Bəs kahinə Zerka nə edəcəkdi? Abdullah və Əminəyə qarşı qəlbində nə duyğular daşıyırdı.

## *KAHİNƏ ZERKA MƏKKƏYƏ GƏLİR*

Bilici alim Satihin Şama getməsindən təzə xəbər gəlmişdi ki, Yəmaməli kahinə Zerka, kitabların (Caduyu Afaq, Zerkai napak) dedikləri sehrbaz, kahinə qadın bir sabah Məkkə ətrafında göründü. Məkkənin hörmətliləri onu qarşılamağa çıxdılar. Qarşılayıb şəhərə gətirdilər.

Əmir oğlu Həccaç adında bir qureyşli ondan soruşdu:

– Ey məlikə, sizi Məkkə şəhərinə gətirən səbəb nədir? Vacib bir işiniz, arzunuzmu var?

Zerka cavab verdi:

– Ey Hərəm əhli, ey Məkkə seyyidləri, mənim malım və mülküm çoxdur. Heç kimsədən bir şeyə ehtiyacım yoxdur. Mən sizin işiniz üçün Məkkəyə gəlmişəm. Çünki siz yatırsınız, sizləri oyatmaq istəyirəm. Heç bir şeydən xəbəriniz yoxdur. Xəbərdar etmək istəyirəm. Halınızı necə olacaq bildirmək istəyirəm.

Məkkəlilər:

– Ey məlikə, söylə, eşidək, de, bilək, göstər, görək, – dedilər.

Zerka:

– Ey Qureyşoğulları, məmləkətinizdə əcaib bir hal meydana gələcəkdir. Dininiz batil, bütləriniz sındırılacaqdır. Seyyidlərinizin hökmü qalmayacaq, ulularınız və əzizləriniz hörmətsiz, zəlil olacaqlar.

Qureyşlilər:

– Bunu kim edəcək? Bu kimdir və hansı bölgədən çıxacaqdır?

Zerka yenə cavab verdi:

– Bunu bütün göydən nazil olmuş, endirilmiş kitablar yazdı. Gələcəyi

görən alimlər bildirdilər. Kahinlər, ulduzları yozanlar deyirlər ki, bu ilin içərisində Məkkə şəhərində o səadət sahibi dünyaya gələcəkdir. Ey Qureyş-oğulları, yaxşı bilirsiniz ki, Adəm dövrundən bu günə kimi bu varlığı gözü ilə görən olmadı. Bu dünyanın xəlq edilməsində, yerin və göyün yaradılmasında məqsəd onun arzu və istəyi şərəfidir. Onun kimi bir dövlət sahibi, səadət sahibi, nə insanlar xaricində əvvəldən həyata gəlmişdi, nə də ondan sonra gələcəkdir. Onun zərif gözəlliyi, xasiyyəti, əxlaqı mülayim, təmiz və safdır. Xalqı haqq yoluna çağıracaqdır. Onun hökmü və qılıncı şərqdən qərbə kimi hakim olacaqdır. Tanrı ona vəhy bəxşiş edəcəkdir. Kitab göndərəcəkdir. Ona verilmiş hədiyyədən indiyə kimi heç kimə verilməmiş, heç kimə də verilməyəcəkdir.

Qureyşlilər bu sözlərdən çaşqın bir hala düşmüşdülər ki, Abdullah içəri girdi. Zerka onu görüncə tanıdı. İrəliyə keçdi:

– Ey Seyyid, məni tanıdınmı? Mən kiməm, bilirsən?

Abdullah:

– Bəli, bilirəm, – deyə cavab verdi.

Zerka soruşdu:

– Haradan tanıyıb bilirsən?

Abdullah:

– Sən məni bir haram işə sövq etmək istəyən qadın deyilsənmi?

Zerka:

– Bəli, ey dəliqanlı, – deyə cavab verdi. Sonra Abdullahın üzünə diqqətlə baxdı. Onda Yəməndə bazarda gördüyü nuru görmədi.

– Ey gənc, – deyə soruşdu, – hanı o alnındakı o nur parıltısı? Hara getdi?

Abdullah:

– Evləndim, xanımım hamilədir. Mənin alnımdakı nur onun alnına keçdi.

Bu cavabdan Zerkanın ürəyi sızladı. Abdullahun bütün diləyinə nə qədər qızıl təklif etdisə, arzuladığı olmadı.

– Atan haradadır?

– Atammı?

– Şama ticarətə getdi.

– Yerinə kimi qoydu?

Abdullah böyük qardaşı Əbu Talibi göstərdi:

– Mənim böyük qardaşım Əbu Talibi.

Zerka o zaman Əbu Talibə:

– Ey Hərəm başçısı, mənə kömək et, o hamilə xatunu bir dəfə də olsun, gedib görum. Sizdən istəyim ancaq budur.

Əbu Talib etiraz etmədi və Zerkanı evinə apardı. Əminə xatunu çağırt-

dırdı. Gənc ana qapını açıb içəri girmişdi ki, alnındakı Rəsul nuru düşmənin gözünə dağlar kimi göründü. Bu nurla gözü qamaşan Zerkanın ürəyi həsrət qılıncı ilə sanki ikiyə bölündü. Dili tutuldu. Bir söz söyləyə bilmədi.

Əbu Talib yemək üçün göstəriş verdi. Süfrə hazırlandı. Ancaq Zerka nə yedi, nə də içdi. Sonra Əminə xatunun yanından ayrılıb getdi.

Zerka oradan Amir oğlu Həccacin evinə üz tutdu. Həccac onu sual dolu nəzərlərlə qarşılayaraq:

– O hamilə qadını gördünmü? − deyə həyəcanla sörüşdu.

Zerka:

− Ya Amir oğlu, göydən enəcək fəlakətləri bilirik. Amma bu fəlakətlərin Qureyş qəbiləsinin üzərinə enəcəyindən xəbərsiz idik. O qəza bizim başımıza gələcəkdir. Doğulacağı gözlənən o uşaq bütləri ortadan qaldıracaqdır. Ağ dərilər qırmızı rəngdə olacaq, qana boyanacaqdır. Kahinlərin, münəccimlərin ürəyi bu səbəbdən atəşlə yanmaqdadır. Başqa məkkəli böyüklər:

– Ya Zerka, bu sözləri biz çox kişilərdən eşitdik. Amma bu dərdə dəva və bu ağrıya şəfa nədir? Bu çətinlikləri necə həll edəcəyik? Sən bizə bunu söylə, eşidək, – dedilər.

Zerka:

– Mən bu gecə Şama gedən Satihə yetişəcəyəm. Onun düşüncəsini öyrənərəm, Şama nə üçün getdi, burada nədən qalmadı? Görüşərəm, danışaram,xəbərdar olaram, – deyə dilləndi.

Zerka həmən atları hazırlatdı. Məkkədən Şama gedən yola çıxdı. Nəhayət, bir vahədə (çöl ortasında suyu və yaşıllığı olan yer) xurma ağaclarının altında dincələn Satihə yetişdi. Oturdular. İkisinin də xidmətçiləri kənara çəkilərək onları yalnız buraxdılar.

Zerka ixtiyar bilicidən soruşdu:

– Ey Satih, nə üçün Məkkədən belə tez ayrıldın, yola çıxdın, Şama səfərə yollandın? Mənim gəlməyimi gözləmədin?

Satih:

– Ey Zerka, artıq bizim əlimizdən gələcək bir şey yoxdur. Bunun ən yaxşı yolu uzaq bir diyarda yaşamaqdır. Onun üçün Şama səfərə çıxdım. Bu uşağın doğulmasına kimi gözləyərik. Görək nələr baş verəcək. Mən belə düşünürəm ki, bu uşaq doğulanadək Məkkə üzərinə böyük bir ordu gələcək. Bu ölkəni xarabalığa çevirəcəklər. Baxaq o böyük qüvvələr nə edəcək?

Alim Satih bu sözləri ilə Yəmndən qalxıb önlərində fillərlə Məkkəyə hücum edəcək, sonra Əbabil quşlarının daşları ilə pərişan olacaq. Bununla o, Əbrəhə ordusunun fəlakətini demək istəyirdi.

Zerka:

– O halda, ya Satih, − dedi, − bir başqa tədbirlə Əminəni öldürmək ol-

mazmı?

İxtiyar Zerkanın bu məlun fikrini eşidincə:

– Yox, – deyə cavab verdi, – o bizim əlimizdən gələn iş deyildir.

Zerka:

– Nə üçün elə düşünürsən? – deyə soruşdu.

Satih Əminə xatuna Qureyşin sui-qəsd etməyə qalxdığını, ancaq səmadan bir səs eşidərək ağıllarının başdan getdiyini, dəvət sahibi olacaq uşağın anasına heç bir yamanlıq edə bimədiklərini söylədi və dediklərinə əlavə etdi:

– Mən bunu anladım və bildim ki, Əminə xatunu ilahi qoruyanlar var. Ona nə bizim əlimiz, nə də dilimiz çatmaz. Fitnəmiz kar etməz. Mən qürbət ellərə üz tutub gedirəm.

Zerka Satihlə bir iş görə bilməyəcəyini anladıqda:

– Uğurlar olsun sizə, mənə də sizinlə vidalaşmaqdan başqa bir şey qalmadı, – dedi və ayrılıb Məkkəyə döndü.

## *ZERKANIN ƏMİNƏ XATUNU ÖLDÜRMƏK İSTƏYİ*

Zerka Məkkəyə döndükdən sonra qalacağı evdə qapandı. Bütün fikri, narahatlığı Həzrəti Məhəmmədin (s.ə.s) anası Əminə xatunu öldürə bilmək üçün bir çarə tapmaq idi. Bir gün Zerka Həccacın qadınlarından soruşdu:

– Əbdülmüttəlibin evinə, qadınlarına, gəlinlərinə yaxın kimlər vardır? Onların evlərinə hər gün gedən bir qadın varmı?

Qadınlardan birisi:

– Məkkə şəhərindən kənarda bir qəbilə vardır. Onların sağılan mal-qarası çoxdur. O qəbilədə bir qadın var ki, adı Zeyd qızı Təknədır. O qadın Şeybətül-Həmdin evinə və oğullarının evinə tez-tez gedir. Eyni zamanda toylarda gəlinləri bəzəyir və bu yolla ailəsini saxlayır.

Zerka bu xəbəri alınca həmən atına mindi, Məkkə yoluna çıxdı. Təknənin qəbiləsinin olduğu yerə gəldi. Soruşdu, qadının evini tapdı. O gecə Təknənin evində qonaq oldu. Bol-bol hədiyyələr aparmışdı. O gün, o gecə dincəldi. Sirrini açmadı. Ertəsi gun səhər də belə söhbətlərlə vaxtını keçirdi. Axşam olmuşdu. Zerka içində bir sıxıntı duyurdu. Gözlərindən yuxu tökülürdü. Zəiflik içində yatağına uzandı, yatdı. Nə qədər yatdı? Bilmədi. Gecə qaranlığında birisi gəlmiş, onu oyatmışdı.

– Kimdir məni oyadan, – deyə səsləndi.

Qeybdən bir səs hiss edən kimi oldu:

– Sənin ustadın və sənə hər sirri bildirən Cinəm.

Bu hal, şübhəsiz, Zerkanın düşüncəsindəki qarışıqlıqdan irəli gəlirdı. Gizli səslər onun qulağına hey deyirdi:

– Ey Zerka, mən sənə hər zaman gəlib sehrlər öyrədirdim. Qeybdən sənə xəbərləri verən mən idim. Bundan sonra bil ki, artıq sənin yanına gəlməyəcəyəm və qeybdən xəbərlər də verməyəcəyəm.

Zerka bu sözləri deyəni axtarmış kimi ətrafına baxdı və soruşdu:

– Nə üçün? Nə səbəbdən artıq gəlməyəcəksən?

Göydən gələn səs:

– Biz gözəgörünməz məxluqlar hər gecə göydə uçardıq. Mələklərin zikr və dualarını eşidərdik. Sonra gəlib sizə söylərdik. Qeybdən gələn xəbərləri verirdik. Amma bu uşaq ana bətninə düşdükdən sonra mələklərə əmr verildi. Göyə yaxın cinlər odda yandırılsın. Buna görə də göylərə çıxmırıq. Mələklərin sözlərini eşidə bilmirik. Bu səbəbdən artıq bizdən kömək ummayın. Daha nə gələ biləcəyik, nə də xəbər verəcəyik.

Bu sözlər bitincə bir kölgənin otaqdan uçduğunu görən Zerka özü-özünə düşüncəyə daldı:

– O rəsulun dünyaya gəldiyi zaman münəccimlərin, kahinlərin, qeybdən söz söyləyənlərin hörmətsiz və zəlil olacağı deyilmişdi. Söylənənlər yerinə çatmaqdadır. Uşaq cahana gəlmədiyi halda belə onların evləri başlarına uçacaq və əməlləri batil olacaq.

Səhər olan kimi bu hisslərin qurbanı olan Zerka Təknəni yanına çağırdı. Qarşısına incilər tökdü, cürbəcür cəvahirlər sərdi. Kisə-kisə qızıllar qoydu. Təknə bunları görüb çaşmışdı. Bu qonaq qadın niyə bu qədər ləl-cəvahiri onun qarşısına tökürdü? Bəs bu qızıllar nə üçündür?

Zerka ev sahibinin bu zənginliklər qarşısında çaşdığını gördükdə ona:

– Təknə, qızım, mənim bir gizli dərdim var. Ürəyimin dərdini sənə açacağam. Amma bu sirr səninlə mənim aramda qalacaqdır, – dedi.

Təknə:

– Söyləyin, Seyyidəm,- dedi.

Zerka:

– İnanmıram ki, bu qədər malı, ləl-cavahiri qəbul etməkdən imtina edəsən. Sən gəlinləri daramaq, ətirləmək üçün Əbdülmüttəlibin evinə sərbəst gedirsən. Səndən bütün bu incilər, cavahirlər və qızıllar qarşılığında bir istəyim var, o da Əbdülmüttəlibin gəlini Əminəni öldürməkdir. Bu dünya xalqı onun qarnındakı uşağın şərrindən qurtaracaqdır.

Təknə bu qədər cavahirat və qızılın qarşısında, həqiqətən, özündən getmişdi. Əlini döşünə qoydu:

– Ya Seyyidəm, bu iş mənim əlimdən gələr. Əminə xatunun saçlarını darayan və ətirləyən mənəm.

Zerka bu sözləri eşidib sanki yenidən qanadlandı:

– Elə isə başlayaq. Bir ziyafət hazırlayaram. Haşimoğullarını bir araya toplayaraq yemək-içməyə dəvət edərəm. Sən də bu fürsətdən istifadə edib baş-başa qalacağın Əminənin işini bitir. İndi sənə bir zəhərli xəncər verirəm. Nə edəcəyini unutma. Bütün qızıllar, ləl-cavahirat da sənin olsun.

Təkrar kisələri Təknənin önünə sürüdü. Əlinə də zəhərli xəncəri verdi. Evdən ayrılaraq Məkkəyə döndü.

Şəhərə gələn Zerka həmən ziyafət hazırlığına başladı. Məqsədi hamını bir yerə yığmaq idı. Əminəni isə Təknə ilə yalnız qoymaqdı. Onun edəcəyi gizli işi bilənlər əllərindən gələn yardımı etməyə hazır idilər.

Hər sey: yeməklər, içkilər hazır olandan sonra Qureyş hörmətlilərini, Haşimoğullarının böyüklərini ziyafətə dəvət etdilər. Ayrı süfrələrdə də Məkkə əhalisinə ocaqlarda yeməklər hazırlanırdı.

Bol-bol yeyilib içildi. Yalnız Zerkanın ürəyi çox bərk döyünürdü. Görəsən,Təknə orada, içəri otaqda nə edirdi.

Günortaya yaxın Təknə obasından çıxıb gəlmişdi. Xəncəri də paltarının altında gizlətmişdi.

Əminənin otağına girdiyi zaman:

– Ey Seyyidəm, bu gün saçını daramağa gəldim. Saçını düzəldim, gözunun sürməsini təzələyim.

Əminə:

– Çox yaxşı edirsən, Təknə, başla, − dedi.

Başını açdı, Təknənin qarşısında oturdu. Saçlarını bir yana atdı, boynu və qulağı göründü. Təknə:

– Boğazına xəncər vurmaq asan olacaq, − deyə düşündü.

Xain qadın xəncəri yavaşca qoyduğu yerdən çıxardı. Əlinə aldı. Zavallı Əminə ipək saçlarının üstündə bir fil dişi darağının gəzməsini gözləyirdi.

Təknə:

– İndi öldürməyin zamanı gəldi, − deyərək xəncəri yuxarı qaldırdı.

Xəncər bütün sürəti ilə Əminənin boynuna keçəcəkdi ki, Təknə birdənbirə əlinə qeybdən bir əlin toxunduğunu hiss etdi. Qolunun kəsildiyini güman etdı. Zəhərli xəncər əlindən yerə düşdü. Arxadan bir fəryad qopdu. Bu Təknənin qışqırığı idi. Xain qadın hansı bəlaya uğradığını hələ bilmirdi. Gələnlər Əminə xatunu soruşdular. Ziyafət süfrəsində oturan qureyşlilər bu səsi eşitdikdə:

"Kimdir belə qışqıran", − deyərək süfrə başından tez bayıra çıxdılar. Haşimoğulları səs gələn tərəfə qaçdılar.

Otağa girdikdə Təknəni yerdə yatan gördülər. Əlində bir yara vardı. Yaradan şorhaşorla qan axırdı. Yer qan içindəydi. Bu yanındakı xəncər nədir

belə? Amma xəncərin üzərində qan ləkəsi yox idi. Qana bulaşmamış bu xəncər haradandır. Qadın ağlını itirmiş halda yerdə yatırdı.

– Nə oldu bu qadına, – deyərək gələnlər Əminə xatundan soruşdular. Başına nə gəldi?

Əminə xatun:

– Bir səbəb bilmirəm. Təknə qadın başımı daramaq üçün otağıma gəlmişdi. Mən də başımı açıb önündə oturmuşdum. Amma hələ saçlarıma daraq belə vurmamışdı ki, Təknə yerə yıxıldı.

Olanların hamısını Əbdülmüttəliboğullarına bildirildi.

Zerka Abdullahın evinin yaxınlığında bir casus qoymuşdu. O qaçıb Təknənin yaralandığını və Əminənin qurtulduğunu Zerkaya çatdırdı.

Zerka indi nə edəcəkdi? Gözləməkdən başqa çarə görmədi.

O biri tərəfdən Abdullah da sevimli xanımının yanına qaçmış, nəticəsiz sui-qəsd olduğunu öyrənmişdi. Təknəni sıxışdırdılar. Qadın:

– Kahinə Zevka incilər, qızıllar, cürbəcür cavahirat verib məni başdan çıxardı. Zəhərli xəncəri verib Əminəni öldürməyə göndərdi.

Haşimoğulları tez Zerkanı axtarmağa getdilər. Məlun qadının dərhal boynu vurulacaqdı. Amma o vaxt Qureyşin başqa hörmətliləri kahinəni Məkkədən çıxarmışdılar. O, Yəmənə qaçmağa müvəffəq olmuşdu.

Məkkə ululları artıq bilici alim Satihin dediklərinin doğru olduğunu başa düşdülər və Satih bizə "o nur kimdədirsə, onu öldürmək mümkün olmaz, qəsdlər baş tutmaz" dediyini xatırladılar. Onun sözləri doğru çıxmışdı. Yəhudilər də Abdullaha qəsd etmişdilər, amma bacarmamışdılar.

Məkkəlilər:

– Bu halın sonu necə olacaqdır? − deyə ağıllarından qara-qura fikirlər keçirirdilər.

Aradan bir neçə gün keçdi Əbdülmüttəlib Şam şəhərindən döndü. Bütün olmuşları ona danışdılar. Kahinə Zerkanın törətdiyi fitnəni, kahin Satihin dediklərini ona çatdırdılar.

Əbdülmüttəlib:

– Bu camaat nə qədər kor olmuş, gözsüz qalmışdır, – dedi, – amma təkcə başlarındakı gözləri deyil, könüllərinin gözləri də kor olmuşdur. Sanki hər kəsin ağlı azalmış, idrakı zəifləmişdir. Nədən bizə qəsd etmək istərkən nəticədə özləri dərdə, bəlaya düşürlər?! Çünki bunlar yaxında doğulacaq bu uşağın bərəkəti hörmətinədir. Bu nura hər kim düşmən olursa, onun işi tərs gətirir, içi dərd və sitəmlə dolur. Ey oğullarım, evinizin içinə artıq heç bir yad adamı buraxmayın. Əminə gəlinimizin yanından ayrılmayın.

Əbdülmüttəlib əmrlərini verdi. Artıq Əminə xatunun yanına heç bir kə-

nar adam girə bilməzdi. Bütün ailə günləri sayır və o mübarək günu səbirsizliklə gözləyirdilər.

## *FİL İLİNİN HEKAYƏSİ*

Qurani-əzimüşşə'nın "Fil" surəsində buyurduğu Əbabil quşlarının Siccil daşlarını ataraq torpağa sərib həlak etdiyi filli ordu kimin idi? Bu ordu necə pərişan oldu? Allahın evinə hücum edib onu tar-mar etmək istəyən ordular necə qırılıb həlak oldular?

Əbdülmüttəlibin ərəblər içində ululardan olub Hərəmin böyüyü olduğu bir dövr-miladın 570-ci ili idi.

Hz. Əminə Hz.Məhəmmədi (s.ə.s) hələlik qarnında daşıyırdı. Bütün ailə doğuşu gözləyirdi. Bu vaxt Yəmən ölkəsinə Həbəşistandan ordu çıxdı. Bütün Yəmən istila olundu. 70 minlik orduya iki başçı rəhbərlik edirdi.

Birinin adı Əryata idi. O, Həbəş hökmdarı Nəcaşinin sevimlilərindən olub yüksək bir mərtəbədə yer tutanlardan hesab edilirdu. Yəməni fəth etmək üçün orduya onu başçı təyin etmişdi.

İkincisinin adı Sabbah oğlu Əbrəhə idi. Biri Nəcaşinin sağ, o biri isə sol qolu hökmündəydi. Amma Əryata daha dəyərli hesab edilirdi. O, Nəcaşinin gözündə Sabbah oğlundan daha üstün idi.

Bunlar Yəmən ölkəsini gəlib tutduqdan sonra bir müddət orada qaldılar. Bir gün iki komandan arasında düşmənçilik düşdü. Özləri kimi əsgərləri də ikiyə bölündülər. Ordunun yarısı Əryatanın, yarısı Əbrəhənin tərəfini tutdu. Hər iki tərəf hazırlığa başladı. Biri-birinə qarşı sədd qurdular. Əbrəhə Əryataya xəbər göndərdi:

– İki ordunun bir-biri ilə vuruşmasına heç bir ehtiyac yoxdur. Ən yaxşısı ikimiz meydana çıxaq, ikimiz döyüşək, vuruşaq. Sən məni öldürsən, mülk sənin olsun. Əgər mən səni öldürsəm, mülk mənim olsun.

Əryat bu sözə razı oldu. Çünki bir sərkərdə kimi öz qüvvəsinə və mərdliyinə güvənirdi. Əbrəhə onun bərabəri deyildi. Əbrəhə alçaq boylu və kök adam idi. Xristian dininə etiqad edirdi. Əryat isə yaraşıqlı, enlikürək və hündürboylu idi. Amma Əbrəhənin rəqibindən üstün bir cəhəti vardı. O da hiyləgər və fitnəçi olması idi. Öz silahdarı olan gənc döyüşçü onu artıqlaması ilə silahlandırmışdı. Əbrəhə Ətvədə adlı bu gənci yanına çağırdı:

– Əryata üzərimə hücum edəndə fürsət tap, onu yarala.

İki başçı vuruşmağa başlayınca atlarını bir-birinin üstünə sürdülər. Aralarında məsafə azalanda Əryat nizəsini qaldırıb qarşısındakına hücum etdi. Ucu Əbrəhənin iki qaşının arasından girdi. Bir göz bəbəyi ilə qaşı yanağın-

dan aşağıya süzüldü. Burnu da yarılmışdı. Bundan sonra Əbrəhəyə burnu yarıq mənasında "əl-Əşrəm" – deyirdilər. Əbrəhənin qulu Ətvədə Əryata arxadan nizə ilə hücum edib, onu ürəyindən vurub öldürdü. Vuruşu Əbrəhə qazanmış hesab edildi, Yəmənə vali oldu. Bu barədə Həbəş məlikinə xəbər verildi. Məlik bu vaxt ölkəsi daxilində səyahətdə idi. Paytaxta gəlib taxtına oturdu. Əbrəhənin etdiklərini - Əryatı öldürüb, Yəmən ölkəsini tutaraq, orada oturduğunu eşitdi. Çox əsəbiləşdi. And içdi:

– Mən Əbrəhənin olduğu yerə ayaq basmayınca və saçından tutub onu yerdə sürüməyincə rahat buraxmayacağam.

Amma Nəcaşinin yanında olan Əbrəhənin bir casusu bu andı ona çatdırdı. Əbrəhə çox qorxmuşdu. Düşündü, nə etsin? Yəmən torpaqlarından bir dağarcığa doldurtdu, öz saçından da bir az kəsdi, dəsmala bağladı. Məktub yazaraq Həbəş hökmdarına göndərdi. Məktubda yazırdı:

– Ey hökmdar, mən də, Əryat da sultanımızın qulu, köləsi idik. Bir-birimizə bir gün düşmən olduq. Əryatın ömrü bu cür bitdi, mənim əlimdə can verdi. Mən Nəcaşinin quluyam. Eşitdim ki, hökmdarım bu torpağa ayaq basıb və mənim saçlarımdan tutub yerdə sürükləmək istəmiş. Mən sultanımın andı yerinə gəlməsi üçün ölkənin torpağından bir dağarcıq, yəni bir torba və saçlarımdan bir hissə kəsib sultanıma göndərirəm. Saçlarımı torpağın üzərində sürüsün, mübarək ayağını üstünə bassın. Buraya gəlməyə zəhmət çəkməsin. Qanımı mənə bağışlasın, mənim səhvimi əfv etsin. Mən hökmdarın quluyam, istərsə, məni mülkündən qovsun, istərsə də xidmətinə qəbul etsin. Əmri-fərman məlikim Nəcaşi həzrətlərinindir.

Nəcaşi bu məkrubu alıb oxudu. Torpağı gördü. Əbrəhənin bu aldadıcı hərəkəti ona xoş gəldi. Sevindi. Ona gözəl tikilib bəzənmiş bir kaftan, yəni uzunətəkli don göndərdi və belə bir cavab yazdı: "Bu əmrimlə səni Yəmən ölkəsinə hakim təyin edirəm". Beləliklə, Əbrəhə Yəməndə qaldı.

Əbrəhə bir müddət sonra Yəmənin paytaxtı Sənada böyük bir kilsə tikdirməyə başladı. Səna hələ qədimdən böyük tikintiləri və sarayları ilə məşhur idi. Süleyman peyğəmbərin məhəbbəti kraliça Bilqeysin qəsri bu şəhərdə idi. Əbrəhə əmr verib sarayı sökdürtdü. Daşlarını, istifadəsi mümkün olan ləvazimatları kilsə tikintisində istifadə etdilər. Məbədin divarının qalınlığı altı arşındı. Uzunluğu səksən, eni isə qırx arşındı. Divar tikintisində və sütunlarda yeddi cür daşdan istifadə edilmişdi. Nəqqaşlar bütün bacardıqları bəzəkləri vurmuşdular. Qızılla, gümüşlə müxtəlif rəsmlər çəkilmişdi. Elə bir tikinti ki, şərqdən qərbə kimi onun tayı yox idi. Qapılarının, sütunlarının, pəncərələrinin bəzəyini dillə anlatmaq mümkün deyildi.

Əbrəhə kilsəni tamamladıqdan sonra sultan Nəcaşiyə yenə bir məktub yazdı. Tikdirdiyini belə bildirdi: "Ey hökmdarım, sənin üçün bir kilsə tik-

dirdim. Bunun tayı-bərabəri nə Ərəb, nə də Əcəm ölkələrində vardır. Hörmətimiz böyük hökmdarımıza sonsuzdur. Kilsəmizin adını məlikimizin qoymasını istəyirik".

Əbrəhə Həbəş sultanı Nəcaşiyə məktubunda kilsəyə ad qoymağı ondan xahiş etmişdi. Nəcaşi bu məbədə "Gülleys" adını vermişdi. Həbəşcədə Gülleys "Kəbə" deməkdir.

Amma bu qürur doğru idimi? Əlbəttə, qürurun sonu gələcəkdi. Sənanın bu məşhur kilsəsi uçurulacaqdı. Buna məhkumların göz yaşı və qureyşlilər səbəb olacaqdı. Məkkə o zaman Yəmənin tabeliyində idi. Yəməndə kim hökmdar idisə, Məkkəyə də o hökm edərdi. Əbrəhə Yəməndə məliklik edərkən Məkkəyə də hökm etmək istəmişdi. Məkkədəki ərəb sülaləsinin izzət və qüdrətini, Kəbəyə olan hörməti eşitmişdi. Əbrəhəni çaşdıran bu idi - ərəblərə nə səbəbə kitab əhli deyirlər? Niyə şəriətləri yoxdur? Nə üçün bütlərə sitayiş edirlər? Niyə Sənəm bütünə səcdə edirlər.

Əbrəhə Səna kilsəsini Kəbə kimi bir təvaf yeri etmək sevdasına düşdü. Camaatına bildirdi:

– Mən bir ibadət evi tikdirdim. İsa peyğəmbərin dininə və sahibinə yaxınlaşmaq üçün tikdirdim. Yəqin ki, burada ziyarətgah olmalıdır. Dünyada şöhrətindən danışılmalıdır. Buraya bütün insanlar dəvətlidir. Burası bütün millətlərin həcc yeridir. Hər hansı bir xalq asilik edib və buraya gəlməkdən çəkinərsə, onların başlarını kəsdirəcəyəm, evlərini də dağıdacağam.

Ancaq Əbrəhə düşünmürdi ki, Kəbə ilə bu kilsəni heç bir zaman eyni etmək mümkün ola bilməzdi. Ona görə ki, Kəbənin qüdrəti, əzizliyi Hz. İbrahim Xəlil bərəkatındandır. Çünki İbrahim peyğəmbər Kəbənin daşını, torpağını öz kürəyində daşımışdı. Kəbənin daşlarını əli ilə yonmuş, palçığını öz əliylə qarışdırmışdı. Kəbəni özu tikmişdi. Kəbə buna görə əziz olmuşdu. Qiyamətə qədər əziz, qiymətli və hörmətli də qalacaq, izzəti artacaq. Belə ki, Məscidül-Əqsanı da Davud peyğəmbər tikdirmişdi. Məlun Əbrəhənin tikintisi də özünə oxşayırdı. O da bir gün bu cahanda uçurularaq yerlə yeksan olacaqdı. Çünki zülm görənlərin göz yaşlarından və onun atəşindən dağılmışdı. Özü də, tikdirdiyi kilsə də məzlum könüllərin ahının odu ilə yanmışdı.

## *ƏBRƏHƏNİN KİLSƏSİ XARAB EDİLDİ*

Əbrəhə kilsəni tikdirərkən belə bir əmr vermişdi:

– Hər bir iş sahibi, hər bir sənətkar, hər bir usta kim olursa olsun, günəş doğanda işinin başında olsun. Bu göstərişi yerinə yetirməyənlərin əli kəsiləcəkdir, məmləkətdən sürgün ediləcəkdir.

Əbrəhə bundan başqa bir çox zülmlər etmişdi. Bir gün bir Yəmənli gənc günəş doğduqdan sonra işə gəlmişdi. Əbrəhə gec gələn gəncin əlini kəsmək tapşırığını verdi. Bu dəliqanlının anası Əbrəhəyə çox yalvarıb-yaxardı. Əbrəhə heç yalvarışlara baxmadan: "əmrim əmrdir", – dedi. Gəncin əli kəsildi. Anası oğlunun dərdindən dəli-divanə oldu. Lənətləyib deyirdi:

– Ey Əbrəhə, görüm səni odda yanasan, tikdirdiyin məbəd də odda yansın və üstünə uçsun.

Anaların ahı yerdə qalmaz, o ahlar dağları belə yıxar. Ömür yazısını tez pozar, bəxti də, taleyi də yerlə-yeksan edər.

Kilsədə tikinti işləri tamamlanmışdı. Bayram günlərində nəsranilərin bu kilsəyə toplanmasını əmr etmişdilər. Ən uzaq yerlərdən, bir neçə aylıq yollardan və iqlimlərdən gələnlər çox idi. Əbrəhənin özü mühafizə əsgərləri ilə gəlir, bir az aralıda dayanırdı. Günorta vaxtı olanda Əbrəhə piyada, ayaqyalın gəlirdi. Hər millət kilsəyə yalın ayaqla girər və öz dilində dua edərdi. Dayanmadan təvaf edər, ziyarət bitəndən sonra hər kəs yaşadığı yerə dönərdi.

Səna kilsəsinin içinə girib tamaşa etmək ancaq belə olurdu. Uzaq yerlərdən gəlmək birinci şərtdi. Amma Əbrəhə kilsənin baxıcılarına əmr vermişdi ki, Həcc mövsümü günlərində Hicaz vilayətindən hər kim bu məbədə gəlsə, baxmaq istəsə, ona icazə verilsin. Məbədin içini gəzsin. Böyüklüyünü görsün, ərəb vilayətlərinə döndükdə gördüklərini danışsın. Bütün ərəblər Kəbə təvafını buraxıb bu kilsəyə ziyarət üçün həvəslənsinlər və gəlsinlər.

Aradan bir neçə il keçdi. Səna kilsəsinin şöhrəti bütün Ərəbistana yayıldı, ayrı-ayrı iqlimlərdə onun böyüklüyündən danışırdılar. Amma Məkkənin şərəfini kiçiltmək həvəsi Əbrəhəyə çox baha başa gələcəkdi. Cəhənnəmə vasil olanacan ürəyində qalacaqdı. Elə də oldu.

Nəsranilərin bayramlarının yaxınlaşdığı bir zamanda bir neçə Məkkəli tacir Yəmənə gəlmişdi. İçlərinə Fukaym oğlu qəbiləsindən biri də qoşulmuş, Yəmənlilərin bayram üçün hazırlaşdıqlarını görmüşdi. İnsanlar kilsəyə girmək üçün növbəyə dururdu.

Məkkəli tacirlər:

– Bu şəhərə gəlmişkən məbədə biz də baxaq, – dedilər, – tamaşa edək. Görək, doğrudan da, şöhrəti hər yerə yayılmış bu kilsə deyilənlər kimi möhtəşəmdirmi?

Amma Səbbah oğlu Əbrəhəyə o il içində bir qəza və bəla gələcəkdi. Özünün tikdirdiyi kilsə də başına yıxılacaqdı.

Əbrəhə məbədə ad verildikdən sonra qürur içində Nəcaşiyə bu məktubu yazdı: "Ey hökmdarlar hökmdarı, yüksək buyruğunuz üzrə ərəbin Kəbəsini batil edəcəyəm. Yeddi iqlim Kəbəsi bu Gülleys olacaqdır. İzin və icazə ve-

rin bu kilsəyə hər kəsi dəvət edim".

Nəcaşi istəyi qəbul etdi, Əbrəhəyə cavabını bildirdi.

Bayram yaxınlaşırdı. Dörd yandan ziyarətçilər Yəmənə gəlməyə başlamışdılar. Məkkəli tacirlər Məkkədə Kəbəyə gələn hacıların izdihamı kimi bu məbədə də baxmağa gələnləri görəndə çaşmışdılar. "Biz də bunun içini görməliyik" qərarını verdilər.

Kilsə işçiləri onları qapıda görən kimi tez içəri dəvət etdilər. Məkkəli tacirlər qapının qızıl dəstəklərini, düymələrini, çərçivəsini görüncə heyrətləndilər. İçəridə büllur çıraqlar, qızıl və gümüş xaçlar onları çaşdırdı.

Bəzi büllur çilçıraqlar cəvahirlə bəzənmişdi. Sütunları, ayrı-ayrı rəngli daşlardan olan günbəzi çaşqınlıqla seyr etdilər. Yer üzündə belə bir başqa bina tikilmişdimi? Onların çaşqınlığını görən məbəd xidmətçiləri yanlarına gələrək soruşdular:

– Sizin Məkkədəki Kəbəniz gözəldir, yoxsa bizim kilsəmiz?

Məkkəlilər:

– Əlbəttə, bizim Kəbəmiz daha gözəldir.

Kilsə xidmətçiləri:

– Siz dəlisiz, − dedilər,– bu məbəddə o qədər qiymətli daş var ki, sizin Kəbənizin içini doldura bilər.

– Siz ümumi görünüşünə baxanlardansız, amma iç üzündən xəbəriniz yoxdur. Zahirinə baxanların fikri həmişə belə olur.

Məkkəlilər sözlərinə davam etdilər:

– Əsl dəli sizsiniz ki, bu kilsənin naxışlarına və rənglərinə aldanmısınız. Bizim Kəbəmizə İlahimiz "Tanrı evi" adını vermişdir. Kəbəmiz Tanrıya aiddir. Ora Allahın evidir. Bu kilsə isə burnu yarıq Əbrəhənindir. Bundan başqa, Kəbəmizi Hz. İbrahim Xəlil tikdi. O ki İsa və Musa peyğəmbərdən qabaq olmuşdur. Necə ki Ulu Tanrı peyğəmbərləri onun nəslindən davam etdirmişdir. Hz. İbrahim Xəlil hara, burnu yarıq Əbrəhə hara! Sizin kilsənizin şərəfi nədir, bizim Kəbənin şərəfi nə? Bizim hər hansı birimizin bir istəyi olsa, Kəbənin qapısının halqasına əl vursa, əli ilə Kəbənin örtüyünü tutub istəyini desə, İlahimiz istəyini yerinə yetirər. Kilsənizdə kimin duası qəbul olundu.

Bu sözləri çaşqınlıq və içində qərəzlə qəbul edən kilsə xidmətçiləri:

– Nə deyirsiniz, bilin ki, məlikimiz lap yaxında Ərəb Kəbəsini ortadan qaldıracaq, bu kilsəni insanlara Kəbə edəcəkdir. Elə böyük bir ordu toplayır ki, bu ordu ilə Məkkə ortadan götürüləcək. Sizin həcc ziyarətiniz batil olacaqdır. Ərəbin də, Əcəmin də ziyarətgahı bu yer olacaqdır.

Məkkəli igidlər bu sözləri eşidincə bərk həyəcanlandılar və səbirləri tükəndi. Qılınclarını qınından çıxardılar. Xidmətçiləri öldürdülər. Dönüb qa-

pını bağladılar, içəridə olan keşişləri də qılıncdan keçirdilər. Bəzənmiş büllur çilçıraqları qırdılar. Qızılla bəzənmiş rəsmləri pozdular. Mehrabları yıxdılar. İpək xalıları xəncərlə kəsdilər. Qızıl xaçların üzərində olan qiymətli daşlardan başqa qiymətli şeylərdən qopardıqlarını qopardılar, götürə biləcəklərini götürdülər. Qapını açıb çıxarkən Fukayn oğlu qəbiləsindən olan ərəb də kilsənin içinə oturmuş (yəni oranı murdarlayıb) çıxmışdı.

Bir-iki saat sonra məbəddə ziyarət vaxtı çatırdı. Xalqın tez gələnləri məbədin içinə girincə ətrafı döyüş meydanı kimi gördülər, hər tərəfdə ölülər, sındırılmış, dağıdilmıs bir bina içi. Tez böyüklərinə gördüklərini xəbər verdilər. Amma məkkəlilər Yəməndən xeyli uzaqlaşmışdılar.

Xəbər az sonra Əbrəhəyə çatdırıldı. Həmən atlandı, dördnala kilsəyə gəldi, içəri girdi. Aylarla düzəltdiyi kilsə pis hala qoyulub tam xaraba olmuşdu. Zəhmət çəkərək, qızıllar xərcləyərək həvəslə tikdirdiyi, düzəltdirdiyi və döşətdiyi kilsənin içi dağıdılmış, parçalanmış, pislənmiş və murdarlanmışdı. Bu vaxt gizlənməklə ölümdən qurtulmuş, yaralarından qanları axan iki kişi meydana çıxdı. Əbrəhənin hüzuruna gələrək:

– Bunları edənlər Məkkədən gələn ərəblərdir. Qapıçılara bir neçə qızıl verib baxmaq istədiklərini bildirdilər. Sonra adamlarımızı öldürdülər, keşişlərimizi qılıncla doğradılar. Mehrablarımızı uçurdular, – dedilər.

Əbrəhə bu xəbəri eşitdikdə ürəyi odlandı. Hirsləndi. Qəzəbdən ağlı dumanlandı. And içdi:

– Məkkəyə bir ordu ilə girib, o Kəbəni dağıdıb yerini hamarlamasam, evimə getməyəcəyəm, evimdə oturmayacağam, dincəlməyəcəyəm, daşını, torpağını Yəmənə gətirməmiş mən rahatlıq üzü görməyim.

Bu anddan sonra Əbrəhə həmən əsgər toplamağa başladı. 60 minlik ordu az zamanda hazır oldu. Artıq Məkkə üzərinə hücuma tam hazır idi.

## *BEYTULLAHI DAĞITMAQ NİYYƏTİ*

Əbrəhənin ordusunda bəylərdən biri Maqsud oğlu Əsvəd idi. Əbrəhə onu çağırdı:

– Ey Əsvəd, tez ordunla irəlilə. Məkkəyə hücum xəbərimiz onlara çatmadan sən hərəkətə keç. Tapdığın hər ərəbi öldür. Mallarını, mal-qarasını al. Kəndlərini, evlərini yandır. Hicaz ərəbinə aman vermə. Əbrəhənin heybətini və qudrətini onlara göstər.

Maqsud oğlu Əsvəd bu əmri alınca 20 minlik atlı qoşunla irəliyə hərəkətə keçdi. Əbrəhənin bütün ordusu 60 min kişi idi. Qaradərili Həbəş əsgəri bölük-bölük yollarda göründükdə elə bil ki, qara quşlar dəstə ilə uçuşa ha-

zırlaşırdı. Ordunun şöhrəti dərhal hər yerə yayıldı. Əsgərlər gəldikcə qəbilələr çöllərə doğru hərəkət edirdilər.

Əbrəhənin filləri vardı. Biri çox qorxunc fil idi. Qocaman bir görünüşü, çoxlu hünəri və hərbi təlimi vardı. Ən böyük köklü ağacları xortumu ilə yerindən qoparırdı. Divara belə vursa, divarı uçurardı. Əbrəhə nə vaxt filin önünə keçsə, ona səcdə etmək səklində başını aşağı əyərdi.

Böyük filin adı Mahmud idi. Nədən Mahmud deyilmişdi? Hərbdə çox işlər görmüş, amma Kəbəyə doğru getmədiyinə və sitayişə layiq iş gördüyünə görə Mahmud adı verilmişdi. Əbrəhənin Mahmud filinin camaatı heybəti ilə qorxudacağına böyük inamı vardı. Bu səbəbdən ordunun önünə fili keçirmişdi.

Əbrəhə:

– Bu ərəb Kəbəsini yalnız bu filə uçurtduracağam, − deyirdi.

Əsvəd iyirmi min atlısı ilə qabaqda gedərkən, Əbrəhə də bu fildən başqa 8-10 kiçik fillə irəlidə gedən ordusu ilə Şimala, Taifə doğru yol almışdı. Əsvəd Həşəm qəbiləsinin torpaqlarına gəlib çatdı, yəni Abdullaha eşq elan etmiş Mürr qızı Fatımənın qəbiləsinə. Onlar kiçik müqavimət göstərdilər, məğlub olub Əbrəhə ordusuna bələdçilik edərək yaxın yolları göstərdilər.

Əsvəd, nəhayət, Taifə yetişdi. Sakifoğulları ilə Çeşimoğulları Taifdə yaşayırdılar. Yəmən əsgərlərinin Məkkə şəhərini dağıdıb və yandırmağa gəldiyini hiss edən kimi tez Məkkəyə xəbər göndərdilər. Bu xəbəri Məkkə seyyidlərinə bildirdilər. Sonra Əsvədi qarşıladılar, qonaq saxladılar. Taifə gəlincə 20 minlik ordu Yəmən yolunda çox əziyyət çəkmişdi.

– Bir neçə gün dincələk, atlar da dincəlsin. Düşmən torpaqlarına çatanda qovmaq, qaçmaq, atmaq, vurmaq asan olsun. Biz də yeyək doyaq, dincələk, güclənək, atlarımız da - dedilər.

Əsvəd:

– Bir-iki gün burada qalıb dincələrik, amma məkkəlilər bundan xəbər tutmasınlar. Biz ora çatınca mallarını, mal-qaralarını qaçırmasınlar.

Sakif qəbiləsinin camaatı da Əsvədə:

– Bir neçə gün üzüm bağlarımızın kölgəsində dincəlin, – dedilər.

Məqsədləri bir az vaxt qazanmaq ki, məkkəlilərin qaçmaq imkanı olsun. Hələ öz məbədləri olan Lat məbədinə Əbrəhə ordusunun toxunmayacağını eşidəndə Əsvəd ordusuna daha çox hörmət göstərdilər.

Taiflilər məkkəlilərin mallarını, sürülərini və canlarını necə qutaracaqlarını bilmək üçün Əsvədə:

– Ey ulu əmir, – dedilər, – siz beş-on kişi deyilsiniz ki, sizin gəlməyiniz Ərəbistanda eşidilməsin. Əsgərləriniz dəniz kimi görünür. Biz də sizin bu tərəfə hərəkətinizi Yəməndən çıxandan sonra gördük.

Taif ululları bunun kimi sözlərlə Əsvədi mümkün qədər burada saxlamaq, məkkəlilərin başlarına bir çarə qılmalarına kömək etmək istəyirdilər. Məkkəyə xəbər çatdı:

– Əbrəhənin orduları ucsuz bir dəniz kimi böyük coşqunluqla Taifə gəlib çatdı.

Əbrəhəyə məkkəlilərin qorxduğunu, yerlərindən köçdüyünü, artıq bağ və bağçalarında mal-qaralarından əsər qalmadığını bildirdilər.

Məkkəyə Əbrəhə ordusunun Yəməndən hərəkətə gəldiyi xəbəri gəlincə məkkəli böyüklər tez Əbdülmüttəlibin yanına yığışdılar. Onda heç bir hərəkət görmədilər. Həyəcanla ondan soruşdular:

– Ey Şeybətül-Həmd, ey Seyyidi-hərəm! Siz nə üçün hərəkətə keçmirsiniz? Məgər köç etmək istəmirsiz?

Əbdülmüttəlib cavab verdi:

– Ey Məkkə camaatı, bunun iki səbəbi var, ona görə də Kəbədən uzaqlaşmıram. Heç bir yerə köçmürəm, qaçmıram.

Məkkəlilər:

– Nədir səbəb, ya Əbdülmüttəlib?

Əbdülmüttəlib sakit bir halda:

– Birinci səbəbi Kəbə Allahın evidir. Allah-təala evini mütləq mühafizə edəcək, qoruyacaq. Əbrəhə deyilən o adamda nə qədər qüvvət olursa olsun, Allahın evini yıxmağa gücü çatmaz. İbrahim peyğəmbərimizin tikdiyini necə dağıda bilər. Mən bilirəm ki, kim Haqq-təala evinə əl uzadarsa, onun ölümü Kəbə üzündən olacaqdır. Kim gəlirsə, bilsin ki, ölüm şərbətini içməyə gəlmişdir. Bizə ölüm gəlməmişdən niyə buradan getməliyik,

Bu sözləri dinləyərkən məkkəlilərin canına sanki bir qüvvət gəldi. Fərəh içində:

– Ya Əbdülmüttəlib, ikinci səbəb nədir? – deyə soruşdular.

Əbdülmüttəlib yenə çox sakit bir halda onlara cavab verdi:

– İkinci səbəb budur ki, mən Tanrı evinin, Allahın Kəbəsinin xidmətçisiyəm. Mən bu mübarək vəzifəmdən ayrılmamışam. Yox, əgər təqdirdə,alın yazısında yazılıdırsa, Əbrəhə gələr, Kəbəni dağıdar, ancaq ondan sonra məni öldürər. Kəbə dağıdılandan sonra bizdə nə hörmət, nə də izzət qalar. Bizim şərəfimiz, sayğımız yalnız bu Hərəmdən gəlir. Kəbə dağıdılarsa, bu bizim alın yazımızdır. Elə bir zillət və hörmətsizlik içərisində insan gündə min dəfə ölür, dirilir. Məncə, görüləcək iş Ulu Tanrımıza sığınmaqdır. Hərəmdən qırağa çıxmayın, içəridə qalın. Mən isə ölsəm də, qalacağam, diri qalsam da buradayam.

Qureyşlilər bu sözləri Əbdülmüttəlibdən eşidəndə ağlayıb göz yaşları tökdülər:

– Ya Seyyid, onda bizə son öyüdün nədir? Qalaq, yoxsa gedək?

Əbdülmüttəlib:

– Sizin görəcəyiniz iş budur. Çoluq-çocuğunuzu götürüb əmin olduğunuz yerlərdən birinə gedin. Elə bir yer olsun ki, düşmən ayağı oralara dəyməsin.

Bir qisim məkkəli Əbdülmüttəlibin yanından ayrılıb evinə döndü. Hazırlıqlar başladı. Dəvələr böyürür, qoyun sürüləri toplanılır, hazırlıq gedir, gənc qızlar ağlaşır, uşaqlar bağırışırdılar.

Əsvədin Taifdəki qaldığı zamanda hər gün Məkkədən karvanlar Şama doğru gedirdi. Getməyən kimlər idi?

Haşimoğulları Məkkədən ayrılmamışdılar. Əbdülmüttəlib, əmiləri, əmioğlanları, qardaşları və oğulları ailələri ilə birlikdə qalanlar arasında idilər. Onlar az bir nəsil və qəbilə Haqqa sığınmışdılar, yalnız mallarını və malqaralarını Şam tərəfə yollamışdılar. Əbdülmüttəlibin iki yüz dəvəsi də göndərilməmişdi. Bunları ayırıb Əbrəhə ordusunun yolu üstə buraxdırmışdı. Soruşanlara:

– Bu dəvələri düşmənlərimizin gəlib tutmağını istəyirəm. Mənim bir başqa tədbirim var, – deyirdi.

## *ƏBRƏHƏ ŞƏHƏRLƏRİ YANDIRARAQ GƏLİR*

Əbrəhə böyük ordusu ilə yolda dayanmadan irəliləyirdi. Camaat uzaq çöllərə, dağlara qaçırdı. Əbrəhə əsgərləri ilə yoluna çıxan hər şeyi atəşə verir, yandırırdı. Yerli yerindən aralanır, yolçu yolundan çıxır.

Əsvəd Taifdən Məkkəyə hərəkətə keçəcəyi gün Əbrəhənin orduları da şəhərin qapılarından içəri girdi. Əbrəhə Əsvədə bu xəbəri göndərdi: “Ordusunu Məkkəyə qədər dağıtsın, Hicaz vilayəti başdan-başa talan edilsin”. Əsvədin əsgərləri talana başladılar. Amma Hicaz yollarında qəbilələrdən heç birini tapa bilmədilər. Məkkəyə yaxınlaşanda Əbdülmüttəlibin iki yüz dəvəsinə təsadüf etdilər. Əsgərlər bunları tutub Taifə Əbrəhənin qərargahına yaxın yerə gətirdilər.

Əsvəd Əbrəhəyə:

– Ey böyük məlik, mən Taifə gəlməmişdən əvvəl Hicaz ərəbləri məmləkətlərini buraxıb köçmüşlər. Ona görə də talan edib sonra da yandırmağa heç bir şey tapa bilmədim. Yalnız iki yüz dəvəni əsgərlərim tutub hüzurunuza gətirmişlər.

Əbrəhə bu xəbərə qəzəbləndi. Amma görüləcək bir iş yox idi.

Dəvələrinin Əbrəhə əsgərləri tərəfindən aparıldığını Əbdüllmüttəlibə

xəbər verdilər.

–Yaxşı xəbərdir, tez mənə atalarımın paltarını gətirin, – dedi.

Peyğəmbərlər libasını ona gətirdilər. Onları geydi və evdən çıxdı. Kəbəyə getdi. Yeddi dəfə Beytullahı təvaf etdi. Sonra: "İndi mənə bir dəvə gətirin", – tapşırığını verdi.

Dəvə gətirildi. Haşimoğulları və öz uşaqları ondan soruşdular:

– Ey Əbdülmüttəlib, belə geyinib-qurşanıb hara gedirsən?

Əbdülmüttəlib:

– Əbrəhənin yanına gedirəm.

Onlar yenə soruşdular:

– Ey Seyyidül-hərəm, belə qan içən, amansız qatil başçının yanınamı gedəcəksən? O biz məkkəlilərin qanına susamış bir adamdır.

Şeybətül-Həmd:

– Ey oğullar, ey qardaşlarım, bilirsiniz ki, Yəmən ölkəsindən böyük bir məlik və on mini aşan qoşun bir iqlimdən o biri iqlimə gəlməkdədir. Ona qarşı bir düşmənçiliyimiz olmayıb. Nə istəyir? Onunla bir danışmaq, özündən öyrənmək istəyirəm. Bunu bilməliyəm. Çünki bunu məndən başqası ondan soruşmağa cəsarət etməz.

Haşimoğulları:

– Qorxuruq ki, o adam sənə pislik edə bilər.

Əbdülmüttəlib:

– Qorxu heç zaman qəzanı aradan qaldırmaz. Əcələ sahib olmaz, – deyərək mindiyi dəvəsini hərəkətə gətirdi. Məkkə ətrafını sarmaşıq kimi tutan Əbrəhə əsgərlərinin arasına girdi. Yolda yaxşı bir insanla rastlaşdı. Bu tanımadığı adam ona:

– Ey ağsaqqal, sən kimsən? Buralarda nə işin var? Əgər Məkkə əhlindənsənsə, heç burada durma, tez geriyə dön. Bu aralarda görünmə, öz işinə get, – dedi.

Əbdülmüttəlib bu gözəl insana cavab verməк istəyəndə uzaqdan bir atlı gəldiyini gördü. Yaraşıqlı bir insandı. Bəlkə də, ordu böyüklərindən idi. Bu adam Əbdülmüttəlibi görüncə atdan endi. İrəli gəldi. Əbdülmüttəlib də ona doğru yeridi. Salamlaşdılar. Bu möhtəşəm insan Yəməndə çox tanınmış adamdı. Adı Zi Nefrdi. O, əvvəlcədən Əbdülmüttəlibi tanıdığından soruşdu:

– Ay Əbdülmüttəlib, buralara nə üçün gəldin? Bu yerlərdə nə işin var? İndi sən çoluq-çocuğunla Şam və ya İraqda olmalıydın. Sən bura gəlib əjdahanın ağzına atılmaq itəyirsən, yoxsa aslan caynağına düşmək niyyətindəsən?

Şeybətül-Həmd:

– Ey Zi Hefr, sən bu Əbrəhəyə hansı səbəbdən yaxın oldun?

Zi Nefr:

– Əbrəhə böyük bir ordu ilə hazırlaşdığı zaman onun Məkkə şəhərini talan etmək istəyindən çəkindirdim. Mənə bəylik verdi, adam verdi və indi mən onun tabeliyindəyəm.

Əbdülmütəlib Zi Nefrə:

– Sən bizim bu halımıza  kömək edə bilərsənmi?

Zi Nefr:

– Məlikin əmr və buyruğu altında olan bir şəxs sənə necə yardım edə bilər, ya Əbdülmüttəlib? Bizim başımız hər gün üstünə enəcək bir qılıncın altındadır.

Onlar bir müddət susdular. Zi Nefr:

– Ya Əbdülmüttəlib, ağlıma başqa bir şey gəldi. Böyük filə baxan mehtər Üneys adında birisidir. Ona xəbər göndərib səni məlik Əbrəhəyə təqdim etməsini və haqqında yaxşı sözlər söyləməsini xahiş edərəm. Əgər o bu işi edərsə, sən də Əbrəhəyə istəyini söyləyərsən.

Əbdülmüttəlib də:

– Mənim bu orduya qədər gəlməyimin səbəbi budur ki, məlikin bu qədər əsgər ilə buraya nə üçün gəldiyini və Məkkəni yandırmağa nə üçün qəsd edəcəyini öyrənəm,-dedi.

Zi Nefr cavab verdi:

– Yəmən ölkəsinə iki-üç məkkəli ərəb gəlmiş, Əbrəhənin yeni tikdirdiyi kilsəyə xeyli ziyan vurmuş, sındırıb dağıdıbmış. Əbrəhə bu vəziyyəti görəndə and içmiş ki, Məkkəni talan edib yandırsın. Camaatını da qılıncdan keçirsin. Kəbənin daşını, torpağını Yəmən ölkəsinə daşıtdırsın.

Əbdülmüttəlib:

– İndi bildim, anladım ki,  ordu bura niyə gəlmişdir, niyyəti nədir. Amma bura  gələn əsgərlər mənim iki yüz dəvəmi tutub apardılar. Onları məlikdən al, mənə ver.

Zi Nefr:

– Əbrəhənin yanında mən o mərtəbədə deyiləm ki, sənin malını və canını qurtarım.

Əbdülmüttəlib:

– Ya Zi Nefr, Əbrəhənin hüzuruna çıx. Mənim kim olduğumu söylə. Onun yanına gəldiyimi  söylə.

Zi Nefr cavab verdi:

– Ya Əbdülmüttılib, nə üçün öz qanına susamısan? Öz başına, canına qəsd edirsən, ayağınla qəza qarşısına gedirsən? Gəldiyin kimi geri dön, get, kimsə səni görməsin.

Əbdülmüttəlib cavab verdi:

– Ya Zi Nefr, biz səninlə yaxın dostlarıq. Dostluğumuzun hörmətinə bu xahişi et. Məni bu başçınıza yetişdir. Onunla danışığımıza səbəbkar ol.

Zi Nefr döndü. Əbrəhənin hüzuruna getdi. Üzünü yerə qoyaraq:

– Ey zamanın məliki, Məkkə seyyidlərinin ulusu gəlib. Ərəbil-Urbanın (çöl ərəbləri) qazisidir. Bütün ərəblərin böyüyüdür. Yanınıza gəlmək istəyir, – dedi.

Əbrəhə:

– Yanında nə qədər adam var?

Zi Nefr:

– Özu təkdir. Dəvə üstünə minmiş, gəlmişdir.

Əbrəhə çaşdı:

– Bu nə əcaib işdir, bir kişi ki, Məkkə sultanı, bütün ərəblərin qazisi, ulusu olsun, ancaq mənim hüzuruma tək gəlsin. Bundakı məna nədir? Bu iş, bəlkə, məni bəyənmək olacaq?

Əbrəhə sonra Zi Nefrə baxdı və dedi:

– Tez bayıra çıx, o kişinin üstündə göz-qulaq ol! Ta ki mənim adamlarımdan gəlib onu götürüncə. Saxla, göz altına al.

Zi Nefrə bayıra çıxdı. Üzünün rəngi saralmış, qanı qaçmış, qorxub qurumuşdu. Əbdülmüttəlibə dedi:

– Ya Şeybətül-Həmd, mənim sözlərimi dinləmədin. Dönüb geri getmədin. Əbrəhə mənim sənə göz-qulaq olmağımı tapşırdı. İndi nə edim, səni qurtarmaq imkanım yoxdur. Ya Seyyüdül-Hərəm, get dəvənə min, evinə dön. Əbrəhə səni məndən soruşsa, belə cavab verəcəyəm ki, sənin yolunda canım fədadır.

Əbdülmüttəlib güldü, dedi:

– Ya Zi Nefr, kimsə bizim üzərimizdə kərəmini artıq etmədi. Kiminsə minnəti altında qalmadıq. Mən bunları hesablayıb bildim, fikirləşdim. Sonra da bu məliki görməyə yanına gəldim.

Bu sözlərdən sonra Zi Nefr Əbdülmüttəlibi çadırına gətirdi.

Bu yandan da Əbrəhə Əsvədı hüzuruna çağırdı. Dedi:

– Məkkənin sultanı öz ayağı ilə yanımıza gəlib. Bu gün öldürüm, yoxsa Məkkəyə gələndə adamlarının və qəbiləsinin qarşısında öldürüm?

Əsvəd belə cavab verdi:

– Əvvəlcə hüzuruna gətirtdir. Ona heybət və əzəmətini göstər. Sonra ona söz ver, söyləsin görək bura nə üçün gəlmişdir? Sonra istəsən öldür, istərsən də azad et.

Əbrəhə əmr etdi ki, səltənət mərasimi hazır olsun. Sərkərdələr, sultanlar hazır olub ayaq üstə durdular. Sultanlıq adətini yerinə yetirdilər. Əbrəhə dövlətsiz, bəxtsiz başına tac qoydu. Sonra işçilərinə buyurdu:

– Tez fili gətirin, hərb alətlərini də üstünə qoyun!

Filə baxanlar tez filin üstünə hərb alətlərini bağladılar. Yerlərindən çıxarıb Əbrəhənin hüzuruna gətirdilər. O, Zi Nefrə adam göndərdi, yanına çağırtdırdı dedi ki, o Məkkə sultanını alıb yanına gətirsin.

Zi Nefr Əbdülmüttəlibi götürüb Əbrəhənin yanına gətirdi. Əbdülmüttəlib bütün qəlbi ilə gözünü Haqq-Təala dərgahına dikdi. Könlündə Ulu Tanrıya yalvardı:

– Ey Allahım, indiyə kimi məni ulu qıldın, əziz saydın və sevimli etdin. Əlbəttə, bunun səbəbi möhtəşəm və təkrarlanmayan peyğəmbər nurunun bərəkətindəndir. İzzətin və cəlalın xatirinə məni bu gün kafirin önündə hörmətsiz etmə və zəlil göstərmə.

Ulu Tanrı Rəsulun babasını hörmətsiz etmədi. Əbrəhənin çadırının yanına gəldi. Əbrəhə yanındakılara:

– Tez fili Əbdülmüttəlibin önünə keçirin! – əmrini verdi. İstəyi o idi ki, Şeybətül-Həmd qorxsun, onun heybəti qəlbinə düşsün.

Əbdülmüttəlib filə yaxınlaşdıqca fil onun qoxusunu aldı. Geriyə getməyə, sonra isə dönüb qaçmağa başladı. Fil sürücülərinin dilləri tutuldu. Filə qışqıra bilmədilər. Əbdülmüttəlib filə çox yaxınlaşdı. Fil dizi üstə çökdü. O əyilərək filin qulağına:

– Ya mübarək, mən Abdullah oğlu Məhəmmədin babasıyam, – pıçıldadı.

Bu sözləri eşidən fil üzünü yerə qoydu. Diz çökmüş halda yavaş-yavaş geri hərəkət etdi. Hamı çaşıb qalmışdı.

Əbrəhə Əbdülmüttəlibdən bu kəraməti görüncə dili tutuldu. Əbdülmüttəlib irəli keçdi, bütün valilər, sultanlar, ulular çaşıb qalmışdılar. Taxtına yaxınlaşdıqca Əbrəhə də peyğəmbərlik heybətindən çaşqına döndü. Ayağa qalxdı. Onun əlindən tutdu, taxtına dəvət etdi. Əbdülmüttəlib də qorxmadan keçib Əbrəhənin yanında taxtda əyləşdi. Zi Nefr bu hala çaşıb qalmışdı.

– Bu nə əcaib işdir, bir kişi həm göz həbsinə alınsın, ölümü düşünülsün, sonra da sultanla taxtın üstündə otursun? – deyə oz-özlüyündə düşündü.

O belə düşünərkən, Əbrəhə Əbdülmütəliblə danışmağa başladı.

– Ey Seyyidi-Hərəm, xoş gəlmisiz. Nə işə gəldin? İstəyin nədir? Bizə söylə, onları həll edək.

Əbdülmüttəlib dedi:

– Ey məlikəz-zaman, biz ata-babadan Haqq-təalanın, yəni Onun Kəbəsinin xidmətçisi olmuşuq. Kəbə bütün Ərəbül-Urbanın həcc etdiyi yerdir. İldə bir dəfə bütün ərəblər Kəbəni ziyarətə gələrlər. Həcc edərlər. Həcc zamanı dörd bir yandan xalq tökülüb gəlir. Bizə onların xidmətində olmaq vacibdir. Hamısına qulluq edir, saygı göstəririk. O zaman ki elimizə üz tutdu-

nuz, böyük ordu ilə bu iqlimə yürüş etdiniz, Hicaz vilayətini talan etdiniz, mənim də iki yüz dəvəmi apardınız. Əmr verin ki, dəvələrimi toplayıb mənə geri qaytarsınlar.

Onun sözlərinə Əbrəhə belə cavab verdi:

– Ey Hərəm Seyyidi, mən çox yorğun oldum. Çox xərclər və zəhmət çəkdim. Gəldim ki, Məkkə şəhərini talan edim. İmarət və evlərini atəşə verim, yandırım. Kəbəni viran qoyum. Təməlini söküm, yerlə-yeksan edim. Mən fikirləşirdim ki, sən məndən Məkkəni xahiş edəcəksən, Kəbəni xilas etməyi diləyəcəksən. Bundan başqa ailəni və övladlarını diləyəcəksən. Onları qılınc altından qurtaracaqsan, mən fikirləşib səni və bunları bağışlamaq istəyirdim ki, saygımı və yaxşılığımı görəsən. İki yüz dəvə nədir ki, mənim kimi məlikdən onu xahiş edirsən.

Əbdülmüttəlib Əbrəhənin dediyinə belə cavab verdi:

– Ey zamanın məliki, Kəbə mənim deyil ki, mən onu səndən istəyim. Kəbənin sahibi vardır. Kəbə Allahın evidir. Ev sahibi evini necə saxlamasını bilir. Dəvələr mənim malımdır. Mən öz ruzimi istəməyə gəlmişəm. Qəbul etsəniz, əmr verib onları mənə təslim etsinlər.

Sabbah oğlu Əbrəhə Zi Nefrə döndü:

– Bu Məkkə sultanının dəvələrini bir yerə yığ. Özünə əmanət etsinlər.

Zi Nefr sevinc içində bayıra çıxdı. Dəvələri toplamağa başladı.

Əbrəhə Şeybətül-Həmdə tərəf dönüb soruşdu:

– Ey Haşimoğlu, sən filimi heç vaxt görməmisən. O fil səni görən kimi dizi üstə çökdü. Sonra sən onun qulağına nə isə söylədin, baş qoyub səcdə etdi.

Əbdulmüttəlib cavab verdi:

– Ya məlik, İbrahim və İsmail peyğəmbərlərdən sonra ərəblərin içindən peyğəmbər gəlmədi. Amma İsrail oğullarına qədər Bəni-İsrail gəldi. İnsanın atası Adəmdən ta İbrahim peyğəmbərə kimi bir nur miras qaldı. İbrahim peyğəmbərdən sonra bu nur ərəblərin içində atadan oğula keçdi. Alından alına nəql edildi. Bütün göydən enən kitablarda vardır. Axırzaman peyğəmbəri ərəbdən Məkkə şəhərində bir məkkəli, Haşimi və Qureyşi peyğəmbər doğulacaqdır. O insan xatəmür-rüsül olacaq, peyğəmbərlərin də sonuncusudur. İsa dinində də Allahın kitabı belə xəbər verdi. Bu səbəbdən heyvanlar, göydə uçan quşlar bizə hörmət edir. Bu fil də o kəramətdən mənə hörmət göstərdi. Mən də qulağına: “Ya mübarək, − dedim, − mən axırzaman peyğəmbərinin cəddiyəm”. O fil nəbini eşidəndə baş qoyub səcdə etdi. Əcaib olan o deyildir ki, ey məliküz-zaman! Əcaib budur ki, sizin niyyətiniz bizi tutmaq, öldürməkdir. Ancaq bizi gözlə gördüyünüz zaman bizə bu qədər saygı və hörmət göstərdiniz. Taxtınıza keçirib oturtdunuz.

Bundan sonra Əbdülmüttəlib bayıra çıxdı. Zi Nefr dəvələri toplamışdı. Ona təslim etdi. Əbrəhə Əsvədə dedi:

– Bayıra çıx, Əbdülmüttəlibi Zi Nefrlə göndər.

Əsvəd bayıra çıxdı, Zi Nefrlə Əbdülmüttəlibi göndərdi. Yenə içəri keçdi. Əbrəhəni düşüncəyə dalmış gördü. Əbdülmüttəlibin sözləri onun zehnini ələk-vələk etmişdi. Əbrəhə az sonra başını qaldırdı:

– Ey məliklər, siz bu Məkkə Seyyidinin kəramətini gördünüzmü? Sözünün şirinliyini, dilinin açıqlığını gördünüzmü?

Məqsud oğlu Əsvəd cavab verdi:

– Ey məlik, Qureyş içərisində sehrbazlıq çox olur. Sehr etməni də çox yaxşı bilirlər. Çünki onlar bütlərə sitayiş edirlər. Kitab əhli deyillər. Din və şəriət nədir, bilmirlər. Hələ bu Əbdülmüttəlib sehr işində məşhurdur. Çox əcaib işlər göstərir. Seyyidliyi də nəslindən sehrlə aldı.

Sonra Əsvəd Əbrəhəyə dönərək sözünü davam etdirdi:

– Ey zamanın məliki, bunlara görə heç fikrinizdən dönməyin. Heç Məkkə əhlinə acıma, yazığın gəlməsin, rəhm etmə. Bu işi bacarmadan geriyə dönsək, el içərisində hörmətsiz olarıq. Çünki sizin böyük bir ordu ilə Məkkəyə gedib oranı dağıdıb talan edəcəyiniz, camatını öldürüb Kəbəni dağıdacağınız xəbəri şərqdən qərbə kimi hər yerə yayılıb. Bu işləri bitirməmiş geri dönsək, məliklər içərisində bizə eyib olar. Ulu sultanlar bizə gülərlər. Dilindən gələnin əlindən gəlmədiyini, düşməndən qisas almadığını deyərlər. Hörmətinə ziyan gələr, sultanlar yurduna qəsd edər, göz dikərlər. Bununla da çox böyük ziyan etmiş olarıq.

Əsvəd bu sözləri ilə Əbrəhənin yumşalıb muma dönmüş qəlbini yenə daşa döndərdi. Deməli, Allah-təala belə olmasını istəyirmiş.

Ulular demişlər ki, mülk sahibi olan hər məlikin öz ağlı, düşüncəsi və tədbiri ilə iş görməsi vacibdir. Yaxud özündən ulu, bilikli, ağıllı vəziri olmalıdır ki, onun rəy və tədbirini əsas tutsun. Mal və can sevən kişinin məsləhətini eşitməsin və tədbirinə qulaq asmasın.

Bəli, elə insanlar da var ki, qərəzli olurlar. Onların da tədbirinə qulaq asmamalıdır. Dünyaya həris olan ixtiyar-yaşlılarla da bir şey danışmamalıdır. Tamah sahibi olan, sayğı və mərtəbə istəyən alimlərin məsləhət gördükləri işlə məşğul olmamalıdır. Hətta seçilmiş insanları özünə yaxın tutmamalıdır. Beləcə, sultanlar mülkü içində belə tədbirli olmalı, dost və düşmən sözlərini anlamalıdır. Qərəzli kimdir, Allah-təala yolunda öyüd-nəsihət verən kimdir, bilməlidir. Şübhə yoxdur ki, onun dini və dünyası da düzgün olar. Onun kimi məlikin qulluğu ibadətdir, xidməti niyazdır. Bu yolda dini dürüst, səadəti əbədidir. Ondan Haqq-təala öz qayğı və köməyini əsirgəməz. Amma bəxti gətirməyən məlikə dövlət uzun müddət qismət olmaz.

Səadət ona yar olmaz. Belə sultan öz işinin xeyri üçün məsləhət verən vəzirin sözünə uyar və onun tələsinə düşər, dini, dövləti yıxılar, gedər. Xalqından lənətlər alar, düşməninə gülünc olar.

Əbrəhə Əsvədə qulaq asıb ona tapşırıq verdi:

– Bütün ordunu al, Məkkə şəhərinə hücüm et. Dağıt, yandır, talan et! Ərəbin Kəbəsini sök. Nəbadə bura gələn Seyyidin malına, mal-qarasına əl vurasan. Qövmindən heç kimi öldürmə.

Bu sözləri eşidən Əsvəd yeri öpdü, bayıra çıxdı. O gün və gecəni hazırlıq edib durdu.

## *ƏBDÜLMÜTTƏLİB MƏKKƏYƏ DÖNÜR*

Əbdülmüttəlib bu vaxt dəvələri ilə geriyə Məkkəyə dönmüşdü. Ev əhli, xanım və uşaqları, qardaşları onun sağ-salamat geri döndüyünə çox sevindilər. Əbdülmüttəlib onlara Əbrəhənin yanına getdiyini bildirdi.

Bu xəbəri eşidənlər:

– Ya Seyyid, madam ki Əbrəhəyə bu qədər yaxın oldun, Kəbəni o məlikdən niyə xahiş etmədin?

Əbdülmüttəlib:

– Kəbə mənim nəyimdir? Kəbənin öz Böyuk sahibi vardır, onu həmişə qoruyub saxlaya bilər. Az vaxt keçmişdi ki, bir casus gəldi və xəbər gətirdi:

– Ey Məkkə əhli, bilin ki, Səbbah oğlu Əbrəhə Məqsud oğlu Əsvədə orduya irəli əmrini verdi. Tapşırığı belədir ki, bu gecə bütün əsgərlər Məkkə üzərinə hərəkət etsinlər. Ertəsi gün səhər şəhər girişində hazır olsunlar.

Əbdülmüttəlib bu xəbəri eşidincə kişi, qadın, uşaq, qoca, ulu – hər kəsə Əbu Qubeys dağına çıxmağı tapşırdı. Onlar Məkkəyə baxan bu dağa çıxdılar. Səhər oldu. Birdən qara bulud kimi ordunun qaldırdığı tozun göy üzünü tutduğunu gördülər. Əbrəhə ordusu gəlirdi. Əbdülmüttəlib dedi:

– Ey qövmüm, gəlin gedək, Uca Kəbəni bir daha təvaf edək.

Bundan sonra bütün Məkkə əhli qalxıb Kəbəyə gəldi. Yeddi dəfə təvaf etdilər. Ulu Tanrıya yalvardılar, hacətlərini bildirdilər. Sonra oradan dönüb Əbu Qubeys dağına çıxdılar, orada qaldılar.

Məkkəlilərdən bəzi casuslar Əbrəhə ordusuna gedib-gəlirdilər. Bu dəfə gələn casuslar Əbrəhə ordusunun lap yaxında olduğunu söylədilər. Dedilər ki:

– Əbrəhə ordusu yetişdi. Bu böyük ordu səf-səf gəlirdi, hər yeri tutmuşdu. Filləri gətizdirib, hərb alətlərini onların üstünə qoymuşdular. Üstəlik də filləri bəzəmişdilər. Əsgərlərin önündə fillər gəlirdi.

Əbdülmüttəlib o heybəti və əzəməti görəndə gözünün yaşı ağ saqqalının

üzərindən axmağa başladı. O, bu anda kiçik oğullarının qarşıya keçib orada durmasını və başlarını açıb üzlərini göyə tutmasını tapşırdı. Onların ardınca ulu igidlər, sonra isə ixtiyarlar, ulu və yaşlılar dayandılar. Hamilə qadınlar, Abdullah və Əminə xatun isə bütün Məkkə əhlinin önündə dayanmışdı. Əbdülmüttəlb onlara dedi:

– Ey qövmüm, hər biriniz Allahın dərgahına üz tutub yalvarın, nalə edin.

Haşimoğulları və Qureyş böyükləri Haqqa üz tutdular. Ağlaşdılar, yalvarıb-yaxardılar. Əbdülmüttəlib üzünü torpağa sürtdü və dedi:

– Ey Allah, mən bilirəm ki, sən, həqiqətən, qüvvətlisən, güclüsən, möhkəmsən. Bir adın Qəhhardır. Böyüklüyün hörmətinə, Rəsulun izzəti xatirinə, gələn düşməni qəhr eylə! Bu azğınları həlak eylə!

Əbdülmüttəlib bundan sonra üzünü yerdən qaldırdı. Baxdı ki, düşmən əsgəri yaxınlaşır. Sərkərdə Əsvəd də başını dağa doğru çevirmişdi.

Nə vardı bu Əbu Qübeys dağının təpələrində? Bu uşaqlar, bu qadınlar, kişilər dağın üstündə nədən ağlaşırlar?

Əsvəd əsgərlərinə bu əmri verdi:

– Heç kim talançılıq etməsin, bizim arzumuz yalnız Kəbəni uçurmaqdır. Məkkəni od vurub yandırmaqdır. Bu qədər dağı-daşı aşıb gəlməyimizin səbəbi ərəblərin Kəbəsini dağıtmaq, onların ziyarətlərini bağlamaq, bizim böyük kilsəmizə gələn adamların sayını ildən-ilə artırmaq və Həccə alışdırmaqdır.

Əsvəd fil xidmətçilərinə:

– Ey filçilər, fillərinizi irəli sürün! – əmrini verdi.

Əbdülmüttəlib uzaqdan Əsvədin nə etmək istədiyini görüncə, yenə Yaradana yalvarmağa başladı.

Allahümmə, ya Rəbbi məkkətə və Səfa və Əbu Qubeysin vəl Hira əsələkə bissəfa.

Şeybətül-Həmd bu yalvarışlarında ikən Ulu Tanrının möcüzəsi yetişdi.

Əminə xatunun alnından bir nur parlamış və ox kimi irəli atılmışdı. Nur gedib Kəbənin üstündə dayandı. Hər an nuru artmaqla par-par parlayırdı.

Əbdülmüttəlib bunu görüncə:

– Müjdə, ey Məkkə xalqı, – deyə qışqırdı. Sizə xəbər olsun ki, bu gələn düşməni Ulu Yaradan qəhr edəcəkdir. Rəsulun nurundan gələn işarət budur. Artıq qorxumuz qalmadı.

Bütün Qureyş sevinc içərisində idi. Gözlərini Kəbənin parıldayan nuruna dikmişdilər. İndi filçilər o böyük Mahmud filini irəli gətirirdilər. Düşmən əsgəri Kəbəni dörd tərəfdən əhatə edib halqaya aldı. Məqsədləri müqəddəs məbədi dağıtmaq və filə uçurtdurmaq idi. Böyük fil bir dəfə divarı-

na vursa və ya sürtünsə, yerlə-yeksan edərdi. Mahmud filini ona qarşı yürütmək üçün hazırlandılar. Fil hərəkət etdi, Kəbəyə yaxınlaşdı. Birdən durub hərəkət etmədi. Fil sürücülərinin heç bir səyi nəticə vermədi. Fili vurmağa başladılar. Yerindən tərpənmədi. Əsvəd bağırdı:

– Bu nədir?

Fil sürücüləri:

– Nə qədər vururuq, döyürük bir addım da irəli getmir. Yerində tərpənir.

Əsvəd əmr verdi:

– Qılıncla, qalxanla vurun.

Fil sürücüləri Mahmudu qılıncla vurmağa başladılar. Qanı axan fil bir addım belə irəli getmədi. Qalxanla vurub yaralar açmışdılar, bu əzablara baxmayaraq, fil Kəbəyə tərəf addım atmaq niyyətində deyildi. Qışqırıq və çağırmalar təsir etmədi. Əsvəd filçilərə əmr etdi:

– Filin üzünü Yəmənə çevirin.

Heyrət! Fil həmən o tərəfə yeriməyə başladı.

– Filin başını Kəbəyə döndərin.

Yenə heyrət! Fil mıxlanmış kimi yerində dayandı. Addım belə atmadı.

Əsvəd bunları görəndə Habbat adlı bir bəyi Əbrəhənin yanına göndərdi.

– Get, sultana bildir ki, Haşimoğulları fili tilsimləyiblər, cadu eləyiblər. Kəbəyə tərəfə fil hərəkət etmir. Öldürsək də addım atmır. Bunun üçün əmr verin, Məkkə əhalisini qılıncdan keçirim. Kəbəni dağıdım, şəhəri odlayım. Habbat həmən atını Əbrəhəyə tərəf qovdu. Ona Əsvədin dediklərini söylədi. Filin etdiklərini, əcaib-qəraib hallarını danışdı.

Əbrəhə:

– Ey Habbat, bu gecə qorxulu bir yuxu görmüşəm. Mən düşmənlərdən qorxuram. Tez geri dön, Əsvədə söylə. Məkkəlilərlə barış etsin. Kilsədən götürdüklərini geri versinlər və bizimlə sülh etsinlər. Diqqət edin ki, məkkəlilərdən bir kişinin belə burnu qanamasın.

Habbat bu əmri alınca Kəbənin yaxınlığında olan Əsvədin yanına qaçdı. Əbrəhənin buyruğunu ona bildirdi.

Əsvəd:

– Elə isə barış üçün məkkəlilərin yanına sən get.

Habbat qalxdı. Əbu Qubeys dağına çıxdı. Əbdülmüttəlibə:

– Düşmən tərəfdən bir atlı gəlir, – dedilər.

Əbdülmüttəlib olduğu yerdən çıxdı, barışığa gələn Habbat atından düşdü. Qarşılaşdılar. Habbat:

– Ey Hərəm başçısı, hökmdarımız məni sənin hüzuruna göndərdi. Dedi ki: “Mənim kilsəmi qarət edənləri mənə təslim etsin, qiymətli əşyaları geri

göndərsin. Ölən insanların qan bahasını mənə yollasın. Bu şərtlərlə Kəbəni dağıtmayacağam. Şəhərlərini özlərinə bağışlayıram. Mən əsgərlərimi götürüb ölkəmə qayıdacağam”.

Əbdülmüttəlib cavab verdi:

– Sizin məlikinizin ağlı, düşüncəsi yoxdur? Bildiyi yəqin azdır ki, bu cür ağıla, ədalətə sığmayan tələbləri bizə göndərir. Bizim nə alandan, nə olandan, nə də ki bitəndən xəbərimiz yoxdur. Bizdən qan bahası istəyirsiniz. O daş-qaşı oğurlayanı biz haradan bilək? Bu səbəbdən bizimlə necə müharibə edirsiniz? Hökmdarınıza xəbər verin ki, əlindən nə gəlirsə etsin.

Habbat:

– Ey Əbdülmüttəlib, Əbrəhə kimi qüdrətli bir məlik sizinlə barışmaq istəyir. Sən necə olur ki, onun təklifinə razı olmursan?

Şeybətül-Həmd:

– Biz ondan daha qüvvətliyik.

Belə deyərək, bir əli ilə Habbatın yaxasından, o biri əli ilə qurşağından tutub yerə yıxdı.

Habbat çaşmışdı, ağlı başından getmişdi. Əbdülmüttəlib:

– Get indi, elçiyə zaval yoxdur, – deyiblər. Yoxsa indi aqibətini görürdün.

Habbat atına mindi, ildırım sürəti ilə oradan ayrıldı. Əsvədin yanına gəldi:

– Ey Əmir Əsvəd, bunlar söz başa düşən deyillər. Bilirlər ki, sehr ilə Əbrəhəni bağlayıblar. Mahmud fili götürüm düşürüblər. Artıq qorxuları qalmadı. Sözləri çox ciddi, acı idi. Gəl qılıncları çəkək, bunları öldürək. Məkkə şəhərini dağıdaq, bütün əhalisini qılıncdan keçirək. Sonra Kəbəni əlimizlə dağıdarıq, filə heç ehtiyac olmaz.

Əsvəd bu sözləri eşidib çox əsəbiləşdi. Əbrəhənin əmrini unudaraq bəylərinə:

– Əsgərləri hərəkətə keçirin, Məkkə şəhərini tam mühasirəyə alın. Əhalisini qılıncdan keçirin! – əmrini verdi.

Əbdülmüttəlibin casusları bu əmri eşitdilər və tez gedib ona xəbər verdilər.

– Habbat sizin sözlərinizi Əsvədə dedi. O da onun rəyi ilə əsgərlərə Məkkə üzərinə getməyi, adamlarını qırmağı, şəhəri yandırmağı, Kəbəni dağıtmağı əmr etdi.

## *ƏBABİL QUŞLARI GƏLİR*

Məkkəlilər birdən-birə qara Həbəş ordusunun hərəkətə keçdiyini gördülər. Bunu görən Əbdülmüttəlib:

– Bu fəlakət bitincə nə edək, nə çarə qılaq?- deyə düşünürkən, məkkəliləri heyrətə salan bir möcüzə göründü.

Dəniz tərəfdən, dənizin üzərindən qalxmış kimi bir qara bulud Kəbəyə doğru gəlirdi. Qaraltı getdikcə böyüyür, yaxınlaşırdı. Birdən Əbrəhə ordusunun üstünə gəldi. Qara buludun boyu Əbrəhə qoşununun boyu qədərdi. Eni də ordunun üstünü örtürdi. Qat-qat gələn bu şey göyün üzünü bağlamış bulud deyildi, qara bir kölgə deyildi, bu sıx toplanmış quş ordusu idi. Əbabil quşları idi bunlar. Allahın Kəbəni və onun camaatını, ana qarnında olan axırzaman peyğəmbərini qorumaq üçün göndərdiyi əbabil quşları idi.

Bu quşlar Əbrəhə ordusunda olan əsgərlər sayda idi. Hər əsgərə bir quş, hər quşda uç daş vardı. Quşlar aşağı endilər. Düşmən ordusu bulud kimi qaraltının quş olduğunu gördü. Qaranquşa bənzəyən, sığırçın boyda olan əbabil quşları. Quşların gətirdiyi daşlar təqribən noxud boyda idi.

Əsvədi qorxu bürümüşdü. Bağırdı:

– Bu göy üzündən gələn nədir?

Bu səs duyular-duyulmaz qatar kimi gələn quş ordusu, əbabil buludları bir az da aşağı endilər.

Əbdülmüttəlib də bu arada qaraltını görüncə:

– Bu qaraltı yağış buluduna oxşamır. Əlamətləri başqadır. Bunun nəticəsini gözləmək lazımdır, - dedi.

Əbrəhənin əsgərləri də qorxuya düşmüşdü. Əsvəd:

– Ey bəylər, mən bu qədər toplanmış quş sürüsü görməmişəm. Bunlar hansı yerdən toplandılar. Tez oxlarınızı atın və quşları qaçırdın, ürküdün uçub getsinlər.

Əsgərlər əllərini oxlarına atdılar, yaylarını çıxartdılar. Amma bunlar yarıda qaldı. Bu vaxt Allahdan əbabil quşlarına siccil daşlarını kafirlərin üzərinə buraxmaq əmri gəldi. Əbabil quşları gətirdiyi siccil daşlarını əsgərlərin üzərinə buraxdılar. Daşlar quşların dırnaqlarından əsgərlərin dəbilqəsinin üstünə düşəndə dəmirləri dəlir, beynini deşərək ürəyinə, sonra isə mədə-bağırsağını keçərək deşik-deşik edirdi. Atlıların atlarına da dəyərək qarınlarını deşib yerə tökürdü. Habbat beləcə həlak oldu. Yanındakı bəy də öldü. Məkkə vadisi ölülərlə dolmuşdu. Əsvədə daş dəyməmişdi. O qışqırdı:

– Ey Əbrəhənin qoşunu, göydən bizə daş yağır. Qaça bilən qaçsın.

Qaçmaq mümkündürmü? Sağ qalan əsgərlər atlarının başlarını geriyə döndərdilər, amma əbabil quşlarından qaça bilmədilər. Hamısına yetişirdi-

lər. Hər quş siccil daşlarını düşmən başına gürşad yağışı kimi, yox-yox, dolu kimi yağdırırdı. Əbrəhənin əsgərləri xəzan yarpağı kimi yerin üstünü örtmüşdü. Qaçmaq mümkün olmadı. Ancaq bir kişi qurtularaq özünü Əbrəhəyə çatdırdı. Onun otağına girdi. Əbrəhə ona Kəbənın dağıdılması xəbərinin çatdırılmasını düşündü. Sevinclə otağında ayağa qalxdı. Gələn adam onun ayağına düşdü. Əbrəhə:

– Ey xəbərçi, tez söylə, nə deyəcəksən?

O ağlaya-ağlaya qoşunların üstünə quşların necə daş yağdırmasını söylədi:

– Ey məlikəz-zaman, sənin əsgər və bəylərin başdan-başa qırıldı.

Əbrəhə birdən başını göyə qaldırıb yuxarı baxdı. Nələr görürdü... Əsgərin xəbər verdiyi quşlardan biri onun otağına tərəf uçurdu.

Xəbərçidən soruşdu:

– Bu üstümüzə gələn quş sənin söylədiyin quşlardandı?

Xəbər gətirən başını yuxarı qaldırıb baxdı:

– Bəli, ey məlik, bu quş da onlardandır.

Bu söz Əbrəhəni çaşdırdı. Quş gəldi. Əbrəhənin gözü önündə xəbərçinin başına bir daş buraxdı. Dəbilqəsinin üstünə düşən daş dəmiri deşdi, başını da, boğazını da deşib altından çıxdı. Adam səsini belə çıxara bilmədən həlak olub getdi.

Əbrəhə siccil daşını ancaq bir göz qırpımında, bir anda görmüşdü. Noxuddan bir az böyük, fındıqdan bir az kiçik olardı. Rəngi də torpaqdan yığılmış fındıq rəngində idi. Hətta ölmüş adamın adı da üstünə yazılmışdı. Həbəşli başçı daşın yerə keçib getdiyini də görmüşdü.

Kimsə o daşın nə olduğunu bilə bilməmişdi. O zamana kimi ki vəhy bunu Rəsuli-Əkrəm Məhəmməd Mustafaya xəbər vermişdi. Camaat bunu o zaman öyrənmişdi.

Həzrəti-Məhəmməddən səhabələr soruşmuşdular, Rəsuli-Əkrəm bu cavabı vermişdi: "Allah-təalanın əmri ilə siccil daşını Əbabil quşları cəhənnəmdən gətirdilər. O insanlar bu daşlarla həlak olunacaqdı. Bu qövm həlak olandan sonra siccil daşlarının artıq yer üzərində işi qalmamışdı. Yeddi qat yeri deşib yox oldular".

Əbrəhə qışqırmağa başladı:

– Bizim üstümüzə qəzəb enmişdir. Həmən atları hazırlayın.

Tez bir zamanda atlar və surətli həcin (iki donqarlı və çox sürətli qaçan) dəvələr hazırlandı. Əbrəhə onu müşayiət edən adamlarla birgə Yəmən yolunu tutdu.

İldırım kimi qaçırdılar. Atları quş kimi uçurdu. Həcin dəvələrə minmiş adamlar da külək kimi onların arxasınca gəlirdilər. O gün gecə böyük sürət-

lə yollarına davam etdilər. Ordu, böyük fillər Məkkə ətrafında qalmışdılar. Həlak olanların cəsədləri ilə vadilər dolmuşdu.

Yaşıllıq olan yerə çatanda Əbrəhə dayandı və orada dincəlmək əmri verdi: "Buraya, yəqin ki, quşlar gələn deyil", – fikirləşdi. Ancaq ümidi boşa çıxdı. Elə yerə enmişdi ki, uç quşun ona tərəf gəldiyini gördü. Birisi gəldi yaxınlaşdı, Əbrəhənin qolunun üstünə bir daş buraxdı. O noxud boyda daşın dəyməsi ilə Əbrəhənin qolu bir anda çiyindən qopub düşdü. Qan axmadı. Yara da olmadı. Sanki bu qol birovuz olub bal mumu ilə yapışdırılmışdı və qopdu. Əbrəhənin canına qorxu düşdü. Can qorxusundan yenidən atına mindi. Yenə atını qovaraq qaçmağa başladı. Haraya gedirdi? Əlbəttə, ölümə. Ona ölüm təyin olunmuşdu. Bunu Həbəş imperatoru da görməli və ibrət almalı idi.

Gecə yenə qaçmaqla keçdi. Nəhayət, bir yerdə durdular. Dincəlmək istədilər. Artıq havada quşlar görünmürdü. Heyvanlara ot verə bildilər. Amma yenə göy üzündə quşlardan birinin uzaq bir məsafədən gəldiyini gördülər. Quş gəlib yaxınlaşdı, endi, bir dənə siccil daşını Ərbəhənin o biri qolunun üstunə buraxdı. Bu qolu da çiyindən qoparaq yerə düşdü, sanki heç bədənə birləşməmişdi.

Ərbəhənin canı boğazına yığılmışdı. Bu qorxu ilə atına mindi. Yenə bir gün, bir gecə getdilər. Əbrəhənin bu arada qollarından sonra ayaqları da qopmuşdu.

Nəhayət, Yəmənə yetişdikləri zaman artıq yanında üzəngilərini tutan da çatmadan əvvəl ölmüşdü. Əbrəhə güc-bəla ilə saraya girdi. Yəmən bəyləri onu bu halda görüb çaşdılar. Nə baş verdiyini soruşdular. Əbrəhə gördüklərindən, eşitdiklərindən danışdı. Az sonra Əbrəhənin başı da qopdu, yerə yuvarlandı.

Həbəşlilər bu hala çaşıb qaldılar. Bu müharibəyə gedən, başda sərkərdələri olmaqla Məkkə üzərinə hücum edən 60 minlik Həbəş və Yəmən ordusundan bir nəfər belə sağ qalmamış, qurtulmamışdı. Yalnız Hindistandan fil baxıcılığına gəlmiş iki kişi qurtulmuşdu ki, Həzrəti-Məhəmməd zamanında bunlar dilənçi kimi Məkkədə dolaşırdılar. Nə fillər,nə atlar, nə də insanlardan biri sağ qalmamışdı.

Böyük bir Həbəş ordusunun Əbabil quşlarının atdıqları daşlarla həlak olduğunu görən Əbdülmüttəlib, camaatı, ev əhli və nəsli ilə nələrə şahid olmuşdular? O dəhşət nə idi, o göydən kafirlərin üstünə enən qəzəb, o əzab nə idi? Yerlərin üstünü qarışqa kimi tutmuş böyük ordu bir an içində qəzəb odu ilə həlak oldu. O nağara, təbil, şeypur səsləri, atların kişnəməsi, fillərin homurtuları, o heybət və qüvvəti təmsil edən ordu bir saat içində məhv olub getmişdi. Hər tərəfdə yer daş döşənmiş kimi cəsədlərlə örtülmüşdü. İnsan

cəsədləri ilə yanaşı fil, at, dəvə ölüləri ətrafı tutmuşdu. Məkkəlilər yerlərdə yatan bu cansızlara baxdıqca özləri də qorxuya düşmüşdülər.

Ulu Tanrının qəzəbi, böyüklüyü, qüdrəti qəlblərinə düşmüşdü. Hamının sanki dili tutulmuşdu. Gücləri, taqətləri qalmamışdı. Üzlərini torpağa qoyub səcdə etdilər. O gün, o gecə nə edəcəklərini belə bilmədilər.

Əbdülmüttəlib onları bir araya topladı:

– Ey mənim qövmüm, şükürlər olsun ki, qurtulduq. Tanrı düşməni gözümüz önündə məhv etdi, həlak etdi. Ey Haşimoğulları, dağılın, qureyşlilərə xəbər verin. Şama gedənlərə şad xəbər göndərin ki, geri dönsünlər. Artıq vətənimiz düşmən istilasından qurtuldu.

Əbdülmüttəlib Şama xəbərçilər göndərdi. Özü də yanına bir neçə kişi alaraq yerə səpələnmiş Əbrəhə əsgərlərinin arasına getdi. Nədən ölmüşdü bunlar? Siccil daşları bu cəsədləri təndir kimi qovurmuşdu. Üzərlərində ətdən əlamət qalmamışdı.

Şeybətül-Həmd bunu görüncə Allaha şükür elədi, üzünü yerə qoyub səcdə etdi, yalvarmağa başladı.

İndi Məkkənin sevinc səsləri Əbu Qubeys dağından gəlirdi. Onlar ölənlərin yanına gəldilər, siccil daşlarını axtardılar, amma tapa bilmədilər. Əbrəhənin ordusu hələ ana bətnində olan Həzrəti-Məhəmmədin hörmətinə tam məhv edilmişdi. Əbdülmüttəlib həmin ordunun buraxdıqları qəniməti toplamağa başladı. Qənimət çox böyük idi. Silah, parça, başqa əşyalar. Hamısını bir araya topladılar. Yeddi gün, yeddi gecə çalışaraq Bətha vadisində bir yerə yığdılar, xəzinə etdilər. Qureyşlilərin qaçanları da gəlib çıxmışdı. Qənimətləri gördükdə dedilər:

– Düşməni görəndə bizi qırmağa gəldiyini hesab edirdik. Amma bizə mal və xəzinələr gətirdiyini bilməzdik.

Bütün məkkəlilər bu mallardan, qılınc və paltarlardan istədikləri qədər götürdülər. Əlləri qılınc, ox, yayla dolu idi. Böyük, kiçik, bütün məkkəlilər zəngin oldular. Əbrəhə ordusunun aqibəti bütün ölkələrə, iqlimlərə yayıldı. Məkkəyə Yəməndə gələn Həbəş hökmdarı Nəcaşinin adamları ölülər oradan yox oluncaya gədər ibrətlə tamaşa etdilər. Əcəm hökmdarı Kəsra da Əbrəhənin başına gələni eşitmişdi. Ona Əbrəhənin rüsvayçılıqla və əzabla ölüm xəbəri yetişmişdi.

O zaman məliklər Əbdülmüttəlibə elçilər göndərir, düşmənin məhv olması və onların isə qalib gəlməsi münasbəti ilə təbrik edirdilər. Haşimoğullarının şöhrəti və hörməti qat-qat artdı, Əbdülmüttəlibin şərəfi və ululuğu yüksəldi.

Nədən hörmətli, izzətli oldu? Əlbəttə, onun bu şərəfə, ululuğa böyük haqqı vardı. Hər kəs Məkkədən ayrılıb qaçarkən o özü, oğulları, qızları, xa-

nımları, hətta ana bətnində olan nəvəsi də düşmən qılıncı altında oturub qalmışdılar. Təkbaşına Əbrəhənin yanına getməyi, Əsvədin apardığı iki yüz dəvəsini alıb geri gətirməyi dillərdə gəzirdi. Allaha təvəkkül edib durmuşdu. Ulu Tanrı onun əsas işlərini bitirmiş, düşməndən qorumuşdu. Onun arzusu yerinə yetmişdi.

Ey əzizlər, bunu bilməlisiz ki, Kəbə əziz, sərəfli, müqəddəs bir məkandır. İman əhli səviyyəsində möhtərəm və təkrarolunmazdır. Ziyarəti şərəflidir.

Nəhayət, bu qədər izzət, hörmət, şücaət, qiymət, bu yüksək mərtəbə, o Rəsulu möhtərəm, o nəbiyi-möhtəşəm, o şərifi-ümmət, o Sultani-qiyamət Məhəmməd Mustafanın möcüzəli bərəkətindəndir. Allahın səlat və salamı ona olsun. Çünki onun dünyaya gəldiyi il Ulu Tanrı fil sahiblərini məhv etmişdi. Məkkəlilər filin gəldiyi ili tarix başlanğıcı saydılar. Bu ili "Amil fil-fil ili" dedilər. Fil ili peyğəmbərin hicrətinə qədər davam etdi.

Hz. Məhəmmədə qədər gəlmiş bütün Haqq peyğəmbərlərinin zamanında peyğəmbərlər həyatda ikən Tanrı onların qövmünü əzab içində həlak edərdi. Amma Hz. Məhəmməd dünyaya gəlməmişdən Haqq-Təala düşmənlərinin üstünə əzab göndərmişdi. Onun ümməti də qalan ümmətdən gözəldir.

Haqq-təala buyurmuşdur: "Necə ki Rəsulun mübarək cismi istər yer üzündə olsun, istərsə də yer altında olsun, Allah-təala yer üzündəki xalqa əzab verməyə, surətlərini məsh etməyə, əvvəlki qövmlərə gələn ay tutulması, günəş tutulması, şimşək, ildırım, tufan nə rahat yaşayış halında, nə də ondan sonra Rəsul qövmünə gəlməyə". (Sədəqallahül-əliyyül-əzim. Çox uca və çox əzəmətli Allah doğru buyurdu).

Bəli, bu idi, Məhəmməd ümmətinin başqa ümmətlərdən üstünlüyü.

Beş ayətdən ibarət "Fil" surəsində Kəbəni yıxmaq üçün gəlmiş fil sahiblərinin necə həlak edildiyini bildirmişdir.

Əbdülmüttəlib Məkkə əhlinə ziyafət verdi. Ərəb qəbilələrindən bir çox insan "mübarək olsun"a gəldilər. Sevinclərini bölüşdülər. Hamı çox sevindi, könüllərə fərəh və şadlıq doldu.

Məhəmmədin doğulması da yaxınlaşırdı. Fil savaşı onun anadan olmasından əlli gün öncə olmuşdu.

## *HƏZRƏTİ ABDULLAHIN VƏFATI*

Əminə xatunun bətnindəki uşağın yeddi ayı bitmiş, səkkiz aya keçmişdi. Əminə xatun bir gün havadan bir səs eşitdi. Bu səs deyirdi:

– Ya Əminə, Rəsulun dünyaya gəlməsi yaxınlaşır.

Əminə xatun bu halı Əbdülmüttəlibə söylədi. Əbdülmüttəlib oğlu Abdullahı yanına çağırdı:

– Ey oğul, Əminənin uşağının dünyaya gəlməsi yaxınlaşdı. Mən elə fikirləşirəm ki, bu uşağın doğulması sevinci böyük olacaqdır. Sən bir neçə dəvə götür, bir dəstə gənc igidlə birlikdə Mədinəyə get. Bir neçə dəvə yükü xurma, müxtəlif cür lazımlı əşyaları al, gəl. Bu çox lazımlı işdir.

Abdullah:

– Baş üstə, – deyərək hazırlıq işlərinə başladı. Bir səhər karvanla Məkkədən Mədinəyə doğru yola çıxdı. Mədinəyə gəldikdə lazımı əşyaları aldı, hazırlandı. Məkkəyə dönmək üçün şəhər qapılarından çıxdı.

Əminə Abdullaha sağ-salamat deyib yola saldıqdan sonra evində oturmuşdu. Haşimoğulları və öz qəbiləsi Zührəoğullarından bir çox qohumlar gələrək ona: "Allah qovuşdursun", – deyirdilər.

Əbdülmüttəlib də oğlu ilə sağollaşıb Kəbəyə gəldi. Yerinə oturdu. Uşaqlarını ətrafına yığmışdı. Nədənsə bu gün daxilində bir kədər, qüssə vardı. Nə idi bu kədər, qüssə? Könlü sanki karvanla birgə getmişdi. İçinə bilmədiyi üzüntü çökmüşdü. Bir neçə dəvə yükü xurma və lazımı əşyalar ilə dönməsini gözlədiyi Abdullah sarıdan nədənsə narahatlıq duyurdu. Günlər keçirdi.

Əminə xatun da qarnındakı uşağın hərəkətlərini hiss etdikcə, böyük sevinc keçirirdi. Mədinə tərəfə baxaraq:

– Abdullah, Abdullah. Yaxında uşağın olacaq, oralardan tez qayıt, – deyirdi.

Karvanın geri dönməsi zamanı yaxınlaşırdı. Abdullah ilə Mədinəyə gedən igidlərin ailələri və xanımları Məkkə qapılarına çıxır, uzaqdan karvan kölgələrini arayırdılar. Analar oğullarını, qadınlar ərlərini, qardaşlar isə qardaşlarını gözləyirdilər.

Amma gənc ataya əcəl yetişmişdi. Abdullah Mədinədə xəstələnmiş, doğulacaq uşağını görmək üçün Məkkəyə dönə bilmirdi.

Bir axşam karvan Məkkəyə dönəndə, Abdullahın qardaşlarını hüznlü bir üzlə qarşıladılar. Gözlərdən yaş axmağa başladı. Bunlara nə olub? O gün Əbdülmüttəlib də Mədinə yoluna çıxmışdı. Gələn oğullarını dərin üzüntü içində görüncə:

– Nə var, nə oldu? – deyə soruşdu, – Abdullah haradadır?

Uşaqları:

– Abdullah xəstələndi, – deyə cavab verdilər.

– İndi haradadır?

– Nənəmiz Səlma xatunun evində. Böyük dayılarımız Nəccaroğulları ona baxırlar.

Əbdülmüttəlib fikrə dalmışdı. Oğulları:

– Anası Fatiməyə bu xəbəri necə deyəcəyik?

Əbdülmüttəlib ətrafına baxdı. Ən böyük oğlu Harisi tapdı. Onu görüncə:

– Oğlum, Haris, tezcə hazırlaş, ən sürətli dəvəyə min, Mədinəyə get. Qardaşını gör, mənə bir yaxşı xəbər gətir, − dedi.

Zəmzəm quyusunun açılmasında ən böyük əziyyətlərə sinə gərən Haris tez hazırlandı. Mədinəyə yola çıxdı. Amma ata bıçağı ilə qurban olmaqdan qurtulan Abdullah alın yazısı olan əcəldən qurtula bilmədi. Mədinəyə çatan Harisə xəstə yatağını yox, məzarını göstərdilər. Aylarla uşağının dünyaya gələcəyini gözləyən gənc ata onun qoxusunu ala bilmədi. Bu çox qəmli bir tale idi.

İki cahanın sərvəri doğulmamışdan yetim qalmışdı. Acı və qara xəbər Əbdülmüttəlibə yetişdiyi zaman bütün ailə matəmə büründü. Abdullahın ölümünə çox məyus oldular. Əminə anamızı isə saxlaya bilmirdilər, hey ağlayır, ağlayır, ağlayırdı.

Özü-özünə deyirdi: "O dünyaya gəlməmiş atası öldü, yetim qaldı. Uşağım yetim, mən dul qaldım. İki nur bir araya gələcək deyə sevinirdik.Şadlığımız matəm oldu. Mənim başıma gələn, görəsən, cahanda kiminsə başına gəldimi?"

Göz yaşlarını saxlamaq olardımı? Bu iniltiləri eşidən Əbdülmüttəlib gəlininin yanına gəldi:

– Ağlama, göz yaşları tökmə, ey Əminə, − dedi.

Ona təssəli verib, könlünu alaraq and içdi:

– Əziz gəlinim, sənin qulluğunda mən duracağam. Gəlib evində oğluna baxacağam. Onu heç kimə verməyəcəyəm. Allahın mənə verdiyi ömürlə özüm böyüdəcəyəm.

Gənc ana bu sözlərdə bir az da olsa, özünə təsəlli tapmışdı. Doğrudan da, o gündən nurani ixtiyar bu insan Əminə ananın xidmətində özü durdu.

Səkkiz ay keçmişdi, Əminə xatunun gözünə mələklər görünürdü. Bu mələklər quş boyda idi. Qanadlanıb uçurdular. Bəzən zərif, naməlum səslər eşidərdi. Bu səslər ona:

– Ey Əminə bəxtlisən, taleyin sənə axırzaman peyğəmbərinin anası olmağı qismət edib, – deyirdi.

Mələklər ona belə xoş xəbərlər verirdi.

## *Hz. MƏHƏMMƏDİN DOĞULDUĞU GECƏ*

Doqquz ay tamamlanmışdı. Rəbiül-əvvəl ayının on ikinci gecəsi, yəni İsnəyn gecəsi olmuşdur (İki cahan sərvəri Hz. Məhəmmədin doğulduğu gecə). O gün "ağ günlər" gecələrinin başlanğıcı idi. "Ağ günlər" gecələri ayın on iki, on üç, on dörd və on beşinci gecəsinə qədər üç gecədə ay işığı daha bol olur. Əbdülmüttəlib bu üç gecədə evinə getməz, Kəbədə qalar, bütün gecəni təvaf edərdi.

O isneyn gecəsi, Rəbiül-əvvəl ayının on ikinci gecəsi Şeybə Əminənin evinə gəldi və soruşdu:

– Vacib olan işin, arzun varmı?

Əbdülmüttəlib gəlininin bütün çatışmayan, lazım olan işlərini bitirdi. Qapısını kilidlədi, açarını aldı. Onu yalnız buraxmaqdan qorxurdu. Sevimli gəlininə sui-qəsd ediləcəyindən çox qorxurdu.

Şeybəoğulları ilə birlikdə Kəbəni təvaf edirdi. O gecə mövlud gecəsi idi. Bu gecə gözə görünməyənlərdən nələr görünürdü? Rəsulullah necə doğuldu? Əminə uçan mələklərdən nə eşitdi? Böyük mələklərdən nə sözlər eşitdi? O gecədə baş verənlərdən yalnız Əminə xatunun xəbəri olmuşdu.

Əminə xatun demişdi:

– Mənə o gecənin əvvəlində bir işarə görünmüşdü. Bir kişi mənə göy üzündən səsləndi, dedi ki, ey səmaların və iki dünyanın xalqı. Bu gecə Seyyidül-əvvəl və axiri doğulacaqdır. Mən avazı eşidincə yuxarı baxdım. Sanki nur içində boğuldum. Yerlə göy arasında elə bil bir döşək döşənmişdi. Döşək ipəkdəndi. Sonra bir ulu mələk böyük bir hörmətlə qarşıma gəldi. Bu mələyin önündə uç bayraq vardı. Bir çox mələklər də peyda olmuşdular. Üzləri açıq, yaşıl qanadlı, gözəl üzlü idilər. Çoxu ata minmişdi. Atları da özləri kimi qanadlı idi və göy üzündə uçurdular. Üç aləmin birisini Şərqə, birisini Qərbə, birisini Kəbənin damı üzərinə təyin etdilər. Sonra cahanı böyük uğultu tutdu. O qaranlıq gecə birdən-birə tam aydınlıq oldu. Aydınlıq vaxtı o atlı mələklər göydən yerə endilər. Əbdülmüttəlibin evini yeddi dəfə təvaf etdilər. Sevinərək bir-birinə deyirdilər:

– Muştuluq olsun ki, aləmlərin arzu etdiyi Rəsulu və Rəbbül-aləmin Həbibi bu gecə dünyaya gələcəkdir.

Əminə xatun bundan sonrakı hadisələr üçün bunları demişdi:

– Mələklərin dilindən bu müxtəlif sözləri eşitdiyim zaman bir oğlan doğacağımı anladım. Üzülürdüm ki, lap yalnızam və yanımda canlı bir kimsə yoxdur. Əgər uşaq dünyaya gələcəkdisə, buna kim baxacaqdı? Kim onu bələyəcəkdi. Əbdülmüttəlib də qapını üzümə bağlayıb, kilidləmişdi. Kilidin açarını da özü ilə götürmüşdü. Mən bu çaşqınlıq içərisində oturub düşünər-

kən otağımın divarı birdən-birə yarıldı. Üç ağ parçaya bürünmüş qadın içəridə durmuşdu. Əvvəl mən bunları Əbdümənaf qadınlarından sanmışdım, amma bunlar cənnət hurilərindən imiş. Mənə o xatunların üzünün görunməməsinin səbəbi qorxuya düşüb ağlımın başımdan getməməsi üçün imiş. Üç mələk yanıma gəldi. Biri sağımda, biri solumda oturdu. İçərilərindən bir istiqanlısı, şirin, canlı, günəş kimi gözəl, ay kimi parlağı gəlib qarşımda oturdu. Sonra şirin sözlərlə mənə:

– Ey Əminə, nə bəxtlisən? – dedi, − elə bəxtlisən ki, axirət qadınlarının içərisində yeganə oldun. Bu səbəbdən ki, sərvəri-ənbiya Məhəmməd Mustafa səllallahu aleyhi və səlləmə ana oldun.

Əminə xatun bundan sonra doğum dəqiqələri üçün bunu demişdi: "Hurinin dilindən doğulacaq uşağımın doğulmadan əvvəl tərifini dinləyincə sevindim. Şad oldum, sonra istiqanlı, sirindilli mələk mənə: "Ey Əminə, özünü mənə etibar et", − dedi. Mən də özümü onun ixtiyarına buraxdım. Ondan sonra gördüm ki, cənnətdə uçan mələklər bölük-bölük, axın-axın gəlməkdədilər.

O, ülvi bir gecə idi. Əminə xatun heyran-heyran onlara baxırdı. Dəstədəstə gələn mələklər onun evinin dörd yanından girdilər. Rəngli paltarlar geymişdilər. Nurlarıyla qaranlıq gecəni işıqlandırırdılar. Əminə xatunun üstünə cənnət işığından saçmağa başladılar. Sonra yanına toplandılar. Əvvəl gələn üç huri sonra gələn mələklərdən soruşdu:

– Sizə cənnətdən çıxmağa kim icazə verdi?

Mələklər cavab verdilər:

– Ulu Tanrıdan Cəbrailə əmr verildi. O da göydə nida verdi: "Ey Rəhmanın mələkləri, sizə Ulu Tanrıdan sevinc xəbəri gətirdim ki, yaratdıqlarının ən şərəflisi, o axırzaman peyğəmbəri bu gecə doğulacaqdır. İbadətinizi artırın, yalvarışlarınızı çoxaldın. Şükürlərinizi çox edin. O Rəsula salavat göndərərək könlünüzü açın. Onun ümmətinə bağışlanma istəyin". Cəbrail sonra cəhənnəmin malikinə: "Yeddi cəhənnəm qapılarını bağla, tapşırığını ver!" – dedi. Cənnət qapıçısı Rizvana bu əmri verdi: "Səkkiz cənnət qapısını aç. Bizə gəl. Qılman və vələdan, hurilərlə cənnətlər içində cilvələnib gəzişsinlər. Hamısı Rəsulun mövluduna hazır olsunlar!" Bundan sonra cənnət əhli bura gəldi. Bizim böyüyümüz olan Cəbrailin dilindən bunları eşitdik, − dedilər.

### *Hz. MƏHƏMMƏDİN (s.ə.s.) DOĞULMASI*

Həzrəti Məhəmmədin (s.ə.s.) doğum dəqiqələri yaxınlaşarkən Cəbrail əleyhissalam göydə olan mələklərə havada qanad açıb uçmağı və cənnət müşkindən, ənbərindən dünya xalqının üzərinə səpmələrini nida etdi. Ta ki

bütün aləm o ətirləri hiss etsin. O gecə yanan atəş yaşdan və qurudan heç bir şeyi yandırmadı. Dənizlər sakitləşdi, dalğalar olmadı. Quşlar sevinclə hər tərəfdə cikkildəşirdilər. Bütün heyvanlar dilə gəldi, ağaclar, bitkilər, dağ və daşlar doğumdan xəbərdar oldu. Hər canlı və cansız Rəsulumuzun o gecə dünyaya gələcəyi xoş xəbərini bir-birinə söyləyirdilər. Buna sevinirdilər.

Hz. Əminə bundan sonrakı hadisələri belə anladırdı:

– Artıq mübarək saat gəlmişdi. Mən doğmaq halında idim. Çox susamışdım. Su istədim. Bir cövhərdən olan kuzədən mənə su verdilər. Aldım içdim, qardan soyuq, şəkərdən sirin idi. Sonra bir ağ quş gəldi. Qanadı ilə kürəyimi sığalladı. Elə bu an rəsuli-Rəbbül-aləmin dünyaya gəldi.

Hz. Əminə bundan sonrakı halları belə demişdir:

− Bu anda gözlərimdəki pərdənin qaldırıldığını gördüm. Önümdə Məkkə şəhəri görünürdü. Başdan-başa nura qərq olmuşdu. Göy üzünü isə mələklər tutmuşdu. Az qalmışdı ki, ağlımı itirim. Uşağı görmək istədim. "Görəsən, büküb bələyiblərmi?" − deyə düşündüm.

Gözumu bir də açdım, baxdım. Ətrafımda uşağı axtardım. Yoxdu, görmədim. Sevimli balamı tapmadım. Kim götürmüş onu yanımdan? İstədim, tapmadım. Nə olduğunu bilmirdim. Hurilərdən soruşmadım. Onu cənnət mələklərinin alıb apardıqlarını sanmamışdım. Yenə ağlımı başıma topladım. Bu anda uşağı qarşımda gördüm. Otağımın bir küncundə Kəbəyə qarşı səcdə qılmışdı, sağ əlinin şəhadət barmağını yuxarı qaldırmışdı. Nə dediyini bilmirdim.

Əminə xatun uşağı evin küncündə gördüyünü belə nəql etmişdi:

− Uşağımın evin küncundə səcdə etdiyini göruncə, onu qucağıma alıb bağrıma basmaq istədim. Həmin an səmadan qulağıma bir səs gəldi: "Məhəmmədi camaatın gözündən üç gün gizli saxlayın. Onu peyğəmbərlər sifəti ilə sifətləndirin. Əvvəlcə Məhəmmədə Adəm peyğəmbərin əxlaqını verin, sonra Şit peyğəmbərin mərifətini, Nuh peyğəmbərin şücaətini, İbrahim peyğəmbərin dostluğunu, İsmail peyğəmbərin aydın və gözəl danışma bacarığını, İshaqın Haqq əmrinə boyun əyməyini, Salihin fikir söyləmək bacarığını, natiqliyini, Loğmanın hikmətini, Yaqubun uzaqgörənliyini, Yusifin üz gözəlliyini, Eyyubun səbrini, Musanın təcrübəsini, Yuşanın mübarizəsini, Davudun gözəl səsini, Süleymanın heybətini, Danyalın məhəbbətini, İlyasın vüqar və təmkinliyini, Yəhyanın ismətini, Zəkəriyyənin etibarlılığını, İsanın ibadətlə məşğul olmaq tərzini verin. Məhəmmədi bütün nəbilərin vərdiş və fəzilətləri ilə sifətləndirin və xalqın gözündən gizli tutun".

Mən qeybdən gələn bu sözləri eşidincə, səsin ululuğundan çaşıb qalarkən, bir anda uşaq gözumdən qeyb oldu. Dörd yanıma baxdım, axtarmağa başladım.

Əminə xatun Rəbbil-aləmin Rəsulunu gözləri ilə axtarırdı. Bəs bu uşağa nə olmuşdu? Bir neçə dəqiqə donub durmuşdu. Təkrarən Məhəmmədi gətirib önünə qoydular. Uşağın əlində üç kilid dili vardı. Bunlar yaş incidən düzəldilmişdi. Sonra bir mələkdən soruşdu:

– Məhəmmədin əlindəki üç kilid dili nədir?

Mələk cavab verdi:

– Ulu Tanrının Həbibini və Rəsulunu hüzuruna apardıq. Məhəmməd oradan bu kilid dilləri ilə dünyaya göndərildi.

Mələklər bu kilid dillərinin nələrə məxsus olduğunu bilirdilər. Amma onların bir-birinə söyləmək üçün məqsədləri Hz. Əminənin danışılanları bilməsi, öyrənməsi və bunları camaata bildirməsi idi.

Əminə xatun uşağı təkrar əlinə almaq istədi. Həmən üç mələk hüzurunda durdular. Sanki hər birinin üzü on dörd gecəlik bir ay kimi parlayırdı. Başqa mələklər gözdən qeyb olmuşdular. Əminə xatun bu üç mələyin əllərinə baxdı. Birinin əlində ağ gümüşdən kuzə vardı. Birinin əlində yaşıl rəngdə bir ləyən vardı ki, zəbərcəddən (Zümrüdə bənzər qiymətli daş) düzəldilmişdi.Birinin əlində isə qızılı rəngli ipək parça qatlanmış və bükülmüş dururdu.

Ləyəni tutan mələk yavaş-yavaş irəlilədi. Ləyəni Rəsulun önünə qoydu. Sonra dedi:

– Ey Məhəmməd , bu ləyən dünyaya bənzərdır. Dünyanı sənə ərz etdim. Məqamın orda olacaqdır. Oturacağın bölgə üçün əlini ləyənin bir yerinə qoy.Ta ki mən sənə o yerin şərqini, qərbini, hansı iqlimdən olduğunu söyləyim, sənə bildirim.

Əminə xatun diqqətlə izləyirdi. Baxdı. Oğlu ləyənin ortasına əlini toxundurdu. Bu hala hamı heyrətlə baxırdı. İndi doğulmuş bir uşaq bu sözləri necə anlamışdı. Sanki bu böyük insandır.

Amma Əminənin haqqı vardı. Bilmirdi ki, Məhəmmədin önündə yaradılmışlar uşaqdır və onun yaşı iki dünya mövcudlarından da böyükdür.

Ey möminlər, ey müsəlmanlar, rəsul haqqında söylənən sözlərə, sifətinin şəklinə, möcüzələrinə, kəramətinə olmaya şübhə edəsiniz. Dininizə zəiflik gəlməyə. Bəlkə, imanınız azalmış olsun. Çünki Rəsulun məqamı ulu məqamdır. Onun dərəcəsi yüksəkdir. Bütün peyğəmbərlər, vəlilər, din üləmaları, peyğəmbərimizdən (s.ə.s.) əvvəl və sonra gəlmiş olanlar hamısı – Rəsulun (s.ə.s.) halına heyran oldular.

Həzrəti Əminə sözlərinə belə davam etdi:

– Ləyəni tutan mələk Məhəmmədə: “Sənin məskənin Məkkə şəhəri olacaq”, − dedi. Qızılı ipək dəsmalı tutan mələk Məhəmmədi yerindən qaldırdı. Ləyəni tutan mələk:

– Ey cənnət xəzinədarı, Ulu Tanrının peyğəmbəri ilə, rəsulu ilə məşğul ol.

O zaman cənnətin gözətçisi Rizvan Məhəmmədi aldı. Örtüklərini çıxardı, çılpaq qaldı. O zəbərcət ləyənin içinə qoydu. Yeddi dəfə kuzədəki su ilə Məhəmmədi yuyub yaxaladı. Sonra o sudan içirtdi. İpək dəsmal tutan mələyə:

– Əlindəki ipək dəsmalı aç, – dedi.

Mələk dəsmalı açdı, içindən bir üzük çıxardı. Cənnət qapıçısı Rizvan üzüyü əlinə aldı. Məhəmmədin iki kürəyinin arasına üzüklə bir möhür vürdu. Bu Peyğəmbərlik möhrü idi. Rizvan möhürü geri çəkdiyi zaman onun nuru Məhəmmədin arxasında bir möhür izi buraxdı. Olan bitənə Hz. Məhəmmədin anası Əminə xatun hələ yerində çaşqınlıqla baxırdı.

Əminə xatun bildirirdi ki, Cənnət qapıçısı Rizvan sonra Məhəmmədi qanadının altına aldı. Az keçdi, çıxardı. Əlinə aldı, əyildi və Məhəmmədin qulağına nə isə söylədi. Bir-iki söz pıçıldadı. Hz. Əminə bu sözləri eşitmək üçün qulaq asmaq istədi. Ancaq heç bir şey eşitmədi, heç nə anlamadı.

Cənnət qapıcısı Rizvan dilini uşağın ağzına uzatmışdı. Məhəmməd Rizvanın dilini əmdi.

Əminə xatun daha da böyük heyranlıqla baxırdı. Rizvan dilini çəkmişdi və uşaq dodağını yalamağa başlamışdı.

Rizvan o zaman dilə gəldi:

– Ya Həbibi, ya Seyyidi, ya Rəsulullah, – dedi, – səni dilimdən əmizdirdiyim ilmüləvvəlin və İ’axirindir. Üzük ilə arxana vurduğum, nişan etdiyim də Peyğəmbərlik möhrüdür. Peyğəmbərlərin sonuncusu, aləmlərin Rəbbinin Həbibi, yer və göy əhlinin Seyyidi sən oldun. Bu rütbə və ucalığın mübarək olsun!

Rizvan bundan sonra yenə Məhəmmədi ağ parçaya sarıdı, bələdi. Həzrəti Əminənin qarşısına qoydu. Bundan sonra bu mələklər də Məhəmmədlə vida edib gözdən yox oldular. Yerlərinə getdilər. Artıq ana balası ilə başbaşa qalmışdılar.

Böyük həvəslə irəli atılan Əminə tez uşağı əlinə aldı. Sinəsinə götürüb bağrına basdı. Üzünü üzünə sürtdü. Bu vaxt Məhəmmədin dili və dodağı oynamaqdaydı. Elə bil ki, hansısa sözləri deyirdi. Anası bu sözlərdən heç bir şey anlamırdı.

## *MÖVLUD GECƏSİNİN HADİSƏLƏRİ*

Həzrəti Məhəmmədin doğulduğu bu gecədə isə dünyada nələr baş verirdi.

İraq elində, Mədain şəhərində Əcəm hökmdarı Nuşirəvanın taxtı çatlamışdı. Taxt çatlamazdan əvvəlcə Mədain şəhəri zəlzələdən dağılmışdı. Sa-

rayda olanların ağlı getmiş, sərsəmə dönmüşdülər. Kəsra taxtından yerə yıxılmışdı. Sarayın on dörd yerindən uçuqlar əmələ gəlmişdi. Taxt çevrilmiş bir tərəfi havada qalmışdı. Atəşə ibadət edən Məcusilərin (atəşpərəstlərin) atəşləri sönmüşdü. Bütün atəşə ibadət edənlərin atəş ocaqlarında od qalmamışdı.

## *YƏMƏNDƏ BAŞ VERƏNLƏR*

O gecə Yəməndə də başqa hadisələr baş verirdi. Orada məşhur bir yer vardı. O, dar dərə idi ki, içindən yollar keçirdi. Dar dərənin bir tərəfində böyük  bir qaya vardı. Qaya parçalandı və dərənin dar hissəsini doldurdu. Boğaz bağlandı, yol da tutuldu. Hz. Məhəmmədin doğumunun nişanlarından biri də bu oldu. Əcəmistandakı  (İran ölkəsi )Savə şəhərində dəniz suları çəkildi, qurudu. Kəbədə və başqa yerlərdəki bütlər yer üstünə baş qoyaraq səcdə etdilər.

## *KƏBƏDƏKİ HADİSƏLƏR*

O gecə Kəbədə təvaf və yalvarıb-yaxarmaqla məşğul olan Əbdülmüttəlib Kəbənin də Əminə xatun olduğu evə tərəf səcdə etdiyini gördü. Yerə əyilmiş və təkrar düzəlmişdi. Amma nə divarına, nə də damına bir şey olmamışdı. Şeybə bunu görüncə dili tutulmuş, çaşmışdı. Bütlərin də üzlərini torpağa qoymalarına şahid olmuşdu.

Əbdülmüttəlib yuxu görürdümü?

– Xeyr!

Kəbənin içindən bir avaz gəlirdi:

– Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər! Əlhəmdülillahi əzharə Muhəmmədən Seyyüdülbəşər. (Allah böyükdür, Allah böyükdür, Allah boyükdür. Allaha həmd olsun ki, insanların Seyyidi Məhəmmədi dünyaya gətirdi).

Kəbənin dörd sütunu və küncü bir-birinə salam verib: “Müjdələr olsun, Rəsulullah doğuldu”, − deyirdilər.

Əbdülmüttəlib bu əlamətləri görüb, sözləri eşitdikcə artıq başqa qərarı qalmadı. Kəbədən bayıra cıxdı, Əminə xatunun evinə yollandı. Məkkə şəhəri nə qədər nur, aydınlıq içində idi. Bu nur Əminə xatunun evindən bütün Hicazın üzərinə səpələnirdi. Hər tərəfdən Ulu Tanrıya həmd olsun səsləri gəlirdi. “Lə ilahə İllallah” səsləri içində quşlar və heyvanlar bir-birlərinə:

– Bu gecə Məhəmməd Rəsulullah doğuldu, aləmlər rəhmətlə doldu, − deyə, – xoş xəbərlər verirdilər.

Əbdülmüttəlib ağlı başdan getmiş kimi Səfadan Mərvəyə kimi yeridi. Səfanın Mərvəyə, Mərvənin Səfaya salam verdiyini gördü. Bir-birlərinə Rəsul (s.ə.s.) doğulduğunu xəbər verirdilər. Sonra evə gəldi. Açarla qapını açdı. Əbdülmüttəlibin heyrəti daha da artdı. Böyük sevinc içində gəlini Əminə xatunun səsini eşitdi.

Otağın qapısının yanına gəldi. Gözlərini Əminənin üzündə gəzdirdi. – Aaaa? – qalmamışdı?

Bu nədir? Əminənin alnındakı nurdan əsər belə görmədi. Əminə xatundan soruşdu:

– Ya Əminə, alnındakı nur nə oldu?

Əminə xatun:

– Nur sahibi dünyaya gəldi.

Şeybə:

– Nədən səndə doğum əlamətləri yoxdur?

– Doğum halında qadınların gördüklərini mən görmədim. Əziyyət çəkmədim, incimədim, ürəyim sıxılmadı. Heç səsim çıxmadı, uşağı çox asan doğdum.

Şeybə:

– Mənə nəvəmi göstər, ya Əminə, − deyə xahiş etdi.

Əminə xatun:

– İzin yox, İcazə yoxdur, – dedi.

Bu sözə Şeybətül-Həmd məyus oldu.

– Ya Əminə, mənə icazəni kim verməlidir və məni evimə girməyə qoymayan kimdir?

Əminə xatun suala belə cavab verdi:

– İndi səndən əvvəl kimsə gəldi. Mənə "üç gün uşağı heç kimə göstərmə və evinə kimsəni qoyma" söylədi.

Əbdülmüttəlib:

– Sən dəli olmusan? Mənin səbrim, qərarım qalmadı. Məhəmməd dünyaya gəlsin, mən onu görməyim, bu mümkun olarmı?

Əminə xatun Əbdülmüttəlibə:

– Fərman sizindir! – deyərək ona yol verdi.

Əbdülmüttəlib otağın qapısından içəri girib elə ilk addımını atan anda qarşını heybətli və güclü bir kimsə kəsdi və soruşdu:

– Sən kimsən? Haradan gəlirsən?

Əbdülmüttəlib:

– Oğlumun oğlunu görmək istəyirəm. Onun otağına gedirəm.

Naməlim şəxs:

– Üç gün sizə icazə yoxdur. Onu ancaq göydəki mələklər və hurilər ziyarət edəcəklər. Ondan sonra sizə izin var.

Əbdülmüttəlib bu cavabı eşidib Əminə xatunun yanına gəldi və ona:

– Ya Vahabın qızı Əminə, nə sənin kimi bir qadın dünyaya uşaq gətirdi, nə də sənin uşağın kimi uşaq dünyaya gəldi.

Əbdülmüttəlib oradan Kəbəyə döndü və ibadətlə məşğul olmağa başladı.

## *DÜNYAYA BOLLUQ VƏ BƏRƏKƏT GƏLDİ*

Bəli, Əbdülmüttəlibin bu sözlərində həqiqət vardı. Uşaq dünyaya gələndə heç bir zaman nə göydə, nə də yer üzündə bu cür müxtəlif əlamətlər görünməmişdi. Halbuki o Hz. Rəsul (s.ə.s.) doğulduğu vaxt səmada, yer kürəsində müxtəlif əlamətlər göründü. Göy üzündən Fil qövmünə əzab və cəza enmişdi. Əbrəhənin 60 minlik ordusu və özü həlak olmuşdu. O il bir ilə yaxın zamanda yağış yağmamışdı. Bitki bitməmişdi. Böyük quraqlıq və qıtlıq olmuşdu. Hz. Rəsul doğulduğu il yağışlar yağdı. Hər tərəf yamyaşıl, hər yanda gül-çiçək oldu, məhsul gözlənildiyindən də artıq, bol idi. Rəsul bərəkatından ucuzluq Oldu. Məkkəlilərin hər biri də Əbrəhə ordusunun qənimətləri ilə zəngin oldu. Neçə xeyirli qapılar açıldı. Həzrəti Məhəmmədlə birlikdə Məkkədə dörd yüz oğlan uşağı dünyaya gəlmişdi. Bir çoxu da Rəsulullahın əshabında olmuşdular. Bunların içərisində Əbu Cəhl məlun, Rəsula düşmən olanlardandır. O da Rəsulun doğulduğu gündən iyirmi gün sonra anadan olmuşdu.

O gecə doğulan qırx uşaqdan biri Yasir oğlu Əmmar, biri Məsud oğlu Abdullah, biri də Mətun oğlu Osman idi. Dördü də ulu səhabələrdən idi. Qalanları da başqa yerlərdə anılacaq.

Rəsulullah (s.ə.s.) dunyaya gəldiyi gecə şeytan ilə onun nəsli göy ilə yer arasında fəryad edərək bağırışmağa, çığırışmağa başlamışdılar. Bu səsi eşidənlərin ya qulağı deşilirdi, ya da ölürdü. Şeytanın səsini eşidənlər arasında olan bəzi kahinlər birdən-birə çatlayıb ölürdülər.

Kahin Satihə gəldikdə Şama gedən yaşlı keşiş o gecə nəhənglərin bu səsləri eşidənlərin arasında idi. O da birdən elə bil ki, dəli oldu. Bir neçə gün ağlı başında olmadı. Bu vaxt Nuşirəvani- adilin elçisi Şama gəlmişdi. Kahin Satihi tapdı.

Bu qolsuz, qıçsız adamı bir qəfəsin içinə qoydu. Nuşirəvana götürdü. Amma ixtiyar kahinin son günləri gəlmişdi. Özünü bilmirdi.

Nuşirəvan dövlət adamlarından birinə:

– Satihin qulağına söylə ki, filan gecədə nədən Kəsranın divanı dağıldı?

Sarayımızdan nədən on dörd pəncərə sındı, taxtımız əyildi, Atəşpərəst məbədlərində odlar nə üçün söndü? Bunların səbəbi nədir?

Satih özünə gələrək cavab verdi:

– Çünki Fəxri-Kainat və Seyyüdülbəşər doğuldu.

Satih cümləsini bitirib birdən-birə can verdi və öldü.

Kahinə Zerka isə eşitdiyi gizli İblis səslərindən dəli-divanə olmuşdu. Paltarlarını cıraraq çöllərə, dağlara qaçırdı. Bu hal ilə nəhayət, o da sonunda can verib öldü.

## *ƏBDÜLMÜTTƏLİB NƏVƏSİNƏ QOVUŞUR*

Əbdülmüttəlib Rəsulun mübarək üzünü görməyincə döndüyü Kəbədə təvafla məşğul olmağa başlamışdı. Beləcə üç gün gözlədi. Əbdülmüttəlib bu üç gün ərzində heç kimə peyğəmbərin dünyaya gəlməsini bildirmədi. Hərəm əhli ondan:

– Əminə xatun necədir? Acdır, toxdur? Üç gündür buradan ayrılmadın, ya Şeybə, – deyə soruşurdular.

O isə onlara münasib bir cavab tapıb deyirdi. Nəvəsi olmağı haqqında məlumatı gizli saxlayırdı. Hamıya deyirdi:

– Onun evdə üç günlük işi var. Üç gün keçincə, ya özu sizi tapar, ya da siz onu görərsiz.

Üç gündən sonra mələklərin Hz. Məhəmmədi ziyarətləri bitincə səmadan bir səs gəldi. Bu nida:

– Ey məlakətül-Rəhman, siz artıq ayrılın. Növbə artıq insanlarındır. Məkkə əhli gəlib ziyarət etsinlər. Süd anaları gəlib uşağı əmizdirsinlər.

Əbdülmüttəlibin üçüncü günün gecəsində səbri tamam tükənmişdi. Nə qədər gözləmək olar? Dördüncü gün səhər tezdən günəşin ilk şəfəqlərində Kəbədən ayrıldı. Sürətli addımlarla Əminənin evinə gəldi. Qapıya yaxınlaşdı. Açarını çıxarıb qapını açdı, içəri girdi. Hz. Əminə onu görüncə ayağa qalxdı. Hörmətlə əlini öpüb uşağı onun qucağına verdi.

Əbdülmüttəlibə sanki bir dünya sevinc bəxş etdilər, könlü fərəhləndi. Böyük bir həsrətlə Rəsulun üzünə baxdı, ürəyi titrədi. O anda Rəsul (s.ə.s.) babasının üzünə baxaraq gülümsədi. Adəmoğulları içərisində Məhəmmədin mübarək üzünə baxan ilk insan babası Əbdülmüttəlib olmuşdu. Şeybə kiçik nəvəsini bağrına basdı, sonra dönüb Əminə xatuna dedi:

– Adəm peyğəmbər zamanından bu yana, hamı bu mübarək üzün həsrətini çəkdi və bu həsrətlə getdi. Onun mübarək üzünü görmək onlara nəsib olmadı. Amma bu qismət mənə nəsib oldu. Qızım, Əminə, bu mübarək uşa-

ğa nə ad qoyum?

Əminə xatun:

– Ya Seyyid, – dedi, – siz daha yaxşı bilirsiz. Amma mənim gördüyüm, eşitdiyim budur ki, mələklər, hurilər onu “Məhəmməd” deyə çağırır və ziyarət edirdilər. Bu üç gün ərzində yeddi qat göy mələkləri, səkkiz cənnət huriləri onu “Abdullah oğlu Məhəmməd” deyərək müjdələyir, ziyarət edirdilər. Siz nə ad qoyacaqsınız, mən bilmirəm, siz bilirsiniz.

Əbdülmüttəlib:

– Ya Əminə, dünyaya nə qədər Rəsul gəldi və onlara kitab nazil oldu, bu kitabların hamısında Abdullah oğlu Məhəmməd adı zikr olunmuşdur. Mən onun doğulduğu gecə dağdan, daşdan, qurudan və yaşdan, ağacdan, yarpaqdan, divardan, torpaqdan bu adı eşitdim. Hər şey bir-birinə:

“Abdullah oğlu Məhəmməd doğuldu”, müjdəsi verirdilər. Madam ki adı Məhəmməddir, yenə Məhəmməd olsun!

Əminə xatun sonra Əbdülmüttəlibə üç gecə əvvəl uşağın doğulduğu saatlarda gördükləri heyrətedici hadisələri danışdı. Əbdülmüttəlib o zaman:

– Ya Əminə, artıq bilməliyik ki, ki, axırzaman peyğəmbəri Abdullah oğlu Məhəmməd bu şərəfli uşaqdır. Heç şübhə qalmadı. Amma eşitdiyimiz ilahi sözləri, gördüyümüz möcüzələri heç kimə söyləmə. Çünki bu sözlər Qureyşin ağlına nə sığar, nə də batar. Yalan hesab edərlər, − dedi.

Bu sözləri dedikdən sonra Əbdülmüttəlib bayıra çıxdı. Oğlanlarına və ailəsinə:

– Şad xəbər, Əminənin bir oğlu dünyaya gəldi. Məhəmməd doğuldu, − deyərək hamını sevindirdi.

Qohum-əqrəba, qonum-qonşu – hər kəs sevinc içərisində Əminənin otağına qaçmağa başladılar. İçəri girər-girməz Məhəmmədin heybətini hiss etdilər, sakitcə içəri girib eləcə də çıxdılar. Rəsulu hər kim ələ aldısa, cənnət paltarlarının qoxusu onları bihuş etdi, üzlərində sevinc oldu.

Ziyarət edib evinə gedənlər və doğumu yaxınlarına xəbər verənlər bu qoxudan belə danışırdlar:

– Əminə xatunun oğlu olmuş, gedib ziyarət etdik. Onun ağlasığmaz qoxusu bizə təsir etdi.

Bu sözləri eşidən qadınlar həyəcanla Əminə xatunun evinə qaçdılar. O son gözəlliyə çatan üzü, o camalı və kamalı gördülər. Çaşdılar, heyrətləndilər. Nur seli evin hər küncünü bürümüşdü. Yeddi gün, yeddi gecə ancaq Rəsulun üzünün nurundan, gözəlliyindən danışırdılar.

Əbdülmüttəlibin qarıları, oğullarının qadınları ürəklərində Əminə xatundan inciyib küsərək deyirdilər:

– Rəvadırmı, oğlun Məhəmmədi sünnət etdin, sürmələdin, parçaya sarı-

dın, bizə heç xəbər vermədin?

Əminə xatun bütün Haşimoğullarının qadınlarına mövlud gecəsində gö-rüb eşitdiklərini bircə-bircə onlara danışdı. Bütün möcüzələri, kəramətləri, işarələri yaxınlarına bildirdi.

Əbdülmüttəlib bundan sonra böyük bir şənlik etdi. Bütün ərəb qəbilələ-rini dəvət etdi. Yeddi gün onlara ziyafət verdi. Quşlara da yem verdilər, hət-ta canavarlar üçün də səhraya ət qoydular. Ərəb seyyidləri Şeybədən soruş-dular:

– Ey Hərəm Seyyidi, çox mal xərclədin, böyük ziyafət verdin, çoxlu qo-naq dəvət etdin, bu uşaq yetim ikən onu əziz etdin. Bunun səbəbi nədir?

Əbdülmüttəlib:

– Səbəbi onun yetim olmasıdır. Mənim sülaləmdə yetim oğul yoxdur. Bu uşaq atasız qaldı. Buna görə də onu əziz saymaq mənim borcumdur. İkinci səbəbi də onun üzündəki nur atadan oğula miras qalan nurdur. Bu nur alından alına keçir. Son olaraq bu uşağın alnına keçdi, qaldı. Nurun sahibi odur.

Məkkə ululları Əbdülmüttəlibə:

– Ya Şeybə, doğru sözlərinə həmd olsun, – dedilər.Gördüyün möcüzə-lərdən bizə də xəbər ver.

Şeybə Hz. Məhəmmədin doğulduğu gecə Kəbədə öz gözü ilə gördüklə-rini, Əminə xatundan eşitdiklərini Məkkə böyüklərinə danışdı. Orada olan-lar bu sözləri eşitdikcə heyranlıqlarını gizlədə bilmədilər:

– Ya Şeybə, doğru sözlərinə həmd olsun, – dedilər, – çünki bu uşağın gəlişi mübarək, ayağı uğurlu, taleyi xoşbəxtdir. Bir neçə gündür ki, cahana üzünü göstərdi, neçə dənə ayrı-ayrı nişanlar göründü. Yağışlar yağmamışdı, qıtlıq vardı. Bitkilər qurumuşdu, heyvanlar azalırdı. Onun nuru görünmədən düşmənlər məhv oldular. Onların malı, neməti ilə zəngin olduq, varlı ol-duq. Mübarək uşaq doğulduqdan sonra göylərdən rəhmət endi, yağışlar yağdı. Bitkilər göyərdi. Dörd yandan karvan-karvan tacirlər gəlməyə başla-dılar. Məkkə camaatı arasında fərəh, şadlıq meydana gəldi. Bildik ki, bu uşağın üzü mübarək, ayağı ruzili, uğurlu, xeyirlidir.

Bu vaxt bütün məliklər, sultanlar, padşahlar bir-birilərindən bu yaxın zamanlarda öz ölkələrində nə kimi nişan və əlamətlərin görundüyü haqda sorğu edirdilər. Məktublar yazdılar və bütün dünya Rəbiüləvvəlin on ikinci bazar ertəsi gecəsində filan məlikin məmləkətində kilsələrin necə uçduğu-nu, atəşpərəstlərin məbədlərində atəşin necə söndüyünü, Savə dənizinin qu-ruduğunu, Yəməndə Səmavədəki Dərbənddə dağın necə uçduğunu öyrən-miş oldular.

Din alimləri xəbər verirdilər ki, göydən enən kitablar axırzaman pey-

ğəmbərinin surətini yazmışdılar. Elə o gün də gəldi. Bütün bu əlamətlər o Rəsulullaha səcdədən başqa bir şey deyildi.

## *Hz. MƏHƏMMƏDİN SÜD ANASINA VERİLMƏSİ*

Hz. Məhəmmədin doğulmasından bir neçə gün keçmişdi. Artıq əqrəbanın gəlib onu görməsi və Əminə xatunu təbrik etməsi bitmişdi. O zamanlar ərəblər arasında bir adət var idı. Hər hansı qadının uşağı olurdusa, kasıb və ya zəngin olmasından asılı olmayaraq onu süd anasına verirdilər. Uşağı o qadın əmizdirərdi. Hələ bir oğlan uşağını anası əmizdirirsə, o çox ayıb sayılırdı. Yetim olan uşaqları süd anaları qəbul etməzdilər. Belə uşaqlar hörmətsiz hesab edilirdi.

Bir gün Qureyş ulularından bir neçəsi Kəbədə oturarkən Əbdülmüttəlibə bu sualı verdilər:

– Ey Seyyid, nə üçün nəvən Məhəmmədə bir süd anası tutmamısan?

Əbdülmüttəlib:

– Sözlərinizdə haqlısız, hər uşağa bir süd anası lazımdır. Bəlkə, Məhəmməd yetimdir deyə, onu süd anaları istəməyiblər. Həm də mən onun ayrılığına necə dözə bilərəm?

Məkkə ululları:

– Ya Əbdülmüttəlib, sən bizim ulu seyyidimizsən. Sənin uşağına süd anası lazımdır.

Məhəmmədin doğulduğu gecə yalnız Məkkədə qırx oğlan uşağı dünyaya gəlmişdi. O il içində isə doğulmuş uşaqların sayı dörd yüz idi. Bu çox doğulmuş uşaq xəbəri yaxında yaşayan qəbilələrə yayılmışdı. Süd anası olmaq istəyənlər öz aralarında: "Məkkədə doğum çox olmuş, süd anaları istəyirlər", - deyirdilər.

Bir ildən artıq davam edən qıtlıq kəndləri də sarsıtmışdı. Camaatın vəziyyəti çətinləşmiş, aclıq, çatışmamazlıq gündən-günə artırdı. Bu xəbəri eşidən qadınlar əmizdirməyə bir oğlan uşağı götürmək üçün axın-axın Məkkəyə gəlməyə başladılar.

## *Hz. ƏMİNƏYƏ QEYBDƏN GƏLƏN SƏS*

Bir səhər Əminə xatun otağında oturub Məhəmmədi qucağına alıb əmizdirirdi. Qeybdən bir səs gəldi:

– Ya Əminə, Məhəmmədi bir süd anasına ver. Ona süd anası tut.

Əminə bu naməlum səsə cavab verdi:

– Ey nida sahibi, Məhəmməd başqasının döşünü almaz və südünu əmməz. Bu süd anası kim olacaqdır? Hansı qəbilədən əmizdirən tapmaq lazımdır, mənə xəbər ver.

Yenə qeybdən bir səs gəldi:

– Sədoğlu qəbiləsindən bir qadın gəlməkdədir. Adı Həlimədir. Məhəmmədin süd anası o olacaqdır. Nəbadə Məhəmmədi başqasına verəsən. Başqası onu götürüb məmləkətinə getməsin, əmizdirməsin, bəsləməsin.

Hz. Əminə qeybdən gələn bu əmri Əbdülmüttəlibə söylədi. Şeybə:

– Ya Əminə xatun, sənə səmadan necə əmr gəlibsə, elə də et. Amma bu haqda heç kimsəyə bir söz demə.

Həqiqətən, az zaman içərisində Məkkə müxtəlif qəbilələrdən gələn süd anaları ilə dolmuşdu. Onlar Məkkə küçələrində ev-ev gəzib oğlan ailələri axtarırdılar. Nəhayət, Əminə xatunun da evinə gəldilər. Körpə Məhəmmədi qucaqlarına alır, üzünün nurundan çaşıb qalırdılar. Əmzikli qadınlar döşlərini onun ağzına verəndə Məhəmməd qəbul etməyir, dodaqları ilə itələyirdi. Sonra üzünü döndərirdi.

Hz. Əminə gələnlərdən adını soruşurdu:

Hər birisi öz adını söyləyirdi. Aralarında Həlimə adlısı yox idi.

Hz. Əminə aralarında Həlimə olmadığını öyrənincə gələnləri bir təhər şirin dillə yola salırdı.

Sədoğlu qəbiləsi də Məkkədə çoxlu oğlan uşağının doğulması xəbərini almışdı. Ancaq bu qəbilədəki qadınlar qıtlıq, aclıq və susuzluqdan o qədər qüvvətsiz düşmüşdülər ki, döşlərində süd yox idi. Nə edəcəklərini bilmirdilər.

Amma burada bolluq olacaqdı. Çünki Məhəmmədin (s.ə.s.) doğumu şərəfinə Ulu Tanrı rəhmət qapılarını açmış, quraqlıq, qıtlıq olmayacaqdı. Çoxlu yağış yağmış, bitkilər torpaqdan qalxmış, yerin damarına sular gəlmişdi. Bulaqlar yenidən axmağa başlamışdı. Quyular dolmuş, mal-qara doymuşdu. Camaat başdan-başa çətinliklərdən qurtulmuşdu. Ulu Tanrı bu səbəbdən Sədoğlu qadınlarını bol südə, kəndləri də böyük bolluğa qovuşduracaqdı.

## HƏLİMƏ XATUNUN HEKAYƏSİ

Sədoğlu qəbiləsində Haris adlı bir kişi vardı. Onun həyat yoldaşının adı Həlimə idi. Öz uşaqları da az deyildi. Birisini əmizdirirdi. Adı Zəmra idi. Bu çox yoxsul ailə idi.Onların nə mal-qara, nə də heyvanat almağa imkanları yox idi. Yalnız bir dişi eşşəkləri vardı. O da aclıqdan öləcək hala düş-

müşdü. Çox çətin günlər keçirirdilər. Yağışın yağmağı kəndə, bitkilərə, heyvanlara canlanma gətirdi. Otlar göyərib tez bir zamanda qalxdı, həyatın şəfqəti olan su insanların həyatlarını dəyişdi. Onun kimi kasıb qadınlar Həlimənin yanına gələrək:

– Ay Həlimə, aclıqdan darıxdıq. Gəl bu gün çölə çıxaq, bir az göy-göyərti toplayıb yeyək, – dedilər.

Həliməni götürüb çölə, bir düzənliyə çıxdılar. Tər yeməli göylərdən doyunca yedilər. Günortadan sonra evlərinə döndülər.

## *HƏLİMƏNİN RÖYASI*

O gecə Həlimə döşəyinin bir kənarına çəkilib yatmışdı. Gözləri yorğunluqdan bağlanmışdı. Çox şirin bir yüxü görməyə başlamışdı.

Nə görürdü yuxuda? O bir axar su kənarındadır. Gözəl üzlü bir igid önündə dayanmışdı. Üzü bədirlənmiş aya bənzəyirdi. Həlimənin əlindən tutdu. Onu yavaş-yavaş çayın sahilinə çəkdi.

– Ay Həlimə, soyun, paltarını çıxart, axar suyun içərisinə gir, − dedi.

Həlimə igidin sözlərinə itaət etdi. Soyundu, özünü çaya atdı. Suda çimməyə başladı. Amma bu necə çaydı? Suyu bu dünya çaylarının suyuna bənzəmir. Bu su qardan soyuq, şəkərdən şirin idi.

O igid Həliməyə:

– Ay Həlimə, o sudan iç.

Həlimə əyilib sudan içdi, sonra sahilə yaxınlaşıb sudan çıxdı. Paltarlarını geyindi. O zaman igid ona:

– İndi isə arxa tərəfindən axan suda əksinə bax. Sən nələr görəcəksən. Bax, nə qədər kökəlmişsən. Bədənin ətlənib, dərin hamarlaşıb, üzün gözəlləşib, sinəndə döşlərin südlə dolub. Ya Həlimə, bu nişanlar sənə dövlət nişanıdır. Səadət əlamətlərindəndir. Sən bir uşağa süd anası olacaqsan ki, yer və göy əhli o uşağın olacaqdır. O uşaq seyyüdüləvvəlin vəlaxirin, Həbibi - Rəbbil-aləmin olacaqdır.

Bu sözləri söyləyib gənc ortadan qeyb oldu. Kimdir bu gənc? Cənnət mələyimi? Əlbəttə, Həlimə bunu anlamadı. Birdən-birə yuxusundan oyandı. Özünə gəldiyi zaman bədən üzvlərinin paltarına sığmadığını gördü. Əti yerinə gəlmiş, dərisi hamarlanmışdı. Döşü südlə dolmuşdu. Hələ üzü o qədər gözəlləşmişdi ki, doğrudan da bütöv aya bənzəyirdi.

Ertəsi gün kasıb qadın qonşuları Həlimənin evinə gəlmişdilər:

– Qız, Həlimə, gəl yenə çölə gedək, düzənlikdə göylərdən yığıb yeyək.

Amma nə olub? Hamısı Həliməyə diqqətlə baxdıqca onun gözəl bir qa-

dına çevrildiyini gördülər. Ona:

– Ya Həlimə, dünən gecə ac-susuz yatmışdın, bu gün isə tox və kökəlmiş görünürsən.

Onlar belə danışarkən Həlimənin əri Haris küçədən evə gəlmişdi. O, içəri girdi. Baxışları Həliməyə yönəldi. Üzünə baxdı, çox gözəlləşmişdi. Bədəni xeyli kökəlmişdi. Bu hala heyran qaldı. Hələ qonşular da çaşqın-çaşqın baxırdılar. Əri soruşdu:

– Ey Zəmranın anası, bu nə haldır? Sənə nə olmuşdur? Bu kökəlməyin və gözəlləşmənin səbəbi nədir? Bunu bizə xəbər ver.

Həlimə gecə gördüyü yuxunu danışdı. Haris bunu eşitdikdə çox sevindi və:

– Biz eşitmişdik. Bu il Məkkədə bir oğlan dünyaya gəlib. Məkkə ətrafından bir çox ərəb qəbilələrindən dayə-süd anaları şəhərə gəlmişlər. Amma, ya Həlimə, aclıq mənim canımı alır. Bayıra çıxmayacağam. Sən qonşu qadınlarla çölə get, mənim üçün göy-göyərti yığ, gətir. Yeyim, bir az qüvvətlənim.

Həlimə:

– Yaxşı, – deyərək qonşu qadınlarla çölə getdi.

Qonşu qadınlarla getdi, göy-göyərti yığdı. Onlar yedilər, amma Həlimə tox və döşü südlə dolu idi. Əri üçün topladığı göyləri götürüb evə gəldi.

O gün yenə Həlimə qeybdən bir səs eşitdi. Səs deyirdi:

– Ey Zəmranın anası, sənə Məkkə şəhərində bir səadət sahibi oğlan uşağının doğulduğunu xəbər verməmişdilərmi? Belə ki, sən onun süd anası olacaqsan. Bu səbəbdən dövlətə və səadətə qovuşacaqsan.

Həlimə yenə o sözləri eşidəndə yanındakı qonşu qadınlar da həmin səsi eşitdiklərini söylədilər. Həlimənin yuxusunun doğru olduğunu anladılar.

Soruşsalar, o qeybdən gələn səs nədir? O ya insanların qəlbində doğan bir ilhamdır, ya da göy üzündə mələyin özüdür.

Həlimə həyat yoldaşı Harisə yenə eşitdiyi səsdən danışdı. Qonşu qadınlar da onun sözünü təsdiqlədilər. Həliməyə göydən səs gəlməsi xəbəri Sədoğlu gəbiləsinə ildırım sürəti ilə yayıldı. Qəbilədən bir çoxu dəstə-dəstə gələrək Həlimənin üzünün gözəlləşməsinə, kökəlməsinə baxıb heyran olurdular. Həlimə Ulu Tanrının ona nə bəxşiş verəcəyindən xəbərsiz idi. Amma Məkkədə bir oğlan uşağına süd anası olmaq səadəti onun üçün ən böyük xoşbəxtlik olacaqdır.

Həlimə yuxusunda gördüyü ilk şad xəbəri aldığı zaman bədəninin qüvvətlənməsi və südlənməsi, şad əhvali-ruhiyyəsi, xoşbəxtlik hisslərini evinə gətirmişdi. Həmin xoş əhvali-ruhiyyə kəndinə və qəbiləsinə də gələcəkdi.

## *ƏMİNƏ SÜD ANASINI GÖZLƏYİR*

Məkkədə isə Hz. Əminə də səmadan deyilmiş Həlimə adlı süd anasını durmadan axtarırdı. Çöl qəbilələrindən zəngin uşaq əmizdirən olmaq istəyən qadınlar axın-axın gəlirdilər. Bunların bir qismi Əminənin evinə də gəlmişdi. O isə Həlimə adlısını gözləyirdi. Hz. Əminə gələnlərdən soruşurdu:

Adın nədir? Adın nədir?...

Bir çox qadınlar: Fatimə, Züleyxa, Aişə – deyə adlarını söyləyirdilər.

Ona qeybdən gələn səs isə:

– Sənin uşağın Məhəmmədin süd anası Sədoğulları qəbiləsindən Həlimə xatun olacaqdır, – demişdi.

Amma Həlimə adında qadın onların arasında yox idi. Əminə xatun təşəkkür edib onları nəzakətlə yola salırdı.

Ərəb hörmətlilərinin yeni doğulmuş uşaqlarını süd anasına vermək adəti uzaq zamanlardan bu vaxtlara kimi gəlib çıxmışdı. Məkkəli ailələr uşaqlarını çol qəbilələrindən olan süd analarına verirdilər. Hətta uşaq doğulan həftənin sonunda artıq süd anasına verirdilər.

Məhəmmədi bir neçə gün idi ki, əmisi Əbu Ləhəbin cariyəsi Süveybə əmizdirirdi. Süveybə kiçicik uşağın üzündəki nura baxdıqca düşünürdü:

– Böyüyənəcən bu uşağı mən əmizdirə bilsəydim, yaxşı olardı. Süveybənin qəlbində böyük bir istək var idi.Bu balaca nurlu, şirin uşağa məhəbbəti gündən-günə artırdı.

Hətta Əbdülmüttəlibin xanımı Halədən olan oğlu Həmzəni də bir zamanlar Süveybə əmizdirmişdi. İlk əmizdirdiyi gün Süveybə bu nurlu uşağı qucağına aldı. Başqalarını əmmək istəməyən Məhəmməd Süveybənin döşünü istəklə qapdı. Süveybə sevindi, güldü:

– Ey Məhəmməd, o döşləri əmin Həmzə də belə əmirdi. Artıq o sənın əmin, həm də süd qardaşındır.

Hz. Məhəmmədin Hz. Həmzə ilə süd qardaşlığı buradan gəlirdi.

Sədoğlu qəbiləsindən olan bir çox əmzikli qadınlar hazırlandılar. Məkkəyə getmək qərarını verdilər. Həlimə əri Harisə:

– Ay Zəmranın atası, sən də məni götür gedək, bəlkə, bu işarədən bir xeyir oldu.

Haris:

– Ay Həlimə, bizim minəcəyimiz yox ki, səni mindirim, evimizdə yeyəcəyimiz yoxdur ki, yolda yeyək.

Həlimə belə cavab verdi:

– Mən elə doymuş haldayam ki, aylarla yeməsəm, belə acımaram. Amma sənin üçün yola yemək çarəsini taparam. Minəcək isə eşşəyimiz var, bir

az minərəm, bir az da yeriyərəm.

Həlimə ilə Haris söhbətləşəndə qəbilənin uşaq əmizdirən qadınları artıq onların evinin qabağında yığışmışdı. Hamı Həliməni görməyə gəlmişdi. Həlimə xatun onların hamısına qaygı göstərirdi.

– Xoş gəldiniz, – deyib sözə başlamaq istəyirdi ki, göy üzündən yenə gizli səs eşidildi. Bu səs hamıda ruh yüksəkliyi yaratdı. Deyirdi:

– Məkkəyə gedin. Xeyir və bərəkət tapın. Göy və yer üzünün ən tərifli uşağını əmizdirmək şərəfi qismətin olsun.

Qadınlar bu səsi duyunca, yerlərindən qalxıb evlərinə getdilər. Ərlərinə:

– Ya halallarımız, üç gündür ki, qeybdən "Məkkəyə gedin, xeyir və bərəkət tapın" sözlərini eşidirik. Bizi tez Məkkəyə aparın,- dedilər.

Kişilər bunu eşitdikdə tez hazırlığa başladılar. Nə qədər oğlan əmizdirən qadın varsa, bir araya gəldilər, yola çıxdılar.

Həlimə ərinə:

– Ey Haris, sən də dur, hazırlaş, Məkkəyə gedək.

Haris:

– Ya Həlimə, bu dişi heyvan səni apara bilməyəcək. Mən nə edim, nə çarə tapım?

Həlimə dedi:

– Ey Haris, məni bir gecədə ac yatırıb tox qaldıran, zəif və arıq yatırıb kökəlmiş oyadan kimsə, o eşşəyə qüvvət, qüdrət verər ki, məni Məkkəyə kimi aparsın. Bəlkə, bizim evə də o oğlan səadət, bolluq gətirər.

Haris qəbiləsindən olan insanların dəvə, atla, eşşəklə yola çıxdığını gördükdə eşşəyini xanımının önünə çəkdi. Həliməni mindirdi. Oğlu Zəmranı da qucağına verdi. İndi onlar da başqaları ilə birlikdə yola çıxmışdılar. Bir az sonra gördülər ki, ata, dəvəyə minənlər qabaqda gedir və xeyli aralanıblar. Bir vaxtdan sonra onlar gözdən itdilər. Eşşəkdə qüvvət qalmamışdı. Getməyi çətinləşirdi. Belə yolda qalacaqdılar? Harisi dərin bir üzüntü sarsıtmışdı. Könlünün sızıltılarını duyurdu. Karvan irəliləmişdi, çox aralanmışdı. Qüvvətsiz heyvan yavaş-yavaş yolla gedirdi. Nəhayət, dərənin ağzında qarşılarına bir naməlum adam çıxdı. Əlində qarğı vardı. Gəldi, eşşəyə qarğının ucu ilə toxundu, heyvanı dürtdü:

– Ya mübarək heyvan, niyə qoca kimi gedirsən? Heç bilirsən ki, kimin yanına gedirsən? Sənin üstünə kim minəcək?

Sonra qarğılı gənc Həliməyə və Harisə dönərək dedi:

– Hərəkət edin Məkkəyə, tələsin, səadət qapısı üzünüzə açılmışdır. Bundan sonra yoxsulluğun və fəqirliyin daşını atacaqsınız. Sizin nəsliniz oğuldan oğula daima zəngin olacaqdır. Bu xoşbəxtlik o uşağın bərəkatındandır ki, bütün yaradılmışların bir dənəsidir. Axirət sultanı, dünya bəyidir. Sən onu əmiz-

dirəcəksən, Həlimə.

Bu sözlərdən sonra gənc qeyb oldu. Kimdi bu yolçu? Bəlkə, mələkdi, bəlkə də xəyal? Amma Ulu Tanrının bir ilhamıydı bu.

Həlimə sonralar söyləyirdi ki, elə ki o gənc igid sözlərini söylədi, qüvvətsiz eşşək gücləndi, yoldaşlarımıza çatdıq, keçdik. Karvanın önündə hərəkət etməyə başladıq.

Dəstə bu halı görüncə çaşmışdı. Nə baş verdi ki, gücsüz, qüvvətsiz bu ac eşşək qabaqda gedir. Atdan da daha çox sürətlə yol gedirdi.

Nə olacaqdı... Ulu Tanrının Həlimə ailəsinə bir mərhəməti idi. Eşşək onları tez bir zamanda sultanlar sultanının evinə gətirəcəkdi.

## *MƏHƏMMƏD ADINI NİYƏ QOYMUŞDULAR*

Məkkədə bu vaxtda nələr baş verirdi? Bir gün Qureyş böyükləri Şeybədən soruşdular:

– Ey Harisin atası, o yetim uşağın adını nə qoydun?

Əbdülmüttəlib:

– Abdullah oğlu Məhəmməd qoydum, – dedi.

Qureyşlilər yenidən soruşdular:

– Nə üçün öz ata-babalarının adlarından vermədin?

Şeybə yenə cavab verdi:

– Onun adını qoyan mən deyiləm. Ulu Tanrı əzəldən onun adını Abdullah oğlu Məhəmməd qoymuşdu.

Qureyşlilər:

– Niyə belə dedin? Sənə haradan məlum oldu ki, Ulu Tanrı adını Abdullah oğlu Məhəmməd qoymuşdur?

Əbdülmüttəlib:

– O zaman ki Adəm yer üzünə endi, bir böyük nur Adəmi Safinin alnında parladı.

Adəm Rəbbindən soruşdu: “Ya Rəb, bu alnımdakı nur nədir? Nə nurdur?” Rəbbindən nida gəldi: “O nur Abdullah oğlu Məhəmmədin nurudur. Bunun sahibi xatəmül-ənbiya olacaqdır”. Bu nur sonra Şit peyğəmbərə keçdi. Hz. Adəm dedi ki, ey oğul, bu nur Abdullah oğlu Məhəmmədin nurudur. Ondan sonra atadan oğula, alından alına bu nur keçib qalırdı. Beləcə Abdullah oğlu Məhəmmədin adı dillərdə dolaşdı. Ta bizim ata-babalarımıza qədər unudulmadı. Həhayət, nur bizə yetişdi. Atam Əbdümənaf oğlu Haşim mənə vəsiyyətnaməsində bu nurun Abdullah oğlu Məhəmmədin olduğunu yazmışdı.

## *Hz. MƏHƏMMƏDİN (s.ə.s.) KEYFİYYƏTLƏRİ*

Əbdülmüttəlib yenidən Hz. Məhəmmədin qədir-qiymətini anlatmağa başladı. Hz. Məhəmmədin adı, məqamı və mərtəbəsi haqqında Əbdülmüttəlibin sözlərini dinləyincə Qureyş böyükləri hamısı heyrət içərisində qaldılar. Hz. Məhəmmədin əxlaqını anladanlar eşitmişlər ki, Rəsulullah dünyaya gəlmədən əvvəl üç uşağın adını Məhəmməd qoymuşlar. Biri Ədiyy oğlu Məhəmməd idi. Ondan: "Sənin adını nə üçün Məhəmməd qoyublar. Bu ad qərib addır. Ərəblərin içində kimsəyə verilməmişdir", soruşanda Ədiyy oğlu Məhəmməd bu cavabı verirdi:

– Atam Ədiyy ərəblərdən iki nəfərlə yoldaş olaraq Şam vilayətinə səfər etmişdilər. Şamda bir məbəddə qonaq olmuşdular. Ərəb dilində danışarkən, bir rahib mehrabının pəncərəsindən başını bayıra çıxarıb bunlardan soruşub:

– Hansı yerin ərəblərindənsiz?

Atam və yoldaşları:

– Hicaz ərəblərindənik, – deyə cavab vermuşlər. Rahib bu sözü eşidincə:

– Bilin, ey hicazlılar, sizin içinizdən bir peyğəmbər gələcəkdir. O nəbinin adı Məhəmməd olacaqdır.

Sonra bir saatdan artıq rahib Rəsulullahın danılmaz keyfiyyətlərindən danışmışı. Atamla iki yoldaşı Məkkəyə döndükdən sonra uşaqlarına Məhəmməd adını qoymuşlar.

## *HƏLİMƏ MƏKKƏYƏ GƏLİR*

Həlimə həyat yoldaşı Haris ilə karvana yetişdikdən sonra qabaqda gedirdilər. Məkkə qapılarına çatdılar. Karvan şəhərin kənarında dayandı. Məkkəlilər Sədoğulları qəbiləsindən süd analarının gəldiyi xəbərini eşidib uşaqlarını əmizdirəcək qadın tutmaq üçün şəhər kənarına gəldilər. Tez bir zamanda hərə birisi ilə razılığa gəldi. Ancaq nədənsə Həliməni heç kim tutmadı. Bu nə ilahi qüdrəti idi?

Daha bir neçə qadın Həlimə ilə tək qalmışdı. Həhayət, onlar da:

–Biz şəhərə gedək, uşaq taparıq, deyərək ayrılıb şəhərə girdilər.

Bir neçəsini Əminə xatun da görüb adlarını soruşdu. Həlimə adlısı yox idi. Başqalarını qəbul edə bilməzdi. Uşağı təkidlə, çox götürmək istəyənlərə verə bilmədiyi üçün: "Mənim oğlum bəxtsizdir, yetimdir, atası yoxdur", – deyirdi.

Bəli, onun oğlu yetim idi. Amma o dürri-yetimdi. Qadınlar bu sözü eşidəndə, əl çəkib, dönüb gedirdilər. Çünki o zaman cəhalət dövrü idi. Yetimlik – fəqirliyı ifadə edən bir kəlmə idi.

Dünya belə idi. Dünya malına pərəstiş edən və işinin yaxşı gətirməsini istəyən insanlar, yetimləri hörmətsiz, yoxsul, aşağı və zəlil görürdülər. Halbuki din əhlinin mötəbərləri Ulu Tanrıya yaxın insanlardır. Əgər tale, yoxsulluq Ulu Tanrı yanında bir nöqsanlıq və hörmətsizlik olsaydı, bunu ən sevimli qulu, həbibi Məhəmməd Mustafaya layiq görərdimi? Əgər var-dövlətin, malın Ulu Tanrı yanında qədri və qiyməti olsaydı, Məhəmmədi, iki dünya xalqının başçısını mal-dövlət sahibi edərdi. Dini sağlam, imanı güclü olanlar belə insanlardan aralı olsunlar. Mal və var-dövlət düşkünlərindən ayrı dursunlar. Çünki mal və var-dövlət qılınc kimidir. Cahil kimsənin əlinə yetişəndə qan tökər, yol kəsər, yazıq və fəqirləri incidər, bezdirər. Amma ağıllı insanların əlinə verilmiş qılınc doğrulara yardımçı olar. Ağıllı və arif kişilərin malı, var-dövləti ilahidən olur. Müsəlmanlara dayaq və arxa olur. Fəqir və zəiflərin sığındığı yer olur. Cahillərin ağlı nöqsanlı, dini əskik olur. Mal, var-dövlət onların qürurlarını artırar, dinini azaldar, imanını nöqsanlı edər. Bu səfər könüllərinə şeyxlik, ağalıq düşər, onlar üçün davaya başlar.

Həlimə də kasıb idi. Əri Haris də fəqir bir insandı. Yoxsul olduqları üçün məkkəli zəngin ailələrdə heç də yaxşı təsir buraxmamışdılar. Zəngin süd anaları necə Məhəmmədin atasız, yetim olduğunu eşidincə onu götürməkdən imtina etdiyi kimi, Həlimənin və Harisin kasıb olduğunu görən məkkəli ailələr də öz uşaqlarını bu ailəyə vermirdilər. İkisi də dərin bir həyəcan, kədər və naməlumluq içində idilər.

Bir-birilərinə baxdılar. Paltarları köhnə, yamaqlı və yoldan gəldikləri üçün toz-torpaq içində idi. İkisinin də ayaqları yalın, kasıb və fəqir idilər. O gecəni belə keçirdilər.

İkinci günün sabahı Haris Həliməyə dedi:

– Ya Həlimə, hanı sənin gecə eşitdiyin səslərin, o gecə gördüyün röyanın doğruluğu? Hanı bizi karvana yetişdirən gəncin Məkkə şəhərində səadətə nail olacağımız haqqındakı sözləri? Heç biri olmadı.

Həlimə cavab verdi:

– Ey Haris, mən də sənin kimi düşünürəm. Nə edəcəyimi bilmirəm.

O zaman Haris:

– Ey Həlimə, bu Məkkə şəhərində Qureyş qəbiləsi içində ən ulu, əsilli, səadət sahibləri Haşimoğullarıdır. Nəslin böyüyü Şeybətül-Həmddir. Tez Hərəm böyüyünün yanına get. Ondan əmizdiriləcək başqa bir uşağın olub-olmamasını soruş. Öz evində və ya nəslində bir uşaq olarsa, o bilər, sənə xəbər verər, bəlkə də kömək edər.

Həlimə qalxdı, oğlu Zəmranı qucağına aldı. Haris eşşəyinin yanında qaldı. Həlimə Hərəmə çatıb içəri girdi. Əbdülmüttəlibin Kəbə divarının dibində oturduğunu gördü. Ona döğru irəlilədi. İxtiyar başçının önünə gəldi, oturdu.

Əbdülmüttəlibin yanında çox insanlar vardı. Həlimə halını ona söylədi:

– Ey Seyyidi-Hərəm, mən Sədoğlu qəbiləsindənəm. Fəqir və yoxsulam. Məkkə şəhərində heç bir zəngin ailə mənə uşaq vermədi. Mənimlə gələnlər uşaq götürüb geri dönüblər. Mən qalmışam. Əgər sizin evinizdə, yaxınlarınızda, Haşimoğullarının evlərində uşaq varsa, mənə əmizdirmək üçün bir oğlan tapmağa bələdçi olmağınızı xahiş edirəm.

Əbdülmüttəlib:

– Mənim evimdə bir bəxtsiz nəvəm var. Atası vəfat edib onun yerinə vəkili mənəm. Əgər razı olsan, onu sənə verərəm.

Həlimə:

– Ərim mənimlə gəlib, gedib onunla məsləhətləşim, onun da fikrini öyrənim.

Əbdülmüttəlib:

– Necə istəyirsən, elə də et. Gedib məsləhətləş, razı olsa, yenə gəl.

Həlimə geri döndü, Harisə Əbdülmüttəliblə danışdığını söylədi. Haris qaşlarını çataraq:

– Yetim oğlan uşağını əmizdirməyi heç kim istəməmiş. Ərəblər arasında yetim qalmaq bədbəxtlikdir. Yetim bəsləyənin qismət qapıları qapanar. Həm də yetim əmizdirən süd anaları əmizdiricilər içərisində hörmətsiz və zəlil olur.

Bu vaxt Əbdülmüttəlib Kəbədən evə dönmüşdü. Əminə xatunun yanına gəldi və dedi:

– Ya Əminə, Sədoğlu qəbiləsindən yanıma bir qadın gəldi. Süd analığı üçün gəldiyini söylədi. Mən Məhəmmədin yetimliyini söylədim, dedi ki, gedim ərimlə məsləhətləşim. Sən nə deyirsən, gəlsə, sənin yanına gətirimmi?

Əminə xatun:

– Mənə göy üzündən bir səs gəldi. Məhəmmədi əmizdirənin adı Həlimədir. Əgər adı Həlimədirsə, gözlədiyimiz süd anası odur. Onu götürüb gəlin.

Şeybə yenə Hərəmə döndü. Həlimə də Harislə ümidsiz halda yerə oturdular. İndi bir uşaq almadan qəbiləsinə gerimi dönəcəkdilər? Belə oturduğu halda birdən qanının qaynadığını hiss etdi. Əri Harisə döndü:

– Ey Haris, mən gedim, o uşağı bir görüm. Çünki onlar Məkkənin ən ulusudurlar. Bəlkə, mənə qeybdən gələn dövlət və səadət xəbərinin sahibi

bu oğlandır.

Haris :

– Yaxşı, – deyib izin verdi. Həlimə tez şəhərə getdi. Kəbədə Əbdülmüttəlibi tapdı.

– Ey Seyyidi - Hərəm, o yetim uşağı mənə göstərərsizmi? O uşağı bir görum.

Şeybə:

– Adın nədir, qızım?

– Adım Həlimədir, ya Seyyid.

Bu sözü eşidən Əbdülmüttəlib:

– Elə isə mənimlə gedək.

Ayağa qalxdı, Həliməni Əminə xatunun evinə gətirdi.

Şeybə Hz. Əminəyə işarət edərək:

– Sədoğluları qəbiləsindən gələn süd anasını sənə gətirdim. Adı Həlimədir.

Həlimə sözünü eşidən Hz. Əminə ona tərəf gəldi, "Xoş gəldin", – deyərək mehribancasına onunla görüşdü. Sonra otağına apardı. Baş tərəfdə oturtdu.

Əminə eşitdiyi sözləri ona danışdı. Həlimə də yuxusunu, səmadan gələn səslərin ona nələr söylədigini bildirdi.

Həlimə:

– Ey Seyyidəm, səadət sahibi uşağı bir görüm.

Həlimə, doğrudan da, çox səbirsizləşmişdi. Hz. Əminə qalxdı, evin o biri tərəfini nurlandıran Məhəmmədi qucağına alıb gətirdi. Körpə yenicə yuxudan oyanmışdı. Onu Həlimənin qucağına verdi. Həlimə nur topu kimi uşağı əlinə aldı, bağrına basdı. Sevincdən yenə qanı qaynadı. Ürəyi çırpındı. Döşü birdən südlə dopdolu oldu.

Məhəmməd yavaş-yavaş qımıldanmağa başlamışdı. Oyanırdı. Həlimə Rəsulullahın üz ortüyünü açdı. Gözləri qamaşdı. Dodaqlarını məmə axtaran kimi tərpədirdi. Həlimə onun üzünə baxanda elə sandı ki, on dörd gecəlik bir ayı qucağına alıb.

Gözlərini açan Məhəmməd onu əlində tutan qadına baxdı, gülümsədi. Bu anda Məhəmmədin mübarək dodaqlarından, elə bil ki, nur çıxdı. Əbdülmüttəlib bu hala çaşıb qalmışdı. Ulu Tanrı Rəsulun sevgisini Həlimənin könlünə doldurmuşdu. Sağ döşünü çıxardı, Məhəmmədi ağzına sürtdü. O çəkinmədən aldı, əmməyə başladı.

Əminə xatun bu halı görüncə: "Oğlumun süd anası budur", – deyərək ürəyində qərarını verdi. Çünki indiyə qədər Məhəmməd Həmzənin də süd anası olan Süveybədən başqasının südünü əmməmişdi. Görəsən, həqiqətən,

bu qadın Həmzənin anası Halə xatunmudur, yoxsa Həmzəni əmizdirən süd anası və ya qonşulardan bir qadın idimi, o dəqiq bilinməmişdir. Yalnız Məhəmməd Həmzəyə süd verən qadını əmməsi ilə ona süd qardaşı olmuşdu. Bu da Tanrının bir mərhəməti idi.

Əbdülmüttəlib bu vəziyyəti görüncə Həlimə üçün, əri Haris və uşaqları Zəmra üçün zəruri yeni paltarlar hazırlatdı. Sonra Haşimoğullarına xəbər göndərdi. Qadınlarına bildirdi ki, nəvəsi Məhəmmədi Sadoğulları qəbiləsindən bir yoxsul və fəqir qadına əmizdirmək üçün vermişdir. Az sonra bütün Haşim ailəsi Əminənin otağında yığışmışdı.

Qadınlar Əminədən soruşdular:

– Eşitdik ki, Məhəmmədə süd anası tutmusan.

Əminə xatun:

– Bəli, − dedi.

– Məhəmməd bu anaya qədər heç kimsənin südündən əmməmişdi. Həlimənin südünü nə səbəbdən əmdi? – deyə soruşdular.

Bu vaxt Məhəmməd Həlimənin sağ döşünü xüsusi ləzzətlə əmirdi. O bitincə sol döşü də verdi, amma Məhəmməd onu əmmədi. Üzünü çevirdi. Qadınlar: “Deyəsən, bunu da əmmədi”, – dedilər.

Həlimə ona yenə sağ döşünü verdi. Rəsulillah yenə qalan südü əmməyə başladı. Bu anda Həlimə əyilərək onun iki gözündən öpdü:

– Gördünüzmü, Məhəmməd bu gündən ədalət və insaf göstərdi.

Qadınlar çaşqınlıqla soruşdular:

– Hecə insaf göstərdi?

Həlimə:

– Sağ döşü əmdi, solu əmmədi, onu oğlum Zəmraya saxladı.

Onda qadınlar Əminə xatundan soruşdular:

– Oğlun Məhəmmədi bu süd anası ilə göndərəcəksənmi?

Əminə xatun:

– Bəli, göndərəcəyəm, − dedi.

Qadınlar yenidən soruşdular:

– Bu uşağın düşmənləri çoxdur. Necə qıyıb verəcəksən?

Əminə xatun:

– Ona görə ki, onu qoruyanların sayı düşmənlərindən çoxdur.

Bundan sonra Əminə xatun Həlimənin yol hazırlığına başladı. Bir miqdar pul, parça və tikilmiş paltarlar verdi. Uşaqları bələyib hazırladı. Ona bu şərti dedi:

– Hər üç ayda bir dəfə uşağı görmək üçün yanınıza bir nəfər gələcək. Onunla sizə pul, parça və pal-paltar göndərəcəyəm.

Həlimə Məhəmmədi götürüb Harisin yanına gəldi. Haris Həlimənin gə-

tirdiyi pul və geyimləri görərək sevindi. Sonra qucağındakı uşağa baxdı. Allahım, bu nə gözəlikdi, üzü aya bənzər! Üzünün nuru göz qamaşdırır.

Haris dedi:

– Bu usağın şanı böyukdür, uludur.

Həlimə:

– Bu uşaq xüsusi əlamətli, şəfqətli, mehriban və həlimdir. Tək olaraq doğulan bir inci dənəsidir.

Haris Rəsulullahı Həlimənin əlindən aldı, bir də üzünə baxdı. Könlü şadlıqla doldu. Bu uşağın bərəkəti üzündən bundan sonra nə iş tutarsa, ona asan olacaqdı. Belə də oldu.

Haris Məhəmmədi təkrarən Həlimənin qucağına verdi. Eşşəyi gətirdi, Həliməni ona mindirdi. Öz oğlu Zəmranı boynuna qoyub karvanın arxasınca hərəkətə başladılar. Arxadan gələnlər qabağa geçdilər. Amma eşşək yolda elə sürətlə getməyə başlamışdı ki, Haris arxasınca güclə özünü çatdırırdı. Yavaş-yavaş ən arxadan önə keçmişdilər. Karvandakılar bunu görcək dilləndilər:

– Ey Haris, bu eşşək yaman tez yeriyən olub sən də minsən, aparacaq. Haris də eşşəyin arxasına mindi. Heyvan heç hiss etmədən gedirdi. Üzüyola heyvan heç yorulmurdı. Elə bil ki, hər dəqiqə gücü artırdı. Az sonra karvandan qabaq gedirdi. İrəlidə olan qonaq yerinə birinci çatdılar, əvvəlcə istirahətə çəkildilər. Arxadakılar da gəlib çatdılar. Karvandakı əmzikli qadınlar, qucaqlarındakı oğlanlara süd verməyə başladılar. Bu uşaqlar Məkkədən götürdükləri Qureyşin zəngin ailələrinin oğulları idi. Sədoğulları qəbiləsi ərəblər arasında hörmət göstərilən bir qəbilə idi. Oğlanların çoxunu bu qəbilənin süd analarına verirdilər. Ulu Tanrı da Rəsulunun baxılmasını bu qəbiləyə nəsib etdi. Məhəmməd bunların yanında böyüdü.

Karvan istirahətə dayananda süd anaları götürdükləri uşaqları bir-birinə göstərirdilər. Həliməyə də dedilər:

– Həlimə, sən də götürdüyün uşağı bizə göstər, baxaq.

Həlimə bu sözləri eşitdikdə Məhəmmədin mübarək üzünü açdı. Sanki bir ay parçası buluddan çıxdı. Hər yerə nur saçdı. Başqa qadınların gözləri bu nur ilə qamaşdı. Hamısı uşağın ətrafına toplaşdı. O ay parçasının nurunu ürəyinə salanın qəmi, qüssəsi qalmırdı. Gözü gözünə dəyənin içi fərəh və sadlıqla dolurdu. Qadınlar Həliməyə üz tutdular:

– Ay Həlimə, biz hamımız belə bir uşaq götürməyə çalışmışdıq. "Məkkəyə gedib bir dövlətli və səadətli oğlan götürərik, ona süd anası olarıq" – dedik. Çünki bu il alimlər və ulduza baxanlar xəbər vermişdilər ki, Məkkə şəhərində bir səadət sahibi uşaq doğulacaqdır. Hamımız onu götürməyi ummuşduq. Amma o oğlan sənə nəsib imiş. Bu uşağın könlümüzə verdiyi fə-

rəhdən bəlli olur.

Beləliklə, qadınlar bir-bir Həlimənin yanına gəlir, Rəsulu sevir, oxşayır, ziyarət edib dönüb gedirdilər. Gecəni burada keçirdilər. Hər qadın götürdüyü uşağın yanında yatdı. Səhər tezdən karvan hərəkətə başladı. Heyvanı olmayan, ayaqla gedənlər Məhəmmədin mindiyi eşşəyi gözdən itirmişdilər. Mübarək heyvan hansı quru yerə ayaq basırdısa, orada yaşıl çəmən görünürdü. Hamı çaşıb qalmışdı. Bir-birlərinə: “Buradan çəmən çıxdı, bura da yaşıl oldu”, – deyərək o yerləri göstərirdilər.

Bunu Həlimə Harisdən rəvayət etmiş və demişdir:

– Hansı qonaq yerinə gəldik, qaldıq, ertəsi gün səhər o yerlərin başdan-başa yaşıl çəmənlik olduğunu gördük. Hansı su quyusuna çatıb su götürmək istədiksə, su quyusunun ağzına kimi su ilə dolu olduğunu gördük.

Bunlar hamısı Məhəmməd hörmətinə idi. Nəhayət, Sədoğullarının qadınları qəbilələrinə döndülər. Həlimə yenə demişdi: ”Evimizə gələndən bütün Sədoğulları qəbiləsinin üzərindən bu nur heç zaman əskik olmadı”.

Daha nələr olmamışdı bu qəbilədə.... Xəstələr sağaldı. Qəbilədəki adamların qəlbi fərəhlə doldu. Ulu Tanrı qəbiləyə mərhəmət bulaqları göndərdi. Qurumuş dərələrə, susuz quyulara zəmzəm kimi su gəldi. Çox yeyənlər az yeməklə doydular. Az əkinlər çox məhsul verdi. O il ticarət üçün səfərə çıxanlar bol qazancla geri döndülər. Hamısı Rəsul bərəkətindən idi.

Həlimə Məhəmmədi böyük diqqət və qayğı ilə böyüdürdü. Sonralar deyərdi:

– O qədər pak uşaq idi ki, qundağı daima tərtəmiz olardı. Zamanını bilir və gözləyərdi. Başqa oğlan uşaqları kimi ağladığını görmədim. Heç qəbilədə onun ağladığını görən olmadı. Başqa uşaqların bir həftəyə böyüdüyünu, Məhəmməd bir günə böyüyürdü. Başqalarının bir ilə atdığı boyu, Məhəmməd bir aya atırdı.

Həlimənin evində baş verən bütün möcüzəvi dəyişiklikləri görən camaat başa düşdülər ki, bunlar Məhəmmədin mübarək ayağının bu evə düşməsindəndir.

Həlimə çıraq yandırmazdı, Məhəmmədin nuru bütün evi işıqlandırırdı. Bədəni təmiz, saçı ətirli idi.

Məhəmməd bir yaşına çatanda sanki beş yaşında olan bir uşağa oxşayırdı. Həlimənin evi yenə bir ziyarətgaha çevrilmişdi. Hər kimin xəstəsi vardısa, onu Məhəmmədə ovxalatdırırdı və şəfa da tapırdı. Hətta yola çıxacaq bir insan gəlib Məhəmmədin mübarək üzünü görüb sonra səfərə çıxardı. Onun geri dönüşü xeyirli və bərəkətli olurdu. Evinə sağ-salamat dönərdi. Hansı mal-qaranın südü az olurdusa, o heyvana Məhəmmədin mübarək əlini vurardılar, onun da südü artardı. Bu səbəbdən Sədoğulları qəbiləsinin mal-qa-

rası artmışdı. Qurdlar sürülərə yaxınlaşmazdı. Hətta yaxınlaşsa belə, sürünü tuta bilməzdi. Məhəmməd tez böyüyür, tez də danışmağa başlamışdı. Həlimənin dediyinə görə, ilk sözü "Allahu Əkbər"," Allahu Əkbər" olmuşdu. Məhəmmədin yeriməsi də tez olmuşdu. Ayağa qalxandan sonra elə gəzməyə başlamışdı. Qəbilədə insanlar bunu görmək üçün iş-gücünü atıb mübarək üzünü tamaşaya gəlirdilər. Hətta yaşlı insanlar onu görmək, qarşısında oturub mübarək üzünə baxmaq üçün gəlirdilər. Ona "Şanı Ulu Məhəmməd" deyirdilər. Əbdülmüttəlib Həlimə xatunun evinə hər iki aydan bir Rəsulullahı görmək üçün adam göndərirdi. O adam gəlir, lazım olan hər bir hazırlığı edərdi. Amma Haqq-təala Hz. Əminə xatunun könlünə adam göndərib Məhəmmədi gətirmək və ya onu özü gedib görmək məhəbbətini qoymadı. Allah-təalanın istəyi ilə uşağın mübarək üzünü Əminə xatun, Əbdülmüttəlib və qövmi yalnız dörd il doqquz aydan sonra görməli idi. Bu dörd il doqquz ay içində Həlimənin mal-qarası, ruzisi çoxaldı. Elə oldu ki, bütün ərəblər içərisində məşhur oldu.

Bu vaxtlarda Həlimənin iki oğlu da böyümüşdü. Daima qoyunları otarmağa gedirdilər. Həlimə xatun belə rəvayət etmişdı: "Bir gün axşam vaxtı idi. Oğlanlarım qoyun otarmaqdan gəlirdilər. Rəsulullah məndən soruşdu ki, ey anam, mənim qardaşlarım gündüz evdə olmurlar, gecə gəlirlər. Hər gun onlar hara gedirlər?

Mən cavab verdim:

– Ya Məhəmməd, Allah-təala sənin bərəkətinlə bizə çox nemət verdi. Ac idik, doyduq. O iki oğlum sənin qullarındır. Gündüz gedirlər, qoyuna baxırlar, otarırlar, gecə evə gəlirlər. Ona görə də gündüz sənin xidmətində olmurlar.

Məhəmməd:

– Ey anam, o insafdırmı ki, mən evdə oturum, kölgə yerdə sərin su içim, qardaşlarım isə istidə, günəşin altında yansınlar. Heç rəvadırmı ki, onlar isti su içsinlər? Bu iş insaniyyətə sığmaz.

Məhəmmədin dünya haqqında söylədiyi haqq istəyən bir sözdür. Gün gələcəkdi ki, onun dininə girənlər Allahın nəzərində bərabər olacaqlar.

Məhəmməd Həliməyə dedi:

– Ey ana, sabah mən də qardaşlarımla birlikdə qoyuna gedəcəyəm.

Həlimə ona cavab verdi:

– Ya Rəsulullah, ey mənim canım, gözümün işığı! Canım sənə fəda olsun! Axı sən mənim yanımda bir əmanətsən. Sənin düşmənin çoxdur. Qorxuram ki, çöldə sənə bir ziyan verərlər.

Hz. Məhəmməd:

– Ay ana, məni qoruyan vardır. Niyə içində bu qədər təlatüm var. Məndən

ötrü təlaş etmə. Məni Yaradan qoruyur".

Həlimə artıq bu düşünülmüş sözlərə cavab verməmişdi. Çünki dörd yaşını keçmiş Məhəmməd hər şeyi bilib anlayırdı. Onun sözlərinə "Olmaz", demədi. Qorxdu. Gecə keçdi. Səhər hər gün olduğu kimi Məhəmmədin paltarlarını geyindirdi, qurşağını bağladı. Gözlərini sürmələdi. Yaşı dörd yarım olmağına baxmayaraq böyük oğlu ilə bir boydaydı. Görən elə sanırdi ki, heç Zəmra ilə süd əmməyib.

Məhəmməd əlinə bir ağac parçası alaraq durmuşdu. Qardaşları içəri girəndə balaca Məhəmmədin onlarla birlikdə otlağa getmək istədiyini başa düşdülər. O qəbilədən olan iki kişi bunu gördukdə:

– Ey Həlimə, Məhəmmədi nədən çölə qoyun otarmağa göndərirsən? Onu gün vuracağını düşünmədinmi? – dedilər.

Həlimə cavab verdi:

– Bəli, onun getməsinə razı deyildim. Amma and içdi ki, gedəcək. Mən də onun sözündən çıxa bilmərəm.

Sonra uşaqlarına bərk-bərk tapşırdı:

– Ey oğullarım, Məhəmməd sizinlə çölə, otlağa getmək istəyir. Siz ona diqqət edin. Onu günəşdən qoruyun, istidə gəzməsin.

Sonra Rəsulullahı onlara bir də tapşırdı və Allaha əmanət etdi.

## *ASLANLA QARŞI-QARŞIYA*

Bir gün qəbilənin qoyunları səhraya yayılmışdı. Məhəmməd də süd qardaşı Zəmra ilə birlikdə qoyuna getdi. Sürünü otarmağa başladılar. Çünki Həbibi-Əkrəm ümmətinin çobanı olacaq, o kamala bu çobanlıqdan yeti°əcəkdi.

Həlimə Məhəmmədi sürü ilə səhraya göndərəndə könlündə zərrə qədər narahatlığın olduğunu hiss etmədi. Bəzən oturdu, bəzən yola baxdı. Axşam olunca, beləcə davam etdi. İlk axşam Məhəmmədin sağ-salamat döndüyünü görən Həlimə xeyli fərəhləndi. Məhəmməd də böyük sevinclə, gülə-gülə gəlirdi.

O nədir belə? Qucağında bir quzu vardı. Məhəmməd quzunun burxulan ayağını mübarək əli ilə sığalladı. Ayaq sapsağlam oldu. Həliməyə yaxınlaşanda quzunu buraxdı. Quzu tullana-tullana sürünün içinə qaçdı. Həlimə bunu görüncə, ona yaxınlaşdı, süd balasının əlindən öpdü. Onu bağrına basdı:

– Ay Məhəmməd, sənin ayrılığına dözə bilməyəcəyəm.

Onu qucaqlayıb evə gətirdi. Onun dönüşünə hər kəs sevindi, onun üçün dualar etdilər.

Həlimə oğlu Zəmradan soruşdu:

– Oğlum, bu gün Seyyidin Məhəmməddən nə nişanələr, əlamətlər gördün? Hə möcüzələrin şahidi oldun, mənə xəbər ver.

Zəmra:

– Ana, necə əcaib şeylər gördüm bir bilsən... Amma mənim gördüyümü kimsə görmədi.

Həlimə:

– O zaman söylə, eşidim, – dedi.

Həlimə kiçik oğlundan soruşarkən böyük oğlu da gəlib çıxdı:

– Ay ana, ağamız Məhəmməd bizimlə gedərkən dağ, daş, qurd, quş, vəhşi heyvanlar, uçan və uçmayan hamısı Məhəmmədi salamlayırdı. Biz də yanında heyran-heyran gəzirdik.Birdən qarşımıza böyük bir aslan çıxdı. Biz aslanı gördükdə çox qorxduq, dilimiz söz tutmurdu. Qoyunlarımız hərəsi bir tərəfə ürküb qaçdı. Amma Məhəmməd aslana tərəf yeridi."Nə olacaq?" – deyə həyəcan içində baxırdıq. Aslan dilini çıxardı, heybətindən əsər qalmamışdı. Məhəmmədin əllərini yaladı, onun qarşısında oturdu. Məhəmməd yaxınlaşaraq qulağına bir neçə söz söylədi. Aslan əhliləşdirilmiş heyvan kimi sözləri duyub üzünü, köksünü yerə sürtdü. Təkrar əllərini yaladı. Sonra gəldiyi yolla geri döndü. Dərənin içində gözdən itdi.

Aslan getdikdən sonra ağlımız başımıza gəldi. Dağılan qoyunları topladıq. Dönüb evə gəldik.

O zaman Məhəmməddən soruşduq:

– Ay Məhəmməd, sən aslana nə söylədin? Nə dedin ki, geri dönüb getdi? Gəldiyi yolda yox oldu?

Məhəmməd bizə belə cavab verdi:

– Aslanın qulağından tutdum. Ona: "Ay heyvan, mənim kəramətimə buralara gəlmə, bu tərəfdə görünmə!"– dedim. O da getdi. Bir də buralara gəlməz.

Bu sözləri duyan Həlimə uşaqlarına:

– Nəbadə bu sirr haqqında bir kimsəyə söz deyəsiniz.Bu uşağın düşməni çoxdur. Sözlərinizi eşidərlərsə, ona qəsd edərlər.

## *MƏHƏMMƏDİN (s.ə.s.) DÖŞÜ NECƏ YARILMIŞDI*

Bu gündən sonra hər gün Məhəmməd qoyun otarmağa gedirdi. Həlimənin uşaqları da nə kimi əcaib və qəribə hadisələr baş verirdisə, gördüklərini gəlib analarına danışırdılar. Ancaq hansı sirlər gizli qalır kı? Həlimə bu səbəbdan çox həyəcan keçirirdi. Öz-özünə deyirdi:

– Mən artıq bu uşağı ana evinə aparıb təhvil verməliyəm. Məhəmmədin şöhrəti bütün qəbiləmizdə yayılmışdır. Həsəd aparanların qurbanı ola bilər. Düşmənlərin hiyləsinə düşər, Əbdülmüttəlibin yanında üzüm qara olar.

Bu kimi fikirlər Həlimənin qəlbini parçalayırdı. O, gecə bu fikirlərlə yatdı. Ertəsi gün səhər oyananda Məhəmməd yenə qoyun otarmağa getmişdi. Həlimə öz daxili həyəcanını ərinə söylədi. Haris:

– Yaxşı düşünmüsən, – dedi. Çünki bütün əmizdirənlər oğlanları Məkkəyə götürüb ata-analarına təslim ediblər. Sən də Məhəmmədi aparıb anasına ver.

Onlar söhbət etdikləri vaxtda ən kiçik övladları Zəmranın çöldən qaça-qaça evə doğru gəldiyini gördülər. Çox bərkdən bağırırdı:

– Ana, ana!

Həlimə ilə Haris uşaqlarının səsi gələn tərəfə baxdılar. Var gücləri ilə onlara doğru qaçırdılar. Görəsən, nə olub belə qaçırlar? Məhəmmədə bir şeymi olmüşdu? Mal-qaraya qurd gəlmişdi?

Həlimə soruşdu:

– Ay oğul, nə oldu sənə, nə oldu belə? Niyə qaça-qaça gəldin?

Zərma həyəcanla:

– Ana, çöldə sürünü otarırdıq. İki kişi yanımıza gəldi. Məhəmmədi tutdular, yerə yıxdılar. Bir bıçaqla sinəsini yardılar, – deyə təngnəfəs olanları xəbər verdi.

Həlimə bu sözləri eşidəndə özünü bıçaqla kəsilmiş kimi hiss etdi. “Ah!”... iniltisi yüksəldi. Boynunu yerə vurdu, köynəyinin yaxasını cırıb parçaladı. Başını açıb saçını yola-yola, yalınayaq Məhəmməd tərəfə qaçmağa başladı.

Xəbər bir dəqiqə içində bütün qəbiləyə yayılmışdı. Kimdi Hz. Məhəmmədi yıxıb qarnını yaran? Görəsən, ona bir şey olmuşdurmu? O iki kişi Məhəmmədi öldürmüşlərmi? “Məhəmmədi öldürmüşlər”... sədası kəndə tam yayılmışdı. Kişilər, qadınlar atla, ayaqla hamı o tərəfə qaçırdılar. Həlimənin ardına düşmüşdülər. Çünki hamı Məhəmmədi sevirdi. Tez-tez onu görməyə gəlirdilər. Mübarək ayağı onlara düşmüş, qəbilənin həyatında böyük dəyişikliklər olmuşdu. İşləri yaxşılaşmış, hamının mal-dövləti qat-qat artmışdı.

Həlimə, nəhayət, Məhəmmədin yanına gəldi. Gördü ki, o sağdı, salamatdı, bir sel yolunda yumşaq qumun içində oturub. Gəldi, Rəsulu qucaqlayıb bağrına basdı. Sevincindən ağlayırdı. Az sonra özünə gəlib Məhəmmədin sinəsini açdı. Heyrətləndi. Süd uşağı Məhəmmədin sinəsində və qarnında yara izi belə yox idi. Hər yeri sağlamdı. Bunu görüncə, əmin oldu, ürəyi sakitləşdi. Oturdu. Məhəmmədə:

– Ay mənim balam, gözümün işığı. Süd qardaşın Zərma gəlib məni bir

zəhərli oxla düz ürəyimdən vurdu. Acı bir xəbər gətirdi, – dedi:

Məhəmməd süd anasına:

– Qardaşım Zərma doğru deyib sizə həqiqəti danışıb.

Həlimə çaşıb qaldı:

– Necə oldu bu iş? Bizə söylə?

Məhəmməd:

– Ay ana, − dedi, – qoyunları otararkən, yanıma iki kişi gəldi. Böyük, heybətli, güclü insanlardı. Üzləri aydın, arıq, günəşdən parlaqdı. Biri sinəmdən göbəyimə kimi bıçaqla yardı. Amma heç qan çıxmadı. Yaram incitmədi, heç ağrımadı. Ürəyimi bayıra çıxardı, onu yardı. İçindən qara bir şey çıxardı, torpağa atdı. Sonra bağrımı təkrar yardı, oradan da bir qara şey çıxardı və onu da torpağa atdı. İkincisi boynundan bir kuzə çıxardı. Bu kuzə ağ incidən idi. Ürəyimə və bağrıma ağ inci kuzədən su tökdülər. İçini, bayırını yudular. Ciyərlərimin pərdəsini yuyarkən tökülən sudan nurlar parlayırdı. Ciyərlərimi və ürəyimi əlində tutan kişi barmağından bir üzük çıxarlıb ürəyimə bir möhür vurdu. Sonra mənə dönüb dedi:

– Könlünü narahatlıq bürüməsin. Dünya məhəbbəti könlündə yer tutmasın. Sonra ürəyimi və ciyərlərimi yerinə qoydu. Yanındakı yoldaşı əlini qarnımın üstünə qoydu. Qarnıma sığal çəkdi. Yara yeri həmən birləşdi. İş bitdikdə ikisi də gözlərimdən öpüb göyə qalxdılar, gözdən qeyb oldular.

Məhəmməd bunları danışıb bitirənə qədər Sədoğulları qəbiləsindən insanlar dəvə, at və bəziləri də ayaqla onların yanına gəlib həyəcan içərisində:

– Nə olmuş? Məhəmmədin başına nə hadisə gəlmiş, − deyə soruşdular.

Həlimə onlara Məhəmmədin söylədiklərini danışdı. Onlar iki yerə bölünmüşdü. Birinci hissə əminliklə düşünürdü ki, deməli, gözlənilən əziz rəsul, o möhtərəm nəbi ki, Haşimoğullarından gələcəkdi, o peyğəmbər budur.

İkinci hissə isə şübhə ilə: "Bu uşaq kahin və sehrbaz olacaqdır", − deyirdilər.

Zamanı gələndə də Rəsulullah xalqı dinə dəvət etməyə başlayanda birincilər müsəlman olmuş, ikincilər isə yalançı saymış və onun i°inə daima mane olmu°lar.

Həlimə tez evə gəlib əri Harisə dedi:

– Ey Haris, bizə artıq Məhəmmədi evinə aparmalıyıq, bu çox vacibdir.

## *Hz. MƏHƏMMƏD MƏKKƏYƏ GƏTİRİLİR*

Evlərinə dönüncə yol hazırlığına başladılar. İkisi də dəvəyə minərək Məhəmmədi də yanlarına aldılar. Qəbilələrindən ayrıldılar. Səadət sahibi uşaq kimi gah Həlimə ilə, gah da Harislə dəvə üstündə gedirdi. Yol uzun

idi. Yavaş-yavaş Məkkəyə doğru gedirdilər. Bir axşam Lüheyb deyilən bir çadırlı yerə gəldilər. Burada bir kahin vardı. Çox gün görmüş yaşlı insandı. Bir qisim insanlar onun yanında toplanmış, kahin onlara axırzaman peyğəmbərinin keyfiyyəti və sifətindən danışırdı. Onun görəcəyi işlərdən, bəylərə, hökmdarlara verəcəyi əmrlərdən, onlardan tac, bac-xərac alacağından, yeni din və şəriət, yeni qanun və qaydalar qoyacağından danışırdı. Bu vaxt Məhəmməd Harisin dəvəsində kahinin yanından keçib getdi. Məhəmmədin üzü nurluydı və nur günəş kimi parlayırdı. Keçib getdiyi zaman üzü o qədər parlaq idi ki, kahin onun üzünü görən kimi Məhəmmədi göstərərək bağırmağa başladı:

– Ey qövmüm, bu iki insanın gətirdiyi uşağı öldürün. Qanını tökün. Yoxsa, o sizi öldürəcək, qanınızı tökəcəkdir.

Kahinin ətrafında olan ərəblər:

– Bu uşaq necə bir uşaqdır ki, bizim qanımızı tökəcəkdir, – deyə soruşdular.

– Sizə haqqında danışdığım, sifətini söylədiyim uşaq budur.

Malınızı əlinə keçirəcəkdir, ulularınız və hörmətlilərinizi öldürəcəkdir. O, qılınc vuran, qan axıdan peyğəmbərdir ki, ulularınızı kölə edəcək, mal-mülkünüzə hökm edəcəkdir. Bütlərinizi endirəcək, bütün xalqları öz dininə döndərəcəkdir. Kəlamlarına inandıracaqdır. O peyğəmbər bu gedən uşaqdır, tez olun, uzağa getməmiş onu öldürün.

Kahin bu sözləri bitirən kimi ətrafında olanlar qalxdı, Həlimə və Harisin arxasınca düşdülər. Haris geri baxanda çadırlı yerdən bir bölük insanın, atla, ayaqla onlara doğru qaçdıqlarını gördü.

Kimdir bu gələnlər? Haris həyəcanla Həliməyə:

– Ay Həlimə, ardımızca bir sürü insan qaçaraq gəlir, – dedi.

Elə bunu söyləyib bitirməmişdi ki, dəvələr quş kimi sürətlə qaçmağa başladılar. Elə sürətlə gedirdilər ki, ox atsalar çatmaz, quş olsa da onlara yetməzdi. Arxadan gələnlər yerlərində də qaldılar. Həlimə:

– Şükürlər olsun, – deyərək dua etdi. Məhəmmədin möcüzəsinə bir daha şahid oldular.

## *Hz. MƏHƏMMƏD KƏBƏNİN İÇİNDƏ QEYB OLUR*

Nəhayət ki, quş sürəti ilə gedən dəvələr Həlimə, Haris və Məhəmmədi Məkkəyə yaxın bir yerə çatdırmışdı. Şəhərin kənarında dayandılar. Haris dəvələrin yanında qaldı. Həlimə Məhəmmədi götürüb Məkkəyə gəldi. Hərəmə yaxınlaşanda onu boynundan düşürdü. Buraxdı. Təkbaşına Hərəmin

içinə girdi. Arzusu Kəbəni təvaf etmək, bütlərin önündə baş əymək idi. Beləcə beş il Məhəmmədi bəsləyib böyütdükdən sonra anasına və babasına sağ-salamat geri verməsinə görə şükrünü bildirmək idi. Təvaf edib geri döndü. Hərəmin bayırına çıxanda Məhəmmədi görmədi. Hər tərəfə baxdı, soruşdu, amma gördüm deyən olmadı.

Böyük həyəcanla geri Məkkənin kənarına, Harisin yanına doğru qaçdı. Harisi görəndə ondan soruşdu:

– Məhəmməd bura gəldimi?

Haris:

– Bura gəlmədi, görmədim.

Biçarə qadın, zavallı Həlimə ağlaya-ağlaya Hərəmə döndü. Hərəmin bütün ətrafına baxdı, soruşdu, amma Məhəmmədi tapmadı.

Nəhayət, tapa bilmədiyini anlayanda Hərəmdə oturub fəryad edərək ağlamağa başladı. Paltarını parçaladı, üzünü cırdı. Başını torpağın üstünə qoydu. Camaat bu halı görəndə başına toplaşdılar. Birdən ağ saqqallı, yaşlı bir kişi qarşısına çıxdı. Həlimənin yanına gəldi:

– Ey xatun, nə üçün fəryad edirsən? Şikayətin nədir? Nə itirmisən?

Həlimə xatun:

– Məhəmməd adlı uşağımı itirmişəm.

İxtiyar adam Həliməyə:

– Mənimlə gəl, – dedi.

Bərabər Hərəmin içinə girdilər. Ağsaqqal:

– Gəl səni Üzza bütünün yanına götürüm. Orada itirdiyini taparsan, dedi.

O zaman Üzza adı verilən büt bütün ərəblərdə müqəddəs idi. Ərəblərin itənini tapır, müşküllərini həll edərdi. İxtiyarla birlikdə Həlimə bütün önünə gəldi. Ağsaqqal bütün önündə səcdə etdi:

– Ey Üzza, ey Lat, bu biçarə qadının, bu Sədoğullarından olan Həlimə xatunun bir yetim oğlu varmış. Haşimoğullarından əmizdirməyə aparmış, adı Abdullah oğlu Məhəmməddir. Buraya gətirmiş, bu gün anası və babasına təslim edəcəkmiş. Hərəmin önündə qoymuş, indi axtarır, fəryad edir, tapa bilmir. O yetimi tap, ver.

Qoca kişi sözlərini bitirən kimi bir möcüzə baş verdi. Üzza bütü durduğu yerdən aşağı düşdü. Kəbədəki 300 büt də yerə düşmüşdü.

Bundan sonra ixtiyar kişini heyrətdə buraxan ikinci möcüzə baş verdi. Üzza insan kimi dilə gəlmişdi. Bu sözləri doğrumu söyləyirdi? Bəlkə də Həlimənin içindən gəlirdi. Nə olursa olsun hiss olunurdu:

– Ey nadan qoca, sən bu sözü necə söylədin? Ey ağılsız adam, məgər sən abdalsan? Bilmirsən ki, soruşduğun kimdir?Cahanda nə edəcək, o uşaq?

Niyə əjdahanın quyruğunu basdalayırsan? Yanan odun içinə düşmək bundan daha asandır. Bu yatmış aslanı oyatmaqdır, ay ağsaqqal! Kişi belə söz söylərmi? Bizi tutduğumuz mərtəbədən atan, zəlil, aşağı və hörmətsiz edəcək ən son ağıllı bir adam. Budur möcüzələr və cahanda Quran sahibi olan. O, bütün ənənələri aradan qaldıracaqdır. Yeni baxış, yeni qanun gətirəcəkdir. Ən ixtiyarlar onun yanında uşaqdır. O, dünya yaranmadan sultan oldu. Sən onu qeyb olmuş sandın, ey qoca. Onu qoruyan Uca Yaradandır. Dünyanın bəyi o olacaqdır. O biri dünyanın, axirətin də sultanı o olacaqdır.

İxtiyar Üzza bütündən bu sözləri eşidincə nə edəcəyini bilmədi. Dili tutuldu. Döndü Həliməyə baxdı:

– Gəl, – dedi, – öz qulağınla eşitdin böyük bütümüz nə dedi. Ağzından nə əcaib sözlər çıxdı. Mənim yaşım yüzə yaxındır, belə sözləri heç bir bütdən eşitməmişəm. Heç bir büt üzünü yerə qoyub səcdə etməmişdi.

Bu hal Əbdülmüttəlibin qulağına çatdı. Tez Kəbəyə gəldi. Həliməni ağlaya-ağlaya fəryad etdiyini gördü.

Şeybətül-Həmd Həliməyə:

– Nə olub, nə hadisə baş verib,-deyə soruşdu.

Həlimə:

– Məhəmməd qeyb oldu.

Şeybə də ürəyindən ox vurulmuş kimi oldu. Kəbənin eşiyinə üzünü qoyaraq ağlayan bir səslə:

– Ey Yaradan, dərgahına üz sürtürəm, Məhəmmədi mənə bağışla.

Birdən-birə Kəbənin içindən bir səs eşidildi:

– Ya Şeybə, üzünü torpaqdan qaldır. İstədiyin qeyb olmayıb. Ulu Yaradanın mələkləri onu saxlayırlar. Heç bir oğru, quldur ona bir şey edə bilməz. Hətta min kişi hücum etsə belə, ona yaxınlaşa bilməz.

Şeybə:

– Ey Kəbədən səsi gələn, indi nəvəm Məhəmməd haradadır?

Səmadan eyni səs cavab verdi:

– Məhəmməd indi Tihamə vadisindədir.

Məkkənin xaricində Tihamə deyilən bir dərə vardı. Məhəmmədin sağlığı xəbərini eşidən Əbdülmüttəlib sevinərək hərəmdən bayıra çıxdı. O tərəfə doğru getdi. Şeybə bütün Qureyşin bir yerə toplandığını gördü. Onlar da:

– Məhəmməd haradadır? – deyə soruşurdular. Şeybə səmadan gələn xəbəri söylədi.

Qureyş qəbiləsinin arasında ulu bir kişi vardı. Adına Nofəl oğlu Vəraqə deyirdilər. Elmli bir adamdı. Bütün mübarək kitabları oxumuşdu. Hər yerdə axırzaman peyğəmbərinin sifət və möcüzələrindən danışardı. Bunları çox yaxşı bilirdi. O da gəldi:

– Ya Əbdülmüttəlib, ya Hərəm Seyyidi, o oğlunun, uşağının şanı böyükdür. Nişanları bunu deyir.

Bütün Qureyş böyükləri atı olan atla, olmayanlar ayaqla Əbdülmüttəliblə Tihamə vadisinə gəldilər. Bir də gördülər ki, Məhəmməd ağac altında oturub. Beş yaşında idi, amma boyu on iki yaşlı uşaq kimi görünürdü. Əbdülmüttəlib Məhəmmədi görüncə, önə keçərək irəlilədi. Məhəmmədə baxınca, yer üzünün də onun nurundan parladığını gördü.

– Bu Məhəmməddir, nəvəmdir, − dedi. Çünki o Sədoğulları qəbiləsinə getdikdən sonra onu görməmişdi.

Soruşdu:

– Ey oğul, sən kimsən?

Məhəmməd:

– Mən Əbdülmüttəlib oğlu Abdullah oğlu Məhəmmədəm, − dedi.

Şeybətül-Həmd bu sözü eşidəndə qəlbi sevinclə doldu, ürəyi döyünməyə başladı. Tez atından düşdü. Yaxınlaşıb Məhəmmədi bağrına basdı. Sevincindən gözləri yaşardı. Beş ildən sonra ilk dəfə nəvəsini görürdü. Üzünü üzünə qoydu və:

– Əziz balam, sən gözlərin işığı, könüllərin müjdəçisi olmusan, mənim xəbərim yox, – dedi. Sonra əmilər gəldi, Məhəmmədlə görüşdülər, danışdılar. Az keçmədi ki, Qureyş hörmətliləri gəlib onu ziyarət etdilər, "xoş gəlmisən" dedilər. Hamısı da onun gözəl üzünə heyran qaldılar.

Bundan sonra Məhəmməd üçün bəzənmiş, çox qiymətli bir at gətirdilər. Atın üstünə mindi. Məhəmmədin bir yanında babası Əbdülmüttəlib, o biri tərəfində əmisi Əbu Talib, ətrafında əmiləri və Qureyş hörmətliləri böyük izdihamla hərərəkətə başladılar. Vadidən şəhərə doğru irəlilədilər.

Bütün Məkkə camaatı Əbdülmüttəlibin sevimli nəvəsini qarşılamağa çıxmışdı. Şəhər əhli Rəsulullahı(s.ə.s) gördülər, heyran qaldılar.

Məhəmməd nə qədər böyümüşdü?! Nə gözəl üzü vardı?! Onu görənlər üzlərini başqa tərəfə çevirmirdilər. Seçilmiş at üzərində daha da gözəl görünən Məhəmməd hamını valeh etmişdi. Şəhərin içində Haşimoğulları Məhəmmədi atdan düşürüb Əbdülmüttəlibin evinə gətirdilər. Bütün qadınlar Sədoğulları qəbiləsində  artıq böyümüş, gözəlləşmiş uşağı qarşıladılar. Qohum-əqrəbadan olan qadınlar evə keçdiər. Əbdülmüttəliboğullarının qadınları ilə bibiləri, yəni  Atiqə, Bərra, Bəyza, Əsma və Səlma xatun Hz. Məhəmmədin anası Əminə xatunun yanına gəldilər və ona "Gözün aydın", dedilər.

Əminə xatun 4 il 9 ay həsrətdən sonra sevinc və fərəhlə az qala qanadlanıb uça-uça oğluna tərəf qaçdı. Onu qarşıladı. Atdan düşmüş Məhəmmədi bağrına basdı, iki gözündən öpdü. Sevincindən göz yaşlarını saxlaya bilmir-

di. Göz yaşı yanaqlarından mirvari dənələri kimi dayanmadan axırdı. Qadınlar da Əminə xatuna qoşulub sevincdən göz yaşı axıdırdılar. Bundan sonra bütün qadınlar Məhəmmədi bağırlarına basdılar. Üç gün otaqdan bayıra çıxmamasını tapşırdılar.

Üç gün Məkkə şəhəri Məhəmmədi tərifləyib ondan danışdı. Əbdülmüttəlibin də könlü bu gəlişdən qanadlanmış kimi idi. Belə bir tapşırıq verdi:

– Tez Həliməyə xüsusi hörmət əlaməti sayılan paltar geyindirilsin. Ona bəxşişlər verilsin.

Həmən tapşırığı yerinə yetirdilər. Həliməyə gözəl paltarlar və çox hədiyyələr verildi. Üç gün sonra yurduna getmək arzusunu nəzərə alaraq şəhər qapısına kimi hörmətlə yola saldılar.Üç gün sonra Əminə xatun Məhəmmədi bəzədi, gözəl paltarlar geyindirdi. Ətirlədi. Reyhanə adlı qara bir həbəş cariyəsinə tapşırdı:

– Ey Reyhanə, Məhəmmədi evdən çıxarıram, qabaqda get, babası Əbdülmüttəlibin yanına apar.

Həbəş qızı Reyhanə tapşırılan kimi də etdi. Məhəmmədin önündə gedərək onu babası Əbdülmüttəlibin Hərəmdəki guşəsinə gətirdi. O vaxtlar Şeybə Kəbənin divarının dibində ona ayrılmış yerdə oturur, əmrlər verirdi. Bunlar gələndə də yerində oturmuşdu. Məkkəlilərə tapşırıqlar verməkdəydi. Qureyşin hörmətliləri də yanında oturmuşdu. Gözlər birdən irəliyə baxdı, Məhəmməd qara cariyə Reyhanə ilə gəlirdi. Əbdülmüttəlib də o tərəfə baxdı. Məhəmmədin gəldiyini görəndə yerindən qalxdı, nəvəsinə tərəf yeridi. Bunu görən Qureyş hörmətliləri də Məhəmmədə doğru getdilər. Əbdülmüttəlib sevimli nəvəsini qucaqladı, iki gözündən öpdu. Qolundan tutaraq Kəbə divarının önündəki yerinə gətirdi: "Gəl yanımda otur, sevimli,əziz balam", – dedi.

Məhəmməd keçib ona göstərilən yerdə oturdu. Qureyş hörmətlilərindən gənci də, qocası da onun yanında dayanıb sonra oturdular. Hamının gözü

ayüzlü Məhəmməddə idi. Məkkə ulularından biri sözə başlayaraq:

– Ey Hərəm başçısı, – deyə Əbdülmüttəlibə müraciət etdi, ey Seyyidimiz, nəvən Məhəmməd ulu bütlərimizə və böyük bütümuz Üzzaya səcdə etmək istəmir? O bütlər ona böyük dövlət və səadət bəxş edər.

Əbdülmüttəlib bu sözləri dinlədi, sonra ixtiyara cavab verdi:

– Ey qövmüm, bilirsiniz ki, İbrahim Xəlil zamanından bəri peyğəmbər nuru atadan oğula keçərək bizə miras qalmışdır. Görürsüz ki, indi nur sahibi bu Məhəmməddir. Siz də bilməlisiniz ki, nəvəm Məhəmməd peyğəmbər olacaqdır. Ona nəbilik gələcəkdir. Göydən enən müqəddəs kitablarda xəbər verilən axırzaman peyğəmbəri Məhəmməd budur. Mən ona inanıram ki, nəvəm Məhəmməd Tanrının bizə göndərdiyi peyğəmbərdir. Madam ki belə-

dir, peyğəmbərlər bütlərə səcdə qılmazlar. Bəlkə, bütlər onlara səcdə qıldılar. Üç gün qabaq baş verən hadisədən xəbəriniz varmı? Həlimə bu uşağı bizə gətirmək üçün Kəbə qapısına gəlmişdi. O bütlərə səcdə etmək üçün içəri girəndə nə gördü, bilirsizmi? Bütlər bu mübarək uşağın üzünü gördükdə üzüstə yerə düşdulər. O Lat, o Üzza bütlərinin sözlərini eşitmədinizmi? Nələr söylədilər, nələr etdilər?

Qureyş hörmətliləri:

– Eşitdik, ya Əbdülmüttəlib, – deyə cavab verdilər.

## *MƏHƏMMƏDİN DUASI*

Bu zaman Məhəmməd yerindən dikəldi. Kəbənin pərdəsindən tutdu və dedi:

– Ey ümmətləri və gözəl şeyləri yoxdan var edən və əzəldən bəri tək və qədim olan Tanrı! Sən ərş üzərində durdun və ərz səninlə tarazlıq tapdı, doğru oldu. Qüdrətin göy üzünü əhatə etdi. Yerləri döşədin. Dağları yüksəltdin. İnsanları ayrı-ayrı iş və söz sahibi etdin. Rüzilərinin zamini oldun. Bunlardan kimisini zəngin, kimisini fəqir, kimisini əziz, kimisini bədbəxt etdin. Kimisini elmli, kimisini avam eylədin. Bəzilərini böyük, bəzilərini kiçik, bəzilərini görən, bəzilərini kor etdin. Sevdiklərini özünə yaxın, sevmədiklərini özündən uzaq tutdun,ey Rəbbim! Sən ümmətlərin xaliqisən, böyük, həlim, qadir, müjdəçi bir Tanrısan. Mən zəlil qulunam. Şəhadət edirəm ki, sən təksən, birsən, Samədsən. Ortağın yoxdur. Səndən başqasına təvəkkül etməyəcəyəm. Sən mənim Yaradanımsan. Məni qoruyansan. Yardım edənsən. Məni bəsləyən və su verənsən. Səndən başqa hər şey mənin gözümdə heçdir. Ey ruziləri bölüşdurən Allah, sən böyüksən, Ulusan.

Bu duanı dinləyən Qureyş uluları, Rəsulullahın fikrini aydın, düzgün və inandırıcı ifadə etməsindən çaşıb qalmışdılar:

– Bu kiçik uşaqdan belə böyük sözləri eşitmək nə yaxşıdır, – dedilər.

Sonra Şeybətül-Həmd Məhəmmədi evinə apardı. Axşam o, Əminə xatuna Məhəmmədin gözəl sözlərini və bu sözləri böyük məharətlə deməsini söylədi. Əminə xatun analıq qüruru ilə: “Yaradana həmd və şükürlər olsun!” – deyərək dua etdi.

Məhəmməd o gündən sonra hər səhər Əbdülmüttəlib ilə Kəbə hərəminə getməyə başlamışdı. Əbdülmüttəlib bütün ərəblərin başçısı olduğundan hər cür əmr onun əlində idi. Məhəmməd də onun yanında oturur, onun verdiyi tapşırıqlara qulaq asır, ədalətini, qərarlarını görürdü.

Günlər keçirdi. Elə günlər olurdu ki, Əbdülmüttəlib qərarlarında xəta et-

miş olurdu. O zaman Məhəmməd:

– Ay baba, bu hökm elə deyil, belə olmalıdır, – deyirdi.

Şeybə də nəvəsinin doğru sözlərinə qulaq asırdı. Çünki dəfələrlə Məhəmmədin dediklərinin daha doğru olduğunun şahidi olmuşdu. O da Rəsulullahın dediyi hökmü verirdi.

Yenə günlər keçir, artıq Məkkə başçısı hökmünü vermədən əvvəl Məhəmmədə dönər:

– Sən bu haqda nə düşünürsən, ya Məhəmməd, − deyərək onunla məsləhətləşirdi. Sonra öz qərarını verirdi.

Bir il də belə keçdi. Ərəblər arasında ilin Kəbə təvafı zamanı gələndə (bu Zilhiccə ayında olurdu) Məkkədə böyük yığıncaq olurdu, bir yerə yığışıb məsləhətləşmələr aparırdılar.

Dörd tərəfdən qəbilələr Məkkəyə gəlirdilər. Həcc olurdu. Ərəfat dağına çıxır, təlbiyə (Ləbbeyk çağırışı) edirdilər. Saçlarını kəsdirir, sonra isə qurban kəsirdilər. Bu adət ta İbrahim peyğəmbərdən bəri vardı. Hər qəbilənin təlbiyəsi, yəni "Ləbbeyk"deməsi ayrı-ayrı idi.

Yenə həcc vaxti gəlib çatmışdı. Ərəblər qəbilə-qəbilə toplaşıb Kəbəni təvaf etməyə gəldilər. Kəbəyə girincə yenə Əbdülmüttəlibi başçı mövqeyində görmüşdülər. Şeybənin yanında alnı ay, üzü parlaq bir oğlan uşağı oturmuşdu. Üzünə kim baxırdısa, heyran qalırdı. Bu uşaq başqa uşaqlarla oyun oynamırdı. Dünya əhli ilə dünya söhbəti aparmırdı. Durub oturduğu söhbət etdiyi ağıllı və elmli insanlar idi. Sözləri çox hikmətli olurdu.

Ərəfə günü qəbilə-qəbilə gələn camaat Ərəfat dağına çıxırdı. Bu il də belə oldu. Ərəfata çıxdılar, amma Əbdülmüttəlibin yanında Məhəmmədi də gördülər. Ərəb qəbilələri ayrı-ayrı çeşidli "Ləbbeyk" deyərkən Məhəmməd onları dinləyirdi. Həhayət, Məhəmməd özü də təlbiyəyə başladı. Amma ərəblərin dediklərini demədi. Nə Qureyşin, nə Sasaanın, nə Nizaroğullarının, nə Huzeylin ləbbeyklərini söyləmədi. Məhəmməd s.ə.s) İbrahim Xəlil təlbiyəsini deməyə başladı:

– Ləbbeyk, Allahümmə ləbbeyk lə şərikə ləkə ləbbeyk, innəl həmdə vəl nimətə ləkə vəl mülkə, vəhdəki lə şərikə lək.

Bu təlbiyədən sonra ərəb dilinin ən zəngin və rəngli kəlmələri, natiqlik istedadı ilə dualar oxundu. Hz. Məhəmmədin natiqliyi ərəbləri çaşdırdı. Nə gözəl dualardı? Nə qəlbə yatan sözlərdir?

Camaat yavaş-yavaş Ərəfat dağından aşağı enirdi.

Bir az keçmiş bütün ərəblər Şeybətül-Həmdin ziyafətinə dəvət olundular. Bətha vadisində toplanıldı. Halqa-halqa düzəldilmiş süfrələrdə oturdular. Haşimoğulları, Əbdümənafoğulları, Əbdülmüttəliboğulları ayrı-ayrı xidmətlər göstərirdilər. Gənclər çanaqlarda yemək daşıyır, sinilərə qoyur,

nemətləri süfrədə paylaşdırırdılar.

Hacılar Kəbə başçısının vəzifələrindən olan yemək-içməklə qarınlarını doydurdular. İzzət, sayğı, hörmət gördülər. Amma xalqın ağzında Məhəmmədin sözü, fikirlərində isə onun təlbiyəsi dolaşırdı. Başqa söylənən söz və düçüncə...

– Nə qədər ay üzlü bir uşaq?!

– Əxlaqı nə qədər gözəl?!

– Sözlərində nə qədər böyük natiqlik?!

Hər kəs Məhəmmədi tərifləyirdi. Beləcə, Rəsulullah (s.ə.s) daha kiçik yaşda: hörmət və etibarı, həya və ləyaqəti, sözünün şirinliyi, tələffüzünün təravəti, hüsnünün gözəlliyi, üzünün əzəməti ilə bütün xalqın könlündə yer eləmişdi. Uzaqdan gələnlər də, tanıyanlar da onu çox ürəkdən, candan sevirdilər.

## *Hz. MƏHƏMMƏDİ SEVMƏYƏN İKİ KİŞİ*

Amma iki insan vardı ki, Məhəmmədi sevmirdilər. Hətta camaatın Məhəmmədi könüldən, candan sevməsi onları incidirdi. Ədavət və düşmənçilik etməyə başlamışdılar. Könüllərində həsəd toxumu əkilmişdi. İçlərində kin və intiqam hissləri durmadan artırdı. İntiqam onların məqsədlərinə çevrilirdi. Məhəmməd heç zaman bu adamların gözunə yaxşı görünmədi. Nəbinin hərəkətləri heç vaxt bunlara xoş gəlmədi. Kimdir bu iki kişi? Nədən nifaq toxumlarını ürəklərinə səpdilər? Bu iki kişidən birisi Məhəmmədin əmisi Əbdülüzza idi. Ləqəbi Əbu Ləhəb (Lənətullahi əleyhi və ali) (Allahın lənəti onun üzərinə olsun) idi. Allahın lənətinə gəlmiş Əbdülüzza Məhəmmədi nə bir qardaş oğlu kimi, nə də hamının sevimlisi kimi sevmədi. Qövmünün arasında Məhəmmədin uğurlarını görüncə ona həsəd apardı. Hara gedirdisə, bunu deyərdi:

– Bu camaat dəlimi oldu? Ağılsızmı oldu ki, bu bədbəxt uşağa bu qədər izzət və hörmət göstərirlər? Onu əzizləyirlər, ucaldırlar. Nədən ona bu qədər qayğı göstərirlər? Nə üçün ona bu qədər hörmət edirlər? Atasından ona nə mal, nə də ki, mülk qaldı. Heç nə. Bir yetim uşaqdır. Yetim olan zəlil olur,-deyiblər

Sonra təəccüblənirdi ki, mənim atam oğlumu yaxşı hesab etmir, amma yetim uşağı əziz görür.

Əbu Ləhəb belə fikirlərlə özü - özünün içini yeyirdi. Məhəmmədi sevməyənlərin ikincisi Muğirə oğlu Hişam idi. Bu da Əbu Cəhlin atasıydı. Nədən sevmirdi? Çünki o da başçılıq və ululuq davasında idi. O da deyirdi ki, bu qövm əgər bəxtsiz uşağa əslindən ötru hörmət və itaət, qayğı və sevgi

göstərirsə, mən də o əsildənəm. Mən də uluyam, seyyidəm. Mənim oğluma da o sevgi və qayğını göstərməlidirlər. Onunla da hörmət və izzətlə rəftar etməlidirlər.

Hişam bu düşüncələrlə ona düşmənçilik etdi. Hər kəs  evli evinə getdiyi zaman Əbu Ləhəblə Əbu Cəhlin atası by həsəddən od tutub yanırdılar.

Həzrəti Məhəmmədin doğulduğu gecə qırx oğlan uşağı doğulmuşdu. Onlar da böyümüşdülər.  Sonralar Rəsulullaha əshab olmuşdular. Bir neçəsi ilə Məhəmməd çox yaxın idi. Birinin adı Yasir oğlu Əmmar, ikincisi Məsud oğlu Abdullah, üçüncüsü Osman oğlu Abdullah, dördüncüsü İrs oğlu Həbbab, beşincisi Mətin oğlu Osman idi. Qalanları da sonralar anılacaq. Bunlar hər gün gəlir, Məhəmmədlə oturur, gəzirdilər. Onun yanından heç əskik olmurdular.

## ***QURU AĞAC TƏZƏ XURMA VERDİ***

Bir gün Hz. Məhəmməd bibisi Atiqənin evinə getmişdi. Dostlarından yeddi uşaq yanındaydı. Atiqə xatunun evinin həyətinə girdilər. Həyətdə bir qurumuş xurma ağacı vardı. Məhəmməd buraya nə vaxt gəlsə, o xurma ağacının dibində otururdu.

Məhəmməd yenə yeddi uşaqla birlikdə ağacın altında oturdu. Orada dost söhbətinə başladılar.

– Ey bizim seyyidimiz, bu xurma ağacı yaş ağac isə biz onun xurmasını yeyə bilmirik, xurması hardadır?

Məhəmməd soruşdu:

– Könlünüz təzə xurma ustəyir?

Uşaqlar:

– Bəli, əlimizə keçmir. Nə edək?

Məhəmməd dostlarına cavab verdi:

– Mən sizə ağacdan yaş, təzə xurma verəcəyəm.

Dostları:

– Ya Məhəmməd, bu ağac qurumuşdur. Bundan bizə necə yaş xurma verəcəksən?

Məhəmməd cavab verdi:

– Bu iş Ulu Tanrı üçün çox asandır.

Bu söhbət haqqında Əbdülmüttəlibin böyük qızı Atiqə xatun bunları söyləyirdi: "Mən onlara qulaq asırdım, sözlərini eşidirdim. Çünki atam Əbdülmüttəlib oğullarına, qızlarına, bütün ev əhlinə demişdi: "Məhəmmədi gözünüzdən uzaq buraxmayın, nəzəriniz daima üstündə olsun. Gecə və ya gündüz hərəkətlərini izləyin, dediklərini eşidin. Onu gözətləyin. Bir-birini-

zə xəbər verin, məktublar yazın".

Mən də "Məhəmməd dostları ilə nə danışır?" – deyə göz-qulaq olduğum zaman o, yerindən qalxdı. Quru xurma ağacının dibinə gəldi. Üzünü göyə tutdu. Dodaqları ilə nə isə deyirdi. Amma nə deyirdi, bilmirdim. Ancaq onu gördüm ki, quru xurma ağacı göyərdi. Budaqları çıxdı, yarpaqlandı, sonra üstündə xurmalar göründü. Mən çaşqın-çaşqın baxırdım. Xurma salxımları ağacdan sallanırdı. Sonra üstünə töküldü. Mən bunu görüncə, Məhəmmədin ayaqlarına düşdüm. Ayağını öpdüm və dedim:

– Ya Həbibi, bu nə böyük möcüzə idi, sən bizə göstərdin?

Məhəmməd:

– Ay bibi, Ulu Tanrının səviyyəsində bu heç çətin deyil, hər şey asandır.

Az sonra yeddi uşaq artıq xurmaları yemişdi. Xəbər isə ildırım sürəti ilə Məkkəyə yayıldı. "Məhəmməd yeddi dostuna möcüzə göstərmiş, quru ağacdan onlara təzə xurma yedirtmişdir" sözlərini eşidənlər heyrət içində qalmışlar. Kişilərin, qadınların bir çoxu Ətiqənin evinə gəlmişdilər. Ağaca baxır, təzə xurmaları seyr edirdilər. Ulu Tanrının əməlinə, işinə heyran oldular. O zaman Məkkədə ancaq bir xurma ağacı varmış, o da qurumuşdu. Ağacın xurma verməsi məmləkətin hər tərəfinə, qəbilələrə yayıldı. Camaat Məhəmmədi daha artıq, səmimi qəlbdən sevməyə başladı. Amma Əbu Ləhəb dedikləri məlun kinindən əl çəkmədi. Üzünü məkkəlilərə tutub dedi:

– Gördünüzmü, qardaşımın oğlu nə işlər görməyə başladı? Kahin Satihin və Yəmamə kahinəsi Zerkanın söylədikləri bircə-bircə üzə çıxır.

Əbu Ləhəb istədiyi qədər qardaşı uşağına həsəd aparsın, Məhəmmədin qədir-qiyməti isə Məkkə camaatı içərisində durmadan artırdı. Onu hər yerdə barmaqla göstərirdilər. Yenə Qureyşin ulusu olan babası Əbdülmüttəlib hər gün onu yanına alır, Kəbəyə götürürdü. Kəbə divarının kölgəsində döşənmiş döşəkçədə Əbdülmüttəlib oturan zaman oğulları ona dərin hörmət əlaməti olaraq döşənmiş yerin ətrafında diz çökərək oturardılar, Əbu Ləhəb də onların arasında olardı. Məhəmmədi isə yanında döşəkçəsinin üstündə oturdar və deyərdi:

– Bugünkü hökmlərimdə mənə yardımçı ol, ey oğlumun oğlu! – deyirdi.

## *KƏBƏNİN DÖŞƏNMƏSİ GÜNÜ*

Məkkə başçısının vəzifələrindən biri də hər il Kəbənin ziyarət günlərində Kəbə örtüyünü döşəmək idi. O il də örtüyü salmaq mövsümü gəlib çatmışdı. Bunun üçün Qureyşdən böyük pullar toplanır, xurma, üzüm qurusu, başqa dənli bitkilər satın alınırdı və hacıların yoxsullarına paylanırdı.

Bisat mövsümü, yəni örtüyü döşəmə vaxtı gələndə məkkəliləri sevinc hissi bürüyərdi. Örtük Kəbənin içinə döşənir, Məkkə isə başdan-başa bayram içində çalxalanırdı. Məkkəyə yaxın və uzaqlardan axın-axın gələn insanlar şəhəri doldurardı. Ayrıca bazarlar qurulur, yüklər gətirilir, alış-veriş artırdı. İnsanların izdihamı ən yüksək həddə çatırdı.

O il də elə oldu. Diyar-diyar ötüb gəlmiş insanlar Məkkəni doldurmuşdu. Rəsulullah(s.ə.s) anası Əminə xatunun yanına gələrək ona:

– Ana, bu izdiham nədir belə? Bu qədər insan haradan gəlir? Burada nə edirlər? – dedi.

Əminə xatun:

– Oğlum, Məhəmməd, sabah Məkkədə Kəbə örtüyü döşənəcək. Neçə illərdir ki, ilin bu mövsümündə hər yerdən insanlar axın-axın Kəbəyə gəlirlər. Örtüyü və salınma mərasimini seyr edirlər. Buraya yığılanlar tamaşaya gələnlərdir.

Ertəsi gün səhər tezdən günəşin ilk qızılı şəfəqləri Kəbənin üzərinə düşən vaxt Əminə xatun Məhəmmədi tezdən oyatmaq üçün yatağının başına gəldi:

– Məhəmməd, Məhəmməd, – deyərək səsləndi.

Uşaq ruhunu dolduran ana səsinin yumşaq və dadlı ahəngini eşidib gözlərini açanda qarşısında anasını gördü. Gülümsədi.

Əminə xatun incə ana səsi ilə:

– Qalx, mənim balam. Qalx, saçlarını darayım, gözlərini sürmələyim, səni ətirləyim. Kəbənin önünə döşənəcək örtülməsinə tamaşaya göndərim.

Məhəmməd yatağından qalxdı, özünü anasının əllərinə təslim etdi. Altı yaşlı uşağın saçlarını anası daradı, gözünü sürmələdi, ətirlədi və ən gözəl paltarlarını geydirdi. Əminə xatun:

– İndi artıq hazır oldun. Həbəşi Reyhanə səni babanın yanına, Kəbəyə aparsın.

Məhəmməd:

– Yaxşı, ana, – deyərək itaət göstərdi. Reyhanə Hz. Məhəmmədi babası Əbdülmüttəlibin Kəbədəki yerinə gətirdi.

Bütün vilayətlərdən gələnlər Kəbə önünə toplanmışdı. Hətta səhərin bu vaxtında Hərəm başdan-başa insanlarla dolu idi. Kimlər yox idi? Məkkə şəhərinin hörmətliləri, bütün ərəb qəbilələrinin ulularıorada hazır idilər.

Əbdülmüttəliboğullarından Əbu Ləhəb, Dırar, Zübeyr, Əbu Talib, Abbas, Müqəvvim, Həmzə – hamısı öncədən gəlmiş və böyük örtüyü döşəmişdilər. Onlar xidmət üçün zamanı gözləyirdilər. Qəbilə uluları gələndə Əbu Talib və Həmzəni onlara qoşaraq yerlərinə göndərirdilər. Gələnlərə dərəcəsinə görə: “Bura buyurun, bura təşrif ediniz”, – deyərək yer göstərirdi-

lər.

Aşağı dərəcəlilər irəliyə keçmirdilər. Əbdülmüttəlib hələ gəlməmişdi. Bu vaxt Məhəmməd Hərəm qapısından içəri girdi. Sanki bir ay üzlü göründü. Bütün yığılanlar birdən ona tərəf baxdılar. Onun nur üzünü gördülər. Hamı Məhəmmədi böyük məhəbbətlə qarşıladı. "Məhəmməd gəldi", – dedilər. O günəş üzlü, səadət ulduzlu, şanı böyük, nişanı mübarək o dost yetişdi.

Kəbədəkilər iki yerə ayrılıb hərə bir tərəfə çəkildi, ona yol verdilər. Bu vaxt Əbu Talib Məhəmmədə doğru getdi:

– Ey gözümüzun işığı, gəl döşənmiş yerdə otur.

Əbu Talib qardaşı oğlunun qoluna girib atası Əbdülmüttəlibin Kəbə divarı önündəki döşəyinin üstündə oturtdu. Bu mövsümdə yenə fəqirlər üçün yardımlar toplanırdı. Döşənmiş yerə həmişə incilər, cəvahirlər və qızıl mallar yığılaraq oradakılara göstərilirdi. Gələnlər də bunları böyük zövqlə seyr edirdilər. Bu dəfə isə nədənsə heç kim toplanmış ləl-cavahirata baxmırdı. Hamının gözü Hz. Məhəmmədin mübarək üzünü tamaşa etməkdəydi.

Əbdülmüttəlibin oturduğu yerə Məhəmməd oturunca bir insanın qanı birdən-birə qaraldı. Bu kim olacaqdı? Əlbəttə, əmisi məlun Əbu Ləhəb. Rəsulullahın babasının yerində oturması onun ürəyinə ox kimi batdı.

Əbu Cəhl də atası Muğirə oğlu Hişamla birlikdə oturmuşdu. O da Məhəmmədi babasının yerində oturmuş görüncə qəlbi nifrətlə doldu. Sağa, sola dönərək deyinməyə başladı.

– Bu uşaq indidən bu camaatın arasına fitnə salmağa başladı. Nə seyyidlərin, nə də fəqirlərin sözu bu bədbəxt uşağın sözu kimi deyil.

Bu anda hər kəsi heyrət bürüdü, qəzəbə səbəb olan bir hadisə baş verdi. Məhəmməd Əbu Ləhəb və Əbu Cəhlin yanından keçib babasının döşəkçəsinin üstündə oturdu. Elə oturmuşdu ki, Əbu Ləhəb yerindən qalxdı, sürətlə ona tərəf gəldi. Qolundan tutaraq onu Əbdülmüttəlibin yerindən uzaqlaşdırıb bayıra çıxardı və əsəbiləşərək dedi:

– Bu nə tərbiyəsiz uşaqdır? Bir çoxları səni peyğəmbər olacaq bir insan kimi görür. Heç bir peyğəmbər sənin kimi tərbiyəsiz və ədəbsiz olmayıb. Mənim atam ağlınımı itirib sənə öz yerində oturmağa icazə verdi? O da elə bil nə oturduğu, nə də durduğu yeri bilir.

Döşənmiş yerdən kənara çəkilən Məhəmmədi birdən ağlamaq tutdu. Əmisinin ona qarşı düşməncəsinə davranışı nə idi? Bu kin nədən irəli gəlirdi? İki gözü sanki buludla doldu, gürşad yağışı kimi göz yası axmağa başladı. Əbu Ləhəbin Məhəmmədin qolundan tutub qırağa atdığı və Rəsulun göz yaşları axıtdığı vaxtda Əbdülmüttəlib Kəbəyə gəldi. Baxdı ki, Məhəmməd ağlayır. Niyə sevimli nəvəsi ağlayırdı? Döşənmiş yerdən kənarda, quru yer-

də oturub?

Şeybətül-Həmdin gözündən də yaş axmağa başladı. Başı fırlandı, dünya gözünə dar göründü. Oğlanlarına dönərək dilləndi:

– Həbibim Məhəmməd niyə quru yerdə oturub onu torpaq üstünə kim qoydu?

Oğulları:

– Ey Hərəm başçısı, Məhəmməd gəldi, keçdi sənin yerində oturdu. Oğlun Əbdülüzzə, yəni Əbu Ləhəb (lənətullahi əleyh) bunu görüncə, qolundan tutub döşənmiş yerdən qırağa atdı.

Şeybətülhəmd bu xəbəri eşidəndə sanki ürəyi köksündə yanmağa başladı. Ətrafına baxdı. Yaxında dayanmış bir kişinin əlində dəyənək gördü. Onu qapıb Əbu Ləhəbin üstünə getdi, var gücü ilə dəyənəyi onun başına endirdi. Bununla elə bil sakitləşdi, Əbu Ləhəbin başı yarılmışdı, qan axırdı. Məkkə hörmətliləri Əbdülmüttəlibin qabağına keçərək Əbu Ləhəbi vurmağına mane oldular. Əbu Ləhəb atasının çomağından qurtuldu. Amma Əbdülmüttəlib çox əsəbiləşmişdi. Yanında dayananlara:

– Tez örtüyü yığın. Mən bu gün hökmlər vermək üçün oturmayacağam, – dedi.

Əbdülmüttəlibin oğulları Əbu Talib, Həmzə, Dırar, Müqəvvim tez hərəsi örtüyün bir tərəfindən tutub, yığıb götürdülər.

Əbdülmüttəlib sonra üzünü oğullarına tutdu:

– Ay mənim balalarım, bundan sonra şahid olun ki, Əbu Ləhəbi oğulluqdan çıxartdım. Mən artıq onun atası deyiləm. Bundan sonra mənim Əbu Ləhəb adlı oğlum yoxdur. Siz də onu qardaşlıqdan çıxarın. Mən artıq onun əməllərindən bezdim, təngə gəldim. Siz də üzüldünüz. Bu uşaq Məhəmməd də artıq onun hərəkətlərindən usanıb.

Bu sözdən sonra uzaqdan və yaxından gəlmiş qəbilələrin insanları Əbu Ləhəbə qarşı "Qəhr olsun" deyərək öz nifrət və lənətlərini göstərdilər.

Sonra böyük bir təəssüflə dedilər:

– Bu məlunun üzündən Məhəmmədin, Əbdülmüttəlibin səadətli nəvəsinin mübarək üzünü görmədik. Bir az onların şirin söhbətinə qulaq asa bilmədik.

Gələnlər arasında davalı olanlar da vardı. Onlar Əbdülmüttəlibdən hökm istəyəcəkdilər. Əslində onlar ancaq Kəbə örtüyünün seyri deyil, davalarını həll etmək üçün də gəlmişdilər. Bunların işləri həll olmadan qaldı. Hamı Əbu Ləhəbi söyürdü:

– Ey Əbu Ləhəb, kimsə o uşağa tük qədər toxunmağa qıymaz, sən necə onu qolundan tutub döşənmiş yerdən kənara atdın. Onu incidəcək və qəlbini qıracaq sözlər dedin.

Əbu Ləhəb o gün qınaq və nifrət dolu sözlərlə zəlil olmuşdu. Hamı lənət yağdırırdı. Nə edəcəyini bilmədiyi üçün tez camaatın arasından ayrılaraq çıxıb getdi. Kəbə meydanına yığılanlar da yavaş-yavaş sakitləşib evlərinə, çadırlarına getdilər.

## *Hz. MƏHƏMMƏD YEDDİ YAŞINDA*

Bir gün Əbdülmüttəlib Qureyşin hörmətliləri ilə yenə Kəbədə oturmuşdu. Söhbət zamanı bəzi ulu kişilər:

– Ya Şeybətül-Həmd, artıq Məhəmmədi məktəbə göndərmək vaxtıdır. Elm oxumaq, yazmaq öyrənsin, – dedilər.

O vaxtı Məkkədə bir qoca müəllim vardı. Qureyş hörmətlilərinin uşaqlarını o öyrədirdi. Göydən enmiş müqəddəs kitabları ən rəngarəng və sadə dildə oxudur, öyrədirdi. Gözəl yazı yazardı.

Əbdülmüttəlib ona söylənənləri çox müsbət qarşıladı:

– Çox düzgün düşünüb və yaxşı deyirsiniz, ey Qureyş əhli.

Ertəsi gün iki uşağı ilə birlikdə Məhəmmədi də yanına alıb yaşlı müəllimin yanına getdi. Müəllim onları görəndə diksindi. İrəli gəlib qarşıladı, hörmət göstərdi. Bir yerdə oturdular.

Seybə:

– Nəvəm Məhəmmədə oxumaq, yazmaq öyrət, tərbiyə et. Zəhmətin xeyirli olar. Məhəmmədi müəllimə verdi, uşaqları ilə oradan ayrıldı.

Qoca müəllim Məhəmmədlə tək qalanda əlinə bir tük qələm aldı. Vərəqə bir şeylər yazdı və Məhəmmədin önünə qoydu:

– Ya Məhəmməd, bismillah et. Bismillahir-rahmənir-rahim de! Ondan sonra sənə hərfləri öyrədəcəyəm.

Yeddi yaşlı Məhəmməd:

– Bu bismillahın mənası nədir?

İxtiyar müəllim:

– Oğlum, sən ancaq bu gün məktəbə gəldin, bunun mənası sənə lazım deyil. Sən onun mənasını necə anlaya bilərsən?

Məhəmməd:

– Məni bağışlayın, müəllim, mən bu kəlmənin mənasını öyrənməyincə, sizdən bir hərf belə öyrənib oxumaq istəmirəm.

Müəllim bu ağıllı və hər şeyi öyrənmək istəyən uşağın sözlərinə görə onun qəlbini qıran acı sözlər söylədi. Məhəmmədin qəlbi çox incə idi və gözlərindən isə heç bir şey qaçmazdı. Bu cür davranışa görə onun gözləri doldu. Hz. Məhəmmədin bibisi Atiqə o gün bir iş üçün çıxmış, geriyə dö-

nürdü. Yolu məktəbin yanından keçirdi. Müəllimin qarşısında Məhəmmədin məzlum-məzlum dayandığını gördü. Nə olub belə? Baxdı ki, uşağın gözlərindən yaş sel kimi axır. Atiqə xatuna elə bil od vuruldu. İrəli keçdi. Məhəmmədin yanına gələrək soruşdu:

– Ya Həbibi, mübarək xatirinə kim dəydi? Kim səni incitdi? Kim səni küsdürdü? Heç rəvamıdır ki, sən belə göz yaşı tökəsən, pərişan olasan?

Bu zaman müəllim sözə qarışdı:

– Ya Atiqə, bu gün babası onu mənim yanıma məktəbə gətirdi. İstədi ki, oxumaq, yazmaq öyrənsin. Elmlə bilgilənsin. Mən ona bir vərəq yazdım. Vərəqi verəndə dedim ki, ya Məhəmməd, bismillah de. O oxumadı. Mənimlə mübahisəyə başladı. Məndən bismillahın mənasını soruşurdu.

Atiqə atası Əbdülmüttəlibin yanına döndü:

– Əziz ata, sənin ağlından keçən işlər üçün sənə ağıl öyrədən deyiləm. Amma sənə söyləyəcək bir xahişim var.

Əbdülmüttəlib:

– Ay qızım, mən nə etdim ki, belə sözlər deyirsən?

Atiqə xatun:

– Məhəmmədi məktəbə qoymusan, müəllimi də onu acılayıb. Gördüm ki, o da oturub ağlayır.

Şeybə:

– Mən Məhəmmədi məktəbə oxumaq, yazmaq üçün göndərdim.

Atiqə xatun:

– Bəli, ata, amma bu düşündüyün yersiz, həm də ona təzyiqdir. Xəyal etdiyiniz bu iş onun üçün anlaşılmazdır.

Əbdülmüttəlib:

– Nədən belə düşünürsən? – deyə həyəcanla soruşdu.

Atiqə xatun öz fikrini davam etdrirdi:

– Ey Haşimoğullarının ən böyüyü, sən bilmirsən ki, o doğulan gecə nələr baş verdi. Onun böyüklüyünü sən bizdən də yaxşı bilirsən. İndi gedək Məhəmmədin müəllimini görək, danışaq. Özündən də soruşarıq nədən onların arasında ixtilaf yarandı.

Əbdülmüttəlib bu fikirləri duyunca :

– Yaxşı, gedib soruşaram, – dedi.

Oğlu Əbu Talib və qızı Atiqə xatunu götürüb məktəbə getdilər. Müəllim onları görən kimi tez qarşılarına çıxdı. Peyğəmbərimizin babasına doğru irəlilədi. Onları hörmətlə qarşıladılar. Oturdular. Əbdülmüttəlib üzünü müəllimə tutdu:

– Məhəmmədlə nə danışdınız? Onunla nə söhbət etdiniz? Onu nə bu hala gətirdi ki, ağlamağa başladı?

Qoca müəllim:

– Ey izzətli seyyidimiz, mən bir neçə hərf yazdım. Çünki bu bir ənənədir ki, oğlan uşaqlarına bunu öyrədirik. Bu hərflərdən ibarət vərəqi Məhəmmədin önünə qoydum və ona: "Ey Məhəmməd, bismillah et, – dedim, çünki bütün göydən enən kitablar bismillahla nazil olmuşdur. Bismillah bütün mələklərin dilində bilinir və söylənilir. Mən də nəvənizə bunu yazmışdım. Yadda saxlamasını istədim. O mənə döndü, mübahisəyə girişdi: "Bismilləhi-r-rahməni-r-rahimin mənası nədir?" – deyə soruşdu.

Əbdülmüttəlib müəllimin sözünü kəsərək:

– O halda nədən ona bismillahın mənasını söyləmədin?

Müəllim ona cavab verdi:

– "Bismillahi-r-rahməni-r-rahim"in mənasını biz özümüz də bilmirik ki. Oxumadıq. Yalnız Ulu Tanrının adı olduğunu bilirik.

Onda Əbdülmüttəlib nəvəsinin üzünə baxdı:

– Ay mənim balam, gözümün nuru, sən "Bismillahi-r-rahməni-r-rahim" nə deməkdir, bunun mənasını bilirsən?

Məhəmməd:

– Əlbəttə, bilirəm, baba, – deyə cavab verdi.

– Elə isə söylə, eşidək.

Məhəmməd özündən görünməyən elmli bir böyük adam ədası ilə onların ağlı kəsəcək qədər sadə dillə anlatmağa başladı.

– Bismillah tək olan Allahın adıdır. B təkligi, S sirrini, M məkanını ifadə edər. "Allah" zatın adıdır. Bütün sifətlər bu kəlmədə gizlidir. Heç bir yaratdığı bu adla adlanmasına layiq deyildir. Ərrəhman da Allahın sifətlərindən biridir. Ərrəhim isə Ulu Tanrının adlarından biridir. O da heç bir yaradılmışa ad ola bilməz. Belə ki, bismillahın mənası bu qədər geniş və böyükdür.

Əbdülmüttəlib Məhəmməddən bu qədər sözləri eşitdikcə ağlı başından getdi. Özü-özünü unutdu. Qalxıb Məhəmmədə tərəf gəlib əlindən tutaraq:

– Ya Həbibi, sənin elmin məlum oldu, sənin müəllimin öyrənməli imiş. Səni incitməyimiz bizim bilməməyimizdəndir, – dedi.

Bu sözləri söylədikdən sonra Əbdülmüttəlib, Əbu Talib və Atiqə məktəbdən ayrıldılar. Bu xəbər tez bir zamanda Məkkədə yayıldı. Ululların məclisində "Abdullah oğlu Məhəmməd müəlliminə elmdə qalib gəldi" sədası hər tərəfdə danışılırdı.

Bu hadisədən sonra məkkəlilər arasında Məhəmməd çox böyük şöhrətə sahib olmağa başladı. Artıq həmyaşıdları onun yanında oturub danışmaqdan utanırdılar. Çünki onun hərəkətlərinin hamısı böyük adamlara yaraşan hərəkətlər idi. Nə söyləsə, ağıllılar, ariflər kimi deyər, mərifətli, hikmətli sözlər

söyləyərdi. Hikmət və ar sahibi, hörmət edən və sözü düz idi. Məkkəlilər daima onun sözlərini dinləməyə can atırdılar. Gecə-gündüz söhbətinə qulaq asmaq istəyirdilər. Çünki mübarək üzü xöşbəxt, söylədiyi sözlər ibrətli, məlahətli, şirin və sevindirici idi. Beləcə Rəsulullahın möcüzələri çox idi, hər yerdə elmi, biliyi, əxlaqı, vərdişləri haqqında söhbətlər gündən-günə artırdı.

## *Hz. MƏHƏMMƏDİN ƏN VƏFALI DOSTU*

Hz. Məhəmmədlə (s.ə.s) eyni gündə doğulmuş qırx uşağın ləyaqəti, təmkini, tərbiyəsi başqa idi. Hamısı kiçik yaşlarından ləyaqət sahibi olmuşdular. Ədəb və həya ilə böyümüşdülər. Onlar Məhəmmədlə həmişə bir yerdə olaraq daha yaxın olmuşdular. Bunlardan əlavə Osman oğlu Abdullah adlı bir uşaq vardı ki, Rəsulullahdan iki yaş böyük idi. Peyğəbərimizin uşaqlıq dostlarından biri idi.

Abdullahın atasının ondan böyük bir oğlu vardı, adını Quhafə qoymuşdular. Elə buna görə də Osmana Əbu Quhafə deyirdilər. O vaxta qədər Osmanın nə qədər qızı, oğlu dünyaya gəlmişdisə, hamısı çox yaşamayıb ölmüşdü. Əbu Quhafənin xanımı hamilə olduğu zaman yuxusunda ona bir səs belə demişdi:

– Əgər oğlun olarsa, adını Abdullah qoy.

Nəhayət, oğlu dünyaya gəlincə adını Abdullah qoydular. Qırx gündən sonra atası Əbu Quhafə oğlunu Kəbəyə götürdü. Yaradana səcdə qılıb dedi:

– Mənə oğlum Abdullahı bağışla, ya Allahım. Bunu Səndən diləyirəm. Sənə yalvarıram.

Kəbə içərisində bir səs gəlmiş kimi oldu. Əbu Quhafənin qəlbinə bu səslər yayıldı:

– Əbu Quhafə get, oğlun Abdullahı sənə bağışladıq.

O, sevinə-sevinə Kəbədən çıxdı. Bu uşaq Məhəmmədlə oynayanlar arasında ona ən yaxını idi. Məhəmməd də onun ləqəbini Əbu Bəkr qoymuşdu. İslam tarixində Əbu Bəkr adı ilə şöhrət qazandı.

Məhəmmədlə eyni ildə doğulan 400 uşaqdan 40-ı ona yaxın idi və onları çağırar məclis qurardı. Rəsulullahın söhbətlərini çox dinləyərdilər. Çünki Məhəmmədin kiçiklikdən bəri söylədiyi sözlər sirin, maraqlı, hər kəlməsi geniş fikirlər toplusu olurdu. Bu qırx uşaq onun dediyi sözlərindən çox mənalar çıxarır, çox şeyi anlardılar. İllər sonra bu uşaqlar böyüyüb onun dostu, yaxını, ən vəfalı səhabələri olacaqdılar.

Bir gün Məhəmməd dostlarına dedi:

– Ay mənin arxadaşlarım, bilin ki, mən sizi özumə ən yaxın dost kimi

qəbul etmişəm. İçinizdə olan Əbu Bəkr mənim ağıl yarımdır, nə söz soruşmaq istəsəniz, ondan soruşa bilərsiniz.

Beləcə Məhəmməd onun özünə yaxın olduğunu, bilik səviyyəsinin yüksəkliyini hamıya bildirdi.

## *ƏBU CƏHL KİMDİR*

Əbu Cəhl Muğirə oğlu Hişamın oğlu idi. Əsil adı Hənzələ idi. Rəvayələrə görə, Əbu Cəhl Hz. Məhəmməddən 20 gün sonra doğulmuşdur. Atası adını Əmr qoymuşdu. Amma sonralar onu Əbəlhakim deyə çağırmışlar. Hişam oğlu Əmra Hz. Məhəmməd Əbu Cəhl ləqəbi vermişdi. Əbu Cəhlin atası da, anası da çox zəngin idi. Min naz içində böyümüşdü. Xoş uşaqlıq illəri keçirmişdi. Böyümüşdü, amma üzündə nə bir nur, nə də gözəllik vardı. Cavandı, qocaya oxşayırdı. Acı danışığı vardı. Hərəkətlərində də gözəllik yox idi. Beş-altı yaşında olarkən təkəbbüründən yanında keçmək olmurdu. Tiran, lovğa, dəyərsizin biri idi. Heç bir ürəkdə özünə sevgi hissi yaratmamışdı. Əmr yeddi yaşında olanda on yaşında uşaq boyda görünürdü. Dörd yaşından yeddi yaşına kimi yazma, oxuma öyrənmişdi. Ərəbcəni çox yaxşı bilirdi. Eyni zamanda güclü, qüvvətli idi. Din yolunu heç bilməzdi. Yeddi yaşında olanda kişilikdə və hünərdə usta olmaq istədi. Çox güləşmək istəyirdi. Məkkənin hörmətlilərinin uşaqları onun yanından ayrılmazdılar. Geydiyi paltarlar bəzəkli olurdu, xadimələr, kölələr daima hüzurunda ona xidmət etməyə hazır idilər. Atası Hişam Qureyş qəbiləsi içində Məxzum oğullarının tək rəisi idi. Çox mal-dövləti vardı. Bu səbəbdən Əbu Cəhl naz-nemət içərisində böyüyürdü.

Məhəmmədin yanında daima qırx uşağın olması Əbu Cəhlə xoş gəlmirdi:

– Nədən Abdullah oğlu Məhəmmədi bu qədər ağıllı görürlər? Nədən onun ətrafına toplanırlar, o yaxınlıq və şahidlik edirlər? – deyə daima düşünür və bu da onu narahat edirdi.

Amma atası Hişam da çox qorxurdu: "Nəbadə bu Məhəmməd adlı uşaq o gözlənilən axırzaman peyğəmbəri olmasın. Bəlkə, dünyanın ululuğu bunun olacaqdır? – deyərdi və daima həsəd odu ilə yanardı.

Bir gün Əbu Cəhl atasının yanına gəldi:

– Ata necə rəva olur ki, Abdullah oğlu Məhəmməd bir yetim uşaq olsun, onun dostları, yaxınları çox olsun? Uşaqlar onun ətrafına toplanır, ona qul olurlar. Mənim ata-babamın bu qədər malı, mülkü var, nədən onlar mənim yanımda olmasın? Mən necə seyyid oğluyam?

Atası Hişam:

– Ey oğul, bu sənin xətrinə dəyməsin, qəlbini incitmə. Mən bu günlərdə sənin üçün bir toplantı edəcəyəm.

Bir gün keçdi. Muğirə oğlu Hişam səhər durub böyük bir toplantı hazırlığı gördürdü. Qureyşin bütün böyüklərini dəvət etdi. Ziyafət hazırladı. Məkkə şəhərində olan bütün uluları və seyyidləri dəvət etdi. Haşimoğulları, Əbdümənafoğulları, Məxzumoğulları, Məhəmmədə yaxın olan 40 uşaqdan başqa Əbu Cəhlin bütün dostlarını bu ziyafətə çağırdılar. Böyüklər yerləşən kimi süfrələr açıldı. Ən dadlı yeməklər gəldi, şərbətlər gətirildi. Yeyib-içdilər, ziyafətin sonuna doğru Əbu Cəhlin atası ayağa qalxdı:

– Ey Seyyidlər, oğlum Əmr məndən bir şey rica etdi. Onu həll etmək sizin əlinizdədir.

Ulular:

– Söylə, biz də eşidək, – dedilər.

Hişam fikrini davam etdirdi.

– Oğlum Əmr Abdullah oğlu Məhəmmədin yanında hər zaman qırx oğlan uşağının dostluq etdiyini görürmüş. Hamısı ona xidmət və kömək edirlər. Oğlum da gəldi, mənə bunu xəbər verdi: "Məhəmməd yetım bir uşaqdır, onun yanında və xidmətində bu qədər uşaq olsun bu doğrudurmu, ata? Mən sənin kimi bir başçının oğluyam, nə üçün mənim yanımda və xidmətimdə olmasınlar?" – dedi. İndi mənim sizlərdən bir xahişim var, uşaqlarınız ona dost olsunlar, nə lazım olsa, mən verirəm. Paltarlarını da mən alacağam.

Bu sözlərdən sonra yanlarında oğlanlarını gətirənlər onları Hişama təslim etdilər. Uç yüz altımış uşaq oldu. Hişam uşaqlara döndü:

– Bundan sonra sizin başçınız, ağanız mənim oğlum oldu.

O gündən sonra 360 uşaq Əbu Cəhlin tərəfində oldu. 40 uşaq isə Məhəmmədin tərəfində qalmışdı. Bu bir hikmət idi. Məhəmmədin dünyaya gəldiyi il doğulmuş 400 uşaq iki yerə bölünmüşdü. Yaxşılar sağı, pislər solu tutmuşdular. Həzrəti Adəm belə yaradıldığı gün şeytan ona zidd getmişdi.

Maraqlıdır ki, Əbu Cəhl illər boyunca bu düşmənçiliyi davam etdirəcəkdirmi? Onun tərəfinə keçmiş uşaqlarla Məhəmmədin can düşməni olmaqda qalacaqdırmı?

Hz. Məhəmməd peyqəmbərliyini yaymağa başladığı zaman Əmiroğullarının hörmətli ağsaqqallarından biri ondan soruşmuşdu:

– Ey Əbdülmüttəlibin nəvəsi, elmi artıran nədir?

Peyğəmbərimiz bu cavabı vermişdi:

– Elmi artıran şey öyrənməkdir.

İxtiyar insan sorğunu davam edərək:

– Biliyii göstərən, sübut edən nədir?

– Sual verməkdir.

– Şərri artıran nədir?

– Şərdən əl çəkməməkdir.

– Pislikdən sonra yaxşılıq fayda verirmi?

Hz. Məhəmməd bu suala belə cavab vermişdi:

– Əlbəttə, fayda verir. Çünki tövbə günahları təmizləyir. Yaxşılıqlar pislikləri aradan qaldırır, yox edir. Qul qulluq içində Mövlanını unutmazsa, Tanrısı da çətinliyə uğradıqda qulunu darda qoymaz, imdadına yetişər.

Hz. Adəmin və bütün nəslinin pisliyini istəyən şeytan, xain və murdar qəlbi ilə heç vaxt şərri əldən buraxmamış, buraxmayacaqdır.

Əbu Cəhl də atası Hişamın dövlətinə güvənərək içindəki şər və yalanı heç vaxt yaxşılıqlarla əvəzləməmişdir. Tövbə etməyə çalışmamış, əksinə o ilan, yalan və alçaqlıq içində böyümüşdür.

Elə buna görə də Hz. Məhəmmədin ən böyük düşməni Əbu Cəhl olmuşdur. Amma bir gün gələcək, Bədr döyüşündə Məsud oğlu Abdullah adlı möminin qılıncı onun başını parçalayacaq və axirət dünyasına inildəyə-inildəyə əzablarla göndəriləcəkdir.

Bəli, Adəm nəslinin bir qismi Ulu Tanrının "etmə" sözünü anladılar, başa düşdülər. Nuh peyğəmbərə kimi bata-bata gələnlər iki yerə böləndülər. Bir qismi doğru yol tutdu, o biriləri isə əyri yolla getdilər. Dünyaya və insanların qəlbinə həsəd və kin toxumu səpdilər. Cahillərin cahili Əbu Cəhl lənət olmuş ömrünü şərlə başa vurdu.

## *ƏBU CƏHL FƏALİYYƏTƏ KEÇİR*

Hişamın yanından ayrılan Qureyş hörmətliləri evlərinə getdilər. Ertəsi gün Əbu Cəhl öz tərəfdarlarını topladı. Bətha dərəsinə götürdü. Orada oyunlar oynadılar, güləşdilər. Uşaqların belə toplam oynamasını eşidən bir çox məkkəli onları seyr etməyə getdi.

Məhəmməd bunu eşidincə öz dostlarını bir yerə toplamağı düşündü. Dostu Əbu Bəkri tapdı:

– Ya Əbu Bəkr, sən get bizimkiləri topla, biz də Bəthaya gedək. Onlara tamaşa edək.

Əbu Bəkr Məhəmməddən ayrılaraq qırx dostu toplayıb gətirdi. Hamısı bir yerdə Bəthaya getdilər. Camaatın yanından bir tərəfə çəkilərək rəqib tərəfin oyunlarını seyr etdilər. Əbu Cəhlin bölüyü bağırışır, çəkişir, güləşirdilər. Məhəmməd dostlarına səssiz durmağı tövsiyə etmişdi. Tərbiyəli və sa-

kit oturdular. Məkkə camaatı- dövlətlisi də, kasıbı da bir gözü ilə Məhəmmədlə dostlarına da baxırdılar: “Nə tərbiyəli oturublar, nə ədəbli uşaqlardır, nə gözəl durublar”.

Ancaq Əbu Cəhl və dostları hey bağırırdılar. Bir-birilərinə utanmadan ağızlarına gələn sözləri deyirdilər. Məkkəlilərin çoxunu Əbu Cəhlin bu cür tərbiyəsiz hərəkətləri pərişan etdi.

– Bu cür tərbiyəsizlikləri görməsəydik, daha yaxşı olardı, – dedilər. Məhəmməddəki bu ədəb, tərbiyə çox yüksəkdir. Onun ağlı Allah vergisidir.

Hətta daha yaxşı sözlər deyənlər də oldu:

– Onda biz başçılıq izzəti, ululuq əzəməti görürük. Bəlkə də peyğəmbərlik heybəti bu ulu insanda olacaqdır.

Bəziləri də:

– Bu uşaqların iki yerə bölünməsi nəyin əlamətidir? Burda bir hikmət var! Beləcə uşaqları bölünmüş xalq da iki yerə bölündü.

Axşama doğru oyunlar bitdi. Yığışıb tamaşa edənlər də dağılışdı.

Hişam evə dönüncə Əbu Cəhlin yanına gələrək dedi:

– Oğlum, sən böyük bir Qureyş əsilzadəsinin oğlusan. Seyyid uşağısan. Mən artıq sənin seyyidliyini öyrənməni arzulayıram. Ululuq nədir, möhtəşəmlik nədir artiq anlamalısan. Malım, ruzim sənin yolunda fəda olsun.

Bir gün Əbu Cəhlin atası Hişam dəvələri yükləyib bağlardan gələrək torba-torba xurma gətirmişdi. Əbu Cəhl ləin dəvələrin birindən bir yük xurma endirdi. Həmən ətrafındakıları dəvət edib onları xurmaya qonaq etdi. Hamı xurmanı iştahla yedi. Məhəmmədin dostları xəbəri alınca getdilər. Məhəmmədin yanına gəlib:

–Ya Məhəmməd, – dedilər. Hişam oğlu Əmr (yəni Əbu Cəhl) dostlarına xurma qonaqlığı verib.

Məhəmməd onların nə demək istədiklərini iti zəkası ilə anladı:

– Dostlarım, gəlin gedək mən də sizə xurma yedirdim.

Dostlarını yanına alıb bibisi Atiqənin evinə gəldi. Hamısı qapıdan içəri girdi. Atiqə xatun onları gördükdə Məhəmmədə doğru irəli gəldi. Onu bağrına basdıqdan sonra soruşdu:

– Ey oğul, ey Həbibi, ey gözümün nuru, Məhəmmədim. Xoş gəlmisən. Nə istəyirsən? Evimə səni hansı diləyin gətirib? Söylə mənə, sənə nə xidmət edim?

Məhəmməd:

– Bibican, narahat olma. Mənim xahişim və ehtiyacım Yaradan qatındadır. Mən diləsəm, ondan diləyəcəyəm. O Yaradan ruzu verməkdən yorulmaz. Xahişi yerinə yetirməkdən də yorulmaz. Yaradan qatında bütün bunlar bir bəxşiş və hədiyyədir.

Məhəmməd bibisinə bunları dedikdən sonra yenə xurma ağacının altına getdi. Üzünü Allahın dərgahına tutdu. Dilini, dodağını oynatdı. Duaya başladı. Əbu Bəkr də əllərini göy üzünə qaldırıb "Amin" – deyirdi.

Atiqə xatun qapının yanında oturub onlara baxırdı. Bibisi nələr görürdü?!

Ağac yaşıllaşmağa başladı. Yeni yarpaqlar, budaqlar buraxmışdı. Tumurcuqlandı, yeni xurma salxımı sallandı.

Az sonra Məhəmmədlə Əbu Bəkrin silkələdiyi ağacdan düşən xurmaları yeyirdilər.Yedikdən sonra bəziləri ciblərinə də yığırdı. Evlərinə də götürdülər. Yenə xəbər Məkkəni alt-üst etdi və xəbər yayıldı:

– Abdullah oğlu Məhəmməd dostlarına təzə xurma yedizdirib.

Əbu Cəhl bu xəbəri eşitdikdə:

– Ey Məkkə xalqı, Abdullah oğlu Məhəmməd doğulmamışdan öncə elmlə məşğul olanların "Məkkədə bir sehrbaz uşaq dünyaya gələcəkdir. O, anadan olanda ovsunçu olacaqdır", – dedikləri uşaq elə bu Məhəmməddir.

Amma onun pis niyyətlə dediyi bu sözlər uşaqlıqdan Məhəmmədi daha çox məşhur etməklə şöhrətini dörd yana yayırdı.

Bir çox diyarlarda "Məkkədə bu sifətdə bir uşaq dünyaya gəlmişdir. Ayrı-ayrı möcüzələr göstərməkdədir", sədası dolaşırdı.

Bu cür söz-söhbət hər yerdə danışılırdı.

## *YƏMƏN KAHİNLƏRİ*

Yəmən ölkəsində və paytaxtı Səna şəhərində bir çox kahinlər bu xəbəri eşidincə toplandılar. Onlar köhnə kahinlərin tələbələri idilər. Uzun məsləhətləşmələr başladı:

– Bizim kahin Satihimiz, kahinəmiz Zerka bu uşağın üzündən can verdi. O doğulan gecə bir kahinimiz öldü, birisi də dəli oldu. İndi o böyüdü. Möcüzələr göstərməyə başladı. Əgər onu böyüməyə qoysaq, işimiz bir az da pisləşər. Sonra toplanaraq böyüklərindən Əyaz oğlu Hərbin yanına getdilər. Danışdılar, məsləhətləşdilər, nəhayət, bu qərarı verdilər:

– Yığışıb gedərik, Abdullah oğlu Məhəmmədi harada tapsaq, aman vermədən öldürərik. Hətta məkkəlilər davaya qalxarlarsa, onlarla da vuruşarıq.

Kahinlər tez bir zamanda igid və pəhləvanları toplamağa başladılar. Dörd yüz atlı igid, adı-sanı bəlli pəhləvanlar bir yerə yığıldılar. Hazırlıqlar görüldü və yola düşdülər.

Məkkəyə yaxınlaşanda bunlar da iki yerə bölündülər. Bəziləri:

– Bu iş düzələn iş deyildir, geri dönək, – dedilər.

Əyaz oğlu Hərb də nədənsə onlarla razılaşdı. Gələnlərdən bir bölük:

– Ya Əyaz oğlu, fikrini açıq söylə, – dedilər.

Hərb də:

– Ən yaxşı iş evimizə dönməkdir. Bu düzəlməz sevdadan vaz keçməliyik.

Qəhrəmanlıq sevdasına düşənlər səslərini qaldırdılar:

– Ay Hərb, sən dəli olmusan? Bu tədbiri ilk öncə bizə təbliğ edən sən deyildinmi? Niyə indi peşman olduğunu göstərirsən? Bu axı mümkün olmayan bir işdir.

Əyaz oğlu Hərb sükunətini pozaraq onlara dedi:

– Ey millətim, bir kimsənin özü-özünü cəhalət oduna atması doğru yol deyildir. Cahilliklə görülən işin sonu xeyir gətirməz. Araqarışdıranların sözündən içimizdə bir narahatlıq yarandı. Amma bu işin sonunda ziyan olacaqdır. Kim bilir, nə qədər günahsız qan axıdılacaqdır. Bu səbəbdən fitnəni aradan qaldırıram və öz vətənimizə qayıdıram.

Dörd yüz yəmənli bu sözləri eşidincə, tamamən iki yerə ayrıldılar. Birinci tərəf:

– Hərb tamamən düz deyir, biz Məkkə ordusuna necə cavab verəcəyik? – deyə narazılıqlarını bildirdilər.

O biriləri:

– Biz öz elimizdə bu davanı ortaya qoyduq, bu səbəbdən yola çıxdıq. Geri dönmək olmaz. Biz hökmən Abdullah oğlu Məhəmmədi öldürməliyik. Bu hərəkətimiz bir çox qəbilələrə dərs olar. Bir çox başçılar, məliklər görəcəyimiz işlə maraqlanırlar. İndi nə üzlə geri dönəcəyik? Niyə özümüzə peşmanlıq edirik. Nə elədik? Nə iş gördük ki, qollarımızı sallaya-sallaya bir iş görmədən gəldiyimiz yolla geri dönək? Beləcə dünyada rüsvay olacağıq. Bu halımız dünya-aləmdə dastan olacaqdır, deyib qərar verdilər.

Bu səbəbdən dörd yüz kişinin arasında ikitirəlik düşdü. Söz döyüşdürməklə aralarında başlayan münaqişə qılınclarını çəkib bir-birini qırmağa gətirib çıxardı. Atlar kişnəyir, qılınclar şaqqıldayır, hər iki tərəfdən cansız halda yerə sərilənlərin sayı artırdı. Dörd yüz atlı axşama kimi bir-birini qılıncdan keçirdilər. Ancaq dəvə güdənlər sağ qalmışdılar. Onlar da bu işə təəccüb etdilər. Məkkəyə qılınc vurmağa gələnlər, heç ora çatmamış bir-birini qılıncdan keçirib yox etmişdilər.

Bəzi məkkəli çobanlar, dəvə otaranlar da bu savaşın nərəsini, qılınc şaqqıltılarını eşidib hərb meydanına gəlmişdilər. Dəbilqəlilərin vuruşlarını, yerlərin ölülərlə dolu olduğunu görüncə tez geri dönüb Qureyşə xəbər verdilər. Məkkəlilər atlı, atsız həmən savaş yerinə gəldilər. Fəqət onlar gəlincə bu dörd yüz kişi bir-birinin sonuna çıxmışdılar. Çoxu yerə cansız səpələnmiş, az qismi isə son nəfəslərində can verirdilər:

– Burada nə baş vermişdi? Bu savaş nədir? Bu qədər əsgər bir-birini niyə öldürdü?

Nəhayət, onların buraya nə üçün gəldiklərini və niyə bir-birini qırdığını anladılar.

Qureyş uluları: "Buraya qədər düşmən kimi gəldilər, onlardan xeyir gəlməz", – dedilər. Sonra heyvana baxanları da öldürdülər. Savaş meydanında sağ qalan atları, dəvələri topladılar. Silahları, parçaları da yığıb Məkkəyə döndülər.

Qureyşlilər Məkkəyə dönərkən Kəbəyə, Əbdülmüttəlibin yanına gəlib dedilər:

– Ya Əbu Talib, Yəməndən dörd yüz kişi bir neçə kahinlə Məhəmmədi öldürməyə gəlirlərmiş. Aralarında fikir ayrılığı düşmüş, özləri-özlərini qırmışlar. Sağ qalan ikisini də biz öldürdük. Mallarını, mal-qaralarını, silahlarını yığıb gəldik.

Əbdülmüttəlib bu xəbəri eşidib Hz. Məhəmmədi yanına çağırtdırdı. Bu vaxt Məhəmməd anası Əminə xatunun yanında idi. Ona babasının görmək istədiyini söylədilər. Rəsulullah Əbdülmüttəlibin yanına gəldi.

Şeybətül-Həmd sevimli nəvəsini görüb sevindi, qucaqladı, iki gözündən öpdü. Sonra onu Məkkə ulularına, Qureyş seyyidlərinə göstərdi.

– Ey Qureyş seyyidləri, Fihroğulları, Qussayoğulları, Leviyyoğulları, ey Məkkə əhli, Məhəmmədi gördünüzmü? Onu bildinizmi ki, Yaradan qatında şərəfi və izzəti nə qədər böyükdür.

Hamı başını aşağı əymişdi. Kimsədən səs çıxmırdı. O, sözünə davam edirdi. İndi bütün Qureyş uluları Şeybənin dediklərinə diqqətlə qulaq asırdılar. Şeybə illərdən bəri sitayiş etdikləri bütlər haqqında danışdığı hekayəti, Həlimənin Kəbə içərisinə buraxdığı Məhəmmədin önündə bütlərin necə yerə qədər endiklərini söyləyirdi.

Şeybətül-Həmd Hz. Məhəmmədin möcüzə və keyfiyyətindən danışdıqdan sonra susdu. Bu sözləri eşidənlər Məhəmmədin böyük nüfuz və hörmət sahibi olduğunu bir daha anladılar. Kimisi onun əlini öpdü, kimisi ayağına düşdü. Kimisi ona doğru gəldi, kimisi şəhərə gedərək onu təriflədi. O gün Məhəmmədin tərifi Məkkəyə yayıldı.

Bir nəfəri isə kin və həsəd yenidən bürüdü. Bu sözlər bir insanın ürəyinə ox kimi batdı. Əlbəttə, bunun adı Əbu Cəhl ləin idi. Məhəmmədin hələ kiçik yaşlarında həlimliyi, elmi, xoş xasiyyəti, hörməti nə qədər çoxalırdısa, Əbu Cəhldə hər şey tərsinə baş verirdi. Düşmənçilik, kin, fitnə, həsəd, qəbahət, şər və pislik baş alıb gedirdi. Nə qədər Məhəmməd yaxşı, xeyirli işlər görürdüsə, Əbu Cəhl ləin də bir o qədər çox şeytani işlərlə məşğul olurdu. Məhəmmədin qəlbini Rəbbi nə qədər ilhamverici işlərə sövq edirdisə,

Əbu Cəhl isə 360 uşağı yanına alıb, Bəthaya çıxıb nalayiq işlər görürdü.

Məhəmməd səssiz oturmuş dostlarına nə qədər hikmətli sözlər söyləyirdisə, Əbu Cəhl öz dostları ilə səs-küy salaraq, qışqırıb- bağıraraq hamını qıcıqlandırırdı.

Məhəmməd elmli sözlərlə qırx dostunun fikirlərinin dərinləşməsinə kömək edərdi. Əbu Cəhl isə dostları ilə oyun oynar, güləşər, çəkişərdilər. Onların bütün günləri belə boş, mənasız keçirdi.

Bir gün yenə hər iki tərəf Bəthaya gəlmişdi. Əbu Cəhl 360 dostu ilə Məhəmmədin və dostlarının üstünə gəldi. Bu saman Məhəmmədin dostlarından biri qaçmaq istədi:

– Gəlin, – deyə çağırdı, – yanıma gəlin.

Gələn uşaqlarla Əbu Cəhlin dostlarını geri döndərdilər.

Onlar Əbu Cəhlin ətrafındakı uşaqları lənətləməyə başladılar. Sonra hücuma keçdilər. Bunu görən Əbu Cəhl qışqırdı:

– Məhəmmədi və yoldaşlarını vurun! İndi zatıqırıq, nanəcib, nadürüst uşaqlar dərədə əllərinə düşən daşları onlara tərəf atırdılar. Məhəmməd bu zaman soyuqqanlılıqla irəli hərəkət etdı. Dostlarına:

– Başlayın, dostlar, siz də onları vurun, − dedi.

İndi 40 uşaq tapdıqları daşları onlara tərəf atmağa başladılar. Məhəmməd əyilib yerdən bir ovuc torpaq götürdü və “Bismillah” − deyərək Əbu Cəhlin və dostlarının üzlərinə sovurdu.

Hər birinin gözü qumla doldu. 360 uşaq sanki tufana düşmüşdu. Əlləri daş ata bilmədi. Qaçmağa başladılar.

Bu Allahın bir hikmətiydi. Məhəmməd hicrət günlərində də belə bir ovuc qum səpəcək, görən gözləri görməz edəcəkdir.

Əbu Cəhllə dostları qaçırdılar, Məhəmmədin dostları onları qovurdular. Şəhərə belə də gəldilər. Bu hala məkkəlilər xeyli güldülər, əl çalıb qışqırdılar. Bir qismi:

– Hey, hey hara qaçırsınız, ay Əbu Cəhl tərəfdarları. Ey Hişam oğlu, sən heç də ər kişi deyilsənmiş, – deyirdi.

Bir qismi də:

– Sən bu qədər gücə, qüvvətə malik olsan da, Məhəmmədin azacıq camaatından qaçdın, yazıqlar olsun sənə, ey Əbu Cəhl, − söyləyirdi.

Əbu Cəhlin atası bu halı görüb utandı, yerin dibinə girdi. Sanki damarlarında qan qalmamış, qurumuşdu.

Qureyşlərdən bəziləri təəccub içində idi:

– Qəribə şeydir, Məhəmmədin dostlarının hər birinə doqquz oğlan düşür, amma yenə qorxub qaçırlar.

Tamaşa edənlər heyrət içində dağılışıb getdilər.

Amma Əbu Cəhlin qəlbi kin yuvası olmuşdu. İstəyirdi ki, gecə və gündüz Məhəmmədi bir gizli yerdə görsün, yoldaşları ilə onu döysün.

Bir gün Rəsul əleyhissalam Əbu Bəkrlə Bətha vadisində gəzirlərdi. Əbu Cəhl bundan xəbər tutdu. Bütün tərəfdarları ilə Hz. Məhəmmədin üzərinə hücum etdi. Rəsulullah onu gördü, qurşağını belində möhkəmləndirib onlara tərəf getdi. Onun heybətindən gələnlərin qüvvələri qalmadı, qaçmağa başladılar.

Bu hal haqqında Əbdülmüttəlibə xəbər çatmışdı. Oğlanlarını götürüb Bətha vadisinə gəldi. Gözlərinə inanmadı, Rəsulullah Əbu Bəkrlə hamısını qarşısına alıb qovurdular.

Məkkə əhli bu xəbəri eşitdikdə onlara baxmağa çıxdılar. Abdullah oğlu Məhəmmədlə, Abdullah oğlu Osman ikisi 360 uşağı önlərinə alıb qovurdular. Tamaşa edənlər onları hoydu-hoyduya tutdular. Əbu Cəhlin dostları qaçıb evlərində gizlənmişdilər.

Hişam oğlu Əbu Cəhli gördükdə bərk əsəbləşdi, söydü, tutub döymək istədi. Ona bağırdı:

– Madam ki, əlindən bir iş gəlmir, məharətin yoxdur, nədən xalqı bizə güldürürsən?

Əbu Cəhl bir neçə gün sonra yenə öz pis vərdişinə döndü. İstəyirdi ki, bu cür qüvvətlənsin, Məhəmmədə və tərəfdarlarına üstün gəlsin. Əlbəttə, bu bir ərköyün uşaq düşüncəsiydi.

## *YƏMƏNDƏN YENİ HÜCUM HAZIRLIĞI*

Əbu Cəhl bu işlərlə məşğul ikən Yəməndə bir-birini qıran dörd yüz kişinin yaxınları Fil müharibəsində Əbabil quşlarının atdığı daşlarla tar-mar olan başçı Əbrəhənin oğlunun hüzuruna gəldilər. Atasından sonra hakimiyyətə o keçmişdi. Ondan soruşdular:

– Bizim halımız nə olacaq? Bilicilərimizə, aslan döyüşçülərimizə nə oldu?

Atasının intiqamını almağı həmişə içində saxlayan, zamanı gələndə Məkkəyə hücum edəcəyini düşünən Əbrəhənin oğlu tez dövlət vəzifəlilərini, zadəganları topladı. Özü bir qızıl taxtda oturmuşdu. Bütün vəzir və vəzifəlilər ayaq üstə durmuşdular.

Əbrəhənin oğlu:

– Ey Yəmən zadəganları, ey vəzirlərim, Məkkəyə gedənlərin başına gələnləri, əlbəttə, bilirsiz. Bu hal üçün siz nə düşünürsüz?

Vəzirlər toplanaraq danışdılar:

– Ey məlik, məkkəlilərlə vuruşmağa getmək üçün aramızdan kimi başçı etmək istəyirsiz?

Bunların arasında Həccar oğlu Tavil adında birisi vardı. Ağıllı, qəhrəman bir ulu, tədbirli bir insan idi. O, insanların arasından çıxaraq buyurdu:

– Ey Məlik, bugün o gündür ki, Hicazlı ərəbdən və Haşim oğullarından intiqamımızı almalıyıq. Çünki onlar bizim kilsəmizi uçurdular. On minlərlə ordumuzun qırılmasına səbəb oldular. Məlikimiz Əbrəhə onların üzündən öldü. Ordusu tar-mar oldu. Görüləcək iş onlardan intiqam almaqdır.

Əbrəhə oğlu Yeksum:

– Ey Tavil, biz Məkkəyə necə qəsd edəcəyik. Onlar bəlanı göydən yağdırır. Atam Əbrəhənin başına gələnləri bilirsiniz. Mən də qorxuram ki, o vəziyyətə düşməyim.

Həccar oğlu Tavil:

– Elə isə məlikimiz ölkədə hökm etsin, mən qulunu oraya göndərsin. Gedərəm, o qövmü qılıncdan keçirərəm. Hökmdarımızın düşmənlərini yox edərəm, sonuncusuna kimi öldürərəm.

Əbrəhənin oğlu bu sözü eşidincə:

– Oldu, get, hazırlaş, – dedi. Sonra barmağından üzüyünü çıxartdı:

– Səni bu yürüşə başçı təyin etdim. Bildiyin kimi et, arzuladığın kimi həyata keçir.

Tavil bu sözləri eşidəndə əyilib yer öpdü və hökmdarın hüzurundan bayıra çıxdı. Həmən vaxtdan əsgər toplamağa başladı. Tamam səksən min ordu topladı. On minini öncə gedəcək təyin etdi. Yetmiş min əsgəri birləşdirib Məkkəyə getmək üçün şimala doğru yola çıxdı.

### *SƏMADAN ƏMİNƏ XATUNA GƏLƏN SƏS*

O gecə Məhəmməd babası Əbdülmüttəlibin evinə getmişdi. Axşam düşmüşdü, amma Məhəmmədin gəlmədiyini görən Əminə xatun tək başına oturmuşdu. Tənha idi. Göy üzündə ulduzlar qeyri-adi parlayırdı. Çöl başdan-başa sükunət içərisindəydi. Hətta kiçik bir quşun qanad səsi belə eşidilirdi.

Bir az sonra Əminə xatun qeybdən bir səs eşitdi. Bu səs ona:

– Ey Vahabın qızı, Hicaz diyarına xarici əsgərlər yaxınlaşır. Sayı səksən min nəfərdir, – dedi.

Bu necə xəbərdir? Əminə xatun bir anda çaşıb qaldı:

– Bunu gedib Əbdülmüttəlibə xəbər verim, – deyə düşündü.

Səhər tezdən Əbdülmüttəlibin oğlu Həmzəni küçədə gördü. Həmzə Məhəmməddən iki yaş böyük idi. Əminə xatun:

– Ey Həmzə, get atana de ki, mənim yanıma gəlsin, – deyə tapşırdı.

Həmzə qaça-qaça atasının yanına getdi. Xəbəri ona söylədi. Əbdülmüttəlib Məhəmmədin əlindən tutaraq öz evindən çıxdı, Əminə xatunun evinə getdi. Əminə xatun onu görüncə qarşısına çıxdı, izzətlə içəri dəvət etdi. Məhəmmədin iki gözundən öpdü. Oturdular. Şeybə:

– Ey Vahabın qızı, rəngin niyə qaçıb, ağappaq olub,yenə nə olub? Üzun də dəyişib.

Əminə xatun:

– Ey Seyyidi Hərəm, bu gecə yenə əcaib bir avaz eşitdim. Mənə torpaqlarımıza xarici əsgərlərin girdiyini söylədi. Sayı səksən minə qədər olar.

Şeybə soruşdu:

– Hansı tərəfdən gəldiyini dedimi?

Əminə xatun:

– Xeyr söyləmədi.

Şeybə:

– Madam ki elə dedi, yenə o səs gələrsə, əsgərlərin haradan gəldiyini soruş.

Əbdülmüttəlib qalxdı, evinə getdi. Sonra Kəbəyə gəlib Qureyş ulularına Əminə xatuna səmadan gələn səs haqqında söylədi. Məkkəyə doğru səksən min xarici əsgərlərin gəldiyi xəbərini onlarla bölüşdü. Qureyşlilər:

– Əsgərlər hansı tərəfdən gəlirlər?

Əbdülmüttəlib:

– Bilmirəm, – dedi.

Qureyşlilər:

– Hansı millətin əsgəri olduğunu dedilərmi?

Seybətülhəmd:

– Məncə, Şamdan bizim tərəfə heç bir əsgər gəlməz. Çünki xaç əhlidirlər. Bizimlə dostdurlar. Fikirləşirəm ki, gələn əsgər ya İran, ya da Yəməndəndir. Hər bir halda təcili hazırlıqlar görün.

Həmən silah və zirehli geyimlər saxlanan anbarlar açıldı, igidlərə silahlar paylanıldı. O gün sakit keçdi. İkinci gecə Əminə xatuna yenə göydən bir səs gəldi. Bu səs ona deyirdi:

– Ay Əminə, gələn əsgərlər Yəməndəndir. Qoşunun sərkərdəsi Həccar oğlu Tavildir. Tez və yaxşı hazırlıqlar görün.

Bu səsin dediklərini duyan kimi Əminə xatun Əbdülmüttəlibə xəbər göndərdi. O da Qureyşi topladı.

– Yəmən qoşunlarının başçısı Həccar oğlu Tavilmiş. Mən o məlunu tanıyıram. Xainin biridir. Əbrəhənin oğlunun əsgərlərinin başçısıdır. Onun

nəzərində çox böyük bir bəydir. Hazırlığı davam etdirin, Ulu Yaradan bizi qorusun, – dedi.

Qureyş ululari xeyli cəsarətləndilər. Ürəkləndilər və əsgər toplamağa başladılar. Casuslar 80 min əsgərin Məkkə qapılarına yaxınlaşdığını Qureyşə xəbər verdilər. Əbdülmüttəlib də igidlərdən yeddi minini topladı və əmr verdi:

– Hamımız Məkkədən bayıra çıxacağıq.

Məkkəli əsgərlər səhraya çatıb çadırlarını qurdular. Əminə xatun Əbdülmüttəlibin yanına gələndə o dedi:

– Artıq bütün hazırlıqlar bitmişdir. Düşmənlə vuruşacağıq. Amma kimin qalib gələcəyi, kimin məğlub olacağı bilinməz. Onu ancaq Yaradan bilir.

Hz. Məhəmməd bu vaxt babası və anasının yanında idi və onların danışıqlarına qulaq asırdı. Mübarək basını yuxarı qaldıraraq dedi:

– Əziz babam, bu savaşa mən də sizinlə getmək istəyirəm.

Əbdülmüttəlib bu arzunu eşidəndə heyrətləndi:

– Mənim canım, əzizim, iki gözümün işığı övladım, – dedi, – bizim canımız sənin yolunda qurban olsun. Sən otur mənim yerimdə hökmlər ver.

Məhəmməd bu sözləri eşidincə:

– Xeyr baba, mən sizinlə birlikdə gedəcəyəm. Siz gedəndən sonra mən burda nə edəcəyəm?

Artıq sevimli nəvəsinə rədd cavabı verə bilməyəcəyini anlayan Əbdülmüttəlib susdu. Ağıllı insandı. Həm də yüz yaşına keçmişdi. Nəvəsi Məhəmmədi çox sevirdi. Ondan çox kəramətlər görmüşdü. Məhəmmədin bacarıqlarını bilirdi. Bunları düşünən Əbdülmüttəlib:

– Yaxşı, sevimli balam, bizimlə birlikdə gedək.

Anası Əminə xatun:

– Mən də oğlumla gedirəm, – dedi.

Məhəmməd:

– Xeyr, ana, məni Yaradana əmanət et. Ona ismarla, tapşır, məni qoruyan, yardım edən Allahımdır. Ulu Tanrıdan başqa kimsə arxam deyildir.

Əbdülmüttəlib bir an düşüncəyə daldı. Məhəmməd:

– Babacan, niyə üzüntülü-üzüntülü durmusan?

Əbdülmüttəlib:

– Ey oğul balam, necə üzüntülü olmayım. Necə daxilimdə narahatlıq olmasın? Səksən minlik düşmən ordusu üstümüzə gəlməkdədir. Hamısı qılınclıdır, atlıdır, hazırlıqlıdır. Əzəmətli və qüvvətlidirlər. Bizim isə yeddi min kişimiz var. Onların da bir qismi atlı, bir qismi piyada. Bu az əsgərlə, o böyük orduya necə qarşı dura bilərik? İndi onu düşündükcə üzülürəm.

Məhəmməd:

– Bu gələnlər çoxdur, yoxsa Əbrəhənin qoşunları çox idi?

Şeybə cavab verdi:

– Öncə gələnlər bir dəniz idi, onların sonu görünmürdü. Sayı-hesabı vardımı?

Məhəmməd yenə soruşdu:

– Onlar nədən məğlub oldular?

Əbdülmüttəlib ona baxdı, baxdı:

– Sənin nurunun bərəkətindən, mənim balam, − deyərək cavab verdi, − Yaradan onları sənin bərəkətindən məhv etdi.

O zaman Məhəmməd Əbdülmütəlibə:

– Ay baba, o halda nədən qorxursan? Nədən narahat olub üzülürsən? Nədən daxilində dərd səni yeyir? Onlar bu dəfə də həlak olacaqlar. Belə ki, nur sahibi artıq zühur olmuşdur.

Əbdülmüttəlib həmən Məhəmmədin ayağına düşdü. Ağ saqqalını peyğəmbərimizin ayağına sürtdü. İndi çox qoca adam göz yaşı tökürdü. Yüz yaşına keçmiş qoça ixtiyar ağlayırdı, ağlayırdı. Sonra qalxdı, Məhəmməddən soruşdu:

– Ey Seyyid, sənin üçün hansı atı hazırlasınlar?

Hz. Məhəmməd bir atın adını söylədi.

Əbdülmüttəlib:

– Ya Məhəmməd, dediyin at tünd, sərt atdır. Mən qorxuram ki, sənə ziyan yetirər.

Məhəmməd:

– Baba, yavuz atı yavaş etmək mənim üçün çox asandır.

Bu sözlərin qarşısında Əbdülmüttəlib dilsizlənmiş kimi ağzını açmadı, bir söz söyləmədi. Bundan sonra Şeybətül-Həmd yaxın və uzaq ərəb qəbilələrinə adamlar göndərdi. Əsgər istədi. Qureyş ulularına isə nə kimi işlər görəcəklərini tapşırdı.

Qureyş igidləri və pəhləvanları hərb paltarlarını geydilər, silahlandılar. Bütün ərəblər içində Qureyş döyüşçüləri mərd və qorxmaz idilər. Həm də Haşimoğulları, Əbdülmüttəliboğulları da sücaət və qəhrəmanlıqda hər zaman öndə olmuş, şöhrət,ad qazanmışlar. Əbdülmüttəlib oğulları heybətlə atlandılar. Həmzə də hələ uşaq idi və qəhrəmanlıqlar etməmişdi, amma əsgərlərin arasında idi. Hər seyyid öz adamlarını çıxardı.

Bu vaxt məkkəli casuslar geriyə dönərək:

– Düşmən filan yerə gəldi, – xəbərini gətirdilər.

Məkkə şəhərinin hörmətliləri Şeybənin yanına gəldilər:

– Ey Hərəm seyyidi, bu gələn düşmənin çox olduğunu söyləyirlər. Bi-

zim əsgərlərimiz də azdır. Nə edəcəyik biz?

Əbdülmüttəlib:

– Ey seyyidlər, qorxmayın, çünki aramızda elə bir insan var ki, bütün dünya əsgəri və orduları bura gəlsə, yenə qorxu yoxdur.

Qureyş böyükləri həyəcanla soruşdular:

– Kimdir o? Onun adını bizə bildir. Necə insandır o?

Şeybə:

– Biliniz ki, Hərəmin Rəbbi bizimlə bərabərdir. Bizə yardımçıdır. Ey ulular, bilirsiniz ki, Əbrəhə də yüz mindən artıq qoşunu ilə buralara gəlmişdi. Halı nə oldu? Nəticədə nə hala düşdü? Səadətli, dövlətli, İbrahim ayıqlığı, İsmail heybətli Məhəmmədi yanımıza alaraq, gedərik. Ümidvaram ki, onun duası ilə bu düşmən də tez bir zamanda həlak olub gedər.

Əbdülmüttəlib sözünü bitirmişdi ki, ayaq səsləri gəldi. Baxıb gördülər ki, pəhləvan kimi doqquz yaşlı Məhəmməd Həmzə ilə gəlir.

Əbdülmüttəlib adamlarına:

– Gedin, mənim filan ayğırımı hazırlayıb gətirin, – əmrini verdi.

Az sonra yorğa bir at gətirdilər. Məhəmməd də öz atına minmişdi. Həmzə də atına mindi. Əmiləri, əmisi oğulları Məhəmmədi ortaya alıb irəlilədilər. Bu vaxt yenə casus düşmənin yaxınlaşmasını xəbər verdi:

– Düşmən əsgəri lap yaxındadir, – dedi.

– Gəlsinlər qırarıq, mallarını, mal-qaralarını yığarıq, – dedilər.

Casus sonra söylədi:

Həccar oğlu Tavilə getdik, əsgərimizin yeddi min olduğunu söylədik.

Məkkəlilərdən bir qisim nadürüst Məkkədən ayrılaraq Həccar oğlu Tavilin qərargahına getmişdilər. Tavilə məkkəlilərin böyük ordu ilə qarşılarına çıxdıqlarını söyləmişdilər. Tavil onlardan soruşdu:

– Gələn məkkəli əsgərlər nə qədərdir?

Casuslar:

– Atlı və piyadanın sayı yeddi minə qədərdir, – dedilər və bu sözü də əlavə etdilər, – Amma parlaqlığı bütün dünyaya yayılan üzü ay kimi olan uşaq ki duaları da qəbul olunur, o da yeddi min əsgərin arasındadır.

Bunu eşidən Tavil qəlbində dərin sevinc və həyəcan keçirdi: “Deyəsən, buraya qədər çəkdiyimiz zəhmət və əziyyət hədər getməyəcək”, – deyə düşündü. Əsgərlərinə “İrəli!” əmrini verdi. Yəmən ordusu Məkkəyə doğru hərəkətə başladı. Məkkəlilər də çadırlarından çıxıb düşmənə doğru irəlilədilər.

İndi hər iki tərəf bir-birilərinə yaxınlaşan, göyə qalxan ayaq tozlarını görürdü. İki tərəf də olduğu yerdə durdu. Gecə düşürdü.

Şeybə:

– Min kişi ön sırada, arxalarında min pəhləvan gizlənsin. Qalanları da

silahlarını hazır saxlasınlar.

Bu hazırlıqla yuxuya getdilər. Əsgərlər silahları qoynunda yatmışdılar. Amma Şeybənin gözunə yuxu getmirdi. Elə hey düşünürdü. Özü-özünə deyirdi:

– Səhər nə edəcəyik? Düşmən əsgəri çox, bizimkilər az. Nə kimi hadisələr olacaq?

Bu vaxt babasının dərin düşüncədə görən Məhəmməd yerindən qalxdı. Gəlib nurani babasının yanında oturdu. Yenə eyni sözləri soruşdu:

– Baba, nə haqda düşünürsən? Yaman fikrə dalmısan. Nə üçün pərişansan, səni üzən nədir?

Əbdülmüttəlib sevimli nəvəsinə döndü:

– Necə pərişan olmayım, üzülməyim? Çox böyük düşmən ordusu qarşımıza çıxmışdır. Halımızın necə olacağını düşünürəm.

Məhəmməd:

– Baba, düşmən əsgəri atlananda siz də atlarınıza minin. Onların qarşısında qala kimi durun.

Şeybə:

– Yaxşı, elə edərik, oğlum, – dedi.

Məhəmməd:

– Əziz babam, səhər Qureyş ululları yanına gələndən sonra məni də yanına çağırtdır. De ki, ey Məhəmməd, indi Həccar oğlu Tavilin yanına elçi kimi get. Ondan bizimlə barışıb-barışmayacağını soruş. Amma mən oraya tək başıma gedəcəyəm. Heç kimsəni yanıma verməyin.

Şeybətül-Həmd bu sözləri eşidəndə həyəcanından dili topuq çaldı:

– Ay mənim balam, nə qəribə sözlər deyirsən. Nə qorxulu bir fikir irəli sürdün. O düşmənlər ancaq səni ələ keçirmək üçün gəlmişlər. Sənin qanını tökmək istəyirlər. İndi sən düşmən yanına tək başına getmək istəyirsən? Sonra onların əlindən səni kim qurtaracaq?

Məhəmməd güldü:

– Baba,ay baba, sən məni qoruyanın kim olduğunu hələ də anlamadın.

Sonra Məhəmməd Şeybəyə yalvarmağa başladı:

– Ay baba, ey Hərəm başçısı, məni İbrahimin Yaradanına tapşır. Ondan sonra qorxma. O Yaradan ki, İbrahimi Nərmudun atəşindən qurtardı, kafirlərin pisliklərindən qorudu. Yaradan məni bu kafirlərin əlindən qurtarmağa qadirdir.

Məhəmməd nə qədər böyük sözlər deyirdi.

Əbdülmüttəlib bunları eşidəndə çaşdı. Bunlar nə qədər gözəl sözlərdir? Artıq nə səbri, nə qərarı qalmışdı. Məhəmmədin ayağına düşdü. Ağ, pak olmuş saqqalını nəvəsinin ayağına sürtdü:

– Ey gözümün işığı, ey oğul. Nə edəcəyini sən bilirsən və səni Yaradan bilir. Gəlirlərsə, görəcəkləri də olacaqdır. Gəlsinlər, qırarıq. Mal və heyvanlarını ələ keçirərik. Artıq elə fikirləşirəm ki, heç kimin ağlı səninki qədər olmaz. Sənin mənzilini görməzlər, sözlərini tam anlamazlar.

Baba ilə nəvənin söhbəti səhəri açdı. Birdən-birə düşmən səflərindən nərə səsləri ucalmağa başladı. Bu səsləri duyan Qureyş böyükləri də hazırlandılar. Atlılar ata mindilər. Piyadalar bir yerə toplandılar. Seyyidlər əmr almaq üçün Əbdülmüttəlibin yanına gəldilər.

Az sonra iki tərəf də qarşı-qarşıya səf düzmüşdülər. İki ordu üz-üzə dayanmışdı. Əbdülmüttəlibin oğulları atalarının önündə durmuşdular. Əmr gözləyirdilər.

İndi Qureyşin bahadırları, Şeybənin oğullarından Haris, Dırar, Zübeyr, Əbu Ləhəb sağ tərəfdə yer tutdular. O biri oğulları Abbas, Əbu Talib, Müqəvvim, Gaydaq sol tərəfdə dayandılar. Hz. Məhəmməd ondan iki yaş böyük olan əmisi Həmzə ilə Əbdülmüttəlibin arxasında dayanmışdı.

Qureyş uluları Şeybəyə dönərək dedilər:

– Ey Seyyidi Hərəm, nə düşünürsüz? Savaş meydanına öncə kim girəcəkdir?

Şeybə bağırdı:

– Həbibim Abdüllah oğlu Məhəmməd haradadır?

Bu sözü eşidən Məhəmməd:

– Buradayam, baba, – dedi. Həmzə ilə atları irəli sürdülər. Əbdülmüttəlibin önündə dayandılar.

Əbdülmüttəlib nəvəsinə:

– Məhəmməd, səni Həccar oğlu Tavilin yanına elçiliyə göndərirəm. Get, onunla danış. Soruş, nə üçün bura gəlmişdir? Barışa razıdır, yoxsa vuruşa? Bizə xəbər gətir, oğlum.

Əbdülmüttəlib bu sözləri bitirən kimi Hz. Məhəmmədin əmiləri və Haşim oğulları fəryad qopardılar. Bu fəryad üfüqlərə doğru yayıldı. Şeybətül-Həmdə:

– Ey Seyyidil Hərəm, bu nə cür qərardır? Bu düşünülmüş qərardırmı? Gözümüzün nuru Məhəmmədi düşmən arasına göndərirsən? Sən çox yaxşı bilirsən ki, düşmənin yeganə məqsədi Məhəmmədi ələ keçirməkdir. İndi sevinərək öz müdhiş istəklərini həyata keçirəcəklər. Onu necə rəqib ordugahına göndərirsən? Heç olmasa bir ulu insan göndər, etibarı olsun, sözü keçsin. Məhəmməd uşaqdır, ondan elçi olmaz. Ora sözü keçən bir adam lazımdır,– dedilər.

Əbdülmüttəlib özünə güvənən bir əda ilə cavab verdi:

– Mənim Məhəmməddən daha ulu bir adamım yoxdur. Kimi göndərim?

Kimi göndərim ki, ora getsin, iş bacarsın. Məhəmməddən başqa kimi göndərsək, o işi bacarmaz. Fəqət o gedərsə, həll edib gələr.

Hamı bu sözləri eşidincə çaşıb qaldı.

– Nə qəribə iş. Bu bir göyərçin balasını əjdahanın ağzına göndərməkdir və ya gənc quzunu aslan pəncəsinə atmaqdır. Bu mümkun olan şey deyil.

Bu zaman Həmzə də irəli atıldı:

– Ata, ata istəyirsən, mən də onunla birlikdə gedim.

Əbdülmüttəlib:

– Yox, yox, – dedi, – həbibim Məhəmməd tək getsin.

Məhəmməd istəyinin babası tərəfindən qəbul edildiyinə çox sevindi. İrəli çıxdı.

– Baba, ey Seyyidi Hərəm. Mənə ulu babam, İsmailın yayını ver, – deyə xahiş etdi.

İsmayil peyğəmbərin yayı yüzlərcə il öncədən keçərək Haşim oğullarına miras qalmışdı. Bu yaylarla bərabər Nəbi oxlarından üçünü əlinə aldı. Məhəmməd ürəyində: "Ey Ulu Yaradanım, sənə sığınıram" dedi və atının başını düşmən əsgərlərinə doğru çevirdi.

Səf tutmuş əsgərlər Məkkə tərəfdən gələn atlını və səflərindəki hərəkəti diqqətlə təqib edirdilər.

Bu vaxt Tavil də:

– Nə olacaq, indi öncə müharibə meydanına kim atılacaq? – deyə maraqla baxırdı.

Az sonra atlının onlara yaxınlaşdığını gördü:

– İki silahlı, bu gələnə qarşı çıxsın! – əmrini verdi.

Həmən Yəmən ordusunun ən məşhur iki döyüşçüsü qabağa atıldı. Döyüşçülər gələnin uşaq yaşda bir gənc olduğunu gördülər. Nə gözəl və nurlu üzü vardı. Ay surətli, mələk üzlü bir uşaq idi.

Nəhayət, Hz. Məhəmmədin atı düşmənin atı ilə üz-üzə dayandı. İki düşmən döyüşçü:

– Kimsən, niyə və hansı vəzifə ilə qarşımıza gəldin?

Hz. Məhəmməd:

– Mən Abdullah oğlu Məhəmmədəm. Sizə elçiliyə gəlmişəm.

İki düşmən atlısı bu sözləri eşidib xəbəri Tavilə bildirmək üçün geri döndülər.

Əbrəhə oğlunun sərkərdəsi Həccar oğlu Tavilin yanına gəldilər. Atdan düşüb çadırına girdilər.

– Ey məlik, bu gələn uşaq duası məqbul, sözü qəbul Abdullah oğlu Məhəmməd imiş. Sizə eiçilik etməyə gəlmişdir.

Tavil bu xəbərdən çaşdı, qulaqlarına inanmadı. Sonra məkrli-məkrli

güldü və adamlarına buyurdu:

– Nə xoş şey ki, tale artıq yar oldu. Bəxtimiz açıldı. İndi mən onu bu əlimdəki qılıncla parça-parça edərəm. Nə zaman siz onun can verdiyini görsəniz, onda Məkkəyə hücuma başlayın. Onları qılıncdan keçirin, qırın, aman verməyin.

Tavil çadırından çıxdı. Təkbaşına Məhəmmədi öldürmək üçün o tərəfə getməyə başladı.

Məhəmməd qılıncla gələn Tavilə baxdı. Bir elçi beləmi qəbul olunmalıydı? O getdikcə Məhəmmədə yaxınlaşırdı. Bir qılınc məsafəsi qalınca əlini dəstəyindən tutdu. Arzusu Məhəmmədin üzərinə atla hücum etmək idi. Amma bacarmadı, çünki Ulu Tanrının hikmətindən atının dörd ayağı birdən yerə batdı. Tavil çaşdı, atına nə oldu belə? Atı təpiklədi, sonra qamçı ilə vurmağa başladı. At tərpənə bilmirdi. Çarəsiz qaldığını görüncə: "Heç olmasa, bu uşağı əlimdə fürsətkən öldürüm", – dedi.

Könlündən bunları keçirib yenə əlini qılıncına apardı. Hz. Məhəmməd də əlindəki İsmayil peyğəmbərin yayına bir ox yerləşdirdi. Dartıb atacağı vaxt Tavil bunu gördü. Qorxdu. Bağrı yarıldı. Birdən-birə bağırmağa başladı. 80 minlik ordunun başçısı, Əbrəhənin rəisi və sərdarı fəryad edirdi:

– Ey ay üzlü, bir az dur, səbr et. Oxunu atma. Nə üçün gəldiyini söylə, anlayım.Bir-iki söz danışaq.

Rəsulullah səbr elədi. Bu hərəkət üzrə Tavil yenə soruşdu:

– Sən kimsən? Adını söylə, mənə adını de.

Məhəmməd:

– Öncə sən adını söylə. Hansı əsildənsən? Adın nədir?

Tavil:

– Mən əsgərlərin başçısıyam. Adım Həccar oğlu Tavildir. Əbrəhənin oğlunun sərdarıyam.

Hz. Məhəmməd də:

– Mən də Abdullah oğlu Məhəmmədəm, – dedi.

Tavil:

– Nə vəzifə ilə bura göndərildiniz?

Məhəmməd cavab verdi:

– Gəldim, biləm ki, bu vilayətlərə nə üçün gəldiniz? Nə istəyirsiz? Bunları soruşmaq istəyirəm.

Tavil:

– Ya Məhəmməd, Əbrəhənin malını istəyirəm. Bu bir. O dörd yüz kişi ki məkkəlilər tərəfindən öldürmüşlərdi, onların qanlılarını istəyirəm. Bu iki. Bizimlə barış istəyirsiz, onda malları alım, o qanlıları da bizə təslim edin. Alıb gedərəm, verməsəniz, onda aramızda qanlı döyüş başlayacaq. Başqa

çarə yoxdur.

Məhəmməd düşündü. Doqquz yaşına təzə keçdiyinə baxmayaraq babası Əbdülmüttəlibin ona inandığı vəchlə böyük düşüncələrə malik idi. Rəsulullah cavab verib dedi:

– Ey Həccar oğlu, söylədiyin bu sözlər ədalətə sığarmı? Sizdə insaf varmı? Bunlar ədalət və insafdan uzaqdır. Heç bir ağıllı insan belə bir söz deməz.

Tavil soruşdu:

– Ya Məhəmməd, niyə mənim sözümü qəbul etmirsən?

Hz. Məhəmməd:

– Çünki Əbrəhəyə gələn bəla və əzab göydən enmişdi. Bu əzabla bütün ordusu həlak olmuşdu. Bütün məkkəlilər onların Əbabil quşları tərəfindən daşlara tutulduğunu seyr etmişdilər, görmüşdülər. Onlar Məkkə səhrasından qaçanda belə yolda tutub bir-bir öldürmüşdülər. Sonra məkkəlilər malları yığmışlar. O gündən xeyli illər keçmiş və heç kim kimsədən bir mal istəməmişdir. Buna görə də məkkəlilərin kimsəyə verəcək xəracı yoxdur.

Məhəmməd bir az susdu. Tavil çaşqınlıq halına gəlmişdi. Qarşısındakı uşaq elçi yenidən sözə başladı:

– Dörd yüz kişiyə gəlincə, onlar da başlarında kahinlər olmaqla məni öldürmək məqsədi ilə gəlmişdilər. Ancaq Yaradan bunu rəva görmədi. Hamısının arasında fikir ayrılığı düşdü. Bir-birini qırdılar. Onları biz məkkəlilər öldürmədik. Atları və paltarları qaldı.Camaat vuruşduqları o meydana gəldi, bunları halal mal kimi götürdü. Ey Tavil, bil ki, burnu yarıq Əbrəhə yaradanın Kəbəsinə qəsd etmişdi. Allah ona əzab verdi. Kahinlər məni öldürtmək istədilər. Bir-birini qırmaqla bitdi. Siz də Kəbəyə qəsd etmək üçün və ya mənə qəsdə gəlmişsiniz. Sizə dərs olsun o iki müxtəlif vaxt gələnlərin halları. Sizə bu qədər öyüd bəsdir sanıram. Geri dönün. Yəmənə gedin, sizə əzab yetişməsin.

Tavil özü-özünə:

– Bu uşaq nə deyir? Nələr bilir?

Sonra Məhəmmədə belə dedi:

– Ey Məhəmməd, nə söylədinsə, gözəl söylədin. Amma mənimlə gələn bu əsgərin, yoldaşlarımın bunlardan xəbəri yoxdur. İndi izin versən, mən onların yanına dönərəm. Bəylərimlə danışaram, durumu anladaram. Nə qərar verərlərsə, gəlib sənə deyərəm.

Hz. Məhəmməd:

– Yaxşı, gülə-gülə get.

Tavil atını sürmək istədi, amma at yerindən tərpənmədi. Ayaqları hələ torpağa batıb durmuşdu. Məhəmmədə baxdı:

– Ey Məhəmməd görürsən ki, mindiyim atın ayağı torpağa batıb yerimir.

Məhəmməd:

– Ya Tavil, bu əlamət sənə uğradığın qəzəbə bir işarədir. Atın dörd ayağının batması bunu sənə anlatmaq üçün yetməzmi?

Tavil susdu. Hz. Məhəmməd mübarək barmağını ata doğru işarət etdi. At birdən-birə yerindən tərpəndi. Ayaqlarını torpaqdan çıxararaq getməyə başladı. Həccar oğlu öz ordugahına gedərkən Məhəmməd də atının başını öz tərəflərinə çevirdi. O da irəliləməyə başladı. Əmisi Həmzə onu görən kimi atını onun qarşısına doğru qovdu. Baxdı, gələn Məhəmməd idi. Fərəhləndi, atını geriyə döndərdi. Əbdülmüttəlibin çadırına girərək dedi:

– Ata, ata xoş xəbər, Həbibimiz Məhəmməd sağ-salamat geri dönür.

Bütün Qureyş ulularі, hörmətliləri sevindi. Məhəmmədi qarşılamaq üçün qabağa getdilər. Ona yaxınlaşanda Şeybətül-Həmd atından endi. Rəsulullahı bağrına basdı, öpdü. Məkkə seyyidləri də yanına qaçdılar. Onu ziyarət etdilər. Şeybə soruşdu:

– Nə xəbər, oğlum Məhəmməd? Düşmənin baş sərdarı ilə nələr danışdın?

Məhəmməd Tavil ilə arasında nələr baş verdiyini, nə danışdığının hamısını xırdalıqları ilə onlara danışdı və buyurdu:

– Əbrəhə oğlunun sərdarı adamları ilə danışacaq və qərarlarını demək üçün geri dönəcək. Fəqət bizə bir qəsd etsələr, Ulu Yaradan bunları da məhv edəcəkdir. Bu əlamət də onlara dərs olmalı idi.

Şeybə:

– O necə əlamət idi?

Məhəmməd cavab verdi:

– Tavilin atının ayağı torpağa batmışdı.

Sonra atın torpaqdan necə qurtulmasını da söylədi. Qureyş ululları:

– Sağ ol, yaşa, ya Məhəmməd, – deyərək ona dua etdilər.

Tavilin səflərinin arasına əli boş döndüyünü görən ulu bəyləri, məlikləri ona doğru gəldilər. Ulular çaşqınlıqla gəlirdilər. Bəylər bu işdən bir şey anlamamışdılar. Əsgərlərsə ” Bu nə haldır?” – deyə başçılarına baxırdılar.

Tavil otağına keçdi. Hər kəs dərəcəsinə görə yerini tutdu. Ən böyükləri:

– Ey məlik, o uşaq ilə nələr danışdın? Aranızda nələr oldu?

Tavil onları anlatmağa başladı:

– O uşağa qarşı qılınc çəkib üstünə getməyə qərar vermişdim. İstəyirdim ki, onu qılıncla parça-parça edim. Ona çatan anda atımın dörd ayağı hərəkətsiz oldu. Baxıb gördüm ki, atımın ayaqları torpağa batmışdır. Bu halı görüncə qorxuya düşdüm, titrəməyə başladım. O uşağı söhbətə tutdum.

Aramızda danışıqlar oldu.

Tavil Məhəmmədlə danışdıqlarının hamısını cümləbəcümlə bəylərinə danışdı. O zaman bəylər:

– Yaxşı, indi nə görəcəyik? Necə edəcəyik? Nə düşünürsüz, ey məlik?

Tavil:

– Göruləcək iş budur ki, üzümüz sulu geri dönək, ölkəmizə qayıdaq. Alnımıza məğlubiyyət və həlak olma qarası vurulmasın.

Bəylərin içərisində Tavilin əmisi oğlu da vardı. Adı Babil oğlu Şahabdı. Məlunun birisiydi. Ayağa qalxdı:

– Ya əmir, sən Əbrəhə oğlunun yanında “Məkkə əhlindən intiqamınızı alacağıq” deməmişdinmi? “O fitnə salan uşağı öldürəcəyik”– deyə and içməmişdinmi? İndi bu sözlərin mənası nədir? Bir iş görmədən məmləkətimizə dönmək istəyirsən. Orada biabır olmaqdansa, burada qırılmaq, ölmək daha düz olar.

Tavil:

– Ya Şəhab, söylədiklərimi, bura nə iş görmək üçün gəldiyimizi və buna and içdiyimizi inkar etmirəm. Fəqət qorxuram ki, göydən bizə də cəza gələr, biz də həlak olarıq.

Şəhab:

– Mən bir tədbir düşünürəm, həlak onlar olacaq, bizə nə qorxu, nə də əzab olacaq.

Tavil:

– Madam ki belə yaxşı tədbirin var, bu işi sən elə. Ordunu sənin əmrinə verirəm. Nə istəyirsən gör, necə istəyirsən, elə də et.

Nəhayət, Şəhab Tavildən bu sözləri eşidincə, otaqdan çıxdı. İldırım sürəti ilə məkkəlilərin dəstələrinə doğru atıldı. Quş kimi uçurdu, nə tədbir düşünmüşdü?

Məkkəlilərin çadırlarına yaxınlaşaraq qışqırdı:

– Ey Məkkə başçıları, ey Hərəm seyyidləri, bilin ki, mən Həccar oğlu Tavilin yanından gəlirəm. Bütün bəylərlə məsləhətləşəndən sonra barışa qərar verdi. Yalnız o ay üzlü uşağı bizə təhvil verəcəksiniz. Biz də dönüb ölkəmizə gedəcəyik.

Şeybə:

– Ey seyyidlər, bu sözlərə nə cavab verəcəksiniz?

Məkkə uluları:

– Ay Şeybətül-Həmd, bəlkə, bu bir hiylədir. Nəbadə ehtiyatsız olasız.

Şeybə nəvəsi Məhəmmədə dönərək soruşdu:

– Məhəmməd, sən nə deyirsən?

Hz. Məhəmməd:

– Ey seyyidlər, mənim getməyimlə işlər düzələcəksə, gedərəm.

Şeybə bu sözü eşidincə:

– İgidliyi və sücaəti ilə ad çıxaran döyüşçülərimizi çağırın, yanıma gəlsinlər.

Qırx bahadur Şeybənin önündə yer aldılar. O, "Məhəmmədi götürün, düşmən tərəfinə gedin!" – tapşırığını verdi.

Şəhab Məhəmmədin gəldiyini görəndə sevincindən atını Tavilin otağına tərəf sürdü:

– Ey Əmir, Məkkə uluları o uşaqla gəlirlər.

Tavil bu xəbəri eşidincə yenə şeytan dediyinə uydu. Yenə qurdlar içini yeməyə başladı.

– Ya Şəhab, tez əsgərləri bölük-bölük ayır. Əmr et ki, bizdən işarət alınca həmən yanımıza gəlsinlər. Bütün məkkəliləri parça-parça etsinlər.

Şəhab atını sürərək əsgərlərinin yanına getdi. Bəylərə sərdarın tapşırığını bildirdi. İndi bütün Yəmən ordusu hazır vəziyyətdə əmr gözləyirdi. Tavil də ata mindi və gözləməyə başladı.

Budur, Məkkə uluları gəlməkdəydi. Yanlarında o ay üzlü uşaq da vardı. Babası Əbdülmüttəliblə bərabər gəlirdi.

Məkkəlilər gəlincə Tavil atından düşdü. Əbdülmüttəlib də atından endi, Məhəmmədlə birlikdə irəlilədi. Tavil onları qarşıladı, yerə oturdular. Başqaları ayaq üstündə durdular. Hamının üzündə bir qorxu var idi. Əlləri qılıncın qəbzəsində tutmuşdular. Qırx məkkəli igid də Şeybə və Məhəmmədin başı üstündə əmrə hazır durmuşdular.

Şəhab artıq hücum vaxtının tam zamanı olduğuna qərar verdi. Bəylərə və əsgərlərə hücum işarəsi verdi.

Yəmənlilər bir neçə min atlı irəli gəldilər. Əbdülmüttəlibi, Məhəmmədi və qırx igidi dövrəyə aldılar. Heç bir söz də deməmişdilər. Hz. Məhəmməd düşmənin bu namərd hərəkətini görüncə üzünü Haqq dərgahına tutdu. Həccar oğlu onun öz-özüylə danışdığını gördükdə sıxıntı keçirdi, çaşdı.

Kimə nə söyləyirdi, bu ay üzlü uşaq? Kimə əl uzadırdı? Göy üzündə nə vardı? Ancaq o bunu bilməzdi. Orada olanların heç biri də bunu bilmədi.

Bəli, Tavil artıq Məhəmmədə yalvarmağa başlamışdı:

– Ey üzü ay qədər parlaq, duası qəbul olunan. Tanrıya bizdən şikayət etmə, qəzəbinin üstümüzə gəlməsini istəmə. Sənin yalvarışının nə qədər qəbul ediləcəyini mən bilirəm. Yerdə, göydə sənin istəyin yerinə yetiriləcəkdir.

O zaman Məhəmməd:

– Ey Həccar oğlu Tavil, yaxşı deyirsən, amma sənin əsgərlərin hansı məqsəd və niyyətlə bizi ortaya alıb durublar. Bunlarda heç bir barış nişanəsi

görünmür.

Tavil o zaman qılıncını əsgərlərinin üzərinə cəkib qışqırdı:

– Ey yəmənlilər, bu Məkkə elçilərinin çevrəsindən uzaqlaşın, geri durun. Yoxsa qılıncımla özüm-özümü öldürərəm.

Yəmənli əsgərlər tam çaşıb qalmışdılar. Başçılarına nə olmuşdu? Onlar gözləri ilə gördüklərinə inanmadılar. Tavil qılıncının dəstəyini yerə qoyub ucunu ürəyinin üstünə qoymuşdu. Kiçik bir hərəkət olarsa, özünü öldürəcəyi görünürdü.

Şəhab bu halı görüncə ordu bəylərini çağırtdırdı:

– Bəylər, durun! – deyə bağırdı,– geri çəkilməyin. Həccar oğlu Tavil bizdən üz döndərmək istəyir. Məkkəlilərlə bir olacaq. Siz nə pis günə düşürsünüz, bilirsizmi?

Şəhabın onun haqqında dediklərini eşidən Tavil əlindəki yalın qılıncını birdən havada fırlatdı. Dəstəyindən iki əllə tutaraq, bir göz qırpımında var gücü ilə Şəhabın başından vurdu, başı bədəndən ayrılaraq xeyli aralı düşdü. Yəmənli bəylər bunu görüncə bərk qorxdular. Geri çəkildilər.

Tavil üzünü məkkəlilərə tutub dedi:

– Ey Hərəm başçısı, seyyidlər, ulular. Siz yurdunuza dönün, evinizə gedin. Mən də məlikimizin yanına gedib hər seyi ona bildirərəm. Əmrini alaram, işimi onun göstərişi ilə quraram.

Əbdülmüttəlib:

– Bu gözəl fikir və düz qərardır, ey Tavil.

Az sonra iki tərəf ayrılmışdı. Ordu Yəmənə, məkkəlilər Kəbə yoluna üz tutmuşdular.

Tavilin adamları ondan soruşdular:

– Ya əmir, bu nə əcaib işdir? Sən nə etdin, əmin oğlunu öz qılıncınla öldürdün. Öz ayağı ilə gəlmiş düşməni buraxdın getdi. Burada nə sirr vardır? Bunları bizə bildirin?

Tavil:

– O dediyiniz kişini mənim öldürməyim, sizin hamınızı ölümdən qurtardı. Çünki gördüm ki, Məhəmməd üzünü göyə tərəf tutmuş, Rəbbil-izzət dərgahına əl açmış, dodaqları tərpənərək dua edirdi. Mindiyim atın dörd ayağı da yerə batmışdı. O bir işarə vermədən atımın ayağı torpaqdan bayıra çıxmadı. İndi də dodaqlarının tərpənməsindən bildim ki, yenə dua edir, diləyini söyləyir. Qorxdum ki, üzərimizə yeni bir fəlakət, əzab enməsin. Hamımız həlak olmayaq. Mən Səhabı ona görə öldürdüm ki, məni təhqir etdi və istədim ki, onun ölümünü məkkəlilər görsun, könülləri xoş olsun.

## *YƏMƏN ORDUSU MƏHV OLUR*

Bəylər Tavilə:

– Ey əmir, biz bir iş daha düşünürük. Əgər sən razı olsan...

Tavil də:

– Söyləyin, qulaq asıram, – deyə cavab verdi.

Bəylər dedilər:

– Madam ki bu hərəkətinizlə məkkəlilərin, yəni qureyşlilərin könlü xoş oldu, fərəhləndilər, biz çəkilmiş kimi edərik... Sonra içimizdən on min nəfərlik bir hissəni təkrar Məkkə üzərinə göndərərik. Bu şəhəri dağıdarıq, talan edib geri dönərik.

Yəmənli ordu sərdarı:

– Gözəl düşünürsüz, bir də sizin dediyiniz olsun, baxarıq.

Həmən əmr verdi. On min kişi atlara mindilər. Gecənin düşməsini gözlədilər. Qaranlıq düşən kimi çöldə hərəkət başladı. On min Yəmən əsgəri Məkkəyə doğru yönəldi. Amma səhər olunca onları heç kim görmədi. Yaradan onları həlak etmişdi. Hələ də bu möcüzənin necə baş verdiyini bilən yoxdur. On min kişi ortadan yox olmuş, ya yer yarılıb yerin dibinə düşmüşdülər.

Atları, özləri yox, haraya qeyb olmuşdular? Onlardan tək bir kişi belə sağ qalmamışdı.

Tavil səhər-səhər onlardan bir şad xəbər gözləyirdi. Gələn yoxdur. Həmən ardlarına iki kişi göndərdi. Başçılarına əmr göndərdi. Bunlar geri dönərək xəbər gətirəcəkdilər.

İki çapar on min döyüşçünün dayanacağı yerə gəldi. Kimsə yox. Çadırlara girdilər, çaşıb qaldılar. Gördülər ki, on min əsgər qırılıb. Öldürülməmişdilər. Amma bir nəfər dirisi qalmamışdı. Kim öldürdü? Necə öldülər? Tarixdə bunu heç kim bilmir, qaranlıq olaraq qalır.

İki çapar qorxu içində geri döndü. Gördüklərindən halları pis idi. Atdan güclə düşüb özlərini Həccar oğlu Tavilə çatdırdılar. Qarşılaşdıqları dəhşəti ona danışdılar. Ölənlərin vəziyyətini dedilər. Məkkəyə gedən on min kişi elə çadırlarında məhv olmuşdular.

Tavil olmuşu eşitdikdən sonra ordusunun bəylərini çadırına topladı:

– Ey millətim, biz bir xəta etdik . Məkkəyə əsgər göndərdik. Şübhə yoxdur ki, üstümüzə gələn Yaradanın qəzəbi idi. Əsgərlərimiz həlak oldu. Mənə qalırsa, görüləcək ən yaxşı iş, bu ölənləri çadırlarında basdırmaqdır. Məkkəlilər bunu bilməməlidirlər.

Bu tədbir tez görüldü, ölüləri basdırdılar.

Tavil:

– Yəmənə dönməyə hazırlaşın! – əmrini verdi. Hərəkətə başladılar.

Gecə köçüb getdilər. Ertəsi gün oldu. Bir yerdə dincəlməyə dayandılar. Yenə on min kişi bir gecədə öldü. Tavil bu halı görüncə dedi:

– Təkrar köç edilsin.

Yenə köçüb getdilər. Axşam olunca əsgərlər yenə dincəlməyə dayandılar. Orada da on mini həlak oldu. Beləcə mənzil başına çatana kimi hamısı öldü. Bir xəbərçi belə gedib çatmadı.

Hz. Məhəmmədə qılınc çəkmək arzusunda olanların aqibəti beləcə də bitdi.

Əbdülmüttəlibin sonrakı günlər düşməndən xəbər gətirmək üçün göndərdiyi casuslar hər dəfə geri dönəndə onların tələf olması xəbərini gətirirdilər. Məkkəlilər düşündülər ki, Ulu Tanrı fil ordusunu həlak etdiyi kimi, bunları da öldurmüşdür.

Bundan sonra Qureyş uluları Hz. Məhəmmədin yanına gələrək qarşısında diz çökdülər. Ayağına baş qoydular və dedilər:

– Ya Məhəmməd, bütün bunlar hamısı sənin möcüzələrin və kəraminin bərəkətidir. Düşmənlərimiz həlak oldular. Sən nə qədər arxalısan.

O gecə Məkkədə şənliklər təşkil edildi. Qureyşlilər şadlıq və fərəh içində idilər. Məhəmmədin mübarək üzündən düşməndən əsər qalmamışdı. Savaş meydanından dönən oğlunu dörd gözlə gözləyən Əminə xatun o gün yola düşmüşdü. Atiqə xatun və digər ulu xatunlar Məhəmmədi sağ-salamat gördükdə sevinclərindən göz yaşlarını saxlaya bilmirdilər. Onu öpüb bir-birinə verirdilər.

## *ƏMİNƏ XATUNUN VƏFATI*

Dünya kimə qalmışdır ki.... Peyğəmbər anası olsa da, Yaradanın qoyduğu ömür bitəcək, əcəl gerçəkləşəcəkdi.

Bir gün Əminə xatun qayınatası Əbdülmüttəlibin yanına bir xahiş üçün gəlmişdi. İstəyi Məhəmmədi bir neçə günlük Mədinəyə böyük dayı və xalalarının yanına götürmək idi.

Əbdülmüttəlibə:

– Ya Əbdülmüttəlib, izin ver, sənə bir arzumu bildirim.

Nur üzlü Əbdülmüttəlib cavab verdi:

– Buyur, qızım.

Əminə xatun hər zamankı tərbiyə və nəzakətlə:

– Əziz qayınatam, əlbəttə, nəvəniz Məhəmmədi böyük dayı və xalaları görmək istəyirlər. İzin versəniz, onu Mədinəyə götürərəm. Böyüklərin əllərini öpərəm.

Əbdülmüttəlib düşünmədən belə:

– Gedin, qızım, Məhəmmədi də götür, get.

Yol hazırlığı başlandı. Əbdülmüttəlib heç bir şeyi əskik qoymadı. Hədiyyələr qoydu, yolda lazım ola biləcəklərini bir-bir yoxlatdırdı. Hz. Əminənin cariyəsi Ümmü Əymən də onlarla birlikdə gedəcəkdi.

Yola çıxanda bu üç yolçuya bir neçə qulluqçu da verildi. Karvan Mədinəyə yola düşdü. Mədinə Əbdülmüttəlibin anası Səlmanın məmləkətiydi. Atası Haşim, oğlu Abdullah da bu torpaqda dəfn olunmuşdu.

– Gülə-gülə gedin, gülə-gülə gəlin, – dedilər. Sonra dualar oxudular.

Fəqət gedib gəlməmək də vardı. İnsanlar ölümlərini heç vaxt öncədən bilməzlər. O zamanlar Mədinənin adı Yəsrib idi. Burada Xəzrəçli Nəccar oğlu Ədiyy oğulları yaşayırdı.

Əminə xatun yolda çox qəribə duyğular, hisslər keçirirdi. Sevimli həyat yoldaşı Abdullahın məzarı olan yerdən keçəcəkdilər. Buna qəmlənsə də, Məhəmmədi babasının ana qohumları ilə qovuşduracağı sevinci içində qanadlanırdı. Uzun yollar geridə qaldı. Gəlib Darülnəbizə deyilən yerə çatdılar. O nədir belə?

Əminə xatunun gözləri yaşarırdı. Yəsribə iki günlük məsafə qalmışdı. Nədən gözləri yaşarırdı, çünki Əbdülmüttəlib oğlu Abdullah burada dəfn edilmişdi.

Dəvələri saxladılar. Məhəmməd:

– Ana, niyə durduq? – deyə soruşdu.

Əminə xatun:

– Məhəmməd, oğlum, atan bu torpaqda yatır. Onun məzarını ziyarət edəcəyik.

Az sonra üç məkkəli yolçu sevgili bir ailə başçısının qəbri üstündə idi. Sonra Əminə üzünü oğluna tutdu:

– Atanın xəstə yatdığı evi də ziyarət edək.

Evi də ziyarət etdilər. Əbdülmüttəlib illərdir ki, Məhəmmədə ata həsrəti nədir bildirməmişdi. Məhəmmədin ürəyində bir həsrət var idi. Bu ata həsrəti idi. Ürəyindəki ağrı isə atasızlığın acısı idi.

Anası Əminə xatun ilk dəfə atası Abdullahın nədən buralarda öldüyünü açıqlamaq qərarına gəldi:

– Oğlum, Məhəmməd, atan insanların ən yaxşısı, ən gözəli, babanın da ən sevimli oğluydı.

Əminə göz yaşını boğdu, udqundu və bir az susdu, sakitləşdi. Sonra sözünə davam etdi:

– Bəlkə, indi mənə ” Ana, atam niyə burada qürbətdə qaldı?” – deyə soruşacaqsan. Atan ticarət üçün Şama getmişdi. Yolu Yəsribdən keçirdi. Geri

dönəndə dayılarının yanında qalmaq istəyib və o vaxt da burada da xəstələndi. Ömür vəfa vermədi, bu torpaqlarda dəfn olundu.

Məhəmmədin ürəyi sızladı bu həzin sözlərlə... İçində bir alov yanırdı. Getdikcə atəş könlünün dərinliklərinə tökülürdü. Bu duyğular içində karvan hərəkət edirdi. Səssiz-səmirsiz, amma dərin düşüncələrlə hərəkət edirdilər. Yəsribə çatdılar.

Bütün qohum-əqrəba ay üzlü Məhəmmədi görüncə heyran qaldılar. Rəsul nuru hamını ona bağladı. Üzünü gördükcə şad oldular. Bu şadlıq Məhəmmədə də keçdi. Bu hal anasına da keçdi, qəmi azaldı. Artıq Yəsribdə məmnun idilər. Məhəmməd uşaq dostları ilə söhbət etməyə, oynamağa başladı. Ədiyy oğullarının hasarına çıxır, Bəni-Nəccar çayında çimir, üzürdü. Onun Rəsul nurunu görən Yəsribdə çox olan yəhudilər də uşağı göz altına almaqdan çəkinmirdilər.

Hətta bir-birinə Məhəmmədi göstərərək: "Bu uşaq axırzaman peyğəmbəri olacaq, bu halda ona hicrət yerinin olması vacibdir", – deyirdilər.

Bir həftə keçdi. İkinci, üçüncü həftələr də belə keçdi.

Dördüncü həftənin sonu idi. Hz. Əminə artıq Yəsribdən getmək istəyirdi. Qohum-əqrəbalara:

– Sağ-salamat qalın, – deyərək şəhərdən ayrıldılar, karvan Məkkəyə yola düşdü.

Gündüz günəş, gecə ay və saysız ulduzlar altında çöl yolçuluğu.. Nə gözəldir!? Ulduzlar sayrışır, təmiz səmada sanki "kim daha çox parlayacaq" bəhsinə girmişlərdi.

Məhəmməd bu tənhalıqda Yaradanı ilə baş-başa qalırdı.

Məkkə ilə Mədinə yolunun yarısını keçmişdilər. Bu vaxt Hz. Əminə bir rahatsızlıq duydu. Qızdırması qalxmışdı. Karvan durdu. Əbva deyilən kəndə girdilər. Qızdırması getdikcə artırdı. Hz. Əminə qızdırmadan gələn tutmalardan yaddaşını itirirdi. Bəzən gözlərini açır, özünə gəlir: "Məhəmməd, Məhəmməd! Oğlum, Məhəmməd", – deyə onun mübarək üzünü axtarır, üzünü ona tərəf çevirir, dolan gözlərilə bir neçə beyt deyirdi.

Əbdülmüttəlibin atası Haşim də bu yollarda ölmüşdü. Əri, sevgili Abdullahı da buralarda can vermişdi. O da burada ruhunu təslim edəcəkdirmi? Bir gızdırma tutmasından sonra sevimli oğlunu yenə axtardı. Üzünə baxa-baxa:

– Hər diri ölür... Hər yeni şey köhnəlir..., – dedi. Birdən səsi kəsilən kimi oldu.

Sonra xırıltılı bir səslə pıçıldadı:

– Ya Məhəmməd, mən öləcəyəm. Lakin ölsəm də qəm etmə. Çünki mənim adım qalacaqdır. Ona görə ki, mən Məhəmməd kimi xeyirli oğul qoyub

gedirəm.

Sonrakı tutmada susdu. Tutmalar gəlincə bu sözləri bir neçə dəfə zəif xırıltılı səslə pıçıldadı. Məhəmmədim gözlərinə baxa-baxa dürr dənəsi olan bu yaxşı ana, gözəl qadın, yaxşı həyat yoldaşı gözlərini qapadı. Ruhunu uşağının yanında təslim etdi. Əcəl çox vaxtsız yetişmişdi. Birdən-birə otağı Məhəmmədin hıçqırığı bürüdü. Çox göz yaşı tökdü. Atadan yetim qaldığı kimi, indi anadan da yetim qalırdı.

Bəli, Məhəmmədə fələk çətinliyi çox tez vermişdi. Anadan olmamış atasız qalmışdı, bu gün də anasını itirdi. Artıq buna necə dözsün?! Məhəmməd fəryad edirdi. Çünki anasından doymamışdı. Ey insanlar, gözünüzü açın. Ölüm... Nə doymaz bir ac əjdahadır... Qulaqlarınız onun çağırış sədasını duyurmu?

Ölümün, bu əjdahanın ağzı haradadır? Bilinməz. Verdiyi, uzatdığı şirin deyil, ağudur, zəhərdir, amma şirin-şəkərə bənzəyir. Hz. Məhəmməd anası üçün elə ağladı, elə ağladı ki, onu deyib və ya təsvir edə bilsəydik, könüllər o göz yaşlarından alışıb yana bilərdi.

Rəsulullah(s.ə.s) anası Əminə xatunu torpağa verdikdən sonra üç gün daha anasının qohumlarının yanında qaldı. Üç gün yaz selləri kimi göz yaşı tökən Məhəmməd Ümmü Əymən ilə təkrar yola düşdülər. Xeyli yol qət etdilər. Artıq Məkkə uzaqdan görünürdü.

Məhəmməd şəhərə girdikdən az sonra babası Əbdülmüttəlibin dizlərinin yanında oturmuşdu. Məhəmməd anasının xəstələndiyini, yüksək hərarət içində necə sayıqladığını, özünə gələndə isə hansı beytləri dediyini dayanmadan göz yaşı tökən babasına danışdı. Son günlərin bitməyən göz yaşları Məhəmmədin gözlərinə bir ağrı verdi. Dərmanlar belə kömək etmədi.

Əbdülmüttəlib baxışlarında ay işığı saçan nəvəsinin bu ağrılarına dayana bilmirdi. Hər dəfə ona baxanda gözləri yaşla dolur, içində ürəyi yanırdı.

Əlbəttə, günlər, həftələr sürətlə keçir, heç dayanmır. Əlli gün olmüşdu, amma Məhəmmədin gözlərinin ağrısı davam edirdi. Göz qapaqları irindən bulaşır, kirpikləri bir-birinə yapışırdı. Sağaltmaq isə hələlik mümkün olmamışdı.

## *Hz. MƏHƏMMƏDİN GÖZÜNƏ ÇARƏ AXTARILMASI*

Əbdülmüttəlibin bir yəhudi ilə dostluğu vardı. Bir gün həmin yəhudi Şeybənin yanına bir işi soruşmaq üçün gəlmişdi. Oturub söhbətə başladılar. Amma Əbdülmüttəlib danışarkən onun çox qəmgin olduğunu yəhudi gördü. Nəvəsi də burada idı. Rəsulullahın mübarək başı həmişəki kimi Şeybətül-Həmdin dizinin üstündəydi.

Yəhudi bu halı görəndə soruşdu:

– Şeybə, nəvən niyə dizinin üstündə yatır?

Şeybə:

– Gözləri ağrıyır, – dedi.

Yəhudi:

– Ey Seyyidi Hərəm, nəbadə yəhudilərdən ot alasız, dərman istəyəsiz. Çünki onlar bu uşağın düşmənləridir. Onu sevməzlər. Amma mən sənə bir kişi deyəcəyəm, o bacarandır və əli də şəfalıdır. Verdiyi otlar təcrübədən keçmişdir, irini,çirki tez aparar. Qısa zamanda sağalar.

Seybə:

– O kimdir? Harada olur?

Yəhudi:

– Bu adam Məkkə ilə Taif arasında bir məbəddə olur. Adına rahib Semi deyirlər. Məhəmmədi onun yanına aparın.

Yəhudi işini həll edib getdi. Şeybə onun ardınca bu məsləhəti qureyşlilərə danışdı. Üməyyə oğlu Hərb (o Əbu Süfyanın atası idi) dedi:

– Bəli, Seyyidimiz, çox yaxşı olar. Mən o kahini görmüşəm.

O vaxt Şeybə:

– Madam ki rahibi yaxşı tanıyırsan, mən Məhəmmədi götürüb onun yanına gedərəm.

Həmin gün hazırlandı. Bir dəvəyə iki üstü bağlı oturacaq (kəcavə) bağladı, birində Məhəmməd, birində də Ümmü Əymən oturacaqdı. Şeybəoğullarından ikisini yanına aldı. Biri Zübeyr, biri də Əbu Talib idi. Onlara:

– Zirehlərinizi də geyinin. Ən qara, ən vəhşi iki ata minin, – dedi.

Özü isə onu möhtəşəm bir alimə oxşadan paltarlar geydi. Köləsi Səvvabı da dəvəsinə xidmət etmək üçün götürdü. Karvan yola düşdü.

Məhəmməd yaxşılaşmalıydı. Anasına tökdüyü göz yaşından xəstələnmiş gözlərinə şəfa tapılmalı idi. Bunu istəməyən olardımı?

Bəli, bunu istəməyən onun düşmənləri idi. Kim idi bunlar?

İblis lənətə gəlmiş. O, daima fürsət axtarıb yaxşılıqları pisliklərə çevirmək istədi. Hələ Məhəmməd üçün daima fitnə-fəsad etməyi arzulayırdı.

Şeytan niyə bu xasiyyətdə idi? O çox yaxşı bilirdi ki, Məhəmmədə zərər toxunmaz. Ona zaval yoxdur. Onun ətrafına toplayacaq ümmətini də pis yola döndərə bilməyəcək. Bunları bilməklə bərabər, o, yenə fitnə-fəsadından əl çəkə bilmirdi. Nə üçün? Bunun bir səbəbi vardır. Çünki İblis Ulu Tanrının dərgahi-alisində ikən o, qəbul edilmişlərdən idi. Allaha yaxın mələklərin arasındaydı. Ona da sayğı göstərilirdi. Onun biliyi çox idi. Bir gün İblis lövhi-məhfuzə, ilahi müqəddəratın yazılı olduğu vərəqə nəzər saldı. Çünki illərdir onu xəlq edənə itaət edirdi. Nə deyərsə də qəbul olunardı. O gün də

lövhi-məhfuza baxaraq min illər içində nə olacağını öyrənmək istəmişdi.

Oraya nəzər saldı. Nələr gördü?

O mənəvi lövhədə bütün olacaqlar yazılmışdı. Müqəddəratları İlahi orada rəsmiləşdirmişdi. Baxdı, bir ulu mələyin " Şeytan" olacağını gördü.

O, lövhi-məhfuzda dünyaların ağası, varlıqların xülasəsi, ümmətin rəhbəri Məhəmməd Mustafanın (s.ə.s) halını, izzət və şərəfini, Allah yanında dərəcəsini, yerini də görüb bilmişdi. Amma onun vərdişi fitnəçilik, həsədlik idi.

İblis bunları niyə edirdi? O, içində bilirdi ki, onun fitnəsindən kainatın fəxrinə ziyan və kədər-qəm gəlməyəcəkdir. Amma xaric inamı ilə Məhəmmədin kimsə tərəfindən tanınmasını, hörmət edilməsini istəməzdi.

İblis nə istəyirdi, daha?

İstəyirdi ki, bütün dünya xalqı azsın. Doğru yoldan uzaq dursun. Onunla birlikdə zülmdə qalsın, onunla birlikdə əzab oduna yansınlar.

Ulu Tanrı İblisi nədən yaratdı?

Bir çox din alimləri deyirlər ki, İblis, küfr sahibi olanlar, yəni Haqq dini qəbul etməyənlər, imansızlar, içi fitnə ilə dolular Rəsulullahın peyğəmbərliyini necə qəbul edəcəkdilər? Yaradan bu səbəbdən lövhi-məhfuzda İblisi yaradacağını bildirdi.

Dünya belədir. Ziddinin ziddi var. Ağıllının qarşısında kim var? Cahil. Asinin qarşısında kim var? Məsum. İmansızın qaşısında isə Haqq dininə inananlar. Qaranın ziddi ağdır. Beləliklə, qaranlığın qarşısında aydınlıq var.

İblis Məkkədən çıxan karvanı öz görünməməzliyi ilə təqib etməkdəydi. Yolda qureyşlilərdən köçkün bir qəbilə vardı. Buralarda bölük-bölük yaşayardılar. İblis özü bir ixtiyar surətinə, qılığına girdi. Onun əsasını yavaş-yavaş, yerə vura-vura başçı çadırına girdiyini gördülər.

İblis qəbilə ulusunun qarşısına çıxıb:

– Ey ulu, nə qədər biganə olmusuz? Nə dostunuzdan, nə də düşməninizdən xəbəriniz yoxdur,- dedi.

Qəbilə başçısı və yanındakılar çaşdılar.

– Ey ixtiyar, bu sözü nə səbəbə deyirsən? Nədən xəbərsizik? Biganəliyimiz nədir? Bunu bizə de.

İblis güldü:

– Sizin Məkkədə doğulmuş bir oğlan uşağından xəbəriniz varmı? Eşitmədinizmi, bilmədinizmi, kahinlər nələr söylədilər? Elm adamları nə dedilər?

Qəbilənin seyyidləri:

– Nədir onların söylədikləri? – deyə soruşdular.

İblis:

– Onlar xəbər verdilər ki, bu uşaq qılınc çəkib qan tökən olacaqdır. Bir çox dövlət tacını məliklərdən alacaqdır. Ortaya yeni bir din və şəriət qoyacaqdır. Bütləri qıracaqdır. Bütxanələri xaraba qoyacaqdır. Atalarınızın dinindən sizi ayıracaqdır. Onun əsgərləri sizin mallarınızı əlinizdən alacaqdır. Oğul-qızınızı əsir edəcəkdir. Əgər siz qurdu böyüməyə qoysanız, böyüyüb yeddi başlı əjdaha olacaq. Artıq nə etmək lazımdır özünüz bilin.

Qəbilə ağsaqqalları:

– Ey ixtiyar, Məkkədə doğulmuş uşağın əqrəbası çoxdur, qəbiləsi də böyükdür. Bununla əlaqədar ona kimsə əl vura bilməz.

İblis məyusluq içində güldü:

– Ancaq onu da deyim ki, uşaq buradan yanınızdan gəlib keçəcəkdir.

Qəbilə başçısı:

– Gedəcəyi yerə nə üçün gedir?

İblis:

– Gözləri ağrıyır. Göz qapaqları irinləyir. Şəhərdə əlac edə bilmədilər. İndi rahib Seminin yanına aparırlar. Yanında üç ər kişi var. Həmən tərpənin, hücuma keçin əlinizdən gələni edin. Qorxmayın. Öldürməyə çalışın.

İblis onları həyəcana salan bu sözləri söylədi. İmansız ərəblər hərəkətə keçdilər. Başçı əmr verdi:

– Tez 400 atlı atlansın!

Az zamanda 400 atlı hazır oldu.

İblis o lənətli fikirləri ilə ərəblərin yanından ayrıldı. Başqa fitnə-fəsadlar üçün yoluna davam etdi. İrəlidə Sakif ərəbləri vardı. Taifə yaxın yaşayırdılar. Onların yanına gəldi. Bu səfərdə bir din adamı libasını geymişdi. Qəbiləyə yaxınlaşıb ilk rast gəldiyi adamdan soruşdu:

– Sizin içinizdə ulular kimlərdir?

Adam:

– Üç hörmətli insan vardır ki, böyük ad qazanmışlar. Bunlardan biri əliaçıqlığı ilə hörmət qazanmış Əbdül Hümalül Sakifdir. İkincisi, igidliyi ilə ad qazanmış Üzeyr oğlu Sükkandır. Üçüncüsü də gözəl söhbət və danışığı, biliyi ilə məşhurlaşmış Məsud oğlu Ürvədir.

İblis:

– Mənə igid olan lazımdır, – dedi və tezliklə özünü Üzeyr oğlu Sükkanın yanına çatdırdı.

Sükkan yanına hörmətli din adamının gəldiyini görüncə ayağa qalxdı. Ona sayğı göstərdi. Yanında oturtdu və soruşdu:

– Ey zahid, ey din adamı, arzun, məqsədin nədir?

Şeytan:

– Yaşlı bir adamam. Dayanıb ölümümü gözləyirəm. Mən hər saat, hər

dəqiqə ölüm intizarındayam. Eşitdim ki, sən çox igid, ər bir insansan. Qılınc vurmaqda bərabərin yoxdur. Pəhləvansan. İndi səni bir işə cəlb edəcəyəm. Əgər bunu etsən, sənin igidliyin qiyamətə kimi dillərdə əzbər olacaqdır.

Sükkan həyəcanlandı, soruşdu:

– Ey ixtiyar din adamı, ey şeyx, o necə bir işdir, vəzifəm nədir? Söylə eşidim.

İblis əvvəlki qəbilədə insanlara söylədiyi sözləri sonra Məhəmmədin hekayəsini danışdı,sonra əlavə etdi:

– Bunları söyləyən tək mən deyiləm. Bütün rahiblər, kahinlər onun haqqında hər şeyi öyrənmiş, bunları söyləmişlər.

Sükkan soruşdu:

– Biz də eşitmişdik. Məkkə şəhərində bir uşaq doğulacaq. Qılınc vuran və qan tökən olacaqdır. Ərəblərin içində ulu olacaqdır. Onun hökmü şərqdən qərbə kimi hər yerdə qəbul ediləcəkdir. Biz bunu eşitmişdik... Bəs nə etməliyik?

İblis soruşdu:

– Bəs niyə susmusunuz? Diliniz qopmış kimi dayanmısınız.

Sükkan:

– Ona görə ki, bizim əlimiz ona çatmaz. Onun çox güclü qəbiləsi var.

İblis yenə soruşdu:

– İndi fürsətiniz var, inanırsınızmı? İgidliyin varsa, bundan faydalan.

Sükkan tələşla soruşdu:

– İndi o uşaq haradadır?

İblis:

– Bir neçə gündür ki, o uşağın gözü ağrıyır. Məkkədə sağalda bimədilər. İndi rahib Seminin yanına aparırlar, orada sağalacağına ümid edirlər. Yanında babası Əbdülmüttəlib, əmiləri Əbu Talib, Zübeyr və kölələri var ki, dəvələri çəkir. Əsl fürsətdir, vaxtdır, əldən buraxma.

Sükkan bu xəbəri alınca səbrü qərarı qalmadı, başqa bir şey düşünmədi. Atına minib yola çıxdı. Adamlar da onun ardınca yola çıxdılar. İyirmi-otuz kişi olardı.

İndi karvana yaxınlaşırdılar. Şeybə irəlidə bir dəstə atlını görüb diqqətlə baxdı. İyirmi-otuz atlı gəlirdi. Oğullarına:

– Bu gələn əsgərə bənzəyir, baxın, – dedi.

## *TƏKBƏTƏK DÖYÜŞ*

Əbu Taliblə Zübeyr diqqətlə irəli baxdılar:

– Bəli, ata, dediyiniz doğrudur, süvarilər gəlir.

İki oğul zirehlərini geydilər. Hücuma hazır durdular. Şeybə:

– Biriniz irəli çıxın, görün gələnlər kimlərdir? – dedi.

Zübeyr atını mahmızladı. İrəli sürdü. Bir bölük atlının önündə Sükkanın gəldiyini gördü. Qabaqda bayraqları vardı. Reybal oğlu Xəttab da yanlarında idi. Zübeyr onlara:

– Kimsiniz? Hansı qəbilədənsiz? Hara gedirsiz?

Xəttab:

– Öncə sən söylə, kimsiniz, nəçisiniz? Bizdən nə üzlə bunları soruşub xəbər öyrənmək istəyirsiniz?

Zübeyr:

– Mən Hərəm seyyidi Əbdülmüttəlibin oğlu Zübeyrəm.

Xəttab:

– Bizə söylədilər ki, Məhəmməd babası ilə Seminin yanına məbədə gedir. Biz də ata minib yola düşdük. Məqsədimiz Məhəmmədi öldürməkdir.

Zübeyr:

– Gülürəm sizə, onu sizə kim göstərəcək?

Xəttab hirsləndi:

– Kim imiş onlar, bizim qarşımızda dura, bizimlə vuruşa.

Zübeyr sinəsinə vuraraq:

– Elə mən, – dedi.

Xəttab bu sözü eşitdikdə Zübeyrin üstünə hücum etdi. Zübeyr usta bir hərəkətlə özünü düşmən nizəsindən qaçırdı. Qılıncı ilə Xəttabın üstünə hücum çəkdi. Qılıncı göyə qaldırıb düşmənin başına endirdi. Xəttab boş çuval kimi atın üstündən yerə düşdü. Həmən də öldü.

Sükkan hiddətləndi, Cəggal oğlu Münnəyə baxdı. Ona: "Nə durursan, meydana çıx, hücum et", – əmrini verdi.

Münn atının böyrünü deşəcək kimi mahmızladı, onu hərəkətə gətirdi. Zübeyrə həmlə etdi. Amma həmləsi boşa çıxdı. Bu zaman Zübeyr qılıncını onun təpəsinə endirdi.

Sükkan çaşmışdı, dəstəsinə tərəf döndü və "Zirehlənin, silahlanın!" əmrini verdi.

Zübeyr də bu fürsətdən istifadə edərək atasının yanına döndü.

– Ata, Üzeyr oğlu Sükkan adamları ilə gəlmiş, bizi öldürmək istəyirlər.

Şeybə bu sözü eşidincə dəvələri çökdürdü. Məhəmmədi kəcavədən düşürdü. Dəvəçi köləyə:

– Ey Səvvab, biz düşmənə doğru gedirik. Sən bu dəvənin arxasında bir xəndək qaz. Ümmü Eymən də sənə kömək etsin. Torpağı qazın.

O zaman Məhəmməd:

– Baba, ulu babam İbrahim peyğəmbərin yayını bir neçə nəbəl oxu ilə mənə ver, əlimə alım.

Şeybə o dəqiqə yayla oxları Məhəmmədin əlinə verdi. Zübeyr:

– Ey Haşim oğlu, – deyə səsləndi, qardaşımın balası, gözlərin ağrıyır. Sən necə ox ata bilərsən?

## *ULU YARADANIN QÜVVƏTİNƏ TAMAŞA ET*

Məhəmməd:

– Əmi, sən Ulu Yaradanın qüdrətinə indi tamaşa et. Mənim nə edəcəyimə yaxşı nəzər yetir.

Bu vaxt Sükkan da adamları ilə birlikdə onlara yaxınlaşmışdı. Səf durub Əbdülmüttəlibə səsləndi:

– Ey Haşim oğlu, yanındakı o uşağı mənə ver. Onu bizə təslim et. Öz əlimlə öldürəcəyəm. Mənim igidliyimi bütün dünya bilsin. İnsanları onun şərrindən qurtarım. Çünki bu uşağın ərəblərin sahmanını pozacağı haqqında çox danışırlar. O, Xalqın birliyini dağıdacaq, iki yerə böləcək. Bir-birinə qırdıracaq.

Sükkan bu sözləri söyləmişdi ki, Məhəmməd əlindəki Hz. İbrahimin yayına ox qoyub çəkdi.

Ox düz Sükkanın döşündən dəyib arxasından çıxdı. Elə bir qanlı yara aldı ki, atdan yıxılacaqdı. Onu tutdular, bir sığınağa çəkdilər, atdan endirdilər. Bir neçə kişi yaranı təmizlədi, qanı saxladı. Bu vaxt bir adam atını Məhəmmədin istünə sürdü. Məhəmməd onu da nişan alaraq bir oxla atdan yerə saldı. Sükkanın əmisi oğlu Cami də Məhəmmədi hədəfə aldı. Atını onun üstünə sürdü. Bir oxla Məhəmməd onu da hədəfə alıb o biri dünyaya göndərdi. Sonra Xalid adlı birisi at üstündə hücum etdi. Onu da cəhənnəmə göndərdi. Xaliddən sonra Kəsr oğlu Şari hücum etdi. O da Xalidin arxasınca getməli oldu. Ondan sonra Nofəl oğlu Ukeyl irəli atıldı və az sonra cansız olaraq yerdə qaldı.

Beləcə doqquz kişi hücum etdi, doqquzu da nəbəl oxu ilə cansız yerə sərildi.

Bu döyüş zamanı İblisin Taiflə Məkkə arasında səslədiyi Qureyş qəbiləsindən 400 kişi vuruş meydanına yetişdilər.

## *YENİ BİR PLAN*

Şeybə, Zübeyr və Əbu Talib uzaqdan bunların gəldiyini görəndə bir anda yaxşı plan fikirləşdilər. Əbu Talib və Zübeyr atalarından izin istədi:

– Əgər məsləhət görsəniz, arxadan gələn ərəblərlə savaşa başlayarıq.

Əbdülmüttəlib:

– Bir-birinizdən ayrılmayın, oğullarım. Bir görək nəvəm Məhəmməd nələr göstərəcək. Baxın, Sakiflərdən on kişini sıradan çıxardı. Sonuna qədər görək nə edəcək?

Bəli, Məhəmməd doqquz kişini öldürmüş, başçıları Sükkanı da yaralayaraq, döyüş meydanından çıxarmışdı. Dörd yüz Qureyş ərəbi savaş meydanına gələndə gördülər ki, bir ovuc insan bir bölük əsgərdən doqquzunu öldürmüş, biri də sığınaqda yarasını müalicə edir. Nədənsə əllərini qılınca vurmayıb gözlədilər.

Sükkanın adamları bir-birinə baxıb deyirdilər:

– Bu uşaq ağrıyan gözləri ilə oxları yağış kimi yağdırır. Əgər gözü sağlam olsaydı, vay bizim halımıza. Bunun vuruşunun qarşısında kim dura bilər? Heç əmilərinə vuruşmağa imkan vermədi. Onlar növbə gözləyirlər. Baxın, ikisi də yanında əjdəha kimi durublar. Halımız pis ola bilər. Burada bizlik iş yoxdur.

Sükkanın yarasına baxanlardan birisi qabağa gəlib dedi:

– Dostlar, Sükkanın vəziyyəti pisləşir, huşunu itirmək halındadır. Onun yanına gəlin.

Qalan 20 kişi geri döndü. Sükkanın yanına qaçdılar. Onu götürüb Səminin yanına, monastıra apardılar. Rahibə onun yarasını göstərəcəkdilər.

Məhəmmədi öldürməyə gələn 400 Qureyş ərəbi Sakiflərin başına gələnləri gördükdə bir-birinə baxıb:

– Biz də dönüb gedək. Bu bizim işə yaramaz. Hərəm seyyidləri ilə niyə düşmən olmalıyıq? Onlarla nə üçün vuruşmalıyıq? Bir necəmiz öləndən sonra peşman olacağıq, elə indi itkisiz dönüb gedəyin, – dedilər.

Nəhayət, Hz. Məhəmmədi öldürməkdən vaz keçib oradan uzaqlaşdılar.

Əbdülmüttəlib oğullarına:

– Ya Əbu Talib, ya Zübeyr, – dedi, baxın, qardaşınız oğlu düºmənlə nə etdi, nə kəramət və möcüzələr göründü? İki bölük əsgəri də qaçırtdı. Kimsəyə möhtac olmadı.

İki oğul və ata atdan enib Məhəmmədi qucaqladılar. Bundan sonra Məhəmmədi dəvəsinə mindirib kəcavəsində oturtdular. Səmi monastrına doğru yola düşdülər.

Adamları Üzeyr oğlu Sükkanı da götürüb oraya aparırdılar. Sükkan:

– Amandır, tez gedin, yaramı rahib müalicə etsin, yaxşılaşım.

Bir az da sürəti artırdılar. Yolda adamlardan biri:

– Mənim yaxşı fikrim var.

Yoldaşları:

– Nədir o fikir? – deyə soruşdular, – söylə bizə.

– Biz monastıra gələndə rahib Sükkanın yarasına baxıb, yuyub, sarıyan zaman biz də məbədin içərisində gizlənərik. O vaxt Məhəmməd də bura gəlib çatacaqdır. İçəri girən kimi dörd tərəfdən çıxıb onu qılınclayarıq. Sonra da babası və əmilərini parça-parça edərik. Yoxsa biz işimizi bitirməyib geri dönürük. Bu qara üzlə kimin qarşısına çıxa bilərik. Kimin üzünə baxa bilərik. Çünki hamı bizə deyəcək ki, üç kişi və bir uşağın əlində giriftar olmuş igidlərdir. On adamımız ölmüş, başçımız da ağır yaralanmışdır. Onlardan heç biri yaralanmamış belə. Bizi tanıyanların və qəbiləmizin yanında gərək daima başıaşağı gəzək.

Sükkanın adamları bu fikri bəyəndilər.

Nəhayət, Səmi məbədinə çatdılar. Rahibi çağırdılar. Rahib mehrabdan aşağı endi, qapını açdı. Yaralını içəri götürdülər. Yarasının ağrısı güclənirdi. Sükkan inildəyirdi.

Rahib yaranı açıb ondan soruşdu:

– Ey Sükkan, sən bir igid kişisən, neyçün bir ox yarasına belə inildəyirsən?

Sükkan:

– Mən ox yarasından inildəmirəm, məndən başqa on kişiyə ox atıldı, dəydi və onu da həlak oldu. Onlar üçün yanıram.

Səmi soruşdu:

– Kim sizə ox atdı?

Sükkan olan hadisəni danışdı və oxları Məhəmmədin atdığını dedi.

Rahib Səmi vəziyyəti biləndə Sükkana:

– Ey əmir, görüləcək işiniz evinizə dönməniz və nəslinizə, qəbilənizə qovuşmanızdır, – dedi.

Sükkan:

– Niyə evimə dönməliyəm?

Rahib:

– Çünki iki müxtəlif səbəb var. Birinci səbəb budur ki, mən bu yaranı sağalda bilmərəm. İkinci səbəb isə o uşaq sübutlar sahibidir. Şərqdən qərbə kimi hər yeri tutacaqdır. Bütün dünya ona boyun əyəcəkdir. Əgər bütün yer və göy yaradılmışları bir yerə yığışmış olsa belə, ona bir ziyan gətirə bilməz. Çünki onu qoruyan, bilirsən kimdir? Ona kömək edən kimdir? Dünyanı yoxdan var edən Yaradandır. Qorxuram bura gəlib sizi burada görsə, sə-

nə mütləq ziyan toxuna və adamlarına. Vətəninizə geri dönün.

Sakiflər bu sözləri eşidincə:

– Ey Səmi, madam ki yaralımızı sağalda bilmirsən, sən qalx mehrabında otur. Biz məbədin içərisində gizlənərik, düşmənimiz gəlib bura girdiyi zaman qəfil çıxaraq onları qılıncdan keçirərik, intiqamımızı alarıq.

Rahib bunlara söz təsir etmədiyini görüb daha bir söz demədi və yuxarıya çıxdı. Məhəmmədin gəlməsini gözləməyə başladı. Gözu üfüqlərdə idi.

Uzaqdan karvan göründü. Məhəmmədin oturduğu kəcavəni də görürdü. Kəcavənin önündə üç atlı gəlirdi.

Rahib aşağıya səsləndi:

– Ey Sakiflər, məkkəlilər gəlirlər.

Sükkan:

– Ey rahib, – deyə aşağıdan bağırdı, qapını açanda nəbadə bizim burada olduğumuzu deyəsən. Sonra səni və burada olan rahib qardaşlarını diri qoymaram qalsın.

Sükkanın adamları özlərini və atlarını yaxşıca gizlətmişdilər.

Karvan monastrın qarşısında dayandı. Məhəmmədi kəcavədən endirdilər. Ümmü Əymən də endi. Məhəmmədin əlindən tutaraq getdilər.

### *Hz. MƏHƏMMƏDİN ADDIMINDAN DOĞAN ZƏLZƏLƏ*

Əbu Talib və Zübeyr qapını döydülər. Sakif ərəbləri qapının arxasında iki tərəfdən düzülmüşdülər. Əllərində qılınc hazır vəziyyətdə idilər. İçərilərindən biri qapını açdı. Məhəmməd irəli getdi. Birdən-birə məbəd silkələnməyə başladı. Nə oldu belə? Zəlzələ baş verdimi?

Bu heybətdən Səmi ilə birlikdə olan rahiblər ağıllarını itirmək dərəcəsinə gəldilər. Sarsıntı davam edirdi. Rahiblər tez bayıra çıxdılar. Sakiflilər də baş verənləri gördükdə qorxudan nə edəcəklərini bilmirdilər. Bir anın içərisində hamısı yerə sərildi,öldü.

Arxadan gələn Əbu Talib və Zübeyr bu vəziyyəti görəndə az qala başlarını itirmişdilər. Ümmü Əymən məbədin divarına söykənib dayanmışdı. Əli Məhəmmədin əlində idi. Rahib bir az sonra özünə gəldi. Aşağı endi, özündən getmiş rahiblərin üzünə su səpdi. Hamısını özünə gətirdi. Onlar gözlərini açanda düşmənlərin can verdiyini gördülər.

Rahib Səmi yavaş-yavaş qapıya doğru gəldi. Qapıda ayağını içəri atan Məhəmmədi və onun parlaq mübarək üzünü gördü. Rahib Səmi onun önündə üzünü torpağa qoydu, saqqalını yerə sürtdü. Ya Rəbbim, bu nə taledir belə? Bu nə uğurdur, bu nə mübarək taledir?

Səmi:

– Bu gün səadət qapıma gəldi? Mən yuxumu görürəm? Yatmış bəxtim və taleyim oyandımı? Qara könlüm sənin nuruna boyandı. Haqq sənə böyük lütfünü göstərir. Sənə bir ulu qədəm verir. Cümlə yaradılmışların sayılmışı sənsən. Səndən daha üstün bir qulu yoxdur. Haqq səni sevimli yaratmışdır. Sənin sözün və işinə inanmaqdan başqa çarə yoxdur.

Bu vaxt Əbu Talib qaçaraq qoca rahibi Məhəmmədin ayağından qaldırdı. Məhəmməd rahiblə birlikdə içəri girdilər. Oturdular. Rahib ölülərin yerdə yatdıqlarını gördükcə çaşqınlıqdan özünü ələ ala bilmirdi. Şeybəyə döndü:

– Ya Şeybətül-Həmd, Məhəmmədin zamini sənsən, ata-anası vəfat etmişlər. Səndən sonra əmilərindən biri onun zamini olacaqdır. Məhəmmədin üzərində çox zəhməti olacaqdır. Amma əmilərindən birinin oğlu olacaqdır ki, din qılıncını sonralar əlinə alacaqdır. Məhəmmədə yar olacaqdır. Ona qardaş olacaqdır.

Səmi sözünü bitirib susanda Şeybə soruşdu:

– Bu ölənlər kimdir? Hansı qəbilədəndir?

Rahib:

– Bunlarmı? Bu Sükkandır ki, sənin yoluna çıxmışdı. Nəvən Məhəmməd bunlardan bir neçəsini öldürmüşdü. Sükkan ciddi bir yara almış, oradan qaçaraq monastra gəlmişlər. Mənə: "Nəbadə ibadət yerindən aşağı düşəsən. Biz bu monastrın içində gizlənəcəyik, Məhəmməd bura gələndə intiqamımızı alacağıq", – dedilər. Mən çox nəsihət elədim, öyüd verdim, sözlərım onlara təsir etmədi. Bundan sonra siz gəldiniz. Sonrasını siz məndən yaxşı bilirsiniz.

Səmi sözlərini bitirincə Hz. Məhəmmədlə gələnlər:

– Ya Məhəmməd, nə ulu kəramətin var sənin. Bizim ağlımız səni dərk edə bilmir. Fikrimiz sənin məqamına çatmır, – dedilər.

Bundan sonra Əbdülmüttəlib rahibə döndü:

– Ey Səmi, nəvəmin gözü ağrıyır. Onu yaxşılaşdır, dərmanını tap, ona bax.

Bu sözü duyan rahib heyrətdə qaldı:

– Ey Hərəm seyyidi, sən nə deyirsən? Ey ulular, nələr düşünürsüz? Heç Ənqa quşunun qaraquşdan hünər və ya mərifət aldığını və ya ondan faydalandığını haradasa gördün? Göyün yer üzünə ehtiyacı yoxdur. Bu quldan bir sultan ululuq, əzəmət, mal və səadət istənilirmi? Dünyada bu uşaqdan ulu kimsə yoxdur. Bu uşaq bütün qəriblərə arxa olacaqdır. Ancaq İblisdir ki, ummətini fəsada apara bilər.

Rahib susdu. O səmavi kitabların yazdığı axırzaman peyğəmbəri haq-

qında düşünürdü. Onun keyfiyyətini Abdullah oğlu Məhəmməddə görmüşdü. Yenidən Əbdülmüttəlibə döndü:

– Ey Hərəm seyyidi, bil ki, Məhəmməd Seyyidül-əvvəl və axirindir. Xatəmül-ənbiyadır. Həbibi - Rəbbil-aləmindir.

Şeybə də, Əbu Talib və Zübeyr də bu sözlərə heyrət içində qaldılar. Rahib Səmi sözlərinə davam etdi:

– Bu uşağın nəfəsi dirilərə dərmandır. Ağrılara şəfadır. Allaha inananlar qatında adı Həbibdir. Ağıllılar qatında adı Ləbibdir. Alimlər, hakimlər və ədiblər nəzərində Təbibdir. Bu Məhəmməd bir başçıdır, sərvərdir. Sərvərlər onun ayağına baş qoyacaqlar. Bütün insanlar onun sözünə inanmalıdırlar.

Rahib Səmi yenə susdu. Şeybə ondan soruşdu:

– Siz Həbibim Məhəmmədin gözü üçün nə tədbir düşünürsüz? Onun dərmanı üçün nə etmək lazımdır?

Rahib Səmi:

– Onun dərmanı yenə Məhəmmədin əlindədir, − deyə cavab verdi, onun ağız suyundan pambıq üzərinə alın, gözlərinə sürtün.

## *Hz. MƏHƏMMƏDİN GÖZLƏRİ ŞƏFA TAPIR*

Şeybə elə də etdi. Məhəmmədin tüpürcəyindən bir pambıq üzərinə damlatdı. Pambığı götürüb Məhəmmədin gözünün üstünə yavaşca çəkdi. Məhəmməd babasının dizinin yanında uzandı. Başını həmişəki kimi dizinin üstünə qoydu və yatdı. Bir az yatdı, sonra yavaş-yavaş gözlərini açdı. Oyandı. Məhəmməd göz ağrısının olmadığını hiss etdi:

– Baba, gözlərimdə heç ağrı qalmadı.

Oradakılar da diqqətlə onun gözlərinə baxdılar. Gözünün xəstəliyindən bir əlamət qalmamışdı.

Şeybə Səminin yanına getdi:

– Sağ ol, çox gözəl dərman tapdın. Belə ağılla, biliklə min yaşa.

Rahib:

– Ey Məkkə seyyidləri, bu uşaq illər sonra xalqı haqqa çağırdıqda, o zaman yadınıza salın ki, mən onun yoluna indidən gedirəm. Buna şahid olun.

İki tərəf bir-biriylə vidalaşdı. Şeybəgil sakifli ərəblərin cəsədlərinə son dəfə nəzər salaraq monastrın qapısından bayıra çıxdılar. Əbdülmüttəlib Məhəmmədi öz dəvəsinə mindirdi. Məkkəyə doğru geri döndülər. Şəhərə yaxınlaşanda Məhəmmədin babası və əmiləri ilə geri döndüklərini eşidən məkkəlilər onları qarşılamağa çıxdılar. Hamı sevinirdi.

## *YƏMƏNDƏ YENİ MƏLİK*

Bu zamanlar Yəməndə Əbrəhənin oğullarından Məsrükü məğlub edərək məlik olan Züyəzən oğlu Seyf hökmdarlıq edirdi. Ağıllı, alim, ədəbli, həyalı bir insan idi. Yəməndə Həbəşlərin zülmü bitməyəcək hala gəldiyi zaman Yəmən şahzadələrindən Seyf İstanbula Bizans qeysərinin yanına gələrək şikayət etmişdir. Həbəş valisinin yerinə başqa vali təyin edilməsini xahiş etmişdir.

Qeysər:

– Həbəş hökmdarı yəhudidirmi ki mən onun üzərinə qoşun göndərim? – deyə rədd cavabı vermişdir.

Bizansdan rədd cavabından sonra Seyf İran hökmdarı Nuşirəvana müraciət etdi. Yəmənin İrana tabe olunmasını istədi. Nuşirəvan Yəmənin uzaqlığını nəzərə alaraq bu razılığın faydasız olduğunu söylədi. Ona bir az qızıl hədiyyə verərək əliboş geri yollamaq istədi. Seyf isə:

– Mən bura hədiyyə almağa gəlmədim. Mənim yurdumun dağları qızıl və gümüşdür, – ` deyərək hədiyyəni yanındakı adamlarına payladı.

Onda İran hökmdarı həbsxanalardakı cəza çəkənləri ona yardım üçün verə biləcəyini söylədi:

– Bu məhbuslar sənə bir kömək edə bilərlərsə, götür, Yəmən də sənin olsun. Görə bilməzlərsə, heç olmasa bizim həbsxanalar boşalar.

Seyf bu təklifi qəbul etdi və 7-8 min azad olunmuşu gəmilərlə Ədənə göndərdi. 576-cı ildə bu əsgərlərlə birlikdə ərəb qəbilələrini bir yerə toplaya bildi. 100 minlik Həbəş ordusunu məğlub etdi. İrana vergi vermək şərti ilə Yəmənin idarə edilməsini əlinə aldı. Əcdadlarının sarayına keçərək ölkəsini idarə etməyə başladı.

Seyfin bir adəti vardı. Yəmənlə Məkkə arasında yüksək bir dağ vardı, adı Gəmdan idi. Seyf ildə bir dəfə dağa çıxar, yaylaq kimi dincələrdi. Başqa yerlərdən, vilayətlərdən də ora ulu başçılar gəlirdi. Seyfin sarayında qonaq olur, ona çoxlu hədiyyələr gətirirdilər.

Əbrəhə Məkkə üzərinə yürüş etdiyindən bəri 576-cı yazında Seyf yenə bu yaylağa çıxmışdı, dağ havası almaq istəyirdi. Dörd yandan ərəb başçıları onu ziyarətə gəlmişdilər. Seyfin göy elmlərindən yaxşı bilikləri vardı. Tarix kitablarını çox oxumuşdu. Bundan 6-7 il öncə Fil savaşında Əbrəhə ordusunun necə yox olduğunu, Həccər oğlu Tavil ordusunun məhv olduğunu bilirdi. O, İncildə axırzaman peyğəmbərinin əlamətlərini, daha sonra vəsfini, sifətini, surətini əks etdirən yazıları oxumuşdu. Məkkədə belə bir uşağın doğulduğunu eşidəndə Məkkəyə casuslar yolladı. Onlara bu əmri verdi:

– Haqqında eşitdiyimiz Məhəmməd deyilən uşaqdan nə kimi möcüzələr və kəramətlər aşkar olarsa, mənə yazın.

Məkkəyə gedən casuslar Məhəmmədin doğulduğu gündən bəri olmuş hadisələri bircə-bircə ona yazmışdılar. Seyfin qəlbinə bir ilham gəlmişdi:

– Mən Gəmdan dağında olarkən, bəlkə, ziyarətimə o mübarək uşaq da gəldi. Onun mübarək və nurlu camalını görər, bir az da qulluq göstərərdik.

## *YƏMƏN MƏLİKİ İLƏ ƏBDÜLMÜTTƏLİBİN GÖRÜŞÜ*

Məkkəlilər də Yəmən məlikinin yaylağa çıxdığını duymuşdular. Hədiyyələr hazırladılar. Əbdülmüttəliblə on Məkkə ulusu yola çıxdılar. Nəhayət, uzun yol keçərək dağa çatdılar. İzin alaraq Seyfin hüzuruna gəldilər.

Məlik Seyfin əsgər və zabitləri onları qarşıladı. Onlar hədiyyələri məlikə verdilər. Seyf onlarla söhbətə başladı, dedi:

– Ey Hərəm seyyidləri, sizin başçınız kimdir? Hərəm başçılığı kimin əlindədir?

Məkkəlilər:

– Bizim seyyidimiz neçə illərdir ki, Əbdülmüttəlibdir, – dedilər, sonra Əbdülmüttəlibi göstərdilər.

Seyf işarət edilən tərəfə baxdı. Nur üzlü ixtiyar qarşısındaydı. Onu yaxına çağırtdırdı.

– Ey seyyidi Hərəm, sən məliklərlə danışa bilirsənmi? Onlarla bir süfrədə oturmusanmı, söhbət etmisənmi?

Yəmən məlikinin bundan məqsədi qabaqlar Əbdülmüttəlibin kimlərlə görüşdüyünü bilmək idi. Şeybənin sözləri xoş və gözəl ola bilirdi, çünki bir çoxları hökmdarları görəndə heybətdən ürəklərinə qorxu düşər, danışıq aparmaqda çətinlik çəkərdilər. Amma kimsə söhbət etmişsə, ürəyini sakit tutar, danışığı da yaxşı olardı.

Əbdülmüttəlib:

– Bəli, − dedi. SonraYəmən hökmdarını təriflədi, şirin sözlər dedi. Xoş söhbətlər etdi.

Seyf onun gerçəkdən ulu bir insan olduğunu anladı. Az sonra artıq ziyafət süfrəsində oturmuşdular. Ertəsi gün məkkəlilər Seyfin yanından getmək istədikdə, yəmənlilər onların bir azda qalmalarını və qonaq olmalarını təklif etdilər. Məkkəlilər bir aya yaxın burada qaldılar. Yəmənlilər bu müddətdə onlarla söhbət edir, müxtəlif cür nemətlərə, yemək-içməyə qonaq edirdilər. Bir vaxtdan sonra Əbdülmüttəliblə Seyf arasında söhbət oldu:

– Ey Seyyidül-Hərəm, sən kimin oğlusan?

Əbdülmüttəlib:

– Mən Haşimin oğluyam. O da Əbdümənafın oğlu idi.

– Sizə atalarınızdan bir nur miras qaldımı?

Əbdülmüttəlib:

– Bəli, – deyə cavab verdi.

Məlik ondan soruşdu:

– Deyirlər, o nur ən sonda elə insana keçəcəkdir ki, o ata-anadan yetim qalmış olacaq, onu babası böyüdəcək.

Əbdülmüttəlib:

– Bəli, şərəf məndəydi, – dedi, – mənim bir oğlum dünyaya gəldi, adını Abdullah qoydum. Onun bir uşağı olacaqdı, amma Abdullah onu görmədən vəfat etdi. Bir oğlan dünyaya gəldi, onun adını Məhəmməd qoyduq.

Məlik Seyf:

– Məhəmməd doğulduqdan sonra olan hadisələri mənə anladarsanmı?

Əbdülmüttəlib:

– Yaxşı. Şeybə Hz. Məhəmmədin doğulduğu gecədən Semi monastrındakı zəlzələyə qədər olan möcüzələri və Hz. Məhəmmədin əlamət və xüsusiyyətlərini ona danışdı. Bunları eşidən Züyəzən oğlu Seyf şükür səcdəsi etdi:

– Şükürlər olsun Uca Allaha, – dedi, – məni o səadətli uşağın zamanında yetişdirdi.

Sonra yenə Əbdülmüttəlibə:

– Ey Şeybə, bil ki, nəvən böyük nüfüz və şan-şərəfə sahibdir. Mərtəbəsi ucadır. O bir gün gələcək insanları yeni dinə dəvət edən peyğəmbər olacaqdır. Ona göydən vəhylər enəcəkdir. Onun dəvəti ancaq sözlə deyil, qılıncla da olacaqdır. Dünyaya yeni bir din, yeni bir şəriət gətirəcəkdir. Qalan dinlər ortadan qalxacaqdır. Onun dini şərqdən qərbə kimi hər yeri tutacaqdır. Ey Əbdülmüttəlib, unutma ki, sən mənim ata tərəfdən qohumumsan, həm də yaxınlarımdansan. Mən də sənin o səadətli, mübarək nəvəni görüb üzünə baxmaq istərdim. Amma onu bura dəvət etmək onun böyüklüyünə hörmətsizlik, əskiklik olar. O böyük insanı hüzuruma gətirmək ədəbdən olmaz. Ona mənim salamımı söylə. Bilsin ki, mən onu bilənlərdən və sevənlərdənəm.

Əbdülmüttəlib təşəkkür etdi. Getmək istəyini bildirdi. Hökmdarın icazəsini istədi. Seyf ona bir çox hədiyyələr verdi. Hətta Kəbə örtüyünü də o il verdiyini deyirlər. Məkkə uluları gözəl əhvali-ruhiyyə ilə vətənlərinə döndülər. O il Seyf qətl edilərək öldürüldü. İran hökmdarı əsgər göndərərək Yəməni zəbt etdi.

## *Hz. MƏHƏMMƏDİN VERDİYİ HÖKMLƏR*

Yəməndən döndükdən sonra Əbdülmüttəlib Hərəmdə hakim yerinə oturub davalılar haqqında hökmünü verməyə başlamışdı. Artıq Hz. Məhəmməddə oturur, Şeybənin oğulları belə örtükdən kənarda durur, əmrləri dinləyirdilər. Məhəmməd də babasının verdiyi hökmləri dinləyirdi.

Bəzən Əbdülmüttəlib elə vəziyyətdə qalırdı ki, hökm çıxara bilmirdi. O zaman Hz. Məhəmməd:

– Baba, bu hökm belə ola bilər, – deyə fikrini açıqlayırdı.

Əbdülmüttəlib çox çətin həll edilə bilən məsələlər olduqda:

– Ya Həbibi, bu davada sən nə düşünürsən, nə buyurursan? Necə edim? – soruşurdu.

Belə deməkdən, məsləhətləşməkdən çəkinməzdi. Çünki Hz. Məhəmmədin ən doğrusunu söyləcəyinə əmin idi. Hər söylədiyini dəyişdirmədən hökmünü verərdi.

Məhəmmədin yaşı kiçik də olsa, onun ağlı və ruhu böyük idi. Qureyş ulu və hörmətliləri Hz. Məhəmmədin hər zaman nə desə haqq dediyini və ən doğru hökmü verdiyini gördükcə onun buyruqlarına itaət etməyə başladılar. Məkkə şəhərində böyükdən kiçiyə kimi hamı Məhəmmədi sevirdi. Nə zaman mühüm işləri olurdusa, gəlirdilər, Məhəmmədlə danışırdılar. Hətta hər kim yola çıxırsa, Hz. Məhəmmədin mübarək üzünü görub sonra gedirdilər. İki insan bir-biri ilə küsmüş olsa, onları barışdırırdı. Kim yoxsul olsa, onunla danışsa, vəziyyətini düzəldərdi. Xəstələnənlər onun yanına gəlib mübarək üzünü gördükdən sonra sağalırdılar.

Bütün bunlar Qureyş xalqı arasında beləcə də qəbul olunmuşdu. Hamı onu tərifləyirdi.

## *MƏHƏMMƏDİN BİR HÖKMÜ*

Sizə qəribə və əcaib bir möcüzə haqqında danışacağam.

Bir gün o Haqq Həbibi, o Rəsuli-mütləq həzrətləri Abdullah oğlu Məhəmməd babası Əbdülmüttəlib ilə birlikdə Hərəm için-dəydi. Əbdülmüttəlib həmişəki kimi döşənib hazırlanmış yerində əyləşdi və Məhəmmədi də yanında oturtdu. Yenə hökmlər verirdi. Birdən-birə bayırda bir gurultu qopdu. Fəryadlar qalxdı, bağırışma səsləri gəldi.

Nə idi bu bağırışmalar və fəryadlar?

Onlar bayıra baxanda qana bulaşmış bir bölük köçəri xalq gördülər. Əbdülmüttəlib: “Dava edib gəlmişlər bunlar”, – deyə düşündü...

Şeybə icazə verdi, içəri girdilər. Məkkəlilər fəryad səslərinə gəlmişdilər,

böyük izdiham yaranmışdı. Əbdülmüttəlib onların hələ də dartışmalarını görüncə:

– Davanız nədir? Susun və dərdinizi bizə anladın, – deyə onları sakitliyə dəvət etdi.

Az sonra fəryadlar və səslər azalmışdı. Savaşanlar kənara çəkildikdə Əbdülmüttəlib qara, uzunboylu bir kişinin paltarı, əli al qana boyanmış halda bir qadının yaxasından tutduğunu gördü. Qadın çox gözəldi. Qadın başdan-başa qan içində idi. Amma qara kişi qadının yaxasından möhkəm yapışıb buraxmırdı. Dartışdırırdı, dümsükləyirdi bu yazıq qadını.

Əbdülmüttəlib:

– Yanıma yaxınlaşın.

Davakar kişi və qadın Şeybəyə doğru gəldilər.

Hərəm seyyidi:

– Nə istəyirsiniz? Nə baş verib? Mənə hamısını söyləyin! – dedi, – qadının yaxasını burax və sözünü söylə!

Qara uzunboylu kişi qanlı əlini gözəl xanımın qana boyanmış yaxasından buraxdı. Gələn camaat da iki yerə bölündü, bir qismi qadının tərəfində, o biri hissəsi kişinin tərəfində dayandı.

Bu halı görən Əbdülmüttəlib:

– Əvvəlcə şikayətçi olan başlasın.

Qara adam tərəfdarlarının arasından bir addım irəli gəldi:

– Ey Seyüdül-Hərəm, sikayətçi mənəm. Gördüyünüz bu qadın mənim halalımdır, xanımımdır. Mənim bu qadından iki oğlum dünyaya gəlib. Fəqət bir məzəmmət səbəbindən onun və mənim tərəfimdən bir çox insanlar öldü, öldürüldü. Hələ ki onun qövmü ilə mənim qövmüm bir-birini qırırlar. Artıq gördük ki, iş çox dərinləşib və heç kim də bu məsələni həll edə bilmir. Ona görə də sizin hüzurunuza üz tutduq, yanınıza gəldik.

Şikayətçi qara kişi bunları söyləyib susdu. Bu dava Əbdülmüttəlibi çox maraqlandırmışdı.

Nə üçün kişi və qadının qəbiləsi bir-birini qırırdı. Dava səbəbi nədir?

## *BİR SƏRGÜZƏŞT*

Qadının hekayəsini bilsək, bu davanı gözəlcə anlayarıq. Kimdir bu gələnlər? Hansı qəbilədəndir? Haradan gəliblər? Davalarının səbəbi nədir?

Şikayətçi qara kişinin adı Ənbəsə oğlu Xəlifə idi. Təyyoğulları qəbiləsinin əmiri idi. Ərəblər içərisində ər kişi və qəhrəman sayılırdı. Adı hər yerdə tanınırdı. Dörd yandan igid kişilər onun dostları idi. Misir, Şam, Yəmən və Ərəb yollarının mühafizəçisi və başçısı vəzifəsini daşıyırdı. Nə zaman bu

dörd diyardan karvanlar gəlsə, hamısı Ənbəsə oğlunun torpaqlarında mühafizə edilmiş hesab olunurdular.

Bunun zamanında quldur, yol kəsən qalmamışdı. Adam öldürənlər belə onun qorxusundan pis niyyətlərindən əl çəkirdilər.

Ənbəsə oğlu Xəlifə İraq yolunu qoruyurdu. Adamları isə dörd yolun hər birində karvanların hərəkətinə, haradan gəlib, haraya getməsinə nəzarət edirdilər.

Bir gün adamlarından biri geri dönərək bir ərəb karvanının İraq yolunda İraq məliki üçün getdiyini xəbər verdi.

Xəlifə qəzəbləndi:

– Bu nə karvandı? Hansı qəbilə bizə xəbər vermədən harasa keçib gedər?

Ona bir at gətirdilər. Mindi. Yanına otuz-qırx adam aldı. Hamı atlandı. Gələn karvana doğru atlarını qovdular.

Əvvəlcə iki kişi ayrılaraq karvanın yanına getdi. Dedilər:

– Ənbəsə oğlu Xəlifə bu yolların mühafizəsinin başçısıdır. Arxada durur, iki nəfər sizdən ayrılsın, onun yanına getsin.

Karvançılar bunu eşidəndə iki nəfəri ayırıb xəlifənin yanına göndərdilər. Xəlifə soruşdu:

– Siz məni tanıyırsınızmı, bilirsiz kiməm?

İki nəfərdən biri cavab verdi:

– Tanıyırıq, bilirik. Təyyoğulları qəbiləsindən Ənbəsə oğlu Xəlifəsən.

Xəlifə yenə soruşdu:

– Siz kimsiniz, hansı qəbilədənsiz?

Onlar cavab verdilər:

– Biz Acəloğulları qəbiləsindənik.

Xəlifə:

– Gedin, qövmünüzə xəbər verin ki, bizə mühafizə haqqını göndərsinlər. Yol hədiyyəsini versinlər.

İki nəfər:

– Baş üstə, göstərişinizi çatdırarıq, – deyib geri döndülər. Karvana çatıb:

– Xəlifə karvanımızdan mühafizə haqqı və yol hədiyyəsini istəyir, – xəbərini verdilər.

Karvanda bir ərəb qızı vardı. Adı Zeydil Əcli qızı Hüdanə idi. Daima kişi paltarı geyər, eləcə də gəzərdi. İgid və silahı yaxşı öyrənmişdi. Dəmir zireh geyər, qılıncı daima yanında idi. Onun qarşısına çıxa biləcək qız olmazdı. Hüdanə hara getsə, tək gedərdi. Oğlan kimi bir qızdı. Doğrusu, kişi kimi qəhrəman bir qızdı.

İki xəbərçi yanına gəlib Xəlifənin sözlərini ona deyəndə qız hiddətləndi:

– O adam nə deyir? Nə deyir? Mühafizə haqqı, hədiyyəmi deyir? Silahlarımı mənə gətirin.

Bu əmri verib tez zirehlərini geydi, silaha qurşandı. Əlinə nizəsını aldı, Xəlifənin olduğu yerə gəldi. Qışqırdı:

– Ey əmir, bu karvandan nə istəyirsən?

Xəlifə:

– Yol bacını istəyirəm.

Hüdanə:

– Yol bacınımı istəyirsən? Biz kimsəyə belə bir şey vermirik.

Xəlifə bu sözü eşidib gülümsədi:

– Ey gənc, belə sözü deməmiş ol. Yol gözətçilərinə mühafizə haqqı verməkdə bir nöqsan olmaz.

Hüdanə:

– Biz özümüz özümüzü mühafizə edirik. Bizim başqasının qorumasına heç ehtiyacımız yoxdur, – deyə sərt cavab verdi.

Bu cavab Xəlifəni özündən çıxardı. Adamlarından birinə döndü:

– Get, bu çox danışanı tut, mənə gətir!

Əmirin adamı atını sürdu, Hüdanənin yanına gəldi. Süngüsü ilə gənc döyüşçüyə həmlə etdi. Amma Hüdanə vuruşma qaydalarını yaxşı bildiyinə görə, onun həmləsi boşa çıxdı. Növbə ona gələndə nizəsi ilə onun sinəsindən elə vurdu ki, ucu arxasından çıxdı. Adam atdan yerə ölü düşdü. Ənbəsə oğlu bu vəziyyəti görəndə çaşdı, bağırdı:

– Ey gənc, sən kimsən? Adın nədir?

Hüdanə:

– Mən Acəloğulları qəbiləsindən Zeydəl Əcilin qızı Hüdanəyəm.

Əmir bu cavabı eşitdikdə çaşıb qaldı. Deməli, onun sevdiyi igidlərindən birini öldürən, zirehli geyimli qız imiş.

– Vay, qız, vay, – deyən əmir adamlarından başqa birisinə döndü:

– Get, onu tut, mütləq mənə gətir!

Əmirin adamı at üstündə gedərkən təkəbbürlə:

– Ərlərə qarşı qızlarmı savaş meydanına çıxırlar? Cəsur igidləri qadınlarmı öldürəcək? – deyə bağırdı.

O elə təzəcə Hüdanənin qarşısına çıxmışdı ki, həmlə etməyə macal tapmadan qızın qabağında yerə sərildi.

Xəlifə bu məğlubiyyəti görəndə əmisi oğlu Əmr oğlu Həddadı Hüdanəyə qarşı göndərməyi düşündü:

– Ey əmioğlu, get, bu qadını tut, gətir, – dedi.

Bu gənc də meydana çıxdı. Hüdanəyə həmlə etdi. Amma az sonra gənc qızın süngüsünün altında yerə sərilib can verdi. Gənc ölünun ən yaxın üç yoldaşı bu halı gördükdə üçü birdən Hüdanəyə hücum etdi. Lakin bu üçü də qısa vaxtda yerə sərilmişdilər. İndi altı igid yerdə yatırdı.

Artıq bir çarə qalmamışdı. Xəlifə özu savaş meydanına çıxıb bu qadının cəzasını verməli idi. Tez dəmir zirehini geydi. Atına mindi, Hüdanəyə qarşı sürdü. Canlar alan mizraqı ilə gənc qıza hücum etdi. Hüdanə bu həmlədən özünü qaçıra bildi. O, Xəlifəyə hücum etdi, amma əmir mahir döyüşçü olduğu üçün o da gənc qızın həmləsindən sovuşdu.

Günortaya qədər vuruşdular. Günorta olanda əmirin çox yaxın dostlarından olan Səid oğlu Əşas savaş meydanına gəldi. Xəlifənin bahadur bir qızla ölümünə qədər vuruşduğunu görüncə adamlarından soruşdu:

– Nədir bu hal?

Az sonra davanı anladı. İki düşmənin arasına girərək onları ayırdı. Hüdanəyə dönərək dedi:

– Ey Seyyidə, davanı burax. Yoluna dön, get. Heç kimin səninlə işi yoxdur.

Az sonra gənc seyyidə karvanı ilə İraqa yola düşdü. Qanlı savaş bu araçılıqla başa çatdı.

Əşas dostu əmirin yanına gəldi. Ona:

– Nə etdin, ya əmir, – dedi, – sən heç bilirsən ki, özünü necə təhlükəyə atmısan?

Xəlifə:

– Nə təhlükədir ki?

Əşas:

– Sən heç bilirsən ki, bu qız Acəloğullarındandır.

– Bilirəm.

– Bilirsən ki, o qəbilədə bu qızın atası kimi igid bir kişi yoxdur. Qız isə atasından qat-qat üstündür. Bunları bilsəydin, o altı kişini boş-boşuna bada verməzdin.

## *BİR EVLƏNMƏ İSTƏYİ*

Xəlifə bu sözləri eşitdikdə:

– Ya Əşas, bu qız evlidirmi? Kimsəyə qəlbi varmı? – deyə soruşdu.

Əşas güldü:

– Belə gözəl bir qızı kim istəməz? Əlbəttə, çox istəyənlər oldu, amma atası çox cehiz, mal istədi. Heç kimin də bu qədər mal imkanı olmadı.

Xəlifə çox fikirləşdi ki, Hüdanəni özu alsın:

– Mən hamıdan çox cehiz, hər kəsdən çox mal verəcəyəm. Təki bu qız mənim evimə gəlsin.

Əşas:

– Belə isə gedək, – deyərək onu Acəloğulları qəbiləsinə apardı. Onlar Hüdanənin atasının evinə getdilər.

Hüdanənin atası Əşası görən kimi tanıdı. Qədimdə dostluq edərdilər. Onlara böyük qonaqpərvərlik göstərdi,yeyib-içdilər. Bir arada:

– Yanındakı kimdir? – deyərək Xəlifəni soruşdu.

Əşas:

– Tayyoğulları qəbiləsinin əmiridir. Adı Ənbəsə oğlu Xəlifədir. Bahadur bir insandır. İraq, Şam, Yəmən və Ərəb yollarının qoruyucusudur.

Zeyd:

– Çox xoş oldu.

Artıq Xəlifənin nə istədiyini söyləmək vaxtı çatmışdı.

Əşas:

– Ya Zeyd, bu seyyidin bura gəlməsinin səbəbi budur ki, səninlə qohum olmaq istəyir. Qızın Seyyidə Hüdanəni almaq istəyir. Mən də səndən xahiş edirəm ki, nəbadə "yox" deyəsən. Bunu qəbul et. Məni qapından kədərli və naümid göndərmə.

Zeyd bu sözləri dinləyib soruşdu:

– Bu Xəlifə əsilli bir nəsildəndirmi? Malı çoxdurmu?

Əşas:

– Əlbəttə, əsilli bir ailədəndir. Malı da çoxdur. Özü çox zəngindir. Ər kişidir. Qəbiləsində heç kimin çəkmədiyi yayı o çəkər.

Hüdanənin atası cavab verdi:

– Qızımı istəyib ancaq ala bilməməyin səbəbi insanların mallarına qıymamasıdır. Əgər bu dəliqanlı mala qıyarsa, Hüdanəni ona verərəm.

Əşas:

– Təşəkkür edirəm, – dedi və soruşdu:

– Nə qədər cehiz və mal istəyirsən? Nə qədər pul istəyirsən? Arzunu söylə, baxaq.

Zeyd:

– Min dəvə istəyirəm.

– Qəbuldur.

– Bu qədər inək və bu qədər qoyun istəyirəm.

– Qəbul edirəm.

– Qoxulu müqəddəs su, müşk, ud (Hindistanda bitən yandırılanda ətirli ağac növü) və ənbər istəyirəm. Kafur və zəfəran istəyirəm.

Xəlifə bütün istəklərinə yox demədən: “Bunlar mənim qəbulumdur”, – dedi.

Zeyd bütün dediklərini aldı və nikah bağladı.

Gənc qız hələ İraq səfərindən karvanla geri dönməmişdi. Bir neçə gün sonra Hüdanə geri dönəndə Xəlifə ilə nigahda olması xəbərini aldı. Çox üzüldü, ağladı. Atasının yanına gələrək:

– Əziz atam, heç rəvamıdır ki, məni qapqara bir adama ərə verirsən? Mənim gül gözəlliyim ona qismət olmalıdir? Sən buna necə razı ola bilərsən? – dedi.

Atası:

– Qızım, heç qəlbini üzmə, o həm yaxşı insan, həm də nüfuzlu bir şəxsdir. Özü də dövlətlidir. Nə istədimsə, verdi. Min dəvə, inək və qoyunlar, müşk, ənbər, qoxulu sular, kafur, zəfəran, nə dedimsə, hamısını göndərdi. Zəngindir, adı bəlli, əsilli, həyalı bir insandır.

Hüdanə atasına deyəcək bir söz tapmadı. Böyük bir toy oldu. Ziyafətlər verildi. Ondan sonra Xəlifə Hüdanəni götürüb qəbiləsinə apardı. İki qanlı düşmən ailə qurdular.

## *QARA ATANIN SARI UŞAĞI OLURMU?*

Aradan bir müddət keçmişdi ki, Hüdanənin iki qəşəng oğlu oldu. Uşaqlar ataları kimi çox da qara deyildilər. Birinin adını Temr, o birinin isə Nemr quydular. Aradan bir müddət keçmiş Hüdanə yenə hamilə qaldı. Vaxt gələndə yenə bir oğlu dünyaya gəldi. Amma bu oğlan heç qardaşlarına oxşamırdı.

Bədəni ağappaq idi. Qu quşları kimi. Göylər kimi mavi gözləri vardı. Saçları qızılı rəngdə idi.

Belə bir uşağın doğulması Hüdanəyə sevinc və qınaqlar gətirdi. Camaat deyirdi ki:

– Ya Xəlifə bu oğlun heç sənə oxşamır, bədəni ağ, göz mavi, saçları isə sapsarı.

Xəlifə hərdən çaşırdı. Bu sözlə qəbilə adamları nə demək istəyirdilər? O, həmən evə qaçdı.

Hüdanə öz yatağında yatmışdı, qucağındakı uşaq doğrudan da nə ona, nə də qardaşlarına oxşayırdı. Birdən beyni qarışdı. Bu uşaq ondan ola bilməzdi.

– Bu uşaq kimdəndir? – deyərək qılıncını çıxardı, Hüdanəni öldürmək istədi. Amma araya girənlər, gənc qadının qılınc altında ölməsinin qarşısını

aldılar.

Hüdanənin adamları vəziyyəti belə görəndə onun atasına xəbər verdilər. Zeyd bunu eşidəndə qəbiləsin toplayıb Xəlifənin üzərinə gəldi. Qızı Hüdanənin qırxı çıxmışdı. Atasını qarşılamağa çıxdı.

Onunla görüşüb dedi:

– Bu oğlumuzun sarışın olması onun qəlbinə şübhə toxumu səpmişdir. Bu şübhə onun qəlbindən çıxmaz. Elə bilir ki, mən zina etmişəm. Bu səbəbdən məni öldürmək istəyirlər. İndi, atacan, sən söylə mən belə bir işi tutarammı? Məndən sən də şübhə edirsənmi? Bunların hamısı iftiradır. Mənə inan, ata.

Xəlifə adamlarını toplayaraq Zeydin yanına gəldilər. Zeyd:

– Ey Xəlifə, qızıma qarşı bu münasibət nədir? Məni başa sal. Vəziyyəti mənə anlat. Eşidirəm.

Qara əmir:

– Qızın xəta etdi, ey Zeyd. Çox yanlış bir iş gördü. Bu səbəbdən onu ya sən öldür, ya da mən öldürüm.

Zeyd:

– Sən gözünlə zinasını gördünmü? Əlinlə tutdunmu? Yoxsa kimdənsə eşitdinmi? Belə birisi varsa, gəlsin görək.

Xəlifə:

– Xeyr, nə gözümlə gördüm, nə də əlimlə tutdum. Heç kimdən də eşitmədim. Fəqət hiss edirəm ki, öncə doğulmuş iki uşaq mənə oxşayır, amma bu yeni doğulan mənə bənzəmir. Rəngi sarışın, gözləri göy. Mənə bənzər heç bir yeri yoxdur. Bu səbəbdən daxilimdə şübhə yarandı.

Zeyd bu sözləri eşidəndə:

– Ya Xəlifə, sən nə danışırsan? Bu sözlərin ağıllı bir kişi sözünə oxşamır. "Oğlan sarışın doğulmuş" – bu bir sözdürmü? Uşağın sarışın olması qadınına belə böyük şübhə etməyə əsasdırmı? Bu rəva deyil, – dedi.

İki tərəfin ululları, hörmətliləri qərar verdilər:

– Xəlifənin hərəm işçilərindən soruşaq, Hüdanənin namusunu bizə söyləsinlər.

Xəlifənin digər qarılarından çağırdılar:

– Hüdanənin şıltaqlığı varmı? Şərəfi, qeyrəti, namusu necədir?

Onlar:

– Onun namusuna, əxlaqına şahidlik edə bilərik, – deyə cavab verdilər.

Amma şübhə qurdları içini yeyən Xəlifə:

– Mənə ən böyük şahid bu doğulmuş uşaqdır. Mən başqa sözə qulaq asmaq istəmirəm, – deyib fikrini tamamladı.

İki tərəf də bir-birinə böhtanlar deməyə başladılar. Dil davası, əl davası-

na keçdi. Nəhayət, qılınclar çəkildi. İki tərəfin adamları vuruşmağa başladılar. Bir neçə saatdan sonra hər yer bir çox nahaq qanı tökülmüş insanların cəsədləri ilə dolu idi.

Nəyahət, gün görmüş, yaşlı bir kişi aralarından çıxdı:

– Ey savaşçılar, nə üçün bir-birinizi qırıb qurtarırsınız?

O dava edənləri bir təhər ayırdı. Sonra:

– Ey qövmüm, gördüyünüz bu işlər yaxşı iş deyil. Gəlin, sizə bir gözəl öyüd verim. Bu öyüdlə hərəkət edin, – deyərək sözünə davam etdi.

İki tərəf birdən soruşdular:

– Bizə nə öyüd verəcəksən de, qulaq asaq, anlayaq.

İxtiyar:

– Öyüdüm budur, həmən bir hökm verən kişinin yanına gedək. Hər iki tərəf onun hökmünə hörmətlə yanaşsın. Nə desə, o da olsun.

Hüdanənin atasının tərəfdarları ilə Xəlifənin adamları bu sözləri eşidəndə soruşdular:

– Kimdir o ulu kişi, o böyük hakim ki, onun yanına gedəcəyik?

İxtiyar:

– O Hərəm başçısı və ərəblərin ulusu Haşim oğlu Əbdülmüttəlibdir. Əgər narazılığınızı həll etmək istəyirsinizsə, onun hüzuruna gedin. Davanızı həll etsin.

Beləcə, Hüdanə və Xəlifənin adamları ağsaqqaların öyüdünə qulaq asıb ikiyə ayrılaraq Məkkəyə gəldilər. Hərəmdəki izdiham onların gəlməsindən yaranmışdı.

## *ƏBDÜLMÜTTƏLİB HÖKM VERİR*

Əbdülmüttəlib:

– Sizi dinləyirəm, – dedi.

Xəlifə danışmağa başladı:

– Ey ulu Hərəm seyyidi, bu qadın mənim halal xanımımdır. Onunla xeyli vaxtdır ki, evlənmişəm. İlk ildə mənə ekiz iki oğlan dünyaya gətirdi. Bunlar mənə oxşayır, rəngləri də mənim kimi qaradır. Sonra da bir oğlan oldu. Amma bu uşağın bədəni ağ, gözləri göy, saçları da sarışındır. Mənə heç oxşamır. Daxilimdə şübhəm var. Bu səbəbdən onun qəbiləsi ilə mənim qəbiləm arasında qanlı dava düşdü.Hər iki tərəfdən çox ölənlər və yaralananlar var. Bu davamızı həll etmək üçün yanınıza gəldik. Sizin hökmünüzlə razıyıq. İki qara oğlan mənimdir, ağ uşaq isə məndən deyildir. Bu fikrimin üstündə dururam.

Bunları eşitdikdən sonra Şeybə: “O oğlanları mənə gətirin”, – deyə bu-

yurdu.

Az sonra iki qaraca oğlan və bir kiçik sarı saçlı uşağı Əbdülmüttəliblə Məhəmmədin hüzuruna gətirdilər. Gerçəkdən ilk ikisi atasına oxşayırdı, amma sarışın heç atasına bənzəmirdi.

Dava iştirakçılarını dinləyən qureyşlilər bu oğlanın Xəlifənin olmadığını fikirləşdilər. Şeybə də bu halda çaşıb qaldı. Könlündə böyük narahatlıq yarandı. Öz-özünə düşündü:

– Əgər bu sarışın oğlan sənindir desə, əlində heç bir sübut yoxdur. Hökm edə bilməzdi. Yox, əgər bu sarışın oğlan səndən deyildir desə, o da başqa haqsızlıq yarada bilər.

Şeybə üzünü Hz. Məhəmmədə cevirdi:

– Ey Həbibi, mən bu işdə acizəm. Çaşıb qaldım. Ağlım ilk dəfədir ki, qərar verə bilmir. Ey müşkül işlərin düzgün qərar verəni, özün bizə kömək ol.

Əbdülmüttəlib nəvəsi Məhəmməddən bunu soruşanda Hz. Rəsulullah:

– Baba, sən bir tərəfin sözlərini dinlədin, o biri tərəfdən heç kimi belə soruşmadın. Sən bir qadını da danışdır, onun xalqını da dinlə, bəlkə birisi bu davanı çözməyə yarayan bir söz dedi. Bəlkə, hökm çıxarmağı asanlaşdıran bir şey ortaya çıxdı.

Bu sözlər Əbdülmüttəlibi, elə bil ki, yuxudan oyatdı. Daxilində bir yüngüllük yarandı. Həmən:

– Hüdanə ilə atası yaxınlaşsın, – dedi.

Gənc ana ilə atası irəli gəldilər. Şeybə:

– Ey Zeyd, gəl bu müşkül işə bir çarə qıl.

Zeyd:

– Ey Hərəm seyyidi, aləmin alimi və axiri sənsən. Mən çöldə və səhrada böyümüş bir insanam, mən nə bilərəm ki, sənə xəbər verim.

Şeybə o zaman buyurdu:

– İki qəbilənin camaatı birlikdə mənə doğru gəlsin.

Hər iki tərəf irəlilədi:

– Hüdanə xatunu necə tanıyırsınız?

Gənc qadını tanıyanlar:

– Yaxşı tanıyırıq. Doğru olmağına, yaxşılığına şahidlik edirik, dedilər.

Şeybə:

– Yaxşı, siz gediniz. Hüdanənin atasına döndü:

– Ya Zeyd, bilirsənmi Hüdanənin dostda, yadda, qohumlarda bir qərəzi olan varmı?

Zeyd:

– Mənim elmim ona çatmamışdır. Mən qızımda heç vaxt yüngüllük

görməmişəm və esitməmişəm.

Şeybə:

– Bu gecə qızını götür. Bir yerdə qalın. Onu sıxışdır, danışdır. Bəlkə, bir söz etiraf etdi.

Sonra Xəlifəyə döndü:

– Sən də get, bu gecəni yaxınlarınla dincəl. Sabah səhər hazır ol, bəlkə işin nə olduğu meydana çıxar, hər şey aydın olar.

Hamı aralandı. Şeybənin əmri ilə hər iki qəbilə xalqına süfrələr açıldı, yemək-içmək verildi. Əbdülmüttəlib də Hərəmdən çıxdı, Məhəmmədin əlindən tutub evlərinə yollandı.

Zeyd də qızı Hüdanə ilə baş-başa qala biləcəkləri bir yerə getdilər. Ata qızına dedi:

– Qızım, sənə qarşı sürülən bu günaha aid mənə deyiləcək bir etirafın varmı?

Hüdanə:

– Ata, mən ərə getməmişdən əvvəl mərdlik göstərirdim, dəliqanlılığa qurşanmışdım. İgidlik, qəhrəmanlıq davasında idim. Mənim bir kişi ilə yatmaq ağlıma belə gəlməmişdi. Mən evdə olmadığım vaxt sən razılaşdın, əmr etdin, hökm etdin. Məni ona sən verdin. O gündən mən onun hökmündəyəm. Belə bir rəzil işi mən, sənin igid qızın edə bilərdimi?

Atası qızının sözünə inanmışdı. Onun başını sığalladı:

– Qızım Hüdanə, bir yanlış qərar da verilə bilər. Sən qalx, Hərəm seyyidinin yanındakı ay üzlü uşağın ayağına düş. Ona yalvar, əgər bir çarə taparsa, ancaq o tapa bilər.

O gecə keçdi, ertəsi səhər açıldı. Yenə bütün xalq Əbdülmüttəlibin nə hökm verəcəyi marağında idi. Alaqaranlıqdan insanlar Hərəmin içinə dolmuşdu.

Hamısından öncə şikayətçi xəlifə gəlmişdi. Əbdülmüttəlibi gözləyirdilər. Vaxt çatanda Haşimoğulları, Əbdümənafoğulları, Muduroğulları, Qusayoğulları, Leviyoğulları, Qureyşin bir çox hörmətliləri və başqa seyyidlər Əbdülmüttəlib və oğulları birlikdə gəldilər. Arxalarında başda Məhəmməd olmaqla qırx dostu da Hərəmə girdi. Bir arada oturdular.

Əbdülmüttəlib:

– Hüdanənin atasını çağır! – dedi.

Gənc qadın atası ilə irəli gəldi.

Əbdülmüttəlib:

– Ey Zeyd, sənə verdiyim tapşırıqdan nə xəbər var?

Zeyd:

– Ey Seyyidi Hərəm, çox danışdıq, dərdləşdik, amma bir şey etiraf et-

mədi. Həm də nə etmişdir ki, etiraf etsin. Bizim nəslimizdə heç vaxt əxlaqsız olmaz.

Sonra Xəlifəni çağırdılar:

– Son sözün nədir? – deyə soruşdular.

Xəlifə:

– Bu iş etiraf ediləcək işlərdən deyildir. Heç bir şey qalmamış, hesab edirəm hər şey aydındır, məlumdur. Artıq hökm zamanıdır. Ədalət və insaf vaxtıdır. Nə hökm vermək lazımdırsa, lütfən onu verin.

Şeybə Qureyş ulularına baxdı:

– Ey Hərəm seyyidləri, siz nə düşünürsüz nə çarə deyirsiz? Bu müşkül işi necə həll edək?

Qureyş seyyidləri:

– Ey Hərəm Seyyidi, hər işi sən bizdən yaxşı bilirsən. Amma zənnimizə qalsa, bu uşaq Xəlifədən deyildir, başqa kişidən qazanılıb.

Şeybə:

– Əgər belədirsə, bu qadına zülm edilsin, daşqalaq olunsun! Qadını tutun, daşa basın! – buyruğunu verdi.

## *GÜNAHSIZ QADININ FƏRYADI*

Şeybənin adamları dərhal qadını tutdular. Daşlama yerinə götürmək istədilər. Hüdanə ürəkləri dələn səslə fəryad qopardı, nalə etdi. Ürəkdən qopan acı fəğanı hamını mütəəssir etdi. Bu yanıqlı səsə dözməyən yaxınları və ailəsi ağlamağa başladılar. Ah-naləsi Hərəmin içindən şəhərin kənarına qədər gedirdi. O günü Məkkə şəhəri sanki bir məşhər vəziyyətində idi. İndiyə kimi bir kimsə Məkkəni bu halda görməmişdi. Bu vaxt kişi paltarında keçmiş günləri xatırlayan Hüdanə eyni igidliklə onu tutan qollardan siyrilib çıxdı. Hz. Məhəmməd tərəfə qaçdı. Qaçarkən yenə bağırırdı:

– Buraxın məni, tutmayın məni. O ay üzlü oğlun yanına gedirəm. Halımı ona bildirəm.

Həmən Əbu Talib ilə Abbas ayağa qalxdılar. Hüdanəni tutmağa çalışanların əlindən onu qurtardılar. Hüdanə gəlib Məhəmmədin ayağına düşdü.

– Ey qəmərlərin qəməri, nurların nuru, aydan aydın, düşmüşlərin əlindən tutan, əyriliklə doğruluğu bilən. Mən sənin ayağına düşdüm. Ayağının tozunu öpürəm. İmdadıma yetiş. Sən əyrinin, doğrunun bilicisisən.

Hüdanə üzünü və yanağını Məhəmmədin ayağının tozuna sürtə-sürtə imdad diləyirdi:

– Ey dərman axtaranların imdadına çatan, o dərman axtaranlardan biri

də mənəm. Mən çox çarəsiz qaldım. Əgər əlimdən tutmazsan, zülmlə öləcəm. Ölümlə qarşılaşmaqdan qorxmuram, qəmlənmirəm. Amma qalan oğullarımdan ayrılmaq içimi parçalayır. Layiq olmadığım "əxlaqsız" damğası ilə ölmək mənim üçün çətindir. Ey Məhəmməd, ayların ayı, nurların nuru, mənim dərdim budur,– deyirdi.

Beləcə, Hüdanə Məhəmmədin hüzurunda ağlayıb sızlayırdı. Öz qəbiləsinin adamları da bu ürək yandırıcı sözlərə ağlaşırdı.

Bu sözləri duyan Şeybə başını çevirərək nəvəsi Məhəmmədə baxdı. Axı o nə deyəcəkdi, nə hökm verəcəkdi?

– Ey Həbibi, gözümün nuru. Heç sənin qatında bu müşkül işə çarə varmı?

Məhəmməd də babasına baxdı:

– Bəli, baba, vardır. Amma bu qədər camaatın arasında söyləmək olmaz. Gizli danışmaq lazımdır.

Şeybə Xəlifəyə döndü:

– Ey Xəlifə, sən bir az yaxınlaş.

Xəlifə Hz. Məhəmmədin yanına gəldi və önündə diz çökdü, oturdu.

## *Hz. MƏHƏMMƏDİN VERDİYİ HÖKM*

Hz. Məhəmməd:

– Ey Ənbisə oğlu, o doğulmuş uşaq sənin oğlundur. Heç şübhən olmasın.

Xəlifə bu cavab qarşısında çaşdı:

– Ey Məhəmməd, sən bu uşağın mənim oğlum olduğuna necə hökm çıxardın? Bunu hansı dəlilə əsasən deyirsən? Mənə dəlil göstər, mən də inanım. Həm də könlümdən şübhələr, küsməklər getsin...

Hz. Məhəmməd:

– Ey Xəlifə, sən bu vaxt, bu ayda və bu gündə filan iş üçün bir ay öncə səfərə çıxmışdın. Bu qədər gün qalıb yenə evinə döndün. Qürbətdə olduğun vaxt çox əziyyətlər çəkmişdin. Gəldiyin gecə həsrət çəkdiyindən xanımın Hüdanə ilə yaxınlıq istədin. Hüdanə xanım üzrxahlıq etdi. Sən isə çox böyük həvəslə, öz arzunu yerinə yetirmək istədin. "Mənə yaxınlıq etmək olmaz" təmkinlə sənə desə də... O sənə "Mənimlə yaxın olmaq vaxtı deyil", – dedi. Amma sən onun sözünü dinləmədin. Onu özünə ram etdin. Sənin cövhərinlə aybaşı qanı qarışıb, ana bətninə düşdü. Ona görə də qana toxumun qarışmasından belə sarışın oğlunuz oldu. Xanımın heç bir günahı yoxdur.

Xəlifə bu sözləri duyunca hər şeyi xatırladı. Hüdanəni günahkar say-

maqdan çox peşman oldu. Həmən Məhəmmədin ayağına düşdü:

– Ey Məhəmməd, sən mənimlə xanımımın arasında olanları haradan bildin?

## *BU SİRRİ MƏNƏ YARADAN BİLDİRDİ*

Hz. Məhəmməd:

– Onu mənə Allah bildirdi.

İnciklik içində olan Xəlifə qalxdı, xanımı Hüdanənin əlindən tutdu:

– Məni bağışla, Hüdanə, – deyərək üzr istədi, ey sevgili halalım, həyat yoldaşım. Sənə çox əziyyətlər verdim, incitdim. Bunları mənə halal et. Bu kiçicik oğlanın mənim öz oğlum olduğu haqda heç şübhəm yoxdur. Sənə küsüm qalmadı. İçimdə olan şər, yalan yox oldu.

Hüdanə bu sözləri dərin sevinclə qarşıladı:

– Ey Xəlifə, Məhəmmədin sənə dediklərini öz camaatına, bura gələnlərə bildir. Qoy onlarda da artıq şübhələr qalmasın.Vəziyyətimizi bilsinlərlər, yaxşılıqla hər şey aşkar olsun.

Xəlifə yüksək bir yerə çıxdı:

– Ey mənimlə səfərdə olanlar. Bilin ki, Məhəmməd mənim halımdan xəbər verdi.

Xəlifə Hz. Məhəmmədin söylədiklərini camaata danışdı. Bu hadisəni o vaxt gizlicə söhbətdə ondan eşidən Hüdanənin qadın qonşuları Məhəmmədin dediklərini eşidincə:

– Ya Məhəmməd, nə dedinsə, doğru söylədin, – dedilər.

Xəlifə:

– Ay mənim qohumlarım, nəslimin ağsaqqalları, əgər Məhəmməd ”qadının üzrlü olduğu zaman əri ona yaxınlıq etsə, uşaq sarı ola bilər” – desəydi və bu ancaq söz olsaydı, onda şubhəmiz aradan tam qalxmazdı. Amma mənim xanımımla aramızda olan halı dəqiqliyi ilə Yaradan Məhəmmədə bildirdi. O da gerçəyi söylədi.

Az sonra əl-ələ tutan Hüdanə və Xəlifə Məhəmmədin əlindən öpdülər. Özlərinə gələn hər iki qəbilə bu vəziyyəti görüncə Məhəmmədə duaçı oldular.

– Ya Məhəmməd, əgər sənin hökmün imdadımıza yetişməsəydi, o iki qəbilədən kimsə diri qalmazdı. Sonuncu adama kimi bir-birini qılıncdan keçirəcəkdilər. Bizim qurtuluşumuzun səbəbi sən oldun.

Məkkəlilər və Qureyş uluları Məhəmmədin bu hökmünə məəttəl qaldılar: “Var ol, ya Həbibi”, – deyərək dua etdilər.

Sonra Şeybə ayağa qalxdı və bu qədər xalqın arasında saqqalını nəvəsi-

nin ayağına sürtdü. Sürtməkdə haqqı vardı...

Çünki bütün göndərilmiş peyğəmbərlərin əvvəli və axırı olacaqdı.

Hz. Məhəmmədin hökmündən sonra Tayyoğulları qəbiləsinin ululları, Acəloğulları nəslinin hörmətliləri və igidləri hərəsi öz yerlərinə qayıtdı. Kiçik Məhəmmədin bu hökmü dillərdə dastan oldu.

## *ƏBDÜLMÜTTƏLİBİN VƏFATI*

Bir gün Əbdülmüttəlibin də vaxt yetişdı. Ömrünün axırı çatdı. Əbdülmüttəlib də fani insanların aqibəti ilə üz-üzə gəldi. Başını ölüm yastığına qoydu. Hz. Məhəmmədin sevimli babası bərk xəstələnmişdi. Bir neçə gündən sonra xəstəlik daha da şiddətləndi. Hərarəti artdı. Şeybənin üzündə ölüm nişanələri görünürdü. Şeybə evdəkilərə buyurdu:

– Bilirəm, vaxtım tamam oldu. Başqa dünyaya köçmək vaxtı gəlib çatdı. Bütün Haşim oğullarını yanıma çağırın.

Haşim oğulları evə gəldilər. Ayrıca Qureyş hörmətliləri də gəldilər və ölüm döşəyində olan Əbdülmüttəlibin yanında oturdular. Şeybə bir az özünü toplayaraq dikəldi:

– Ey Qureyş, Qusay, Əbdümənaf, Haşimoğulları, bilin ki, mənim vaxtım yetişdi. Bu dünyadan ayrılmaq üzrəyəm. Amma bilmirəm ki, kimə vəsiyyət edim.

Bütün qureyşlilər soruşdu:

– Nə vəsiyyətin var, ey Seyyidi Hərəm? De, bizdə eşidək.

Şeybə:

– Mənim vəsiyyətim nəvəm Məhəmməd haqqındadır. İstəyirəm onu birinə tapşıram. Amma hansınıza əmanət edəcəyimi bilmirəm.

Şeybənin ən böyük oğlu Haris:

– Ata, mənə tapşır. Məhəmmədi yaxşı saxlayaram. Ona zamin olaram.

Əbdülmüttəlib:

– Xeyr, ya Haris, artıq sən də yaşa dolmusan. Eyni zamanda günlərin səhrada, çöllərdə, yabanda keçir. Ov edirsən, ertəsi gün yenə ova çıxırsan. Qardaşın Həmzəni də belə yetişdirdin, bunları öyrətdin. O da hər gün ov arxasınca qaçır.

Bu sözdən sonra əmisi Abbas ayağa qalxdı. Atasına:

– Ata, Məhəmmədi mənə tapşır. Mən ona nə lazımdırsa, edərəm. Qulluğunda duraram.

## Hz. MƏHƏMMƏDİN ƏLİ BƏRƏKƏTLİDİR

Şeybə:

– Xeyr, ya Abbas, sən də, qardaşların Zübeyr də, Müqəvvim də, Həcələ (Ğaydak-mərdlik və xeyrxahlığına görə verilmiş ləğəbi) da hər dördünüz tacirsiniz. Bir ay evdə, bir neçə ay uzaq səfərlərdə olursunuz. Sizin əlinizdən Məhəmmədə baxmaq, göz-qulaq olmaq işi gəlməyəcək. Sanıram ki, bu işi edə biləcək kişi həm öz işini yoluna qoymuş olsun, həm də daima uşağa göz-qulaq ola bilsin.

Bu sözdən sonra Əbu Talib ayağa qalxdı:

– Ata, Məhəmmədi mənə ver. Mən ona zamin olaram, xidmətini də mən edərəm. Onun yoluna canım, başım qurban olsun.

Əbdülmüttəlib bu sözləri eşitcək sevindi. Xəstə dodaqları xəfif gülümsədi. Dedi:

– Ya Əbu Talib, ey oğul, bu iş sənin əlindən gələcək bir işdir. Çünki sən Abdullahla ana-ata bir qardaşsan. Həm də Məhəmmədi çox sevirsən. Ona sevgin var, ürəyin yanır. Həm də qəlbimdən gələn səs də deyir ki, Məhəmmədi Əbu Talibə ver!

Əbdülmüttəlib sonra Qureyş ulularına döndü:

– Məhəmmədi oğlum Əbu Talibə verirəm. Sevimli nəvəm, həbibim Məhəmmədin işləri bitdi. İndi başçılıq işi qaldı. Onu kimə tapşırmağı məsləhət görürsünüz? Kimi yerıimə qoyum?

Qureyş uluları:

– Sən kimi istəsən, biz onu başımızın tacı edərik. Onu başçı edib üstümüzdə ulu sayarıq. Canla, min könüllə onu sevərik və ona itaət edərik.

Əbdülmüttəlib:

– Əgər doğru hesab edirsinizsə, oğlum Əbdümənaf, yəni Əbu Talib yerimə keçsin. Mən də ona beyət edirəm, – dedi.

Bütün məkkəlilər bu qərarı bəyəndilər. Hamısı:

– Bu qərarla razıyıq, – dedilər.

Şeybə o zaman:

– Ey Əbu Talib, qardaşın oğlu Məhəmmədi əmanət olaraq sənə tapşırıram. Onun xidmətində sən dur. Sən böyüt, yetişdir.

Əbu Talib:

– Baş üstə ata, – deyərək bu sözləri qəbul etdiyini söylədi. Oradakılar hamısı ona beyət etdilər.

Əbdülmüttəlib yenə sözünə davam etdi:

– Ey oğul, hər nə müşkül, çətin işin olarsa, sən Məhəmmədlə danış, məsləhətləş, dediklərinə zidd iş görmə. Onun söhbətini daima qənimət bil.

Evindəkilərə də tapşır ona gecə-gündüz xidmət etsinlər. Nə yerdə olursa olsun baş yer onun olsun. Ondan yuxarı heç kim oturmasın. Ondan qabaq yeməyə heç kim əl uzatmasın. Ona qarşı kimsə söz deməsin. Çünki mən onu sınadım. Gördüm ki, Məhəmmədin ayağı mübarəkdir, əli yüngüldür. Hər az yeməyə əlini uzatsa, o yemək bərəkətli olur. Hər zəifə əlini uzadarsa, o qüvvətlənər. O böyüyəcək, sonrakı möcüzələri daha siz görəcəksiniz.

## *MƏHƏMMƏDİ SEV, SƏNİ ALLAH DA SEVƏR*

Ey Qureyşoğulları, ey Əbdülmüttəliboğulları, bundan sonra bəxtli adam, Məhəmmədin göstərdiyi yolla gedən və onun sözünü tutan adam olacaqdır.

Şeybə Məhəmmədin əlini əlinə almışdı:

– Ey Əbu Talib, bu mübarək əli tut. Bundan sonra Məhəmmədi sənə tapşırıram. Bundan sonra bu qulluq sənin olsun. Ayağa qalx, Məhəmmədi evinə götür. Xanımın Fatiməya onu tapşır. Sənə mənim vəsiyyət etdiyim sözləri də söylə.

Əbu Talib durdu. Hz. Məhəmmədin əlini babasının əlindən aldı. Evinə doğru yollandı. Məhəmməd hansı küçədən keçirdisə, onun gözəl qoxusu evlərə yayılırdı. Bu qoxunu duyan məhəllədə yaşayanlar: “Məhəmməd keçir, Məhəmməd keçir” – deyə bir-birilərinə bildirirdilər.

Əbu Talibin xanımı da Məhəmmədin qoxusunu almışdı. Qapıya tərəf qaçdı. Əbu Talibin Məhəmmədin əlindən tutub qapıdan içəri girdiyini gördü. Fatimə dedi:

– Ya Həbibi, bu gün nə qədər xöşbəxt gündür. Nə səadətli bir saatdır ki, sən evimizin qapısından içəri girmisən. Mənə mübarək üzünü göstərdin.

Əbu Talib:

– Ya Fatimə, sənə müjdələr olsun ki, atam Əbdülmüttəlib Məhəmmədin əlini aldı, mənə “tut” dedi. Özü də sənə tapşırıqlar verdi. Mən əlindən tutub evə gətirdim, artıq o bizimdir.

Fatimə bu sozləri eşidib çox şad oldu:

– Ey Əbu Talib, qaranlıq evimiz onunla aydın oldu. Bu şəkər canımı qurban edim, ya üzümü torpağa sürtüm? Bu şükrü necə yerinə yetirim? Onun yeri dünya və cənnətdir. Səadət də, izzət də onun məkanıdır.

Fatimə xatun o gündən başlayaraq Rəsulullahı əsl ana kimi bəslədi, daima gözlədi, xidmətində durdu. Yaddan, gözdən qorudu.

Məhəmmədin Əbu Talibin evinə gəldiyi günün səhəri Haşim oğlu Əbdülmüttəlib yüz yaşını keçərək gözlərini bu dünyaya yumdu. Ömrunü ta-

mamladı. Əbdülmüttəlib dəfn edildi, yeddi gün yas və matəm tutuldu. İbn İshaqın yazdığına istinad edərək deyə bilərik ki, Əbdülmüttəlib vəfat edəndə Məhəmmədin səkkiz yaşı təzəcə bitmişdi. Bu təxminən 578-ci ilin sonuna təsadüf edir. Bundan sonra Qureyş ululları Hərəmə gəldilər, Əbu Talibi başçı kimi tanıyıb ona beyət etdilər. Əbdülmüttəlibin Kəbə xidmətlərinin hamısını ona həvalə etdilər.

O gündən Əbu Talib hər səhər Hz. Məhəmmədin əlindən tutar, o hökmü yerinə gətirərdi. Hər hökm və hadisədə Hz. Məhəmmədin fikrini alar, qərarlar verərdi. O da Şeybə kimi Məhəmmədin dediklərinə müxalif olmazdı.Günlər beləcə keçirdi.

Məhəmmədin də hər il   yaşı artırırdı. O böyüyür, böyüdükcə hörməti Qureyş içində daha da artırdı. Artıq gənclik çağına çatmışdı. Onun sözlərində yalan eşidən olmamışdı və Rəsulullaha "Məhəmmədül-Əminül-Sadiq" adını vermişdilər.

## *Hz. MƏHƏMMƏD İLƏ ƏBU CƏHL*

Əbu Cəhlin Bətha dərəsinə çıxaraq oyun oynaması, güləşməsi hər gün davam edirdi. Əslində ərəblər arasında bu məşhur adət idi. Nə vaxt oğlan uşaqları böyüyürdü güləşərdilər. Qumların üstündə bir-biri ilə dartışardılar. Bətha da onların oyun və güləş meydanı idi. Əbu Cəhl 360 tərəfdarı ilə buranın daimi qonaqlarıydı. Məhəmmədin 40 tərəfdarı isə onunla birlikdə olurdular. Rəsulullah hara getsə, onlar da orada olurdular.

Hişam oğlu Əbül Hakəmin, yəni Əbu Cəhlin yoldaşları arasında sonralar da Hz. Məhəmmədin ən böyük düşmənləri olmuş yeniyetmələr böyüməkdə idi. Əbu Müəyyəd oğlu Üqbə, Rəbiə oğlu Ütbə, Rəbiə oğlu Şeybə, Əbdül Üzzə oğlu Əvsəd, Hərb oğlu Əbu Süfyan, Əmr oğlu Süheyl, Cədan oğlu Abdullah, Əbu İhab oğlu Silət.

Bu uşaqlar Əbu Cəhllə dost olmağı özləri üçün şərəf hesab etdiklərini deyirdilər. Amma Haşimoğulları ilə Əbdülmüttəliboğullarının uşaqları da Məhəmmədi daima görmək istəyirdilər. Əmirlik, sücaət, vuruşmaq bacarığı Haşim nəslinin, yəni Məhəmmədin ailəsinin qanından gəlirdi. Əbu Cəhl dostları ilə güləşəndə Qureyş xalqı bu xəbəri eşidib Bəthaya baxmağa gedərdi.

Bir gün Hz. Məhəmməd də oraya gəldi. Güləşənlərə baxdığı həmişəki yerdə oturdu. 40 dostu da ətrafına toplamışdı. Məhəmməd yenə hikmət dolu sözlər söyləyir, onlar isə səssiz dinləyirdilər.

Qureyş seyyidləri də gəlib oturmuşdulər. Əbu Cəhlin tayfasından Əbu

Müəyyəd oğlu Üqbə dedi:

– Ey Qureyş xalqı, mən əcaib bir şey görürəm. Siz də onu görürsüz, amma o haqda fikir söyləmirsiniz.

Qureyş uluları:

– Nədir o belə, de, eşidək.

Üqbə:

– Məhəmməd nə üçün güləşməz? Dəstəsi ilə gələr, gedər. Bu uşaqlar niyə ərlik dərsləri keçmirlər.

Haşimoğullarından bir neçəsi orada hazır dururdular:

– Məhəmmədlə güləşəcəklər? Məhəmmədin qeyrəti yoxdur? Siz söyləyin hələ. O kimlə tutuşsun? O ki möcüzə və kəramət sahibidir. Quru ağacdan xurma yetişdirməsi unuduldumu? Hər arzusu, hər duası qəbuldur onun.

Üqbə:

– Mən onun möcüzə və kəramətlərini demirəm. Gücündən, qüvvətindən bəhs edirəm.

Elə bu sözdən Əbu Cəhlin atası qəhqəhə çəkdi. Bu gülüş Haşimoğullarını çox əsəbiləşdirdi, beyinlərinə qan sıçradı:

– Ya Hişam, bilmirsən ki, Məhəmmədlə, Əbu Bəkr ikisi sənin oğlun və 360 dostunu Bətha dərəsindən qabaqlarına qatıb qovmuşdu. Bunu sən unutdun?

Hişam:

– Bu bir kəramətdir, amma Məhəmmədin gücü deyil.

Haşimoğullarının ulularıbu sözü eşitdikdə:

– Susmaq daha yaxşı olardı, – dedilər, heç cavab da vermədilər.

Üqbə:

– Siz də bilirsiz ki, indi Əbu Cəhldən güclü və qüvvətli kimsə yoxdur.

Haris oğlu Nəzr:

– Yəni özündən böyüklərdən də güclüdür? Onu yıxa biləcək adam yoxdur?

Əbu Cəhlin böyük qardaşı Əbül Buxtəri ona döndü:

– Qardaş, bax, bu gün Qureyş uluları sənin haqqında nələr deyirlər.

Əbu Cəhl bu sözləri eşidəndə özu də dostları da qəzəbləndi. Üqbə də bərk qəzəblənmişdi. Buna görə də:

– Ey Əmr, ey Əbu Cəhl, Məhəmmədlə güləşə bilərsən? – deyə bağırdı.

Əbu Cəhl qol əzələrini göstərərək:

– Əgər "Onunla güləş" desəniz, güləşərəm.

Üqbə:

– Bu gün gecdir, sabah Bəthaya gələrik. Toplanıb onları güləşdirərik,

tamaşa edərik.

Hamı bu fikri qəbul etdi. Dağılıb evlərinə getdilər.

Əbu Talib də evə gəldikdən sonra Məhəmmədi yanına çağırtdırdı. Bərabər oturdular və dedi:

– Ya Həbibi, ya Məhəmməd, bu gün Bəthada yığışmış camaat səninlə Əbu Cəhlin güləşməsini istədi. Seyyidlər deyirlər ki, sənin gücünü, qüvvətini nədən bilsinlər. Sənin mübarək fikrindən nə keçir? Razısan, ya razı deyilsən? Əgər güləşə "hə" desən, sabah bütün qohum-əqrəbanı, qəbiləmizi ora çıxararam. Çünki bilirsən ki, sənin qüvvən yüz uşağın quvvəsindən çoxdur, hamısını yıxıb əzər və inlədərsən. Əgər razı olmasan, mən Qureyşi bu fikirdən döndərərəm. Bir də belə fikrə düşməsinlər, öz işləri ilə məşğul olsunlar.

Məhəmməd bu sözləri eşidincə:

– Əmi, madam ki onlar belə güləş istəyirlər, qoy xatirləri xoş olsun. Onunla güləşərəm.

Sonra dayandı, bunları da əlavə etdi:

– Bəli, əmi, güləşərəm. Sonra deyərlər ki, Abdullah oğlu Məhəmməd qorxdu, aciz qaldı. Haşimoğullarının şərəfli adına əskiklik gətirmək istəmirəm.

Ertəsi gün Əbu Cəhl yanındakı uşaqları toplayaraq atasının yanına gəlib onun qarşısına keçərək dedi:

– Ata, mən dostlarımı topladım. İndi Bəthaya gedirik, sən də seyyidlərlə birlikdə ora gəl.

Əbu Cəhlin atası Hişam Qureyş uluları ilə birlikdə Bəthaya getdi. Haşimoğulları da, tayfası da Əbdülmüttəliboğulları ilə birlikdə Məhəmmədi və qırx dostunu götürüb Bəthaya gəldilər. Onları görən Qureyş uluları ayağa qalxdılar. Əbu Talibə hörmət göstərib yuxarı başda oturtdular. Başçı yerini alan Əbu Talib Hz. Məhəmmədi yanında oturtdu. Az sonra Əbu Cəhl tərəfdarları ilə gəlib oturdular. Haris oğlu Nazr, Müid oğlu Üqbə, Müğeyrə oğlu Hişam və Əbu Ləhəb də bir yerdə oturdular.

Üqbə:

– Ey Əbu Cəhl, ey Hişam oğlu Əmr gəlin bir güləşin, hünər göstərin.

Əbu Cəhl tez ayağa qalxdı, güləş paltarlarını geydi. Böyük qardaşı Əbül Bühtəri ilə on beş uşaq da güləş paltarlarını geydilər. Güləş başladı. Hamısı ilə bircə-bircə güləşdi və qalib gəldi. Özündən böyük qardaşı ilə də güləşdi və onu da yıxdı. Qureyş hörmətliləri bir ağızdan Əbu Cəhli alqışladılar:

– Yaşa, yaşa sən hamıdan qüvvətlisən, birincisən.

Orada olanlar arasında Rəbiə oğlu Şeybənin Mühli adında bir həbəş köləsi vardı. Güclü, qüvvətli bir gənc idi. Çoxları onun haqqında deyərdi: "Bir dəvə qaçsa, Mühli qaçıb ona çatar, quyruğundan tutub saxlayardı". Qureyş

içində onun hünərindən çox söhbətlər gedərdi. Əbu Cəhl on altı nəfərin kürəyini yerə vurduqdan sonra Mühlinin yanına gəlib onun qurşağından tutdu.

– Qalx! – deyərək onu ortaya çəkdı. Ey Mühli, səninlə güləşəcəyəm, – dedi.

Mühli:

– Ey Hişam oğlu, sən əsilzadəsən, mən qara köləyəm, səninlə necə güləşim? Buna mənin həddim, cəsarətim çatmaz.

Əbu Cəhl:

– Yox, yox mən səninlə güləşirəm. Əgər mən udsam, sənə bir dəst paltar verəcəyəm. Sən qalib gəlsən, yenə sənə iki yüz pul, bir dəvə və yenə bir dəst paltar verəcəyəm.

Mühli:

– Oldu, – deyib paltarını soyundu və güləş uçün yararlı paltar geyindi. Sonra Əbu Cəhlin önünə keçdi.

Hər ikisi ortada üz-üzə dayanmışdılar. Tutusdular, əsl güləş başladı. Amma Əbu Cəhl aylarla güləs təcrübəsi olduğu üçün Mühlinin bir səhvindən istifadə edərək onun kürəyini yerə vurdu.

Qureyş hörmətliləri Əbu Cəhli elə alqışladılar ki, bütün Bəthadan gələn səs aləmi tutdu:

– Sənə gücdə, güləşdə tay yoxdur. Madam ki sən Mühlini də yıxdın, artıq sənə tay-bərabəri olan yoxdur.

Qureyşlilər:

– Hişam oğlu Əmr ilə güləşən varmı? Qəhrəman Əmrlə güləşən olacaqmı?

Başqa birisi:

– Aslan Əbu Cəhllə güləşməyə kiminsə ürəyi varmı?

## *YA MƏHƏMMƏD, BU OĞLANLA GÜLƏŞ*

Bir neçə kişi bir ağızdan:

– Abdullah oğlu Məhəmməd güləşsin, baxaq, tamaşa edək, – dedi.

Bu sözləri gözləyən Əbu Cəhl axmaq hind quşu kimi qollarını, sinəsini qabardıb Hz. Məhəmmədin qarşısına gəldi. Rəsulullahla (s.ə.s) güləşəcəkdi bu ağılsız? Əbu Cəhl bu cəsarəti haradan almışdı:

– Ya Məhəmməd, qalx, gəl meydana. Səninlə bir az güləşək. Gücümüzə baxaq.

Rəsulullah:

– Ya Əmr, mən güləşməyi sevmirəm.

Əbu Cəhl:

– Ya Məhəmməd, nə olacaq, mənimlə güləşək, bir-birimizin gücünü yoxlayaq.

Bu təkidin qarşısında Əbu Talib ayağa qalxdı:

– Ya Hişam, oğluna Məhəmmədin qarşısına gəlib onu incitməsini, ona zəhmət verməsini sənmi tapşırdın?

Hişam cavab verdi:

– Yox, ona mən heç bir söz deməmişəm. Ancaq ikisi də ər uşaqdır. Əlbəttə, bir-biri ilə çəkişmək, güləşmək istəyirlər. Amma Məhəmməd mənim oğluma rəqib deyildir. Ona görə də güləşməkdən qaçır.

Bu sözlə Əbu Talibin qan başına vurdu. Hişama qışqırdı:

– Əgər Məhəmməd oğlunu yıxarsa, Qureyşə nə verəcəksən?

Hişam:

– Beş dəvə, – deyə cavab verdi.

Əbu Talib:

– Azdır!

Hişam:

– Əlli qoyun da kəsərəm.

Əbu Talib:

– Yenə azdır.

Hişam:

– On yük şərab gətirərəm, – deyə səsləndi.

Əbu Talib:

– Yenə də az deyirsən.

Hişam:

– Böyük bir ziyafət verərəm. Qonaqlıq edərəm.

Əbu Talib:

– Qəbuldur, – deyə razılaşdı.

– Əgər mənim oğlum qalib gəlsə, sən də belə ziyafət verəcəksənmi?

Əbu Talib:

– Bəli, beş dəvə, əlli qoyun kəsəcəyəm. Ziyafət verib hamını yedirdib içirdəcəyəm.

Qureyş uluları onların sözlərinə şahid oldular. Məhəmmədin əmiləri, Haşim oğulları onun ətrafına toplanıb:

– Ya Məhəmməd xahiş edirik, bir bu özündən razı oğlanla güləş, "Yox, razı deyiləm!" demə, – deyə yalvardılar.

Hz. Məhəmməd özündən əmin bir tərzdə:

– Bismillah! Sizin xatirinizə güləşərəm. Əgər sizin könlünüz istəyirsə, elə də olar.

Məhəmməd oturduğü yerdən qalxdı, bir ayağı üstündə durdu. Sonra gözəl danışığına başladı:

– Ey əhli-Qureyş, ey qövmüm. Bilirsiz ki, bu gün Hişam oğlu Əmr on bes tərəfdarını, böyük qardaşını və Mühlini də yıxdı, onlara qalib gəldi. Küraklərini yerə vurdu. Əgər mənimlə də güləşsə, uduzsa, deyəcəklər ki, o yorulmuşdu. Yıxılmağı sayılmasın. Ona görə də gedib üç gün dincəlsin, dördüncü gün gəlsin. Ulular qarşısında güləşərik. Kim qalib olar, o gün göstərər.

Toplanmış xalq Məhəmmədin bu ağıllı sözlərinə heyran qaldılar, dağılışıb evlərinə getdilər.

Məkkəyə tez bir zamanda xəbər yayıldı: “Abdullah oğlu Məhəmməd Hişam oğlu Əmrlə uç gündən sonra Bəthada güləşəcək”.

Bu söhbət çöl qəbilələri arasında da yayıldı. Dördüncü gün səhər tezdən onlar da özlərini Bəthaya çatdırdılar. Hamı toplaşmışdı. Əbu Cəhl və dostları, Qureyş uluları, güləşi eşidənlər, duyanlar, fəqirlər, zənginlər yer tutmuşdular. Məkkə şəhərində kimsə qalmamışdı.

Az sonra Məhəmməd qırx dostu ilə göründü. Qureyş seyyidləri onu gördükdə ayağa qalxdılar. Məhəmmədə öz hörmətlərini göstərdilər. Məhəmməd isə on dörd günlük ay kimi idi.

O, öz qohumlarının yanına gəldi. Ona yer göstərdilər, xidmətində durdular. Əbu Talib Məhəmmədlə insanların açdığı dar yolla irəliləyirdi. Ortada dayandılar. Bu zaman Bətha vadisində əks-səda verən Hişamın səsi eşidildi.

– Ey Hişam oğlu Əmr, ey Əbu Cəhl, ey güləş aslanı, ey Qureyş qəhrəmanı, ey oğul durma, qalx güləşə başla, hünər göstər!

## *ƏBU CƏHL MEYDANDA CÖVLAN EDİR*

Əbu Cəhl atasının səsini esitdikdə həmən sıradan çıxdı.

– Tez güləş paltarlarımı gətirin! – deyə bağırdı.

Bir tərəfdə soyundu, gələn güləş paltarını tələsik geyinib qəhrəman ədası ilə meydana çıxdı. Əyilirdi, qalxırdı, əlini dizlərinə vururdu. Güləş meydanında cövlan edirdi.

Hz. Məhəmməd hələ soyunmamışdı. Güləş paltarlarını geyməmişdi, gözləyirdi. Əbu Cəhl bir qartal baxışı ilə Məhəmmədə baxdı,baxdı...Sanki nəzərləri ilə: “Ey Məhəmməd haradasan, gəl ər meydanına? Bir-birimizdən tutaq, güləşək”, – deyirdi.

Məhəmməd susdu. Cavab vermək istəmədi.

Əbu Cəhl yenə meydana girdi. Bir neçə dəfə dolandı. Yenə mənalı-mənalı Məhəmməd tərəfə nəzər saldı, sonra xalqa tərəfə baxdı. Gözlərində "Gördünüzmü, düşmənim yerində belə qımıldanmır? Mən meydanda, o, yerində büzüşüb oturub" ifadəsini oxumaq olurdu.

Bir az da keçdi. Əbu Cəhl göz-qaşını da oynatmağa başladı:

– Ay camaat, Məhəmməd güləşə çıxmır. Soyunmur, meydana gəlmir. Mənim qarşımda dura bilməz, o qorxur.

Təkəbbür onun içində artırdı. Meydanı dolaşırdı. Yenə Məhəmmədin önünə gəlib durdu. Sonra Əbu Talibə səsləndi:

– Ey Əbu Talib, sənın qardaşın oğlu Abdullah oğlu Məhəmməd nə üçün soyunmur? Meydana çıxmır? Nə səbəbdən güləşmir? Söylə ona, ər meydanı onu gözləyir. Girsin meydana.

Əbu Talib Məhəmmədə döndü:

– Ey Məhəmməd, ey gözümün nuru, əgər könlün güləşmək istəmirsə, mənə söylə. Mən Əmrı meydandan çıxararam. Bu izdihamı da dağıdaram. Mənə sənin mübarək xatirin nə istəyir, mənə söylə. Sən istəməsən, heç kim səni güləşməyə məcbur edə bilməz.

Əmilər Əbu Talibin ətrafına toplandılar və təlaşla dedilər:

– Biz bütün ərəb qəbilələrinin dilinə düşəcəyik. Hörmətimizə də ziyan gələcək.

Həmzə də sözə qatıldı:

– Mən meydana çıxaram. Əmrla mən güləşərəm. Mən ona göstərərəm.

Bunu duyan Məhəmməd gülümsədi. Onlara dedi:

– Ey əmim Əbu Talib, ey əmilərim. Əbu Cəhlə bir şərt qoy ki, uduzan adamın tərəfdarları udanın tərəfdarlarına hücum etməyəcək, səbəblər axtarıb dava salmayacaq. Hansısa bəhanələr axtarmayacaq.

Əbu Talib həmən Qureyş ulularına:

– Ey qövmüm, hamı bilsin, eşitsin. Şərt qoyulsun, basılan adamın tərəfdarları dava salmayacaqlar.

Bu qərara hamı razı oldu və qəbul edildi.

## *Hz. MƏHƏMMƏD ƏR MEYDANINDA*

Bundan sonra Hz. Məhəmməd yerindən qalxıb irəli keçdi. Bütün oradakılar:

– Allah qorusun və kömək olsun! – deyərək dua etdilər və onu görmək üçün boyunlarını uzatdılar:

– Görəsən, necə olacaq?

– Döyüşənlərdən hansı qalıb olacaq?

Məhəmməd düz Əbu Cəhlə doğru getdi. Yan-yana durdular. Əbu Cəhl Məhəmmədi paltarında görəndə:

– Ya Məhəmməd, soyunsana. Libasını çıxar, güləş paltarını gey.

Məhəmməd:

– Ya Əmr, mən paltarımı çıxarmadan güləşirəm.

Əbu Cəhl:

– Amma uduzsan, bəhanə etmə ki, əynimdə paltarım vardı, ona görə də güləşə bilmədim, məğlub oldum.

Hz. Məhəmməd o zaman xalqa tərəf döndü:

– Ey Qureyşoğulları, siz şahid olun ki, əynimdən libasımı çıxarmadan üzərimdə nə varsa, onlarla güləşəcəyəm. Əgər məni yıxarsa, qabaqcadan razılığımız qəbuldur. O uddu, ya mən uddum.

Hz. Məhəmməd üst paltarının uclarını qurşağına keçirdi, qolunu çırmadı. Alnını açdı. Alnından nur xalqın üzünə şəfəq saçdı.

Artıq iki düşmən qarşı-qarşıya durmuşdu. Əbu Cəhl Məhəmmədə:

– Ya Məhəmməd, səninlə necə güləşək? – deyə soruşdu.

Məhəmməd cavab verdi:

– Ey Əmr, necə istəyirsən, elə də güləşək. Necə lazım bilirsən, eləcə də tut.

Məhəmməd heç bir hərəkət etmədən ayaq üstə durub dayandı. Əbu Cəhl irəli gəldi. İstədi ki, ayağından yapışsın, iki əli ilə yerə yıxsın. Əbu Cəhl bu düşüncə ilə dizlərini yerə qoyub cəld Hz. Məhəmmədin sol ayağından yapışdı. Silkələdi, ancaq anlamırdı ki, onu silkələməyə dünya ordusunun belə gücu çatmaz. Silkələmək istədi, tərpədə bilmədi. Yenə təkrar etdi, bacarmadı. Heç cür ayağını tərpədə bilmədi.

Sonra bacarıqsızlıqdan doğan bir hirslə ayağa qalxdı. Meydanda fırlanmağa başladı. Məğrur baxışlarından bir əlamət qalmamışdı.

Qureyş hörmətliləri:

– Ey Əmr, niyə bir hünər göstərmədin? Baxırıq ki, sən heç bir ayağını yerdən üzə bilmədin.

Əbu Cəhl təkəbbürünü azaltmayaraq cavab verdi:

– Nədənmi? Qəribəsiniz? Məhəmmədə sayğı göstərdim, çünki o yetım bir uşaqdır. Tez uduzub qəlbi qırılmasın. Amma indi görəcəksiniz ki, necə hünər göstərəcəyəm, necə güləşəcəyəm.

Təkəbbür Əbu Cəhlin qılığına girib onun qəlbində möhkəm yer tutmuşdu. Meydanda qollarını oynadır, ovuclarını dizlərinə vururdu. Yenə Məhəmmədə tərəf döndü.

## PƏHLƏVANLAR PƏHLƏVANI HƏMZƏNİN HƏYƏCANI

Seyr edənlər arasında Həmzənin ürəyi çox narahat idı. Həyəcan içində qəlbi döyünürdü. Elə bil ki, meydanda güləşən odur. Bir arada dayana bilməyib:

– Gedim, həbibim Məhəmmədə ürək-dirək verim, ona bəzi güləş qaydalarını göstərim, – dedi.

Əbu Talib bunu hiss edib tez dilləndi:

– Olmaz, Həmzə. Nəbadə belə iş görəsən, ona yaxınlaşma. Çünki Məhəmməd güləşi yaxşı bilmirdi, güləşməyi, ümumiyyətlə, sevməzdi. Bu gün isə bir möcüzə göstərəcəkdi. Kəramətini bildirəcəkdi.

Əbu Talib sözlərini bitirər-bitirməz Əbu Cəhlin Məhəmmədə hücum etdiyini gördülər. Nə baş verirdi? Hişamın məğrur oğlu Məhəmmədin belindən tutmuşdu.

Çəkdi, çevirmək istədi. Ayağına badalaq vurub yıxmaq istədi. Çox cəhd etdi, var gücünu sınadı. Xeyr, alınmır. Yenə bir iş görə bilmədi. Məhəmmədi yerindən tərpətmək, silkələmək mümkün deyildi.

Onun iki ayağı da elə bil ki, yerə mıxlanıb. Bir tük qədər aralamaq imkanı yox idi.On yeddi adamın dalbadal kürəyini yerə vurmuş Əbu Cəhlin ürəyinə qorxu düşdü.

Əgər bir insanın içinə qorxu düşərsə, onu əqrəb kimi daxildən sancar, narahat edər. Əbu Cəhlin narahatlığı getdikcə artırdı. Özü-özünə:

– Mənə nə oldu belə? Mən Mühlinin kürəyini yerə vurdum. O çox güclu həbəşi yıxdım. Axı Məhəmməd ondan güclü deyil, deyə düşünürdü, amma anlamırdı.

Əbu Cəhlin qəbiləsi olan Məxzumoğulları da tam təlaşda idilər. Nə olmuş başçılarının oğluna?

Əbu Cəhl: “Hələ bir dəfə də əlindən, ayağından tutum”, – deyə düşündü.

Yenə irəli gəldi. Bu vaxt Məxzumoğulları bərkdən qışqırmağa başladılar:

– Ey qəbiləmizin seyyidi, nədən bu qədər əylənirsən? Vaxt keçirirsən? Bir cəhd elə üzümüzü ağart. Hücüm elə!

Bu sözləri eşidən və coşan Əbu Cəhl elə də etdi. Cəhd etdi. Elə bir qeyrətlə Məhəmmədə sarıldı ki, arzusu düşməni tez aşırmaq və sonra kürəyini yerə vurmaq idi. Bu işdə ya müvəffəqiyyət, ya ölüm. Amma Məhəmməd Əbu Cəhlin onu istədiyi kimi tutmasına belə mane olmadı. Fikir də vermirdi. Hz. Məhəmməd Haqqa təvəkkül etmişdi və bu təvəkkül Əbu Cəhlin qarşısında bir İskəndər qalası kimi möhkəm dururdu.

Əbu Cəhli hirs boğurdu, iki həmlə etmiş, amma Məhəmmədi heç yerindən tərpədə bilməmişdi. Bir həmlə də etdi, qollarını Məhəmmədin boynuna salıb arxadan əllərini kilidlədi. Başını aşağı dartmaq istədi, bacarmadı. Məhəmməd yerində möhkəm dayanan qala idi.

Dəliyə dönmüş Əbu Cəhl Məhəmmədin gah əlindən, gah belindən, gah da ayağından tutur, amma tərpədə bilmirdi. “Xeyr, xeyr, belə ola bilməz, ola bilməz”, – deyib Əbu Cəhl az qala başını itirirdi. Hamının onun müvəffəqiyyətsiz hərəkətlərinə baxdığını gördükdə utandı, pərişan oldu.

## *MƏHƏMMƏD ƏBU CƏHLƏ HƏMLƏ ETDİ*

Əbu Cəhl nə edəcəyini, nə tətbiq edəcəyini bilmirdi. Heç bilmirdi ki, nə çarə qılsın.

Məhəmmədin heybəti, dəyanəti müdhiş idi. Tamaşaya yığışanlar – dostlar, düşmənlər hamısı heyrət içində donub heç danışmırdılar. Elə sakitlik çökmüşdü ki...

Növbə Məhəmmədə keçmişdi. Güləsdə belə idi. Öz növbəndə rəqibini basa bilmədin, sənin növbən bitdi, gözlə nələr baş verər...

Məhəmməd irəli gəldi. Əbu Cəhlin gözündə qorxu hissləri vardı, dünənki aslan siçana dönmüşdü. Bir az geri çəkildi.

Məhəmməd ona bir az da yaxınlaşdı:

– Ey Əbu Cəhl, ey Hişam oğlu, sənin növbən bitdi. İndi mən həmlə edəcəyəm.

Əlini yzadıb onun belindəki qurşagından tutdu. Məhəmməd bir çuval kimi onu başının üstünə qaldırdı, saxladı. Sonra fırladaraq yuxarı atdı. Əbu Cəhl üç adam boyu qədər yuxarı qalxdı. Yerə düşsəydi, bir buz parçası kimi qırım-qırıq olacaqdı. Yerə enərkən rəqibi onu tutdu.

Yenə göyə atdı, bu dəfə əvvəldəkindən də yuxarı qalxdı. Toplananlar bunu görəndə təlaşla: “Ey vay, əgər tutmasa, yerə düşsə, parça-parça olacaq”, – deyə bağırışdılar.

Amma Məhəmməd onu yerə dəyməzdən öncə tutdu. Bu vaxt Əbu Talib:

– Ya Məhəmməd, onu üçüncü dəfə də at. Diqqət et ki, üstünə düşməsin, altında qalıb əzilərsən, aralı dur.

Hz. Məhəmməd bu sözü eşidən kimi onu bir də yuxarı atdı. Belə yerə düşüb sümükləri belə parça-parça ola bilərdi. Bu səbəbdən önünə gələndə onu yüngülcə tutub buraxdı.

Əbu Cəhlin başı yarılmışdı, boynu əzilmişdi, burnu qanamışdı, huşunu itirmişdi. Belə halda yerə sərilmişdi.

Bu möcüzədən tamaşa edənlərin hamısı yerlərində donub qalmışdılar.

Əbu Cəhlin atası Hişam, qohumları, qəbiləsi ağlaşaraq irəli gəldilər. Onu yerdən qaldırıb evlərinə apardılar.

Qarşı tərəf, Əbu Talib və qardaşları Hz. Məhəmmədə tərəf qaçdılar. Sevinclərini bölüsdülər və onu Əbu Talibin evinə götürdülər.

O gündən Qureyş uluları Hz. Məhəmmədin bu zəhmini görüb deyirdilər:

– Bu bir peyğəmbərlik əlamətidir. Görəsən, bu uşaq bir iş bacaracaq, ya fitnə salacaq?

Nofəl oğlu Vəraqə bu izdihamın içərisində idi. Hz. Xədicənin əmisi olan Vəraqə ərəblər içərisində çox bilikli insan kimi tanınmışdı. Səmavi kitabları oxumuşdu. Doğulduğu gündən Hz. Məhəmmədin bir çox möcüzələrini görmüşdü. Qureyş ulularına dedi:

– Hz. Məhəmməd 40 yaşına çatanda bir dəstə insan onda peyğəmbərlik əlamətləri görəcəkdir.

Bəli, Hz. Məhəmməd bu əlamətləri gördükdə onu ilk dəfə xanımı Xədicəyə bildirəcəkdi. O da bu əlamətləri Vəraqəyə söyləyəcəkdi. Bu peyğəmbərlik xəbərini çatdıracaqdı. Vəraqə isə Hz. Məhəmmədin möcüzə və kəramətlərin görürdü, Qureyşə də bildirirdi. Bu böyük bir sirr idi:

– Ey əhli-Qureyş, ey indiyə kimi qəflətdə olan insanlar, işləriniz artıq yarımçıq qalacaqdır, məəttəl qalacaqdır. Gördüklərinizi anlamadınız? Bir-iki möcüzə gördünüz. Bu isə onun möcüzə dənizində bir ovuc sudur.

## *ONUN DİNİ ƏBƏDİ QALACAQDI*

Vəraqə oxuduğu sirləri qureyşlilərlə bölüşdü:

– Ey Qureyş camaatı, bu yaxında görəcəksiniz ki, ata-anadan yetim olan bu insan nə işlər edəcəkdir. Necə sultanlar onun qarşısında üzünü yerə sürtəcəkdir və özlərini ona qul edəcəkdir. Çox müşkül işlər onun qarşısında həll ediləcəkdir. Ulular onun yanında toplanacaqdır. Yeni din ortaya çıxaracaq, ululardan ululuq alacaqdır. Göydən enən ilahi vəhylərlə o, dünyanın padşahı olacaqdır. Kimsə onunla bacarmaz, onun dini irəliləyəcəkdir.

Hamı həyəcanlı idi. Vəraqənin ağzından çıxan hər söz Qureyş ulularının qəlbində özünə yer tuturdu. Vəraqə:

– Bəli, ey qureyşlilər! Dedim və bir də deyirəm ki, onun dövründə, o getdikdən sonra da dini əbədi yaşayacaqdır. Bu din gün çıxandan günbatana kimi yerini tutacaq. Qılıncı ilə dünyanı özünə ram edəcəkdir. Əcəm, Kirsa taxtları əllərindən çıxacaq, özləri də hər şeyi qoyub qaçacaqlar. Bizans

hökmdarı Qeysərin də taxtı əlindən alınacaqdır. Misiri də öz torpaqlarına qatacaqdır. Vəraqə bunları deyib susdu.

## *ƏBU CƏHL SARĞILAR İÇİNDƏ*

Qureyş uluları və hörmətliləri qalxıb Məhəmmədə biabırcasına uduzmuş Əbu Cəhlin halını soruşmaq üçün atası Hişamın evinə gəldilər. O, yerə düşəndə Məhəmməd nə qədər saxlasa da başı yarılmış, burnu qanamışdı. Əbu Cəhlin başı, üz-gözü sarıqlı idi. Bundan əlavə iki ayağına da sarğı qoyulmuşdu. Sanki bir tiri sarıyıb yatağa uzatmışdılar.

Əbu Müqəyyəd oğlu Üqbə dedi:

– Ey Əmr, bu nə haldır? Sən bu qüvvətlə, güclə, çıxış və həmlələrinlə Məhəmmədi heç yerindən tərpədə bimədin. Bunun mənası nədir? O isə səni bir alma kimi yuxarı atdı. Havada fırlatdı, yerə düşmədən yenə tutdu. Yenə yuxarı atdı. Biz bu sirrə heyran qaldıq, həm də çaşıb qaldıq.

Əbu Cəhl yataqdan yavaş səslə dilləndi:

– Mən onun sehrlərinə nə çarə tapa bilərdim ki... Siz də bilirsiz, o anadan doğulmamışdan əvvəl din alimləri, kahinlər, rahiblər onun haqqında ayrı-ayrı xəbərlər vermişdilər. Əgər ancaq güc və qüvvət olsaydı, mən ona qarşı durardım. Amma o, işlərini sehrlə görür. Mən isə sehri bilmirəm.

Ziyarətə gələnlərin bir qismi etiraz etdi:

– Belə sözlər deməyin, Haşimoğulları eşidərsə, ”Hişam ziyafət verməmək üçün səbəb axtarır” deyəcəklər. İndi gedin, ziyafət süfrələri hazırlayın, verdiyimiz sözü tutaq. Məğlub tərəfin ziyafət borcunu verməsi vacibdir.

Üç gündən sonra bütün Məkkə ziyafətə Hişam tərəfindən dəvət olunmuşdu.

Artıq Əbu Cəhl Məhəmmədlə güləşmək fikrini bir daha ağlına belə gətirmək istəmirdi.

Hz. Məhəmməd bundan sonra əmisi Əbu Taliblə birlikdə Kəbəyə gedir, hökmlər verməkdə iştirak edirdi. Çox müşkül davalarda qərarlar da verirdi. Əlbəttə, ən mühüm,vacib iş elə bu idi.

## *Hz. MƏHƏMMƏDİN İLK SƏFƏRİ*

Bir gün Əbdülmüttəlibin böyük oğullarından Zübeyr qardaşı Əbu Talibin yanına gəldi. Qardaşı oğlu Məhəmmədin əlindən öpdü:

– Ya Həbibi, səfərə çıxıram, ticarət etməyə gedəcəyəm. Gəldim vidalaşım.

Zübeyr tacir idi. Həm də igid bir insan idi. Əbdülmüttəlibin oğlanları içində Həmzədən öncə o cəsarəti ilə ad-san qazanmışdı, adı dillərdə əzbər idi.

Rəsulullah vidalaşmağa gələn əmisindən soruşdu:

– Əmi, hansı tərəfə gedəcəksən?

Zübeyr cavab verdi:

– Yəmən tərəfə gedəcəyəm, ey əzizimiz Məhəmməd.

Bu zaman Məhəmmədin içində bir səfər həyəcanı yarandı. O da uzaqlara getmək, görmədiyi yerləri görmək istəyirdi.

– Əmi, mən də sənə yoldaş olum. Səninlə gedim.

Zübeyr:

– Ya Məhəmməd, bu yolçuluqlar çox zəhmət tələb edir. Əzab-əziyyətlidir, güc istəyir. Sənin bədənin bu çətin yola dözməz.

On yaşını keçmiş Məhəmmədin üzündə bir ümid yanıb söndü. Bunu hiss edən Əbu Talib sözə qarışdı:

– Amma, ya Məhəmməd, sən bunu boş söz xatirinə deməzsən. Onun bir hikməti var. İki gözümün işığı, sənin bu səfərə getməkdə arzun nədir? De, bilim.

Bu söz Hz. Məhəmmədi fərəhləndirdi. Əbu Talibə:

– Əmi, Sədoğulları qəbiləsində Həlimə məni bəsləyəndə mən süd qardaşlarımla çöllərə çıxıb qoyunları otarırdıq. Dağları, dərələri dolaşıb gəzirdik. Hər tərəfə tamaşa edərdik, könlümüz açılardı. Oradan gələndən bəri mən dağa-daşa, çölə-bayıra belə çıxmamışam. Yenə könlüm açılsın deyə icazə ver, əmim Zübeyrlə gedim, səfər edim, çöllərə, dağa-daşa baxım, – dedi.

Əbu Talib Zübeyrə döndü:

– Qardaşım, bu səfərə həbibim Məhəmmədi də özünlə götür. Qoy səfərin mübarək, xeyirli, yolunuz uğurlu və açıq olsun.

Əbu Talib Zübeyrə yol üçün xeyli öyüdlər verdi:

– Sənə bir tapşırığım da var, Məhəmmədin dediyinin əksinə hərəkət etmə. Nə desə, nə arzulasa, onu da et. Ondan soruşmadan sən bildiyin işi belə etmə. Sənə xeyirli bazarlar arzulayıram.

Əbu Talib sonra üzünü Məhəmmədə tutdu:

– Ey oğul, ey Məhəmməd, hara getsən, nəbadə özünü tanıtdırasan, bildirəsən. Çünki sənin düşmənin çoxdur. Onlardan qorun.

Hz. Məhəmməd:

– Əmi, məni saxlayan və qoruyan var. Məni saxlayan və qoruyan Ulu Tanrıdır ki, aləmləri yaratmışdır. Düşmənlərimlə necə savaşdığımı görmüsən. Rahib Səminin yanına gedərkən Sakif ərəbləri ilə necə vuruşmuşdum,

bilirsən. Əmi, heç düşünmə, narahat olma, mən savaşdan qorxmuram və aciz deyiləm.

Əbu Talib:

– Dediklərini təsdiqləyirəm. Sənə inanıram.

Həmin gün Zübeyr hazırlığa başladı. Üç dəvəyə yeni parçalar yüklədi. Bir həcin, yəni çox iti yeriyən dəvə, Məhəmmədə, birini də özünə aldı. Üç kölə aldı. Başqa tacirlərdən otuz kişi onların karvanına qoşuldu. Yoldaş oldular. Uç yüz dəvə parça ilə gecə səfərə çıxdılar.

## *AYSIZ GECƏDƏ Hz. MƏHƏMMƏDİN NURU*

Gecənin ilk saatlarında sərin axşam havasında şəhərin qapısından çıxdılar. Yavaş-yavaş hava qaralmaq üzrə idi. Amma bütün karvan əhlində bir çaşqınlıq var idi. Gedirlər, hava qaralmır. Nə qədər yol qət edirlərsə, qaranlıq düşmür, yol aydın görünür. Ay yoxdur. İşıq haradan gəlir? Öndə gedən dəvədən sonuncuya kimi görünürdü. Dəvələrin üstündəki parçaların rəngləri belə seçilirdi. Göydə ay yoxdur. Heyrət içində hərəkət edir, "Bu aydınlıq haradan belə düşür? Nə qədər baxırıqsa, tapa bilmirik", – deyə bir-birindən soruşurdular.

Hz. Məhəmmədin sifətini heç kim başa düşməzdi. Onun böyüklüyü dilə, könülə sığmazdı.

Karvan əhli dörd yana göz gəzdirir, baxırdılar. Bu zaman Zübeyr dilləndi:

– Ey qövmüm, nə gözləyirsiz? Dörd yana nə baxırsınız?

Karvan əhli cavab verdi:

– Ya Zübeyr, bu aydınlıq nədir? Haradan gəlir? Çaşıb qalmışıq, bu işıq nədir? Ona görə dörd yana baxırıq.

Zübeyr:

– Ey qövmüm, bu aydan aydın üzü, bu günəş kimi parlaq ulduzu görmədinizmi? Belə baxın, dəvələr də dönüb arxalarına baxırlar. O gözəl üzlünü görürlər. Sizin anlayışınız o heyvanlar qədər yoxdurmu?

Bu deyilənləri eşidən karvan əhli dönüb arxalarına baxdılar və Rəsulun (s.ə.s) mübarək üzünü gördülər. Heyran qaldılar.

Karvan əhli Zübeyrə:

– Ey Zübeyr, sənin qardaşın oğlunun şanı, şərəfi çox böyükdür.

Karvan ertəsi sabaha qədər beləcə nur aydınlığı içində yol qət etdi. Getdilər, səhralar, çöllər keçdilər. Səhər olmuşdu, günəş üfüqi tam al-qırmızıya boyamışdı. Bu necə işdir, iki günlük yolu bir gecəyə gəlmişdilər.

Karvandakılar bunu görüncə məəttəl qalmışdılar. Dəvələr yenə hərəkətə başladı. Qonaq yerinə doğru getdilər. Yenə axşam oldu, qonaq yerinə çatdılar. Bu necə ola bilər iki günə beş günlük yol keçmişdilər?!

Burada yaşayan qəbilə Zübeyri tanıyırdı. O, əsli, igidliyi ilə hörmət qazanmışdı. Çünki bu yollarla çox gedib-gəlmişdi. Qəbilə onlara sayğı göstərdi. Gecə yenə yola çıxdılar. Səhər vaxtında bir ərəb qəbiləsinə çatdılar. Bir neçə ərəb yol yaxınlığında onları qarşılamağa çıxmış, xalçalar döşəmiş, süfrələr salmışdılar. Süfrəyə nemətlər qoyulmuşdu.

Zübeyr və karvan əhli bunu görüb təəccübləndilər:

– Görəsən, bu qəbilədə bu gün toy və ya toplantı varmı? Bu süfrələr yəqin ki, bu səbəbdən hazırlanmışdı?

Süfrələrə yaxınlaşanda onları qarşıladılar, Zübeyrlə görüşdülər. Onu tanıyırdılar.

Zübeyr onlardan soruşdu:

– Ey camaat, bu nemətləri səhər tezdən harada bişirdiniz, necə hazırlatdınız?

Camaatın böyükləri:

– Ya Zübeyr, gecə yarıdan keçmişdi. Birdən səmadan bir səs gəldi. Bütün yatanlar oyandı. O səs: ”Ay camaat, Məkkə şəhərindən Əbdülmüttəlib oğlu Zübeyr gəlir. Yanında bir gənc vardır. Yaradılmış insanların yeganəsidir. Dünyanın sultanı və axirətin bəyidir. Tez olun heyvan kəsin, yemək bişirin. Sabah səhərə kimi yola götürün”. Səmadan gələn səsin dediklərini etmək üçün gecə yatmadıq, xörəklər bişirdik. Sizi gözlədik.

Bu cavabdan sonra həyəcanla soruşdular:

– O bəy, o sultan haradadır? O səadətli uşaq hanı? Bizə onu göstər, öz gözlərimizlə mübarək insana baxaq.

Zübeyr:

– Soruşduğunuz o gənc bu ulduzumuzdur, − deyərək Hz. Məhəmmədi göstərdi.

Ərəblər ona tətəf baxdılar. O, həcin dəvənin üstündə şax vücudla oturmuşdu. Hamısının qəlbi sevinclə doldu. Elə bil ki, dəvənin üstündə on dörd gecəlik bir ay oturmuşdu. Ətrafa şəfəq saçırdı. Onlar bu gözəl simanı görüb bir-birinə baxır, nə isə demək istəyir, amma bacarmırdılar, elə bil ki, dilləri tutulmuşdu.

Səmadan gələn səsin onun kəramətindən, hörmətindən olduğunu anladılar. “Bizə bu xeyir və savab o gözəl surətli məhbubun bərəkətindəndir”, − düşündülər.

Sonra Zübeyrin yanına qaçıb məkkəlilərə belə bir xəbər verdilər:

– Ey məkkəlilər, bizim sularımız quyularımızda qurumuşdu. Quyuları-

mızın damarları da quru idi. Bulaqlarımız da qurumuşdu. Su qıtlığı qəbiləmizin bir qismini vətənlərini tərk etməyə, buradan köçməyə məcbur etdi. Biz də köç etmək istəyirdik. Amma bu mübarək ayaqlı, əzəldən səadətli, dövlətli Məhəmməd bizi xoşbəxt edib. O bura gələndə bəzi hadisələr baş verdi. Quyularımız su ilə doldu, bulaqlarımıza su gəldi. Bizi heyrətə salan budur ki, elə bu gün otlar bitdi, hər tərəf yaşıllaşdı. Pərişan könlümüz şad oldu. Qəmdən azad olduq.

Bunu söyləyib camaat Hz. Məhəmmədin ayağına düşdü, ətəyindən tutdu.

– Bu gün bizim qonağımızsız, heç yola çıxmağı fikirləşməyin.

Hz. Məhəmmədə qonaqlıq verdilər və bir gün, bir gecə qonaq saxladılar. Getmələrinə izin vermədilər. Ertəsi gün karvan yoluna davam etdi. Bu yolda da Məhəmməddən xeyli möcüzə və kəramətlər gördülər.

## *İKİ DAĞI TUTAN CANAVAR*

Yenə yollarına davam edirdilər. Birdən qarşılarına bir bölük insan çıxdığını gördülər. Amma hamısı ağlayıb göz yaşı tökürdü. O insanlara yetəndə soruşdular:

– Ey qövm, niyə ağlayırsız?

Onlar səslərini, fəryadlarını azaltmadan:

– Böyük bir çətinliklə rastlaşmışıq, ona görə də ağlayırıq, – dedilər.

Zübeyr soruşdu:

– Nə baş verib bir söyləyin qulaq asaq.

Ağlaşanlar Zübeyrə danışmağa başladılar:

– İrəlidə bir dərə var. Onun içində bir dəvə var. Yolları tutmuş, heç kimi keçməyə qoymur. Elə bil dəli olub. Vadinin dağlarında yırtıcı heyvanları belə buraxmır. Bu dəvənin qorxusundan qaçıb dağılışmışlar. O tərəfə gedən sağ qayıtmır. Biz də bunu bilmədən o yolla getdik, bilmirdik ki, yolu kəsib. Dəvə bizi də keçməyə qoymadı. Karvanbaşımız bir az irəli çıxdı. Dəvəyə bir neçə ox atdı. Amma dəvə ona doğru gəlirdi. O qaçmağa başladı. Dəvə çatıb ağzı ilə karvanbaşını tutdu. Göyə qaldırıb yerə çırpdı. Onun qıçı sınmışdı. Sonra karvanbaşını ayaqlarının altında əzdi, xəmirə döndərdi. Biz ona heç bir kömək edə bilmədik. O öldü və biz də ağlayırıq.

Bu söhbətdən sonra qorxu içərisində xəbərdarlıq da etdilər:

– Nəbadə bu yolla gedəsiniz, dərə içinə girəsiz. Yoldan çıxın, dağ ətəyi ilə gedin. O dəvənin olduğu yeri keçəndən sonra yola çıxın. Ağlaşanlar yollarına davam edərək getdilər.

Zübeyr səsini çıxarmadı. Vadinin ağzına doğru irəlilədilər. Uzaqdan bir adam gəlirdi. Yaxınlaşanda bir əlinin biləkdən kəsildiyini gördülər. Biləyindən qıpqırmızı qan axırdı.

Zübeyr gələn adama yaxınlaşdı və soruşdu:

– Ey yolçu, bu nə haldır? Nədən biləyin kəsilmiş, qan axır?

Adam:

– Ey dostlar, ey camaat, mən bir yoxsul kişiyəm. Dedim ki, gedib bir az un dəyişib, ailəmə, uşaqlarıma gətirim. Unu aldığım yerdən dönürdüm. Yolum bu dərədən keçirdi. Dərənin içində insan düşməni olan bir dəvə varmış. Mənim bundan xəbərim yox. Uzaqdan məni görən kimi dağdan endi. Unun qoxusunu almışdı. Mən də bu dəvəni başqa dəvələr kimi sandım. Üzərinə ağacla vurmaq üçün getdim. Dəvə ağzını uzadıb biləyimdən tutdu. Bir an içərisində qoparıb buraxdı. Kəsik əlimi o biri əlimə aldım. Eşşəyimi sürüb ağrıdan qovrula-qovrula aralandım. Yolumu davam etdirirəm. Özümdən bezmişəm, oğlanlarım acdır. Əlim də belə, indi nə edəcəyəm?

Bu sözlər hamının urəyini titrətdi, göz yaşları könüllərini odladı.

O zaman Hz. Məhəmməd dəvəsindən endi. Təmiz bir yerdən torpaq götürüb yaranın üstünə tökdü. Ağrısı və qanı kəsildi. Məhəmməd o adamdan soruşdu:

– Adın nədir?

O cavab verdi:

– Guveyl oğlu Hənnad.

Hz. Məhəmməd:

– Ey Hənnad, gəl bizimlə gedək. Sənə dəvənin aldığı unu verərəm.

Hənnad:

– Ey ay üzlü gənc, dəvə unu yemişdir, sən onu necə alacaqsan? İndi xəmir olub.

Bərabər getdilər. Dərənin ağzına gəldilər. Dəvənin bağırtısını eşitdilər.

Zübeyr:

– Bax, o dəvədir, bağırır. Bu onun səsidir.

Hz. Məhəmməd:

– Ey karvan əhli, siz burada gözləyin. Mən gedim, o dəvəni görüm.

Zübeyr:

– Əziz qardaşoğlu, sevimlimiz Məhəmməd! Dəvənin halını eşitdik, zərərçəkənlər də faciələrini danışdılar. Adam tuturmuş, öldürürmüş. Sən onunla nə edəcəksən? Ona necə yaxınlaşa bilərsən?

Hz. Məhəmməd əmisinə dedi:

– Əmi, sənə qardaşın Əbu Talib öyüd-nəsihət vermədimi? “Hər nə məsləhət ki, Məhəmməd görəcəkdir, sən ona mane olma” demədimi?

Zübeyr:

– Demişdi, ya Məhəmməd, amma bu qudurmuş dəvə sənin hörmətini bilməmiş ola bilər. Sənə qəsd edə bilər, sən əmanətsən, qorxuram.

Hz. Məməmməd:

– Ay Zübeyr əmi, yaradılmış uçan və gəzən bütün heyvanlar, məni tanıyıb bilirlər. Hətta daş da, ağac da bilir. Elə bir şey yoxdur ki, məni tanımamış olsun, yaradılanların hamısı xəbərdardır.

## *KARVANI TƏƏCCÜBLƏNDİRƏN MÖCÜZƏ*

Zübeyr:

– Sevimli Məhəmməd, bismillah! Fərman sənindir. İstədiyini elə, – dedi.

Bu söhbətdən sonra Hz. Məhəmməd bir xurma ağacını əlinə alıb dəvəyə tərəf getdi. Karvanın tacirləri Zübeyrə qışqırdılar:

– Sən nə etdin? Gənc bir uçağı təkbaşına qoca bir canavarın qarşısına yolladın. Onu bəlaya saldın.

Zübeyr:

– Ey yoldaşlarım, mənim qardaşım oğlu Məhəmmədi qoruyan var. Onu gözləyən var. İndi görəcəksiz onun kəramətini. Siz görmədiyinizi görəcəksiniz.

Zübeyr sözlərini bitirdikdən az sonra Hz. Məhəmmədin dəvəni minib gəldiyini gördülər.

Biləyi kəsilmiş Hənnad dəvəni quzu kimi görəndə təəccübünü gizlədə bilmədi:

– Mən əslində onun möcüzəsini öncə mənim kəsik əlimdə görmüşdüm. Əlimin qan və ağrısı kəsmişdi. Başa düşdüm ki, o nə istəsə əlindən gələr.

Hamı birlikdə Hz. Məhəmmədə doğru irəlilədi. Məhəmməd dəvəyə işarə verdi. Dəvə çökdü, üstündən endi. Dəvə üzünü Hz. Məhəmmədin ayaqlarına sürtdü. Tacirlər çaşıb qalmışdılar. Hətta bəziləri eşidiləcək səslə deyirdi:

– Bu gəncin şanı nə qədər böyükdür, əcaib sultandır.

Bəziləri də möcüzənin sehrinə düşərək pıçıldayırdı:

Bir neçəsi isə:

– Bu sehrin əsl bilicisidir.

Hz. Məhəmməd iki tərəfin də dediyini eşitmişdi. Həmən əlindəki xurma ağacı ilə dəvəyə işarə verdi. Sonda nələr baş verdi...

Hz. Məhəmməd Ulu Yaradana yalvardı. Bundan sonra qəlbində diləyini dilədi. Məqsədini Allaha bildirdi. Allah da onun arzusunu yerinə yetirdi.

Dəvə dilə gəldi:

– Əşhədu ən la ilahə İlləllah və əşhədü ənnə Muhəmmədən əbduhu və Rəsuluhu, – dedi.

Bu xətasız söylənmiş gözəl sözlər oradakıları həyəcanlandırdı. Dəvə davam etdi:

– Ya Məhəmməd, şahidlik edirəm ki, sən sözünə sadiqsən. Vəhy sahibi olacaqsan. Səndə yalan olmayıb, heç vaxt da olmayacaq. İşin sehr deyildir. İşində yanlış yoxdur. Bəxtlilər sənə iman gətirəcəklər.

Dəvə bu sözləri dedikdən sonra dizin-dizin gələrək üzünü Rəsulullahın (s.ə.s) ayağına sürtdu. Oradakılar da bu halı görüb barmaqlarını dişlədilər. Sonra onlarda Hz. Məhəmmədin ayağına düşdülər:

– Ey Məhəmməd, bizi bağışla, – dedilər.

Hz. Məhəmməd onları bağışladı. Yüklər yenə dəvələrə yükləndi. Yəmənə doğru yola düzəldilər. Məhəmməd o azğın dəvəyə mindi. Yolda Hənnadın ununu da tapdılar. Unu eşşəyinə yükləyib kiçik oğlanlarının yanına yola saldılar. Zübeyr və karvan əhlinin qorxduğu vadidən Hz. Məhəmmədin möcüzəsi və kəraməti sayəsində keçib getdilər. Oradan sonra yolları səhradan keçəcəkdi.

## Hz.MƏHƏMMƏDİN NURUNA TAMAŞA

Bu vaxt uzaqdan bir silahlı böluk göründü. Bunlar başdan-başa dəmir zireh geymiş əsgərlər idi. Ata minmişdilər, əllərində nizələri vardı. Vuruşmaq üçün silahlanmışdılar.

Zübeyr:

– Dostlar, tez silaha qurşanın.

Sonra özü əsgərlərə tərəf irəlilədi. O tərəfdən də iki kişi gəlib yaxınlaşdı.

– Ey dəliqanlı, kimsiniz? Haradan gəlib, haraya gedirsiniz?

Zübeyr:

– Hərəmullahdan, Allahın evindən gəlirik. Məkkə seyyidlərindənik, ticarətə gedirik.

Bu dəfə Zübeyr onlardan soruşdu:

– Siz hansı qəbilədənsiz? Deyin, biz də eşidək.

Əsgərlərdən birisi dilləndi:

– Mənim adım Übeyd oğlu Müşarifdir. Gördüyünüz əsgərləri toplamışam və onlar da məni başçı seçiblər. Sizin gəldiyiniz vadidə bir azğın dəvə varmış. Deyirlər yol kəsib heç kim oradan keçə bilmir. Əsgərlərlə onu öldürməyə gedirik.

Zübeyr:

– Geri dönün, yolunuz yaxın oldu. O dəvənin işi bitdi.

Müşarif:

– Necə oldu, bitdi? Nə baş verdi, bizə də anladın?

Zübeyr Hz. Məhəmmədin nə iş gördüyünü onlara bircə-bircə danışmağa başladı:

– Siz də eşitmiş olarsınız. Bir ay üzlü, səadət ulduzlu, doğru sözlü bir uşaq dünyaya gəlmişdi. Duası və dəvəti qəbul olunur. Doğulduğu gündən bəri bir çox kəramət və möcüzələri ilə dünyada məşhur olub. O mübarək üzlü uşaq Əbdülmüttəlibin oğlu Abdullahın oğludur. Adı da Məhəmməddir. Mən də Əbdülmüttəlib oğlu Zübeyrəm. O mübarək uşağın əmisiyəm. Onu bu səfərdə özümlə götürdüm. Dərəyə gələndə mübarək uşaq möcüzə göstərdi, dəvəni ram etdi. Sonra da üstünə minib bizimlə gəldi.

Az sonra arxadan gələn Hz. Məhəmmədlə məkkəliləri qarşılayan əsgərlər onun nuruna tamaşa edirdilər. Hamısı atlarından enib onu ziyarət etməyə tələsdilər. O zaman Müşarif dedi:

– Ey Seyyidi-əkrəm, bu gün bizim vilayətimizdə şənlik var. Bütün xalq toplanacaq. Siz də gəlin, bir-iki gün bizim qonağımız olun.

Zübeyr bunları eşitdikdə:

– İcazə verin, mən karvan yoldaşlarımla danışım.

Karvan əhli ilə məsləhətləşəndən sonra qərarlarını bildirdi:

– Madam ki xalq istəyir, qalarıq, qonağınız olarıq.

### *KÖNÜLLƏR Hz. MƏHƏMMƏDİN NURU İLƏ DOLDU*

O zaman Müşarif Hz. Məhəmmədi götürdu. Öz əsgərləri ilə yerlərinə gəldilər. Qureyşlilər də gəlib çatdılar. Onlara çadırlar quruldu. Müşarif tez bütün qəbiləsinə xəbər göndərdi:

– Məkkəli Abdullah oğlu Məhəmməd bizim qonağımızdır.

Bunu eşidən hər kəs qurulmuş çadırların ətrafına toplandı. Hamısı yerdə oturdu. İki müxtəlif tamaşaya baxmaq istəyirdilər. Birinci Hz. Məhəmmədin mübarək üzünü görməkdi... Hamısının qəlbi bu nurun parlaqlığı ilə dolmuşdu. İkinci tamaşa da Hz. Məhəmmədin quzuya döndərdiyi, şöhrəti ilə bütün ətrafı tutmuş azğın dəvəyə baxmaq idi.

Bundan sonra Zübeyr:

– Yükləri açın, bir az ticarət edək. Həm də xalq lazım olanı alsın.

Yüklər açılan kimi görünməmiş bir ticarət başladı. Bütün parçalar, mallar satıldı. Ticarət elə getdi ki, Yəmənə on səfər etsəydilər, bu qədər qazan-

mazdılar. Ayrıca Müşarifin qövmü arasında böyük hörmət qazandılar.

Bütün bunlar Hz. Məhəmmədin karvanda olmasının bərəkəti idi. İşləri bitdikdə yüklərini yenə bağladılar. Səhər geri qayıtmaq üçün hazırlandıqlarını görüncə Müşarif razılıq vermək istəmədi:

– Xeyr olmaz, daha bir neçə gün qalıb bizim qonağımız olacaqsız. Bir-iki gün daha birlikdə olaq, yeyək, içək, xoş söhbətlər edək, yaxşı vaxt keçirək.

Müşafir olduğu vaxtlarda Rəsulullah(s.ə.s) o dəli dəvəyə öz əli ilə baxdı. Onu yedirtdi, suyunu verdi. Bir gün yenə mübarək əli ilə dəvəni sahmana saldı, üstünü qaşıdı, yavaşca qulağına iki-üç söz dedi. Dəvə anlayan gözlərlə ətrafa baxaraq başını qaldırdı. Sonra da dağa doğru aramla getməyə başladı.

Müşarif uzaqdan dəvənin getdiyini görüncə Zübeyrə:

– Ya Seyyidül-Hərəm, Abdullah oğlu Məhəmməd o dəvəni nə üçün azad etdi? Nəbadə o dəvə siz gedəndən sonra yolu kəsməsin, xalqa hücum etməsin.

Zübeyr Hz. Məhəmmədin yanına gələrək:

– Ya Məhəmməd, sən nədən o dəvəni dağ yoluna buraxdın? Niyə azad etdin? Yenə xalqa əziyyət və pislik edəcək?

Hz. Məhəmməd cavab verdi:

– Əmi, o dəvəyə mən zamin oldum. Ona görə onu azad etdim.

Bundan sonra iki gün də qonaq qaldılar. Artıq ayrılma vaxtı çatmışdı. Səhər tezdən yola çıxdılar.

## *İBLİS İXTİYAR QILIĞINA GİRMİŞDİ*

Gecə ulduzlar buludlarla örtülməyə başladı. Çöllərin aydınlığı getdikcə yox olurdu.

Birdən-birə bir  gürşad yağış yağmağa başladı ki, tut ucundan çıx göyə. O qədər yağdı ki, yollar tamam palçıq oldu. Artıq irəliləmək imkanı yox dərəcəsində idi.

Zübeyr:

– Ya Məhəmməd, yollar palçıq oldu. Dəvələr bu palçıqda yeriməz. Hə edək? Nə deyirsən? Yollar qurusun, dəvələr yeriyə bilsin.

Məhəmməd əllərini göy üzünə tutub dua etməyə başladı. Bir anda göy üzü açıldı, gün çıxdı. Az bir zamanda yer qurudu. Zübeyr bu vəzivvəti görəndə:

– Yükləri dəvələrə bağlayın, – tapşırığını verdi.

Dəvələri yükləyib yola çıxdılar.

Günorta vaxtı idi. Şeytan bir ixtiyar qılığına girib Müşarifin çadırının önündə göründü. Xalqa səsləndi:

– Ey qövm, siz heç bilirsiniz ki, bura gələn o uşaq kimdir? Siz dəli oldunuz? Ağlınızı itirdiniz?

Müşarif ilə qəbiləsi:

– Bəli, bilirik, o Abdullah oğlu Məhəmməddir.

İblis lənətullah:

– Bu o uşaqdır ki, Yəmən kahini Satih bunun haqqında söyləmişdi. Demişdi ki, Məkkə şəhərində bir uşaq doğulacaq. Ərəb millətinin dinini batil edəcəkdir. Bütləri qıracaqdır. Özü yeni bir din və şəriət ortaya qoyacaqdır. O uşaq onun dininə gəlməyənləri qılıncdan keçirəcəkdir.

İblis Müşarifin qövmünün heyrətli baxışlarını gördukdə onları bir az da qorxutmağa başladı:

O uşaq malınızı talan edəcəkdir, – demişdi Satih. Oğlunuzu, qızınızı əsir edəcəkdir. Ay biçarələr, siz necə yatırsınız? Nə üçün belə davranırsız? Bu uşağın üzündən bütün xalq iki yerə bölünəcəkdir. Oyanın.

Müşarif onu dinlədikdən sonra:

– Ey ixtiyar, bəs indi nə edək?

Şeytan:

– Həmən arxalarıyca gedin. Atlanın onlara çatın, aman verməyin. Hamısını öldürün.

Müşarif əsgərlərinə əmr verdi:

– Hamı atlansın.

Altı yüz kişi atlandı.

Şeytan:

– Siz tez gedin, mən arxanızca gəlirəm.

Müşarifin adamları atlarını Hz. Məhəmmədin olduğu karvanın arxasınca qovdular.

Bu zaman qureyşlilərin karvanı, heç nədən xəbərsiz yavaş-yavaş yol alıb getməkdəydi.

Zübeyr bir neçə dostu ilə dəvələrin önündə gedirdi. Yolları bir dar keçiddən düşmüşdü. Gecə yağmış yağış selə səbəb olmuşdu. Dar dərəni su elə doldurmuşdu ki, şırıltısı uzaqdan eşidilirdi, qıraqlarından kənara axırdı. Keçəcək bir yol yox idi. Hz. Məhəmməd soruşdu:

– Bu yoldan başqa bir yol varmı?

Yanındakılar:

– Buradan başqa yol yoxdur.

Onlar danışarkən Müşariflə əsgərləri yaxınlaşırdılar. Bu nədir belə? On-

ları neçə gün qonaq saxlayan, getməklərinə icazə verməyənlər indi nizə, qılıncla arxalarınca gəlirdi.

Məkkəlilər altı yüz nəfərlik əli nizəli, qılınclı görəndə çox həyəcanlanıb qorxdular.

## *SU YARILDI, Hz. MƏHƏMMƏDƏ YOL VERDİ*

Hz. Məhəmməd də arxasına baxdı, bu vəziyyəti gördü. O ürkmədi, qorxmadı. Sakitcə dəvəsindən endi. Dəvəsinin yedəyindən tutdu, yeriməyə başladı. Fırtınalı dəniz kimi səs salıb axan suya girdi. Karvan əhlinə:

– Siz də mənim ardımca gəlin.

Su iki yerə ayrılıb ortadan dar bir yol vermişdi. Zübeyr dəvəsindən endi, onun arxasınca getməyə başladı. Bütün karvanda olanlar Hz. Məhəmmədin ardınca suya girdilər. Heç bir təhlükə olmadan seli keçib o biri tərəfdə toplandılar. Məhəmmədin bu möcüzəsi bərəkətindən özləri və yükləri sağ-salamat o biri tərəfdə oldular. Arxadan gələnlər, azğın selləri görüncə dayandılar. Amma İblis lənətullah onlara yetişərək:

– Niyə durdunuz, tez olun keçin. Məhəmməd bu suyu sizə çox göstərdi ki, qorxub geri gedəsiniz. Əgər su çox dərin olsaydı, onlar necə keçib gedərdi?

İblis atını onlardan öncə suya sürdu. Su Hz. Məhəmmədin möcüzəsi ilə iki ayrılıb dururdu. İblis və altı yüz atlı suya girəndən sonra su Allahın əmri ilə yenidən birləşdi. Bu seldən tək bir kişi belə canını qurtara bilmədi.

Zübeyr bu möcüzəni gördükdə tacir yoldaşları ilə Hz. Məhəmmədin yanına gəldi. Həyatlarını qutardığına görə ayaqlarına düşüb ona minnətdarlıqlarını bildirdilər.

Karvan bu kəramət və möcüzələrin təsiri altında həyəcanla Məkkəyə doğru yavaş-yavaş irəlilədi. Bir neçə gün sonra Hz. Məhəmməd ilk səfərindən geri dönüb karvançılarla birlikdə sağ-salamat Məkkə qapılarından içəri girirdi. Şəhər əhli onları qarşılamaq üçün şəhər kənarına çıxmışdılar. Əbu Talibлə qardaşları qarşılayanlar arasında idi. Məhəmmədi ilk səfərdən qayıdan görüb sevindilər. Tacirlər başlarına gələn hadisələri, möcüzələri bütün xalqa danışdılar.

## *Hz. MƏHƏMMƏDİN YAĞIŞ DUASI*

Artıq Hz. Məhəmməd on iki yaşını bitirib on üç yaşına keçmişdi. O il Hicazda yağış yağmadığından çox qıtlıq yaranmışdı. Torpaqlar qurumuş, çatlamış, çöllər atəş dəryasına bənzəyirdi. Sular çəkilmiş, yer üzü qupquru

olmuşdu. Bitki adında heç nə bitməmişdi.

Əhli-Qureyş yığışıb məsləhətləşdi və qərara gəldi ki, Haşimoğullarının yanına getsinlər. Hz. Məhəmmədə yalvarsınlar ki, o duası ilə Allahdan yağış istəsin. Bu fikirlə hamı razılaşdı. Əbu Talibin yanına getdilər. Hz. Məhəmməd onun yanında idi. Ona doğru gedib ayaqlarına düşdülər.

– Ya Məhəmməd, bizə kömək et. Yağış yağmır, susuzluqdan hər şey məhv olur.

Əbu Talib:

– Məhəmməddən nə xahişiniz var, deyin, bilək.

Qureyşlilər:

– Qardaşın oğluna yalvar. Biz onun nəfsinin mübarəkliyini bilirik. Çox sınanılıb. Hacəti yerinə yetirilir. Arzusu, istəyi qəbul olunur. Ulu Tanrıdan diləsin, biz bu çətinlikdən qurtaraq.

Əbu Talib gələnləri diqqətlə dinlədi. Sonra Ulularla Rəsulullahın yanına gəldi, üzünü yerə sürtüb dedi:

– Ey Məhəmməd, Qureyş uluları sənin qövmündür, qardaşlarındır, yaxın qohumlarındır. Hamı sənə üz tutub yalvarır. Bilirlər ki, Ulu Tanrı yanında sənin səviyyən, hörmətin böyükdür. Camaat quraqlıqdan çox əziyyət çəkir. Səndən xahiş edirlər ki, bir dua oxuyub Allahdan yağış istəyəsən. Ulu Tanrı sənın duanı eşidib onlara bir yağış göndərər. Xalqı da sevindirərsiz.

Bu sözləri dinlədikdən sonra Rəsulullah(s.ə.s) durdu, gedib Kəbə Hərəminə girdi:

– Camaat da Hərəmə gəlsin, gözlərini göyə diksin, əllərini də göyə açsın, – dedi.

Qureyş xalqı eləcə də etdi. Hamısı üzlərini Hərəmə tutdu. Gözlərini göyə dikdi. Əllərini göy üzünə açdı.

Hz. Məhəmməd də dediyi kimi etdi. Və... O mübarək gözlərindən sel kimi yaşlar axıtdı, Ulu Tanrıya yalvarmağa başladı.

Hz. Məhəmməd qəlbdən yanır, sel kimi göz yaşları axıdırdı. O bu cür gözəl dualar edirdi: "Ey aləmlərin Rəbbi! Ey Rəzzaqi-xeyrür-raziqin! Sənsən bilən, görən və eşidən. Bu qullarının nə istədiyini bilirsən. Sən hüdudsuz nemətlərindən hər kəsə verdin. Səni tanımayanları da nemətlərindən uzaq etmədin. Hamıya payladın. İnsan kafir olmalıdır ki, bunu dansın. Bunun üçün də bütün dünya Sənin əmrinə möhtacdır, Sənin. Bu aciz qulların yazıq olmuşlar. Hamısı doğru yoldan çıxmış dinsizlərdir. Butün günahlar da onlardadır. Onların üzərindəki böyük yük qoca dağlardan da qocadır. Amma, ey Uca Tanrı bağışlamaq, kərəm və rəhmət Sənindir. Nemətlərini Sən verirsən, çünki bütün nemətlər Sənindir. Mənim kimi yetim və yoxsul qulunu bəy etdin. Bunlar da bunu duyub anladılar. Mənim Sənə müraciətim

üçün əlimdən tutub çox yalvardılar. Dedilər ki, Səndən başqa yardım edəcək bir kimsə yoxdur. O Ulu Tanrıya Sən yaxınsan, bizə vasitəçilik et. O Rəbbinin hüzurunda dur. Ey rəhim və kərim olan Allah, artıq Sən bilirsən. Yazıq olan qullarına rəhm et. Məni də bu camaatın içərisində utandırma. Yenə bu xalq içərisində özünü və ucalığını göstər. Nə qədər bu xalqın günahı çox olsa da duamı qəbul eylə,ey Yaradan". Allah Hz. Məhəmmədin bu ürək yanğısı ilə oxuduğu duanı qəbul etdi. Çox keçmədi ki, buludlar göy üzünü tutdu, hava sərinlədi və yağışlar yağmağa başladı.

Məkkəlilərin arzusu yerinə yetdi. Hz. Məhəmmədin adı yenə də nəsli, qövmü arasında hörmətlə, məhəbbətlə çəkilirdi. Ətrafda ancaq onun düzlüyü, doğruluğu,sadəliyi haqqında danışılırdı. Bu da dillərdə bir dastan oldu. Beləcə bir il də keçdi.

## *MƏKKƏLİLƏRİN ARASINDA ZALIMLARIN TÖRƏMƏSİ*

Məkkəlilər Hz. Məhəmmədin doğulduğu gündən bəri yoxsulluqdan qurtulmuşdular. Bəy olmuşdular. Hz. Məhəmməd ana bətnində olanda Əbrəhənin buraxdığı mal, onun uğurlu və mübarək qədəmi məkkəliləri çox varlı etmişdi. Hansı işə və ya ticarətə əl atırdılarsa, yaxşı qazanc götürürdülər. Qövm və qəbilələrin nüfuzu artırdı. Çoxu varlanmış, amma tamahları da gündən-günə artırdı. Özlərindən kiçik tayfalara güc göstərməyə, zülm etməyə, öz əmrləri ilə incitməyə başlamışdılar. Hər kimdən bir sey alsalar, geri verməzdilər. Kim haqqını istəsə, ağzını açıb bir söz desə, onu döyməyə qalxırdılar.

Zülmkarlardan biri də Vail oğlu As idi.

Bir gün Yəməndən gələn tacirdən bahalı Yəmən parçasından bir çuxa aldı. Amma pulunu vermədi. Taciri söydu və döymək istədi. Yəmənli şikayətçi oldu. Bu şikayət Hz. Məhəmmədin qulağına çatdı. Hz. Məhəmməd bu vəziyyəti Əbu Talibə dedi. Əmisi Əbu Talib:

– Ya Həbibi, ya Məhəmməd, o Vail təbiətcə çox sərt adamdır. Sözü dilində, qılıncı əlindədir. Ona söz anlatmağın yolu yoxdur, mümkün də deyil.

Vaildən başqa zülm edənlərdən biri də Xələf oğlu Übeyy idi. Atiqül Bark oğlı Müşaifdən Taif rənglənmiş dəri almışdı, pulunu verməmişdi.

Bir gün xalq Kəbəni təvaf edirdi. Uzaqdan bir qışqırıq, fəryad qopdu.

Səsi gələn kim idi? Nə istəyir? Bunun səbəbi Mahir oğlu Kəbın qızına hücum edilməsi idi.

Kəb ticarətlə məşğul idi. Çox gözəl bir qızı vardı. Bu qızdan başqa övladı yox idi. Qızını heç vaxt yanından ayırmazdı. Hara getsə, onu yanında

apardı. Bazarlıq edər, parça açar, çadır qurardı. Qız çadırın içində oturar, atasının parçalarını düzəldərdi. Atası da bayırda alış-veriş edərdi. O zamanlar Qureyşdə var-dövlətini keyfə, əyləncəyə sərf edənlərdən birisi də Həccaç oğlu Nəbih idi. Bol-bol mal sahibi, zəngin bir kişi idi. O bir gün bazarın içindən keçəndə Kəbın çadırını gördü. Çadırın örtüyünün arasından gözü içəridə oturmuş bu gözəl qıza sataşdı. O saat bu tərəfə gəldi. Çadırın önündə ticarət edən Kəba:

– Ey ixtiyar, içəridə bir qız var, o sənin nəyindir?

Kəb:

– Qızımdır, – deyə cavab verdi.

Nəbih yenə:

– Qızının adı nədir?

Kəb:

– Hüsnədir, – dedi.

Nəbih:

– Ey ixtiyar, o qızını mənə ver. Halal xanımım olsun.

İxtiyar Kəb:

– Ey dəliqanlı, mənim ondan başqa bir kimsəm yoxdur. Mən onu yanımdan ayıra bilmərəm. Amma mən onu elə bir insana verərəm ki, mənim yanımda ikisi də qalsın.

Nəbih bu sözləri eşitdikdən sonra öz adamlarının yanına gəldi:

– Dostlarım, mən bir tacir qızı gördüm. Çox gözəl bir qızdı. Onun sevdası könlümə düşdü, ona vuruldum. Atası vermir. Gəlin çadırın qarşısında onu söhbətə tutun. Mən də çadırın arxasından girim onu qaçırım.

Bu sözləri eşidənlərdən bir neçəsi ona kömək etməyə hazır oldular. Gəlib Kəbı söhbətə tutdular. Yalandan parça almaq istədiklərini bildirib tacirin yanında öz aralarında səs-küy saldılar, bir-biri ilə dava etmək istədilər. Əlbəttə, bu vəziyyətdə Kəbın çadırdan xəbəri ola bilməzdi. Nəbih çadırın arxasından içəri girdi. Qız qışqırmaq istəyəndə əli ilə ağzını tutdu. Qışqırmağa qoymadı. Çəkib bayıra çıxardı. Atına mindirib evinə doğru apardı. Fırıldaqçılar getdikdən sonra Kəb çadıra girdi. Dəhşətə gəldi, bu necə işdi, qızı çadırda yoxdur. Kəb onun qaçırldığını anladı və fəryad etməyə başladı. Bu çadırdan gələn ata fəryadı idi.

Kəb az sonra Hz. Məhəmmədin yanına gəldi:

– Ey ay üzlü Məhəmməd, rəvadırmı sənin zamanında mənə belə zülmlər edilsin? Güc göstərsinlər.

Hz. Məhəmməd soruşdu:

– Dərdin nədir, ya Kəb?

Kəb başına gələnləri və gözəl qızı Hüsnənin necə qaçırıldığını danışdı.

Hz. Məhəmməd bunlara qulaq asıb:

– Əmilərim bura gəlsin, – dedi.

Hamısı gəldi, tacirin başına gələni onlara danışdı.

Əbu Talib:

– Nəbihə adam göndərib çağırtdıraram.

Hz. Məhəmməd:

– Dayanın, mən özüm gedəcəyəm onun yanına.

Hz. Məhəmməd Nəbihin evinə getdi. O da evə gedən kimi Hüsnə ilə baş-başa qalmamışdı.

Hz. Məhəmməd qapıya gəldi. Qapını döydü, adamları qapıya gəldilər. Məhəmmədi görüb Nəbihə dedilər:

– Məhəmməd qapıya gəlib səni istəyir.

Nəbih:

– Qapını bağlayın, içəri buraxmayın.

Uşaqlar da elə etdilər. Hz. Məhəmməd əlini qapıya atdı, baxdı ki, içəridən kilidlənibdir. Sakitcə qapıya barmağı ilə işarə etdi. Qapı tam açıldı.

Hz. Məhəmmədi Nəbihin bacısı qarşıladı:

– Ya Məhəmməd, sənin insaflı olmağından şübhə yoxdur, qadınlar olan yerə nədən girirsən?

Hz. Məhəmməd:

– Mənə Nəbih lazımdır, o ki qadın deyil.

Qadın:

– And içirəm ki, burada deyil.

Hz. Məhəmməd geri döndü. Əmilərinin yanına gəldi. Bu vaxt Qureyş hörmətlilərindən Muğirə oğlu Hərb və Həbib oğlu Müəmmər də orada idilər. Oturmuşdular.

Birdən-birə Həccaç oğlu Nəbihin gəldiyini gördülər. O, tərəfdarlarının yanına gəldi:

– Ey seyyidlər, rəvadırmı ki, Abdullah oğlu Məhəmməd mənim evimə gəlsin, icazəsiz hərəmimə girsin? Qureyş içərisində hörmətim qalmadı.

Seyyidlər bunları eşitdikdə:

– Gördünüzmü, Əbu Talibin yetimi o qədər həddini aşıb ki, Qureyşdə hörmətli sayılan bir kişinin evinə gedir, hərəminə girir.

Bundan sonra hər biri ailəsinə xəbər göndərdi ki, həmən:

– Tez silaha qurşanın, atlanın. Məxzumoğulları camaatına dava düşdü.

Hamı silahlandı. Bu xəbər Hz. Məhəmmədə yetişdi. Ona bildirdilər ki, sən Nəbihin evinə girdiyin üçün qohum-əqrəbası silahlanıb. Sənin ora getməyin onların xoşuna gəlməyib. Vuruşmağa hazırlaşırlar.

Hz. Məhəmməd tez əmilərini çağırdı. Olmuş hadisəni danışdı. Əbu Ta-

lib Haşim oğullarına:

– Tez silaha qurşanın, butun qəbilə atlansın, – tapşırığını verdi.

Hz. Həmzə aslan bədəni ilə birinci atlandı. Ər, qəhrəman, əsl igid bir insandı. Qüvvət və cəsarətinin sərhədi yox idi. Xalqın dilində daima onun ərliyi dolaşırdı. Pəhləvanlar pəhləvanı Həmzə. Böyük qardaşı Zübeyrdən sonra igidlikdə onun şanı dillər dastanı idi. Tacir olaraq dörd yana gedib gələrdi. Məkkədə olanda isə durmaz, ova çıxardı. Hz. Məhəmmədin camalı, əzəməti, kəraməti və möcüzələri dillərdə dastan olanda Hz. Həmzənin də Rüstəm-Zal olduğunu söyləyərdilər.

## *Hz. HƏMZƏ DƏ ASLAN KİMİ KÜKRƏDİ*

Həmzə bir aslan kimi kükrədi. Savaş paltarlarını geydi. Silahlarına qurşandı. Əbdülmüttəlibin oğulları, qızlarının oğulları, onların oğulları, Haşimoğulları, Əsədoğulları bir "Heyy" deyincə üç-dörd yüz kişi bir anda hazır oldu. Atlanıb, silahlandılar. İçərilərində bir seyyid vardı, adı Cədan oğlu Abdüllət idi. Böyük sayğı və hörmət edilən bir kişilərdən idi. Möhtəşəm bir ərdi, adı və sanı da bəlliydi. Qureyş içində o olmadan bir toplantı olmazdı.

Məxzumoğulları ilə Haşimoğullarının bir-birinə qarşı savaşa başlaması xəbərini eşidəndə atına minib evdən çıxdı. Muğirə oğlu Vəlidin yanına gəldi. Burada Üməyyə oğlu Hərbi, Həbib oğlu Müəmməri silaha qurşanmış gördü. Abdüllət onlara doğru gəldi:

– Ey seyyidlər, ey Qureyş böyükləri, nə baş verir?

Onlar bu cavabı verdilər:

– Ey Cədan oğlu Abdüllət, bu Haşimoğullarının əlindən bezdik, usandıq. Artıq çox irəli getməyə başladılar. Bizim onlardan qorxduğumuzu zənn edirlər. Bizə təzyiq edirlər. Bizi heç saymırlar. Hələ Əbdülmüttəlibin yetimi olan Abdullah oğlu Məhəmməd çox ərköyünlük edir. Hərəmin içinə gəlir, Qureyşin hökmünə qarışır. Biz onu öz yerinə oturtmağa qalxırıq. Qureyş hörmətlilərini evinə, hərəminə girməyə başlayıb. Onun haqqında söylənən sözlər çoxdur.Deyirlər ki, o, qanlar tökücü, adətləri dəyişdirici olacaqdır. Deyilənlər doğru çıxmağa başlayıb.

Abdüllət bu sözləri eşidəndə:

– Ey qövm, Haşimoğullarnın ululuğu bizim zamanda başlamamışdır. Onlar atalarımıza da əmrlər verərdi. Onların ataları da bizimkilərdən ulu olublar.

O zaman Məxzumoğulları bu cavabı verdilər:

– Ey Cədan oğlu, Haşimoğulları Qureyş arasında nədən buyruq verməlidir? Bu ululuq, bu seyyidlik onlara haradan gəlib?

Cədan oğlu :

– Haşimoğullarının sizin üzərinizdə üç müxtəlif səbədən böyüklüyü vardır.

Qureyşlilər:

– O üç səbəb nədir? – deyə soruşdular.

Abdüllət:

– Birincisi, Adəm dövründən bəri bir nur onlara miras qalmışdır. Atadan oğula ta İbrahim Xəlilə qədər bu nur nəql olundu. Sonra İsmaila keçdi. Ondan sonra hər kimə bu nur keçdisə, o nur sahibi ərəbin hakimi, ulusu oldu. Nəhayət, o nur atadan oğula keçərək Haşimoğullarına yetişdi. Ululuğun səbəbi budur.

Qureyşlilər:

– İkinci səbəb nədir?

Cədan oğlu Abdüllət:

– İkinci səbəb də budur ki, bu Haşimoğullarının duası Tanrı qatında xahişi yerinə yetəndir. Kəramətləri vardır. Bütün ərəblərin çətinliklərini bunlar həll edər. Haradan düşmənimiz gəlsə, onlar qabağını alarlar. Onların əlindən gələn kəramət bizdə yoxdur. Onların hünəri heç bir ərəb toplusunda yoxdur.

Məxzumoğulları həyəcanla:

– Üçüncü səbəb nədir?

Abdüllət:

– Üçüncü səbəbə gələndə o da Haşimoğullarıından sücaətli, sağlam ürəkli ər kişilər dünyaya gəlməsidir. Pəhləvanlar yetişmişdir. Ərlikdə kimsə bunların qarşısında dura bilməz. Sizin Abdullah oğlu Məhəmmədin Nəbihin evinə girdiyi səbəbsiz ola bilməz. Bilirsiz ki, Məhəmməd əmindir, arifdir. Məhəmməd ədəbdən ayrılmaz ki, kimsə onun haqqında söz söyləsin. Olsa da Nəbih kiməsə zülm edib. Tacirin qızını qaçırmış, evində bağlayıb gizlətmişdir. O tacir də Məhəmmədin yanına gedib, halını anladıb, ağlayıb. Məhəmməd də qalxıb, gedib onun evinə. Qapısından içəri girməsinin səbəbi də qızı geri istəmək olmuşdur. Ey Qureyş qövmü, siz Haşimoğullarına qarşı vuruşmaq istəyirsiniz. Amma siz Bəni-Haşimin qarşısına çıxa biləcək deyilsiz. Məncə, susun. Onların qarşısında dura biləcək bir adamınız vardırmı?

Məxzumoğulları:

– Ey Abdüllat, sənin fikrin nədir? Sən söylə bilək, ona görə də hərəkət edək.

Abdüllət:

– Mən bunu etmək istəyirəm. Sabah səhər evimdə bir ziyafət təşkil edim, hamınızı ora çağırım. Haşimoğullarını da. Sizi evimdə barışdırım.

Məxzumoğulları buna razı oldular. Bu pis işlərindən əl çəkdilər, dağılışıb evlərinə getdilər.

## *ASLANLAR ASLANI DƏMİR ZİREH GEYMİŞDİ*

Abdüllət oradan ayrılandan sonra evinə getmədi. Haşimoğullarının yanına gəldi. Bir də gördü ki, aslanlar hamısı dəmir savaş geyimlərini geyib hazır halda dayanıblar. Abdüllət atdan düşüb Əbu Talibin yanına getdi. Dedi:

– Ey Seyyidi Hərəm, mən gedib Məxzumoğullarını dağıtdım. Çıxıb evlərinə getdilər. Gəlin siz də mərhəmət edin, bu davadan vaz keçin. Sabah səhər mən qulunuzun evinə gəlin. Sizi onlarla barışdırım.

Haşimoğulları bu sözləri dinlədilər. Onlar da dağılışdılar, evlərinə getdilər.

Abdüllət evinə gəldi. Dəvə və qoyunlar kəsdirdi, ziyafətə hazırlığa başladı. Bu vaxt Hüsnənin atası Hz. Məhəmmədin hüzuruna gəlmiş ayağına düşmüdü:

– Ey düşmüşləri qaldıran iki cahanın əzizi, ey zülm əlindən ağlayanları güldürən, ey məzlumlar üçün zalımı yox eləyən, dünyada ədalət ilə insafı göstərən. O məlun nəbadə o qıza əl vurmasın. Əgər belə olarsa, mən öz canımdan keçib özumə qəsd edərəm. Bu sirrimi, ya Məhəmməd, sənə aşkar edirəm.

Hz. Məhəmməd dua edərkən məlun və zalım Nəbih Məxzumoğulları ilə birlikdə evinə yollanmışdı. Böyük bir sevinclə qaçırdığı qızla ilk görüşünü fikirləşir, özünə sığmırdı.

Hz. Məhəmməd duasını bitirdikdən sonra Hüsnənin atasına döndü:

– Ey qonaq, indi get, evində gözlə. Ulu Tanrı o zalımı öz nəfsindən uzaqlaşdırmış, sənin qızına bir ziyan verəcək halı yoxdur. Əlindən bir şey gəlməz və qızına əl vurmaz. Zəhmət və əziyyət verməz.

O gün və gecə keçdi. Ertəsi gün səhər Abdüllət ziyafət süfrələrini hazırlatmışdı. Qureyş uluları toplandı, sonra Haşimoğulları da gəldi. Bütün ulular hazır olmuşdular ki, Hz. Məhəmməd gəldi. Bütün Qureyş uluları onu hörmətlə salamladılar. Onlar zülm edilmiş üç kişini də yanlarında gətirmişdilər. Biri Yəmənli tacirdi ki, Vail oğlu As onun əlindən zorla bahalı bir çuxanı alıb pulunu verməmişdi. İkincisi, taifli tacir Müşarif idi ki, Xaləf oğlu Übeyy zorla dəriləri ondan almışdı. Üçüncüsü də gözəl qız Hüsnənin atası Mahir oğlu Kəb idi.

Məhəmməd keçib oturduqdan sonra Əbu Talib ayağa qalxdı.

## *BİZ ƏDALƏT VƏ İNSAF ƏHLİYİK*

–

– Ey Qureyş ululları, Ərəbül-Ərəb torpaqlarında biz qureyşlilər nə üçün hörmətli və əzizik? Hədən bütün ərəblərin iftixarıyıq? Qureyşoğulları nə səbəbdən əziz və sayğılı oldular? Bilirsizmi?

Bunu eşidənlər:

– Söylə, bir də eşidək, ya Əbu Talib.

Əbu Talib:

– O vaxt dinləyin. Bunun üç səbəbi vardır. Birincisi budur ki, Ulu Tanrı bizə nur əmanət qıldı. O nur sahibinin hörmətinə biz Allahın yanında əziz olduq.

İkinci səbəb budur ki, biz Tanrı evinin xidmətçisiyik, qonşusu və hüquq-mühafizəçisiyik. O nur bərəkətindən və Kəbə qoruyucusu olduğumuzdan duamız qəbul, qılıncımız kəsəndir. Tanrı bizi əziz sayır.

Üçüncü səbəb, odur ki, biz ədalət və insaf əhliyik. Ata-babalarımız, ulularımız çox qədimdən ədalət və insaf ilə iş görmüşlər. Zalımları lənətləyib məzlumlara yar olmuşlar. Biz bu üç şeylə həmişə fəxr etmişik. Adımız bütün ərəblər içərisində ədalət sabibi kimi tanındı. Amma aramızda bir neçə insan var ki, zülmə əl uzatmışlar. Ey qövm, zülm Hərəmullahdan ətrafa yayıldığı gün zalımlar məzlumları tutar. Ondan sonra Kəbə ziyarətinə heç kim gəlməz, heç arzulamaz da. Qureyşin hörməti itər, Kəbə əzizliyini itirər. Bizlər də hərə bir yana köçüb getməli olarıq. İndi soruşacaqsnız ki, niyə köçməliyik, niyə başqa yerlərə dağılmalıyıq? Nə səbəbdən?

Çünki zülm olan yerdə haqq sıxıntı çəkir. Çünki ruzi-bərəkət çəkilər. Xeyir və ehsan kəsilər. Düşmən üzərimizə hücum edər və zəfər çalar. Biz nədən hər yerdə qalib olduq?

Çünki hər yerdə ədalətimizin bərəkətini gördük. İndən sonra bizim işimiz xarablaşır. Hökmümüz icra edilmir. Düşmən üzərimizdə qalib olacaqdır. Hökm onun olacaq, bizi vətənimizdən qovacaqdır.

Əbu Talib susdu. Bu, Hz. Məhəmmədin əmisinin həyəcan təbilli və ürək ağrısı ilə söylədiyi nadir müraciətlərindən biri idi.

Qureyş ulularından ikisi - Abdan oğlu Qeys və Əbdimənaf oğlu Vahab ayağa qalxıb irəli çıxdılar. Öz fikirlərini belə dedilər:

– Ey Əbu Talib, sən düzgün söylədin. Bizim vəziyyətimizi çox doğru, olduğu kimi dedin. Haqqı bu cür düzgün çoxdan eşitməmişdik. Halımızı bizə bu cür gözəl bəyan etdiyin üçün çox sağ ol.

O zaman Hz. Məhəmməd:

– İndi Nəbihi bura çağırın gəlsin.

Bir neçə kişi tez onun evinə getdi. Aaa... Nəbih gələcək halda deyil. Hələ də titrətmə içində idi. Xəstə halında yataqda yatırdı. Gələnlər:

– Ya Nəbih, Qureyş uluları səni istəyirlər.

Nəbih:

– Mənim halımı görürsüz, baxın, necə pis haldayam.

Gələnlər geri döndülər. Hz. Məhəmmədin qarşısına gələrək:

– Nəbihin evinə getdik, onu dünəndən bir titrəmə tutmuş, hələ də davam edir, – dedilər.

Hz. Məhəmməd:

– Bir də gedin, mütləq gəlsin. Məhəmməd səni istəyir deyin.

Onlar yenə dönüb Nəbihin evinə gəldilər:

– Ya Nəbih, Məhəmməd sənin gəlməyini istəyir.

Nəbih Məhəmməd adını eşidən kimi özünü yaxşı hiss etdi, fərəhləndi. Titrəməsi keçdi. Qalxdı, Hz. Məhəmmədin hüzuruna gəldi.

– Ya Məhəmməd, nöqsan mənimdir. Günahımı bağışla. İndi hamının qarşısında tövbə edirəm. Bir də belə pis işlər etməyəcəyəm.

Nəbih Hz. Məhəmmədin əlindən öpdü. Tövbələr etdi. Qardaşı Həccaç oğlu Münəbih Hüsnənin atası Kəbı götürüb Nəbihin evinə getdi. Hüsnəni ona verdi. Vail oğlu As və Xələf oğlu Üməyyə də Hz. Məhəmmədin ayağına düşdülər. Tövbə etdilər, dedilər:

– Ya Məhəmməd, Ulu Tanrı səni bizə səadət və dövlət vermişdir. Nə yazığıq ki, sənin qiymətini bilməmişik.

## *Hz. MƏHƏMMƏDƏ ƏBU BƏKRİN ZİYAFƏTİ*

Hz. Məhəmməd artıq on beş yaşına çatmışdı. Məkkə şəhərində ona cani-qəlbdən vurulmayn kimsə yox idi. Hz. Məhəmməd bu yaşda ikən onun ən yaxın dostu Əbu Bəkr haqda bir çox xoş fikirlər söyləyirlər. Bu il içində Əbu Bəkr Ümmü Rümmanla, yəni Hz. Aişənin anası ilə evlənmişdi. Ona dəvələr yükü cehiz və parçalar gətirmişdi. Əbu Bəkr ticarətlə məşğul olurdu, malı da, pulu da çox idi. Xalqla bir olmaqdan, onlarla təmasdan heç vaxt ayrılmazdı. Alış-veriş edər, yaxşı düşünər, düzgün hərəkətlər edər, öyüdlər verərdi. Ağıllı, igid bir insan idı.

Ticarət mövsümunun başlandığı bir gündü.Ərəb qəbilələri toplanmışdı. Əbu Bəkr, Əmisi oğlu Abdullah oğlu Təlhə, Ceyşəm qəbiləsinin hörmətliləri, Hüzzə qəbiləsinin uluları, Təmimoğullarının seyyidləri bir yerdə idilər. Əbu Bəkr də Təmim qəbiləsindən idi. Hamısı Əbu Bəkrə üz vuraraq dedilər:

– Ey Ətiq, hamımız arzulayırıq ki, nə olardı, bizi Abdullah oğlu Məhəmmədlə bir söhbət etmək üçün toplayasan. Onunla bir az danışaq, mübarək üzünə tamaşa edək. Onun maraqlı söhbətlərini dinləyək.

Əbu Bəkr cavab verdi:

– Arzunuz başım üstə. Mən hamısını təşkil edərəm.

Əbu Bəkr onların yanından ayrıldı. Yaxşı bir ziyafət hazırlığına başladı. Evə gələndə Ümmü Rümmaniyə dedi:

– Cehizlərini, malını ortalığa çıxar, evi bəzə. Qonaqlarımız gələndə görsünlər. Sonra Yasir oğlu Əmmarı tapdı. Ona:

– Ey Yasir oğlu, səndən bir xahişim var. İstəyirəm bu işi sən görəsən.

Əmmar soruşdu:

– Ya Ətiq, ehtiyacın nədir?

Əbu Bəkr:

– Evləndim, ev sahibi oldum. Xahiş edirəm ki, sevimli Məhəmmədi götürüb bizə gələsən. Çünki bu işi səndən başqa asan həll edə biləcək adam yoxdur. Ancaq sənin əlindən gələr.

Əmmar əlini başının üstünə qoyaraq:

– Gətirərəm, o da mənim başım üstə.

– Ya Ətiq, Məhəmməd səni canından çox istəyir, əziz tutur.

Əbu Bəkr ovcunda tutduğu bir neçə qızılı Əmmara verdi və dedi:

– Ey Əmmar, canım sənə fəda olsun. Tək seyyidim, sultanım Məhəmmədi evimə gətir.

Əbu Bəkr Yasir oğlunun yanından ayrılıb tez evə döndü. Hazırlıq etdi. Təmimoğullarına xəbər göndərdi. Bunların arasında Sahıq oğlu Ömər, Übeydullah oğlu Təlhə, Bəşir oğlu Nüman, Əmr oğlu Səid və çoxları vardı. Bunların hamısına:

– Gedin, ən gözəl paltarlarınızı geyinin, − dedi.

Sonra Ceyşimoğullarına, Hüzzaoğullarına da xəbər göndərdi.

Əbu Bəkr bu günün şərəfinə yüz qoyun kəsdirdi. Böyük ziyafət süfrələri hazırlanmışdı.

## *Hz. MƏHƏMMƏD GƏLƏCƏKDİR*

Yasir oğlu Əmmar da Əbu Bəkrdən ayrılıb Hz. Məhəmmədin yanına getdi. Hz. Məhəmməd onu görüncə nəzərlərində: “Nə var?” – sözləri oxunurdu. Üzünə baxdı. Onun üzündə bir sevinc və bəxtiyarlıq izləri vardı. Gülümsədi:

– Ey Yasir oğlu, görürəm çox fərəh içindəsən. Könlündəki o sevinci yaxşı görürəm.

Əmmar:

– Bəli, ya Həbibi, − dedi. Həzrətinizdən bir diləyim var. Əgər qəbul etsəniz, onda sevincim iki qat olar. Məni bura sənə bu arzunu bildirmək üçün göndəriblər.

Hz. Məhəmməd:

– Nə dilək üçün səni göndəriblər de, bilək.

Əmmar:

– Ey Məhəmməd, sənin sadiq dostun Əbu Quhafə oğlu Ətiq hazırlıqlar etdi, ziyafət hazırladı. Sənin mübarək ayağının onun evinə qədəm qoymasını arzulayır. Həm öz qəbiləsinin hörmətliləri, həm də başqa qəbilələrin ulularını evinə dəvət etmişdir. Hamısı sənin mübarək üzünə tamaşa etmək həsrətindədir. Əbu Bəkr səni gətirməyi mənə tapşırdı. Bilirəm ki, sən məni dostunun yanında utandırmazsan.

Əmmarın bu sözlərindən sonra Hz. Məhəmməd onun dəvət xahişini qəbul etdi. Birlikdə Əbu Talibin evinə gəldilər. Əbu Talibin xanımlarından Əsəd qızı Fatimə onları qapıda qarşıladı. Hz. Məhəmmədi bağrına basdı, dedi:

– Ey Həbibi, ey gözümüzün işığı, haradasan? Bu gün evə gec gəldin? Səhərdən bəri yemək yemədin. Sənə isti çörək gətirim, indi təndirdən çıxarmışam, yağla, balla ye.

Hz. Məhəmməd:

– Ay ana, əmim Əbu Talib haradadır? Bu gün hara getdi?

Fatimə xanım cavab verdi:

– Harisoğulları Məkkə səhərinin ulularını toplamış, toy edir, ziyafət verir. Əmin Əbu Talib oraya gedib. Ancaq axşam qayıdacaq.

Hz. Məhəmməd:

– Məni də əziz dostum, sirdaşım Əbu Bəkr dəvət edib. Ora gedəcəyəm.

Fatimə:

– Ya Seyyid, sən bilirsən ki, əmin səni Qureyş qövmündən qorumaqdadır. Çünki bir dəstə həsəd aparanlar var ki, səni sevməzlər. Bəzi məlunlar səni görmək belə istəməzlər.

Hz. Məhəmməd:

– Ətiq məni sevənlərdəndir. Mənim dostlarımdandır. Fikirləşirəm ki, Əbu Bəkr mənə qarşı pislik edilə biləcək bir yerə çağırmaz. Mən də dostlarımın yanından ayrılmaram.

Fatimə dayanıb baxdı:

– Yaxşı, −deyib susdu.

O zaman Hz. Məhəmməd:

– Mənim üçün seyyidlər geyimimi hazırla.

Fatimə tələsik onun istədiyi paltarlarını hazırladı. Hz. Məhəmmədə geyindirdi. Bu libas babalarından qalmışdı. Paltar onun əyninə elə bil indi tikilmişdi. Rəsul(s.ə.s) nə geyərdisə, onun gül üzünə yaraşardı. Paltarları daima təmiz, pak olardı. Heç bir canlı üzərinə qonmazdı, hətta ağcaqanad belə. Seyyidlik libasını geydikdən sonra Əmmara: "Hazıram", − deyən Hz. Məhəmməd Kəbəyə gəldi. Əmmar da onunla Hərəmə girdi.

Əbu Bəkr də öz tərəfindən ziyafət hazırlığını tamam etmiş, bütün qəbiləsini evinə çağırmışdı. Ətiq, yəni Əbu Bəkr Hərəmə gəlincə Hz. Məhəmmədlə Əmmarın oturduğunu gördü. Yanında Übeydullah oğlu Təlhə da vardı. Əbu Bəkr Hz. Məhəmmədin önünə gələrək:

– Salam, ya Məhəmməd, ya Seyyid.

Sonra yanında oturdu. Sözünə başladı:

– Ya Həbibi, ya Məhəmməd, sənin Həzrətinə üz vurdum. Öncə Uca Allahdan dilədim ki, sənin xidmətində durum. Dilədim ki, qohum-əqrəba yanında məni utandırmayasan, gələsən. Etibarım yüksəlsin. Mübarək ayağın mənim evimə şərəf versin.

## *ÜZÜ, ÖZÜ, HƏM DƏ SÖZÜ GÖZƏLDİR*

Hz. Məhəmməd içəri keçdi. Mübarək üzünün nurundan Əbu Bəkrin evinə nur səpələndi. Saçının qoxusu otağa yayıldı. Bu qoxu ürəkləri fərəhləndirdi.

Əbu Bəkr Hz. Məhəmmədin ayağına düşdü. Dedi:

– Ey Həbibi, ey Seyyid. Bir diləyim var. Mənim o xahişimi qəbul etsəniz...

Hz. Məhəmməd:

– Ey Ətiqə, nə arzun var, de, eşidək.

Əbu Bəkr:

– Ey Həbibi, ey Məhəmməd. Üç qəbilədən bura əlli yeddi seyyid gəlmişdir. Onların xanım-xatunları da buradadır. Səndən bir xahişləri var ki, icazə verəsən gəlib sənin mübarək üzünü görsünlər.

Hz. Məhəmməd yenə gülümsədi:

– De, gəlsinlər.

Seyyidlərin xatunları gəldilər, Hz. Məhəmmədin ayağına düşdülər. Onu ziyarət etdilər.

Sonra yeməklər gətirdilər, hazırlanmış süfrələrə oturdular. Adət və ənənələrlə yeyildi, içildi. Gözəl söhbətlər etdilər. Əsl candan Hz. Məhəmmədə sayğı göstərdilər. Axşam olduqda Hz. Məhəmmədi Əbu Bəkr yola saldı. Ona bir

kisə qızıl, on geyimlik ipək parçanı isə Əmmarın əlinə verdi. Sonra Osman oğlu Təlhə də Hz. Məhəmmədin qabağına düşüb onu Əbu Talibin evinə gətirdilər.

Əbu Talib az öncə Harisoğullarının ziyafətindən dönmüşdü. Evə girən kimi Fatiməyə:

– Ey Əsədin qızı, Məhəmməd hara gedib?

Fatimə cavab verdi:

– Əbu Bəkrin ziyafətinə dəvət edilmişdi, oraya getdi.

Əbu Talib bu sözü eşidəndə dəlicəsinə bağırdı:

– Nə dedin, evdən bayıra getdimi?

Əlini qılıncına uzatdı:

– Sənə kim icazə verdi ki, Məhəmmədə izin verəsən? – dedi. Kim onu götürüb başqa yerə apardı?

Fatimə xatun:

– Ey Əbu Talib, indi Məhəmməd igidlik çağına çatıb. Ağıl sahibidir. Ona kim hökm edə bilər? O kiminsə öyüdünu dinləyərmi? Onun kimdənsə qorxusu varmı?

Əbu Talib həmən oğlu Talibi və qardaşı Müqəvvili və böyük qardaşı Harisin oğlunu çağırdı. Qılınca qurşandılar. Ata minib evdən ayrıldılar. Hamı həyəcan içində idi. Onlara xəbər vermədən niyə getmişdi? Əbu Cəhl məğlubiyyətlərini, qisas almağı unutmamışdı. Qureyşın içində bir dəstə insan ondan qisas almaq istəyirdi. Onun adil hökmlərindən şikayətçi idilər.

Əbu Talib:

– Əbu Bəkrdən, Quhafə oğullarından bizə pislik dəyməz, heç vaxt da küsülü olmamışıq. Amma ola bilər ki, bunu bilənlər pusqu qursunlar.

Əbu Bəkrin evindən geri dönəndə Hz. Məhəmmədlə birlikdə Əbu Bəkr və Təlhə öndə gedirdilər. Arxalarında Əmmar və dostları mühafizəçi kimi gəlirdilər.

Əbu Talib bunu görüncə ürəyinə su səpildi, tam sakitləşdi.

Hz. Məhəmmədin aydan parlaq üzü parlayırdı.

Əbu Talib və onu müşayiət edənlərlə Əbu Bəkr, onun arxasınca gələnlər qarşı qarşıya çıxdılar.

– Ya Məhəmməd, haradasan? Gözlərimiz yolda qaldı.

Əbu Bəkr Əbu Talibə salam verərək:

– Ya Əbu Talib, ya Seyyidül-Hərəm, qəbiləmin seyyidləri, hörmətliləri Məhəmmədi görmək və onun ay üzünə tamaşa etmək istədilər. Ona görə də mənim evimdə bir yığıncaq etdik.

## *MALIM, CANIM MƏHƏMMƏDƏ FƏDA OLSUN*

Əbu Talib bir tərəfdən Hz. Məhəmmədi bağrına basır və deyirdi:

– Ey Həbibi, bu gün sənin gözəl üzünü görmədim. Bu dünya mənə qaranlıq gəldi.

Əbu Bəkr də sözünə davam etdi:

– Ey Haşimoğulları seyyidi. Atam, anam, malım, mülküm Məhəmmədə fəda olsun. Mən də ona qurban olum. Bizi bağışla. Sən evdə yox idin, ona görə də izin ala bilmədim, təkəbbürlük etdim. Seyyidim Məhəmmədi apardım. Mənim günahımı bağışla.

Əbu Talib:

– Ey Ətiq, sən əsil dostsan. Səndən pis bir iş olmaz, amma yaramaz bir dəstə var ki, onlardan hamılıqla Məhəmmədi qorumaq lazımdır.

Əbu Talib bağrına basdığı Hz. Məhəmmədi yanına alıb evinə doğru yollandı. Evə gəldikdə Fatimə xatunun necə həyəcanlı olduğunu gördülər, o ancaq Hz. Məhəmmədi gördükdən sonra sakitləşdi.

Günlər qaçır, illər də beləcə tez-tez ötürdü.

Artıq Hz. Məhəmmədin yaşı iyirmini keçmişdi.

## *Hz. MƏHƏMMƏDİN XƏDİCƏ İLƏ EVLƏNMƏSİ*

Günlərin birində Qureyş ulularından biri Hərəmə gəlmişdi. Hərəm eşiyində oturub danışırdılar. Bu vaxt Məkkəyə Şam xristianlarından bir karvan gəlirdi. Karvan şəhərin qapılarından içəri girdi. Karvançıların arasında keşiş vardı. O, Hərəm eşiyində oturanlara doğru gəldi. Kim idi bu gələn? Bu Tilmiz oğlu Mühəlhəl idi. Elmli bu insan, İncili, Tövratı oxumuş, tədqiq etmişdi və gözəl bilirdi. Gələcək axırzaman peyğəmbərinin surətindən, keyfiyyətlərindən xəbərdar idi. Onları xalqa çatdırırdı.

Mühəlhəlin onlara tərəf gəldiyini görən Qureyş uluları ayağa qalxıb onu salamladılar:

– Salam, ey böyük xəbər gətirən, xoş gəlmisən.

Qureyşlilər arasında Haris oğlu Nəzr də vardı. O, keşiş Mühəlhələ:

– Ey xəbər gətirən, oxuduğundan, öyrəndiklərindən, əcaib-qəraib bildiklərindən bizə bir xəbər ver. Bu sözləri səndən eşidək, – dedi.

## *KEŞİŞİN Hz. MƏHƏMMƏDİ TƏSVİR ETMƏSİ*

Mühəlhəl cavab verdi:

– Nə oxudum, öyrəndim və bilənlərdən soruşdumsa, sizin şəhərinizdən, sizdən əcaib bir şeylə rastlaşmadım. Dünyaya maraqlı hadisələr sizdən gələcəkdir. Bundan başqa yeni nə oxudum, nə də bildim, heç eşitmədim də...

Qureyşlilər:

– Bu xaçpərəst nə deyir belə? Ey Tilmiz oğlu, bizdə nə əcaiblik var? Şəhərimizdə nə əcaiblik var? Bizim içimizdən çıxacaq əcaibliyi bizə söylə, biz də bilək.

Mühəlhəl dedi:

– Ey Qureyş əhli, sizdəki əcaiblik odur ki, bu günə kimi bütlərlə məşğul olmusunuz, bütə də ibadət edirsiniz. Bundan xəbəriniz yoxdur ki, yaxın illərdə hər şey pozulacaqdır. Bu cəmiyyətiniz, birliyiniz dağıdılacaqdır.Yeni bir millət olaraq meydana çıxacaqsınız, bütləriniz qırılacaqdır. Amma o qədər qəflət yuxusundasınız ki, bunlardan heç xəbəriniz yoxdur.

Qureyşlilər:

– Məkkə şəhərinin əcaibliyi nədədir?

Rahib Mühəlhəl cavab verdi:

– Məkkə şəhərinin əcaibliyimi? O da budur ki, bu Məkkədən bir gün Rəsuli-Mübin çıxacaqdır. Şərqdən qərbə kimi hər yeri qılıncı ilə öz hökmu altına alacaqdır. Qeysərdən, Kəsradan tacı-taxtı alacaqdır. Ona Furqan (haqq ilə batili bir-birindən ayıran) (Qurani-Kərim) adında bir kitab da enəcəkdir. Ona göydəki mələklər qoşun olacaqdır. Onun əmrinə uçan quşlar, yerdə hərəkət edən heyvanlar da baş əyəcəklər. Məkkə bütün illərdən bəri olduğundan da çox şərəfli olacaqdır. Qəribəsi budur ki, başçı, rəhbər olan o insan bir bədbəxt yetim olacaqdır. Fəqir olub malı-mülkü olmayacaqdır. Hətta öz qohumlarından və qəbiləsindən də düşmənləri olacaqdır. Necə düşmən olacaqdır? Ona qəsd edəcəklər, dediklərini rədd edəcəklər. Amma onun taleyi açıq olacaqdır. Sərqin, qərbin bütün hökmdarları, məlik və bəyləri ona itaət edəcəklər. Sultanlar onun önündə baş əyəcəklər. Ona çox yaxın biri də köməkçisi olacaqdır. Bu əmisi oğludur ki, at çapmaqda məharətli, kəskin qılınclı, qolu qüvvətli və səadətli olacaqdır. O Rəsul düşməninə qarşı çox heybətli görünəcəkdır. Dəlil və kəramət sahibi olacaqdır. Hətta indi gözümə elə görünür ki, bütləri öz əli ilə qırıb yerə atacaqdır.

Qureyşlilər bu sözləri eşitdikdə gülüşdülər. Biri Mühəlhəldən soruşdu:

– Ey keşiş, Yəmən kahinləri də bu cür sözlər demişdilər. Onların hamısı həlak oldu. Bu dünyadan köçüb getdilər. Ancaq Qureyş sağ-salamat durub. Bu əlamətlərin biri də Məkkədə olmadı, görünmədi. Sən də Yəmən kahinlə-

rinin sözlərini təzələyib bizə söyləyirsən? Yoxsa Səmavi kitabdan öyrənib deyirsən?

Mühəlhəl onlara cavab verdi:

– Ey Qureyşlilər, siz nə yazıqsız! Dünyada sizdən biliksiz insan görmədim. Bu savadsızlıq və mala düşkünlük sizi çox abdal etmişdir. Siz nə haldasınız? Bu əhval nədir? Vay, vay, vay. Nə əvvəl, nə də sonra bir şey anlaya bilmədiniz. Nə batili, nə də zahiri bilirsiniz. Başçısının sözünü anlamayan öz sözünü necə dərk edə bilər?

Mühəlhəl axırzaman peyğəmbərini tərif və təsvir etməyə başladı:

– Məkkədən çıxacaq olan insanı Tanrı ulu etdi. Heyvanlar belə onu tanıyır. Sizin könlünüz nə üçün bağlanıb? Siz nadan, cahil və kor olmusunuz. Sizə bilgilər verilir. Nə qədər xəbərlər gətirilir, heç birini dinləmirsiniz. Əlamətlər söyləyirlər, anlamırsız. İçinizdən bir ər görunməkdədir. O inci, gövhər sizdədir. Siz tikansınız, gülünüz ay üzlüdür. Hər kəsdən etibarlı yaradılan odur. İçinizdən onun kimi tərtəmiz birisi olmamışdır.

Keşiş Mühəlhəl gələcəyi olduğu kimi deyirdi:

– O, əmin, sadiq və ədəblidir, bütün fəzilət və hünərlərlə doludur. Onun üzünün nuru göylərin günəşidir. İnanıram ki, yaşı qırxa çatanda bütün dünyanı tutmağını, ölkələri zəbt etməyini görərsiz. Bütün krallar, hökmdarlar, məliklər mülkünü tərk edəcəklər. Onun qılıncı şərqdən qərbə kimi hər yeri tutacaqdır. Hələ birisi ona elə dost olacaqdır ki, aslanlar aslanı, pəhləvanlar pəhləvanı. O, Rəsulu inkar edənlərin boynunu vuracaqdır. Məşhur pəhləvan Rüstəm Zal kimi onun önündə gedib ona yol açacaqdır.

Bu sözləri eşidən Qureyşlilər:

– Keşiş Mühəlhəl də əvvəllər deyilənləri deyir. Kahin Satih də elə bu sözləri demişdi.

Mühəlhəl məkkəlilərə gələcək haqqında və Hz. Məhəmməd barədə xəbərləri verdikdən sonra onlardan ayrıldı, bir neçə gündən sonra geri döndü.

Nədən Şam və xristian bölgələrində axırzaman peyğəmbərinin yaxında gələcəyi haqda söhbətlər dolaşırdı?

Hz. Məhəmmədin Yəmən səfərindən sonra əmisi Əbu Taliblə birlikdə getdiyi ilk Şam səfəri var idi ki, adı o zamandan dillər əzbəri olmuşdu. Əbu Talib ticarət üçün yola çıxanda Hz. Məhəmmədi özu ilə götürmək istəməmişdi. Çünki Şam səfəri çox əziyyətli idi. Amma Hz. Məhəmmədin inadlı olduğunu gördükdə onu götürmək məcburiyyətində qalmışdı.

## *Hz. MƏHƏMMƏDİN BAŞI ÜSTÜNDƏ BULUD*

Hz. Məhəmməd 12-13 yaşında ikən Şam səfərinin ilk təəssüratını həmişə yada salardı. Məkkədən qalxan Əbu Talibin karvanı çölləri arxada qoyaraq Suriyaya doğru irəliləyirdi. Çöllər getdikcə arxada qalır, onları yaşıl vadilər əvəz edirdi. Nəhayət, bir gün Bursada bir xristian məbədinin yanında durdular. Ağacların altında kölgədə bir az dincəlmək üçün dəvələrdən endilər. Karvan bu yerə Məkkədən Mədinə yoluna Şam istiqamətində hərəkət edərək gəlib çatmışdı. Bir monastrın yanında dayandılar. Xristianlığı çox dərindən bilən rahib Buhayra (Cərcis) daima bu monastırda qalırdı. Buradan çox karvanlar keçərdi. Buhayra onlarla qətiyyən danışmazdı, heç gözlərinə belə görünməzdi. Amma bu karvan dayanmamışdan əvvəl bir buludun onların üzərində hərəkət etdiyini gördu. Karvan dayananda bulud da onların üzərində dayandı. Buhayra yeməklər hazırlatdırıb karvan əhlini yeməyə dəvət etdi. Yeməyə gələn zaman buludun yerində qaldığını gördü.

Buhayra (bəzi mənbələrdə Çərcis ) Çərcis ləqəbli rahib burada yaşayırdı. Müqəddəs kitabları oxumuş, biliyi də çox idi. Gözləri Məkkə yoluna baxırdı. Birdən nə gördü? Bir parça bulud karvanın üzərində hərəkət edirdi. Karvan dayananda bulud da onların üzərində dayanırdı.

Karvandakı o səadətli kimsə bir ağac altında dayandığı zaman buludun da onun başı üstündə durduğunu və hətta ağacın altında olduğu zaman yarpaqların yaşıllaşdığını, budaqların təravətləndiyini və onları daha yaxşı qorumaq üçün əyildiklərini gördü.

Bu bir möcüzəyə bənzəyirdi. Dünyada hər şeydən əlini üzən, heç bir vaxt ərəb karvanları ilə görüşmək adəti olmayan Buhayra onları dəvət etmək istəyirdi. Karvandakı məkkəlilərə ziyafət verməyi düşünürdü. Buhayranın məqsədi nə idi? Uzun zaman idi ki, o insanlarla ünsiyyəti kəsmişdi. Məbəddə uzun illərdir yaşayırdı. Zaman-zaman rahiblərdən biri-birinə əmanət qalmış qədim bir kitabı qayğı ilə saxlayırdı.

Qalxıb öz kiçicik otağına keçdi. Həmin kitabı götürərək kif iyi verən səhifələrini vərəqlədi. Ona lazım olan yeri tapıb bir də oxudu. Sonra gülər üzlə məbədin pillələri ilə aşağı endi. Məkkədən gələn karvandakı bütün tacirlərə axşam ziyafətinə dəvətli olduqlarını söylədi. Əbu Talibin karvan əhli bu xəbəri alınca:

– Bu nə ziyafətdir, xristian keşişinin məqsədi nədir? – deyə soruşdular.

Buhayra:

– Yalnız bir ehtiramdır, – deyə xəbər göndərdi.

İndiyə kimi bu dünyadan ayrılmış keşişin belə bir nəzakət göstərib ziyafət verməsi Əbu Talibi çox təəccübləndirdi. Amma yenə:

– Yaxşı, gələrik, – dedi.

Əbu Talib Məhəmməddən başqa bütün karvan əhlini yanına aldı və Buhayranın ziyafətinə getdi. Yeməyə oturduqları vaxt Buhayra qonaqların hamısının alnına ayrı-ayrılıqda baxdı. Amma peyğəmbərlik nuru heç birisinin alnında görünmürdü. Sonra göy üzünə baxdı. Heyrət...

Karvan dayandığı yerdə hələ də bulud parçası hüma quşu kimi dayanıb kölgə salırdı. Deməli, bu süfrənin səbəbkarı olan yolçu burada yox idi.

– Sizin karvandan kimsə buraya gətirilmədimi? –deyə soruşdu.

– Bir uşaq orada qaldı...– dedilər.

Buhayra:

– Onun da gətirilməsini arzulayıram, – deyə xahiş etdi.

Karvanda peyğəmbərin əmisi Haris də var idi. O qalxıb getdi və Hz. Məhəmmədi götürüb süfrə başına gəldi.

Onlar gələndə keşiş həyəcan içində baxırdı. Uşaq dedikləri Hz. Məhəmmədi gətirərkən bulud da hərəkət edirdi.

Hz. Məhəmməd Buhayranın məclisinə gəldiyi zaman keşiş onu qapıda böyük məhəbbətlə qucaqladı. Sonra ən hörmətli yerdə oturtdu. Yemək yeyilən zaman gözlərini Məhəmməddən ayırmadı, daima onu izləyirdi. Söz söyləyərkən, ağzına bir tikə alarkən onda nəbilik əlamətlərini axtarır, gözünü ondan çəkmirdi. Hz. Məhəmməddə köhnə kitabələrdə oxuduğu axırzaman peyğəmbərinə məxsus əlamətləri görürdü. Bu cizgilər gələcəyi xəbər verən qədim xristian kitablarında deyilən şəxs deyilmi?

Yemək süfrəsindən qalxdıqdan sonra keşiş Buhayra son qənaətə gəlməsi üçün Hz. Məhəmmədə yaxınlaşdı:

– Ey sevimli oğul, Lat və Üzzaya and verirəm, səndən soruşduqlarıma düzgün cavab verəsən.

Hz. Məhəmməd:

– Ey ixtiyar, məndən Lat və Üzzaya andla bir şey soruşma. Mənim içimdə ancaq tək Tanrıya inam var. Ondan çox sevdiyim bir şey yoxdur.

## *BUHAYRA NƏBİLİK MÖHRÜNÜ ARADI*

Keşiş Buhayra tək Tanrıya inanan Hz. Məhəmmədin necə yaşadığını, bədənindəki bəzi işarələri və bir sıra xüsusiyyətləri soruşdu. Hz. Məhəmmədin verdiyi cavablar onun kitabələrdə oxuduqları ilə uyğun gəlirdi, bildiklərini təsdiqləyirdi.

Buhayra itmiş qızıl mədəni tapan insan kimi sevinc içərisində idi. Öz-özlüyündə tam yəqin etdi ki, bu uşaq gözlədiyimiz axırzaman peyğəmbəridir.

Sonra üzünü Məhəmmədə tutub dedi:

– Xahiş edirəm, köynəyini bir az yuxarı qaldır, bir kürəyinə baxım.

Hz. Məhəmməd buna da razılıq verdi. Doüurdan da, Buhayra köynəyi qaldıranda kürəyində axtardığı nişanəni gördü. Bu, peyğəmbərlik möhürü deyilən nişandan başqa bir şey ola bilməzdi. Böyük hörmətlə möhürə dodaqlarını qoydu, nəzakətlə öpdü. Orada olan qureyşlilər qoca keşişin etdiklərinə çaşqınlıq və təəccüblə baxıb bir-birilərinə deyirdilər:

– Məhəmmədin Buhayranın gözündə nə qədər böyük qədir-qiyməti varmış.

Bundan sonra Buhayra Əbu Talibə dönərək soruşdu:

– Bu uşağın sizinlə nə qohumluğu var?

Əbu Talib:

– Mənim belimdəndir, – deyə cavab verdi.

Büheyra:

– Ola bilməz, – dedi, – onun atasının həyatda olmaması gərəkdir.

Əbu Talib o zaman:

– Qardaşımın oğludur, hələ anasının qarnında olanda atası öldü.

Keşiş:

– Bəs anası?

– Anası da beş il öncə vəfat etdi.

Buhayra:

– İndi sözün düzünü dedin... Gözlənilən axırzaman peyğəmbəri bu müqəddəs insandır. İndi lazımdır ki, ehtiyat üçün bu uşağı Şama götürməkdən vaz keçəsiniz, elə buralardan uzaqlaşmanızı məsləhət görmürəm, tez Məkkəyə dönün. Ey Əbu Talib, bu uşağın şanı çox böyükdür. Bir gün gələcək ki, inanılmayan yüksək mövqe sahibi olacaqdır. Şam yəhudiləri onu görüb tanıyar, ona xəyanət edə bilərlər. Onların içində bu əlamətləri tanıyıb bilən kimsələr vardır. Məni dinləyin, mallarınızı Busrada satıb işlərinizi bitirin və Məkkəyə dönün.

Əbu Talib bu sözlərdən sonra Busrada mallarını satıb geriyə Məkkəyə döndü. Keşiş Mühəlhələ qədər gələn hər bir din adamı artıq axırzaman peyğəmbərini Məkkədən gözləməkdə idilər.

Qureyşlilərin bir qismi bütün bunlara inanmır, gülür, Mühəlhəlin sozunü isə lağa qoyurdular, ələ salırdılar. Bir qismi isə deyirdi:

– Siz bu deyilənləri qeyri-mümkün kimi görürsünüz, inanmırsınız, amma bir gün başımıza bir hal gələndə, hər şeyi anlayacaqsınız.

Buhayranın sözləri Məkkədə ildırım sürəti ilə yayldı.

– Şamdan bir rahib gəldi, – dedilər, – axırzaman peyğəmbəri haqqında bunları söylədi.

Qadın, kişi, böyük-kiçik – hər kəs bu xəbərləri dillərdə gəzdirirdi. Keşiş Mühəlhəlin dedikləri Buhayra və bir çox rahiblərin söylədikləri ilə uyğun gəlirdi. Bütpərəst məkkəlilər bu deyilənləri diqqətlə dinləmirdilər. Amma onların içindən çıxanlar Məhəmmədin doğru yola dəvətini tez bir zamanda görəcəkdilər.

## *Hz. MƏHƏMMƏDƏ XƏDİCƏNİ MƏHƏBBƏT BAĞLAYIR*

Hz. Məhəmmədin yaşı iyirmini keçmişdi. Məkkədə Xədicə adında bir qadın yaşayırdı. Qureyşli idi. Atasının adı Xüveylid idi. Bu vaxta kimi iki dəfə ərdə olmuşdu. İndi isə subay idi. Çox zəngin, malı-mülkü bol idi.

Xüveylid qızı Xədicənin bir əmisi vardı, bilgili bir insandı. Adı Nofəl oğlu Vəraqə idi. Vəraqə Xədicənin atası ilə ana bir qardaş idilər. Çox elmli idi. Bir çox kitablar oxumuş, gələcək olan peyğəmbərin nişanələrindən, sifətindən və xasiyyətlərindən xəbərdar olmuşdu. Həm də Hz. Məhəmmədi sevənlərdən biriydi.

Xədicə xatun gecə yatarkən bir yuxu görür. Görür ki, göydən bədrlənmiş bir ay yavaş-yavaş aşağı enir. Enib evinə girir. Evdən ona doğru uzanır və Xədicə xatunun qoynuna girir. Xədicə xatun yuxunun şirinliyindən gözlərini açmaq istəmirdi. Səhəri gün əmisi Vəraqənin yanına gedir və gördüyü yuxunu təfsilatı ilə ona danışır:

– Əmi, bu axşam yuxumda on dörd günlük bir ayın göydən yerə endiyini və qoynuma girdiyini gördüm. Bunu mənim üçün yoza bilərsənmi?

Əmisi qorxu və təəccüb dolu baxışlarla Xədicəyə baxaraq:

– Ey Xədicə, ya sən bir peyğəmbər doğacaqsan, ya da peyğəmbərə ərə gedəcəksən, – deyir.

Xədicə həyəcanla:

– Bir peyğəmbər doğacağam? Bir peyğəmbərlə evlənəcəyəm?

Vəraqə:

– Sus, bu yuxunu heç kimə danışma. Kimsəyə xəbər vermə.

Xədicə xatunun qəlbinə bu müjdə çox təsir etmişdi.

O zamanlar iyirmi yaşını keçmiş Rəsulun (s.ə.s) sevgi və məhəbbəti onun qəlbində yer etməyə başlamışdı. O, ağıllı, saleh, arif və seyyidə qadın idi.

Bu sevgi onun qəlbində qaldı, onu heç kimə açmadı. Kimsəni özünə sirdaş qılmadı. Sevgi isə gündən-günə artırdı.

## Hz. XƏDİCƏ SEVGİSİNİ ÜRƏYİNDƏ SAXLAYIR

Xədicə xatun gündən günə artan sevgisini ürəyində saxladı. O. Əbu Talibin həyat yoldaşlarından olan Fatimə ilə yaxın idi. Möhkəm dostluq edirdilər. Daima bir-birinin evlərinə ziyarətə gedib-gəlirdilər. Məhəmməd haqqında da çox söhbət etmişdilər. Fatimə onun mözüzələrindən söz açardı. Buna baxmayaraq Xədicə könlündəki o hisslərdən, sevgidən Fatiməyə bir kəlmə də deməzdi. Sirrini bildirməzdi. Könlündə nələr dolaşırdı? Bunu ancaq özü bilirdi.

Mühəlhəl Kəbə yanında qüreyşlilərə axırzaman peyğəmbəri haqqında söz açdıqdan sonra Şama dönəcəyini bildirdi. Amma üç gün idi ki, Məkkə onun sözləri ilə çalxalanırdı.

Mühəlhəl üçüncü gün Xədicənin evinin divarı dibində oturmuşdu. O gün Əbu Talibin xanımı Fatimə da Xədicəyə qonaq gəlmişdi. İkisi yuxarı eyvanda oturmuşdular. Eyvanın pəncərəsi yola baxırdı.

Allahın böyüklüyünə baxın ki, o gün Hz. Məhəmmədin yolu oradan, Mühəlhəlin oturduğu yerdən keçəcəkdi. Birdən küçənin işıqlandığını hiss etdilər. Hz. Məhəmməd gəlirdi. Bəli, seyyidi-səadət, şəfi-ümmət, Abdullah oğlu Məhəmməd (s.ə.s) gəlirdi.

Mühəlhəl divarın dibindən baxdı. Ona yaxınlaşırdı. Oturduğu yerdən qalxdı, ona doğru getdi:

– Salam, ey həqiqətlər qaynağı, insanların fəzilətlisi, könüllərin cəlbedicisi, yeni dünya bəyi, axirət sultanı, salam, ey üzü aydın, – dedi.

Mühəlhəl onun şərəfinə bir şeir deyib susdu, sonra dua etdi. Hz. Məhəmməd onu dinlədi, gülümsədi, təşəkkür etdi və yoluna davam etdi.

Fatimə və Xədicə xatun pəncərədən bu səhnəni aydın görürdülər. Deyilənləri də aydın eşidirdilər. Onlar həyəcanla rahibin dediklərinə qulaq asırdılar. Hz. Məhəmməd yoluna davam etdikdən sonra Mühəlhəl aşağıda, qadınlar isə pəncərə önündə çaşıb qalmışdılar.

Xədicə xatun o zaman özünə gələrək eyvandan Mühəlhəli səslədi:

– Ey keşiş, o yanından keçən üzü parlaq gənc kimdir ki, sən onu bu qədər tériflədin?

Mühəlhəl başını səs gələn tərəfə qaldırıb yenə Rəsulullahı tərifləməyə başladı.

– Ey xatunlar, qulaq asın! Axırzaman peyğəmbəri, xatəmül-ənbiya budur!...

Xədicə yenə ondan soruşdu:

– Ey keşiş, bunu haradan bilirsən? Haradan bilirsən ki, o ulu bir peyğəmbər olacaq?

Mühəlhəl cavab verdi:

– Bizdən əvvəl gələn peyğəmbərlərin kitablarında bunlar yazılmışdır. O kitablarda axırzaman peyğəmbəri haqqında yazılmış bütün nişanələrin hamısı bu Həbibdə vardır. Bu nəbinin sözünə inanan nə xoşbəxt və səadətlidir. Pislər onlardır ki, onu anlamayacaqlar, müxalif qalacaqlar.

Mühəlhəl bu cavabı verib eyvanın altından qalxdı, yoluna davam etdi.

Xədicənin könlündəki məhəbbət o gündən sonra birə on artdı. Amma könlündə saxladı. Səbr etdi. Görək buna nə vaxt əncam olacaqdır.

## *MƏKKƏDƏ QITLIQDIR*

Bir il Məkkə şəhərində böyük qıtlıq yaranmışdı. Qıtlıq, aclıq xalqın belini bükmüşdü. Qureyşlilər razılığa gəlib Hərəmdə toplandılar. Oturdular. Kecmişdən ata-babalarından söz açdılar. Nəhayət Haris oğlu Nazr dilləndi:

– Geçmiş kişilərdən danışmaqdan vaz keçin, bu gündən, xalqın bugünkü vəziyyətindən danışın.

Bir qisim deyindi:

– İndiki xalqdan nə danışaq, nə edə bilərik?

Nazr:

– Bu gecə mən qəribə bir yuxu gördüm, istəyirsiniz onu sizə danışım.

Qureyşlilər:

– Danış görək sənin yuxun nə imiş?

Nazr sözə başladı:

– Yuxumda gördüm ki, Kəbənin damı birdən-birə yarıldı. İçəridən bir nur yuxarı doğru çıxdı. Göy üzündə durdu. Bundan sonra nur iki parçaya ayrıldı. Yarısı göy üzünə qalxdı, yarısı endi. Məkkəli qadınlardan birinin ətəyinə qondu. O qadın ətəyini silkələdi, nur da silkələndi. Nur xatunun qarşısında bir igid oldu.

Qureyşlilər:

– İgidmi oldu?

Nazr:

– Bəli, bir igid. Həm də Abdullah oğlu Məhəmməddən heç fərqi yox idi. İçinizdə belə bir qəribə yuxu görən vardırmı?

Qureyş hörmətliləri:

– O qadın kim olduğunu bildinmi?

Haris oğlu Nazr:

– Bilirəm, Xüveylid qızı Xədicə xatun idi.

Bu sözləri eşidən və Əbu Cəhl:

– Yalan deyirsən, yuxun da yalandır.

Nazr müqəddəs bildiklərinə and içdi və əmin etdi:

– Doğrudan da, belə gördüm.

Oradan Əbu Ləhəbin qışqırığı gəldi:

– Əgər bu röya doğru olarsa, Məhəmmədin mərtəbəsi çox yüksək, mənzili ulu olacaq.

Bundan sonra söhbətlər yenə qıtlıq mövzusuna keçdi. Ticarət səfərlərinə hazırlıqdan bəhs olundu:

– Qıtlıq, yoxluq canımızı sıxır. Başqa görüləcək işimiz yoxdur, əlac Şama təcili ticarət karvanları hazırlamaqdır.

Qərara gəlib həmən Məkkə içinə carçılar çıxardılar:

– Ey Qureyş əhli, sonra eşitmədik deməyin. Səfər hazırlığına başlayın... Şam tərəflərə ticarətə gedəcəyik.

## *ƏBU TALİB YENİDƏN ŞAM SƏFƏRİNƏ HAZIRLANDI*

Bu sözləri duyan qureyşlilərin hər biri  hər biri səfər hazırığına başladılar.Əbu Talib də evinə gəlib yol üçün lazım olan əşyaları hazırladı. Yüklərini düzəltdi.

Hz. Məhəmməd bunu görüncə:

– Əmi, nə hazırlığı görürsən? Hara gedəcəksən?

Əbu Talb cavab verdi:

– Qureyş ilə Şam səfərinə hazırlaşıram.

– Əmi, çox təəccüb etdim. Heç belə vərdişin, adətin yox idi. Çoxdandır ki, səfərə çıxmırsan, nə oldu ki, birdən-birə Şama getmək istədin?

Əbu Talib:

– Ey Həbibi, ey gözümün işığı, qədimdən malım, mal-qaram vardı. Atamın vaxtında çox nemət toplamışdım. Atam öləndən sonra evimə baxmaq, qıtlıq, başçı vəzifəsi və zəhmətləri məni yoxsul etdi. Artıq çarəm qalmadı. “Hərəkətdə bərəkət vardır” deyirlər. Ona çarə tapdım ki, mən də Şama alış-verişə gedim.

Hz. Məhəmməd:

– Mən də səninlə gedəcəyəm, çünki sən artıq yaşlanmısan, qocalmısan, qüvvətin azalıb. Mənim isə igidliyim, gücüm, qüvvətim yerindədir. Sənə kömək etməyin tam vaxtıdır. İzn ver, mən də səninlə gedim.

Əbu Talib:

– Ya Seyyidi, sənin mehribanlığın və göstərdiyin qayğı mənim üçün hər şeydən artıqdır. Amma mənim sərmayəm çox azdır. Əgər səninlə bərabər

olsaq, o zaman sənə də pay ayırmaq lazım gələcək. Mənim də malım iki kişi arasında paylanan qədər deyildir.

O zaman Əsəd qızı Fatimə sözə qarışdı:

– Ey Əbu Talib, sizə bir şey öyrədim. Bu fikrimin yaxşı və ya pis olduğuna siz qərar verin.

Əbu Talib soruşdu:

– Ay Fatimə, söylə, nə deyəcəksən, baxaq.

Fatimə xatun davam etdi:

– Ey Talibin atası, Xüveylid qızı Xədicəni tanıyırsızmı? Onun mal və sərvəti hədsiz çoxdur. Kimsə onun malının həddini, hesabını bilməz. Həm də özü səxavət sahibi və əliaçıq bir qadındır. Neçələri onun hesabına zəngin olmuşdur. Bəzi məkkəlilər ondan sərmayəlik mal alırlar. Onunla ortaq olurlar. Bəziləri bu sərmayə üçün haqq verirlər. Əli ruzili bir qadındır. Nəfsi toxdur. Xalqa xeyir verməyi sevər. Onun köləsi Meysərə, təsərrüfat işlərini aparır. O da, seyyidəsi Xədicə xatun da oğlumuz Məhəmmədi çox sevirlər. İstəsəniz, mən Xədicənin evinə gedərəm. Həmişə məndən soruşur ki,

– Məhəmməd necədir, səhhəti necədir? Sağ-salamatdırmı? Hətta: “O bizim məmləkətimizin səadəti, dövləti və bərəkətidir” deməyi də unutmur. Təsərrüfat rəhbəri Meysərə də orada olanda dəfələrlə demişdi ki, ey Fatimə xatun, seyyidimiz Abdullah oğlu Məhəmməd necədir? İndi igid, güclü, qüvvətli oldu. Yolu uğurlu, ayağı xoşbəxt, sabahı uğurludur onun. Hə üçün özü işlə məşğul olmur? Niyə qazanclı bir iş görməz. Ticarət babalarımızdan qalma sənətimizdir.

Əbu Talib bu sözləri eşitdikdə:

– Çox gözəl, ey Fatimə, mübarək qapını yada saldın.

Əbu Talib doğru deyirdi. Fatimə xatun gözəl bir fikir söyləmişdi. Mal çox kişidə olur, amma onlarla iş aparmaq xeyir vermir. Malının xeyiri heç özunə də dəymir. Ancaq özü üçün çalışan insan iki cahanda, dunya və axirətdə hər şeydən məhrum olurlar. Malını xeyirli işlərdə istifadə edənin həmişə malı artar. Daima mal, mülk düşünən, “qızıma, oğluma malım qalacaq?” deyən, daxilində gərginlik keçirən bu dünyadan köçəndə bir şey apara bilməyəcəyini düşünməlidir. Çox vaxt o malı və mülkü övladları da düzgün istifadə edə bilmir. Ey ağıllı, bilən, düşünən insan dünyanın son işi nədir? Bunu anla, qəlbindən çıxarma.

Bəli, ərlik malda, mərtəbədə, elm və bilikdədir. Əbu Talib də elmi, biliyi, əqli olan insanların hər işdən baş çıxaracağını deyirdi. Elmi suya bənzədirdi. Ər olan insan, ağıllı kimsə mənalı sözləri başa düşməlidir. Hər yerə toxum atsan və suvarsan, orada nəyinsə bitəcəyi məlim deyil. Amma bərəkətli torpağa atılmış bir toxum tez bir zamanda göyərəcəkdir. Sünbül bitər,

küncüt bitər, gül-çiçək bitər. Torpaq və onun bitkiləri heyvana, insana quvvət verər. Yetişdirdiyi hər toxumdan gələcək bitkilər bitər, bütünlükdə həyat davam edər.

Bərəkətli torpaqda suyun bərəkətini anladan Əbu Talib bərəkətsiz torpağı da anlatmışdı. Bərəkətsiz torpağa nə qədər su verirsən ver, cücərib çıxan ancaq tikan olacaq. Bostanlara, güllü bağçalara axan su isə görün səpdiyiniz toxumları necə də tez cücərdir. Sərv ağacları, yasəmən, qızılgül, bənövşələr, nərgizlər suyun yaratdığı əsərlərdir. Əgər insanın canında da cövhər varsa, o ancaq yaxşı işlər görər. Yoxdursa onda... Bir insanın canında cövhər yoxdursa, o, üzərində heç nə bitməyən ağ gilli və ya duzlu torpağa bənzəyir. O adam sədəf də olsa, içində inci olmayan sədəfdir. Nə qədər çalışsa da, çapalasa da, elmi cəhalətdir. Həyatı boş qeyb olub ziyanla bitər. Cövhər daşıyan insan hər işi ancaq ədalətlə edər. Zalımların boynunu vurar. Kafirlərə qarşı cəbhə açar. Xəbis ruhlu, uğursuz insanlar hər zaman zülm olunmuş kimi görunsələr də zalım olurlar.

Əbu Talib Fatimə xatuna döndü:

– Mənə çox yaxşı yol göstərdin. Təşəkkür edirəm sənə, – dedi.

Əbu Talib sonra üzünü Hz. Məhəmmədə tutdu:

– Ya Həbibi,ya Məhəmməd, Fatimə xatunun dediklərini eşitdinmi? Nə söyləyir, nə xəbər verir? Buna sən nə cavab verirsən? Nə düşünürsən, bu haqda?

Hz. Məhəmməd başını qaldırıb Əbu Talibə baxdı və cavab verdi:

– Mən razıyam, əmi. Məni onunla görüşdürün, danışım. Onun köləsi Meysərə ilə ticarətə başlayaram, alış-veriş öyrənərəm.

Əbu Talib bu cavaba çox sevindi. Ertəsi gün səhərə kimi səbr etdi. Səhər Fatimə xanıma:

– Ya ümmü-Talib, sən indi Xədicənin evinə get. Bu xəbəri ona de, fikrini öyrən, – dedi.

Fatimə tez hazırlaşıb Xədicənin evinə getdi. Hz. Məhəmmədin Şam səfəri üçün razılaşdığını və onun ticarət ilə məşğul olacağı xəbərini Xədicəyə çatdırdı.

## *Hz. XƏDİCƏ Hz. MƏHƏMMƏDİ HƏYƏCANLA GÖZLƏDİ*

Xədicə xatun Fatimə xatunun dediklərini eşidəndə qulaqlarına inanmadı. Hədsiz sevinc və həyəcan içində idi. Tələsik xidmətçilərinə:

– Tez otaqları təmizləyin. Ulu bir qonağımız gələcək, – dedi.

Fatimə xatun evə döndü. Az sonra Əbu Talib Hz. Məhəmmədlə Xədicə xatunun evinə doğru gedirdilər. Uşaqlar böyük saygı ilə qapını açdılar. On-

lar qapıdan içəri girdikdən sonra böyuk bir süfrənin başında oturtdular. Bu ev çox gözəl bəzənmiş, yerə bahalı xalılar salınmışdı. Bir sözlə, "Xədicə xatunun evidir" demək bəs edərdi.

Xədicə xatun ortada yox idi. Qəlbi döyünürdü və pərdə arxasında oturmuşdu. Oradan Əbu Talibə salam verdi:

– Salam, xoş gəlmisiniz, ey Seyyidi-Hərəm. Bizim evimizi şərəfləndirdiniz. Hələ yanınızda on dörd gecəlik ay, günəş kimi parlaq, üzü səadətli, nəbi zəhmli, könlü bəxtli Məhəmmədül Əminül Sadiq də mənim evimə şərəf vermişdir.

Xədicə xatun sonra üzr istədi:

– Məni bağışlayın, gələcəyinizdən çox gec xəbər tutdum. Amma xidmətimiz tam sizin əmrinizi gözləyir. Əlimizdən gələni edərik, yerinə yetirərik.

Əbu Talib:

– Ey qardaşımız Xüveylidin qızı, ey Xədicə, ey Seyyidə, – deyə sözə başladı. Sən qardaşım oğlunun dinini, əminliyini, rəyini, sücaətini, gücünü, qüvvətini çox yaxşı bilirsən. Bunu bütün məkkəlilər bilir. Eşitdim ki, bu yaxınlarda Şam elinə Meysərə ilə parça göndərəcəksən. Diləyim odur ki, qardaşım oğlu Məhəmməd də onunla getsin. Çünki çox kişilərə Yəmənə, İraqa, Şama, Misirə mal verirsən. Məhəmməd də sənin izninlə səfərdə qulun Meysərə ilə birlikdə səfərdə olsun, Şama getsin. Sənin əlindən nemət sahibi olar.

Xədicə xatun cavab verdi:

– Ey əmim Əbu Talib, çox düz söylədin. Lazımlı hərəkət etdin. Mənim də bir neçə dəfə fikrimdən keçib ki, təəccubludür, Seyyidi Abdullah oğlu Məhəmməd yetkinlik yaşa çatıb, niyə bir işlə məşğul olmur. Nə üçün qazanmaq səbəbi ilə yola çıxmaz, ticarət etməz. Yenə bu günlərdə Şama çoxlu mal göndərmək istəyirdim. Amma malımı kimə əmanət edim, bilmirdim. Mənə inandığım bir adam lazım idi. Lakin Qureyşlilər içində Məhəmməddən əmin kimsə yoxdur. Sənin hüzuruna çıxmaq üçün birini göndərmək istəyirdim ki, Məhəmmədi səndən istəyim. Amma sənin ululuğundan utandım. Məhəmmədin heybətindən qorxdum. Dilsiz oldum. Bilmirəm nə söyləyə bildim. Amma sizlər bu işi açınca və Məhəmmədin səfər eyləyərək ticarət edəcəyini söyləyincə, mən artıq sizə deyə bilərəm.

### *Hz. XƏDİCƏNİN Hz. MƏHƏMMƏDƏ TƏKLİFİ*

Xədicə sözünə davam etdi:

– Meysərə Yəmənə getsin. Oradan parça gətirsin. Həm də Yəmən tacirlərinə Şama karvan göndərəcəyimi bildirsin. Onlar da öz hazırlıqlarını gö-

rüb gəlsinlər. Sən də artıq yola hazırlaş. Danşığımız bu olsun ki, mən onları pulla tuturam, iki dəvə yükü parçanın gəlirini verirəm. Amma Abdullah oğlu Məhəmmədə üç dəvə parçanın gəlirini verəcəyəm. Hətta geri dönəndə nə isə gətirib satarsa, onun pulunu da özünə götürsün. Amma parçanın dəyəri mənim olsun. Əgər ilk səfərində işlərimiz uğurlu olsa, ikinci səfərdə ona beş dəvənin gəlirini verəcəyəm.

Əbu Talib:

– Sağ ol, ya Xədicə, – deyərək dua etdi. Sonra Məhəmmədi hörmətlə, izzətlə qapıdan yola saldılar.

Yolda Məhəmməd əmisindən ayrıldı. O, Kəbəyə doğru hərəkət etdi. Kəbəni təvaf edəcəkdi. Orada Qureyş ulularının Hərəmin içərisində oturduğunu və söhbət etdiklərini gördü. Özü kimi Fil ilində doğulanlar bircə-bircə dəliqanlı olmuşdular. Onların da bəzilərinin seyyidlərlə oturduğunu gördu. Amma bunların bir çoxu səfeh bir vəziyyətə düşmüşdülər. Hz. Məhəmmədi sevməzdilər. Bunların qabaqda gedəni Əbu Cəhl idi. Xələf oğlu Übeyy və Xələf oğlu Üməyyə, Həccaç oğlu Nəbih, qardaşı Münəbbih, Haris oğlu Nizər də Əbu Cəhlin yanındaydılar. Hələ bir neçə bunlar kimiləri də var idı. Bunlar Hz. Məhəmmədən nə kəramət görsələr də, yenə inanmazdılar. "Bunlar bir sehrdir", deyərdilər.

Rəsulullahı sevməyən dəliqanlılar onun Kəbəyə doğru gəldiyini görüb gözləri ilə təqib edirdilər. Hz. Məhəmməd Kəbəni təvaf etməyə başlamışdı. Əynində hər gün geydiyi paltarları vardı. Başındakı əmmaməsi də həmişəki idi. Əbu Cəhl Hz. Məhəmmədin ayağına, başına baxdı. Onun yoxsul paltarı geydiyini gördü. "Yəqin təkəbbür və qürur Məhəmmədin könlünə dolmuşdur", − deyə düşündü. Çünki bayırı görüb içi görməzdilər. Ulu Tanrının hikməti belə idi. Əbu Cəhllə bir neçə dostu və Əbu Ləhəb Hz. Məhəmmədin nə içini, nə xaricini, nə əvvəlini, nə də axırını görməzdilər, görə də bilməzdilər. Hər şeyə gözləri, qulaqları bağlanmışdı. O zamana qədər qədim səmavi kitabları oxumuş alimlər − yəhudi biliciləri, xristian keşişləri-bir çox əlamətlərlə Hz. Məhəmmədin nəbiliyini söylədikləri halda, o sözlər qulaqlarına belə girməmişdi.

Hz. Məhəmməd hikmətli sözlər söylədikdə onlar eşitməzdilər. Allahın hikmətlərindən olanları eşidib anlamazdılar. Onların gözlərini bu işığı buraxmayan pərdə qapamışdı. Gözləri də Hz. Məhəmmədin mübarək üzünü, yaxşı hərəkətlərini görməzdi. Əbu Cəhl və dostlarının könüllərinə, gözlərinə, qulaqlarına sanki möhür vurulmuşdu.

Hz. Məhəmməd təvafı bitirib geri döndü. Yolu Xədicənin evinin qabağından keçirdi.

## *KÜÇƏNİ BÜRÜYƏN MÜBARƏK QOXU*

Bu vaxt yəhudi alimlərindən biri Xədicə xatunun qapısının yanında oturmuşdu. Xədicə yuxarıda eyvanda idi. Birdən bir qoxu duydu. Bu Hz. Məhəmmədin mübarək qoxusu idi. Yola baxdı. Aşağıya göz gəzdirdi. Rəsulullahın Hərəm tərəfindən gəldiyini gördü. Tez ayağa qalxıb aşağıya baxdı.

Yəhudi alim Hz. Məhəmmədə:

– Ey aydan arı, günəşdən aydın insan, kimlərdənsən? Hansı qəbilədənsən?

Hz. Məhəmməd:

– Haşim oğullarından Əbdulmüttəlib oğlu Abdullahın oğluyam.

Yəhudi yenidən soruşdu:

– Atan Abdullah nə oldu?

Hz. Məhəmməd:

– Mən doğulmamışdan əvvəl öldü. Bu dünyanı tərk etdi, getdi...

– Səni doğan anan nə oldu?

Hz. Məhəmməd:

– Mənim altı-yeddi yaşım olanda anam da vəfat etdi.

Rəsulullah Əleyhissəlamın anadan da yetim qaldığını öyrənən yəhudi yenidən soruşdu:

– Ya Məhəmməd, sən yetim qalınca səni kim saxladı?

Hz. Məhəmməd:

– Babam Əbdülmüttəlib böyütdü.

Yəhudi durmadam soruşurdu:

– Baban Əbdülmüttəlibdən sonra sənə kim qəyyum oldu, səni kim saxladı?

Hz. Məhəmməd də doğru cavablar verməkdən çəkinmirdi:

– Əmim Əbu Talib saxladı. Onun yanında böyüdüm.

Yəhudi yenə:

– Soruşacağım bir şey qaldı. Bir nişan görmək istəyirəm. Onu da görum, muşahidələrim bitsin.

O zaman Hz. Məhəmməd :

– Görmək istədiyin nişan nədir?

Yəhudi alim:

– Tövratda sənin surətini, nişanələrini oxumuşdum. Sənin kürəyinin ortasında peyğəmbərlik möhürü, olmalıdır. Əgər o nişan yerindədirsə, sonuncu peyğəmbər sənsən.

O zaman Hz. Məhəmməd kürəyini açdı.

Yəhudi nə gördü, iki kürək sümüyünün ortasında möhür vardı. Onun nuru gözlərini qamaşdırdı, baxa bilmədi, nə qədər baxsa da, gözü doymadı.

Yəhudi nübüvvət möhrünü görüncə Hz. Məhəmmədin ayağına düşdü. Dedi:

– Ya Məhəmməd, gördüklərim tamamlandı. Sən Haqq-təalanın ulu peyğəmbərisən. O nişanələr ki, göydən enmiş kitabələrdə yazılmışdır və bizə gəlib çatmışdır, hamısı səndə vardir. Ya Məhəmməd, sən qırx yaşından sonra xalqı haqq dinə çağıracaqsan. Doğru dinə bələdçi olacaqsan. İndi mən bilmirəm, o vaxta sağ qalacağam, ya öləcəyəm. Ona görə də mən sənin dininə indidən iman gətirirəm. Sənin dininə təslim oluram.

Yəhudi bu sözləri deyib barmağını qaldırdı, iman gətirdi. Sonra:

– Ey Məhəmməd, səndən əvvəl nə qədər peyğəmbər gəldisə, onlara ümmət olan xalqların hamısı sənə iman gətirməyincə dinləri doğru olmayacaqdır. Eyni zamanda səndən sonra gələnlərin də, səni qəbul etməsələr, dinləri doğru olmayacaqdır.

Sonra: **"Əqrartü və əməntü bivahdəniyyəti Allahi-təala və birisalətikə və nübüvvətikə, ya Məhəmməd", –** dedi.

İxtiyar yəhudi bu sözləri söylədikdən sonra bir də Hz. Məhəmmədin ayağına düşdü, öpdü. Sonra onunla vidalasıb Hz. Məhəmməd yoluna davam etdi.

Xədicə yuxarı pəncərədən bütün olanları görürdü və Hz. Məhəmmədin yəhudi alimlə danışdıqlarını eşidirdi. Xədicə eşitdiklərindən heyrətə gəlmişdi. Amma bu halına baxmayaraq qəlbindəki dərin məhəbbət onu getdikcə aralanan Hz. Məhəmmədin arxasınca baxmağa məcbur edirdi. Gedirdi...

Birdən yəhudi alimlə danışmaq qərarına gəldi. Onu yuxarı yanına çağırtdırdı. İndi yəhudi alim və Xədicə xatun qarşı-qarşıya oturmuşdular.

Xədicə xatun yəhudidən soruşdu:

– Ey böyük xəbər verən, küçədə kim ilə danışırdın və nə haqda söhbət edirdiniz?

Yəhudi alim:

– Dünyada yaradılmışların yeganəsi, axirət Sultanı, dünya bəyi ilə danışırdım. Məkkəlidir, mədinəlidir, Ümmidir, adı Abdullah oğlu Məhəmməddir. Bütün peyğəmbərlərin seyyidi, xatəmür-rüsul bu olacaqdır. Bəxtsizdir o insanlar ki, ona müxalif olacaqlar. Axirəti dünyaya satacaqlar.

Bunları söylədikdən sonra yəhudi şükr səcdəsi etdi. Sonra Xədicə xatuna "Salamat qalın" deyərək getdi.

## Hz. XƏDİCƏNİN EŞQİ BİR İKƏN MİN OLDU

Xədicə bir daha heyran olmuşdu. Könlündəki bir eşq min olmuşdu. Qəlbi Hz. Məhəmmədin məhəbbəti ilə dolub daşdı. Gözləri üfüqlərə doğru dikildi.

Xədicə xatun indi nələr düşünürdü? Kim bilir?

Uzun müddət bu gizli eşq dalğaları onun fikirlərini toplamağa qoymurdu. Hər an onun siması gözünün önündə durur, amma dili bir kəlmə deməyi belə bacarmırdı.

Günlərin bir günü köləsi Meysərə Yəməndən geri döndü. Xədicə xatun onu yanına çağırdı:

– Ya Meysərə, sənə bir vəsiyyətim var. Duyuram ki, sən bu vəsiyyətimi yerinə yetirə bilərsən.

Meysərə soruşdu:

– Ey Xədicə xatun, mən sənin qulunam. Sən mənim seyyidəmsən. Nə əmr etsəniz, mən o əmrin qarşısında baş əyərəm. Mən sənə tabeyəm. Buyur, söylə, qulaq asım. Buyruğun nədir?

Xədicə:

– Ey Meysərə, Abdullah oğlu Məhəmməd dəliqanlı çağındadır. Onun necə igid, necə zəhmli bir kişi olduğunu bilirsənmi?

Meysərə:

– Ey seyyidəm, Abdullah oğlu Məhəmməd elə bir insandır ki, Hicaz torpaqlarında, bəlkə də dünyada onun kimi yaradılmış bir şəxs yoxdur. O, əsil böyük ədəb, həya sahibidir. Əsli ulu, qövmi hörmətlidir. O özü də qövmünün içində ən sayğılı, kiçiklikdən ibadət və itaət edən səbir və rəy əhlidir. Dost və düşmən içində təmiz adı ilə tanınır. Xalq onun əminliyinə və dəyanətinə vurulub. Üzü mübarək, sözü şirin, qəlbi dürüst, taleyi səadətli, ulu hümmətli, qolu qüvvətli və özü heybətlidir. Qureyş içində adı Əmindir. Ulu Tanrı arzularını yerinə yetirir. Duası məqbul bir quldur. Ey seyyidəm, Məkkə şəhərində onun kimi aydın üzlümüz yoxdur. Alnı kimi parlaq alın, üzü kimi çiçək üz, dili kimi gözəl sözlər deyən dil yoxdur, dünyaya gəlməmişdir.

Xədicə xatun Meysərənin də Hz. Məhəmmədə qarşı bu məhəbbətini gördükdə ona könlündəki sirri ona açmaqdan çəkinmədi:

– Ey Meysərə, Əbu Talib Məhəmmədlə mənim yanıma gəldi. Məndən Şam səfərinə Məhəmmədi səninlə göndərməyimi istədi. Sənə vəsiyyətim budur ki, Abdullah oğlu Məhəmmədi sənin üstündə əmir biləcəksən. Sən ona qul olacaq, buyruğundan çıxmayacaqsan. Onun əmri ilə hərəkət edəcəksən. Əgər bütün malım, xəzinəm yox olsa belə, onun sözündən qırağa

çıxmayacaqsan. "Niyə belə edirsən?" deməyəcəksən?

Onun dediyinə qarşı heç bir söz söyləməyəcəksən. Bütün işlərdə ondan soruşub dediklərini yerinə yetirəcəksən. Sonunda qərarı və əmri də o verəcəkdir.

## *MEYSƏRƏ ŞÜKÜR SƏCDƏSİ ETDİ*

Meysərə Xədicə xatundan bu sözləri eşidincə, o yolunda doğru, ruhu saf, cövhər kölə başını yerə qoyub şükr səcdəsi qıldı. Yeri öpdü:

– Ey sahibəm, sən məni çox sevindirdin. Ulu Tanrımız da səni sevindirsin. Könlünün içindəki muradınla səni sevindirsin. Mənə verdiyin xəbər mənim üçün xoşbəxtlikdir. Doğrudan da mənə sevinc dolu bir gün hədiyyə etdiniz, Ulu Tanrı sizi bir də xoşbəxt etsin. O iki cahan seyyidi də xöşbəxt olsun.

Xədicə bu sözlərdən sonra əmrini verdi:

– Ya Meysərə, indi get hazırlıqlarını gördür, yoldaşlarını tap, danış. Səfərə çıxmağınızı tamamla.

Meysərə əmri alıb:

– Ya Seyyidəm, Abdullah oğlu Məhəmmədə sən zəhmət haqqı olaraq nə verəcəksən? – deyə soruşdu.

Xədicə:

– Üç dəvənin yükünün gəlirini dedim.

Meysərə:

– Azdır xatun, dörd dəvənin yükünün gəliri olsun. Ona minmək üçün yaxşı bir dəvə də lazımdır.

Xədicə:

– Nə lazımdırsa, onları sən et. Bunları sənə həvalə edirəm.

Meysərə ayrılıb getdi, işi çox idi. Yükləri hazırlatmağa başladı.

## *ƏBU CƏHL YENƏ MEYDANA ÇIXIR*

O günlərdə Qureyş səfehlərindən bir dəstəsi yenə Əbu Cəhl lənətullah ilə birlikdə toplaşmışdılar. Uzaqdan Hz. Məhəmmədin gəldiyini gördülər. Nə edəcəkdi Hz. Məhəmməd? Hamısı maraqla onun gəldiyi yola baxırdIlar. Hz. Məhəmməd Kəbəyə doğru irəlilədi. Təvaf edəcəkdi. Əynində bir köynək vardı. Köynəyindən aşağı bir bel örtüyü bağlamışdı. Başında əmmaməsi vardı.

Əbu Cəhl bunu görüncə:

– Baxın, baxın, ay camaat, Abdullah oğlu Məhəmmədin halına baxın, geyəcəyi paltarı, yatacağı yeri yoxdur. Bir evi də yoxdur ki, içində otursun, evlənsin, ailə sahibi olsun. Oğlu, qızı harada olacaqdır, bunları nə biləcəkdir? Çünki bir gümüş pula qüvvəsi çatmaz. Bir çörək pulu qazanmaq əlindən gəlməz. Ömrünü belə yoxsulluq içində keçirir və keçirəcəkdir. Belə bir həyat nə yemək, nə içmək, nə də pul gətirə bilər. Malı, neməti olmaz, bu insan necə yaşaya bilər, halı necə olacaqdır?

Söhbətin bu əsnasında Hz. Məhəmməd təvafı bitirmişdi. Təvafdan sonra Əbu Cəhl onu səslədi:

– Ya Məhəmməd, buraya yanımıza gəl. Mənə yaxın gəl.

Hz. Məhəmməd çağırışını eşidib onlara doğru gəldi. Əbu Cəhl:

– Ya Məhəmməd, nə üçün bir işin ucundan tutmursan, hansısa sənəti öyrənmirsən? Bir işə başlasan, öz həyatını qurmuş olursan. Yaşamaq ruzisini qazanarsan. Bir işlə məşğul ol, qazanmaq üçün bir sənət öyrən.

Hz. Məhəmməd Əbu Cəhlə bu cavabı verdi:

– Bəli, ey Əbəl Həkim. Mən də bu fikirdəyəm. Tədbirlər görürəm.

Sonra bu nadana artıq açıqlama vermək lazım bilmədiyi üçün onların yanından ayrıldı.

Əbu Cəhl və dostları Hz. Məhəmmədin arxasınca baxaraq:

– Görəsən, nə işlə məşğul olacaq? – deyə bir-birindən soruşdular.

Meysərənin Yəməndən döndüyünü duyan Məkkə uluları da Şam səfərinə hazırlığa başlamışdılar. Saxlanması istənilən sirr Xədicənin karvan xidmətçiləri tərəfindən ətrafa yayıldı. Qureyş içində: "Deyirlər, Xüveylid qızı Xədicə Abdullah oğlu Məhəmmədi işə götürmüş. Meysərə ilə Şama göndərəcəkdir" xəbəri dolaşırdı.

Məkkəyə yayılmış bu xəbərə kimisi inandı, kimisi də: "Bu xəbərə inanmayın", – dedi və Meysərəyə xəbər göndərdilər: "Belə bir xəbər eşitdik, bu doğrudurmu?" Doğru olduğunu bildikdə Hz. Məhəmmədin Şama gedəcəyinə inandılar. Qureyş hörmətlilərinin içinə bir vəsvəsə düşmüşdü:

– Bu nə işdir, bu nədir belə? Abdullah oğlu Məhəmməd əzizdir, möhtərəmdir, belə olarkən qövmü onun bir dul qadının əsiri olmasına necə razı ola bilər? Məhəmməd elə bir insandır ki, Qureyş ulularından da daha yüksək mövqeyi vardır. Belə olduğu halda o, bir karvan əhlinin mühafizəçi qulu necə ola bilər? Bu nə işdir belə?

Əbu Cəhl isə:

– İş elə buradadır. Çox yaxın bir zamanda Abdullah oğlu Məhəmməd Xədicə xatunla evlənəcəkdir. Bir-birinin halalı olacaqlar, – deyirdi.

Qureyş uluları:

– Ay Əbu Həkəm, sən dəlisən? Nə qədər qəflət yuxusundasan? Belə bir

şey olar? Xədicəni bir çox seyyidlər, başçılar istədi. Onu iştəməyən bizim içimizdə yoxdur. Birimizi də qəbul etmədi. İndi bir yetimlə evlənəcək? Bəxtsiz böyümüş dəliqanlınımı qəbul edəcək? Bu necə işdi, ey Əbu Cəhl? Çünki nə malı var, nə də mal-qarası. Ömrü yoxsulluq içində keçir. Onu bu səbəbdən qəbul edər?

Əbu Cəhl:

– Siz Məhəmmədi tanımırsınız. Hər saat sehrbazlıq edib o qadını özünə çəkmək, sonra isə malı-mülkünə sahib olmaq istəyəcəkdir.

## *ŞAM SƏFƏRİNƏ HAZIRLIQ BAŞLAMIŞDIR*

Bu sözləri duyan Qureyş böyükləri, yenə Şam səfərinə hazırlıqdan geri qalmadılar. Yolda necə gedəcəklərini danışdılar. Bu səfərə Qureyşin bütün böyükləri, hörmətliləri qatılırdılar. Gözə görünən nə qədər böyük vardısa, bu səfərə qoşulmuşdu.

Kimlər yoxdur ki:

Əbdümənaf oğulları...

Əbdüşşəms oğulları...

Üməyyə oğulları...

Haşim oğulları...

Əbdülmüttəlib oğullar...

Sözün qısası, Hz. Məhəmmədi sevənlər, sevməyənlər bir araya toplaşmışdılar. Hz. Məhəmmədin əmilərindən:

– Abbas, Həmzə, Zübeyr və Dırar da hazırlıq görürdülər. Məhəmmədi sevməyənlərdən iyirmi dörd kişi toplanmışdı ki, bunlar:

1. Hişam oğlu Əbu Cəhl;
2. Hişam oğlu İkrimə;
3. Abdullah oğlu Müğirə;
4. İbn Məxzum;
5. Vaili Səhmi oğlu As;
6. Xələf oğlu Üməyyə;
7. Xələf oğlu Übey;
8. Möhsün Əlbərki oğlu Müsafir;
9. Həccaç oğlu Nəbih;
10. Həccaş oğlu Münəbbih;
11. Müğiyrə oğlu Vəlid;
12. Üməyyə oğlu Hərb;
13. Həbibilcəmpi oğlu Mümir;

14. Üməyyə oğlu Xələf;
15. Cədan oğlu Abdüllat;
16. Müid oğlu Üqbə;
17. Rəbiə oğlu Ütbə;
18. Rabiə oğlu Şeybə;
19. Əbdümənaf oğlu Vahab;
20. Aban oğlu Qeys;
21. Haris oğlu Nizər;
22. Ədiyy oğlu Mütam;
23. Əbu İhab oğlu Salt;
24. Əbdülfəhri oğlu Malik oğlu Osman.

Bu 24 kişi Qureyş və ərəblərin içində tanınmış insanlar idi. Hz. Məhəmmədin can düşməni olaraq bilinirdilər. Bunlar hamısı Hz. Məhəmmədə: "O, bir sehrbazdır", deyirdilər. Onu heç sevməzdilər.

Aradan bir neçə gün keçdi. Xalqın hazırlığı bitdi. İşlər sona çatdı. Əbu Talib Hz. Məhəmmədə dedi:

– Ey sevdiyimiz, gözümüzün işığı, sən də hazırlığını tamamla. Əskik nə varsa, onları da düzəlt.

Hz. Məhəmməd nəyi hazırlayacaqdı? Özünə baxdı, ayağı yalın idi. Yolda yalın ayaq olmazdı, ancaq bir şeyi yox idi ki, ayaqqabı alsın.

Hz. Məhəmməd Əbu Talibdən ayrı Hərəmə gəldi. Kəbəni təvaf etdi. Hərəmdən çıxdı. Məkkədən kənara doğru irəlilədi. Hira dağına Hz. İbrahim məqamına çıxdı. Çox zaman bu yer onun xəlvətgahı, dua yeri olmuşdu. O Hira dağı ki, islama dəvətdən öncə Hz. Məhəmməd onun kənarında ömür keçirmişdi. Bu zamanlar Hz. Məhəmməd nə edərdi? Ünsiyyəti kiminlə idi? Nəyə baxır, müşahidə edirdi. Bu sirr heç zaman dillərdə söylənməmişdi.

## *Hz. MƏHƏMMƏD DAŞ DAŞIMAĞA RAZI İDİ*

Axşamüstü yenə geri döndü. Əbu Talibin evinə getdi. O gecə qəlbindəki düşüncələr onu yatmağa belə qoymurdu. Belə bir qərar qəbul etdi. Sabah səhər iş istəyənlər bazarına gedəcək. Orada daş daşımaq, torpaq qazımaq, su daşımaq, palçıq qarışdırmaq kimi iş olarsa, gedib işləsin. Puluna yola geyinmək üçün bir cüt ayaqqabı alsın. Gecə düşüncələrlə keçdi. Əmilərindən utandı ki, desin əskik olan ayaqqabısıdır.

Səhər tezdən qalxdı, iş axtaranlar yerinə getdi. İşçi axtaranlar bura gəlir, kimləsə razılaşıb götürüb iş yerinə aparırdılar. Hz. Məhəmməd iş bazarında iş axtaranların növbəyə düzüldüyünü gördü. Onlar da Hz. Məhəmmədi gö-

rəndə çaşıb qaldılar.

Haşimoğullarının seyyidi, sultanı və bütün Qureyşin sərvəri, ay alnı, aydın üzü ilə rəncbərlər, muzdurlar arasına gəlmişmi?

Bu bir gerçək idi.

Bəli, Haşimoğullarının seyyidi, sultanı və bütün Qureyşin sərvəri, ay alınlı, aydın üzlü Abdullah oğlu Məhəmməd aralarındaydı. Hamısı bu camala heyran olmuşdular. Anladılar ki, o da buradakılar kimi iş tapmağa gəlmişdi.

Ancaq o seyyidi haqla tutub işlətmək kimin həddində idi. Və ya: "Gəl iş işlə" deməyə kimin taqəti vardı?

Və ya onu kimi sultana: "Gəl daş daşı, gəl palçıq qarışdır, su gətir" deməyə kimin ürəyi gələrdi.

Dəqiqələr, saatlar keçirdi. Heç kim Hz. Məhəmmədə iş təklif etmirdi.

Heç kimsə pul ödəməklə onu işə götürmək istəmirdi. Hər kəs iş tapıb getmişdi, kimsə qalmamışdı.

## *Hz. MƏHƏMMƏD HİRA DAĞINA ÇƏKİLMİŞDİ*

Hz. Məhəmməd səssiz, sədasız oradan ayrıldı. Hira dağına doğru getdi. Yenə Hz. İbrahim məqamına gəldi. Buradakı mağarasına çəkildi. Öz halı ilə baş-başa qaldı. Bu vaxt Xədicə Əbu Talibi evinə xəbər vermək üçün adam göndərdi.

– Qardaşın Abdullahın oğlu Məhəmməd gəlsin. Yüklər hazırdır, başında dursun. Çünki o, Qureyşin əminidir. Mənim də malımın üstündə etibarlı şəxs olsun. Kölələrim bu yükləri bir-birindən ayırsınlar. O, göz olsun, baxsın. Görsün ki, hansı yük hansı dəvədədir. Hər kölə neçə yük üzərində duracaqdır. Onları bilsin.

Əbu Talib həmən Hz. Məhəmmədi axtartdı. Amma axtarışlar nəticə vermədi. Hara getdiyini bilən yox idi. Əmisi evlərinə adam göndərdilər. Oralarda da yoxdur. Çağırdılar cavab yox. Bütün nəsil, qəbilə Əbu Talibin evinə yığışdı. Əmiləri Əbu Ləhəb, Dırar, Müqəvvim, Həmzə, Abbas, Zübeyr gəldilər. Bütün nəsil qadınlı-kişili indi bura yığışmışdı:

– O, könlümüzün əzizi, gözümüzün işığı hara qeyb olub? Hara gedə bilərdi?

Əbu Talib:

– Mən də çaşıb qalmışam, heç kimin belə qeyb olduğu olmayıb. Oğlanlarım Talibi, Əqiyli, Cəfəri göndərim axtarsınlar.

Az sonra Talib bir kişi ilə geri döndü. Yanında bir məkkəli vardı. Talib

dedi:

– Bu kişi dedi ki, Həbibimiz Məhəmmədi görmüşdü. Harada gördüyünü siz soruşun.

Əbu Talib irəliləyərək soruşdu:

– Ay kişi, qardaşım oğlu Məhəmmədi harada gördün?

Kişi cavab verdi:

– Səhər tezdən işçilər bazarında gördüm. İş axtaranlar növbəsində durmuşdu. Köhnə bir paltar geymişdi. Ayağı yalın idi. Pul qazanmaq üçün iş axtarırdı. İşçi axtaranlar üzünün nurundan utandılar. Həm də sizin böyüklüyünüzdən həya etdilər. Heç kim onu pulla aparıb işlətməyi rəva görmədi. Hamı dağılıb iş üçün getdilər. Məhəmməd gözləyirdi. Sonuncu mən işə getdim. Haraya getdiyini bilmirəm.

Hz. Məhəmmədin əmiləri bu sözləri eşidib sarsıntı keçirdilər. Abbasın ürəyi davam gətirmədi, hönkürərək ağlamağa başladı və dedi:

– Ey böyük və hörmətli nəslimiz, bizim gözümüzdən elə qalın pərdə asılıb ki, heç nə görmürük? Bəsirət gözümüz bağlanmışmı? Düşünmək hissimiz yox olmuşmu? Seyyidiliyimiz, şərəfimiz, ululuğumuz, izzətimiz, Abdullahın yeganə nişanəsi, Həbibimiz Məhəmmədin bərəkətindən olduğu halda, biz onun halından xəbərsizik. Bu nədir, nə işdir? Bizim sərvərimiz, başçımız, seyyidimiz, sultanımız Məhəmməd olsun, o da gedib ayrı-ayrı insanlar üçün pulla işləsin. Fağırlıqdan yoxsullar bazarında iş axtarsın. Gedib daş, su daşısın, palçıq qarışdırsın, bunu necə ağlımıza sığışdıra bilərik? Bu necə ola bilər ki, Qureyşin ulusu, bizim ulumuz gedib bizdən qat-qat aşağı kişilərə işləsin. Bu haqda dərindən fikirləşin!

Abbas sözünü bitirib gözüyaşlı ayağa qalxdı. Birbaşa işçilər bazarına getdi, orada heç kim yox idi. Yaxınlıqda gördüklərindən soruşdu:

– Ey xalqım, qardaşım oğlu Məhəmmədi görən olubmu? Haraya getdiyini bilən varmı?

Onlar:

– Bura gəlmişdi, bir xeyli gözlədikdən sonra buradan Hira dağına doğru getdi. Başqa bir söz deyə bilmərik.

Abbas oradan Hira dağına doğru yol aldı. Hz. İbrahim məqamına gəldi.

Abbas Əbu Talibin evindən ayrıldıqdan sonra Həmzə də:

– Ey qövmüm, bizim sərgərdanlığımız, çaşğınlığımızın səbəbi budur ki, Məhəmməd bizdən heç bir şey qəbul etmir. Paltar veririk, geyməz. Bizdən bir kiçik pul da qəbul etməz. Bizimlə oturmaz, durmaz, bizə qarışmaz. Bütün gününü dağlarda, xəlvət yerlərdə, mağaralarda keçirir. Bir yerdə görəndə, gülər üzü, dadlı sözləri ilə bizi fərəhləndirir. Narahatlığını heç bir vaxt hiss etdirmir. Bizimlə oturanda elə fərəhli olur ki, elə bil ki, bütün dünyanın

malı, mülkü onun olduğunu sanırıq. Çatışmayan bir şey olarsa, bildirməz. Yoxsa biz ona lazım olanı alıb ona verməzdikmi? – dedi.

## *Hz. MƏHƏMMƏDİN BAŞININ YANINDA İLAN VAR*

Abbas, nəhayət, Hira dağında İbrahim məqamına çatdı. Hz. Məhəmmədi orada gördü. Yerə uzanmışdı. Yanına yaxınlaşdı. Onu yatmış gördü. Birdən qarşıda gördüyü dəhşətdən sarsıldı. Bu nədir? Hz. Məhəmmədin başının yanında bir ilan var idı. İlan ağzında bir yarpaq tutmuş, onun üzünu yelləyirdi. Abbas qorxu içərisində irəlilədi. Abbas Hz. Məhəmmədə yaxınlaşanda ilan ona hücum etdi.

Abbas qorxu işində:

– Ayy...-deyə bağırdı. Səs dağlarda əks-səda verdi. Qaçdı. Bu səsə Hz. Məhəmməd oyandı və ilan birdən-birə gözdən yox oldu.

Abbas Hz. Məhəmmədin oyandığını görəndən sonra geri döndü. Rəsulun hüzuruna gəldi. Hz. Məhəmməd:

– Əmi, niyə elə bərkdən bağırdın? Sonra da geri qaçdın?

Abbas:

– Ya Həbibi, baxdım başının yanında bir ilan oturub. Məni görəndə üstümə hücum etdi. Mən qorxdum, bağırıb qaçdım.

Sonra Hz. Məhəmməddən soruşdu:

– Ey gözümün işığı, belə torpağın üstündə niyə yatırsan? İlanla baş-başa qalırsan?

Hz. Məhəmməd:

– Əmi, gördüyün ilan deyil bir mələkdir. Ulu Tanrının əmri ilə məni qoruyur.

Abbas:

– Bəli, ya Seyyid bilirik, Allahın yanında izzətin böyükdür. Düşündük ki, Həbibimiz nə üçün işçi bazarına gedib, iş axtaranlar növbəsində durub? Axı nə istəyin vardı? Ora nə iş görməyə getmişdin?

Hz. Məhəmməd:

– Əmi, yola çıxacaqdım, ayağım yalın idi. Fikirləşdim ki, gedim, bir iş tapım, pul qazanıb özümə bir ayaqqabı alım. Qismət olmadı. Yenə bura İbrahim məqamına gəldim. İndi vidalaşdım, geri dönürəm.

Abbas bunu eşitdikdə:

– Ya seyyidi, nə üçün çatışmayan bir şeyi bizə demirsən? Bizim malımız, gücümüz yetər ki, çatmayanı sənə alaq. Bu bizim borcumuzdur, bizə vacibdir.

Hz. Məhəmməd:

– Əmi, halal qazanmaq çox gözəl olur. Halal qazanan Ulu Tanrı yanında istəkli olur. Siz ticarət etdiniz, qazandınız. Halal mala sahib oldunuz. Mən də elə etmək istəyirəm. Halal mal qazanacağam, bunu mənə ayıb saymayın.

Abbas ona karvanın gedəcəyini və Xədicə xatunun onu axtardığını söylədi.

Birlikdə Hira dağından ayrıldılar. Əbu Talibin evinə döndülər. Bütün əmilər, əmioğlu, əmiqızları Hz. Məhəmmədi sağ-salamat görəndə çox sevindilər. Gözlərindən sevinc yaşı axdı. Hz. Məhəmmədi təriflədilər. Hz. Rəsul da (s.ə.s) hər birini gülə-gülə, xoş sözlərlə alqışladı. Sonra işçi bazarına getməyindən və insanların ona iş təklif etmədiyindən danışdı. Oradan Hira dağına getdiyini söylədi. Əbu Talib oturduğu yerdən qalxdı:

– Ey Haşim oğullarının böyükləri, ey Əbdülmüttəlib oğulları, ey oğullarım, ey dostlar, qardaşlar, –deyə sözə başladı. Həbibimiz, gözümüzün işığı və nuru Məhəmməd üçün etmədiyimiz bir iş var. Mənim ailəm böyükdür. Onların səadəti, yaxşı yaşamaları üçün çalışıram. Əlimdə onlar üçün saxladığım min misqal qızılım var. Onu Həbibim Məhəmmədə verirəm. Onun olsun. Onunla Şam səfərində ticarət etsin. Sərmayəsi olsun.

Hamı bu xəbərə sevindi. Arxadan əmisi Abbas ayağa qalxdı:

– Ey ulular, qardaşım oğlu Məhəmmədə mən də min qızıl sərmayə verirəm.

Bu xəbər də çox gözəl qarşılandı.

Arxadan Əbdülmüttəlib oğullarının sərvəri, pəhləvanı, qəhrəman Həmzə qalxdı:

– Ey mənim ulularım, hamınız bilirsiz ki, mən Məhəmmədi canımdan çox istəyirəm. Mənim malım onun malı deməkdir. Mülküm onun mülküdür. Ona malım-mülküm, canım da qurbandır. Ona əlimdən gələn hər yardımı etmək mənim borcum olsun. Onun pis gününü görməyim.

## *HƏMZƏ Hz. MƏHƏMMƏDİ BAĞRINA BASDI*

Həmzə qalxdı, Hz. Məhəmmədi bağrına basdı. İki süd qardaşının qucaqlaşması çox həyəcanlı idi. Sonra Həmzə onun mübarək dolu nur alnından öpdü. Sonra soruşdu:

– Ey Həbibi, nə üçün bizi sevmirsən? Bizimlə oturub-durmursan? Bizimlə səfərə çıxmırsan? Sən gedəndə belə susursan. Heç vaxt dünyanı düşünmürsən. Daima dağlarda, insan olmayan yerlərdə, mağaralarda tək olursan. Səhrada, çöldə gəzirsən. Mağaralarda gizlənirsən. Kimlə danışır, kimlə

söhbət edirsən?

Bunları dedikdən sonra Həmzə özündən böyük qardaşlarına, Əbdülmüttəlib oğullarına döndü:

– Mənim də min misqal qızılım var. Onu həbibim Məhəmmədə bağışlayıram. Xahiş edirəm ki, onu qəbul etsin.

Əbu Talib Məhəmmədə buyurdu:

– Ey gözümüzün işığı, üç min misqal saf qızılı əmilərindən al. Sənə hədiyyəmiz kimi qəbul et. Bunlarla ticarətə başla. Çünki bütün ərəb tayfaları içərisində ən sevimli biz Qureyşlilərik. Qureyşin də seyyidləri, başçıları, Haşimoğulları, Əbdülmüttəlib- oğulları içində seyyid, sərvər, kəramət sahibi, ağıl, arif, əmin və bəxtli sənsən. Bu alicənablıqla və camalla sən iş bazarına gedib iş axtarasan? Torpaq, daş daşıyasan? Hələ xalqın arasında ayağı yalın gəzəsən, bu rəvadırmı? Belə olduqda ulular arasında bizim nə hörmətimiz, izzətimiz qalar? Xalq arasında bizə nə deyərlər? Bura gələnlər bizə nə saygı göstərər?

Hz. Məhəmməd başını qaldırdı, gülər üzlə, xoş sözlə əmisi Əbu Talibə cavab verdi:

– Ay əmi, siz çox ticarətlə məşğul oldunuz. Əziyyətlər çəkib pul, mal qazandınız. Səhralar, dənizlər aşdınız. Mənim də əlim, ayağım var. Dörd yana gedərəm, öz işimi başlayaram, ruzi əldə edərəm. Sizin mallarınız sizə qalsın, çox sağ olun. Mənim sizdən bir istəyim və xahişim var, məni Xədicə xatunun malı ilə Şama göndərin. Bu səfərdə mən iş öyrənim.

Əbu Talib qardaşlarına:

– Qardaşlarım, Məhəmmədi daha narahat etməyək, onun öz rəyi ilə razılaşaq.

Bundan sonra Əbu Talib, Abbas və Hz. Məhəmməd birbaşa Xədicə xatunun evinə gəldilər. Xədicə xatun onların gəldiyi xəbərini eşidəndə həmən Meysərəni çağırdı:

– Qonaqların qabağına çıx, onları hörmətlə qarşıla.

Meysərə tez qapıya qaçdı. Hz. Məhəmmədin qarşısına çıxdı. Önlərinə düşüb içəri dəvət etdi.

Xədicə xatun Əbu Talib və Abbasa:

– Salam, xoş gəlib səfa gətirmisiniz.

Az sonra şərbət gətirdilər. Bu şərbətləri içib xeyli təriflədilər. Xədicə xatun Hz. Məhəmməd üçün yeni, çox qəşəng paltarlar tikdirmişdi. Meysərə bunları Hz. Məhəmmədə geydirdi. Başına gözəl bir əmmamə sarıdı. Karvanda getmək üçün bir yaxşı dəvə də hazırlanmışdı. Xədicə Meysərəyə:

– Kölələrə əmr et, yükləri bayıra çıxarsınlar. Bir kişi də gedib dəvələri gətirsin. Həm də görüləcək işləri seyyidin Məhəmmədə bildir. Hansı yüklər

hazırdır, adamları ona tanıtdır. Elə ki Həbibim Məhəmməd həzrətləri malımdan xəbərdar olsun. Sən icraçı ol. O da bütün işlərdə hakim və əmr verən olsun. Hər söz Məhəmmədindir. Alış-veriş, almaq, satmaq, bütün buyruqlar tamamən onundur.

Meysərə:

– Baş üstə. Seyyidim Məhəmməddir. Onun hər əmrinə baş əyəcəyəm.

Sonra yüklərin hazır olduğu yerə getdilər. Meysərə hamısını bayıra daşıtdırdı. Dəvələr gəldi.

## *BULUD Hz. MƏHƏMMƏDƏ KÖLGƏ SALIRDI*

Xədicə xatun yuxarıda evin üst qatında çardaqda oturmuşdu. Pəncərəsindən baş verənlərə tamaşa edirdi. Meysərə dəvələrin gəlməsini Xədicə xatuna xəbər verdi.

– Dəvələriniz gəldi, amma biri dəlilik edir, gəlmir. Yola çıxmaq istəmir.

O zaman Hz. Məhəmməd Meysərəyə:

– Dur get gətir, qulağına mənim salamımı söylə, özü gələcək.

Meysərə bayıra çıxdı. Dəlilik edən dəvənin qulağına nəsə söylədi. Hz. Məhəmməd irəli keçib dəvəni aldı. Yüklərin yanına gətirdi, çökdürdü. Sonra başqa bir dəvəni alıb gətirdi. Bağlanmış hazır tayları ayrı-ayrı dəvələrə yüklətdi. Heç bir kişinin yardımını istəmədi. İki dəvəyə yükü tək başına yüklədi. İşçilər Meysərə ilə gəzişib baxırdılar.

Əbu Talib Abbasa:

– Oğlumuz Məhəmməd hünərli bir kişi olub.

Xədicə xatun isə Hz. Məhəmmədin möcüzələrini görür, onun gücünə, qüvvətinə heyran qalmışdı. Sevindi, dərisinə belə sığmaz oldu. Orada olanlar hamısı: “Uca Allaha əmanət olun, sizi daima qorusun”, – deyə dua etdilər.

Artıq yüklər hamısı dəvələrə yüklənmişdi. Onlar hazırlaşarkən Məkkədən bu karvana qatılacaq bütün karvan əhli gəlib hazır toplanmışdı.

Az sonra karvan yola düşdü. Qureyş oğullarından Hz. Məhəmmədə düşmən olan iyirmi dörd kişi bu karvanda idi. Başlarında isə Əbu Cəhl.

Hz. Məhəmməd də əmiləri, əmisi oğulları, Haşim oğulları ilə yola düşdü. Bunların hamısı Hz. Məhəmmədin yanında gedirdilər. İndi Əbu Taliblə vidalaşmaq vaxtı çatmışdı. Məkkə qapısından çıxıb sərin havada yola düşmüşdülər. Meysərə də Xədicə xatunla vidalaşdı. Xədicə xatun yenə Meysərəyə bərk-bərk tapşırdı:

– Ya Meysərə, Abdullah oğlu Məhəmmədin xətrinə dəymə. Onun sö-

zündən nəbadə çıxasan. Gecə-gündüz yanında ol. Karvanda onu istəməyənlər, sevməyənlər var. Sonra diqqətli ol, Məhəmməddən nə kimi əcaib-qəraib görsən, yoldakı kəramət və möcüzələrə şahid olsan, hamısını bir kağıza yaz. Geri dönəndə mənə deyərsən.

Meysərə Xədicə xatunun əlini öpdü. O da yola düşdü. Axşam özünü Məkkədən aralanmış karvana çatdırdı. Ancaq nə görürdü... Hava qaranlıq olmalı, amma qaranlıq yoxdur. Gecə aydın olmuşdu, karvan aydınlıqda irəliləyirdi. Yol aydın, səhra aydın. Hər yer Hz. Məhəmmədin üzünün nur saçan parıltsından işıqlı idi.

Meysərə Hz. Məhəmmədə çatanda dəvəsindən endi. Hz. Məhəmmədin ayağından öpdü, dedi:

– Ya Seyyidi, səni sevən Uca Allah səndən sevgisini əskik etməsin. Səni sevməyən kimsələrin canı da cəhənnəm odunda yansın. Nə mübarək gecədir, nə xoşbəxt yoldur, nə səadətli səfər və yolçuluqdur! Mən etibarlı və bərəkətli kişi oldum. Sənin ilə yaxın dost və səfər yoldaşı oldum. Mənim səadətimdir ki, iki cahanda etibar qazandım. Bu necə gözəl gündür ki, mən qara bulud parçası bir günəşə bəndə oldum, qul oldum.

Meysərə sözünü bitirib bir də Hz. Məhəmmədin ayağından öpdü. Rəsulullah ona dualar etdi.

Karvan səhərə kimi yol getdi. Gün doğanda ilk mənzilə çatdılar. Yükləri endirdilər. Hər ulu kişi öz işi ilə məşğul oldu.

Hz. Məhəmməd də yüklərini yerbəyer edirdi. Günəş qalxmışdı. Torpaq qızdıqca və hava istiləşdikcə hər ulu başının üstünə günəşdən qorunmaq üçün bir çətir tutdu. Günəşin o qızmar şüalarından az da olsa qorunurdular. Amma Hz. Məhəmmədin günəşliyi, bir çətiri yox idi. Əmiləri Abbas və Həmzə yaxında idilər. Onlar başlarının üstünə bez salmışdılar.

Abbas baxdı. Bu nədir belə? Qardaşı oğlu kölgəsiz yerdə oturmaqdaydı. Abbas:

– Bir günəşlik tapım, aparım verim Məhəmmədə. Tapa bilməsəm, öz günəşliyimi verim ona, – dedi.

Abbas bu haqda düşünürkən birdən-birə göy üzündə bir ağ bulud yarandı. Çox kiçik idi, bir-iki qalxan boyda. Aşağı enərək düz Hz. Məhəmmədin üstünə endi və ona kölgə saldı. Bu nədir belə? Düz başı üstə dayanıb heç tərpənmirdi. Yerindən tərpənmirdi. Əmilər heyrətlə baxırdılar. Abbas:

– Ya Həmzə, – dedi, amma danışa bilmədi. Ağlamağa başladı. Yeri öpüb səcdə etdi.

– Bu gün Məhəmməd yenə bir ulu kəramət göstərdi.

Bu xəbəri qardaşları Zübeyr və Dırara çatdırdılar. Haşim ululları da yaxınlıqda idilər. Onlar da bu xəbəri eşitdilər. Hamı göyə baxdı.

Bəli, deyilənlər doğru idi. Göy üzündən gəlmiş o bulud yerində durub heç tərpənmirdi. Nə qalır, nə də enirdi. Beləcə, Hz. Məhəmmədin başı üstündə dayanıb durmuşdu.

Az vaxtda bu xəbər bütün karvan ulularının qulağına çatdı. Onlar da göy üzünə baxdılar. O buludu görüb həyəcanlandılar. Bu bir möcüzə idi. Göy üzündə iki sətir yazı peyda oldu. Oxumaq istədilər, oxuya bilmədilər. Çünki illər boyu, islam dininin meydana gəldiyində belə oxuya bilməmişlər, ancaq mənasını əzbərləmişlər. Burada: "**Lə ilahə illəllah Məhəmmədən Rəsulullah**" yazılmışdı.

Hz. Məhəmməd risalətləri zamanında Cəbrail Əleyhissəlam ilə danışıqlarını belə anlatmışdı:

– Cəbrail mənə belə xəbər verdi və dedi ki, Haqq Sübhanə və təalə Həzrətlərindən mənə "Cəbrail", – deyə bir nida gəldi. Mən: "Ya İlahi, nə buyurursan?" – deyə cavab verdim. Həzrəti İzzətdən nida gəldi ki, ey Cəbrail, tez en! Həbibim, Rəsulum Abdullah oğlu Məhəmmədə bir bulud parçası ilə kölgə et...

Bütün karvan əhlinin gördüyü bu bulud Ulu Tanrının əmri ilə Cəbrail tərəfindən Hz. Məhəmmədin başı üstündə kölgəlik üçün çadır kimi durmuşdu.

## *ƏBU CƏHL BİRDƏN-BİRƏ YERİNDƏN SIÇRADI*

Əbu Cəhlə xəbər çatdı, o, yerindən sıçradı. Ətrafındakılar bu kəramət haqqında danışırdılar. O, karvan əhlinə döndü:

– Siz nə ağılsız insanlarsız, nə üçün belə müxtəlif sehrlərə inanırsınız. Məhəmməd kimdir? Qureyşin ən əsilli ailəsinə mənsub olan mən, Əbu Cəhləm. Siz nə heyvan adamlarsız. Ağılsızsınız. Yaxşını pisdən, pisi yaxşıdan ayıra bilmirsiniz. Əhmədin hansı işlərini görürsünüzsə, o bunları sehrlə edir.

Əbu Cəhl bar-bar bağırırdı:

– Bu zəmanəyə neçə ulu kahin gəlmişsə ancaq sehrlə məşğul olmuşlar. Məhəmməd isə dəlidir. Ağlı yoxdur. Əyninə geyəcək bir yaxşı paltarı da yoxdur. Evində də yeyəcək çörəyi.

Əbu Cəhl beləcə boş-boş danışdı, söydü. Hz. Məhəmmədi fitnəyə çəkmək istədi. Hər kəs yerinə döndü. Amma Əbu Cəhlin bu nadancasına söylədiyi sözlər tez bir vaxtda Hz. Həmzənin qulağına çatdı:

– Ey Həmzə, Hişam oğlu Əmr, o Əbu Cəhl qardaşın haqqında bir çox lazımsız sözlər söylədi. Xalqı da söydü. Onlara ağılsız, nadan, düşüncəsiz,

heyvan da dedi. “O sehrbazdır, kahindir, cadugərdir. Siz isə onu xeyirxah insan kimi sayırsınız”, − dedi.

Həmzə igid, qəhrəman və tez özündən çıxan bir dilavərdi. Yerindən sıçradı. Qılıncını əlinə aldı, Əbu Cəhlin sinəsini bir qılınc zərbəsi ilə deşməyi düşündü.

Amma böyük qardaşı Abbas qarşısına keçərək:

– Nə edəcəksən, ya Həmzə? Bilirsən ki, Hişam oğlu Əmr, − Əbu Cəhl hələ kiçik yaşdan qardaşımız oğlu Məhəmmədlə düşmənçilik edir. O, Məhəmmədin ardından bu günə kimi bir xoş söz deməmişdir. İndi adəti üzrə, yenə bir neçə hərzə söz söyləmiş. Əgər onun qarşısına getsən, səfərin ilk günü ortaya fitnə-fəsad düşər. Şərdən uzaq, işimizlə məşğul olaq.

Abbasın bu ağıllı sözləri Hz. Həmzənin qəzəbini soyutdu. Günortadan sonra karvandan geri qalanlar da gəlib çatdılar.

Hz. Məhəmməd mübarək əlləri ilə çuvalları dəvələrə yüklədi. Sonra dəvəsinə mindi.

## *Hz. MƏHƏMMƏDİN BİR YENİ MÖCÜZƏSİ*

Amma yenə hər kəsi yeni bir möcüzə heyrətə saldı. Günortadan sonra günəşdən yenə qorunmaq lazım idi. Hz. Məhəmməd hərəkət edərkən bulud da onun üstündə hərəkət edirdi. Günəş üfüqlərdə yox olunca, bulud beləcə Məhəmmədin başı üstündə hərəkət etdi. Gün batandan sonra bulud qeyb oldu.

Gecə oldu, qaranlıq düşməli idi, amma yenə Hz. Rəsulun bir yeni möcüzəsi başlamışdı.Yol yenə nurlar içindəydi. Karvan bu nurlu yolla irəliləyirdi. Yenə hər tərəf aydınlıq içində idi.

Səhər günəş doğdu, günəş üfüqlərə yayılmağa başlayandan sonra ağ bulud yenidən Hz. Məhəmmədin başının üstündə durdu. Karvan yenə yoluna davam etdi.

Səhərdən bir az keçmiş mənzilə çatdılar. Karvan orada dayandı. Bulud da bir nizə boyu hündürlüyündə Hz. Məhəmmədin (s.ə.s) başı üstündə durdu. Bu ikinci mənzildi. Karvanda olan bütün Qureyş uluları bir yerə toplandılar.

Əbu Cəhl, qardaşı İkrimə, ibn Abdüldar, Əbu Süfyan kimi beyni qanlılar bir tərəfdəydi. Əks tərəfdə də Haşim oğulları və Əbdülmüttəlib oğulları bir bölük oldular. Beləcə iki düşmən tərəf ayrı-ayrı toplanıb dayanmışdılar. Birinci toplananlardan Vail oğlu As söz alaraq dedi:

– Ey qövm, karvanımız çox böyükdür, izdihamlıdır. Bizə başçı lazım-

dır, bütün işlərə rəhbərlik etsin. Biz də onun tapşırıqlarını yerinə yetirək.

Qureyş uluları bu təklifi bəyəndilər:

– As ağıllı söz dedi, karvana başçı gərəkdir.

Məxzum oğulları qəbilələrindən Əmrı, yəni Əbu Cəhli fikirləşib dedilər:

– Əbu Cəhl karvana başçı olsun.

Üməyyə oğulları Əbu Süfyanın namizədliyini fikirləşib:

– Karvanbaşı Əbu Süfyan olsun, – dedilər.

O biri tərəfdən Əbdülmüttəliboğullarından öz namizədlərini söylədilər:

– Karvanbaşı Əbdülmüttəlib oğlu Abbas olsun.

Bu fikir ayrılığı davam edərkən Hz. Xədicənin adamı Meysərə söz aldı.

– Bizim hamımza ulu olmağa, ancaq Abdullah oğlu Məhəmməd layiqdir. O ki Ərəbül-Ürbanın üzünün suyudur. Bütün ərəblər onun bərəkətindən razı olmuşlar.

Əbu Cəhl bu təklifi duyan kimi özünü irəli atdı və bağıra-bağıra dedi:

– Əgər Abdullah oğlu Məhəmmədi karvanbaşı seçsəniz, mən həmən qılınca sarılaram.

## *Hz. RƏSULULLAH YERİNDƏN QALXDI*

Bu sözü eşidən Həmzə yerindən aslan kimi sıçradı, bir göz qırpımında qılıncını əlində tutmuşdu.

– Ey Qureyşlilər, Abdullah oğlu Məhəmməd sərvərdir, başçıdır, ululardan uludur.

Əlində qılınc Əbu Cəhlin üstünə getdi. Bu vaxt Hz. Məhəmməd yerindən qalxdı, əmisi Həmzəni tutdu:

– Ay əmi, mərhəmət et. Əgər məni sevirsənsə, sözümü dinlə. Əgər arada olan dartısma, fitnə-fəsadın bitməsini istəyirsənsə, qoy Əbu Cəhl karvanbaşı olsun, mən buna razıyam. Əgər mən karvanbaşı olsam, min cür qarışıqlıq, nifaq, fitnə baş verəcək. Mən dediyim kimi olanda sakit yolumuzu davam etdirərik.

Əbu Cəhl Hz. Məhəmmədin məsləhət və qəbulu ilə karvanbaşı oldu. Amma bütün karvan əhli buna inandı ki, kişi ancaq şəxsiyyəti ilə, ululuq etməklə ulu olur.

Karvan yenə hərəkətə gəldi. Günlərlə irəlilədilər. Qabaqda Əbu Cəhl gedirdi. Qureyşli olsun, olmasın, karvan əhli ona tabe olub gedirdi. Bir quyu yanında dayandılar. Az bir zaman keçdikdən və Əbdülmüttəliboğullarının arxadan gəldiklərini görəndən sonra Əbu Cəhl adamlarına:

– Bu quyunu daş və torpaqla doldurun! – dedi.

Tez quyunu doldurdular və hərəkətə başladılar. Sonra bir gözətçi də qoydu ki, baxsın Haşimoğulları gələndə nə edəcəklər. Tapşırdı ki, mənə xəbər vermək üçün karvana yetişin.

Haşimoğulları quyuya yetişdilər. Hz. Məhəmməd və əmiləri quyunun başına gəldilər. A!..A!.. Quyu başdan-basa daş-torpaqla doldurulmuşdu. Anladılar ki, bu ancaq Əbu Cəhlin işi ola bilər.

Hz. Məhəmməd quyunun üstündə durdu. Barmağını dodağına qoydu, sonra da mübarək barmağı ilə quyuya işarə verdi. Sular quyunun içindən fəvvarə kimi yuxarı vurdu. Sonra yol taparaq çölə doğru axmağa başladı.

Əbu Cəhlin gözətçisi bu möcüzəni görən kimi yerindən tərpəndi, karvanın ardınca qaçdı. Gördüyünu Əbu Cəhlə xəbər verdi. O, dərindən ağlı çatdığı qədər düşündü:

– Bəli, deyəsən, Əbu Talibin yetimi sehrlə, cadu ilə dünyanı tutacaq.

Haşimoğulları quyu suyunun fəvvarə vurduğunu görəndə orada bir az dincəlməyi düşündülər. Fəvvarənin verdiyi bu gözəl sərinlikdə dincəlib yollarına davam etdilər.

Ertəsi gün səhər bir vadinin girişinə çatdılar. İki kişi bir az qabaqda gedib bələdçilik edirdi. Bələdçilər dərənin içinə getdilər. İrəlilədilər. Bir az sonra Əbu Cəhlin dəstəsi də gəlib dərənin ağzına çatdı. Qəfildən iki bələdçinin fəryad edərək qışqıra-qışqıra geri qaçdığını gördulər. Əbu Cəhl həyəcanla:

– Nə var? Niyə geri döndünüz?

## *KARVANIN YOLUNU BİR ƏJDAHA KƏSMİŞDİ*

Bələdçilər:

– Ey Hərəm seyyidləri, nəbadə irəli gedəsiniz. Dönün. Bu yolun içində bir əjdaha var. Böyük bir ilan, kimsə ona yaxınlaşsa canını qurtara bilməz.

Əbu Cəhl qəbiləsinin ululları ilə hündür bir yerə çıxdı. Baxıb gördülər ki, yolun ortasında bir əjdaha var. Karvanı saxladılar. İrəli getmək imkanı yox idi. Əbu Cəhl nə edəcəyini düşünərək:

– Ey Qureyş seyyidləri, Abdullah oğlu Məhəmməd hər zaman iddia edir ki, mənim kəramətim səmavidir, kahinlik və sehr deyildir. Əgər belədirsə, gəlsin əjdahaya qarşı görək nə edəcək? Onu özü tutsun və ya qovsun. Görək möcüzələri ilahidir, gerçəkdir, yoxsa... Hər kəs görsün. Sehr heç vaxt əjdahaya qarşı dura bilməz.

Hz. Məhəmmədin karvanı arxadan gəlməkdə idi. Bu vaxt Meysərə ona yaxınlaşdı:

– Ya Məhəmməd, iki dəvəmiz çökdü, durub hərəkət etmirlər.

Hz. Məhəmməd, Həmzə və Abbas geri döndü. İki çökmüş dəvənin yanına gəldilər. Baxdılar ki, doğrudan da ağır yükdən, yol yorğunluğundan bu dəvələrin getmək imkanları yoxdur, çökmüşlər, qalxmırlar.

Hz. Məhəmməd dəvəsindən aşağı endi. Mübarək əlini hər iki dəvənin başına qoydu, sığalladı. Sonra mübarək barmağı ilə işarə verdi. Dəvələr Rəsulun mübarək bərəkətindən qüvvətlənərək qalxdılar və özlərini karvana çatdırdılar. Abbas ilə Həmzə:

– Var ol, Məhəmməd – deyərək özləri də karvana doğru getdilər.

Nə olmuşdu? Karvanın ön hissəsi dayanmış, irəli getmirdi.

Hz. Məhəmməd onlardan soruşdu:

– Nə üçün dayanıb burada vaxt itirirsiz?

Vail oğlu As cavab verdi:

– Ey Əmin, ey sözü doğru Məhəmməd, bu keçəcəyimiz vadidə, yolun ortasında böyük və uzun bir ilan var. Yolumuzu kəsib irəli gedə bilmirik. Qorxudan heç birimiz qabağa getmirik. Ona görə də dayanıb sizin gəlməyinizi gözlədik. İndi gəldiniz, sonrasını siz bilirsiniz, nə etmək lazımdır. Nə düşünürsüz, nə çarə edək?

Asdan sonra Əbu Cəhl ortaya gəldi:

– Ya Məhəmməd, − dedi, − sən söyləyirsən ki, mənim kəramətim, dəlilim, sübutum ilahidir. Əgər doğrudan belədirsə, get, o yolun ortasındakı böyük ilanı oradan qovala. Yolumuzu aç.

Həmzə Əbu Cəhlə doğru dönərək:

– Ay Şəriri-ləin, sən nə üçün seyyidimizlə yaxşı dolanmaq istəmirsən? O əjdahaya bənzər ilanın qarşısına seyyidimizi, həbibimizi göndərmək istəyirsən?

Vail oğlu As Həmzəyə cavab verdi:

– Ay Həmzə, bizcə izzəti olan Abdullah oğlu Məhəmməd dəlil, sübut sahibidir. Ulu Tanrıya yaxındır. Duası qəbul ediləndir. Üzü xoşbəxt, ayağı mübarəkdir. Bəziləri var ki ”Abdullah oğlu Məhəmməd zəmanə kahinlərindəndir, o da sehrkardır, anadan belə doğulub” deyirlər. Biz bu gün bilirik ki, bunların dedikləri yalandır. İndi möcüzə göstərməyin vaxtı gəldi. Çünki bu iş, sehrlə, ovsunla edilə bilməz. Səmavi ayət və peyğəmbərlik möcüzələri göstərsin, bir çox fərqli düşmənləri məhv etsin.

Az sonra Məhəmmədə döndü:

– Ya Məhəmməd, əgər sənin əlindən gəlirsə, bu əjdaha ilanı məhv et. Onun kimi düşmənlərini də məhv etmiş olursan. Sənin dəlil, sübutun ilahidəndir. Kahinlik, sehr və cadugərlik deyildir.

## *Hz. MƏHƏMMƏD ƏJDAHA İLƏ NƏ DANIŞDI?*

Hz. Məhəmməd bu sözləri dinlədikdən sonra qövmünə döndü:

– Ey əmilərim, ey yaxınlarım. Mənə ilahi hümmətlə yoldaş olun. Xeyir eyləyin, Ulu Tanrıya əmanət edin.

Dəvəsindən endi, təkcə o əjdahaya, o ilanlar şahına doğru irəlilədi. Əmiləri bir-birinə baxırdılar:

– Nə deyirsiz? Nə edək? – deyərək nə edəcəklərini bilmirdilər.

Həmzə irəli atıldı:

– Mən qardaşım Zübeyrlə Məhəmmədin arxasınca gedəcəyəm. Baxaram əgər bir adamın yardımı lazım olarsa, ona bir dost qılıncı gərək olur. Gedərəm, kömək edərəm.

Abbas isə dedi:

– Məhəmməd, həbibimiz vuruşmağa getmədi. Ora dua ilə düşməni məhv etməyə getdi. Qorxuram ki, siz ardınca gedəsiniz, dönüb baxar qəlbi qırılar. Görüləcək əsas iş dəvələrdən enməkdir. Yerdə olaq, silaha qurşanaq. Uca bir yerə çıxaq, baxaq, görək seyyidimiz Məhəmməd o əjdaha ilanı necə ram edəcək.

Abbasın dedikləri qəbul olundu. Üç-dörd yüz kişi silaha qurşandı. Təpələrin üstünə çıxıb, baxıb gözləməyə başladılar.

### Əjdaha yerindən qımıldandı və...

Nə gördülər?

Hz. Məhəmməd əjdahaya doğru irəlilədi. Əjdaha yerindən tərpəndi. Sonra qalxdı, hərəkətə başladı. Hz. Məhəmmədin yanına doğru gəldi. Hz. Məhəmməd də ona doğru addımladı. Ona yaxınlaşdı. Hz. Məhəmməd əjdahaya doğru hərəkət edəndə nə isə deyirdi. Nə deyirdi? Kimsə bunu bilmir və eşitməmişdi. Yalnız olub-bitmişi sonra Hz. Məhəmməd xalqa bildirmişdi.

Xədicənin işçisi Meysərə bunu Xədicə xatuna verəcəyi kağıza yazmışdı. Hətta rəvayətə görə Hz. Bilal Həbəşi də bu Şam səfərində karvanda olmuşdur. Xələf oğlu Üməyyənin köləsi imiş. Onun qulluğunda dururmuş. O da bu sözlərə qulaq asmışdır. Danışıq belə olmuşdur:

Hz. Məhəmməd ilana, ilan da Hz. Məhəmmədə doğru hərəkət edəndə Rəsulullah ona deyir:

– Mən Abdullah oğlu Məməmmədəm, ya heyvan. Sən kimsən? İlan cin-

sindənmisən, yoxsa ilan şəklindəmi mənə görünürsən? Diləyin nədir? Cinsənmi?

Əjdaha Allahın əmri ilə dilə gələrək bu cavabı verdi:

– Ey seyyüdül əvvəli və axiri. Mən cin cinsindən bir ifritəyəm. Adım Ham ibn Humdur. Mən Nuh Peyğəmbəri görmüşəm. Mənə sənin sifətini o anlatdı. Mənzil və mərtəbəni o Rəsul mənə bildirdi. Mən Huh peyğəmbərin önündə iman gətirdim. Ondan da şəfaət istədim. İbrahimxəlil əleyhissəlam da sənin keyfiyyətlərini mənə söylədi. Qədrini, cahi-cəlalətini bəyan etdi. Sonra Musa peyğəmbərə yetişdim. Şəfaət dilədim. O Kəlimullah da mənə dedi ki, şəfaət sahibi Abdullah oğlu Məhəmməddir. Ondan sonra Davud və Süleyman peyğəmbərlərin dövrünə yetişdim, onlar da mənə eyni sözləri dedilər. Nəhayət, İsa Peyğəmbər dövrünə gəlib çatdım. Ondan da şəfaət istədim. İsa Peyğəmbər mənə:

– Şəfaət ancaq axırzaman peyğəmbərindir (s.ə.s). O, Məkkədə doğulacaq, rəsulların sonuncusu olacaqdır. Nə zaman ki Abdullah oğlu Məhəmməd gələcəkdir, otur onu gözlə, anadan olandan sonra ona yetiş. Artıq ya Rəsulullah, ya Həbibullah, mən də beləcə səni gözləyirəm. Sənin mübarək camalını gördüm. İcazə ver sənin ayağının torpağına üzümu sürtüm. Bu gün bir dəstə casuslar xəbər gətirdilər ki, Qureyş karvanı gəlməkdədir. Abdullah oğlu Məhəmməd də aralarındadır. Mən ilan şəklinə girdim. Ta ki səni yalnız görum. Yanında heç kim olmasın deyə...

– Ey Hum oğlu Ham, indi get. Bir qədər də gözlə. O zamana kimi vəhy nazil olsun. Dinə dəvət başlayınca. O vaxt ki din aşkar oldu, mənim yanıma gəl.

Bu sözlərdən sonra əjdaha üzünü yerə sürtə-sürtə Hz. Məhəmmədin yanından ayrıldı. İki dağın arasına girdi, gözdən yox oldu.

Dağlara çıxan karvan əhli bütün olmuşları yaxından-uzaqdan gördülər. Əjdahanın üzünü torpağa sürtməsinin, dönüb getməsinin şahidi oldular. Bunların bir qismi Yəməndən və Taifdən gələnlər idi. Hamısı gördüklərindən heyran qaldılar, geri döndülər. Karvanbaşı Əbu Cəhlin yanına gəldi:

– Ey Əbil Həkəm, nə deyirsən? Abdullah oğlu Məhəmmədin kəraməti səmavidir, yoxsa sehrdir, kahinlikdir?

Əbu Cəhl:

– Şübhə yoxdur ki, sehrdir, sehrbazlıqdır, – deyə cavab verdi.

Xalqın bir qismi yenidən soruşdu:

– Hansı sehrbazın əlindən belə iş gəlmişdi?

Əbu Cəhl:

– Ey qövmüm, onun üçün yəhudi alimləri, ruhanilər və kahinlər dedilər ki, şərqdən qərbə kimi Abdullah oğlu Məhəmmədin ümməti tutacaqdır. Ye-

nə onun üçün deyirlər ki, Məhəmmədin əlindən bunun kimi çox işlər gələcək. Belə söz-söhbət yayılsın, mən heyvan olum, sən heyran olasan. O da guya belə işlər etsin, xalqa göstərsin. Yenidən kahinlər, ağıl sahibləri ona heyran qalsınlar. Beləcə dünyanı sehrlə ələ alsın. Onun arzusu, diləyi budur. Bu cür divanəcəsinə sözləri Əbu Cəhl Haşim oğulları olmayan yerlərdə hələ çox deyəcəkdi.

## *Hz. MƏHƏMMƏDİN SÖZÜNDƏKİ HİKMƏT*

Əjdahaya baxanlar arasında Meysərə də vardı. Heyvan gözdən itəndən sonra Hz. Məhəmmədin yanına gəldi. Ayağına düşdü:

– Ey seyyidi, ey Həbibi, bu nə qüdrətdir, nə hikmətdir bizə göstərdin?

Hz. Məhəmməd:

– Ya Meysərə, get, karvan əhlinə de, dəvələri yükləsinlər. Yüklərin üstünü örtsünlər. Sonra dərəyə girsinlər. Güclu yağışdan, seldən qorxu vardır.

Meysərə yerindən qalxdı. Tez karvan əhlinin yanına gəldi. Kölələrə deyilən kimi əmr etdi. Dəvələri hərəkətə gətirdilər. Yükləri təkrar yüklədilər, Abbas üstlərini örtdü. Fəqət biri Əmr oğlu Müsab bu sözlərə inanmadı. Yükləri bağlamadı, üstlərini örtmədi. Karvan dərəyə girər-girməz Ulu Tanrının qüdrətindən göyün gurultusu ətrafı bürüdü, göyü yaran şimşək, sanki yeri də yarmaq üçün yer üzünə vururdu. Yağış elə bil göylə yeri birləşdirmişdi. Heç kim belə bir yağış görməmişdi. Tez bir zamanda dağlardan gələn yağış suları dərədə görünməmiş sel yaratdı. Selin səsi gələndə dəvələr dar yerdən tez keçib qurtardılar, bir təhlükəsiz yerdə dayandılar. Karvan əhli bir az da yuxarı qalxıb dəvələri çökdürdü. Yükləri açdılar. Selin nərəsi getdikcə artıb hər tərəfi öz fəlakət yaradacaq səsi ilə qorxudurdu. Amma Əmr oğlu Müsab yükləri örtmədiyi və bağlamadığı üçün, daha doğrusu Hz. Məhəmmədin sözlərinə inanmadığından cəzasını gördü. Sel dəvələrinin yüklərini apardı.

## *"BİSMİLLAH" DEMƏYƏNLƏRİN SUDA AQİBƏTİ*

Yüklər dağıldı, suların içində qeyb olub getdi. Yağmur dayandığı zaman karvan əhli Müsab və kölələrinin suda boğulduğunu gördülər. Hamının içinə bir qorxu düşmüşdü. Bu nə qorxulu bir gün idi.

O gecə dağda qaldılar. Ertəsi gündə dərə su ilə dolu idi. Nə irəli getməyə, nə də geri dönməyə imkan vardı. Bir gün də burada qaldılar. Nəhayət, gəlib Hz. Məhəmmədin ayağına düşdülər:

– Ya Məhəmməd, işimiz çətinləşdi. Dəvələrin otu da tükəndi. Sellərin suyu da yolumuzu elə bağlayıb ki, nə irəli, nə də geri gedə bilirik. Bir çarə tap.

Hz. Məhəmməd gələnlər arasında Meysərəyə tərəf döndü:

– Ey Meysərə, hər iş vaxtında görülür. Hər bir əmrin vaxtı var. Nə zaman ki vaxtı gəlir, bağlı qapılar belə açılır. Qaradan ağ, qayğıdan şadlıq seçilir, Ulu Tanrıdan fərəh yetişir.

O gecə də orada qaldılar. Dincəldilər. Səhər vaxtına az qalmış səmadan Hz. Məhəmmədə bir səs gəldi:

– Ya Məhəmməd, səhər olunca karvan əhlinə dəvələri yükləməyi və hərəkətə başlamağı söylə. Bu dağın ətəyi ilə gedin. Dağ bitdikdən sonra suya yetişəcəksiniz. Havada bir ağ quş görəcəksiniz. Enərək suyun üstündən keçəcəkdir. Sən karvan əhlini çağır. De ki, mənim ardımca gəlin və "Bismillah" deyin. Dəvələrinizi mənim ardımca sürün, beləcə sudan keçin. Hər kim "Bismillah" demədən keçmək istəsə, suda boğulacaqdır.

Hz. Məhəmməd qeybdən xəbər aldıqdan sonra deyilən kimi etdi. Dəvələri yüklətdi və Meysərəyə dedi:

– Dəvələrini mənim ardımca sür, gəl!

Meysərə deyilən kimi etdi. Dəvələrini Hz. Məhəmmədin ardınca sürdü. Həmzə Meysərənin ardınca, Həmzənin ardınca Abbas, onun ardınca da Haşim oğulları karvanı dağın ətəyinə gətirdilər. Suya çatıb orada dayandılar. Karvan əhli gözlərini göyə dikdi. Bir ağ quş havadan yavaş-yavaş enib Hz. Məhəmmədin önünə qondu. O, karvan əhlinə:

– Ey karvan camaatı, indi siz mənimlə birlikdə gedəcəksiniz. "Bismillah" deyin. Ulu Tanrının adı ilə sudan asanlıqla keçəcəyik. Əgər kim Allahın adını anaraq "Bismillah" deməsə, o bu suda boğulacaqdır.

Bu sözləri deyib Hz. Məhəmməd dəvəsini suya sürdü. Arxasınca Həmzə, Abbas, bütün Haşimoğulları, daha arxada Qureyş qəbiləsindən olanlar suyu keçməyə başladılar.

Amma bunların arasında iki kişi "Bismillah" deməmi°di. Bunların beş-beş dəvələri vardı. Biri Süheyl oğlu Əmr, o biri Amir oğlu Haris idi. Əmr dedi:

– İndiyə kimi nə iş görmüşdüksə, "Bismil Lat vəl Üzza", yəni Lat və Üzzanın adı ilə demişik. İndi niyə Abdullah oğlu Məhəmmədin dediyi kimi deməliyik?

Amir oğlu Haris ona dedi:

– Hey, sən dəli olmusan? Hamı görür ki, Məhəmməd kəramət sahibidir. O olmasaydı, əjdahanı yoldan kim çəkindirəcəkdi? Bizə yol verəcəkdi? Ya sudan kim keçirərdi?

Süheyl oğlu Əmr:

– Ey Haris, sən nə istəyirsən söylə, mən onların dediyini deyil, Lat və Üzzanın adını deyəcəyəm.

Haris suya girdi: "Bismillah..." dedi. Suyu keçib getdi. Sağ-salamat karvana qoşuldu.

Süheyl oğlu Əmr isə suya girdi,amma Hz. Məhəmmədin dediyini demədi, "Bismil Lat vəl Uzza" dedi. Özu başda olmaqla qulluqçuları, kölələri, dəvələri ilə birgə suda boğuldular.

Qarşı tərəfə keçmiş Qureyşlilər durub onların necə suda qərq olmalarına baxırdılar. Harisin keçdiyini görmüşdülər. Tez onun yanına qaçdılar. Aralarında nə baş verdiyini soruşdular:

– Sən sağ-salamat keçdin, o nədən boğuldu?

Haris:

– O, Məhəmmədin söylədiyi sözü demədi. Lat və Üzzanın adını dedi. Ona görə də suda boğuldu. Mən "Bismillah" dedim. Ona görə də qurtuldum. Salamatlıqla keçdim.

Bunları eşidən karvan əhli böyükdən kiçiyə kimi Hz. Məhəmmədi ziyarət etdilər. Əmisi Abbas bu vaxt onun şərəfinə bir şeir söylədi. Abbas deyirdi:

– Bəli, ey əzizi-kərim! Sənə dünyada dəvət sahibi Rəsul olmaq və ya şəhriyar olmaq nəsib olacaqdır. Səni dünyada dəyərsiz, hörmətsiz etmək istəyənlər özləri bu dünyada dəyərsiz olacaqlar. Səni sevməyənlər, səni görməyənlər bu dünyada var, nə etmək olar? Göstərdiyin möcüzələr azdırmı? Hətta əjdaha da sənə qulaq asıb əmrini yerinə yetirir, amma bəzi insanlar... Sudan necə təhlükəsiz keçirdin... Kim sənin nurlu üzünü görəndən sonra belə səni sevməyəcək, onlar, əlbəttə, "əhli-nar" olacaqlar.

Abbas bunları dedikdan sonra Əbu Cəhl yenə fitnəsindən əl çəkmədi. Öz qövmünə:

– Nəbadə Məhəmmədin sehrinə inanasınız. O, sehrbazlıqla sizə yolda əjdaha göstərdi. Sehrlə yağış yağdırdı, sellər axıtdı. Xalqı öz sehri ilə qurtardı. Məhəmmədin gördüyü belə işlər çoxdur.

Əbu Cəhl nədən bu qədər Hz. Məhəmmədin əleyhinə sözlər deyir. Çünki kiçiklikdən Hz. Məhəmmədi qısqanırdı. Onun izzət və hörmətinə həsəd aparırdı. Qısqanclığın səbəbi bu idi.

Niyə görə Hz. Məhəmmədə "Sadiqül-Əmin" deyirdilər? Nədən ona "baş tacı" deyirdilər? Niyə o yetimə sayğı göstərirdilər? Nədən o bu işi "edin!" deyəndə edirdilər, "gediniz!" dediyi yerə gedirdilər.

Əbu Cəhlin düşmənçiliyi bundandı. Bir atalar sözu vardır: "Hər nə qədər dünyada düşmən çox olsa da, əzəmətə qarşı düşmənçilikdən daha böyük düşmən yoxdur."

## *MÜBARƏK BARMAQ SULARI FIŞQIRTDI*

Hz. Məhəmməd: "Gedəyin" deyəndən sonra karvan yenə hərəkətə başladı. Hava qızmağa başlamışdı. Bu istidə uzağa getmək mümkün deyildi. Bura sahibsiz, susuz bir yer idi. Amma Hz. Məhəmmədin oturduğu yerin üstündə yenə bulud vardı. Karvan əhli su axtarırdı. Hz. Rəsul mübarək barmağını yerə batırdı. Barmağını çıxarandan sonra bir fışıltı gəldi və su fəvvarə kimi vurmağa başladı. Sonra axıb getməyə başladı. Hz. Məhəmmədin əmiləri Həmzə, Abbas və Zübeyr bu möcüzəni gördükdə qalxıb gəldilər.

Az bir zamanda Haşimoğullarının uluları da gəldilər. Onlar da gördülər ki, Hz. Məhəmmədin önündən bir bulaq axır. Bulağın ətrafında oturdular. Bu xəbər bir anda Qureyşə kimi gedib çatdı. Qureyş ulular da gəldilər. Hamı bu möcüzəyə heyran-heyran baxırdı. Suyun ləzzəti əvvəlki sulara bənzəmirdi.Axışı da sular kimi deyildi. Bütün xalq bu möcüzəyə heyran qalmışdı.

## *XURMA MÖCÜZƏSİ*

Bu vaxt Hz. Məhəmməd əmisi Abbasdan xurma istədi. Abbas ona beş dənə xurma verdi. Rəsulullah bir xurmanı ağzına atdı, yeməyə başladı. Sonra çəgirdəyini ağzının tüpürcəyinə bulaşdırdı. Axan mübarək bulağın kənarında bir yerə basdırdı. Sonra birini də yedi. Yenə o biri çəgirdəyin yanına basdırdı. Onlardan cücərtilər çıxmağa başladı. Sonra bir-birinin ardınca xurmaları yedi və çəyirdəklərini basdırdı. Onlar da cücərib ağac oldular, xurma verməyə başladılar. Hamı gəlib o beş ağacın başına yığışdi. Bu möcüzələri görüncə, Hz. Məhəmmədin ayağına düşdülər. Əlini, ayağını öpməyə başladılar. Ona dua etdilər.

## *ƏBU CƏHL KƏRAMƏTƏ İNANMIR*

Ancaq Əbu Cəhl heç də belə düşünmürdü.Xalqın arasındakı bu sayğını görəndə səbri tükəndi. Qureyşliləri yanına çağırdı:

– Ey qövmüm, Məhəmməd bunu kimi daha yüz müxtəlif kəramət göstərsə belə, mən ona inanmıram. İnanacaq da deyiləm. Əgər bu sehrləri xalqı özünə inandırmaq və ulu olmaq üçün göstərirsə, Məhəmməd özünə əziyyət verir. Xalqı da bezdirir, yorur.

Bu sözlər Haşimoğullarına yetişəndə uluları, Əbdülmüttəliboğulları həmin an qılınca qurşandılar. İstədilər ki, Əbu Cəhli parça-parça etsinlər. Am-

ma Hz. Məhəmməd yerindən qalxdı. Öz nəslinə və qəbiləsinə and verərək dedi:

– Ey məni sevənlər, sizdən xahişim budur ki, ortaya fitnə salmayın. Haşim oğlu Əmra, yəni Əbu Cəhlə qarşı çıxmayın. Nə qədər pis söz söyləsə, pis işlər görsə, ona fikir verməyin. O bizim yol yoldaşımızdır.

Əbdülmüttəlib oğlu Zübeyr uluları saxladı, oturtdu. Əbu Cəhl də adamları ilə gəldi. Zübeyr lətifələr danışdı, gülməli söhbətlər etdilər. Sonra Əbu Cəhlə öyüd-nəsihət verərək dedi:

– Ey Hişam oğlu Əmr, ey Əbu Cəhl. Niyə xalq arasında bəzi sözlər deyirsən? Sən də bilirsən, bütün xalq da bilir ki, qardaşımız Abdullahın oğlu Məhəmməd Ərəbül-Ürba içində hörmət, izzət və şərəf sahibidir. Yaralarımıza şəfa oldu. Aciz qaldığımız yerdə onun duası ilə imdad gəldi. Əgər düşmənlərimiz üstümüzə gəlibsə, onun duası ilə Ulu Tanrı onları məhv edib. Sözü doğru, könlü dürüst, əmanəti yaxşı, dəyanəti gözəl, diriliyi pak, kəraməti zahirdir. Sən nədən dolayı onun kimi bir seyyid ilə düşmənçilik edirsən? Ona düşmən olursan?

Zübeyrdən sonra Həmzə sözə qarışdı:

– Ey Hişam oğlu, bizim səndən, qohum-əqrəbandan, qəbilədən qorxumuz yoxdur. Bizim susmağımızın və sənə cavab verməməyimizin səbəbi Həbibimiz və seyyidimiz üzündəndir. O, bizi istədiyimizi etməyə qoymaz. Həmişə deyir ki, mənim üzümdən kimsə ilə pis insan olmayın. Onun hörməti olmasaydı, sizdən bir kişi də qalmazdı.

Zübeyr Həmzənin aslan kimi coşduğunu görüncə, zarafatla bir neçə söz deyib Hz. Məhəmmədin mübarək üzünə doğru döndü. Onun səbrinin çox olduğunu söylədi.

## *EY ABBAS, XURMALARI YIĞ*

Karvan əhli yenə köç hazırlığına başladı. Hər biri öz heyvanlarının yanına getdi. Yola düşəndə beş xurma ağacına baxan Hz. Məhəmməd əmisi Abbasa:

– Abbas əmi, sən bu ağacların xurmasını yığ, gəl gedək.

Abbas bir az geri qaldı, ağacdakı xurmaların hamısını topladı. Özünü karvana yetirdi. Təzə yetişmiş xurmanı karvan əhlinə payladı. Hamı bu qüdrətə "əhsən" dedi. Bir qismi isə Hz. Məhəmmədi inkar edir, o birilər dua edirdilər.

Beləcə bir neçə gün hərəkət etdilər. Şam vilayətinin sərhədlərinə yaxınlaşdılar.

O gün çatdıqları yerdə bir monastr vardı. Böyük və abad bir bina idi.

Bu monastrda bir rahib yaşayırdı, adı Abdüssalib oğlu Cərcis idi. Amma ona Buhayra deyirdilər. Yaşı, biliyli, elmi çox idi. Oxuduğu kitabları da daima təhlil edərdi. Səmavi kitablari dəfələrlə oxumuşdu. Tövratı bilənlər arasında tayı yox idi. Hz. Rəsulun taleyini yazan (Fələk) göy üzü elmindən də xəbərdar idı. Hz. Rəsulun sifəti, keyfiyyəti, əxlaqı bu kitablarda yazılmışdı. Buhayra gecə-gündüz bu kitablarla məşğul olurdu. Dilində zikri, könlündə fikri daima Hz. Məhəmməd idi. Ulu Tanrının qüdrət və hikmətindən Qureyş karvanı onun monastrına yaxın yerdə dayanacaqdı.

Səhər olub günəş qalxdıqca karvan monastra yaxınlaşdı.

Buhayranın bir adəti vardı. Zikr etməni bitirdikdən sonra Hz. Rəsulu təsvir edən kitabı əlinə alırdı. Çünki bu kitabda axırzaman peyğəmbərinin surəti haqda yazılmışdı.

## *BAŞ KEŞİŞ DƏRİNDƏN AH ÇƏKDİ*

Buhayra o gün də belə etmişdi. Zikrdən sonra kitabı əlinə alıb Rəsulun təsvirini oxumuşdu. Belə ki, axırzıman peyğəmbərinin mübarək üzü Buhayranın gözünə nəqş olunmuşdu.

Keşiş dərindən-dərinə bir ah çəkdi ki, tələbə rahiblər:

– Nə oldu? − deyə ona tərəf qaçdılar. "Görəsən bizim ustadımıza nə oldu? Niyə belə dərindən ah çəkdi", − dedilər. Yanına çatıb gördülər ki, doğrudan da ağlayırdı.

Ondan soruşdular:

– Ey böyüyümüz, şeyximiz, ustadımız, biz heç bir zaman sənin belə ağladığını görməmişdik. Bugünkü kimi sızlayıb ağlamamışdınız. Bu cür hönkür çəkib ağlamağın səbəbi nədir? Bizə də deyin bu sirrin mənasını?

Buhayra:

– Ey mənim tələbələrim, mənim içimdə bir həsrət var. Arzu edirəm ki, ölməmişdən qabaq kaş o həsrətə qovuşam. Bu gün görürəm ki, ömrüm sona yetişdiyi halda, hələlik o arzuya çatmamışam. Ona həsrət qaldım. Ölümüm yaxınlaşdı, ümiddən uzaq düşdüm. Bu ümidsizlik məni ağlamağa, sızlamağa məcbur edir.

Bütün kiçik pahiblər:

– Ey mübarək pirimiz, sevgili ustadımız, o həsrətini bizə də bildir, bilək, bizim də içimizdə həsrət qalmasın.

Buhayra bundan sonra Rəsulullahın sifətini onlara anlatmağa başladı. Səmavi kitablarda nə tapıb oxumuş, öyrənmiş, bilmişsə, hamısını onlara danışdı. Sonra əlindəki kitabı açdı. Hz. Rəsulun şəkli, sifəti, heybəti haqqında

təsvir edilənləri onlara oxudu, başa saldı.

Hamı sarsılmışdı(mütəəssir olmuşdu):

– O,Tihamə vilayətinin Hicaz hissəsindəki Məkkə şəhərində doğulacaqdır. Qureyş qəbiləsinin Bəni-Haşim qolundan, Əbdülmüttəliboğullarından olacaqdır. Adı Əbdülmüttəlib oğlu Abdullah oğlu Məhəmməddir. Bizim zamanəmizdə doğulacaqdır. Aləmdə onun üzü görünməkdədir. Amma qırx yaşından sonra dəvətə başlayacaqdır. Vacibdir ki, ona vəhy gəlsin. Ondan əvvəl də Şama səfər edəcəkdir. Bu onun evlənməsi üçün lazımdır. Bu kilsə bundan dolayı yolun yaxınlığında tikilmişdir. O, məkkəli peyğəmbər nə vaxt ki Şam səfərinə gələcəkdir, dayandığı yer də bu monastr olacaqdır.

Rahiblər soruşdular:

– Ey ulumuz, onun nişanələrini bizə bildir. Nəbi bu yoldan keçərsə, hansı əlamətlər, nişanələr olacaq? Onun gəldiyini haradan biləcəyik?

Qoca keşiş:

– Bizim kilsəmizin iki qapısı var. Bir qapısı Hicaz tərəfə baxır. Orada bir quru ağac var.

Rahiblər:

– Bəli, orada bir quru ağac vardır, – dedilər.

Buhayra davam etdi:

– O ağacın dibində suyu azalmış bir quyu var.

Gənc rahiblər:

– Bəli, – deyə təsdiqlədilər.

Buhayra:

– Ey xalq, o ağac nəbilər mənzilgahıdır. O ağacın dibində gəlib otururlar. O quyunun suyundan içirlər. Nə vaxt o ağacın dibində peyğəmbər otursa, ağac yarpaqlanar. Kölgə salar, quyunun suyu yerdən fışqırıb çıxar. Bayıra axmağa başlayar. Bu hal Allah peyğəmbərinin o ağac dibində kölgələnməsinə, o quyudan su içməsinə, dəstəmaz almasına, yenə yola çıxmasına kimi olar, sonra isə ağac quruyar, quyunun suyu azalar, yox olmaq həddinə çatar. Bunlar o vaxta kimi davam edər ki, onun altında yenə Allahın bir peyğəmbəri gəlib otursun. O ağacın yarpaqlanması Məryəm oğlu İsa əleyhissəlamın zamanında, bura gəlməsində və dibində oturmasında baş vermişdi. Quyunun suyu da dolub bayıra axmağa başlamışdı. O vaxtdan mənim dinimdən olanlar İsa peyğəmbərin xidmətindəyik. İsa Reyğəmbər mənim əcdadlarıma buyurdu:

## BURADA BİR MƏBƏD TİKİN

– Burada bir məbəd tikin, ta ki axırzaman peyğəmbəri Abdullah oğlu Məhəmməd gəlsin. Burada möcüzələr göstərsin.

Əcdadlarım İsa peyğəmbərdən soruşdu:

– Ey Ruhullah, o rəsulun gələcəyi necə bəlli olacaq? De, bunu bilək.

İsa Peyğəmbər bu cavabı verdi:

– Onun nişanı budur ki, Rəsulun başı üstündə bir ağ bulud görünəcəkdir. O bulud cənnətdə yaradılmışdır. Rəsulullahın başına kölgə salacaqdır. Bura gələndə qurumuş ağacın dibində oturacaqdır. Ağac yaşıllaşacaq, quyunun suyu dolub bayıra axacaqdır.

Sonra ixtiyar keşiş Buhayra ümüdsizliklə sözünə davam etdi:

– Amma mənim ömrüm axıra çatır. Əgər o peyğəmbəri görmədən ölsəm, bu həsrətli bir ölüm olacaqdır.

Bundan sonra rahiblər dağıldılar, hərə öz işinə, ibadətinə getdi. Buhayranın göz yaşları dayananda Qureyş karvanı Hicaz yolunda görünməyə başladı.

Rahiblər karvanı gördükdə tez qaçıb qoca rahib Buhayraya xəbər verdilər.

– Ey ulumuz, Hicazdan gələn karvan yaxınlaşır.

Buhayranın ibadət etdiyi yer Hicaz qapılarının üstündə idi. Tez gənc rahibləri çağırdı:

– Yol üstünə baxan pəncərəni mənim üçün açın! – dedi.

Pəncərəni açdılar. Buhayra gözünu uzaqdan gələn karvana dikdi. Nələr görürdü? Ağlını itirəcəkdi. Karvanın üstündə qalxan böyüklüyündə bir bulud onlarla birlikdə hərəkət edirdi.

Buhayra sevinirdi.Tələbələrini çağırdı:

– Ey rahiblər, məni aşağı endirin. Karvan ulularını saxlayın. Ümid edirəm ki, bu gün könlüm muradına çatacaqdır.

Rahiblər ustadlarını aşağı endirdilər. Hamısı karvanı qarşılamağa çıxdı. Qureyş uluları, Məkkə seyyidləri kilsə əhli ilə bir-birinə qarışdı. Elə burada da dincəlməyə dayandılar. Ancaq Hz. Məhəmməd Hicaz qapısındakı ağac tərəfə getdi. Meysərəyə:

– Ey Meysərə, biz bu qurumuş ağacın altında yerləşərik.

Meysərə Hz. Məhəmmədin dediyi kimi də etdi. Ağacın altına gəldi, kölələrə yükləri bu ağacın dibində endirməyi əmr etdi.

Buhayra anladı ki, gözəl surətli, mələk, ay üzlü, səadət ulduzlu o insan bura gəlmişdir. İndi dəvədən aşağı enir. Heyrətdə idi. Hara gedirdisə, bulud onun üstüncə gedirdi, dayanırdısa, dayanırdı.

Bu vaxt Hz. Məhəmməd Meysərə və kölələrinə:

– Döşəyi bu ağacın altına döşəyin.

Elə də etdilər. Hz. Məhəmməd bardaş qurub yerdə oturdu. Kürəyini quru ağaca söykədi. Dərhal Ulu Tanrının qüdrətindən ağac yarpaqladı, kölgə saldı. Sonra qurumuş quyudan su bayıra axmağa başladı. Ətrafda su fışıltısı eşidildi. Suyun axdığı yerlərin yaxınlığında otlar bitdi.

Buhayra çaşqın, amma sevinc dolu gözləri ilə baş verənləri seyr edirdi. Bu möcüzələri gördü. İsa Peyğəmbər tərəfindən deyilmiş üç nişanə göründü. Qoca rahib özü-özünə dedi:

– İsa əleyhissəlamla bütün peyğəmbərlərin isarət etdiyi axırzaman peyğəmbərinin üç ulu nişanəsi:

1. Üstündə bulud olması;
2. Quru ağacın yarpaq verməsi;
3. Qurumuş quyudan suyun dolub qırağa axması.

Deməli, bu üç nişanə yerinə gəldi. Artıq şübhə qalmamışdı. Anladım ki, muradım hasil oldu.

Buhayra kilsəsindən aşağı endi:

– Qonaqlar üçün hazırlıqlar edilsin, − deyə tapşırıqlar verdi.

## *Hz. MƏHƏMMƏD YENƏ BİR KƏRAMƏT GÖSTƏRDİ*

Həmən yeməklər hazırlandı, süfrələr quruldu.

Bu vaxtda Qureyş ululları arasında Hz. Məhəmmədin möcüzəsi sürətlə yayıldı. Hamı danışırdı ki, Məhəmməd yenə bir kəramət göstərdi. Qurumuş ağacın altında oturub kürəyini ağaca söykəyəndən sonra ağac yarpaqlandı. Qurumuş quyudan su çıxıb kənara axmağa başladı. Suyun axdığı tərəfdə otlar çıxdı, çəmənlik oldu. Bütün karvandakılar Hicaz qapısına gəlib ağaca və suyun axmasına tamaşa etdilər.

Bundan sevinc duymayan kimdir? İnsanların qəlbi və ruhu bir olmaz. Kiminsə ürəyində həsəd odları alovlanırdı. Əbu Cəhl də bunların başında olduğu üçün bu xəbər birdən-birə onu sarsıtdı. Qulunc ağrıları tutdu. Yenidən deyinməyə başladı:

– Bu sehrbaz öz sehr və caduları ilə xalqı özünə heyran edəcəkdir?

Öz qəbiləsinin adamlarına ciddi tapşırıq verdi:

– Kimsə bizim qəbilədən o sehrlərə tamaşa etməyə getməyəcək. Amma Haşim, Əbdümənaf və Əbdülmüttəliboğulları Hz. Məhəmmədin yanına gəldilər. Baxdılar. O qüdrət və möcüzəni gördülər, onu ziyarət etdilər.

Hz. Məhəmmədin yanına Abbas və Həmzə ilə birlikdə Zübeyr də gəl-

mişdi. Oturub onun mübarək üzünə baxaraq söhbət edirdilər. Üzü bu anda daha da parlaq idi. Hz. Məhəmməd isə öz halına dalıb oturmuşdu. Nəbilik heybətindən heç kim söhbət açmadı. Dillər açılmadı. O tərəfdə Meysərə dəvələrin yüklərini açmışdı. Kölələrinin hər birinə iş tapşırmışdı. Sonra özu da gəlib Hz. Məhəmmədin xidmətində durdu. Bunlar öz işlərini gördükləri vaxtda Buhayra da yeməklər hazırlatdırmışdı. Xalılar salınıb süfrələr açılmışdı.

Baş rahib tələbələrini topladı. İkisini Qureyş ulularının yanına göndərib dedi:

– Siz karvan ulularının yanına gedin, məndən salam söyləyin. Deyin ki, baş rahib Buhayranın nəziri vardır. Qonaq dəvət etmək üçün hazırlıqlar etdirdi. Hərəm seyyidləri karvan əhlini və böyükdən kiçiyə kimi toplayıb kimsə qalmadan hamılıqla ziyafətə gəlsinlər.

Onlara ayrıca tapşırdı:

– Əgər qureyşlilər soruşsalar ki, əvvəllər rahibin belə bir adəti olmayıb. Karvan gəldi, getdi, ət kəsməz, qan axıtmazdı, karvançılara yemək verməzdi. Onda onlara bu cavabı verin: "Bu bir nəzirdir, o əhd etmiş, şükür borcudur. Böyük-kiçik gəlin, süfrəmizdə ziyafətdə olun".

Göndərilən iki keşiş qureyşlilərin yanına gəldi. Vail oğlu As, Hişam oğlu İkrimə, Haris oğlu Nazr Məkkənin hörmətli uluları bir yerdə yığışıb oturmuşdular. Keşişlər onlara yaxınlaşıb baş rahibin salamını yetirdilər və dedilər:

– Buhayra sizə salam söylədi. Xalılar saldırıb, süfrələr açdırdı, qan töküb qurbanlar kəsdirdi. Sizi dəvət edir. Dedi ki, arzu edərəm ki, seyyidlər mənim məbədimə bütün adamlarını da götürüb gəlsinlər. Hətta qul və kölələrini də gətirməyi unutmasınlar.

Həbib oğlu Müəmmər təəccüblə Vail oğlu Asa baxdı:

– Ey seyyidlər, indiyə kimi baş rahibin belə bir adəti yox idi. Kilsəyə başqa yerlərdən gələnlərə heç vaxt ziyafət verməzdi. Yedirdib içirməzdi. Onu görməyə gələnləri belə çox vaxt qəbul etməzdi, görüşməzdi.

Seyyidlər birdən:

– Çox maraqlıdır ki, bu toplantıda məqsəd nədir?

Keşişlər:

– Bunu onun özündən soruşarsınız, – deyə cavab verdilər.

Bundan sonra iki keşiş Haşimoğullarının yanına getdilər. Haşimoğullarının hörmətliləri Hz. Məhəmmədin başına toplaşmış və söhbət edirdilər.

Keşişlər nə gördülər?! Peyğəmbər mənzilgahında xatəmür-rəsul oturmuş, arxasını ağaca söykəmiş, ağac göyərmiş, yarpaq açmışdı. Qurumuş quyudan tərtəmiz su axıb gedirdi. Keşişlər Hz. Rəsulullahın yanına yaxınla-

şıb sayğı göstərdilər. Baş rahibin salamını və dəvətini ona çatdırdılar:

– Buhayra sizi dəvət etdi. Qureyş ulularının yanında olduq, onları da dəvət etdik.

Hər kəs susurdu. Sanki danışmağa dilləri yox idi. Kimsə cavab verməyə özündə qüvvət tapmadı. O zaman Hz. Məhəmməd mübarək ağzını açdı, sanki hamıya bir qüvvət verdi. Onlara:

– Buhayranın ziyafətinə gedin, – dedi.

Əmisi Həmzə:

– Ya Həbibi, ey gözümüzün işığı, sən getməyəcəksənmi?

Hz. Məhəmməd:

– Mən burada qalıb malınızı qoruyacağam, – deyə cavab verdi.

Çünki bütün Qureyşin əmini Hz. Məhəmməddi. Belə deməkdə haqlı idi. O bir sözü söyləyərsə, etiraz etməzdilər. Ümumiyyətlə, bir sözünü iki etməzdilər. Əgər bir işi Hz. Məhəmməd məsləhət görməzdisə, onu da etməzdilər. Bu adət onun yaxınları arasında şərt olmuşdu.

Haşimoğulları yığışıb, qul və kölələrini də götürüb Qureyşlə birlikdə kilsəyə yollandılar.

Qureyş ulular onlardan soruşdular:

– Ey seyyidlər, malınız, dəvələriniz üstündə bir nəzarətçi qoydunuzmu?

Abbas:

– Qardaşım oğlu Məhəmmədül-əmin və sadiqi qoyduq, – deyə cavab verdi.

Bütün ulular:

– Çox gözəl, – dedilər.

Hamısı bir yerdə baş rahibin yanına getdilər. Hər kəs onun üçün ayrılmış yerdə oturdu. Karvan mühafizəçiləri də gəlib süfrədə yerlərində oturdular. Buhayra kilsədən aşağı endi. Hz. Rəsulun nişanları olan kitabı da əlində idi.

## *BUHAYRANIN Hz. MƏHƏMMƏD ÜÇÜN SORĞUSU*

Qureyş ulular rahibin onların hər birinin üzünə çox diqqətlə baxdığını gördülər. Baş rahib umduğunu görməmiş kimi heybətli baxışlarla ətrafı süzdü. Oturanlar arasında nübüvvət üzü olan kimsə yox idi. Kitabı açdı, baxdı, oxudu. Kitabın içində şəkli və surəti yazılı olan kimsə burada yoxdur. İstədiyini tapmadı:

– Ey Qureyş seyyidləri, mən sizdən rica etmişdim ki, sizin aranızdan bayırda heç kim qalmasın. Bütün karvan əhlinin gəlməsini demişdim. Niyə görə belə etmədiniz? Karvanın yanında kimsələri saxladınız.

Karvanbaşı Əbu Cəhl söz aldı:

– Ey rahib həzrətləri, biz bayırda kimsəni qoymadıq qalsın. Böyük-kiçik hamısını gətirdik. Amma bir yetim dəliqanlı vardır. Heç nəyi yoxdur. Atadan anadan yetimdir. Yalnız əmin və sadiqdir. Malımıza, dəvələrə onu gözətçi kimi qoyduq. Ona güvənərək sənin ziyafətinə gəldik.

Baş rahib həyəcanla soruşdu:

– O igidin adı nədir?

– Abdullah oğlu Məhəmməd, – deyə cavab verdi.

O zaman Buhayra yenidən soruşdu:

– Məhəmmədin atası öldüyü zaman ona kim baxdı, qəyyum oldu? Kim böyütdü?

Əbu Cəhl:

– Babası Əbdülmüttəlib böyüdüb bəslədi.

Baş rahib yenidən soruşdu:

– Babasının ölümündən sonra onun qəyyumu kim oldu? Ona kim baxdı?

Əbu Cəhl:

– Əmisi Əbu Talib, – deyə cavab verdi.

Baş rahib sorğusunu davam etdirdi:

– O Abdullah oğlu Məhəmmədin üstünə bir ağ bulud kölgə salırmı?

Əbu Cəhl:

– Məkkədən, Hicazdan bəri bir ağ bulud Məhəmmədin üstünə kölgə salmaqdadır, – deyə doğrunu söyləmək məcburiyyətində qaldı.

O zaman baş rahib güldü. Əbu Cəhlin Məhəmmədə qarşı saygısız sözləri onu hiddətləndirmişdi. Ona dərs verəcəkdi. Hər kəs susurdu. Rahib onun biədəblik etdiyini onun üzünə qarşı söylədi. Əbu Cəhl baş rahibin sözünü hara aparacağını gözləyirdi. Haşimoğulları ləinin aldığı cavaba görə sevinmişdilər. Əbu Cəhlin Hz. Məhəmmədi kiçiltmək üçün "bəxtsiz yetim" deməsi o şərəfsizin iç üzünü göstərirdi.

O yetimi başqa dinin bilicisi baxın, necə görürdü?! Buhayra Hz. Məhəmmədin təsvirini uzun illər öyrənmiş və çox gözəl bilirdi.

Buhayra Haşim oğullarının üzünə baxdı. Sonra soruşdu:

– Ey Haşimoğulları, Abdullah oğlu Məhəmməd sizin nəyinizdir?

Həmzə cavab verdi:

– Məhəmməd bizim seyyidimizdir, sultanımızdır. Bütün Qureyşin saygılı və izzətlilərindəndir. Qurey° əsgəri hara getsə, müzəffər olur, üstün olur, bu da onun kəramətindəndir.

Buhayra:

– Söylədiyiniz bu söz sizin sözünüzdür. Amma sizdən nə qədər əvvəl

cahana Allahın göndərdiyi peyğəmbərlər gəlmişlər ki, onlara göydən kitablar enmişdir. İbrahim peyğəmbərə “Suhuf” endi. Musa peyğəmbərə “Tövrat”endi. İsa peyğəmbərə “İncil” endi. Bütün bu kitablar böyük peyğəmbərlərə vəhy olaraq endi. Bunları Cəbrail əleyhissəlamın dilindən eşitdilər: “İbrahim peyğəmbər nəslindən, İsmail sülaləsindən Tihamə ölkəsində, Hicaz vilayətinin Məkkə şəhərində Haşimoğullarından bir peyğəmbər dünyaya gələcəkdir. Adı Abdullah oğlu Məhəmməd olacaqdır. Adəmdən İbrahim peyğəmbərə kimi bir nur gəlmişdir. Bu Rəsul nurudur ki, İbrahim peyğəmbərdən İsmaila nəql edilmişdir. O nur İsmyıldən sonra atadan oğula nəql edilərək ta Məhəmmədə gələcəkdir. Məhəmmədin qırx yaşına qədər həyatı xalqın xeyrindən, şərindən də fərqli olacaqdır. Öz aləmində qalacaqdır. Kimsəyə dəvət xəbərini bildirməyəcəkdir. Yalnız hər kəsi təəccübləndirən və səssiz buraxan möcüzə və kəramətləri olacaqdır”.

Baş rahib sonra əlindəki kitabı açdı ki, orada Hz. Rəsulun şərhi yazılmışdı. Surəti təsvir edilmişdi. Şəkli, yaraşığı, gözəl sifəti, heybəti yazılmışdı. Baş rahib kitabı Qureyşin önündə oxudu. Böyük, kiçik, seyyid, kölə hər kəs dinlədi. Sonra Buhayra yenə dedi:

– Məni bu kitabın içindəki Məhəmmədin yazılı şərhi və keyfiyyətləri dəli etmişdi. Gecə, gündüz rahatlığımı almışdı. Onun yolunu gözləməkdəyəm. Eyni zamanda ulu Tanrıya nəzir etdim ki, nə zaman Abdullah oğlu Məhəmmədə Haqq Sübhanə və təala izn verər, buraya gələrsə, mən onun qardaşlarına ziyafət verim, qonaq edim. Bu gün mənə xoşbəxtlik qapısı açıldı, dövlət üz göstərdi. Ulu Tanrı məni umduğuma yetirdi. Muradıma yetişdiyim üçün sükür edib borcumu yerinə yetirirəm.

Bu sözləri eşidən Vail oğlu As:

– Ya rahib, sən nədən bildin ki, bu Məhəmməd sənin təsvir etdiyin, haqqında danışdığın Məhəmməddir və o, axırzaman peyğəmbəri olacaqdır?

Buhayra:

– Üç müxtəlif nişanı gördüm. Birinci nişan budur ki, onun üstündə bir ağ bulud hərəkət edərək daima kölgə salır. Məkkəli Rəsulun nişanəsi odur ki, bulud ancaq onun üzərində durur, hərəkət və dayanmaları izləyir. Daha iki nişanələr bunlardır ki, onları mən siz kilsənin yanında dayandıqdan sonra izlədim.

Vail oğlu As:

– O iki müxtəlif nişan nədir ki,onları da bizə söylə.

## *HAQQ PEYĞƏMBƏRİNDƏ GÖRÜNƏN NİŞANƏLƏR*

Buhayra cavab verdi:

– Nə zaman ki Adəm peyğəmbər Cənnətdən yerə endi, gəzdi, ömrü boyunca Beytül-məmuru ziyarətə gəlirdi. Bu su quyusunun üstündə otururdu. Bir gün yenə bu suyun yanında oturdu və əlindəki əsanı torpağa sancdı, yatdı. Ulu Tanrının qüdrətindən o əsa sancıldığı yerdə göyərməyə başladı. Cücərdi, yarpaqlandı, budaqları böyüdü. Qoca bir ağac halına gəldi, onun üstünə kölgə saldı. Adəm peyğəmbər beləcə bu ağacın kölgəsində dincəldi, yatdı, yuxusunu aldı. Oyananda gördu ki, əsası bir qoca ağac halına gəlmişdir. Adəm o zaman iki rükət namaz qıldı. Bundan sonra bu müqəddəs yer peyğəmbərlərin mənzilgahı oldu. Dünyaya gəlmiş hər böyük peyğəmbər mütləq bu ağacın dibində oturmuşdur. Bu ağac çox yaşadı, amma illər keçdikdən sonra qurudu. Nuh peyğəmbər də bu mənzilgaha gəlibmiş. Adəm peyğəmbərin oturduğu yerdə oturmuşdu. Birdən gördü ki, ağac quruyub kürəyini ona söykədi. Ağac yaşıllaşdı. Üçüncü nişanə budur ki, susuz, kor quyudan su çıxdı, axdı. Nuh peyğəmbər oradan ayrılandan sonra o ağac yenidən qurudu. İbrahim peyğəmbərin zamanına kimi ağac quru qaldı. İbrahim peyğəmbər də o mənzilgaha gəldi, onun bərəkəti ilə ağac göyərdi, yarpaqlandı. Onun dövrü keçdi, ağac qurudu. Quyunun suyu kəsildi. Musa peyğəmbərin zamanı gəlmişdi. Eynilə o ağacın altında oturub kürəyini ağaca söykəyəndən sonra eyni möcüzələr baş verdi. Onun dövrü bitəndə ağac qurudu və su da kəsildi. İsa Peyğəmbər dünyaya gələndə möcüzələri o da göstərdi. Elə ki  Məryəm oğlu İsa qeybə çəkildi, hər çey təkrar olundu. İndi peyğəmbərlər peyğəmbərinin dövrü gəlməkdədir. O, nəbilər məqamına gəldi. Arxasını ağaca söykəyəndən sonra qurumuş ağac göyərib yarpaq və budaq verdi. Qurumuş quyudan sular dolub bayıra axmağa başladı. Bu gün bunları biz gözümüzlə gördük. Bu üç müxtəlif nişanələri biz bu gün o seyyidül-mürsəlin olan Haqq peyğəmbərində görmüş olduq. Həqiqəti bildim ki, Nəbiül-ümmül-izzətül Qureyşi odur.

Mən bundan dolayı sizlərə bu gün ziyafət vermiş oldum. Arzum o Rəsulu burada, bu nemətlərin yanında görmək idi, siz də tamaşa edərdiniz.

Baş rahibin bu sözlərindən sonra Abbas yerindən qalxaraq:

– Mən gedib qardaşım oğlu Məhəmmədi götürüb gəlirəm, − dedi.

Əbu Cəhl etiraz etdi:

– Malımızı, dəvələrimizi kimə buraxıb gələcək, itə bilər.

Buhayra:

– Bir şey itərsə, onu mən ödəyəcəyəm. Bir gümüş pul məbləğini itirənə mən bir qızıl pul verəcəyəm.

Sonra tələbələrinə:

– Hicaz yoluna gedən kiçik qapını açın. O Həbib qoy bu qapıdan girsin.

Abbas ilə Meysərə qapıdan birlikdə çıxdılar. Hz. Məhəmmədin yanına gəldilər:

– Ey Məhəmməd, ey Həbibi, ey seyyidi, − dedilər – orada söhbətin şərəfi yox, söylədiyimiz sözlərin gözəlliyi yox sənsiz... Oranın baş kahini səni görmək istəyir. Təşkil etdiyi bu ziyafət sənin şərəfinə olduğunu söyləyir. O mənzili və məclisi şərəfli et, orada olmaqla oranı bəzə.

Nəbilər sərvəri, axırzaman peyğəmbəri qalxdı, Abbasla Meysərə qabağına düşdü. Kilsənin kiçik qapısına gəldilər. Qapı ancaq əyilib girəcək qədər kiçik idi. Buhayra bir əlində kitab, bir əlində əsa birtəhər dayana-dayana qapıya gəldi ki, Hz. Məhəmmədi qarşılasın. O qapıya gələnə qədər Rəsulullah da qapının ağzına çatmışdı. Ayağını eşiyə basanda Ulu Tanrının hikmətindən qapı böyüdü, yuxarısı qalxdı. Divarlarında olan büt təsvirləri hamısı yerə düşdü.

Buhayranın qəlbinə bir heybət oturdu. Abbasla Meysərənin dili tutuldu. Boğazları qurudu, nitqləri kəsildi. Üçünün heyrətli baxışları altında Hz. Məhəmməd içəri girdi.

İxtiyar rahib üzünü yerə qoydu. Hz. Məhəmmədin ayağına düşdü. Abbas da, Meysərə də mübarək ayağa üzlərini qoydular. Sonra birlikdə ziyafət olan yerə keçdilər.

Başda Həmzə olmaqla, Haşim və Əbdülmüttəliboğulları onu hörmətlə qarşıladlar. Bütün ərəb uluları ona sayğı göstərdilər. Qureyş seyyidləri ona qarşı irəliləyib əl tutdular. Baş yerə keçirdilər. Hz. Məhəmməd oturdu. Ayaqda duran ululara:

– Buyurun oturun, − deyə işarə verdi. Onlar da oturdular.

## *Hz. MƏHƏMMƏDİN BUHAYRA İLƏ SÖHBƏTİ*

O zaman Buhayra:

– Ey Məhəmməd, – dedi, – Tövrat əhlindənmisən?

Hz. Məhəmməd:

– Yox, deyiləm, − deyə cavab verdi.

Qoca rahib yenə soruşdu:

– İncil əhlindənmisən?

Hz. Məhəmməd:

– Mən İncil əhlindən də deyiləm, − dedi.

Baş rahib yenidən soruşdu:

– Deməli, sən yəhudi dinindən deyilsən, xristian dinindən də deyilsən. Əgər sən bu iki dindən deyilsənsə, o halda, ya Həbib, hansı dindənsən, millətdənsən.

Hz. Məhəmməd rahibə lazım olan cavabı verdi. Buhayra:

– Doğru söyləyirsən, ya Məhəmməd.

Süfrə quruldu. Yeməklər gəldi. Hz. Məhəmməd də yeməklərdən yedi. Süfrə bitənə yaxın şərab gətirdilər. Bir qabda Hz. Həmzəyə verdilər, Hz. Məhəmmədə də təklif etdilər.

– Şərbət için, − dedilər.

Hz. Məhəmməd:

– Bu şərbət mənim şərbətim deyil. Məndən öncə gələn peyğəmbərlər də bu sərabı içmədilər.

Buhayra:

– Bəli, mən bilirdim ki, sən onu içməyəcəksən. Çünki sənin sifətinin şərhində içki içməyəcəyin bildirilmişdi. Sonra ondan soruşdu:

– Ey Məhəmməd, sənin şərbətin, şərabın nədir?

Hz. Məhəmməd:

– Mənim şərbətim süd, şərabım sudur. Əgər süd varsa, gətirsinlər, yoxsa su versinlər.

Buhayra:

– Süd gətirin, əmrini verdi. Süd gətirdilər, su da hazırladılar.

Qalanlar şərab içməkdəydi. Yalnız Hz. Məhəmməd süd içməklə yeməyi bitirdi.

Buhayra imkan tapan kimi sorğularını davam etdirirdi:

– Ey Məhəmməd, sənin üçün mənim qəlbimdə heç bir şübhə qalmadı. Bildim ki, sən axırzaman peyğəmbərisən. Peyğəmbərlik səndən sonra kəsiləcəkdir. Sənin dinin qiyamətə qədər qalacaqdır. Sənin ümmətin qılınc əhli olacaq və bütün məliklərin tacını da, taxtını da əllərindən alacaq. Məmləkətlərini ələ keçirəcəksiniz. Kitabın başqa kitabları ortadan qaldıracaqdır. Sənə inanan əbədi bəxtiyar olacaqdır. Sənə müxalifət olanlar isə əbədi zillət əhlindəndir. Amma bu zəif qulun da hüzurunda bir hacəti var, bir diləyi vardır. Risalətinə inandım. Bunu qəbul etdim. Nübüvvətini təsdiq etdim. Gözəl üzünə heyran oldum. Qəlbimdə artıq sənə həsrət qalmadı. Fəqət bir diləyim var. Sənin şəriətində iki dinə mənsub olanlardan qiyamətə kimi cizyə alınacaqdır. Bunlar yəhudi və xaçpərəstlərdir. Diləyim budur ki, keşişlərdən vergi alınmasın.

Hz. Məhəmməd:

– Elə də olsun.

Buhayra:

– Al, yazısını yaz! – deyə xahişinə çatdı.

### *Hz. MƏHƏMMƏD "MƏN ÜMMİ YARADILDIM" DEDİ*

Hz. Məhəmməd:

– Ulu Tanrı məni ümmi yaratdı, mən nə yazıram, nə də oxuyuram.

Buhayra:

– Mən əlimə qələm alaram. Sən mübarək əlini mənim əlimin üstünə qoy, – deyə xahiş etdi.

Hz. Məhəmməd də onun xahişini yerinə yetirdi. Buhayra əlinə qələm aldı. Yazmağa başladı. Hz. Məhəmmədin əli də baş rahibin əli ilə hərəkət edirdi. Yazı bitdi. Qureyşin bayıra çıxmasnı istədilər. Hamısı çıxdı. Sonra Buhayra:

– Ya Məhəmməd, ulu nişanın iki kürək sümüyünün arasındadır. Burada xatəmi-nübüvvət (yəni peyğəmbərlik möhürü) vardır. Xahiş edirəm ki, məni məhrum etmə, onu mənə göstər.

Hz. Məhəmməd bir kənara çəkildi. Kürəyini açdı:

– Bax, – dedi.

Buhayra bu istəyini orada tapmışdı. Peyğəmbərlik möhürünə üzünü sürtdü. Bundan sonra Hz. Məhəmməd əmiləri ilə birlikdə kilsədən bayıra çıxdılar. Köç hazırlığı başladı. Oradan ayrılıb yola düşdülər.

Karvan, nəhayət, Busra şəhərinə çatdı. Tam ticarət mövsümü idi. Şəhər çox izdihamlı idi, hər millətdən, hər tərəfdən gəlmiş insanlarla dolmuşdu. Hicaz karvanı gəlincə xalq onları qarşıladı.

Sevinclə Qureyşə də yer ayrıldı. Yeməklər, içməklər verildi. Sonra ticarət, alış-veriş başladı. Bütün mallar: mahud, ipək-bir neçə gün ərzində satıldı. Hz. Xədicənin malları da, parçaları da başdan-başa satıldı. Hz. Məhəmmədin bərəkətindən çox qazanc sahibi oldu. Satılanların yerinə isə Məkkədə pula gedən başqa mallar, parçalar alındı. Dəvələrə yükləndi. Bir neçə kişinin bir az satılmayan malı qalmışdı. Hz. Məhəmməd o çuvalları önünə qoydu. Yüklərin yanında oturdu. Bu vaxt qoca bir yəhudi alim də Hz. Məhəmmədin qarşısında dayanıb çaşqın halda onun mübarək üzünə tamaşa edirdi. O alim də müqəddəs kitabələrdə Hz. Rəsulun sifəti haqqında oxumuşdu. Burada oturan nemət sabibi onu çox maraqlandırmışdı. İxtiyar alim gəlib Hz. Məhəmmədin yanında oturdu:

– Ey üzü gözəl, surəti şirin. Sən o sübut və dəlil sahibi Əbdulmüttəlibin oğlu Abdullahın oğlu Məhəmmədmisən?

Hz. Məhəmməd:

– Bəli, ey yəhudi, mən o Məhəmmədəm.

Qoca yəhudi alim:

– Atan sən doğulmamışdan qabaq öldümü?

– Düzgün söyləyirsiniz, elə olub, – deyə Hz. Məhəmməd cavab verdi.

Yəhudi təkrar sual verdi:

– Sonra səni baban böyütdü? Onun vəfatından sonra əminin yanında qaldınmı?

Hz. Məhəmməd bu suala da:

– Bəli, elə oldu, – deyərək qısa cavab verdi.

Amma yəhudi alim hər sualına döğru cavab aldıqca həyəcanlanır və yeni sual verirdi:

– Ey Həbibi, – dedi, – sən Qureyşin qadınlarından birinin yanında işləməyə başladınmı? Onun malı ilə səfərə çıxdınmı?

Hz. Məhəmməd:

– Eləcə etmişəm, – dedi.

O zaman daha da böyük həyəcan içində olan ixtiyar yəhudi:

– Mənə əlini uzat, ya Məhəmməd, – dedi.

Hz. Məhəmməd əlini uzatdı. Qoca alim onun mübarək əlindən tutdu:

– Ya Məhəmməd, sən qırx yaşına çatanda dəvət sahibi olacaqsan və hər şeyi bildirəcəksən. O vaxta qədər mən sağ qalacam, ya qalmayacağam bu bilinmir. İndidən sənin deyəcəklərini qəbul edirəm, sənə tam bir etiqadla iman gətirirəm. Müsəlman oluram, sən bunu bil, qoy qiyamət günündə haqqımı itirməyim.

## *BİR CASUS YƏHUDİNİN Hz. MƏHƏMMƏDƏ TƏLƏSİ*

Yəhudi bunları söylədikdən sonra Hz. Məhəmmədin ayağına düşdu. Sonra yoluna davam etdi.

Amma Busra şəhərində başqa bir yəhudi vardı ki, casusluq etməkdə idi. Şər, pis ruhlu bir insan idi. Hər şeyə uzaqdan baxıb müşahidə edirdi. Dindar bir yəhudi vardı, adı Əbu Tafir idi. Casus yəhudi Əbu Tafirin yanına gələrək soruşdu:

– O gözəl üzlü igid kimdir? Haradandır?

Əbu Tafir cavab verdi:

– Göydən enən kitabların gələcəyini xəbər verən insandır, deyirlər. Bir çox kəramətlər göstərmişdir.

Şərçi yəhudi bunu eşidib oradan ayrıldı və özü-özünə düşündü: “Kəramətlərmi göstərmiş? O sehrbazın öhdəsindən ancaq mən gələrəm”.

Casus yola hazırlaşmaqla məşğul olan Hz. Məhəmmədin yanına gəldi. Şirin dilini işə salmağa başladı:

– Ey ay üzlü igid, bu cuvallar satlıq maldımı?

Hz. Məhəmməd:

– Bəli, satlıqdır, – dedi.

Yəhudi:

– Dəyəri nə qədərdir?

Hz. Məhəmməd:

– On misqal qızıl.

Yəhudi:

– Səkkis misqal qızıl verirəm.

Hz. Məhəmməd:

– Mənim son qiymətimdir, – deyə cavab verdi.

Yəhudi:

– On misqal qızıla satın aldım. Amma qızıllar evimdədir. Bir-iki cüvalı mən götürüm, bir-ikisini də sən götür. Evimə gedək orada sənə on misqal qızılını verim.

Hz. Məhəmməd razı oldu. Çuvalları götürüb yəhudinin evinə gəldilər. Qapıdan içəri girdilər. Hz. Məhəmməd yəhudinin iki oğlunun şirin yuxuda olduğunu gördü. Çuvalı qoyub divarın dibində oturdu. Yəhudi də tez içəri girdi. Çuvalları yerə qoydu. Nərdivanla evin damına çıxdı. Damın kənarına gələrək oradan daşı Hz. Məhəmmədin üstünə atdı və həmən damdan aşağı endi. Amma Hz. Cəbrail Hz. Məhəmmədin imdadına yetişmiş, daşın istiqamətini dəyişmişdi. Daş yatmış iki oğlunun üstünə düşmüşdü. Yəhudi uşaqlarının başını atasının yuxarıdan atdığı daş əzmişdi. Rəsulullah ona qarşı edilən hərəkətləri başa düşdü, mallarını götürüb geri döndü.

Yəhudi aşağı enəndə Hz. Məhəmmədin oturmadığını gördü. Məhəmməd getmişdi. Amma yerdə qan vardı... Bu nə qan idi belə?

Yəhudi üzünü uşaqların yatdığı yerə çevirdikdə onların elə oradaca öldüklərini gördü və ağlı başından çıxdı. Qışqırmağa başladı. Yəhudilər ətrafına yığışdılar və nə baş verdiyini soruşdular?

O ikiüzlü, riyakar yaxasını yırtaraq yerdə ölmüş iki uşağını göstərdi, onlara şikayət etdi:

– Camaat, o Məkkədə doğulan adam var ha... Onun haqqında nübüvvət davası edilir. Adı Abdullah oğlu Məhəmməddir. Qureyş karvanı ilə bura gəldi. Mənə cuvallarının içindəki mallarını satdı. Bərabər evə gəldik. Divarın dibində oturdu. Mənim iki oğlum şirin yuxuda yatmışdı. Mən ondan ayrıldım ki, gedim sandığımdan qızıl götürub gəlim, ona malın pulunu verim. Məhəmməd yerindən qalxmış, dama çıxıb daşı uşaqların üstünə atmışdır.

İki oğlum da öldü.

Yəhudilərin rəisi bu şikayəti dinləyincə, o da fəryada başladı. Həmən yəhudinin evinə gəldilər. Doğrudan da iki uşağın cansız cəsədlərini gördülər.

Başçı yəhudilərə əmr etdi:

– Tezcə silahlanın!

Yəhudilər hamısı qısa müddətdə silahlandılar. Qılınc taxdılar. Şəhərdən, qıraqdan gəlmiş yəhudilər də bir yerə toplandılar. Amma Busra səhərinin hakimi xaçpərəst idi. Çünki buralar Rum Qeysərinin, Bizansın tabeliyində idilər. Busra hakimi onun üç bəyindən biri idi. O vaxtlar yəhudilərin bəyi, məliki yox idi. İstərsə şəhərdə, istərsə də başqa yerlərdə olsunlar, onlar rəiyyət və tabe olmaq hüququnda yaşayırdılar. Şəhərin məliki ilə danışmadan savaşa hazırlaşan yəhudilər öz rəyləri ilə hərəkət etmiş olurdular.

Hz. Məhəmməd karvanın yanına gəlincə Hz. Xədicənin köləsi Meysərənin yanına qaçdı.

– Yəhudilərdə bir hazırlıq var. Onun səbəbi nədir? – deyə soruşdu.

Hz. Məhəmməd yəhudinin riyakarlığını ona anlatdı və əmr verdi:

– Yükləri yığın. Karvan əhli də bir yerə cəm olsun. Kölələr hazırlaşsınlar. Yəhudilərə qarşı durmaq lazımdır. Kölələrin dəyənəklərini, nizələrini, hərbi ləvazimatlarını əllərində tutmalarını tapşırdı. Amma hücum olarsa, kim olursa olsun qarşısında duracaqdılar.

## *PƏHLƏVAN HƏMZƏ SİLAHLANDI*

Bir tərəfdən də Meysərə Hz. Məhəmmədin əmilərinə yaranmış vəziyyət haqda xəbər verdi. Hz. Həmzə, o pəhləvanlar pəhləvanı o zaman 25-26 yaşındaydı. O igid həmən silaha qurşandı. Əbdülmüttəlib oğlu Zübeyr də silahlandı, karvanın önünə çıxdılar.

İndi qarşılarında atlı, piyada olaraq dörd yüz kişi yalın qılıncla gəlirdi. Həmzə bunları gördu, üstlərinə getdi. Bir yandan da Əbdülmüttəlib oğlu Zübeyr ilə Əvvam oğlu Zübeyr iki tərəfdən həmlə etdilər.

Bir göz qırpımında on iki yəhudi yerə sərilmişdi. Sonra geri döndülər. Tez bir zamanda şəhərin hakiminə yəhudilərin Qureyşlilərlə çarpışması xəbəri çatdı. Vali əsgərlərinə əmr etdi ki, şəhərin kənarına çıxsınlar.

Qureyşlilər, kölələr malların yanında qalmışdılar. Gələnlər onları zirehli, silahlı olaraq gördülər.

Yəhudilər şəhər məlikinin gəldiyini gördükdə yenidən ağlamağa başladılar:

– Ey məlik həzrətləri, bizim halımıza baxın, görün Hicaz ərəbləri bizə nələr etdilər.

Məlik iki ərəbcə bilən keşişə dedi:

– Gedin, qureyşlilərdən soruşun ki, yəhudiləri nə üçün qırmışlar, nə üçün öldürmüşlər?

İki keşiş Qureyşlilərin yanına gəldi. Həmzənin böyük qardaşı Zübeyr irəli çıxdı. Gələn keşişlər Zübeyrdən soruşdular:

– Yəhudilərlə neyçün vuruşdunuz? Bunlardan neçə kişi öldürdünüz? Bunun səbəbi nədir? Bunu şəhərin hakimi sizdən soruşur.

Zübeyr cavab verdi:

– Şəhərin naibi bunu gedib yəhudilərdən soruşsun. Öyrənsin ki, nə üçün silahlanmışlar? Niyə üstümüzə gəlirdilər? Şübhəsiz ki, bunlar da vuruş görmüş ər və cəsurdular. Görduk atlanmışlar, üstümüzə həmlə etdilər. Biz də elə bir qövmük ki, üstümüzə qılıncla gələni öldürür, aman vermərik. Əlimizə keçəni öldürürük.

Bu cavabı alan keşişlər naibin yanına döndülər. Dedilər:

– Ey Məlik, Qureyş uluları bizə cavab verdi ki, olub-bitmişləri hakiminiz yəhudilərdən soruşsun. Nə üçün toplandıqlarını, nə üçün qılınc əllərində bizim üstümüzə gəlmələrini onlardan öyrənsin. Qureyş uluları onların üzərinə gəlməyə iznləri olub-olmadığını soruşurlar. Yoxsa özbaşına silaha qurşanıblar?

Şəhərin naibi yəhudilərin hörmətlilərini hüzuruna çağırtdırdı. Dedi:

– Bu savaşın səbəbi nədir?

Yəhudilər cavabında:

– Hanı o dəliqanlı ki, Məkkə şəhərində doğulmuşdur? Yəhudi alimləri, xaçpərəst rahibləri onun sifət və keyfiyyətlərini anlamaqdadırlar. Hanı o ki qan içici və qılınca qurşanmış olacaqdır? Dünyaya qarışıqlıq salacaqdır, ölkələri alacaqdır. Bütləri ortadan qaldıracaq, kitabları batil edəcəkdir. İndi o kimsə Qureyş karvanı ilə buraya gəldi. Vaxt tapıb bizə düşmənçiliyini göstərdi. Biz bazarda məşğulduq. Bu adam damın ustünə çıxıb, üyütmə daşını aşağı atıb, iki yəhudi uşağını yatarkən öldürüb.

Bu vaxt bir neçə kişi qaçıb ölən iki uşağın cəsədlərini naibin önunə qoydular.

Naib onlara dedi:

– O gözəl surətli, gözəl xasiyyətli Qureyşdən kimsəyə bir ziyan dəyməmişdir. Mən onun ardınca adamlar qoymuşdum. Hər kəs mənə onun yaxşı hərəkətlərini mənə söylədi. Burada olduğu vaxt onun nə camalından, nə kamalından kimsəyə bir ziyan dəyməmişdir, heç kimsəni incitməmişdir. O bura gələndən bəri mən onun xüsusiyyətlərini soruşdum, öyrəndim. Bütün

camaat ona şükür edir. Özündən ulu bir şəxsin dünyada olmadığını deyirlər. "O Həbibi kim sevsə, axirət əzablarından qurtulacaq" söyləyirlər. Ay belə bədr olduğu zaman onun ay üzü kimi görünür, hilal zamanında (bir-iki günlük) zamanında onun qaşlarına bənzər.

Naib sonra yəhudi başçısına döndü:

– Ey axmaq, sən dəlisən? Cümlə xalq ki bir kişinin xasiyyətindən, xoş rəftarından, parlaq üzündən söz açar, ondan ziyan gəlməz. Hətta camaat fayda görür, mallarını satır, yerinə başqa mal alır. O kimsə pis adam ola bilərmi? On kişinin qanına da bais oldunuz.

Naib əmr verdi. Yəhudi başçısı tutuldu, nizələndi. Yəhudilər qorxuya düşdülər, susdular.

Naib sözlərinə davam etdi:

– Bizim hökmdar Qeysərə də söyləmişdilər ki, hicazlılar bir gün mülkünü ələ keçirəcəklər. Tacı-taxtını əlindən alacaqlar. Onlar iqlimlərə, ölkələrə hökm edəcəklər. Qeysərimiz Bizansda bunu duyanda mənə elçi göndərdi və dedi ki, nəbadə Qureyşlilərlə düşmənçilik edəsən, dostluq et. Siz onlarla düşmənçilik etmək istəyirsiniz? O halda cəzanızı tapacaqsınız.

Bunu deyib Busra canişini yəhudilərin Qureyşlilərin üstünə getmiş hörmətlilərini tutdurdu. Bunları görən qalan yəhudilər yavaş-yavaş aradan çıxdılar, sonra da qaçıb dağılışdılar. Busra hörmətliləri Qureyşlilərin yanına gələrək: "Bizi bağışlayın. Yəhudilər sizə pisliklər etmişlər",- dedilər. Onların könüllərini aldılar.

Qureyşlilər işlərini sona çatdırmışdılar. Satacaqlarını satmış, alacaqlarını almışdılar. Oradan yola düşdülər. Yenə Buhayranın kilsəsinin yanında dayandılar. Buhayra Meysərənin yanına gələrək:

– Müjdə, ya Meysərə, – dedi. Xədicə xatuna xəbər eylə və de ki, ya axirət xatunu, sənə müjdə və bəşarət olsun ki, könlünün arzusuna yetişdin. Ulu Tanrı səni umduğun kimi sevindirəcəkdir.

## *XƏDİCƏNİN SÖZÜNƏ AYDINLIQ*

Meysərə bu sözlərə çox sevindi və tez geri dönmək istədi ki, xoş xəbəri Xədicə xatuna çatdırsın. Karvan oradan da hərəkətə başladı. Günlərlə boz çölləri, bəzən də günəşin istisindən qırmızı rəngə çalan qum təpələrini keçərək Məkkəyə yaxınlaşdı. Qureyş uluları xəbərdarlıq etdilər ki, hər kəs evinə bir müjdəçi göndərsin. Meysərə də Hz. Məhəmmədin yanına gəldi:

– Ya seyyidim Məhəmməd, hər kəs evinə müjdəçi göndərir. Fikirləşirəm ki, Xədicə xanıma səndən yaxşı bir müjdəçi ola bilməz.

Hz. Məhəmməd:

– Amma mənim getməyimi kimsə bilməsin.

Meysərə sözünün qəbul edildiyini görüb Hz. Məhəmmədin hazırlığını tamamladı, onu dəvəsinə mindirdi. Gecə düşdukdən sonra Məkkəyə yola saldı.

Hz. Məhəmməd bir az yol getmişdi ki, birdən gözlərinə yuxu gəldi.

İbn İshaqdan rəvayət edildiyinə görə:

“Ulu Rəbbimiz Cənnətdən Cəbrail (ə.s) vasitəsi ilə qırmızı yaqut rəngli bir günbəz və bir çətir göndərdi. Hz. Məhəmməd dəvənin ustündə yatarkən mələklər günbəzi dəvənin üstünə qoydular. Ona Cənnət geyimlərindən al rəngli iki hissədən ibarət olan libas da geyindirdilər. Başına nurdan bir tac qoydular. Bu zaman Hz. Cəbrail qanadı ilə dağlara toxundu. Hz. Məhəmməd Məkkəyə yaxınlaşdı. O günlərdə Məkkədə havalar çox isti keçirdi. Məkkəlilər gecələr evin damında yatardılar. Haqq-təala bütün məkkəliləri yuxuya vermişdi, ancaq Hz. Xədicə yatmamışdı. Evinin damında sərinlənirdi. Ulu Tanrıdan bir diləyi vardı.

Bütün Məkkə xalqı yatacaq, yalnız Xədicə xatun oyaq qalacaqdı. Çünki Hz. Məhəmmədin mərtəbəsini, mənzilini Xədicə xatun görsün və malını, canını Hz. Məhəmmədin yolunda fəda etsin, bundan sonra birlikdə olsunlar.

Vaxt keçdi, Xədicə xatunun gözünə bir işıq göründü. Tez ətrafa baxdı, dörd yana göz gəzdirdi. Gördü ki, bu aydınlıq Cühfətül-vida deyilən qonaq yerindən gəlməkdədir. Xədicə xatun bir az da diqqətlə baxdı. Bu nur getdikcə artırdı və Məkkə şəhərini gündüz kimi edirdi. Amma bu aydınlıqda bir dəvənin irəlilədiyini gördü. Arxasında bir çətir dikəlmişdi. Günbəz isə qırmızı yaqutdan idi. Amma bu nədir? Bu çətirin altında bir insan vardı. Geydiyi paltar heç də insanların hər zaman geydiklərindən deyildi. Cənnət paltarları idi bunlar. Başında bir tac vardı bu insanın. Xədicə xatun anladı ki, Məkkəni gecə işıqlandıran bu nur tacdan gəlir. Xədicə xatun aydınlığa daha diqqətlə baxdı. Gələn dəvənin üstündə yaşıl don geymis bir dəstə kimsələr vardı. İxtiyar birisi də əlində əsa Səfa və Mərvə arasında gedib gəlirdi. Və deyirdi:

– Həzə Məhəmməd, həzə Əhməd, həzə Bəşir, Həzə Nəzir...

Bunları gördükcə Xədicə xatunun ağlı başından çıxdı. Hz. Məhəmmədin səsini duyunca, onun məhəbbəti könlünün hər tərəfini tutdu, doldu, aşdı. Eşqi elə bir hala gəldi ki, artıq nə səbri, nə qərarı qalmadı.

Xədicə xatun Ulu Tanrıya dərdini, könlünü, eşqini dedikdən sonra üzünü yerə qoydu. Ulu Rəbbinə yalvardı. Bu yalvarışlar içində ona bir ağırlıq gəldi. Yuxu gəldi. Üzünü səcdəyə qoydu, bihuş oldu, yatdı.

Bu vaxt Hz. Məhəmməd də Məkkəyə yaxınlaşmış, şəhərin içinə girmiş-

di. Hz. Xədicə yuxuya dalarkən hz. Məhəmməd yuxudan oyandı. Dəvənin üstündəki günbəz, hz. Rəsulun üstündəki cənnət paltarları, hər tərəfi işıqlandıran tac birdən-birə qeyb oldu. hz. Məhəmməd ətrafa baxanda Məkkədə olduğunu gördu.

– Allaha şükürlər olsun, − deyərək dəvəsini Xədicə xatunun evinin qabağına sürdü. Dəvədən endi və qapını döydü.

Bu səsi duyan Xədicə xatun birdən-birə yuxudan oyandı. Damdan divarın yanına gəldi. Nə görsün, seyyidlərin seyyidi, mövcudiyyatın xülasəsi, yaradılmışların ən şərəflisi Abdullah oğlu Məhəmməd gəlmişdir, qapını döyür.

Xədicə xatun təlaşla damdan aşağı endi. Xidmətçiləri yuxudan oyatdı. Onlar qapını açdılar. Hz. Məhəmmədi içəri gətirdilər. Xədicə bir pərdənin arxasına çəkildi. Və pərdə arxasından Hz. Məhəmmədə salam verdi.

– Xoş gəldin, − dedi. Ardınca mübarək xətrini soruşdu. Sağ-salamat gəldiyinə şükür etdi. Sonra:

– Ey Həbibi, ey gözümüzün işığı, − dedi, − karvandan niyə ayrıldın?

Hz. Məhəmməd:

– Gecə karvanımız Cühfətül-vidada dayandı. Sizin qulunuz Meysərə ilə qərar verdik ki, mən sənə müjdəçi olaraq gəlim. Mənim şəhərdən döndüyümü sənə çatdırım. Gecə dəvəmi minib yola düşdüm. Dəvənin üstündə yatmışam, bir də gördüm ki, Məkkəyə çatmışam. Birbaşa bura gəldim.

Xədicə xatun:

Sənin sirrini səni Yaradan bilir. Amma mənə sirrin elə göründü ki, onun bir azını söyləmiş olsam, xalq mənə inanmaz, məni dəli sayar. Lakin ey gözümün işığı, mənim arzum sənin şəhərə karvan əhli ilə hörmətlə, izzətlə gəlməyindir. Səni xalqın qarşılamasıdır. Əziz və möhtəşəm görməlidirlər. İş budur ki, sən həmən geri dönməlisən. Karvanla gəlməlisən. Kimsə sənin gecə buraya gəlməyini bilməsin.

Hz. Məhəmməd:

– Bismillah, ya Xədicə, elə məsləhətdirsə, olsun.

Xədicə xatun əmr verdi. Hz. Məhəmmədə yemək hazırlandı. Şərbət gətirildi. O da yedi, içdi. Süfrədən iki çörək götürdü: “Meysərəyə götürürəm”, − dedi.

Çünki Məkkədə Xədicə xatunun evində bişən çörəyə, hər evdə tay olmazdı. Hz. Məhəmməd dəvəsinə mindi. Cühfətül-vidaya doğru getdi. Ulu Tanrı Hz. Məhəmmədi bir göz açıb-bağlayana qədər tez bir zamanda karvana yetişdirdi.

Hz. Məhəmməd Meysərəni aradı. Meysərə Hz. Məhəmmədin uzaqdan qoxusunu aldı, ona tərəf qaçdı. Hz. Məhəmməd dəvədən endi. Oturub ge-

diş-gəlişini anlatdı. Gətirdiyi çörəkləri Meysərəyə verdi. Meysərə: "Ey Məhəmməd, sənin izzətın Ulu Tanrı yanında nə qədər böyükdür", – dedi.

Bu vaxt Haşim oğullarının hörmətliləri yuxudan oyandılar. Əbdülmüttəlib oğullarından Həmzə, Zübeyr, Abbas Hz. Məhəmmədə yaxın yerdə dayanmışdılar. Onlar oyanıb Hz. Məhəmmədin yanına gəldilər. Meysərəyə:

– Ey Meysərə, Məhəmmədə bir şeylər deyirdin, onu tərifləyirdin. Sənin bu adətin var. Həbibimiz, seyyidimiz Məhəmməddən böyük bir iş görüncə və ya qəribə bir şey görüncə onun ayağına düşər, onu tərifləyirsən. İndi nələr gördün ki, afərin deyirsən, yenə tərif edirsən?

Meysərə Hz. Məhəmmədin bir saat içində Məkkəyə gedib - gəlməsini və Xədicə xatunun evindən ona iki çörək gətirməsini danışdı.

Haşimoğulları öyrəndiyi bu xəbəri az sonra bütün Qureyş arasında yaydılar. Hamı heyrətdə qalmışdı. Qalxıb Hz. Məhəmmədi ziyarətə gəldilər və "ya Məhəmməd! İnnə Şaniəkə lisanün əzim", – dedilər.

Ancaq şərlər şəri, şərçilərin başçısı, Qureyşin fitnə dağarcığı, hiylə və biclik qaynağı, bu dünya və axirət xəsisi Əbu Cəhl, o Lənətullah bu kəramətə inanmadı. İnandırmaq üçün ona hətta Xədicə xatunun çörəyini də göstərdilər. O zaman Əbu Cəhl:

– Əgər Məkkəyə getdisə, gəldisə, bu bir sehrlə edilmişdir, – dedi.

Bunu eşidən Qureyş uluları:

– Ya Əbəl Həkəm, Məhəmməd haqqında söz söyləmə. Yoxsa əmilərindən sənə zərər gələr, – deyə onu qınadılar və beləcə boş sözlər, hərzələr deyən dilini susdurdular.

## *KARVAN MƏKKƏ YOLUNDA*

Karvan oradan qalxdı. Məkkəyə doğru yollandı. O gecə keçdi, səhər oldu. O gecə gördüyü möcüzələrdən Xədicə xatunun könlünə bir heybət oturmuşdu. Rəngi dəyişmişdi. Xidmətçilərinə:

– Dama çıxın! – əmrini verdi. Baxın, karvanın yolunu gözləyin. Növbə tutun. Sizdən kim karvanı görüb bizə bildirsə, onu azad edəcəyəm. Onu malla, nemətlə də evləndirəcəyəm.

Xədicənin arzusu budur ki, onlar da özü kimi Hz. Məhəmmədin böyük mərtəbəsini, məqamını, yüksəklik dərəcəsini görsünlər. Bu surətlə kölələrindən birini o mübarək üzü görməsindən dolayı şərəflə azad etmiş olacaqdı.

Kölələr buyruğa əsasən hərəkət etdilər. Karvanı üç gün gözlədilər. Hər kölə nəsə görüb-görmədiyi haqda Xədicə xatuna xəbər verirdi. Xədicə xa-

tun onun doğruluğuna inanıb bir cariyəni azad edirdi. Üçüncü gün Xədicə xatunun əmisi Nofəl oğlu Vəraqə ilə atası Əsəd oğlu Xüveylid adamlarını yığıb karvanın qarşısna çıxmaq arzularını bildirdilər. O biri yandan Əbu Talib oğlanları Talib və Cəfərlə şəhərdə qalan qardaşlarını, Qureyş ulularını götürüb Hz. Məhəmmədi və karvanı qarşılamağa çıxdılar. Əbu Talib onun söhbətləri üçün çox darıxmışdı. Hz. Məhəmmədsiz günlər və ondan nigarançılıq qəlbini sıxmış, hətta onu dəfələrlə ağlamağa sövq etmişdi.

## *EY HƏBİB, SƏNİN ÜÇÜN NƏ QƏDƏR DARIXMIŞIQ*

Gözlər uzaqlara baxanda bir karvanın Məkkəyə yaxınlaşdığını gördülər. Əbu Talib şəhər camaatına karvanı qarşılamaq üçün hazırlaşmaq əmrini verdi. Böyükdən kiçiyə kimi hər kəsin karvanı qarşılamağa çıxmasını buyurdu. Şəhər geyinib bəzəndi. Evlərdə uludan kiçiyə kimsə qalmadı, hamı qarşılamaq üçün çıxmışdı.

Camaat yığılıb gözləyəndə Əbu Talib atını surub qabağa çıxdı. Hz. Məhəmmədin dəvəsinə yaxınlaşanda atından endi. Üzünü dəvənin üstündə olan Hz. Məhəmmədin ayağına sürtdü. Sonra Hz. Məhəmməd dəvəsindən endi. Əmisi ilə qucaqlaşdı. Əbu Talib qardaşı oğlunu bağrına basdı:

– Ya Həbibi, ey gözümüzün işığı, sənin üçün mən nə qədər darıxdım. Qədrini, qiymətini mənə bildirdin. Mən sənin ayrılığına daha dözə bilməzdim.

Hz. Məhəmməd əmisinə xoş sözlər deyərək təşəkkür etdi. Yaxın dost və əqrəbaları ilə qucaqlaşdı. Əmisi oğlanları ilə bir-bir görüşüb qucaqlaşdı. Böyük sevinclə Məkkəyə girdilər. Hər kəs öz evinə getdi. O isə əmisi Əbu Talibin evinə gəldi.

Bütün məkkəliləri heyran edən yenə ağ bulud oldu. Hz. Məhəmmədə kölgə salan buluda baxıb gözlərinə inanmırdılar. Bulud hərəkət edərək Əbu Talibin evinin üstünə gəlmişdi. Hərəkətsiz dayanaraq kölgə salırdı. İnsanlar işarə ilə bir-birilərinə buludu göstərirdilər.

Bu vaxtda Xədicənin kölələri, Meysərə və dəvələri gəlib evinə çatdı. Yükləri endirdilər. Kölələr parçaları daşıdılar. Dəvələri dəvəçilər alıb apardılar.

Meysərə evə girdi və Xədicə xatunun yanına gəldi. Əlini, ayağını öpdü. Qarşısında oturdu. Xədicə xatun həyəcan içindəydi. Meysərədən yolçuluğu soruşdu:

– Xoş gəldin, ay Meysərə, – dedi. Şam səfəriniz necə keçdi? Nələr oldu? Hecə gəldiniz? Sən nə eşitdin? Nə kimi qəraib və əcaib şeyləri gö-

zünlə gördün, qulağınla eşitdin? Mənə xəbər ver.

Meysərənin ağzı açıldı. Məkkədən ayrılandan bir ağ buludun daima Hz. Məhəmmədin başının üstündə ona kölgə salmasını, iki dəvənin yüki ilə yolda geri qalmasını, Hz. Məhəmmədin o dəvələri yola salmasını, Əbu Cəhlin yoldakı quyunu necə daşla, torpaqla doldurduğunu, Hz. Məhəmmədin gələrək mübarək barmağı ilə bir işarə verməsini, bundan sonra quyudan su dolub fışıltı ilə axmasını söylədi. Yoldakı əjdaha ilan hekayəsini söylədi. Yağışın yağmasını, dərələrə sellərin gəlməsini və bu zaman Hz. Rəsulun göstərdiyi möcüzələri bircə-bircə danışdı. Susuz bir yerdə barmağını yerə batırıb oradan bulaq çıxmasını, beş xurma tumunu basdırdıqdan sonra beş ağacın çıxmasını, böyüyüb xurma verməsini, sözün qısası, bütün gördüklərini, kəramət və möcüzələri Xədicə xatuna danışdı.

Xədicə xatun:

– Şama yaxınlaşarkən nələr oldu? – deyə soruşdu.

Meysərə:

– Şama getmədik. Fəqət Busra deyilən şəhərə gəlincə başımıza çox işlər gəldi. Sonra Rahib Buhayranın hekayəsini danışdı. Son gün isə yəhudilərlə olan savaşı və malları Şama getmədən necə bərəkətli qazancla satmalarını, necə ucuz qiymətə parçalar aldıqlarını danışdı və əlavə etdi:

– Ya seyyidəm Xədicə, mən neçə illərdi ki, ticarət edirəm. Müxtəlif ölkələrə səfər etmişəm. Bu dəfə parçalarımız çox yaxşı qiymətə satıldı. Çox fayda gördük. Bu dəfəki kimi heç bir zaman qazanmamışdıq. Rahib Buhayra da məni yanına çağırıb bu sirri bildirdi: "Ey Meysərə, Abdullah oğlu Məhəmməd Məkkə şəhərinə dönuncə Qureyş xatunlarının birisi ilə evlənəcəkdir. Bu qadın mal sahibi olduğu qədər də camal sahibidir. Amma o, qız deyildir".

Mən o zaman ona dedim:

– Ey din ulusu, alimi, Qureyşin içində mənim seyyidəmdən dövlətli və gözəl başqa bir qadın yoxdur.

Buhayra soruşdu:

– Sənin seyyidənin adı nədir?

Mən də:

– Əsəd oğlu Xüveylid qızı Xədicədir.

## *NƏBADƏ MƏHƏMMƏDDƏN UZAQ OLASAN*

Rahib o zaman:

– Ey Meysərə, məndən seyyidənə salam söylə. Ona de ki, sənə gözaydınlığı və xoş xəbər olsun. Abdullah oğlu Məhəmməd onu alacaqdır. Olma-

ya malına, canına baxasan. Malını onun yolunda fəda et. Nəbadə Abdullah oğlu Məhəmməddən uzaq olasan.

Meysərə xanımına bu sözləri dedikdən sonra sevinərək əlavə etdi:

– Ey seyyidəm, əgər Abdullah oğlu Məhəmmədə gedərsənsə, həm dünyamız xoş olar, həm də axirətimiz.

Xədicə xatun Meysərədən bu şirin sözləri dinləyincə, belə şad və səadətli xəbərə görə bir daha sevindi. Artıq düşünmək vaxtı deyildi:

– Ey Meysərə, tez qalx. Abdullah oğlu Məhəmmədi götür, bura gəl. Yanında əmisi Əbu Talibi də gətir. Bundan sonra onun üçün nə qəbul etdik, sözləşdik özünə verəcəyəm.

Meysərə hz. Xədicənin yanından ayrılaraq hz. Məhəmmədin yanına gəldi. Əbu Talib onu böyük bir sevgi ilə qarşıladı. İki gözündən öpdü:

– Ey Meysərə, sən bizim seyyidimizin yoldaşısan. Dostusan. Həbibimiz səndən və sənin xidmətindən çox razılıq edib. İndi bura gəldin, nə diləyin var, söylə.

Meysərə:

– Səni və seyyidim Məhəmmədi Xədicə xatun görmək istəyir. Dəvətimi qəbul edərsizmi? Elə indi gedərik.

Əbu Talib:

– Meysərə, sən həbibim Məhəmmədi götür get. Mən indi gedə bilmərəm. Çünki Xədicə xatun indi malın hesabını soruşacaq. Nə satıldı, nə alındı. Onu bilmək istəyər. Hesab verərkən Məhəmmədin yalnız olması gərəkdir.

Meysərə:

– Baş üstə, − deyərək hz. Məhəmməddən rica etdi. Əbu Talibin yanından birlikdə ayrılaraq Xədicə xatunun evinə yollandılar.

Xədicə xatunun "Hz. Məhəmməd gəlir" xəbərini almaq üçün dama çıxardığı qadın kölələrdən birisi geridə qalmışdı. İndi bu şad xəbəri vermək üçün onun əlinə gözəl bir fürsət düşmüşdü. O da hz. Məhəmməd gələndə muştuluq xəbərini xatununa çatdırmaq, azad olmaq həvəsindəydi. Rəsulun qapıya yaxınlaşdığını görəndə zavallı cariyə sevinclə özünü pilləkənlərə atdı elə "Abdullah oğlu Məhəmməd gəlir", xoş xəbərini verəcəkdi ki, ayağı dolaşdı. Hərdivandan yıxıldı. Dişləri qırıldı, ağzı qanla doldu. Müjdəni verməyə macal tapmadı. Zavallı cariyə əli ilə Xədicə xatuna işarə edir və demək istəyirdi:

– Sənin diləyin gəldi. Nə durursan?

Bu işarələri etmişdi ki, Hz. Məhəmməd və Meysərə qapıdan içəri girdilər.

Hz. Məhəmməd salam verdi, Xədicə xatun salamı aldı. Xatirini soruşdu:

– Ya Həbibi, ya Məhəmməd, Meysərə qulluğunda yaxşı dura bildimi?

Hz. Məhəmməd:

– Bəli, Meysərə çox yaxşı yoldaşdır.

Bu vaxt başqa cariyələr dişi sınmış cariyəni içəri aparırdılar. Vəziyyət Meysərəyə anladıldı. O da:

– Ya Məhəmməd, bu cariyə sizin gəlmək xəbərinizi əvvəlcədən xəbər vermək üçün damdan baxırmış. Gəlməyinizi görub şad xəbəri çatdırmaq istəyib. Amma nərdivandan yıxılıb, dişi sınıb, ağzı qanla dolub.

Hz. Məhəmməd:

– O cariyəni mənə gətirin, – dedi.

Qadını gətirdilər. Hz. Məhəmməd mübarək əlini onun ağzının üstünə qoydu. Sonra da götürdü. Cariyənin yarası sağalmış, dişinin sınığı düzəlmişdi.

Meysərə Hz. Məhəmmədin bu yeni möcüzəsini görən kimi ayaqlarına düşdü. Xədicə də bu möcüzəni görüncə mal və nemət verərək cariyəsini azad etdi.

Xədicə sonra Hz. Məhəmmədə dönərək:

– Ey gözümüzün işığı, mənim yanımda sənə məxsus dörd dəvə yükü parçan var. Onları sənə verəcəyəm. Bu parçaları nə edəcəksən? – deyə soruşdu.

Hz. Məhəmməd:

– Əmim Əbu Talib məni evləndirmək istəyir. Bunlardan evlənmək hazırlıqları edəcəyik.

Xədicə xatun o zaman həyəcanla:

– Mübarək olsun, çox gözəl niyyətdir. Amma əmin Əbu Talib sənin üçün hansı qızı, kimin qızını istəyəcəkdir? Məkkə qadınlarından hansı xatunu bəyənib?

Hz. Məhəmməd:

– Hələlik məlum deyil, ya Xədicə. Bəlli deyil.

Xədicə xatun cavabında:

– Ya Məhəmməd, mən sənə layiq bir xatun gördüm. Əgər bəyənsən, üzü gözəl, əsli əsil, malı isə hüdudsuzdur. Ancaq iki nöqsanı var, birinci səndən böyükdür. İkincisi iki dəfə evli olub. Gözəllikdə bərabəri yoxdur.

Hz. Məhəmməd:

– Söylədiyin xanım ki, özu gözəl, malı çoxdur, o qadın heç mənim kimi fağır bir insana ərə gedərmi?

Xədicə xatun pərdə arxasından cavab verdi:

– Bəli, hər şeyə razılıq verər. Nə qədər qazanırsansa, qazan, razıdır. Nəyə gücün çatar gətir, razıdır.

O zaman Hz. Məhəmməd Xədicədən soruşdu:

– Ya Xədicə, madam ki, elədir mənə o qadının kim olduğunu söylə. O kimdir, kimin nəslindəndir? De, mən də bilim.

Xədicə cavab verdi:

– Ya Həbibi, söylədiyim və sənin hər diləyinə razı olan qadın bax, mənəm.

Bu sözləri eşitdikdə Hz. Məhəmməd utandı, qızardı. Başını önünə əydi.

Xədicə xatun yenidən:

– Ey gözümüzün işığı, nədən susdun? Nə üçün bir söz demirsən?

Hz. Məhəmməd:

– Ya Xədicə, qorxuram ki, sən əylənirsən. Bir oyun oynayırsan, zarafat edirsən.

Xədicə xatun and içdi:

– Heç vaxt belə düşünmə. Sənin kimi seyyidə mən necə oyun oynaya bilərəm? Necə zarafat edərəm?

Xədicə qərarının qəti olduğunu bildirmək üçün sözünə davam etdi:

– Ya Həbibi, mənə inanmırsansa, indi get, əmilərini götür gəl. Məni atamdan istəsinlər.

Hz. Məhəmməd:

– Yaxşı, ya seyyidə, − deyərək evdən çıxdı. Əmisi Əbu Talibin evinə yollandı.

Xədicə xatun cariyələrindən bir neçəsi ilə atası Xüveylidin yanına gəldi. Xüveylid qızına:

– Qızım, Şam səfərindən nə xəbər? Gəlirin necədir? Ziyanın varmı?

Xədicə xatun:

– Gəlirim var. On il içində ticarətdən qazandığım qədər təkcə bu səfərdən gəlirim olub. Atacan, bu gəlir yalnız bizim malımızda deyildir. Bütün Qureyş xalqı bu səfərdən zəngin, qane olub döndü.

Xüveylid soruşdu:

– Ya Xədicə, nə olub ki, dəvələrin, parçaların yoldan indi gəldiyi halda, onları görüb-görmədən, malının hesabını almadan, mənim yanıma gəlmisən?

Xədicə xatun:

– Ata bilirsən ki, hər qadının izzəti, ululuğu ər kişinin bərəkətindəndir. Əri olmayan qadının malı olmuş, nə hökmü var? Nəsli və qəbiləsinin də onu əziz görməsi mümkün olmaz.

Xüveylid yenidən soruşdu:

– Ya Xədicə, əvvəldən bir çox ulular, hörmətlilər səni istəmişdi. Sən onları qəbul etmədin. Heç kimi bəyənmədin. Sənə ər, həyat yoldaşı olmala-

rını rəva görmədin. İndi istəyin nədir, de, bilim? Nə edəcəyimə hazırlaşım. Nə deyirsən?

Xədicə:

– Bəli, ata, çox kimsələr istədi. Amma diləyim bir kişidir. Nə gözəllik varsa, ondadır. Onun şəxsindədir. O kimsənin əsli uludur, özü arifdir, üzü lətifdir, zəkalıdır. Möcüzə və kəramətlər sahibidir. Dili ancaq Haqq deyər. Sözü doğru, qəlbi sadiqdir. Onun adı Abdullah oğlu Məhəmməddir. Mənim evlənmək istədiyim seyyid budur. Onunla evlənib xalqın dilindən düşərəm.

Xədicənin atası Xüveylid:

– Ya Xədicə, sən dəli olmusan? Yoxsa nəfəsindən od aldın? İstəyirsən ki, bütün ərəblər içində bizi rüsvay edəsən? Utandırasan?

Xədicə atasının bu sözlərindən çaşdı:

– Atacan, niyə, bu səbəbə səni rüsvay edəcəyəm?

Xüveylid:

– Səbəb bu. Səni bir çox Qureyş ulusu istəmişdi. Öncə Müqiyyə oğlu Vəlid istədi. Hişam oğlu Əmr(Əbu Cəhl) istədi. Üməyyə oğlu Safvan dilədi. İkrimə oğlu Hişam istədi. Daha çox ulular istədi ki, malları, şöhrətləri, şanları vardı. Amma heç birisinə ərə getmədin. Bunları istəmədin. İndi isə bir yetimə getmək istəyirsən. Atası yox, anası yox, malı az. Yetimliklə, fəqirliklə böyümüş. Onun-bunun yanında böyümüş. Əgər sən bununla evlənərsənsə, bütün xalq bizə nə deyər? Hələ deyəcəklər ki, yanına işə götürüb, ona vəzifə verib. Malını mühafizə edirdi. İndi də qalxıb ki, onu ər seçirəm, onunla evlənirəm. Biz razı deyilik.

## *XƏDİCƏ ÜSYAN EDİR*

Xədicə xatun:

– Ata, ata! Bil ki, Qureyş uluları məni malıma tamah saldıqları üçün istəyirdilər. Amma bu kimsənin mala-mülkə tamahı yoxdur. Könlu doludur, malı yoxsa da könlü zəngindir. Qureyşə bir fəlakət üz verərsə, qarşıya duran odur. Yıxılanları qaldıran odur. Düşkünlərə əl uzadan da odur.

Bu sözlər Xüveylidi çaşdırdı. Qızı nələr deyir, belə? Hz. Məhəmmədə ürəkdən vurulubdu. Gerçəkdə də Hz. Məhəmmədə vurulmuş Xədicə xatun atasına üsyan bayrağını qaldırmışdı:

– Ata, əgər bu işi görərsən, nə əla. Görməsən, mən öz başıma çarə taparam. Öz işimi mən özüm bacararam.

Xədicə xatun qapını bağlayıb cariyələri ilə birlikdə evinə getdi.

Əmisi Nofəl oğlu Vəraqəni görmək və onunla danışmaq, anlatmaq istə-

di. Vəraqə Xədicə xatunun anasının da qardaşı idi. Amma anaları bir, ataları ayrı qardaş idi. Vəraqə çox bilikli insan idi. Bütün elmləri öyrənmişdi. Xədicə özü-özünə belə düşündü:

– Əmim Vəraqə alim və ağıllı bir kişidir. Hər yerdə adı bilikli bir insan kimi çəkilir. Vəziyyətimi ona bildirim.

Xədicə xatun əmisini çağırmaq üçün adam göndərmək istəyəndə Vəraqə özü qapını açıb içəri girdi. Xədicə onu görəndə çox sevindi. Ürəyində: "Bu bir xeyr olsun gərək", – dedi.

O, Vəraqəyə doğru irəlilədi, salam verdi. Tənzim etdi, əlində tutub, otağının baş tərəfinə aparıb orada oturtdu. Özu də keçib yanında oturdu, yeməklər gəldi. Birlikdə yedilər, şərbətlər gəldi, içdilər.

Vəraqə:

– Şam səfəri necə oldu, qardaşım qızı, Xədicə, gedənlər sağ-salamat gəldilərmi?

Xədicə səfər haqqında ona ətraflı bilgi verdi. Vəraqə o zaman:

– Ya seyyidə, Abdullah oğlu Məhəmməd sənin malına əmin oldu. Meysərə ilə getdi, gəldi. Xoşbəxt və uğurlu ayağı, mübarək nəzəri sənə çoxlu ruzi gətirdi,mal qazandırdı?

Xədicə:

– Ya əmim, Meysərənin on ildə Yəmən, İraq, Şiraz, Şam səfərlərindən qazandığından mənə daha çox qazanc gətirdi. Bunlar Abdullah oğlu Məhəmmədin bərəkətindən oldu. Onun xoşbəxt qədəmi, mübarəkliyi yalnız mənə deyil, bütün Qureyşə bərəkət gətirmişdir. O, cümlə dünyaya fayda verdi. Əmi, səninlə danışacağım bir iş var. Sənə söyləyəcəyəm. Səndən, ağıllı və elmli bir insandan məsləhət istəyirəm. Bu işə layiq deyiləcək söz de.

Vəraqə:

– Ya Seyyidə, sözünü söylə eşidim, sözünə görə sənə cavab verim.

Xədicə xatun:

– Əmi, Məhəmməd məndən qazandığı əmək haqqını onu evləndirməsi üçün nikah pulu olaraq Əbu Talibə verəcək. Mən isə dilərəm ki, bu pulu nikah üçün Əbu Talibə sən verəsən ki, mən Məhəmməd ilə evlənim. Mən onun halal xanımı olum. Çünki Məhəmməd Emindir. O, gözəl insan, namus və saf əxlaq sahibidir. Ağıllıdır, şükr və səbr edəndir. Mən ondan başqa heç kimlə evlənmərəm. Çünki malımı dağıdarlar, israf edərlər. Amma Məhəmməd isə qənaətcildir, haqq-hesaba düzdür.Onun əlindən israfçılıq, dağıdıcılıq gəlməz.

Əmisi Vəraqə Xədicənin dediklərini təbəssümlə qarşıladı, sevincindən güldü. Dedi:

– Ya Xədicə, yadındadırmı ki, mənə bir vaxtlar yuxu söyləmişdin. Hanı o röyadakı göydən enən ay. Aşağı gəlib qoynuna girdi. Bunları sən çoxdan görmüşdün. Ay isə qoynunda yatmışdı, o qoynunda ikən sən oyanmışdın. O yuxunu, deyəsən,unutmusan. Xatırladınmı?

Xədicə xatun:

– Görmüşdüm və sizə danışmışdım.

Vəraqə:

– Mən yuxunu sənin üçün yozmuşdum, əgər unutmamısansa.

Xədicə xatun:

– Yox,yox. Hər şey yadımdadır. Onda sən mənə dedin ki, ya sən bir peyğəmbər doğacaqsan, ya da səni bir peyğəmbər alacaqdır.

Xədicə o zaman:

– Əmican, indi atamın yanına getdim. Bu vəziyyəti ona danışdım. Atam mənim dediyim sözləri qəti rədd etdi. Əmi, mən istəyirəm ki, sən mənim vəkilim olasan. Mənim qəyyumum da, vəkilim də sən ol! Məni Abdullah oğlu Məhəmmədlə evləndir.

Xədicə xatunla əmisi Nofəl oğlu Vəraqə bu barədə xeyli söhbət etdilər.

## *Hz. MƏHƏMMƏD DƏ ƏBU TALİBLƏ DANIŞIR*

Bu vaxt da Hz. Məhəmməd də Əbu Talibin evinə gəldi. Əmisi Məhəmmədi qarşıladı:

– Ya Həbibi, Xədicə xatun səni nə iş üçün çağırtdırmışdı?

Hz. Rəsul cavab verdi:

– Xədicə xatun mənimlə evlənmək istəyir.

Əbu Talib soruşdu:

– Ya Məhəmməd, nədən bildin ki, Xədicə səninlə evlənmək istəyir?

Hz. Məhəmməd:

– Məndən soruşdu ki, məndən aldığın pulla nə edəcəksən? Nəyə xərcləyəcəksən? Mən də "əmim Əbu Talib məni evləndirmək istəyir. Sənin verəcəyini ora xərc edəcəyik" dedim. O zaman Xədicə xatun dedi ki, madam ki əmin səni evləndirmək istəyir, belə fikirləşirəm ki, yaxşısı budur ki, mənimlə evlən. Əgər halal xanım alırsansa, məni qəbul et və məni sənin yanına göndərdi: "Get, əmilərini götür gəl. Məni atamdan istəsinlər", – dedi.

Bunlara diqqətə qulaq asan Əbu Talib gülümsədi:

– Ya Həbibim, sən sözünün üstündə duran adamsan, amma Xədicə xatun səninlə zarafat etmiş olardı. Çünki onu neçə-neçə ən hörmətli ulular istədi, heç birinin təklifini qəbul etmədi. Gəl Əsəd qızı Fatiməni Xədicə xatu-

nun yanına göndərək, onlar dostdurlar. Bizə tez xəbər gətirər, bu iş doğrudur, ya zarafatdır.

Əbu Talib içəri keçdi. Xanımı Fatimə xatunu çağırdı. Ona dedi:

– Ya Fatimə, indi Xədicə xatunun yanına get. Soruş ki, Məhəmmədlə evlənmək istəyi doğrudur, yoxsa zarafat etmişdir.

Fatimə həmən qalxıb Xədicənin evinə getdi. Xidmətçilər onun gəlməyini xanımlarına bildirdilər. Xədicə qaçaraq onun qarşısına gəldi. Görüşdülər. Fatimə salamlaşandan sonra oturmayacağını bildirib soruşdu:

– Ya Xədicə, seyyidim, gözümün işığı, Məhəmmədə dediyin sözlər gerçəkdir, yoxsa onunla zarafat etmisən?

Xədicə xatun:

– Fatimə xanım, ola bilərmi ki, mən Məhəmmədlə belə zarafat edim? Sözum, fikrim qətidir. Sizə də deyirəm, görüləcək iş Məhəmmədin əmilərinin yığışıb məni atamdan istəmələridir.

Fatimə xatun şox sevindi, Xədicəni qucaqladı, öpdü. Tez özünü evə Əbu Talibə çatdırdı. Dedi:

– Müştuluq verməlisən, ya Əbu Talib. Həbibim Məhəmməd doğru demişdir. Sən də qardaşlarına və Haşimoğulları ululарına xəbər göndər, gedin Xədicə xatunu Məhəmmədə istəyin. Əmisi Nofəl oğlu Vəraqə də indi Xədicənin evindədir.

Əbu Talib bu xəbərə çox sevindi. Adamlarını göndərdi, qardaşlarını, nəslinin ulu və hörmətlilərini, seyyidlərini çağırtdırdı. Birinci Həmzə Abbasla gəldi. Çox keçmədi ki, Zübeyr və Dırar, bacılarından Atiqə, Vəsfiyə və Bərrə də gəldilər. Hamısı bir yerə cəm olunca Abbas Əbu Talibdən soruşdu:

– Ay qardaş, bizi təcili bura niyə çağırdın, nə iş var?

Əbu Talib:

– Qardaşımız Abdullahın oğlu Məhəmmədi evləndirmək istə-yirik.

Abbas:

– Kimin qızını istəyəcəyik?

Əbu Talib:

– Xüveylid qızı Xədicəni istəyəcəyik.

Abbas yenidən soruşdu:

– Sən heç fikirləşirsən, yoxsa dəli olmusan? Xədicə xatun Məhəmmədə gedərmi? Ona gedərmi, soruşuram səndən?

Həmzə də ayağa qalxdı:

– Ya Abbas, Məhəmməd Xədicəni qəbul edirsə, Xədicə Məhəmmədi niyə qəbul etməməlidir? Məhəmmədin əsli-nəcabəti ondan da uludur. Xədicənin atası Xüveylid, onun atası Əsəd, onun atası Əbdülüzza, onun da atası

Qusaydır. Məhəmmədin isə ulu babası Haşim, onun atası Mənaf, onun da atası Qusaydır. Əgər ululuq nəsil və qəbilədəndirsə, görürsən Məhəmməd daha da uludur. Gözəllik və kamalda isə Məhəmməd bilikli, ağıllıdır. İnsanlar onunla söhbət etməyə, məsləhət almağa çalışırlar. Əgər kəramət, möcüzədən söz açsaq, onun tayı-bərabəri varmı? Məliklər, hökmdarlar ona qızlarını verməyə həsrətdirlər, mülklərini bağışlamağa hazırdırlar.

Abbas:

– Qardaşım Həmzə, sənin sözün doğrudur. Mənim dediyim budur ki, Xədicənin malı çoxdur. Əxlaqı, lətafəti bütün Qureyşdən ziyadədir. Bir də gözəllik sahibləri, məmləkətimizin ululları onu istədilər, razılıq vermədi. Başçılar istədilər, yenə getmədi. Bizim seyyidimiz Məhəmməd fağırdır. Malı, mülkü, bəzənmiş paltarları da yoxdur. Mən bunlara görə dedim.

Həmzə buna cavab olaraq:

– Əgər bizim seyyidimizin malı azdırsa, bizə, əmilərinə nə olub? Bizim malımızda da əskiklik var? Hələ mən başımı, canımı da Məhəmmədin yolunda fəda etməyə hazıram.

Bu sözdən sonra bütün əmiləri və hz. Məhəmmədin yaxınları hərəkətə keçdilər.

Hamılıqla "Həmzə ilə razıyıq" deyib qalxdılar. Birbaşa Xədicənin evinə yollandılar.

## *XƏDİCƏ XATUNUN EVİNDƏ HAZIRLIQLAR*

Xədicə xatun da Fatimə xanımı yola saldıqdan sonra cariyələrinə:

– Evi bəzəyin, xüsusi yaraşıq verin! – tapşırığını verdi.

Otaqları ipəkdən, atlasdan olan örtüklər və bahalı xəz dərilərlə bəzədilər. Yeməklər bişirildi. Hazır durdular. Yola gözətçilər qoydular. Cariyələr dama çıxıb yollara baxmağa başladılar. Birdən uzaqdan bir böyük dəstənin gəldiyini gördülər.

Əbu Talib Haşimoğulları ilə birlikdə gəlirdi. Hz. Məhəmmədi ortalarına almışdılar. Əyninə gözəl bir paltar geyindirmişdilər. Hamının arasında o, bədrlənmiş aya bənzəyirdi. Yanındakı əmiləri də onun ulduzları idi...

Gəlib Xədicə xatunun evinə çatdılar. Meysərə ilə Nofəl oğlu Vəraqə onları qarşılamağa çıxdılar. Salamlaşdılar,hz. Məhəmmə-di və əmilərini içəriyə dəvət etdilər. Hz. Məhəmmədi baş tərəfdə oturtdular. Geri qalanları da oturduqdan sonra süfrəni hazırlamağa başladılar, şərbətlər gəldi. Bu vaxt Vəraqə sözünə başladı:

– Ey Haşimoğullarının seyyidləri, yığışıb bir yerdə gəlməyinizin səbəbi

nədir? Bu gəlişinizlə Xədicə xatunun evini şərəfləndirdiniz. Sözünüz varsa, söyləyin, eşidək. Sizə ona görə lazım olan xidməti edək.

Vəraqə sözünü bitirən kimi Əbu Talib söz alıb dedi:

– Ey Vəraqə, sən yaxşı bilirsən ki, Xədicə xatunla aramızda qan qarışığı, nəslimizin yaxınlığı vardır. Arzu edirik ki, daha yaxın qohum olaq. Qardaşım Abdullahın oğlu Məhəmmədə sənin qardaşın qızı Xədicə xatunu alaq, bir toy edək. Gəlməyimizin səbəbi budur. Bizdən qız istəmək, səndən nikah pulunun miqdarını demək. Görüləcək i°imiz budur. Nə deyirsən, nə dü°ünürsən?

Nofəl oğlu Vəraqə cavabında:

– Əhlən və səhlən. Xoş gəlmisiniz. İcazə versəniz, mən Xədicə xatunla bir görüşüm, sözləşim.

Vəraqə qalxıb işəri keçdi. Qardaşı qızı Xədicəyə:

– Ya Xədicə, ya seyyidə, Haşimoğulları, seyyidləri və uluları səni Abdullah oğlu Məhəmmədə istəmək üçün elçi gəliblər. Nə deyirsən? Nə düşünürsən? Onlara nə deyim, cavabın nə olacaq?

Xədicə xatun baş əyərək:

– Əmi, indiyə kimi nə söyləmişdin? Mənə nə öyüd vermişdin? Madam ki səadət qapısı açıldı, başqa nə ola bilər ki....

Sonra davam etdi:

– Əmi, get atamın yanına, razılığı üçün min qızılı ətəyinə qoy. Olanı, bitəni söylə. Amma atam "biz Qureyşdən üstünük, qızımı vermirəm, deyərsə" ortalığa gəlməsin. Geri dursun. Qureyş atamdan soruşsa, "mənim bu işdən xəbərim yox" desin, həm də bu işdən əmin olsun.

Vəraqə geri döndü, Əbu Talib və qardaşlarına:

– Xədicə xatunun salamı var. Bu mübarək işə o razıdır.

Bu xəbərə hamı sevindi. Vəraqə sonra dedi:

– Ey Hərəm seyyidləri, ey Haşimoğulları, mənim bir düşüncəm var. Buna siz qərar verməlisiniz.

Əmilər:

– O nə fikirdir, ya Vəraqə? Tədbirin nədir, de, biz də eşidək.

Vəraqə dedi:

– Görüləcək iş budur ki, siz bir neçə kişi ayırın. Onlar qardaşım Xüveylidin yanına getsinlər. İzzətlə, saygı və şirin dillə Xədicəni ondan istəsinlər. Necə olsa, atasıdır. İstərsə, versin, istərsə, verməsin. Bir dəfə də ondan qızını istəmiş olursunuz.

## *XƏDİCƏ XATUNUN ELÇİLƏRİ*

Əbu Talib bu fikri bəyəndi. Qəhrəman əmi və süd qardaşı Həmzə, əmisi Dırar, böyük əmisinin oğlu Übeydə, Əvvam oğlu Zübeyr Xədicə xatunun atasının yanına getmək üçün ayrıldılar. Onlara:

– Gedin, Xədicə xatunu atası Xüveyliddən Məhəmməd üçün istəyin, − dedilər.

Az sonra bu dörd igid Xüveylidin evindəydi. Xüveylid məclis qurmuş, şərab içməklə məşğul idi. Haşimoğullarından bu uluların gəldiyini eşidəndə qalxdı, onları içəri dəvət etdi.

– Salam! Xoş gəmisiniz, − dedi. İzzət və sayğı göstərdi. Dörd seyyidi süfrə başında oturtdu. Yemək gətirildi. Sonra söz onlara çatanda:

– Ey Xüveylid, − dedilər, − qızınızı seyyidimiz Abdullah oğlu Məhəmməd üçün istəməyə gəlmişik. Nə deyirsən, nə buyurursan?

Xüveylid dinləndi:

– Ey seyyidlər, – deyə cavab verdi, xoş gəldiniz. Bizə sayğılar, səfalar gətirdiniz. Ancaq nə deyim, Abdullah oğlu Məhəmməd qızım Xədicənin bərabəri, layiqi deyildir. Onu kimsələr istəmədi ki... Bəylər, məliklər, qəhrəmanlar istədi. Xədicə onları istəmədi, qəbul etmədi. Məhəmmədə gəlincə, nə malı var, nə zənginliyi. Fəqirdir də. Ana-atadan yetimdir. Xədicə onu nə cür qəbul edər?

Dörd seyyid bu sözü Xüveyliddən eşidəndə Həmzə qəzəbləndi, coşdu, həyəcanlandı, dəniz kimi çalxalandı. Xüveylid tərəfə dönərək əsəbi halda bağırdı:

– Ey lənət olmuş, əgər evində olmasaydıq, boynunu vurardım sənin.

Qalxdılar, oradan çıxdılar. Xədicənin evinə gəlib olmuşları və Xüveylidin cavabını dedilər. Amma Həmzə hələ də aslan kimi kükrəyib dururdu. Sözlərin təsiri qəlbindən keçməmişdi, ürəyinin döyüntüsü uzaqdan eşidilirdi.

Nofəl oğlu Vəraqə o zaman:

– Ey Haşimoğullarının böyükləri, ey Hərəm seyyidləri, siz yeyib-için. Mən gedim qardaşımla bir dəfə də danışım, fikrini öyrənim.

Vəraqə qardaşı Xüveylidin yanına gəldi:

– Ey qardaşım Xüveylid, − dedi, − Haşimoğulları seyyidləri, Əbdülmüttəlib oğulları Hərəm başçısı Əbu TalibIə birlikdə Xədicənin evinə gəlmişlər. Sənə dörd seyyid göndərdilər. Səndən qızın Xədicəni istədilər. Sən müvafiq cavab verməmisən. Həmzə qəzəblənib coşmuş, düşmənçilik atəşi ilə dolub dururdu. Deyir ki, mən Əsəd oğlu Xüveylidin başını kəsməyincə sakit ola bilməyəcəyəm. Sən Əbdülmüttəlib oğullarını nə üçün özünə düşmən

edirsən?

Xüveylid:

– Qardaşım Vəraqə, Abdullah oğlu Məhəmməd Xədicənin tayı deyil. Qureyş uluları eşitsə, bizə nə deyərlər?

Vəraqə:

– Yaxşı, nə deyirsən, nə tədbir edirsən? Biz ikimiz səninlə əvvəldən danışaq, sözümüz bir olsun. Sən mənim sözümdən çıxma. Dilimiz bir olsun. O əjdahaları özümüzə düşmən etməyək.

Xüveylid:

– Qardaşım Vəraqa, sən də bilirsən ki, Xədicəni Qureyş uluları istədi. Sayğılı, izzətli, mallı, mülklü kimsələr onu almaq arzusundaydı. Başqa məmləkətlərdən məliklər ona mallar verdilər, onu istədilər, yenə razı olmadı. “Mən ərə getmək istəmirəm” deyirdi. İndi nə oldu? Bir yetim dəliqanlıya razı olur? Ata-anası yox, malı-mülki yox, heç yatmağa bir evi də yoxdur. Bir neçə gün əvvəl qızıma pul ilə işləyirdi. Dəvəsinə, malına baxırdı. Xədicənin quluna xidmət edirdi. İndi onunla evlənmək, bir yastığa baş qoymaq mümkündürmü? Dost-düşmən bunu eşitsə, nə deyər? Sabah, o birisi gün Qureyş yığılanda başımı necə yuxarı qaldırım, onlara necə baxım?

## *RAZI OLMASAN DA XƏDİCƏ ONA GEDƏCƏK*

Vəraqə dedi:

– Qardaşım Xüveylid, mən Xədicəni gördüm. Məhəmmədə məhəbbəti böyükdür. Sən istədin, ya istəmədin Xədicə Məhəmmədlə evlənəcəkdir. O ancaq elə fikirləşir. Ona heç kim hökm edə bilməz. Mən belə düşünürəm ki, onun bu xahişinə razı olaq. Əgər Həmzənin qılıncından qurtulmaq istəyirsənsə, Haşim oğullarından pislik gəlməsini istəmirsənsə, bunu qəbul et. Yoxsa mən aradan çıxacağam, sən təhlükə və ziyanda qalacaqsan.

Bu sözləri eşidən Xüveylid:

– Qardaşım Vəraqə, tədbirini bir də söylə tam anlayım.

Vəraqə:

– Məhəmmədin əmiləri yığışıb. Hər biri malından onun üçün ayırırlar. Bu min misqal qızılı əl altından sənə verirəm. Sən qızılı al. Vəkilliyini mənə ver. Mən gedim, Xədicəni evləndirim. Sabahı gün Qureyş səndən soruşanda and iç, “Onu mən ərə verməmişəm, aralarına girmədim, bu işdən xəbərim yoxdur” de. Beləcə onların dilindən qurtularsan. Bunula Haşimoğulları ilə də düşmən olmazsan.

Bu sözlər Xədicənin atasının çox xoşuna gəldi. Vəraqəyə vəkilliyini

verdi:

– Qardaşım, sən dur get, səni gözləməsinlər. Səni vəkil etdim, mənim yerimə bütün məsələləri özün həll et.

Vəraqə oradan ayrılıb Xədicə xatunun yanına gəldi. Bu vaxt Xədicə xatun Hz. Məhəmmədi evinə dəvət etmişdi. Özü pərdə arxasında idi, Hz. Məhəmməd üçün isə bir kürsü qoyulmuş və orada oturmuşdu.

Xədicə xatun pərdə arxasında dua etdikdən sonra dedi:

– Ya Həbibi, ya Məhəmməd... Allahımız ikimizi bir-birimizə qismət qıldı. Qoşa olacağıq. Amma mənim Həzrətinizin hüzurunda bir diləyim var. İstəyirəm bu arzum yerinə yetirilsin.

Hz. Məhəmməd soruşdu:

– Əmilərimin qızı Xədicə, istəyin nədir söylə?

Xədicə xatun:

– Ey Həbibi, diləyim budur ki, mən cariyən, əgər xanımın olsam, mənim üstümə başqa qadınla evlənməyəcəksən. Başqasını almayacaqsan, cariyələrlə birgə olmayacaqsan. Çünki mən çox qısqancam, bu mənim yeganə qüsurumdur. Halal ərimi gözəllərə qısqanıram. Hələ sənin kimi Allahın sevimli qulu, Həbibi olarsa, bu hisslər daha siddətli olar. Ey gözümün işığı, ey Həbibi, bu sözümə nə deyirsən?

Hz. Məhəmməd:

– Xədicə xatun, arzun qəbulumdur. Elə də olacaq.

Xədicə xatun bu sözü eşitdikdə üzü qızardı. Bundan sonra qızıl tellərlə işlənmiş iki ipək parçanı hz. Məhəmmədin qarşısına qoydu. Ayrıca min misqal qızıl da gətirdilər. Onu da Rəsul həzrətinin önünə qoydular. Xədicə xatun:

– Ey Həbibi, bu iki ipək parçanı al. Nikah kağızı yazılandan sonra əmim Vəraqəyə xələt olaraq verilsin. Bu min misqal qızılı isə əmin Əbu Talib öz malı kimi atam Xüveylidə versin.

Hz. Məhəmməd iki parça ipəyi alıb əmisinin sevimlisi Fatimə xatuna verdi:

– Bunları saxla, əmim səndən istəyəndə kimə desə, ona verərsən.

Hz. Məhəmməd sonra Xədicə xatunun yanından ayrılıb əmisi Əbu Talibin evinə gəldi. Olanları ona danışdı. Geri Xədicə xatunun evinə döndü. Əbu Talib bayıra çıxıb qardaşı Həmzəni çağırtdırdı. Qızılları ona verdi:

– Qardaşım Həmzə, bu min misqal qızılı al, Xədicənin atası Xüveylidin yanına get. Həm də onunla barış, könlünü al, axı biz onunla yenidən qohum oluruq.

Həmzə min misqal qızılı götürüb Xüveylidin evinə gəldi. Onu görəndə Xüveylid çox sevindi, otağına aparıb başda olan kürsüdə oturtdu.

### *XÜVEYLİD: "QIZ EVİ, NAZ EVİ", – DEDİ*

Xüveylid:

– Ya Həmzə, qız alıb-vermədə bir qayda vardır. "Qız evi, naz evi" deyirlər. Qız istəyənə səbir, hövsələ gərəkdir. Qızı olanın əxlaqı sərt, dili acı olur. Elə sən gəldiyin üçün qardaşım Vəraqəni vəkil etdim. Söz verdim və and içdim ki, onunla işinizi tamamlayasınız.

Həmzə vəziyyəti duyan kimi:

– Çox təşəkkürlər edirəm, haqqınız var. Qız evi, naz evi, – dedi.

Sonra Allahın aslanı cibindən qızılla dolu kisəni çıxarıb Xüveylidin qarşısına qoydu:

– Ey Xüveylid, ey əmim, Əbu Talib sizə salam söylədi. Bu min misqal qızılı da sənə şirinlik üçün göndərdi.

Həmzə oradan Xədicə xatunun evinə gəldi. Haşimoğulları onu yolda gözləyirdilər. Hz. Məhəmmədin 40 dostundan ən yaxını Abdullah oğlu Əbu Bəkr də orada idi. Əbu Bəkr Vəraqənin yanına gəldi, salamlaşdılar. Əbu Bəkr:

– Ya seyyid, ya Nofəl oğlu, sən bir alim və bilgili insansan. Bu gecə mən bir yuxu gördüm. Bunu mənim üçün yozmağını istəyirəm.

Vəraqə:

– Söylə, ya Əbu Bəkr.

Əbu Bəkr sözünə davam etdi:

– Bu gecə gördüyüm yuxuda Əbu Talib evindən bir ulduz çıxmışdı. Parlaqdan da parlaq. Nurludan nurlu. Ulduz Məkkə şəhərinin üstünə qalxdı, dayandı, durdu. Sonra baxdım ki, sənin qardaşın qızı Xədicə xatunun evinin üstünə enməyə başladı. Ulduz on dörd gecəlik ay boyda idi. Hər tərəfə işıq saçırdı. Sonra Xədicə xatunun evinin içinə girdi. Elə bu vaxt mən yuxudan oyandım.

Həmzə bu söhbəti eşidəndə Vəraqə ilə birlikdə Əbu Bəkrdən soruşdu:

– Ey Əbu Bəkr, ey Quhafə oğlu, o bədr halındakı ayın özünü görmək istəyirsənmi? Gəl gör. O parlaq ay bu evin içində oturmaqdadır. Bayırı fəqir, daxili bir günəş kimi parlaq. İçəri gir, mənim həzin könlümü fərəhlə güldür.

Həmzə də:

– Ey Əbu Bəkr, seyyidimiz, sultanımız Məhəmmədi evləndirmək üzrəyik. Xədicə xatun onu istədi. Gəldik. Xədicə xatunun atası, qardaşı Vəraqəni öz yerinə vəkil etdi. İndi nikah bağlayacayıq, sən də gəl.

Əbu Bəkr dəvətə çox sevindi. Vəraqə, Həmzə və Əbu Bəkr içəri girdilər. Hz. Məhəmmədin yanına çıxdılar. Hz. Məhəmməd Əbu Bəkri görüncə o qədər sevindi ki, ona doğru gəldi. Əlini əlinə alıb, gətirib yanında oturtdu.

Sonra:

– Salam, Quhafə oğlu! Xoş gəlmisən. Gəlişinlə mənim könlümü çox şad etdin.

Əbu Bəkr hz. Məhəmmədin yanında təvazökar və ədəblə yer aldı. İki dizi üstünə çökdü. Söhbətə başladılar.

O biri yandan isə Vəraqə az sonra hz. Xədicənin yanına keçdi. Xüveylidin Həmzəyə dediklərini, ona necə hərəkət etmək lazım olacaqını söylədi. Xədicə xatun əmisi Vəraqəyə:

– Sağ ol, əmi. Allah uzun ömür versin sənə. İndi aşağıya en, nikahı qeyd edib kağızını yazın. Bu nikah xəbərini alacaq həsəd aparanlar, paxıllar, Məhəmmədi istəməyənlər xəbərdar olub bir fitnə-fəsad fikirləşəcəklər. Xeyir işi uzatmaq olmaz.

Vəraqə aşağı endi və Haşimoğullarının yanına gəldi. Dedi:

– Ey Haşim oğullarının seyyidləri, vaxt yetişdi, iş bitdi. Mənə yaxınlaşın, xütbə deyək, nikahı bağlayaq.

Hz. Məhəmməd də orada hazır durmuşdu. Xütbə oğlan evindən bir kişinin qız evindən gəlini istəməsi üçün dediyi sözlər idi. Ortaya kürsü gətirildi. Bütün Qureyşin ən ulusu, başçısı Əbu Talib olduğundan qızı o istəyəcəkdi. Onun dili şirin, danışığı da gözəl idi. Çox ağıllı, etibarlı, mərifətli olması bütün ərəblərə məlum idi. Əbu Talib yerindən qalxıb kürsünün üstündə oturdu. Bu vaxt Xədicə xatun da bir qabın içinə qızıl, inci doldurdu. Meysərəni çağırdı, qabı ona verərək, yığıncaq otağına aparmağı tapşırdı və dedi:

– Nikah bağlanıb, kəbin yazılıb bitən kimi bu qızıl və inciləri orada səpərsən.

Meysərə nikah otağına girdi, arada durub gözlədi.

Əbu Talib xütbəyə başladı. Bütün malı, üzgörümçəyini saydıqdan sonra dedi:

– Ey Haşimoğulları, Əbdümənafoğulları, Qusayoğulları! Söylədiklərimi eşidin. Heç birinizin ağlına gəlməsin ki, Məhəmməd bu qədər malı, zənginliyi haradan tapdı? Bəlkə, Xədicə xatun ona verib? Heç narahat olmayın. Məni dinləyin, nə dilimdən çıxdı, onlara mən zamin oluram.

Sonra Əbdülmüttəlib oğlu Abbas irəli keçdi:

– Ey qövm, mən Əbu Talibin dediyi mala, parçaya qardaşımla birlikdə zamin oluram.

Orada oturanlar:

– Ey camaat,bu sözlərə biz şahid olduq.

Sonra Həmzə söz alıb dedi:

– Ey Bəni - Haşim seyyidləri, ey Qureyş ululları, mən də şahid və zamin oldum.Əbu Talibin dediyi bütün malı, mal-qaranı biz üç qardaş Xədicə xa-

tuna verəcəyik.

Beləcə Əbu Talib, Abbas və Həmzə o mala zamin olduqdan sonra Əbu Talib Vəraqəyə baxdı:

– Ey Nofəl oğlu, bu qədər malı dedim və zamin oldum. İndi üzgörümçəyi, nikah başlıq pulu üzərində Xədicə xatunu seyyidimiz Məhəmməd üçün istəyirəm.

Nofəl oğlu Vəraqə ona cavab verdi:

– Xədicə xatun məni vəkil təyin etdi. Onun mütləq vəkiliyəm. Bunu hamınız bilin. Əbu Talibin dilindən eşitdiyiniz nikah başlıq pulunu mən qəbul edirəm. Qardaşım qızı Xədicə xatunu Abdullah oğlu Məhəmmədə verirəm. Mübarək olsun.

Hamının üzü sevinclə doldu. Əbu Bəkr kisə ilə inci gətirdi. Səpdi, səpdi... Hz. Məhəmməd Əbu Talibin evindəki iki ipəyi gətirtdirdi. Onları Vəraqənin üstünə xələt kimi saldılar və:

– Ey Nofəl oğlu, bunları Məhəmməddən qəbul et, − dedilər.

Vəraqə təşəkkürlə bunları qəbul etdi. Sonra da Məhəmmədin bibisi Atiqə xatun Qureyş ulularının xanımları, Əbdülmüttəliboğullarının qadınları ilə birlikdə şadlıq təşkil etdilər. Dəflər işə düşdü, mahnılar, şeirlər söyləndi. Bu vaxt hz. Xədicə əmisi Vəraqəni yanına çağırtdırdı:

– Əmi, aşağı en və qonaqlarımıza de ki, Xədicə xatun qarşılıq olaraq Əbu Talibin, Abbas və Həmzənin zamin olduğu var-dövlət, mal-qara, parçaların hamısını Məhəmmədə bağışladı. Əmiləri də zaminlikdən çıxsınlar.

Vəraqə bu sözləri söyləmək üçün aşağı endi. Dedi:

– Ey seyyidlər, Xədicə xatun nikah başlığı olaraq verilən hədiyyələri, yəni Əbu Talibin, Abbas və Həmzənin zamin olduğu bütün malları seyyidimiz Məhəmmədə bağışladı. Əmilərinin zaminlikdən çıxmasını qəbul etdi. Buna bütün Qureyş ulularını şahid tuturam.

Orada olanların hamısı buna sevindi.

– Xədicə xatun, sən çox gözəl və xoş bir səxavət sahibi olduğunu hamıya göstərdin.

Bundan sonra Xədicə xatun Hz. Məhəmmədin əmilərinin hamısına bircə-bircə xələt və nemətlər bağışladı. Sonra ora yığılanlar yavaş-yavaş dağılışdı. Hz. Məhəmməd də əmisi Əbu Taliblə evə döndü.

Əbu Bəkr də evinə yollandı. Hz. Məhəmməd üçün səpməyə hədiyyələr hazırladı. Bir tabaq içinə on müşk göbəyi qoydu, iki ətir qabı, xoş ətir-kafur, əmbər və iyirmi ipək parça, beş yüz qızıl ayırdı. Sonra Əbu Talibgilə getdi. Əbu Talib Hz. Məhəmmədə xəbər verdi:

– Ya Həbibi, Əbu Bəkr gəlir, − dedi.

Hz. Məhəmməd Əbu Bəkri qarşılamağa çıxdı. Onunla qucaqlaşdı, aldı,

içəri girdi. Əbu Talib Əbu Bəkri baş guşəyə oturtdu. Arxadan Əbu Bəkrin köləəri hədiyyələri əllərində otağa girdilər. Parçalar, müşklər, ənbərlər gətirilmişdi.

## *ƏBU BƏKRİN HƏDİYYƏSİ*

Əbu Bəkr:

– Ya Məhəmməd, canım sənə fəda olsun. Amma fəqir hədiyyəsi də az olur. Bu kiçik hədiyyəni məndən qəbul etməyini diləyirəm. Həm də sizə "Nikahınız mübarək, xoşbəxt olun!" deyirəm. Hz. Məhəmməd hədiyyələri qəbul etdi. Xeyir işlərdə həmişə hazır olan Əbu Talibin xanımı Fatimə xatuna:

– Əbu Bəkr mənə hədiyyə gətirdi, bu pulları, malları və parçaları Xədicə xatuna apar, ona de: "Məhəmmədin vəfalı dostu Əbu Bəkr bu hədiyyələri əvvəlcədən gətiribdir...".

Fatimə xatun hədiyyələri götürüb Xədicə xatunun evinə apardı.

Əbu Bəkrdən başqa Hz. Məhəmmədin əmiləri, babasının nəsli, Haşimoğullarının varlıları, Əbdümənaf uluları, Qureyşin mötəbər adamları, Məkkə başçılarlı hamısı öz hədiyyələrini gətirdilər. Mal, ipək parçalar saymaqla bitməzdi. Hamılıqla deyirdilər:

– Nikahınız mübarək, xoşbəxt olasınız, ya Məhəmməd.

Hz. Məhəmməd də atdan, dəvədən, inəkdən, qoyundan, qızıl-qümüşdən, incidən, nə hədiyyə gəlirdisə, hamısını Xədicə xatunun evinə göndərirdi. Xədicə xatun toya hazırlıqla məşğul idi. Toyun gedişində lazım olacaq bütün işləri əvvəlcədən tərtib edib cavabdeh olacaq adamlarına tapşırdı. Toya hazırlıq bir ay davam etdi. Hər şey tam hazırlandı.

Amma Məhəmmədi sevənlər nə qədər sevinirdilərsə də, həsəd aparanların ürəyində qısqanclıq atəşi bir o qədər çox güclənirdi ki, az qala içlərini yandırıb külə çevirəcəkdi. Xədicə xatunun evində nikah tədbirləri bitəndə artıq günortadan keçmişdi. Məkkə şəhərinə xəbər yayıldı:

"Abdullah oğlu Məhəmməd Xüveylid qızı Xədicə ilə evləndi" sözləri ildırım sürəti ilə Məkkəyə yayıldı.

Məhəmmədi sevməyənlərin canlarına od düşdü, bağırları həsəddən partlayırdı. Məlun Əbu Ləhəb, Əbu Cəhl, Əbu Müəyyəd oğlu Üqbə və onlarla eyni fikirdə olanlar bir yerə yığıldılar:

– Gördünüzmü? Məhəmməd sehrin qüvvəsi ilə nə qədər mala sahib oldu. Nə böyük xəzinəyə əl uzatdı. Bir qızıla möhtac ikən Qureyşin ən dövlətlilərindən dövlətli oldu. Siz qəflət yuxusunda yatmısınız. Görərsiz bir gün başımıza nə bəlalar açacaq.

Söhbət edib dağılışdılar. Evlərinə deyinə-deyinə getdilər. Qadınlarına, qızlarına bu xəbəri çatdırdılar.

## *QIZ ANALARININ HƏSƏDİ*

Bəzi qadınlar kinayə və həsəd ilə Xədicə xatuna:

– Bu necə işdir? Onun kimi yaşlanmış, iki dəfə ərdə olmuş bir qadın Məhəmməd kimi istəkli, Yusif surətli Həbibi əlinə alsın, sonra da evlənsin.

– Neçə qadın, neçə ərə gedəsi qızı olan ananın ürəyi atəşdə yandı.

Nikah gününün ertəsi Əbdülmüttəliboğulları Kəbədə yığışmışdılar. Əbu Cəhl də bura gəlmişdi. Baxdı ki, Xədicə xatunun atası Xüveylid də oradadır. Yanında oturdu:

– Ya Xüveylid əmi, bu evlənmədə nə məna var? Nə zamandır ki, Qureyşin ən uluları qızını istəmişdilər. Vermədin. Xaricdən ərəb məlikləri, ərəb uluları onu dilədilər. Yenə vermədin. Deyirdin ki, qızım Xədicə artıq ər istəmir, ərə getməyəcək...” Bəs necə oldu ki, bir günün içərisində bütün məsələləri həll etdiniz.

Xüveylid:

– Ey Hişam oğlu, müqəddəslərimiz Lata və Üzzaya and olsun ki, mən bu işdə iştirak etməmişəm. Xədicə əmisi Vəraqə ilə birləşib mənsiz bu məsələni həll ediblər.

Bu vaxt Xədicə xatun əmisi Vəraqəyə bu arzusunu bildirmişdi:

– Əmi, Hərəm qapısına bir carçı qoy... Qureyşin içində bu xəbəri yaysın. Desin ki, ay camaat, Xədicə xatun mal-mülkünü, bütün heyvanatını, kölələri və cariyələrini, sözün qısası, əlində nəyi varsa, nəqd və ya mal olsun, hər nəyə gücü çatırsa, hamısını Məhəmmədə verdi. Hamısına Məhəmmədi sahib etdi.

Bu hadisə Əbu Cəhl ilə Xüveylidin söhbətləri əsnasında baş verdi. Hamı xəbəri eşitdi. Bəziləri inana bilmirdilər. Xəbər tez bir zamanda Məkkə əhlini çaşdırdı. Axı Xədicə xatunun malı-mülkü qədər heç kimdə dövlət yox idi. Hecə onların hamısını Məhəmmədə verə bilərdi?

Amma bu, təəccüblü bir şey deyildi. Axirət Xədicə xatunun əsas məqsədi idi ki, o ölçüyə gəlməzdi. Malının bənzəri olmadığı kimi, hüsnü camalını da Hz. Məhəmmədin yolunda qoydu, bu dünyadan fəqir kimi köçdü.

Əbu Cəhl bu elanı eşidib ayağa qalxdı, özünü Nofəl oğlu Vəraqəyə çatdırdı:

– Ey Nofəl oğlu, sən alim, ağıllı bir insansan. Çox kitablar oxumusan. Bir çox yerə səfər etmisən. Bu nə yaramaz pis bir işdir ki, sən tutmusan?

Məhəmmədi evləndirdin. Xədicə xatun onun tayıdırmı, bir-birinə yaraşırlarmı? Sən necə vəkil oldun?

Bu sözləri Hz. Məhəmmədin əmiləri də eşidirdilər. Amma sakit oturub səslərini çıxartmadılar ki, görək cavab nə olacaq.

Vəraqə Əbu Cəhli cavabsız qoymamaq üçün başını qaldırdı:

– Ey Hişamın oğlu, Abdullah oğlu Məhəmməd Xədicənin tayı deyilmi deyirsən? Məhəmməd Məkkəyə xaricdənmi gəlib? Yoxsa uzaq diyarlardanmı gəlib? Ya Rumdan gəlib? Məhəmməd Haşim- oğullarından deyilmidir, onlar da Qureyşoğullarından deyilmi? İsmailin sülaləsi, İbrahim əsilli deyilmi? Nə üçün lazımsız, pis sözlər deyirsən? Əgər hər ikisinin əslini soruşsan, deyərəm bir əsillidir. Məhəmmədin babası Əbdülmüttəlib onun atası Haşimin babası Qusaydı və ikisi də Kilab oğludur.Hər ikisi bir ağacın yarpaqlarıdır. Yenə soruşuram, nədən Məhəmməd Xədicəyə layiq deyil?

O zaman düşmən tərəfindən Əbu Müəyyəd oğlu Üqbə sözünə başladı:

– Ya Vəraqə, Məhəmməd ona görə Xədicəyə bərabər deyil ki, o yoxsuldur, yetimdir. Ana-atası onu böyütməmişlər. Xədicə isə saygı, dəyər, nemət, mal və mülk sahibi, gözəl, hüsni-camal sahibidir. Məhəmməd ona necə bərabər ola bilər?

Nofəl oğlu Vəraqə irəli gəldi. Hündürdən onlara cavab verdi:

– Bunlar necə sözlər deyir? Adınız uludur, amma ağlınız yox, dəlisiniz. Hansınıza ağıllı desəm, cahil çıxır. Ağıllı, yaxşı rəftarı olan kişi belə sözlər deməz. Xədicənin malı, gözəlliyi varsa, Məhəmmədin də peyğəmbərlik halı vardır. Əxlaqı gözəl, yaxşı xasiyyəti vardır. Ey Qureyş hörmətliləri, ey Hərəm seyyidləri, Xədicə də Qureyş xanımlarından hörmətli və izzətli bir qadındır. Hz. Məhəmmədin dini, əminliyi aləm içində məşhurdur. Əsli uludur, şərəflidir. Əxlaqı gözəldir. Qənaətkardır, hər şeyə səbir edəndir. Xədicə xatun ağıllı hərəkət etdi, malını, ruzisini Məhəmməd kimi bir kişiyə tapşırdı. Bundan sonra kim bir pis söz desə, bilin ki, o adam sadəcə həsəd aparır. Belə sözlərin faydası yoxdur. Yaxşı olar ki, hamı bu toya hazırlaşsın. Onlarla sevincini bölüşsün.

Sözünü bitirəndə Haşim, Zührə və Təym oğulları:

– Yaşa, yaşa, − deyərək onu alqışladılar.

Həmzə ayağa qalxıb qılıncını çəkdi:

– Ey Qureyş oğulları, ey seyyidlər. Bu gün Nofəl oğlu Vəraqə gözəl sözlər dedi. Bu gündən sonra kim Məhəmməd üçün artıq-əskik danışsa, onu ələ salsa, bu Kəbə haqqı, babamız İbrahimə, atam Əbdülmüttəlibə and içirəm, əlimdəki bu qılıncla onun boynunu vuracağam. Çünki mənim malım, canım onun yolunda fədadır. Gərək olarsa, bu gün də, sabah da fərq etməz...

Ulular bir araya gəlib Həmzə ilə Əbu Cəhli barışdırdılar. Şam yolunda hələ aralarında söz-söhbət olmuş, o zaman da Həmzə qılıncını çəkmişdi. Eləcə dava ulularin köməyi ilə bitmiş oldu.

## *YA MEYSƏRƏ, HEYVAN KƏS*

Xədicə xatun artıq hazırlığı tamamladı. Toy paltarları tikilmiş, bütün evdəkilər toya hazırdırlar. Xədicə xatun Meysərəni yanına çağırdı:

– Ya Meysərə, bir neçə heyvan kəs. Yığıncaqlar və toy üçun hazırla!

Meysərə:

– Ay xanım, hansı cinsdən və nə qədər heyvan kəsim?

Xədicə xatun tapşırıq verdi:

– Yüz dəvə, yüz inək, yüz qoyun olsun.

Xədicə xatun bu tərəfdən də Hz. Məhəmmədə xəbər göndərdi:

– Hazırlıqlar bitmişdir. Toyu gözləyirik. Qonaqlarınızı dəvət edin, toya başlayın.

Hz. Məhəmməd bu xəbəri əmilərinə çatdırdı. Bütün qohum-əqrəba tez bir zamanda yığıldılar. Məkkəlilərə xəbərçilər göndərdilər. Məkkədən kənarda olan qəbilələrdən ərəb ulularını, əmilərinin dostlarını dəvət etdilər. Məkkə şəhərinin seyyidləri gəldilər,toy başlandı. Toya gələnləri yedirdib-içirtdilər, şənləndirdilər. Bir ay Məkkə şəhərində yığışıb toyu davam etdirdilər. Hamı sevinirdi. Xədicə xatun ululara hədiyyələr, bəxşişlər verdi. Xələtlar geydirdi.

Toydan bir ay sonra iki həsrət bir-birinə qovuşdu.

Ulu Tanrının Həbibi və onun sevgilisi artıq öz ocağını yandırmışdılar. Öz evlərində yaşamağa başlamışdılar.

## *MEYSƏRƏ TİCARƏTİ DAVAM ETDİRİR*

Toydan sonra Meysərə yenə ticarətində davam edirdi. Yəmənə gedir, mal alır, Taifdə bir hissəsini satır, Taifdən də alıb gətirir, Məkkədə satır. Bəzən Yəmən mallarını Şama aparır, orada satırdı. Qısa desək, ticarəti tam qaydasında gedirdi. Hz. Məhəmməd də ulularla, seyyidlərlə oturub dururdu. Artıq Qureyşin tamamən Əmini olmuşdu. Dillərdə Məhəmmədül-Əmin adı dolaşırdı. Özü də böyük mal, xəzinə sahibi olmuşdu.

Bütün xalq əmanətlərini Hz. Məhəmməd vasitəsi ilə istifadə edirdi. Onda inam o qədər artmışdı ki, Məkkədə başçı yerində görürdülər, ulular isə onun

ağzına baxıb nə deyəcəyini gözləyir, onun dediyi kimi hərəkət edirdilər. Onun ətrafına toplanıb savaşanları barışdırır, azmış ərləri düzgün yola qaytarır, düşmüşləri qaldırırdılar. Borcluların əlindən tutar, müflis olanlara sədəqə verərdilər. Acları tapıb, yedirdirdilər. İmkansızlara pal-paltar alırdılar.

Bu yaxşı hərəkətləri ilə Hz. Məhəmmədin adı, sanı gündən-günə artırdı. "Fəqirlər atası" deyirdilər ona. Böyük-kiçiklərin dilində, fəqirlərin mənzilində, Qureyş məclislərində, yığıncaqlarında onun elədikləri, keyfiyyəti, yaxşı əxlaqı, kərəmi, insaniyyəti, mərhəməti, səbri, insanlara göstərdiyi hərtərəfli köməklər dillər əzbəri olmuşdur.

Hz. Məməmmədin sonrakı il bir oğlu oldu. Adını Qasim qoydu. Özünə də Qasimin atası – Əbəlqasim dedilər. Öna müraciət edəndə, nəsə soruşan da:

"Ya Əbəlqasim", − deyə cağırırdılar.

## *Hz. ƏLİNİN DÜNYAYA GƏLMƏSİ*

Hz. Məhəmmədin evləndiyinin beşinci ili idi. Əmisi Əbu Talibin oğlu dünyaya gəldi, adını Əli qoydular. (Bir çox mənbə-lərdə 17 03 599 m.t yazılır). Çox alimlər yazmışlar ki, möminlərin imamı olan Əbu Talib oğlu Əlini sevmək iman əhlinə vacibdir. Onun məhəbbətini könüldə saxlamaq iki cahan səadətidir. Çünki hz. Məhəmməd belə buyurmuşdu.

Hz. Məhəmməd hz. Əlini qardaşlığa qəbul etmişdi. Qızı Fatimeyi-Zəhranı hz. Əli ilə evləndirmişdi. Özündən sonra hz. Əlinin Əhli-beyt olmasını vəsiyyət etmişdi, varisi də Hz. Əli olmuşdu.

Rəvaətlərə görə Əbu Talibin həyat yoldaşı Fatimə xatunun bir müddət uşağı olmamışdı. Bir uşağın olmasını çox arzulayırdı. Qurbanları, nəzirləri o zaman Qureyşin inandığı Lat və Üzza bütlərinin adına kəsirdilər. Bir gün Hz. Məhəmməd Fatimə xatuna dedi:

– Ya Fatimə, nəzirini, qurbanını nədən bütlərin yolunda kəsirsən? Allahın olduğunu bil. Əgər nəzirinin, qurbanının qəbul olmasını istəyirsənsə, Haqq-təala adına kəs. Uca Allah arzunu, hacətini qəbul edər.

Bundan sonra Fatimə xatun həmişə "gözumun işığı" dediyi Hz. Məhəmmədin söylədiyi kimi etdi. Nəzirlərini və qurbanlarını Ulu Tanrı yolunda etdi. Gündən-günə müxtəlif nişanələr görməyə başladı. Hamilə qalmamışdan əvvəl bir yuxu gördü.

## Hz. ƏLİNİN ANASININ GÖRDÜYÜ YUXU

Fatimə xatun yuxuda yerdən göyə bir dirəyin dikildiyini gördu. Ertəsi gün səhər yuxusunu Hz. Məhəmmədə danışdı. Hz. Məhəmməd:

– Ya Fatimə, bu gecə Kəbəyə get, təvaf et. Şükür səcdəsi et. Uca Allahdan bir uşaq dilə, qəbul olunar.

Fatimə xatun elə də etdi. Kəbəyə gedib təvaf və səcdə etdi. Allahdan bir uşaq istədi. Çox keçmədi ki, hamilə qaldı.

Hamiləliyinin birinci ayında Fatimə xatun yenə bir yuxu gördü. Şam tərəfdən bir ulu dağ gətirilirdi. Dağın təpəsi və ətəyi dəmirlə örtülmüşdü. Havada gəlir, amma bağıra-bağıra gəlirdi. Fatimə xatun dağın qışqırığına çaşıb qalmışdı. Ayrıca Tihamə vilayəti tərəfindən dağ da yerindən qopub göy üzünə qalxmış, Şamdan gələn dağa doğru hərəkət edirdi. Ondan da bağırtılar gəlirdi. İki dağ birləşdi, Məkkənin Əbukübeyş dağına gəldilər. Əbukübeyş dağından at kişnəmələri eşidilirdi. Şamdan gələn dağdan dörd siyrilmiş qılınc uzatdılar. Qılınc Fatimə xatunun əlinə, sonra da yerə düşdü. Təzədən götürdü. Biri suya düşdü, rəngi dəyişdi. Biri yerə düşdü, sındı. İki qılıcdan biri göyə uçdu. Bir qılınc qaldı. Sonra əlindəki qılınc gözəl surətə çevrildi.

Fatimə xatun röyada olsa belə, ağlı başından çıxmışdı. Gözəl üz yerə sıçrayıb bir qızğın aslan olmuşdu. Heybətli, dəhşətli bir aslan. Aslan dörd yana getməyə başladı. Xalq qorxusundan dəstə-dəstə olub qaçmağa başladı. Hz. Məhəmməd aslanın qarşısına getdi. Aslan sakitləşdi. Hz. Məhəmməd aslanın belini sığalladı. Sonra göydən səs gəldi:

– Ya Fatimə, ey insan aslanının anası, sənə müjdələr olsun, Uca Allah sənə bir oğul verəcəkdir.

Səmadan gələn bu səs Fatiməni yuxudan oyatdı. Qalxıb paltarlarını geydi. Səhərə qədər oturub gözlədi. Günəş çıxanda bir kahinin yanına getdi.

Kahinə yuxusunu danışdı. Kahin gülümsəyərək dedi:

– Ey Əsəd qızı, gördüyün yuxunun açımı çətindir. Çünki dağlar bir-birinə yaxınlaşır, onlardan gələn sədalar, əcaib şeylərdir. Onu deyə bilməyəcəm. Amma əlində dörd qılınc, sənin dörd oğlun olacaq. Birinin qılıncı əlində olacaq, çox böyük işlər görəcəkdir. Dünyada ondan danışılacaqdır. Ey Talibin anası, indi evinə dön. O sultan doğulduqdan sonra Yaradana səcdə et. O əziz uşaqdan müxtəlif nişanələr görəcəksən, əcaib hekayələr duyacaqsan. Evində otur, bunlara şahid ol.

Fatimə xatun geri dönüb hər şeyi Əbu Talibə danışdı.

Əbu Talib:

– Bunları bilmirdim, Allah-təalanın qüdrəti sonsuzdur. Zaman Məhəm-

mədin zamanıdır. Baxaq daha nələr görəcəyik.

Fatimə xatunun hamiləliyi dörd ay olmuşdu. Hz. Məhəmməd bir gün ƏbuTalibin evinə gəldi. Onu Fatimə xatun qarşıladı, qucaqladı, boynundan öpdü:

– Ya Həbibi, səni sevənin canı cənnətə layiq olsun, sevməyənlərin canı cəhənnəm odunda yansın.

Hz. Məhəmməd Fatimə xatuna:

– Ya validə, neyçin yanaqlarının rəngi al-al olmuşdur belə? Gözəlləşmisən bu gün. Uca Allah, deyəsən, duanı qəbul edib?

Fatimə xatun:

– Bəli, ey Həbibi, dediyin kimi oldu. Dörd aydır ki, hamiləyəm.

Hz. Məhəmməd:

– Ya validə, Ulu Tanrı əgər sizə bir ər oğul versə, onu mənə bağışlayarsız. O oğlanı mən böyüdüm, mən bəsləyim. Əgər qız olarsa, sizin olsun.

Fatimə xatun:

– Sənin arzun, istəyin kimi olsun, ya Məhəmməd.

Fatimə xatun hamiləlik dövründə əcaib nişanələr görməyə başladı. Əgər tək və sakit oturardısa, Yaradanın adının söyləndiyini hiss edərdi. Bu səbəbdən çox vaxt tək oturardı. Yuxusu gəlib yatardısa, səmadan səslər duyardı. Kəbəyə gedib təvaf edib bütlərə səcdə etmək istəyəndə (çünki o zaman Qureyş xalqı bütlərə sitayiş edərdilər) qarnındakı uşaq sanki üsyan edirdi. Ürəyi döyünərdi, səcdə etməyə qoymazdı.

Nəhayət, Ulu Allahın əmri yetişdi, vədə tamam oldu. Əbu Talib oğlu Əlinin doğulacaq günü yaxınlaşdı. Hz. Əlinin doğulacağı gecə Fatimə xatun əri Əbu Talibə yaxınlaşdı:

– Ya Əbu Talib, bu gecə məni Kəbəyə götür. Mən Kəbeyi-şərifi təvaf edim.

Bu sözləri söyləyən zaman Hz. Məhəmməd otağa girdi. Fatimə xatun və Əbu Talib ona doğru gəldilər. Hz. Məhəmməd:

– Salam!

Onlar da:

– Salam, ya Məhəmməd, ya Həbibi, ya seyyidi, nə buyuracaqsan? Bir işmi var? Buyur, nə deyirsən, onu da edək.

Hz. Məhəmməd:

– Ya validə, bu gün evinizdə ziyafət hazırlayın. Sənlik edin, heyvanat kəsin, bişirin. Yetimlərə, yoxsullara, dullara, dərvişlərə yedirdin. Sən isə ey validə, elə bu gecə Kəbəyə get, təvaf elə.

Bunları dedikdən sonra Hz. Məhəmməd geri dönüb evinə getdi. Əbu Talib Fatimə xatuna:

– Ya Fatimə, Həbibim Məhəmmədin dediklərini eşitdin. Təvaf etmək üçün Kəbəyə get.

Fatimə:

– Əlbəttə, gözümün işığı, Məhəmmədin dediklərini edəcəyəm.

## *Hz. ƏLİ BİR NƏFƏSDƏ DÜNYAYA GƏLMİŞDİ*

Gecə olunca Əbu Talib Fatima xatunun əlini əlinə alib bir cariyənin köməyi ilə onu Kəbəni təvafa apardı. Kəbəni yeddi dəfə təvaf etdikdən sonra Fatimə xatunu sancılar tutdu. Halı gərginləşirdi. Gedib Həcərüləsvədin qarşısında durdu. Əbu Talibə söz deməyə belə macalı olmadı, elə bil ki, nitqi tutulmuşdu. O vaxt uşaq dünyaya gəldi. Həcərüləsvədə dönüb səcdə etdi. Ata və ananın bəsirətləri bağlanmış, çaşıb qalmışdılar. Çünki Fatimə xatunda qadınların doğuşda gördüyü nişanələrdən heç biri olmadı. Bir nəfəs sıxmaqla Əli (r.a.) dünyaya gəlmişdi.

Əbu Talib də heyran qalmışdı. Çünki Fatimənin heç səsi belə çıxmamışdı. Uşaq isə yerin üstündə idi. Özlərinə gələndə Əbu Talib üst bez geyimini çıxarıb uşağı ona bükdü. Sonra oturdu:

– Ya Fatimə, bu mübarək uşağın, bu səadətli oğlun çox əcaib sirləri görünür.

Fatimə xatun:

– Bəli, ya Əbu Talib, bu uşağa hamilə olandan bəri qəribə və əcaib şeylər görürdüm. Hələ də görürəm.

Əbu Talib:

– Ya Fatimə, bu mübarək uşağın adını nə qoyaq?

Fatimə xatun:

– Əbu Turab (torpaq atası) qoyaq.

Onda Əbu Talib soruşdu:

– Niyə Əbu Turab qoyaq?

Fatimə xatun:

– Ona görə ki, uşaq dünyaya gəldiyi zaman birbaşa torpağa düşdü. Mübarək bədəni torpağa toxundu.

Əbu Talib:

– Mən uşağımın adını Heydər qoydum, – dedi.

Fatimə xatun:

– Nə üçün adını Heydər qoyursan?

Əbu Talib:

– Ona görə ki, yerdən sən qaldırıb mənə verəndə üzünə baxdım. Üzün-

dən nur parlayırdı. Mən onun adını Heydər qoydum.

Fatimə xatun:

– Hələ bir evə gedək, yolda ad qoymağa tələsməyək. Həbibimiz Məhəmmədi çağıraq gəlsin. Mübarək oğlumuzu görsün. Mən onunla danışmışdım, oğlan olsa onun olacaq, o böyüdüb bəsləyəcək. Adını da özü qoysun. Həbibim hansı adı qoyarsa, o da olsun.

Kəbədən evə gəldilər. Evdəkilər açıb uşağa baxmaq istəyirdilər. Fatimə xatun: "Uşağın üzünu seyyidimiz Hz. Məhəmməd açandan sonra hamı baxa bilər", – dedi. Cariyələrdən ən cəldini çağırdı:

– Tez get, Xədicə xatunun evinə Həbibimiz Məhəmmədə de, bura gəlsin.

Cariyə qaçaraq getdı. Onu çağırdı. Hz. Məhəmməd onu görüncə:

– Ya Mübarəkə, əmimin oğlu olması xəbərini mənə deyib sevindirmək üçün gəldin, eləmi?

Qadın Hz. Məhəmmədin ayağına düşdü:

– Bəli, ya Məhəmməd, sən dünyaya bir oğlan uşağının gəldiyini haradan bildin?

Hz. Məhəmməd:

– Bir az öncə səmadan mənə səs gəlib bildirdi.

Hz. Məhəmməd bu şad xəbəri bildiyi üçün hazırlanmışdı, oradanca əmisi evinə yollandı. Qapını açıb içəri girdi. Orada qadınların yığıldığını görüb geri döndü. Fatimə xatun:

– Ya Həbibi, ya Məhəmməd, hara gedirsən? Gəl bir bu əmin oğlunu gör.

Qadınlar otağı tərk etdilər. Hz. Məhəmməd gəlib hələ də Əbu Talibin paltarının üst bezinə bürünmüş uşağı gördü.

## *Hz. MƏHƏMMƏD ƏLİNİN ADINI QOYDU*

Hz. Məhəmməd mübarək dilini uşağın ağzına sürtdü. Sonra Hz. Məhəmməd Əlinin qulağına uç dəfə:

– Allahu əkbər, Allahu əkbər, Allahu əkbər! – dedi.

O zaman uşaq gözlərini Hz. Məhəmmədin mübarək üzünə açdı. O mübarək üzü görüncə gülümsədi. O gözlərini Rəsulullahın üzünə dikmişdi. Hz. Məhəmməd Əlini qolunun üstünə qoydu, bağrına basdı. Sonra əli ilə Əlinin göbəyini kəsdi. Gözlərinə sürmə çəkdi. Bir ağ ipək parça gətizdirib uşağı onunla bələdi.

Fatimə xatun Hz. Məhəmmədə:

– Ya Seyyidi, ya Həbibi, bu mübarək uşağın adını sən qoy.

Hz. Məhəmməd:

– Ya validə, mənə göndərdiyin qadın gəlməzdən əvvəl mənə göydən bir səs, avaz gəldi: "Ya Məhəmməd əmin Əbu Talibin oğlu dünyaya gəldi, onun adını Əli qoy. Bunu bil ki, o sənin qardaşın, köməkçin, vəzirin, qılınc vuran əlin və bilgilərinin varisi olacaqdır. Səndən sonra sənin xalqının qoruyucusu və vəkili olacaqdır", – dedi. Bu səadətli uşağın adı Əlidir.

Adını qoyduqdan sonra uşağı Fatimə xatuna verdi və evinə döndü. Yeddi gün Əlini görməyə gəlmədi. Çünki bu günlərdə çox qadın gəlirdi. Hətta uşaq onu bələmək istəyəndə belə ağlayar, amma Hz. Məhəmməd bələyəndə onun üzünə baxar və sakit durardı. Ağlayanda əlinə götürən kimi dayanar, sonra hərəkətini izləyərdi.

Bir yaşına çatdıqdan sonra Hz. Məhəmməd tez-tez onu evinə götürər, qoynunda yatırardı. Onun köksü üstündə gecə boyu mışıl-mışıl yatardı. Gəzməyə başlayandan sonra Hz. Məhəmməd onun əlindən tutub Kəbəyə götürürdü. Hərəmə gedirdilər.

Bir gün Qureyş hörmətliləri Hərəmdə yığışmışdılar. Oturub sücaətdən, ərlikdən danışırdılar. Hz. Məhəmməd onlara yaxınlaşdı:

– Ya Qureyş seyyidləri, nə danışırsız, nədən söhbət edirsiniz?

Onlar:

– Ya Məhəmməd, ərlik, sücaət, igidlikdən söz açmışdıq.

Hz. Məhəmməd:

– Ulu Tanrı ömür verərsə, siz bu uşağın igidliyini hələ görəcəksiniz. Şücaət və natiqlik sahibi olacaqdır. Qüvvət, heybət, uğurlarına vaxt gələndə tamaşa edəcəksiniz.

Qureyşə bu söz çox acı gəldi:

– Bu söz heç də düzgün deyildir. Məhəmməd südəmər uşağı pəhləvanlar, igidlər içində tək gördü, – deyərək öz-özlərinə deyindilər.

Aradan iki il keçdi. Hz. Əlinin üç yaşı bitmişdi. Hz. Məhəmməd yenə onu götürüb Məkkədən kənarlara, sonra da Hira dağına gedirdi. Rəsulullah orada yalnız ibadət edərdi. İbrahim Xəlil məqamında Məhəmməddən hikmətli sözlər dinləyib öyrənərdi.

Bir gün Fatimə xatun Əbu Talibə dedi:

> – Ya Əbu Talib, mən seyyidimiz Məhəmmədi heç bir gündə bütlərə ibadət edən görmədim. Daima Beytül-Müqəddəsdən yana dönüb səcdə edər. Oğlumuz Əlini də belə öyrədib.

Əbu Talib dedi:

– Həbibimiz Məhəmməd haqq dindədir. Biz ondan batil bir iş görmərik. Əlini də doğulmamışdan ona vermişik, onu necə tərbiyə edəcəyini bizdən

yaxşı bilir.

Aradan bir neçə gün keçdi. Əbu Talib dəvəyə minib Məkkəyə gedirdi. 20 yaşlı oğlu Cəfər də arxasından gəlirdi. Çöllərdən gəlib şəhərə girməkdə idilər. Əbu Talib uzaqdan Hz. Məhəmmədin Əli ilə Allaha ibadət etdiyini gördü. Dəvəsini onların yanına sürdü. Yaxınlaşıb:

– Ey qardaşımın oğlu, ya Həbibi, ya Məhəmməd tapdığın din, nə dindir? Qıldığın ibadət nə ibadətdir? – deyə soruşdu.

Hz. Məhəmməd:

– Əmi, Allah-təalanın təkliyini təsdiq edən, bizim ulu babamız İbrahim Xəlilin dinidir. Bu günə kimi gəlmiş bütün peyğəmbərlər haqq dinin üzərində olmuşlar. Onu təmsil edib insanları o haqq dinə dəvət etmişlər, düzgün yol göstərmişlər. Sən hansısa peyğəmbərin bütlərə səcdə etdiyini eşitmisənmi?

Əbu Talib:

– Doğru deyirsən, eşitməmişəm. Sonra üzünü Cəfərə tutdu:

– Dəvədən en, Həbibim Məhəmmədin dinində və onun tərbiyəsində ol.

Cəfər dəvədən endi və Hz. Məhəmmədin xidmətində oldu.

Əbu Talib:

– Ya Məhəmməd, dediyim kimi iki oğlum sənin tərbiyəndə olsun. Onlar sənin iki qanadın olsun. İki qanadla göylərə uça bilərsən. Qanadların var.

Əbu Talib onlardan ayrıldı. (Bəzi rəvayətlərə görə bu danışıq Hz. Məhəmmədə vəhy gələndən sonra olub). Düzünü Uca Allah bilir.

## *KƏBƏNİN TƏMİRİ*

Hz. Məhəmmədin yaşı otuz beşi keşmişdi. O il Hicaz torpaqlarında çox güclü yağışlar yağmışdı. Məkkə şəhərini su basdı. Şəhərin əhalisi qadınlı, uşaqlı hamı Əbu Qüveyş dağına çıxmışdı. Məkkə şəhərini sel pis hala salmışdı. Evləri, imarətləri uçurmuş, hətta güclü sellərin qarşısında dura bilməyən Kəbənin də bir divarı dağılmışdı. Hərəmin içi sellərin gətirdiyi sularla dolmuşdu.

Kəbeyi-şərif iki tərəfdən axan selin ortasında qalmışdı. Sel suları divarları başqa yerlərdən də zədələmişdi. Hətta bünövrəyə belə ziyan dəymişdi. Amma yağışlar dayanmaq bilmir, getdikcə Məkkəni xarabalığa çevirirdi. Yoxsulların, evsizlərin vəziyyəti daha da acınacaqlı idi.

Nəhayət, bir gün Hz. Məhəmmədin yanına gəlib ona yalvardılar:

– Ey əvvəli, axiri gözəl! Ey zahiri, batili sevgili olan Məhəmməd, – de-

dilər. – bizə bir kömək elə, əlimizdən tut. Bizim şəhərimiz pis hala düşdü, evlərimiz viran oldu. Ya Məhəmməd, bizə yardım et.

Hz. Məhəmməd mübarək üzünü göyə tutdu. Yaradandan kömək dilədi. Könüldən sözlər dedi. Ulu Allah Məhəmmədin diləyini və duasını qəbul etdi. Bir anda yağış kəsildi, sellər durdu. Günəş buludların arasından göründü, sel suları yavaş-yavaş torpağa hoparaq yox oldu. Qureyş ulular Hz. Məhəmmədin ayağına düşdülər. Dualar edib aşağı endilər. Evlərinə dönüb yağışın vurduğu zərərləri düzəltməyə, evlərini sahmana salmağa çalışdılar. Uçan yerləri yamamağa, tam uçanları yenidən tikməyə başladılar. Haşimoğullarının uluları Əbu Talıblə birlikdə yenə Hz. Məhəmmədin yanına gəldilər:

– Qədir-qiymətini yenidən göstərdin, ya Məhəmməd, – dedilər.

Bir il hələ keçməmişdi ki, uçmuş evləri tikdilər, zədələnmişləri təmir etdilər.

Məkkə uluları bir yerə yığılıb bir-birilərnə:

– Ey dostlar, qohumlar, sel Kəbənin eyvanını, eyvanının artırmasını uçurub apardı. Divarlarını zədələyib, hətta bünövrəsinə də ziyan vurmuşdur. Nə düşünürsüz, nə edək, nə məsləhət görürsüz? – deyə soruşdular.

Əbu Talib:

– Ey Hərəm seyyidləri, bilirsiz ki, Ərəbül-Ürba içində Qureyşin hörməti, məkkəlilərin izzəti Kəbəmizə olan sayğıdan irəli gəlir. Bütün dünyada bu əzizlik Kəbənin üzü və suyudur. Görürsüz ki, Kəbənin naxışları, zinəti xarab və divarları viran olmuşdur. Bu rəvadırmı? Məkkəyə kənardan gələnlər bunu gördükdə bizə nə deyərlər? Nə desələr, haqlı olarlar.

O zaman məkkəlilər:

– Ey Məkkə seyyidi, tövsiyəniz nədirsə, deyin onu edək. Kəbənin divarlarını uçurub yenidən tikəyin desəniz, onu da edərik. Siz deyin, biz o işi görək.

Əbu Talib:

– Həbibimiz, seyyidimiz, Məhəmmədlə görüşərəm, danışaram. O seyyid nə düşünüb, nə desə o cür də hərəkət edərik.

Amma bu vaxt könlü qara kafir, Məhəmmədin düşməni, Allahın lənəti olmuş Müəyyəd oğlu Üqbə başını qaldırdı:

– Ya Əbu Talib, Məhəmməd bir ulu insan deyildir. Uluların, seyyidlərin onunla məsləhət etməsi lazımdırmı? Hələ o məsləhət vermək səviyyəsinə yüksəlməmişdir.

Bu sözləri eşidən Əbdülmüttəlib oğlu Abbas ayağa qalxdı və onun üstünə qışqırdı:

– Ey axmaq, nə zaman bir darlığa, çətinliyə, zəhmətə düşürsüz gəlib

Məhəmmədə yalvarmağa başlayırsınız. Onun duasına möhtac olur, ona sığınırsız. Məhəmmədin o zaman qədir-qiyməti uludur, deyilmi? Onda ləyaqəti böyükdür. Məsləhətləşmək üçün qədri böyük deyilmi? Sizə o Həbibin qiymətini bilmək lazımdır. Onun duası sayəsində sellərin əlindən qurtulduq, bəs buna nə deyirsiz? Hamınız Ulu Tanrının qəzəbindən qurtulmadınızmı?

Abbas danışdıqca onun sözləri Əbu Ləhəb, Əbu Cəhl, Ütbə, Uqbə və digər lənət olmuşlara xoş gəlmədi:

– Artıq Qureyşin ehtiramı, möhtəşəmliyi qalmadı. Sayğı və izzət Qureyşin içindən götürüldü. Madam ki Əbu Talibin yetimi Qureyşin seyyidi oldu, seyyidlik hörmətdən düşdü.Torpağa endi,– dedilər.

Onda Əbu Talib cavab verdi:

– Ey qureyşlilər, siz nə deyirsiniz? Nə edək? Deyəcəyiniz nədir? Deyin, eşidək.

## *KƏBƏ SÖKÜLÜB YENİDƏN TİKİLƏCƏKDİR*

Qureyş uluları:

– Bizim düşündüyümüz budur ki, Kəbəni sökək. Damını, divarını, bünövrəyə kimi sökək, sonra özülünün vəziyyətinə baxaq, təmir edək. Divarı tikək, damını və örtüyünü düzəldək.

Əbu Talib Məhəmmədə dönərək:

– Ya Həbibi, ya Məhəmməd, sən nə deyirsən? Nə düşünürsən, nə tapşırığın var?

Hz. Məhəmməd:

– Ey əmim, Kəbəni söküb yenidən tikmək üçün halal mal, pul lazımdır. Əgər halal pulunuz hazırdırsa, Kəbəni söküb tikməyə əl tutun, yardım edin.

Bu sözləri eşidənlərin nitqi tutuldu, dilləri lal oldu. Çaşıb qaldılar. Ağızlarını açıb bir söz də demədilər. Abbas sözə qarışdı:

– Hanı o kimsə ki Həbibimiz Məhəmməd üçün, “Ulular yanında məsləhət əhli deyil” deyənlər. Gəlsin bu müşkül işi həll etsin.

## *CİDDƏDƏ BATAN GƏMİ*

Heç kimsə halal mal sözünə bir cavab tapmadı. Dağılışdılar. Zaman beləcə keçdi. Bir gün Ciddə valisi tərəfindən Əbu Talibin yanına bir elçi gəldi. Məktub gətirmişdi. Qureyş uluları Əbu Taliblə Hərəmdə yığılıb məktubu açdılar. Məktubda yazılmışdı: “Ey Hərəm başçısı, Qureyş ulularl. Ciddə-

də pis hava şəraitindən bir gəmi sahilə atılaraq zədələnmışdır. Gəmini tutmuşuq. Orada tikinti və yenidənqurma üçün bir çox alətlər, ləvazimat vardır. Ağac, taxtadan bir çox lazımlı material var. Bundan əlavə üç nəfər mühəndis-tacir də vardır. Ruma və Şama hökm edən Qeysər onları Həbəş məliki Nəcaşi üçün böyük bir bina tikmək üçün göndərmişdir. Onlar bu malları dəvələrlə dəniz kənarına gətirmiş, gəmiyə yükləmişlər. Gəmi dənizə çıxdıqdan sonra külək onu bizim sahillərə gətirmişdir. Ey Hərəm qazısi, ey Qureyş hakimi, nə buyurursuz? Gəmini tutub saxlayaq, ya buraxaq getsin?

Məktubu oxuduqdan sonra Məhəmmədə baxdı:

– Ya Həbibi, ya Məhəmməd, bu məktuba nə deyirsən? Nə cavab verim?

Hz. Məhəmməd cavab verdi:

– Əmi, Kəbənin söküb tikmək üçün halal mal istədiniz? Ona görə də Ulu Tanrı özü bizə halal mal göndərdi. Gedib o malları gətirin. Əgər gəmiçilər etiraz edərlərsə, “Qeysərin malını nə üçün alırsız” deyərlərsə, o zaman onlara belə cavab verin: ”Həbəşli Səbbahil Əşrəm oğlu Əbrəhə Kəbəyə hücum edəndən bəri onlar bizim düşmənimizdir. Çünki Əbrəhə xristiandır, xaç taxır. Bu səbəbdən xristianların qanı və malı bizə halaldır”.

Qureyş uluları Hz. Məhəmmədin bu doğru sözünü alqışladılar. Dörd yüz kişi atlandı. Məkkədən Ciddə vadisinə yola düşdülər. Gəlib gəmidəki alətləri götürdülər. Gəmi kapitanı onlara:

– Ey Məkkə əhli, bu gəmidə olan mallar hamısı Qeysərindir. Bunlara necə əl vurursuz?

Qureyşlilər sualı Hz. Məhəmmədin dediyi kimi cavablandırdılar. Sonra üç mühəndisi də götürüb bütün malları dəvələrə yüklədilər və birlikdə Məkkəyə gəldilər. Kəbənin tikilməsinə lazım olanları ayırdılar. Qalan hissəsini isə satdılar. Pulları bir yerə yığdılar. Kəbənin tikintisinə pul da ayırdılar. Məkkə hörmətliləri yenə bir yerə cəm oldılar.

– İndi nə edəcəyik? Kəbəni söküb yenidən tikmək üçün mal əldə edildi. İndi hansı işi edəcəyik?

Qureyşlilərin bir neçəsi:

– Qorxuruq ki, ilahilərimiz bu işə razı olmaya, bizə qəzəbi tuta, bizi oda ata. Bilmədən bu işləri görsək, səhv edə bilərik, yenə qəzaba düçar olarıq, – dedilər.

Bu qorxu hissi onları Kəbəyə əl vurmağa qoymurdu. Az bir müddət keçdi, elə bil ki sükutda cəsarət toplayırdılar. Yenə bir yerə yığıldılar. Müğiyrə oğlu Vəlid sükunəti pozaraq dilləndi:

– Ey qövmüm, nə edəcəyimizi bilmirik? Kəbənin sökülüb-tikilməsi dayanıb, nəyi və kimi gözləyirik?

Qureyşlilər:

– Xeyr, işi saxlamırıq. Amma qəzəbdən qorxuruq.

– Bizim sözlərimizdən ilahlar xəbərdardır. Bilirlər ki, biz Kəbəni sökəcəyik ki, daha əzəmətli yeni bina tikəcəyik. Kəbəni bu bərbad halda saxlamaq olmaz. Yenidən tikmək niyyətimizdə o bizə yardım edəcəkdir.

Müğiyrə oğlu Vəlid:

– Onda nə dayanmışıq, işə başlayaq. Öncə mən başlayıram.

Yenə hamı düşüncələr içərisində evlərinə döndülər.

Ertəsi gün bir də yığıldılar. Amma Hz. Məhəmməd Kəbəyə gəlməmişdi. Kəbeyi-şərifi sökməyə hazır olmamışdı. Xalq Vəlidin üzünə baxırdı:

– Ey seyyid, keç irəli birinci külüngü sən vur.

Müqiyrə oğlu Vəlid əlinə bir külüng aldı. Ayağını nərdivana basdı, elə bil ki qorxurdu. Kəbənin damına çıxdı. Üzünü göyə tutdu:

– Ya İlahi, Seyyidi, Mövlayi, sən yaxşı bilirsən ki, bizim işimiz və məqsədimiz nədir. Əzəmətin, hörmətin haqqı üçün, böyüklüyün, izzətin haqqı üçün, Rəsuli-aləmin izzi-qurbəti haqqı üçün və qüdrətin xatirinə bizim bu xeyrxah işimizi qəbul et, bizə qəzəblənmə. Qəzəb atəşində yandırma.

## *KƏBƏNİN DAŞLARINA KÜLÜNG VURULDU*

Vəlid bu duadan sonra səcdə etdi. Saqqalını damın üstündəki torpağa sürtdü. Durub külüngü əlinə aldı. Divarı uçurmağa başladı. Bunu görən xalq hərə bir tərəfdən sökməyə başladılar. Tez bir zamanda bünövrəyə kimi söküb daşlarını ayırdılar. Yenidən bünövrəni tikməyə başladılar.

Yeni təməl üzərində Kəbəni tikirdilər. Qureyşlərdən biri bünövrə daşına külüng vurdu. Daşdan bir işıq, bir qığılcım çıxdı. Bunu görən camaat qaçdı, dörd yana dağıldı.

– Bünövrə daşlarına dəyməyin, onlara toxunmayın.

O gecə Məkkə hörmətliləri bir razılığa gəldilər ki, bu gecə dincələk, sabah mühəndisləri də ora apararıq.

Ertəsi gün səhər tezdən Kəbəyə gələnlər bünövrə daşlarının üzərində böyük bir əjdaha ilanın yatdığını gördülər. Bu əjdahanı görən insanlar qaçıb aralandılar. Kimsə irəli keçməyə cürət etmədi. Xəbər Məkkəyə yayıldı. Uşaqdan boyüyə hamı – kişilər, qadınlar, qızlar dəstə-dəstə gəlib əjdaha ilana baxırdılar. Günorta, namaz vaxtı gələndə ilan hərəkətə gəldi. Bünövrə daşlarının üzərində sürünməyə başladı. Adamlar qışqıraraq qaçmağa başladılar. Basabasda bir xeyli insan yıxılaraq, ayaq altında qaldı. Hamı oradan çıxıb getdi. Qureyş ululları ağlaşdılar:

– Nə böyük xəta etdik ki, Kəbəni sökdük. Uca Allahın Kəbəsini sökmə-

yə heç ixtiyarımız vardımı? Kaş ki külüng vurmayaydıq.

Bu səbəbdən Əbdülmüttəliboğullarının, Haşimoğullarının ululları və Kəbənin başqa ulular Əbu Talibin yanına gəldilər:

– Ey Hərəm seyyidi, ey ümmət qazısı, bu gördüyümüz nədir? Bilmədən bu cür çətin işə başladıq. Əlimizlə başımıza kül, torpaq tökdük.

Əbu Talib göz yaşları tökdü. Hamı ona qoşulub ağlamağa başladılar. Hərəm Seyyidi:

– Ey Hərəm əhli, səs salmayın. Səbr edək, baxaq, görək sonrası nə olacaq. Həbibim, seyyidim Məhəmmədül-Əmin möcüzələr göstərməkdədir. Ancaq bir dəstə insan inanmır. O isə gecələr yatmır, gündüzlər yemir. Özü-özü ilə qalır. Görək o seyyidimizə nə işarə gələcəkdir.

Bundan sonra ora yığışanlar dağılışaraq hərə öz işinə getdi.

İbn İshaqdan belə rəvayət var ki, Kəbə bünövrəsinin üstündə ilan haqqında məkkəlilər belə söyləyərdilər. "Vaxtı ilə Kəbə dörd divardan ibarət idi. Üstü ortülməmişdi. İçində bir quyu qazılmışdı. Ziyarətə gələnlər bütün nəzir və hədiyyələri, qızıl-gümüşü, inci və qiymətli daş-qaşı ora atırdılar. Bütlərə verirdilər. Bir neçə dəfə xaricdən gəlmiş, o zəngin quyudan bəzi qiymətli əşyaları oğurlamaq istəyənlər divarlardan aşaraq içəri keçmişlər. Allah-təalanın əmri ilə oranın mühafizəsi bir ilana tapşırılmışdı. Kim oğurluq üçün divardan aşıb ora keçərdisə, ilan onu vurub öldürərdi". Bu ilan çox böyük, əjdaha boyda idi.

## *KƏBƏDƏKİ İLANI AĞ QUŞ CAYNAĞINDA APARDI*

Bir dəfə məkkəliləri çaşdıran möcüzəli hadisə baş verdi. Əjdaha Kəbə bünövrəsinin üstünə çıxıb özünü günə verirdi. Birdən-birə göydə bir böyük ağ quş peyda oldu. Enib özünü günə verən ilanı qapdı və yenidən havaya qalxdı. Gözdən itənəcən yuxarı qalxdı. Bu qureyşlilərə bəşarət xəbəri kimi gəldi. Hamılıqla çox sevindilər. Camaat:

– Kəbənin divarını tikib qaldıraq ki, əvvəlkindən hündür olsun. Sonra damını düzəldərik.

Çünki o zamanlar Kəbə divarların hündürlüyü bir adam boyu olurdu. Sonradan tikilən divar doqquz adam boyu hündürlüyündə tikildi.

İkinci hadisəni isə Əbül Həsən əl-Bəkri (Allah onlara rəhmət etsin) belə rəvayət etmişdir: İlan ilk dəfə qöründüyündən yeddi gün Qureyş ululları hər səhər gəlir, o ilanı görürdülər. Əjdaha isə bünövrənin üstündə gah sürünür, gah da özünü günə verirdi. Bir insan da qorxusundan ona yaxın gedə bilmirdi. Bu məsələni həll etmək üçün Qureyş ululları yığışdılar. Kəbədən söz

başlayanda hamı eyni sözləri deyirdi:

– Biz yazıq olduq, hörmətdən düşdük. Qureyşin ululuğunun, ərəblərin içərisində xüsusi hörmət edilməsinin səbəbi Kəbənin bizim tərəfimizdən idarə edilməsi idi. Sökülmüş Kəbəyə kim ziyarətə gələcək? Bütün Məkkə uluları və seyyidləri bir ilanın ucbatından zəlil, üzüqara və xəcalətli oldu.

Bəziləri isə danışdıqca ağlayırdı. Belə bir gərgin vəziyyətdə Müğirə oğlu Vəlid dedi:

– Ey ulular biz nə üçün bu qədər qayğılanlb, qüssələnirik, bilirsizmi? Ona görə ki, işimizi bilmirik.

Sonra o, Hz. Məhəmmədi xatırlayaraq əlavə etdi:

– Ey seyyidlər, durun çarəsizlərin əlacı, qaranlıqları işıqlandıran ulduzumuz, Həbibimiz Məhəmmədin yanına gedək, ayağına düşək. Bizim vəziyyətimizə çarəni ancaq o tapa bilər.

Qureyş uluları bu təklifi məqsədə uyğun saydılar. Əbu Taliblə birlikdə hz. Məhəmmədin yanına yollandılar. Allahın Rəsulu onları qarşıladı, salamladı, hamısına oturmaq üçün yer göstərdi. Sonra Vəlid ayağa qalxdı:

– Ey Həbibi, ey Seyyidi, ya Məhəmməd, sən bizim fəxrimizsən. Hamımızın sənə xüsusi hörməti vardır. Qədrimiz, qiymətimiz də sənin üzündəndir. Hamı bilir ki, sənin bərəkətin sayəsində hörmət və dövlət sahibi olduq.

Bu sözdən sonra seyyidlər dilləndilər:

– Ya Məhəmməd, heç rəvadırmı bizim Kəbəmiz belə viran vəziyyətdə qalsın? Özümüz də dost-düşmən yanında üzüqara, xəcil olaq? Bütün hörmətimizi, izzətimizi itirək? Belə hal davam edərsə, heç kim artıq bizə sayğı, sevgi göstərməz.

Əbu Talib:

– Ya Məhəmməd, bəlkə, Kəbənin bünövrəsindəki o əjdaha bizə göndərilmiş əzabdır? Kəbənin tikintisini bizmi davam etdirəcəyik, yoxsa bir başqasımı gələcək? Bu nə zamana kimi belə olacaq?

Hz. Məhəmməd:

– Əmi, Ulu Allah bütün qulları içərisində Qureyşi seçmişdir. Qureyşin içərisində isə Haşimoğullarını seçmişdir. Haşimoğullarından da Əbdülmüttəliboğullarını seçmişdir. Sizin zamanınızda sizdən əziz, sevgili qulları yoxdur. Amma buna baxmayaraq, sizin könlünüz saf deyildir. İçinizdə həsəd, təkəbbür və kin vardır. Qəlbinizdə bir-birinizə qarşı doğruluq yoxdur. O pis əxlaq sizin işlərinizin irəli getməsinə həmişə mane olur.

Qureyş uluları Hz. Məhəmmədin bu sözlərini bəyəndilər:

– Ya Həbibi, çox düzgün söyləyirsən. Bizim aramızda olan şər və pis düşüncələr nəfsimizlə əl-ələ verib dostluq edirlər. Sənin qarşında onlara qarşı vuruşmağı və aradan qaldırmağı söz veririk. Tövbə edirik.

Əbu Talib gələnlərin könlünü şad etdi, geri dönəndə dedi:

– Yaxında həbibim, seyyidim Məhəmmədin kəraməti, bərəkəti, möcüzəsi sayəsində bu çətinlikdən qurtularıq.

Ertəsi gün hz. Məhəmməd səhər tezdən Ulu Allaha dua etmək üçün qalxdı. Bu duaları onunla Rəbbi arasında olurdu. O, nəzir-niyaz etdi, hacət dilədi. Sonra əmilərini bir yerə cəm edərək birgə Kəbəyə getdi. Məkkə əhlinin hamısı böyükdən kiçiyə Kəbə ətrafına yığışdı. Hər kəs gözünü Hz. Məhəmmədə dikmişdi. O, əmilərinə döndü:

– Siz burada gözləyin.

Özü tək əjdaha- ilanın yanına doğru getdi. İlan tərpənməyə başladı. Quyruğunun üstündə qalxdı. Elə qalxdı ki, bir çoxları aralıda olmasına baxmayaraq, qaçdılar. Amma az sonra hz. Məhəmməd mübarək barmağı ilə işarə edərək ilan sakitləşdirdi. Ondan sonra Hz. Məhəmməd dodağını oynatdı. Göyə doğru baxdı, bu zaman göydən bir ağ quşun sürətlə şığıyıb gəldiyini gördülər. Quş enib ilanın başını caynağına aldı və yenidən göyə qalxdı. Göydə onu parça-parça edərək yerə atdı. Parçaları torpağın altına gömüldü.

## *İLANIN ÖLDÜRÜLMƏSİ HAQDA BAŞQA RƏVAYƏTLƏR*

Bir başqa rəvayətə görə: O, qartal şəkilndə gəlib, əjdahanı qapıb göyə qaldıran ağ quş bir mələkdir. Hz. Məhəmməd dua etdikdən sonra Ulu Tanrı əmr etdi ki, o mələk quş cismində gəlib əjdahanı öldürsün.

Daha bir rəvayət: Ağ quş əjdaha-ilanı götürüb öldürmədi, parçalamadı. Göyə qalxaraq buludlarda yox oldu.

Yenə başqa bir söylənən: “O, ağ quş səklində mələk əjdahaya gözətçi olmuşdur. O əjdaha qiyamət günündə yenə Məkkə və Taif arasında yenidən görünəcəkdir”.

Başqa söylənən: “Kəbənin bünövrəsində görünən əjdaha qeyb aləmindən gəlmiş, görünmüş və sonra da qeybə çəkilmişdir. Çünki Məkkə əhli bunları öz gözləri ilə görmüşdülər və Hz. Məhəmmədə öz minnətdarlıqlarını bildirmişlər”. Düzünü Allah bilir.

Quş ilanı aparan kimi Qureyş ululları Hz. Məhəmmədin yanına gəldilər. Yalvarıb-yaxardılar, səhvləri üçün üzr istədilər:

– Ya seyyidimiz, ya Məhəmməd, bütün Qureyş böyükdən-kiçiyə Kəbeyi-şərifin tikintisinə başlamaq üçün səndən göstəriş gözləyir. Elə olsun ki, burada çalışanlar dörd yerə bölünsün, hər ulu camaat öz tərəfini tiksin, narazılıq olmasın.

Sonra əlavə etdilər:

– Ya Həbibi, ya Məhəmməd, sən de, dörd seyyid kimdir? Hər birinin adı, tayfasını söylə? Hər uluya hansı divarı tikəcəkləri haqqında tapşırıq ver.

Hz. Məhəmməd əmisi Əbu Talibə döndü:

– Əmi, Əbdüмənaf, Haşim və Əbdülmüttəlib oğulları və sizə yaxın insanlar bu tərəfi tiksin. Bu tərəfdə Həcərüləsvəd olacaqdır.

Bundan sonra qalan Qureyşliləri tayfa yaxınlığını nəzərə alaraq üç yerə böldü. Hər birinə öz tərəfinin divarını tikməyi tapşırdı. Özü isə hər bir tikinti ilə məşğul olan hər dəstəyə kömək edirdi. O heç kimin götürə bilmədiyi ağır daşları görürüb gətirirdi. Ən ağır şeyləri hündür yerlərə daşıyırdı.

## *HƏCƏRÜLƏSVƏDİ KİM YERİNƏ QOYACAQ*

Kəbənin dörd divarı o səviyyəyə qaldırılmışdı ki, Həcərüləsvədi yerinə qoymaq məqamı çatmışdı. Amma bu şərəfli işi kim görəcəkdi? Kim yerinə qoyacaqdı?

Orada çalışan hər kəs bu şərəfə layiq olmaq istəyirdi. Elə burada dörd tayfa arasında fikir ayrılığı az qala davaya gətirib çıxaracaqdı.

Belə ki, Əbdüddaroğullarından Hişam oğlu İkrimə (Əbu Cəhlin qardaşı) deyirdi:

– Həcərüləsvədi yerinə qoymaq bizə vacibdir, çünki Kəbənin açarını saxlayan bizik. Qapını biz açıb-bağlayırıq.

Üməyyə oğullarından Abdullah oğlu Müğirə ortaya atıldı:

– Xeyr, Həcərüləsvədi yerinə qoymaq vəzifəsi və səlahiyyətləri bizdədir. Çünki hələ keçmiş zamandan ulu babalarımız Kəbənin işıqlarını yandıran olublar. Ona görə də bizim mərtəbəmiz daha yüksək və şərəflidir.

Bu sözləri eşidən Əbu Talib gülümsəyib sakitcə söylədi:

– Ay camaat, siz dəlimi oldunuz? Ağlınız haraya getdi? Əgər şərəf və mərtəbədən danışırsınızsa, biz Hərəm başçısı və ümmətin seyyidiyik. Ərəblər arasında məğrur, möhtərəm olan biz və atalarımızdır. Kəbənin bütün məsələləri, vəzifələri bizim üzərimizdədir. Kəbə məqamları və hökm vermə bizim əlimizdədir. Bundan artıq şərəf olarmı?

Əbdüşşəms oğlu Üməyyə oğlu Hərb sözə qarışdı:

– Sözün yaxşısını və düzünü Əbu Talib dedi. Həcərüləsvədi yerinə qoymaq onların vəzifəsi olmalıdır.

Yenə Qureyşin arasında səs-küy qopdu, dartışma başladı:

– Ey Hərb, sən niyə belə söz deyirsən? Onlar göydən düşüb, biz yerdən

çıxmışıq? Onlar da Qureyş oğullarıdır, biz də.

Ulular arasında söz davası, uşaqların bir-birinə daş atması ilə başladı. Savaş getdikcə güclənməyə başladı. Bir çoxları silah üçün evlərinə doğru qaçdılar. Silahlarına quşanmaq və az qala biri-birini qırmağa hazırlaşırdılar.

Ağıllı, düşüncəli Vail oğlu As evindən baxıb hadisələri izləyirdi. Az sonra yerindən qalxdı. Bəzilərinin silah götürüb Kəbənin yanına geri döndüyünü görüb onları çağırdı:

– Ey qovmümüz, bu nə işdir, Allahın evində savaşacaqsınız? Bir-birinizin qanını tökəcəksiniz, öldürəcəksiniz? Hamınız bir ananın oğullarısız. Yad deyilsiz, başqa bir yerdən gəlməmisiniz. Başqa yerdən gələnlər bunu görub bizə nə deyər?

Ona cavab verdilər:

– Əbdülmüttəliboğulları bizdən ulu olduqlarını deyirlər. Nə üçün? Az qalır gəlib üstümüzə çıxalar.

Vail oğlu As:

– Onların ululuğu Abdullah oğlu Məhəmmədin kəramətindəndir.

Qureyşlilər:

– Bəli, Məhəmməd kəramət sahibidir. Bizə nə? Biz nə üçün onların əmr, buyruq və sözlərinin altında olmalıyıq.

As yenidən cavab verdi:

– Ona görə ki, Məhəmməd Qureyşi çox yerdə bəlalardan qurtarıb.

Qureyşin qışqırıq salanları:

– Biz daha Haşimoğullarının ululuğunu qəbul etmirik.

Vail oğlu As:

– O halda bundan sonra başımıza başqa qəbilədən hakim, qazı gətirərik. Siz bunumu deməк istəyirsiniz?

Digərləri:

– Bu ola bilməz, Qureyşoğullarının üstündə başqa qəbilədən başçı qəbul edilməzdir.

O zaman As:

– O halda tədbir düşünərəm. Çünki bütün ərəblərin ulusu, etibarlısı Qureyş qövmüdür. Biz qureyşlilər bütün ərəblərin içində ən ağıllısıyıq. Bütün müqəddəslər, qəhrəmanlar Qureyşdəndir. Qureyş hər məsələdə ərəblərdən üstün və şərəflidir, mötəbərdir. Sizin bir-birinizə saygı göstərməyinz lazımdır. Niyə görə aranızda hörmətsizlik olsun, bir-birinizi bəyənməyəsiz? Düşmənlik toxumu səpilə? Qövmün bizim davamızdan üzülməsi rəvadırmı? O düz olar ki, biz hamıya ağıl öyrədərkən bizə başqaları ağıl öyrətsin?

Ulular irəli gəldi, səs-küy salanlar susdu:

– Ya seyyid, ya Əbu Ömər, ya Vail oğlu, bu dava-dalaşı sən yatırtdın,

bizi qövmümüzlə barışdırsan, çox yaxşı olar.

Qureyşlilər:

– Biz barışığı, aramızın yenidən yaxşılaşmasını istəyirik.

Vail oğlu As:

– Mən ancaq bir iş düşünürəm, məsləhətimi qəbul edəcəksinizmi?

Qureyş xalqı:

– Nə məsləhət görsən, qəbul edirik, çünki sən çox ağıllı insansan.

Vail oğlu As:

– Ya seyyidlər, üzümüzü şəhərə doğru tutaq. Gözləyək, görək kim şəhərdən Kəbəyə doğru gələcək. Fərq etməz qadın və ya kişi, qərib və ya başqa yerdən gəlmə. Ondan soruşarıq və dediyini hökm kimi qəbul edərik. Ondan qırağa çıxmayacağıq.

Bütün ulular bu sözə razı oldular. Əl tutdular. And içdilər ki, dedikləri sözdən dönməyəcəklər. Beləcə Vail oğlu As ilə birlikdə Haşim, Əbdülmüttəlib, Zührə, Əbduddar, Əbdüşşəms, Məxzum və Üməyyə oğulları bir yerə yığışdılar. Sıra ilə üzü şəhərə durub gözləməyə başladılar. Şəhərdən gələn birini gözlədilər.

Uzaqdan bir kişinin gəldiyini gördülər. Gözlərini yoldan çəkmirdilər. O isə tələsmədən gəlirdi.

Gələn yaradılmışların ən əzizi, axirət sultanı, dünyanın bəyi, dinin dirəyi, yolsuza yol göstərən, Rəsuli-Rəbbil-aləmin Abdullah oğlu Məhəmməd Mustafa (s.ə.s) idi. Buludlardan çıxmış bədrlənmiş aya bənzəyirdi. Üzünün nuru günəş nurundan aydın idi.

Vail oğlu As uzaqdan gələn Hz. Məhəmmədin mübarək camalını görən kimi onun qarşısına getdi. Arxasınca bütün Qureyşin böyük-kiçiyi gəldilər. Onlar:

– Ey Əmin, ey Sadiq, ya Əbülqasim, ya Məhəmməd, – deyə hərə bir tərəfdən onu səslədi.

Dedilər:

– Ey Məhəmməd, yenə Qureyş arasında şər işlər, fitnə baş alıb gedir. Həcərüləsvədı yerinə qoymaq məsələsində razılıq əldə edə bilmədiklərinə görə aralarında dava düşdü. Əgər qarşısı alınmasaydı, qılınclar işə düşəcəkdi. Sən bizə hakim ol, nə edək, sənin qərarın hamılıqla qəbul ediləcəkdir.

Bu məsələ ortaya çıxanda Hz. Məhəmmədin bibisi Aytikə xatunun yanına getmişdi. Orada ikən bu xəbər ona çatdı: “Ya Məhəmməd, Qureyş arasında möhkəm dava düşdü, hamı qılınc üçün evlərinə dağıldı. Geciksən, qılınclar işə düşəcək, özünu tez ora yetişdir”.

Hz. Məhəmməd:

– Ey Məkkə seyyidləri, ey Qureyş ululları, bu nə işdir, kiçik bir məsələni

həll edə bilmirsiniz, işi dava, – savaşa gətirib çıxarırsınız. Axı siz bir-birinizin qardaşısınız. Mübarək Hərəmin içərisində qılınc vuracaqsınız? Bir ananın oğulları deyilsinizmi? Qardaşlar arasında belə bir dava mümkünmü? Heç Ulu Tanrının qəzəbindən qorxmursuz?

Qureyşə bu sözlər çox təsir etmişdi:

– Ya Məhəmməd, sən gəldin, mübarək ayağın vaxtında yetişdi. Buyur söylə nə edəcəyimizi. Biz sənin qərarınla razıyıq.

Hz. Məhəmməd bir də soruşdu:

– Mənim dediyimə razı olacaqsınızmı?

Qureyş xalqı:

– Bəli, razıyıq, dediyinə əməl edəcəyik.

O zaman Hz. Məhəmməd çiynindəki örtüyü çıxardı, yerə sərdi. Əmisi Əbu Talibə:

– Əmi, Həcərüləsvədi mənə gətir, – dedi.

Əbu Talib cəld Həcərüləsvədi ipək parçaların arasında gətirdi.

Hz. Məhəmməd mübarək daşı əlinə aldı və aparıb çiynindən götürüb sərdiyi örtüyün üstünə qoydu. Dörd divarı tikən qəbilə ulularını dəvət etdi. Hər biri mübarək daş qoyulmuş örtüyün bir ucundan tutub qaldırıb yerinə qoymalı idi. Deməli, bununla da bütün Qureyş ulularının Həcərüləsvədi yerinə qoyduğu hesab ediləcəkdi. Dava məsələsi Hz. Məhəmmədin sayəsində çox asan həll olundu. Qılınclar işə düşmədi.

Bunun üçün örtüyü Haşimoğullarından Əbu Talib, Məxzumoğulları adından Hişam oğlu İkrimə, Üməyyə oğullarından Abdullah, Zöhrəoğullarından Əbu Vəqqas tutdu və qaldırıb divarın üstünə qoydular. Hz. Peyğəmbər əlinə alıb yerində düzəltdi və sonra hamıya təşəkkür etdi. Qureyşlilərin sevincinin həddi-hüdudu yox idi. Duaların sayı-hesabı bilinməzdi. Dedilər:

– Sən bu məsələni çox gözəl həll etdin. Sənə hamılıqla minnətdarıq.

Sonra tikintini davam etdirib tez bir zamanda daha səkkiz adam boyu qaldırdılar. Ümumi hündürlüyü doqquz adam boyu oldu. Deməli, Həcərüləsvəd bir adam boyunda oldu. Divar bitdikdən sonra üstünü ortdülər. Qapısını qoydular ki, sel basıb içəriyə girməsin. Bəzi illər çox yağışlar yağır, sellər gələrdi. İşlər bitdikdən sonra Kəbənin içini bəzədilər, lazımı əşyaları düzüb işləri tam bitirdilər. Kəbə ilk dəfə İbrahim Xəlil peyğəmbərin vaxtında onun tərəfindən tikilmişdi. İkinci dəfə sökülüb tikilməsi isə Hz. Məhəmmədin vaxtında oldu. Bu tikintidə o, bütün güc və bacarıqlarından istifadə etdi. Daş daşıdı, palçıq qarışdırdı, hamı ilə birlikdə yuxarı daşıyırdı. Bütün divar tikən qruplara yardım edirdi. Bəziləri "Öz əqrəbana kömək et", deyəndə cavabı bu olurdu: "Mən Kəbə tikintisinə yardım edirəm, əqrəbama başqa işlərdə kömək edərəm".

Kəbənin sərəfi, ucalığı iki ulu Peyğəmbərin bərəkətində idi.

Kəbənin tikintisi tam bitdikdən sonra Qureyşlilər üçün sevincli günlər başladı. Bir neçə gün bayram etdilər. Yeni və hündur tikilmiş Kəbənin şöhrəti qısa bir zamanda bütün Ərəbistana yayıldı. Yenə ərəb tayfaları axın-axın gəlib ziyarət edirdilər. Yeni, xüsusi zövqlə tikilmiş Kəbəyə baxıb heyran olurdular. Gələnlərin sayı artdıqca alış-veriş artır, ticarətdə də əsl canlanma başlayırdı. Qureyşlilərin çox hissəsi ticarətlə məşğul olduğundan çox sevinirdilər. Hamılıqla hz. Məhəmmədin tikinti vaxtı yaranmış çətin vəziyyətlərdə necə gözəl çıxış yolu tapmağından danışır, ona dua edirdilər.

Amma hz. Məhəmmədin tərifini eşidəndə ürəyinə od düşüb yanan Əbu Cəhl vardı. O, qəlbindəki yanğını hec cür söndürə bilmirdi. Bir gün yolda Xəttab oğlu Öməri görüb özünü ona çatdırdı:

– Ey bacımın oğlu Ömər, sən Abdullah oğlu Məhəmmədin bütün xalqın dilində olmasına, möcüzə və kəramətləri haqqında deyilənlərə necə baxırsan?

Ömər Əbu Cəhlin bacısı oğlu idi, amma ikisi də eyni yaşda idilər. Ömər ticarətlə məşğul olduğundan daima yollarda, səfərlərdə olardı. Evində və şəhərdə çox az olurdı. Yaxın günlərdə evləndirmişdilər. Ona görə də hələ Məkkədə qalmış, səfərə çıxmamışdı. Hz. Məhəmməd haqqındakı Əbu Cəhlin sualına Xəttab oğlu Ömər belə cavab verdi:

– Ay dayı, Abdullah oğlu Məhəmmədin ağıllı olduğu hamıya məlumdur. Gözəl, hərtərəfli əxlaqı, möcüzələri, kəramətləri xalqın dilindədir. Əgər axtarsaq, onda belə bir nöqsan tapa bilmərik. Ey Əbu Cəhl, hər ər insan özünü ona bənzətməli, onu nümunə götürməlidir. Dünyada Abdullah oğlu Məhəmməd kimi olmağa, yaşamağa çalışmalıdır.

Bu sözləri eşidən məlun Əbu Cəhl ona tərs-tərs baxıb Məkkənin izdihamında yox oldu.

## *UKAZ MEYDANINDA BAZAR*

Aradan bir neçə il keçdi. Həcc mövsümü vaxtı çatırdı. Zilqədə ayında Nəhlə və Məkkə arasında, Məkkəyə daha yaxın bir bazar olurdu. Buna Suki Ukaz yarmarkası deyilirdi. Çox izdihamlı və qarışıq bir bazardı. Hər tərəfdən insanlar gəlir, alış-veriş edərdilər. Bu da ticarət üçün çox əlverişli idi. Bəzən Hz. Məhəmməd də bura gəlir, alıb-satardı.

Növbəti Həcc mövsümündə də Suki Ukkazda yenə bazar qurulmuşdu. Hz. Məhəmməd Əbu Talıblə ora gəldi. Yarmarka Məxzumoğulları qəbiləsindən, yaxından-uzaqdan gələnlərlə dolu idi. Məxzumoğulları arasında ca-

hil, şərin birisi var idi. Adı Cüayd oğlu İsri, özü də səfeh, arsız, namussuzun biri idi. Yox yerə dava salar, ara qarışdırar, xalqı incidər, əsl mənada məlundu. Əbu Talib Məkkənin içində belə bir şərin olmağını istəmədiyi üçün ona şəhərdə yaşamağı qadağan etmişdi. Ona görə də kənarda sürgündə yaşayırdı. O gün Sasaa oğlu Əmir qəbiləsindən də xeyli adam gəlmişdi. Aralarında bir qadın vardı. Adı Elatrifül Əmiri qızı Cümmanə idi. Qadın olmasına baxmayaraq, kişilərdən heç geri qalmırdı. İgidliyi ilə ad qazanmışdı. At üstündə ikən adlı-sanlı igidlər belə ona rəqib ola bilmirdilər. Üzü gözəl, qəlbi açıq xanım idi. Cüayd oğlu İsri Cümmanəni görüncə onunla zarafat etmək istədi. Qadın və kişilərin dolu olduğu bir yerdə qadının başının işə qarışdığını görən məlun ona yaxınlaşdı. Qəfildən örtüyünün ətəyini qaldırıb başına keçirdi. Kəmərdən aşağı hissəsi lüt, məhrəm yerləri açıq qaldı. Oadın rüsvay oldu. Onun qışqırığı ətrafa yayıldı. Ətrafdakılar gülüşdülər. Onun səsini eşidənlər Əmiroğulları ulularının yanına qaçdılar və xəbərlədilər:

– Cümmayəni Məxzumoğullarından İsri rüsvay etdi. Bazar yerində ətəyini qaldırıb başına keçirdi. Məhrəm yerləri açıq qaldı. Namusuna qəsb etdi.

Əmiroğulları bu xəbəri eşitdikdə hamısı silahlandı. Bazardan kənara çıxdılar. Qureyşoğulları da yığışdılar. Ancaq Əbdülmüttəlib və Əbdümənafoğulları işə qarışmadılar. Qureyşdən Məxzum, Əbdüddar, Əbdüşşəms, Üməyyə və Zöhrəoğulları başda Əbu Cəhl olmaqla Əmiroğullarının qarşısında cərgə ilə düzüldülər. Cümmanə öz qəbiləsinin başçısı Əmir oğlu Xəttabın yanına gəldi:

– Ya məlikəz- zaman, əmr edin ki, mənim üçün heç kim savaşa başlamasın. Boş yerə insanların qanı tokülməsin. Mən dava paltarımı geyərəm, meydana öz düşmənimlə üz-üzə çıxaram. Baxarıq, kim qalib gələcək? Zəfər kimindir, məğlubiyyət kimdə olacaq? Şərəfsizi məğlub etməliyəm.

Cümmanənin bu sözü bütün ərəb hörmətlilərinin xoşuna gəldi.

– Cümmanə xatun çox gözəl və ağıllı söz dedi, – söylədilər.

Cümmanə həmən atının belinə sıçradı. Silaha quşanıb meydana atıldı:

– Cüayd oğlu İsri hazırsa, meydana gəlsin, – deyə bağırdı.

İsri bunu eşidib silahlandı və meydana gəldi.

İndi qadın və kişi, iki düşmən bir-birinin üstünə atıldılar. Qılınc səsləri aləmi bürüdü. Vuruşdular, amma qalib olmadı. Onda Cümmanə xatun:

– Ya İsri, bu qədər insanın qarşısında vuruşmaq olmur. Gəl, heç kəsin olmadığı bir yerə gedək vuruşaq. Kimsə görməsin.

İsri buna razı oldu. İkisi getdi, görünməz olduqları yerə çatanda yenidən vuruşmağa başladılar.

Əmir oğlu Xəttab:

– Sizdən bir neçə kişi getsin, orada hakim olsun.

Əbu Talib:

– Savaşan iki adamın arasına girmək olmaz. İkisi də nə edirlərsə, etsinlər. İstəyir şər, fitnə qoparsın. Mən bu işi Məhəmmədə xəbər verim. Getsin iki düşmən ustündə hakim olsun.

Onlar Hz. Məhəmmədin yanına gəldilər:

– Ya Seyyidi, ya Məhəmməd, səndən bir xahişimizi yerinə yetirməyi istəyirik. Sən iki düşmənin hakimi ol.

Hz. Məhəmməd bu izdihamın xahişini yerinə yetirmək üçün atına mindi. Atını qadınla kişinin vuruşduğu yerə doğru çapdı. Oraya yetişəndə gördü ki, İsri Cümmanəni yorub, az qalıb məğlub edə. Cümmanə xatun Hz. Məhəmmədi görüncə vuruşu buraxdı. Hz. Məhəmmədə doğru irəlilədi, dedi:

– Ey üzü nur, ey səadət ulduzlu Həbib, mənə kömək eylə, çox güc itirdim, yoruldum. Bu zalımın əlində aciz qaldım.

Hz. Məhəmməd qadının düşməninə bir nəzər saldı. Allahın Rəsulunun bu nəzərindən Cüayd oğlu İsrinin ağlı başından getdi. Yerə yıxıldı. Cümmanə xatun da atından endi, düşmənini yaxşıca bağladı. Gəlib Hz. Məhəmmədin ayaqlarına düşdü. Ağladı və dedi:

– Ya Məhəmməd, mənim atam İtrif bir kahin idi. Bir gün ov edərkən rast gəldiyi canavar dilə gəlib insan kimi danışdı: “Ey kahin İtrif, kahinlərin dövrü keçdi. Bundan sonra dövr Abdullah oğlu Məhəmmədin zamanıdır. Artıq nəbilik dəvətinin vaxtı çatır. Görüləcək bir iş var, Məhəmmədin dediklərinə inanmaq və əməl etmək”. Atam deyilənə inanmır, heyvancığazı oxla vurur. Elə həmən anda iki əli quruyur. Ağlaya-ağlaya evə donür. Mən atamın yeganə uşağı olmuşam. Nə qardaşım, nə də bacım var. Canavardan eşitdyi sözləri mənə dedi. Sonra:

– Ey Cümmanə qızım, mənim işim bitdi, həyatım da sona çatır. Vaxtım yetişir. Əgər sən Abdullah oğlu Məhəmmədə yetişsən, onun dediklərindən qırağa çıxma. Onu görməyə çalış.

Ey Məhəmməd, mənim Suki Ukaz yarmarkasına gəlməyimin səbəbi də sənsən. Mübarək camalını görməyə gəlmişdim. Səni təkcə görmədim, hətta söhbət də etdim, bu mənim üçün böyük xoşbəxtlikdir.

Hz. Məhəmməd Cümmanəyə cavab verdi:

– Ya Cümmanə, nəbadə könlündəki sirri kiməsə deyəsən. Onu sirr kimi saxla, dəvət vaxtı gələnə kimi kimsəyə söyləmə.

Döndülər. Cümmanə İsri qolları bağlı halda Əmiroğullarının yanına gətirdi.

Qureyşlilər Cümmanənin İsri əsir edib gətirdiyi xəbərini alınca hamısı Əmiroğulları ilə savaşmaq istədi. Təkrar silaha qurşandılar. Ancaq axşam olmuşdu. Döyüşməyi sabaha saxladılar. Gecə oldu, qaranlıq düşdü. Amma axtardıqları zaman İsri və Cümmanənin qeyb olduğunu gördülər. Əmiroğullarının başçısı Xəttab Əbu Talibə: "İsri və Cümanə gözdən itdilər", – deyə xəbər göndərdi.

Qureyş uluları Hz. Məhəmmədin yanına gəldilər. Yalvardılar:

– Ya Məhəmməd Əmin, bunları geri gətirməyi ancaq sən bacararsan.

Hz. Məhəmməd yenə atına mindi. Gecə qaranlıq olmasına baxmayaraq, onun üzünün nuru önünü tam işıqlandırırdı. Getdiyi yol gündüz kimi aydın idi.

Hz. Məhəmməd yola çıxdıqdan sonra Əvvam oğlu Zübeyr əlli atlı ilə arxasınca çıxdı:

– Gecə qaranlıqdır, Həbibimiz Məhəmmədə bir ziyan dəyər, – dedilər.

Hz. Məhəmməd hara gedirdisə, onlar da onu təqib edirdlər. Cümmanə İsri ilə hara getmişdi? Bu qaranlıqda qəhrəman qadın düşmənini götürüb öldürmək istəyirdi. Amma bağları açılmış İsri qaçıb qurtulmuşdu. Cümmanə onun ardına düşüb təqib edirdi. Qaranlıqda İsrinin yolu dağa düşmüşdü. Dağın üstündə Əvvam oğlu Zübeyr əlli atlısı ilə durmuşdu. Ətrafa baxırdılar. İsri insan səslərini eşitdikdə geri döndü. Geri dönəndə Cümmanəni gördü. İndi döyüş yenidən başladı.

Yenidən tutuşdular. Kişi qadına var gücü ilə hücum edir, zərbələr endirirdi. Cümmanəyə qalib gəlməyə başlamışdı. O, düşmənini tutmuş, əllərini bağlamış, boynuna ipi samışdı. İndi Cümmanəni kişi düşməni tutmuş, öldürməyə aparırdı. Yol işıqlaşdı, yolun ortasında Hz. Məhəmmədi gördülər.

Cümmanəni bu halda görən Hz. Məhəmməd bir dua oxudu. Cümmanənin əlindəki iplər açıldı. Bu dəfə qadın İsrinin üstünə atıldı, onu tutub yerə yıxdı. Aman vermədən boğazını kəsdi. Hz. Məhəmmədin hüzurunda o şərəfsizi cəhənnəmə yola saldı. Bu zaman Zübeyr atlıları ilə Məhəmmədin parlaq üzünü görüb ona yaxınlaşdılar. Hz. Məhəmmədə:

– Ya Həbibi, bu iki düşməndən hansı günahkardır?

Hz. Məhəmməd:

– Günahkar İsridir.

Bu sözləri eşidəndən sonra hamı dağılıb evinə getdi. Ertəsi gün səhər Qureyş uluları və Əmiroğulları bir yerə toplandılar. Onlar soruşdular:

– Ya Məhəmməd, iki rəqibdən günahkar kimdir?

Hz. Məhəmməd:

– Günahkar İsridir. Artıq barışın. Belə məsələlərə görə, iki tərəfin döyüşməsi, yeni itkilər verilməsi düzgün olmaz.

İki qəbilənin ululari barışdıqdan sonra birlikdə Məkkəyə döndülər, sakitləşib öz işləri ilə məşğul oldular.

## *Hz. MƏHƏMMƏDDƏ PEYĞƏMBƏRLİK NİŞANƏLƏRİNİN GÖRÜNÜŞÜ*

Günlər, aylar, arxasınca illər ötüb keçmişdi. Hz. Məhəmmədin həyatının on beş ili də beləcə keçmiş və qırx yaşına çatmışdı. Bu zamana qədər müxtəlif sərəncam, kəramət və möcüzələri ilə xalqı özünə daha çox bağlamışdı. Heç zaman əlindən pislik gəlməmişdi, heç kimə bir yamanlıq etməmişdi. Qırx yaşına kimi ondan inciyən, küsən olmamaşdı. Əlindən insanlara xeyir dəymiş, ziyan olmamışdı. Hz. Məhəmməd daima xeyir işlər görür, onun çox yaxşı əxlaq və hörmət sahibi olduğu dillərdə əzbər olmuşdu. Danışığı xoş, sözləri ürəyəyatan idi. Ağıllı insanların yolu ilə irəliləyir, alimlər, ariflər kimi hərəkət edirdi. Xalqı dəlil və sübutlarla başa salırdı. Əvvəllər kasıb olub. Hər şeydə səbrlə hərəkət edərdi. Yaşlılara xidmət və hörmət edər, kiçiklərə ədəb, tərbiyə öyrədərdi. Xədicə xatunla evləndikdən sonra o mübarək qadın bütün dövlətini, mal-qarasını, mülkünü, varlığını hz. Məhəmmədə bağışlamışdı.

Hz. Məhəmməd tam iyirmi üç il hz. Xədicə ilə birlikdə yaşadı, bir yastığa baş qoydu. Onun malına sahib olduqdan sonra imkansızlara kömək etdi. Yetimləri gözündən uzaq etmədi. Əminliyi və mərdliyi dillərdə dolaşdı.

Artıq peyğəmbərlik nişanələri görünməyə başlamışdı. Səmavi kitablarda yazılan əlamətlər və nişanələr görünürdü. Əlbəttə, hamısını və düzünü ancaq Allah bilir. Amma Əbül Həsən Bəkri (Allah ondan razı olsun) Siyarün-Nəbini toplayıb yazdı. İshaq oğlu Məhəmməd və Hişam oğlu Əbdül Məlik(Allah onlardan razı olsun) yazıqları Siyarün-Nəbinin rəvayətlətini ümumiləşdirib bu üç əsər əsasında Mustafa Zərir türkcədə (Şərqi Anadolu) Oğuz türkcəsində qələmə aldı.(İkinci cild əlyazması səh. 262 №4271 Süleymaniyyə kitabxanası).

## NƏBİLİK NİŞANƏLƏRİ

Hz. Məhəmməd qırx yaşına çatanda nəbilik əlamətləri, peyğəmbərlik nişanələri ilə qarşılaşdı. Mübarək qəlbi, gizliliyi, təkliyə çəkilməyi və izləməyi sevərdi. Ruhu artıq yığıncaq və toplantıları sevmirdi, boş söhbətlərə nifrət edirdi. Ruhu ilə əlaqə qurub təklikdə düşüncələrə dalmaq, danışmaq istəyirdi. Uzun illər məskəni olmuş Hira dağında isə ildə bir ay ibadətə çə-

kilirdi. Orada gecə-gündüz oturur, bəzən heç evinə də getmirdi. Bu günlərdə etdiyi müxtəlif ibadət və itaətləri Ulu Tanrıdan başqa heç kim bilməzdi. Bunlardan bir qismini səhabələrlə söhbətdə danışar, onlar isə yazıya köçürürdülər.

## *Hz. MƏHƏMMƏD İLAHİ YUXULAR GÖRÜR*

Qırx yaşına girəndən sonra Hz. Məhəmməd ilahi yuxular görməyə başladı. Bu yuxularda nəbilik mərtəbəsindən nişanələr görünürdü. Əcaib-qəraib nişanələr idi bunlar.

Hz. Məhəmməd gecə evində yatmaqdaydı. Bir yuxu gördü. Röyada evin damının götürüldüyünü, ağ gümüşdən düzəldilmiş nərdivanın şərqi, qərbi nurlandırdığını gördü. Sonra iki gözəl üzlü kişi hz. Məhəmmədə yaxın gəldilər. Birisi onun döş qəfəsinin sümüyünü çıxardı. Əlini içəri salıb ürəyini bayıra çıxartdı. Sonra "Həzə qəlbi təyyib" dedi və ürəyini təzədən yerinə qoydu. Əlini hz. Rəsulun sinəsinə çəkdi. Hər şey düzəldi, heç bir ağrı, sızıldamaq hiss etmədi. Sonra onlardan biri:

– Cəbrail, Cəbrail, Cəbrail, – deyərək səsləndi. Bu səsə hz. Məhəmməd qəfil yuxudan oyandı. Yuxusunu hz. Xədicəyə danışdı.

Xədicə xatun:

– Yaxşı və xeyirli bir yuxu görmüsən, ya Məhəmməd, – dedi. Sonra sevimli Həbibinə artıq bir söz demədi. Cariyələrindən birini yanına alıb evdən çıxdı. Tanıdığı bir xristian rahibin yanına getdi. Ondan soruşdu:

– Ya rahib, mənə doğrusunu söylə. Cəbrail kimdir? Kimin adıdır?

Rahib cavab verdi:

– Cəbrail bir mələyin adıdır. Ulu Tanrı tərəfindən göndərilmiş peyğəmbərlərə vəhy gətirir. Müqəddəs kitabları peyğəmbərlərə bildirən Cəbraildir.

Xədicə xatun ona öz təşəkkürünü bildirib yanından çıxdı.

Müğirə oğlu Vəlidin Ayaş adında bir köləsi vardı. Xristian dinini yaxşı bilir, elmli idi. O gün Xədicə xatun onun da yanına getdi:

– Ya Ayaş, Cəbrail kimdir? – dedi.

O da rahibin dediklərini təkrar etdi. Cəbraildən xeyli danışdı.

Xədicə xatun oradan əmisi Nofəl oğlu Vəraqənin yanına tələsdi:

– Əmi, Cəbrail kimdir? Kimin adıdır?

Vəraqə:

– Qüddusə, Qüddusə, mübarək və müqəddəs olsun, mübarək və müqəddəs olsun, – deyərək Cəbrail Əleyhissalamı uzun-uzadı ona anlatdı.

Çünki Vəraqə Tövrat, İncil, Zəbur kimi müqəddəs kitabları çox yaxşı bilirdi. İbrahim Xəlil kitabını oxumuşdu. Ulduzları oxumaq elmində də çox

qabağa getmişdi. Məkkəlilərin dinini də qəbul etmirdi, dindar deyildi. Hətta Hz. Ömərin qohumu olan Əmr oğlu Zeyd ilə yaxın dost idi. Bir gün bütlərə ibadət edərkən Zeyd Vəraqədən soruşmuşdu:

– Ya Vəraqə, bu ibadət etdiyimiz nə dindir? Ömrümüzü niyə boş yerə sərf edirik?

Vəraqə:

– Qardaş, mən də sənin kimi fikirləşirəm. Daima bunu düşünürəm. Bu əziz və qiymətli ömrümüzü nəyə sərf etdiyimizi anlamıram, bilmirəm.

Zeyd:

– Bəli, haqlısan, − dedi. Hələ bu bütlərə bax, özümüz düzəldirik, sonra da onlara ibadət edirik. Bu düzəltdiymiz şeylər niyə ilahiləşir ki, ona ibadət etməli oluruq, heyrətlənirəm,təəccüb edirəm.

Vəraqə:

– Ya Zeyd, doğru söz dedin. Mən də sənin kimi düşünürəm.

Zeyd bir az fikrə dalaraq:

– Ya Vəraqə, bizə bir din tapmaq gərəkdir, Haqq dini olsun.

Vəraqə:

– Qardaşım Zeyd, gəl yəhudi olaq. Təklif budur. Tövratı yenidən oxuyaq. Sözləşib ikisi bir ittifaq yaratdılar. Tövratı oxuyub öyrəndilər. Bütün elminə agah oldular. Amma Musa dinini Zeyd bəyənməmişdi. Dedi ki:

Ya Vəraqə, mənım istəyim bu din deyil.

Vəraqə:

– Onda sən İncili oxu, anla, − dedi.

Zeyd:

– Ya Vəraqə, mənə o dini bilən adamın  yerini-yurdunu göstər.

Vəraqə də onu Diyarbəkrdə olan bir rahibin yanına yönəltdi. Bərabər qalxıb Diyarbəkrə yollandılar. Bu rahibin məbədi Nusaybində idi. Dəvə belində Şama gəldilər. Vəraqə burada qaldı və dedi:

– Ya Zeyd, sən Nusaybinə get. Əgər rahibin yanına gedərsənsə, o sənə doğru dini bildirər və ya bilən bir insanın yanına yönəldər.

Əmr oğlu Zeyd çölləri, dağları aşıb Nusaybinə gəldi. O, rahibin yanına gedib onunla görüşdü, söhbət etdi. Bir müddət xaçpərəst dinini öyrəndi. Sonda bu dini də bəyənmədi.

– Ya rahib, bu din mənim arzuladığım din deyil.

Rahib:

– Anladım, sən İbrahim Xəlilin dinini istəyirsən.

Əmr oğlu Zeyd:

– Bəli, mən o dini istəyirəm. Mənim arzum o dindir.

Rahib o zaman:

– O din İslam dinidir, − deyə cavab verdi.

Zeyd:

– Mənim diləyim o dindir, − dedi.

Onun inadını,israrını görən rahib:

– Elə isə sən Məkkə şəhərinə get. Bu dinin peyğəmbəri yaxın bir zamanda peyda olacaqdır. Həmin Peyğəmbər səni istədiyin o dinə dəvət edəcəkdir.

Əmr oğlu Zeyd Nusaybindən Məkkəyə döndü.

Zeydin Səid adında böyük oğlu vardı. Bir gün oğlunun ən böyük bütü ziyarət etdiyini görən Zeyd soruşdu:

– Ey Səid, ey oğul, büt nədir ki sən ona ibadət edirsən?

Səid cavab verdi:

– Bizim əlimizdən çıxan bütdür.

Zeyd:

– Bu bir yazıqlıq deyilmi, Adəm oğlu öz əli ilə düzəltdiyi bir şeyə Tanrı deyib ibadət etsin?!

Səid bu sözü eşitdikdə əlini bütə sürtməkdən çəkindi. Bir daha büt olan tərəfə getmədi. İslam dini aşkar olanda iman gətirdi, müsəlman oldu.

Əmr oğlu Zeyd bir gün Səidin anasının bir ərəb qəbiləsindəki əmanətlərini almağa getmişdi. Əmanətləri alib geri dönəndə çöldə qarşısına həramilər çıxmış, onu qətl etmişdilər. Vəraqə dostunun ölüm xəbərini eşidib çox məyus olmuşdu.

Vəraqə və dostu Zeyd (Hənif) İbrahim dini əsasında olan İslam dininə meylli insanlardan olmuşdular. Bu dörd insan İslam dini yaranandan öncə Allahın birliyinə inanıb vəfat etmişlər; Əmr oğlu Zeyd, Nofəl oğlu Vəraqə, rahib Buhayra, Səid oğlu Qeys. Həbəş məliki Nəcaşi haqqında da deyilir ki, ölümündən öncə o da müsəlman olmuşdur. Cəbrail hz. Məhəmmədə "o islam ümməti olaraq öldü, onun üçün namaz qıl" xəbərini çatdırmışdır.

## *VƏRAQƏ CƏBRAİLİ ANLADIR*

Vəraqə Hz. Xədicəyə belə dedi:

– Cəbrail bir mələkdir ki, Hz. Musaya və Hz. Məhəmmədə görünmüşdür.

Onda Xədicə xatun əmisinə dedi:

– Əmi, ərim Hz. Məhəmməd Cəbraili gördüyünu mənə söylədi. Həbibimdə əcaib nişanələr, qəribə işarələr görünür. Bu nədir, xeyir ola?

O il Ramazan ayı gəlmişdi. Haqq peyğəmbərlərinə peyğəmbərliyin mübarək Ramazan ayında verildiyini din alimləri bilirdi.

Ramazan ayının on dördü oldu. Hz. Məhəmməd ayın ilk günündın Hira dağında bir mağarada tənha yaşamağa getmişdi. Yalqız həyat keçirir, hər gün, hər saat ibadətlə məşğul olurdu. O gün Nofəl oğlu Vəraqə qardaşı qızı Hz. Xədicənin evinə gəlmişdi. Ona:

– Ya seyyidə, ya Xədicə, bu gün Ramazan ayının on dördüncü günüdür. Bu zamanda bir kişiyə risalət xələtı geydirilir, peyğəmbər edilir. Bəlkə, ya Xədicə, o peyğəmbər sənin halalın Abdullah oğlu Məhəmməddir. Çünki nəbiliyə o layiqdir. Ulu Tanrının vəhyi ona yaraşır.

Vəraqə sonra Xədicəyə:

– Ya Seyyidəm, bu üç günün içərisində Məhəmməddə nə nişanələr görür, nə sözlər eşidirsənsə, o xəbəri həmən mənə çatdır.

## *CƏBRAİL Hz. MƏHƏMMƏDƏ GÖRÜNÜR*

Ramazan ayının on beşinci gecəsi idi. Hz. Məhəmməd yuxu görürdü. Yuxuda bir mələk göydən enmişdi. Bir qanadı şərqdə, o biri qanadı qərbdə idi. Gəzib gəlib, yerlə göy arasında durdu. Sonra Hz. Məhəmmədi bu cür çağırdı:

– Ey Məhəmməd! Əntə Muhəmməd Rəsulullah, ənə Cəbrail, – dedi. (Sən Allahın Rəsulu Məhəmmədsən, mən də Cəbrailəm.)

O anda bu böyük heybətdən Hz. Məhəmməd oyandı. Qorxmuşdu. Həmən Xədicə xatunun yanına getdi. Xədicə xatun Hz. Məhəmmədin mübarək üzünu görəndə onun həyəcanlı olduğunu anladı. Axı Məhəmmədə nə olmuşdu?

O, Hz. Məhəmmədin qarşısına qaçaraq:

– Ya Məhəmməd, ya Həbibi, ey gözümün işığı, yenə sənin gözlərinə nə göründü? Halın dəyişib sanki ayrı və uzaq bir aləmdə yaşayan kimisən, –dedi.

Kainatın fəxri peyğəmbərimiz:

– Ya Xədicə, bu gecə bir yuxu gördüm. O yuxunun içində göy üzü bu dan yeri kimi açılmışdı. Hər tərəf aydın olmuşdu. Sonra göy yarıldı. Göydən aşağı bir mələk endi. Göylə yer arasında durdu. Mələyin qanadı yerlə göy arasında şərqdən qərbə kimi uzanmışdı. O mələk mənə belə nida etdi:

– Ey Məhəmməd! Əntə Muhəmməd Rəsulullah və ənə Cəbrail, – dedi. (Sən Allahın Rəsulu Məhəmmədsən, mən də Cəbrailəm.)

Həmən yuxudan oyandım. Qorxmuşdum. Yanına gəldim. O mələyin

heybəti məni bu hala saldı.

Bu sözlərdən sonra Xədicə xatun Məhəmmədi sakitləşdirdi. Geyinib əmisi Vəraqənin yanına getdi. Ona:

– Əmi, Həbibim Məhəmməd yenə bir yuxu gördü. Ona Cəbrail görünmüş və “Ey Məhəmməd! Əntə Muhəmməd Rəsulullah, ənə Cəbrail”, − demişdir.(Sən Allahın Rəsulu Məhəmmədsən, mən də Cəbrailəm)

Vəraqə:

– Qüddus! Ey Xədicə, o Musaya gələn Namusi-Əkbərdir. Həqiqətən, Məhəmmədin gördüyü Cəbrail əleyhissəlamdır. Musa peyğəmbərə vəhyi o gətirmişdi. Tövrat kitabını da o öyrətdi. Yenə Cəbrail əleyhissəlam Məryəm oğlu İsaya İncili gətirmişdi. Bütün peyğəmbərlərə Ulu Tanrıdan vəhyi gətirən Cəbraildir.

Vəraqə bir an susdu. Sonra çox qətiyyətlə Xədicə xatuna bunu bildirdi:

– Ya Xədicə, həqiqət budur ki, Abdullah oğlu Məhəmməd xatəmür-rüsul (peyğəmbərlərin sonuncusu) olacaqdır. Bu o rəsul olacaqdır ki, günahları bağışlamaq xahişi onun mərtəbəsindədir. Özünü qılıncla bildirəcək.

Xədicə heyrətlə əmisinin sözlərinə qulaq asır, içində peyğəmbərlərin sonuncusunun halalı olmaq iftixarı yaranırdı. Sinəsi həyəcandan qalxıb-enirdi. Xədicə xatun əmisinə təşəkkür edib evinə döndü. Hz. Məhəmmədin yanına gəldi:

– Ya Həbibim, ya seyyidim, əmim Vəraqə dedi ki, Hz. Məhəmməd sabah Kəbəyə təvafa gəlsin, ona deyiləsi sözüm var.

Hz. Məhəmməd ertəsi gün Kəbəyə təvafa getdi. Vəraqə ilə görüşdu. Vəraqə onu bir xəlvət yerə çəkdi. Yalnız qaldılar. O zaman ixtiyar insan Hz. Məhəmmədin ayağına düşdü:

– Ey Həbibi, seyyidi əvvəlin və axirin, rəsuli-Rəbbil-aləmin gerçəkdən sən olacaqsan.

Vəraqə hz. Məhəmmədin rəsul olacağı xəbərinin Musa və İsa peyğəmbərlərdən gəldiyini, son peyğəmbər olacağı xəbərini də verdi.

Vəraqə Hz. Məhəmmədə dedi:

– Ya Məhəmməd, sənə xoş xəbər olsun ki, bu Ramazan ayında peyğəmbərlik vəhyi libasını geyəcəksən. Sən din dəvətinə başlayacaqsan.

Hz. Məhəmməd soruşdu:

– Ey əmi, ey Nofəl oğlu! Sənə nədən məlum oldu ki, mənə vəhy enəcəkdir?

Vəraqə cavabında:

– Ya Həbibi, ya Məhəmməd, bundan məlum oldu ki, Məkkədə Haşimoğulları içindən zühr edəcək axırzaman peyğəmbəri filan zaman, filan il, fi-

lan ay və tarixdə məlum olacaqdır deyilmişdi. Bütün səmavi kitablarda peyğəmbərin sifəti, surəti və əxlaqı yazılmışdır. İndi dedikləri il gəldi. Gözlənilən tarix də gəldi. Siz doğuldunuz. Bütün yazılmış nişanə və sifətlər sizdə vardır. Demişdilər ki, axırzaman peyğəmbərinə qırx yaşından sonra göydən vəhy enəcəkdir. Nəbilik dəlilləri göstərəcəkdir. Din dəvətinə başlayacaqdır. İndi siz qırx yaşına çatdınız. Doğru yuxular görürsüz. Həm də Ramazan ayı bütün peyğəmbərlərə vəhyin endiyi aydır. Bütün nəbilər rəsulluq xələtını Ramazan ayında geymişdilər. İbrahim Xəlilə səhifələr, ilahi əmrlər Ramazan ayının onuncu gecəsində enmişdi. Tövrat kitabı Kəlimullah Musa peyğəmbərə Ramazan ayının ikinci gecəsində enmişdir. İncil kitabı isə Məryəm oğlu İsa əleyhissəlama Ramazan ayının on doqquzuncu gecəsi enmişdir. Siz həzrətlərə də gərəkdir ki, vəhy bu Ramazan ayında gəlmiş ola. Nişanələr də bunu göstərir. Sözlərimdə xəta yoxdur.

Vəraqə sözlərini dedikdən sonra yerə əyildi, Hz. Məhəmmədin ayağından, əlindən öpdü. Sonra görüºüb ayrıldılar. Hər biri öz evinə getdi. Sonra Hz. Məhəmməd yenə Hira dağına getdi. Mağarada yalnız oturub Ulu Tanrıya ibadətlə məşğul oldu.

## *Hz. MƏHƏMMƏDƏ YENƏ İLAHİ SƏSLƏR GƏLDİ*

O gün Ramazan ayının on dördüncü gecəsiydi. Ramazanın on beşinci günündə Hz. Məhəmməd daşlardan, dağlardan, mağaradan, yaşdan, qurudan, hər yerdən:

“Əssəlamu əleykə, ya Rəsulullah, əssəlamu əleykə, ya nəbiyullah!” (Salam sənə, ya Rəsulullah, salam sənə, ya Tanri nəbisi,) - deyə səslər eşitdi.

Hz. Məhəmməd bu fövqəladə səslər qarşısında qorxdu, dayana bilmədi. O zamana qədər belə anlarda evinə dönən Hz. Məhəmməd evinə dönmədi, mağarada qaldı.

Axşama qədər cansız mövcudatın səsləri ikiqat artdı. Ürəyi dözmədi. Yenə Məkkəyə dönməkdən başqa çarənin olmadığını hiss etdi. Kəbəyə getdi, təvaf etdi. Yeddi dəfə Kəbəni ziyarət etdi. Sonra Xədicə xatunun yanına getdi. Yenə nə görub eşitmişdisə, onları Xədicə xatuna nəql etdi. O da qalxıb əmisi Vəraqənin yanına getdi. Bütün eşitdiklərini ona danışdı.

Vəraqə bunları eşidib çox sevindi:

– Ya Xədicə, sənin gözün aydın olsun, ərin, halalın Məhəmməd gerçəkdən peyğəmbər olacaqdır. Heç bir şübhən qalmasın.

Xədicə xatunun gözlərində bir sevinc parladı. Bunu görən Vəraqə:

– Ya Xədicə, sənin halalın Məhəmməddən başqa gözəl üzlü, gözəl əx-

laqlı, ənbiya sifətli, övliya qənaətli, peyğəmbərliyə layiq, şücaətli, heybətli kim var ki, nəbiliyə layiq olsun, səadət ulduzu başında parlasın və dövlət bürcündə parlasın? Varmı? Ya Xədicə, tez halalın, seyyidin, Həbibin Məhəmmədə söylə ki, getsin İbrahim peyğəmbər məqamına, Hira dağına çıxsın. Bu günlər gözəl günlərdir. Getsin risalət xələtini, nəbilik tacını geysin. Dəvətinin dəlil-sübutunu, bəyanını, isbatını anlasın. Ürəyi qorxmasın, ər kimi dursun.

Hz. Məhəmmədin həyəcanlanmasında, qorxmasında haqqı vardı. Nəbilik hallarına sadə iş kimi baxmaq olmaz. Bir daş, bir ağac, bir qayadan gələn səs qarşısında insan cisminin, ağlının, anlayışının nə halda olacağını düşünmək lazımdır.

Hz. Xədicə Vəraqənin yanından tələsik Hz. Məhəmmədin yanına gəldi. Əmisinin dediklərini ona söylədi. Hz. Məhəmməd qalxdı, Hira dağındakı mağarasına çəkildi.

Dağa qalxdıqdan bir az keçmiş yenə qulağına ilahi səslər gəldi:

– Ya Məhəmməd, ey Allahın yaratdıqlarının ən xeyirlisi.

Axı bu səslər haradan gəlir? Ətrafına diqqətlə baxdı. Görünən bir şey yoxdur.

Amma az sonra yerlə göy arasının nurla dopdolu olduğunu gördu. Ağlı başından getdi. Bihuş olub yerə yıxıldı. Özündən getmişdi. Bu halda nə qədər qalmışdı, bilmədi. Amma yolları oradan düşən bir neçə Qureyşli onu bu halda gördülər. Ona doğru gəldilər. Hətta bəzi rəvayətlərdə onların içərisində Əbu Cəhlin olduğunu da deyirlər.

Hz. Məhəmmədi yatan gördülər. Rəngi ağarmış, ağlı başdan getmişdi. Yerə uzanmışdı. Həmən geri dönüb Xədicə xatuna xəbər verdilər və dedilər:

– Ya Xədicə, sən "mənim halalım, ərim Məhəmməd peyğəmbər olacaqdır" deyirdin. "Dinə dəvət edən rəsuli-Rəbbül-aləmin olacaqdır" deyirdin. Sən ağlı az olan kişiyə ərə getmisən. O, dəli kimi insanların az olduğu dağda, dərədə gəzir, mağarada oturur. Saralıb, yerə yıxılıb, yatıb. İstəyirsən, Hira dağına get, öz gözlərinlə gör.

Xədicə xatun:

– Olmaya kimsə onun ağlından, kamalından şübhə ilə danışır? Onun ağlı başındadır. Ağlını başından alan qüvvə yoxdur. Ona insan, cin şərri toxuna bilməz. Xədicə tələsik qalxıb geyindi. Cariyələrindən ikisini götürüb Hira dağına gəldi. Gerçəkdən Hz. Məhəmmədin bir daşın dibində yatdığını gördü. Cariyələri aralıda saxlayaraq, ona yaxınlaşdı. Mübarək başını qaldırıb dizinin üstünə qoydu. Az sonra Hz. Məhəmməd gözlərini açdı, özünə gəldi.

Xədicə xatun onu bağrına basdı:

– Atam-anam sənə fəda olsun, − dedi, − ya seyyidi, ey gözümün nuru, ya Məhəmməd, sənə nə olub? Nə baş verib, nə sıxıntın var, mənə bir danış?

Hz. Məhəmməd mehriban, şəfqətli xanımına dedi:

– Ya Xədicə, bura gələndə göydən bir səs gəldi mənə "ya Məhəmməd..." dedi. Yuxarı baxanda heç kimi görmədim. Ondan sonra yerlə göyün arası dopdolu nura büründü. Onu görəndə ürəyimə qorxu düşdü. Taqətim qalmadı, ağlım başımdan getdi. Zəifləyib özümu itirdim. Başqa nə baş verdiyini bilmirəm. Gözümü açanda səni başımın üstündə gördüm.

Xədicə xatun qorxmadı, sevindi:

– Ya Məhəmməd, ya Həbibi, Ulu Tanrıdan nə işarətlər gəlirsə, hamısı xeyirdir, bərəkətdir.

Qalxıb evə döndülər. Xədicə xatun yenə də əmisi Vəraqənin yanına tələsdi. Vəraqəyə hər şeyi danışdı. Əmisi Xədicəyə:

– Ya Xədicə, halalın Məhəmmədə söylə, sabah səhər yenə o yerə getsin. Əgər o səsi təkrar eşidərsə və o səs Ulu Tanrıdansa, yenə gələr, yox əgər cinlərin səsi isə bir də gəlməz.

Xədicə xatun yenə əmisinin evindən çıxdı, birbaşa evinə gəldi. Vəraqənin dediklərini Hz. Məhəmmədə söylədi. Hz. Məhəmməd də ertəsi günü, yəni Ramazan ayının on beşində Hira dağının yarısını qalxmışdı ki, yenə qulağına o səs daha heybətli avazla gəldi: "Ey Allahın yaratdıqlarının ən xeyirlisi! Ya Məhəmməd".

## *EY ALLAHIN YARATDIQLARININ ƏH XEYİRLİSİ*

Hz. Məhəmməd dörd yanına baxdı, yenə meydanda kimsəni görmədi. Amma əvvəlki kimi yerlə göy arası nurla dolmuşdu. Hz. Məhəmməd bu dəfə də özündən getdi, yerə yıxıldı. Yuxuya daldı.

Dünən gecə Qureyşdən gələnlərdən bir neçə kişi onun yerdə yatdığını gördülər və tez Xədicə xatuna xəbər verdilər:

– Ya Seyyidə, Əbülqasim yenə dağda dəli kimi daşın dibində yatıb.

Aralarında olan Əbu Cəhl:

– Ya Xədicə, biz gəlib bunu sənə onun üçün deyirik ki, gedib öz gözünlə dəli və xəstə ərini görəsən. Bax ki, kiminlə evlənmisən.

Xədicə xatun onlar gedəndən sonra öz-özünə:

– Ola bilməz ki, Məhəmməd dəli olsun və ya cinlərdən qorxsun, sonra da ürəyi gedib yatsın.

Xədicə xatun düşüncələrini davam etdirdi:

– Bu çətin sorğunun müxtəlif cavabları var. İnsanda beş müxtəlif duyğu vardır. Bunlar bəşəri hissləri qəbul edib dəyişə bilər. Amma bunlar vəhy üçün yetərli deyildir. Sanmasınlar ki, Məhəmmədin ağlı qorxudan getmişdir, bu adi səs deyildir, insan əqli bu eşitdiyi səsi tam anlaya bilməz.

Bu fikirlərlə Hz. Xədicə evdən çıxıb Hira dağına gəldi. Dünya bəyinin huşsuz halda uzandığını gördü. Yenə başını dizinin üstünə aldı. Əlini də sinəsinin üstünə aldı. Hz. Məhəmməd gözlərini açdı, özünə gəldi və başını Xədicə xatunun dizi üstündə gördü. Qalxıb oturdu. Xədicə xatun ondan soruşdu:

– Ya seyyidi, ya Məhəmməd, bu nə haldır? Əhvalın niyə dəyişdi?

Hz. Məhəmməd:

– Ya Xədicə, yenə dünənki kimi səslər eşitdim. Yenə yerlə göy arasına nur doldu. Həyəcanlandım. Huşumu itirib yerə yıxılmışam.

Xədicə xatun:

– Qalx, evimizə gedək.

Məhəmmədin əlindən tutub kömək etdi. Evlərinə yollandılar.

Xədicə xatun:

– Ya Həbibi, bunlar xeyirdir. Narahat olma, – dedi. Sonra soruşdu:

– Dünənki səs, ya bugünkü səs hansı daha heybətli idi?

Hz. Məhəmməd:

– Bu günkü səs dünənkindən daha əzim, heybətli idi. Bunu söyləyim ki, əgər Ulu Tanrı izn versə və dünya xalqı bu səsləri eşitsə, şərqdən qərbə kimi nə qədər canlı varsa, biri də sağ qalmaz. Hamısı həlak olar.

Xədicə xatun yenə qalxıb əmisinin yanına getdi. Baş vermiºləri ona danışdı. Vəraqə:

– Qüddusü, qüddusü və haza Namusül əkbər! – dedi, – o Namusül əkbərdir. Ya Xədicə, həqiqət aşkar oldu ki, bu səs Cəbrail əleyhissəlamın avazıdır. Abdullah oğlu Məhəmməd xatəmür-rüsuldür. Ulu Tanrının ən böyük Rəsuludur. Məndən Əbilqasim, Abdullah oğlu Məhəmmədə salam söylə. Sabah ona vəhy gələcək gündür. Ramazan ayının on altısıdır ki, dəvət sahibi Hira dağından peyğəmbərlik xələtı geyib enəcəkdir. Mənim ümidim odur ki, bu peyğəmbərlik libasını geyib enən sənin halalın Məhəmməd olacaqdır. Amma Yenə Məhəmmədə ürəyini möhkəm tutmasını söylə. Ağlını itirməsin. O səsi eşidəndə: "Ey mənə səslənən kimsən? Bu sözləri mənə kim deyir? Deyirsən, amma görünmürsən, mənə özünü göstər, baxım", – dedi.

Bunları eşidən Xədicə xatun qalxdı, Hz. Məhəmmədin yanına gəldi. Vəraqənin dediklərini ona söylədi.

Ertəsi gün səhər tezdən Ramazanın on altıncı günündə Hz. Məhəmməd

Hira dağına doğru getdi. Bu böyük sirri yalnız Xədicə xatun və əmisi Vəraqə bilirdi. Onlar Hz. Məhəmmədə qüvvət və ürəyini möhkəm saxlaması üçün məsləhətçi və yardımçı idilər. Ulu Tanrıdan gələn bir ilhamla din və ümmət üçün çalışırdılar. Hz. Məhəmmədin halını soruşur, sirrini saxlayırdılar.

## EY CƏBRAİL, YEDDİ QAT GÖY ƏHLİNƏ XƏBƏR VER

Hz. Məhəmməd Hira dağına çatdıqda Ulu Allahdan Cəbrail Əminə əmr gəldi:

– Yeddi qat göy əhlinə xəbər ver, ya Cibril (Cəbrail)... ki bu gün göydən yerə vəhy enəcəkdir. Abdullah oğlu Məhəmməd risalət xələtını geyəcəkdir.

Bütün yaradılmış canlıların üzərinə bağışlanma və rəhmət bəxşişləri səpsinlər. Tövhid əhli, din əhli, Allaha ortaq qoşan şirk, küffar əhlindən ayrılacaqdır. Cənnətin qapıçısı Rizvana buyurulub ki, cənnəti bəzəsin, mələklər bəzənsin, zinətlənsin. Cəhənnəm mələyinə də qapıların bağlanması əmr edildi.

Cəbrail əleyhissəlam bu əmri alan kimi bütün məxluqlara səsləndi, nida etdi. Rəsulullaha (s.ə.s) vəhy endiyi şad xəbərini verdi.

Bu xəbəri alan bütün mələklər tərif, şükr, həmd və dua etməyə, "La İlahə İllallah" deməyə, sitayişə başladılar. Cəbrail min dəfə min (yəni 1 milyon) mələklə və Mikaillə birlikdə göydən yerə endi. Şərqi və Qərbi qanadları ilə tutdular. Artıq bu zaman Hz. Məhəmməd Hira dağına gəlmişdi. Birdən-birə bir səs duydu. O səs göydən aşağıya doğru gəlirdi. Bu səs Hz. Məhəmmədə beləcə deyirdi:

– Ey Allahın yaratdıqlarının ən xeyirlisi!

## *ALLAHIN ƏN XEYİRLİ İNSANI*

Hz. Məhəmməd bu səsi eşidəndə özünü möhkəm tutdu. Özünü topladı, səs gələn tərəfə:

– Ey məni səsləyən, sən kimsən? Sözü deyirsən, amma səni görmürəm.

Bunu eşidən hz. Cəbrail özünü Hz. Məhəmmədə göstərdi. Yerdən yüksəkdə bir kürsünün üstündə oturmuşdu. Kürsü tam qızıldan idi. Cəbrailin ayağı kürsüdən aşağı sallanmşdı.

Hz. Məhəmməd Cəbrailə diqqət vermədən gedirdi. Bu dəfə Cəbrail onun önünə çıxdı. Cəbrail sanki insan cildindəydi. Alnı açıq və gur saqqallı

idi. Onu görəndə heybətindən Hz. Məhəmmədin ürəyi qopdı, xeyli həyəcanlandı. Şəhərə doğru döndü. Qaçıb Cəbrailin heybətindən qurtulmaq istədi. Cəbrail əleyhissəlam, bu səfər ardınca yeriyib onu qucaqladı və dedi:

–Ya Məhəmməd, hara gedirsən? Mən sənin qardaşın Cəbrailəm. Sən Rəsuli-Rəbbül-aləminsən. Haqq-təaladan sənə elçi gəldim. Allah-təala sənə salam göndərdi, insanları onun birliyinə və sənin peyğəmbərliyinə dəvət etdi. Belə səhadət gətirmələrini söylədi: "Əşhədü ən lə ilahə İllallah və əşhədü ənnə Muhəmmədən əbduhu və rəsuluhu".

Hz. Məhəmməd bunu beləcə anlatmışdı:

– Nə vaxt ki Cəbrail mənimlə beləcə danışdı, mənim gözüm, könlüm ona inandı. Ondan sonra Cəbrail əleyhissəlam təkrar dilə gələrək mənə dedi ki, ya Məhəmməd, Haqq-sübhanə və təala məni sənə elçi göndərdi. Mənim dilim ilə sənə salam dedi. Buyurdu ki, ya Məhəmməd, bütün dünya xalqını İslam dininə dəvət et! Şəhadət gətirsinlər: "Lə ilahə İllallah Məhəmmədən Rəsulullah!" – desinlər.

## *YA MƏHƏMMƏD, BU BEYTİ OXU*

Cəbrailin yanında Cənnətdən gətirdiyi bir ağ səbət gördüm. Səbətin içində bir məktub və bir kağız vardı. Cəbrail məktubu mənə verdi. Dedi:

– Ya Məhəmməd, bu məktubu oxu!

Kağızı gördüm, möhürlü idi.

Mən Cəbrailə dedim:

– Mən oxumamışam, yazıb-oxuya bilmirəm.

Bu cavaba Cəbrail Əleyhissəlam məni tutdu. Qüvvətlə sarsıtdı, silkələdi. Belə ki, sümüklərimin biri-birindən ayrıldığını fikirləşdim. Bundan sonra Cəbrail yenidən:

– Oxu, – dedi.

Mən yenə:

– Ya Həbibi, ya qardaşım Cəbrail, nə oxuyum? – dedim.

Cəbrail əleyhissəlam:

1. (Ya peyğəmbər! Qur'ani-Kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə(bismillah deyərək) Oxu!
2. O, insanı laxtalanmış qandan yaratdı.
3. (Ya peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir.
4. O Rəbbin ki qələmlə (yazmağı öyrətdi).
5. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi. (Ələq surəsi 1-5 ayə).

Əvvəl Cəbrail oxudu. Mən qulaq asdım. Sonra mən oxudum, Cəbrail

qulaq asdı. Sonra mənə:

– Ya Məhəmməd, bundan artığını oxumaq üçün mənə Ulu Tanrıdan göstəriş yoxdur, – dedi. Sonra da Cəbrail uçdu. Yenə göyə çıxdı. Yerlə göy arası mələklərlə dolu idi. Cəbrailin ardınca hamısı uçub göyə getdi. Səmadan mənə belə deyirdilər: "Əssalatu və əssəlamu əleykə, ya Rəsulullah".

Bundan sonra Hz. Məhəmməd (s.ə.s) Ulu Tanrının bu təcəllisindən dərin bir həyəcan içində Hira dağından endi, evinə yollandı.

Artıq Hz. Məhəmməd (s.ə.s) risalət libasını, seçilmiş hülləsini (Cənnətdə geyiləcək bəzəkli paltar) geymişdi. Yolda hər tərəfdən-ağacdan, daşdan, dağdan səslər gəlirdi:

– Salat və səlam olsun, ya Rəsulullah, – deyirdilər.

Hz. Məhəmməd evə gələndə Xədicə xatun onu qarşıladı.

O, Hz. Rəsulun mübarək üzünün nurunun daha da əzəmətli olduğunu hiss etdi. Belə ki gözlər qamaşır, kimsə ona baxa bilmirdi. Bunlar çox ayrı nişanələr idi. Xədicə xatun ona doğru irəlilədi. Ayağına düşdü:

– Sərəncamın nə olacaq? – deyə soruşdu.

Hz. Məhəmməd ona vəhyin gəldiyini, Cəbrail əleyhissəlamın göründüyünü və onun ağ səbətin içində Cənnətdən gələn yazını, Quranı oxudub öyrətdiyini bircə-bircə danışdı,sonra da Əlini qulağının üstünə qoydu, oxudu.

Xədicə xatun Hz. Məhəmmədin bu dediklərini dəqiqliyi ilə başa düşdükdən sonra soruşdu:

– Ya seyyidi, ya Məhəmməd, Cəbrail əmim Vərəqənin dediyi mələkdirmi?

Hz. Məhəmməd:

– Bəli, Cəbrail bir ulu mələkdir. Məndən əvvəl gələn peyğəmbərlərə risalət vəhyini o gətirmişdir. Allah-təalanın rəsullarının elçisidir.

Xədicə xatun yenidən:

– Ya Həbibi, ya Məhəmməd, Cəbrailin sənə söylədiyi söz nədir? Nə xəbər gətirdi?

Hz. Məhəmməd:

– Ya Xədicə, Cəbrailin söylədiyi sözlər bunlar idi: "Ya Məhəmməd, Allah-təala sənə salam göndərir. Buyurdu ki, xalqı İslam dininə dəvət edəsən. Onlara şəhadət kəlməsini öyrədəsən. Ta ki "Əşhədü ən lə ilahə İllallah və əşhədü ənnə Muhəmmədən əbduhu və rəsuluhu" desinlər".Sonra mənə Quran öyrətdi və yenidən göyə qalxdı.

Hz. Məhəmməd bütün baş vermişləri anlatdıqdan sonra Xədicə xatunu İslam dininə dəvət etdi:

– Ya Xədicə, Allah-təalanın birliyinə, mənim peyğəmbərlik və nübuvvətimə dilinlə şahidlik et.

Xədicə xatun:

– Ey Allahın rəsulu, mən sənin risalətinə [a]ama gedib mübarəkliklə geri dönəndən sonra qərar vermi[o]dim. Cuhfətül-vida da karvandan ayrılaraq şad xəbər gətirərkən Allah-təala sənin böyüklüyünü, onun yanındakı mərtəbəni, dərəcəni mənə o gecə göstərmişdi. Dəvənin üstündə kəcavədə, nurdan bir tac qoyulmuşdu başına. Xələtlər geymişdin, alnın par-par yanırdı. O gecə risalətinə və nəbiliyinə inanmışdım. Nübüvvətini qəbul etmişdim.

Sonra şübhəsini tam aradan qaldırmaq üçün Hz. Xədicə Hz. Rəsula belə sual verdi:

– Ya Məhəmməd, ya Həbibi, gəlbinlə inandın ki, sənə gələn mələk, həqiqətən, göydən enmiş mələkdir? Bir cin deyildir. Ulduzların hərəkətindən, kahinlərin dedikləri bilgilərə bağlı xəyallar və Şeytanın vəsvəsəsi deyildir?

Hz. Məhəmməd:

– Allah eləməsin ki, bu bir cin ola və ya kahinlərin dedikləri bilgi, şeytan vəsvəsəsi ola. Onlardan Allaha sığınıram. Kahinlərdən gəlmiş olsaydı, mən Əbuqubeys dağına çıxar, özümü oradan atardım. Əgər belə olasaydı, ərəblər məni kahin və sair sayardılar.

Xədicə xatun:

– Vallah, allah eləməsin, –dedi, – Allah sənə xeyr işlər nəsib etdi.

Bundan sonra Hz. Xədicə geyindi, əmisi Vəraqənin evinə yollandı. Vəraqə də səhər tezdən Kəbəyə gedib təvaf etmişdi. Könlü, fikri daima Hz. Məhəmmədin yanında idi. Gözünü, qulağını dörd yandan gələcək xəbərə yönəltmişdi. Rəsul həzrətindən bir xəbər eşitmək istəyirdi. Nübüvvət və risalət xəbərinin necə və nə vaxt çıxacağını gözləyirdi. Xalq arasında necə aşkar olacaqdı. O bilirdi ki, bu Ramazanın mübarək günü Haqq peyğəmbərinə vəhyin gələcək günüdür. Nişanələri eşitmək və görmək istəyirdi. Təvaf edərkən birdən-birə Kəbənin içinin nurla dolduğunu gördü və orada nə qədər büt vardısa hamısı üzüqoylu yerə düşdü. Vəraqə bu anı vəhyin nazil olduğu vaxt kimi qəbul edib evinə döndü. Oturub gözlədi ki, nə vaxt qardaşı qızı Xədicə şad bir xəbərlə onu sevindirəcəkdi.

## *KƏBƏNİN BÜTLƏRİ YERƏ DÜŞDÜ*

O gün səhər vaxtında qureyşli kafirlər uzərinə böyük bir ağırlıq düşdü. Qəlblərinə qorxu doldu. Bir-biri ilə görüşmədilər. Evdən bayıra çıxmadılar. Kəbədə bütlərə xidmət edən adamlar gəlib başçılarına dedilər:

– Kəbədəki bütün bütlər üzüaşağı yerə düşdü. Nə qədər çalışıb qaldırdıqsa, yenə üzüaşağı yerə düşdülər.

Camaat bu sözlərdən daha da çox qorxdu.

Elə bu vaxtda Hz. Xədicə əmisi Vəraqənin evinin qapısından içəri girdi.Vəraqə qalxdı, qardaşı qızını qarşıladı:

– Ya Xədicə, nə iş üçün gəldin? Mənə tez xəbər ver.

## *SƏN DÜNYA QADINLARININ SEYYİDƏSİ OLDUN*

Xədicə xatun Hz. Məhəmmədin dediklərini, eşitdiklərini əmisinə danışdı. Vəhyin nazil olduğunu, Quranın göydən endiyi kimi şad xəbərləri ona çatdırdı. Bu sözləri duyan Vəraqə həmən şükür səcdəsi etdi. Sonra:

– Ya Xədicə xatun, sən nə qədər xoşbəxt bəxtli bir qadınsan. Ümmülmöminin (Möminlərin anası) oldun. Dünya qadınlarının seyyidəsi oldun. İndi evinə dön. Məndən Məhəmməd Rəsulullaha salam söylə.Sabah onu Kəbədə gözləyəcəyəm, onunla söhbətim var, – dedi.

Xədicə xatun qalxdı, evinə gəldi. Hz. Məhəmmədə Vəraqənin salamını söylədi:

– Sabah əmim Vəraqə səni Kəbə Hərəminə çağırır.

Hz. Məhəmməd:

– Yaxşı olar, gedərəm.

Ertəsi gün hz. Məhəmməd qalxdı, Kəbə Hərəminə getdi. Qapıdan içəri girəndə Vəraqəni Kəbə divarının dibində oturduğunu gördü. Yaşlı bu insan hz. Məhəmmədin yolunu gözləyirdi. Vəraqə hz. Məhəmmədin günəşdən parlaq üzünü görmək istəyir və onun haqqında düşünurdü. Onun dünya malının düşkünü olmaması, nə azın, nə çoxun ona qalmayacağını anlaması, hər yerdə özünü sadə tutması, xalq arasında böyüklüyünü göstərməməsi kimi nəcib xüsusiyyərləri həmişə Vəraqəni valeh edirdi.

Rəsulullahın gəldiyini görən Vəraqə qalxıb onun qarşısına getdi. Görüşdülər. Əlini əlinə aldı, birlikdə Hərəmin içinə doğru getdilər.

Vəraqə ona:

– Ya Həbibi, ya Məhəmməd, mənə Cəbrailin sifətini, halını və təbiətini söylə. Necə gəldi? Sənə nə dedi? Nə danışdı?

Hz. Məhəmməd də olanı bircə-bircə, dəqiqliyi ilə ona danışdı. Cəbraili Vəraqəyə tam təsvir etdi. Vəraqə o saat Hz. Məhəmmədin ayağına düşdu:

– Ya Məhəmməd, nəbiliyinə və risalətinə inanıram. Ulu Tanrını adına and içirəm ki, sən Musa peyğəmbərin və İsa peyğəmbərin xəbər verdiyi peyğəmbərsən. Onlar sənin sifətini, xasiyyyət və xüsusiyyətlərini, halını demişdilər. Sənin gəlmə zamanını şərh və bəyan etmişdilər. Ah, mənin ömrüm yetsə, sən dinə dəvət etdiyin vaxt gəlib bütün xalqın qarşısında sənə

iman gətirərdim. Müsəlman olardım.

Vəraqə sözünü bitirdikdən sonra hz. Məhəmməd evinə döndü. hz. Xədicə bu zaman Vəraqənin evində əmisinin gəlməyini gözləyirdi. Onun Rəsulullah haqqında nə söyləyəcəyini eşitmək istəyirdi.

Az sonra Vəraqə də evinə döndü. Xədicə xatun onu görcək qarşısına getdi:

– Əmi, Həbibim, seyyidim Məhəmmədi necə gördün? Onun halı necədir?

Vəraqə:

– Xədicə xatun, heç bir şübhən olmasın ki, Məhəmməd rəsuldur. Sözünə sadiqdir. Dedikləri gerçəkdir. Söylədikləri nişanələrin hamısı Cəbrail əleyhissəlamın əlamətləridir. Yalnız bir şey qaldı. Cəbraildən bir nişan var ki, o da gerçək olursa, artıq şübhəmiz qalmaz, inamımız tam olar. Bundan sonra hər kəs Məhəmmədin risalətinə inanmazsa, iki cahan həsrətinə qalar, artıq ona dünya və axirətdə rəhmət olmayacaqdır.

Xədicə xatun soruşdu:

– Əmi, o nişan necə nişandır? Onu da mənə söylə eşidim.

## *YA HƏBİBİM, CƏBRAİL GƏLƏNDƏ MƏNƏ XƏBƏR VER*

Vəraqə izah etməyə başladı:

– Rəsul həzrətləri evə dönüncə ona de ki, ”ya Həbibim, Cəbrail gələndə mənə bildir . O, Cəbrail gəldiyini xəbər verəndə sən get, onun sağ tərəfində otur. Məhəmməddən soruş ki, “Ya Məhəmməd Cəbrail buradadır, yoxsa getdi?” – Əgər Məhəmməd “Getmədi...” deyərsə, sən Rəsulun sağ tərəfindən dur, keç sol tərəfində otur. Yenə Rəsul həzrətindən soruş: “Ya Məhəmməd Cəbrail durur, yoxsa getdi?” Əgər o “Durur” desə, bu dəfə Məhəmmədin önündə otur. Başını aç, saçını bölük-bölük et. Yenə Məhəmməddən soruş: “Ya Məhəmməd, ya Rəsulullah, Cəbrail getdi, yoxsa durur?” Əgər Hz. Rəsul sənə “Getdi...” desə, yəqin bil ki, gələn Cəbraildir. Tez başını ört yenə soruş: “Ya Məhəmməd, Cəbrail gəldimi?” Əgər hz. Rəsul sənə “Yenə gəldi...”desə, yenə başını aç, saçını dağıt, yenə Hz. Məhəmməddən soruş: Cəbrail getdimi, yoxsa durur? Əgər Hz. Rəsul sənə “Cəbrail getdi...” desə, ya Xədicə sən tez başını ört. Yenə soruş: “Cəbrail indi gəldimi?” Əgər hz. Məhəmməd sənə “Gəldi...,” desə, həmən dəqiqə Məhəmmədin ayaqlarına düş. Tez ona iman gətir. Heç bir şübhən, gümanın qalmasın ki, Məhəmməd Haqq peyğəmbəridir. Əgər saçını açdığın zaman, dağıtdığın vaxt Cəbrail oradan ayrılmazsa , bil ki, o, Cəbrail, o, Namusu əkbər deyildir. Cinlərdən

biridir. Məhəmmədi yoldan çıxarmaq istəyir. O, kahinlər kimi oyun oynayır. Nəbadə ona inanasan. O, Cəbrail deyildir. Çünki mələklər qadınların başını açdığı yerdə durmazlar, gedərlər.

Xədicə xatun bunları dinlədikdən sonra evə döndü. Hz. Məhəmmədi evdə gördü. Ona:

– Ya Həbibi, Cəbrail əleyhissəlam nə vaxt ki yanına gəldi, mənə xəbər ver. Mənim görəcəyim bir iş var. Onu yerinə yetirim.

Hz. Rəsul:

– Nə vaxt ki qardaşım Cəbrail yanıma gələcəkdir, mən sənə xəbər verərəm.

O gün Nofəl oğlu Vəraqəni bir xəstəlik tutdu, yatağa düşdü. Bir neçə gün belə keçdi. Amma Hz. Məhəmmədin sirrini heç kimə söyləmədi.

## *YA XƏDİCƏ, MƏNİ ÖRT*

Bir gün Hz. Məhəmmədin evində yenə qeyri-adi, qəribə bir hadisə baş verdi. Ümmül-möminin hz. Xədicə Hz. Məhəmmədi üzünün rəngi qaçmış, xeyli saralmış gördü. Bütün bədəni titrəyirdi. Onu tez yatağına gətirdilər. Hz. Məhəmməd:

– Mənim üstümü qalın yorğanla örtün, başımı da örtün, – dedi.

Hz. Məhəmmədin üstünü örtdülər. Rəsulullah yenə :

– Başımı da örtün.

Onu başından ayağına kimi örtdülər. Hz. Xədicə otaqdakıları bayıra çıxardı. İndi ikisi yalnız qalmışdılar. Hz. Məhəmməd bir saata qədər qızdırma xəstəliyinə tutulmuş kimi titrədirdi.

Xədicə xatun Hz. Məhəmmədin ayaq tərəfində oturdu. Yorğanın üstündən ovuşduraraq ayaqlarını qızdırmağa çalışırdı.

Bu hadisəni hz. Xədicə belə anlatmışdı: "Evdə xəlvət idik. Otaqda ikimiz qalmışdıq. Bir saat sonra qulağıma havadan bir səs gəldi. Amma gözümə kimsə görünmədi. O avazın sahibi belə deyirdi:

1. Ey (libasına) bürünüb sarınan (Peyğəmbər)!
2. Qalx (qövmünü Allahın əzabı ilə) qorxut!
3. Öz Rəbbini böyük tut!
4. Libasını təmizlə! (Nəfsini günahlardan pak et).
5. (Əzaba səbəb olacaq) pis şeylərdən uzaqlaş! (Bütləri tərk et!)
6. (Etdiyin yaxşılığı) çox bilib başa qaxma! (Heç kəsə minnət qoyma). (Müddəssir surəsi 1-6 ayələr).

Bu sözləri eşidincə Hz. Rəsul həmən qalxdı. Oturdu:

– Allahu əkbər, Allahu əkbər. Allahu əkbər! – dedi.

Mən seyyidim Məhəmməddən soruşdum:

– Ya rəsulullah, ya Həbibi, nə oldu? Mənə anlat.

Hz. Rəsul cavab verdi:

– Ya Xədicə, qardaşım Cəbrail gəldi...

Bunu eşidən hz. Xədicə əmisi Vəraqənin dediklərini xatırladı. Keçib hz. Məhəmmədin sağ tərəfində oturdu. Hz. Məhəmməddən soruşdu:

– Ya Məhəmməd, Cəbrail getdimi? Yoxsa durur?

Rəsul əleyhissəlam:

– Getmədi, durur, – dedi.

Xədicə xatun onda keçib Hz. Məhəmmədin önündə oturdu. Baş örtüyünü çıxardı, saçlarını dağıtdı. O zaman Hz. Məhəmməd:

– Ya Xədicə, başını nə üçün açdın? Qardaşım Cəbrail qeyb olub getdi. Onun söhbətindən ayrıldım.

Xədicə xatun bir söz söyləməyib başını örtdü. Cəbrail yenə Hz. Məhəmmədə göründü. Hz. Xədicə Rəsulullahdan söruşdu:

– Ya Həbibi, Cəbrail gəldimi?

Hz. Məhəmməd cavab verdi:

– Bəli, gəldi. Cəbrail yenə yanımdadır.

Xədicə xatun bunu üç dəfə etdi. Başını açdı Cəbrail yox oldu, bağladı Cəbrail əleyhissəlam gəldi. Bundan sonra Xədicə xatun hz. Məhəmmədin önündə diz üstə çökdü. İman gətirdi. "Əşhədü ən lə ilahə İllallah və əşhədü ənnə Muhəmmədən əbduhu və rəsuluhu", – deyə şəhadətini söylədi və müsəlman oldu.

Beləcə, malını, canını Hz. Məhəmmədin yolunda qoyduğu kimi, İslam dininə də ilk dəfə iman gətirən, ilk müsəlman Ümmül-möminin Xədicəyi-kübra(r.a) oldu.

Hz. Məhəmmədin özünə gəlincə, mübarək camalında qəzəb Xədicə xatuna baxdı:

– Nə üçün başını üç dəfə açdın? Yenə örtdün. Sonra iman gətirdin?

Xədicə xatun:

– Ya Həbibi, ya Məhəmməd, Gözümün işığı, canım sənə fəda olsun. Əmim Vəraqə mənə belə öyüd vermişdi. "Könlünün inamının güclənməsi, hətta kiçik şübhələrin yox olması üçün bunu et", – demişdi. Hz. Məhəmmədin gözünə görünənin Cəbrail və ya cin tayfasından olmasını bilmək istəyirsənsə, başını açarsan, əgər mələkdirsə, heç vaxt saçıaçıq qadın olan yerdə durmaz, gedər. Cəbrail gəldi, başımı açdım yox oldu. Beləcə üç dəfə. Onda bildim ki, sənin yanına gələn Namusu-əkbər, Cəbrail əleyhissəlamdır. Artıq şübhə qalmamışdı, sən Haqq peyğəmbərisən, sənə vəhyləri gətirən Cəbrai-

lin özüdür. Sənin işin şeytani bir iş deyildir. Sözün və əməlin Rəhmandır.

Bu cavab Hz. Məhəmmədi tam sakitləşdirdi. Qarşısındakı ilk müsəlman qadına baxdı. İlk İslamı qəbul etmiş Xədicə xatun...

Xədicə xatun geyinib əmisi Vəraqənin yanına getdi.

## VƏRAQƏNIN SON SÖZLƏRİ

Vəraqə yataqda xəstə yatırdı. Yanına yaxınlaşdı. Baş tərəfinə keçib oturdu, səhhətin soruşdu. Vəraqə:

– Ya Xədicə, nə xəbər gətirdin? Hansı müjdə ilə gəldin?

Xədicə bütün olmuşları bir-bir ona danışdı. Başını açıb Cəbrail olub-olmadığını yoxladığını bildirdi. Vəraqə həyəcanla Cəbrail üçün:

– Qüddus, Qüddus. Mən şəhadət edirəm ki, göndərilən nəbidir. Məhəmməd də nəbiyi-Rəbbül aləmindir, − dedi.

Sonra zəif xəstə səsi ilə pıçıldadı:

– Ya Xədicə xatun, əgər bu xəstə yatağında olmasaydım, heç gözləmədən qalxıb bütün xalqın içində: "Məhəmməd Allahın Rəsuludur. Onun nəbiliyini təsdiq edirəm" – deyərdim. Risalətinə şahidlik edərdim. Əgər məni onun dini yolunda öldürsələr belə, ölümdən üz döndərməzdim.

Rəvayətlərə görə, Hz. Məhəmmədin risaləti xəbəri xalq arasında yayılmamışdan əvvəl Vəraqə ölüm yatağında idi. Çox geçməmiş gözlərini bu dünyaya qapamışdır.

## CƏBRAİL Hz. MƏHƏMMƏDƏ DƏSTƏMAZ VƏ NAMAZI ÖYRƏDİR

Aradan bir neçə gün keçdi. Amma Cəbrail təkrar gəlməmişdi. hz. Məhəmməd daima onu gözləyirdi.

Bir gecə idi. Hz. Məhəmməd yenə yatmış, yuxu görürdü. Cəbrail əleyhissəlam yenə yuxusuna gəldi. Rəsulullahı ayağından tərpətdi. Oyandırdı və dedi:

– Ya Məhəmməd, qalx, tez mənımlə birlikdə gedək.

Cəbrail Hz. Məhəmmədlə birlikdə Bəthaya getdi. Bəthada Cəbrail torpağı ayağı ilə eşdi. Ayağının altından bir bulaq çıxıb axmağa başladı.

Cəbrail hz. Məhəmmədə:

– Ya Məhəmməd, ya Həbibi, dəstəmaz al, yaxalan.

Hz. Məhəmməd çaşmışdı:

– Ya Cəbrail, ya Həbibi dəstəmaz necə alınır? Mənə göstər, baxım.

Cəbrail üzünü Rəsulullaha döndərib dəstəmaz aldı. Hz. Məhəmmədə də öyrətdi. Rəsulullah Cəbrailin önündə dəstəmaz aldı.

– Ya Məhəmməd , nə vaxt ki Tanrı qatında durmaq istəyəndə, beləcə dəstəmazını təzələ, sonra ibadət eylə. Kim ki sənə iman gətirəcəkdir, müsəlman olacaqdır, onlara da dəstəmazı öyrət. Sənin kimi dəstəmaz alsınlar.

Cəbrail əleyhissəlam bundan sonra Hz. Məhəmmədi götürüb birlikdə Kəbəyə gəldi. İki rükət namaz qıldı, iki rükət arasında rükunu, səcdəni, qiyamı öyrətdi. Bundan sonra Hz. Məhəmməd Cəbrailin önündə namaz qıldı.

Cəbrail:

– Ya Məhəmməd, artıq ümmətinə namaz qılmaq vacib lazım olacaqdır. İndi isə nə qədər istəyirsən, namaz qıla bilərsən, − deyəcək qeyb olub getdi.

Hz. Məhəmməd qalxdı, Kəbədən evinə getdi. Xədicə xatun onu görüncə soruşdu:

– Ya Məhəmməd, bu gecə vaxtı hara getmişdin?

Hz. Məhəmməd Hz. Xədicəyə dedi:

– Ey Xədicə, məni qardaşım Cəbrail oyatdı. Birlikdə Bəthaya getdik. Orada mənə namaz qılmaq qaydalarını və dəstəmaz almağı öyrətdi və dedi: “Sənə və ümmətinə bu namazı qılmaq vacib olacaqdır. İndi isə nə qədər isəyirsiniz, o qədər də qılın”. Sonra göyə çıxdı.

Xədicə xatun:

– Ya Rəsulullah, mənə də namaz tərtibini və dəstəmazı öyrət.

Hz. Məhəmməd:

– İndi dur, mənə bir kuzə su gətir.

Xədicə xatun qalxdı, bir kuzə su gətirdi. Hz. Məhəmməd hz. Xədicəyə dəstəmaz almağı və namaz qılmağı öyrətdi. İlk namaz qılmış qadın Xədiceyi-kübra oldu.

Sual çıxa bilər ki, bəs hz. Məhəmməd necə ibadət edirdi, necə namaz qılırdı? Hər peyğəmbər bu dünyaya gələndə Ulu Tanrı onlara müxtəlif şəriət qaydalarını bildirmişdi. Hər rəsulun şəriəti, ibadəti fərqli olurdu. Hz. Məhəmməd də İbrahim Xəlil peyğəmbərə hansı şəriət əmr edilmi°dirsə, onun ibadətinin tərtibi nə idisə onun kimi edərdi. Bu hal Hz. Məhəmmədə risalət gəldiyi zamana qədər davam etdi. Ona risalət gəldikdən sonra təbii ki, ibadəti və şəriəti ayrıldı. Hz. Məhəmmədin (s.ə.s) bir adı da Maiyyerrüsumdur, (bütlərin məhvedicisi).

## *Hz. ƏLİ MÜSƏLMAN OLUR*

Hz. Xədicədən rəvayət edilmişdir ki, Hz. Məhəmmədlə uzun müddət birlikdə namaz qılmışlar. Başqa bir üçüncü müsəlman yox idi.

Rəvayətçi Əbul Həsən deyir ki, bir gün Əbu Talib oğlu Əli (o zaman səkkiz yaşını bitirmişdi) Hz. Məhəmmədlə hz. Xədicənin namaz qıldığı otağın qapısını açıb içəri girdi. Birdən-birə heyrət içində qaldı. Hz. Məhəmməd və Xədicə xatun əyilib səcdə edirdilər. Yavaşdan ayətlər deyirdilər. Həmən keçib Hz. Məhəmmədin sağ tərəfində durdu. Hz. Məhəmmədin namazda etdiklərini o da etdi. Bu səbəbdən Allahın Rəsulu buyurmuşdu ki:

– Əli (r.a) bir göz qırpımı qədər olsa da belə Allaha ortaq qoşmadı (müşrük olmadı).

O zaman səkkiz yaşını bitirən Hz. Əli uşaqlar arasında ilk müsəlman oldu. Hz. Əliyə bu səbəbdən Ulu Tanrının nemətləri böyük olmuşdur. Bunlardan ən başlıcası ona Hz. Məhəmmədin qayğı göstərməsi, böyütməsi, onun tərbiyəsi altında olmasıdır.

## *Hz. MƏHƏMMƏDİN (s.ə.s.) Hz. ƏLİYƏ UŞAQLIQDAN BAXMASININ SƏBƏBİ*

Hz. Məhəmmədə risalət gəldiyi günlər idi. Məkkə şəhərində yenə böyük bir qıtlıq vardı. Belə bir vaxtda əmisi Abbas Hz. Məhəmmədin (s.ə.s) yanına gəldi. Dedi ki:

– Ey qardaşımın oğlu, böyük qardaşımız Əbu Talib qocalmış, kasıblamışdır. Ailəsinin böyük sərmayəsi yoxdur. Bu səbəbdən sıxıntılar içində yaşayır.

Hz. Məhəmməd(s.ə.s):

– Nə edə bilərəm? Hansı tədbirləri görüm?

Abbas:

– Deyirəm ki, hər qardaş bir uşağını götürüb saxlasın, böyütsün.

Hz. Məhəmməd (s.ə.s) bu sözu, fikri çox uyğun hesab etdi. Durub birlikdə Əbu Talibin evinə gəldilər. Abbas Əbu Talibə dedi:

– Ey Əbu Talib, qardaşımız! Bu ilimiz də çox böyük qıtlıqla keçir. Sənin uşağın çoxdur. Hamısına baxmağa çətinlik çəkirsən. Hər oğlunu bir qardaşına ver. Onlar da yeyib-içsinlər, böyüsünlər.

Əbu Talib:

– Çox gözəl düşünmüsünüz. Bir oğlum Ukeyl mənim yanımda qalsın, Cəfərlə Əlini siz götürün.

Beləcə Əbu Talib Cəfəri Abbasa, Əlini də Hz. Rəsula (s.ə.s) verdi:

– Ya Məhəmməd, əvvəlcədən Əliyə sən baxmısan, yenə sənin olsun, – dedi.

Bəli, bu səbəbdən Allah hz. Əliyə çox nemətlər verdi. Birincisi, Hz. Əlini Rəsulullah böyütdü və onun tərbiyəsini aldı. İkincisi, hz. Əli bir dəfə də belə şirklə nəfəs almadı, yəni Allaha ortaq qoşmadı.

Hz. Məhəmməd namaz qılarkən İmam Əli içəri girdi, sağ tərəfində dayanıb onun etdiklərini təkrarladı. Namaz bitdikdən sonra Rəsulullahdan(s.ə.s) soruşdu:

– Ya Seyyid, bu qıldığın namaz əvvəl qıldığımdan fərqlidir. Həm də Xədicə xatun da səninlə namaz qılmazdı, nə səbəbdən o da bu gün səninlə birlikdə namaz qılır?

Hz. Məhəmməd:

– Ya Əli, mənə Allah-təaladan nübüvvət və risalət gəldi, vəhy endi. Namusu Əkbər, o Cəbrail, o ulu mələk mənə vəhyi gətirdi. O Cəbrail məndən əvvəlki peyğəmbərlərə də Allahın əmrini gətirmişdi. Mənə dedi:

– Ya Məhəmməd, Allah-təala bütün xalqları dinə dəvəti etməyi sənə əmr etdi. Cəbrail üç dəfə göydən yerə endi. Hər dəfə gələndə Qurandan bir hissə gətirirdi. Dəstəmaz almağı öyrətdi, namaz qılma qaydalarını göstərdi. Sonra mən Xədicəyə öyrətdim. Xədicə müsəlman oldu. İman gətirdi. Ona görə də indi mənimlə namaz qılır.

Hz. Məhəmməd bu sözlərdən sonra Hz. Əliyə şəhadət kəlmələrini Əşhədu ən lə İlahə illallah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu öyrətdi. Hz. Əli barmağını qaldırdı və şəhadət gətirdi. Müsəlman oldu, imana qovuşdu.

Bundan sonra Hz. Məhəmməd Hz. Əliyə dəstəmaz almağı oyrətdi. Hz. Əli sonra Rəsulullahla(s.ə.s) birlikdə namaz qılmağa başladı. Kişilərdən ilk namaz qılan hz. Əli, qadınlardan isə hz. Xədicə oldu. Sonra evin içindəki qullar, kölələr duyub bu xəbəri bayıra yaydılar. Hz. Əli atasına və qardaşlarına Hz. Məhəmmədin nübüvvət və risalətindən xəbər verdi. Bu xəbər Əbu Talibin evindən Abbasın evinə də yayıldı. Onlar da bu halı bilib anladılar. Ertəsi gün Hz. Məhəmmədin əmiləri və bibiləri bu xəbəri eşitdilər: "Məhəmmədə göydən vəhy gəldi. Göy Tanrısından bir mələk endi. Onunla danışdı. Həm də ona Allah-təaladan Quran endirdi".Bu sözlər dildə, ağızda dolaşmağa başladı. Bəziləri də eşidib buna gülüşürdü.

Sonra Qureyş uluları Kəbə Hərəminə gəldilər. Hz. Məhəmmədin (s.ə.s) bir əmisi vardı. Adı Əbu Ləhəb idi. O da Kəbəyə gələnlər arasında idi. O da Hz. Məhəmməd haqqında deyilənləri duymuşdu. Qureyşlilər arasında Hz. Məhəmmədin(s.ə.s) sözü düşdü. Dedilər:

– Əbu Talibin yetimi nübüvvət davasına qalxmış, demiş ki, mənə vəhy enmişdir. Cəbrail (ə.) gəldi, mənimlə danışdı, tapşırıq verdi. Doğrudan bu gerçəkdir?

Qureyşlilər Əbu Ləhəbə dönərək:

– Ya Əbdülüzza, ya Əbu Ütbə, sən bizə qardaşın oğlunun halından danış, esidək.

Əbu Ləhəb:

– Mən onunla danışmıram. Mən onu sevmirəm, onun sözlərinə qulaq asmıram. Lakin bilirəm ki, özunə çox güvənir. Özünü böyük hesab edir. Özü haqqında ulu-ulu sözlər deyir. Özünə bəzi adlar qoyur. Kimsə əksini deyə bilirmi?

Bu vaxt Əbu Talib içəri girdi. Qureyşlilərin Məhəmmədin (s.ə.s) əleyhinə sözlər dediklərini anladı. Müğirə oğlu Vəlid, Əbu Müəyyət oğlu Üqbə söz alaraq Əbu Talibdən soruşdular:

– Ya Əbu Talib, o yetim qardaşın oğlunu bəslədin, böyütdün. İndi isə deyirmiş ki, mənə göydən vəhy endi. Mələk vəhyi gətirdi. Mən Rəsuli-Rəbbül - aləminəm(Aləmlər Rəbbinin Rəsuluyam). Bu söz gerçəkmidir?

Əbu Talib:

– Ey qövm! Niyə belə sözlər deyirsiniz? Bu söz sizi niyə belə incidir? Bu günə kimi Məhəmməd sizə gəlib bir söz söyləyibmi? Gəlmədi, söyləmədi. Qapınızı açmadı. Bu sözlər onda olan əlamətlər haqqındadır. Amma siz bilirsiniz ki, yəhudi din alimləri, xristian rahibləri, göydən enmiş kitablardan xəbər verənlər uzun illər boyu bildirirdilər ki, filan tarixdə, filan Ramazanda Məkkə şəhərində bir peyğəmbər peyda olacaqdır. O peyğəmbər xatəmür-rüsul olacaq, peyğəmbərləri tamamlayacaq, son rəsul olacaqdır. Hətta ulduza baxanlar da, kahinlər də bu xəbəri verirdilər. Məhəmməd doğuldu, bu sözləri deyənlər hamısı gəldilər, Məhəmmədi gördülər. Dedilər ki, o axırzaman peyğəmbəri mütləqa budur. Hətta Qureyş ululari, Hərəm seyyidləri də: "Biz də bu qırx ildə müxtəlif möcüzələrini, ayrı-ayrı kəramətlərini öz gözlərimizlə gördük, tamaşa etdik", – dedilər.

Bu sözlərdən sonra Əbu Talib Qureyş xalqından soruşdu:

– Ey qövmüm, Abdullah oğlu Məhəmmədin risaləti və nübüvvəti sizə niyə ağır gəlir? O ayrı yerdən gəlmədi... Qürbətdən gələn bir qərib deyil. Sizə ululuq etməyə qalxmadı. O da sizin qövmünüzdən, sizin əslinizdəndir. Məhəmməd seyyiddir, həm də seyyid oğludur. Əgər bəyənib qəbul edərsəniz, nə əla, əgər sözlərini bəyənməzsiniz, qəbul etməzsəniz, o öz halında, siz də öz halınızda qalarsız.

Əbu Talib sözlərini tamamladı:

– Bu günəş deyil ki, doğsun, gecə olanda da batsın. Siz onun dəvətini,

risalətini görmədiniz, eşitmədiniz. Məhəmməd nəyə dəvət edir? Bilmədiniz. Hələ də, ey qövm, dəvətini anlamadınız. Bilmirsiniz, anlamamısınız, amma indidən narahatlıq keçirirsiz, özünüzə əzab verirsiz. Könlünüzü qüssə ilə,°übhə ilə öldürdünüz.

Qureyşlilər Əbu Talibə heç bir cavab vermədilər, Hərəmdən ayrılib getdilər.

### *Hz. ƏBU BƏKRİN (r.a.) MÜSƏLMAN OLMASI*

Əbül-Həsən-əl-Bəkri (allah ona rəhmət etsin) belə deyirdi :

"Əbu Bəkr Siddiq Hz. Məhəmmədin (s.ə.s) nübüvvətindən on beş il əvvəl belə bir yuxu görmüşdü. Röyasında ay göydən yerə endi. Tihama dağının üstünə düşüb parça-parça oldu. Amma dərələrə, düzlərə səpələnmədi. Yenə bir yerə yığılıb bütöv bir ay oldu. Yenə göyə qalxdı. Yalnız parçalardan bir dənəsi Əbu Bəkrin ətəyində qalmışdı. Əbu Bəkr onu götürüb bağrına basdı. Evinə gəldi. Yuxuların açması kitabı var idi. Bütün səhifələrini açıb baxdı. Burada oxuduqlarından yaxın zamanda Məkkə şəhərində bir peyğəmbərin meydana gələcəyini öyrəndi. Öz-özünə fikirləşdi ki, əgər rəsul gəlsə, mən onun dininə girəcək və iman gətirəcəyəm. O buna niyyət etdi. O vaxt ki Hz. Məhəmməd üçün din dəvətinə Allah-təaladən izin gəldi, ona vəhy endi. Həmin vaxt Əbu Bəkr Vail oğulları qəbiləsindən bir bölük tacirlə Şam elinə ticarətə getmişdi. Orada da bir yuxu gördü. Bir dəniz içində idi. Dalğalar arasında qalmışdı, bata bilərdi. Bu zaman dənizin içindən nurdan bir dirək qalxdı, yüksəldi. Nurdan olan bu dirək tam göyə kimi qalxmamışdı. Ancaq bütün dünyanı işıqlandırmışdı. O, var gücü ilə dirəyə doğru irəlilədi. Ona çatıb iki əllə nur sütunundan möhkəmcə yapışdı. Sonra dönüb xalqı da bu nurlu dirəkdən tutmağa çağırdı.

Əbu Bəkr buyururdu:

– Nurdan olan dirəkdən tutmuşdum ki, birdən yuxudan oyandım. Bu röya haqqında düşünə-düşünə, təkrar yenə yatdım. Bu dəfə yuxumda Məkkə şəhərində bir ayın çıxdığını gördüm, ətrafında çoxlu ulduzlar vardı. Yeni ay yüksəldi, yüksəldi, bütöv ay oldu. Ulduzların işıqları onun parlaqlığından yox oldu. Bütöv ay aşağı endi, görünməz oldu. Camaat yenə bölük-bölük oldu: "O bütöv ayı, bədirlənmiş ayı istəyirik", – deyə xalq qışqırmağa başladı. Mən onlara dedim:

– Ey qovm, o ay mənim yanımdadır. Hamınız mənin yanıma gəlin.

Yaxın olan mələklər bircə-bircə ətrafdakılara mənim yanıma gəlmələri xəbərini verdilər. O zaman yenə oyandım. Öz-özümə fikirləşdim ki, bu yu-

xunu heç kimə deməyim, rahib Buhayraya danışım. Buhayra o rahibdir ki, hz. Məhəmməd 25 yaşında ikən Şam səfərində Xədiceyi-kübranın nökəri Meysərə ilə danışmışdı. Mən də gedib yuxumu ona danışım.

Əbu Bəkr bu düşüncə ilə mallarını satıb işini bitirdi. Yüklərini bağladı. Karvan Şamdan Hicaz elinə doğru yola düşdü. Vailoğullarını hörmətliləri də yanında idi. Çox getdilər, Busrada Buhayranın monastrının yanında dayandılar. Əbu Bəkr(r.a) rahibin yanına getdi. Gördüyü yuxunu, dənizi, dalğaları, ayı ona danışdı. Buhayra dedi:

– Ya Ətiq,  o dəniz ki əvvəlcədən gördün, o bir aləmdir. Qaranlıq da küfr qaranlığıdır. Dənizin içindən çıxan nurdan dirək,  sütun isə Rəsuli Mübindir. Bu il içində nübüvvət rəsuli-Mübinindir. Yaxın vaxtda dəvətini etmək üçün zühur edəcəkdir. Amma o peyğəmbərə inanıb iman gətirənlərin arasında ilk kişi sən olacaqsan. Məkkə şəhərinin üzərində gördüyün və böyüyərək bədr halına gələn ay o rəsuldur ki, peyğəmbər oldu. O, aləmdə məşhur olacaq, ümməti dünyanı tutacaqdır. Amma dunyadan köçüb gedəcəkdir. Sən xəlifə olacaqsan. Sən xalqı bir araya gətirəcəksən. Onun ümmətinin ayrılmasına, dağılmasına mane olacaqsan.

Bundan sonra Busradan hərəkət edən Əbu Bəkr Vəlioğullari qəbiləsi ilə Məkkəyə gəldi. Oradan Yəmənə getdilər, ticarət etdilər, geri döndülər. Yolda ərəb qəbilələrindən olan Əzd qəbiləsinin qonağı oldular. Qəbilənin içində çox yaşlaşmış, qocalmış ixtiyar bir kişi var idi. Durub-oturmağa belə qüvvəsi qalmamışdı. İxtiyarı pambıq yatağın üstündə yatırırdılar. Adı Həvakin oğlu Ətkəlan idi. Əbu Bəkr onun evində qonaq oldu. Yüklərini açdı, bir az satdı. Sonra ixtiyarın yanına keçdi, oturdu. O, yatağında Əbu Bəkri gözləyirdi. Əbu Bəkr oturan kimi yataq xəstəsi ixtiyar dedi:

– Ey igid, sən Hərəmullahdanmısan?

Əbu Bəkr:

– Bəli, mən Məkkə şəhərindənəm.

Ətkəlan:

– Qureyşlərdənmisən?

Əbu Bəkr:

– Bəli, Qureyşlərdənəm.

– Kimlərdənsən?

– Mən Mürrə oğlu Təmimoğullarındanam.

İxtiyar:

– Mənim sənə bir şad xəbərim, muştuluğum var. Amma səndə bir nişan var. Yalnız o nişanı görəndən sonra, sənə bu şad xəbəri deyərəm.

Ətkəlan sonra Əbu Bəkrə:

– Sənin adın nədir?

Əbu Bəkr:

– Mənim adım Osman oğlu Abdullahdır, − deyə cavab verdi.

Yataq xəstəsi qoca:

– Ya Abdullah, mən çox yaşamışam bu dünyada. Göydən enən kitablarda nə varsa dəfələrlə oxumuşam. Çox din adamları, alimlər, rahiblər, ravvinlərlə birlikdə oturub-durdum, söhbətlər etdim. Bundan əlavə, çox ulduzlara baxanlarla, münəccimlərlə birlikdə danışdıq, fikir mübadiləsi apardıq. Göy elmini, bir sıra başqa elmləri öyrəndim. Bütün bu axtarışlarımda məqsədim axırzaman peyğəmbərinin tarixini öyrənmək oldu. Nə vaxt doğulacağını, xasiyyət və xüsusiyyətlərini, əlamət və nişanələrini öyrəndim. Aləmləri yaradan Allaha həmd olsun ki, o günə yetişdim. Həmin rəsuli-Rəbbül-aləmin dünyaya gəldi. Rəsulluq libasını geyindi. Xalqı İslam dininə dəvətə başladı.

Əbu Bəkr bu sözləri eşitdikdə:

– Ya şeyx, o Rəsulun şəklini, əlamət və nişanələrini mənə de.

İxtiyar şeyx Hz. Məhəmmədin bütün nişanələrini Əbu Bəkrə söylədi:

– Ey oğlum Abdullah, onu sənə belə təsvir edirəm. O kərim bir seyyiddir. Böyük nurlu bir insandır. Şərəfi böyük, rəngi parlaq ağdır.

Əbu Bəkr qoca şeyxdən bu sözləri eşidib çox şad oldu:

– Ya şeyx o nişanələrini söylədiyin rəsul mənim Həbibim, seyyidim, Əbdülmüttəlib oğlu Abdullah oğlu Məhəmməddir, ən yaxın dostumdur.

İxtiyar:

– Bəli, onun babasının, atasının adını düzgün söylədin. Amma ya Abdullah, əvvəlcə Qureyş kişilərinin arasında ona iman gətirən sən olacaqsan. Onun xəlifəsi olacaqsan. Bir xəbəri də deyirəm. Sənə onun sirr dostu olmaq nəsib olacaqdır. Sənin də bir nişanin vardır. Həmin nişanı mənə göstər. O rəsulun yarı-vəfadarı sənsən.

Əbu Bəkr soruşdu:

– O nişanlar nədir?

İxtiyar:

– Sinənin aşağısında göbəkdən yuxarı bir xal var, sol tərəfində də nişanə vardır.

Əbu Bəkr:

– Bəli, bu nişanələr məndə vardır.

Əbu Bəkr köynəyini qaldırıb nişanələri şeyxə göstərdi:

– Allah qismət etsə, Məhəmməddən sonra xəlifə sən olacaqsan. Amma sənə deyiləsi bir-iki nəsihətim, öyüdüm var.

Əbu Bəkr:

– Ya şeyx, mən də o öyüd-nəsihəti mübarək dilinizdən eşitmək istəyi-

rəm.

Şeyx Ətkəlan dedi:

– Ey oğul, nə zaman ki Rəsula iman gətirəcəksən, artıq dünya düşüncəsində olma. Həyatını, malını, övlad və ailəni onun yolunda fəda et. Onun üzündən sənə zəhmət, çətinlik, hətta bəla gələrsə, ondan üz döndərmə. Onun dininin yolunda əzablara döz. Onun bir əmisi oğlu da var. Adı üç hərfdəndir (Əli). Çox qeyrətli, bacarıqlı bir uşaqdır, gəncdir.

Əbu Bəkr yenə soruşdu:

– Ya şeyx, o Rəsul risalət dəvətinə nə vaxt başlayacaqdır?

Şeyx:

– Bu ay içərisində ona Cəbrail – Namusu-əkbər gəldi. Ona vəhy gətirdi.

Şeyx sonra Əbu Bəkrə bu sirri tapşırdı:

– Ya Abdullah, sənə bir vəsiyyətim var. Onu sənə əmanət edirəm. Bu əmanəti ona bildirərsən. Mənim onun dininə girdiyimi söyləyərsən. Onun dininə inanıram. Amma gücüm yoxdur ki, o Rəsulun mübarək camalını görüm.

Əbu Bəkr:

– Nə əmanətin varsa söylə, eşidim, ya şeyx.

Yataq xəstəsi qoca:

– Məkkə şəhərinə gəldiyin zaman onun mübarək üzünü gör, onun dininə gir. Mənim salamımı böyük Rəsula de, iman gətir. Həm də "Ətkəlan sənin dininə girdi, Rəsulluğuna inandı"... söylə. Ey Abdullah, məni görürsən, ora getməyə, onun mübarək üzünü görməyə, söhbətinə qulaq asmağa, xidmətində durmağa gücüm yoxdur. Çox zəifəm, halsızam. Diləyim, məni şəfaətindən məhrum etməsin. İstəyim ancaq budur.

## *ƏBU BƏKRİN DÖRDÜNCÜ YUXUSU*

Əbu Bəkr yaşlı adamın xatirini xoş etmək üçün ona çoxlu gözəl sözlər dedi. Sirrini saxladı. Ondan ayrılıb Məkkəyə yollandı. Gecə karvanla gedirdi. Əbu Bəkr bir dəvəyə minmişdi. Onu yuxu tuturdu. Dəvəsini yolun kənarına çəkdi. Dəvəsindən enib elə oradaca, dəvənin yanında yatdı. Birdən bir kişinin onu dümsüklədiyini hiss etdi. Amma yaxınlıqda heç kimi görmədi. Yenə yuxuya getdi. Yenə kimsə onu dümsüklədi. Oyandı. Yenə heç kim yoxdur. Amma qulağına bir səs gəldi. Bu səs: "Ey qaranlıq içində yatan insan. Yollarımızı üsyan və şirk almışdır. Allahın Rəsulu Məhəmməd mütləq bizi fəlakətdən qurtaracaqdır", – dedi.

Əbu Bəkr deyir ki:

– Mən buna diqqət vermədim. Yatdım. Fəqət yenə dümsükləndim, bu dəfə daha da şiddətli. Yuxudan oyandım. Səmadan bir səs gəldiyini duydum. Mənə: "Sən mənim sözümün doğruluğuna inan. Mələklər aləminin göndərdiyi Nəbi bütün kasıb və kölə insanlar üçün göndərilmişdir", – deyirdi.

Mən ürəkləndim. Ağlım başıma gəldi, səma səsinə cavab verdim.

Əbu Bəkr bundan sonra daha yata bilmədi. Dəvəsinə minib yola düzəldi. Məkkə girişində, elə şəhər qapısından içəri girəndə birinci qureyşlilərdən Əbu Müeyt oğlu Üqbəni gördü. Salamlaşdı, Üqbə ona:

– Ya Əbu Qühafə oğlu, sənin sahibini gördün nə elədi? – dedi.

Əbu Bəkr soruşdu:

– Kimdir o sahibim, ya Əbu Vəlid?

Üqbə:

– Kim olacaq, Abdullah oğlu Məhəmməd.

Əbu Bəkr Siddiq:

– Məhəmmədə nə oldu? Nələr baş verir?

Üqbə cavab verdi:

– Məhəmməd peyğəmbərilik davası edir... "Mən rəsulam, peyğəmbərəm deyir. Mənə göydən vəhy endi. Cəbraili, o Namusu Əkbər, o mələki-əzim Allah-təaladan mənə Quran gətirdi", – deyir.

Əbu Bəkr:

– Ya Əbu əl -Vəlid, ya Uqbə! Heç Məhəmmədin yalan söylədiyi olubmu? Kiçik yaşlarından indiyə qədər sözündə yanlış bir söz, yalan gördünüzmü, eşitdinizmi?

Üqbə:

– Heç bir zaman onun işində biz yalan və xainlik görmədik. Bütün Qureyş içində adı Əmindir. Ancaq bu dəfə o özünə "Peyğəmbərəm..." deyir. Bu böyük bir işdir, cavabdehlikdir. Biz buna inanmırıq. Bizim ulu düşmənimiz Məhəmmədin bu sözlərini gerçək deyə qəbul edən, sözünə və əməlinə inanan insanlar var. Bizim böyük dostlarımız da Məhəmmədə "Sən yalan söyləyirsən!" deyirlər.

Əbu Müeyt oğlu Üqbə bu sözləri deyərək yoluna davam etdi. Əbu Bəkr bunu eşidincə könlünə bir narahatlıq düşdu. Evinə getdi, yüklərini boşaltdı. Sonra evə girdi. Qohum-əqrəbadan eşidib gələnlərlə görüşdü. Yol paltarını çıxarıb təmiz və gözəl libaslarını geydi. Qalxıb Hz. Məhəmmədin evinə yollandı. Orada Rəsulullahla (s.ə.s) görüşdü. Əbu Bəkr soruşdu:

– Ya Məhəmməd, ya Həbibi! Nə üçün camaatdan, qövmdən iraq oldun? Yığıncaqlara getməzsən, aralarına girməzsən. Ulular sənə olan-olmaz iftiralar deyirlər. İndi dilə-dişə düşmüsən.Səni gizlənməyə məcbur etmək, bez-

dirmək istəyirlər.

Hz. Məhəmməd Əbu Bəkrə bu cavabı verdi:

– Ey xeyirli adam! Allah-təala məni Rəsulu seçdi, Elçi olaraq göndərdi. Xalqı Ona ibadətə çağırım deyə... Məni peyğəmbərliklə vəzifələndirdi. Mən Qureyşə nəsihət etdim. Mən onları doğru yola, ibadətə çağırdım.

Əbu Bəkr bu sözləri dinləyərək:

– Atam-anam sənə fəda olsun, ya Məhəmməd, – dedi, – bu nə dindir ki sən xalqı ona dəvət edirsən?

Hz. Məhəmməd (s.ə.s) cavab verdi:

Lə iləhə İllallah Muhəmmədən Rəsulullah. Bu din Allahın birliyinə imandır. Şəhadət gətirmədir.

Əbu Bəkr də Hz. Məhəmmədə dedi:

– Sən yaxşı bilirsən ki, hər dəvət sahibi, nəbi, hər göndərilən rəsul, hər ülul-əzm, Allahdan vəhy gəlmiş (Nuh, İbrahim, Musa, İsa və Məhəmməd Mustafa əleyhissəlamdırlar) peyğəmbər cahana gəldi, dəlil, sübut, sənəd istəyirlər. Sizin dəlil, sübut və sənədiniz nədir deyirlər?

Hz. Məhəmməd(s.ə.s) buyurdu:

– Ya Əbu Bəkr, dəlilimiz, sübutumuz və sənədimiz sənin qatında vardır.

Əbu Bəkr Siddiq:

– Ey Həbibi, ya Seyyid, onu mənə söylə, açıqla.

Hz. Məhəmməd cavab verdi:

– Şam ölkəsində iki dəfə yuxu gördün. Sonra o yuxuları rahib Buhayraya yozdurdun. Sonra Yəmən yolunda Əzd qəbiləsinin yanında dayananda sonrakı yuxuları şeyxə danışdın, o da sənə onları anlatdı, öyüdlər, nəsihətlər verdi. Sənə sirr tapşırdı. Gecələr səmadan səslər eşitdin.

Olmuşları Hz. Məhəmməd Əbu Bəkrə danışıb bitirəndə, o Rəsulullahın ayağına düşdü:

– Atam-anam sənə fəda olsun, ya seyyid, ya Məhəmməd, bu xəbərləri sənə kim gətirdi? Kim bildirdi?

Hz. Məhəmməd (s.ə.s.) dedi:

– Ya Əbu Bəkr, mən Allahın rəsulu Mustafayam. Möminləri dəvət etməyə vəzifəliyəm. Cəbrail mənə Allahdan vəhy endirməkdədir.

Əbu Bəkr Siddiq demişdir:

– Rəsulun (s.ə.s) sözü tamam olunca, mən onun mübarək camalına dönüb baxdım. Rəsulun (s.ə.s) mübarək üzündən nur dalğalanırdı. Mənə bir anda belə bir hal gəldi. Qəlbim iman nuru ilə doldu. Nübüvvət heybəti vücuduma hopdu. Ağlım, düşüncəm, fərasətim, könlüm, canım dinə qapandı. Din elə bil ki, bir an içərisində bütün bədənimi tutdu.

Əbu Bəkr sonra şəhadət gətirərək dedi:

– Ya Həbibi, ya Məhəmməd. Əşhədü ən lə ilahə İllallah və əşhədü ənnə Məhəmmədən əbduhu və rəsuluhu.

Əbu Bəkr kəlmeyi - şəhadət gətirəndən sonra Hz. Məhəmməd:

– Ya Əbu Bəkr, ey Abdullah. Səadətə çatdım. Allah məni sənə bağladı. Sən mənim qulumsan və İslamın qulusan. İmanın mübarək olsun, − dedi. Sonra Əbu Bəkri qucaqlayıb öpdü və buyurdu:

– Ya Ətik, Yəməndəki Ətkəlanın şeirini söylə, eşidim.

Hz. Siddiq o qoca şeyxdən eşitdiklərini təkrat etdi. Onun salamını çatdırdı. Etdiyi öyüdlərini dedi. Müsəlmanlığını söylədi. Hz. Məhəmməd də (s.ə.s) salamını aldı və dedi:

– Sənə və ona salam olsun! Allah onu axirət günündə rahat olaraq dirildəcək.

Hz. Məhəmməd(s.ə.s) Əbu Bəkrin İslamı qəbul etməsinə, müsəlman olmasına çox sevindi, bəxtiyar oldu. Bir yerdə Əbu Talibin evinə gəldilər. Hz. Əliyə:

– Ya Əli, Əbu Bəkr üçün su hazırla qoy qüsl alsın.

Hz. Əli su hazırladı. Əbu Bəkr İslamı qəbul etdiyi üçün qüsl aldı, dəstəmaz almağı öyrəndi. Sonra Hz. Məhəmməd namaz qılmaq qaydalarını bircə-bircə ona öyrətdi. Birlikdə namaz qıldılar.

O gün Əbu Talib evində deyildi. Birdən Əbu Talibin qapıdan içəri girdiyini gördülər. Əbu Bəkr qalxıb Əbu Talibi qarşıladı, qucaqlaşdılar. Salamlaşıb, keçib Allah rəsulunun yanında oturdular. Hz. Məhəmməd(s.ə.s) Əbu Bəkrin İslamı qəbul etməsi xəbərini Əbu Talibə dedi. O:

– Ya Əbu Quhafə oğlu, İslamın mübarək olsun, − dedi.

Ondan sonra Hz. Məhəmməd (s.ə.s) ilə Əbu Bəkr(r.a) qalxıb evlərinə getdilər.

Birdən-birə Qureyşin içinə hay-küy düşdü. Ara söhbətləri ildırım sürəti ilə yayıldı: "Əbu Bəkr də Məhəmmədə uydu, İslamı qəbul etdi, Məhəmmədə tabe oldu. Ata-babasının dinini tərk etdi".

Qureyş xalqı bu işi çox pis qəbul etdi. Aralarında danışdılar, bir yerə toplandılar:

– Ey qövm, gördünüzmü, o bəyənmədiyiniz insan aramıza bəzi sözləri ilə necə fitnə saldı? Bu seyyidi Əbu Quhafəyə nə oldu ki, Məhəmmədə uydu. O ki ağıllı, zəkalı bir kişi kimi tanınırdı. Qureyşin tanınması onunla çökdü. O da Qureyşin ulu seyyidlərindən idi. Neçə məliklərlə, sultanlarla görüşmüşdü, çətin məsələləri həll etmişdi. Dörd tərəfdə böyük hörmət sahibi idi. Bu gün yoldan gəldi. Seyyidlərə salam vermədən evinə getdi. Sözsüz bir məcnunun sözünə uydu. Ata-baba dinini buraxdı. Adını Qureyş başçıları dəftərindən sildi,

bir tanınmayan dini qəbul etdi. Bu nə biabırçılıqdır?

Bu olanlara Qureyş ululları çox pərişan olmuşdular. Hətta bəziləri:

– Gəlin Abdullah ibn Osmanın (Əbu Bəkr) evinə gedək, danışaq, başa salaq, sonra da peşman olduğunu etiraf etdirək, – deyirdi.

Başqa bir qisim də:

– Yox, ululardan bir neçəsini göndərək. Danışıb bir sehrbazın, kahinin sözünə inanıb dinini dəyişdirməyin fəlakətini anlatsınlar.

Nəhayət, Muğirə oğlu dilləndi:

– Bu gün hələ səbir edin. Əmr ibn As onun yoldaşı və dostudur. Bu gün ticarətdən geri dönür. Gecə gələcək.Əbu Bəkrlə danışmağı ona həvalə edərik.

Bu təklif qəbul edildi. Hamı dağılışdı.

## *ƏBU BƏKR EVİNƏ GƏLİR*

Əbu Bəkr evinə döndü. Hərəminə girdi. Bayırda olan işlərini bitirmişdi. Xanımı Ümmü Rummanı otağına çağırdı. Ona İslam dininə girdiyini söylədi. Onu da İslama dəvət etdi. Bu bəxtli qadın hz. Əbu Bəkrə qulaq asıb təklifini qəbul etdi. Müsəlman oldu, iman gətirdi. Axşam oluncaya qədər Siddiq evindən çıxmadı. O gün Məkkə kafirlərinin üzünə baxmadı. Axşam qaranlıq düşəndən sonra Hz. Məhəmmədin (s.ə.s) yanına getdi. O günə qədər enən ayələri oxudu, öyrəndi. Hz. Məhəmməd Əbu Bəkrdən soruşdu:

– Sənin doğru yola getdiyini, hidayətə yetişdiyini, Allah- təaladan mərhəmət tapdığını, dinə girdiyini qureyşlilər eşitdimi, bildimi?

Ətik:

– Ya Seyyidi, məni onların eşidib-eşitməməyi heç narahat etmir. Mən ilk öncə o andı qəlbimdə pozulmaz hərflərlə yazdım. Mənim malım, canım, oğlum, qızım sənin dinin yolunda fədadır. Bu Haqq dinə şəhadət gətirdim, şahidlik etdim. Önündə müsəlman oldum. Bundan sonra dünya əhli dost olsun, düşmən olsun, nəyimə gərəkdir...

Bu sözləri eşitdikdən sonra Rəsulullah (s.ə.s) dua etdi:

– Ya Ətiq, sən Qureyş içində ulu seyyidsən. Mülk və mal, izzət və hörmət sahibi, yetkin, ağıl, geniş fikir və sadiq söz ululuğuna layiqsən. Qəlbin mətin, əlin comərddir. Sənin kimi rəy sahibi, məsləhət verməyi bacaran, önəmili işlərdə tədbirli bir seyyidin onlardan ayrılması, aralarından getməsi Qureyşə, əlbəttə, ağır gələcəkdir.

Bundan sonra Əbu Bəkr evinə döndü. Ertəsi gün Məkkə şəhərinə yeni bir xəbər yayıldı.

## ƏMR İBN ASA MÜRACİƏT

Əmr ibn As ilə Hişam oğlu Haris ticarət edib Həbəşdən sağ-salamat geri döndülər.

Əmr ibn As Əbu Bəkrlə çox yaxın dost idi. İkisi birlikdə çox uzun yolçuluq etmişdilər. Şəhərə yaxınlaşanda Hərəm uluları onları qarşılamağa çıxdılar. Görüşüb söhbət edə-edə şəhərə gəldilər. Əbu Cəhl lənətullah, Xələf oğlu Übeyy As oğlu Əmrla yanaşı gedirdilər. Əbu Bəkrin müsəlman olmasından söhbət salmışdılar.

Əbu Cəhl:

– Ya As oğlu, Osman oğlu Abdullah (Əbu Bəkr) gördün, nə pis iş gördü?

As oğlu Əmr:

– Ya Əbu əl- Həkəm, nə işlərdir, mən bilmirəm.

Əbu Cəhl:

– Dünən səfərdən şəhərə gəlmişdi. Heç dincəlmədən bir neçə gündür ki, "Mənə nübüvvət gəldi, Allah-təalanın rəsulu oldum. Mənə göydən məliki-Əzəm Cəbrail gəldi. Risalət xələti gətirdi. Mənə xalqı dinə dəvət etməyi tapşırdı" deyən sehrçinin, cadugərin yanına getdi. Düzü, biz ondan bir şey eşitmədik. Bizə bir söz demədi. Amma xalq arasında yalan gerçək deyirlər, Əbu Qühafə oğlu Ətiq tezcə onun ayağına düşdu. Qureyş dinini buraxdı. Onun dininə girdi, sözünə inandı. Yalan sözlərinə aldandı. Bütün Qureyş seyyidləri tam çaşıb qalıblar. Amma biz sənın gəlməyini gözləyirdik. Bundan sonra nə etmək lazımdır, sən bilirsən. Nə düşünsən, onu da edərik.

Əmr ibn As bu sözləri eşitdikdə çox məyus oldu. Əbu Bəkrin bu hərəkəti ona çox ağır gəldi. Dedi:

– Ey qövm, mən sizə o gecədən söyləmişdim. Bu uşağın hərəkətlərindən xəbəriniz olsun. Siz mənim sözlərimi dinləmədiniz, eşitmədiniz. Sizə nə etdi, indi ortadadır. Nübüvvət davası etdi, dinimizə batil dedi. Bu xalqın çoxu onun dediyinə inanacaqdır, ona qoşulacaqdır.

Bundan sonra Əmr onlardan ayrılaraq evinə gəldi. Yükləri açdı, vacib işlərini gördü. Qohum-əqrəba və uşaqları ilə görüşdü. Bir neçə beyt şeir yazdı və aparıb Əbu Bəkrə verdi. Əbu Bəkr seiri oxuyub çox hirsləndi:

– Yəni mən Allah-təalanın Rəsuluna sədaqətli olduğum üçün Əmr ibn As mənə ağılmı verir? – deyə qışqırdı, – mənə mürəkkəb və qələm gətirin.

Cavab yazdı. Bu cavab Qureyşin uluları qarşısında oxundu. Yazdığı seirə hamı heyran oldu.

Amma heç kimin ağılına belə gələ bilməzdi ki, Əbu Bəkr bir anda dinindən ayrılıb İslamı qəbul edəcəkdir. Həm də bir yetimin ayağına düşəcək?

Bir neçə gündən sonra Əbu Bəkrin müsəlman olması haqda söhbətlər bitdi, heç yada da düşmədi.

## *ƏFV OĞLU ƏBDÜRRƏHMANIN MÜSƏLMAN OLMASI*

Əbu Həsən əl Bəkri(Allah ona rəhmət etsin) deyirdi:

– Əbdürrəhman ibn Əvf əşəreyi-mübəşirrədən, yəni sağlığında Cənnətlə müjdələnən Hz. Rəsulun ulu səhabələrindəndir. Hz. Peyğəmbər (s.ə.s) tərəfindən Cənnətlə mujdələnmiş 10 nəfər bunlardır: 1.Əbu Bəkr Siddiq, 2.Əli ibn Əbu Talib, 3.Ömər ibn Xəttab, 4. Osman ibn Əffan, 5.Təlha ibn Übeydullah, 6. Zübeyr bin Əvvam, 7. Əbdürrəhman bin Əvf, 8. Sad bin Vəqqas, 9. Səid bin Zeyd, 10.Əbu Übeyd bin Cərrah.(Allah onlardan razı olsun). On dostundan, yaxınından biri idi.

Əbdürrəhman bin Əvfin İslama gəlməsinin səbəbi belə olmuşsur: o, Yəmənlə çox ticarət edirdi. Malı, ruzisi çox olan bir tacir Əbdürrəhman Yəməndən Məkkəyə dönərkən yolu Əzd qəbiləsinə düşdü. Dayanıb bir az dincəlmək istədi. Şeyx Ətkəlanın evinə gəldilər. Onun qonağı oldular. Əbu Bəkr də onun qonağı olmuşdu. Ətkəlan ona dedi:

– Ya Əbdürrəhman, heç bilirsən ki, Məkkə şəhərində nələr baş verir? Nə hekayələr var?

Əbdürrəhman:

– Ya şeyx, mən bir müddətdir ki səfərdəyəm, bir şey bilmirəm.

Ətkəlan:

– Səadət qapıları sizin üzünüzə açıldı. Aləmlərin üstünə rəhmət, məğfirət(Allahın günahları bağışlaması) qapısı açıldı.

Sonra ixtiyar şeyx əlavə etdi:

– Ya Əbdürrəhman, nə zaman ki vətəninə gedib çatacaqsan, sən heç dincəlmə. O doğru mübarək insanın üzünü görməyincə, bir işə başlama.

Əbdürrəhman Məkkəyə döndü. Evinə gəldi. Ev əhlini, uşaqlarını gördü. Sonra yolun tozunu təmizləyib Əbu Bəkrin evinə getdi. Onunla görüşdü. Çünki Əbdürrəhman Əbu Bəkrlə and içmişdilər ki, hər birinin dostu ümumu dost, düşməni ümumi düşmən olacaqdır. Əbu Bəkr Əbdürrəhmanın gəldiyini eşidincə tez qapıya onu qarşılamağa çıxdı. Görüşüb onu içəri dəvət etdi. Birlikdə söhbətə başladılar. Sözü əvvəlcə Əbdürrəhman açdı. Yəməndə Ətkəlanın sözlərini və sirrini danışdı. Əbu Bəkrin üzündə incə bir gülüş hiss olundu. Sevindi:

– Vallah, ya Əbdürrəhman qardaşım, bu hal, bu sərəncam mənə də eyni ilə bildirildi.

Sonra Hz. Məhəmmədin (s.ə.s) mübarək üzünü gördüyünü, onunla bir saat söhbət etdikdən sonra barmağını qaldırıb necə iman gətirdiyini, müsəlman olduğunu anlatdı. Dediklərinə əlavə etdi:

– Ya Əbdürrəhman, Allaha şükür edirəm, minnətdaram ki, axırzaman peyğəmbəri Məhəmməd bin Abdullah (s.ə.s) bizim zamanımızda meydana gəldi. Bizim aramızdan çıxdı. İndi, ya Əbdurrəhman, çox düz eşitmisiz və bilirsiz ki, bu illərdə, bu aylarda vəhy enəcəkdir. Bu vəhy Məkkədə enəcəkdir. O zaman deyə bilərik ki, Hz. Məhəmmədən başqa kim var ki ona vəhy enə. Nübüvvətə və risalətə layiq ancaq o ola bilər. Qəbilələrimiz Əbdüminafoğullarında, Əbdüddaroğullarında, Əhdüşşəmsoğullarında belə bir kimsə varmı? Qəbilələrin içində kimsə varmı? Sən gözəl bilirsən ki, ancaq bir kişiyə vəhy enəcəkdir.

Əbdürrəhman:

– Vallah, ya qardaşım, dediklərin içində vəhy enəcək birisi yoxdur.

Siddiq dedi:

– Ya Əvf oğlu, indi gələk Haşimoğullarına. Əbdülmüttəlib oğullarını bir-bir qəlbimizdən keçirək. Onların içində də Həbibdən başqa nübüvvətə layiq birisi varmıdır?

Bu söhbətlərdən sonra Əbu Bəkr Əbdürrəhmanı götürüb Hz. Məhəmmədin (s.ə.s) yanına getdi.

Əbdürrəhman o hadisələri belə anlatmışdı:

– Nə zaman ki Rəsuldan icazə gəldi, içəri girdim. Rəsulun mübarək camalına baxdım. O da mənə baxıb gülümsədi:

– Ya Əvf oğlu, üzündə xeyir nişanələri görünür. Sanki xeyir işlərə layiq kimsələrin rəngini üzünə vurmusan.

Mən bu sözləri eşidincə:

– Ya seyyid, o xeyr nişanələrini bilirəm, – dedim.

Hz. Məhəmməd(s.ə.s):

– Əzd qəbiləsindən şeyx Ətkəlan sənə öyüd verdi. Bir neçə beyt seir oxudu.

Mən bu sözləri eşidəndə az qala özümdən getmişdim. Yenidən ağlım yerinə gəldi. Ətkəlanın öyrətdiyi şeiri Rəsula dedim. Dinlədi və mənə buyurdu:

– İslamı qəbul et, ya Əbdürrəhman.

Bu sözləri eşitdikdə Əbdürrəhman bin Əvf barmağını qaldırıb:

"Əşhədu ən lə ilahə İllallah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu". Kəlmeyi-şəhadəti bitirdikdən sonra Hz. Məhəmməd (s.ə.s) Əbdürrəhmanı bağrına basdı. Sonra qüsl verdirdi. Dəstəmazın tərtibini, qaydasını göstərdi. Namaz ərkanı və qaydalarını öyrətdi. Hz. Məhəmməd(s.ə.s),

hz. Əli, hz. Əbu Bəkr və Əbdürrəhman dördü birlikdə namaz qıldı.

Beləcə, dövrün tarixçiləri dördüncü müsəlman olmuş kişinin hz. Əbdürrəhman olduğunu yazmışlar. Sonra hz. Əbu Bəkr(r.a) Əbdürrəhmanı öz evinə gətirdi. O, çox sevinirdi:

– Ya Siddiq, nə edim, din yolunda, iman şükrünə nə xərcləyim?

Əbu Bəkr cavab verdi:

– Ey qardaşım Əbdürrəhman, bu din yolunda görəcəyin iş inamının, etiqadının tam və dürüst olmasıdır. Nəbadə Allaha ortaq qoşanlara, müşriklərə inanasan. Onların əziyyətlərinə, pisliklərinə səbrli olmalısan. Öz işlərinlə məşğul ol. Gözün, qulağın daima Rəsulun yanında olsun. Nə söylərsə, eləcə də hərəkət et.

Əbdürrəhman qalxıb öz evinə getdi.

## *ƏBU CƏHLİN NARAHATLIĞI*

Kafirlərin şəriri, Allahın lənətinə gəlmiş Əbu Cəhl Əbu Bəkrin İslamı qəbul etdiyini eşidəndə gecə gözündən yuxusu qaçmış, bu hadisə ağlını və fikrini qarışdırmışdı. Çox böyük narahatlıq keçirirdi. Dörd yana casuslar qoymuşdu. Bunlar Hz. Məhəmmədin (s.ə.s) yanına kimlərin gəlib-getdiyini izləyirdilər. Bir gün casuslar Əbu Cəhlin yanına gələrək dedilər:

– Ey Əbu Cəhl, Əvf oğlu Əbdürrəhman Yəməndən ticarətdən gəldi. Evinə girdi, amma oturmadı. Əbu Bəkrin evinə getdi. Sonra onlar birlikdə Məhəmmədin evinə getdilər. Bir müddət qalıb sonra çıxdılar. Əbu Bəkrin Əbdürrəhmana Məhəmmədin dinindən bəzi şeyləri öyrətdiyini gördük və eşitdik.

Əbu Cəhl − o məlun – bu xəbəri editdikdə başında hər şey qarışdı, tez Qureyş hörmətlilərini topladı. Onlara Əbdürrəhman haqqında casusların xəbərini çatdırdı. Ona qulaq asandan sonra Hərb oğlu Süfyan dedi:

– Ya Əbəl-Həkəm, sənin fikrin nədir? Tədbirin varmı? Nə edəcəyini düşünmüsənmi?

Əbu Cəhl lənət olmuş:

– Bir yerə yığışın, o sehrçinin sözlərinə inananlarla söhbət edək. Yenə dinimizə qaytaraq. Əgər sözümüzə baxmazlarsa, onda şəhərdən çıxararıq, sürgün edərik. Əgər belə etməsək, Məkkə şəhəri çökər, dinimizin hörməti, izzəti qalmaz. Getdikcə xalq içində zəlil, kasıb, rüsvay olarıq. Cəmiyyətimiz dağılar, özümüz biabır olarıq. Mən bunu demək istəyirdim.

Cədan oğlu Əbdüllat sözə qarışdı:

– Ya Əbu Həkəm, sənin düşündüyün yaxşı fikir deyil. Çünki Abdullah

oğlu Məhəmməd qövm və qəbilə sahibidir. Haşimoğullarının ulular, Əbdümənaf seyyidləri, Əbdülmüttəliboğulları Məhəmmədin arxasındadırlar. Məhəmmədə dəli desək, bu onun qəbiləsinin xoşuna gəlməz. Aramıza ayrılıq düşər, qılınc, xəncər çəkilər. Bütün işlərimiz ziyana gedər. Haşimoğulları uluları ilə görüşmək lazımdır. Nə iş görsək, onların razılığı ilə olmalıdır.

Qureyşlilər bu sözü daha ağıllı və qəbul edilə biləcək hesab etdilər. Hz. Məhəmmədin (s.ə.s)ı əmiləri ilə görüşüb danışmaq qərarını verdilər. Oradan Əbu Talibin evinə yollandılar.

## *ƏFFAN OĞLU OSMANIN İSLAMI QƏBUL ETMƏSİ*

Əffan oğlu Osman, Əvf oğlu Əbdurrəhmandan üç gün sonra müsəlman olmuşdu. Hz. Osmanın İslamı qəbul etməsinin səbəbini belə deyirlər ki, bir gün Əffan oğlu Kəbə Hərəmində oturmuşdu. Yanına bir kişi gəldi:

– Ya Osman, Abdullah oğlu Məhəmmədin qızı Ruqiyyə xatunu Əbu Ləhəbin oğlu Ütbə üçün istəyirlər.

Hz. Məhəmmədin bir qızının adı da Zeynəb idi. Hz. Xədicənin qardaşı Rəbiə oğlu Əbu Asa vermişdi. Çox gözəl üzü var idi. Ruqiyyə Zeynəbdən kiçik idi. Amma çox gözəl bir camalı və üzü var idi. Onu əmisi Əbu Ləhəb oğlu Ütbəyə almaq və onları evləndirmək istəyirdi. Bu Rəsulullaha vəhy enməzdən əvvəl idi. Nübüvvətdən sonra Ruqiyyəni təkrar istədi.

Əffan oğlu Osman bunu eşitdi. O da evlənmək istəyirdi. Hər tərəfdən qızları axtarıb seçirdi. Rəsulullahın qızı Ruqiyyəni Əbu Ləhəbin oğlu Ütbə üçün istədiklərini eşidəndə xeyli həyəcanlandı. Çünki o, Ruqiyyəni ürəyində daşıyırdı. Onu atasından istəməyə hazırlaşırdı. Bu pis xəbəri alınca tez evinə döndü. Onun xalası Səda kahinlik edər, ulduzlara baxardı. Anası Əbdülmüttəlibin qızı Bəyzə xatun idi. Osman evə gələndə Səda xatun evində oturmuşdu. Osman sevindi. Onun yanına keçdi:

– Xalacan, mən Abdullah oğlu Məhəmmədin qızı Ruqiyyə ilə evlənmək istəyirəm. Amma onu Əbu Ləhəbin oğlu Ütbə üçün istəyirlər. Sən onu mənim üçün niyə istəmədin?

Səda xatun gülümsədi:

– Ey bacımın oğlu, sənə bir muştuluq və şad xəbərim var.

Əffan oğlu Osman:

– Xalacan, o nə xəbərdir ki, muştuluq istəyəcəksən?

Səda xatun:

– Ya Osman, Məhəmməd qızını sənə verəcəkdir.

Osman:

– Necə mənə verəcək ki, əmisi Əbu Ləhəb onu oğluna istəyir.

Səda xatun dedi:

– Qız sənə nəsib olacaqdır. Məhəmməd onu Əbu Ləhəbin oğluna verməz. Çünki bu günlərdə nübüvvət xələtini geydi. Allah-təala Məhəmmədə bir peyğəmbərlik verdi. Cəbraillə Quran göndərdi, xalqı İslama dəvət etməsini əmr etdi. Əbu Ləhəb isə Məhəmmədin ulu düşmənidir. Osman bil ki, Ruqiyyə xatun o kafirə nəsib olmayacaqdır. Ey oğul, sən də bütlərə inanmağı unut. Bütlərə ibadət etməyi burax. Əbu Quhafə oğlu Ətiq (Əbu Bəkr) hər nə edirsə, onun kimi elə. O, yoldan gəldiyi zaman böyük bir inamla Hz. Rəsulun yanına getdi və dininə girdi, müsəlman oldu. Sən də, ey oğul, o Rəsulun sözünə inan, dininə gir, qızını al. Həm dünyada əziz ol, həm də axirətdə.

Osman o gecəni düşüncələr içində yatdı. Çox gec də olsa onu yuxu apardı. Səhər qalxdı, hz. Əbu Bəkrin evinə yollandı. Çünki o, Siddiqin ağıllı, bilikli, arif bir insan olduğunu bilirdi. Çox sahələrdə bilik sahibi idi. Şirin sözləri, fərasəti onu xoşbəxt etmişdi. Bütün ticarəti, mal və əşyaların qiymətini gözəlcə bilirdi. Çoxları məsləhət üçün onun yanına gəlirdilər. Yüksək tərbiyəli bir insan idi.

Osman gəldikdə Əbu Bəkrə xəbər göndərdilər. O, Osmanı qarşıladı, salamlaşdılar. İçəri otağına apardı,oturub söhbətə başladılar. Osman:

– Mən xalam Sədadan sənin İslamı qəbul etdiyini eşitdim. Abdullah oğlu Məhəmmədə vəhy enmiş, Rəsul seçilmiş. Ey Ətiq, şəhər içində Məhəmmədin tərəfdarları yeni dinə çağırır. Bu gün xalqın bir hissəsi “yaxşı oldu”, bir hissəsi “pis oldu” deyirlər. Bu gün yanına gəldim ki, səndən öyrənim, bu doğrudurmu, yoxsa yalandır?

Osman susdu. Ona diqqətlə qulaq asan Əbu Bəkr dedi:

– Ya Osman, bütlər ki biz onlara ibadət edirik, bizə ata-babalarımızdan qalmışdır. Dərin düşünəndə biz axı o bütləri özümüz düzəldirdik. Tanrı deyib onlara ibadət edirik. Deməli, biz Tanrını əllərimizlə düzəldib qoyuruq yerinə. Onun bizə nə zərəri, nə də xeyri var. Qarşısında dayanaraq ondan nə isə istəyirik. Bu Tanrıdırmı? Bu ağıldan kənar bir əməldir.

Qsman:

– Ya Siddiq, bu sözün haqdır, doğrudur. Gözəl dedin. Lap qızıldan, gümüşdən, dəmirdən, daşdan da olsa, onları biz əlimizlə Tanrı deyib düzəldirik. Cansız heykəllər, bütlər... Bizim Xaliqimiz, Raziqimiz əzəldən olmalıdır, sonradan yox.

Əbu Bəkr:

– Gerçək deyirsən, Osman.

Bundan sonra bütün olmuşları-Ətkələnın öyüdlərini, səmadan səsləri, Hz. Məhəmmədin yanına getməsini Osmana danışdı. Osman:

– Ya Siddiq, Bismillah, gəl Rəsulullahın yanına gedək.

Hər ikisi Hz. Məhəmmədin (s.ə.s) hüzuruna gəldilər. Rəsulullah Osmanı və Əbu Bəkri gördü, onlara doğru gəldi:

– Ya Əffan oğlu, dünən xalan Səda mənim risalətim haqqında sənə söylədiyi sözlər şahidlik etdimi, yetərli oldumu?

Osman:

– Ya Rəsulullah, bu gözəl, nurlu üzünü görənə, sənin kimi Seyyidin xidmətində olana dəlil, sübut, sənəd lazımdırmı? Yox!

Həmən barmağını qaldırdı: "Əşhədu ən lə ilahə illallah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu",– deyərək iman gətirdi, müsəlman oldu. Sonra Hz. Məhəmməd (s.ə.s) ona qüsl, dəstəmaz, namaz qaydalarını öyrətdi. Beş kişi Hz. Məhəmməd (s.ə.s), hz. Əli, hz. Əbu Bəkr, hz. Osman və Abdullah (r.a.) birlikdə namaz qıldılar.

Namazdan sonra Əbu Bəkr Osman üçün Ruqiyyə xatunu iştədi. Rəsulullah həmən nikahlarını bağladı.

Osman evinə gəlib təzədən namaz qılmağa başladı. Xalası bunu görüb çox sevindi.

– Ay oğul, − dedi, − Ay Osman, şükürlər olsun ki, mənim sözümü eşidib getdin. Rəsulun dinini qəbul etdin, iman gətirdin. Müsəlman oldun.

### *ÜBEYDULLAH OĞLU TƏLHƏNIN İSLAMI QƏBULU*

Belə rəvayət edirlər ki, Əbu Bəkr Siddiqin bir əmisi oğlu vardı. Adı Übeydullah oğlu Təlhə idi. Təmimoğulları qəbiləsində otururdu. Bir gün Məkkəyə gəldi. Qureyş ululları Əbtahda (Məkkədə vadi, Məşvərətgah) toplanmışdılar. Onlar Təlhəni görüb onun qarşısına gəldilər:

– Salam! Xoş gəldin, ya Təlhə, ya Təmimoğullarının seyyidi.

Hal-əhval tutandan sonra şikayətlənməyə başladılar:

– Sənə bir şikayətimiz var, gördün sənin əmin oğlu nə etdi?

Təlhə dedi:

– Ey Qureyş seyyidləri, mənim əmim oğlu Ətiq ağıllı insandır, alimlərlə müqayisə edilən biliklər sahibidir, o pis bir iş tuta bilməz. Söyləyin mənə, o nə cür pis iş tutdu ki, indi siz mənə şikayət edirsiniz? Söyləyin, eşidim?

Qureyş hörmətliləri:

– Daha nə iş tutmalı idi ki? Ata-babalarının dinini tərk etdi. Gedib Əbu Talibin bəxtsiz yetiminin sehrlərinə aldandı. Onun kahinliyinə uydu. Sözü-

nə inandı, dininə girdi.

Təlhə:

– Demək istəyisiniz ki, Məhəmməd Qureyş dinindən ayrı bir yeni din yaratdı?

Qureyşlilər:

– Bəli, özünə “Mən peyğəmbərəm, əvvəl gəlmiş peyğəmbərlər kimiyəm”, – deyir. Bütün dünya bilir ki, Məhəmməd doğulduğu andan bəri kahindir. Şaak kahindi, Satih kahindir, Məhəmməd də onlardan biri. Bütün ərəb qəbilələri bilirlər ki, Osman oğlu Abdullah (Əbu Bəkr) Qureyş içində ağıl və fərasət sahibi idi. Ucalıb məliklərlə, sultanlarla görüşürdu. O bütün bu bilikləri ilə gedib Məhəmməd kimi adamın dininə girdi. Aramızdan qırılıb getdi. Qalan seyyidləri də azdırır. Zührəoğullarının seyyidi Əvf oğlu Əbdürrəhmanı da başdan çıxarmışdır. Əffan oğlu Osmanı da öz arxaları ilə aparmışlar.

Təlhə bu sözləri eşitdikdə son dərəcə əsəbləşdi, hirs başına vurdu, qəzəbindən gözləri qanla doldu. Yerindən qalxıb birbaşa Əbu Bəkrin evinə getdi. Qapını döydü. Əbu Bəkrin böyük qızı Əsma xatun çıxdı, soruşdu:

– Qapını döyən kimdir?

Təlhə cavab verdi:

– Mənəm, Ubeydullah oğlu Təlhə.

Əsma qapını açdı. Təlhə ondan soruşdu:

– Ya Əsma, eşitdim atan Abdullah getmiş Məhəmmədin dininə girmiş? Bu doğrudurmu?

Əsma:

– Bu doğrudur.

Əbu Bəkr içəridə oturmuşdu. Təlhənin səsini eşidəndə qızına: – İçəri gəlsin. Təlhə gəl, – dedi.

Təlhə qəzəb dolu ürəklə içəri girdi. Əbu Bəkr onun qarşısına çıxdı. Salamladı, əlindən tutub özündən də yuxarıda oturtdu. Təlhə oturan kimi Əbu Bəkrə dönüb dedi:

– Ya Ətiq, gördüyün bu iş nədir? Nə pis iş gördün.

Siddiq:

– Ey əmimin oğlu, nə pis iş gördüm? Mən nə etdim?

Təlhə:

– Pislik, yaramazlıq daha necə olur? Ata-babalarımızın dinini tərk etdin.

Əbu Bəkr:

– Hansı dini tərk etdim?

Təlhə:

– Hansı dini olacaq? Üzzanın dinini, Hubalın dinini, Latın dinini burax-

dın.

Əbu Bəkr:

– Lat, Üzza nə şeylərdir ki, onların dini olsun, yaxud da onlar Tanrılığa yarasın?

Təlhə dedi:

– Lat, Üzza Tanrının qızlarıdır.

Onlar danışarkən içəriyə hz. Əli girdi:

– Ya seyyidlər, sözünüz nədir? Nədən mübahisə edirsiniz? Nə haqda danışırsınız, deyin mən də bilim.

Siddiq:

– Ey Rəsulullahın əmisi oğlu, bu Təlhə deyir ki, Lat və Üzza Tanrının qızlarıdır. Billah, ey Allahın vəlisi, heç bu söz ağıllı kişinin sözüdürmü?

Hz. Əli (r.a) Təlhəyə döndü:

– Əgər bütlər Tanrının qızlarıdırsa, onların anası kimdir? Onları kim doğub?

Bu sözlərdən sonra Təlhənin dili tutuldu, bir söz deyə bilmədi. Bir müddət çaşqınlıqda qaldı. Sonra hz. Siddiq:

– Əmioğlu, niyə susdun? Niyə cavab vermirsən? Bu uşaq ağlı ilə belə düşünə bilir. Bu fikir ona haradan gəlir?

Təlhə:

– Bir kişinin yanında olan uşağın bu qədər ağlı olursa, o kişi peyğəmbər olsa qəribəmi olur?

Düşündü, ayağa qalxdı:

– Ya Siddiq, məni o Rəsulun yanına apar.

Əbu Bəkr (r.a), Təlhə və Əli (r.a) birlikdə Hz. Məhəmmədin (s.ə.s) yanına getdilər. Hz. Məhəmməd Təlhəni görüb onun qarşısına gəldi, görüşüb salamlaşdı:

– Salam! Xoş gəlmisən, Təlhə.

Sonra oturdular. Rəsulullah (s.ə.s) sözə başladı:

– Ey dostlar, sizə Allah-təalanın birliyindən, təkliyindən söz söyləyim, dinləyin. Allahın Peyğəmbəri gözəl dillə, maraqlı söhbət etdi. Təlhə bu sözləri eşidincə könlündəki məhəbbət dalğaları daşdı, barmaq qaldırdı:

– Əşhədu ən lə ilahə İllallah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu deyə-şəhadətini söyləyib imana gəldi. Müsəlman oldu.

Rəsulullah (s.ə.s) ona sayğı göstərdi. Ona qüsl, dəstəmaz və namaz qılma qaydalarını öyrətdi. Hamısı birgə iki rükət namaz qıldılar. Beləcə İslamı qəbul edənlərin altıncısı Übeydullah oğlu Təlhə oldu.

O biri tərəfdən Qureyş ulular uzaqdan hadisələri izləmək üçün hər tərəfə adamlar qoymuşdular ki, "baxaq, görək, Təlhə nə bacardı, nə iş görə bildi?"

Onlar Təlhənin gəlməsini gözləyirdilər. Amma hz. Məhəmmədin (s.ə.s) evindən sevinc, fərəh, şad və gülə-gülə çıxan Təlhə ilə Əbu Bəkri görən casuslar Qureyşlərin yanına qaçdılar və "Təlhə də Məhəmmədin dininə girdi", – dedilər. Bu sözü eşidən Əbu Cəhlin az qaldı ürəyi partlaya. Sonra rəngi saraldı, qəlbu sıxıldı. Yavaşca dilləndi:

– Ey qövm, nə qədər işimizi boş tutub oturmuşuq, bir sehrbaz sehrləri ilə Qureyşin ulularını ata-baba dinlərindən çıxarır. Özünün uydurduğu dinə çəkib aparır. Beləcə, dörd seyyidi öz dininə gətirdi. Təmimoğullarının iki ən hörmətlisini özünə döndərdi. Bundan başqa, Üməyyəoğullarından Osmanı, Zübeyroğullarından Əvf oğlu Əbdürrəhmanı dininə gətirdi. Bunların hər birinin arxasında qa qövmü var. Bu sonda bizi bir-birimizdən ayırar, ortada qılınclar işə düşər.

Bir ağıllı kişi:

– Ey Əbu Cəhl, bir kişi ki, evində oturub kimsənin qapısına getmir, kimsəni zorla tutub gətirməyir "Gəl öz dinini tərk et" demir, gələnlər hamısı öz iradələri ilə gəlirlərsə, biz qalxıb ona nə əziyyət verə bilərik. Heç qohum-əqrəbasından onun dininə girən olmadı.

Bu sözlərlə Qureyş Əbu Cəhli sakitləşdirdi.

## *HARİSƏ OĞLU ZEYDİN İSLAMI QƏBUL ETMƏSİ*

Məhəmməd ibn İshaqın sözündən Əbu Həsən Bəkri rəvayət edir ki, Harisə oğlu Zeyd Rəsulun qulu, köləsi idi. Amma ərəb cevrəsindən Bəni- Kilab qəbiləsindəndi.

Harisə oğlu Zeyd necə Hz. Məhəmmədin köləsi olmuşdu, onun hekayəsi budur: Zeydin anası Süadə bint Zeyd bin Əl-Tayy Harisə ilə evlənmişdi. Xeyli müddət onun evində qaldı, heç qohum-əqrəbasının yanına getmədi. Oğlu Zeyd böyüyüb on yaşına çatmışdı. Bir gün dedi:

– Oğlum Zeyd, sənin qövmün Tayy qəbiləsi yaxınlara yaşamağa gəldilər. Atan da icazə verdi. İstərdim ki, gedib mən ata-anamı, sən də nənə-babanı görəsən.

Harisə halalı Süadəyə icazə verdi. Ona və oğluna yol hazırlığı etdi. Yola çıxdılar. Süadə Zeyd ilə birlikdə daha bir oğlan uşağı böyütmüşdü. Adı Əbdürrəhman idi. Dəvə üstündə kəcavədə bir tərəfdə Süadə, o biri tərəfdə Zeyd ilə Əbdürrəhman oturmuşdu. Beləcə Tayy qəbiləsinin yanına gedirdilər. Bir gün yolda qarşılarına həramilər, yol kəsənlər çıxdılar. Süadə həcin dəvəsindən düşüb qaçdı. Yaxında olan ərəb ulularına sığındı, eləcə canını qurtardı. Həramilər iki uşağı əsir götürdülər. Əbdürrəhmanın qorxudan ürə-

yi partladı, öldü. Zeydi isə Məkkə və Tayy qəbiləsi arasında olan Ukkaz bazarına gətirdilər. O gün təsadüfdən hz. Xədicənin qardaşı Hüzza oğlu Həkəm bazara gedərkən Xədicə xatun ona dörd yüz gümüş pul verdi:

– Qoy yanında olsun. Əgər bir yaxşı qul olarsa, mənə al, – dedi.

Həkəm pulu aldı, bazara gələndə həramilər də Zeydi bazara satmağa gətirmişdiər. Onu alıb hz. Xədicəyə gətirdi, o da onu böyütdü. Xədicə xatun Hz. Məhəmmədlə evlənəndən sonra onu Rəsulullah özünə kölə kimi verilməsini istədi. Əlbəttə ki, hz. Xədicə nəinki bir qulu, canını da qurban edərdi. Zeyd çox cəld, açıqgöz bir gənc idi. Hz. Məhəmməd ona bağışlanandan sonra Zeydi azad etdi. Qulluqdan çıxardı, özünə oğul etdi. Zeydi də ağıllı, igid, sücaətli gənc olaraq yetişdirdi. Məkkə şəhərində Məhəmməd oğlu Zeyd kimi tanındı. Hz. Məhəmmədə vəhy gəlincəyə Əli və Zeydi özü tərbiyə edib böyütdü. Hz. Xədicə, Əli, Əbu Bəkr, Osman, Əbdürrəhman,Təlhədən sonra yeddinci müsəlman Zeyd oldu.

## *ZEYD KƏBƏNİ TƏVAF EDİR*

Zeyd müsəlman olandan bir müddət sonra Kəbəni təvaf etməyə getmişdi. Orada bir dəstə kənardan gəlmiş yad ərəblər gördü. Onlara:

– Ya qövm, kimlərdənsiz?

Onlar cavab verdilər:

– Biz Kilaboğlu qəbiləsinin ərəblərindənik.

Zeyd tez dilləndi:

– Mən də Kilaboğlu qəbiləsindənəm. Harisə oğlu Zeydəm, anam Zeyd qızı Süadədir.

Kilaboğlu xalqı Zeydin sağ-salamat olması xəbərini tez Harisə çatdırdılar. Allan-təalanın qüdrəti ilə o il Hz. Məhəmməd (s.ə.s) Zeydi tacirlərlə Şam şəhərinə ticarət üçün göndərmişdi. Yolları yenə Busra şəhərinə düşdü. Zeydin anası, atası, qardaşı, əmisi Sürahbil oğlu Kəb Busra bazarına gəlmişdilər. Zeydi Məkkədə görənlərin biri onu görüncə tanıdı. Tez gedib ata-anasına xəbər verdi. Onlar sevinc içində gəlib Zeydi gördülər. Görüşdülər, götürüb camaatın içinə apardılar. Bunu görən qureyşlilər həmin karvandakı hörmətlilərin yanına gəlib dedilər:

– Ey ulular, Məhəmmədin oğlu Zeydi Kilaboğulları camaatından bir bölük kişi gəlib götürüb getdi.

Qureyş uluları adamlarını göndərib Zeydi istədilər. Onun valideynləri:

– Biz oğlumuzu itirmişdik, indi tapdıq. Getməyə icazə verməik,-dedilər.

Zeydlə birlikdə gələn karvan əhli etiraz etdi:

– Ey qövm, bu Zeyd Məkkə şəhərində bir seyyidin quludur. O seyyidin malı ilə bura gəldi. O, mallara cavabdehdir, sizinlə getməsinə və onu aparmanıza razılıq verə bilmərik.

Kilaboğulları:

– Gəlin şəhərin valisinin, məlikinin yanına gedək, o nə desə, onu edərik, – dedilər.

Məkkəlilər bu təklifə razı oldular. Valinin yanına getdilər, məhkəmə quruldu. Hər iki tərəf vəziyyəti anlatdı. Vali xristian idi. Zeydi çağırdı:

– Ey Zeyd, sən nə deyirsən? Fikrin nədir, nə düşünürsən?

Zeyd cavab verdi:

– Bunlar düz deyirlər. Bu insanların atam, anam, qardaşım və əmim olduğu doğrudur. Amma mən bir seyyidin quluyam. O bütün yer və göy əhlinin seyyididir. Rəsuli-kərimdir. O, mənə mal verib ticarətə göndərdi. İndi mən onun malını satıb pulunu özünə verməmiş heç yerə gedə bilmərəm.

Busra məliki:

– O rəsulun adı nədir?

Zeyd:

– Rəsulun adı Abdullah oğlu Məhəmməddir.

Məlik yenə soruşdu:

– Məhəmməddən başqa adı varmı?

Zeyd:

– Bəli, vardır, bir adı da Əhməddir.

Məlik:

– İsa peyğəmbər bunun nəbi olduğunu söyləmişdi.

Sonra Kilaboğullarına döndü:

– Bu oğlunuzla Məkkə şəhərinə gedin, vəziyyətinizi ona söyləyin. O, Haqq-Rəsuludur. Sizi kiçik hesab etməz. Oğlunuzu sizə qaytarar.

Kilaboğulları elə də etdilər. Məkkəyə gedib Hz. Məhəmmədi (s.ə.s) tapdılar. Zeydin atası ona kim olduğunu və başlarına gələnləri danışdı. Allahın rəsulu Zeydi çağırdı. Hz. Məhəmməd (s.ə.s):

– Ya Zeyd, indi sən azad edilmiş bir insansan, qul deyilsən. Ata-anan gəlib səni istəyir. Onlarla gedirsənmi?

Zeyd:

– Ya Rəsulullah, mən ki müsəlman oldum, atam-anam kafirdirlər. Mən sənin kimi peyğəmbərin yanından ayrılıb kafirlərlə gedim? Mənə ata-ana lazım deyil, mənə sən lazımsan, ya Rəsulullah.

Zeydin atası sözə qarışdı:

– Ya Zeyd, biz sənə gərək deyilikmi?

Zeyd:

– Bəli, mənə yalnız Rəsulullah (s.ə.s) gərəkdir.

Beləcə, Zeydin ata-anası, qardaşı İslamı qəbul etdilər. İman gətirib müsəlman oldular. Sonra evlərinə getdilər. İldə bir neçə dəfə Zeydin yanına gəlib-gedirdilər. Yeddinci İslamı qəbul etmiş Harisə oğlu Zeyd oldu.

## *CƏRRAH OĞLU ƏBU UBEYDƏ İSLAMI QƏBİL EDİR*

Əbu Həsən Bəkri deyir ki, Cərrah oğlu Əbu Ubeydə Amir bir gün ticarətdən geri dönmüşdü. Qureyş əhli Əbtah içində toplanıb oturmuşdu. Əbu Ubeydəni gördükdə durub onun qarşısına getdilər. Qucaqlaşıb, görüşdülər. Qureyş camaatı həmən Hz. Məhəmmədin (s.ə.s) söhbətini ortaya atdılar. Səd ibn Əbu Vəqqas da Əbu Ubeydə ilə birgə ticarətə getmişdi. Az keçdi ki, o da özünü ora yetiºdi. Ulularla görüºdü. Söz yenə də Rəsulullah(s.ə.s) nübüvvətindən düşdü. Peyğəmbərlik iddiasında olduğunu söylədilər. Vəqqas oğlu Səd dedi:

– Ona bir inanan oldumu? Heç o dinə girən varmı?

Qureyşlilər:

– Bəli, – dedilər, – İbn Quhafə oğlu Ətiq (Əbu Bəkr) səfərdən gəldi, heç kimlə danışmamış getdi, ona iman gətirdi, müsəlman oldu. Özündən başqa üç kişini də yoldan çıxardı. Əvf oğlu Əbdürrəhman, Əffan oğlu Osman, Übeydullah oğlu Təlhə də İslamı qəbul etdilər. Dörd seyyidin gözləri, bəsirəti bağlandı. Bəlkə, dəli oldular? Bəlkə də onları cinlər yollarından azdırdılar. Öz ata-baba dinlərindən döndülər, Məhəmmədin dininə girdilər. Nə fikirləşirlər, bilmirik.

Məlun Əbu Cəhl də dedi:

– Ya qövm, İbrahim peyğəmbərdən sonra neçə peyğəmbər gəldi, getdi. Heç biri Qureyş içinə girib peyğəmbərlik etmədi. "Sizin dininiz batildir, ancaq bu din Haqq dinidir", demədi. Əgər bu ərəblərin dini batil olsaydı, heç olmasa, bir peyğəmbər gəlib Qureyşi öz dininə çağırardı. İbrahim peyğəmbərin zamanından bu vaxta kimi bizə heç bir dəvət gəlmədi. Ona görə də bizim dinimiz əsl dindir. Başqa dinə keçmək ağılsızlıqdır.

Bir az sonra xalq dağılıb hərə öz işinə getdi. Əbu Ubeydə və Əbu Vəqqas oğlu Səd birlikdə Əbu Bəkrin evinə getdilər. Əbu Bəkr onları görüncə onlara izzət, hörmət göstərdi. Onlar:

– Ya ibn Quhafə, bizə Osmanı, Əbdürrəhmanı, Təlhəni çağıtdır, – dedilər. Sonra keçib evdə oturdular. Qureyşin söylədiklərini Əbu Bəkrə dedilər.

Əbu Ubeydə:

– Ey seyyid, ey Əbu Bəkr! Anlaşılmayan bir iş var, niyə Qureyş ululları ilə danışmırsınız? Vəziyyət necə olacaq? Məhəmmədin dininə bilərək girdinizmi?

Əbu Bəkr şirin dili və gözəl natiqliyi ilə sözə başladı:

– Ey Əbu Vəqqas oğlu Səd, ey Cərrah oğlu, ikiniz də ağıllı, bilən, arif insanlarsız. Şükür ki, həmişə yaxşı sözlər demisiz, cahil deyilsiniz. Allah-təala Adəm peyğəmbəri yaratdığı zaman alnına bir nur qoymuşdu. Adəm ulu yaradandan soruşur: "İlahi, Həzrəti izzətindən bu nur nə nurdur?" Haqq-təaladan nida gəlir, deyir ki, ya Adəm, səndən sonra atadan-oğula keçərək, bu nur axırzaman peyğəmbəri Abdullah oğlu Məhəmmədə çatacaqdır. Bu onun nurudur. Adəmdən İbrahimə qədər gəldi. Sonra İsmaila keçdi. Ondan sonra gələrək Əbdümənafoğullarına yetişdi. Ondan Haşimoğullarına, sonra Əbdülmüttəlib oğlu Abdullaha, ondan da o nur Məhəmmədə keçdi. Bu həmin Məhəmməddir ki, göydən enmiş kitablarda onun haqqında yazılar çoxlarına məlumdur. Allah bunu bütün canlı-cansıza bildirmişdir. İndi gerçəyi bildik, həqiqəti anladıq ki, axırzaman peyğəmbəri Məhəmməddir. Amma ona dinə dəvət izni verilməmişdi. Artıq bu icazə gəldi, dinə dəvət başladı. Biz də küfrdən, əyri yoldan, pis işlərdən qurtulduq. Canımızı da Cəhənnəm odundan qurtardıq.

Əbu Ubeydə:

– Ya Ətiq, siz bunu haradan bildiniz? Quran nazil olduğunu, vəhyin göydən endiyini haradan anladınız?

Əbu Bəkr:

– Biz Məhəmmədlə birlikdə doğulduq, böyüdük. Qırx il ömrümüzü birlikdə keçirdik, heç bir zaman ondan yalan eşitmədik. Kiminsə ayıbını, nöqsanını demədi. Onun adını Əmin və Sadiq qoydular. O Həbib nə söylədisə, doğru dedi. Gerçəyi bildirdi, vəhy endikdən sonra dinə dəvəti başladı. Rəvadırmı biz onu yalançı adlandıraq? Sözlərinə "Yalan deyir" deyək. Onda biz yalançı oluruq. Qırx il ona "Sən gerçəyi söyləyirsən, dedik," indi isə "Sən yalan deyirsən", deyək? Ağıllı insan özünə rəva görüb bu sözləri deyərmi?

Onlar Hz. Əbu Bəkrin sözlərinə çox diqqətlə qulaq asdılar. Özləri də Hz. Məhəmməd haqqında həmişə çox yüksək fikirdə olmuşlar. Həmən qalxdılar:

– Ey Əbu Bəkr, bizi Abdullah oğlu Məhəmmədin yanına apar, – dedilər.

Az sonra Rəsulullahın evində barmaqlarını qaldırıb şəhadət gətirdilər. "Əşhədu ən lə ilahə illallah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsu-

luhu",-deyərək, iman gətirib, müsəlman oldular. Qüsl, dəstəmaz və namaz qaydalarını öyrəndilər. Peyğəmbər (s.ə.s) ilə birlikdə namaz qıldılar. Sonra bir neçə ayət oxuyub, əzbərlədilər. Vidalaşıb evlərinə döndülər.

Məlun Əbu Cəhlin adamları gördülər ki, Əbu Bəkrlə iki səhabə Hz. Rəsulun evinə girdilər xeyli vaxtdan sonra şən, gülə-gülə oradan çıxıb evlərinə getdilər. Tez bu bəd xəbəri Əbu Cəhlə çatdırdılar. Xəbəri esidən lənət olmuş Əbu Cəhlə dünya dar gəldi, az qala ürəyi partlasın, üzü və gözünün içi qıpqırmızı qanla dolmuşdu. Bağıraraq Qureyş ulularının toplanmasını istədi. Bilmirdi nə etsin, az qalırdı yaxasını yırtsın:

– Ey Qureyş seyydləri, o iki seyyid də, Səd və Əbu Ubeydə də müsəlman oldular. Əbu Bəkr onları da Məhəmmədin dininə çəkib apardı.

Qureyş uluları bu gerçəkliyi eşidəndə:

– Görürsünüz, nə ulu kişilər, etibarlı və sayılan kişilər Məhəmmədə beyət etdilər, – dedilər.

Bir kişi belə bir fikir ortalığa atdı:

– Gəlin yığılaq, adam göndərib həmin beş kişini çağıraq. Onlarla söhbət edək " Bu nə işdir ki, gördünüz?" deyib onları utandıraq, baxaq, görək nə deyəcəklər.

Bəziləri etiraz etdi:

– Yox, heç bir şey deməyək. Onlar bunu bilməməzlikdən ediblər. Araya nifaq salmaq lazım deyil. İstəyirsiz ki, nizə, qılınca qurşanaq? Axı onlar hər biri böyük qəbilə seyyidləridir. Qövm və qəbilələri söz-söhbəti eşidib qılıncla gələcəklər. Duymayanlar da duyub Məhəmmədin tərəfinə keçəcəklər. İşimiz daha çətinləşər.

Əbu Cəhli yenə də susdurdular.

Aradan bir neçə gün keçdi. Əvvam oğlu Zübeyr(r.a) Rəsulullahın (s.ə.s) bibisi Səfiyə xatunun oğlu idi. Əbu Bəkrin böyük qızı Əsma xatunla evlənmək istəyirdi. Zübeyr Əbu Bəkrin (r.a) evinə gəlib bu barədə danışdı. Əbu Bəkr(r.a) hz. Məhəmmədin halından ona da açdı, xəbər verdi. Onu da din yoluna dəvət etdi. Götürüb Hz. Məhəmmədin evinə gətirdi. Zübeyr də kəlmeyi-şəhadəti deyib müsəlman oldu. Qüsl, dəstəmaz və namaz qaydalarını öyrətdilər. Allahın Rəsulu s.ə.s) ilə birlikdə namaz qıldılar.

## *MÜSƏLMAN OLANLARIN SAYI DURMADAN ARTIR*

Bundan sonra məşhür səhabələrdən Əbu Müəyt oğlu Ərkam, Mazun oğlu Osman, Mazun oğlu Küddamə müsəlman oldular. Hz. Məhəmmədin (s.ə.s) böyük əmisi Harisin oğlu Übeydullah da iman, şəhadət gətirdi və müsəlman oldu. Sonra yenə hz. Ömərin əmisi oğlu Əmr oğlu Zeyd oğlu Sə-

id ilə Ömərin bacısı Fatimə müsəlman oldular. Səid Fatimə xatunla evli idi. Onuncu Xəttab oğlu Ömər müsəlman oldu.

## *XƏTTAB QIZI FATİMƏNİN İSLAMI QƏBULU*

Qadınlar arasında ikinci Fatimə xatun müsəlman olmuşdu. O bir gün hz. Xədicənin evinə gəldi. Xədicə xatun onun qarşısına çıxdı, gülər üzlə qarşıladı. Onu yuxarı otağına götürdu, hörmət əlaməti olaraq baş tətəfdə oturtdu. Görüşüb, söhbətləşəndən sonra soruşdu:

– Ey seyyidə, nə buyruğunuz var? Nə məqsədlə evimizi şərəfləndirdiniz, bizi sevindirdiniz? Söyləyin, biz hazırıq.

Fatimə xatun:

– Ey arif qadınların seyyidəsi, işim bu dünya üçün deyil, axirət üçündür. Mənim arzum müsəlman olmaqdır.

Hz. Xədicə bu sözu eşidəndə çox sevindi. Fatimənin əlindən tutub Hz. peyğəmbərin hüzuruna apardı. Fatimə Hz. Məhəmmədi (s.ə.s) görüncə dizi üstə çökdü. Şəhadət kəlməsini dedi, iman gətirdi. Sonra hz. Xədicə onu götürüb apardı. Qüsl, dəstəmaz və namaz qaydalarını öyrətdi. Fatimə xatun yazıb-oxumaq bilən savadlı bir qadın idi. Alimə olan bu seyyidə, arif bir qadın idi. Həmən mürəkkəb və qələm istədi. Enmiş Quran ayələrindən Xadicə xatunun dediklərini yazdı ki, evdə halalı Səidlə oxuyub əzbərləsin. İkinci müsəlman qadın olmaq şərəfi Fatimə xatuna qismət oldu. Üçüncü müsəlman qadın Əbu Bəkrin qızı Əsma xatun oldu. Səd İbn Əbu Vəqqasın bir qardaşı Ömər də müsəlman oldu. Ona hamı Ümeyr deyirdi. Sonra Məsud oğlu Abdullah iman gətirdi, müsəlman oldu. Bütün ömrü boyunca Rəsulullahın (s.ə.s) xidmətində durdu. Gecə-gündüz onun eşqindən ayrılmadı.

Bunlardan sonra müsəlman olanlar:

1. Səd ibn Rəbiə;
2. Salit ibn Əmr (Həbəşistana ilk hicrət edənlərdəndir);
3. Abbas ibn Rəbiə;
4. Abdullah ibn Məxzum ibn Mürrə;
5. Haris bin Hüzafə (Həbəşə getmiş müsəlmanlardandır. Bədr və Uhud döyüşlərində xüsusi qəhrəmanlıq göstərmiş müsəlmanlardan idi. Uhud döyüşündə aldığı yaralardan da vəfat etmişdir. Hz. Ömərin qızı Həfasə ilk öncə Hanisin xanımı olmuş, o vəfat etdikdən sonra Hz. Məhəmmədlə (s.ə.s) evlənmişdir;
6. Abdulla bin Cahş;
7. Əbu Əhməd bin Cahş;

Bu iki qardaş bir gün birlikdə Rəsulullahın yanına gələrək müsəlman oldular. Onların çoxuna Əbdüşşəms oğlu Üməyyə və Əffan oğlu Osman bələdçilik etmişdi. Bir neçə gün sonra Əbu Talib oğlu Cəfər, hz. Əlinin böyük qardaşı müsəlman olmuşdur.

Daha sonra

8. Müğeyr bin əl- Haris;

9. Saib bin Osman bin Məzun.

Bir neçə gün sonra:

10. Xəttab bin Haris və xanımı Fatimə xatun binti Yəssar (ikisi birlikdə müsəlman olmuşlar);

Sonra da:

11. Nüaym bin Abdullah;

12. Müttəlib bin Əzhər əl-Zikrinin bibisi Əvf qızı Rəmələ xatun, (Həbəşə hicrət edənlərdəndir);

13. Füheyrə oğlu Amir, (Əbu Bəkrin azad edilmiş köləsi, o da hz. Məhəmmədin (s.ə.s) önündə İslamı qəbul etdi, iman gətirdi, müsəlman oldu);

14. Əmr ibn Asın qardaşı Səd ibn Asın pəhləvan oğlu Xalid, (Anası Əminə ilə birlikdə gəlib İslamı qəbul etdilər).

Bundan sonra Vahid bin Abdullah, Hüzeyfə, sonra dörd qardaş Xalid, Əmir, Akil və Ayas bir gündə iman gətirdilər, müsəlman oldular.

Sonra da Əmmar bin Yasir-sonralar ki, Hz. Məhəmmədin (s.ə.s) yaxın səhabələrindən olmuşdu, iman gətirib müsəlman oldu. Bu vaxt Qureyş qəbiləsindən olmayan Süheyib Rumi İslamı qəbul etdi.

Risalətin ilk dövründə müsəlman olanların hər birinin İslamı qəbul etməsinin səbəbi var idi.

Əbu Həsən Bəkri deyir:

Məşhur səhabələr imana gəldikdən sonra xalq onlara baxıb İslama gəlişi artırdı. Hz. Məhəmməd(s.ə.s) üç il meydana cıxıb Qureyşi İslama dəvət etmədi. Ancaq Allahın hidayət bəxş etdiyi insanlar Rəsulullahın (s.ə.s) qarşısına gəlir, iman gətirir, müsəlman olub evlərinə dönürdülər. Vaxtlarını ibadətlə keçirirdilər. Qurandan ayələr endikdə gəlib o ayələri əzbərləyib geri dönürdülər.

Müsəlmanların Allahın Rəsulu ilə namaz istəkləri onları sakit yerlərə aparır, gözdən uzaqda birlikdə namaz qılır, dua edirdilər.

Bir gün Əbu Vəqqas oğlu Səd bir neçə səhabə ilə Məkkədən kənara çıxdı. Bir dağ ətəyində namaz qılmağa başladılar. Qureyşdən bir neçə kafir və müşrik oradan keçəndə müsəlmanların namaz qıldığını gördülər. Allaha ortaq qoşan o kafirlər, müşriklər onların birgə ibadət etdiyini görəndə əvvəlcə çaşıb qaldılar. Onlar eşitmişdilər ki, Hz. Məhəmmədə iman gətirənlər na-

maz qılır, xeyli vaxtlarını ibadətdə keçirirlər.

Kafir və müşriklər onları dövrəyə alıb gülüşməyə başladılar. Səd ibn Vəqqas qalxdı və onlara bağırdı:

– Ey xalq, siz niyə belə axmaqlıq edirsiniz? Dəli kimi danışıb hərzəlik edirsiniz? Çıxın öz yolunuzla gedin.

Amma kafirlər öz bildikləri pislikləri davam edirdilər. Səd bu halı görəndə yerdə olan dəvə sümüyünü götürüb birinin başına vurdu. Kafirin başı yarıldı, paltarı al qana boyandı. Bu din yolunda tökülmüş ilk qan idi və onu tökən Səd ibn Vəqqas oldu.

## *QUREYŞLİLƏRİN TƏLAŞI*

Bu xəbər tezliklə məkkəlilərə çatdı. Qureyş ululları xəbəri alıb əlüstü bir-birilərnə tez ötürdülər. Xalq içinə qarışıqlıq düşdü. Qureyşin seyyidləri haqqında deyirdilər:

– Məhəmmədin dininə girənlər, ona iman gətirənlər başqalarına əl qaldırmışlar. Şəhərdən kənarda əllərinə odun parçaları alıb bizim adamları qovmuşlar. Vəqqas oğlu Səd isə vurub birinin başını yarmış, onu al qana boyamışdır.

Qureyş ulular bu xəbərdən çox pərişan oldular. Əbu Cəhl də bunları eşitdi. Qəbilənin seyyidlər yığışdilar. Əbu Cəhl:

– Ey qövm, biz ağzımızı açdığımız zaman, durdurdunuz. Görün onlar sizə daha nələr edəcəklər? Nə ziyanlar vuracaq və pisliklər edəcəklər? Əl qaldıracaqlar, qan tökəcəklər.

Ulular yığışıb Əbu Talibin yanına getdilər. Dedilər:

– Ya seyyidi, sənin böyüdüb baş çatdırdığın yetim, o bəxtsiz uşaq necə də aranı qatır, xalqa ikitirəlik, ortaya fitnə salır. Yeni dininə neçə hörmətli seyyidi çəkib apardı, ata-baba dinlərindən, qövm-qəbiləsindən ayırdı. Sən bunlara necə baxırsan?

Əbu Talib ululara:

– Ey qövm, Qureyş seyyidləri, sizə bir sözüm var, məni diqqətlə dinləyin.

Qureyşlilər:

– Söylə, biz səni dinləyirik.

Əbu Talib:

– Ey qövm, mənim qardaşım oğlu Məhəmməd Allah-təalanın Rəsuludur. Buna heç şübhə və incikliyiniz olmasın. Belə ki, İsrail- oğullarının peyğəmbəri Musa bin İmrana, Məryəmin oğlu İsaya, Davud peyğəmbərin

oğlu Süleymana, Zəkəriyyə oğlu Yəhyaya gətirdiyi kimi, buna da Cəbrail vəhylər gətirməkdədir, bu sözlər gerçəkdir. Amma Ərəbül- Ürəba qəbilələrində çoxlu qövm və qəbilələr vardır ki, xaçpərəst olmuşlar. İsa peyğəmbərin dinini tutmuşlar. Bir çox ərəb qəbilələri vardır ki, yəhudi Musa dinini qəbul etmişlər. Bundan öncə onlara da "Nə üçün xristian oldunuz?", "Niyə yəhudi dinini qəbul etdiniz?" demişlər. Məhəmməd burada dünyaya gəldi. Qırx il aramızda böyüdü. Bütün Qureyş onun başına and içib xasiyyətindən və əminliyindən razı olmuşlar. Onu sevmişlər. Vaxt gəldi, ona nübüvvət xələti endi, vəhylər gəlməyə başladı. Kim istədi, onun dininə gəldi, onun peyğəmbərliyini tanıdı, iman gətirdi. Kimin qəlbi istəmədi, daxil olmadı. Mənim iki oğlum istədi, daxil oldu, müsəlmanlığı qəbul etdi. Amma mən qəbul etmədim, öz dinimdə qaldım. Mənim qardaşlarım da onun dinini qəbul etmədi. O, heç bizə bir təzyiq də göstərmədi. Oturub evində, kim istəyir gəlib iman gətirir, müsəlman olur. Fitnəni isə siz salırsız.

Bu sözləri eşidən Qureyş ululları:

– Ya Əbu Talib, bizim şikayətimiz budur ki, Məhəmmədin dininə gələnlər bizim dinimizə əl uzatdılar. Bəziləri də bizimki- lərin başını yardılar, deyəcəyimiz budur.

Əbu Talib cavab verdi:

– Olmuşları eşitmişdim, sizdən də eşitdim. Təcavüz edənlər sizinkilər olmuşdur. Onlar öz ibadətlərini edirmişlər. Sizinkilər gəlmiş və onları incitmiş, təhqir etmişlər. Onlar da ər kişilərdir, ulu seyyidlərdir. Onlara ədəbli din yolu ilə getməyi deyiblər. Onlarsa yenə pisliklər ediblər. Vəqqas oğlu Səd ulu bir kişidir. Ona qarşı hörmətsizlik edəni yaxşı ki öldürməyib.

Əbu Talibin sözləri o gün çaxnaşmanın qarşısını alıb dağıtmışdı. Bundan başqa səhabələr Hz. Məhəmmədin (s.ə.s) yanına gəlib yığışmışdılar. O günkü hadisəni danışdılar. Hz. Məhəmməd (s.ə.s) onlara belə bir öyüd verdi.

– Ey iman gətirənlər, siz bilirsiz ki, məndən əvvəl gələn peyğəmbərlər necə hərəkət etmişlər, mən də elə hərəkət edəcəyəm. Bütün peyğəmbərlər cahana gəlib getdilər. Onlar işlərini Allahın buyruğu, əmrləri ilə etdilər. Öz ağıl, fikir və rəyləri ilə etmədilər. Allahı inkar edənlər onun qəzəbinə, zülmünə məhkumdurlar. Vuruldular, öldülər. Siz də ulu Tanrının əmrini gözləyin "Vürüşun" – deməyincə vuruşmayın.

Hz. Məhəmməd (s.ə.s) belə öyüdlərini daima verirdi.

## *İSLAMA AÇIQCA DƏVƏT*

Məhəmməd bin İshaq sözündən Əbu Həsən Bəkri rəvayət edir ki:

Rəsul həzrətləri üç il öz evində oturdu. Öz arzusu, diləyi ilə gələn hər kəsi qəbul etdi. Onlar iman gətirdilər, müsəlman oldular. Dövlət və səadət sahibliyinə qovuşdular. Kim gəlmədi, iman gətirmədi, küfr və seçimsiz bir yolda qaldılar. Hz. Məhəmməd bayıra çıxıb açıqca xalqı dinə dəvət etmədi. Özünü göstərmədi. Hamısı dini qəbul etsələr belə evlərində dəstəmaz alır, namaz qılırdılar. Onunla yenidən danışmaq istəyirdilərsə, evinə gedir, oradaca oturub söhbət edirdilər. Bütün dini işləri, qaydaları, şəriətin sərhədlərini birbaşa Rəsuldan öyrənirdilər. Quran gecə və ya gündüz enərdi, onu yazardılar, əzbərləyərdilər. İslam din qardaşları arasında zəngin, yoxsul fərq etmədən bir yerə toplanır, söhbət edərdilər. Bu bir adət halını almağa başlamışdı.

Üç ildən sonra bir gun Cəbrail Hz. Məhəmmədin (s.ə.s) yanına gəldi və bu ayəti oxudu:

94. Ya Rəsulum, sənə əmr olunanı (Quranı) açıq-aşkar təbliğ et və müşrüklərdən üz döndər!

95. Şübhəsiz ki istehza edənlərə qarşı Biz sənə kifayət edərik.

96. O kəslər ki Allaha başqa tanrı şərik qoşdular, onlar (başlarına gələcək müsibəti, düçar olacaqları əzabı, bütün bəd əməllərinin aqibətini) mütləq biləcəklər!

97. (Ya Rəsulum) Doğrusu, Biz onların (istehzalı) sözlərindən sənin ürəyinin qısıldığını bilirik!

98. Sən isə Rəbbini tərifləyib şükr et (subhanallah və bihəmdi de), səcdə edənlərlə (namaz qılanlarla) birlikdə ol.

99. Və sənə yəqin (ölüm) gələnədək Rəbbinə ibadət et! (Hicr surəsi 94-99 ayələr).

– Ya Məhəmməd, Allah-təalanın sənə salamı var. Sənə İslam dinini aşkar etməyi, bütün xalqı açıqca dinə dəvət etməyi əmr etdi. Kafirlərlə və müşrüklərlə bir araya gəlib oturmamağını tapşırdı.

Cəbrail bu əmri dedikdən sonra yenə göy üzünə qalxıb yox oldu. Ertəsi gün Hz. Məhəmməd(s.ə.s) Allah-təalanın izni ilə qalxıb bayıra çıxdı. Kəbə Hərəminə gəldi. Qureyş toplananları həmişəki kimi orada idilər. Onun gəldiyini gördülər. Bir-birinə baxdılar. Dedilər:

– Uzun müddətdir ki, Məhəmməd bizim yanımıza gəlmirdi. Amma indi gəlir. Hz. Məhəmməd (s.ə.s) onlara doğru yeridi. Yüksək bir səslə dedi:

– Ey qövm, bütə inanmayın, onlara səcdə etməyin. Onların nə faydası, nə də zərəri var. İnsana nə behişt bəxş edir, nə də verilənə mane olur. Bu

cür inamı buraxın. Bircə Allaha sığının, müsəlman olun. Mən sizə şəfaət qapısını açıram, sizə əzab gəlməsin. Hamınız həlak olmayasınız.

Qureyşlilər açıq İslama dəvətdən bərk hirsləndilər. Hamısı birdən dedilər:

– Ya Məhəmməd, bu peyğəmbərlik haradan gəlib? Səndən başqa bu Qureyş içində kişi yoxdur ki, ona peyğəmbərlik gəlsin? Rəsul olsun? Get sən işinə, sənin dinin, dəvətin bizə lazım deyil. Çünki özünə böhtan atırsan. “Mən Peyğəmbərəm” deyirsən. Yalan söyləyirsən.

Qureyş niyə belə coşmuşdu? Çünki üç il ərzində Hz. Məhəmmədin peyğəmbərliyini duymuşdular. İslam dininin gizlilikləri qulaqlarına çatmışdı. Hamısının ürəyi üç il qanla dolmuşdu. Beləcə fürsət gözləyirdilər, tapa bilmirdilər. İndi isə fürsət əllərinə düşmüşdü. Ürəklərində olanı deyə bilərdilər, acı-acı sözlərinin sərhədi yox idi. Çünki Hz. Məhəmmədi (s.ə.s) burada tək görmüşdülər. Onu incitməkdən çəkinməmişdilər. Dinə dəvətin ilk günü belə keçdi. Hz. Məhəmməd (s.ə.s) evinə döndü. Çox acı sözlər eşitdi bu gün. Əshabı ilə bir araya gəldilər. Müsəlmanlar:

– Ya Rəsulullah, biz nə edək? Siz nə buyursanız, biz onu edəcəyik.

Hz. Məhəmməd (s.ə.s):

– Ey yaxınlarım, səhabələrim, mən qulam, elçiyəm. Allah-təala nə əmr edirsə,onu edirəm. “Xalqı dinə dəvət et” deyirsə, təkcə gedib dinə çağırıram. “Camaatla get, dinə dəvət edin” deyərsə, yenə də camaatla gedərəm. Əgər əmr etsə “Vuruş” vuruşaram, əmr etsə, “Barış” barışaram. Allah-təaladan gələn əmri yerinə yetirərəm.

O gün bütün müsəlmanlar arasında Hz. Məhəmmədin (s.ə.s) Qureyş seyyidlərini dinə dəvət etdiyi, Qureyşin də birgə Məhəmmədi təhqir etdiyi, onu yalançılıqda ittihamı xəbəri yayıldı. Haşim oğulları bu işə çox üzüldülər, narahat oldular. Nə edəcəklərini bilmədilər. Nə Qureyşin qarşısını ala bildilər, nə də Hz. Məhəmmədə (s.ə.s) təsir edə bildilər. Ona görə də yığışıb Əbu Talibin yanına gəldilər. Olmuşları ona anlatdılar.

Əbu Talib:

– Ey xalqım, ey qardaşlar. Bizim səbr etməkdən başqa əlimizdən gələ biləcək bir iş yoxdur. Yalnız onları barışdırmaq. Amma bir neçə gün səbr edək, görək nəyə razı olacaqlar? Sülh, barış olsa, bu əla olar.Yox əgər arada savas olarsa, onda biz Məhəmmədlə birləşib onlarla vurusarıq.

Müsəlmanlar oradan Hz. Məhəmmədin (s.ə.s) evinə gəldilər. Onun halını soruşdular:

– Ya Həbibi, ya Məhəmməd, Qureyşin səfehləri sənə artıq sözlər demiş, səni çox incitmişlər. Bir xəbər verib bizi yanına almadın. Səni tək görəndə, əlbəttə, dilləri uzun olacaqdır.

Hz. Məhəmməd (s.ə.s) onlara, yaxınlarına və qohumlarına dedi:

– Bunu bilməlisiz! Haqq dinə dəvət edən peyğəmbərlər daima kafirlərin əlindən, dilindən əziyyət çəkmişlər. Daima acı sözlər eşitmişlər.

## *İSLAM DİNİNƏ DƏVƏT AŞKAR OLACAQDIR*

Haşimoğulları bunları və daha başqa sözləri eşitdikdən sonra dağılışdılar. Hz. Məhəmməd yanında ancaq iman gətirənlərin qaldığını görüncə onlara:

– Ay qardaşlar, Allahdan dini aşkar etməm, xalqı İslam dininə dəvət etmək üçün əmr aldım. Artıq kafirlərlə bir yerdə durmayacağam, onlarla söhbət etməyəcəyim haqda buyruq aldım. Siz də elə edin. Quranı açıq oxuyun. Mənim yanıma açıqca gecə-gündüz istədiyiniz vaxt gəlin-gedin. Əslinizdən, dostlarınızdan İslam dininə dəvət edin. Kimsədən qorxmayın, çəkinməyin.

O gündən sonra Məhəmməd (s.ə.s) dinə dəvəti aşkar etdi. Yolda gedərkən bir kimsə rast gələrdisə, onu dinə dəvət edərdi:

– Ey insan səni Haqq dinə dəvət edirəm, mənə Lə ilahə iİlallah Muhəmmədən rəsulullah de. Müsəlman ol. Bütlərə ibadəti burax. Onlara səcdə etmə. Bütlərə inanan kafir olur. Onlara inanan və ibadət edən Cəhənnəm odunda yanacaq, müxtəlif əzablarla üzləşəcək.

## *CƏBRAİL (ə.s.) YENİ VƏHY GƏTİRİR*

Bir gün Cəbrail (ə.s) Allah-təaladan bir vəhy gətirdi.

214. Və ən yaxın qohumlarını qorxut!

215. Sənə tabe olan möminləri qanadının altına al! (Onlarla yumşaq davran, nəzakətlə rəftar et, köməklərinə çat. (Əş-Şüarə surəsi 214-215 ayələr).

Hz. Məhəmmədə bu ayətlə: “Öz qohum-əqrəbanı dinə dəvət et. Qiyamət əzabları ilə onları qorxut. Sənin arxanca gedən möminləri qanadının altına al” – deyə əmr gəldi.

Əmirəlmöminin Əli İbn Əbu Talib(r.a) demişdir: “O zaman ki, bu böyük ayələr endi, Rəsulullah mənə buyurdu ki: “Ya əmimin oğlu, əmilərini, bütün oğullarını, bizə qanı qarışmış qohumlarımızı bir yerə topla. Mənim yanıma gəlsinlər”. Allahın Rəsulu öz evinə getdi. Hz. Xədicəyə: “Yemək hazırla!” – deyə buyurdu. Yeməklər hazırlandı, süfrələr açıldı. Əbu Talib

qohumları, qövmü və qəbiləsini topladı. Hamısı Rəsulullahın evinə gəldilər. Könül xoşluğu ilə, gülə-gülə oturdular. Sonra Rəsulullah gəldi. Süfrələrə oturdular, yemək-içmək gəldi. Yeyib içdilər, bir az söhbətdən sonra Hz. Rəsul ayağa qalxdı:

– Ey yaxınlarım, qohumlarım, əzizlərim! Sizə məlum olsun ki, Allantəala sizin içinizdən Məhəmmədi səlahiyyətli etdi və nübüvvət xələtini geydirdi. Həm də əmr etdi ki, xalqı doğru yola dəvət eyləyim. İslam dininə çağırım. Bütün insanları Allah-təala yaratmışdır. Ağdan, qaradan, kişidən, qadından, quldan, bəydən hər birinizi Haqq dinə dəvət edirəm. Cəbrail sizi dəvət etməyi tapşırmış, bu ayə mənə demişdi:

"Sizi topladım, İslam dininə dəvət edim. Siz də bütün daxili inamınızla Allah-təalanın təkliyinə, birliyinə inanın. Mənim risalətimə iman gətirin, şəhadət edin. Əşhədu ən lə ilahə iİlallah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu. Tanrı birdir. Məhəmməd haqq Rəsuludur. Deyiniz. Artıq bütlərə ibadət və səcdə etməyin. Bu bütlərin hamısı daşdandır. Cansız şeylərdir. Onların kimsəyə nə xeyri var, nə zərəri. Siz ulu seyyidlərsiz. Ağılda, elmdə, bilgidə Ərəbül Ürəba içində şöhrət və hörmət qazanmısınız. Ağıllıların və bilənlərin işini edin. Səfillərin sözünü eşitmək ağıllı kişilərə yaraşmaz. Bu necə ola bilər ki, özümüz daşdan, taxtadan, qızıldan, gümüşdən düzəldək, ona əl-ayaq qoyaq, üzünü Adəm kimi düzəldək, sonra da ona Tanrı deyək və ona inanaq. Heç ağıllı insan bunu edərmi?

Bu sözlərdən sonra Məhəmməd s.ə.s) qövmündən soruşdu:

– Ya qövmüm, sizin Xaliqiniz, sizi yaradan və ruzi verən Allahdır. O Allahın əvvəlinin əvvəli yoxdur. Axırının da axırı yoxdur. Həm də onun sifəti ləmyəlid və ləm yuləd (doğmamışdır, doğulmamışdır) sifətidir. Şanı ulu Allah kimsəyə bənzəməz. Bu bütün yaradılmış şeylər yox ikən onları Allah var etdi. Amma bütün yaratdıqlarından məni seçdi. Seçilmiş Rəsul etdi və sizə göndərdi. Siz də onun birliyini qəbul edin, mənim risalətimə şahidlik edin, şəhadət və iman gətirin. Əşhədu ən lə ilahə iİlallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluhu.

Hz. Məhəmməd (s.ə.s) bu sözləri söylədikdən sonra susdu. Qövmündən nə cavab gələcəyini gözlədi. Kimsə bir söz söyləməmişdi. Heç kim ağzını belə açmadı. Onda Əli bin Əbu Talib (r.a) yerindən qalxdı, həzrəti Məhəmmədə doğru yeridi:

Əşhədu ən lə ilahə İllallah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu. Çünki Rəsulullahın əshabından orada, ondan başqa heç kim yoxdı. Hz. Əli o zaman on iki yaşında idi. Hz. Məhəmmədə (s.ə.s) dedi:

– Ya Həbibullah, mən şahidlik verirəm ki, sən Haqq – təalanın Rəsulusan. Dinin Haqq dindir. Sözün gerçəkdir, doğrudur.

Bundan sonra Hz. Məhəmməd (s.ə.s):

– Ey Haşimoğulları, ey Əbdülmüttəliboğulları. Nə üçün Allah - təalanın Rəsuluna inanmayırsız, sözünü eşitməyirsiz. Hamınız: Əşhədu ən lə ilahə İllallah və əşhədu ənnə Məuhəmmədən əbduhu və rəsuluhu deyiniz.

Oturdu. Qövmündən bir kişi belə iman gətirib müsəlman olmadı.

Hz. Əli r.a) qalxaraq irəlilədi, şəhadət kəlməsini təkrarladı: Əşhəd ən lə ilahə İllallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluhu.

Hz. Məhəmməd (s.ə.s) hz. Əliyə işarə verdi, Əli keçib yerində oturdu. Əmilər bir-birinə baxdılar. Əbu Talib sözə başladı. Öz qardaşlarına:

– Ey qardaşlarım! Ey Haris, ey Əbdüluzza (Əbu Ləhəb), ey Dırar, ey Həcələ, ey Həmzə, ey Abbas, hamınız eşidin. Bir az vaxt mənə çox diqqətlə qulaq asın. Amma bu o demək deyildir ki, Məhəmmədin nübüvvətini inkar etməkdəyəm. Həbadə. Mənim onun üçün şübhəm və inkarım yoxdur. Məhəmməd Haqq peyğəmbəridir. Sözü doğrudur. Dəvəti haqdır. Amma mən Qureyş ulusuyam. Məndən əvvəl gələn ulular ki, Hərəm içində qazi, başçı oldular, mən də onların dini üzərində gedirəm. Lakin iki oğlum Cəfər və Əli Məhəmmədin dininə girdilər. Müsəlman oldular. Bacım Səfiyə xatunun oğlu Əvvam oğlu Zübeyr Məhəmmədin çağırışı və öz arzuları ilə müsəlman oldular. Amma ulu qardaşım Haris, oğlu Abdullah və mənim iki oğlum, dörd kişi onu yaxın bildilər və iki cahanda xoşbəxt oldular. Əbədi səadətə yetişdilər.

Əbu Talib bir az susdu, yenidən sözünü davam etdirdi:

– Ey qövm bildim, bilmədim deməyiniz. Mən Məhəmmədin yoluna bel bağladım. Bütün malım, canım, əhlim, başım onun əmrinə, onun işinə yardıma hazırdır. Nə sizdən, nə də başqa kişidən olmasın ki, bir acı söz eşidim. Və ya Qureyşdən bir kişi onun üzünə qarşı "Sən rəsul deyilsən", desin. "Nübüvvət enmədi, sən yalançısan" və ya "Sən yalan söyləyirsən", desin. Siz elə düşünməyin ki, mən beləl追inə susacağam. O adamı rusvay edərəm və ya öldürərəm. Bu vəziyyət yaranarsa, Beytül– Hərəmin Rəbbi, aramızda qılınc çəkilər, qan düşər. Burada Qureyşin qərarı olmaz.

Bu sözlərdən sonra hz. Həmzə:

– Düzdür, qardaşım, mən də səninlə birlikdəyəm. Mən də canımı, başımı, malımı, övladlarımı onun, Məhəmmədin yolunda fəda qılmışam. Sədaqət qurşağını Məhəmməd üçün bağlamışam.

Həmzədən sonra hz. Abbas söz aldı.

– Ya Məhəmməd, biz hamımız sənin yolunda başımızı, canımızı qoymağa hazırıq. Amma gedək öz aramızda bir az danışaq, məsləhətləşək. Camaatımızla görüşək, onların da fikrini bilək. Yenə yanına gələrik. Sən bu dünyada bizim ən əzizimizsən.

yığıncaq bitdi, hamı yeni məlumatlarla, düşünə-düşünə evinə getdi.

## *SƏHABƏLƏR Hz. MƏHƏMMƏDDƏN (s.ə.s.) HƏDİSLƏR DİNLƏYİRLƏR*

Hz. Məhəmmədin də dostları onun hüzuruna gəldilər. Nə edəcəklərini düşünürdülər. Az sonra Qureyşin arasında bu xəbər yayıldı:

– Abdullah oğlu Məhəmməd qövmünü, yaxınlarını, qohumlarını öz evinə bir araya cəm edib. Öz dininə dəvət edib amma heç kim onun dininə girməmişdir. Məhəmmədin sözlərini qəbul etməmişlər.

Qureyş uluları bu sözləri eşidəndə qəlbləri fərəhlə doldu, çox şad oldular. Düşmənlər sevindilər.

– Gördünüzmü, Məhəmmədin qövmü və qohumları artıq ona yardımçı və arxa deyillər.

Amma qureyşlilərin bütün çalışmalarına baxmayaraq, Rəsulun səhabələri, müsəlmanlar gecə-gündüz onun əmrində və xidmətində hazır dururdular. Mübarək dilindən hədislər dinləyirdilər. Ürəkləri isə Hz. Məhəmmədlə (s.ə.s) vururdu. Rəsulullah (s.ə.s) isə gözünü Allahın dərgahına tutmuşdu ki, oradan yeni nə işarə, əmr və buyruq olacaqdır.

## *QUREYŞİN SEVİNCİ*

O günün ertəsi səhər tezdən Qureyş yavaş-yavaş bir yerə yığıldı. Səbəbi isə dünən Haşimoğullarından bir kişinin belə Məhəmmədin sözü ilə onun dininə keçməməsi idi. Onun sözünü eşitmədilər, bundan böyük sevinc ola bilərmu? Onlar böyük uığıncağa Hərəmin içində yığışdılar. Dedilər:

– Əgər Əbdülmüttəliboğulları Məhəmmədə iman gətirsələrdi, işimizə çox zərər, ziyan dəyərdi. İslamı qəbul edənlər ulu-ulu seyyidlərdir. Qureyşin igid və cəsurlarıdır. Onlar Məhəmmədə iman gətirərək, bütün ərəblərdən dönmüş olarlar. Beləcə davam edərsə, dinimizin qədir-qiyməti qalmazdır. Birdən-birə heç olub gedərik.

Qureyşlilər belə söhbətlər etdiyi vaxt Əbu Ləhəbin gəldiyini gördülər. Əbu Cəhl ona doğru yeridi. Dedi:

– Salam, ya Əbu Ləhəb, ya Əbu Ütbə, ya Əbdülüzza, ya seyyidi. Əbdülmüttəliboğulları ilə dünən nə kimi söhbətlər etdiniz? Məhəmmədin evində nə üçün yığışmışdınız?

Əbu Ləhəb məlun onlara belə dedi:

– Ya Əbəl-Həkəm, mənım qardaşım oğlu dəli olub. O sara xəstəliyinə

(özündən getmə, ürəkkeçmə ) tutulmuşdur. Söylədiyi sözlərdən xəbəri yoxdur. Bütün qövmü, qohum-əqrəbanı toplayıb bizə dedi ki: "Ey camaat, ata-babalarınızın dinini buraxın, mənim dinimə gəlin. Məni Allahın Rəsulu olduğumu qəbul edin. Amma Əbu Talib xatirinə ona bir söz deyən olmadı, susduq. Onu qoyub çıxıb getdik".

Bundan sonra Əbu Cəhlin casusları gəldilər. Əbu Talibin dediklərini onlara söylədilər. Qureyş uluları Əbu Talibin Məhəmmədin (s.ə.s) tərəfini saxladığını öyrəndilər.

Həmzənin ərliyi, igidliyi, aslanlığı Qureyş içində çox məşhur idi. Ticarət yolçuluqlarında o çox qəhrəmanlıqlar göstərmişdi. Bütün ərəblər araslnda Həmzənin cəsarəti, igidliyi dillərdə dastan idi. Həmzənin Məhəmmədlə (s.ə.s) birlikdə olması, onu qorumasına söz verməsi, onları xeyli məyus etdi, sarsıtdı.

## Hz. MƏHƏMMƏDDƏN ƏBU TALİBƏ ŞİKAYƏT

Əbül Həsən əl-Bəkri (r.a) belə yazır ki, "Allah-təaladan Rəsuluna müsəlman dininin açıqca təbliğinə əmr gəldikdən sonra  o, hər yerdə, bayırda, yolda gördüyü insanları dinə dəvət edirdi. Onlara "Lə ilahə İllallah Muhəmmədən Rəsulullah" deyin, gəlin müsəlman olun, bütlərə ibadət etməyin. Kafir olmayın deyirdi.

Hz. Məhəmməd (s.ə.s) qureyşlilərin əcdadları, babaları haqqında belə deyirdi:

– Atalarınız bütlərə ibadət etdi, səcdə qıldı, onlar kafir oldular. Şübhəsiz ki, onlar daima od içində yanacaqlar. Çünki Allaha ortaq qoşanlar "nar, atəş əhli"dir. Bütün ata-analarınız atəş əhlidir, od içindədirlər.

Hz. Məhəmməddən bu cür söz eşidən qureyşlilər Əbu Cəhlin yanına gedirdilər. Qureyş ulularına dərdlərini deyirdilər :

– Abdullah oğlu Məhəmməd bütlərimizi söyür. Deyir ki, hər kim bütə ibadət etsə, o kafir olur, ata-analarınızın hamısı nar, atəş əhlidir.

Bu söz Məkkə şəhərinə yayıldıqca Qureyşə çox təsir etdi. Hamı həyəcanlandı. Bir gün Əbu Cəhllə Əbu Ləhəb bir araya gəlib Üməyyə oğlu Hərb oğlu Əbu Süfyanı çağırtdırdılar. Sonra bütün Qureyş ulularına xəbər göndərdilər. Müəyt oğlu Üqbəni, Rəbiə oğlu Şeybə ilə qardaşı Rəbiə oğlu Ütbəyi çağırdılar. Daha sonra Müttəlib oğlu Əsvəd, Əbdüllat oğlu Cədan, Əbu Cəhlin qardaşı (Hişam oğlu Bəhtəri), Vail oğlu As, Muğirə oğlu Vəlid kimi Qureyşin ən möhtəbər uluları, Allahın lənətinə gəlmiş bu insanlar nə edəcəklərini düşünürdülər və məsləhət verirdilər ki:

– Əbu Talibin yanına gedin, onunla danışmaqdan başqa bir çarə yoxdur. Gedək, danışaq.

## *QUREYŞLİLƏR ƏBU TALİBİN YANINA ULULARINI GÖNDƏRİR*

Seyyidlər yerlərindən qalxıb Əbu Talibin evinə yollandılar. Əbu Talib bu böyük heyətin onun yanına gəldiyini görüncə durub qarşılamağa çıxdı. Hər birini mərtəbə və dərəcələrinə görə yerlərinə oturtdu. Ululara hörmət və izzər gostərdi. Onlara müraciət edərək:

– Salam, xoş gəlmisiniz, ey Qureyş seyyidləri. Yəqin ki, siz bura hansısa bir iş üçün gəlmisiniz. Söyləyin bilim.

Qureyş seyyidləri:

– Ey Hərəm qazisi! Ey Ebu Talib, sənin qardaşın oğlundan şikayətə gəlmişik. Bu heç rəvadırmı bizim bütlərimizi Abdullah oğlu Məhəmməd dilə gətirsin: “Bu bütlər batildir, onlardan nə xeyir, nə də ziyan var” desin. Hələ sonra da “Sizin ata-babalarınız, ana-nənələriniz kafir kimi dünyanı tərk etdilər. Əhli-nar, atəş əhlidirlər” kimi sözlər deyir. Bu sözləri söyləmək döğrudurmu?

Bundan sonra sözə Əbu Cəhl qarışdı:

– Ya Əbu Talib, Abdullah oğlu Məhəmmədə öyüd ver, ya da onunla bizim aramıza girmə. Biz özümüz bir-birimizlə hər şeyi aydınlaşdırarıq.

ƏbuTalib xoş və şirin dili ilə onlara təsəlli verdi və dedi:

– Mən onunla danışıb öyüdlər verərəm. Sizin dediklərinizi ona çatdıraram. Bu mənə borc olsun.

Bu şirin sözlər Qureyş ulularının könlünü oxşadı. Ürəkləri fərəhlə dolmuş, sakitləşmişdilər. Əbu Talibin yanından şad ayrıldılar.

Bu yığıncaqdan bir gün sonra Əbu Süfyan ilə Əbdülmüttəlib oğlu Abbas birgə yola çıxdılar. Yəmən ölkəsinə getdilər. Ticarətləri şərab alıb-satmaq idi. Bir yəmənli əsilzadə Abbasla Əbu Süfyanın yanına gəldi:

– Xoş gəldiniz, ey Hərəm seyyidləri. Mən də yaxın günlərdə Məkkədə idim. Oradan yeni gəldim.

Əbu Süfyan soruşdu:

– Məkkə şəhərini necə gördün? Əcaib-qəraib nə gördün? Nələrə tamaşa etdin, baxdın?

Yəmənli əsilzadə:

– Mən Məkkə şəhərində gördüm ki, bir gözəl üzlü kişi Səfa və Mərvə arasında xalqı ətrafına toplamışdı. Onlara: “Ey qövmüm, mən Allah-təala tərəfindən göndərilmiş Rəsulam, elçiyəm. Gəliniz, mənim dinimə girin,

müsəlman olun",- deyirdi. Bir yəhudi bu sözləri eşidincə, yeni dinə dəvəti eşitdikdə üzünü yerə qoydu ağlamağa başladı:

– Bu gün yəhudilərin evləri yıxıldı. Yəhudilər bu gun öldürüldü, – deyib yenidən hıçqırıb hönkür-hönkür ağladı.

Bu sözləri duyan Əbu Süfyan Abbasdan soruşdu:

– Ya Əbu Fəzl, sənin qardaşın oğlu Məhəmmədə görə bu Yəmən yəhudiləri nədən ağlaşırlar? Nə üçün narahatdırlar?

Abbas cavab verdi:

– Çünki bu yəhudilər bilirlər ki, Məhəmməd Haqq peyğəmbəridir. Onun dini aləmi tutacaqdır. Onun dinindən bütün dinlər, məzhəblər ortadan qalxacaqdır. Unudulacaqdır.

Abbas sonra Əbu Süfyandan soruşdu:

– Ya Əbu Sufyan, sən ona inanmayacaqsan? Sən ona tabe olmayacaq san?

Əbu Sufyan:

– Lə vallah, mən onun nübüvvətinə inanan deyiləm. Ta ki o bayraqlarını Məkkə və ətrafındakı dağlara sancarsa, o zaman mən onun dininə girərəm.

Gerçəkdən illər sonra Hz. Məhəmməd Məkkəni fəth etmiş, islam bayraqları dağlarda dalğalanmışdır. Abbas o gün müsəlman olmuşdu. İslam əsgərləri Məkkə küçələrinə girəndə Əbu Süfyanın yanına gəlmiş və ondan soruşmuşdu:

– Ya Əbu Süfyan, sən İslama girməyi bu gün demişdin, Məhəmmədin bayraqları dağlarda dalğalanır.

Əbu Süfyanın andı yadına düşdu, Məkkənin fəthi günü müsəlman oldu.

## *RƏSULULLAHIN (s.ə.s.) İLK DƏFƏ DÖYÜLMƏSİ*

Əbu Talibə gələn Qureyş ulularının elçilərinin könül xoşluğu ilə evlərinə dönməsindən sonra bir neçə gün keçmişdi. Bir gün Rəsulullah (s.ə.s) Səfa və Mərvə arasında durmuşdu. Qureyş uluları toplu halda onun yanından keçirdilər. Hz. Məhəmməd onları gördükdə irəlilədi:

– Ey Haşimoğulları, Əbdümənafoğulları, ey Əbdüşşəmsoğulları, – deyə səsləndi.

– Sizi Allah-təalanın birliyinə, imana dəvət edirəm. Bütlərə ibadəti tərk edin. Bütlərdən sizə nə xeyir, nə də zərər dəyər. Sözlərimə qulaq asın. Rəbbə ibadət edin. Allaha ortaq qoşmayın. Sizə öyüdüm budur.

Qureyş uluları Hz. Məhəmməddən (s.ə.s) bu sözləri eşidəndə durduqları

yerdən birbaşa onun üstünə hücum etdilər. Onu vurmağa, döyməyə başladılar.

– Ya Məhəmməd, sən bizim tanrılara tənə edirsən? "Onlardan nə xeyir, nə də zərər var"– deyirsən. Bizim bütlər bizi Yaradana yaxın tutur. Sən dəlisən, xəstəsən. Dəliliyin səni doğru yoldan çıxarır. Sən bir nəbi, peyğəmbər deyilsən.

Sonra döyməyi dayandırdılar:

– Səninlə nə danışaq?! Yenə dönüb gedərik əmin Əbu Talibin evinə. Sənə öyüd versin, o bizə söz vermişdi. Yenə gedərik onun yanına.

Qureyş uluları Səfa və Mərvədən ayrılıb birbaşa Əbu Talibin hüzuruna gəldilər. Dedilər:

– Ya Əbu Talib, artıq taqətimiz, dözümümüz qalmadı. Səbrimiz tükəndi. Bu Məhəmməd bizim qarşımıza gəlsin, bütlərimizi söysün, "Bunlar batildir" desin. Biz artıq onun sözlərinə dayana bilmirik. Ya onun danışıqlarını kəs, ya da sən də bizdən ayrıl, aramızdan çıx, get.

Bu sözlər Əbu Talibi çox yaraladı. Çünki Qureyşin birləşib, Hərəm başçılığını ondan almaq istəyini və qardaşı oğlu Məhəmmədlə (s.ə.s) düşmənçiliklərini artırmağa qərar verdiklərini anladı. Bütün məsələlərdə tez həll yolu tapa bilən Əbu Talib çaşıb qalmışdı. Nə qövmündən ayrılmaq, nə də Məhəmmədə (s.ə.s) bir ziyan dəyməsini istəyirdi. Gələnlərə dedi:

– Bu səfər də gedin, mən Məhəmmədə adam göndərib bura çağıtdıraram. Onunla danışaram.

## *ƏBU TALİB Hz. MƏHƏMMƏDLƏ (s.ə.s.) KƏSKİN DANIŞIR*

Qureyş dəstəsi aralanan kimi Əbu Talib Məhəmmədə (s.ə.s) adam göndərib çağırtdırdı. Rəsulun (s.ə.s) gəldiyini görüncə qarşısına çıxdı, əlindən tutdu. Gətirib yuxarı başda oturtdu. Sonra ona dedi:

– Ya Həbibi, ya iki gözümün nuru, ya Məhəmməd! Qövmün, yaxınların səndən şikayət etməkdədirlər. İkinci dəfədir ki, yığılıb gəlirlər. Şikayətçi olurlar: "Bütlərimizi, dinimizi, məzhəbimizi söyür" – deyirlər. Ata-analarımızın hamısının kafir olduğunu deyir, cəhənnəm atəşində yanacaqlarını təkrarlayır. Qövmün səndən çox inciyir. Sənin sözün düz olsa belə onlara xoş gəlməyəcəkdir. Sən bütün qövmünü, qohum-əqrəbanı özünə düşmən etmə. Mənim doğru gördüyümü, sən də doğru gör.

Əbu Talib susdu. Başqa bir söz söyləmədi. Hz. Məhəmməd (s.ə.s.) isə Əbu Talibin sözlərindən onun Qureyşin təzyiqinə davam gətirə bilmədiyini

anladı. Dedi:

– Əmi, sənin əlindən gələrmi günəşi qərbdən çıxarıb şərqdən batırasan? Bunu bacararsanmı?

Əbu Talib:

– Yox, bu mən bacaran iş deyil.

Hz. Məhəmməd (s.ə.s.) sözlərinə davam etdi:

– Əmi, mənim əlimdən gələrmi Allah-təalanın əmrini yerinə yetirməyim? Onun əmrinə qarşı necə gedim? Əgər bütün dünya xalqı mənimlə düşmən olsa, məni öldürmək istəsə belə, yenə mən dinə dəvət və risalət təbliğindən geri çəkilmərəm, tərk etmərəm.

Əbu Talib yenidən çaşıb qalmışdı. Hz. Məhəmməd də (s.ə.s.) son qərarını bildirdi:

– Əmi, sən öz qövmündən üz döndərməyib onların könlünü almaq istəsən, mənə bildir. Heç inciməyəcəyəm. Sən öz qövmünün qəlbini al, məni də Böyük Allaha əmanət et.

## *Hz. MƏHƏMMƏDİN GÖZ YAŞLARI*

Bu sözləri deyən Hz. Məhəmmədin (s.ə.s.) gözləri yaşla doldu. Yerindən qalxdı, getməyə hazırlaşdı.

Əmisi Əbu Talib onun bu gözüyaşlı halını görüncə ürəyi yandı, dağlandı. O, tez yerindən qalxıb hz. Məhəmmədin (s.ə.s.) əlindən yapışdı. Yalvarmağa başladı:

– Getmə, gözümün nuru, geri dön.

Qucaqladı, bağrına basdı. Yetmiş yaşını çoxdan ötmüş ixtiyar Əbu Talibin də gözlərindən yaş leysan yağışı kimi axmağa başladı. Boynunu qucaqlayıb yanında oturtdu. Dedi:

– Ey Həbibi, sən könlünü məyus etmə, incimə. Sən nə arzulasan, mən onu yerinə yetirərəm. Sən onların dediklərinə baxma. Mən bunları işin xatirinə söylədim. Bilirəm ki, sənin mübarək könlün qırıldı. Mən sənin ayaq basdığın torpağı Qureyşin başları qarşılığı vermərəm.

Bu sözləri deyib Əbu Talib bir az susdu. Sonra əlavə etdi:

– Ya Məhəmməd! Sən deyirsən ki, Haqq peyğəmbərisən, doğrudur. Sən göydəki Allah ilə danışan bir kimsəsən, sən də səndən əvvəl gələn peyğəmbərlər kimi dəlil, sübut, nişanələr göstərirsən. İndi iki gözümün işığı, Məhəmməd, sən get, könlünü xoş tut. Mən də öz qövmümdən üz döndərməyim. Bil ki, bütün varlığımla sənin arxanda durmuşam. Sənin üçün vuruşaram, səni vuranı vuraram, öldürmək istəyəni öldürərəm. Sən Haqq-təalanın

əmrini yerinə yetir. Kim sənə bir pis söz desə, mən onun düşməniyəm.

## *SƏN NİYƏ DİNƏ GƏLMİRSƏN, ƏMİ?*

Hz. Məhəmməd (s.ə.s.) Əbu Talibdən soruşdu:

– Əmi, sən nə üçün İslam dininə girib müsəlman olmursan?

Əbu Talib öz düşüncələrini belə açıqladı:

– Ya Həbibi, ya seyyidi, əgər mən sənə iman gətirsəm, müsəlman olsam, kafirlər əl qaldırarlar. Müsəlmanlar indi azlıqdadır. Bütün Qureyş indi məndən çəkinir, hamısının yanında hörmətim var. Sayılan insanam, əziz bir başçıyam. Hər birinin yanında sözüm keçər, sözümdən çıxmazlar. Əgər müsəlman olsam, mən hörmətdən düşərəm, heç kim məni saymaz. Səni də qoruya bilmə-rəm.

Bu sözlər Hz. Məhəmmədin (s.ə.s.) sanki ürəyinə su səpdı. Onun qəlbi fərəhləndi, xoş oldu. Qalxıb evinə getdi.

## HZ. MƏHƏMMƏDİ (s.ə.s.) ÖLDÜRMƏYƏ QALXMIŞLAR

Az vaxtdan Qureyş ulularına sonra belə bir xəbər gəldi:

– Əbu Talib Məhəmmədlə əhdləşmiş, “Mən səndən üz döndərmərəm, dostuna dost, düşməninə düşmənəm”– demiş və Məhəmmədin könlünü alaraq evinə göndərmişdir.

Bunu eşidən Əbu Cəhl lənət olmuş dedi:

– Bu Abdullah oğlu Məhəmmədi kiçiklikdən bəsləyib böyüdən elə Əbu Talibdir. Öz övladlarından da bəlkə çox sevir. Ona qəti sözlər deməyə qıymaz. Mənim bir düşüncəm var, tədbir görməliyik.

Qureyş uluları:

– Düşüncəni de, tədbirini söylə eşidək.

Əbu Cəhl:

– Muğirə oğlu Vəlidin bir gözəl oğlu var. Üzünün gözəlliyinə görə tayı-bərabəri yoxdur. Adı Vəlid oğlu Əmmərdir. Onu alıb verək Əbu Talibə, özünə oğul etsin. Məhəmmədin yerinə sevib bağrına bassın. Məhəmmədə olan məhəbbətini ona versin, Məhəmmədi isə bizə təhvil versin, onu öldürək.

Bu fikir bütün Qureyş kafirlərinə çox xoş gəldi. Qureyş uluları yığıldı, Vəlid oğlu Əmmərlə Əbu Talibin evinə gəldilər. Ona dedilər:

– Ya Əbu Talib, sən bizim seyyidimiz, sərvərimizsən, başçımızsan. Bi-

lirik ki, Məhəmmədi çox sevirsən. Ona qıymırsan, söz demirsən, inciməyini istəmirsən. Qureyş uluları belə fikrə gəldilər ki, Vəlid oğlu Əmməri atasından alıb sənə gətirsinlər. Bütün Qureyş içində ondan gözəl üzlü bir uşaq yoxdur. Onu sənə oğulluğa veririk. Onu oğulluğa qəbul et. Qardaşın oğlu Məhəmmədi bizə ver. Götürək, öldürək. Onun fitnəsindən, şərrindən qurtaraq.

Qureyşlilərin bu sözlərini eşidən Əbu Talibin damarlarında qanı dondu. Qalxdı, böyük bir qəzəblə dedi:

– Bu tədbiri, düşüncəni kim verdi? Hansı ağılsız, düşüncəsiz, küt başdan belə bir təklif çıxa bilər? Siz əskik ağıllılar belə bir sözə uydunuz. Qalxıb mənin yanıma gəldiniz. Ay qövmüm, siz dəlimi olmusunuz? Fikriniz, ağlınız, düşüncəniz hara gedib? Ulu seyyidlər gəliblər ki, başqa bir kişinin oğlunu sənə oğulluğa veririk, sən öz oğlunu bizə ver, onu öldürək. Bu nə cür sözdür, Qureyş xalqı? Hansı millətdə, dində belə şey rəva görünüb? Yazıqlar olsun, Qureyş qövmü. Sizi ağlı çaşmışlar, düşüncəsizlər, azmışlar idarə etməyə başlayıb. Belə düşünənlərlə Qureyşin birliyi pozulacaq, aradan qalxacaqdır.

Az sonra Əbu Talib sözünə davam etdi:

– Ey qövm, Qureyşin birliyi, düzgün işi pozulacaq. Çünki sözümüzdə dad, ləzzət, cəmiyyətimizdə gözəllik, təravət qalmadı. Bizdən əvvəl gələnlər heç vaxt pis söz deməzdilər, düzgün olmayan işləri görməzdilər. Bizim ulular arasına dardüşüncəli, özündən razı kiçik insanlar daxil oldu. Bilməyənlər bilənlərin işinə əl atdılar. Başları çıxmayan işlərə girişdilər. Gedin öz evlərinizə, işlərinizlə məşğul olun.

Bu sözləri eşidən Qureyş ulularını xəcalət hissi bürüdü. Dağılışıb evlərinə getdilər.

## *ƏBU TALİB YAXINLARINI TOPLAYIR*

Qureyş getdikdən sonra Əbu Talib Haşimoğullarını, Əbdülmüttəliboğullarını çağırıb evində yığdı:

– Ey qövmüm, qureyşlilər yeni bir düşüncə ilə yeni tədbir düşünüblər. Müğirə oğlu Vəlidin oğlu Əmməri mənə gətirdilər. Onu mənə verib yerinə Məhəmmədi almağı və sonra Məhəmmədi öldürmək istədiklərini söylədilər. Ey qardaşlarım, sizə dünyada heç vaxt görünməmiş bir iş haqqında xəbər vermək istəyirdim.

Haşim və Əbdülmüttəliboğulları bu xəbəri eşidəndə ürəklərindən oxla vurulmuş kimi oldular. Əbu Talib onlara:

– Ey seyyidlər, ey Qureyş hörmətliləri. Görüləcək iş budur. Mənimlə əl-

ələ verin, qılınca qurşanın. Ər kimi, igidlər kimi davranın. Məhəmmədi vuranı vurun, öldürmək istəyəni öldürün.

Haşim və Əbdülmüttəliboğulları bu sözlərdən sonra bir-biri ilə əl tutdular, danışdılar və söz verdilər:

– Biz Məhəmmədin yolunda malımızı, canımızı fəda edirik. Biz Məhəmməddən üz döndərmərik. Ona bir kişi düşmən olsa, o bizim hamımızın düşmənidir. Əgər bizdən bir kişi onun dininə girsə, biz ona düşmən olmayacağıq. Müsəlman olmaq istəyirsə, olsun. Kimsə müsəlman olduqdan sonra başqalarına "sən də müsəlman ol" təzyiqi göstərməsin. Kim dədə-baba dinində qalacaqsa, qalsın. Amma Məhəmmədin dostu dostumuz, düşməni düşmənimizdir.

## *ƏBU LƏHƏBİN ETİRAZI*

Bu and üzərinə Əbdülmüttəliboğlu Əbu Ləhəb ayağa qalxdı və dedi:

– Ey qövm, mən sizinlə birlikdə deyiləm. Məhəmmədin hərəkətləri mənə heç də xoş gəlmir. Mənim ona heç məhəbbətim yoxdur.

Əbu Ləhəb bu sözləri deyib, durub, çıxıb getdi.

Əbu Talib söz aldı:

– Ey qardaşlarım, ey Haşim və Əbdülmüttəliboğulları, siz bilirsiz ki, atam Əbdülmüttəlib Əbu Ləhəbdən təngə gəlib bezmişdi. Bizə də: "Bu oğlumu, mən oğulluqdan çıxardım. Siz də bunu qardaşlıqdan çıxarın" – demişdi. O vaxtdan bəri Əbu Ləhəbin dostluğunu da, düşmənliyini də görmüşük. Bu söhbətlərdən sonra hamı yavaş-yavaş dağılışaraq öz işinə getdi.

## *ƏBU TALİBİN EVİNDƏKİ ANDDAN QUREYŞLİLƏR XƏBƏRDAR OLUR*

Əbu Talibin öz qəbiləsini çağırması, orada and içərək Məhəmməddən (s.ə.s.) üz döndərməyəcəyi xəbəri az bir zamanda Qureyşlilər arasında yayıldı. Yenə bir araya gəlib yığıldılar. Danışdılar, fikirlər irəli sürdülər və sonra dedilər:

– Ya qövm, Hişam oğlu Əmrin, Əbu Cəhlin dedikləri doğru çıxdı. Onlar neçə ildir deyirlər ki, Qureyş seyyidləri, Abdullah oğlu Məhəmməd bu işi bacaracaqsa, Qureyş ulularını iki yerə ayıracaqdır. Xalqı da iki yerə böləcəkdir. Aramıza qılınc düşəcəkdir. İndi onların sözlərinin gerçək olduğunu görürük. Elə bir günə çatdıq ki, and içib bir bölük oldular. Heç sübhə yoxdur ki, iki bölük arasında qılınc çəkilib qan tökülməyincə, başlar vurulmayınca düşmənliyin ortadan qalxmasına çarə olmayacaqdır.

O zaman Qureyş hörmətlilərindən Muğirə oğlu Vəlid irəli atıldı və dedi:

– Ey qövm, dostlar. Mənim bir düşüncəm var. Bir tədbirimi sizə deyim, sizin fikrinizi bilim.

Qureyşlilər:

– Ey Vəlid, nə düşünmüsən, söylə biz də bilək.

Vəlid:

– Fikrim belədir, bir gün Məhəmmədi bir xəlvət yerə çağırarıq. Kimsə görməsin. Elə oradaca öldürərik. Əgər Haşimoğulları qalxsa, savaş hazırlığı görərik. O tərəfdən, bu tərəfdən xalq qalxsa, barış istəsə, barışarıq. Hətta qan bahası istəsələr, verərik. İki-üç qat olsa belə, ona da razı olarıq. Çünki Məhəmmədi başqa cür ortadan götürmək mümkün olmayacaq.

Qureyşlilər Vəlidin sözlərinə qulaq asıb:

– Düzdür, görüləcək iş bu, – dedilər.

## *ƏBU TALİBİN QƏRARİNDAN XƏBƏR TUTDULAR*

Qureyşlilərin bu qərarı Hz. Məhəmmədin (s.ə.s.) sevimli əmisi Əbu Talibin qulağına çatdı. Tez bir zamanda Haşimoğulları qəbiləsini bir yerə topladı. Əbu Talib dedi:

– Ey qəbilələrin ən şərəflisi olan Haşimoğulları. Ey ulu seyyidlər. Gəlin Qureyş xəbərlərini eşidin. Muğirə oğlu Vəlidin düşüncəsini və Qureyşin bu fikri necə qəbul etdiyini eşidin. Onlar Məhəmmədi (s.ə.s.) öldürmək və bir qan bahasına iki-üç qan bahası vermək qərarını vermişlər, ittifaq yaratmışlar. Bu haqda mənə nə fikirlər deyərsiniz?

Bu sözləri eşidən hz. Həmzənin səbri tükəndi. Silahlanıb atına mindi. Dedi:

– Gedim, bunlardan bir neçəsinin qanını torpağa töküm. Qanları tökülməyincə Qureyş çox şeyi anlamaz.

Həmzə atını sürdü. hz. Əli qılıncını bağlayb Həmzənin arxasınca çapdı. Qureyşlilərin toplandığı yerə yaxınlaşıb ucadan bir nərə çəkdi, bağırdı:

– Heyyy! Haradadır o insan ki, "Abdullah oğlu Məhəmmədi öldürüb yerinə qan bahasını verək", deyir? Gəlsin bir qarşımıza görək. Adamı öldürüb qan bahasını ödəmək necə olur, ona göstərim.

## *HƏMZƏ QILINCINI ÇƏKİB KÜKRƏDİ*

Hz. Həmzə yenə aslan kimi nərə çəkdi:

– Heyyy! Ey qövm, haradadır özündən razı o igid?...

Hz. Həmzənin ardınca qardaşları, qardaşı oğlanları da silahlanıb ata mindilər. Özlərini ora yetirdilər. Onlar hz. Həmzə və hz. Əlinin sağında, solunda sıra ilə dayanmışdılar.

Qureyş Haşim oğullarının silaha qurşanıb gəldiyini gördükdə "Qarşıda fəlakət ola bilər" haqqında düşündülər. Həyəcandan özlərini itirdilər. İxtiyar Vail oğlu Əmr, Əbu Cəhl, Cudan oğlu Abdül Lat və onlar kimi digər Qureyş hörmətliləri qabağa çıxdılar. Həmzəyə:

– Ey seyyid, qövm və qəbilə arasında qılınc çəkmək, fitnə yaratmaq doğru deyildir. Hələ sənin kimi bir igidin ağlından fitnə keçməz.

Həmzə yenə aslan kimi kükrədi:

– Heyyy! Qureyşlilər, bəs mənim qardaşım Məhəmməd Rəsulullah haqqında ölum hökmü verə bilən adam ola bilərmi? Guya "Məhəmmədi öldürüb onun qanına qan istəsələr, verəcəyik" demək olarmı? Kim Məhəmmədə qarşı belə sözlər deyirsə, bilsin ki,yerdə də,göydə də olsa, onu taparam. Məhəmmədin başından bir tük belə əskik olsa, Qureyşin içində böyükdən kiçiyə, uludan gəncədək bir-bir axtarıb həmin adamları tutub bu qılıncımdan keçirərəm. Kəbə xalqını buna əmin edirəm, Kəbə Tanrısına and içirəm.

Qureyşə yaman qorxu düşmüşdü. Əbu Cəhl və adamları igid, qəhrəman Həmzənin sözlərinə cavab verməyə belə qorxurdular. Susurdular.

Handan-hana ağılları başlarına gələndə Həmzəyə bu cavabı verdilər:

– Ya Həmzə, çox hirslənmisən, bu gün görüşməyimiz qalsın. Sabah bir yerə yığışarıq, bir tədbir fikirləşərik.

Beləcə, Həmzə və Haşimoğulları xoş könüllə geri döndülər.Cəsur qardaşlarının, qohumların sayəsində qureyşlilərin bu fitnəsinin də qarşısı alındı.

## *ƏBU TALİBƏ YENİ ELÇİLƏR GƏLİR*

Qureyş ulularından Mütim adında iki seyyid vardı: biri Nofəl oğlu Ədiyy oğlu Mütim, o biri Cübeyr oğlu Mütim idi. Qureyşlilər onları Əbu Talibin hüzuruna göndərərək tapşırdılar:

– Gedin, öyrənin Əbu Talib bizdən üz döndərdi, yoxsa bizim tərəfimizdədir?

Onlar Əbu Talibin yanına gəldilər:

− Ey ulu seyyid, nə üçün öz qövmündən üz döndərirsən? Qureyş uluları sənə itaət edirlər. Sənin yolunla gedirlər. Onlar deyirlər ki, biz ədalətli söz söyləyirik. Haşimoğulları da bizə insafla söz desinlər. Sözləri insafdan kənara çıxmasın.

Əbu Talib iki ulunu dinlədi, üzünü yaşlı olana tutub dedi:

− Ey Mütim, sən çox yaşamış, çox görmüş insansan. Əlindən xeyli işlər keçib. Seyyidsən. Qureyşin insafı budurmu ki, Məhəmməd kimi bir ulu kişini öldürmək istəyirlər? Yəni bizim günahımız nə olmuşdur? Haşimoğulları fəna kişimi oldular? Qureyşin pis və şərəfsizləri Məhəmmədə qəsd etməyə qalxsınlar, Haşimoğullarının igidləri, aslanları, şücaət sahibləri səssiz otursunlar, insaf budurmu? Mən indiyə kimi Qureyşə sayğı, sevgi göstərdim, amma onlar başlarını itiriblər, bir neçə ağılsızın dediklərinə qulaq asırlar. Bundan sonra mən də sizin qarşınızdayam. Kim Məhəmmədə düşmən olacaqsa, bilsin ki, o mənim də düşmənimdir. Məhəmmədi, dinini qoruyan qılınc bundan sonra mən olacağam. Bundan sonra Qureyş nə istəyir etsin, baxarıq, görərik.

Hər iki Mütimin də bu sözlərdən sonra dili tutulmuşdu. Bir söz də deyə bilməyib Əbu Talibin yanından çıxdılar. Qureyşin yanına gəlib, olanları anlatdılar.

Əbu Cəhl və dostları Əbu Talibin və Haşim oğullarının əl və dil birliyini hiss etdilər. Qorxu hissi onların əl-qolunu bağlayıb xeyli sakitləşdirdi. Nə Hz. Məhəmmədə (s.ə.s.) , nə də əshabına tək bir söz deməyə belə cürətləri çatmadı.

Bütün bu hadisələr İslam dininin irəliləməsinə və Qureyşlilərin geri çəkilməsində büruzə verdi. Amma qureyşlilər Hz. Məhəmmədi (s.ə.s.) öldürməkdən başqa yol görə bilmirdilər.

## *EY QÖVM, MÜSƏLMAN OLUN!*

Hz. Məhəmməd (s.ə.s.) Qureyşi dinə dəvətdə qüvvəsini xeyli artırdı. Qureyşliləri harada görürdüsə, dinə dəvət edirdi:

− Ey qövm, müsəlman olun, mənə iman gətirin. Bütpərəstliyi buraxın, Yaradanın birliyinə inanın. Mənim risalətimə inanın, − deyirdi.

Hərəmin içində, Səfa və Mərvə arasında, bir sözlə, harada bir Qureyşli görürdüsə, onu dinə dəvət edir, Quran ayələrini oxuyurdu.

Bir gün Əbdüşşəmsoğullarından Rəbiə oğlu Ütbə və Muğirə oğlu Vəlid söz birliyi etdilər. Qureyşə: “Məhəmmədlə barışacağıq, sülh edəcəyik”, - xəbərini verdilər.

Bu xəbər Hz. Məhəmmədin də (s.ə.s.) qulağına çatdı. Hz. Məhəmməd (s.ə.s.):

– Yəqin, Qureyş ulular iman gətirmək istəyirlər, – deyə dü-şündü.

Hz. Məhəmməd (s.ə.s.) nə zaman dəvətə gedərdisə, səhabələrdən heç kimi özü ilə aparmazdı. Gedəcəyi yerə tək gedərdi. Çünki müşriklərin acı sözlərini əshabının eşitməsini, dayanmayıb onlara cavab verməsini, dava düşməsini istəməzdi.

O gün də Hz. Məhəmməd (s.ə.s.) Qureyşlilərin yığıncağına tək getməyi düşünürdü. Hərəmə doğru yollandı. Baxıb gördü ki, Qureyşlilər yığışaraq oturublar. Hz. Məhəmmədi uzaqdan görüncə Ütbə qabağına çıxdı.

– Salam, ya Məhəmməd, bu tərəfə gəl.

Hz. Məhəmməd Qureyşin yığışdığı yerə gəldi. İkilikdə Ütbə hz. Məhəmmədə xeyli xoş sözlər dedi. Rəsulullah oturduqdan sonra:

– Xoş gəldin, ya Məhəmməd, – deyərək fikrini geniş izah etməyə başladı. Ya Məhəmməd Əmin, sən bizdənsən, biz də səndənik. Bizim əslimiz də bir ulu əsildəndir. Nəslimiz də birdir, uludur. Amma sən risalət əmrini ki gətirdin, bu peyğəmbərlik sözlərini ortaya çıxardın,bunlar bizi bir-birimizdən ayırdı.Camaatımızı iki bölük etdi. Səni bizdən, bizi səndən uzaqlaşdırdı. İndi bu ulular, seyyidlər bir tədbir düşündülər. Məsləhət gördülər ki, mən bunları sənə söyləyim. Sən də əgər izin versən, söyləyərəm.

Hz. Məhəmməd (s.ə.s.):

– Söylə, ya Ütbə, – dedi.

## *SƏNİ ƏRƏBLƏRİN BAŞÇISI TƏYİN EDƏK*

Utbə sözünə davam etdi:

– Ey Əbəl Qasim, əgər sənin diləyin, məqsədin nübüvvət dəvəti ilə Qureyş ulularından mal istəməkdirsə, biz razıyıq, nə qədər istəyirsənsə, o qədər verək. Hətta o qədər mal verərik ki, Qureyşin içərisində səndən çox malı olan olmaz. Biz razıyıq ki, bütün ərəblərin başçısı ol, ululuğunu da sənə verək. Hamımızın üzərində səni böyük təyin edək. Nə əmrin, göstərişin olarsa, biz onu yerindəcə həll edərik. Sənə məmləkətləri, qalaları alarıq, ordu düzəldərik. Ər igidləri toplayıb sənin üçün şəhərləri, ölkələri alarıq, sənə tabe edərik. Təki sən dinə dəvəti bizim üstümüzdən götür.

Hz. Məhəmməd bu sözləri şirin və mübarək təbəssümü ilə dinləyir, Ütbə isə daha da böyük həvəslə, əminliklə sözünü davam etdirirdi:

– Bəli, dəvəti burax, dinimiz üçün “batildir” demə, “bu dində olanlar kafir oldu” söyləmə. Bizim bütləri söymə. Hələ ki bu yuxuları görməkdə-

sən, onlar səni qorxudur, əqlini azdırır, sən dəli kimi olursan, dediyin sözlərdən xəbərin olmur. Biz bu dərdlərə də dəva taparıq. Hər yerdən ən yaxşı həkimləri gətirərik, dərmanını taparıq, səni sağaldarıq. Ancaq bu günə qədər söylədiyin sözləri daha söyləmə.

Sözlərini bitirərək Ütbə susdu. Hamı susmuşdu. Bütün Qureyş Hz. Məhəmmədin cavabını gözləyirdi.

Amma nə söyləyəcəkdi? Getdi...

Rəbiə oğlu Ütbənin əlini mübarək əlinə aldı. Onu Kəbəyə götürdü.

## *Hz. MƏHƏMMƏD "SƏCDƏ" SURƏSİNİ OXUDU*

Şirin və məlahətli səsi ilə Allah kəlamını oxumağa başladı. Oxuduğu "Səcdə" surəsi idi. Bitirdikdən sonra səcdə etdi. Sonra qalxdı. Ütbəyə döndü:

– Ey Əbu Vəlid, eşitdinmi Allah-təalanın kəlamını? Anladınmı mənasını? Əgər idrakın, fərasətin varsa, qövmünə və qəbilənə söylə.

Hz. Məhəmməd Ütbənin verdiyi suallara cavab vermədən, ayrılıb evinə getdi.

Ütbə Qureyşlilərin yanına döndü:

– Ey qövm, sizə əcaib bir xəbər verəcəyəm.

Onlar:

– Söylə, ey Əbu Vəlid, görək nə deyəcəksən.

utbə:

– Məhəmməd mənə bir sirr bildirdi. O sirri sizə deyim. Baxaq, bu sehrdir, yoxsa həqiqətmidir?

Qureyşlilər:

– Söylə, esidək, – dedilər.

Utbə:

– Məhəmməd mənə bir Quran surəsi oxudu. Ey qövm, o sehr, şeir və ya peyğəmbərlik olsun, bilmirəm. Amma heç bir yaradılmış o sözü söyləməz. Qulaq asan kişinin ağlı gedər. Onun təmtərağına, gözəl ifadələrlə anlatmağına, mənasına kiminsə ağlı, fərasəti yetişərmi?

## *ƏBU CƏHLİN QOLU-QANADI SINDI*

Əbu Cəhl məlun:

– Ey sehr altında qalan adam, – deyə çığırdı. Sən də bir saat içində Məhəmmədin sehrlərinə aldandınmı?

Əbu Cəhl sözünə davam etdi:

– Əgər bir az da sən onunla olsaydın, dininə girəcəkdin. Son günlərdə neçə seyyidlər onun dininə girdilər. Bir saat söhbətdən sonra Məhəmmədin sehrinə aldanırlar, sözünə inanırlar. İndi utandıqlarından hərəsi bir yerə girib, nə şəhərdə, nə də kənddə görünürlər. Nə də bizim yanımıza gələ bilirlər. Biz səni ağıllı, zəkalı bir kişi sanırdıq. Məhəmmədlə qarşılıqlı söhbət aparacağına, ona qandırıcı sözlər deyib başa salacağına inanırdıq. Sən nə etdin? Getdin, az qala onun dininə girib öz dinini atacaqdın.

Əbu Cəhl ümidsüz, qolu-qanadı qırılmış halda susdu. Qureyşlilər o gün də bir şey bacarmayıb, dağılışıb evlərinə getdilər.

## *XALQ DURMADAN İSLAMA DƏVƏT EDİLİR*

Aradan xeyli vaxt keçmişdi. Hz. Məhəmməd (s.ə.s.) ara vermədən öz ibadətində idi. Xalqı daima dinə dəvət edirdi. Yüksək yerlərə çıxır, oradan səslənirdi:

– Ey qövm: “Lə ilahə illallah Muhəmmədən Rəsulullah”, – deyin.

Hz. Məhəmməd (s.ə.s.) bütün təzyiqlərə, acı sözlərə heç zaman cavab verməz, içində saxlayardı. Səbir, dözüm və çətinliklərə qatlaşmaqda tayı olmayan nümunə göstərirdi. İslam dini açıq təbliğ olunduğuna görə qadın, kişi axın-axın gəlib müsəlman olurdular. Qureyş kafirləri isə gecə-gündüz həyəcan içində idilər. Düşündükləri isə ancaq hiylə və fitnə olurdu.

## Hz.MƏHƏMMƏD ƏZİM, KƏRİM, RƏHİMDİR

Qureyşlilər yenə bir yerə yığışmışdılar. Əbu Muayt oğlu Üqbə, Ədiyy oğlu Mütim, Cübeyr oğlu Mütim, Salt bin Əbu İhab, Əbdül Lat (Abdullah) bin Cüdan, As bin Vail, Hərb oğlu Əbu Süfyan, Rəbiə oğlu Utbə, qardaşı Şeybə, Üməyya bin Xələfin iki oğlu, İbn Hişamın iki oğlu Əbu Cəhl lənət olmuş və Əbu Bəhtəri, Haris oğlu Nadr, Əlmüttəlib oğlu Əsvəd, Əsvəd oğlu Zəma, Müğirə oğlu Vəlud və bunlar kimi şox müşriklər Kəbə Hərəmində oturmuşdular. Salt bin Əbu İhab yerindən durub dedi:

– Ey Hərəm seyyidləri, bu gün istəyirəm ki, Məhəmmədlə bir mübahisə edim. Sizin aranızda onu utandırım.

Qureyşlilər:

– Gox gözəl, adam göndərib Abdullah oğlu Məhəmmədi bura çağıtdırarıq. Gəlsin onunla bir müzakirə, mübahisə aparaq. Sonra Cüdan oğlu Əbdül Lata dedilər:

– Get, Məhəmmədi bura çağır, dedilər.

O, Məhəmmədin (s.ə.s.) evinə getdi.

– Ya Məhəmməd, səni qövmün, əmioğlanların çağırırlar, gələrsənmi?

Hz. Məhəmmədin (s.ə.s.) mübarək üzünə bir təbəssüm gəldi, "Yəqin ki, Ulu Tanrıdan bunların qəlbinə iman atəşi dolmuş, məni onun üçün çağırırlar", – deyə düşündü. Çünki Hz. Məhəmməd (s.ə.s.) xalqı xüsusi həvəs, inamla imana çağırırdı. Qövmünün imana gəlməsini, müsəlman olmasını çox istəyirdi, Bu onun ən böyük arzusi idi. Buna görə də yerindən qalxdı, Əbdül Latla Kəbəyə gəldi.

Hz. Məhəmməd (s.ə.s.) həlimdi.

Hz. Məhəmməd (s.ə.s.) kərimdi.

Hz. Məhəmməd (s.ə.s.) rəhimdi.

Amma Hz. Məhəmmədin (s.ə.s.) heybəti də əzimdi.

Nə zaman ki, müşriklərin olduğu yerə gəlirdi, Hz. Məhəmmədin (s.ə.s.) heybətindən içlərinə qorxu düşərdi. Bu gün də eləcə oldu. Hz. Məhəmmədin (s.ə.s.) həlim, səlim, rəhim bir ifadə olan üzündə heybəti də göründü. Bu, Qureyşlərdə daxili qorxu yaratdı.

Rəsulullah yerində oturan kimi Əbu İhab oğlu Salt sözünə başladı:

– Ey Məhəmməd, adam göndərib səni bura çağırdıq ki, səndən bir neçə söz eşidək. Çünki mən bilirəm ki, ərəblər içərisində bu günə kimi qövmünə acı söz deyən, xalq içində öz camaatını alçaldan kimsə olmamışdır. Söylə, sən bizi nə üçün düşmənlərimizə gülünc eylədin? Bizim inandıqlarımızı söydün. Dinimizə "Batildir" dedin. Ölənlərimiz üçün "Onlar kafir öldülər" dedin. Camaatımızı iki yerə böldün. Aralarına ayrılıq saldın. Nə biz dinlənirik, nə də sən.

Hz. Məhəmməd (s.ə.s.) ona cavab verdi:

– Ey Əbu İhab oğlu Salt, Allah-təala məni sizə rəsul və elçi göndərdi. Mənə kitab endirdi. Mənə sizi doğru yola dəvət etməyi buyurdu. Mənim peyğəmbərliyimi qəbul edin. Nəsihətlərimi, öyüdlərimi dinləyin. Bunları rədd etsəniz, Allah hökmünü icra ediləcəyinə qədər səbir edəcəyəm. Çünki Allah hakimlərin ən böyüyü, ədalətlisi və xeyirlisidir.

Salt bin Əbu İhab dedi:

– Ya Məhəmməd, sən "Mən rəsulam" deyirsən. Peyğəmbərlik davası edirsən. Sən bilirsən ki, səndən əvvəl gələn peyğəmbərlər nə zaman ki xalqı dinə dəvət edirdilər, möcüzələr göstərirdilər. Ondan sonra xalqı dinə dəvət edirdilər. Biz də səndən möcüzələr gözləyirik. Görək, könlümüz inansın, sənə yaxın olaq. O zaman biz də sənin dininə girib müsəlman olarıq.

Hz. Məhəmməd (s.ə.s.):

– Nə cür möcüzələr istəyirsiniz?

Salt bin Əbu İhab dedi:

– Ya Məhəmməd, bütün ölkələrdə, şəhərlərdə, qəsəbələrdə, qalalarda axar sular var. Bağ-bağçaları var. Çölləri, dağları, yaşıl çəmənləri var. Bizim məmləkətdə dağlar, çöllər qupqurudur. Səhralar qumluq, daşlıqdır. Axar sular, bağ-bağçalar yoxdur. İndi sən Haqq peyğəmbərisən, Allah – təalanın yanında duaların qəbul olunur. Elə isə dua et, bizim dağlar, çöllər yaşıllaşsın, çiçəklər açsın, hər tərəfdə bulaqlar, çaylar bol sulu olsun. Bağlar, bağçalar gülzara çevrilsin. Biz də səni Haqq peyğəmbəri qəbul edib dinınə gələrik, müsəlman olarıq.

Amma qureyşlilərin istəyi, bitmədi, bunu da dilədilər:

– Ya Məhəmməd, vəfat etmiş atalarımızdan birini dirilt. Fəqət dirildəcəyin o adam bizim istədiyimiz olsun. O ən böyük babamız Mürrə oğlu, Qulab oğlu Qusaydır. Onu bizə dirilt. Çünki Qusay çox yaşamış, gün görmüş babamızdır. Onun vaxtında onun kimi elmli insan olmamışdır. Ər kişi olub, onu bizə dirilt. Aramıza gəlsin, o zaman biz sənin risalətini, peyğəmbərliyini Qulab oğlu Ousaydan eşidərik. Sənin nübüvvətini qəbul edərsə, onda biz də hamımız sənin peyğəmbərliyini qəbul edib iman gətirərik. Əgər bu dediklərimizi etməzsən, biz sənin sözünə inanmarıq, risalətini də inkar edərik.

Hz. Məhəmməd (s.ə.s.) onlara belə cavab verdi:

– Dilədiyiniz şeylər mənim vəzifəm deyildir. Ulu Tanrı məni bu istədiyiniz şeyləri vermək üçün göndərmədi. Mənə verdiyi vəzifə risaləti sizin aranızda təbliğ etməkdir. Əgər qəbul edərsiniz, bu dunyada və axirətdə də xoşbəxt olarsız, mükafatlanarsız.

O zaman Qureyşdən bir başçı Cüdan oğlu Əbdül Lat hz. Məhəmməddən soruşdu:

– Ya Məhəmməd, madam ki Əbu İhabın dediklərini yerinə yetirə bilmirsən, heç olmasa, Tanrıdan dilə göydən mələklər ensin. Bizə də aşkar olsunlar. Həm də sənin haqqında, peyğəmbərliyin haqqında şahidlik etsinlər. Desinlər ki, "Məhəmməd haqq peyğəmbəridir. Nə sehrbazdır, nə şairdir, nə də kahindir". Oxuduğun kəlamı sənə göydən gətirdiklərinə şahidlik etsinlər, onları özünün uydurmadığına inandırsınlar. Bəli, Tanrı sənə bu quru yerdə bağlar, bağçalar yaratsın. Sonra mələklər sənə bir qəsr tiksinlər. Sənin də bu qəsrdə qızıldan, gümüşdən xəzinələrin olsun. Madam ki peyğəmbərsən, sən bizdən dövlətli ol. Sənin bizdən üstünlüyün niyə olmasın? Bir peyğəmbərin küçədə, bazarda dolaşması, piyada gəzməsi, qazanc axtarması lazımdırmı? Əgər belə qalacaqsansa, sənin bizdən üstünlüyün nədir ki, biz sənin əmrin altında olaq? Sən də bizim birimizsən. Bizim kimi gəzirsən, yeyib-içirsən, yatırsan, köhnə paltarlarını geyirsən. Axı sənin bizdən üstünlüyün nədir, ya

Məhəmməd? Bizim dediklərimizi etsən, biz sənin buyruqlarını yerinə yetirərik. Bunları etməsən, biz sənin boş-boş dediklərinə inanmarıq, qulaq belə asmarıq.

## *İMAN GƏTİDMƏSƏNİZ GÖYDƏN SİZƏ ƏZABLAR ENƏR*

Hz. Məhəmməd (s.ə.s.) bu sözləri xəfif mübarək təbəssümü ilə qarşıladı və dedi:

– Bu dediklərinizi yerinə yetirməyə yalnız Ulu Tanrının qüdrəti çatar. Ona iman gətirin. İman gətirməsəniz, göydən sizə əzablar gələr. Mən ancaq mənə əmanət verilən tapşırıq və vəzifələri yerinə yetirirəm.

Qureyşlilər yenə Hz. Məhəmməddən (s.ə.s.) soruşdular:

– Ya Məhəmməd, sən bizi əzab ilə qorxutma. "Əgər iman gətirməsəniz, sizə göydən əzab enər, sizi həlak edər", – deyirsən. O halda o əzab göydən enməyincə, sənə iman gətiməyəcəyik. Dua et, bizə əzab gəlsin və biz həlak olaq.

Hz. Məhəmməd (s.ə.s.) cavab verdi:

– Sizin dediyiniz şeylər Ulu Tanrının ixtiyar və iradəsində olan işlərdir. O necə istəsə, elə də olar.

Kafirlər sorğuları çəkinmədən soruşurdular:

– Ya Məhəmməd, sənin Tanrın bilməzmi ki, sən burada bizimlə oturmuşsan? Biz səndən müxtəlif möcüzələr gözləyirik. Bunları sənin Rəbbin bilməzmi?

Hz. Məhəmməd (s.ə.s.):

– Bəli, cənabi Allah hər şeydən xəbərdardır və bilir.

Kafirlər yenə də:

– Ya Məhəmməd, nə üçün bizim dilədiyimiz şeyləri sən Ulu Tanrıdan istəməzsən? Yoxsa istəsən də, o sənin diləyini qəbul etməyəcəyindən qorxursan? Göydəki Tanrı səviyyəsində bir qorxun var? Bizim diləkləri O sənə verməlidir ki, sən bizim yanımızda utanmayasan. Beləcə, heç bir şey bu gün olmadı, biz də anladıq ki, sənə Quranı öyrədən, göylərin Rəbbi deyilmiş. Yəmamə ölkəsindən gəlmiş bir kisi var, adı Rəhmandır. Sənə hər şeyi, bilikləri öyrədən Rəhmandır.

Sənin kim olduğunu anladıq, sən sanma ki, əl-qolunu sərbəst buraxdıq. Ya sən bizi həlak edəcəksən, ya da biz səni öldürəcəyik. Çünki sənin bizdən heç bir fərqin olmadığını gördük. Bəli, sən də bizim kimi bəşərsən. Sən də bizim kimi yeyib içirsən. Sən də bizim kimi gəzirsən, yatırsan, durursan. Vaxt olur ki, bizim kimi bir kişiyə möhtac olursan.

Nəhayət, son söz olaraq yenə bəzi qureyşlilər əvvəlki iddialarını ortaya atdılar:

– Ya Məhəmməd, sənə inanmağımızı istəyirsənmi? Nübüvvətini tanımağımızı arzulayırsanmı? Haydı, mələklər dəstə-dəstə göydən ensinlər. Sənin Haqq peyğəmbəri olduğuna şahidlik versinlər. Onların səslərini öz qulaqlarımızla eşidək. Gözümüzlə o mələkləri görək. Ondan sonra sənin dininə gələrik. Sözünə inanarıq.

Hz. Məhəmməd (s.ə.s.) veiləcək cavabı əvvəlcədən demişdi. Bu soyuq, tənəli sözləri duyduqda onlardan ayrıldı. Evinə doğru üz tutdu.

Yolda Qureyş hörmətlilərindən Muğirə oğlu Vəlidin kiçik qardaşı Abdullahla rastlaşdı. Onu keçdi. Muğirə oğlu Abdullah Hz. Məhəmmədin (s.ə.s.) ardınca getməyə başladı. Az sonra o, Hz. Məhəmmədin (s.ə.s.) bibisı Aytikə xatunun oğlu Məhzumla rastlaşdı. Bu dəfə ikisi birlikdə Hz. Məhəmmədin (s.ə.s.) ardından gəlməyə davam etdilər. Sürətlərini artırıb ona çatdılar və soruşdular:

– Ya Məhəmməd, Qureyş hörmətliləri səndən istədikləri möcüzə nə idi ki, göstərmədin? Səndən diləkləri nə idi ki, nişanə göstərmədin?

Hz. Məhəmməd (s.ə.s.) sanki onların bu sözlərini eşitmirdi. Vəlidin qardaşı Abdullah:

– Biz də onlar kimi düşünürük, ya Məhəmməd. Sənin sözünə inanmağımız üçün göyə bir nərdivan qurmalısan. Göy uzünə çıxmalısan. Dörd mələyi götürüb yerə enməlisən. O mələklər yerlə göy arasında durub "Abdullah oğlu Məhəmməd gerçək peyğəmbərdir, sözünə inanın, dininə girin" deməlidirlər. Ya Məhəmməd, sənin bu möcüzəni görək, ondan sonra ya sənə inanarıq, ya inanmarıq.

## *PEYGƏMBƏRİN (s.ə.s.) GÖZÜ YAŞLI, KÖNLÜ KƏDƏRLİDİR*

Hz. Məhəmməd (s.ə.s.) evinə gəlib iki rükət namaz qıldı. Sonra Ulu Tanrıya, dünyaları yaradan tək Tanrıya, Rəsulu olduğu uca Tanrıya üz tutdu, yalvardı. Gözüyaşlı, konlü qəmli, xatiri qırıq. Könlündən keçənləri necə həll edəcək? Hz. Məhəmməd (s.ə.s.) dua etdi. Qureyşin acı sözlərini dinləmək, nə qədər üzücü və ağırdır. Hara gedirdisə, kafirlərdən zəhərli sözlər eşidirdi. Amma Peyğəmbərimiz səbir edirdi. Səbir möminlərin təməl dirəyidir. Səbir Hz. Məhəmmədə (s.ə.s.) ən böyük gələcək gətirəcək, bütün dünya onun dininin nuru ilə dolacaqdı.

## *MƏLUN ƏBU CƏHLİN YENİ ƏMƏLLƏRİ*

Amma Hz. Məhəmmədin (s.ə.s.) ən böyük düşməni, o nübüvvət və risalət düşməni, hiylə qaynağı, fitnə dağarcığı Əbu Cəhl, o məlun, yenə Qureyşliləri bir yerə yığdı. Hərəmdə oturmuşdular. Birdən-birə baxışları yola döndü. Gördü ki, yenə o həlim, o rahim, o səbri-əzim Məhəmməd Mustafa (s.ə.s.) mübarək evindən çıxıb Hərəmə doğru gəlməkdədi.

Bu gün Əbu Cəhlin fikri başqasına zərər vermək idi. Gizli bir əməl düşünürdü bu adam. O, Hz. Məhəmməd (s.ə.s.) üçün yeni nə fitnə fikirləşmişdi?

Birdən Qureyşə döndü:

– Ey qövm, ey Hərəm Seyyidləri, – dedi, əgər mən bu Məhəmmədi öldürsəm, mənim ərliyimi, şücaətimi aləmə bildirsəm, necə olar? Lat və Üzza bütlərimizin dinini əbədi qılsam necə olar?

İxtiyar Müğirə oğlu Vəlid:

– Ey Həkəmin atası, biz seyyidlər mal tökərik, Məhəmmədin qanı bahasını nə qədər olsa, yığıb verərik. Səni Bəni-Haşimin əlindən yenə qurtararıq.

Söz bitən kimi Əbu Cəhl böyük bir daş hazırladı. Hz. Məhəmməd (s.ə.s.) mübarək ayağını Hərəmin qapısından içəri atmışdı ki, nə görsə yaxşıdır?

Qureyşlilər daha da izdihamlı, Əbu Cəhlin ətrafına toplanıb hazır halda durmuşdular. Allahın ona əmri nə olub? Hər kəsi dinə dəvət etmək deyilmi? Qorxmadı, çəkinmədi. Qureyşə göz dağı vermək vaxtı gəlib çatmışdı.

Hərəm girişinin üst tərəfində durdu. Yüksək bir avaz ilə Qureyşə müraciət etdi:

– Eyyy Qaliboğulları!...

Başların hamısı ona tərəf döndü. Hz. Məhəmmədin səsi daha da yüksəkdən eşidildi:

– Ey Mürrəoğulları!

Bu çağırış Qureyş hörmətlilərinin ürəyinə bir ox kimi sancıldı. Hz. Məhəmməd (s.ə.s.) onların ata-baba adlarını bircə-bircə deməyə başladı:

– Ey Qasay, ey Əbdüddar, ey Əbdüşşəms, ey Əbdülmüttəliboğulları! Artıq qərarlaşın, təsiqləyin "Lə ilahə İllallah Muhəmmədən Rəsulullah" deyin. Müsəlman olun! Ulu Tanrının Rəsuluna iman gətirin, Allahın birliyini söyləyin, təsdiqləyin.

Qureyşlilər çaşıb qalmışdılar. Ötən gün sorğularına cavab verməyən Məhəmməd Hərəmin içində belə yüksək səslə dəvətini davam etdirirdi.

Bu, Allahın səsi idi. Bu əzəmət Məhəmmədə (s.ə.s.) əyan edən UluTanrının, Haqq-təalanın əzəməti idi. Qureyşin səsi belə çıxmırdı. Hz. Məhəmməd isə yüksək səslə sözlərinə davam edirdi:

– Bəli, ey Qureyş qövmü! Allahın birliyinə və mənim risalətimə inanın. Yoxsa Allah-təalanın qəhri, qəzəbi sizə yetişəcəkdir. Üzərinizə əzab enəcəkdir. Sizdən əvvəlki qövmlərdə Allahın birliyini inkar etmişdilər. Ulu peyğəmbərlərin sözlərinə inanmamışdılar. Şübhəsiz ki, onları qəhr edən Ulu Tanrı oldu. Allah -təaladan hər bir qövm müxtəlif əzablar gördü. Siz də onun əzabından əmin olun. Köhnə dininizdə qalsanız, bu qəhr və əzablar sizi gözləyir.

Hz. Məhəmməd (s.ə.s.) susdu. Artıq o, dəvətini etdi, Qureyş nə söylərsə, söyləsin, əhəmiyyətli deyildi. O, vəzifəsini bütün hörmətlilərin qarşısında xüsusi avazla söyləmişdi.

Hz. Məhəmmədin (s.ə.s.) sükutu, Qureyşi bir az sonra cəsarətləndirdi. Yerlərindən qalxıb ona doğru irəlilədilər. Amma əlləri qalxmadı, zəhər dolu dilləri ilə acı sözlər söyləməyə başladılar.

Söydülər...

Həlim və səbrli Rəsulullah onların söyüşlərinə cavab vermədi, söymədi.

O səbir və dözüm dənizi olan risaləpənah yenidən səbr etdi. Yenidən dözüm göstərdi. Söylənənlərə cavab vermək belə düşünmədi. Söyüşləri heç eşitmir kimi cavab vermədi. Kəbənin iki dirəyi arasına keçdi. Qureyşin qarşısında durdu. Namaza niyyət etdi. Təkbir deyib əllərini önündə bağladı və hamının gözü qarşısında aşkarcasına namaza durdu.

Əbu Cəhl birdən hiyləsinin tam zamanının gəldiyini düşündü. Hz. Məhəmmədin (s.ə.s.) niyyəti namaza durub qılmaqdı. Əbu Cəhlin niyyəti nə idi? Onun niyyəti böyük daşla Hz. Məhəmmədi (s.ə.s.) öldürmək deyildimi? O, daşı əlinə götürdü. Hz. Məhəmmədin (s.ə.s.) yanına gəldi. Daşı axırzaman peyğəmbərinin başına vurmaq üçün qaldırdı qureyşlilərin gözləri onun əlində idi. Həyəcan içində dayanmışdılar. İndi nə olacaqdı? Abdullah oğlu Məhəmmədin son dəqiqəsidirmi bu? Diqqətini Əbu Cəhlin əllərinə dikmiş qureyşlilərin həyəcan-dan gözləri bir az da bərəlmişdi. Axı nə olmuşdu? Əbu Cəhlin daş qaldıran əlləri qalxmış vəziyyətdə quru ağaca dönmüşdü. Daş da sanki əllərinə yapışmışdı. Din düşməninin əlləri yuxarıda qalmış, hərəkət etmir, sanki havaya tikilmişdi.

Seyyidlər çarəsiz halda qalan Əbu Cəhlin yanına qaçdılar. Hz. Məhəmmədin (s.ə.s.) üzərinə düşməyən daşı Əbu Cəhlin əlindən aldılar. Yalnız bundan sonra onun havada qalmış əlləri quru yarpaq kimi yanına düşdü. Qureyşlilər onun üzünə baxdılar, üzü od tutub yanırdı. Bədəni də yarpaq kimi titrəyib əsirdi. Əbu Cəhli dövrəyə alıb soruşdular:

– Sənə nə oldu, Əbu Həkəm? Nə gəldi, nə gördün? Sənə nə isə toxundu, sataşdı?

Əbu Cəhl:

– Ey qövm, mən daşı götürüb Məhəmmədin üstünə atmaq istəyəndə üç müxtəlif halla qarşılaşdım.

Qureyşlilər həyəcanla:

– Nədir o üç hal? – deyə soruşdular.

Əbu Cəhl cavabında:

– Biri daşın əlimə yapışması idi. İkincisi əlim yuxarı qalxdı, asılı qaldı. Nə etdimsə, heç tərpədə bilmədim.

Qureyşlilər böyük narahatlıqla:

– Üçüncüsü nədir, söylə, – dedilər.

Əbu Cəhl:

– Üçüncüsü isə, mənə elə gəldi ki, bir azğın dəvə Məhəmmədin başı üstündə idi. Ağzını açıb mənə hücum etmək istəyirdi. İstədim ki, Məhəmmədin yanından qaçıb yanınıza gəlim. Ondan sonrakıları halımın dəyişdiyindən xatırlaya bilmirəm.

Əbu Cəhlin bugünkü sui-qəsd arzusu ürəyində qalmışdı.

Hz. Məhəmməd (s.ə.s.) namazını qılıb, heç bir şey olmamış kimi Hərəmdən çıxdı, evinə yollandı. Başqa Qureyşliləri də dinə dəvət etdi. Əbu Cəhlin azğın dəvə və halı haqqında ona danışı-landa dedi:

– Bəlkə, Cəbrail əleyhissəlam ona dəvə şəklində görünmüşdür?

Amma Qureyş ululları o gündən sonra maraq edirdilər: "Əcaba, Hərəmin içində Əbu Cəhlin gördüyü dəvə nə ola bilərdi?" Bu bir sirr idi ki, dəvə onların heç birinin gözünə görünməmişdi, onu ancaq Əbu Cəhl görmüşdü. Hər kəs düşünürdü və deyirdi:

– Bunun səbəbi nədir? Bu nə möcüzəli bir sirdir?

Haris oğlu Nadr:

– Ey qövm, siz nə filirləşirsiz Məhəmməd nə surətdə, nə təbiətdə bir kişidir?

Qureyşin bir dəstəsi:

– Sehr və cadu elmini yaxşı bilir. Gördüyümüz onun sehrbazlığının məhsuludur. Xəyallardır, – dedilər.

Haris oğlu Nadr:

– Bilmədiniz, – deyə cavab verdi, – Məhəmmədin sehri deyildir. Cadugərliyi də yoxdur.

O zaman başqaları belə dedilər:

– O halda Məhəmməd kahindir. Göylərdə ulduzları oxumaq bilgisi çox boyükdür.

Haris oğlı Nadr:

– Kahin də deyildir Məhəmməd. Söylədiyim kimi, o şair, sehrbaz, kahin, dəli, saralı (ürəkkeçmə xəstəsi) deyildir. Bunu hər biriniz bilin və heç vaxt deməyin.

Onun bu iddiasına görə qureyşlilər:

– Onda Məhəmməd sənin nəzərində nədir? Sən onun etdiklərini necə anlayırsan? Səncə o necə insandır? –deyə soruşdular.

Haris oğlu Nadr cavab verdi:

– Məhəmməd bir bəladır, bir düşməndir, bir səmavi qəzadır. O qədər ki sehrbazlar belə, ondan qorxar. Kahinlər ondan ürkər, şairlərin onun yanında dilləri söz tutmaz. Dəlilər onun heybətindən ağıllanarlar. Məhəmməd böyük bir bəladır, Qureyşin üstünə çökməkdədir. Siz onu öldürməyincə onun şərrindən qurtara biməyəcəksiniz, buna əmin olun.

Nadrin bu sözləri onun Hz. Məhəmmədə (s.ə.s.) necə böyük bir düşmən olduğunu göstərir. Gerçəkdən də elə idi. Allahın lənətlilərindən biri idi. Qureyşin üzsüz və şeytan həriflərindən idi. Hz. Məhəmmədi (s.ə.s.) incidənlərdən, onun mübarək üzünə qarşı dəfələrlə söylənənlərdən idi. Çox bilgili bir insan olduğundan Hz. Məhəmmədə (s.ə.s.) qarşı kin və düşmənçilik bəslər, istehza etməkdən geri qalmazdı. Amma Bədr savaşında cəzasını tapacaq və hz. Əli tərəfindən öldürüləcəkdi.

Haris oğlu Nadr çox tarix kitabları oxumuşdu. Qədim mənbələri yaddaşında saxlayardı.

İrana çox səfər eydiyindən fars məliklərinin hekayətlərini, İran ölkəsi sultanlarının rəvayətlərini, Rüstəm və İsfəndiyar nağıllarını dərindən öyrənmiş və bilirdi. Rüstəm Zal dastanları dilindən düşməzdi. Gözəl danışardı. Hz. Məhəmməd (s.ə.s.) nə zaman Qurani-Kərimi Qureyşə təbliğə qalxardısa, Nadr Qureyşin qarşısına keçib deyərdi:

– Ey qövm, Məhəmməd nə zaman yanınıza gəlsə, sizə qədim zamanların tarixindən, əsatirlərdən, keçmiş nəslin hekayəsindən xəbər verir. Mən də onun kimi sizə keçmiş tarixlərdən danışa bilərəm. Həm də Məhəmməddən də maraqlı sözlər danışaram.

Peyğəmbər haqqında rəvayət edənlər deyirdi:

– Rəsul (s.ə.s.) Qureyş arasında oturur, Allah-təalanın birliyindən, təkliyindən xəbər verirdi. Əmrlərini, qadağalarını təbliğ edirdi. Keçmiş millət və ümmətlərdən söz açar Haqq-təalanın onları necə qəhr etdiyindən və onların sonrakı hallarından xəbər verərdi. Allahın sözünü inkar edən qövmü peyğəmbərlərinə tapşırır, cürbəcür əzablarla həlak etdiyini danışardı.

Məhəmməd bin İshaq deyirdi:

– Quran ayələrindən səkkiz ayə Haris oğlu Nadr haqqında endi. Onun

Rəsula (s.ə.s.) istehza etdiyi sözlər öz içindən gəlirdi. Qurani-Kərimin içində nə qədər əsatiri-əvvəlin sözü varsa, hamısı Hadr haqqında enmişdir.

## *YASİR OĞLU ƏMMARIN AİLƏSİNƏ VERİLƏN ƏZABLAR*

Qureyşin müsəlmanlara qarşı haqsızlığı və zülmü getdikcə artırdı. Əshabi-giram döyülürdü, söyülürdü, incidilirdi, əziyyət verilirdi. Onlara dilləri və əlləri ilə əzab verirdilər. Yasir oğlu Əmmər də çox əziyyət gördü.

Yasir çox qoca bir insan idi. "Müsəlman oldu, iman gətirdi", bəhanəsi ilə Qureyş qövmü ona çox zülm etdi. Ona:

– Sən ömrünün çoxunu Lat və Üzza dinində keçirdin. Bütlərə sitayiş və səcdə etdin. Ömrünün axırında niyə bir sehrkar və cadugərin sözünə inandın? Ata-baba dinini tərk etdin?– deyərək müsəlmanı durmadan təhqir edir, hər yerdə sıxışdırır, döyüb söyürdülər.

Yasir oğlu Əmmarın anası Süməyyə xatun da çox yaşlı bir qadın idi. O da Rəsulullahın yanına gəldi, iman gətirdi, müsəlman oldu. Qureyşin simasızları o qadıncığaza da əziyyət verirdilər. Ata-ana daima Məkkədə olduqlarından çox incidilirdi. Səhabələrin çoxu daima ticarətlə məşğul olduqları üçün aylarla başqa şəhərlərə ticarətə gedirdilər. Məkkədə az qalırdılar. Səfərdən gəldikdə isə bir neçə gün alış-veriş edib yenidən səfərə çıxırdılar. Amma Əmmarın atası və anası çox yaşlı idi. Bu səbəbdən heç yerə gedə bilmirdilər. Məkkədə şərəfsizlərin iki ixtiyar insana əziyyət verməsi heç bir insanlıq əməlinə sığmırdı. İkisini də qureyşlilər döyürdilər. Onlar da:

– Allaha şükürlər olsun ki, bizi Məhəmmədin ümməti etdi, bütlərə ibadət və səcdə etməkdən qurtardı, – deyirdilər.

Qureyşlilər isə bu kəlmələri eşidib daha çox əziyyət verirdilər.

Hz. Abbas belə rəvayət edirdi:

– Bir gün Rəsul oturmuşdu. Ərətt oğlu Həbbab ağlaya-ağlaya Hz. Məhəmmədin (s.ə.s.) yanına gəlib dedi:

– Ya Rəsulullah, Qureyşlilər artıq bizi çox incitməyə başlayıblar. Harada bir mömin görürlərsə, söyürlər, döyürlər. Sizin haqqınızda ağıza alınmayan sözləri deyirlər.

Hz. Məhəmməd (s.ə.s.) mübarək təbəsümü ilə gülümsədi:

– Ey Ərətt oğlu, bizdən öncə gələn peyğəmbərləri bizdən qat-qat çox incidiblər. Onların ümmətlərinə sizdən də çox zülm etmişdilər. Amma səs çıxartmamışlar.

Hz. Məhəmmədin (s.ə.s.) söylədikləində nə qədər böyük həqiqət vardı.

Hz. Məhəmməd (s.ə.s.) bir gün Kəbəyə doğru gedirdi. Səha-bələrdən bir neçə kişi onun yanında idi. Səfa və Mərvəyə gəldikdə orada yenə Qureyşlilərlə rastlaşdılar. Əbu Cəhl də onların arasındaydı. Hz. Məhəmməd (s.ə.s.) yenə üzünü onlara tutdu:

"Lə ilahə İlləllah, Muhəmmədən Rəsulullah", – deyin, ey qureyşlilər.

Qureyşlilər yenidən bu sözə hirsləndilər. Ayaq alıb Hz. Məhəmmədə (s.ə.s.) doğru gəldilər:

– Ey Məhəmməd, səndə nə qədər üz var? Biz bu sözləri səndən nə qədər eşitmişik. Qəbul etməmişik. Sözünə inanmadıq. Hələ də o sözləri deyirsən? Sən heç utanmırsan?

Əbu Cəhl yanındakılara:

– Nə deyirsiz, mən bu Məhəmmədi alçaldım, utanıb gedərmi?

Qureyşlilər:

– Ya Əbu Həkəm, nə edirsən bu gün et, onun şərrini bizim üstümüzdən uzaqlaşdır.

Əbu Cəhl Kəbəyə yollandı. Kəbənin içindən qocaman bir büt çıxardı. Büt ağacdan düzəldilmış, üzünə qızıl çəkilmiş, incilərlə bəzədilmişdi.

Əbu Cəhl bütü götürüb Səfa və Mərvə arasında Hz. Məhəmədin (s.ə.s.) durduğu yerə gətirdi. Əshabi-girami onu əlində bir qızıl bütlə gəldiyini görüncə, nə edəcəyini gözləməyə başladılar.

Əbu Cəhl gəlib qureyşlilərin arasına girdi. Gətirdiyi bütü toplum ortasına qoydu. Önündə səcdə edib dedi:

– Ey mənim ilahim, mənə ömür və ruzi verənim, səndən bugünkü diləyim budur ki, Qureyşin uluları qarşısında Məhəmmədi gülünc vəziyyətə qoy, onu söy. O Məhəmməd siz bütlərə "Batildir" deməkdədir. Sizə ibadət etməyin xəta olduğunu söyləyir. Səcdə edənlərə "Onlar cəhənnəmlikdir" deyir. Hər gün öz Tanrısını tərifləyir, sizə səcdə edənləri söyür. Ey mənim ilahim, bu gün dilə gəlmən lazımdır. Şair dilinlə Məhəmmədi gülünc et. Qureyş uluları sənə ibadət edirlər, onları sevindir, Məhəmmədi onların qarşısında alçalt.

Şeytanın bütlər içinə vəkil buraxdığı cin, heç vaxt Məkkədən uzaqlaşmazdı. Daima o bütlərin içinə girər, səslənər, söyləyər, kafirləri azdırardı.

Əbu Cəhl yenə nə hiylə fikirləşmişdi? Kəbəyə gedərək bütlə dönən bu din düşməni hiylə qurmuşdu. Həqiqətdə özü səcdədən qalxar-qalxmaz büt ağladı, dilə gəldi. Bütün içində şeytanmı gizlənmişdi? Əbu Cəhlin Kəbədə qoyduğu bir Qureyşlimi?

Hz. Məhəmməd (s.ə.s.) bu oyuna yalnız mübarək təbəssümü ilə cavab verdi və oradan ayrılaraq əshabı ilə evinə gəldi. Qureyşin hörmətliləri bütün içindən gələn sözlərə gülüşüb əyləndilər. Hz. Məhəmməd (s.ə.s.) haqqında

nə demişdilər? Qureyş ancaq özü-özünü aldadırdı. İlk möminlərə və Hz. Məhəmmədə (s.ə.s.) çox əzab və əziyyət vermişdilər?

Hz. Məhəmməd (s.ə.s.) evinə döndüyündən üç gün keçmişdi.

Əshabı-giram Məsud oğlu Abdullah belə rəvayət etmişdir:

–Dördüncü günün səhəri idi. Kəbədə Hz. Rəsul ilə birlikdə namaz qılmışdıq. Sonra onun gözəl üzünə qarşı oturmuşdum. Birdən gördük ki, bir bədəvi Hərəm eşiyindən içəri girir. Başına bir qara əmmamə sarmışdı. Əlində yalın bir qılınc vardı. Havada qılıncı fırladırdı. Qılınc qana bulaşmışdı. Bədəvi irəlilədi. Salam verdi. Bizdən soruşdu:

– O xatəmür-rüsul, seyyidi-səma və iki cahan əhlinin seyyidi Abdullah oğlu Məhəmməd aranızda kimdir?

O zaman mən ona dedim:

– Ey ərəb, görmürsənmi? O alnı aydın ər ki, üzü günəşdən parlaqdır. Bütün yaradılmışların seyyidi, ümidsizlərin ümidi budur qarşında oturmaqdadır.

Bədəvi cavabı eşidən kimi irəlilədi, Hz. Rəsulu ziyarət etdi. Rəsulullah ondan soruşdu:

– Ya ərəb kimsən, haradansan?

Ərəb dinmədən baxdı. Rəsulullah o zaman yenə belə bir sual verdi:

– Göy əhlindənsən, yoxsa yer əhlindən?

Ərəb bu cavabı verdi:

– Ya Məhəmməd, mən yer əhlindənəm, sənə iman gətirən cinlərdənəm. Ya Rəsulullah, bir neçə gün öncə bir kafirin, bəlkə də kafir bir cinin sənə söylədiyi layiqsiz sözləri eşitdim. Bu gün o məlunu tapıb öldürdüm. Qılıncımdan axan qan onun qanıdır. Sonra sənin hüzuruna gəldim. Diləröm ki, sabah camaatınla Səfa və Mərvə arasına gəl. Qureyş camaatı da orada olur və Əbu Cəhl o söz söyləyən bütlə gəlirsə, bütün içərisinə mən girəcəyəm. O zaman nə söyləyəcəyimi mən bilirəm.

Hz. Məhəmməd (s.ə.s.) ona:

– Sənin adın nədir? –deyə soruşdu.

Cin:

– Şeyx ibn Fəxri.

Hz. Rəsul (s.ə.s.):

– İndidən sonra sənin adın Fəxri oğlu Abdullah olsun.

Ərəb bu danışıqdan sonra yanımızdan ayrıldı. Ertəsi gün Hz. Məhəmməd (s.ə.s.) dostları ilə yenə Səfa və Mərvə arasına gəldi. Orada bir bölük Qureyşli oturmuşdular. Bir bütü ortalığa qoyub ona səcdə edirdilər. Hz. Rəsul onları bu vəziyyətdə görüb barmağını qulağına dayayıb yüksək səslə dedi:

– Ey qövm, Lə ilahə İllallah Muhəmmədən Rəsulullah! – deyin.

Səcdədən başlarını qaldıran qüreşlilər Hz. Məhəmmədin (s.ə.s.) səsini eşidən kimi geriyə baxdılar. İstehza etməyə başladılar:

– Ey şair, ey yalançı, ey dəli.

Əbu Cəhl oradakı qövmünə:

– Nə deyirsiz, Məhəmmədi dörd gün əvvəki kimi yenə aramızda utandırım?

Qureyşlilər gülərək:

– Ey Əbu Həkəm, hə, baxaq. Nə edirsənsə et, bizi bu dəlinin əlindən qurtar.

Əbu Cəhl yenə Kəbəyə yollandı. Dörd gün əvvəl götürdüyü bütlə təkrar geri döndü.

– Ya Məhəmməd, sənin sözunun cavabını, payını ancaq bu büt verə bilir.

Əbu Cəhl insan şəklində olan bütü ortaya qoydu. Sonra ona səcdə etdi:

– Ey ilahim, bu Məhəmməd bizi narahat edir. Onu utandır, elə alçalt və xəcil et ki, o, bizim üzümüzə baxmağı belə bacarmasın.

Əbu Cəhl səcdədən qalxdı...

Hz. Məhəmmədin (s.ə.s.) üzünə baxdı. Fəqət hz. Rəsul gülümsəyirdi. Bəlkə də müsəlman cinin bütün içərisinə girdiyi ona görünürdü.

Büt birdən-birə tərpəndi: "Yox, yox deyib", – dilə gəldi və hz. Məhəmmədi (s.ə.s.) tərifləməyə başladı. Bu büt nə sözlər deyir. Məhəmmədin dinini durmadan tərifləyirdi.

Qureyşlilərin ağızları bir qarış açılmışdı. Əbu Cəhlə döndülər:

– Ey Əbu Həkəm, bu bütün ağzından əcaib sözlər gəlir.

Ən böyük din düşmənlərindən Haris oğlu Nadr:

– Ey Əbu Cəhl, bu bütdən soruş, baxaq kimi öldürdü.

Əbu Cəhl bütün qarşısında durub səcdə etdi. Səcdədən qalxınca Qureyş ululları ondan soruşdular:

– Ey büt, öldürdüyünü qılınclamı öldürdün? Əvvəlcə onu anlat.

Qureyşlilər Əbu Cəhldən soruşdular:

– Ey Əbu Həkəm, bu necə ola bilər ki, sənin ilahin dörd gün öncə Məhəmmədi alçaldıb, təhqir edirdi, indi isə onu bu cür tərifləyir.

Əbu Cəhl qıpqırmızı olmuşdu. Yaşının çoxluğuna baxmayaraq, ağır bədəni ilə bütə doğru yeridi. Dörd gün əvvəl qurduğu hiyləsi bu gün baş tutmamışdı. Hirsli bir səslə:

– Bu bütü Məhəmməd sehrləmişdir. Mən bir də bu bütə səcdə etmərəm.

Sonra Qureyşlilərə döndü:

– Ey qovm, daha necə səbir edək, Məhəmməd bizim bütləri də ovsunladı. Bizə nə qaldı? Dinimiz də hörmət və izzətdən düşdü.

## *QUREYŞLİLƏR Hz. MƏHƏMMƏDƏ (s.ə.s.) HÜCUMA KEÇDİ*

Qureyşlilər bu acı sözləri eşidincə həmən Hz. Məhəmmədin (s.ə.s.) və əshabının üzərinə hücuma keçdilər. Əl qaldırdılar. Yanındakıları dağıtdılar. Özünü itələyərək üzüqoylu yerə yıxdılar. Əbu Cəhl əlinə bir yay aldı. Bu yay ilə Hz. Məhəmmədin (s.ə.s.) mübarək başına vurdu. Bunu görən simasız xalq Hz. Rəsulu var qüvvəsi ilə yumruqlamağa başladılar. Allahın başqa bir lənət olmuşu Muayt oğlu Üqbə əsasına söykənə-söykənə gəldi. Qureyş ixtiyar insanın nə edəcəyini gözləyirdi. Əsası ilə onu vuracaqdımı? Üqbə belə etmədi. Ağzını açdı. Və çox açdı. Hz. Rəsulun mübarək üzünə tüpürdü. Qureyş qəhqəhə çəkəcəkdi, amma çəkmədi. Üzləri gülümsəməliydi, ancaq dodaqları yarımçıq qaldı. Çünki Üqbənin ağzından çıxan tüpürcək, Ulu Tanrının bir hikməti ilə göydə fırlanıb onun öz üzünə yapışdı.

Müəyt oğlu Üqbənin üzü o anda alacalandı, abraş (alaca) xəstəliyinə tutuldu. Açıq olan ayağı və əlləri də ağ-ağ ləkələrlə örtüldü.

Bu vaxt hz. Əbu Bəkr Qureyşə doğru irəlilədi və dedi:

– Ey qövm, siz bizləri Allah - təalaya səsləyən Hz. Məhəmmədi (s.ə.s.) öldürə bilməzsiniz. Sizə Ulu Tanrının birliyini bildirənə heç bir şey edə bilməzsiz.

Bu sözlər Qureyşin heç xoşuna gəlmədi. Onlar Hz. Məhəmməddən (s.ə.s.) almadıqları intiqamı Əbu Bəkrdən almaq istədilər. Ona hücum etdilər. Hər tərəfdən vurdular, söydülər. Əbu Cəhl də Hz. Məhəmmədi öldürmək üçün dayanmadan, "Vurun, öldürün", əmrini verirdi. O qədər döydülər ki, xəbər Xədicə xatuna çatdı. O qaçaraq oraya yetişdi. Fəryad edərək, bağırdı:

– Məhəmmədi buraxın. Əbülqasimə ilişməyin.

Bu səsi eşidən Qureyşlilər Hz. Məhəmmədi (s.ə.s.) buraxıb Əbu Bəkrin üstünə düşdülər. Arxadan Əbu Talib yetişdi. Oğlanları gəldi. Qureyşin üzərinə hücum etdilər, onları vuraraq Əbu Bəkri əllərindən aldılar. Hz. Əbu Bəkri döyüb ölümcül hala gətirmişdilər. Çünki kafirlərin ona böyük kini vardı. Deyirdilər ki, bizim hörməlilərimizi, ulularımızı dinlərindən çıxaran budur. Xalqın Məhəmmədin dininə gəlməyinə bu bələdçilik edirdi.

Hz. Məhəmmədin (s.ə.s.) halını görən əmisi Əbu Talib gedib onu qucaqladı, bağrına basdı. Oğlu Talib ilə Üqeylə çığırdı:

– Tez gedin Haşimoğullarına xəbər veriniz. Əbdülmüttəliboğullarına söyləyin zirehlərini geyib silahlansınlar. Atlanıb bura gəlsinlər.

Yaralanan Əbu Bəkri də bir palazın arasına qoyub götürdülər. Hz. Əbu Bəkrin anası oğlunu palazın arasında gətirdiklərini gördükdə fəryad etdi. Evdəki çoluq-çocuq: "Babamız", – deyərək, çığrışdılar.

Əbu Bəkrin üzünə su səpdilər. Amma ağlı başına gəlməmişdi. Ozündən getmiş halda yatırdı. Qureyşin davasında iştirak etməyən, Əbu Bəkrə dərin hörmət bəsləyən ulilardan Vail oğlu As, Əbu Süfyan, Mütim və daha çox hörmətlilər Əbu Talibin ayağına sarıldılar, əllərindən öpdülər. Hz. Məhəmmədə (s.ə.s.) əl qaldıranlar dərhal gətirilərək Haşimoğulların qarşısında döyüldülər, cəzalandırıldılar, qovuldular.

## *ƏBU TALİBİN QƏZƏBİ*

Əbu Talib onların qarşısında durub beləcə dedi:

– Ey qövm, bu cür fitnələri təşkil edən o haramzadə Hişam oğlu Əmrdır, yəni Əbu Cəhldir. Allahın rəsulu olan bizim seyyidimizin başına yayla vurub. Adamlarına : "Məhəmmədi öldürün, öldürün"– deyə əmr etmişdir. İş ki, bu yerə çatıb mən artıq aranızda olmayacağam. Biz də bu hadisədən sonra işləri bildiyimiz kimi həll edəcəyik. Bizə əl qaldıran əvvəlcə siz oldunuz. Mən də sizə əl qaldırmaq necə olur göstərərəm.

Bu arada bütun Haşimoğullarının seyyidləri, sərvərləri gəlib yığışmışdılar. İgidlər, bahadırlar tam zirehli və silahlanmış at üstündə, bir hissə isə piyada döyüşə hazır dayanmışdılar. Yenə Əbu Talibin ayağına düşdülər:

– Ya Seyyid, sən öz camaatını geri göndər, şərrin, bədbəxtliyin qarşısını al, yoxsa Məkkə camaatının çoxu bu gün qılıncdan keçər.

Gələnlərin bir qismi də:

– Ya Əbu Talib, aramızda bəzi qəhrəmanlarımız yoxdur,- dedi

Əbu Talib ətrafına baxdı, gələnlər arasında qardaşı qəhrəman Həmzəni görmədi.

– Sizin aslanlarınız, igidləriniz niyə hazır deyil?

Qardaşı Abbas cavab verdi:

Qardaşım Əbu Talib, burda olmayanların biri Haris oğlu Abdullahdır, biri Əvvam oğlu Zübeyr və biri də Həmzədir. Zübeyr və Abdullah xeyli vaxtdır ki, ticarətə gediblər. Həmzə isə üç gündür ki, səhraya ova gedib. Qalan hamımız buradayıq, sənin əmrini yerəinə yetirməyə hazırıq. Sən buyur, biz başlayaq.

O zaman Hz. Məhəmməd (s.ə.s.) durduğu yerdən irəli keşdi. Əmisi Əbu Talibə:

– Əmi, bu gün səndən bir diləyim var. Məni sevindirəsən, mənim üçün

ağlayanları sakitləşdirəsən. Məndən ötrü Qureyşlə vuruşmayın, bir-birinizə düşmən olmayın, qan tökməyin. Sizin aranıza düşmənçilik düşməsin, qan tökülməsin. Olan oldu, keçən keçdi. Davanı yatırın.

Əbu Talibin bu sözlə könlü az da olsa, alındı, Hz. Məhəmmədlə (s.ə.s.) birlikdə evlərinə döndülər. Fitnənin qarşısı alındı, xalq da sakit oldu.

## *NÜBÜVVƏT ƏHLİNİN SƏBRİ BÖYÜK OLMALIDIR*

Əbu Talib evə gəlincə Hz. Məhəmmədə (s.ə.s.):

– Ya Məhəmməd, ya Həbibi, ey gözümün işığı. Nə üçün sən öz hörmətini, ləyaqətini qorumursan? Gedib Qureyşin ən səfeh, yaramaz, şərəfsiz, yoğunboyunları arasında dolaşırsan. Hörmətini, sözünü saymazlar. Sənə hücum edərlər, əl qaldırarlar.

Hz. Məhəmməd (s.ə.s.) Əbu Talibə böyük sayğı ilə cavab verdi. Bu cavabını orada olan əmiləri və Haşimoğulları da eşitdilər:

– Ey əmilərim, Haşimoğullarının seyyidləri! Biliniz ki, risalətə gələnlərin, nübüvvət əhlinin halı belə olur. Onların da halları mənimki kimi idi. Məndən əvvəl gələnlərin vəziyyəti daha betər olub. Peyğəmbərlərə, o cəsur rəsullara nə qədər cəfa edilsə də, söyülsə də, döyülsə də səbir ediblər. Haqq sözü deyənlərin, səbri də böyük olmalıdır.

Hər kəs bu sozlərə diqqətlə qulaq asırdı. Hz. Məhəmməd (s.ə.s.) sonra əmisi Əbu Talibə döndü:

– Əmi, məni sevmək sizə münasibətimdən, yaxınlığımdan olmamalıdır. Məni sevmək odur ki, mənim risalətimi, peyğəmbərliyimi qəbul edəsiniz, mənim dinimə gələsiniz. Siz mənim risalətimi qəbul edin, dinimə gəlin, müsəlman olun. Cəhənnəm əzabından xilas olun. Sən də, qardaşların da bütlərə səcdə etməyin. Allahın birliyini, təkliyini və Abdullah oğlu Məhəmmədin risalətini qəbul edin. Könlünüzdən və dilinizdən deyin: "Lə ilahə illallah Muhəmmədən Rəsulullah". Sizin birinizin müsəlman olması mənə yüz min əsgərli qoşundan vacibdir.

## *ƏBU TALİB MÜSƏLMAN OLMUR*

Bu sözlər qarşısında Əbu Talib şəfqətli və mehriban nəzərləri ilə Hz. Məhəmmədin (s.ə.s.) üzünə baxdıqdan sonra dedi:

– Ey Məhəmməd, sənin söylədiklərin hamısı gerçəkdir. Mən bilirəm ki, Haqq peyğəmbərisən. Qəlbin haqq, sözün haqq, dinin haqqdır. Amma bil

ki, mən qövmümdən üz çevirmərəm. Öz əslimdən ayrılmaram. Bunların başında hər zaman böyük olmuşam. Ululuğumdan əl şəkmərəm. Əziz olaraq onların arasına girdim. Bundan sonra onların arasında hörmətsiz olmaq istəmərəm.

Əbu Talib susdu. Sonra qardaşlarını götürüb getdi.

Hz. Məhəmməd (s.ə.s.) onun sözündən sonra yenə cəsarətini və iradəsini qətiyyən itirmədi. O gün və axşam keçdi. Gecə olmuşdu.

## *ƏBU BƏKRİN (r.a.) VƏZİYYƏTİ*

Evdə bihüş yatan Əbu Bəkrin gecə ağlı başına gəldi. Gözünü açdı. Evdəkilər hamısı onun başına yığışmışdı. Nə olmuşdu? Nədən hamısı belə göz yaşları axıdırdılar? Niyə yığışmışlar, ağlaşırdılar? Xatırlaya bilmirdi. Amma gözlərini bir də yumub açanda birdən-birə hər birinin üzündə təbəssüm, fərəh gördü.

Hz. Əbu Bəkrin anası sevinc dolu göz yaşları axıdaraq, onun boynunu qucaqladı:

– Oğlum, oğlum, halın necədir? Bədəninin ağrıları keçdimi?

Əbu Bəkr başını yastıqdan qaldırdı. İlk sözü bu oldu:

– Ey yaxınlarım, Həbibim, Seyyidim Məhəmməd Rəsulullahımın halı necədir? Sağ-salamatdırmı?

Məhəmmədin adını sözünü eşitdikdə anası yenə fəryad etdi:

– Oğul, oğul, ay Abdullah, sənin bu hala düşməyinin səbəbkarı Məhəmməddir. Bütün bunlar Məhəmməddəndir. Malın getdi, imkanların azaldı. Xəstə halında belə Məhəmmədi unutmursan.

Əbu Bəkr Siddiq anasının bu sözlərindən incimədi.Məhəbbət dolu baxışlarla ona baxaraq gülümsədi. Bu oğlu haqda düşünən bir ana qəlbi idi. Ona görə də onun incə ana qəlbinə toxunmayaraq:

– Mənim canımdan əziz nə ola bilər, ana? Mən canımı Məhəmmədin yolunda qurban da edə bilərəm. Malımı, canımı, yaxınlarımı nəyim varsa, hər şeyimi din yolunda fəda etmişəm. Ulu Tanrının yaratdığı qullarının arasında mənə ondan yaxın bir insan yoxdur.

Əbu Bəkr bir az toxdayaraq sözünə davam etdi:

– Mənim dərdimə dərman, yarama şəfa ancaq Ulu Tanrının Rəsulu Məhəmmədin üzünü görmək, sözlərini eşitməkdir. Mənim səhhətimin yaxşılaşması, sağalmağım üçün onun mübarək camalını görmək lazımdır.

Sonra özünü topladı, onun qoluna girib yataqdan qaldırdılar. Əbu Bəkr anasına döndü:

– Ana, məni Rəsulullahın yanına apar.

Anası hz. Əbu Bəkri götürüb Hz. Məhəmməind (s.ə.s.) evinə getdilər. Qapını onlara peyğəmbərimizin oğulluğu Harisə oğlu Zeyd açdı. Qonaqları içəri götürdü. İki dostun baxışları bir-birində birləşdi. Nə böyük sevinc hissi! Hz. Məhəmməd (s.ə.s.) Əbu Bəkri görub çox sevindi, bağrına basdı. Allaha şükürlər olsun ki, hər ikisi sağ-salamatdır.

Hz. Məhəmməd (s.ə.s.) soruşdu:

– Ya Əbu Bəkr halın, səhhətin, sağlamlığın necədir?

Əbu Bəkr:

– Səni sağ-salamat görəndən sonra, ya Rəsulullah, mənim halım, səhhətım tam düzəldi.

Risalətin 5-6-cı ili idi. Bu qədər çəkdiyi əzablar Hz. Məhəmmədin (s.ə.s.) ürəyini dağlayırdı. Amma Rəsulullah kafirlərin bütün zülmlərinə baxmayaraq heç vaxt cəsarətsizlik etmirdi. Əbu Bəkr Hz. Məhəmmədin (s.ə.s.) fikrə daldığını görüb:

– Ya Ulu Tanrının Rəsulu, kaş ki məni sənin hüzurunda öldürəydilər, parça-parça edəydilər, yolunda qurban olaydım, amma sənə kafir, müşrik əli toxunmayaydı. Səni incidib üzməsəydilər, biz də rahat olardıq, – dedi.

Əbu Bəkrin sözlərinə Hz. Məhəmməd (s.ə.s.) cavab verdi:

– Allaha şükürlər olsun, Allahın uca rizvanı hədiyyə etdiyini sənə müjdələrəm.

Hz. Əbu Bəkr:

– Ya Rəsulullah, uca rizvan nədir?

Hz. Məhəmməd (s.ə.s.):

– O, Qiyamət günündə sənə və bütün insanlara Allahın ümumi, böyük məmnunluğudur.

Əbu Bəkr Hz. Rəsulun ayağına düşdü:

– Ya Rəsulullah, səndən böyük xahişim var, Haqq– təaladan sən də dilə, mənim anam üçün iman dilə. O, imana gəlib müsəlman olsun.

Hz. Məhəmməd (s.ə.s.) Ulu Tanrıya duanı başladı. O gecə hz. Əbu Bəkrin anası Səlmə xatun iman gətirib müsəlman oldu. Siddiq anası ilə birlikdə dərin sevinc içində evlərinə geri döndülər.

Ertəsi gün səhər Hz. Məhəmməd (s.ə.s.) yenə tək evdən çıxdı, Kəbəyə yollandı. Şəhərin qapısından bayıra çıxıb Hira dağına doru irəlilədi. Mağarasına çatdı. Az sonra orada namaz qılırdı.Namazdan sonra üzünu Ulu Tanrıya, göy üzünə tutdu.

– Ey Allahım, İlahi, Seyyidi! Mənim sirrim, əvvəlim, sonum, içim, çölüm sənə məlumdur. Səndən diləyim budur ki, qövmümə haqq yolunu göstər, mənim səbrimi və dözümümü artır.

Bu yalvarış sədası dağda həzin əks-səda verdi. Sonra ətrafı hıçqırıq tutdu. Hz. Məhəmməd (s.ə.s.) hıçqıraraq ağlayırdı. Müba-rək gözlərindən yaş yaz yağışı kimi tökülürdü. Ağladı, hıçqırdı, ağladı, Ulu Tanrıdan yardım istədi. Belə bir andı ki, iki cahan sərvəri, kainat fəxrinin göz yaşları yaxında olan mələkləri də rəhmə gətirdi. Onlar da Allaha üz tutdular, səcdə etdilər və dedilər:

– Ey Ulu Tanrı, ey dünyanı yaradan, sənin Həbibin Məhəmməd Mustafa (s.ə.s.) sənin dərgahına üz tutub səndən yardım istəməkdədir. Kafirlərin əlindən çoxlu iztirablar gördü, qəlbi, könlü qırıldı. Artıq dəyərini sən tək bilirsən. Ya rəbb, onu biz bilmərik.

Mələklərin bu yalvarışı, yardım diləmələrinə Allah-təala Cəbrailə əmr etdi:

– Məndən Həbibimə salam söylə, – dedi və Cəbraili Məhəmmədə (s.ə.s.) göndərdi. Cəbrail gəlincə belə bir vəhy endi:

– Ey Həbibi, ey Məhəmməd, Allah sənə salam göndərdi. Sənin qədrini, izzətini, yaxınlığını göy və yer əhlinə bildirdi. Rahat ol.

Hz. Məhəmməd (s.ə.s.) bu xəbəri eşidəndə:

– Ey qardaşım, Cəbrail, – dedi, – Allah mənim qədrimi, dərəcəmi, yaxın olmamı yaratdıqlarına nə səbəbdən bildirdi, onu biləydim.

Cəbrail əleyhissəlam döşək döşənmiş və üzərində Cənnət taxtlarından olan bir kürsüdə oturmuşdu. O, hz. Məhəmmədə (s.ə.s.) işarə etdi ki, keçib taxtın üzərində otursun. Oturandan sonra Cəbrail dörd ulu mələk çağırdı:

– Ey mələklərim, gəlin Ulu Tanrının Rəsuluna salam verin.

Dörd böyük mələk gəldi, irəliləyərək Hz. Məhəmmədi (s.ə.s.)
salamladılar:

– Ey Allahın Rəsulu, Haqq-təalə bizi xidmətinə verdi ki, sənin buyruqlarını, əmrlərini yerinə yetirək. Sənə itaət edib fərmanlarını həyata keçirək.

Hz. Rəsul dörd ulu mələkdən soruşdu:

– Hansı şeyə müvəkkilsiniz, hansı işə vəkil təyin edildiniz?

Mələklərdən belə cavab verdi:

– Ulu Tanrı dünyadakı bütün küləkləri mənim ixtiyarıma vermişdir. Sən mənə buyur, hər şeyi silib– süpürüm. Həqiqətən də

Ad qövmünü mən həlak etdim. Sənin düşmənlərini də o cür həlak edərəm.

Hz. Məhəmməd (s.ə.s.) ikinci mələkdən soruşdu:

– Sən hansı işi görürsən?

İkinci mələk dedi:

– Mən dənizlər, sular üzərində ixtiyarlıyam. Haqq-təala buluddan enən yağışı, yerdən çıxan bulaqları mənim ixtiyarıma vermişdir. Ulu Tanrının əmri

ilə Nuh peyğəmbərin qövmü üçün tufanı mən qopardım. Onları su ilə həlak etdim. Əgər sənin də, ey Məhəmməd, tapşırığın olsa, göz açıb-yumana kimi düşmənlərini məhv edərəm. Sənə "yalançı" deyənləri, mübarək başına və canına qəsd edənləri bütün varlıqları və çoluq-çocuğu ilə suda batıraram.

Hz. Məhəmməd (s.ə.s.) üçüncü mələkdən sorüşdu:

– Ey mələk, sənə nə tapşırılıb? Əmrinə verilən nədir?

Üçüncü mələk dedi:

– Ey Allahın nəbisi, Ulu Tanrı məni günəş üzərində müvəkkil edib. Əgər buyruğun olarsa, sənin düşmənlərini, sevmədiklərini odda, atəşdə yandıraram.

Hz. Məhəmməd (s.ə.s.) dördüncü mələyə dönərək soruşdu:

– Ey mələk, sən nəyə müvəkkilsən?

Dördüncü mələk belə cavab verdi:

– Ya Məhəmməd, mən yeddi qat dağların, daşların üzərində müvəkkiləm. Əgər buyruğun olsa, dağları, daşları sənin düşmənlərinin başına endirərəm. Düşmənlərini, mallarını, heyvanatını dağların, daşların altında qıraram. Onda hər kəs bundan ibrət alar.

Bunu eşidən Hz. Məhəmməd (s.ə.s.) onları yanına çağırdı:

– Ey mələklər, Ulu Tanrını uca və ulu tutun! Mən dua oxuyum, siz də "Amin" deyin.

Hz. Məhəmməd (s.ə.s.) bu sözlərdən sonra əlini göyə qaldırdı. Dua etdi. Başda Cəbrail olmaqla dörd mələk "Amin" dedilər.

Sonra mələklər:

– Allahın Rəsulu ancaq Abdullah oğlu Məhəmməddir (s.ə.s.) . Ondan əvvəlki peyğəmbərlər qövmlərinə bəd dua oxuyub həlak etmişlər. Hz. Məhəmməd (s.ə.s.) sonuncu peyğəmbərdir. O, düşmənlərinə belə xeyir istəyir, onları haqq dinə dəvət edir.

Bu sözləri deyib mələklər Cəbrail ilə birlikdə göyə qalxdılar.

Cənnət taxtından endikdən sonra Hz. Məhəmməd (s.ə.s.) Hira dağından yavaş-yavaş enib şəhərə doğru gəldi. Sonra da evinə getdi.

## *Hz. HƏMZƏNİN MÜSƏLMAN OLMASI*

Bir gün Hz. Məhəmməd (s.ə.s.) əshabı ilə birlikdə Kəbə divarı dibində oturmuşdu. Nübüvvətin altıncı ili olmuşdu, Hz. Peyğəmbər qırx altı yaşının içindəydi.

Yaradılışı xəbis, sözləri acı, fitnəçilər başçısı, şeytandan ruh almış və Hz. Məhəmmədin (s.ə.s.) ulu düşməni Əbu Cəhl lənət olmuş ortaya bir dəs-

tə casus buraxıb Rəsulullahı daima izlətdirirdi. Allah Rəsulunun hər hərəkətini saatında, dəqiqəsində Əbu Cəhlə xəbər verirdilər. Çünki Hz. Məhəmməd (s.ə.s.) yolda kimə rast gəlsə, onu dininə dəvət edirdi.

O gün yenə Əbu Cəhlə xəbər çatdırdılar:

– Abdullah oğlu Məhəmməd bir neçə yoxsul müsəlman tərəfdarı ilə gəlib, Kəbə divarının dibində oturub söhbət edirlər.

Bu xəbəri alan Əbu Cəhl tələsik Hərəmə gəldi. Yenə o murdar və zəhərli ağzını açmışdı. Yenə Allahın Rəsulunu söyürdü. Üfunətlə dolu ağzını Hz. Məhəmmədə (s.ə.s.) açmışdı, deyirdi:

– Ey sehrbaz, sənin necə üzün var? O gün sənə nə qədər əziyyət verdik, amma sən yenə bura gəlirsən? Nə üzlə bir də bura gəldin? Nə üzlə xalq arasına çıxırsan? Səndən arsız, ləyaqətsiz bir kişi dünyada görünübmü?

Hz. Məhəmməd (s.ə.s.) sakit və səbirli bir insan idi, ona görə də heç gözucu belə ona tərəf baxmadı. Ağzını da açmadı.

Əbu Cəhl ağzına gələni deyəndə Qureyş uluları Kəbənin bir yanına yığışmışdılar. Gözləyirdilər: "Bu gün nə olacaq baxaq görək?" Duyurdular ki, nə isə olacaq.

Əbdülmüttəlib oğlu Həmzə kimi Qureyşdə ad çıxarmış ən qüvvətli qəhrəman bu gün İslam dinini öz qanadları altına alacaqdı.

## *Hz. HƏMZƏNİN SƏHRADAN DÖNÜSÜ*

Kəbədə yığıncaq olarkən Həmzə səhrada ov etdiyi səhradan geri, evinə dönmüşdü. Günorta vaxtı idi. Evinə girib silahlarını çıxardı. Oturdu. Xanımı Ümmü Balaya:

– Yemək yeyəcəyəm, süfrə açın, yemək gətirin.

Həmzənin xatunu özünü saxlaya bilməyərək birdən-birə göz yaşları tökməyə başladı. Hıçqıra-hıçqıra ağlayırdı. Yanaqlarından göz yaşı leysan yağışı kimi tökülürdü. Həmzə onun bu cür ağladığını görəndə:

– Ey Ümmü Bala, nə üçün ağlayırsan? Sənə nə olub, – deyə həyəcanla soruşdu.

Hz. Həmzənin kiçik bir qızı vardı, adı Bala idi. Ona görə də xanımı Ümmü Bala, kiçik qızı Əbu Bala çağırırdılar.

Ümmü Bala cavab verdi:

– Ey Əbu Bala, səni həmişə sağ-salamat olasan. Fəqət qardaşın Məhəmməd ki bütün Haşimoğullarının seyyidi, sərvəridir, dünən ona qarşı Hişam oğlu Əmr, o Əbu Cəhl tərəfindən çox hörmətsizlik edilib. Bir çox Qureyş seyyidləri Məhəmmədin üstünə hücüm ediblər. Əl qaldırıblar. Qüfahə oğlu

Ətiqi o qədər döyüblər ki, bir palazın üstündə evinə gətiriblər.

Həmzə özündən çıxdı:

– Qardaşım Abbas harada idi? Əbu Talib nə edirdi?

Həmzənin xatunu:

– Əbu Talib özünü bir az gec yetişdirdi. Haşimoğulları dörd yandan silahlanıb gəldilər, dava başlayacaqdı ki, Əbu Talibin könlünü aldılar. Amma Məhəmmədin əsas düşmənlərindən heç kim cəzalanmadı. Xalq dağılışıb getdi.

## *HƏMZƏ QILINCINI İSTƏDİ*

Həmzənin ürəyi dağlanmışdı. Gözlərindən axan göz yaşını gizlədə bilmirdi. Bu yaşlar qanlı göz yaşları idi. O an yerindən sıçrayıb qalxdı:

– Ya Ümmü Bala, mənə qılıncımı, yayımı, oxlarımı gətir, – dedi.

Xatunu Həmzənin kənara qoyduğu silahlarını tez gətirdi. Həmzə silahlandı və soruşdu:

– Əbu Cəhl lənət olmuş Həbibim Məhəmmədi nə ilə vurmuşdu?

Xatunu:

– O məlunun əlində yay varmış, onunla Məhəmmədin başından vurubmuş.

Həmzə səhralarda əlində oyuncaq kimi fırlatdığı yayı yenə bir neçə dəfə firlatdı. Evinin qapısına gəldi, quş kimi hazır dayanmış atının belinə sıçradı. Kəbəyə doğru çapdı. Günortadan xeyli keçmişdi. Yolda Cudan oğlu Abdullahın cariyəsi ilə rastlaşdı. Qadın dayandı:

– Ya Həmzə, qardaşın Abdullah oğlu Məhəmmədi Əbu Cəhl nalayiq sözlərlə təhqir etdi, söydü.

Həmzə bir az da hiddətləndi, atını Kəbəyə sürdü.

Hz. Məhəmmədin (s.ə.s.) əshabı gördü ki, Həmzə uzaqdan at üstündə gəlir. Qılınca qurşanmış, əlində isə yay tutmuşdu. Hz.Məhəmməd də (s.ə.s.) az öncə Əbu Cəhlin sözlərinə səbir və təmkin göstərmiş, qalxıb Qübeys dağına doğru getmişdi.

Qureyş ululari Həmzəni silahlanmış görmüşdülər. Həmzə onların yanına gəlib, aslan kimi nərə çəkib bağırdı:

– Haradadı o alçaq, məlun adam ki mənin qardaşım oğlunu yayla başından vurub, onu yerə yıxıb. Kimdir o, adını mənə deyin?

Qureyş ağzına su alıb dayanmışdı. Bir nəfərdən də səs çıxmırdı. Çoxu qorxusundan nəfəs almaq istəmirdi.

Həmzə yenidən qışqırdı:

– Niyə susursunuz, dinlənin.

Yenə heç kimdən səs çıxmadı.

Bir az sonra Əbu Cəhl ayağa qalxdı, Həmzəyə doğru gəldi:

– Ey Balanın atası, sənin qardaşın oğlu Məhəmməd bizə durmadan ulu sözlər deyir. Dininizi pisləyir, ilahilərimiz haqda... Ata-babalarımıza “hamısı kafirdir” deyir. Biz bu cür acı sözlərə, təhqirlərə necə dözək?

Həmzə Əbu Cəhlə:

– Yoxsa mənim Həbibim Məhəmmədə sən əl qaldırmısan?

Əbu Cəhlin cavabını gözləmədən əlindəki yayla onun başına güçlü bir zərbə endirdi. Əbu Cəhl yerə yıxıldı. Başından üzünə qan axırdı. Üzünü tam qan örtmüşdü. Bunu görən Əbu Cəhlin qövmü, Məxzumoğulları aslan Həmzənin üstünə gəldilər.

Həmzə yenə bağırdı:

– Lənətə gəlmişlər, siz mənim üstümə gəlirsiz? Mənə əl qaldırmaq istəyirsiniz?

Həmən qılıncını çəkdi. Qılıncı başının üstünə qaldıranda bütün Qureyşlilər kəklik balası kimi hərəsi bir tərəfə qaçdı. Həmzənin qarşısına bir kişi belə gəlmədi, gələ də bilməzdi. Çünki Həmzə öz igidliyi, sücaəti, mərdliyi ilə Qureyşin içində ad qazanmış bir qəhrəman idi.

Bu vaxt Haşimoğullarının ulularından, seyyidlərindən bir neçə hörmətli kişi qabağa gəldi. Həmzənin könlünü aldılar, hirsini soyutdular.

Həmzə dedi:

– Qardaşım Məhəmmədi mənə tapın.

Qureyş bir-birinə baxdı. Həmzə onların bu çaşqınlığını artıraraq əlavə etdi:

– Mən onun dininə girəcəyəm. Bundan sonra Haşimoğullarının ulu və seyyidləri də öz fikirlərini deyərlər.

Həmzənin bu sözü başı qanlı Əbu Cəhli əməllicə çaşbaş qoydu. Həmzənin müsəlman olması nə deməkdir? Həmzə Qureyşlilər içərisində ən hörmətli insanların biridir. Həmzənin imana gəlməsi ilə vəziyyət xeyli çətinləşəcəkdi.

Əbu Cəhl ortaya atıldı:

– Ey seyyidlər, günah məndədir. Qəbahət bir iş gördüm. İndi Məhəmmədlə vuruşmayacağım haqda tövbə etdim. Təki Həmzə ata-baba dinindəm çıxmasın, müsəlman olmasın. Məhəmməd tərəfdarları qüvvətlənməsin.

Həmzə:

– Ey məlun, – deyə Əbu Cəhlə bağırdı, – gördüyün işin intiqamını səndən alacağam. Sən gözlə, səbir elə.

Əbu Talibin oğlu və hz. Əlinin qardaşı Əqil araya girdi:

– Əmi, Həbibimiz Məhəmməd indi Əbu Qübeyş dağına getdi. Özü oradadır.

Həmzə Kəbə meydanından ayrıldı. Əbu Qubeyş dağına getdi. Nəhayət, Məhəmmədə (s.ə.s.) yetişərək ardınca qışqırdı:

– Ey Məhəmməd, ey Həbibi...

Hz. Məhəmməd bu çağırışı eşitsə də, dönüb geri baxmadı. Həmzə onun esitmədiyini sanaraq, atını sürətləndirdi. Ona yetişdi. Atından yerə düşdü. Hz. Məhəmmədin (s.ə.s.) önündə duraraq əlini əlinə aldı. Dedi:

– Ya Məhəmməd, nə üçün mənə bir söz söyləmirsən? Mənim bir günahım varmı? Mənə de, sənin üçün nə edim.

Hz. Məhəmməd (s.ə.s.) ona dedi:

– Əmi, kimsəsi olmayan qəribdən əlini çək. Əmi, atasız böyümüş bədbəxtdən, bir köməkçisi olmayan fağırdan əlini çək.

Ya rəbbim, Hz. Məhəmməddə (s.ə.s.) bu nə bədbinlikdir. Həmzə Hz. Məhəmmədin (s.ə.s.) qəlbinin iniltisini dinlədi. Ürəyi yandı, oturdu. O da göz yaşları tökdü. Həmzə xeyli ağladı, hönkürdü, hıçqırdı.

Nəhayət, dedi:

– Ey Həbibi, ey gözümün işığı! Bilirsən Əbu Cəhlə necə həddini bildirdim. Al qırmızı qana buladım. Diri ikən ölüyə oxşayırdı.

Amma Hz. Məhəmməd (s.ə.s.) bunlara heç fikir verməyirmiş kimi dedi:

– Ey əmim, əgər mənim üçün dağları düzənə çevirsən, Şam ölkəsini Rum ölkəsinə qatıb mənə versən, Dəclə, Fərat və Nil çaylarını Məkkədən axıtsan, yenə sənə minnət etmərəm.

Bu nə cür cavabdır?

Həmzə bu sözlərə çaşıb qaldı və Hz. Məhəmmədə (s.ə.s.):

– Ey Həbibim, mən nə iş edim ki, sənə yaxın olum?

Hz. Məhəmməd (s.ə.s.) tam vaxtını, dəqiqəsini tutmuşdu. Həmzəyə:

– Yalnız bu kəlməni de: "Lə ilahə İilallah Muhəmmədən Rəsulullah". De və müsəlman ol, onda sən həm mənə, həm də Yaradanımıza, Allaha yaxın olarsan.

Bu sözlər Həmzəyə xeyli təsir etdi, bir müddət düşüncələr içində qaldı və sonra dilləndi:

– Ey Həbibim, mənim üçün bir gecə səbr eylə. Bunu deyib atına minərək evinə döndü.

Hz. Məhəmməd (s.ə.s.) əmisinin dalınca baxaraq:

– Əmi, Ulu Tanrı qəlbinə iman göndərsin, – deyə dua etdi.

## *ƏBU CƏHLİN YAXINLARI SİLAHA QURŞANIRLAR*

O biri tərəfdən başından yaralanan Əbu Cəhli evinə götürmüşdülər. Həmzənin o lənət olmuşa vurduğu zərbə güclü olduğundan başı çox yarılmışdı. Amma evə gətiriləndə qan dayanmışdı. Onun üz-gözünü təmizləyib başını sarıdılar. Bir az sonra qövmü, yaxın qohum-əqrəbası, Məxzumoğulları qəbiləsi silahlandı. Əbu Cəhl lənət olmuş onlardan soruşdu:

– Nə üçün silahlanmısınız?

Yaxınları və qəbiləsi:

– Haşimoğulları ilə yuruşmaq istəyirik, – dedilər.

– Nə danışırsınız, siz mənim evimi xaraba qoymaq istəyirsiniz?

Qövm və qəbiləsi:

– Nə üçün evini xarabalığa çevrilməlidilər?

Əbu Cəhl:

– Əgər bütün ərəbin igidləri bir yerə yığışsa, onların içində Həmzəyə tay ola biləcək igid tapa bilməzsiniz. Ona görə də dava düşərsə, aramızda çoxları öləcək. Qan düşər. Həmzə kin saxlayandır. Yoluna bir Məhəmməd kimi sehrbaz çıxmışdır. O, Həmzəni də sehr edib müsəlman edə bilər. Bundan sonra Məhəmmədin hörməti, izzəti qat-qat artar. Biz isə zəlil olarıq. Sonra da Haşimoğulları bir-birinə baxıb müsəlman olarlar. Eləcə, bizim evimiz yıxılar, ərəb ölkələri də atəşdə yanarlar.

Əbu Cəhlin sözləri tərəfdarlarının coşmuş qəlblərini sakitləşdirdi, Həmzənin üstünə qılıncla gedənin başının bədənindən ayrılacağını anladılar.

## *Hz. MƏHƏMMƏDİN (s.ə.s.) HƏMZƏ ÜÇÜN DUASI*

Hz. Məhəmmədə (s.ə.s.) gəlincə, o axşam qaranlıq düşəndən sonra evinə gəlib çatdı. Həmin gecəni heç yatmadı. Səhər durdu, namaz qıldı. Hamazı bitirib dua etməyə başladı:

– Ey günahları bağışlayan, tövbələri qəbul edən, şiddətli əzablar verən Allahım. Əmim Həmzənin İslama gəlməyinə hidayət et. Üsyandan uzaqlaşdır.

Hz. Məhəmməd (s.ə.s.) səhərə qədər bu duanı təkrar-təkrar söylədi.

Həmzə evinə gəlib dərin düşüncələrə daldı. Yuxuya gec getdi. Bir röya görməyə başladı.

Xəfifdən qulağına bir səs gəldi:

– Ey Həmzə, Məhəmməd heç yatmayıb, sənin haqqında hər şeyi bilən, bacaran, hər şeyin Yaradanı Tanrıya dua edir.

Həmzə oyanıb yatdığı yerdən qalxdı. Paltarlarını geyib evdən çıxdı.

Səhər açılırdı. Həmzə Hz. Məhəmmədin (s.ə.s.) qapısına gəldi. Qulağını gapıya qoydu. İçəridən səs gəlirdi. Diqqətlə qulaq asdı:

– Ey günahları bağışlayan, tövbələri qəbul edən, əzab və cəzası şiddətli olan Allahım. Mənim əmimin qəlbini İslama aç, iman gətirsin.

Bu sözləri eşidən Həmzənin könlündə iman nuru parladı. Qəlbində müsəlman olmaq həvəsini hiss etdi. Yavaşca qapını döydü. Hz. Məhəmməd (s.ə.s.) bildi ki, bu ancaq Həmzə olacaqdır. Tez qapıya doğru gəlib açdı. Həmzə onun mübarək üzünü görüncə:

– Ey qardaşım oğlu, sən məni səhər-səhər nemətləndirdin, – dedi.

Hz. Məhəmməd (s.ə.s.):

– Əmi, sən də mənə böyük bir nemət verdin.

Həmzə dedi:

– Ya Həbibi, mən bayırdan gələndə “Ey günahları bağışlayan, tövbələri qəbul edən, əzab və cəzası olan Allahım” deyirdin. O kimdir?

Hz. Məhəmməd (s.ə.s.) cavab verdi:

– Əmi, o sənin və bütün yaradılışların Tanrısıdır. Günahları əfv, tövbələri qəbul edər. Onun əzabı çox şiddətlidir.

Həmzə bu sözləri eşidib hündürdən söylədi:

– Ya Rəsulullah, duaların qəbul və hacətin hasil olsun,yararlı olsun. olsun. **Əşhədü ən lə ilahə illallah, vəhdətü ləşərikə və əşhədü ənnə Muhəmmədən əbduhu və rəsulu.**

Şəhadət kəlməsindən sonra Hz. Məhəmməd (s.ə.s.) Həmzənin müsəlman olmasına çox sevindi. Onu qucaqlayıb içəri apardı və Harisə oğlu Zeydə buyurdu:

– Əmim üçün su hazırla.

Sonra Həmzəyə qüsl, dəztəmaz və namaz qaydalarını öyrətdi.

Səhər olunca Həmzənin İslamı qəbul etdiyini duyan səhabələr gəlib hazır oldular. Birlikdə namaz qıldılar. Hamı sevinc içində idi.

Hz. Həmzə Hz. Məhəmmədin (s.ə.s.) yanından ayrılandan sonra evinə döndü. Evdəkilərə İslamı qəbul etdiyini söylədi. Onlara da iman gətirib İslamı qəbul etdirdi. Qılıncını götürüb evdən çıxdı. Atına mindi. Qureyşlilərin toplandığı yerə gəldi. Yüksək səslə İslamı qəbul etdiyini elan etdi.

Qureyşlilər bu xəbəri eşidib ürəklərində yanğı hiss etdilər. Amma heç biri dinmədi, danışmadı. Özlərini eşitməməzliyə vurdular. Hamı tez bir zamanda dağılışdı.

Hz. Həmzə oradan birbaşa Hz. Məhəmmədin (s.ə.s.) yanına gəldi. Ona Qureyşlilərə özünün etdiyi elanı dedi. Hz. Məhəmməd (s.ə.s.) Həmzə üçün çoxlu dualar etdi. O gündən sonra Həmzə Rəsulullahın söhbətlərindən əskik

olmadı.

Yenə günlərin bir günündə Qureyş hörmətliləri bir yerə toplaşmışdılır. Hz. Həmzənin müsəlman olması ürəklərinə dağ çəkmişdi. Aralarında danışırdılar:

– Kim Məhəmmədin dininə girsə, bizə belə ağır gəlməzdi. Amma Həmzənin müsəlman olması qəlbimizi dağladı.

Sözə Əbu Cəhl qarışdı:

– Ey ulular, artıq bizimlə Məhəmmədin arasında birlik qalmadı. Başımızı, malımızı dinimizin yolunda qoymalıyıq. Mən özümün ölümümə də hazıram. Nə Həmzədən, nə də bir başqasından qorxum yoxdur.

Qureyşlilər Əbu Cəhlə:

– Nə etmək lazımdır?

Əbu Cəhl:

– Ey qövm, Həmzənin İslama gəlməmişdən öncə Məhəmmədi necə təhqir edərdik və söyərdik, bundan sonra daha çox təhqir etmək və söymək lazımdır. Ondan qorxmayınız. Ölüm bir dəfə olur. Onlar necə öz Allahlarının yolunda hər şeyə hazırdırlarsa, biz də öz ilahimizin yolunda hazır olmalıyıq. Biz Lat və Üzza yolunda hər şeyə hazırıq.

Bundan sonra Əbu Cəhl Qureyşin ən qanmazlarına tapşırıqlar verdi. Onları şərr işlərə istiqamətləndirdi.

Aradan bir neçə gün keçdi. Hz. Həmzənin qardaşı Abbas ona dedi:

– Ey qardaşım Həmzə, gözəl bir iş elədin. Xoş gəldin, müsəlman oldun.

Bir az sonra Abbas ilə Həmzə yenidən Qureyşlilərin yığışdıqları Kəbəyə getdilər. Həmzə imkanlılara və fəqirlərə müraciət etdi:

– Ey Məkkə əhli, bilin ki, mən artıq ticarətə getməyəcəyəm. İçinizdən kimsə Əbu Cəhlin sözünə uyub nə fitnə qursa, şər işlərlə məşğul olsa, kimsə ilə söz güləşdirmək, mübahisə etmək fikrim yoxdur. Belə halda ancaq boynunu vuracağam.

Həmzə sözünü bitirdikdən sonra Abbas ilə oradan ayrılıb Hz. Məhəmmədin (s.ə.s.) evinə gəldi. Görüşüb hal-əhval tutdular. Sonra Həmzə Kəbədə dediklərini Rəsulullaha danışdı.

## *SÜMƏYYƏ XATUNUN ŞƏHADƏTİ*

Həmzənin İslama gəlişindən bir neçə gün keçmişdi. Bir gün Yasir oğlu Əmmarın anası Süməyyə xatun şəhərdən kənarda bir qaya altında namaz qılırdı. Səcdə edirdi. Bir neçə Qureyş qoçuları gəldilər. Yerdən bir yekə daş götürüb səcdədə olan yazıq yaşlı qadının üstünə atdılar. Biçarə mömin qadı-

nı oradaca şəhid etdilər.

Bu bir sirr deyildi ki, Süməyyə xatun hz. Xədicədən sonra Hz. Məhəmmədə (s.ə.s.) iman gətirən ilk qadınlardan biri idi. Din yolunda həlak olmuş birinci qadın da o oldu.

Hz. Məhəmməd (s.ə.s.) əshabı ilə bu ilk səhid olan qadının namazını qıldı. Sonra onu dəfn etdilər.

Müsəlmanlara çox əziyyət verildiyini və bir müsəlman qadınının öldürüldüyünü eşidən Həmzə bir neçə əshab ilə Hz. Məhəmmədin (s.ə.s.) yanına gəldilər. Həmzə dedi:

– Ya Həbibi, ya Rəsulullah, günahın bir hissəsi bizdədir. Qureyşin fitnə-fəsadı bitmir. Sənin kimi ulu peyğəmbərin bizim kimi ümmət, qövmü, yaxını olanlara əl qaldırırlar. Müşriklər Süməyyə xatunu öldürməklə tam həddlərini aşıblar. Biz isə dayanıb durmuşuq. Onu öldürənləri bizə vaxtında gətirməsələr, bircə göstəriş ver, savaş libasımızı geyək, qılınclarımızı götürüb Haşim- oğulları ilə birlikdə hamısını qılıncdan keçirək.

Hz. Məhəmməd (s.ə.s.) səbirli, düşüncəli bir insan idi. Əmisi Həmzəyə:

– Əziz əmim, sən indi dinə gəlmisən. Allah Rəsulunun qatındasan, onun xidmətindəsən, artıq öz rəyinlə iş görmə. Ulu Tanrının Rəsulu nə deyərsə, onu edin. Nə söyləsə, onu eşidin. Dur desə, durun, otur desə, oturun. Get desə, gedin, gəl desə, gəlin. Amma fərman onundur. Siz ona itaət edin, o da Allahdan buyruqlar alır. Haqq-təaladan nə əmr olursa, peyğəmbər onu yerinə yetirəcəkdir. İndiki halda mənə əmr gəlib ki, xalqı dinə dəvət edim. Mən də əvvəlki peyğəmbərlər kimi səbir edəcəyəm. Madam ki siz mənə ümmət oldunuz, dediklərimi edin. Onlardan qırağa çıxmayın.

Hz. Həmzə və səhabələr Hz. Məhəmmədin (s.ə.s.) dediyinə itaət etdilər.

Bundan sonra Qureyş qövmü Hz. Məhəmmədlə (s.ə.s.) düşmənçiliyi daha da artırdı. Müsəlmanlardan şəhid olsa da əshabın hərəkətsiz qaldığını, qana qan istəmədiklərini, susduqlarını görüncə kafirlər onlara hücumu daha da artırırdılar.

## *HƏCV DEYƏN KƏSİR ADLI ŞAİR*

Əbül Həsən əl-Bəkri (Allah ona rəhmət etsin) deyir ki:

– Hz. Rəsul ilə Qureyşin düşmənçiliyi artdı, bir-birinə əl qaldırdılar. Artıq sülh niyyəti, barışmaq istəyi yox oldu.

Məlun Əbu Cəhl şərir adamların və qoçuların başçısı idi. Fitnə-fəsad ustası, bu lənət olmuş Hz. Məhəmmədin (s.ə.s.) qəlbini qırıb onu incitmək, usandırmaq istəyirdi. Amma artıq Hz. Məhəmmədə (s.ə.s.) qarşı dili qısalmışdı. Çünki Həmzə daima onun yanında olurdu. Harada otursa, yanında

oturardu. Ondan heç ayrılmırdı.

Məkkə şəhərində şair deyilən bir kişi vardı. Nə zaman söyləsə, gözəl şeirlər deyərdi. Ərəblər içində aşıqlıqda məşhur idi. Möminlərlə düşmənçilik edirdi. Müsəlmanların aşkar təbliğindən sonra şairin də düşmənçiliyi artmışdı. Harada olurdusa, möminləri söyərdi. Hz. Məhəmmədin (s.ə.s.) əleyhinə sözlər söylərdi. Adı Əmr oğlu Kəsir idi.

Bir gün Əbu Cəhl Kəsirin evinə gəlmişdi. Ona:

– Ey Əmr oğlu Kəsir, sənə yüz misqal qızıl, min misqal gümüş, on top parça, on top ipək və şairə gətirmişəm, onları qəbul et. Hamısı sənin olsun, – dedi.

Kəsir soruşdu:

– Ey Əbu Cəhl, nə səbəbdən mənə bu qədər çox mal və nemət verirsən?

Əbu Cəhl məlun dedi:

– Sənə bunları bir səbəbdən verirəm ki, mənə on beytlik bir həcv yazasan. Sabah Kəbəyə gəl, Haşim oğlu seyyidlərinin yığışdıqları vaxt bir yüksək yerdən onu oxu. Hələ Məhəmməd orada olanda, desən, daha yaxşı olar. Amma Məhəmməd orada olmasa da oxu. Bütün gətirdiklərim sənin olsun.

Əmr oğlu Kəsir Əbu Cəhlin verdiklərini qəbul etdi. On beytlik həcv yazmağa razı oldu. Əbu Cəhl Kəsiri razı saldıqdan sonra qalxıb getdi.

Kəsir onun verdiklərini xanımına verdi:

– Əbu Cəhlin on beytlik həcv üçün verdikləri səndə əmanət qalsın.

Kəsirin evində bir müsəlman vardı. Ona verilənləri duydu və tez özünü Əbu Bəkrə (r.a) çatdırdı. Dedi:

– Kəsir çox pul müqabilində Hz. Məhəmmədə (s.ə.s.) həcv yazacaqdır.

Hz. Əbu Bəkr köləsi Fühəyrə oğlu Əmiri yanına çağırdı:

– Ey Əmir, get xəzinəmizi aç, oradan beş yüz qızıl, beş min gümüş, iyirmi dənə ipək – İskəndərani olsun, ayrıca bir qiymətli xələt də götür.

Əmir tez bir zamanda hər şeyi hazırladı. Əbu Bəkrlə birlikdə onları götürüb Kəsirin evinə getdilər. Kəsir Əbu Bəkri görüncə xüsusi qayğı və hörmətlə onları qarşıladı. İçəri dəvət etdi, yuxarı başda oturtdu. Sonra soruşdu:

– Ya Ətiq, mənim evimə heç bir vaxt gəlməmisən. İndi gəldin, xeyir olsun? Səbəbi nədir?

Siddiq cavab verdi:

– Ya Kəsir, duydum ki, Əbu Cəhl sənin yanına gəlmiş, yüz qızıl və min gümüş, on top da parça vermişdir ki, mənim Həbibim Hz. Məhəmmədə (s.ə.s.) həcv yazasan. Bu doğrudurmu?

Kəsir:

– Düzdür, dediyin kimi oldu bu iş.

Siddiq:

– Ya Kəsir, indi mən sənə beş yüz sarı qızıl, beş min gümüş, iyirmi İskəndərani ipəyi verirəm. Həcv yerinə mədhiyyə, tərif və ucaldan bir şeir yaz, oxu.

Kəsir:

– Ya Ətik, məndə əcaib bir hal yarandı. Heç cür o on beyti yazıb qurtara bilmədim. Bir tutqunluq yarandı. Sən yaxşı bilirsən ki, mənə on beyti yazmağa kiçik zaman lazımdır.

Siddiq:

– Onu mən çox yaxşı bilirəm.

Kəsir:

– Ya Ətiq, üç gündür ki, gecəni oturmuşam Əbu Cəhlin mənə tapşırdığını yaza bilmədim. Bir beyt yazıram, ikincisi gəlmir. Görunür, Məhəmməd bu həcvə layiq deyilmiş. O, mütləqa Allahın peyğəmbəridir. Onun risalətinə heç şübhə yoxdur.

## *KƏSİR HƏCV YOX, MƏDHİYYƏ YAZMIŞDIR*

Hz. Məhəmmədə (s.ə.s.) həcv yazdıran və onu Kəbə yaxınlığındakı yığıncaqların birində oxumağı sifariş verən Əbu Cəhlin mənfur planları tam bərbad oldu.

Kəsirin evinə gələn Əbu Bəkr onunla xeyli söhbət etdi. Sonra onu İslama dəvət etdi. Kəsir də onun əlindən tutdu. İman gətirdi, müsəlman oldu. Əbu Bəkr (r.a) Kəsirin müsəlman olmasına çox sevindi.

Kəsir:

– İnşallah, ya Ətiq, sabah olunca, Qureyşin içində Allahın Rəsulunu tərifləyən bir şeir deyəcəyəm.

Əbu Bəkr hədsiz sevinc içində Əmiri də göturub evinə getdi.

Yolda Fühəyrə oğlu Əmir dedi:

– Ya Siddiq, mənim gözümdə Hz. Məhəmmədin (s.ə.s.) o qədər qədri, dərəcəsi, məhəbbəti vardır ki, Ulu Tanrı yeddi dənizi cəvahirlə doldursa və onları mənə nəsib etsə, mən onu Allah Rəsulunun yolunda paylayardım. Bir saatdan sonra yenə dolsa, yenə paylayardım.

Əmir yenə çox gözəl sözlər dedi, sonda Hz. Məhəmmədi (s.ə.s.) tərifləyən bir şeir də oxudu.

Ertəsi gün səhər Əbu Bəkr (r.a) yeni parçadan tikilmiş paltarlarını geydi. Əbtaha doğru getdi. Hz. Məhəmməddə (s.ə.s.) ora gəlmişdi. Haşimoğulları və Əbdulmüttəliboğullarının arasında oturmuşdu. Qureyşlilər də yığışıb oturmuşdular.

Əbu Cəhl qureyşli din düşmənlərinə:

– Hazır olun! Şair Kəsir Məhəmmədi biabır edən həcvlərin oxuyacaqdır. Ona görə də böyük bir izdiham vardır.

Bir az sonra hamı şair Kəsirin gəldiyini gördü:

– Kəsir gəlir, – deyə Qureyşlilər sevinclərini gizlətmədilər.

Qureyşin bəzi hörmətliləri onun qarşısına çıxdılar:

– Salam! Xoş gəldin, ya Əmr oğlu Kəsir, – dedilər.

Kəsir yavaş-yavaş Haşimoğullarına doğru yeridi. Əbu Cəhl sevinərək həcvin oxunacağı anı səbirsizliklə gözləməyə başladı. Fəqət Kəsir Haşimoğullarının önünə gəlincə oturmadı. Ayaq üstündə durdu. Əbu Cəhl işarə etdi ki, başlasın.

– Tam vaxtıdır, oxu, – dedi.

Kəsir kağızını əlinə aldı. Qureyşlilər də, müsəlmanlar da həyəcan içində idilər. Kəsir kağızını açdı. Hz. Məhəmmədə (s.ə.s.) gözəl təriflərlə dolu bir mədhiyyə oxudu: "Heç bir vaxt, heç bir qəbilədə və insanlıqda bərabəri olmayıb Məhəmmədin", – deyərək şeirini bitirdi.

İndi bütün Qureyş heyrət işində çaşıb qalmışdı. Əbu Cəhlin həmişə qırmızı olan üzü tam qızarıb, hətta gözləri də qanla dolmuşdu. Kəsirə:

– Ya Kəsir, – deyə bağırdı, səninlə belə danışmışdıq?

Kəsir:

– Sən mənə beş yüz misqal qızıl verdin, min gümüş və on arşın ipək verdin. "Məhəmmədə həcv yaz"– dedin. Sonra getdin. Mən üç gün, üç gecə tək oturub onu yazmaq istədim, amma alınmadı. Yazdım heç xoşuma gəlmədi, bəlkə üç yüz kağız korladım, alınmadı. Çox düşündüm, anladım ki, Məhəmməd həcvə layiq olan insan deyildir. Onda mən Məhəmmədə bir mədhiyyə yazmağa başladım, şeir su kimi axdı, bir neçə dəqiqəyə bitdi. Onu da başa düşdüm ki, Hz. Məhəmməd (s.ə.s.) Ulu Tanrının Haqq peyğəmbəridir. Sözünə inandım və İslam dininə girdim.

Hamının heyrətdən ağzı açıq qalmışdı. Müsəlmanların üzü gülürdü. Ən gözəl parçadan libas geymiş Əbu Bəkr arxadan çıxdı, əynindəki yeni üst libasını çıxarıb hamının gözu önündə Kəsirə geyindirdi. Kəsir sonra Əbu Bəkin verdiyi qızılı, gümüşü, parçaları gətirib evinə verdi.

Hz. Məhəmməd (s.ə.s.) bununla əlaqədar Əbu Bəkrə dua etdi.

Əbu Cəhl əgər yarılsaydı yerə girərdi. Utandığından nə edəcəyini bilmirdi.

Hamı dağılıb evinə getdi. Əbu Cəhlin ürəyi qan ağlayırdı. Kəsir də müsəlman oldu. "Onu təkrar müsəlmanlıqdan geri döndərmək lazımdır", – deyirdi.

Kəsirin arxasınca düşdü. O kafirin işi yeni müsəlman olanları təqib et-

mək idi. Onların qabaqlarını kəsib deyirdi:

– Sən dəlimi olmusan? Öz ata-babanın dinini buraxıb bu yoxsulların dinəmi girirsən? Məhəmmədin dininə girən bədbəxt, fəqir olur, mal-dövlətini itirir. Hörməti, izzəti gedir. Əbu Cəhl müsəlman olan tacirlərə də yaxınlaşırdı:

– Sənin işinin uğuru getdikcə azalacaq, kasıb, fəqir olacaqsan.

Sözün qısası, o qanmaz Əbu Cəhlin yalan və böhtan söyləməkdə xüsusi məharəti vardı.

## *BİLAL HƏBƏŞİ MÜSƏLMAN OLUR*

Bir gün Hz. Məhəmməd (s.ə.s.) yalnız Əbtaha gəlmişdi. Ətrafa baxırdı. Gördü qarşıdan bir Həbəş gənc gəlir. Bu gənc kölə idi. Yaxınlaşdı, Hz. Məhəmmədin (s.ə.s.) önünə gəldi. Əlini sinəsinə qoyub salamlaşdı: "Xidmətindəyəm", – dedi.

Hz. Məhəmməd (s.ə.s.) bu qapqara gənc kölədən soruşdu:

– Sən kimsən? Kimin köləsisən?

Həbəşli kölə cavab verdi:

– Mən Xələf oğlu Üməyyənin köləsiyəm. Adım Həmamə oğlu Bilaldır.

Hz. Məhəmməd (s.ə.s.) hər rastlaşdığı adamı dinə dəvət edirdi. Ona görə də soruşdu:

– Ya Bilal, sən hansı dinə mənsubsan?

Bilal:

– Mən Lat və Üzza dininə etiqad edirəm.

Hz. Məhəmməd (s.ə.s.) dedi:

– Nə üçün İslam dinini qəbul etmirsən? Nədən o Ulu Yaradana etiqad etmirsən ki, bizi dünəndən bu günə çıxaran Odur. Hər şeyi bu dünyada O yaradıb ruzi verir. O öldürəcək, O dirildəcək. Sənin Lat və Üzzan bizim əlimizlə düzəltdiyimiz taxta və daşdan başqa bir şey deyildir. Onların nə xeyri, nə zərəri ola bilər.

Həbəşli Bilal bunları eşidəndən sonra:

– Ya Məhəmməd, sənin söylədiyin Allah harada durur? Hansı yerdədir?

Hz. Məhəmməd (s.ə.s.) sualı belə cavabladı:

– Ya Bilal, bu gözlərinlə gördüyün aləm Allah-təalanın ölkəsidir. Amma özünün məkanı yoxdur.

Həbəşli Bilal:

– Ya Məhəmməd, sən o Yaradanın nəyisən?

Hz. Məhəmməd (s.ə.s.) dedi:

– Mən o Yaradanın, Ulu Tanrımızın həm quluyam, həm də Rəsuluyam.

Xalqa Onun birliyini bildirməkdəyəm. Yolunu azmışları Allah yoluna dəvət edirəm.

Həbəşi Bilal əyildi, Hz. Məhəmmədin (s.ə.s.) əlundən tutdu: – Əşhədu ən lə ilahə İllallah, vəhdəhu ləşərikə və əşhədü ənnə Muhəmmədən əbduhu və rəsuluhu.

Bilal müsəlman oldu. İman gətirdi. Sonra Hz. Məhəmmədə (s.ə.s.):

– Ya Rəsulullah, mənə öyrət ki, Allah-təalanın xidməti ilə məşğul olum. Əzabdan qurtarım, Cənnətə layiq olum.

Hz. Məhəmməd (s.ə.s.):

– Ya Bilal, səhər vaxtı mənim evimə gəl. Din elmindən öyrən. Quran oxu, namaz qıl. Qüsl, dəstəmaz və namaz qaydalarını öyrən.

O gündən sonra Həbəşli gənc kölə səhərlər gizlicə Hz. Məhəmmədin (s.ə.s.) yanına gəlirdi. Səhər tezdən hazır olur, Allah Rəsulunun xidmətində dururdu. Birlikdə namaz qılır, Quran öyrənirdi. Bir neşə gün beləcə keçdi. Fəqət gizlilik daimi qalırmı? Müsəlman olduğunu duydular. Bir gün Xələf oğlu Üməyyə ondan soruşdu:

– Sən bir neçə gündür ki, görünməz olmusan? Haralarda gəzirsən?

Həbəşi Bilal cavab verdi:

– İşlərim vardı, oraya getmişdim.

Üməyyə səsini çıxarmadı. Amma hara getdiyini bilmək üçün onu təqib etməyi qərarlaşdırdı.

Bir sabah dan yeri sökülərkən Bilal evdən çıxdı. Üməyyə onun arxasınca düşdü. Bilal getdi, o getdi. Nəhayət, Bilal Hz. Məhəmmədin (s.ə.s.) evinə gəldi. Üməyyə Hz. Rəsulun evindən bir az aralı durdu. Bilalı gözləməyə başladı.

Bilal qapını açıb içəriyə keçdi. Bir az orada qaldı. Gün çıxanda evdən çıxaraq gedirdi ki, sahibi qarşısına çıxdı. Bilal çaşmışdı. Üməyyə həmən köləsinin əlindən tutdu.

– Haydı, evə get, – dedi.

Bilal Qureyşlilərin müsəlmanların başına gətirdiyi müsibətləri bilirdi, amma daxilində heç bir qorxu yox idi.

Evə döndükdən sonra Üməyyə ondan soruşdu:

– Ya Bilal, sən də gedib o sehrkarın cadu və sehrlərinə inanıb dininə girdin?

Bilal cavab verdi:

– Xeyr, o sehrbaz deyil. Onun ağlı yerindədir. Onun sözü doğrudur və aləmlərin Rəbbinin Rəsuludur.

Üməyyə:

– Sən mənim qulumsan, mən nə dində olsam, sən də o dində olmalısan.

Sən o sehrbazın dinindən çıx, yenə Lat və Üzzanın dininə qayıt.

Bilal dedi:

– Heç vaxt! Mən Ulu Tanrımın hidayətinə qovuşmuşkən, iman gətirdikdən sonra, geri küfrə qayıtmaram. Kafir olmaq istəmirəm.

Bu nədir, Bilal, bir kölə, bu həbəşli uşaq sahibinə nə deyirdi?

Xələf oğlu Üməyyənin beyni çöndü, qəzəbləndi. Həmən kölələrinə əmr etdi:

– Tez Bilalı tutun!

Başqa kölələr zavallı Bilalı tutdular. Dörd tərəfə paya vurdular. Bilalın əlini və ayaqlarını payalara bağladılar. Qamçı ilə vurmağa başladılar, çox döydülər.

Bilai bağırırdı:

– Allah birdir! Allah birdir!

Bilal Ulu Tanrının birliyini dedikcə, sahibi onu daha da bərk vuraraq bağırırdı:

– Məhəmmədin Tanrısını nə üçün yada salırsan?!

Bilalın bütün bədəni parça-parça olmuşdu. Bədənindəki yaralardan hər tərəfə qan sıçramışdı. Ətraf qana boyanmışdı. Bir anlıq Bilal huşunu itirdi. Özündən getdi. Amma hey qışqırırdı:

– Allah birdir! Allah birdir!

Bu sözləri eşidən Üməyyə yenə ona yaxınlaşdı:

– Ya Bilal, o sehrbazın dinini buraxacaqsan, yoxsa buraxmayacaqsan?

Bilal:

– Əsla buraxmayacağam. İslamdan sonra küfr olmaz, – dedi.

Kafir Üməyyə onu öldürməyincə əl çəkməyəcəyini dedi. Sonra yazığın halsız,üzgün vücudunu çarmıxa çəkərək, qızmar günəşin altına qoydurdu.

Zavallı Bilalın bütün bədənindən qanlar axırdı. Çox faciəvi bir hal. Qısa bir müddətdə milçəklər toplaşdılar, onun qanını içib ətini yeməyə başladılar.

Bu, böyük bir əzab idi. Belə dəhşətli hal hər gün davam edirdi. Üməyyə hər gün onu döyür, çarmıxa çəkdirir, günəşin altına qoyurdu. Böyük işgəncə və əzablar verirdi. Başqa kölələrinə də "Döyün! Vurun!" əmrini verirdi. Amma taqəti qalmasa da, canını dəhşətli ağrılar bürüsə də, Bilal hey deyirdi:

– Allah birdir! Allah birdir!

Hz. Məhəmməd (s.ə.s.) bir neçə gün idi ki, Bilalı görmürdü. O haqda düşünürdü. Bilalın çəkdiyi əzablardan xəbərsiz idi. Bilaldan xəbər tutan bir müsəlman Rəsulullaha dedi:

– Ya Rəsulullah, Bilalın sahibi onun müsəlman olduğunu duymuş, hid-

dətlənmiş, ona görünməmiş əzablar verməkdədir.

Hz. Məhəmməd (s.ə.s.) bu sözləri eşidəndə çox üzüldü. Qəlbini qəm tutdu. Əlini göyə qaldıraraq Ulu Tanrıya üz tutdu:

– Ya Rəbb, sən Bilal quluna yardımçı ol.

Bir neçə gün sonra Bilal qurtulmuşdu. Hz. Məhəmməd (s.ə.s.) onun qurtuluşu üçün Ulu Tanrıya necə xahiş etmişdi, qəlbində ona nələr demişdi, bunu biz bilə bilmərik. Bilalın qurtuluşu belə baş vermişdi:

Əbu Bəkr bir gün Üməyyənin evinin önündən keçirdi. Bu vaxt Bilalı döyürdülər. O isə:

– Allah birdir! Allah birdir! – deyib zarıldayaraq bağırırdı.

Əbu Bəkr ayaq saxlayıb qulaq asdı. Qamçının ətə dəyməsinin səsi gəlirdi.

Siddiq dözməyib qapını açanda Bilalı dörd payaya bağlanmış, ölümcül vəziyyətdə gördü. Dərisi parça-parça olmuş, qanı hər yerdən axırdı. Üzü zəifləmiş, bir dəri bir sümük qalmışdı.

Bu halı görəndə Əbu Bəkrin ürəyi parçalandı. Gözləri yaşardı. Bilalın yanına gəldi. Həbəşli bu gənc umid parlayan gözləri ilə imdad dilədi.

Əbu Bəkr:

– Ya Bilal, Hz. Rəsulun məhəbbətini ürəyində saxla. Bu kafirlər arasında aşkarlıq etmə. Sənə əzabı artırmasınlar.

Əbu Bəkr (r.a.) bunları söyləyərək Bilalin yanından ayrılıb getdi. Hz. Məhəmməd (s.ə.s.) sevgisi Bilala qüvvə verirdi.

Onu görmək istəyirdi. Bu həvəs qəlbini çırpındırırdı və bu həvəslə:

– Ya Əhməd! Ya Əhməd! – deyə inildəyirdi.

Ertəsi gün Əbu Bəkr yenə Bilalın olduğu evə doğru getdi. Yazıq gənc yenə dirəklərə bağlı vəziyyətdə idi. Həm də daha çox əzab verildiyi görünürdü.

Hz. Əbu Bəkr həmən geri döndü. Hz. Məhəmmədin (s.ə.s.) yanına gəldi:

– Ya Rəsulullah, fəqir Bilal aşiqindir, sadiqindir. O, bir inci dənəsinə oxşayır ki, torpaq içinə düşüb orada durur. O, bir gecə parlayan yaqutdur ki, palçıq içinə düşmüşdür. O, yırtıcılar içinə düşmüşdür. Bilalın müsəlman olduğunu eşidən Xələf oğlu Üməyyə ilə qardaşı Übeyy ona çox əzablar vermişlər.

Hz. Məhəmməd (s.ə.s.) Əbu Bəkrin ürəyi yana-yana dediyi sözləri duyunca:

– Ya Siddiq, sənin fikrin, diləyin nədir, necə edim? Nə iş görüm?

Əbu Bəkr cavab verdi:

– Ya Rəsulullah, izin ver mən bir gedim, düşünüm.

Hz. Məhəmməd (s.ə.s.):

– Ya Əbu Bəkr, sən mənim daimi vəkilimsən, köləni sahibindən satın al.

Əbu Bəkr məsələnin bu cür həllinə çox sevindi. Qalxıb Xələf oğlu Üməyyənin evinə gəldi. Bilalı bağlandığı yerdə görməyib çox həyəcanlandı. Qapını döydü. Xələfin iki oğlu Übeyy və Üməyyə ikisi birdən qapıya çıxdılar. Əbu Bəkri görüb hörmətlə içəri dəvət etdilər. Əbu Bəkr göstərilən yerdə əyləşdikdən sonra dedi:

– Ey Xələf oğulları, bilirəm ki, siz müsəlman deyilsiniz. Amma şəfqət və insaniyyət harada qaldı? Niyə bu gəncə belə əzablar verirsiz? Zülm edirsiniz? Onu ölümcül hala gətirmisiz?

Üməyyə dedi:

– Ya Ətiq, bilirsən ki, Hişam oğlu Əmr (yəni Əbu Cəhl) bizim seyyidimizdir. Biz ona beyət etmişik. Bizim ittifaqımızda belə bir qərar var, qullarımızdan kim Məhəmmədin dininə girsə, onu əzabla öldürəcəyik. Öldürməsək, Əbu Cəhlin qarşısına necə çıxa bilərik, ona nə cavab verərik? Hətta Qureyş içində ata-ana, qardaş müsəlman olsa, qız, oğul, qohumlar onlara baxmayacaq, ayrılacaqlar. Bir qara kölə müsəlman olarsa, biz onu dirimi qoyacağıq? Bizim bu qara həbəşli kölənin də boynunu vuracağıq. Öldürüb basdıracağıq. Fikirləşdik ki, bir neçə gün əzab verək. Qalan kölələr bundan ibrət dərsi almış olsunlar.

Bu sözləri duyan Əbu Bəkr:

– Bir kişinin malı olursa, niyə əlindən buraxmalıdır? Madam ki, kölə sənə yaramadı, onu sat, puluna bir başqasını al.

Übeyy Əbu Bəkrə:

– Belədirsə, sən o köləni satın alırmısan?

Əbu Bəkr:

– Bəli, alıram.

Übeyy:

– Nə qiymətə alırsan?

Əbu Bəkr:

– Mənim bir yəhudi kiləm var. Üzü, cismi gözəl. Mən sənə o köləni verirəm, sən də mənə bu qara köləni.

Ubeyy:

– Sən köləni mənə gətir, baxım.

Hz. Əbu Bəkr bir nəfəri evinə göndərdi. Yəhudi köləni gətirdilər.

Üməyyə və Übeyy yəhudi köləni bəyəndilər. Üzü gözəldən də gözəl idi. Bir tərəfdən pul qazanmaq istəyən qardaşlar, Əbu Bəkrin Bilalı almaq istəyini də duymuşdular. Ona görə:

– Ey Əbu Bəkr, kölə gözəldir, söz yoxdur. Amma bizim köləmizi alanda üstündə nə qədər pul verəcəksən? –deyə soruşdular.

Əbu Bəkr bütün imkanlarla Bilalı azad etmək istəyirdi, bu səbəbdən:

– İki yüz gümüş verərəm.

Əllər sıxıldı, alver bitdi. Birini satdılar, birini aldılar. Bazarlıq bitdikdə Ubeyy qəhqəhə çəkib güldü:

– Səni çox yaşayasan, Əbu Bəkr, bazarlığı tez bitirdin. Yoxsa biz bu qara Həbəşin əvəzinə ağ kölə aldıq, iki yüz qümüş qazandıq. Bunun kimi ağ kölə yüz qarasına dəyər.

Əbu Bəkr gülümsədi:

– Ey Übeyy, sən nə bilirsən ki, nə qul satdın və necə qul aldın?

Übeyy Əbu Bəkrin sözlərini eşitdikdə fikrə daldı, axı bu qara qulun qiyməti nə qədər imiş? Doğrudan da qara həbəşli qul bu qədər qiymətli imiş.

Əlbəttə, bunlar gələcəyin parlaq ulduzlarıdır. Onlar gələcəkdə dayanmadan İslamı təbliğ edən ulduzlardır.

Əbu Bəkr Bilalın əlindən tutdu, evinə gətirdi. Yaralarını sarıdı. Gözəl bir ipək paltar geydirib Hz. Məhəmmədin (s.ə.s.) yanına götürdü.

Rəsulullah Bilalı görüncə onu qucaqladı. Bağrina basdı. Şirin dili ilə Bilalı xeyli fərəhləndirdi, canına can gətirdi.

Bilalın rəngi gecə kimi qara idi. Qaranlıqda belə gecənin ən parlağı Qədr gecəsi deyilmi? Bilal o ucalığa qalxmışdı. Yalnız Bilal kimi səbirli olanın halını Uca Tanrımız və Rəsulullah bilir.

Hz. Məhəmməd (s.ə.s.) Bilalın könlünü aldıqdan sonra Əbu Bəkrə döndü:

– Ya Siddiq, mən sənə "Bilalın xərclərinin yarısını məndən al" demişdim. Sən niyə hamısını özün verdin?

Bu sözləri eşidincə Əbu Bəkr birdən-birə göz yaşları tökdü. Rəsuli- əkrəmin ayağına düşdü:

– Ya Həbibi, ya Rəsulullah, mən də qulunam, o da qulundur, – dedi.

O gündən sonra hz. Bilal heç vaxt Hz. Məhəmməddən (s.ə.s.) ayrılmadı. İlk azan vermək şərəfi də ona nəsib olub. Hicrətdən sonra Mədinədə Hz. Məhəmmədin (s.ə.s.) qapısına gələr, onu sühb namazına qaldırar və "Namaz yuxudan çox xeyrlidir, ya Məhəmməd" deyərdi.

## *XƏTTAB OĞLU ÖMƏRİN İSLAMA GƏLİŞİ*

Məhəmməd ibn İshaq belə nəql edir:

– İslam dini Məkkə şəhərində öz yerini tədricən tutur, qüvvətlənir, şöhrətlənirdi. Adət və ənənələri yaranır, Hz. Məhəmmədin (s.ə.s.) əshabı bir

yerə yığışır, birlikdə də qüvvə yaranır.

Hz. Həmzə(r.a.) müsəlman olduqdan sonra Məkkədə kafir və müşriklərin əli, dili xeyli qısalmışdı. Susmuşdular. Həmzənin (r.a.) heybətindən qorxaraq əshabdan əl çəkmişdilər. İman əhli yolda qorxmaz, evlərində avazla Qurani-Kərimi oxuyurdular. Bəzi vaxtlar isə Hz. Məhəmməd (s.ə.s.) evinə gedər, onu ziyarət edərdilər.

Hz. Məhəmməd (s.ə.s.) hara getsə, əmisi hz. Həmzə ondan ayrılmazdı. Çox vaxtda yanlarında hz. Əli də olardı, onların xidmətində durardı. Bir çox müsəlmanlar əvvəllər Məkkədən və təqiblərdən aralanmaq üçün ticarətə gedirdilərsə, sonralar bu təqib və təzyiqlər azaldığına görə Məkkədə də çox qalırdılar.

Vaxtları olanda tez-tez bir yerə yığışırdılar. Ulu səhabələrdən Əbu Bəkr, Əffan oğlu Osman, Əvvam oğlu Zübeyr, Məsud oğlu Abdullah, Yasir oğlu Əmmar(Allah hamısından razı olsun) razılığa gəldilər ki, bir toplantı yeri tapsınlar. Buna görə də Rəsulullaha üz tutdular:

– Ya Rəsulullah, ya Həbibullah, bir yer arzulayırıq ki, orada namaz qılaq, səninlə birlikdə oturub dediyin mübarək sözlərə qulaq asaq, Quran oxuyaq, hədislər dinləyək. Şəhərdən kənarda olsa, daha yaxşı olar. Şəhər içi dardır, evlərin arasında çox insan yığışa bilməz. Bizim yerimiz böyük olsun.

Hz. Məhəmməd (s.ə.s.) əshabının bu sözlərini bəyəndi. Onlara Əbu Qubeys dağında, Həcərüləsvədin qarşısında, Səfa və Mərvə arasında Darülhəzin (Qəm evi) mağarasını məsləhət gördü. Müsəlmanlar mağaraya qapı da qoydular. O gündən sonra bu məkan müsəlmanların əsas toplantı yeri oldu. Hz. Bilali Həbəşi İslama gəldiyi zaman səhabələrin sayı otuz doqquz kişi olmuşdu.

Çərşənbə axşamı idi. Müsəlmanlar mağarada toplanmışdılar. Hz. Məhəmməd (s.ə.s.) dua edirdi:

– Ey Allahım, bu qırx gün içində iki Ömərdən birisini İslama dəvət et.

Hz. Məhəmmədin (s.ə.s.) bu duası qəbul olundu və Xəttab oğlu Ömər iman gətirib müsəlman oldu.

## ƏBU CƏHLİN Hz. MƏHƏMMƏDİ ÖLDÜRMƏK TƏKLİFİ

Ertəsi gün Qureyş ululları bir yerə yığıldılar. Yenə Hz. Məhəmməddən (s.ə.s.) söz açdılar:

– Bir neçə gündür ki, Məhəmməd əshabı ilə gecədən səhərə kimi Darül'həzində oturub söhbət edir. Sonra hamı Məhəmmədlə birlikdə çıxır.

Dan yeri söküləndə Məhəmmədi gətirib evinə qoyub dağılışırlar. Bir müddətdir ki, nə etdiklərini bilmirik.

Əbu Cəhl dedi:

– Biz çox zəhmət çəkirik. Məhəmmədə uyanları döyürük, söyürük, amma faydası yoxdur. Bu işin çarəsi ancaq Məhəmmədi öldürməkdir. Bunu etsək, biz də ondan qurtularıq, müsəlmanlar da.

Qureyşlərdən bir çoxu:

– Onu kim öldürə bilər? Onu öldürmək istəyən gərək hər şeydən keçsin, başından da, hətta canından da.

Əbu Cəhl tez öz fikrini söylədi:

– Hər kim Abdullah oğlu Məhəmmədi öldürsə, mən ona öz hesabımdan üç yüz qram qızıl, üç min qram gümüş, yüz dənə ən yaxşı dəvələrdən pay verəcəyəm. Məhəmmədin başını kəsib mənə gətirənə əlavə xələtlər də verəcəyəm.

Yığıncaqda olan Xəttab oğlu Ömər həmən yerindən qalxıb irəli gəldi:

– Ya Əbu Həkəm, sən bu sözləri gerçəkdənmi deyirsən?

Əbu Cəhl:

– Bəli, gerçəkdən deyirəm.

Xəttab oğlu Ömər:

– Elə isə dur səninlə gedək Lat və Üzzanın yanına. Bütləri şahid tutaq.

Xəttab oğlu Ömər Əbu Cəhlin bacısının oğlu idi. Əbu Cəhldən on beş yaş kiçik idi, amma mərd, heybətli bir bahadırdı. Qəhrəman, ağıllı, zəkalı, ədəbli və arif idi. Daima ticarətlə məşğul olar, məliklər, padşahlar hüzuruna çıxardı. Ancaq Hz. Məhəmmədin (s.ə.s.) dininə gəlmişlərə çox əzablar vermişdi.

Ömər Əbu Cəhli bütlərə götürmək istəyəndə bir neçə ulu seyyid də ayağa qalxdı, Lat və Üzzanın yanına gəldi. Ömərlə Əbu Cəhl əl tutuşdular. Əbu Cəhl dediyini təkrar etdi. Seyyidlər də şahid oldular. Ömər oradan ayrılıb evinə gəldi. Qılıncını götürüb boynundan asdı. Əbtaha gəldi. Burada bir dana kəsmək istəyirdilər. Dana birdən-birə Ulu Tanrının hökmü ilə dilə gəldi:

– Lə ilahə İllallah Məhəmmədən rəsulullah, – dedi.

Dananı kəsmək istəyənlər bu sözləri eşidib, onu buraxaraq qaçdılar. Ömər bu vaxt yaxınlaşmışdı. Dananın dilindən tövhid kəlməsini eşidincə üzərinə sanki bir heybət düşdü, ağırlıq çökdü. Halı dəyişdi, oradan Kəbəyə getdi. Qureyş uluları və Əbu Cəhl oturub söhbət edirdilər:

– Görəsən, Ömərin əlindən bir iş gələcəkmi?

Bəziləri:

– Həmzə orada hazır olmasa, Ömər o işi bacarar. Məhəmmədi öldürər.

Onlar söhbətləşdikləri zaman Ömərin gəldiyini gördülər. Rəngi ağarmışdı. Əbu Cəhl ona yaxınlaşdı. Çatan kimi soruşdu:

– Ya Xəttab oğlu, niyə getmədin, geri döndün?

Ömər dilə gələn dana əhvalatını onlara danışdı və sonda dedi:

– Heyvan açıq dillə Məhəmmədin risalətinə şahidlik verdi.

Əbu Cəhl:

– Ya Ömər, nəbadə bu haqda kiməsə söz deyəsən. Bu Məhəmmədin etdiyi sehrdir. Sən ona inanma. O, bundan sonra da çox sehrlər göstərəcəkdir. Qəlbinə qorxu salma. Sən daha da heybətli ol, özünü göstər.

Əbu Cəhlin sözlərindən sonra Ömər yenidən geri dönüb Hz. Məhəmmədi (s.ə.s.) öldürməyə getdi. Yolda Bəni-Süleymədən bir dəstə insana rast gəldi. Onlar Ömərə dedilər:

– Ya Ömər, bizim bir davamız var. Bütlərin qarşısında məhkəməyə durmaq istəyirik. Sən də bizimlə gedək.

Ömər:

– Yaxşı, gedirəm sizinlə.

Onlarla birlikdə döndü. Bəni-Hüzza qəbiləsinin özlərinə aid bir bütləri vardı. Adı Bəhəm idi. Bu bütün önündə durdular. Öz vəziyyətlərini və davalarını söylədilər. Bu zaman bütün içindən bir səs gəldi: "Lə ilahə İllallah Məhəmmədən Rəsulullah".

Sonra səs davam edirdi:

– Ey qövm, bizi tərk edin, bütlərin qulluğunda durmayın. Məhəmmədin dininə girin. O Məhəmməd Haqq peyğəmbəridir. Ona iman gətirən səadət tapar, gətirməyən hər iki dünyada əzablar içində olar.

Eyni səs Ömərə müraciət etdi:

– Ya Ömər, ağlını başına yığ, kafirliyi burax. İman gətir, müsəlman ol.

Öz bütlərindən Hz. Məhəmməd (s.ə.s.) haqqında bu sözləri eşidən Bəni-Süleymə dəstəsi həmən oradan ayrıldı. Hərəsi bir yana getdi.

Ömərin qəlbinə bir qorxu düşmüşdü. Xeyli müddət tərpənməyib düşüncəyə daldı. Vaxt keçdi, sanki ağlı yerinə gəldi:

– Bu da o sehrbazın işidir, – dedi, – bunun kimi bir sehrlərə aldanmaram.

Geri döndü. Yenə Hz. Məhəmmədi (s.ə.s.) öldürmək niyyəti ilə irəlilədi. Yolda dostlarından ağıllı, arif bir insan olan Abdullah oğlu Nüaymla rastlaşdı. O,Ömərdən soruşdu:

– Ya Xəttab oğlu, qılıncını taxıb hara gedirsən?

Ömər dedi:

– Bu gün Abdullah oğlu Məhəmmədi öldürməyi niyyət etmişəm. Gedim onu yox edim. Amma əcaib işlərlə qarşılaşdım. Müxtəlif hallarla rastlaş-

dım. Artıq bilmirəm işim necə olacaq?

Dostu Nüaym söylədi: – Sən get bütxanədə öz bütünə halını bildir. Bax gör sənə nə işarə edəcək.

Ömər birbaşa Kəbəyə gəldi. Öz bütlərinin ağzından Hz. Məhəmmədə (s.ə.s.) mədhiyyə eşitdi. Bütün bütlər mədhiyyədən sonra yerə səcdə etdilər.

Ömər bu halı görəndə yenə canına qorxu düşdü. Bir gün içərisində ona nə nişanələr göstərilmişd?! Öz-özünə:

– Bu gün görduklərim çox əcaib şeylərdir. Amma mən sözümü yerinə yetirməsəm, Qureyş ulularının gözündən düşərəm, biabır olaram. "Ömər qorxdu, bacarmadı" deyərlər. İşim budur, Məhəmməd nə qədər sehrlər edir etsin, yolumdan dönməyəcəyəm, – deyə düşündü.

Ömər yenə dönüb Hz. Məhəmmədi (s.ə.s.) öldürməyə yollandı. Yolda təkrar Nüaymı gördü.

Nüaym:

– Ömər, yenə hara gedirsən?

Ömər:

– Mənim qərarım Məhəmmədi öldürməkdir, – dedi.

Nüaym:

– Ya Ömər, sən Haşimoğullarından qorxmursan? Səni yer üzündə gəzməyə qoymazlar.

Ömər dedi:

– Mənim Haşimoğullarından qorxum yoxdur.

Sonra Nüaymın üstünə atılaraq:

– O halda sən də onlardan birisən. Sən də Məhəmməd dinindənsən, onda birinci sənin başını kəsməliyəm, – deyə bağırdı.

Nüaym bin Abdullah:

– Səhv etmə mən ata-babamın dinindənəm. Sənin bacın Fatimə və onun əri, əmin oğlu Zeyd ibn Said də müsəlmandır. Amma sənun bundan xəbərin yoxdur.

Həqiqətən də, Ömərin xəbəri yox idi. Xəbərinin olmaması da Ulu Tanrının bir lütfü idi. Allah Ömərə müsəlmanlığı qəbul etmək üçün belə bir yol seçmişdi. Nüaymdan soruşdu:

– Onların müsəlman olmasını haradan bildin? Mən onların müsəlman olduqlarını haradan öyrənim?

Nüaym:

– Çox asan, onlara get. Qarşılarında bir qoyun kəs, ətini bişirtdir. Bax, kəsdiyin ətdən yeyəcəklər, ya yox. Yeyərlərsə, mən sənə yalan söyləmişəm. Yeməzlərsə, deməli müsəlmandırlar. Çünki müsəlmanlar müşriklərin kəsdiyi heyvanın ətindən yeməzlər.

Ömər:

– Onda bacım və həyat yoldaşının müsəlman olub olmadığnı öyrənməyim lazımdır, – deyərək geri döndü.

Yolunu Darülhəzindən saldı. O, bacısının evinə doğru gedirdi. Fatimə xatun o dövrdə yazıb-oxumağı bacaran qadınlardan biri idi. Hz. Məhəmmədin (s.ə.s.) səhabələrindən Eret oğlu Həbbab adında bir mömin vardı. Bu səhabə Fatimənin evinə gəlir, ona Quran oxumaq öyrədirdi. O gün də **Taha** surəsini bir cüz kağıza yazan Həbbab onu Fatimə xatuna gətirmişdi. Həm Ömərin bacısına, həm də Zeyd bin Səidə bu surəni öyrədirdi. Elə bu vaxt Ömər özünü qapıya çatdırdı. İçəridən səs gəlirdi. Diqqətlə qulaq asdı. Quran oxuyurdular. Demək, Nüaym düz deyirdi. Bacısıgil müsəlman olublar, indi də Quran öyrənirlər.Birdən-birə qapını sındırmaq istədi, onu etməyib bərk-bərk döyməyə başladı.

– Açın, – deyə bağırdı.

Səidin içəridən səsi gəldi:

– Kimsən, qapını niyə sındırırsan?

Ömər cavab verdi:

– Mənəm, Xəttab oğlu Ömər.

Səid Ömərin adını eşidən kimi Fatimə xatuna Quranı saxlamağı içarə etdi. Eret oğlu Həbbab da qalxıb dama çıxdı.

Zeyd oğlu Səid qapını açdı. Ömər içəri girdi. Fatimə qardaşına doğru gəldi. Fatimə nə görürdü? Qardaşı qılınca qurşanmışdı.

Fatimə xatun:

– Xoş gəlmisən, qardaş, – dedi.

Salamlaşdılar, Ömərin əlindən tutub yuxarı başda oturtdular. Ömər heç səsini çıxarmadı. Onların müsəlman olmasına qəti əmin olmalı idi. Sonrasını yaxşı bilirdi.

Ömər yerində oturandan sonra:

– Mən bu gecə sizin qonağınızam. Mənə bir qoyun gətizdirin, onu kəsim, – dedi.

Səid evdən bayıra çıxdı. Qoyun alıb gətirdi. Ömər qalxdı, qılıncı ilə qoyunu kəsdi. Hey başında fırlanırdı, bacısı və əmisi oğlu Səid bu qoyunun ətindən yeyəcəklərmi?

Gecə oldu. Qoyunun ətini bişirdilər. Süfrə quruldu, yemək gətirildi. Süfrənin ortasına qoyuldu. Ömərin səbri tükənmişdi, həmən süfrəyə yaxınlaşıb əlini ətə uzatdı. Budlarını parçaladı, doğradı. Səidə döndü:

– Ya Səid, ya əmioğlu, gəl, süfrədə otur, yeməkdən ye.

Səid:

– Sənə nuş olsun, yeməyini ye, biz ikimiz pəhriz saxlamışıq, bu gün ye-

mək yeməyəcik,- dedi.

Ömər hər şeyi anlamışdı. Dostu Nüaym ona düz söz demişdi. Deməli, bacısı və əmisi oğlu Səid müsəlman olmuşdular. Bu fikirdən birdən-birə beyni qaynadı. Ayağa qalxıb Səidin yaxasından yapışdı:

− Siz Abdullah oğlu Məhəmmədin sözünə necə inandınız? Ata-baba dininizi nə üçün buraxıb onun dininə girdiniz? Müsəlman oldunuz.

Səidin yaxasından yapışdığını görən Fatimə xatun irəli gəldi, Ömərin əlindən tutdu:

− Ya Ömər, savaşma, şər iş görmə, − deyərək ərini Ömərin əlindən aldı.

Ancaq Ömərin beyni elə qızmışdı ki, əli göyə qalxıb silləsi Fatimənin üzünə endi. Fatimənin başı divara dəydi. Başı yarılmışdı, üzünü qan örtmüşdu. İndi paltarının üstünə damcılayırdı. Səid Ömərin əlindən qurtulub Fatimənin yanına gəldi və yarasını sarıdı.

Hələ də başından qan axan Fatimə Ömərə yaxınlaşdı:

− Ya Ömər, bu rəvadırmı ki, sən gəlib evimizdə bizə sillə vurasan? Bizi incitdin, məni qana buladın, bu düz işdirmi?

Ömər bacısının başından axan qanı gördükdə ağlı basına gəldi. Gördüyü işə peşman olmuşdu. Birdən etdiyindən utandı, pərişan oldu. Yenə soruşdu:

− Niyə dininizi tərk etdiniz? Nə üçün gedib Məhəmmədin dininə girdiniz?

Fatimə xatun cavab verdi:

− Ya Ömər, əsl din İslam dinidir. Bütlərin dini batildir. Şükürlər olsun Ulu Tanrıya ki, bizi İslamla şərəfləndirdi. Biz Haqq dinindən geri dönmərik. İstəyirsən öldür bizi, Məhəmməddən üz döndərmərik.

Bu sözlərdən sonra Ömər keçib bir küncdə oturdu. Səid də oradan ayrıldı.

Ömər bacısından soruşdu:

− Mən qapıya gəldiyim zaman nə oxuyurdunuz? O nə kəlamlardır.

Fatimə xatun dedi:

− O kəlam, Ulu Tanrının kəlamı Qurandır. Məhəmmədə göydən enmişdir.

Ömər bacısına:

− Gətir mənə o səhifəni görüm, nə yazılıb, − dedi.

Fatimə xatun:

− Xeyr, ya Ömər, mən onu gətirib sənə verə bilmərəm. Onu əlinə almağa və oxumağına razı deyiləm. Çünki Qurana sayğı göstərməzsən, cırarsan, atarsan.

Ömər:

− Xeyr, ya Fatimə, inan mənə ki onu nə cıracağam, nə yerə atacağam.

Buna namusumla and içirəm. And içirəm ki, dediklərindən heç birini etməyəcəyəm.

Bacısı Ömərə dedi:

– Elə isə onda sənin üçün su hazırlayım. Qüsl ver, dəstəmaz al.

Ömər çaşqın halda ona baxdı:

– Nə üçün qüsl verməliyəm?

Fatimə xatun:

– Ona görə ki, o sözlər Allah- təalanın sözləridir. Təmiz olmayan bir insan onu əlinə almamalıdır. Çünki kafirlər təmiz deyillər.

Bu vaxt Səid otağa girdi. Ömər ona baxıb dedi:

– Ya Səid, mənə qüsl verməyi öyrət.

Səid Ömərə qüsl verməyi öyrətdi. Ömər qüsl verib gəldi. Gedib yerində oturdu, Fatimə xatun yazılı Quran səhifələrini gətirib ona verdi.

Ömər Quranı əlinə alıb gözlərini səhifələrə dikdi. Oxudu... Oxudu...

Bu Taha surəsi idi və belə başlayırdı:

1. Ta, ha!

2. Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik! (Peyğəmbər ayaq üstə, barmaqlarının ucunda durub o qədər namaz qılmışdı ki, mübarək ayaqları şişmişdi). (Taha surəsi. 1-2 ayələr).

Ömər surəni tam oxudu, bir də oxudu. Qəlbi fərəflənirdi, könlü açılırdı. Bu dəri parçasına yazılmış bir səhifəlik kəlamda nə qədər mənalar var?! Ömər həyəcan içində idi. Birinci ayəni oxudu, ikinci ayəni bitirdi, üçüncü ayəni oxudu. Hər ayənin gözəlliyi indi könül kitabına yazılırdı. Oxuyurdu, yenidən başdan oxuyurdu:

6. Göylərdə və yerdə, onların arasında və torpağın altında (*yeddi qat yerdə*) nə varsa (*hamısı*) Onundur. (yenə orada, 6-cı ayə).

Ömər bu ayəni oxuduqdan sonra bir müddət səssiz qaldı. Bir şey söyləyə bilmədi. Nə söyləyəcəkdi Allahın kəlamına qarşı? İçində ilahi bir qüvvə işləyirdi. Sonra dilə gəldi. Bacısı Fatimə xatuna dönərək dedi:

– Nə böyük Tanrı, nə əzim Allah, o Ulu Yaradan ki, bu onun kəlamıdır. Məkkə şəhərində üç yüz altmış ilah vardır. Hamısı oturduqları yerdə dururlar, hökmləri də o oturduqları yerdədir. Tanrı, yeddi qat göyə, yeddi qat yerə hökm etməkdədir. Həm də nə qədər yaranmış məxluq varsa, hamısı Onun əmrindədir. Ey böyük Allah.

Ömər yenidən susdu. "Taha" surəsini tamam oxudu və Fatimədən yenidən soruşdu:

– Bu yaradılanların hamısı sizin Tanrınızındırmı, ya Fatimə?

Fatimə xatun cavab verdi:

– Bəli, ya Ömər, buna şübhənmi olar?

Ömər dərin düşüncəyə daldı. Amma iman işığı onun qəlbində işıqlanırdı.

İman işığı könlündə bir ay kimi doğurdu. Oxuduğu Quran ayələri illərlə qəlbində yaranmış və onu əzən küfrü aradan qaldırır, gələcək yoluna işıq salmağa başlayırdı. Ömər təkrar "Taha" surəsini oxuyur, ağlayırdı. Ağladı, oxudu. Ondan sonra bütün qəlbi ilə yalvardı:

– Ey Rəbbül-aləmin, ey dünyaların Ulu Tanrısı! Əgər Qureyşin sandığı kimi Məhəmməd bir "sehr" deyilsə, Haqq Peyğəmbəridirsə, məni onun söhbətinə layiq et. Mənim könlümdən pis düºüncələri, uygun olmayan şübhələri çıxart.

Sonra səkkizinci ayəni bir də oxudu:

**8.** "Allahdan başqa heş bir Tanrı yoxdur. Ən gözəl adlar (əsmaül-hüsna) yalnız Ona məxsusdur"

Ömər Fatiməyə:

Başqa Quran ayələrini də verin, mən oxuyum, – dedi.

Fatimə ona dəri üzərində yazılmış, "əl-Hədid" surəsinin ayələrini gətirdi. Bu surədən ayələri oxumağa başladı. O yenidən nurlu göz yaşları tökməyə başladı.

Ömər ağlayırdı, göz yaşları onun ayələri oxumasına mane olmurdu. Bir qərar vardı, iman gətirmək. Artıq bacısının evinə gələn Ömərin düşüncəsindən, iradəsindən heç bir şey qalmamışdı. Şəhadət kəlmələrini öyrənib dedi:

Əşhədu ən lə İlahə illallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsulu.

Ömər artıq İslama girmişdi. Öldürməyə gəldiyi bacısından hidayətə çataraq  ayrılırdı. Dama qaçan Eret oğlu Həbbab onun yoluna çıxdı:

– Ey Xəttab oğlu Ömər, sənə muştuluq olsun.

Ömər çaşıb qalmışdı, Eret oğlu onu nə xeyr xəbər edirdi?

– Ey Erett oğlu, mənə nə muştuluq deyirsən?

Həbbab:

– Allah-təalanın Rəsulu bu gecə səhərə kimi yatmadı. Namaz qıldı, rüku və səcdədə oldu, dua etdi: "Ya Rəbbi, bu dini Xəttab oğlu Ömərə əziz et", – dedi. Sənə muştuluq odur ki, ya Ömər, səni Rəsulullah andı? Tez ona, Həbibə yetiş, sənə əbədi dövlət və səadət yetişsin.

Ömər Həbbabdan ayrılıb birbaşa Darülhəzinə getdi.

## *ÖMƏRİN İSLAMA GƏLMƏSİNİN BAŞQA RƏVAYƏTLƏRİ*

Ömərin İslama gəlməsinin başqa bir rəvayəti də vardır. Ömər Hz. Məhəmmədi (s.ə.s.) öldürmək üçün Hərəmdən ayrılıb gedəndə yolda Abdullah oğlu Nüaymla rastlaşıb. Nüaym onu bacısının evinə istiqamətləndirəndən sonra, özü Hz. Məhəmmədin (s.ə.s.) yanına qaçmışdı. Ömərdən eşitdiklərini Rəsulullaha söyləmişdi. Peyğəmbər də: "Ya Rəbb, iki Ömərdən birini İslam dini ilə əziz et" duasını etmişdi. İki Ömərdən birisi də Əbu Cəhl idi.

Bu rəvayətə görə Nüaymın Hz. Məhəmmədə (s.ə.s.) Ömər tərəfindən öldürələcəyi xəbərini verməsinin ertəsi günü hz. Həmzə bir dəstə səhabə ilə Rəsulullahın yanına getmişdir. Məqsədləri Ömərin pis məqsədinin qarşısını almaq, onu qorumaq idi.

Həmzə:

– Əgər Ömər bir iş qarışdırarsa, bizimlə vuruşsun, qövm və qəbilə arasında olsun?

Nəhayət, Ömər qapını döydü. Hz. Həmzə gedib qapını açmaq istədi. Amma Hz. Məhəmməd (s.ə.s.):

– Sən dur, Həmzə, – dedi.

Arxadan hz. Əli yerindən qalxdı, qapıya getmək istədi. Hz. Məhəmməd (s.ə.s.) ona da icazə vermədi. Qapını kim açacaqdı? Hz. Rəsul (s.ə.s.) bir an sonra özü qalxdı, qapıya getdi. Qapını açdı. İndi Hz. Məhəmməd (s.ə.s.) Ömərlə üz-üzə dayanmışdılar. Əlbəttə, Ömər çaşıb qalmışdı.

Qarşısında nur üzlü, səadət ulduzlu, rəhmət sözlü, şəfqət və məhəbbət nəzərli Hz. Məhəmmədi (s.ə.s.) görüncə nübüvvət heybətindən içinə çaşqınlıq düşdü. Ağlı başından getdi, bədəninə titrəmə gəldi. Ömər özünü tamam itirmişdi.

Hz. Məhəmməd (s.ə.s.) ona doğru irəlilədi. Qollarını uzadıb onu iki qolunun arasına aldı. Öməri bir dəfə qüvvətlə silkələyib özünə doğru çəkdi, buraxdı. Ömər özündə bir yüngüllük hiss etmişdi. Sanki bədəninin qanı, suyu axıb getmişdi. Çiynindən bir ağırlıq qalxmışdı..

Bəli, Ömərin kafirliyi, şirki, tək Allahın yerinə bütlərə inancı az bir müddət içində bədənindən axıb getmişdi. Öməri yüngülləşdirən də bu idi. Onun yerinə İslam nuru və Hz. Məhəmməd (s.ə.s.) məhəbbəti dolmuşdu. O dönərək:

– Ya Rəsulullah, mənə kəlmeyi-şəhadəti öyrət, – dedi.

Az sonra Ömər kəlmeyi-şəhadəti deyib müsəlman oldu.

Ömərin Hz. Məhəmmədlə (s.ə.s.) danışdığını görən səhabələr qapıya gəldilər. Rəsulullah Öməri götürüb içəri gətirəndə onlar təkbir dedilər. Müsəlmanlar beləcə dinə bir dirək də qazandılar.

Ömər iman gətirdikdən sonra bir az Hz. Məhəmmədin (s.ə.s.) hüzurunda oturdu. Allahın Rəsulu əllərini göyə qaldıraraq:

– Ya Rəbb, Ömərin könlündəki İslam nuru, dinə məhəbbəti sabit olsun, – dedi.

Ömər sonra qüsl, dəztəmaz və namaz qaydalarını öyrəndi.

Hz. Məhəmmədlə (s.ə.s.) birlikdə ilk namazını qıldı. Ömər ibadət bitdikdən sonra dilləndi:

– Ya Rəsulullah, səndən diləyim budur, bütün səhabələrinə və düşmənlərinə mənim müsəlman olduğumu söylə.

Hz. Məhəmməd (s.ə.s.):

– Ya Ömər arzu sənindir, istədiyin kimi et.

Ömər Hz. Məhəmməddən (s.ə.s.) icazəni eşitdikdə hüzurundan ayrıldı. Bayıra çıxdı. Özü-özünə: "Əvvəl Əbu Cəhlin yanına gedim, müsəlman olduğumu ona bildirim", – deyə düşündü

Birbaşa Əbu Cəhlin evinə gəldi, qapını döydü. Əbu Cəhl evdə idi. Qapını açdı, qarşısında bacısı oğlu Öməri gördü. Tez ondan soruşdu:

– Salam, bacıoğlu. De görüm, nə etdin? Nə iş bacardın? Mənə bir şad xəbər ver, bu qəmli ürəyim sevinsin.

O, müsəlman olduğunu dayısına söylədi. Əbu Cəhl bu sözləri bir zarafat kimi qəbul etdi:

– Bunu mənə nə məqsədlə deyirsən? Zarafat edirsən? Məni öldürəcəksənmi?

Ömər:

– Gerçəkdən deyirəm.Əgər inanmırsansa, bu da isbatı; "Əşhədu ən lə ilahə İllallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluhu ", – dedi.

Əbu Cəhl şəhadət kəlməsini eşidən kimi qapını Ömərin üzünə bağladı, içəridən bağırdı:

– Lat və Üzzaya pislik etdin. Onlar sənə qənim olsun və səndən intiqam alsın.

Ömər oradan ayrıldı, yoluna davam etdi. Qəlbində bir incəlik, ürəyində həyəcan var idi. Yolda bir qureyşliyə rast gəldi. Bu adamın işi, sənəti qeybət, arada söz gəzdirmək, olan-olmayanı xalq arasında danışmaq idi. Adı Rəbi oğlu Cümeyl idi. Ömər:

– Ya Cümeyl, mən müsəlman oldum. Məhəmmədə iman gətirdim. Gəz, küçələrdə bərkdən de: "Ey Qureyş xalqı bilin, Ömər də iman gətirdi, müsəlman oldu".

Rəbi oğlu Cümeylə belə hamını heyrətləndirən xəbərlər çox lazım idi. Yoxsa özünün sözgəzdirmə sənəti iflasa uğrayardı. Az vaxtdan sonra Ömərin müsəlman olması, bütün xalq arasında yayıldı. Qureyş ulularının da qu-

laqlarına çatdı. Bu nə işdi belə? Ömər Məhəmmədi öldürməyə getmişdi, müsəlman olub gəldi. Həmən yığışıb Əbu Cəhlin evinə gəldilər. Ona:

– Ya Əbu Həkəm, sənin bacın oğlu Xəttab oğlu Ömər müsəlman olub. Bu xəbər doğrudurmu? – soruşdular.

Əbu Cəhl:

– Bəli, ey Qureyş uluları. O üzüqara olmuş tapşırdığımız işi belə etdi. Onu öldürmək yerinə müsəlman oldu.

Qureyşlilər,Əbu Cəhlin tərəfdarları bir yerə yığışdılar, Kəbəyə gedərək qərar qəbul etdilər. Məhəmmədi və havadarlarını daima təqib etmək, imkan olanda da söymək və döymək. Bacarıb Öməri öz dinlərinə geri qaytarmaq da əsas məsələlərdən biri idi. Günorta vaxtı idi. Ömər Hz. Məhəmmədin (s.ə.s.) yanına Darülhəzinə gəlmişdi. Namaz qılma vaxtı çatmışdı. Ömər və Hz. Məhəmməd (s.ə.s.) birlikdə dəstəmazlarını yenilədilər.

Hz. Məhəmməd (s.ə.s.) Ömərə dönərək:

– Ya Ömər, könlün istəyirsə, Kəbə Hərəmində camaatla bir namaz qılaq.

Ömər cavab verdi:

– Bəli, ya Rəsulullah, onlar Lat və Üzzaya aşkar ibadət edirlər, biz İslam dininə nə üçün aşkar ibadət etməyək?

Sonra əlavə etdi:

– Ya Rəsulullah, indi nə qədər müsəlman var?

Hz. Məhəmməd (s.ə.s.) cavab verdi:

– Ey Xəttab oğlu, səhabələrin sayı otuz döqquz idi, səninlə qırx olduq.

Ömər:

– Ya Rəsulullah, durunuz, Hərəmə gedəyin. Orada namaz qılaq. Əgər Qureyş bizimlə ədəblə davranarsa, biz də səsimizi çıxarmarıq. Əgər vuruşmaq istəsələr, biz də vuruşarıq.

Hz. Məhəmməd (s.ə.s.):

– Kəbəyə gedək.

Bu sözdən sonra hamı Kəbəyə doğru hərəkət etdi. Hz. Məhəmməd (s.ə.s.) getdikcə düşünürdü. Qureyşlilərdən müsəlmanlara bir zərər dəyəcəkmi? Bu fikirlə gedirdi, amma qəlbində bir fərəh hissi var idi. Cəbrail əleyhissəlam o saat köməyə gəldi. Ulu Tanrının uca qatından vəhy endirdi. Bu vəhyi Hz. Məhəmməd (s.ə.s.) bu Quran ayəsini səhabələrə oxudu. Möminlər coşdu. Ömər qılıncını çıxarıb qabaqda gedirdi. Ardınca Həmzə də əlində qılınc tutmuşdu. Onların ardınca hz. Əli əlində çəkilmiş qılıncla gedirdi.

Beləcə, üç igid Hz. Məhəmmədin (s.ə.s.) önündə gedirdi. İki tərəfində və ardında da:

Əvf oğlu Abdullah, Abdullah oğlu Təlhə, Zeyd oğlu Səid, Əbu Vəqqas oğlu Sad, Əvvam oğlu Zübeyr, Əmr oğlu Əbu Übeydə, Ərət oğlu Həbbab, Abdullah oğlu Nüaym, Məsud oğlu Abdullah, Yasir oğlu Əmmər, Füһəyrə oğlu Əmir, Harisə oğlu Zeyd və nəhayət, Bilali-Həbəşi kimi qırx səhabə düzülmüş və Hz. Məhəmmədi (s.ə.s.) ortalarına almışdılar.

Bilal Həbəşinin gur səsi isə ətrafı tutmuşdu:

– Şəhadət edirəm ki, Allahdan başqa Allah yoxdur. Məhəmməd də onun elçisidir. Allah Məhəmmədi (s.ə.s.) qullarını doğru yola sövq etmək üçün və İslam dinini bütün dinlərdən üstün olmaq üçün göndərdi.

O zaman azan verilməsinin vaxtı olmadığı dövr idi. Bilal Həbəşi öz gözəl səsi ilə şəhadət kəlməsini deyir və namaz vaxtını bildirirdi. Artıq müsəlmanlar hamının gözü önündə qorxusuz hərəkət edirdilər.

Qureyşlilər bunları görüncə bir yerə yığıldılar. Qureyş hörmətliləri Hz. Məhəmmədə (s.ə.s.) hücum etmək, təhqir etmək və söymək haqqında danışırdılar.

Həmən:

– Ömər Məhəmmədi səhabələri ilə birlikdə Kəbəyə gətirir. Həqiqətən də, uzaqdan gördülər ki, izdihamlı bir dəstə Kəbəyə irəliləyir.

Qabaqda Ömər və Həmzə əllərində sıyrılmış qılıncla gəlirlər.

Arxalarında Əbu Talib oğlu Əli irəliləyirdi. Səhabələrin ortasında Hz. Məhəmməd (s.ə.s.) hərəkət edirdi. Bilal Həbəşinin gur və şirin səsi ətrafı bürümüşdü. Bu nə gözəl səsdir. Qureyşlilər susaraq bu səsə qulaq asır "Bu kimin səsidir?"– deyirdilər.

Birisi:

– Bu Bilal Həbəşinin səsidir, – dedi. Şəhadət kəlməsidir, ona dəvət edir.

Əbu Cəhl:

– Bu dəstə əvvəlki dəstələrə oxşamır. Sanıram, bunlar elə bir qövmdür ki, evlərimizi dağıtmağa, öz dinlərini möhkəmlədib başqa dinləri yox etməyə gəlirlər. Gəldilər də.

Ömər Qureyş ulularının qarşısında durdu. Qılıncı da əlində idi.

Hz. Məhəmmədin (s.ə.s.) vəzifəsi haqqında bir neçə kəlmə dedi:

– Məhəmməd bizi İslama qovuşdurdu. Allah onu bizə Haqq yolunu göstərmək üçün göndərdi.

Bu sözləri eşidən Qureyş uluları birdən-birə qışqırmağa, fəryada başladılar. Hər tərəfdən əllərini qılınclarına atdılar. Qılıncı olmayan əlinə daş, ağac aldı. Ömər heç fikirləşmədən Qureyşin üstünə həmlə etdi. O biri tərəfdə isə hz. Həmzə və hz. Əli hücum etdilər. Hamı qorxub geri çəkildi. Çaşıb qalmışdılar. Bu üç igid aslanın qarşısında kimsə dura bilərdimi? Qureyş bunu çox yaxşı bilirdi. Onlara geniş bir yol açmışdılar.

Hz. Məhəmməd (s.ə.s.) əshabı ilə Kəbəyə gələrək namaza durdular. İbadət edənlərin bir tərəfində Həmzə, o biri tərəfində Əli qılınclarını hazır qoyub namaz qılırdılar. Hz. Məhəmməd (s.ə.s.) namazı bitirdikdən sonra əlinə bir dəyənək aldı. Kəbəni təvaf etdi. Əlindəki dəyənəklə bütlərin üz-gözünə vurur və bütlərin batil olduğunu söyləyirdi: "Haqq gəldi, batil silinib getdi. Əslində elə batil yox olamağa məhkumdur"– deyirdi.

## *ƏBU CƏHLİN ÜRƏYİ PARTLAYIRDI*

Hz. Məhəmməd (s.ə.s.) Kəbədən dönüncə bu aşkar qılınmış namazın xəbəri Qureyşə və bütün Məkkəyə yayıldı. Məlun Əbu Cəhl Qureyşə belə dedi:

– Ey Qaliboğulları, ey qureyşlilər, siz mənim sözümü eşitmədiniz. Mən sizlərə neçə vaxtdır: "Ey qövm, ayıq olun, hazır olun, bu Məhəmməd mütləq bir iş bacaracaqdır",- dedim. O, yavaş-yavaş gücləndi. Boynumuza mindi. Nəhayət, dinini, aşkar etdi. Seyyidlərimizi bir-bir öz dininə döndərdi. Xalqı dininə dəvət etdi.

Qureyşlilərin arasında olan Əbu Talib ona cavab verdi:

– Ey Əbu Həkəm, Məhəmməd xalqı pisliyə, batilə dəvət etmədi. Özü Haqq peyğəmbəridir. Rəsul olan insan işini aşkar edər. Siz onu söyür, döyür, nalayiq sözlər deyirdiniz. Bax, mənim qardaşım Həmzə müsəlman oldu. Mən heç səsimi çıxarmadım. Öz işidir, urəyi istəyir, olsun. Hər kəs azad seçim edə bilər. Əgər sənin bacın oğlu Ömər müsəlman oldusa, axı sənə nə, əsəbləşirsən?

Əbu Talibin sözünə Əbu Cəhl bir cavab tapmadığı üçün susdu, dili kəsilmiş kimi. O, xalqa dağılışmağı əmr etdi. Hər kəs evinə, işinə döndü. Amma onun ürəyi ataş içində yanırdı, hirsdən başından tüstü çıxırdı. Dili söz tutmurdu, yavaşca evinə doğru getdi.

Ancaq evdə də otura bilmədi. Xəbər göndərib Məxzumoğullarının böyüklərini bir yerə yığdı. Hamı yığışandan sonra dedi:

– Ey dostlar, mənim dərdimə bir dərman, bir şəfa tapın. Yoxsa mən daha yaşaya biməyəcəyəm.

Məxzumoğulları:

– Ya seyyid, sən nə məsləhət görürsən, fikrin nədir? Nə desən, biz sənin əmrinə itaət edəcəyik.

Əbu Cəhl:

– Elə isə mənim sözüm belə olacaq. Sabah Öməri çağırtdıraram, onu söyərəm, döyərəm. Müxtəlif əzablar verərəm. Onda, bəlkə dönüb dinimizə

qayıdar.

Məxzumoğulları Əbu Cəhlin bu fikrini bəyəndilər. Dağılıb getdilər. Əbu Cəhl sonra Əbu Süfyanın yanına gəldi. Öz vəziyyətini və sabahkı planını ona danışdı. Əbu Süfyan:

– Bəli, ya Əbül-Həkəm, Ömərin müsəlman olması bizim üçün çox ağırdır. Hamımız pərişan olmuşuq.

Əbu Cəhl Əbu Süfyanla birlikdə çıxıb Qureyşin yığışdıqları yerə gəldilər. Onlara:

– Xəttab oğlu Öməri yığışacağımız yerə çağırarıq, ona dinimizə geri dönməyi təklif edərik,- dedilər.

Sonra Əbu Cəhl əlavə etdi:

– Əgər Ömər yenə Lat və Üzza dininə qayıdarsa, qayıtsın, qayıtmasa, onu öldürərəm. Qoy hamıya dərs olsun ki, dinimizdən gedənin aqibəti belə olacaq.

Qərar artıq verilmişdi, ona görə də müşriklər evlərinə dağılışdılar.

## *KAFİR QƏZƏBLƏRİNƏ DÖZÜN*

O biri tərəfdə Hz. Məhəmməd də (s.ə.s.) qırx səhabəsini bir yerə yığmışdı. Onlarla söhbət edir, öyüdlər verirdi. Deyirdi:

– Ey din əhli. Həbadə bir ümidsizlik göstərəsiniz. Kafir qəzəbinə dözün. Biz səbirlə öz işimizi görməliyik. Haqq - təalanın fərmanına boyun əyməliyik. Onun yoluna təslimik, qurbanıq. “İbadət edin” deyərsə, ibadət edərik, “din əhlinin yanına” desə, gedərik, əgər “cihad” desə qılınclarımızı göturub savaşarıq, vuruşarıq. “Barış” deyərsə, barışarıq. Heç biriniz özünüzü kiçik görməyin. Bizim gücümüz, qüvvətimiz çoxdur, amma səbir və dözüm lazımdır. İçimizdən kimsə öz qüvvətinə arxayın olub kimsəni döyməsin. Gücünü səbrə və çətinliklərə qatlaşmaya istifadə etsin. Əziz və ulu olun, kiçilməyin. Kim ki seyyid, ulu olmuş, o başqasına kiçik kimi baxmasın. Kafirlər daima bir fitnə-fəsad törədəcək, onları Ulu Tanrıya buraxın. Nəbilər dərəcəsinə qalxın, Onun əmrlərinə itaət edərsinizsə, bərəkətinizi artırar.

Hz. Məhəmmədin (s.ə.s.) bu sozləri nə qədər gözəl idi. Könüllər öyüdlərlə dolmuşdu.

O gecə hz. Ömər Hz. Rəsulun (s.ə.s.) söhbətindən xüsusi bir din ləzzəti almışdı. Müsəlmanın mərtəbəsi nə qədər yüksəkdir? Bu nə qədər insanlara xoşbəxtlik və səadət gətirən dindir. Müsəlman nöqsansız, dürüst, sakit və mülayim olmalıdır. Olacaq da.

Səhabələr izn istəyib dağıldılar. Hz. Ömər səhər olunca namaz qılıb ba-

yıra çıxdı. Kəbəyə doğru irəlilədi. Qureyş hörmətliləri səhər tezdən orada yığışmışdılar.

Hz. Ömər baxdı ki, Məkkə hörmətliləri oturublar. O da hər zaman Kəbədə öz mərtəbəsinə görə oturduğu yerdə oturdu. Əbu Cəhlin böyük qardaşı Hişam oğlu Əbu Bəhtəri, Ömərin böyük dayısı, sözə başlayaraq dedi:

– Ay bacıoğlu, sən o Ömər deyilmisən ki, müsəlman adı çəkiləndə yerindən sıçrayıb qılıncını çəkərdin. Sən o Ömər deyilsən ki, daima Lat və Üzza önündə, Hübalın heykəllərinə səcdə edərdin və o böyük ilahilərdən Məhəmmədin ölümünü istəyərdin. Onun ölümünü sənin əlindən olmasını arzulayırdın. Buna görə də hörmətin artmışdı, qardaşımdan xeyli pullar da almışdın. İndi bu nədir, bizim başımızı yerə soxdun. Üzümüzü xalqın qarşısında qara etdin. Məhəmmədi öldürə bilmədin, dinindən də çıxdın. Xalq içində özünü və qövmünü biabır və zəlil etdin.

Əbu Bəhtəri bu sözləri deyib ağlamağa başladı. Onu görən Əbu Cəhlin adamları, yaxınları ağlamağa başladılar. Bundan sonra Qureyş uluları söz aldılar:

– Ya Ömər, sənin yaxınların da, qövmün də, qəbilən də uludur. Onların sözlərini qəbul eylə. Məhəmmədin dinindən Lat və Üzza dininə dön.

Nəhayət, son sözü yenə dayısı Əbu Cəhl aldı:

– Ey seyyidlər, ey Qureyş uluları! Sizlər şahid olun ki, Məhəmmədi öldürmək üçün vəd etdiyim hədiyyələri Ömərə verirəm. Üç yüz qram qıpqırmızı qızıl, üç min qram qümüş və dəvələrin də sayını yüz yox, yüz əlli edirəm. Hamısı Ömərin olsun. Üstündə yüz arşın ipək parça da verirəm. Bir şərtim var, geri dinimizə dönsün.

Bu sözlərdən sonra yenə ulular öyüd-nəsihət verdilər. Susdular. Səbirsizliklə Ömərin cavabını gözləyirdilər.

Nəhayət, Hz. Ömər söz aldı:

– Ey qureyşlilər, ey ulular, ey Hərəm başçıları. Hamınız ağıllı və arif insanlarsız. Düşünüb ən çətin məsələləri həll etməyi bacarırsız. Bilirsiz ki, insan ağlı və elmi ilə dünyanı dərk edir. Ağıl ilə xeyiri şərdən, kafirliyi dindən ayırırıq. Biz İbrahim və İsmailın nəslindənik, onlar peyğəmbərdirlər, ya yox.

Qureyşlilər :

– Bəli, onlar bizim ulu babamız və peyğəmbər idilər.

Ömər bu cavabı alıb yenə Qureyşlilərdən soruşdu:

– Heç eşitdinizmi ki, onlar bütlərə inanıb onlara səcdə etsinlər? Və ya İshaqoğulları onlardan sonra Rəsul oldular. Onlar bütlərə inanıb səcdə etdilərmi?

Qureyş uluları Ömərə cavab verdilər:

– Xeyr, eşitmədik.

Ömər (r.a.) soruşdu:

– Babalarımızın vəsfini, sifətini və hallarını kitablarda oxudunuz. İbrahim əleyhissəlam bütləri qırdı. Bu səbəbdən onu mancanağa vurdular. Atəşə atdılar. Biz ki İbrahimin oğullarıyıq. Nə üçün onun inandığı tək Allaha iman gətirməyək? Babamızın daş atdığı bütlərə imanmalıyıq, onlara "Tanrı" deməliyik.

Qureyşlərdən Haris oğlu Nadr irəlilədi:

– Ey Ömər, səndən qabaq babalarımızın o qədər ağlı yox idi? Onların düşüncəsi səninkindən azmı olub? Əgər məsləhət olmasaydı, o ulu bütlətə inanmazdılar və səcdə etməzdilər.

Ömər(r.a.):

– Babalarımız hamısı bunun üçün kafir oldu. Hamısı " Əhli-nar" oldular.

Əbu Cəhl hz. Ömərdən bu sözləri eşidincə bağırdı, fəryad qopardı:

– Ey qovm, niyə durmusunuz? Öməri vurun, öldürün.

Həmən dörd tərəfdən hz. Ömərin üzərinə cumdular. Daşla, təpiklə vurdular. Hərəmin ortasında bir aşağı, bir yuxarı sürüdülər. Hz. Ömər heç müdafiə olunmurdu. Onun ruhuna bir səbir enmişdi. Düşünürdü:

– Ey Ömər, düşməninə əl qaldırma. Əbu Bəkri də neçə dəfə belə döymüşdülər. Allah-təalanın Rəsulunu neçə dəfə vurub incitmişdilər. Onlar səbir etmişdilər. Əl qaldırmadılar. Sən də onlar kimi ol.

## *ÖMƏR DÜŞMƏNLƏRİNƏ ƏL QALDIRMADI*

Hz. Ömər bu düşüncə ilə ürəyində:

– Mən də onlar kimi olacağam, heç kimə əl qaldırmayacağam, –dedi, – hələ biz indi səbir edirik. O gün ki, üç yüz kişi olacağıq, vuruşmaq vaxtı gələrsə, vuruşarıq. Sizinlə vaxtında görüşərik.

Bu vaxt bir neçə Qureyş hörmətliləri araya girdi. Hz. Ömərə hücum edənləri geri çəkdilər. Əbu Cəhl:

– Ey Ömər, sən ki öncə gəlmiş peyğəmbərləri andın. İbrahim, İsmail, İshaq olsunlar və ya Musa və İsa peyğəmbərlər olsun, onlar dediklərini dedilər, görüləcək işlərini gördülər. Amma bu yetim Abdullah oğlu Məhəmməd kimdir ki, sən getdin ona uydun, onun dininə girdin.

Ömər ona cavab verdi:

– Məhəmməd (s.ə.s.) yaranmışların ən şərafətlisi, hörmətlisi, əzizidir. Yaradılmışların birincisidir. İki dünyanın sultanıdır.

Bunları eşidən Əbu Cəhl Ömərin İslamdan dönməyəcəyini anladı.

– Ey qövm, Öməri tez öldürün, – dedi.

Müşriklər Ömərin üstunə gəldilər. Yenə Öməri döyüb söyməyə başladılar. Bu vaxt Qureyş ixtiyar ulularından biri araya girdi. Bütün xalqı geriyə çəkdi:

– Ey qövm, Öməri öldürürsüz, amma sabah Ədiyyoğulları camaatı yığışacaq, Haşimoğulları da onlarla birləsib, qılınc çəkib üstümüzə gələcəklər. Arada çəkilmiş o qılıncdan ölənlər, yaralanlar olacaq. Ölkəmiz və şəhərimiz pis vəziyyətə düşəcəkdir. Sonra da, əlbəttə, biz.

Qureyşlilər ixtiyarın sözünü eşidib Ömərə hücumdan vaz keçdilər, onu buraxdılar. Ömər üst-başını təmizləyib birbaşa Hz. Məhəmmədin (s.ə.s.) yanına gəldi. Başına gələnləri ona danışdı.

Hz. Məhəmməd (s.ə.s.):

– Ya Ömər, xeyrli iş gördün. Dinimizin sövq etdiyi səbirli olmağı göstərdin. Sadiq möminlər mərtəbəsində oldun.

Əbu Cəhl məlun əməlləri ilə xalqı Hz. Ömərə hücum etməyə sövq edəndə onun qarşısını alan ixtiyar insan kimdir? Hz. Ömərin oğlu Abdullah belə rəvayət etmişdir:

Atamdan soruşdum, o ixtiyar insan kim idi ki, səni müşriklərin əlindən aldı, ölümdən xilas etdi? Atam dedi ki, o Əmr bin Asın atası Vail oğlu As idi.

## *HÜLDƏCƏ OĞLU SEYFİN HEKAYƏSİ*

Məhəmməd bin İshaqın söylədiyinə görə, Əbül-Həsən əl-Bəkri deyir ki, Abbas oğlu Abdullah ilə Ömər oğlu Abdullahdan eşitmişdir: o zaman ki Hz. Məhəmmədin (s.ə.s.) risalət və nübüvvət şöhrəti aləmə yayılmışdı. Bütün qəbilələr də onun dininin aşkar edildiyini, Kəbə Hərəmində namaz qılmalarını artıq bilirdilər. Hicaz məmləkətində bir yer vardı, adı Sərvət torpaqları idi. Burada köçəri ərəblər yaşayırdılar. Həmişə sıx çadırları ilə məşhur idilər. Bunların ətrafda tanınan və hörmət edilən ulu seyyidlərindən biri Təmim qəbiləsinin başçısı Hüldəcə oğlu Seyf idi. Ətraf qəbilələr də onun əmri altında idilər. Maldarlıqla məşğul olurdular,  sürüləri də  var idı. Özu məliklik edirdi. Bir gün Hz. Məhəmmədin (s.ə.s.) nəbilik xəbəri Seyfin də qulağına çatdı:

– Ya Seyf, Məkkə şəhərində bir kişi nübüvvət davasına qalxıb. Xalqı öz dininə çağırır. Lat və Üzza dinindən uzaqlaşdırır, ayırır və deyir ki, hər kim bütə sitayiş etsə, o kafirdir, o əhli- nardır.

Seyf:

− Məkkə xalqından kimsə onun sözünə inanıb dininə girib?

Ona:

Bəli, Təmim oğulları qəbiləsindən tacir Əbu Qühafə oğlu Abdullah (Ətiq) onun dininə girdi. Ona sadiq bir dindar oldu. Sonra Əbdülmüttəlib oğlu Həmzə, Əbu Talib oğlu Əli və Cəfər, Əfv oğlu Abdullah, Abdullah oğlu Təlhə, Zeyd oğlu Səid, Əbu Vəqqas oğlu Səid, Əvvam oğlu Zübeyr, Əmr oğlu Əbu Ubeydə, Ərət oğlu Həbbab, Abdullah oğlu Nüaym, Məsud oğlu Abdullah, Yasir oğlu Əmmər, Fühəyrə oğlu Əmir, Xarisə oğlu Zeyd, Bilali Həbəşi, son günlərdə Xəttab oğlu Ömər də onun dininə girmişlər. Bunların bir çoxu tanınmış ulu seyyidlərdir.

Seyf bunları eşidəndə ürəyində Hz. Məhəmmədə qarşı şiddətli düşmənçilk hissi yarandı: "Nə edə bilərəm? Nə edim?" fikirləri heç başından çıxmadı.

Öz-özünə deyirdi, əgər Məkkə şəhərinin üstünə getsəm, bilirəm fəsadları böyük olacaq. Qanlar töküləcək, çoxlu insan tələfatı olacaqdır. Getməsəm, özüm-özümü içimdən yeyib öldürəcəyəm.

Seyf vəsvəsə, düşüncə içində qalmışdı. Bir çarə tapmadığı üçün ətraf şairlərini bir yerə topladı və dedi:

− Ey şairlər, Məkkə şəhərində bir kişi ortaya çıxmışdır, adı Abdullah oğlu Məhəmməddir. Özünə peyğəmbər adı vermişdir. "Mənə göydən Cəbrail gəlir, xəbərlər gətirir", − deyə xalqı bütə sitayiş etməkdən çəkindirir. Bu Məhəmmədə həcv yazın, onun yalançı, sehrbaz, kahin olduğun söyləyin. Xalqa anladın. Ona həcvə layiq olduğunu da yazın. Bunu eşidən şairlər qələmə sarılıb Hz. Məhəmmədə (s.ə.s.) çoxlu həcvlər yazdılar. Məkkədən Seyfin evinə kim gəlirdisə, qonaqları yaxşıca yedirdib içirdirdilər. Sonra şairlər öz həcvlərini oxuyurdular, onlara əzbərlətdirir və yazdırırdılar. Seyf də onlara tapşırırdı:

− Ey qonaqlarım, Məkkəyə dönəndə şəhərə çıxın, Abdullah oğlu Məhəmmədin, Qureyşin yığışdığı yerə gedin, onun kahinliyindən, yalançılığından bəhs edən şeirləri oxuyun. Məhəmmədə deyin ki, Hüldəcə oğlu Seyf sənin yalançı olduğunu bildirir. Deyir ki, sən peyğəmbər deyilsən.

Seyf şairlərinə daha pis, ağır təhqirli sözlər də deməyi tapşırdı. Onlara and içdirdi,sonra da əlavə etdi:

− Unutmayın, bu həcvlərinizi və mənim dediyim sözləri də Məhəmmədin üzünə deyin.

Şairlər orada bəxşişlər alır, Məkkəyə gəlirdilər. Amma Hz. Məhəmmədin (s.ə.s.) söhbətlərini eşidib, onun mübarək üzünü görəndən sonra şeirlərini deyə bilmirdilər. Susardılar. Əgər Sərvət ərəblərindən bir ulu Məkkəyə gələrdisə, Seyf onlara yaxında bir fitnə qopacağı, ərəb qəbilələrinin Məkkə-

yə hücum edəcəyi, Məhəmmədi öldürəcəyi xəbərini çatdırmağı tapşırırdı. Amma nə bir şair öz həcvini Hz. Məhəmmədin (s.ə.s.) qarşısında söylədi, nə də bir qəbilənin Məkkəyə hücuma hazırlaşdığı təsdiqlənirdi.

Bir gün Sərvət elinə Saləbə oğlu Məsna adlı bir heyvan alıb-satan tacir gəlmişdi. Onun işi-gücü əsasən ərəb qəbilələrindən ən qiymətli gözəl atları alıb məliklərə,valilərə, sultanlara satmaq idi. Bir gün Seyfin hüzuruna çıxmaq istədi, məqsədi Seyfin bir gözəl atı vardı, onu almaqdı. Seyfin yanına gəldi. Seyf onu qəbul edib soruşdu:

– Ya Məsna, xoş gəlmisən. Bizim elimizə gəlməyinin yəqin ki, bir səbəbi vardır? İstəyin nədir?

Məsna onun atına baxmağı, satarsa, almağı düşündüyünü bildirdi. Atı ona göstərdilər. Məsna:

– Ati çox bəyəndim, qiyməti nə olacaq?

Seyf:

– Min misqal qızıl istəyirəm, – dedi.

Məsna həmən min misqal qızılı ortaya qoydu. Atı satın aldı.

Seyf ona dedi:

– Ya Məsna, bunu hara aparıb satacaqsan?

Məsna:

– Öncə Məkkə şəhərinə aparacağam ki, satam. Hərəm seyyidləri belə atları sevirlər. Əgər yaxşı qiymət verərlərsə, onlara sataram. Yaxşı pul verən müştəri olmazsa, gedəcəyəm İran məliki Kisraya sataram.

Seyf:

– Ya Məsna, Məkkə şəhərində Haşimoğullarından bir kişi meydana çıxmışdır. Peyğəmbərlik, nübüvvət davası etməkdədir, "Lat və Üzza batildir" demişdir. Xalqa yeni dinin qanun-qaydalarını bildirmişdir. Sən onu tanıyırmısan?

Məsna:

– Bəli, tanıyıram, – dedi.

Seyf:

– Necə bir insandır? Başqalarına münasibəti necədir?

Məsna:

– O kişi yəhudi alimlərinin, Tövrat elmini bilənlərin, İncildən anlayanların, kahinlərin, ulduza baxan münəccimlərin, tarix alimlərinin dediyi Rəsuldur. Məkkə şəhərində Haşimoğulları arasından çıxmışdır. İndi İslam dinini aşkara çıxarmışdır. Adı Abdullah oğlu Məhəmməddir, – dedi.

Seyf bunları eşidəndə:

– Ola bilməz ki, o, peyğəmbər olsun, – dedi, – ya da ona göydən vəhy gəlsin. Yaxud ona göydən Quran ensin. Bunlar ola bilməz. Kim inanırsa,

çox axmaq və abdaldır. Ona inanıb etiqad edən insanlar ağıllarını itirmişlər.

Bundan sonra Seyf adamlarına əmr etdi ki, musiqiçilər gəlsinlər. Musiqi altında şairlər Məhəmməd haqqında həcvlər dedilər.

Məsna müsəlman olmasa da, Hz. Məhəmmədi (s.ə.s.) çox sevərdi. Məkkə şəhərinə hər gəlişində onunla görüşər, sevgisini ona bildirər, söhbət edərdi.

Məsna Hz. Məhəmməd (s.ə.s.) haqqında bir-birinin arxasına düzülmüş həcvlərə qulaq asdı. Amma bir söz demədi. Ürəyindən acı hisslər keçdi: "Axı sən o böyuk insanı görməmisən, ona qulaq asıb söhbət etməmisən". Amma qılıncın qorxusundan susdu.

Seyf:

– Ya Məsna, mən bu atı sənə o şərtlə satıram ki, Məkkəyə gedəndə Məhəmmədi taparsan, ona mənim düşmənim olduğunu bildirirsən və "Seyf and içib ki, səni öldürəcək" deyərsən.

Az sonra Məsna Seyfdən ayrıldı. Ertəsi gün aldığı atı Seyfə geri gətirdi:

– Ya Əmir, bu at mənim könlümə yatmadı, almıram onu, – dedi. Seyf də aldığı qızılı ona geri qaytardı.

Məsna oradan Məkkəyə yollandı. Mənzil başına çatdıqdan sonra birbaşa Hz. Məhəmmədin (s.ə.s.) yanına gəldi. Rəsulullah evinin qapısında dayanmışdı. Məsnanı görüncə gülümsədi:

– Ya Məsna, deyəsən, yoldan gəlmisən?

Məsna həyəcan içində onun yanına gəldi, ayağına düşdü:

– Bəli, ya Rəsulullah! Bəli, ya Həbibullah! Bəli, ya Məhəmməd! Sərvət vilayətindən gəlirəm. Hüldəcə oğlu Seyfin bir atı vardı, onu aldım.

Sonra baş verənləri bircə-bircə Hz. Məhəmmədə (s.ə.s.) danışdı. Sənin o mübarək camalın, qədrin və cəlalın hörmətinə, ondan aldığım atı geri özünə qaytardım. Pullarımı geri alıb bura gəldim.

Hz. Məhəmməd (s.ə.s.):

– Ya Məsna, mən xeyli vaxtdır ki, Seyfin mənim ardımca pis sözlər dediyini eşidirəm. Pislik etmək istəyən bir insandır. İsti aşa soyuq su tökənlərdəndi. Onun bu pis əməllərini üzünə vurmuram.

Rəsulullah sözünü davam etdirdi:

– Ya Məsna, Allah- təala mənə rəhm etmişdir. Məni xatəmür-rüsul, yaradılmışlara başçı etmişdir. Mənə nübüvvət vermişdir, elçilik tapşırmışdır. Kim mənə pislik etsə, söyərsə, döyərsə, mənim işim onlara dua etməkdən başqa bir şey ola bilməz. Çünki adım Məhəmməd Mustafadır. Mənə biliyi, səbri Haqq- təala özü vermişdir. Qiyamət günündə mənim dinimdə, ümmətimdə olanlar salamat qalıb əzab görməyəcəklər. Mənim həyatım da, ölümüm də cümlə müsəlmanlara rəhmət olacaqdır. Səadət o insandadır ki, mə-

ni gördü, anladı, bildi və şəhadət gətirdi.

Hz. Məhəmməd (s.ə.s.) sözünü bitirən kimi Məsna:

– Əşhədu ən lə ilahə İllallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluhu – deyərək iman gətirdi. Müsəlman oldu.

Hz. Məhəmməd (s.ə.s.) Məsnanın müsəlman olmasına çox sevindi. Ona bir gözəl at hədiyyə etdi. Məsna da Rəsulullahın hədiyyəsinə çox sevindi.

O gün bir-birindən ayrılandan sonra Hz. Məhəmməd (s.ə.s.) Əbu Bəkrin evinə yollandı. Fühəyrə oğlu Əmir Hz. Məhəmmədin (s.ə.s.) gəldiyini uzaqdan görüncə tez qaçıb Əbu Bəkrə xəbər verdi. Hz. Əbu Bəkr evdən çıxaraq onu bayırda qarşıladı. Birgə gəlib otağında oturdular.

Hz. Məhəmməd (s.ə.s.) Əbu Bəkrin yola çıxmağa hazırlaşdığını, yükləri bağlamaqda olduğunu gördü. Ondan soruşdu:

– Ya Əbu Bəkr, ya Ətiq, hara getməyə hazırlaşırsan?

Əbu Bəkr:

– Ya Rəsulullah, Sərvət vilayətinə gedəcəyəm, – dedi.

Hz. Məhəmməd (s.ə.s.) ondan soruşdu:

– Hüldəcə oğlu Seyfi tanıyırsanmı?

Əbu Bəkr:

– Ya Rəsulullah, mən onun adını çoxdandır eşitmişəm. Seyfin bir yetgin oğlu var. Bu yaxınlarda bu gənc Məkkə şəhərinə gəlmişdi. Ona Seyf oğlu Kinanə deyirlər. Bu gənc Məkkə ulularının əynində xüsusi ipəkdən tikilmiş bir paltar görmüşdü. Çox xoşuna gəlmişdi. O ipək parçadan nə qədər axtardısa, tapa bilmədi. O qiymətli parçadan bir xeyli almaq istədi, heç bir tacirdə də yox idi. Mənim evimə gəldi, mən ona istədiyi parçadan satmadım. Parçanın dəyərindən də artıq pulunu verdi, satmadım, çünki onun atası sizin haqqınızda çox pis həcvlər yazdırıb, şairlərə oxutdurub. Özü də sizin arxanızca pis-pis sözlər deyibmiş.

Hz. Məhəmməd (s.ə.s.) bunları eşidincə:

– Ya Siddiq, sən sağ-salamət oraya get. Seyflə danış, mənə düşmənçiliyinin səbəbini öyrən.

Əbu Bəkr:

– Mənim bu səfərim Allah-təala yolunda olacaqdır, ya Rəsulullah. O Hüldəcə oğlu Seyfin qəlbinə bir Allah hidayət verər, inşaallah, – dedi.

İki dost vidalaşdılar. Ertəsi gün Əbu Bəkr ən bahalı parçalardan yükləyib mübarək yolçuluğuna başladı. Bir neçə gün sonra Seyfin məlik olduğu Sərvət elinə gəlib çatdı. Burada bir seyyidin – Azər oğlu Süheylin evində qonaq oldu. Süheyl Əbu Bəkrin düşməni Seyfin əmisi oğlu idi. Kərim bir kişi və hörmətli seyyid idi. Qapısı qonaqların üzünə daima açıq olurdu. Süheyl Əbu Bəkri də öz evinə qonaq götürmüş, saygı və sevgi göstərmişdi. O

gecə yaxşı bir qonaqlıq etdi.

Ertəsi gün səhər Əbu Bəkr yüklərini açdı. Məkkə şəhərindən ən gözəl parçaları gətirən məşhur tacir Əbu Bəkrin gəlişi xəbəri tez bir zamanda Sərvət vilayətinə yayıldı. Elə də olmalıydı. O, bu torpaqlarda tanınmış, əliaçıq, comərd bir insan kimi tanınırdı. Bütün Məkkə camaatı kimi onu tanıyanların, bilənlərin xüsusi hörməti və sevgisini qazanmışdı.

## *XALQ BAZARA TƏLƏSİR*

Bu xəbəri eşidənlər bazara tələsirdilər, axı onlara çatmaya bilərdi. Bunların içində Seyf oğlu Kinanə də var idi. O da satın alacaq bir şey istəyirdi. Seyfin oğlu bir də gördü ki, satılacaqların arasında onun Məkkədə almaq istədiyi parçadan var. Bu parçalar asılıb xəfif meh isə onları dalğalandırırdı. Ona satılmayan parçaların burada satıldığını görən Kinanə evə atasının yanına qaçdı.

– Ata, Qühafə oğlu Abdullah şəhərimizə gəlmiş. Qiymətli parçalar gətirmişdir. Bunların arasında mənə satmadığı ipəklər də vardır. Onları da gətirib ortaya çıxarmışdır.

Seyf oğlundan soruşdu:

– Buramı gəlmiş? Kimin evində qonaq qalıb?

Kinanə cavab verdi:

– Sizin əminiz oğlu Süheylin evində.

Seyf bunu öyrənincə kölələrindən birini Süheyli çağırmağa göndərdi. Süheyl gəldikdə ondan soruşdu:

– Ya Süheyl, Əbu Bəkr sənin evində qonaq qalır? Bu xəbər doğrudurmu? Əgər mənim evimə gəlsəydi, ona nə edəcəyimi bilirdim. Amma sənin evində qaldığı üçün onun malı və canı qurtuldu.

Süheyl ondan soruşdu:

– Ya Seyf, Quhafə oğlunun nə günahı var? Ona qarşı niyə belə qəzəblisən? Bunun səbəbi nədir?

Seyf cavab verdi:

– İki müxtəlif günahı var, Süheyl. Biri, Abdullah oğlu Məhəmmədin ən yaxın dostudur. İlk öncə onun peyğəmbərliyinə inanan üç insandan biri Əbu Bəkrdir. İkinci günahı, onun malları arasında olan çox qiymətli bir ipək parçanı mənim oğluma satmamışdır. İndi sənə beş yüz qızıl verirəm, get, o parçanı topu ilə satın al.

Süheyl:

– Oldu əmi, – deyərək qalxıb. Əbu Bəkrin yanına gəldi və dedi:

– Ya Qühafə oğlu, səndəki ən qiymətli bir top ipəyi mənə sat. Qiyməti də beş yüz qızıl.

Əbu Bəkr:

– Ya Süheyl, ya seyyid, o topdan iki parça var. İkisi də sənin olsun. Sənə nə hədiyyə verəcəyimi bilmirdim, o haqda fikirləşirdim. Madam ki o ipəklər xoşuna gəlib götur, mənim sənə hədiyyəm olsun. İki top da parça evdəkilər üçün hədiyyə götür.

Süheyl:

– Mən o parçanı satın almaq istəyirəm.

Əbu Bəkr?

– Həbibim Məhəmməd Rəsulullah hörməti üçün o parçanın pulunu səndən almaram. Sən hədiyyə kimi qəbul et.

Süheyl:

– Bu mümkün deyil, mən onları səndən pulsuz almaram.

Əbu Bəkr:

– Bu iki ipəyi al, ayrıca səkkiz parça ipək də sənə hədiyyə edirəm. Əgər hədiyyəmi qəbul etməsən, mən sənin evində qonaq qalmaram. O parçaları da kasıblara bağışlayaram.

Süheyl Əbu Bəkrin bu qədər səxavətinə çaşıb qaldı. Özü-özünə:

– Mən indi nə edim? O fikirləşər ki, mənim evimdə qonaq qaldığı üçün mənim onun ipəklərində gözüm qalıb. Çarəm yoxdur, gərək ona doğrusunu söyləyim. Parçaları kimin üçün aldığımı deyim,- deyə düşündü.

Süheyl Əbu Bəkrə döndü:

– Ya Ətiq, mən bu parçanı özüm üçün almıram. Sərvət vilayətinin məliki Seyf üçün alıram. İşin doğrusu budur.

Həmən cibindən Seyfin verdiyi beş yüz qızılı çıxarıb Əbu Bəkrin önünə qoydu. Əbu Bəkr:

– Ya Süheyl, o ipəyin hər arşınına min qızıl versə belə, mən ona parça satmaram.

Süheyl Əbu Bəkrin bu cavabından çaşıb qaldı. Əmisi oğlu Seyfin yanına getdi:

– Ey ərəblərin əmiri, Quhafə oğlu o istədiyin parçaları satmadı. Nə qədər çalışdımsa, onu razı sala bilmədim. “Satmaram”, – dedi.

Seyf:

– Çox gözəl, madam ki, belədir sən ortadan çəkil. Mən onun malını alıb başını da kəsərəm. Sən də baxarsan.

Süheyl:

– Ya əmir, bunun səbəbi nədir? Əbu Bəkr nədən səni bu qədər qəzəbləndirib?

Seyf cavab verdi:

− Əbu Bəkr elə insandır ki, yəhudilərlə, xaçpərəstlərlə ticarət etməkdədir. Onlara hər şeyi satır, mənim oğluma isə bəyəndiyi parçanı satmır.

Süheyl:

− Xeyr, ya Seyf, bu doğru bir iş deyil. Quhafə oğlu Məkkənin ulu seyyidlərindəndir. Təmimoğulları qəbiləsinin ulusudur. Tanınmış, hörmətli, sayılan insanlardan biridir. Həm də gəlib mənim evimdə qonaq olub. Mənim duz-çörəyimi yeyib. Sonra xalq nə deyər? Hər yerdə "Öz evlərinə gəlmiş qonağı qarət edib öldürdülər"deməzlərmi? Adımız, sanımız aləmdə rəzil olar.

Məlik Seyf Süheylin sözünü kəsdi:

–Sənə qulaq asmaq istəmirəm, − dedi. Kölələrinə:

− Gedin, Süheylin evinə, qonaq olan taciri öldürün, malını da yığıb bura gətirin, əmrini verdi.

Amma onlardan əvvəl evinə dönən Süheyl özünü Əbu Bəkrə yetişdi. Seyfin niyyətini həyəcanla ona danışdı. Parçaları əlçatmaz yerə qoydular. Əbu Bəkri də bir tərəfə qaçırıb gizlətdilər. Az sonra Seyfin adamları iki-üç yüz kişidən ibarət dəstə ilə gəldi. Evi axtardılar. Əbu Bəkri tapmadılar. Ələ keçirdiyi parçaları götürdülər, dəvə və kölələrdən bir neçəsini öldürdülər. Evinə basqın olmuş Süheyl adamlarını topladı, qılınclır çəkildi. Bu vaxt qəbilənin uluları araya girdi:

− Yaxşı iş etmirsən, − dedilər.

Süheyl özünü müdafiə edərək:

− Ey qövm, bu insan mənim evimdə qonaq olub. Duz-çörək kəsmişik, mən ölməyincə onu ələ vermərəm. Əvvəl məni öldürün, sonra ona toxuna bilərsiz, – dedi.

Ulular bu dəfə Seyfin yanına gələrək minnət etdilər:

− Məlikimiz mərhəmət edin, o insanın malını dəvələrini götürdünüz. Yalnız bir canı qaldı. Süheylə hörmət göstərin, onunla bir neçə gün işiniz olmasın. Baxarıq işin sonu necə olacaq.

Beləcə davanın qarşısı alındı.

Qılınclar yenidən qınlarına qoyuldu. Əbu Bəkrin üzərindən təhlükə sovuşmamışdı. Bu vaxt Süheylin kölələrindən biri Məkkəyə gəlmişdi. Məkkəlilərə və Hz. Məhəmmədə (s.ə.s.) Əbu Bəkrin vəziyyətini danışdı. Rəsulullah üzünü Ulu Tanriya tutub Əbu Bəkr üçün qurtuluş dilədi. Cəbrail hz. Məhəmmədə göründü və dedi:

− Ya Həbibi, ya Məhəmməd! Allah- təala sənə salam söyləyir və buyurur ki, sən Seyfin ölkəsinə get. Hər iş mənim qüdrətim daxilindədir. Seyfi imana gətir və Əbu Bəkri qurtar.

Hz. Məhəmməd (s.ə.s.) bu sözləri duyduqdan sonra Cəbrail göy üzünə qalxdı. O, şükür səcdəsi etdi və hz. Əliyə:

– Ya Əli, Harisə oğlu Zeydə de! ki, iki həcin dəvə hazırlasın. Sonra Xədicə xatunun yanına get, mənə paltar gətir, – dedi.

Hz. Əli qaçdı, Zeydə (o da müsəlman olmuşdu) dəvələri hazırlamasını tapşırdı. Xədicə xatunun yanına gedib Hz. Məhəmmədin paltar istədiyini bildirdi. Allahın Rəsulu Misir parçasından olan iki parça qumaşı üstünə keçirdi. Başına ağ sarğı bağladı. Sarğının ucunu bədəvi ərəblər kimi aşağı buraxdı. Üstünə bir pambıq parçadan Yəmən üst geyimi olan əbasını atdı. Qılıncını taxdı. Sonra Əliyə:

– Ya Əli, sən də get geyin və qılıncını tax.

Hz. Əli də geyindi və qılınc taxdı. Ondan sonra Hz. Məhəmməd (s.ə.s.) dedi:

– Ya Əli, Xədicə xanıma söylə ki, biz on günə qədər burada olmayacayıq. İnşallah on gündən sonra yenə xəbəri olar.

Onlar Məkkə şəhərindən çıxdılar. Allah-təala öz Həbibinə uzaq yolları yaxın etdi, bir saat sonra Sərvət elinə gəldilər. Hz. Məhəmməd (s.ə.s.) və hz. Əli burada gözəl bağçalar, bağlar gördülər. Axar sular, yaşıl çəmənlər var idi. Bağçaya yaxın yerdə durdular. Bağçanın bir qırağında möhtərəm bir kişi oturmuşdu. Kölələr bostanı suvarırdılar.

Hz. Məhəmməd bağçanın yaxınlığında yüksək bir yerdə dəvəsindən aşağı endi. Hz. Əli həcin dəvələrin dizlərini bağladı. Hz. Məhəmməd hz. Əliyə pul verdi və dedi:

– Get, bu bostanda oturan adamdan bir yemiş al!

Hz. Əli əlindəki pullarla bostan sahibinin yanına gəldi, salamlaşdı. Kişi yerindən qalxıb hz. Əlinin üzünə baxdı və dedi:

– Salam, ey gözəl üzlü gənc.

Hz. Əli əlindəki pulu ona uzatdı:

– Ya seyyid, mənə bostandan yemiş verərsiniz?

Möhtərəm adam:

– Sənə yemiş verərəm, amma pul almaram.

Hz. Əli:

– Pulunu almasanız, biz də yemişi yemərik.

Bu sözdən sonra bostan sahibi kölələrini səslədi:

– Yemiş yığın, gətirin, – dedi.

Az sonra bir böyük tabaq dolu yemiş gətirdilər. İki kişi güclə qaldırırdı. Hz. Məhəmmədin yanına gətirdilər. Həmən hz. Əli o böyük tabağı tək götürüb saygı ilə Hz. Məhəmmədin (s.ə.s.) qarşısına qoydu. İki kişi bu gəncin qüvvəsinə heyran qalmışdılar. Onların kim və hansı qövmdən olduğunu öy-

rənmək istəyirdilər. Sonra geri döndülər.

Kölələr ayrıldıqdan sonra Hz. Məhəmməd (s.ə.s.) irəliyə doğru baxdı. Gözləri yenə səliqəli bağçanın möhtərəm sahibinə satasdı. Hz. Əliyə döndü:

– Ya Əli, get, bu bağça sahibini mənim yanıma gətir.

Hz. Əli bağça sahibinə doğru getdi:

– Ey Seyyid, səni mənim Seyyidim, Həbibim çağırır, gələ bilərsizmi?

Adam qalxdı, gəlib Hz. Məhəmmədin əyləşdiyi hündür yerin yanında oturdu. Hz. Məhəmmədin (s.ə.s.) üzünə baxdı, heyran qaldı, yenə baxdı və dilə gəldi:

– Ey günəş üzlü, nə olub ki, beləcə mənim bağçamın yanında oturmusan?

Hz. Məhəmməd (s.ə.s.):

– Yemişi bizə gətirdilər, çox sağ olun, – dedi.

Bağça sahibi maraq dolu nəzərlərlə ona baxıb soruşdu:

– Sizin adınız nədir? Kimlərdənsiniz?

Hz. Məhəmməd (s.ə.s.) cavab verdi:

– Mən Abdullah oğlu Məhəmmədəm. Babam Məkkənin ulu seyyidi Əbdülmüttəlib idi. Mən Ulu Tanrının elçisiyəm, Rəsuluyam.

Bağça sahibi fikirlərini toplayıb soruşdu:

– Ey könüllərin sevgilisi, sən hansı dinə və nəyə dəvət edirsən?

Hz. Məhəmməd (s.ə.s.) cavab verdi:

– Allah-təala məni xalq içinə elçi göndərdi. Mənə "Ağdan, qaradan, dövlətlidən, kasıbdan, seyyiddən, quldan, kişidən və qadından hamısını doğru yola dəvət et" buyruğunu vermişdir. Mən gəldim ki, Ulu Tanrının birliyini, vəhdətini xalqa bildirim. Çünki hamısı yollarını azmışlar, küfr və zəlalət dənizinə qərq olmuşlar. Özləri Yaradanlarını bilməzlər. Gedib daşdan, taxtadan düzəltdikləri bütlərə sitayiş edirlər. Sonra da ona "Tanrı" deyirlər. Ona görə də mən xalqa Allah-təalanın birliyini bildirməyə gəldim.

### *CƏNNƏT VƏ CƏHƏNNƏMİN ANLADILMASI*

Hz. Məhəmməd (s.ə.s.) bağça sahibinə Cənnətin hədiyyələrindən, Cəhənnəmin qorxu və əzablarından danışdı. Bu söhbətdən sonra bağça sahibi Rəsulullahın hüzurunda barmağını qaldırıb iman gətirdi. Müsəlman oldu. Hz. Məhəmməd (s.ə.s.) bağça sabibindən soruşdu:

– Ey din qardaşım, buraların ulusu Seyf kimdir? Bizə bir xəbər ver?

Bağça sahibi:

– Seyfin bağçası bizim baxçanın üst tərəfindədir.

Hz. Məhəmməd (s.ə.s.):

– Əbu Bəkrdən bir xəbər varmı?

Bağça sahibi:

– Bəli, bilirəm. Mallarını yığıb apardılar. Amma özünü qonaq qaldığı evin sahibi Süheyl qoruyub saxladı.

Onlar danışdığı vaxt Seyf kölələri ilə birlikdə öz bağçasına gəlmişdi. Hz. Məhəmməd (s.ə.s.) bağça sahibinə:

– Həcinləri gətirin, üstünə minib Seyfin yanına gedəcəyəm, – dedi.

Bağça sahibi dəvələri Hz. Məhəmmədin (s.ə.s.) önünə çəkdi. Onları mindirib, özü bağçasına getdi. Az sonra Rəsulullah hz. Əli ilə birlikdə əmir Seyfin bağçasının qapısında dəvələrindən enmişdilər. Hz. Əli dəvələri çəkdi, dizlərini bağladı. Özləri isə bağçanın içinə girdilər. Axşam olmuşdu. Qabaqda hz. Əli arxasınca Hz. Məhəmməd (s.ə.s.) ağacların arası ilə gedirdilər. Bir az getdikdən sonra Seyfi gümüş taxtda oturmuş gördülər. Yaşıl bir paltar geymiş, başına sarğı bağlamışdı. Qılıncı dizinin üstündə idi. İşlərini bitirmiş kölələr qarşısında sıra ilə düzülmüşdülər, buyruq gözləyirdilər. Bir neçə kölə qarşısına yemiş gətirmişdi.

Qəfil ağaclar arasından gələn səs Seyfin diqqətini cəlb etdi. O tərəfə baxdı. Nədir belə? Ağacların arasından sanki bir ay doğurdu? İrəlidən gələn kişinin üzü ətrafa ay kimi işıq saçırdı. Bütün bağ işıqlanmışdı. Onun yanında ay üzlü bir gənc də gəlirdi. Bir anda Seyfin ürəyinə Hz. Məhəmmədin (s.ə.s.) heybəti oturdu. Dərhal qalxıb irəli getdi. Rəsulullaha yaxınlaşdı:

– Salam! Xoş gəlmisiniz. Nə gözəl üzünüz var! Nə xoş cəlalınız, işıqlı vüsalınız var!

Seyf Hz. Məhəmmədi (s.ə.s.) götürüb özü oturduğu yerə gətirdi. Kölələrinə bir taxt da gətirməyi tapşırdı. Həmən gətirdilər. Allahın Rəsuluna:

– Buyurun oturun, –dedi. Oturdular.

## *Hz. MƏHƏMMƏDƏ GÖSTƏRİLƏN BÖYÜK SAYĞI*

Hz. Əli Hz. Məhəmmədin (s.ə.s.) qarşısında ayaq üstündə durmuşdu. Rəsulullah ona:

– Gəl, sən də otur, – dedi.

Əmir Seyf gələnlərə maraqla baxırdı. Kimdi bu insanlar? Bu gənc ay üzlüyə nədən bu qədər hörmət və sayğı göstərir?

Seyf Hz. Məhəmmədə dönüb soruşdu:

– Ya Həbibi, siz kimlərdənsiz? Haradan gəlirsiz? Xahiş edirəm mənə söyləyəsiz. Əgər bizə qonaq gəlmisinizsə, gözümüz üstə yeriniz var. Sizə

malımla, canımla qulluq edərəm.

Allahın Rəsulu:

– Bəli, ya əmir, biz sənin yanına qonaq gəlmişik.

Seyf:

– Bu mənim üçün böyük səadətdir. Amma indi günəş batdı. Mən izninizlə evə gedib hazırlıq edim. Sonra arxanızca adam göndərərəm, sizi gətirər.

Hz. Məhəmməd (s.ə.s.):

– Bu çox gözəl olar, – deyə cavab verdi.

Əmir Seyf atına mindi, kölələri ilə birlikdə bağçadan ayrıldılar. Yolda kölələr ondan soruşdular:

– Ya əmir, ya seyyid! Bu gözəl üzlü insan kimdir, haralardandır?

Seyf:

– Bəlkə, bir məlikdir. Əsgərlərindən ayrı düşüb. Bəlkə, elimizin bağ-bağçalarına baxarkən adımızı eşitmiş, bəlkə, bizimlə söhbət etmək üçün gəlmişdir. Bizi görsün, ölkəmizi tanısın, insanlarımıza baxsın.

Atını bir az da sürətlə qovmağa başladı. Evinə çatdı.

Əmir Seyfin bir əmisi vardı. Çox ağıllı, bilikli, arif insan idi. Məkkəyə getdiyi zaman Hz. Məhəmmədin mübarək üzünu görmüşdü. Onun əminliyini, şəriət qaydalarını bilirdi. Seyf evə gəldiyi zaman, o da təsadüfən qapıda dayanmışdı. Əmisi əmirin dörd nala at sürdüyünü gördu və atdan düşəndə sörüşdu:

– Ya qardaşoğlu, ya Seyf, sən bu cür təcili gəlməyinin, at sürməyinin bir səbəbi var yəqin?

Əmir Seyf:

– Bəli, əmi səbəbi var, – dedi, – axşam, günəş bata-batda bostanda oturmuşdum. Bağıma iki kişi gəldi. Hər halda seyyidlərdən, ulu əsillilərdən, şəriflərdən olacaqdlar. Biri orta yaşlı igid, qoca deyil. Amma mərtəbəsi uca, böyük qədirli birisiydi. Elə gözəl üzü vardı ki, mən indiyə kimi belə bir üz görməmişəm. Saygı və ağıl sahibi bir kişidir. Üzü, yaradılışı, sözü şirindir. Hər sözü sirin, görünüşü əndamlı və heybətlidir. Qayğıkeş bir şəxsdir. Yanındakı gənc də çox qüvvətli, üzündə kamal, böyüyünə sonsuz məhəbbəti olan gəncdir. İkisinin də boynundan qılınc asılmışdır.

Əmir Seyfin əmisi bu sözlərə heyrətlə qulaq asırdı. Seyf sözünə davam etdi:

– Əmi, mən ikisini də evimə dəvət etdim. Duyuram ki, bir neçə gün evimdə qonaq olarlar. Mən də onların mübarək üzünün qarşısında oturaram, qulluq edərəm. Sonra məmləkətlərinə yola salaram. Onlara gözəl paltarlar geydirib atlara mindirərəm. Mal, nemət bağışlayaram.

Əmisi Seyfə:

– Oğlum, evinə keç, hazırlıq et. Sonra onların yanına gedəndə məni də özünlə apar. Gedim görüm, onlarla söhbət edim, baxım.

Seyf:

– Oldu, əmi, – deyib evinə girərək tapşırıqlarını verdi.

Onlar burada hazırlıq görürkən, Seyfin bir köləsi bağda qalmışdı. O bağdakı quyudan suyu hovuza tökürdü. Hovuzu doldurmalı idi.

Hz. Məhəmməd (s.ə.s.) köləni yanına çağırdı:

– Ey xeyirli iş görən kölə, yanıma gəl, – dedi.

Kölə Rəsulullahın yanına gəldi:

– Buyurun, ya seyyid, – dedi.

Hz. Məhəmməd (s.ə.s.) ondan soruşdu:

– Suyu quyudan hovuza nə üçün tokürsən?

Kölə:

– Bu bağçanı suvarmaq üçün, – deyə cavab verdi.

Rəsulullah:

– Quyudan vedrə ilə su çəkib neçə günə hovuzu doldurursan?

Kölə:

– Uç gün, üç gecəyə doldururam.

Kölə sonra bir vedrə su doldurub yenə hovuza tökdü.

Hz. Məhəmməd (s.ə.s.):

– Ey xeyirli qul, indi quyudan bir vedrə də su doldur, yanıma gətir.

Kölə bir vedrə su doldurub onun yanına gəldi. Rəsulullah əlini suya salıb qarışdırdı. Sonra ağzının suyundan bir damla o suya damızdırdı.

– Ey xeyirli qul, indi bu vedrədəki suyu apar hovuza tök.

Kölə suyu aparıb hovuzun içinə tökdü. Hovuz ağzına kimi doldu və hovuzun qıraqlarından su axmağa başladı. Sonra bostanın içinə doğru istiqamətdə getdi. Kölə əlinə bir bel alaraq arxların ağzını başladı. Bir saat keçməmişdi ki, bostan tam suvarıldı. Kölə işini bitirincə döndü, Hz. Məhəmmədin (s.ə.s.) yanına gəldi, ayağına düşdü:

– Ey möcüzələr sahibi, sular bir az da axsa, bostanı su basar, bağça tələf olar.

Hz. Məhəmməd (s.ə.s.) barmağı ilə işarə verdi, hovuzun daşması dayandı, bayıra su axmadı. Bunu görən kölə yenidən onun ayaqlarına düşdü. Səcdə qıldı.

– Ya seyyid, sən nə qədər üzü xöşbəxt, sözü şirin, səadətli ərsən, insansan. İçimdə bir şübhəm var. Bəlkə, sən adı dillərdə dastan olmuş Məhəmmədsən? Nübüvvəti və risaləti aşkar olan sənsən?

Hz. Məhəmməd (s.ə.s.) kölənin bu sözünü eşitdikdə:

– Bəli, xeyirli kölə, mən o Abdullah oğlu Məhəmmədəm. Babam da Əbdülmüttəlibdir.

Bu sözləri eşidən kölə təzədən onun ayaqlarına düşdü.

Ya Rəsulullah, mən bu gecə Məkkəyə getmək istəyirdim. Sizə xəbər verəcəkdim ki, sizin səhabəniz Quhafə oğlu Ətiqi mənim sahibim öldürmək istəyir. Əmir Seyf iki gün öncə məni yanına çağırdı və dedi ki:

– Əgər sən bu Ətiqi öldürsən, mən də sənə mükafat olaraq səni azad edəcəyəm. Sənə malımdan min qızıl da verərəm. Mən də bu sözlə Ətiqi öldürmək istəyirdim. Çünki kölələri arasında məndən güclüsü, qüvvətlisi yoxdur. Mən onun verdiyi qızıllara tamah etdim. Xəncərim yanımda idi. Fəqət yolda içimdə narahatlıq vardı. Qulağıma belə bir səs gəldiyini duydum: “Ey qafil, hara gedirsən? Öldürəcək olduğun Ətiqi Ulu Tanrı qoruyur. Geri dön, yerinə get. Yoxsa qəzaya uğrayarsan”. Mən xəfifdən gələn bu sözdən sonra geri döndüm. Bildim ki, İslam dini Haqq dindir. Lat və Üzza dini batil dindir. O gecə və səhərisi gün ərzində bədənim titrəmədə keçdi. Özüm də iki gün, iki gecə qorxu içində qaldım. Nəhayət, Məkkəyə getməyə, sənin önündə müsəlman olmağı və həm də sənin sadiq dostun Əbu Bəkrin xəbərini verməyi niyyət etmişdim. Ulu Tanrıya həmd olsun ki, səni bura göndərdi.

Kölə sözünü bitirib şəhadət barmağını qaldırdı, iman gətirdi, müsəlman oldu. Az sonra Hz. Məhəmməd (s.ə.s.) ona qüsl, dəstəmaz və namaz qaydalarını öyrətdi. Birlikdə namaz qıldılar.

Namazdan sonra əmir Seyf evdəki işləri bitirib əmisi ilə bağa gəldi. Seyfin əmisi onu görən kimi tanıdı. Seyfə:

– Ya Seyf, ey qardaşımın oğlu, sənə bir sualım var. Bu günə kimi şairlərə pul və mal verərək ki, kimin üçün həcvlər yazıb oxutdururdun?

Seyf cavab verdi:

– Kim üçün olacaq əmi, əlbəttə, Abdullah oğlu Məhəmmədə.

Əmisi:

– Ondan başqa istəmədiyin bir adam varmı?

Seyf:

– Yoxdur, –deyə cavab verdi.

Əmisi yenidən soruşdu:

– Ya Seyf, indi könlünün arzusu, ən çox sevdiyin bir kimsə dunyada kimdir?

Seyf:

– Ay əmi, sevdiyim və arzuladığım bu oturan qonaqdır. Sən də hüzuruna gəldin. O, indi malımdan, canımdan da əzizdir.

O zaman Seyfin əmisi gülümsədi:

– Ey Seyf, qarşındakı insanın kim olduğunu bilmirsən? Kim onun ay üzünü görüb onu tanımasa bədbəxtdir. Bu Ulu Tanrıdan gələn Rəsuldur.

Seyf əmisindən: "Bu Məhəmməd Allahın Rəsuludur" sözlərini duyanda həmən atdan endi. Qaça-qaça Hz. Məhəmmədin (s.ə.s.) ayaqlarına düşdü və dedi:

– Ya Məhəmməd, Anladım ki, sən seyyidsən, sərvərsən. Bilmədim ki, sən Ulu Tanrının göndərdiyi elçisən, nəbisən, peyğəmbərsən. Uzaqdan adını, işlərini eşitmişdim. Cahillik edirdim. Könlümün qaranlığında şeytana uymuşdum, ona məğlub olmuşdum. Sənin qarşında utanıram. Mümkünsə, mənim günahlarımı bağışla, mərhəmət et mənə.

Hz. Məhəmməd (s.ə.s.) Seyfin etirafına qulaq asıb sakitcə dedi:

– Ey Seyf, vaxt yetişdi, gəl müsəlman ol.

Əmir Seyf bu sözlərdən sonra barmağını qaldırıb şəhadət gətirdi. İmana gəldi, müsəlman oldu. Hz. Əli Seyfə qüsl, dəstəmaz almağı öyrətdi. Sonra namaz qaydalarını ona bildirdi. Sonra Hz. Məhəmməd Seyfin əmisinə dönərək:

– Ey İxtiyar, sən nə üçün durmusan? Sən də müsəlman ol, – dedi.

O zaman Seyfin ağ saçlı ixtiyar əmisi:

– Ya Rəsulallah, mən üç aydır müsəlman olmuşam. Səni yuxumda gördüm. Mənə şəhadət kəlməsini dedin. Amma Seyfin qorxusundan müsəlman olduğumu demədim. İndi sənin hüzurunda bir də °əhadət gətirirəm: "Əşhədu ən lə ilahə İllallah və əşhədü ənnə Muhəmmədən əbduhu və rəsuluhu".

Şəhadəti dedikdən sonra Allahın Rəsulu ixtiyar qocanı qucaqladı, öpdü. Qəlbində iman nurunun qeyb olmaması, sabit qalması üçün dua etdi. İslam yolunda daima olmasını, dinin yayılmasına kömək etməsini arzuladı.

Sonra Seyfin oğlu Kinanə gəldi. O da barmaq qaldırıb iman gətirdi, Əşhədu ən lə ilahə İllallah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh. Müsəlman oldu.

Bundan sonra hamısı atlara mindilər, Seyfin evinə gəldilər. İstirahət etdilər. Seyf həmən ortaya şərbətlər gətirməyi tapşırdı. Süfrələr açıldı yeməklər gəldi. Amma Hz. Məhəmməd (s.ə.s.) əlini süfrəyə uzatmadı. Seyf çaşıb qalmışdı:

– Ya Rəsulallah, ya aləmlərin Rəbbinin Həbibi, nə üçün süfrəmizə əl uzatmadın? Bunun səbəbi nədir?

Hz. Məhəmməd (s.ə.s.):

– Bunun iki səbəbi vardır.

Seyf:

– O iki səbəb nədir, ya Rəsulallah? Bunları deyin, biz də bilək.

Hz. Məhəmməd (s.ə.s.):

– Birinci səbəb o kəsdiyiniz qoyun, dinimizin əhlimizdən olan insan tərəfindən və Allahın adı ilə kəsilməmişdir. İkinci səbəbə gəlincə, mənim sadiq dostum Quhafə oğlu Ətiq qapalı yerdə qalmışdır. Üzüntü içindədir. Ona görə də sənin yeməyini yemərəm.

Seyf bü sözlərə son dərəcədə utandı:

– Günahım böyükdür, ya Rəsulullah. Çox günahlar və səhvlər etmişəm, bunları mən bilirəm.

Hz. Məhəmməd (s.ə.s.):

– Ya Seyf, şəhadət kəlməsini dediyin andan Uca Allahımız sənin bütün günahlarını bağışladı. İndi sən anadan doğulmuş kimisən. Lakin indi qalx Süheylin evinə get, Əbu Bəkri götür, bura gəlin.

Seyf:

– Baş üstə, ya Rəsulullah, - deyərək qaxdı. Atına mimib təkbaşına Süheylin evinə getdi. Süheyli çağırdı.

Süheyl qapıdan soruşdu:

– Gələn kimdir?

Seyf:

– Mənəm, əmin oğlu Seyfəm.

Süheyl:

– Ya əmir, nə səbəbdən qapıma yalnız gəlmisən?

Seyf dedi:

– Səbəb budur ki, mən artıq bir əmr quluyam. Bütün dünya xalqları gəlsə belə, mən işlərini "baş üstə" deyib edərəm.

Süheyl ondan soruşdu:

– Ya seyyid! Sən özün bir başçısan, sənin böyüyün kimdir? Necə adamdır?

Seyf:

– Mənım böyüyüm iki cahanın Seyyididir. Bütün möminlərin seyyididir.

Süheyl əmisi oğlunun sözlərinə inanmadı:

– Mənə qəsdən belə sözlər deyirsən ki, yəqin məqsədin var, məni aldadırsan. Əbu Bəkri mənim əlimdən almaq istəyirsən. Belə bir tələ qurmusan?

Seyf:

– And içirəm, Abdullah oğlu Məhəmməd, Əbu Talib oğlu Əli mənim evimdə qonaqdırlar. Bu nə cür sözlərdi ki, mənə deyirsən? Əgər dünən gecə yalnız gəlmiş olsaydım, kölələrə əmr verərdim ki, Əbu Bəkri yerin altında da olsa tapsınlar və o yerdə də öldürsünlər. Bununla da mənim sənin qapına gəlməyimə səbəb qalmazdı. Ona görə də özümün sənin qapına gəlməyimi lüzumlu saydım.

Əbu Bəkr gizləndiyi yerdə bu sözləri eşidirdi. Nəhayət, oradan çıxaraq əmioğullarının yanına gəldi. Süheylə dedi:

– Ya Süheyl, əmir Seyf doğru sözlər deyir.

Seyf onu gördükdə atından enib ayaqlarına düşdü. Ağlamağa başladı:

– Ya Ətiq, məni bağışla. Səni çox incitdim, əziyyət verdim. Bunları mənə halal elə. Amma bütün bunlar nə qədər böyük fərəhli sonluqla bitdi.

Sonra üçü birlikdə Seyfin evinə getdilər. Hz. Məhəmmədin (s.ə.s.) yanına gəlib bərabər yemək yedilər. O gecə səhərə qədər Allahın Rəsulunun söhbətlərinə qulaq asdılar. Süheyl və Seyf Qurandan ayələr öyrəndilər. Səhər olunca sühb namazını qıldılar. Sonra Seyf Əbu Bəkrin əlindən alınan bütün malları toplatdı. Bu Ulu Tanrının Rəsuluna bildirdiyi kimi, Əbu Bəkrin malının, canının mühafizə olunması haqqında buyruğunun nəticəsi idi. Seyf bu mallardan əlavə öz mallarından Əbu Bəkrə yüz dəvə verdi, cariyə və kölələr bağışladı:

– Bunları dağılan mallarının, öldürülmüş və ya satılmış kölələrinin yerinə verirəm, – dedi. Ayrıca Hz. Məhəmmədə də (s.ə.s.) coxlu mal, heyvan, kölə və cariyələr bağışladı. Rəsulullah bu hədiyyələri qəbul etmədi. Seyf ağladı:

– Ya Rəsulullah, məndən bir neçə hədiyyəni qəbul etməyini arzu və xahiş edirəm.

Hz. Məhəmməd bir neçə kiçik hədiyyəni qəbul etdi. Seyf sonra:

– Ya Rəsulullah, artıq mənim bu əmirliyim, malım, xalqım, canım da sənin əmrindədir.

Amma Hz. Məhəmməd (s.ə.s.) Seyfin bu sözlərini qəbul etmədi:

– Ey mənim din qardaşım Seyf, indi bu işlərin vaxtı deyil. Bir müddət sakit qalın. Altdan - altdan qövmünü yaxşı əxlaq, xoş və mehribanlıqla dinə dəvət et. Dinini hələlik qıraq adamlara bildirmə. Sənə düşmən olarlar. Mənim sənə nə zaman məktubum gəlsə, onda özünü mənə yardıma çatdır.

Hz. Məhəmməd (s.ə.s.) bu sözlərdən sonra Seyflə vidalaşdı, üç həcin dəvəyə minib Əbu Bəkr və Əli ilə bir göz qırpımında Məkkəyə yetişdi. Əbu Bəkrin mallarını, kölə və cariyələrini Məkkəyə Seyfin müsəlman olmuş kölәsi gətirdi.

Rəvayətlərə görə, Seyf öz qövmündən, xalqından insanları gizli olaraq İslama dəvət etdi. Gözünü, qulağını daima Məkkə tərəfə tutmuş, Hz. Məhəmməddən (s.ə.s.) gələcək xəbəri gözləmişdir. Məkkədən Mədinəyə hicrət zamanı xeyli insan bu eldə müsəlman olmuşdur.

## *MÜSƏLMANLARIN HƏBƏŞİSTANA HİCRƏTİ*

Sərvət vilayətindən döndükdən sonra Hz. Məhəmməd (s.ə.s.) İslam dininə dəvətlərini gizli-gizli davam etdirirdi. O, gecə-gündüz bu işlərlə məşğul olurdu. Gündən-günə müsəlmanların sayı artırdı.

Bir gün Hz. Rəsulun səhabələri bir yerə yığışmışdı. Quran oxuyurdular. Birdən içərilərindən biri qalxdı:

– Mən fikirləşirəm ki, bu Quranı dinimizə girməyənlər dinləsələr, onların bəziləri o avazdan, o səsdən təsirlənib dinə, Haqq yoluna gələrlər.Çünki Hz.Məhəmməddə(s.ə.s.)başqa müsəlmanlar Qureyş ulularının qorxusundan Quranı açıqdan-açığa oxumağa cəsarət etmirlər.

Müsəlmanların arasından Məsud oğlu Abdullah irəli çıxdı. O İslamı altıncı qəbul etmiş səhabə idi. Dedi:

– Mən gedəcəyəm, Qureyşin içində Quranı aşkar oxuyacağam.

Bir qisim müsəlmanlar:

– Sən nə edirsən, Qureyş sənə hücum edər, döyər, söyər!

Bir neçəsi:

– Qoyun, Məsud oğlu Abdullah düşündüyünü etsin. Beş-on müsəlman bir az aralı durub onu qorusun. Əgər ona hücum edərlərsə, onda tez imdadına çatsınlar. Onu Qureyşin əlindən qurtarsınlar.

Məsud oğlu Abdullah:

– Düz fikirdir. Elə də edin. Çünki bizim hücum etməmiz doğru olmaz. Hz. Məhəmməd (s.ə.s.) bizə kiməsə hücum etməyə, dava salmağa və söyməyə izin verməmişdir. Ona görə də mən tək gedib Qureyşin içində Quran oxuyacağam.

Ertəsi gün səhər Məsud oğlu Abdullah tək başına Qureyşin yığışdığı yerə getdi. Qureyşlilər Zəmzəm quyusunun ətrafında hz. İbrahimin məqamının önündə oturmuşdular. Söhbət edirdilər. Məsud oğlu Abdullah İbrahim məqamı ilə Kəbənin arasında ayaq üstə durdu. Gözəl bir səslə "Bismillah" deyərək Qurandan bir surəni hündürdən oxumağa başladı. Oxuduğu "Rəhman" surəsi idi. Allahın rəhmini bildirən ayələr ilə Qureyşin qulaqları dolmuşdu. Hə qədər ayrı, nə qədər başqa sözlərdi bunlar?! Şeir kimi insanın qəlbinə axırdı, amma bu onların oxuduğu şeirlərdən deyildi.

Abdullah ibn Məsud gözəl səsi və tilavəti ilə az sonra "Rəhman" surəsinin Günahkarların məhkəməsinə aid ikinci hissəsini oxumağa başladı. Bitirdikdə Qüeryş hörmətliləri bir-birinə baxıb:

– Bunlar nə cür kəlamlardır? – dedilər.

Sonra Abdullah "Rəhman" surəsinin üçüncü bolümünü oxumağa başladı. Burada Doğru yolun mükafatı anladılırdı. Nə həzin, şirin-şirin axan səs!

Bu cazibədar səs göyə yüksələrək səmada yox olurdu.

Orada oturan Qureyşlilər qulaq asaraq çaşıb qalmışdılar. Bu necə kəlamlardır?! İndiyədək eşitmədikləri sözlər idi, bunlar.

Qureyşlər yenə bir-birinə baxdılar:

– Bu nə kəlamlardır? Nə cür sözlərdir?

Bir qisim yenə də bu ilahi buyruğu qəbul etmək istəmirdi. Ona görə də:

– Bu Məhəmmədin şeiridir. Onun uydurmasıdır. Bunları özünə uyanlara öyrədir. Məsud oğlu Abdullah da gəlib bizə onları oxudu. Bizim üzümüzə qarşı durub oxudu. Bizi heç saymadığını göstərdi. Az idilər, çoxaldılar. Öz sözlərini deməyə və bizim əleyhimizə getməyə başladılar. Millətimizin dini üçün "Batildir" dedilər. Səssiz durduq. Ata-babalarımıza "kafir" dedilər, "Əhli-nar" dedilər, heç tərpənmədik. Onlarla savaşa başlamadıq, qılınc çəkib dava etmədik. Hərəkətə gəlmədik. Onlar da görürlər ki, əlimizdən bir iş gəlmir, ayaqlarını yerə möhkəm basıb üstümüzə gəlirlər, nə istəyirlərsə, edirlər, – dedilər.

Qureyşlilər bu sözləri eşitdikcə irəli atılıb Quranı oxumağa mane oldular. Abdullahı da döydülər, söydülər, başını yardılar və gözlərinin altını qaraltdılar. Bir neçə dostu onu zorla Qureyşin əlindən aldı. Abdullah geri, səhabələrin yanına döndü. Səhabələr onun vəziyyətini görüb dedilər:

– Görürsüz ki, bizim dediyimiz kimi oldu. Tək getdiyin üçün kafirlər səni incitdilər.

Məsud oğlu Abdullah:

– Hz. Rəsulun nübüvvət nuru hörmətinə sabah yenə gedib orada qarşılarında Quranı oxuyacağam.

O gündən sonra qureyşlilər sayı artan müsəlmanları harada görsələr, söyüb döyür, onlara zülm edirdilər. Amma Əbu Bəkrdən sonra hz. Həmzə və hz. Ömərin müsəlman olmaları İslamın gücünün dəfələrlə artmasına, müsəlmanların vəziyyətinin yaxşılaşmasına səbəb oldu. Lakin Allah-təala tərəfindən izin verilməyincə düşmənlərlə vuruşmağa, kafirlərə əl qaldırmağa kimsənin cəsarəti çatmırdı. Kəbə ətrafında Quran oxumağa, namaz qılmağa qoymurdular. Səhabələr çox vaxt ibadəti gizli edirdilər. Səfərdə də, yollarda da kafirlər onları görəndə təhqir edir, imkanları olanda döyürdülər. Müsəlmanlar isə izinsiz cavab verə bilmirdilər.

Qureyşin hamısı hz. Həmzə və Xəttab oğlu Ömərin heybətindın çox qorxurdu. Amma əl qaldırmaq izni olmadığı üçün, təhqir etsələr də, onlar cavab vermirdilər. Müsəlmanlar kafirlərlə sakit dolanmağa çalışırdılar.

Amma qureyşlilər öz çirkli fikirlərindən, əməllərindən heç geri qalmaq istəmirdilər. Yalnız Hz. Məhəmmədə (s.ə.s.) hücum etmək fikrindən daşınmışdılar. Çünki onda Zübeyr, Həmzə, Əli və Ömər kimi aslanların sıyrılmiş

qılıncları kafirlərin başlarını quş başı kimi qoparacaqdı. Ona görə də səhabələr Qureyşə deyirdilər:

– Peyğəmbərə toxunmayın, nə edirsinizsə, bizə edin.

Zülm baş alıb gedirdi. Ən böyük zülmlər isə müsəlman olmuş kölələrə edilirdi. Çünki igid pəhləvanlara pislik etməkdən, qorxurdular.

Qureyşlilər də bütün həddləri aşmışdılar. Buna görə də əshablar bir yerə yığışıb Hz. Məhəmmədin (s.ə.s.) yanına gəlib dedilər:

– Ya Rəsulullah, səndən bir istəyimiz var.

Hz. Məhəmməd (s.ə.s.) onlardan soruşdu:

– Ey səhabələr, istəyiniz nədir? Deyin, nə xahiş üçün gəlmisiniz?

Səhabələr:

– Ya Rəsulullah, möminlər bu kafirlərin əlindən son dərəcə əziyyət çəkirlər. Nə Məkkədə, nə də Məkkə ətrafında sakitlikləri yoxdur. Ticarətdə də çətinliklər yaradırlar. Şəhərdən kənara da çıxa bilmirik. Halımızı Allah da bilir.

Bunları eşidən aləmlərin Rəbbinin Rəsulu, kainatın fəxri sakit tərzdə cavab verdi:

– Ey möminlər, ey Alahın birliyinə iman edənlər. Mənə savaş və cihad üçün izin gəlmədi. Bizə gələn əmr səbirdir. Bilirsiniz ki, mənə nə əmr gəlir, mən ancaq onlarla iş görürəm. Fəqət artıq səbriniz qalmadısa, onda bir təhlükəsiz, asayişi olan yerə gedin.

Əshablar soruşdular:

– Ya Rəsulullah, siz hara getməyi məsləhət görürsünüz?

Hz. Məhəmməd (s.ə.s.):

– Həbəşistana gedin, oranın hökmdarı xalqa zülm etməz. Bir müddət orada qalın. Allah-təaladan yeni bir əmr gəlincəyə qədər dinc və təhlükəsiz bir yerdə yaşayın. Çünki biz indi Qureyşlə vuruşa bilmərik. Heç olmasa, bir müddət bir başqa yerdə dinc və sakit yaşayın.

Bu sözlər səhabələri sevindirdi. Onlar Həbəşistana köç etməyə hazırlaşdılar.

Yol hazırlığı görənlər bunlardı:

1. Əffan oğlu Osman;
2. Xanımı, Hz. Rəsulun ortancıl qızı Ruqiyyə xatun;
3. Qureyş ulularından Utbə oğlu Əbu Hüzeyfə;
4. Xanımı Səhələ (Həbəşistana gələndə bir uşağı olmuş adını Hüzeyfə qoymuşdular);
5. Hz. Məhəmmədin (s.ə.s.) bibisi oğlu Əvvam oğlu Zübeyr;
6. Əbdüddaroğullarından peyğəmbərin ulu babası Haşimin nəvəsi Müsab oğlu Ümeyr;

7. Zührəoğullarından Əvf oğlu Əbdürrəhman;
8. Mürrəoğullarından Əbdül Əsədi oğlu Əbu Sələmə;
9. Xanımı Ümmü Sələmə;
10. Kəboğullarından Rəbiə oğlu Əmir;
11. Xanımı Leyla. (Hər ikisi ilk müsəlmanlardandır);
12. Məzun oğlu Osman;
13. Əbu Rəhim oğlu Əbu Bərə, Hz. Məhəmmədin bibisi oğludur;
14. Əmr oğlu Hatib;
15. Bəydə oğlu Süheyl;
16. Məsud oğlu Abdullah; (Kəbədə ilk Quran oxuyan müsəlman).

İlk karvanda 12 kişi və dörd qadın olmuşdur. Hz. Məhəmməd (s.ə.s.) karvanbaşı Məzun oğlu Osmanı təyin etmişdi. Karvan Qureyşə yaxınlaşmadan Həbəş diyarına çatdı.

O günlər Hz. Məhəmmədin (s.ə.s.) peyğəmbərliyinin beşinci ili idi.

Aradan bir il keçmişdi. Əbu Talibin oğlu Cəfər də Həbəşə getmək üçün yol hazırlıqları görürdü. O, xanımı Əsma xatunu da yanında aparacaqdı. Karvanda müsəlmanların sayı doxsan nəfər idi. (İbn Hişam 77 kişi və 13 qadın olduğunu yazmışdır). Aralarında müsəlman olmayan Əmr oğlu Asın qardaşı Səidin iki oğlu – Əmr və Xalid də vardı. Həbəşistanda Cəfərin bir oğlu olmuşdu, adını Abdullah qoymuşdular. Bir çoxlarına Həbəş ölkəsi ikinci vətən oldu.

Həbəşistanın hökmdarı Nəcaşi (adı Əshama) çox gözəl, adil bir insan idi. O, Hz. Məhəmmədin (s.ə.s.) məqamını çox yaxşı bilirdi. Nəcaşi müsəlmanların yanına iki hörmətli elçisini göndərdi, onları hüzuruna dəvət etdi. Səhabələrdən ən mötəbərlərindən bir neçəsi onun hüzuruna çıxıb gəlmələrinin səbəblərini söylədilər. Hökmdar onları yanında oturtdu, xoş sözlər dedi. Sonra soruşdu:

– Ey Hərəm seyyidləri, ey möhtərəm camaat, nə oldu ki, öz vətəninizdən buraya köçdünüz, mühacirət etdiniz, yol yorğunu oldunuz, əziyyətlər çəkdiniz? Mənim ölkəmi şərəfləndirdiniz.

Əshabi-giramidən bir neçəsi söz alaraq Hz. Məhəmmədin (s.ə.s.) salamını çatdırdılar, müşriklərin müsəlmanlara verdiyi əzab-əziyyət, zülmlərdən danışdılar və Hz. Məhəmmədin "Həbəş ellərinə gedin! Məlik Necaşi adil bir insandır, bizə yaxındır. Sizi həmişə qoruyacaq" buyurduğunu söylədilər.

Məlik Necaşi bu şad xəbəri eşidib gözləri yaşardı.

– Siz mənim məmləkətimə xoş gəlmisiz. Sonra onlara yenə xeyli xoş sözlər dedi və evlərinə göndərdi.

Burada müsəlmanlar rahat yaşayırdılar.

Məhəmməd ibn İshaq yazır: "Hz. Rəsulun səhabələrindən bir neçə kişi şeirlər yazıb Məkkəyə göndərirdilər. O şairlərdən birisi də Xaris oğlu Abdullah idi. (Allah ondan razı olsun.)

Müsəlmanların ticarət adı ilə Məkkədən ayrılaraq Həbəş elinə getdiklərini və orada onlara göstərilən hörməti, qayğını və himayədarlığı eşidincə müşriklərin yuxusuna zəhər qatılmışdı. O böyük hökmdar nə üçün bunlara qayğı göstərir? Atəş ürəklərini yandırıb - yaxırdı. Bir-birinə:

– Bu işə bir çarə qılmaq lazımdır? Nə tədbir görək? Məsləhət nə olacaq? – deyirdilər.

Çox rəylər irəli sürüldü. Nəhayət, qərar belə oldu:

– Adamlarımızı hədiyyələrlə Həbəş sultanına göndərərik. Xahiş edərik ki, müsəlmanları ölkəsində saxlamasın. Geri göndərsin. Ayrıca Nəcaşiyə müsəlmanlar haqqında bir məktub da yazılsın.

SAYSIZ HƏMD VƏ SÜKÜRLƏR OLSUN ALLAHA!
BİRİNCİ CİLDİN SONU.

## İçindəkilər

SİYƏRÜN-NƏBİ ... 9
MƏHƏMMƏD (s.ə.s) ... 10
Hz. MƏHƏMMƏDİN İLK DOSTU VƏ SİRDAŞI ... 11
ƏBU BƏKR SİDDİQ ... 11
Hz. ÖMƏR ... 11
Hz. OSMAN ... 11
Hz. ƏLİ ... 12
PEYĞƏMBƏRLİK NURU ... 12
RƏSULUN NURUNA GƏLƏN ƏMR ... 15
PEYĞƏMBƏRİMİZİN SƏCƏRƏSİ ... 16
PEYĞƏMBƏRİN (s.ə.s.) MÜBARƏK ADLARI ... 17
MƏHƏMMƏD MUSTAFANIN (s.ə.s.) ULULUĞU ... 17
RƏSULUN NURUNUN ADƏM PEYĞƏMBƏRƏ KEÇMƏSİ ... 18
ŞİT PEYĞƏMBƏRİN DOĞULMASI ... 19
ADƏMİN OĞLU ŞİTƏ VƏSİYYƏTİ ... 20
İDRİS PEYĞƏMBƏRİN DÜNYAYA GƏLMƏSİ ... 21
NUH PEYĞƏMBƏR ... 21
ATADAN OĞULA KEÇƏN SANDIQ ... 22
HUD PEYĞƏMBƏR ... 23
İBRAHİMXƏLİL PEYĞƏMBƏR ... 24
İSMAİL PEYĞƏMBƏRİN DOĞULMASI ... 25
QAYDARIN GÖRDÜYÜ YUXU ... 26
ADNANIN DOĞULMASI ... 29
İLYASIN DOĞUMU ... 30
ƏBDÜMƏNAFIN GÖZƏLLİYİ ... 31
ÖMƏR ƏL-ÜLA ... 31
ÖMƏR ƏL - ÜLANIN ÜZÜNTÜSÜ ... 32
KƏBƏ VƏZİFƏLƏRİNİ ÖZ ÜZƏRİNƏ GÖTÜRÜR ... 33
BÖYÜK QITLIQ İLİ ... 34
BOLLUQ NECƏ YARANMIŞDI? ... 34
KƏBƏDƏ QEYBDƏN GƏLƏN SƏSLƏR ... 36
MƏDİNƏYƏ YOL HAZIRLIĞI ... 37
MƏDİNƏLİ YƏHUDİLƏRİN NARAHATLIĞI ... 39
RƏSUL NURUNUN PARLAMASI ... 42
HAŞİM ÇADIR QURDURUR ... 43
SƏLMANIN DÜŞÜNCƏLƏRİ ... 44
VƏ ŞEYTANIN MƏLUNLUĞU ... 44
SƏLMA VƏ HAŞİMİN GÖRÜŞMƏSİ ... 47
FİTNƏLƏR DAVAM EDİR ... 49
SƏLMA MÜBARƏK BİR VÜCUDU DAŞIYIR ... 57

ŞEYBƏTÜL-HƏMDİN DOĞULMASI.....60
ŞEYBƏTÜL-HƏMDİN ƏMİSİ HARİSLƏ RASTLAŞMASI.....61
HARİS MƏKKƏYƏ DÖNÜR.....62
MÜTTƏLİBİN MƏDİNƏYƏ GETMƏSİ.....63
YƏHUDİLƏRİN.....65
MÜTTƏLİBLƏ ŞEYBƏTÜL-HƏMDİ TƏQİBİ.....65
BİR MÖCÜZƏ BAŞ VERDİ.....66
SƏLMA XATUN OĞLUNA KÖMƏYƏ GƏLİR.....68
RUM MƏLİKİNİN YUXUSU.....73
ZƏMZƏM QUYUSUNUN AÇILIŞI.....79
ZƏMZƏM QUYUSU AÇILIR.....83
HƏZRƏTİ ABDULLAHIN DOĞULMASI.....88
YƏHUDİLƏR TƏLAŞLANIR.....89
ABDULLAHIN GÖZƏLLİYİ.....90
ABDULLAH QURBAN EDİLİR.....96
YƏHUDİLƏRİN YENİ TƏLAŞI.....101
QADINLAR VƏ QIZLAR ABDULLAHA AŞİQDİR.....103
YƏHUDİ QIZI ABDULLAHA AŞİQ OLUB.....103
YƏMƏN GÖZƏLİNİN EŞQİ.....104
AXIRZAMAN PEYĞƏMBƏRİNİN.....106
DOĞULMASI YAXINLAŞDI.....106
ALLAHA AŞİQ OLAN QADIN.....108
HƏZRƏTİ ABDULLAHIN YUXUSU.....111
HƏZRƏTİ ABDULLAH OVA ÇIXIR.....113
HƏZRƏTİ ABDULLAHA KÖMƏK GƏLİR.....115
HƏZRƏTİ ƏMİNƏNİN ABDULLAHLA EVLƏNMƏSİ.....117
ABDULLAHLA ƏMİNƏYƏ TOY EDİLİR.....124
CƏBRAİLƏ ULU TANRININ ƏMRİ.....125
Hz. ABDULLAHA HİDA GƏLİR.....126
KAHİN SATİHİN QEYBDƏN XƏBƏRİ.....128
KAHİNƏ ZERKANIN HEKAYƏSİ.....130
MÜRRÜN QIZI FATİMƏNİN NARAHATLIĞI.....137
KAHİNƏ ZERKA MƏKKƏYƏ GƏLİR.....138
ZERKANIN ƏMİNƏ XATUNU ÖLDÜRMƏK İSTƏYİ.....141
FİL İLİNİN HEKAYƏSİ.....145
ƏBRƏHƏNİN KİLSƏSİ XARAB EDİLDİ.....147
BEYTULLAHI DAĞITMAQ NİYYƏTİ.....150
ƏBRƏHƏ ŞƏHƏRLƏRİ YANDIRARAQ GƏLİR.....153
ƏBDÜLMÜTTƏLİB MƏKKƏYƏ DÖNÜR.....160
ƏBABİL QUŞLARI GƏLİR.....164
HƏZRƏTİ ABDULLAHIN VƏFATI.....168
Hz. MƏHƏMMƏDİN DOĞULDUĞU GECƏ.....171
Hz. MƏHƏMMƏDİN (s.ə.s.) DOĞULMASI.....172

MÖVLUD GECƏSİNİN HADİSƏLƏRİ....175
YƏMƏNDƏ BAŞ VERƏNLƏR....176
KƏBƏDƏKİ HADİSƏLƏR....176
DÜNYAYA BOLLUQ VƏ BƏRƏKƏT GƏLDİ....178
ƏBDÜLMÜTTƏLİB NƏVƏSİNƏ QOVUŞUR....179
Hz. MƏHƏMMƏDİN SÜD ANASINA VERİLMƏSİ....182
Hz. ƏMİNƏYƏ QEYBDƏN GƏLƏN SƏS....182
HƏLİMƏNİN RÖYASI....184
ƏMİNƏ SÜD ANASINI GÖZLƏYİR....186
MƏHƏMMƏD ADINI NİYƏ QOYMUŞDULAR....188
Hz. MƏHƏMMƏDİN (s.ə.s.) KEYFİYYƏTLƏRİ....189
HƏLİMƏ MƏKKƏYƏ GƏLİR....189
ASLANLA QARŞI-QARŞIYA....197
MƏHƏMMƏDİN (s.ə.s.) DÖŞÜ NECƏ YARILMIŞDI....198
Hz. MƏHƏMMƏD MƏKKƏYƏ GƏTİRİLİR....200
Hz. MƏHƏMMƏD KƏBƏNİN İÇİNDƏ QEYB OLUR....201
MƏHƏMMƏDİN DUASI....206
Hz. MƏHƏMMƏDİ SEVMƏYƏN İKİ KİŞİ....208
QURU AĞAC TƏZƏ XURMA VERDİ....209
KƏBƏNİN DÖŞƏNMƏSİ GÜNÜ....210
Hz. MƏHƏMMƏD YEDDİ YAŞINDA....214
Hz. MƏHƏMMƏDİN ƏN VƏFALI DOSTU....217
ƏBU CƏHL KİMDİR....218
ƏBU CƏHL FƏALİYYƏTƏ KEÇİR....220
YƏMƏN KAHİNLƏRİ....222
YƏMƏNDƏN YENİ HÜCUM HAZIRLIĞI....226
SƏMADAN ƏMİNƏ XATUNA GƏLƏN SƏS....227
YƏMƏN ORDUSU MƏHV OLUR....241
ƏMİNƏ XATUNUN VƏFATI....242
Hz. MƏHƏMMƏDİN GÖZÜNƏ ÇARƏ AXTARILMASI....245
TƏKBƏTƏK DÖYÜŞ....250
ULU YARADANIN QÜVVƏTİNƏ TAMAŞA ET....251
YENİ BİR PLAN....252
Hz. MƏHƏMMƏDİN ADDIMINDAN DOĞAN ZƏLZƏLƏ....254
Hz. MƏHƏMMƏDİN GÖZLƏRİ ŞƏFA TAPIR....256
YƏMƏNDƏ YENİ MƏLİK....257
YƏMƏN MƏLİKİ İLƏ ƏBDÜLMÜTTƏLİBİN GÖRÜŞÜ....258
Hz. MƏHƏMMƏDİN VERDİYİ HÖKMLƏR....260
MƏHƏMMƏDİN BİR HÖKMÜ....260
BİR SƏRGÜZƏŞT....261
BİR EVLƏNMƏ İSTƏYİ....264
QARA ATANIN SARI UŞAĞI OLURMU?....266
ƏBDÜLMÜTTƏLİB HÖKM VERİR....268

GÜNAHSIZ QADININ FƏRYADI ....................................................271
Hz. MƏHƏMMƏDİN VERDİYİ HÖKM .......................................272
BU SİRRİ MƏNƏ YARADAN BİLDİRDİ....................................273
ƏBDÜLMÜTTƏLİBİN VƏFATI ...................................................274
Hz. MƏHƏMMƏDİN ƏLİ BƏRƏKƏTLİDİR ...............................275
MƏHƏMMƏDİ SEV, SƏNİ ALLAH DA SEVƏR.......................276
Hz. MƏHƏMMƏD İLƏ ƏBU CƏHL..............................................277
YA MƏHƏMMƏD, BU OĞLANLA GÜLƏŞ...............................280
ƏBU CƏHL MEYDANDA CÖVLAN EDİR .................................282
Hz. MƏHƏMMƏD ƏR MEYDANINDA ......................................283
PƏHLƏVANLAR PƏHLƏVANI HƏMZƏNİN HƏYƏCANI ....285
MƏHƏMMƏD ƏBU CƏHLƏ HƏMLƏ ETDİ..............................286
ONUN DİNİ ƏBƏDİ QALACAQDI ..............................................287
ƏBU CƏHL SARĞILAR İÇİNDƏ ..................................................288
Hz. MƏHƏMMƏDİN İLK SƏFƏRİ................................................288
AYSIZ GECƏDƏ Hz. MƏHƏMMƏDİN NURU ..........................290
İKİ DAĞI TUTAN CANAVAR.......................................................292
KARVANI TƏƏCCÜBLƏNDİRƏN MÖCÜZƏ...........................294
KÖNÜLLƏR Hz. MƏHƏMMƏDİN NURU İLƏ DOLDU ..........296
İBLİS İXTİYAR QILIĞINA GİRMİŞDİ........................................297
SU YARILDI, Hz. MƏHƏMMƏDƏ YOL VERDİ .......................299
Hz. MƏHƏMMƏDİN YAĞIŞ DUASI............................................299
MƏKKƏLİLƏRİN ARASINDA ZALIMLARIN TÖRƏMƏSİ ...301
Hz. HƏMZƏ DƏ ASLAN KİMİ KÜKRƏDİ .................................304
ASLANLAR ASLANI DƏMİR ZİREH GEYMİŞDİ ....................306
BİZ ƏDALƏT VƏ İNSAF ƏHLİYİK.............................................307
Hz. MƏHƏMMƏDƏ ƏBU BƏKRİN ZİYAFƏTİ .........................308
Hz. MƏHƏMMƏD GƏLƏCƏKDİR..............................................309
ÜZÜ, ÖZÜ, HƏM DƏ SÖZÜ GÖZƏLDİR....................................311
MALIM, CANIM MƏHƏMMƏDƏ FƏDA OLSUN ....................313
Hz. MƏHƏMMƏDİN XƏDİCƏ İLƏ EVLƏNMƏSİ....................313
KEŞİŞİN Hz. MƏHƏMMƏDİ TƏSVİR ETMƏSİ ........................314
Hz. MƏHƏMMƏDİN BAŞI ÜSTÜNDƏ BULUD........................316

Hz. Məhəmməd 12-13 yaşında ikən Şam səfərinin ilk təəssüratını həmişə yada salardı. Məkkədən qalxan Əbu Talibin karvanı çölləri arxada qoyaraq Suriyaya doğru irəliləyirdi. Çöllər getdikcə arxada qalır, onları yaşıl vadilər əvəz edirdi. Nəhayət, bir gün Bursada bir xristian məbədinin yanında durdular. Ağacların altında kölgədə bir az dincəlmək üçün dəvələrdən endilər. Karvan bu yerə Məkkədən Mədinə yoluna Şam istiqamətində hərəkət edərək gəlib çatmışdı. Bir monastrın yanında dayandılar. Xristianlığı çox dərindən bilən rahib Buhayra (Cərcis) daima bu monastırda qalırdı. Buradan çox karvanlar keçərdi. Buhayra onlarla qətiyyən danışmazdı, heç gözlərinə belə görünməzdi. Amma bu karvan dayanmamışdan əvvəl bir buludun onların üzərində hərəkət etdiyini gördu. Karvan

dayananda bulud da onların üzərində dayandı. Buhayra yeməklər hazırlatdırıb karvan əhlini yeməyə dəvət etdi. Yeməyə gələn zaman buludun yerində qaldığını gördü. ....................................................316
BUHAYRA NƏBİLİK MÖHRÜNÜ ARADI ...............................317
Hz. MƏHƏMMƏDƏ XƏDİCƏNİ MƏHƏBBƏT BAĞLAYIR...319
Hz. XƏDİCƏ SEVGİSİNİ ÜRƏYİNDƏ SAXLAYIR ..................320
MƏKKƏDƏ QITLIQDIR..........................................................321
ƏBU TALİB YENİDƏN ŞAM SƏFƏRİNƏ HAZIRLANDI .......322
Hz. XƏDİCƏ Hz. MƏHƏMMƏDİ HƏYƏCANLA GÖZLƏDİ...324
Hz. XƏDİCƏNİN Hz. MƏHƏMMƏDƏ TƏKLİFİ ......................325
KÜÇƏNİ BÜRÜYƏN MÜBARƏK QOXU.................................327
Hz. XƏDİCƏNİN EŞQİ BİR İKƏN MİN OLDU .........................329
MEYSƏRƏ ŞÜKÜR SƏCDƏSİ ETDİ ..........................................330
ƏBU CƏHL YENƏ MEYDANA ÇIXIR .......................................330
ŞAM SƏFƏRİNƏ HAZIRLIQ BAŞLAMIŞDIR ..........................332
Hz. MƏHƏMMƏD DAŞ DAŞIMAĞA RAZI İDİ........................333
Hz. MƏHƏMMƏD HİRA DAĞINA ÇƏKİLMİŞDİ....................334
Hz. MƏHƏMMƏDİN BAŞININ YANINDA İLAN VAR ..........336
HƏMZƏ Hz. MƏHƏMMƏDİ BAĞRINA BASDI.......................337
BULUD Hz. MƏHƏMMƏDƏ KÖLGƏ SALIRDI ......................339
ƏBU CƏHL BİRDƏN-BİRƏ YERİNDƏN SIÇRADI .................341
Hz. MƏHƏMMƏDİN BİR YENİ MÖCÜZƏSİ............................342
Hz. RƏSULULLAH YERİNDƏN QALXDI.................................343
KARVANIN YOLUNU BİR ƏJDAHA KƏSMİŞDİ ....................344
Hz. MƏHƏMMƏD ƏJDAHA İLƏ NƏ DANIŞDI? .....................346
Hz. MƏHƏMMƏDİN SÖZÜNDƏKİ HİKMƏT ..........................348
"BİSMİLLAH" DEMƏYƏNLƏRİN SUDA AQİBƏTİ ................348
MÜBARƏK BARMAQ SULARI FIŞQIRTDI .............................351
XURMA MÖCÜZƏSİ ..................................................................351
ƏBU CƏHL KƏRAMƏTƏ İNANMIR .........................................351
EY ABBAS, XURMALARI YIĞ...................................................352
BAŞ KEŞİŞ DƏRİNDƏN AH ÇƏKDİ..........................................353
BURADA BİR MƏBƏD TİKİN ...................................................355
Hz. MƏHƏMMƏD YENƏ BİR KƏRAMƏT GÖSTƏRDİ ..........356
BUHAYRANIN Hz. MƏHƏMMƏD ÜÇÜN SORĞUSU............358
HAQQ PEYĞƏMBƏRİNDƏ GÖRÜNƏN NİŞANƏLƏR ...........361
Hz. MƏHƏMMƏDİN BUHAYRA İLƏ SÖHBƏTİ......................362
Hz. MƏHƏMMƏD "MƏN ÜMMİ YARADILDIM" DEDİ .........364
BİR CASUS YƏHUDİNİN Hz. MƏHƏMMƏDƏ TƏLƏSİ .........365
PƏHLƏVAN HƏMZƏ SİLAHLANDI .........................................367
XƏDİCƏNİN SÖZÜNƏ AYDINLIQ............................................369
KARVAN MƏKKƏ YOLUNDA .................................................372
EY HƏBİB, SƏNİN ÜÇÜN NƏ QƏDƏR DARIXMIŞIQ ............373

NƏBADƏ MƏHƏMMƏDDƏN UZAQ OLASAN ........................374
XƏDİCƏ ÜSYAN EDİR ..................................................378
Hz. MƏHƏMMƏD DƏ ƏBU TALİBLƏ DANIŞIR .....................380
XƏDİCƏ XATUNUN EVİNDƏ HAZIRLIQLAR ........................382
XƏDİCƏ XATUNUN ELÇİLƏRİ ........................................384
RAZI OLMASAN DA XƏDİCƏ ONA GEDƏCƏK .....................385
XÜVEYLİD: "QIZ EVİ, NAZ EVİ" , – DEDİ ..............................387
ƏBU BƏKRİN HƏDİYYƏSİ ...........................................390
QIZ ANALARININ HƏSƏDİ ..........................................391
YA MEYSƏRƏ, HEYVAN KƏS ..........................................393
MEYSƏRƏ TİCARƏTİ DAVAM ETDİRİR ...............................393
Hz. ƏLİNİN DÜNYAYA GƏLMƏSİ ..................................394
Hz. ƏLİNİN ANASININ GÖRDÜYÜ YUXU ..............................395
Hz. ƏLİ BİR NƏFƏSDƏ DÜNYAYA GƏLMİŞDİ .....................397
Hz. MƏHƏMMƏD ƏLİNİN ADINI QOYDU ..............................398
KƏBƏNİN TƏMİRİ ......................................................400
KƏBƏ SÖKÜLÜB YENİDƏN TİKİLƏCƏKDİR ........................402
CİDDƏDƏ BATAN GƏMİ ...............................................402
KƏBƏNİN DAŞLARINA KÜLÜNG VURULDU ........................404
KƏBƏDƏKİ İLANI AĞ QUŞ CAYNAĞINDA APARDI ...........405
İLANIN ÖLDÜRÜLMƏSİ HAQDA BAŞQA RƏVAYƏTLƏR .407
HƏCƏRÜLƏSVƏDİ KİM YERİNƏ QOYACAQ ........................408
UKAZ MEYDANINDA BAZAR ........................................412
Hz. MƏHƏMMƏDDƏ PEYĞƏMBƏRLİK ................................416
NİŞANƏLƏRİNİN GÖRÜNÜŞÜ ........................................416
Hz. MƏHƏMMƏD İLAHİ YUXULAR GÖRÜR ..........................417
VƏRAQƏ CƏBRAİLİ ANLADIR ........................................419
CƏBRAİL Hz. MƏHƏMMƏDƏ GÖRÜNÜR ..............................420
Hz. MƏHƏMMƏDƏ YENƏ İLAHİ SƏSLƏR GƏLDİ ...............422
EY ALLAHIN YARATDIQLARININ ƏH XEYİRLİSİ ...............424
ALLAHIN ƏN XEYİRLİ İNSANI ........................................426
YA MƏHƏMMƏD, BU BEYTİ OXU ......................................427
KƏBƏNİN BÜTLƏRİ YERƏ DÜŞDÜ ....................................429
SƏN DÜNYA QADINLARININ SEYYİDƏSİ OLDUN .............430
YA HƏBİBİM, CƏBRAİL GƏLƏNDƏ MƏNƏ XƏBƏR VER ..431
YA XƏDİCƏ, MƏNİ ÖRT ...............................................432
VƏRAQƏNIN SON SÖZLƏRİ ..........................................434
CƏBRAİL Hz. MƏHƏMMƏDƏ ........................................434
DƏSTƏMAZ VƏ NAMAZI ÖYRƏDİR ................................434
Hz. ƏLİ MÜSƏLMAN OLUR ..........................................436
Hz. MƏHƏMMƏDİN (s.ə.s.) Hz. ƏLİYƏ UŞAQLIQDAN ..........436
BAXMASININ SƏBƏBİ ...............................................436
Hz. ƏBU BƏKRİN (r.a.) MÜSƏLMAN OLMASI ........................439

ƏBU BƏKRİN DÖRDÜNCÜ YUXUSU .......................................442
ƏBU BƏKR EVİNƏ GƏLİR............................................................446
ƏMR İBN ASA MÜRACİƏT ..........................................................447
ƏFV OĞLU ƏBDÜRRƏHMANIN MÜSƏLMAN OLMASI ......448
ƏBU CƏHLİN NARAHATLIĞI.....................................................450
ƏFFAN OĞLU OSMANIN İSLAMI QƏBUL ETMƏSİ ..............451
ÜBEYDULLAH OĞLU TƏLHƏNIN İSLAMI QƏBULU...........453
HARİSƏ OĞLU ZEYDİN İSLAMI QƏBUL ETMƏSİ ................456
ZEYD KƏBƏNİ TƏVAF EDİR.....................................................457
CƏRRAH OĞLU ƏBU UBEYDƏ İSLAMI QƏBİL EDİR ..........459
MÜSƏLMAN OLANLARIN SAYI DURMADAN ARTIR.........461
XƏTTAB QIZI FATİMƏNİN İSLAMI QƏBULU.......................462
QUREYŞLİLƏRİN TƏLAŞI...........................................................464
İSLAMA AÇIQCA DƏVƏT ..........................................................466
İSLAM DİNİNƏ DƏVƏT AŞKAR OLACAQDIR.......................468
CƏBRAİL (ə.s.) YENİ VƏHY GƏTİRİR......................................468
SƏHABƏLƏR Hz. MƏHƏMMƏDDƏN (s.ə.s.)............................471
HƏDİSLƏR DİNLƏYİRLƏR .........................................................471
QUREYŞİN SEVİNCİ .....................................................................471
QUREYŞLİLƏR ƏBU TALİBİN YANINA ULULARINI
GÖNDƏRİR.....................................................................................473
RƏSULULLAHIN (s.ə.s.) İLK DƏFƏ DÖYÜLMƏSİ.................474
ƏBU TALİB Hz. MƏHƏMMƏDLƏ (s.ə.s.) .................................475
KƏSKİN DANIŞIR ..........................................................................475
Hz. MƏHƏMMƏDİN GÖZ YAŞLARI.........................................476
SƏN NİYƏ DİNƏ GƏLMİRSƏN, ƏMİ?.......................................477
ƏBU TALİB YAXINLARINI TOPLAYIR...................................478
ƏBU LƏHƏBİN ETİRAZI ............................................................479
ƏBU TALİBİN ...............................................................................479
EVİNDƏKİ ANDDAN QUREYŞLİLƏR XƏBƏRDAR OLUR..479
ƏBU TALİBİN QƏRARİNDAN XƏBƏR TUTDULAR .............480
HƏMZƏ QILINCINI ÇƏKİB KÜKRƏDİ.....................................481
ƏBU TALİBƏ YENİ ELÇİLƏR GƏLİR.......................................481
EY QÖVM, MÜSƏLMAN OLUN! ................................................482
SƏNİ ƏRƏBLƏRİN BAŞÇISI TƏYİN EDƏK .............................483
Hz. MƏHƏMMƏD “SƏCDƏ” SURƏSİNİ OXUDU....................484
ƏBU CƏHLİN QOLU-QANADI SINDI........................................484
XALQ DURMADAN İSLAMA DƏVƏT EDİLİR........................485
İMAN GƏTİDMƏSƏNİZ GÖYDƏN SİZƏ ƏZABLAR ENƏR..488
PEYGƏMBƏRİN (s.ə.s.) ................................................................489
GÖZÜ YAŞLI, KÖNLÜ KƏDƏRLİDİR........................................489
MƏLUN ƏBU CƏHLİN YENİ ƏMƏLLƏRİ ...............................490
YASİR OĞLU ƏMMARIN ............................................................494

AİLƏSİNƏ VERİLƏN ƏZABLAR ....................494
QUREYŞLİLƏR Hz. MƏHƏMMƏDƏ (s.ə.s.) ....................498
HÜCUMA KEÇDİ ....................498
ƏBU TALİBİN QƏZƏBİ....................499
NÜBÜVVƏT ƏHLİNİN SƏBRİ BÖYÜK OLMALIDIR....................500
ƏBU TALİB MÜSƏLMAN OLMUR ....................500
ƏBU BƏKRİN (r.a.) VƏZİYYƏTİ ....................501
Hz. HƏMZƏNİN MÜSƏLMAN OLMASI ....................504
Hz. HƏMZƏNİN SƏHRADAN DÖNÜSÜ....................505
HƏMZƏ QILINCINI İSTƏDİ ....................506
ƏBU CƏHLİN YAXINLARI SİLAHA QURŞANIRLAR ....................509
Hz. MƏHƏMMƏDİN (s.ə.s.) HƏMZƏ ÜÇÜN DUASI ....................509
SÜMƏYYƏ XATUNUN ŞƏHADƏTİ....................511
HƏCV DEYƏN KƏSİR ADLI ŞAİR....................512
KƏSİR HƏCV YOX, MƏDHİYYƏ YAZMIŞDIR ....................514
BİLAL HƏBƏŞİ MÜSƏLMAN OLUR ....................516
XƏTTAB OĞLU ÖMƏRİN İSLAMA GƏLİŞİ ....................521
ÖMƏRİN İSLAMA GƏLMƏSİNİN BAŞQA RƏVAYƏTLƏRİ.530
ƏBU CƏHLİN ÜRƏYİ PARTLAYIRDI ....................534
KAFİR QƏZƏBLƏRİNƏ DÖZÜN....................535
ÖMƏR DÜŞMƏNLƏRİNƏ ƏL QALDIRMADI ....................537
HÜLDƏCƏ OĞLU SEYFİN HEKAYƏSİ ....................538
XALQ BAZARA TƏLƏSİR ....................543
CƏNNƏT VƏ CƏHƏNNƏMİN ANLADILMASI....................547
Hz. MƏHƏMMƏDƏ GÖSTƏRİLƏN BÖYÜK SAYĞI....................548
MÜSƏLMANLARIN HƏBƏŞİSTANA HİCRƏTİ....................555

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 25.09.2024
Şərti çap vərəqi 35,5. Sifariş № 405
Kağız formatı 70x100 1/16. Tiraj 250

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4